**AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# TƏHSİLDƏ MENECMENT VƏ YENİ TƏLİM TEXNOLOGİYALARI

**Magistrantların VII Respublika elmi konfransının**

# MATERİALLARI

***27 mart - Elm Gününə həsr olunur***

**Bakı, 5-6 aprel 2024**

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 25 aprel 2024-cü il tarixli iclasının qərarı (protokol N7) əsasında çap edilir.*

***Elmi redaktor:*** **F.-r.e.d., professor Asəf Dağbəyi oğlu Zamanov**

***Buraxılışa məsul:*** **S.e.ü.f.d. Rəşad Əsəd oğlu Sadıqov**

***"Təhsildə menecment və yeni təlim texnologiyaları" Magistrantların VII Respublika elmi konfransının materialları, Elmi red. A.D.Zamanov, Bur. məs. R.Ə.Sadıqov, Bakı, ADPU nəşriyyatı, 2024, 569 səh.***

***©ADPU, 2024***

## Konfransın Təşkilat Komitəsi

***Sədr***

| | |
|---|---|
| Prof. Cəfər Cəfərov | - Rektor |

***Sədr müavini***

| | |
|---|---|
| Prof. Asəf Zamanov | - Elm və innovasiyalar üzrə prorektor |

***Məsul katib***

| | |
|---|---|
| S.e.ü.f.d.Rəşad Sadıqov | - Magistratura və doktorantura şöbəsinin müdiri |

***Üzvlər***

| | |
|---|---|
| Dos. Vaqif Əliyev | - Həmkarlar İttifaqı Komitəsinin sədri |
| Dos.Sənan Əliyev | - Tədris Departamentinin direktoru |
| Prof. İbrahim Bayramov | - Elmi-təşkilati şöbənin müdiri |
| F.ü.f.d. Sevinc Quliyeva | - Magistratura və doktorantura şöbəsinin müdir müavini |
| Prof. Fərrux Rüstəmov | - İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri |
| Prof. Müseyib İlyasov | - Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri |
| Prof. İramin İsayev | - Ümumi pedaqogika kafedrasının müdiri |
| Prof. Mübariz Əmirov | - Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının professoru |
| Prof. Bəhram Əliyev | - Riyazi analiz kafedrasının müdiri |
| Prof.Cahangir Hüseynov | - Ümumi fizika kafedrasının müdiri |
| Prof. Ramiz Əliyev | - Ümumi psixologiya kafedrasının müdiri |
| Prof. Əbülfət Paləngov | - Riyaziyyatın ibtidai kursunun tədrisi texnologiyası kafedrasının müdiri |
| Prof. Əli Zalov | - Analitik və üzvü kimya kafedrasının müdiri v.i.e. |
| Dos. Anaxanım Yusifova | - Biologiya və onun tədrisi texnologiyası kafedrasının müdiri v.i.e. |
| Prof. İsa İsmayılov | - Fizikanın tədrisi texnologiyası kafedrasının professoru |
| Prof. Vaqif Qurbanov | - Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının professoru v.i.e. |
| Dos. Bilal Həsənli | - Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının dosenti |
| F.ü.f.d. Nigar Aslanova | - Elmi-təşkilati şöbənin Elmi nəşrlər bölməsinin müdiri |

## KONFRANSIN ELMİ BÖLMƏLƏRİ

- **Təhsildə strateji idarəetmə**
- **İnnovasiyalar və təhsilin keyfiyyəti**
- **Təhsildə sosial-psixoloji xidmət**
- **Tədrisin müasir problemləri**

# I BÖLMƏ

# TƏHSİLDƏ STRATEJİ İDARƏETMƏ

## HEYDƏR ƏLİYEVİN SİYASƏTİNDƏ TƏHSİLƏ MÜASİR YANAŞMA

**Abbaszadə Vüsal Habil oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ümummilli lider iyirminci yüzillikdə Azərbaycanda elmin və təhsilin inkişafını yüksək qiymətləndirirdi: "XX əsrdə Azərbaycanda xalqın təhsillənməsi, yüksək təhsil ocaqlarının, institutların yaranması, xalqın təhsilə, ali təhsilə cəlb olunması, elmi-tədqiqat institutlarının yaranması, elmi-tədqiqat işlərinin təşkil olunması və bunların nəticəsində 50 il bundan öncə Azərbaycanda ilk dəfə Elmlər Akademiyasının yaranması-bunların hamısı XX əsrdə Azərbaycanda elmin sürətlə inkişafını nümayiş etdirən faktlardır". [1, s147]

O, ikinci dəfə Azərbaycana rəhbərliyə başladıqdan sonra digər sahələrlə yanaşı, təhsil sahəsində də köklü islahatlar həyata keçirmiş və təhsil sistemini müasir dövrün tələblərinə uyğun qurmağa çalışmışdır.

Bu sahədə onun fəaliyyətinin əsas istiqamətlərini müəllim hazırlığının yenidən qurulması, ümumi təhsilin məzmununun dəyişilməsi, qiymətləndirmədə yeni mexanizmin həyata keçirilməsi, təhsil müəssisələrində maddi-texniki bazanın təkmilləşdirilməsi, təhsildə hamı üçün bərabər təhsil şəraitinin yaradılması, beynəlxalq təcrübəyə əsaslanan təhsil proqramlarına keçidin təmin olunması və s. təşkil edirdi.

Təhsildə keyfiyyətin müəyyən olunmasında əsas göstərici təlim nəticələridir. Təlim nəticələrinin obyektiv qiymətləndirilməsi isə keyfiyyət göstəricisidir. Təhsildə keyfiyyətə nail olmaq üçün ona təsir edən bir sıra amilləri nəzərdən keçirmək lazımdır:

-Müəllimlərin peşəkar hazırlığı, yüksək ixtisaslı və təcrübəli olması;

-Təhsil müəssisələrinin maddi-texniki vəziyyəti;

-Təlim prosesində innovativ metodların tətbiq edilməsi;

-Tədris prosesində istifadə olunan təlim materiallarının keyfiyyətli olması;

-Qiymətləndirmə və monitorinqin düzgün təşkili və s.

H.Əliyevin təhsil siyasətinin əsas məqsədi-təhsilin uzunmüddətli inkişafa təsirinin formalaşdırılması, təhsilin idarə olunması və dəyişən şəraitə adaptasiya olunmasıdır. Nəzərə almaq lazımdır ki, təhsil prosesi insanın imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Yüksək təhsil səviyyəsi insanların həyat fəaliyyətinin fərqli istiqamətlərinə, məsələn, sağlamlığına, intizamlılığına, sosial bağlılıqlarına, siyasi fəaliyyətinə və s. müsbət təsir göstərir.

H.Əliyev siyasi fəaliyyəti boyunca daim zəngin milli-mənəvi dəyərlərimizin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin daha da zənginləşməsinə çalışmışdır. O, həmişə xalqımızın gənclərinin milli ruhda tərbiyə almasına, milli-mənəvi dəyərlər əsasında formalaşdırılmasına xüsusi diqqətlə yanaşmışdır. Hər bir insanın şəxsiyyət kimi formalaşmasında təhsilin və mədəniyyətin çox böyük rolu olduğunu xüsusilə qeyd etmişdir. Gənclərin yüksək səviyyədə təhsil almasını və xalqın mənəvi dəyərləri əsasında tərbiyələnməsini, mənəvi cəhətdən sağlam insanlar tərbiyə etmək məsələsinə mühüm yer ayırırdı. Ulu öndər qeyd edirdi ki, müəllimlər öz fəaliyyətlərində və öz həyatında bu prinsipi əsas tutsunlar, çünki cəmiyyətimiz həm zəngin bilikli ali təhsilli mütəxəssislərə, həm də yüksək əxlaqi dəyərli insanlara ehtiyac duyur.

Dövrümüzdə insan kapitalının inkişaf etdirilməsi üçün fiziki kapitalın yaradılmasına yox, bilik iqtisadiyyatının formalaşmasına daha çox əhəmiyyət verilir. Bilik iqtisadiyyatı

termini isə biliyin iqtisadi artımın əsas amili olduğunu, yeni biliklərin yaradılmasını, praktik bilik və ideyaların iqtisadi münasibətlərə tətbiqini ehtiva edir. Belə ki, yüksək təhsilli və səriştəli insanlar biliklərin yaradılması, onların yayılması və yaradılmış bu biliklərin effektiv tətbiqində mühüm rol oynayır. Müasir dövrdə iş sahələrinin inkişafı ilə artıq təhsilin "hazır biliklərin qəbulu" kimi başa düşülməsindən və pedaqoqun "hazır biliklərin daşıyıcısı" olması təsəvvürlərindən imtina edilir. Yeni yanaşmalara görə, təhsil şəxsiyyətin nailiyyətidir, onun həyatda özünü realizə etməsi, şəxsi karyera qurması, əsas hüquq və azadlıqlarını istifadə etməsi üçün bir vasitədir.

Ulu öndərin uzaqgörən siyasəti nəticəsində təhsil sahəsində qəbul olunmuş islahatyönümlü proqramlar "keyfiyyətli təhsil" anlayışının həyata keçirilməsinə geniş şərait yaratmışdır. Bu gün "keyfiyyətli təhsil" anlayışının da özünəməxsus açıqlanması vardır. Keyfiyyətli təhsil əla qiymətlərlə oxumağı nəzərdə tutmur, əldə etdiyin biliklərin hansı dərəcədə bacarıqlara çevrildiyini həyatda sənə nə dərəcədə yararlı olduğunu, ətrafdakıların həyatını yaxşıya necə dəyişdirəcəyini nəzərdə tutur.

Vaxtı ilə ulu öndərimiz tərəfindən təhsil sahəsində həyata keşırilməyə başlayan islahatların bu gün uğurlu nəticələri göz qabağındadır.

İnsan resurslarının inkişafı informasiyaya əsaslanan güclü cəmiyyəti yaradaraq davamlı inkişafda aparıcı rol oynayır. Müasirləşən cəmiyyətlərdə bilik və bacarıqlar kapital sayılır və iqtisadiyyatın əsas resursuna çevrilir. Təhsil praktik fəaliyyət üçün gərəkli olan bililkərin, müvafiq bacarıq və səriştələrin məcmusudur.

"Təhsilli insan" anlayışının da üzərinə böyük məsuliyyət düşür, belə ki, intellektual səviyyəli insanların üstünlük təşkil etdiyi cəmiyyətdə ictimai fəaliyyətə və sosial məsuliyyətə yeni-yeni tələblər irəli sürülür.

Ədəbiyyat

1.Asəf Zamanov. "Heydər Əliyev və intellektual potensialın inkişaf dinamikası". "Heydər Əliyevin siyasi irsi və Azərbaycançılıq". "Elm və təhsil". Bakı-2023. Səh 146-151.

2.Asəf Zamanov. "Ön söz". "Heydər Əliyev irsi və müasir Azərbaycanın inkişafının bəzi məsələləri" (məqalələr toplusu). "ADPU Elmi-tədqiqat mərkəzi". Bakı-2023. Səh 3-9.

3.Misir Mərdanov, Əsgər Quliyev. "Heydər Əliyev və Azərbaycan təhsili". "Təhsil millətin gələcəyidir". "Təhsil" Bakı-2002. Səh 7-53.

## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN KOLLEGİAL İDARƏEDİLMƏSİNDƏ KONFLİKTLƏR

**Abdullayeva Gülay Abdulla qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Menecmentin – idarəetmənin müxtəlif problemləri fərqli yanaşmalar baxımından öyrənilə bilər. Məsələn, praktiki baxımdan idarəetmə nəzəriyyəsi, elmi məktəblər arasında əlaqələrin formalaşması, insan münasibətləri və funksiyaları, idarəetmə metodları və üslubu (məsələn, vəziyyətə yanaşma) və s. baxımından yanaşır. Bu cür yanaşmadan menecerin fəaliyyətinin insanlar arasında əlaqə ilə bağlı fəaliyyətin təşkili kimi qəbulu idarəetmədə böyük elmi-praktik əhəmiyyətə malikdir. Bu yanaşma ilə idarəetmə sisteminin və prosesinin aparıcı istiqamətlərindən biri insan əxlaqı, insanlar arasında ünsiyyət resursları, o cümlədən mübahisələr, münaqişələr, kobud rəftar, qərəzli münasibətlər və sairdir. Bu prosesdə yaranan fəsadların vaxtında araşdırılması və aradan qaldırılması xüsusi əhəmiyyət kəsb edir.

Ali təhsil müəssisələrinin kollegial idarəedilməsi ilə bağlı bəzi mütəxəssislər konfliktləri, şəxsiyyətlərarası münasibətlərdə xoşagəlməz halları, etik standartlara əməl etməməyi bəyənilməyən hallar hesab edirlər. Digərləri isə bu fikrin tam əksini deyirlər. Bu nöqsanlar ali təhsil müəssisələrində, xüsusilə idarəçi və müəllim, müəllimlərlə tələbə və valideynləri arasında baş verən, etik münasibətlərin formalaşmasının böyük əhəmiyyət kəsb etdiyi konfliktlərdir. Hər iki tərəf buna görə də münaqişələrlə işləməyin vacibliyini,

münasibətlərin, xüsusilə idarəedən və idarəolunanlar etikasının formalaşmasını vurğulayır. İnsanların birlikdə əlaqəli fəaliyyətini rəhbər təşkil edir. İnsanlarla əlaqəli fəaliyyətlər ümumi və xüsusi maraqlar sahəsində qarşıya çıxan tapşırıqların icrası zamanı yaranan münaqişələrin böyüməsinə və genişlənməsinə həlledici təsir göstərir. Belə olanda rəhbər və kollektivin üzvləri istər-istəməz konfliktlərə qarışır, onları idarə etməyə məcbur olur və onların nəticələrini öz fəaliyyətində hiss edir. İdarəedənin konfliktlərin həlli zamanı görəcəyi işlər və onun fəaliyyətində tətbiq edəcəyi tədbirlərin xüsusiyyəti öz əksini tapır. İnsanların işlədiyi və ya təhsil aldıqları ali təhsil müəssisələrin fəaliyyətinin xüsusiyyətləri onların arasındakı münasibətlərdə vacib rol oynayır. Hətta bu xüsusiyyətlər ilə insanlar arasında yaranmış münaqişələrin səbəblərini də müəyyən etmək olur.

İdarəçi konflikləri təhlil edən zaman nəzərə almalıdır ki, müxtəlif insanların və ya qrupların tutduqları mövqelərdə və bir-biri ilə münasibətlərində ziddiyətlik ola bilər və bu səbəbdən fikir ayrılıqları ilə üzləşə bilər. Konfliklər aşağıdakı tipik xarakterləri daşıyır:

- əlaqəli faəliyyat zamanı menecerlər arasındakı məqsədlərin müəyyən edilməsi və tətbiq etmək qaydalarının müəyyən edilməsi
- Funksional vəzifələrin icrası prosesində idarəetmə qaydalarının kollektiv üzvləri arasında düzgün bölüşdürülməsi
- Ali təhsil müəssisəsinə yeni işçilərin qəbulu, əmək haqları, mükafatlar və digər məsələlərlə əlaqədar kollektiv üzvlər arasında münasibətlərin tənzimlənməsi

Münaqişələr (konfliktlər) sosial həyatın mürəkkəb hadisələrindən biri kimi müxtəlif elmlər tərəfindən öyrənilir - fəlsəfə, sosiologiya, etika, pedaqogika, idarəetmə psixologiyası və s. Münaqişələrin yaranma səbəblərinə, onların cəmiyyətin və ayrı-ayrı şəxslərin həyatında roluna, habelə onların həlli imkanlarına konseptual yanaşma hələ qədim zamanlardan alimlərin diqqətini cəlb etmişdir.

İndiki zamanda konfliktlərin müxtəlif tərifləri mövcuddur. Müəlliflərin bir qismi münaqişəni mövqelərin toqquşması və ziddiyyətli problemlər kimi izah edir, digərləri müxtəlif mənafeləri qəbul edir, üçüncülər hər iki mövqeyi qəbul etməkdən əlavə ziddiyyətli meyllərin, maraqların, əxlaq normalarının toqquşması olaraq qəbullanır, dördüncülər isə hər iki tərəf arasında münaqişələrin razılığın olmaması kimi izah edirlər.

Konfliklərin başa düşülməsində əsas anlayış maraq və ziddiyyət anlayışıdır. Bunu da demək lazımdır ki, hər bir ziddiyyət münaqişə yaratmır. İnsanların maraqlarında və ya əxlaq və motivlərində uyğunsuz hal olduğu halda ziddiyət konfliktlə nəticələnir. Məhz bu konfliklər yaranan zaman kollektiv üzvləri birbaşa problemlərin həllində iştirak edir.

Ümumiyyətlə konfliktlərin yaranma səbəblərini müəyyən etmək çətin məsələdir. Ancaq onların yaranma səbəblərini təxmin edib aşağıdakı qruplara bölmək olar:

- Problemlərin vaxtında aradan qaldırılmaması
- Kollektiv üzvlərinə qarşı diqqətsizlik, onları dinləməmək
- Fikir ayrılığı yaranan zaman idarə edə bilmək qabilliyyətinin olmaması
- İşçilər arasında münasibətin düzgün qurulmaması
- Məsələ problemə çevrilənədək menecerin bunun qarşısını almaması, bir sözlə idarəçiliyin zəif olması
- Yeniliklərdən uzaq durulması
- Yenilikləri düzgün göstərə bilməməsi
- İşçilər arasında xoşagəlməz hərəkətlərin baş verməsi
- Subordinasiya qaydalarının pozulması
- Rəhbərlərin yanlış qərarların tez- tez qəbul etməsi, yəni düzgün idarəetmə üsullarından istifadə etməməsi
- Kollektivdə münasibətlərin, işçilər arasında psixoloji uyumun olmaması, məqsədlərinin ehtiyaclarının, bir-birinə qarşı davranışların müxtəlif olması
- Rəhbərin kolletiv arasında hər şeyə əmma qoyan - bir sözlə, “çətin adamları” idarə edə bilməməsi
- Həmsöhbəti gizli şəkildə idarə etmək, yəni manipulyasiya olunması

- Əxlaqı fəaliyyətinin, məqsədlərin və həyat təcrübəsinin müxtəlif olması
- Kollektiv arasında bəzilərinin dedikləri sözlər, onların davranışlarını tələblərə uyğun gəlməməsi

Konfliktlərin yaranma səbəblərinə baxdıqda onların müxtəlif struktura malik olduğu görünür. Təcrübəli menecer isə yaranmış bu vəziyyəti düzgün analiz etməyi bacarmalı və nəticələr çıxartmalıdır.

Bir çox alimlər konfliktlərin yaranma səbəblərini araşdırıb və qruplara bölünməsini təklif etmişdir:
- Dəyərlər faktorları – Fərdlər və ya qruplar arasında münasibətlərdən razı olub-olmamasından
- Struktur – şəraitin və münasibətin stabil olması
- Məlulamtların xarakteri – tərəflər arasında onların qəbul edilib və ya edilməməsi
- Əxlaqi xarakter daşıyanlar – kodubluq, xoşagəlməz hərəkətlər, eqoistlik və s.

Menecer münaqişələri təhlil edən zaman münaqişə tərəflərinin və münaqişəli fəalliyətin tərəflərinin hansı tipə aid olduğunu müəyyən etməlidi. Münaqişə yaradan tərəflərin aşağıdakı göstərilmiş tipləri var:
1) qruplararası münaqişə
2) şəxsiyyətlə qrup arasında münaqişə
3) şəxsiyyətlərarası münaqişə
4) şəxsiyyətdaxili münaqişə

Konfliktlərin idarə olunan zaman alınan nəticələr müsbət və ya mənfi ola bilər. Konfliktlər müsbət həlli aşağıda göstərilmişdir:
- Problemin həllinə münasibət bildirənlərin birliyini yaratmaq;
- Digər sahələrdə və işlərdə əməkdaşlıq etmə imkanları;
- Rəhbərliyin dediklərindən fərqli olan fikirləri və şəxsi fikirləri dinləmək üçün şəraitin yaradılması, susma sindromunun azaldılması;
- Çoxlu ideya və təklifləri qəbul etməklə düzgün qərarlar qəbul etmək;
- Problemin digər tərəflərinə diqqət yetirmək, hərtərəfli araşdırmaq və bütövlükdə həll etmək;
- Problemin həllində prioritetlərin müəyyən edilməsi, şüurla münasibətin formalaşdırılması.

İdarəçi və konflikt üzrə mütəxəssisin (mediator) münaqişənin həlli məqsədi ilə söhbətə başlamazdan əvvəl bilməli olduqları məlumatlar aşağıdakılardı.
- Münaqişə (onun tarixi) hansı mərhələdədir, onun həlli üçün hansı tədbirlər görülüb (əgər varsa), həll edilməməsinin səbəbi nədir və hansı müsbət nəticələr əldə edilib;
- Münaqişədə bilavasitə kim və ya kimlər iştirak etdiyi və tərəfləri kim qoruyur;
- Konkret vəziyyətdə nöqsanlar, mövqelər, maraqlar və təkliflər arasında hansı fərqlər var.
- Münaqişənin əsas mənası nədədir, rəqibləri nədən ayırır, nəyə nail olmaq istəyirlər və qarşıdurmanın səbəbləri nələrdir;

İdarəetmədə təşkilatın inkişafı ilə bağlı məsləhətlər verilərkən insan amilinə və insan münasibətlərinə xüsusi diqqət yetirilməlidir. İdarəçinin fəaliyyətində münaqişələrə münasibət mühüm əhəmiyyət daşıyır. İdarəçilər fəaliyyətdə olan zaman konfliktləri idarə etmək üçün müxtəlif metodlardan istifadə edir.

Bir çox ölkələrin təcrübəsinə əsaslanaraq, problemli situasiyaların və qeyri-müəyyən şəxsi münasibətlərin həlli üçün praktikada sınaqdan keçirilmiş çoxlu sayda effektiv metod və texnologiyalardan istifadə edilir. Onların tədqiq olunan hadisəyə (münaqişəyə) ardıcıl tətbiqi idarəetmədə real nəticələr əldə etməyə kömək edir.

1. Koordinasiya və inteqrasiya mexanizmlərindən istifadə:
- funksiyalararası vəzifə və səlahiyyətlərdən istifadə.
- səlahiyyət səviyyələrinin müəyyən edilməsi, ardıcıl əmrlərin verilməsi qaydası, ixtiyari idarəetmə prinsiplərinin tətbiqi;
- qərarlar qəbul etmək, informasiya ötürülməsinin təşkili məqsəd üçün səlahiyyətlərin müəyyən edilməsi;

2. Hər bir komanda üzvünün funksional vəzifələrinin icrasının nəticələrini, hesabatlarının qiymətləndirilməsi meyarlarını, vəzifələrini, informasiya əlaqələri, suallara cavab verməkdə məsuliyyətlərini, məlumatı kimin, kimə və nə vaxt təqdim etməsini müəyyənləşdirilməsi və buna əməl edilməsi.

Konfliktləri idarə etmək üçün iki real fundamental imkan var. Birincisi, münaqişələrin qarşısının alınması. İkincisi, konfliktli münasibətlərin yaranması prosesində münaqişələrin nəticələrinin istifadəsidir.

Konfliktlərin həllinə qlobal yanaşmalardan biri münaqişə mənbələrin tez bir zamanda aradan qaldırılmasıdır. Həmişə və hər yerdə konstruktiv prinsipin inkişafı üçün geniş imkanlar var.

3. İdarəetmə tərzindən uzaqlaşma və ya liderin dəyişməsi. Texniki nöqteyi-nəzərdən və ya fərdi siyasətlər vasitəsilə menecer mürəkkəbliyi və stresli vəziyyətləri aradan qaldırmaq üçün müəyyən tədbirlər həyata keçirə bilər. Onlara aşağıdakıları aid etmək olar:

- Diqqətlə qulaq asılması: tapşırıq verərkən tabeliyində olanlarla münasibət qurulması, tapşırıqla bağlı onların fikir və təkliflərini dinləməsi, şəxsiyyətlərarası münasibətlərdə maraqlı olması
- Qarşı tərəfdən onun vəziyyəti haqqında məlumat alınan zaman vəziyyətini nəzərə almaq.
- Emosial vəziyyət yarandıqda diqqətləri başqa istiqamətə yönəltmək.
- Real vəziyyəti yoxlayan zaman faktlara əsaslanmaq
- Məsləhət istəniləndə kömək olmaq

4. Münaqişənin əsl mənbəyinin aradan qaldırılması, başqa sözlə, münaqişə tərəflərindən birinin digər tərəfin xeyrinə münaqişə obyektindən imtina etməyə məcbur edilməsi.

5. Kompleks məqsədlərin qoyulması. Mövcud narazılıqları və münaqişələri həll etmək üçün struktur bölmələr arasında ümumi məqsədlərin müəyyən edilməsi. Təşkilatın və müəssisənin məqsədlərini müəyyən etmək, müəssisənin ümumi məqsədlərinə xidmət etmək üçün idarə və şöbə rəhbərlərinin qəbul etdiyi qərarların nəzərə alınmasına kömək edər. Belə olduqda ayrı-ayrı bölmələrin və ya qrupların maraqları deyil, kollektivin maraqları nəzərə alınır.

6. Mükafat sisteminin müəyyən edilməsi. Mükafat idarəetmə metodu kimi münaqişə vəziyyətində olan insanların mənəviyyatına təsir göstərir. Mükafat sistemi problemləri həll etməyə çalışan işçiləri, o cümlədən menecerləri kollektiv iş prosesinə yönəldir və problemin hərtərəfli həllinə şərait yaradır.

Qeyd olunan konfliktlərə və onların həllinə ənənəvi münasibət son illər yeni texnologiyaların tətbiqi ilə zənginləşmişdir. Məsələn, konfliktologiyada münaqişənin həlli mediasiya vasitəsilə əldə edilir. Yeni ixtisaslı konflikt ekspertləri - peşəkar konfliktləri həll etməyə qadir olan mediatorlar, metodiki aparat və üsulları bilən mütəxəssislər formalaşır.

Ədəbiyyat

1.M.Zamanova – Təhsildə keyfiyyətin sistemli idarəedilməsi, “Elm və təhsil”, Bakı – 2017

2.Magistrantların Respublika elmi konfransının materialları – “Təhsilin təşkili və idarə olunmasının aktual məsələləri”, Bakı, 7-8 aprel 2022

3.S.Rəsulov, R.Əzizov - Təhsilin idarə edilməsinin nəzəri və praktiki məsələləri, “Müəllim”, Bakı – 2012

4.S.Əliyeva – Təhsildə liderlik, Dərs vəsaiti, Bakı – 2017

5.O.H.Rzayev, S.M.Məmmədov, Ş.N.İsmayılov – Təhsilin idarə olunmasının əsasları, “Mütərcim”, Bakı – 2010

## XÜLASƏ

Məqalədə təhsilin kollegial idarəolunması zamanı konfliktlər, onların baş vermə səbəbi, aradan qaldırılması məsələləri geniş və aydın şəkildə izah olunmuş və təhlil edilmişdir. Kollegial idarəetmə prosesi zamanı konfliktlər qaçınılmaz olduğundan bu konfliktlərin

düzgün və yerindəcə həll edilməsi əsas vacib məsələlərdən biridir. Bilindiyimiz kimi, kollektivlər formalaşdığı gündən etibarən qarşılaşdığı müxtəlif problemlərin həll edilməsi üçün yolların axtarılması zərurəti ilə üzləşirlər. Kollektivlərin problemlərinin həll edilməsi üçün axtardıqları yollara konfliktlərin həll edilməsi yolları deyilir. Konfliktlərin həll edilməsi prosesi təşkilatların effektivliyi və rəqabət qabiliyyəti baxımından olduqca əhəmiyyətli hesab edilir və idarəetmə prosesinin özəyini təşkil edir. İdarəetmədə konfliktlərin həll edilməsi prosesi təşkilatın və ya ayrı-ayrı fərdlərin öz vəzifə və səlahiyyətləri çərçivəsində işlərini düzgün həll etmələri üçün alternativlərin içərisindən ən düzgün və səmərəlisinin seçilməsidir. Hər bir idarəedicinin ən vacib keyfiyyəti onun konfliktlər zamanı əhəmiyyətli və çətin qərarlar qəbul etmək istəyinin və bu qərarları verə bilmə səriştəliyinin olmasıdır. İdarəedicinin iş göstəriciləri onun qəbul etdiyi qərarların effektivliyi ilə əlaqədardır. Konfliktlərin həll edilməsi prosesi rəhbərə vəziyyəti hərtərəfli təhlil edib qiymətləndirməklə sərbəst qərar qəbul etmək hüququ verir. Rəhbər özü qərar qəbul etdiyindən onun yerinə yetirilməsinə də o özü məsuliyyət daşıyır.

***Açar sözlər:*** *Konflikt, konfliktin səbəbləri, konfliktin aradan qaldırılması, kollektivdə konfliktlər*

## РЕЗЮМЕ

В статье широко и наглядно объяснены и проанализированы конфликты при коллегиальном управлении образованием, причины их возникновения и вопросы их устранения. Поскольку в процессе коллегиального управления конфликты неизбежны, одним из важнейших вопросов является правильное и оперативное разрешение этих конфликтов. Как известно, коллективы сталкиваются с необходимостью поиска путей решения различных проблем, с которыми они сталкиваются со дня своего образования. Способы, которые коллективы ищут для решения своих проблем, называются способами разрешения конфликтов. Процесс разрешения конфликтов считается очень важным с точки зрения эффективности и конкурентоспособности организаций и составляет основу процесса управления. Процесс разрешения конфликтов в управлении представляет собой выбор наиболее правильного и эффективного среди альтернатив, позволяющего организации или отдельным лицам правильно решить свою работу в рамках своих обязанностей и полномочий. Важнейшим качеством любого менеджера является его готовность принимать важные и трудные решения во время конфликтов и компетентность в принятии этих решений. Эффективность работы менеджера связана с эффективностью его решений. Процесс разрешения конфликта дает менеджеру право свободно принимать решение путем тщательного анализа и оценки ситуации. Поскольку руководитель принимает решение сам, он также несет ответственность за его реализацию.

***Ключевые слова:*** *Конфликт, причины конфликта, устранение конфликта, конфликты в коллективе*

## SUMMARY

In the article, conflicts during the collegial management of education, the reasons for their occurrence, and the issues of their elimination are widely and clearly explained and analyzed. Since conflicts are inevitable during the process of collegial management, it is one of the most important issues to resolve these conflicts correctly and on the spot. As we know, collectives are faced with the need to find ways to solve the various problems they face from the day of their formation. The ways that collectives look for to solve their problems are called ways of solving conflicts. The process of conflict resolution is considered very important in terms of the effectiveness and competitiveness of organizations and forms the core of the management process. The process of conflict resolution in management is the selection of the most correct and efficient among the alternatives for the organization or individual individuals to solve their work correctly within the framework of their duties and

powers. The most important quality of any manager is his willingness to make important and difficult decisions during conflicts and the competence to make these decisions. The manager's performance is related to the effectiveness of his decisions. The conflict resolution process gives the manager the right to make a decision freely by thoroughly analyzing and evaluating the situation. Since the leader makes the decision himself, he is also responsible for its implementation.

***Key words:*** *Conflict, causes of conflict, elimination of conflict, conflicts in the collective*

## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN KOLLEGİAL İDARƏEDİLMƏSINDƏ PLANLAŞDIRMANIN ƏHƏMİYYƏTİ

**Abdullayeva Gülay Abdulla qızı**
*Azərbaycan Dövlət Pedaqoj Universiteti*

Hər bir sahədə olduğu kimi ali təhsil müəssisələrinin kollegial idarəedilməsində planlaşdırmanın çox böyük əhəmiyyəti vardır. Planlaşdırma idarəetmə məqsədlərinə çatmaq üçün qabaqcadan cızılmış bir yoldur, fəaliyyətdir. Bəzən haqlı olaraq qərar və planlaşdırma fəaliyyətləri bir-biri ilə qarışdırılır. Bunlar arasındakı tək fərq planlaşdırmanın 1 qərardan yox, bir neçə qərarlar cəmindən ibarət olmasındadır. Ali təhsil müəssisələrinin kollegial idarəedilməsi zamanı kollegial orqanların fəaliyyətinin əlaqələndirilməsi planlaşdırmanı zəruri edir.

Bəzən ali təhsil müəssisəsinin rəhbəri müxtəlif səbəblərdən kollegial idarəetmə zamanı planlaşdırmanın əhəmiyyətini gözardı edir və ya bacarmır. Bu zaman belə rəhbərlərə metodik vasitələrlə, ixtisasartırma kursları ilə kömək göstərmək lazımdır.

Kollektivin işinin planlaşdırılması xüsusiyyətlərinə kollektivin bərabər şəkildə həyata keçirəcəyi işləri asanlaşdırmağı, dəqiq olmayan işləri aradan qaldırmağı, düzgün istiqamətləndirmə işləri aparmağı, kollektivin birliyini təmin etməyi və resurslardan səmərəli şəkildə istifadə etməyi aiddir.

Planlaşdırmanın kollegial idarəetmədə əhəmiyyətini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- Planlaşdırma idarəedəndən gələcəklə bağlı düşünməsini və baş vermə ehtimalı olan hadisələrdən zamanında düzgün nəticələr çıxarmaısını təmin edir.
- Planlaşdırma rəhbərdən hazırlanan planlar barədə fikirləşməyi və bu planların ayrı-ayrı istiqamətlərini müşahidədə saxlayaraq müəssisənin məqsədinə çatmasına kömək edir, müəssisə işçilərinin fəaliyyətinin vahid məqsədə istiqamətlənməsinə şərait yaradır.
- Planlaşdırma kollegial idarəetmənin bütün istiqamətlərində tədbirli olmağı və təhsil müəssisəsinin iqtisadi tərəfini nəzərdə saxlamağı tələb edir.
- Planlaşdırma idarəetmə prosesi zamanı müəssisənin imkanlarından səmərəli şəkildə istifadə edilməsi üçün şərait yaradır və təlim prosesinin keyfiyyətini yaxşılaşdırır.
- Planlaşdırma kollegial idarəetmə prosesi zamanı qeyri-müəyyənlikləri minimuma endirir.
- Planlaşdırma kollegial idarəetmə prosesi zamanı işçilərin vəzifəsini və məsuliyyətini müəyyənləşdirməyə kömək edir.

Ali təhsil müəssisələrinin kollegial idarəedilməsində planlaşdırma prosesi həyata keçirilərkən aşağıdakı mərhələlərə əməl olunmalıdır:

1. İlk olaraq məqsəd müəyyən edilməlidir.
2. Məqsəd müəyyən olunduqdan sonra imkanlar müəyyən edilməlidir.
3. Alternativ variantlar müəyyən edilməli, qarşılıqlı müqayisəsi və əlaqələnməsi göstərilməlidir.
4. Alternativlər içərisindən uyğun variant seçilməlidir.
5. Planın hansı istiqamətlərdə həyata keçirilməsi müəyyənləşdirilməli və icrası yoxlanılmalıdır.

6. Plan yoxlanıldıqdan sonra qiymətləndirilməlidir.

Ali təhsil müəssisələrinin kollegial idarəedilməsində planlaşdırmanın əhəmiyyətinə dayanaraq qeyd edilməlidir ki, planlaşdırma prosesi zamanı aşağıda qoyulan hər bir suallara cavab tapılmalıdır:

1. Planın mərhələləri nə zaman həyata keçirilməlidir?
2. Plan nə cür həyata keçirilməlidir?
3. Plan hansı məkanda həyata keçiriləcəkdir?
4. Plan kim tərəfindən həyata keçiriləcəkdir?
5. Planlaşdırmanın həyata keçirilməsində məqsəd nədir?
6. Plana nə qədər vəsait sərf edilməlidir?
7. Planlaşdırma nə qədər müddətdə həyata keçirilməlidir?

Ali təhsil müəssisələrinin kollegial idarəedilməsi zamanı planlaşdırma aparılarkən bu suallara cavab tapılmazsa, planlaşdırmnın əhəmiyyəti maksimumdan minimuma qədər enəcəkdir.

Beləliklə, planlaşdırma müəssisənin öz işini düzgün qurması, istənilən nəticəni əldə edilməsi, keyfiyyətin yüksəldilməsi üçün əsas vasitələrdən biridir.

## TƏDRİS PROSESİNİN OPTİMALLAŞDIRILMASINDA İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ

**Aslanova Firəngiz İlqar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnformasiya Texnologiyaları nədir? İnformasiya texnologiyaları (İT) – kompüter texnologiyasının tətbiqi də daxil olmaqla, məlumatların yaradılması, idarə edilməsi və işlənməsi texnologiyaları ilə bağlı geniş intizam və fəaliyyət sahələridir. Təhsil şagirdə informasiyanın ötürülməsindən ibarət olduğundan, o zaman V. N. Qluşkovun təsnifatlarından sonra (informasiya texnologiyaları informasiyanın işlənməsi ilə bağlı proseslərdir) belə nəticəyə gəlmək olar ki, təhsildə informasiya texnologiyalarından həmişə istifadə olunmuşdur[4].Yeni informasiya texnologiyaları (NIT) kimi bir anlayışın meydana gəlməsi təhsildə kompüterlərin meydana gəlməsi və geniş yayılması ilə əlaqələndirilir[1].

Təhsil prosesində informasiya texnologiyaları təhsilin keyfiyyətinin yüksəldilməsi üçün bir vasitədir. Pedaqoji prosesdə informasiya texnologiyalarının tətbiqi yeni pedaqoji metod və üsulların, müəllimlərin iş üslubunda dəyişikliklərin, onların həll etdikləri tapşırıqların, pedaqoji sistemin struktur dəyişikliklərinin inkişafına gətirib çıxarır.

XXI əsr —yüksək kompüter texnologiyalarının əsri. Müasir tələbə elektron mədəniyyət dünyasında yaşayır. İnformasiya mədəniyyətində müəllimin rolu dəyişir - o, informasiya axınının koordinatoruna çevrilir. Bu gün zəmanə ilə ayaq-ayağa düşən müəllim məntiqlə texniki cəhətdən tədrisdə informasiya texnologiyalarından istifadə etməyə hazırdır. Buna görə də dərsin istənilən mərhələsi yeni texniki vasitələrin tətbiqi ilə olmalıdır.

İnformasiyanın işlənməsi, ötürülməsi, saxlanması və çoxaldılması üçün telekommunikasiya və kompüter texnologiyaları sahəsində əldə edilən nailiyyətlər beynəlxalq şəbəkə informasiya məkanının yaranmasına səbəb olmuşdur. Müasir informasiya texnologiyaları kitabxanalardan və universitetlərdən uzaqda yaşayanları dünya üzrə biliklərin reyestrinə daxil olmaq üçün unikal imkanlarla təmin edir. Nəticə etibarı ilə şagird-müəllim qarşılıqlı fəaliyyətinin mahiyyəti və dinamikası dəyişir: onlayn öyrənmə şəraitində şagirdlər öz templəri ilə və müəllimlə daim birbaşa təmas olmadan işləyirlər; Müəllim biliyin əsas daşıyıcısından və tərcüməçisindən məsləhətçiyə çevrilir. Bütün bunlar təlim metodlarının, forma və texnologiyaların seçiminə əhəmiyyətli təsir göstərir.

Təhsil sahəsində informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi ilə bağlı əsas istiqamətlər aşağıdakı qruplara bölünür:

- qlobal informasiya şəbəkəsinin imkanlarından istifadə edilməsi, təlim texnologiyaları sahəsində şəbəkədə iş üsullarının və metodlarının işə daxil edilməsi;

- biliklərin təqdimatının yeni formaları: interaktiv, multimedia, fərdi;
- dünya biliklərinin bərabər əlçatanlığının və açıqlığının təmin edilməsi;
- semantik sistemlərin və süni intellekt sistemlərinin imkanlarından istifadə etmək.

İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi təhsil prosesinin çərçivəsini genişləndirir, onun praktiki oriyentasiyasına öz töhfəsini verir, şagirdlərin tədrisdə motivasiyasını artırır və gələcəkdə onların uğurlu özünü reallaşdırması üçün şərait yaradır.

Şagirdlərin koqnitiv fəaliyyətinin artırılmasında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi metodlarının başa düşülməsi üçün təlim prosesinin səviyyələri böyük əhəmiyyət kəsb edir.Pedaqoji elmlərdə aşağıdakı səviyyələr fərqləndirilir: düşünməyə yönəltmə mərhələsi,dərketmə mərhələsi,düşünmə mərhələsi

Pedaqoji materialın ustalıqla tədrisi nöqteyi-nəzərindən 5 səviyyə vardır:
- sıfır (dərketmə) - onun üçün yeni olan informasiyanı dərk etmək, yəni onun üçün yeni olan informasiyanı mənalı şəkildə qavramaq qabiliyyəti;
- ilkin (tanınma) - tədqiq olunan obyektlərin onlar haqqında əvvəlcədən öyrənilmiş məlumatları və ya onlarla hərəkətləri təkrar dərk etməklə tanınması;
- ikinci (törəmə) - əvvəllər alınmış biliklərin tipik vəziyyətlərdə hərfi nüsxədən tətbiqə təkrarlanması;
- üçüncü (ərizə) – informasiyanın assimilyasiyasıdır. Bu halda öyrənən məlum obyektlərin və onun qeyri-tipik vəziyyətlərdə müzakirəsi üçün öyrənilən məlumatları müstəqil şəkildə çoxaldıb transformasiya edə bilir;
- Dördüncü (yaradıcı fəaliyyət) – təhsil materialının ustalıq təşkil etməsidir. Bu sahədə şagird əvvəllər heç kimə məlum olmayan yeni məlumatlar yarada bilir.

Universitetdə metodik işin əsas məqsədlərini müəyyənləşdirək:
- tədris prosesinin təşkilinə ümumi metodoloji yanaşmanın inkişaf etdirilməsi;
- həyata keçirilməkdə olan təhsil proqramlarının yüksək keyfiyyətli metodiki dəstəyinin və dəstəyinin təşkil edilməsi;
- müəllimlərin peşəkarlıq səviyyəsinin, metodik mədəniyyətinin və metodik kompetensiyasının təkmilləşdirilməsi;
- təhsil prosesinə innovativ texnologiyaların, təlim metodlarının və təhsil prosesinin idarə edilməsinin innovativ formalarının daxil edilməsi.

Ali peşə təhsili müəssisəsində metodik fəaliyyət sisteminin məzmunu və strukturu aşağıdakı funksiyalar dəsti ilə müəyyən edilir:
- məlumat və təşkilati: metodoloji məlumatların məqsədəuyğun təyin edilməsi və transformasiyası;
- Təminat və intizar: metodik məhsulların (dərs vəsaiti, iş proqramı, dərslik, UMKD və s.) yaradılması və tətbiqi;
• müəllimlə fərdi işin həyata keçirilməsi. Müəllimin müstəqil fəaliyyətinin təşkili metodik işin aktivləşdirilməsi (e-portfolio - şəxsiyyət yönümlü informasiya və kommunikasiya texnologiyaları və s.) üzərində cəmlənib.

İKT sinfinin keçirilməsi aşağıdakılar üçün xarakterikdir:
1. Adaptasiya prinsipi: kompüterin treyninqin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılması.
2. İdarə olunma: istənilən vaxt müəllim tədris prosesini düzəldə bilər.
3. Öyrənmənin interaktivliyi və dialoq xarakteri. İKT-lər şagird və müəllimin hərəkətlərinə "cavab vermək" qabiliyyətinə malikdirlər; kompüter təlim metodlarının əsas xüsusiyyəti olan onlarla dialoqa "daxil olun".
4. Fərdi və qrup işinin optimal kombinasiyası.
5. Kompüterlə ünsiyyət zamanı treyninqin psixoloji rahatlıq vəziyyətini saxlamaq.

İnformasiya texnologiyaları təhsil prosesinə əhəmiyyətli təsir göstərir, belə ki, o, biliklərin ötürülməsi və təlim metodları sxemini dəyişir. Onlar tədris və biliklərin saxlanılması üçün yeni vasitələrin yaradılması ilə bağlıdır. Buraya elektron dərsliklər və multimedia daxildir; rəqəmsal kitabxanalar və arxivlər, qlobal və yerli təhsil şəbəkələri; informasiya alınması və istinad sistemləri və s.

Multimedia məhsulunun hazırlanması zamanı onun funksionallığını müəyyənləşdirmək zəruridir

Məqsəd. Buna əsaslanaraq, təhsil üçün aşağıdakı növ multimedia növləri maraqlıdır: elektron dərsliklər; elektron ensiklopediyalar; multimedia kitabları, sənədləşdirmə; Belə məhsulların yaradılması kompüter texnikasının inkişafı ilə əlaqədar mümkün oldu. Eyni zamanda, qrafik və audio informasiyanın təqdimatı üçün universal formatlar tərəfindən xüsusi rol oynanılır ki, bu da böyük həcmli informasiyaların kompakt formada yerləşdirilməsini mümkün edir.

Elektron tədris vəsaitləri çoxqatlı olur. Bir tərəfdən, öz funksiyalarına görə, onları təhsil nəşrləri kimi təsnif etmək və buna uyğun olaraq dərslik üçün istifadə olunan klassifikasiya prinsiplərindən istifadə etmək olar. Digər tərəfdən onlar elektron nəşrlər kateqoriyasına aiddir və elektron nəşrlərin klassifikasiyası prinsipləri onlara tətbiq oluna bilər. Digər tərəfdən, yaradılış texnologiyası baxımından onlar proqram məhsuludur. "All-Russian Classifier of Products OK 005-93" onlara tətbiq edilə bilər. Buna əsasən (subklass 50 7000) təhsil məqsədləri üçün tətbiq olunan proqram təminatı aşağıdakı növlərə bölünür: pedaqoji; Təlim; simulyatorlar üçün; Nəzarət etmək; Səhnəcik; modelləşdirilməsi üçün; Köməkçi; pedaqoji, digər; tədris prosesini idarə etmək; təhsil proqramlarının yaradılması və s. üçün

Elektron təhsil müəssisələrinin əsas növlərini vurğulayaq:

Elektron metodik kitabça - pedaqoji təcrübənin ümumiləşdirilməsi və ötürülməsi, pedaqoji fəaliyyətin yeni modellərinin formalaşması və yayılması, İkt vasitələri əsasında həyata keçirilməsi formasıdır. Bu kitabda müəllimin təcrübəsi video fraqmentlər, siniflərin transkribiki yazıları, pedaqoji fəaliyyətlərin dərs planlaşdırılması, elektron formada yaradılmış və ya ona tərcümə edilmiş formada qeyd olunur. Elektron təlimə ənənəvi komponent də daxil ola bilər.

Elektron dərslik - dərslikdə qismən və ya tamamilə əvəz edən və ya əlavə edən və bu tip nəşr kimi rəsmi təsdiq olunan təhsil elektron nəşridir.

Elektron təhsil nəşrləri - termin həm işlək sənədləşmədə, həm də rəsmi sənədlərdə istifadə olunur.Bu sahədə şagirdlər tərəfindən bilik, bacarıq və qabiliyyətlərin yaradıcı və fəal şəkildə əldə olunmasını təmin edir. O, yüksək səviyyədə icra və incəsənət dizaynı, informasiyanın tamlığı, metodik vəsaitlərin keyfiyyəti, texniki işlərin keyfiyyəti, aydınlığı, ardıcıllığı və təqdimetmə ardıcıllığı ilə fərqlənməlidir. Təhsil elektron nəşri didaktik xüsusiyyətlərini itirmədən kağız versiyasına endirə bilməz.

E-tədris materialları - "materiallar" anlayışı "ədəbiyyat" və ya "resurs"dan daha genişdir. Bu anlayışa həmçinin müstəqil məna kəsb etməyən və inkişafda istifadə olunan geniş çeşidli məhsullar daxildir. Elektron lüğət — ənənəvi "kağız" lüğətə müvafiq elektron informasiya mənbəyi. Elektron versiyada onu hər hansı bir proqramdan söz və ya söz qrupunun xüsusi müəyyən edilmiş göstəricisi ilə çağırmaq olar. Bu da müvafiq lüğətin tələb olunan fraqmentinin vizuallaşdırılmasına gətirib çıxarır. Ənənəvi lüğətlərdən fərqli olaraq, elektron lüğətlərdə mətn və qrafik şəkillərlə yanaşı, video və animasiya fraqmentləri, səs, musiqi və s. ola bilər.

Elektron dərslik - mürəkkəb məqsədin informasiya sistemi (proqram təminatı) vasitəsi ilə həyata keçirilməsidir. Bu proqram vasitəsilə, kağız mediaya müraciət etmədən, vahid kompüter proqramı vasitəsilə tədris prosesinin didaktik dövriyyəsinin bütün linklərində İkt vasitələrinin didaktik imkanlarının həyata keçirilməsini təmin edir:

- koqnitiv tapşırığın formulu;
- tədris materialının məzmununun təqdimatı;
- ibtidai biliklərin tətbiqi işinin təşkil edilməsi (ayrı-ayrı tapşırıqların yerinə yetirilməsi üçün fəaliyyətin təşkil edilməsi, bu işlərin nəticəsində elmi biliklərin formalaşdırılması baş verir);
- geribildirim, tələbələrin fəaliyyətinə nəzarət;
- növbəti maarifləndirici tədbirlərə hazırlığın təşkil edilməsi (özünütəhsillik, əlavə ədəbiyyat oxumaq üçün göstərişlərin təyin edilməsi).

Tədris-metodiki komplekslər (EUMC). Onlar əsas götürülür: elektron dərslik; elektron qovluq; simulyator kompleksi; elektron laboratoriya emalatxanası; kompüter test sistemi.

EUMC-nin əsas tələbləri aşağıdakılardır: elmi məzmun; Fokusla; motivasiyanı təmin etmək; təlim-tərbiyənin individuallaşdırılması; Yaradıcılıq; sistematik rəylərin verilməsi; sərt surətinin əldə edilməsi imkanı; inkişaf etmiş axtarış sisteminin mövcudluğu və s.

Tədris prosesinin optimallaşdırılması optimal forma və metodların seçilməsini nəzərdə tutur. Onların bütün çeşidləri üçün hər hansı bir metod və ya formulun ən yaxşı olduğunu demək olmaz: bir metod bəzi konkret şərtlər altında optimal olacaq, amma digərlərinin altında ən yaxşısı deyil. Öyrənmə prosesinin optimallaşdırılması müəyyən kombinasiyada müxtəlif forma və metodları sintez edir. Hər dəfə konkret vəziyyət üçün ən yaxşı şəkildə. İnformasiya texnologiyalarından istifadə etməklə ənənəvi təlim metodlarını yeni metodlarla tamamlamaq və birləşdirmək, hər bir şagirdə fərdi yanaşmanı tətbiq etmək zəruridir və onların dil qabiliyyətini inkişaf etdirmək, habelə hər bir öyrənənin biliyinin keyfiyyətini obyektiv qiymətləndirmək. Beləliklə, müasir texnologiyaların tətbiqinə tabe olaraq təhsilin modernləşdirilməsi kontekstində tədris prosesi daha effektiv və şagird mərkəzli olur.

Ədəbiyyat

1.Abbasov, N.Ə. (2011). Müasir informasiya kommunikasiya texnologiyalarının tədris prosesinə tətbiqi. Bakı, ADPU, 208 s.

2.Qəndilov, R.T., Əliyev, A.F. (2013). Təhsildə yeni informasiya və kommunikasiya texnologiyaları: problemlər, prioritetlər. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun elmi əsərləri. Bakı, № 1, s.59-61.

3. Афанасьев, В. Г. Общество: системность, познание и управление [Текст] / В. Г. Афанасьев. - М. : Просвещение, 1981. - 512 с.

4. Апатова, Н. В. Информационные технологии в школьном образовании [Текст] / Н. В. Апатова. - М. : Институт общеобразовательной школы РАО, 1994. -228 с.

5. Бабанский, Ю. К. Оптимизация процесса обучения. Общедидактический аспект [Текст] / Ю. К. Бабанский. - М. : Педагогика, 1977. - 254 с.

6. Глушков, В. М. Введение в АСУ [Текст] / В. М. Глушков. - Киев : Техника, 1972. - 42 с. Тоискин, В. С., Красильников, В. В. Информационные и коммуникационные технологии в образовании [Текст] : учеб. пособ. / В. С. Тоискин, В. В. Красильников. - Ставрополь : Изд-во СГПИ, 2008. - 140 с.

## XÜLASƏ

Universitetdə təhsil sisteminin müasir vəziyyəti informasiya inqilabı və bilik həcminin artması, tədris materialının mürəkkəbləşdirilməsi və genişləndirilməsi ilə xarakterizə olunur. Ənənəvi metodlar tədricən öz effektivliyini itirir, buna görə də müasir pedaqoji texnologiyaların tədris prosesinə daxil edilməsi zəruridir. Onların üstünlüyü tələbələrin koqnitiv aktivliyini artırmaq, biliklərə marağı inkişaf etdirmək və yaradıcı təşəbbüskarlığı inkişaf etdirməkdir.

***Açar sözlər:*** *təhsil prosesi, optimallaşdırma, optimallaşdırma meyarları, informasiya texnologiyaları, təhsil məqsədinin elektron vasitələri.*

## РЕЗЮМЕ

Современное состояние системы образования в вузе характеризуется информационной революцией и ростом объема знаний, усложнением и расширением учебного материала. Традиционные методики постепенно утрачивают свою эффективность, поэтому необходимо внедрять в учебный процесс современные педагогические технологии. Их преимущество состоит в повышении познавательной активности обучаемых, выработке интереса к знаниям, развитии творческой инициативы.

***Ключевые слова****:учебный процесс, оптимизация, критерии оптимизации, информационные технологии, электронные средства учебного назначения.*

**SUMMARY**

The current state of education at the university is characterized by an information revolution and an increase in the volume of knowledge, the complexity and expansion of teaching materials. Traditional methods gradually lose their effectiveness, so it is necessary to incorporate modern pedagogical technologies into the learning process. Their priority is to increase students' cognitive activism, foster interest in knowledge and develop creative initiative.

***Keywords****: an educational process, optimization, criteria of optimization, information technology, electronic means of the educational purpose.*

## TƏLİM PROSESİNİN OPTİMALLAŞDIRILMASININ MAHİYYƏTİ

**Aslanova Firəngiz İlqar qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Elmdə "optimallaşdırma" anlayışı bir çox mümkün variantdan ən əlverişli variantın seçilməsi kimi başa düşülür. Tədris prosesi kontekstində optimallaşdırma dedikdə, mövcud şəraitdə ən yaxşı nəticələr əldə edəcək və eyni zamanda müəllimin və tələbələrin minimum vaxtını, səyini sərf edəcək metodologiyanın seçilməsi başa düşülür.

Təlim proseslərinin optimallaşdırılması məsələlərinin inkişafına xüsusi töhfə 20-ci əsrin 80-ci illərində "Təhsil prosesinin optimallaşdırılması" elmi əsərini nəşr etdirən alim Yu.K.Babanski olmuşdur.

Optimallaşdırma nəzəriyyəsi güclü humanist qərəzliyə malikdir. Optimallaşdırma məktəblilərin təlim və tərbiyəsi üçün zəruri olan şərtləri müəyyən edir.

Pedaqogikada təlim prosesini optimallaşdırmaq üçün iki əsas yanaşma mövcuddur:

•öyrənmənin idarə edilməsi yolları kimi optimallaşdırma

•optimallaşdırma müəllim fəaliyyətinin elmi təşkili prinsipi kimi

Optimallaşdırma bir üsul deyil, metodlar toplusudur; bu, təhsilin əsas məqsədlərinə optimal şəkildə nail olmağa imkan verən bir prosesdir.

Tədris prosesinin metodikasının optimal olub olmadığını müəyyən etmək üçün onun dörd əsas optimallıq meyarını müəyyən etmək lazımdır.

• bilik, bacarıq və bacarıqların mənimsənilməsində maksimum nəticə

• optimal öyrənmə məqsədinə nail olmaq üçün tələbələr və müəllimlər üçün minimum vaxt itkisi

• müəyyən müddət ərzində istənilən nəticəni əldə etmək üçün minimum səy sərfi

• müəyyən müddət ərzində istənilən nəticəni əldə etmək üçün minimum vəsait xərclənməsi

Alimlər təhsil prosesini optimallaşdırmağın səkkiz əsas yolunu müəyyən edirlər:

• təhsil məqsədlərinin planlaşdırılması və dəqiqləşdirilməsi

• təhsil məqsədlərinin məzmununun əsaslandırılması

• dərs quruluşu

• təhsil problemlərinin həlli üçün rasional üsul və vasitələr

• tələbələrə fərqli və fərdi yanaşma

• əlverişli təhsil şəraitinin yaradılması

• müəllimlər və tələbələr üçün vaxta qənaət

• tədris prosesinin optimallaşdırılmasına uyğun olaraq nəticələrin təhlili

Tələbənin təhsili, təlimi, tərbiyəsi və inkişafı vəzifələrinin planlaşdırılması və dəqiqləşdirilməsi təhsil prosesini poetikləşdirməyin ilk yoludur. Əgər bütün təlim məqsədləri əvvəlcədən aydın və konkret olaraq düşünülsə, təlim prosesi daha sürətli və daha uğurlu

olacaq. Əgər bütün təhsil vəzifələri dəsti müəyyən edilibsə, onları ayrı- ayrılıqda deyil, eyni vaxtda həll etmək olar ki, bu da vaxta əhəmiyyətli dərəcədə qənaət edir.

Bundan əlavə, təlim prosesində optimallaşdırmanı həyata keçirmək üçün müəllim tələbələrin xüsusiyyətlərini və təlimin keçirildiyi şəraitin xüsusiyyətlərini rəhbər tutaraq bir sıra tapşırıqlar tərtib etməlidir. Bu zaman müəllim çoxlu sayda tapşırıqlar arasından ən aktual olanı seçməlidir.

İkinci optimallaşdırma metodu, məzmunun təlim məqsədlərinə uyğunluğunu əsaslandırmaq, əsas zəruri materialı dərs məzmununda təcrid etməklə əlaqələndirilir. Başqa sözlə, dərs zamanı şagirdlərin diqqəti müəllimin təqdim etdiyi əsas məlumatlara yönəldilməlidir. Bu meyara əməl edilməməsi uşaqların həddən artıq işləməsinə və şagirdlərin öyrənmə qabiliyyətinin pisləşməsinə səbəb ola bilər. Buna görə də, təlim prosesi zamanı tələbələrin həm lazımi məlumatları mənimsəmələri, həm də özünə nəzarət və özünü idarə etməyi öyrənmələri çox vacibdir.

Müəllim dərsin ən uyğun strukturunu seçərək, təlim prosesinin optimallaşdırılmasının üçüncü metodunu həyata keçirir. Dərs keçirərkən müəllim dərsin aşağıdakı mühüm elementlərini nəzərə almalıdır:

• ev tapşırığını sorğu-sual və yoxlama ardıcıllığı
• yeni material öyrənmək
• təmin edən material
• problemin həlli və s.

Növbəti optimallaşdırma metodu təlim məqsədlərinə nail olmaq üçün daha uyğun təlim metodları və vasitələrinin seçilməsi zərurətidir. Bu baxımdan müəllim bəzi metodların digərlərindən nə ilə fərqləndiyi barədə məlumatlara malik olmalıdır. Eyni sözləri tədris vəsaitləri haqqında da demək olar.

Beşinci üsul tələbələrə diferensial və fərdi yanaşmanın birləşdirilməsidir. Əgər müəllim bu prinsipə əməl edirsə, onda onun işində bütöv sinif, qrup və fərdi tədris yanaşmaları düzgün birləşir. Şagirdlərin differensiallaşdırılması onların hər birinin özünəməxsus şəxsi keyfiyyətlərinə, meyllərinə, təfəkkür növünə və yaddaşına malik olduğuna görə zəruridir.

Təlim prosesini optimallaşdırmağın növbəti yolu müəllimlər və tələbələr üçün vaxta qənaət edəcək yolların tapılması və əlverişli öyrənmə növünün axtarışını əhatə edir. Buna əvvəllər təsvir edilmiş optimallaşdırma üsulları, məktəb siniflərinin təchiz edilməsi, avtomatlaşdırılmış avadanlıqlar, müxtəlif metodik və tədris materialları, məktəb fəaliyyətinin planlaşdırılması kömək edir.

Təlim prosesi çərçivəsində optimallaşdırma prosesinin sonuncu üsulu yuxarıda sadalanan əsas optimallaşdırma meyarlarına uyğun olaraq müəllim və tələbələrin təlim nəticələrinin və vaxt xərclərinin təhlilindən ibarətdir. Vəziyyətin təhlili öyrənmə, təhsil və inkişaf prosesinin yekun nəticələri, tələbələrin real imkanları və onların və müəllimlərin sərf etdiyi vaxt arasındakı əlaqəyə gəlir.

Müzakirələr nəzəri biliklər toplusunu, məntiqi təfəkkür, nitq formalaşdırmağa, marağı stimullaşdırmağa, iradəni inkişaf etdirməyə qadirdir, lakin onların tempi optimallaşdırmanın zaman tələblərini ödəmir. Buna görə də müəllim öz dərsinə hazırlaşarkən bu konkret dərsin məqsəd və vəzifələri əsasında optimallaşdırma meyarlarına cavab verən metodika seçməlidir.

## TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MARKETİNQ KOMMUNİKASİYA SİSTEMİNİN ƏHƏMİYYƏTİ VƏ İNKİŞAFI

**Babayeva Aytən Rasim qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

“Kommunikasiya sosial münasibətlərin əhəmiyyətini vurğulamaq üçün “sosial münasibətlər təcrübəsi” kimidir. Kommunikasiya sosial aktların məcmusudur və şübhəsiz, bu sosial aktların nəticələri vasitəsilə bəzi sosial qazanclar da əldə edilir. Simvollaşdırılan bu

sosial qazanclar gündəlik həyatın sosial prosesində mühüm rol oynayır" [ 1 ]. Marketinq kommunikasiyası təhsil müəssisələrinin uğurunda və böyüməsində mühüm rol oynayır. Bu, təşkilatın təşviqinə, potensial tələbələrin cəlb edilməsinə, hazırkı tələbələrin məşğulluğuna, məzunlar və digər maraqlı tərəflərlə əlaqələrin gücləndirilməsinə yönəlmiş müxtəlif strategiyaları və kanalları əhatə edir. Rəqabətin artması, demoqrafik göstəricilərin dəyişməsi və inkişaf edən kommunikasiya texnologiyaları ilə əlaqədar təhsil müəssisələrində marketinq kommunikasiya sistemlərinin inkişafı getdikcə daha çox əhəmiyyət kəsb edir. Təhsil müəssisələri marketinq sistemində fərqlənmək üçün öz unikal dəyər təkliflərini, akademik proqramlarını, imkanlarını və müəssisəkənar fəaliyyətlərini effektiv şəkildə çatdırmalıdırlar. Bunun üçün brendinq, reklam, ictimaiyyətlə əlaqələr, rəqəmsal marketinq və sosial mediada iştiraka strateji yanaşma tələb olunur. Bu kanallardan istifadə etməklə, institutlar onların tanınma qabiliyyətini, reputasiyasını və etibarlılığını artıra bilər, nəticədə bu qeydiyyatın və tələbə saxlanmasının artmasına səbəb olur.

"Marketinq kommunikasiyası təhsil müəssisəsinin bazardakı məhsul və xidmətləri təsvir etmək səyləridir" [ 2 ]. Bundan əlavə, marketinq kommunikasiya sistemləri təhsil müəssisələrinə hədəf auditoriyaları ilə əlaqə saxlamağa, dəyişən tendensiyalara və üstünlüklərə uyğunlaşmağa imkan verir. Onlar ikitərəfli ünsiyyəti asanlaşdırır, institutlara rəy toplamaq, narahatlıqları həll etmək, tələbələr, müəllimlər, işçilər, məzunlar və valideynlər arasında ictimaiyyət hissini yaratmağa imkan verir.

"Marketinq kommunikasiyası istehlakçı auditoriyasında arzu olunan reaksiyanı oyandıran, biznesin mesajlarını dəyişdirən, kommunikasiya vasitələri yaradan, rabitə kanalları ilə bazardan mesajlar alan, aydınlıq gətirən və fəaliyyət göstərən bir prosesdir" [ 3 ]. Təhsil müəssisələrinin müasir rəqabət şəraitində inkişaf etməsi üçün marketinq kommunikasiya sistemlərinin inkişafı çox vacibdir. Güclü tərəflərini, dəyərlərini və təkliflərini effektiv şəkildə çatdırmaqla, ali təhsil müəssisələri tələbələri cəlb edə, saxlaya bilər, maliyyə dəstəyi təmin edə və təhsil sahəsində lider kimi özünü təsdiq edə bilər. Müəssisələrin öz maraqlı tərəflərinin ehtiyac, gözləntilərinə uyğun qalmaq üçün marketinq kommunikasiyası strategiyalarını davamlı olaraq qiymətləndirməsi və təkmilləşdirməsi vacibdir.

Təhsil sahəsində marketinq kommunikasiya fəaliyyəti bazar seçimləri ilə bağlı qərar qəbul edən təhsil subyektlərinin - təhsil prosesinin potensial iştirakçılarının, təhsil müəssisələrinin özləri və təhsilin sponsorları olan təşkilatların xüsusiyyətlərini nəzərə alınmaqla həyata keçirilməlidir. Həmçinin nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatının müxtəlif sahələrində olduğu kimi təhsil sahəsində marketinq kommunikasiyasının elementlərinin bir-birindən ayrılıqda deyil, inteqrasiya olunmuş formada tətbiq edilməsində fayda var. Bu amilin zəruriliyini artıran səbəblərə mediada yüksək qiymətlər, hədəf qrupların daha yaxşı kommunikativ bacarıqları, əlaqələr marketinqi və digərləri aid edilə bilər. Təhsil müəssisəsi hədəf qruplarına ətraflı məlumat və özü haqda ondan tələb olunan görüntünü çatdırmalıdır. Bütün kommunikasiya elementləri təhsil müəssisəsinin rəhbərliyi altında yaxşı hazırlanmalı və həyata keçirilməlidir.

Təhsil müəssisələrində marketinq kommunikasiya sistemlərinin əhəmiyyətini şərtləndirən əsas aspektlərdən biri güclü brend profilinin yaradılması zərurətidir. Ali təhsil müəssisələri üçün brendinq potensial tələbələrə müəssisənin kimliyini müəyyən etməyə kömək edəcək. Müəssisənin kim olduğunu müəyyən etmək onun unikallığını bildirmək deməkdir. Dünya şirkətlərinə analitik və menecment xidmətləri göstərən Gallup şirkətinin araşdırmaları göstərdi ki, abituriyentlər müxtəlif ali təhsil müəssisələri və onların təklif etdikləri xidmətlər arasında fərq qoymaqda çətinlik çəkirlər. Məhz bu səbəbdən təhsil müəssisələri gələcək tələbələrin, valideynlərin, donorların və digər maraqlı tərəflərin diqqətini cəlb etmək üçün özlərini digərlərindən fərqləndirməlidirlər. Güclü marketinq kommunikasiyası strategiyası müəssisənin unikal dəyərlərini, akademik təkliflərini, dərsdənkənar fəaliyyətlərini və kampus mədəniyyətini ifadə etməyə kömək edir və bununla da hədəf auditoriya ilə rezonans doğuran cəlbedici brend imicini yaradır.

“Marketinq mübadilə prosesləri vasitəsilə istehlakçılar və istehsalçılar arasında ehtiyac və istəklərin ödənilməsinə yönəlmiş sosial fəaliyyət kimi ifadə edilir” [ 4 ]. Ehtiyaclar və istəklər sabit deyil, həmişə dəyişkəndir. Marketinq fəaliyyətləri ünsiyyətin təsirlərinə paralel olaraq yaranır. Buna görə də, son qərar qəbul edərkən istehlakçıların davranışlarını və münasibətlərini başa düşmək üçün effektiv ünsiyyət lazımdır. Əsas məsələ təşkilatların onlara nə təmin etmək istədiklərini anlamaq və başa düşməkdir. Başqa sözlə, insanları və onların tələblərini təhlil etmək lazımdır.

Nəticə olaraq, effektiv marketinq kommunikasiya sistemlərinin işlənib hazırlanması və tətbiqi tələbələrin işə götürülməsi, saxlanılması və ümumi institusional uğur kimi məqsədlərinə nail olmaq istəyən təhsil müəssisələri üçün zəruridir. Cazibədar brend hekayələri hazırlamaqla, müxtəlif kommunikasiya kanallarından istifadə etməklə və maraqlı tərəflərlə mənalı əlaqələri gücləndirməklə, qurumlar özlərini təhsil sektorunda lider kimi göstərə və uzunmüddətli perspektivdə davamlı artım və təsirə səbəb ola bilərlər.

Ədəbiyyat

1. Locke, J. (1990) Introduction to Communication Studies. 2nd edition. Published by Routledge.
2. Göksel, A.B., Kocabaş, F., Elden, M. (1997). Pazarlama İletişimi Açısından Halkla İlişkiler ve Reklam. Yayınevi Yayıncılık. İstanbul
3. Delozier, M.W. (1976). The Marketing Communications Process, McGraw Hill Book Company
4. Kotler, P. (1976) Marketing Management, 3rd Edition. Englewood Cliffs, NJ: Prentice- Hall.

## ALİ TƏHSİLDƏ NƏŞRİYYAT MƏHSULLARININ İDARƏEDİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

**Babayeva Ülviyyə Seyidağa qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ali təhsildə nəşriyyatın idarə olunması çox aktual və vacibdir. İşin əsas məqsədi, elmi məzmunun yaradılması, nəşriyyatın təşkil edilməsi və tərəqqi etdirilməsidir. İdarəetmə prosesləri ali təhsilin keyfiyyətini və nəzəriyyələrini təmin etməkdə, tədqiqatın inkişaf etməsində və biliklərin paylaşılmasında əhəmiyyətli rol oynayır. Nəşriyyatın idarə olunması, tədqiqat və elmi nəşrlərin keyfiyyətini yaxşılaşdırmağa kömək edir. Bu, mütəxəssislərin məqalələrini nəşr etmələrinə kömək edir və bu da öz növbəsində onların tədqiqatlarının paylaşılmasını və məlumatların yayılmasına şərait yaradır, həmçinin elmi məqalələrin, kitabların və digər nəşrlərin düzgün və effektiv şəkildə idarə olunmasını təmin edərək ali təhsil nəşriyyatının idarə olunması, məzunlar və tədqiqatçılar arasında nəşriyyat prosesləri və standartları barədə məlumat paylaşılmasına imkan verir, beləliklə də, tədqiqat nəticələri daha geniş cəmiyyətə çatdırılır, elmi tədqiqatların ən yeni və aktual məlumatlarla yenilənməsi imkanları genişlənir, ali təhsildə nəşriyyatın idarə olunması, elmi məzmunun yaxşılaşdırılması, tədqiqatın inkişaf etdirilməsi, biliklərin paylaşılması və elmi əhəmiyyətli nəşrlərin artırılması mütəxəssislərin fəaliyyəti və dəstəyi sayəsində baş tutur.

Nəşriyyat məhsulları, kitablar, jurnallar, məqalələr, elektron kitablar, audio kitablar və digər yazılı və səsli məzmunları əhatə edir. Bu haqda “Nəşriyyat işi haqqında Qanun”qanunda “naşirlərin, çap məhsullarını hazırlayanların və yayıcıların məsuliyyəti” nəzərə alınmışdır [3,s.501]. Bunlar əsasən məlumatın paylaşılması, tədqiqatın yayılması, informasiya vermə və məlumatların qeyd olunması üçün istifadə olunan nəşriyyat materiallarıdır. Nəşriyyat məhsulları müxtəlif sahələrdən olan mütəxəssislər, müəlliflər və tədqiqatçılar tərəfindən yaradıla bilər. Ali təhsildə kitab nəşriyyatı, digər nəşriyyat sahələrinə nisbətən fərqli xüsusiyyətlərə malikdir. İşin əsas məqsədi, elmi və təhsil məqsədli məzmunun yaradılması,

tədqiqatın yayılması və tərəqqi etdirilməsidir. Ali təhsil kitabları, tədqiqatçılar, mütəxəssislər və tələbələr üçün əsas mənbələrdir və bu kitabların idarə olunması və nəşriyyatı qətiyyətlə və dəqiq şəkildə planlaşdırılmalıdır.

"Təklif bazarının öz yerini tələbat bazarına verməsi nəşriyyatların daxili strukturunda və iş prinsipində dəyişikliklərlə müşayiət olunacaq: nəşriyyatlarda artıq əsas aparıcı fiqur redaktor deyil, marketinqə cavabdeh olan menecer və ya kommersiya direktoru olacaq. Nəşriyyatlara bazarı, onun ayrı-ayrı seqmentlərini daha dərindən öyrənmək lazım gələcək. Başqa sahələrə aid marketinq metodları nəşr işinə geniş tətbiq olunacaq"[1,s.29].Bütün bunlar və ali təhsil kitab nəşriyyatının əsas xüsusiyyətləri olaraq elmi məzmun, tədqiqat məzmunu, standartlar və formatlar, tədrisə yönəlik olması, dövri təkmilləşdirmə kimi xüsusiyyətlər nəzərə alınmaqla performansı uğurlu olacaqdır.

"Nəşriyyat işi sahəsində fəaliyyət mülkiyyətin bütün növlərinə əsaslanan müxtəlif təşkilati-hüquqi formalarda həyata keçirilə bilər[2, s.237]. Bu mənada ali təhsildə kitab nəşriyyatının məhsullarının satışının effektiv idarə olunması vacibdir və məsələyə düzgün yanaşmaq lazımdır. Bu, kitabların müştərilərə düzgün şəkildə çatdırılması, satışın artırılması və məhsulların tələbatı üzrə tənzimlənməsini əhatə edir.Satışın təşkili üçün müəyyən edilmiş mərhələlər əhəmiyyətli rol oynayır. Satış planlması, satış növləri, paylayıcılarla iş birliyi, önlayn satışların təşkili, satış reklamları və müştəri xidmətləri, satış nəticələrinin mnitorinqi və nəzəarət ali təhsildə kitab nəşriyyatının məhsullarının satışının effektiv şəkildə idarə olunmasına kömək edir.

Ədəbiyyat:

1. Ağamirzəyev Ə. Müasir dünyada nəşriyyat işinin əsas inkişaf meyillər: kitabşünaslıq və redaktor sənəti./ №2 (7)- 2018- 84 s.

**2.** Əliyev.Ə. , Səmidov A. və b. İnformasiya iqtisadiyyatı şəraitində nəşriyyatpoliqrafiya sektorunun formalaşmasında müasir İKT onların təhlükəsizliyi məsələləri./ AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı.-2018- 240 s

**3.** Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının Qanunu (30 may 2000-ci il)// Azərbaycan Respublikasının Qanunlar külliyyatı. III Kitab. – Bakı: Qanun, 2001, 501-559 s.

## XÜLASƏ

Tezis ali təhsildə nəşriyyat məhsullarının idarəedilməsinin xüsusiyyətləri və problemlərinə həsr olunmuşdur. Ali təhsil nəşriyyatının idarə olunması, məzunlar və tədqiqatçılar arasında nəşriyyat prosesləri və standartları barədə məlumat paylaşılmasına imkan verilməsi, tədqiqat nəticələrinin daha geniş cəmiyyətə çatdırılması, elmi tədqiqatların ən yeni və aktual məlumatlarla yenilənməsi, ali təhsildə nəşriyyatın idarə olunması, elmi məzmunun yaxşılaşdırılması, tədqiqatın inkişaf etdirilməsi, biliklərin paylaşılması və elmi əhəmiyyətli nəşrlərin artırılması məsələləri aydınlaşdırlmış, satış planlması, satış növləri, paylayıcılarla iş birliyi, onlayn satışların təşkili, satış nəticələrinin nəzarəti prosesləri araşırılmışdır.

***Açar sözlər:*** *ali təhsil, nəşriyyat məhsulları, satış, efektiv idarəetmə, paylayıcılar*

## РЕЗЮМЕ

Диссертация посвящена особенностям и проблемам управления издательской продукцией в сфере высшего образования. Управление публикациями в сфере высшего образования, обеспечение обмена информацией о издательских процессах и стандартах между выпускниками и исследователями, сообщение результатов исследований более широкому сообществу, обновление научных исследований новейшей и наиболее актуальной информацией, управление публикациями в сфере высшего образования, улучшение научного содержания, развитие исследований, уточнены вопросы обмена знаниями и увеличения научно значимых публикаций, проанализированы планирование продаж, виды продаж, сотрудничество с дистрибьюторами, организация онлайн-продаж, процессы контроля результатов продаж.

***Ключавые слова:*** *высшее образование, издательская продукция, продажи, эффективный менеджмент, дистрибьюторы*

**SUMMARY**

The thesis is dedicated to the features and problems of publishing products management in higher education. Managing higher education publishing, enabling information sharing about publishing processes and standards among graduates and researchers, communicating research results to the wider community, updating scientific research with the latest and most relevant information, managing publishing in higher education, improving scientific content, developing research, the issues of sharing knowledge and increasing scientifically important publications were clarified, sales planning, types of sales, cooperation with distributors, organization of online sales, control processes of sales results were analyzed.

***Keywords:*** *higher education, publishing products, sales, effective management, distributors*

## TƏHSİLİN MÜXTƏLİF SAHƏLƏRİNDƏ SÜNİ İNTELLEKTDƏN İSTİFADƏ

**Bayramova Pərvanə İman qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Süni intellektdən istifadənin populyar olduğu sahələrdən biri də təhsildir. Təhsildə istifadə edilən süni intellekt sistemləri informasiya ekspert sistemləri, intellektual təhsil sistemləri və dialoqa əsaslanan sistemlər kimi təsnif edilə bilər. Təhsil kontekstində süni intellekt tətbiqlərinin ən çox yayılmış nümunələrinə ağıllı tədris sistemləri , adaptiv öyrənmə sistemləri və tövsiyə sistemləri daxildir. Araşdırmaların əksəriyyətinin ağıllı tədris sistemləri üzərində olduğu bildirilir.

Süni intellekt həyatın bir çox sahələrində, xüsusən də təhsildə kömək edə biləcək xüsusiyyətlərə malik olduğu üçün onun həyata keçirilməsi adətən tələbələrin qəbuledilmə prosesindən başlayır. Təhsil müəssisəsi süni intellektdən qəbul prosesi ilə bağlı məlumatlandırıcı xidmətlərin göstərilməsi və qəbul prosesi ilə bağlı tələbələrə və abituriyentlərə məsləhətlərin verilməsi kimi qənaətbəxş xidmətlər gözləyir. Bu cür tapşırıqlar üçün ən çox yayılmış vasitələrdən biri insanlarla qarşılıqlı əlaqədə olan kompüter əsaslı informasiya texnologiyaları sistemləri olan Çatbotlardır. Çatbotlar "insan istifadəçiləri ilə söhbəti imitasiya etmək üçün mətn, səs və ya şəkillərdən və ya onların birləşməsindən istifadə edən proqram təminatı" kimi müəyyən edilir. Bir çox kommersiya və təhsil təşkilatları insanlar kimi ziyarətçilərə cavab vermək üçün öz veb saytlarında Çatbotlardan istifadə edirlər.

Uyğunlaşdırıcı təlim fəaliyyətləri tələbənin ehtiyac və bacarıqlarını nəzərə alaraq hansı məzmunun və necə təqdim ediləcəyini müəyyənləşdirir. Bu qərarlar tələbə, fənn birləşmələri və elmi şuralar tərəfindən qəbul edilir. Tələbə modulu konkret fənn üzrə təhsilalanın öyrənmə təcrübələrini qeyd edir və buna əsaslanaraq ən uyğun tədris məzmununu təklif edir. İntellektual repetitorluq sistemləri həm də sistem interfeysindən istifadə edərək tələbənin təcrübələrini qeyd edir. Bu məlumat mümkün yanlış təsəvvürləri müəyyən etmək və istifadədə yaranan problemlərini aşkar etmək üçün istifadə edilir. İnkişaf etməkdə olan texnologiyalar, fiziki və virtual siniflərdə interaktiv, uzaqdan və mobil hesablama formaları ilə birlikdə smart sinif konsepsiyasının inkişafında aydın tendensiya təşkil edir. Ağıllı auditoriyalarda istifadə olunan texnologiyaların əksəriyyəti süni intellektə əsaslanır ki, bu da həmin texnologiyalardan tədris prosesində interaktiv, adaptiv və intellektual istifadə etməyə imkan verir.

Təhsil sektoru məlumatların təkmilləşdirilməsi üçün analitikadan istifadəni laqeyd qoymayıb, xüsusən də süni intellekt texnologiyasının inkişafı və onun təhsildə tətbiqi təhsil işçilərini məlumat toplamaq və təhlil etməyə sövq edib. Bu gün təhsil müəssisələrindən əldə edilən məlumatlar müxtəlif təhlillər və qərarlar üçün istifadə olunur. Tələbələrin sosial

mediası, LMS, MOOC və s. platformalardan istifadə etməklə məlumatlar toplanır və qeydə alınır. Bu platformalarda edilən hər bir qarşılıqlı əlaqə, məsələn, kliklər, naviqasiya, tapşırıqlara sərf olunan vaxt və s. izlənilə və sonra mtütəxəssislər ərəfindən tədrisi qiymətləndirmək üçün istifadə edilə bilər.

Öyrənmə analitikası müxtəlif tədqiqatçılar tərəfindən müxtəlif yollarla qəbul edilir. Tələbələrin öyrənməsini proqnozlaşdırmaq üçün "ağıllı verilənlərdən istifadə" tələbə tərəfindən yaradılan məlumatların və analitik modellərin istifadəsi səbəbindən proqnozlaşdırıcı model kimi nəzərdən keçirilir. O, həmçinin ümumi dizayn çərçivəsi, məlumatlara əsaslanan qərar qəbulu, analitik tətbiqi və məlumat elmi tətbiqi hesab olunur. Analitika təhsil və öyrənmə sənayesində siniflərdən tutmuş şöbələrə, universitetlərə və regional, milli və beynəlxalq səviyyələrə qədər müxtəlif səviyyələrdə vacib və zəruridir. Hər səviyyədə təhsilin inkişafı üçün müxtəlif nəticələr verir.

Təlimdə dərs prosesindən əlavə olaraq işlərin qiymətləndirilməsi, insan resurslarının idarə edilməsi, elmi fəaliyyət, tədris materiallarının idarə edilməsi, valideynlərlə ünsiyyət, davamiyyətin izlənməsi və s. effektiv təlim mühiti üçün vacibdir. Bu vəzifələrin zəruriliyi göz qabağındadır, çünki onlar olmadan heç bir ali məktəb fəaliyyət göstərə bilməz. Professor-müəllim heyəti iş vaxtlarının təxminən yarısını bu tədrisdən kənar fəaliyyətə həsr edir. Süni intellekt sistemləri çox vaxt inzibati vəzifələr olaraq adlandırılan bu cür vəzifələrin yükünü azaltmaq və əhəmiyyətli kömək göstərmək üçün hazırlanmışdır. Qiymətləndirmə, ölçmə, dəyərləndirmə, valideynlərə və tələbələrə fərdi cavabların verilməsi, davamiyyətin monitorinqi və s. kimi vəzifələr bu cür sistemlər vasitəsilə səmərəli şəkildə idarə oluna bilər.

Ədəbiyyat

1.Arslan, K. (2020). Eğitimde yapay zekâ ve uygulamaları. Batı Anadolu Eğitim Bilimleri Dergisi, 11(1), 71-88.
2Becker, S. A., Brown, M., Dahlstrom, E., Davis, A., DePaul, K., Diaz, V., & Pomerantz, J. (2018). Horizon report 2018 higher education edition brought to you by educause (pp. 1-54). Educause.
3.Szeliski, R. (2022). Computer vision: algorithms and applications. Springer Nature.

## HEYDƏR ƏLİYEV MÜƏLLİM HAQQINDA

**Bünyadzadə Şəbnəm Şakir qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsili millətin gələcəyini formalaşdıran ən mühüm amil hesab edən Heydər Əliyev bu prosesi həyata keçirən müqəddəs peşə sahiblərinə - müəllimlərə həmişə böyük hörmət və ehtiram göstərmişdir.

Tarixin bütün dönəmlərində müəllim adının daşıyıcılarına xüsusi hörmət və məhəbbət bəsləndiyini dəfələrlə vurğulayan Ümummilli Liderimiz pedaqoji sənəti bütün peşələrdən üstün tutmuş, cəmiyyətin xoşbəxt və azad yaşayışını təmin etmək üçün müəllimdən yüksək mənəvi keyfiyyətlərə - saf, nəcib əxlaqa, dərin elmi biliyə, mədəni davranışa malik olmağı tələb etmişdir.

Onun sözlərinə görə, demokratik və suveren Azərbaycan dövlətinin təhsil siyasətini həyata keçirən müəllimin əsas vəzifəsi bütün bəşəriyyət üçün vacib olan mənəvi dəyərlərə hörmət və məhəbbət aşılamaqdan, şagirdin şərəf və ləyaqətini qorumaqdan ibarətdir. O, hesab edirdi ki, müəllim Vətəni sevməyi, onun rifahı naminə hər kəsə seçdiyi peşə sahəsində vicdanla çalışmağı çox böyük səbrlə öyrədir. Məhz buna görə də müəllimlik "insanı kamilliyə aparan sənət" sayılır.

Ulu Öndərin fikrincə, xalqın intellektual potensialının formalaşmasında, təhsilin inkişafında müəllimlərin üzərinə böyük vəzifələr düşür. Cəmiyyətdə saf insan mənəviyyatı çox böyük dəyər hesab olunur.Bu dəyəri insanlığa bəxş edənlər isə məhz müəlimlərdir.

Bütün varlığı ilə əsl xalq müəllimi olan Heydər Əliyev parlaq həyatı və fəaliyyəti boyu heç bir təhsil müəssisəsində dərs deməsə də, məktəb və təhsil haqqında hər bir təhsil işçisi ilə bərabərhüquqlu dialoqa girmək imkanına malik idi. O, respublikaya rəhbərlik etməyə başladığı 1969-cu ildən təhsil sahəsinin inkişafını daim diqqət mərkəzində saxlamışdır. Sonralar - 1982-ci ildən başlayaraq, 5 il keçmiş Sovet İttifaqında Nazirlər Soveti sədrinin birinci müavini kimi təhsillə bağlı üç nazirliyin - Ali Təhsil Nazirliyi, Maarif Nazirliyi və Texniki Peşə Təhsili Komitəsinin fəaliyyətinə rəhbərlik etmiş, onlar tərəfindən həyata keçirilən bütün dövlət səviyyəli olan tədbirlərin iştirakçısı olmuşdur.

Heydər Əliyev demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda həlledici rol oynayacaq gənc nəslin yetişdirilməsində müəllimlərin önəmli rol oynadığını dönə- dönə vurğulayırdı. Təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə yeniləşən məzmunu həyata keçirməyə qadir olan yüksək səviyyəli, səriştəli pedaqoji kadrların hazırlanmasına xüsusi diqqət yetirirdi. Təbii ki, bütün bu problemlərin uğurlu həlli , ilk növbədə , təhsil sahəsində əsaslı islahatların aparılmasını tələb edirdi.

Bütün bu amillər nəzərə alınaraq, Heydər Əliyevin 30 mart 1998-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar proqramını hazırlamaq üçün xüsusi Dövlət Komissiyası yaradılmış, bu komissiyanın işləyib hazırladığı İslahat Proqramı Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli, 168 saylı sərəncamı ilə təsdiq edilmişdir.

Yeni pedaqoji təfəkkürlü müəllim kadrlarının hazirlanması,onların ixtisası ilə bağlı yenilikləri müntəzəm izləməsi, peşəkarlığının yüksəldilməsi də təhsil islahatının başlıca tələblərindən idi.

Bundan əlavə, məktəblərdə sağlam mənəvi-psixoloji mühitin formalaşdırılmasına xüsusi önəm verən Ulu Öndər belə hesab edirdi ki, istedadın yetişdirilməsi prosesində "şagird-müəllim" münasibətlərinin tənzimlənməsi mexanizminin yaradılması çox vacibdir. O, ədalətin hər yerdə olduğuna inanırdı. Ancaq şübhəsiz ki, məktəb və universitetlərdə ədalət və mənəvi saflıq daha çox önəm kəsb edir, çünki məktəb və universitetlər uşaq və gənclərin şüurunun formalaşması prosesidir və bu prosesdə önəmli rol oynayan hər bir müəllim öz adının və peşəsinin müqəddəsliyini dərk etməli, onu ləkələyə biləcək hər cür neqativlikdən uzaq olmalıdır.

Ulu Öndərin nöqteyi-nəzərinə görə, müəllimlər Azərbaycanın ziyalı təbəqəsi içərisində özünəməxsus mövqeyə malikdirlər. Onlar böyük hörmətə layiqdirlər və dövlət tərəfindən geniş dəstək almalıdırlar. O. məhz müəllimlərin qüvvəsi və səyi nəticəsində müstəqil Azərbaycanın gələcək inkişafını təmin edən fədakar gənc nəslin formalaşdırılmasını önəmli vəzifə hesab edirdi.

Heydər Əliyev müəllimlərin sosial müdafiəsinin təmin edilməsi, maddi vəziyyətinin yaxşılaşdırılması da daxil olmaqla, müxtəlif məsələlərin həlli ilə davamlı olaraq məşğul olmuşdur.

Müstəqil Azərbaycana rəhbərlik edən Heydər Əliyevin rəhbərliyi ilə müəllimlərin əməkhaqqı ardıcıl olaraq artırılmışdır. 1996-cı ildə 20%, 1997-ci ildə 30%, 2000-ci ildə isə 25% artım müşahidə olundu. Ancaq bu artımların müəllimlərin maddi ehtiyaclarını lazımi səviyyədə təmin etmək üçün yetərli olmadığını hesab edən Heydər Əliyev 2003-cü il mayın 15-də dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində çalışan müəllimlərin və digər işçilərin Vahid Tarif Cədvəli ilə müəyən edilmiş aylıq vəzifə (tarif) maaşlarının nəzərəçarpacaq dərəcədə - 50 faiz artırılması haqqında sərəncam imzalamışdır.

Ulu Öndərin rəhbərliyi ilə müəllimlərin dəstəklənməsi və həvəsləndirilməsi üçün mühüm işlər görülmüşdür. Onun fəaliyyəti dövründə orta və ali təhsil ocaqlarının yüzlərlə müəllimi "Şöhrət" ordeni, "Tərəqqi" medalı ilə təltif olunmuş, "Əməkdar müəllim" kimi mötəbər adlara layiq görülmüşdür. Bundan əlavə, ali təhsil müəssisələrinin professor-müəllim heyətinə "Əməkdar ali məktəb işçisi" və "Əməkdar elm xadimi" fəxri adları verilmişdir.

Hazırkı dövrdə çiçəklənən Azərbaycanımızın qarşısında duran bir sıra problemlərin həllində müəllimlərimizin də fəal iştirak etməsi xüsusi onəm kəsb edir.

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

**Bünyadzadə Şəbnəm Şakir qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Milli-mənəvi dəyərlər hər bir millətin özünəməxsusluğunu və mənəvi bağını təmsil edir. Azərbaycan xalqı bir çox xalqlar arasında öz milli - mənəvi dəyərlərinə görə seçilir, bəşəri inancları və adət-ənənələri ilə beynəlxalq aləmdə özünəməxsus yer tutur. Bu dəyərlər zaman keçdikcə inkişaf edir, insanların və mədəniyyətin inkişafına təsir göstərir.

Milli-mənəvi dəyərlərin yaşadılması və gələcək nəsillərə ötürülməsi insanların keçmişə, onun varlığına bağlılığı deməkdir. Adət-ənənələrimiz, dini inanclarımız, dilimiz, ədəbiyyatımız, mədəniyyətimiz və bu torpaqlarda tarixən mövcud olan birgəyaşayış, tolerantlıq bizim milli-mənəvi dəyərlərimizdir. Bu dəyərlərə sadiq qalmaq, onların əbədiləşdirilməsi, yayılması və nəsildən-nəslə ötürülməsi ölkəmizin, xalqımızın gələcəyi üçün çox vacibdir. Azərbaycan xalqı bu dəyərlərə əsaslanaraq tarixin çətin sınaqlarından uğurla çıxıb, öz milli kimliyini, quruculuq ənənələrini uğurla qoruyub saxlayıb.

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev xalqımızın mədəniyyəti və mənəviyyatı ilə son dərəcə incəliklə davranmağı, gənc nəsli vətənə məhəbbət, vətənpərvərlik ruhunda tərbiyə etməyi tövsiyə edirdi.

Ulu Öndərin fikrincə, “Gənclərin tərbiyəsində milli, dini adət və ənənələrdən istifadə etmək lazımdır. Əsrlərin dərinliyindən bu günə gəlib çatan adət-ənənələrimiz həmişə adamları saflığa, təmizliyə dəvət etmişdir. Bu gün biz də gəncləri paklıq, saflıq,yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik”. [2. s. 296].

İllərlə aparılan araşdırmalar sübut etdi ki, bu gün Azərbaycanda mövcud olan adət-ənənələrin çoxu qədim köklərə malikdir. Mənbələr təsdiq edir ki, Azərbaycan qədim zamanlardan bura gələn insanları heyran edib. Onların marağına səbəb təkcə ölkəmizin əsrarəngiz təbiət mənzərələri, zəngin təbii sərvətləri deyil. Bu gözəl ölkənin sakinlərinin maraqlı adət-ənənələri və milli mənəvi dəyərləri də onlarda dərin təəssürat yaradıb. Azərbaycanın min illər əvvəl formalaşmış milli dəyərləri bu günə kimi dəyişməyib, unudulmayıb. Azərbaycan xalqı bu gün də bu mənəvi dəyərləri rəhbər tutaraq yaşayır.

Milli oyanış dövründə hər bir xalqın bu dəyərlər uğrunda canından belə keçməyə hazır olması xalqımızın öz milli dəyərlərinə sədaqətinin bariz nümunəsidir. Həyatımızın bütün sahələrində olduğu kimi bu tarixi missiyanın həyata keçirilməsində də Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

1969-cu il iyulun 14-də Azərbaycanda hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev ilk gündən bütün ideoloji-siyasi əngəllərə sinə gərərək, Azərbaycan xalqının milli şüurunun yüksəldilməsi, bu sahədə qorxu və mənfi halların aradan qaldırılması üçün bütün zəruri tədbirləri görməyə başladı.

Ulu Öndər xalqın milli qürurunun yüksəldilməsi, onun öz şanlı keçmişinə, köklərinə qaytarılması, zəngin bədii irsinin, mədəniyyətinin, incəsənətinin, adət-ənənələrinin qorunması, ana dilinin inkişafı istiqamətində silsilə tədbirlər həyata keçirmişdir.

Heydər Əliyev dilimizə yamaq vuran, onu yad sözlər hesabına “zənginləşdirmək” istəyən üzdəniraq “ziyalılara” sərt cavab verərək deyirdi ki,”... biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz ana dilimizlə Azərbaycan dili ilə fəxr edirik. Onu yaradanlar, elmi əsasını quranlar, inkişaf etdirənlər olub. Bu, müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük sərvətidir. [3. s.15].

Azərbaycan təfəkkür dünyasının ən dəyərli nümayəndələri: Cəlil Məmmədquluzadə, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, Mikayıl Müşfiq və b. şübhəsiz ki, Azərbaycan ədəbiyyatını, Azərbaycan ədəbi dilini yaradan, onu milli varlıq kimi gələcək nəslə ötürən ədiblərimizdir və Ulu Öndər onları xalqımızın milli sərvəti hesab edirdi. Çünki onların sayəsində Anamızın-Azərbaycan adlı cənnət vətənimizin doğma dili olan Azərbaycan

dili əsrlərin keşməkeşlərindən alnı açıq, üzü ağ çıxaraq mükəmməl, şirin, axıcı, işlək və zəngin bir dilə çevrilmişdir.

Heydər Əliyev 9 avqust 2001-ci ildə “ Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında”, 2 yanvar 2003-cü il tarixdə isə “ Azərbaycan Respublikasında dövlət dili haqqında Qanun”un tətbiq edilməsi barədə fərman imzalamışdır.

Dini məbədlərimizin və abidələrimizin bərpası və yenidən qurulması Ulu Öndərin rəhbərliyi ilə müstəqil Azərbaycanın mövcud olduğu dövrə təsadüf edir. Məhz bu dövrdə yüzlərlə ibadətgah inşa və ya bərpa edilmiş, dini dəyərlərimiz yenidən dirçəldilmişdir. Əsrlər boyu xalqımızın ziyarət yeri olan, lakin sovet rejimi tərəfindən dağıdılmış Bibi Heybət məscidinin və ziyarətgahının Heydər Əliyevin tapşırığı ilə yenidən qurulması onun bu sahədəki xidmətlərinin əhəmiyyətini göstərir. Heydər Əliyev hesab edir ki, İslam milli - mənəvi varlığımızın tərkib hissəsidir. İslam dini bütün əsrlər boyu özünün mütərəqqi mahiyyətini sübut etmiş, müsəlmanlara davamlı dəyişiklik, xoşbəxtlik gətirmişdir.

Ulu Öndər dönə- dönə vurğulayırdı ki, “ İslam dini bizim müqəddəs dinimizdir. “Qurani – Kərim” müqəddəs kitabımızdır. İslam dininin, Quranın xalqımıza bəxş etdiyi mənəvi dəyərlər bizim üçün əzizdir və ... gənclərin bu gün də, gələcəkdə də tərbiyəsi üçün çox əhəmiyyətlidir [2, s.362] .

Heydər Əliyev xalqımızın milli-mənəvi dəyərləri içərisində azərbaycanlıların qonaqpərvərliyini , milli və dini bayramlarımızı – Novruz, Ramazan və Qurban bayramlarını çox zəngin , nəsildən nəslə ötürülən və dəyəri heç nəylə ölçülə bilməyən bir sərvət hesab edirdi.

“Ənənə və adətlərin yaranması və inkişafı həyat tərzinin mühüm tərkib hissəsi olmaq etibarilə, tarix boyu nəsildən-nəslə keçən sosial təcrübə, əmək üsulları və vərdişləri, insanların ailə və məişətdəki davranış normalarını və qaydalarını özündə təcəssüm etdirir. Ənənə mədəni irsin saxlanılmasının bir formasıdır [1. s.17].

Biz bütün milli-mənəvi dəyərləri qədim Azərbaycan ədəbiyyatından öyrənirik. Hansı əsəri götürsən, hamısında - ədəbiyyat xəzinəsində, qəhrəmanlıq, məhəbbət dastanlarında, igidliyi, məharəti, mərdliyi təbliğ edən nağıllarda, insanın, həyatın, təbiətin gözəlliyini tərənnüm edən şeirlərdə, məhəbbət şeirlərində, hamısında insanın qaranlıq yollarını məşəl kimi işıqlandıran zəngin həyat təcrübəsindən doğan əsərlər xalqın kamilliyi, mənəvi gücü, quruculuğu, yaradıcılığı, insanpərvərliyi, həyat və azadlıq eşqi öz parlaq ifadəsini tapmışdır.

Ulu Öndər əsrlərin sınağından keçib gələn bu zəngin mənəvi irsin ən böyük qoruyucusu kumu onu gələcək nəsillərə əmanət etdi. Dəyəri heç nəylə ölçülə bilməyən bu zəngin əmanəti qorumaq və onu sonrakı nəsillərə ötürmək ilahi bir missiyadır.

Ədəbiyyat

1.Adət və ənənələr mənəvi-əxlaqi dəyərlər kimi [Mətn]. Bakı: Nərgiz, 2000.-7s.

2.Əliyev H. Təhsil millətin gələcəyidir. B: Təhsil, 2002.-580s.

3.Həsənov A. Milli- mənəvi dəyərimiz. B: "Elm və təhsil", 2010. -360s.

4. Həsənov İ. Mədəniyyət, incəsənət və turizm haqqında. / 525-ci qəzet.- 2015.- 28 may.- S.8.

5. Milli-mənəvi dəyərlərimizi qoruyaq və nəsillərə çatdıraq. B: Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, 2014. – 36s

## XÜLASƏ

Hər bir millətin özünəməxsusluğu ilə seçilən onun mənəvi bağını təmsil edən, insanın davranış qaydalarını formalaşdıran milli-mənəvi dəylərimizin yaradıcısı xalqdır. Milli-mənəvi dəyərlər zaman keçdikcə inkişaf edir, insanların və mədəniyyətin inkişafına təsir göstərir. Dünyada dəyərlərin yaradılması prosesinin nəticəsi olaraq ənənələr sistemi və hər bir insanın hüquqlarını tam təsdiq edən prinsiplər yaradılır. Həyatımımzın bütün sahələrində olduğu kimi bu tarixi missiyanın həyata keçirilməsində də ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

***Açar sözlər:*** *milli mənəvi dəyərlər, din, dil, mədəniyyət, adət-ənənə*

**РЕЗЮМЕ**

Народ является творцом наших национально-нравственных традиций, которые представляют собой моральную связь каждого народа, отличающегося своей самобытностью и формирующего правила поведения людей. Национально-нравственные ценности развиваются с течением времени и влияют на развитие народа и культуры.

Система традиций как результат процесса создания ценностей в мире и создаются принципы, полностью подтверждающие права каждого человека. Как и во всех сферах нашей жизни, общенациональный лидер Гейдар Алиев оказал исключительные заслуги в осуществлении этой исторической миссии.

***Ключевые слова:*** *национальные духовные ценности, религия, язык, культура, традиции*

**SUMMARY**

The people are the creator of our national moral values, which represent the moral bond of each nation, which is distinguished by its uniqueness, and which shape the rules of human behavior. National and moral values develop over time and influence the development of people and culture.

A system of traditions as a result of the process of creating values in the world and principles are created that fully confirm the rights of every person. As in all areas of our life, national leader Heydar Aliyev had exceptional services in the implementation of this historical mission.

***Key words:*** *national spiritual values, religion, language, civilization, customs*

## LİDERLİKDƏ EMOSİONAL İNTELLEKTİN ƏHƏMİYYƏTİ

**Cəfərova Amənə Zaur qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsil sistemində uğur qazanılamasına təsir edən əsas amillərdən biri də liderlikdir. Təhsil sistemində uğur və nailiyyətlərin qazanılmasını təmin edən liderdə ön plana çıxan əsas xüsusiyyətlərdən biri emosional intellektdir. Emosional intellektə malik insanlar hədəflərə çatmaqda daha effektiv bir liderlik nümayiş edirlər. Bəs emosional intellekt nədir? Liderlikdə niyə bu qədər vacibdir?

Emosional intellekt və ya EQ (emosional əmsal); Öz duyğularını anlamaq, idarə etmək və həmçinin də başqalarının duyğularını anlamaq bacarığıdır. Bu, insanın özünün və başqalarının emosional reaksiyalarını başa düşmək və onları effektiv şəkildə idarə etmək qabiliyyətinə aiddir. Daha geniş mənada emosional intellekt aşağıdakı dörd komponentdən ibarətdir:

-Özünü dərk etmək: Bir insanın duyğularından xəbərdar olmaq və onların hərəkətləri və ya performansları ilə əlaqəsini tanımaq, duyğuların digər insanlara necə təsir etdiyinə dair özünü dərk etmək, öz hisslərini, güclü və zəif tərəflərini, ehtiyaclarını və motivasiyalarını dərindən dərk etməyi də bura aid edə bilərik.

-Özünü idarəetmə: Burada məqsəd insanın öz duyğularını və hərəkətlərini idarə edə bilməsidir. Ümumiyyətlə, yüksək emosional intellektə malik olan lider aşağıdakı bacarıqlara malik olur:

- Hərtərəfli düşünməyə və anlayışlı olmağa meyl.
- Qeyri-müəyyənlik və dəyişikliklərə rahatlıq.
- Stressli vəziyyətlərdə işləyərkən məhsuldarlığı qorumaq üçün mənfi emosiyaların tənzimlənməsi.
- Dəyişikliklərə açıq olmaq və yeni şərtlərə uyğunlaşmaq.

- Gözləntiləri qarşılamaq, konstruktiv tənqidə açıq olmaq, şəxsi inkişafı davam etdirmək.
- İnsanlarda narazılığa səbəb olan vəziyyətlərin müsbət tərəflərini onlara müsbət prizmadan yanaşaraq göstərmək.

-Sosial şüur: Empatiya qurma qabiliyyəti bu başlığın əsasını təşkil edir. Başqalarının perspektivlərini başa düşmək və onların emosional vəziyyətlərinə uyğun ünsiyyət qurmaq bacarığı burada əsas götürülür. Bundan əlavə, təşkilatlar daxilində sosial rollardan, insan münasibətlərindən və sosial şəbəkələrdən xəbərdar olmaq bu sahədə digər tələblərdəndir.

-Münasibətlərin idarə edilməsi: Bu komponent emosional intellekt və liderlik arasında güclü əlaqəni anlamaq üçün vacibdir. Münasibətlərin idarə edilməsində adətən liderdə axtarılan bacarıqlar bunlardır:

- Digər inasanlara müsbət təsir göstərmək, onları öz hərəkətləri ilə ona dəstək olmağa inandırmaq.
- Rasional məsləhət, konstruktiv rəy, davamlı dəstək və potensialı üzə çıxaran tapşırıqlarla təşkilatda inkişafı təmin etmək.
- Münaqişə vəziyyətlərinə diqqətlə yanaşmaq və hər kəsi inandıracaq həll yolları təklif etmək.ϖ
- Kollektivin fəal iştirakını təmin etmək, işin və mükafatların bölüşdürülməsində ədalətli olmaq İstedadların düzgün istiqamətlərdə qiymətləndirilməsi, komanda üzvlərinin güclü tərəflərini üzə çıxarmaq və bütün komandanı ümumi məqsədə çatmaq üçün motivasiya etmək bacarığı.

Qeyd etmək lazımdır ki, emosional intellekt liderlər üçün uğur qapılarını aça bilən bacarıqlardan ibarətdir. O, liderlərə müəssisələrini idarəçiliyindən tutmuş ən kiçik bölməyə qədər bir çox sahədə səmərəliliyi artıra bilən yanaşmalar təklif edə bilər. Liderlikdə emosional intellektin bəzi üstünlükləri bunlardır:

İnsan münasibətləri: Lider öz komandası ilə müsbət və konstruktiv əlaqələr qurmalıdır. Emosional intellekt insanların duyğularını anlamaq və onlara hörmət etmək qabiliyyətini təklif edir. Bu yolla lider öz işçilərini motivasiya etməkdə və onların bağlılığını artırmaqda daha uğurlu ola bilər.

Ünsiyyət bacarıqları: Liderin effektiv ünsiyyət qurmaq bacarığı təşkilatın uğuruna böyük təsir göstərə bilər. Emosional intellekt: bu, səs tonu, empatiya və effektiv dinləmə kimi ünsiyyət bacarıqlarını əhatə edir. Bu, liderə təkliflərini daha yaxşı çatdırmağa və işçilərinin rəylərini daha yaxşı başa düşməyə imkan verir.

Stressin idarə edilməsi: Tez-tez yüksək stress altında işləmək liderin qərar qəbul etmə qabiliyyətinə və fəaliyyətinə təsir göstərə bilər. Burada emosional intellekt onlara stressi daha effektiv idarə etməyə kömək edir. Liderin sakit qalmaq və stresli vəziyyətlərin öhdəsindən gəlmək qabiliyyətinin artırılması da təhsil sisteminin uğurunu artıra bilər. Komanda işi: Liderin idarə etməli olduğu komandalar çox vaxt fərqli şəxsiyyətlərə malikdir. Hər bir komanda üzvü lider tərəfindən tanınmalı, onların bir-biri ilə uyğunluğu və bacarıqları dəqiq qiymətləndirilməlidir. Emosional intellekt liderin müxtəlif şəxsiyyətlərlə işləmək və komanda üzvlərini bir yerdə saxlamaq qabiliyyətini gücləndirir. Bu, həm də onların münaqişələri həll etmək və əməkdaşlığa nail olmaq imkanlarını artırır.

Qərar vermə: Qərar vermə mexanizmlərini idarə etmək lider üçün həmişə asan olmaya bilər. Bu mövzuda intuisiyanı gücləndirən emosional intellekt onlara daha şüurlu qərarlar verməkdə dəstək olur. Bu, liderlərə problemlərin həllində daha yaxşı olmağa və təşkilatların uzunmüddətli məqsədlərini daha yaxşı başa düşməyə kömək edə bilər.

Niyə emosional intellekt liderlikdə vacibdir? Emosional intellekt bir neçə səbəbə görə vacibdir. Emosional cəhətdən intellektli liderlər öz işçilərini uğurlu addımlar atması üçün daim həvəsləndirərkən müsbət, məhsuldar və səmərəli iş yerini inkişaf etdirə və qoruya bilər. Bu vacib bacarıqlara sahib olan liderlər, işçilərin risk götürmək və fikirlərini bölüşmək üçün rahat hiss etdikləri mühiti yarada bilər.Onlar sərt qərarlar qəbul edə, münaqişələri effektiv şəkildə həll edə və dəyişən təhsil məqsəd və şərtlərinə uyğunlaşa bilərlər. Emosional

intellektin olmaması liderin başqaları ilə əməkdaşlıq etmək və effektiv ünsiyyət qurmaq qabiliyyətinə mane olur. Lider öz emosiyalarını idarə edə bilmədikdə, işçilər öz fikirlərini bölüşməyə daha az həvəsli ola bilər və onların tam potensialına çatmaq ehtimalı azala bilər.

## MƏKTƏB-AİLƏ MÜNASİBƏTLƏRİNİN STRATEJİ İDARƏEDİLMƏSİ

**Cəmilli Sevil Mikayıl qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Tədqiqatlar göstərir ki, insanın əxlaqi dəyərləri onun ailə mənşəyindən güclü şəkildə təsirlənir. Ailə uşağın həyat təcrübəsinin və sosial standartlara məruz qalmasının əsas mənbəyidir. Uşaq məktəbə başlayanda artıq nəyin yaxşı və ya pis, gözəl və çirkin olduğu barədə fikirlərə sahib olur. Müəllimlər təkcə uşağın düşüncələrini deyil, həm də onların yaranmasına səbəb olan mühiti başa düşməlidirlər. Şagirdlərin valideynləri ilə ünsiyyət qurması onun üçün çox vacibdir. Müəllimlər və valideynlər həm məktəb, həm də məişət mikromühitlərinin təsirinə məruz qalan şagird vasitəsilə münasibətlər qururlar. İdeal olaraq, bu iki mikromühit birləşməlidir. Ailənin əsas məsləhətçisi kimi müəllim mikromühitə inteqrasiya etməlidir. Ailə və məktəb arasındakı əxlaqi əlaqəni tədqiq edərkən, məktəbin uşağın təbii əxlaqi xüsusiyyətlərini inkişaf etdirdiyini və ya onların yenidən tərbiyə edilməsinə ehtiyac olub olmadığını nəzərə almaq vacibdir. Müəllimlər evdə mənəvi mövqedən xəbərdar olmalı, valideynlər müəllimin pedaqoji və mənəvi gözləntilərini başa düşməlidirlər. Uşaqların əxlaqi inkişafını səmərəli şəkildə idarə etmək və təhsil ideyalarını həyata keçirmək üçün qarşılıqlı məlumatlılıq vacibdir.

Həmçinin təhsili çətin olan şagirdlərin valideynləri ilə münasibətləri də nəzərə almaq lazımdır. Bununla belə, aztəminatlı evlərdən olan uşaqlar adətən əlavə çətinliklərlə üzləşirlər. Müəllimlər bu şagirdlərin valideynləri ilə ünsiyyət qurmağın çətinliyini başa düşürlər. Valideynlər övladının inkişafında iştirak etmədiklərini müdafiə etdikdə çox vaxt "işimiz var", "vaxtımız yoxdur" və ya "hər şeyi sınadıq və heç nə alınmadı" kimi bəhanələr gətirirlər. Valideynlər tez-tez deyirlər: "Məktəbdir"

Ünsiyyət qurmaq bacarığı müəllimin peşəkar xüsusiyyətidir. Güclü psixoloji mədəniyyət müəllimlərin effektiv ünsiyyət qurması, dinləməsi, qarşılıqlı əlaqədə olması və tələbələrə təsir etməsi üçün vacibdir. Həmsöhbətin şagird və ya onun valideynləri olmasının fərqi yoxdur. Bütün hallarda o, psixoloji səriştə nümayiş etdirməlidir.

Bu qaydalar ünsiyyət zamanı konstruktiv dialoq yaratmağa kömək edə bilər:

Qayda 1: Nəyin bahasına olursa olsun öz baxışınızı müdafiə etməyin.

Hər bir həmsöhbətin yalnız öz nöqteyi-nəzərini müdafiə etməyə diqqət yetirməsi adi haldır. Valideynlərlə ünsiyyət bu şəkildə baş verərsə, müəllimlər əməkdaşlıq fəaliyyətlərini planlaşdıra bilər, lakin buna zəmanət verilmir. Yaxşı nitq müəllimin fikrini sadəcə sübut etməkdənsə, valideynləri övladının tərbiyəsində fəal iştirak etməyə cəlb etməkdən ibarətdir. Müəllimin şagirdin valideynləri ilə qarşılıqlı əlaqəsinin məqsədi məktəb və ailənin səylərini birləşdirməkdir, onların hakim mövqelərini gücləndirmək və ya uşağının pis davranışını sübut etmək deyil.

Qayda 2: Şagirdin şəxsi xüsusiyyətlərini deyil, problemi müzakirə edin.

Müəllim yalnız uşağın xarakter xüsusiyyətlərinə diqqət yetirməklə və ya valideynlərlə bir-birinin şəxsi xüsusiyyətlərinin "müzakirəsi" ilə həyata keçirilə bilməz. Söhbət ittihamlar və şübhələrlə gərginləşə bilər, bu da iştirakçılar arasında fikir ayrılığına səbəb ola bilər.

Qayda 3: "Genetikaya etibar etməyin"

Təəssüf ki, müəllimlər tez-tez bunu qeyd edirlər: "Bu şagird yaxşı oxuyacaq və özünü layiqli aparacaqmı?" Çünki onun valideynləri... özləri zəif oxuyublar, itaətsiz olublar, alkoqoldan sui-istifadə ediblər və s. ( Piqmalion və Galon effekti)

İrsi xüsusiyyətlər və ailə şəraiti uşağın şəxsiyyətinə və istedadına əhəmiyyətli dərəcədə təsir göstərir. Bununla belə, onun təsiri sonsuz deyil. Müəllimlər "pis" ailələrdən gələn "yaxşı"

uşaqların şəxsi təcrübələrini bölüşə bilərlər. Əksinə, "yaxşıdan" "pis"ə doğru.Əgər uşağa birinci sinifdən “pis ailədən” damğası vurularsa, bu, aşağı akademik performansa və davranış problemlərinə səbəb ola bilər.

Qayda 4: “Bir-birimizə qarşı deyil, problemə qarşı birlikdəyik”.

Şagirdin valideynləri ilə səmərəli qarşılıqlı əlaqəni təmin etmək üçün münaqişədən qaçınmaq lazımdır. Başqalarını tənqid etməkdən və ya ittiham etməkdən çəkinin. Diqqəti valideynlərlə qarşılıqlı əlaqənin tipik üsuluna yönəltmək istərdik: valideyn-müəllim görüşləri.

Tematik valideyn iclasları sinifdəki valideynlərin əksəriyyətinin maraqlandığı aktual mövzulara yönəldilir. Tematik valideyn yığıncaqları çox vaxt valideynləri uşaq tərbiyəsi mövzularında maarifləndirməyə çalışır.

Valideyn iclasının təşkili qaydaları;

1.Valideyn yığıncağının mövzusu valideynlərə uyğun olmalıdır.

2.Valideyn yığıncağı valideynlər üçün uyğun vaxta təyin edilməlidir.

3. Valideynlər valideyn iclasının keçirilməsi planından xəbərdar olmalıdırlar.

4. Sinif müəllimi və valideynlər nəzakətli və inamlı ünsiyyət qurmalıdırlar.

5. Valideyn yığıncağında heç kimə etiket vurulmamalıdır.

6. Valideyn yığıncağı pedaqoji baxımdan uyğun və yaxşı planlaşdırılmış olmalıdır.

Beləliklə yuxarıda qeyd olunanlara istinadən deyə bilərik ki, məktəb- ailə münasibətlərinin strateji idarə edilməsində bu nüanslar nəzərə alınarsa proses daha yaxşı şəkildə təşkil olunmuş olar.

## DÜNYA TƏCRÜBƏSİNDƏ MƏKTƏBLƏRİN ŞAGİRDLƏRİN GƏLƏCƏK PEŞƏ SEÇİMİNDƏ İSTİQAMƏTLƏNDİRİLMƏSİNƏ YÖNƏLMİŞ FƏALİYYƏTİ

**Ələkbərova Günel Fazil qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məqsəd və vəzifələri. Bu tezisin məqsədi şagirdlərin gələcək peşə seçimləri ilə əlaqədar əsaslı qərar qəbul etməsində məktəblərin rolunu araşdırmaq və dünya təcrübəsində məktəblərin bu istiqamətdə nəzərdə tutduğu strategiyaları təsvir etməkdən ibarətdir. Bu tezisə əsasən aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur: 1. Peşə seçiminin əhəmiyyəti və məktəblərin bu prosesdəki rolunun önəmini vurğulamaq; 2. Dünya təcrübəsində təhsil müəssisələrinin bu istiqamətdə fəaliyyətini araşdırmaq.

Yenilik və əhəmiyyət. Günümüzdə karyera inkişafının təməli düzgün karyera seçiminə dayanır. Əksər hallarda məktəb illərində edilən bu seçimdə ümumorta təhsil müəssisələri böyük rol oynayır. Qeyd edilənləri nəzərə alaraq, məktəblərin şagirdlərin peşə seçimində istiqamətləndirilməsinə yönəlmiş fəaliyyətini təkmilləşdirmək üçün fərqli təcrübələrə bələd olmaq xüsusi əhəmiyyət kəsb edir.

Problemin aktuallığı. Qlobal kontekstdə şagirdlərin gələcək peşə seçimində istiqamətləndirilməsi prosesi müxtəlif maraqlı tərəfləri, o cümlədən məktəbləri, təhsil işçilərini və karyera məsləhətçilərini cəlb edən çoxşaxəli bir işdir. Ümumilikdə təhsil sistemi həm fərdi maraqları, həm də əmək bazarının tələblərini nəzərə alaraq, şagirdlərə gələcək karyeraları ilə bağlı əsaslandırılmış qərarlar qəbul etmələrinə kömək etməyə mühüm əhəmiyyət verir.

Metodologiya. Tezis təsviredici xarakter daşıyır və tezisin hazırlanmasına mövcud ədəbiyyatın təhlil olunması, ən son yeniliklərin araşdırılması kimi metod və üsullardan istifadə olunmuşdur.

Ümumi orta təhsil müəssisələrində karyera yönümünün əsas istiqamətlərindən biri kurrikuluma karyera yönümlü fənlərin daxil edilməsidir (Holman, 2014). Şagirdlər müxtəlif peşələr haqqında anlayışlar təmin edən, müxtəlif karyera yolları üçün tələb olunan bacarıq və bilikləri mənimsəməyə kömək edən müxtəlif mövzulara bələd olurlar.  Bu proses təhsilin ilkin mərhələlərində başlayır və şagirdlərə öz maraq dairələri və qabiliyyətlərini kəşf etməyə imkan verir.

Bundan əlavə, məktəblər müxtəlif vaxt aralığında karyera sərgiləri, seminarlar və digər müxtəlif tədbirlər təşkil edir ki, burada şagirdlər müxtəlif sahələrdən olan peşəkarlarla ünsiyyətdə olurlar (Savickas, 2008). Bu tədbirlər təhsil alanların müxtəlif peşələr haqqında bilavasitə öyrənmələri, müxtəlif karyeraların praktiki aspektləri haqqında fikirlər əldə etmələri üçün dəyərli platforma rolunu oynayır. Peşəkarlarla əlaqə şagirdlərə nəzəri bilikləri real dünya tətbiqləri ilə əlaqələndirməyə kömək edir, onlara gələcək yolları haqqında daha məlumatlı qərarlar qəbul etməyə kömək edir (3).

Akademik rəhbərliklə yanaşı, bir sıra məktəblər fərdi məsləhət sessiyalarına da üstünlük verir (4). Təlim keçmiş karyera məsləhətçiləri şagirdlərin güclü, zəif tərəflərini, maraqlarını və istəklərini müəyyən etmək üçün onlarla müntəzəm işləyirlər. Şagirdlər təkbətək qarşılıqlı əlaqə vasitəsilə onların akademik göstəriciləri və dərsdənkənar fəaliyyətləri nəzərə alınmaqla potensial karyera seçimləri ilə bağlı fərdi məsləhətlər alırlar (3).

Texnologiyanın inteqrasiyası ümumi orta təhsil müəssisələrində peşəyönümündə mühüm rol oynayır (4). Onlayn platformalar və resurslar tələbələrə müxtəlif peşələr, sənaye meylləri və təhsil tələbləri haqqında müasir məlumat vermək üçün istifadə olunur (Hooley & Rice, 2019). Bu rəqəmsal yanaşma təhsil alanların geniş çeşidli karyera seçimlərini müstəqil şəkildə araşdırmağa imkan verən zəngin məlumat əldə etmələrini təmin edir.

Üstəlik, peşə təhsili ənənəvi akademik üsulla davam etməyən öyrənənlər üçün alternativ yol kimi ön plana çıxır (Savickas, 2008). Peşə məktəbləri müxtəlif sahələrdə ixtisaslaşdırılmış təlimlər təklif edir, təhsil alanları texnologiya, səhiyyə və sənətkarlıq kimi xüsusi peşələrə hazırlayır. Təhsil seçimlərindəki bu şaxələndirmə şagirdlərin müxtəlif maraq və qabiliyyətlərinə cavab verir.

Bu müsbət səylərə baxmayaraq, karyera bələdçiliyi prosesində müəyyən problemlər mövcuddur. Xüsusilə bir çox ölkələrin ucqar rayonlarında və kənd yerlərində məhdud resurslar karyera məsləhəti xidmətlərinin effektivliyinə mane ola bilər (Samayanga & Ncube, 2015). Bundan əlavə, müəyyən peşələrlə bağlı ictimai gözləntilər və stereotiplər tələbələrin seçimlərinə təsir göstərərək, onların müxtəlif karyera yollarını kəşf etmələrini potensial olaraq məhdudlaşdıra bilər (Kazi & Akhlaq, 2017).

Nəticə olaraq qeyd edək ki, dünya təcrübəsində məktəblər şagirdlərin gələcək peşə seçimində istiqamətlənməsində mühüm rol oynayır. Karyera yönümlü fənləri daxil etməklə, tədbirlər təşkil etməklə, fərdi məsləhətlər verməklə, müasir texnologiyadan istifadə etməklə və peşə təhsilini təşviq etməklə, təhsil sistemi təhsil alanları düzgün qərar qəbul etmək üçün lazım olan bilik və bacarıqlarla təmin etmək məqsədi daşıyır. Çətinliklər mövcud olsa da, karyera rəhbərliyini təkmilləşdirmək üçün davam edən səylər daha möhkəm və uyğunlaşa bilən işçi qüvvəsinə töhfə verir.

Ədəbiyyat


1. Holman, J. (2014). Good career guidance. *The Gatsby Charitable Foundation, London.*
2. Hooley, T., & Rice, S. (2019). Ensuring quality in career guidance: A critical review. *British Journal of Guidance & Counselling, 47*(4), 472-486.
3. https://www.bls.gov/careeroutlook/2015/article/career-planning-for-high-schoolers.htm
4. https://www.globalcareercounsellor.com/blog/how-to-guide-students-towards-the-right-career-path/
5. Kazi, A. S., & Akhlaq, A. (2017). Factors affecting students' career choice. *Journal of research and reflections in education*, *2*(2), 187-196.
6. Samayanga, I., & Ncube, D. (2015). An evaluation of guidance and counselling services offered to students in Gwanda urban and peri-urban secondary schools.
7. Savickas, M. L. (2008). Helping people choose jobs: A history of the guidance profession. In *International handbook of career guidance* (pp. 97-113). Dordrecht: Springer Netherlands.

8. Watts, A. G., & Sultana, R. G. (2004). Career guidance policies in 37 countries: Contrasts and common themes. *International Journal for Educational and Vocational Guidance, 4,* 105-122.

## TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MARKETİNQ FƏALİYYƏTİNİN TƏŞKİL OLUNMASI

**Ələkbərli Aysel Tərlan qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsildə rəqəmsal marketinq məlumatların təhlil olunması və hədəf auditoriyaya çatmaq üçün yönəlmiş strategiyalarla effektiv nəticələr əldə etməyə imkan verir. Təhsil müəssisələrində marketinq fəaliyyətinin təşkil olunması müəssisənin məqsədi və onun qarşıya qoyulmuş missiyasına nail olmaq üçün strateji əhəmiyyət kəsb edir. Rəqəmsal təhsil marketinqindən tələbə qəbulunu artırmaq, müəssisənin tanınmasını artırmaq və rəqabət üstünlüyü əldə etmək üçün bu kimi məqsədlər üçün bunlar istifadə edilir. Təhsil müəssisələrində marketinq fəaliyyətinin təşkili ilə bağlı bəzi mühüm bir sıra amilləridə olur. Təhsildə rəqəmsal marketinq məlumatların təhlili və hədəf auditoriyaya yönəlmiş bir sıra strategiyalarla effektiv nəticələr əldə etməyə imkanı yaradır. Təhsildə rəqəmsal marketinq, marka məlumatlılığı, müştəri xidmətləri və satış paylama paylanması üçün bizim bələdçimizdir. Təhsil müəssisələrində rəqəmsal marketinq fəaliyyətinin təşkili üçün bir sıra addımlar belə atılır.

Təhsildə hədəf auditoriyasının müəyyən etmək lazımdır ki, bu da təhsildə marketinq strategiyalarının yaradılması zamanı təhsil müəssisəsinin hədəf auditoriyasının müəyyən edilməsi ən vacibidir. Marketinq planları tələbələr, valideynlər, müəllimlər və digər maraqlı tərəflər kimi müxtəlif qruplar üçün hazırlana bilər. Bundan əlavə olaraq, təhsildə bazar araşdırması aparmaq lazımdır. Buna səbəb isə, təhsil müəssisəsinin hədəf auditoriyası ilə bağlı vacib şəkildə bazar araşdırması aparılmalıdır. Bu araşdırma hədəf auditoriyanı daha yaxşı başa düşmək və onların ehtiyaclarına uyğun marketinq strategiyaları hazırlamaq üçün daha çox vacibdir. Bu səbəbdən də, təhsildə marketinq strategiyalarının müəyyən edilməsi, təhsil müəssisəsi üçün uyğun bir sıra marketinq strategiyaları müəyyən edilməlidir. Rəqəmsal marketinq, sosial media marketinqi və tədbirlərin təşkili kimi müxtəlif strategiyalardan istifadə etmək olar. Həmçinin təhsilin marketinq büdcəsinin müəyyən edilməsi, marketinq fəaliyyətləri üçün müəyyən edilən büdcə strategiyaların həyata keçirilməsində əhəmiyyətlidir. Bir şüyi də burada qeyd etmək olar ki, təhsil büdcəsi düzgün müəyyən edilməli və marketinq fəaliyyətlərinə uyğun bölüşdürülməlidir. İkinci bir nüansı da qeyd etmək olar ki, təhsildə marketinq fəaliyyətlərinin aparılması, təhsil fəaliyyətləri zamanı, müəyyən edilmiş marketinq strategiyalarına uyğun həyata keçirilməlidir. Bu fəaliyyətlərə reklam kampaniyaları, tədbirlərin təşkili, rəqəmsal marketinq və sosial media idarəçiliyi daxil ola bilər.

Rəqəmsal təhsil marketinqi zamanı mühüm amillərdən biridə, təhsilin məzmun marketinqidir ki, bir təhsil müəssisəsi hədəf auditoriyasına dəyərli məzmun təqdim etməklə brend şüurunu artıra bilər. Onlar potensial tələbələrə fayda verə və blog yazıları, e-kitablar və videolar kimi məzmunla onların etibarlılığını artıra bilərlər. Rəqəmsallaşdırma zamanı, təhsil haqqında məlumatların təhlili və optimallaşdırılmasıdır ki, rəqəmsal marketinq fəaliyyətlərinin nəticələrini mütəmadi olaraq təhlil edərək, strategiyaların effektivliyini ölçə və lazım gəldikdə optimallaşdırmalar edə bilərsiniz. Son olaraq qeyd edə bilərəm ki, təhsildə sosial media menecmenti, təhsil müəssisəsi sosial media platformalarından səmərəli istifadə edərək qarşıya qoyulmuş hədəf auditoriyaya çata bilir. Sosial media hesablarını mütəmadi olaraq yeniləmək, qarşılıqlı əlaqəni artırmaq və reklam kampaniyaları aparmaq vacibdir.

Nəticələrin qiymətləndirilməsi zamanı, təhsil marketinq fəaliyyətinin nəticələri mütəmadi olaraq qiymətləndirilməli və təhlil edilməlidir. Bu yolla strategiyaların effektivliyi ölçülə bilər və lazım gəldikdə dəyişikliklər edilə bilər.

Təhsil müəssisələrində marketinq fəaliyyətinin təşkili müəssisənin təbliğində və tələbələrin sayının artırılmasında mühüm rol oynayır. Bu addımları izləməklə siz effektiv marketinq strategiyası yarada və uğurlu nəticələr əldə edə bilərsiniz. Təhsil müəssisələrində rəqəmsal marketinq fəaliyyətinin təşkili brend şüurunun artırılması, tələbələrin sayının artırılması və qurumun rəqəmsal mövcudluğunun gücləndirilməsi üçün vacibdir. Bir sıra addımları yerinə yetirməklə siz effektiv rəqəmsal marketinq strategiyası yarada və uğurlu nəticələr əldə edə bilərsiniz.

## MƏKTƏB RƏHBƏRLƏRİNİN LİDERLİK ÜSLUBU MƏKTƏBDAXİLİ İNNOVASİYALARIN TƏTBİQİNİN AÇARI KİMİ

**Ələmzadə Rüfanə Qabil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Dəyişən dünyamızın tələblərinə uyğun olaraq təşkilatların özlərini daima inkişaf etdirməsi üçün ən mühüm rol menecerlərin üzərinə düşür. Bu yanaşma eyni zamanda məktəb rəhbərlərinə də aiddir. Günümüzdə həyatın hər sahəsində inkişaf və tərəqqi qaçılmazdır və bütün təşkilatlar kimi təhsil ocaqları da  ən yüksək texnologiyalardan yararlanmalı, innovasiyaların tətbiqinə açıq olmalıdır. İnnovativ yanaşmanın məktəblərin yenidən qurulmasında əvəzsiz rol oynadığı düşünülür. Bu səbəbdən idarəetmədə innovasiyalardan istifadə etməyi bilən və onu inzibati proseslərə tətbiq edən məktəb direktorları daha səmərəli məktəblər yaratmaq üçün daha imtiyazlı olacaqdır.

Bəşəriyyət sivlizasiyaya gedən yolda uzun bir tarixi keçmişə və təcrübəyə sahibdir. Yaşanan hər yeni bir gün insanlığın bilik və təcrübə bazasına çoxlu yeniliklər əlavə edir. Bu yeniliklərin böyük bir hissəsinin elmin üzərinə düşdüyünü nəzərə alsaq innovasiyaların tətbiq edilməsi bir təşkilat kimi məktəblərdən atdıqları hər addımda tələb edilir. İdarəetmədə innovasiyalardan istifadə ümumiyyətlə təşkilati səviyyədə idarəetmə ilə bağlı prosesləri və fəaliyyətləri planlaşdırmaq, məqsədləri müəyyən etmək və bu məqsədlərə səmərəli şəkildə nail olmaq üçün tətbiqi elmlərdən, texnoloji alətlərdən və avadanlıqlardan istifadə kimi müəyyən edilə bilər. Məktəb rəhbərləri bu gün onlardan gözlənilən idarəetmə vəzifələrini yerinə yetirmək üçün innovasiyaları lazımi şəkildə izləməli və istifadə etməyi bacarmalı, həm özləri, həm də müəllimlər və digər işçilər məktəbin effektivliyini təmin etmək üçün innovasiyanın bütün imkanlarından yararlanmalıdırlar. Bu tələb məktəb rəhbərlərindən təhsil liderləri ilə yanaşı innovativ liderlər olmasını da tələb edir. Bu gün məktəblərdə həyata keçirilən bütün fəaliyyətlərdə innovativ yanaşmadan müəyyən qədər istifadə olunmalıdır.

Müasir məktəb rəhbərlərinin innovativ olmaya və risk almağa açıq davranışlar nümayiş etdirməsi  təşkilatlarının inkişafı və davamlılığı nöqteyi-nəzərindən əhəmiyyət kəsb edir. Məktəbin göstərdiyi xidmətdə uğuru və üstünlüyü böyük ölçüdə idarəçinin gələcək məqsədlərinə nail olacağına inamından və buna uyğun olaraq yaradacağı yenilikçi və riskli strategiyalardan asılıdır. Yeniliklərə açıq olmaq həm də risk almağı tələb etdiyi üçün yenilik və risk bir-birini tamamlayan anlayışlar kimi dəyərləndirilir.

Şübhəsiz ki, məktəb direktorlarının sahib olduğu liderlik üslubları həm də onların idarəetmədə nəzərə çarpan innovativ yanaşma tərzləri haqqında da fikir söyləməyə icazə verir. Məktəb direktorlarının liderlik üslubları onların müəssisəsinin yenilikçi atmosferini və innovasiya mədəniyyətini formalaşdırır. Bu kontekstdə direktorların liderlik üslublarının innovasiyaya təsiri çox vacibdir. Məktəb direktorlarının liderlik üslubları yenilikçi yanaşmalarına görə birbaşa və ya dolayısı ilə məktəbdaxili idarəetmə və müəllim fəaliyyətinə müxtəlif təsirlər göstərdiyi məlumdur.  Müəllimlərin motivasiyasına, əməkdaşlığına və peşəkar inkişafına təsir göstərən avtoritar liderlik, demokratik liderlik, liberal liderlik kimi idarəetmə üslubları həm də onların innovativ yanaşma tərzlərinin formalaşmasına da təsir göstərir. Bu liderlik üslubları məktəbin daxili dəyişikliklərə və yeniliklərə necə yanaşdığını müəyyən etməkdə mühüm rol oynayır.

Məktəbdaxili idarəetmədə bütün səlahiyyəti öz əlində saxlamağa çalışan avtoritar lider çox vaxt yeniliyi, innovativ yanaşmanı və risk almaq ehtimalını məhdudlaşdırır. İlkin olaraq avtoritar lider vəzifə yönümlü olduqları, tez-tez birtərəfli qərarlar qəbul edib, öz komandasının rəylərini nəzərə almadan əmrlər verdiyi üçün bu əməkdaşların fikirlərini ifadə etməsinə, yeni fikirlərin, yanaşmaların, innovativ həllərin səsləndirilməsinə maneə olur. Digər tərəfdən idarəetmədə təhlükəsiz və əmin olduğu addımlar atmağı üstün tutan bu liderlik yanaşması risk almaqdan çox vaxt imtina edir ki, bu addım öz növbəsində bir sıra innovasiyaların tətbiqinə icazə vermir. Çünki innovasiya çox vaxt qeyri-müəyyənlik və risk tələb edən bir prosesdir. Bu cür mədəniyyətin hakim olduğu mühitdə çalışan müəllim heyəti təziq altında olduqları üçün onların daxili motivasiyası aşağı olur, bu da öz növbəsində onların innovasiya ideyaları yaratmaq və bu ideyaları həyata keçirmək potensialını məhdudlaşdırır. Nəticədə avtoritar liderlik tərzinə malik məktəb direktoru yeniliklərə yanaşmada çətinlik çəkir və bu, məktəbin inkişafına və innovasiyaya mənfi təsir göstərir.

Qarşılıqlı inam və hörmətin ön planda olduğu ədalətlilik prinsipinə əsaslanan demokratik üslubuna sahib olan lider tabeçiliyində olanların fikirlərinə diqqətlə yanaşdığı üçün innovasiya mühiti formalaşdıra bilir. Məktəb direktoru innovasiya ideyalarını qiymətləndirir və kollektivi yeni ideyalar irəli sürməyə həvəsləndirir. Məktəb daxilində açıq ünsiyyətin və əməkdaşlığın hakim olduğu mədəniyyət yaradan demokratik direktor müəllimlərin onun ilə səmərəli ünsiyyət qurmalarını və yenilikçi fikirlərini bölüşmələrini asanlaşdırır. Qeyd edək ki, innovasiya prosesində ünsiyyət mühiti yeni ideyaların yaranması ehtimalını artırır. Komanda işi və birgə beyin fırtınası innovasiyanın gücləndirilməsinə və müəllimlərin fəaliyyətinin yaxşılaşdırılmasına töhfə verir. Digər tərəfdən demokratik liderin öz komandasına verdiyi motivasiya komanda üzvlərinin innovativ ideyalar inkişaf etdirməyə həvəsləndirir və bu ideyaları həyata keçirmək üçün onlara lazimi imkanları təqdim edir. Özünə inamı və motivasiyası yüksək olan müəllimlər ümumiyyətlə daha yaradıcı və effektiv çıxış edir və bu da məktəbin və bilavasitə şagirdlərin uğurunda özünü göstərir. Nəticə etibarı ilə məktəb direktorunun demokratik liderlik üslubu ilə innovasiyaya yanaşması məktəbi daha innovativ, iştirakçı və ümumilikdə uğurlu edə bilər.

Liberal liderlik tərzini mənimsəyən məktəb rəhbərləri güc və məsuliyyətdən qaçaraq vəzifə və səlahiyyətləri işçilərin öhdəsinə buraxdıqları üçün yenilikçi davranışları sınaqdan keçirmək və risk etmək işçilərin məsuliyyətinə buraxılır. Liberal liderlik tərzinə malik olan menecer tez-tez risk almağı təşviq edir, bu cür riskləri daha asan qəbul edir və dəyişikliklərə daha açıq yanaşma tərzi nümayiş etdirir. Bu liderlik tərzi yeni ideyaları daha tez sınamağa və həyata keçirməyə yönəlmiş fəaliyyət göstərir. Bununla belə, bu sürət və risk etmək bəzən qeyri-sabitliyə və ya qeyri-müəyyənliyə səbəb ola bilir. Daha balanslı və sabit innovasiya prosesinin hakim olduğu demokratik liderlikdən fərli olaraq liberal liderlik daha riskli addımlara aparan innovasiya prosesini təmin edir. Nəticədə, liberal yanaşma kollektiv üzvləri, o cümlədən şagirdlərə innovasiya üçün mühüm olan sərbəstlik və həvəs verir, onlara öz istedad və yaradıcılıqlarından istifadə etməyə imkan verir.

Nəticədə, məktəblərin davamlı inkişafını və tərəqqisini təmin etmək üçün məktəb rəhbərlərinin innovativ liderlik yanaşmalarını qəbul etmələri çox vacibdir. Komanda üzvlərini bu yanaşmalardan istifadə etməyə təşviq edən liderlər innovativ düşüncə və risk alma mədəniyyətinin yaradılmasına töhfə verərək məktəbləri daha effektiv və səmərəli təhsil ocaqlarına çevirə bilər.

Bununla belə qeyd etmək mütləqdir ki, hər bir liderə öz şəxsi xüsusiyyətləri, təcrübələri və korporativ mədəniyyəti təsir edir. Ona görə də məktəb direktorunun liberal və ya demokratik liderlik tərzinə malik olması o demək deyil ki, o, avtomatik olaraq yeniliklərə üstünlük verəcək. Bəzi liderlər bu cür dəyişikliklərə müqavimət göstərə və ya ənənəvi üsullardan yapışa bilərlər. Lakin ümumilikdə, bu iki liderlik tərzi innovasiyaları təşviq edən mühiti gücləndirir.

# PEŞƏ TƏHSİLİNİN ƏMƏK BAZARI İLƏ QARŞILIQLI ƏLAQƏSİ

**Əlirzayev Səyyad Müşfiq oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

2007-ci il 3 iyul tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı" nın təsdiq edilməsi haqqında Sərəncam imzaladı. Dövlət proqramında əmək bazarında mövcud boş iş yerləri ilə peşə-ixtisas kadrlarının hazırlanması arasındakı tarazlığı təmin etmək planı xüsusi ilə qeyd olunur. Elm və Təhsil Nazirliyinin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə bununla bağlı bir sıra uğurlu tədbirlər həyata keçirilir.

Buna misal olaraq "Azərsun Holdinq" şirkətlər qrupu ilə imzalanmış Niyyət Protokolunu, UNESKO və Heydər Əliyev Fondu arasında imzalanmış Azər- baycanda peşə təhsilinin təkmilləşdirilməsi layihəsinin həyata keçirilməsi haqqında imzalanmış sazişi, Avropa Birliyi və ölkəmizdə olan digər şirkətlərlə peşə məktəbləri ilə əlaqələrini göstərmək olar.

Peşələr üzrə bacarıqların qiymətləndirilməsinə əsaslanan əmək bazarında tədqiqat nəticəsində gələcək işçilərin hansı bacarıqlara ehtiyacı olacağı barədə təsəvvür yaranır. Tədqiqat nəticəsində həmçinin bacarıqlara olan mövcud ehtiyac müəyyənləşdirilir və əmək bazarında mövcud ehtiyaclar və işçilərin bacarıqları arasında uyğunluğa aydınlıq gətirilir. Azərbaycanın əmək bazarı daha çox yerli səviyyədə fəaliyyət göstərir. Buna görə də yerli səviyyədə əmək bazarının qiymət- ləndirilməsi böyük əhəmiyyət kəsb edir və bu ölkə səviyyəsində statistik məlu- matlardan asılılığı azaldır.

Peşə təhsilinin inkişaf etdirilməsi, təhsil və əmək bazarı arasında kəmiyyət, keyfiyyət və gözləntilər baxımından mövcud olan uyğunsuzluqların aradan qal- dırılması məqsədi ilə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dəstək olaraq Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında 20 aprel 2016-cı ildə Peşə Təhsili üzrə Dövlət Agentliyi, 22 yanvar 2021-ci il tarixli 1257 nömrəli fərman ilə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin əsasında İqtisadi Zonaların İnkişafı Agentliyi publik şəxs kimi yaradılmış və bir çox fundamental sənədlər qəbul edilib.

Sürətlə dəyişən texnologiyaların inkişafı, iqdisadiyyatın dinamikası yerli və xa- rici əmək bazarındakı peşələrə ciddi təsir göstərməyə bilməz. Peşələr sürətlə dəyişir və yenilənir. Bəzi peşələr də tələbat olmadığından tədrisdən çıxır. Lakin elə peşələr də var ki, onlar heç vaxt aktuallığını itirmir. Tam əksinə, təbii olaraq əmək bazarında daim rəqabətdə qalib gəlir və yenilənməyə ehtiyac duyur.

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" sənədi hazırlanmışdır. Bu sənəd peşə təhsili və təlimi sahəsində dünyada mövcud meyllər nəzərə alınmaqla, ölkədə əmək bazarının tələblərinə uyğun təhsil proqramları əsasında ixtisaslı kadrlar hazırlayan peşə təhsili sisteminin inkişaf etdirilməsi məqsədilə çeviklik və inteqrasiya prsinsipləri əsasında hazırlanmışdır.

Dünyada iqtisadi qeyri-müəyyənlik və yeni bazarlara çıxış imkanı uğrunda artan rəqabət məhsuldarlıq tələblərinin artmasına səbəb olmuşdur. Buna müvafiq olaraq, dünya ölkələri bazarların, şirkətlərin və fərdlərin əmək məhsuldarlığının artırılmasına getdikcə daha çox diqqət yetirirlər. Burada texnologiya katalizator rolunu oynayaraq, təhsil müəssisələrini əmək bazarının tələblərinə cavab verməyə imkan verən vasitələrlə təmin edir.

Dövlət-özəl tərəfdaşlığı çərçivəsində infrastruktur və digər xərclərin optimal- laşdırılması və vəsaitlərdən istifadənin səmərəliliyinin artırılması peşə təhsilində yeni əməkdaşlıq imkanları yaradır. Dəyişən əmək bazarının tələblərinə çevik uyğunlaşan müvafiq peşə təhsili proqramları ilə işəgötürənlərin təlim tələblərinin vaxtında qarşılanması və kadrların yenidən hazırlanması müasir peşə təhsili müəssisələrini səciyyələndirən əsas

xüsusiyyətlərdəndir. Əmək bazarının tələb- lərinə uyğun kadr hazırlayan peşə təhsili sisteminin yaradılması inkişaf etməkdə olan ölkələrdə daha böyük əhəmiyyət kəsb edir.

Strateji Yol Xəritəsinin 2025-ci ilədək olan uzunmüddətli baxışına, əsasən, bu dövrə qədər ölkənin hədəf baxışı peşə təhsili müəssisələrini sahibkarlıq təşəbbüslərinə və yaradıcı ideyalaradəstək mərkəzinə çevirməkdən ibarətdir. Sahibkarlıq fəaliyyətinə başlayan məzunlar fərqli ideyalarını peşə təhsili müəssisələrinin laboratoriyalarında sınaqdan keçirə biləcəklər. Sahibkarlıq ideyalarının davamlı inkişafı və sənaye mərkəzləri ilə sıx qarşılıqlı əlaqələr peşə təhsili müəssisələrinə daha təcrübəli və bilikli müəllim heyətinin cəlb olunmasına və formalaşmasına təkan verəcəkdir.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezdetinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş" Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair "Strateji Yol Xəritəsi"
2. Abbasov Ə.M. inkşaf etmiş xarici ölkələrdə təhsil. Bakı, Elm və təhsil, 2020
3. https://president.az/az/articles/view/21953
4. Abbasov Akif İlk peşə-ixtisas təhsili: problemlər və perspektivlər. Bakı, 2016

## TƏHSİLİ İDARƏETMƏ MODELLƏRİ (AZƏRBAYCAN VƏ FİNLANDİYA TƏHSİL SİSTEMİNDƏ)

**Əliyeva Aysu Aqşin qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsili idarəetmə modeli, təhsil sistemini və müəssisələrinin idarə olunma və strukturu haqqında quruluş sistemidir. Təhsili idarəetmə modellərini yaratmaq üçün müxtəlif səylər göstərilmişdir. Hal-hazırda 6 təhsili idarəetmə modellərindən istifadə olunur. Onları vahid çərçivə halına salan professor Tony Bush olmuşdur. Onun bu modelləri müəyyən etmək üçün ilk cəhdi 1986-cı ildə nəşr olunmuş kitabında ("Theories of educational management") olmuşdur. O, burada 5 idarəetmə modelini göstərmişdir; formal model, kollegial model, siyasi model, subyektiv model, qeyri-müəyyənlik modeli.

Daha sonra bu modellərə mədəni modelləri özündə əks etdirən bir qrupda əlavə olundu. Aşağıda modellərin səciyyəvi xüsusiyyətləri verilmişdir:

Formal model - bu modellər rəhbərlərin qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün rasional vasitələrdən istifadə etdikləri iyerarxal sistemlər kimi nəzərdən keçirilən modellər qrupu kimi nəzərdə tutulur. İdarəçilər müəssisə daxilində rəsmi mövqeləri ilə qanuniləşmiş səlahiyyətlərə sahibdirlər. Bir neçə formal model altında struktur, sistem, bürokratik, rasional və iyerarxik modellər bu qrupa daxil edilir.

Kollegial model – T.Bush kollegial modellərə bu cür tərif vermişdir: "Kollegial modellərin əsasını təşkil edən fərziyyə iddia edir ki, ideal təşkilat konsensusa aparan qərar prosesi nəticəsilə siyasət təyin edə və qərarlar qəbul edə bilən təşkilatdır. Güc isə təşkilatın məqsədi haqqında ortaq anlayışa malik olduğu düşünülən təşkilatın bəzi və ya bütün üzvləri arasında bölüşdürülür".

Siyasi model – Bu model təhsil sahəsində XX əsrin sonlarında tətbiq edilməyə başlandı. Siyasi modellərdə maraq qrupları müəyyən bir siyasət məqsədinə nail olmaq üçün inkişaf edir və ittifaqlar yaradırlar. Bu model siyasi prosesdə 5 mərhələdən ibarətdir: sosial struktur; məlumatların ifadə edilməsi; qanunvericiliyin dəyişdirilməsi; siyasətin formalaşdırılması; siyasətin icrası.

Subyektiv model – Burada bütün təşkilatdan çox onun fərdi üzvlərinin məqsədləri vurğulanır. İştirakçıların vəziyyətləri müxtəlif yollarla şərh etdiyi düşünülür və bu fərdi qavrayışlar onların mənşəyi və qavranışlarından irəli gəlir. Subyektiv modellər əsasında xarici mühitlə əlaqələr həssas sayılır.

Qeyri-müəyyənlik modeli – Bu modelin əsasını təşkil edən fərziyyə qeyri-müəyyənliyin və gözlənilməzliyin təşkilatda qərar qəbul etmənin əsas xüsusiyyətləri olmasıdır. Bu modelə görə, müəssisələrin modellə bağlı heç bir şey aydın deyil və onun prosesləri başa düşülmür.

Mədəni model - Burada təşkilat üzvləri tərəfindən qəbul edilən ancaq açıqlanmayan mədəni normaların, dəyərlərin və inancların əhəmiyyətini və bu dəyərlərin onların davranışlarına və qərarlarına necə təsir edə biləcəyi vurğulanır. Mədəni modeldə üzvlər digər üzvlərin davranışına uyğun davranır.

Təhsili idarəetmə modelinin düzgün seçilməsi təhsilin keyfiyyətini artırır və onun inkişafına daim şərait yaradır. Dünyada son onilliklərdə təhsil sahəsində müvəffəqiyyətləri ilə seçilən Finlandiya və təhsil sistemi günü-gündən inkişaf edən Azərbaycanın təhsil sahəsində əldə etdikləri uğurun səbəbi məhz düzgün idarəetmə modelinin tətbiq edilməsidir. Hər iki ölkədə təhsilin idarəedilməsində formal (mərkəzi) modeldən istifadə edilir. Lakin bu ölkələr idarəetməyə müxtəlif mövqedən yanaşır.

Azərbaycanda təhsilin idarəedilməsini Təhsil və Elm Nazirliyi həyata keçirir. Təhsil və Elm Nazirliyi təhsilin strategiyasını təyin edir, kadrların hazırlanmasında, yerli və beynəlxalq proqram və layihələrin işlənilməsi və həyata keçirilməsində iştirak edir, təhsillə bağlı beynəlxalq münasibətlərdə Azərbaycan Respublikasını təmsil edir. Təhsil və Elm Nazirliyi Azərbaycan Respublikasının "Təhsil haqqında Qanunu"na əsasən hərəkət edir. Təhsil sisteminə daxil olan bütün məktəblər eyni standartlara əsasən fəaliyyət göstərir və onlara Təhsil və Elm Nazirliyi nəzarət edir.

Finlandiyada təhsil siyasətini Təhsil və Mədəniyyət Nazirliyi müəyyən edir, həyata keçirilməsinə Təhsil üzrə Milli Agentlik cavabdeh olsa da, təhsili idarəetmədə əsas rolu 309 bələdiyyə oynayır. Bələdiyyələr 7-15 yaş arası hərtərəfli təhsili təmin edir. Onlar əhəmiyyətli dərəcədə muxtariyyətə sahibdirlər. Bundan başqa Finlandiyada təhsil ikitərəfli idarə edilir desək yalan olmaz. Yəni həm formal (dövlət), həm də yerli (bələdiyyə) idarəetmə təhsildə əhəmiyyətli dərəcədə məsuliyyət daşıyır. Finlandiyada Təhsil və Mədəniyyət Nazirliyi fəaliyyətə başlamış ilk dövlət qurumlarından biridir. Təhsil və Mədəniyyət Nazirliyi təhsil, elm, mədəniyyət, idman üzrə strategiyaların hazırlanmasına, bu sahələr üçün əməkdaşlığın qurulmasına cavabdehdir. Burada Təhsil və Mədəniyyət Nazirliyinə iki nazir rəhbərlik edir. Təhsil naziri təhsil, elm, tədqiqat məsələlərinə, mədəniyyət naziri isə mədəniyyət, idman, gənclər, tələbələrə maliyyə yardımı və başqa məsələlərə cavabdehlik daşıyır. Bələdiyyələr məcburi məktəb yaşında olan bütün uşaqlara (əqli və fiziki məhdudiyyətli uşaqlar da daxil olmaqla) eyni imkanlara malik təhsil almalarına nəzarət edirlər. Həmçinin bələdiyyələr kadrların işə götürülməsi və təhsillə bağlı maliyyənin ayrılması ilə bağlı qərar qəbul edə, bəzi qərarların isə məktəblər tərəfindən qəbul edilməsinə şərait yaradırlar.

İstər Azərbaycanın, istərsə də Finlandiyanın təhsil sistemində idarəetmə modellərinin rolu əhəmiyyətlidir. Qloballaşan bir dövrdə yaşadığımız üçün hər sahədə olduğu kimi təhsil sahəsi daim inkişaf edir. Bu inkişafa uyğun hərəkət etmək üçün idarəetməni həyata keçirərkən düzgün model və bu modelə uyğun metodları seçmək vacibdir.

## QLOBALLAŞMA-BİRQÜTBLÜLÜKDƏN ÇOXQÜTBLÜLÜYƏ

**Əliyeva Fərqanə Sədaqət qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Yaşadığımız müasir dünyada qloballaşma proseslərinin sürətlə həyatımızın hər sahəsində əks etdiyini müşahidə edirik. Qloballaşma müxtəlif ölkələrin insanlarını, mədəniyyətlərini və iqtisadiyyatlarını bir-birinə yaxınlaşdıran və bir vahid sisteminə çevirən siyasi termindir. Bəşər tarixində fenomen anlayış sayılan qloballaşma, dini, siyasi, iqtisadi və mədəni dəyərləri, təşkil edərək planetar bir cəmiyyət yaradır.

İnsanlığın birliyinin ideyası, yəni "qloballaşma" heç də yeni deyil. Bu fikir artıq 2.000 il bundan əvvəl qədim yunan filosofları tərəfindən söylənilmişdir. Ta qədim dövrlərdən bizim vaxtımıza gələn anlayışlardır: birqütblülük, iki və.s. Bütün böyük imperiyalar:

Assuriya(Şumer-Akkad), Babilistan, Misir, Göktürk, Roma, Yunanıstan, Çin və.s) buna can atıblar, lakin bipolyarlıq illüziyasından başqa bir şey deyildi. Çünki dünyada həmişə imperiyaların çiçəklənən və süquta uğradıqlarını izləmək olur, bu zaman onların yerinə yeni imperiya siyasi arenaya daxil olurdu.

Tədqiqatçılar qloballaşmanın mənşəyini antik dövrlərə, nəhəng imperiyaların yaranması, böyük coğrafi kəşflərin və iqtisadi vəziyyətin Qərbi-Avropa ölkələrinin yeni torpaqları işğal etməsi, onların din və iqtisadiyyat yolu ilə idarə olunması dövrünə aid edilir. 1500 ildən çox bir müddətə mövcud olmuş “Böyük İpək Yolu” Avropa və Asiya xalqlarının həyatında, iqtisadiyyatın qüdrətlənməsində əvəzsiz rol oynamşdır. Müxtəlif zamanlarda mövcud olmuş Böyük imperiyaların və xırda dövlətlərin hər birinin “Böyük İpək Yolu” nda rolu və əhəmiyyəti danılmazdır. Ümumiyyətlə, Şərqdən-Qərbə uzanan bu karvan yolları uğrunda çoxlu müharibələr baş vermişdi. Ticarət yollarının əhəmiyyətinin getdikcə artması Avrasiya məkanında bir-birinin ardınca yaranan böyük dövlətlər arasında həm də dostluq və əməkdaşlıq kimi qarşılıqlı əlaqələrin təşəkkülünə də şərait yaratmıdı. “Böyük İpək Yolu” Çin və Roma kimi nəhəng imperiyaların nəzarəti altında gerçəkləşən beynəlxalq ticarət hər iki dövlətin süqutu ilə dayandırılmışdır, bununla da ipək yolu bir neçə əsrlər unudulmağa məhkum olmuşdur. Onun yenidən intibah italyan taciri və səyyahı Marko Polonun həyat illəri ilə və monqol imperiyasının rifahi dövrü ilə üst-üstə düşür.

VII-XV ərlər İslam dininin yaranması, yayılması və intibah dövrüdür. Yeni din əxlaqi dəyərlərlə bərabər elmi, halal ticarəti də dəstəklədiyi üçün Ərəb xəlifatı: Qüdsü, Misiri, İspaniyanı və digər əraziləri işğal edərək yeni dini, mədəniyyəti təbliğ etməklə bərabər Avropanın zülmü altında olan ərazilərə yüksək tolerantlıq və multikulturalizm sərgiləyirdilər. Çox qısa bir müddətdə xilafətin sərhədləri Ərəbistan yarımadasından Şimali Afrikaya gədər uzandı. Bir neçə il ərzində ərəblər demək olar ki, bütün İspaniyanı fəth etdilər. Bu fəth ərəb-müsəlman sinkretik mədəniyyətinin Avropaya nüfuz etməsinə səbəb oldu. Əl-Andalus (Pireney yarımadası) - “Müsəlman İspaniyası” bütün Avropa üçün elm və mədəniyyətin və inkişafın beşiyinə çevrildi. Belə ki, “elmlərin hamisi” Bağdad xəlifəsi əl-Məmunun sarayında elmlər akademiyası kimi “Hikmət evi” adlı kitabxana fəaliyyət göstərirdi. İslam dünyasının bütün məşhur alimləri: əl-Fərqani, əl-Kindi əl-Xorəzmi, əl-Cauhəri, əl-Fərabi, ibn-Sina, İbn-uşd və s... kimi mütəfəkkirlər ilə yanaşı dünyanın hər yerindən fəqli dinə və milliyyətə mənsub olan şəxslər- məhşur alimlər axın edirdilər. Müsəlman ərəb mütəfəkkirləri qədim yunan filosoflarının idarəetməyə dair fəlsəfi nəzəriyyələrini tədqiq edərək şəxsi utopik idarəetmə nəzəriyyəsini formalaşdırmışdırlar.

Şərq aləmində adını ilk filosof kimi tanıdan Fərabi Aristotel məntiqi və metafizikasının böyük şərhçisi, xüsusilə orijinal bir düşünür olduğu üçün "birinci müəllim" Aristoteldən sonra ona "ikinci müəllim" adı verilmişdir. Yunan fəlsəfəsi İslam aləmində ilk həqiqi təmsilçisi olaraq Fərabini bulmuşdur. Tədqiqatçılar göstərirlər ki, "Fərabi antik fəlsəfənin bir toplayıcısı olsa və bu işlə yetinsəydi belə yenə də insanlığın minnət və şükran duyğusuna sahib olmağa layiq olardı. Halbuki, o son dərəcə orijinal bir düşünür olub, özünəməxsus bir fəlsəfi sistem yaratmışdır. Fərabinin yaratdığı bu fəlsəfi sistem İbn Sina, İbn Ruşd, İbn Tüfeyl, İbn Xaldun kimi alimlər tərəfindən ciddi şəkildə təqib edilmişmişdir. XII ə. dahi Azərbaycan yazarı Nizami Gəncəvi humanizm və tolerantlıq əsasında xöşbəxt dövlətin mükəmməl hökümdar tərəfindən idarəedilməsi nəzəriyyəsini irəli sürərək qloballaşma prosesinə yeni təkan vermişdir. Şərqdə gedən intibah dövrü multikuturalizm elmi qloballaşmanın, həmçinin ayrı-ayrı xalqların mədəniyyətlərinin, tarixinin və milli-mədəni dəyərlərinin mübadiləsinə yol açmışdır. İkinci faktor kimi çıxış edən qədim İpək yolunu əhəmiyyəti VII-X əsrlərdə daha da artdı. Ərəb xilafətinə birləşmiş müxtəlif xalqların ümumsiyasi və dini-mədəni ünsiyyətə cəlb edilməsi daxili və beynəlxalq ticarətlə yanaşı paralel getməyə başladı. Lakin XIII ə. Ərəb xilafətinin süqutu və XV ə. Qranadanın (İspaniyada son müsəlman dövləti) çöküşü həm Şərqi həm də Qərbi qanlı və qaranlıq əsirlərə qərq etdi.

XVIII əsrdən başlayaraq qloballaşma yeni fazaya daxil olmuşdur. İngiltərə öz koloniyaları, buxar maşınları, toxuculuq dəzgahı və başqa icadları ilə dünya arasında aparıcı

qüvvəyə çevrilərək sənaye inqilabına təkan vermişdi. XX əsrdə dünya siyasətində yaşanan ağır prosesləri- Rus çarlığın süqutu, Birinci dünya və İkinci dünya müharibələri hesab olunur ümumdünya böhranına səbəb oldu.

XX əsrdə dünya iki ideoloji yarımkürələrə bölünmüşdür(soyuq müharibə): kapitalizm və sosializm. Bu anlamda SSSR-nin çöküşü dünyada demokratiklik və kapitalizmin sosializm üstündə qələbəsi ilə nəticələndi. Siyasi arenada özünün pozisiyalarını möhkəmlətmək üçün ABD birqütblülüyə can atırdı. Bu fikir M.Tetçerin "Dövlətin idarə olunma tarixi" kitabında öz əksinin tapmışdır. Bu öz əksini insanın şüurunda da tapmışdır, belə ki gənclər azadlığı təkcə siyasi anlamda deyil, daha qlobal bütün aspektlərdə tələb edirdilər. Bu da steriotiplərin silinməsi, əxlaqi kodeksin kökdən dəyişməsi demək idi.

XXI əsrdə baş verən sənaye inqilabı yeni fazaya daxil olaraq (texnologiya-internetin yaranmasının) qloballaşma prosesini sürətləndirdi. Dünyanın bir çox tədqiqatçıları üçün (neoliberallaşma ənənəsinin tərəfdarları olmuşdur) qloballaşmanı insan sivilizasiyasının yeni erası, birqütblülük, çoxqütüblülük, dünyanın siyasi konsepsiyası ilə bağlayırlar. Qloballaşmanı beynəlxalq tarixin yeni mərhələsi kimi qələmə verən mütəxəssislər iddia edilər ki, qloballaşma dövrü yeniliyin əsas amillərindəndir (XXI əsrin). Buna səbəb XIX-XX dünya dövlətlərinin münasibətlərinin yeni fazaya daxil olmasıdır: partnyorluq, yatırımlar, telefon, paroxod və konvenyer vasitələri ilə həyata keçirilirdi.

Günümüzdə də olduğu kimi, yalnız də muşahidə etdiyimiz siyasi arenada baş verən hadisələrin: güclərin balanslaşması, beynəlxalq sistemində bir və ya bir neçə dövlətlərin dominantlığının qarşısının alınması, beynəlxalq nizamın dəstəklənməsi, heqemon dövlətlərin digər ölkələrdə törətdikləri işğalçılıq və terrorun qarşısının alınması, islamofobiya tendensiyası ilə mübarizə, multikuturalizm və inkluzivlik kimi analyışların təbliğinin dəstəklənməsi ilə insallığı narahat edən qlobal problemlərin üstəsindən gəlmək olar.

## ƏLAVƏ TƏHSİLİN ÖLKƏNİN İNKİŞAFI ÜÇÜN TƏSİR GÜCÜ

**Əliyeva Sevil Şamil qızı**
*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

Təhsilin ölkə üçün əhəmiyyəti böyük və əsas rol oynayan bir məsələdir. Bir ölkənin təhsil səviyyəsi onun inkişafının və muasirləşməsinin əsas göstəricilərindən biri hesab edilir.

Təhsil sahəsinin inkişafı ölkədə bütün özəl və eləcə də dövlət sektorlarına birbaşa təsir edir. Sosial mənada,əlavə təhsil ölkələrdə sosial ədalət və bərabərlik hissini artırır. Əlavə təhsil alan insanlar daha yüksək məsuliiyət və insani dəyər öyrənir. Bu da sosial stabilliyi artırır və cinayətkarlığı azaldır.

Təhsil həmçinin bir ölkədə mədəniyyətin və zənginliyin inkişafına kömək edir. Təhsilli və mədəniyyətləri olan insanlar,mədəni və sosial sahələrdə inkişaf etmiş bir cəmiyyətin təməlidir. Təhsil iş gücünün keyfiyyətini artirir və innovativ fikirlərin yaranmasina imkan verir. Mütəxəssiz və tədqiqatçıların artması,mədəni və ədəbi sahələrin genişlənməsinə və yeniliklərə açılmasına səbəb olur. Bu isə ölkənin mədəni tərəfdaşları ilə dahan yaxından əlaqələr qurmasına və mədəniyyətini dünya səviyyəsində təqdim etməsinə kömək edir.

Təhsilli insanlar, yeni texnologiyaları inkişaf etmiş is sahələrin inkişafında əsas rola malik olur, sosial ədaləti təmin edir və insanların daha yaxşı şəraitdə həyat sürməsinə komək edir.

Buna görə də təhsil,fərdlərin sosial eyniliyini qoruyur. Təhsil yüksək inkişaf etmiş ölkələrdə tibbin inkişafı üçün zəmin yaradir. Beləliklə, insanlara sağlamlıq üçün əhəmiyyətli bir təsirə malik olur. Təhsilli insanlar, sağlam vəziyyətdə olaraq tibbi xidmətlərdən faydalanmaq imkanına sahib olurlar. Bir ölkənin iqtisadi inkişafı təhsil saviyyəsi ilə əlaqəlidir. Təhsilli insanlar, inkişaf etmiş iqtisadi sahələrdə işləyərək ölkənin iqtisadiyyatına kömək edirlər. Bu amillər nümunə olaraq təhsilin ölkə üçün əhəmiyyətini izah edir. Təhsil sisteminin güclü, keyfiyyətli və ədalətli olması,bir ölkənin inkişafı üçün vacibdir. Bu səbəblər insanları təhsilə cəlb etmək və təhsilə daha böyük yatırımlar etmək ölkələrin öncəlik halına

gəlir ki,buna nümunə olaraq əlavə təhsili qeyd edə bilərik. Əlavə təhsil bir ölkənin inkişafını, sosial və iqtisadi mövqeyini qüvvətləndirir və dünya bazarında daha konkret bir mövqedə olmasına kömək edir.

Bu səbəbdən, dövlətlər təhsil sistemlərinin inkişafını təmin etmək və tələbələrin bütün potensiallarını həyata keçirmələri üçün sürətlə dəyişən dünya tələblərinə uyğun dəyişikliklər etməlidirlər. Öncəliklə, əlavə təhsil,insan kapitalının artırılması ilə bağlı əhəmiyyətli bir təsiri mövcuddur. Yüksək təhsil almış əmək bazarı daha innovativ və yaradıcı fikirlərlə iş sahələrində daha səmərəli hərəkət edir.Bu, sanəyaların və iş sahələrinin inkişafında effektivlik və rəqabət gücünü artırır.

Əlavə təhsilin başqa bir mühüm məqsədi texnologiya və innovasiya sahələrində inkişafı təmin etməkdir. Universitetlərdə və elmi araşdırma mərkəzlərində önə sürülən elmi tədqiqatlar yeni texnologiyaların və məhsulların yaranmasına zəmin yaradır. Bu, ölkələrin müasir sahələrdə rəqabət qabilliyyətini artırmaq və dünya bazarlarında yerini möhkəmləndirmək üçün vacibdir. Həmçinin, əlavə təhsil sosial inklyuziya və ədalət məqsədilə də əhəmiyyətlidir. Bu ictimaiyyətin daha çox insanın təhsil imkanlarından yararlanmağına imkan verir. Buna görə də sosial müxtəlifliyin qəbul olunması və sosial avtomatlanmanın azaldılması üçün bir platforma rolunu oynayır.

İnnovativ tədqiqatlar və elmi məlumatlar yalnız tədqiqat mərkəzləri və universitetlərlə məhdudlaşmayaraq, həm də əlavə təhsil almayanlar üçündə əlçatan olmalıdır. Bu, bütün ıctımayyitın mənafeinə uyğun olur və texnologiya ənənələrinin və məhsullarının daha geniş yayılmasına və istifadəsinə imkan yaradır.

Əlavə təhsil sosial cəmiyyətin ən mühüm inkişaf xətlərindən biridir. Bu, insanların mədəniyyət. sənətə qarşı daha hissiyatlı olmasına kömək edir. Mədəniyyət və sənət tədrisinin artılması,bir ölkənin mədəni səviyyəsinin yüksəlməsinə və dünya əhəmiyyətli sənətçilərin və mədəni fəalların yaranmasına səbəb olur.

## PEDAQOJI KADR HAZIRLAYAN ALI MƏKTƏBLƏRDƏ TƏDRİS İŞİNİN TƏŞKİLİNDƏ İNNOVATİV FORMALARIN TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

**Əliyeva Sevil Şamil qızı**
*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

Pedaqoji kadr hazırlayan ali məktəblərdə tədris işinin müasir və innovativ formaların tətbiqi tələbələrə sürətlə inkişaf edən çağdaş dövrümüzlə ayaqlaşmaq və eləcədə yeniliklərə adaptasiya olması üçün innovativ formaların tətbiq vacib şərtlərdəndir. Bu tətbiqin əsas məqsədini anlamaq üçün ilk növbədə innovasiya sözünün kökünə nəzər yetirək.İnnovasiya- sözü latın dilində “innovato” sözündən götürülsədə dilimizə ingilis dilindəki “innovation” sözündən gəlib və “yeniliyin məzmunu və reallaşması” deməkdir.İnnovasiya terminınə elmdə ilk dəfə Amerika alimi Yozef Şumperin 1912-ci ildə yazdığı,”iqtisadi inkişaf nəzəriyyəsi”(1) əsərində rast gəlinib.İnnovasiya sözünü çox hallarda ixtira və ya kəşf sözü ilə eyni mənada hesab edirlər. Lakin əlbəttə bu belə deyil.İxtira keçmişdə mövcud və ya cəmiyyətə məlum olmayan bir şeyin icad edilməsi mənasını verir.İnnovasiya isə yüksək tərəqqi və təkmilləşdirmə əsas götürərək yeniliyi tətbiq etmək mənasında işlənir.

Hal-hazırda dünya ölkələrində Amerika ,Cənubi Koreya və eləcədə Çin innovasiya və ixtira sahəsinə böyük maliyyə ayırır və bu sahəsinin inkişafı üçün mühüm addımlar ataraq məhz bu fənləri ümumi təhsil müəssisələrində tədris edirlər.Bu nəzəriyyələrdən biridə TRİZ nəzəriyyəsidir ki,mənası rus dilində “Теория решения изобретательских задач” - sözlərinin baş hərflərindən yaranıb, “İxtira məsələlərinin həlli nəzəriyyəsi” (2)deməkdir.TRİZ nəzəriyyəsinin banisi Genrix S. Altşullerdir.Belə ki ,o uzun illər Bakıda yaşayıb. Bu nəzəriyyə haqqında isə ölkəmiz yetəri qədər məlumatsızdır.Baxmayaraq ki, TRİZ nəzəriyyəsi ilk dəfə olaraq məhz Bakıda yaranmışdır. İnnovasiya Menecmenti və TRIZ İnstitutunun İdarə Heyətinin sədri Ali Kutvan(3) 2-ci Beynəlxalq İnnovasiya Menecmenti və TRIZ" konfransında(4) çıxış edərkən TRİZ haqqında məlumat verərkən bildirib ki, təssüflər olsun

ki,TRİZ nəzəriyyəsini məhz rus nəzəriyyəsi olaraq qələmə verirlər.Halbuki bu nəzəriyyə məhz azərbaycanlı alim tərəfindən kəşf olunub və xüsusilə təhsil sahəsində hal- hazırda dünyada ən qabaqcıllardan olan Cənubi Koreyada geniş istifadə edilir.

TRİZ nəzəriyyəsində əsas düşüncə məhz yeni nəsildə kreativ düşüncəyə malik,təndiqi təfəkkürü inkişaf etdirmək ,eləcə də yaradıcı yanaşmaların inkişafına təkan vermək və bunu təhsil sisteminə inteqrasiya etməkdir.Lakin hal-hazırda bu nəzəriyyəni formalaşdırmaq ölkəmizdə daha mürəkkəb haldır.Çünki test üsülundan istifadə yaradıcı düşüncənin inkişafına mane olur və əzbərçiliyi daha da artırır.

Elmi yaradıcılıq və innovasiya arasında da fərqlər çoxdur.Belə ki, elmi yaradıcılığın əsas məqsədi kapitaldan istifadə edərək, yeni informasiyalar toplamaqdırsa,innovasiyaların qarşısında duran əsas məqsədi məhz yenilikləri bilik sərf edərək əldə etməkdir.

Bütün bunlar nəzərə alınaraq pedaqoji kadr hazırlayan ali təhsil müəsslərində innovativ tədris metodlarına bunları nümunə göstərə bilərik.

Texnologiya ilə zənginləşdirilmiş tədris-bu metodun əsas məqsədi dərsin tədrisi zamanı internet əsaslı platformalardan istifadə edərək təlimin sonundakı nəticəni daha səmərəli və interaktiv şəkildə əldə etməkdir.Texnologiya ilə zənginləşdirilmiş dərslərə nümünə olaraq interaktiv bəyaz löhvələrdən istifadə qeyd oluna bilər ki,bunun ən üstün cəhəti məhz qara löhvə və təbaşirin yerini almasıdır.Bu zaman müəllim ağıllı löhvələrlə dərs materialarını paylaşa,interaktiv oyunlar hazırlayaraq gələcək pedaqoji fəaliyyəti zamanı istifadə edə biləcəyi yanaşmaları öyrədə bilər.

E-dərs platformalarıda məhz Covid-19 zamanı çağdaş dünyamızın nə qədər ehtiyacı olduğunu göstərdi.Belə ki, e-dərs zamanı təkcə müəllim dərs danışmır eləcədə tələbələrə dərs materialları göndərə,imtahanlar keçirə və operativ olaraq ünsiyyətdə ola bilmək kimi bir neçə xüsiyyəti özündə daşıyır.Moodle,Google Classroom,Blackboard kimi platformaları buna nümunə kimi göstərmək olar.

Virtual reallıq və artırılmış reallıq texnologiyaları tələbələrə mücərrəd anlayışlar haqqında daha konkret anlayış təqdim edir. VR simulyasiyalarından istifadə etməklə şagirdlər tarixi hadisələri və ya elmi anlayışları daha aydın şəkildə başa düşməyinə kömək edir.

Texnologiya ilə zənginləşdirilmiş dərslər tələbələrə daha səmərəli öyrənməyə,müəllimlərə isə daha səmərəli öyrətməyə kömək edə bilər.Bununla birlikdə, bu texnologiyalardan səmərəli istifadə etmək üçün müəllimlərin adekvat təlim və dəstəyə sahib olması vacibdir.

Lahiyə əsaslı öyrənmə öyrənənlərin müəyyən bir layihə və ya real problemi həll etmək üçün birlikdə çalışdıqları, araşdırdıqları və nəticələrini təqdim etdikləri öyrənmə yanaşmasıdır. Bu yanaşma tələbələri tənqidi düşüncə, problem həll etmə, ünsiyyət və əməkdaşlıq kimi bacarıqları inkişaf etdirərək dərin öyrənməyə təşviq edir.

Layihə təliminin əsas elementləri bunlardır.Həqiqi problemlər və ya layihə seçimi layihə əsaslı öyrənmə prosesi zamanı adətən tələbələrin real problemlər və ya maraqlar əsasında müəyyən etdiyi layihələrlə başlayır. Bu layihələr tələbələrin maraq və maraqlarını artırır, bu da onlara daha çox motivasiya olmağa imkan verir.

Tədqiqat və resurs istifadəsi isə tələbələrə layihələri haqqında məlumat əldə etmək üçün araşdırma aparırlar. Dekommunizasiya mənbələri kitablar, məqalələr, onlayn mənbələr, mütəxəssis müsahibələri və sahə araşdırmaları kimi müxtəlif mənbələri əhatə edə bilər.

Planlaşdırma və dizayn metodunda pedaqoji kadr hazırlayan ali məktəblərdə tələbələr layihələrini planlaşdırır və inkişaf etdirirlər. Bu mərhələdə layihənin məqsədləri, metodları, mənbələri və vaxtı müəyyənləşdirilir. Bununla belə , layihənin necə təqdim ediləcəyi və qiymətləndiriləcəyi planlaşdırılır.

Tələbələr layihələrini müəyyən edilmiş plana uyğun Təcrübə və təhsil həyata keçirirlər. Bu mərhələdə qrup tədqiqatları aparılır, məlumatlar toplanır, təcrübələr aparılır və layihənin müxtəlif aspektləri işlənir.

Kommunik Dekommunizasiya və əməkdaşlıq ilə layihə əsaslı öyrənmə prosesi zamanı tələbələr arasında səmərəli ünsiyyəti və əməkdaşlığı təşviq edir. Tələbələr fikir mübadiləsi

aparır, problemləri birlikdə həll edir və layihənin müxtəlif mərhələlərində bir-birlərini dəstəkləyirlər.

Layihə başa çatdıqdan sonra tələbələrin layihələri qiymətləndirilir və rəy alınır. Bu rəy layihənin güclü tərəflərini vurğulayır və inkişaf sahələrini göstərir. Bundan əlavə, şagirdlərə performanslarını qiymətləndirmək və tədris prosesini yenidən nəzərdən keçirmək tövsiyə olunur.

Layihə təlimi tələbələrə tədris prosesinin fəal iştirakçısı olmaq imkanı verir. Bu yanaşma tələbələrə təkcə bilikləri öyrənməyə deyil, həm də onları real şəraitdə tətbiq etmək və istifadə etmək bacarıqlarını inkişaf etdirməyə imkan verir. Bundan əlavə, layihə əsaslı təlim tələbələrin öyrənmə motivasiyasını artırır və öyrənməni daha mənalı edir.

Öyrənmək müddətini oyun mexanizmləri ilə birləşdirərək tələbələrin motivasiyasını artıraraq öyrənməyi əyləncəli hala salmaq mümkündür.Bilgi yarışmaları,öyrənmə oyunları və eləcədə simulasiya oyunları kimi yöntəmlər kadr hazırlayan ali məktəblərdə tələbələrin öyrənmə sürətini daha da artıra bilər.

Tələbələrin fərdi eytiyaclarına uyğun olaraq öytənmə məzmununu və tempini tənzimləyə bilən metodlardan beridə adaptiv öyrənmə texnologiyalarıdır.Bu metod sayəsində hər bir tələbə öz tempinə və öyrənmə tərzinə uyğun inkişaf etməyə təkan vermək mümkündür.

Pedaqoji kadr hazırlayan hazırlayan ali məktəblər tələbələrə qrup işi,müzakirə forumları və digər lahiyələr kimi fəaliyyətlər vasitəsilə birgə öyrənmə mühiti yarada bilər.Və bu mühitin yaranması tələbələrə bir-biri ilə qarşılıqlı əlaqə qurmağa və birlikdə öyrənməyə kömək edir.

Son dövrlər qloballaşan dünyamızda dərslər zamanı distant təhsil texnologiyaları və virtual sinif platformaları tələbələrə təklif olunur.Belə ki,bu texnika tələbələrə coğrafi məhdudiyyətləri aşmaq və öyrənmə imkanalarını genişləndirməyə bilavasitə kömək edir.

Yaradıcı qiymətləndirmə metodu ilə tələbələr ənənəvi imtahan metodları əvəzinə lahiyələr,təqdimatlar,portfellər hazırlayaraq yaradıcı qiymətləndirmə metodundan keçirlər.Bu metod pedaqoji kadr hazırlayan ali məktəblərdə tələbələrin həqiqi bacarıqlarını anlayıb və anlayışlarını nümayiş etdirməyə imkan verir.

Bu metodlar təhsil müəssisələrində istifadə olunan bəzi yenilikçi dərsliklərin və metodların bir neçə nümunəsidir. Bu üsullardan istifadə etmək tələbələrin daha səmərəli öyrənmələri və onları gələcəyin tələblərinə hazırlamaları üçün vacibdir.

Ədəbiyyat

1. https://az.wikipedia.org/wiki/%C4%B0xtira
2. Thttps://az.wikipedia.org/wiki/%C4%B0nnovasiya#Elmd%C9%99_in
novasiya
3. https://bakivaxti.az/az/posts/detail/bu-gun-beynelxalq-triz-gunudur-
triz-nedir-1634295006
4. https://525.az/news/203281-tehsil-sisteminde-innovasiyalar-ve-
onlarin-idare-edilmesi
5.Təlimdə yeni metodlardan istifadə.”Azərbaycan müəllimi”,1-7 mart,2001
6.Təhsil Haqqında Azərbaycan Respublilkası Qanunu,Bakı,2009
7.”Müasir təhsilin aktual problemləri” mövzusunda Respublika elmi-praktik konfransının materalları Bakı :copyrigth 2013,252.s

## XÜLASƏ

Zaman keçdikcə ,çağdaş dövrümüz yeniliklərə inteqrasiya etdikcə təhsil sistemimizdə də yeniliklər yaranır. Bu yeniliklərlə tanış olmaq, onları izləmək, tədris işinin təşkili zamanı tədbiq etmək və beləliklə tələbələrdə təhsilə,elmə maraq oyadaraq onları motivasiya etmək bütün müəllimlərin və ali məktəblərin əsas vəzifələrindən biridir. Məhz buna görə pedaqoji kadr hazırlayan ali məktəblərdə müəllimlər tədris işinin təşkili zamanı uğur qazanmış müasir tədris metodlarından istifadə etməyə çalışırlar və bu sahə üzrə çalışan tədqiqatçılar da tədris

zamanı ənənəvi tədris metodları ilə yanaşı innovatitiv tədris formasının istifadəsinin vacibliyini vurğulayırlar.

***Açar söz:*** *innovativ, ali məktəb, tədris, texnologiya, tətbiq*

**SUMMARY**

Over time, as our modern era integrates innovation, innovations are also emerging in our education system.Familiarity with these innovations, following them, applying them in the process of organizing educational and training studies, and thus motivating students, arousing their interest in learning, science is one of the main tasks of all teachers and universities.For this reason, educators in higher education institutions that train pedagogical staff are trying to use modern teaching methods that are successful in organizing educational work, while researchers working in this field, it also emphasizes the importance of using an innovative way of teaching in addition to traditional teaching methods in teaching.

***Keyword****: innovation, high school, education, technology, application*

**РЕЗЮМЕ**

Со временем, по мере того как наша современная эпоха интегрирует инновации, инновации появляются и в нашей системе образования.Знакомство с этими инновациями, следование им, применение их в процессе организации образовательных и тренировочных занятий и, таким образом, мотивация студентов, пробуждение у них интереса к учебе, науке является одной из главных задач всех преподавателей и университетов.По этой причине преподаватели высших учебных заведений,готовящие педагогические кадры, стараются использовать современные методы обучения, которые успешно подходят для организации воспитательной работы, в то время как исследователи, работающие в этой области, в нем также подчеркивается важность использования инновационных методов обучения в дополнение к традиционным методам преподавания.

***Ключевое слово****: инновации, высшая школа, образование, технология, применение*

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ İDARƏETMƏNİN İNKİŞAF MODELLƏRİ

**Əsəd Cəmilə Fariz qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ümumtəhsil məktəblərində təhsilin effektiv inkişafı elə şəraitdə təmin edilə bilər ki, onun təlim-tədris fəaliyyətini reallaşdıran mükəmməl pedaqoji ənənəsi olmaqla yanaşı, həm də kifayət qədər inkişaf etmiş innovasiya sistemi formalaşsın. Ümumtəhsil məktəblərinin inkişafı nəticəsində pedaqoji prosesin idarəedilməsində elə keyfiyyət dəyişilmələri aparılmalıdır ki, bu dəyişikliklər nəticəsində təlim-tədris prosesində daha yüksək naliyyətlər əldə edilsin. Ümumtəhsil məktəblərinin inkişaf mərhələsi onun yenilənməsi tendensiyası ilə xarakterizə olunur. Təlim-tədris prosesinə innovasiyaların tətbiqi dedikdə, texnologiyaların yenilənməsi, təlim-tədris prosesinin sistemində yeniliklərin tətbiqi və təhsilin müasirləşdirilməsi prosesi nəzərdə tutulur. Bu tədbirlər, pedaqoji prosesin təşkilinə yeni ideya və yanaşmaları tətbiq edərək, təhsilalanların şəxsiyyət kimi formalaşmasına zəmin yaradır.

İstənilən sosial sistemin idarəetməsində kollektiv idarəolunma həlledici rol oynadığından, təhsil müəssisəsində idarəetmə sisteminin əsas struktur komponeneti plan pedaqoji kollektivin və onun rəhbərinin birgə fəaliyyətinin elmi əsaslarla qurulmasına böyük ehtiyac vardır. Xüsusi tədqiqatların aparılmış təhlilin nəticəsi göstərir ki, idarə olunmada təkcə pedaqoji kollektivin funksiyalarını genişləndirməklə qarşıya qoyulmuş məqsədə çatmaq

olmaz, bu problemlərin həllində pedaqoji kollektivin və rəhbərin işinin diferensiasiyasından və əlaqələndirilməsindən də istifadə etmək vacibdir.

Ümumtəhsil müəssisələrimdə 21-ci əsrin Dünya təhsil sistemin tələblərinə cavab verən innovativ təhsil sisteminin tətbiqi üçün və bir sıra çətinliklərdən çıxmağın iki yolu vardır. Ya təhsil müəssisəsi zamanın tələblərinə uyğun olaraq intensiv şəkildə dəyişməli və yenidən qurulmalıdır, ya da təhsil müəssisəsində mövcud olan ənənəvi təhsil sistemi tədricən təkmilləşdirilərək müasir, innovasiyalı təhsil modeli ilə əvəz olunmalıdır.

Ümumtəhsil müəssisələrinin effektiv idarə olunması və yenilənməsi üçün ikinci yolla inkişafına şərait yaradılmalı və onları bu istiqamətdə yeni-yeni addımlar atmağa yönəltmək lazımdır. Son illərdə təhsil müəssisələrinin idarə olunmasına dair tədqiqatçı pedaqoqlar tərəfindən yeni modellər işlənmişdir. İnkişaf etmiş ölkələrdə təhsil müəssisəsinin məqsədindən, kadr potensialından, onun əhatəsindən, maddi-texniki bazasından və s. asılı olaraq müxtəlif modellərdən istifadə olunur. Bir neçəsinin adını sadalayaq:

- İdarəetmənin kollegial təşkili modeli;
- İdarəetmənin seqment tipli təşkili modeli;
- Formal idarəetmə modeli;
- İdarəetmənin modul tipli təşkili modeli;
- İdarəetmənin matris tipli təşkili modeli;

Bu modellərdən bir neçəsini nəzərdən keçirək;

Formal idarəetmə modeli; Ümumtəhsil müəssisələrin idarə olunmasında formal model dedikdə hierarxik idarəetmə nəzərdə tutulur. Bu model təhsil menecerlərinin bir-birindən asılılığını və öz səlahiyyətlərini yerinə yetirəklə sonda hesabat verməlırinə kodlanmışdır. Formal idarəetmə modeli özündə bürokratiklik, rosianallıq, sistemli olmaq və s. kimi bir sıra əlamətləri birləşdirir. İdarəetməin formal modelində rəhbərlik kompleksin ən üst təbəqəsində olan şəxsə aiddir və bu quruluşa "Güc pradiqması" deyilir.

İdarəetmənin modul tipli təşkili modeli; Bu modelin təşkilində tədris və idarəetmə işləri tamailə inteqrasiya olunur. İdarəetmənin matris tipli təşkilindəki ikili xarakter burada kiçik komandaların yaradılması ilə aradan qaldırılır. Komandalar öz işində xeyli dərəcədə müstəqil olurlar. Hər bir komanda öz tərkibini dəyişmədən bir neçə il işləyir. Komandanın tərkibindəki müəllimlər bütün fənlərin tədrisi ilə məşğul olurlar. Müəllimlər həm tədrisetmə, həm də şagirdlərin idarəetməsi vəzifəsini yerinə yetirirlər. Bu modeldə modul komandaların yaxşı fəaliyyət göstərməsi üçün müəllimlər daim,intensiv şəkildə məktəbdaxili treninq keçməlidirlər.

İdarəetmənin matris tipli təşkili modeli; Təhsil sistemində matris idarəetmə modelinin tətbiqi iki əsas üzərində qurulur. Bu modeldə xüsusi təşkil olunmuş yarımbölmələrdə təhsilalanların təlim-tərbiyə işinin idarə edilməsi daha da təkmilləşdirilir. İdarəetmə və təhsil bölmələri arasında əməkdaşlıq və birgə işin təşkili, tədrisi və idarəetməni inteqrativ aparmağa imkan verir. İdarəetmənin matris tipli təşkili modelində bölmələrə direktor və onun müavinlərindən ibarət olan menecer komandası, rəhbər idarəetmə orqanlarının nümayəndələri rəhbərlik edirlər. Menecer komandasına direktor başçılıq edir. Direktor iki əsas vəzifəni yerinə yetirir: məktəbi informasiya ilətəmin edir, məktəbin inkişaf strategiyasını reallaşdırır.

Ədəbiyyat


1. Mehrabov A.O. "Müasir təhsilin metodoloji problemləri" Bakı: Mütərcim, 2012
2. Abbasov O. "Təhsilin idarə olunması" Bakı 2016
3. Cabbarov R. "Təhsil müəssisəsinin idarə edilməsi məsələləri" Bakı 2009
4. Kərbəliyev Ə. "Təhsilin idarə edilməsinin əsasları" Bakı 2006

# UŞAQLARIN MƏKTƏB TƏLİMİNƏ HAZIRLIĞI PROSESİNİN PEDAQOJİ ƏSASLARI

**Əzizova Aynur Süleyman qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məktəbə psixoloji hazırlıq uşaq həyatının ən önəmli dövrlərindən biridir. I sinfə daxil olacaq uşaqlarla psixoloji hazırlığın təşkil edilməsi mühüm yerlərdən birini tutur. Y.L.Kolominski şəxsi hazırlıq, intellektual hazırlıq və sosial-psixoloji hazırlığı məktəbə psixoloji hazırlığın əsası hesab edir. Bu dövrdə hazırlığın önəmli hissəsi kimi oyun əsas fəaliyyət formasıdır. Uşaq yeddi yaşa qədər üç mühüm mərhələni keçir: ümumi insani dəyərləri mənimsəmək, onu dərk etmək və ətraf aləmi emosional şəkildə öyrənmək. Üç yaşdan yeddi yaşa qədər uşağın idrak, iradi və emosional inkişafı üçün yeni imkanlar yaranır. Yalnız yeddi yaşın başlanğıcında nəzəri təfəkkür formalaşmağa başlayır. Yaşıdları ilə ünsiyyətə girmək qabiliyyəti təlim fəaliyyətinə keçid üçün yetərli olur. İxtiyari diqqət təlim materiallarının mənimsənilməsi, iradi səy çətinliklərin aradan qaldırılmasına imkan verir. Məktəbə uyğunlaşmanın iki əsas yolu var. Biri hələ məktəbəqədər yaş dövründə uşağın tədricən oyun prosesində təlimə alışması, digəri isə təlim fəaliyyətinin müəyyən müddət oyun xarakteri daşıması ilə bağlıdır.

Məktəbəqədər hazırlıqda aşağıdakılara diqqət edilməlidir:

* Uşağın məktəbə kommunikativ hazırlığı
* Məktəbli mövqeyinin mənimsənilməsi
* Məktəb həyatı haqqında bilik və təsəvvürlərin yaranması
* Təlim fəaliyyətinin çətinliklərinə alışmaq
* Təlim motivasiyasının yaranması və tədricən möhkəmlənməsi.

Məktəb təliminin başlaması ilə uşağın davranışına təsir edəcək amillər də dəyişir. Belə ki, gün rejiminin dəyişməsi - səhər tezdən yuxudan durmaq, ev tapşırıqlarını hazırlamaq, əşyalarını səliqəli saxlamaq kimi məsuliyyətlər qoyulur uşaq qarşısında. Əgər bu proseslər məktəbəqədər hazırlıq dövründə düzgün qurulmayıbsa, uşaq üçün müəyyən çətinliklər yaranacaq. Məktəbəqədər hazırlıqda artıq uşaqda 1-ci sinfə aid ilkin məlumatlar formalaşdırılmalıdır. Onlar fiqurları, rəngləri, səbəb-nəticə əlaqələrini, ümumi və xüsusiləşdirməyi bacarmalıdırlar ( məsələn, suda və quruda yaşayan heyvanları, meyvələrin rəngini, dadını, meyvələrlə bitkiləri ayırmaq kimi və s.). Bunlarla tanış olmayan uşaq ilk dəfə gəlir məktəbə və adaptasiya ola bilmir. Bu da uşağı gərginliyə salır. Məktəbə getməmişdən əvvəl istədiyi vaxt oynayan uşaq bundan qismən məhrum olur. Həmin prosesə uşağı yavaş-yavaş alışdırmaq lazımdır.

Uşağın məktəb həyatı bütövlükdə müəllim şəxsiyyəti ilə əlaqədar olur. Müəllimin məktəbdəki mövqeyi birbaşa təlimlə bağlıdır. Onlar daha ciddi və daha işgüzar bir münasibətdə olurlar. Bağçadakı tərbiyəçinin mövqeyi isə daha mülayim, mehriban olur və uşaq üçün bir növ valideyni əvəz edən bir rolu xatırladır. Bu rolların dəyişilməsi də uşaq üçün yeni bir sosial şəraitin olması deməkdir. İbtidai sinif müəllimləri 1-ci sinfə daxil olan uşaqlara fərdi yanaşmağı bacarmalıdırlar. Hər bir uşaq məktəbə yeni bir mədəniyyət, yeni bir münasibət gətirir.

Məktəbə hazırlığın əsas xüsusiyyətlərini konkretləşdirsək, məktəb proqramının mənimsənilməsi üçün lazım olan bilik, qabiliyyət, motivasiya və davranışın optimal səviyyəyə çatdırılmasını aid etmək olar. Bura əqli fəaliyyət, idrak prosesləri, maraqları, diqqət və hafizənin xarakterik xüsusiyyətlərini də aid etmək olar. Məktəbə hazırlıqda uşaq fəaliyyətini iradi tənzimləməyi bacarmalıdır. Bunun üçün uşaqları rollu, təlim xarakterli oyunlarla həmin prosesə hazırlamaq lazımdır.

Məsələn, 6 yaşı tamam olmayan məktəbəqədər hazırlıq qrupuna gedən bir uşağı müəllim: "Gah stolun altına girir, gah sumkasından nə isə cıxarır", -deyə idarəolunmaz bir tip adlandırırsa, günahı uşaqda axtarmaq yanlış olar. Əslində onu cəzalandıran, ona qışqıran, onu gücsüz edən təlim prosesinin gedişatına nəzər salınmalıdır. Öncə uşağın stolun altına niyə

girdiyinin psixoloji səbəbləri araşdırılmalı və sonra tədbirlər görülməlidir. Bu cür uşaqların dərsə qarşı qayğıları, qorxuları olur. Bunları məktəb psixoloqu ilə müəllim birlikdə aradan qaldırmalıdır. Bu çətinlikləri aradan qaldırmadan 1-ci sinifdə hec bir nəticə əldə etmək olmayacaq.

Uşaqlara yüksək səviyyəli bilik verərkən, onlara vərdiş və bacarıqlar öyrədərkən özləri də undulmamalıdır. Yəni, yaşlıların vəzifəsi uşağı öyrətmək, tərbiyə vermək, uşaqların borcu isə öyrənmək, sözə baxmaqdan ibarət deyildir. Artıq qarşımızda yeni bir şəxsiyyət yetişir və formalaşır.

Məktəbəqədər hazırlıqda məktəb həyatı ilə bağlı oyunlar keçirilməlidir. Məsələn, indi dərsdir, özünü necə aparmaq lazımdır? İndi tənəffüsdür. Uşaqlar müəyyən qədər təcrübə qazandıqdan sonra oyun qaydaları bir qədər mürəkkəbləşir. Oyun təxminən dərsdə, tənəffüsdə olduğu kimi qurulur.

Məktəb həyatına başlamamışdan əvvəl uşaqda məktəb həyatına psixoloji identifikasiya başlayır: "Mən daha uşaq deyiləm, artıq məktəbliyəm". Məktəb həyatına identifikasiya uzun və ziddiyyətli bir prosesdir. Valideynlər və tərbiyəçilər uşaq qarşısında sosial mövqelərini kəskin şəkildə qoymamalıdırlar. Onlar hesab edirlər ki, məktəb həyatına başlayan uşaqlar daha oyun (qızlar kukla oynatmamalı, oğlanlar oyuncaq maşın sürməməli) oynamamalıdırlar. "Sən daha uşaq deyilsən, I sinif şagirdisən. Özünü uşaq kimi aparmaq sənə yaraşmaz". Bu cür qeyri-real tələblər uşağın imkanları ilə üst-üstə düşmür, onun təlim maraqlarına və motivlərinə mənfi təsir göstərir. Eyni zamanda, uşağın özünüqiymətləndirməsini, özünəinamını azaldır. Belə hallar məktəbəqədər hazırlıq prosesi keçməyən, əzizlənən, tərifiənən, müəyyən qədər eqoist böyüyən uşaqlar üçün ağır keçir. Yaxşı olar ki, böyüklərin gözləmələri və tələbləri reallığa uyğun, uşaq üçün başa düşülən olsun.

Bilirsiniz, məktəbə daxil olmaqla uşağın uşaqlığına son qoyulmur. Uşağa imkan verilməlidir ki, o, dərs prosesində şagird, ondan kənarda isə uşaq olsun. Lakin o, məktəbə getməmişdən əvvəl onun məktəbə daxilən hazır olmasına kömək etmək lazımdır. Məktəbəqədər təhsilin, o cümlədən uşaqların məktəbə psixoloji hazırlığının mahiyyəti bu proseslərdə çox vacib bir məsələdir.

Uşaqlar I sinfə gedərkən hər şeyin yaxşı olacağına inanaraq gedir: müəllimi gözəl və mehriban olacaq, sinif yoldaşları onunla dostluq edəcək, o yalnız "əla" qiymətlər alacaq və s. Lakin uşağın məktəbə hazırlığı istənilən səviyyədə olmazsa, məktəbə adaptasiyasında, təlimdə uğur qazanmasında problemlər yaranır. Bəs uşağın məktəbə hazır olduğuna əmin olmaq üçün nələrə diqqət yetirməliyik?

Fiziki hazırlıq:

- *Eyni vəziyyətdə müəyyən müddət oturmaq (45 dəqiqə).* Sirr deyil ki, uşaqların əksəriyyəti parta arxasında düzgün əyləşmir, bu və ya digər tərəfə söykənir.
- *Kiçik motorikanın inkişafı.* Əgər uşaq ayaqqabısının bağını, köynəyinin düyməsini gec və çətin bağlayırsa, qaşığı düzgün tutmursa, o, qələmi də düzgün tutmağı bacarmayacaq.
- *Sensomator və məkan koordinasiyası.* Əgər bu faktor düzgün inkişaf etməyibsə və ya zəif inkişaf edibsə, uşağın qaçmasına, oynamasına, ümumi hərəkətlərinə maneələr yaradacaq və s.

Sadə riyazi biliklər:

- 1-dən 10-a qədər və geriyə saymaq;
- 10 dairəsində qonşu rəqəmləri bilmək (məsələn, 3-dən əvvəlki və sonrakı rəqəm);
- Sadə həndəsi fiqurları (üçbucaq, dairə, kvadrat, düzbucaqlı və s.) tanımaq, çəkmək və fərqləndirmək bacarığı;
- Rəqəmləri müqayisə etmək bacarığı (böyükdür, kiçikdir) və s.

İdrak proseslərinin inkişafı:

- Diqqətin inkişafı (Sadə pazlları qura bilirmi? Labirint tapşırıqlarını yerinə yetirə bilirmi? və s.).

- Hafizənin inkişafı (Məsələn, əvvəlcə, müxtəlif əşyaların təsvir olunduğu şəkli göstərin. Daha sonra şəkli götürün, uşaqdan şəkildəki əşyalardan hansının yadında qaldığını soruşun. Düzgün xatırlaya bilirmi?).
- Təfəkkürün inkişafı (Məsələn, bir neçə detalın müxtəlif olduğu şəkillər arasındakı fərqləri soruşun. Fərqləri deyə bilirmi? Fərqli əşyaların oxşar əlamətlərini deyə bilirmi? Məsələn, televizor və soyuducu).
- Təxəyyülün inkişafı (Məsələn, hekayə danışın və yarıda saxlayın. Hekayənin ardını sərbəst formada davam edə bilirmi?).

Nitq:

- Məktəbəqədər yaşlı uşaqla "söz oyunu" oynamaq olar. Uşaq əvvəlcə ətrafında olan əşyaların adlarını deyir, daha sonra həmin sözlərin ilk səsi ilə başlayan yeni sözlər deyir.
- Oxumağı unutmayın. Uşağa daim davamının necə olacağını düşündürən maraqlı hekayə seçin. Bəzi sadə sözləri özünün oxumasına icazə verin.
- Oxuduğunuzu müzakirə edərkən uşağa öz fikirlərini aydın ifadə etməyi öyrədin. Əks halda şifahi ünsiyyət zamanı onun problemləri ola bilər.
- Monoloji nitqə yiyələnməyi vacibdir. Hekayəni oxuyub bitirdikdən sonra məzmunla bağlı suallar verin və uşaqdan hekayənin xülasəsini danışmağı xahiş edin.
- "Hə", "yox" cavabına qane olmayın. Niyə məhz elə düşündüyünü dəqiqləşdirin, öz fikrini tamamlamağa kömək edin.
- Hadisələrdə ardıcıllığı gözləməyi və hadisələri təhlil etməyi öyrədin.
- Aşağıdakı sözlərin düzgün başa düşüldüyündən əmin olun: üstündə, altında, içində, sağında, solunda, uzaqda, yaxında, qarşıda, arxada və s.

Emosional-iradi hazırlıq:

- Məktəbə getməyi sevinclə gözləmək;
- Öz emosiyalarını idarə etmək bacarığı;
- Davranışlarını idarə etmək bacarığı;
- Çətinlikləri aradan qaldırmaq istəyi;
- Məqsəd və nəticəyönümlülük.

Beləliklə, bu gün uşağın məktəb təliminə hazırlığının vacib olduğu danılmazdır. Bu iş planlı və məqsədyönlü şəkildə uşağın altı yaşa qədəm qoyduğu gündən etibarən deyil, çox-çox əvvəl, 3-4 yaş arasında aparılmağa başlanmalıdır ki, uşaq, həyatında çox mühüm bir əhəmiyyətə malik bu mərhələyə "Mən heç nə bilmirəm, heç nə bacarmıram" fikri ilə deyil, özünə inamlı şəkildə qədəm qoysun. Axı uşaq nə qədər böyük bir intellektual potensiala malik olsa da, məktəb təliminə psixoloji cəhətdən hazırlıqsız olması onu öz gözündə yoldaşları ilə müqayisədə çox bacarıqsız və səriştəsiz edir, eləcə də özünüqiymətləndirmənin aşağı enməsinə səbəb olur. Bu da çox vaxt ona öz qabiliyyətlərini inkişaf etdirməyə mane olaraq, həmişəlik zəif şagirdlərin sırasına salır. Və əksinə, bu mərhələdə yaranmış özünəinam hissi uşağa özünün qabiliyyətli və bacarıqlı olduğuna əminlik yaradacaq və gələcək həyatında da inamlı olmağına, müxtəlif məsələlərin həllində öz bacarıq və intellektindən vaxtında və səmərəli istifadə etməsinə gətirib çıxaracaqdır.

## STRATEJİ İDARƏETMƏ MÜASİR MƏKTƏBİN İDARƏ OLUNMASINDA ƏN EFFEKTİV VASİTƏDİR

**Fətullayev Vaqif Tahir oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir dövrdə təhsilin keyfiyyətinin təmin olunması və nailiyyətlərin əldə edilməsi bilavasitə müasir idarəetmə modellərinin tətbiqindən asılıdır. Bu baxımdan strateji planlaşdırma və strateji idarəetmə təhsilin keyfiyyətinin artırılmasında böyük əhəmiyyətə sahibdir. Təhsilin keyfiyyətinin planlaşdırılması ümumilikdə, təhsil sahəsindəki fəaliyyətin planlaşdırılmasını özündə ehtiva edir. Buna görə də, keyfiyyət məsələləri məktəbin strategiyasında başlıca yer tutmalıdır. Həmçinin strateji planlaşdırmaya ciddi şəkildə əməl

edilməklə sistemli qaydada keyfiyyətin artırılmasına nail olmaq mümkündür. Bu baxımdan strateji planlaşdırma idarəetmə sistemində başlıca tələblərdən biri olmalıdır.

İdarəetmə elminin gənc olması ilə əlaqədar olaraq, strateji idarəetmənin planlaşdırılması da nisbətən yeni bir yanaşmadır. 1920-ci illərdən əvvəl nəinki strateji idarəetmə, hətta "uzunmüddətli planlaşdırma" anlayışı belə gündəmdə deyildi. Whipp tərəfindən təsvir olunan strategiya termininin əsas mənası hərbi mənşəlidir və yunanca "generallıq" sözündən törəyib. Bizə məlum olan yazılı tarixin başlanğıcından bəri sərkərdələr düşməni məğlub etməkdən ötrü hücum, müdafiə və əks hücum taktikalarından istifadə etmişdir. Bu səbəbdən də, indiyə qədər aparılan müharibələrdə qazanılan təcrübələr bəzi hərbi-strateji prinsiplərin mənimsənilməsinə və strategiya anlayışının bir müharibə planı kimi qəbul olunmasına gətirib çıxarmışdır. Beləliklə, strategiya müəyyən nəticəyə istiqamətlənmiş bir plan olaraq qəbul edilir və strategiyanı real bir vəziyyət və ardıcıl fəaliyyətlər modeli adlandıra bilərik.

Strateji idarəetmə məktəb rəhbərlərinin öz müəssisələrinin strategiyalarının inkişaf etdirilməsi istiqamətindəki səmərəli fəaliyyətidir. Strategiya subyektin məqsədə çatması üçün əvvəlcədən planlaşdırılan fəaliyyət modelidir. Strategiya anlayışının məzmununa fəaliyyət istiqamətlərinə uyğun olaraq məntiqi qərarlar məcmusu daxildir. Həmçinin bu, məktəbin qarşısında duran vəzifələrin icrasını və öz məqsədlərinə nail olmasını təmin etmək üçün müəyyən edilmiş uzun müddətli və hərtərəfli kompleks bir plandır.

Strateji plan müəssisənin idarə heyəti və ya rəhbəri tərəfindən təyin olunur, lakin onun həyata keçirilməsi bütün idarəetmə səviyyələrinin iştirakına əsaslanır. Strategiyalar təşkilatın uzun müddətli inkişafını və müvafiq məqsədlərə nail olmağını təmin etmək üçün zəruri olan strateji idarəetmənin əsas elementləridir. Strategiyanın müəyyənləşdirilməsi strateji idarəetmə səviyyəsindən asılıdır. Strateji idarəetmə müəssisəyə tam rəhbərliyi təmin edir, eyni zamanda təşkilatın onun inkişafına münbit şərait yaradır.

Strateji idarəetməni strateji plan olmadan təsəvvür etmək qeyri-mümkündür. Strateji plan məktəbin missiyasını, məqsəd və vəzifələrini özündə ehtiva edən sənəddir. Strateji planlaşdırma dedikdə isə yerinə yetirilməli olan işin əvvəlcədən uzunmüddətli perspektivdə planlaşdırılması nəzərdə tutulur. Strateji planın effektiv olması üçün onun konkret bir şəxsin nöqteyi-nəzərindən deyil, bütün müəssisənin inkişafı nöqteyi-nəzərindən hazırlanması vacibdir. Çünki strateji idarəetmə və planlaşdırma məktəbin müəyyən məqsədlərinə nail olmağını təmin etmək üçün birgə fəaliyyətə əsaslanır. Strategiya uzunmüddətli məqsədləri müəyyənləşdirir və onlara nail olmaq üçün vasitələri müəyyənləşdirməyə imkan verir.

Təhsil resurslarında strateji idarəetmə, strateji plan kimi anlayışlar ilk dəfə olaraq ötən əsrdə -1984-cü ildə ortaya çıxmağa başlamış və 1987-ci ilə qədər artıq ABŞ-nin müxtəlif ərazilərində təxminən 500-ə yaxın məktəb strateji planlaşdırmanı tətbiq etməyə başlamışdı. Strateji planlaşdırma təhsildə də məqsədlərə, hədəflərə çatmaq üçün rəhbərlik (məktəb direktoru, idarə heyəti, himayəçilər şurası və s.) tərəfindən əvvəlcədən qəbul edilən qərar və ideyaların toplusudur.

Azərbaycanın ümumtəhsil müəssisələrinin bəzilərində strateji planlaşdırma ilə bağlı müəyyən təlimlərin və ya layihələrin (misal üçün, MİP – Məktəbin İnkişaf Planı və s.) keçirilməsinə baxmayaraq, bu istiqamətdə davamlı işlər hələlik həyata keçirilmir. Dövlət Statistika Komitəsindən alınan son məlumata əsasən 2022/2023-cü tədris ilinin əvvəlində Azərbaycan ərazisində dövlət və qeyri-dövlət olmaqla əyani ümumtəhsil müəssisələrinin ümumi sayı 4431-dir. Həmçinin 2022/2023-cü tədris ilinin statistikasına əsasən ümumilikdə 1.704.868 şagird bu məktəblərdə təhsil alır. Bu baxımdan, Azərbaycan ərazisində mövcud olan ümumtəhsil müəssisələrində strateji idarəetmə və strateji planlaşdırma fəaliyyətinin tətbiqi olduqca geniş miqyası əhatə etməlidir. Bunun üçün qarşıda duran ilk məsələlərdən biri də məktəbləri idarə edəcək şəxslərə strateji idarəetmə və məktəb strategiyasının yazılması bacarıqları, həmçinin bu əsnada strategiyaya uyğun planlaşdırmanın aparılması bacarıqları aşılanmalıdır. Bundan əlavə, məktəblərin öz strategiyasının formalaşdırılması üçün müəyyən mexanizmlərin də yaradılmasına ehtiyac var.

## Azərbaycanın ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili ilə bağlı normativ-hüquqi bazanın təhlili

**Hacıyev Ömər Əzizulla oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan müstəqillik qazandıqdan sonra təhsil sahəsində bir sıra normativ-hüquqi sənədlər qəbul edilmişdir. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin həyata keçirilməsi və inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edən bu mühüm dövlət sənədlərindən biri də Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 30 mart tarixli sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən hazırlanmış və 15 iyun 1999-cu ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı"dır. Azərbaycan təhsilinin yaxın 15 il üçün inkişafını nəzərdə tutan bu proqramın əsas məqsədi məktəbəqədər, orta, ali təhsil və ali təhsildən sonrakı pillələrdə əldə edilmiş potensialı saxlamaq və onu daha da inkişaf etdirmək, təhsil sistemini əhatə edən normativ-hüquqi bazanı təşkil etmək və cəmiyyətin demokratikləşdirilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsindən ibarətdir. Təhsil sahəsində İslahat Proqramının reallaşdırılması zamanı əsasən aşağıdakı prinsiplərin gözlənilməsi nəzərdə tutulmuşdur:

Azərbaycan Respublikasında təhsilin inkişaf etdirilməsi üçün etibarlı bazanın yaradılması, demokratikləşdirilmə, differensiallaşdırma, humanistləşdirilmə, inteqrasiya və fərdiləşdirilmə. Məhz bu prinsipləri əsas götürərək, təhsil alanların şəxsiyyət kimi yetişdirilməsi islahatın başlıca məqsədi kimi müəyyən edilmişdir.

Azərbaycan təhsilinin beynəlxalq standartlara uyğunlaşdırılmasını, dünya təhsilinə inteqrasiyasını nəzərdə tutan İslahat Proqramının 3 mərhələdə həyata keçirilməsi planlaşdırılmışdır. Birinci mərhələ hazırlıq mərhələsi adlanır və 1999-cu ili əhatə edir. Bu mərhələdə əsas məqsəd kimi Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən edilmiş təhsil almaq hüququnun təmin edilməsi, təhsil sisteminin normativ-hüquqi bazasını və informasiya sistemini təşkil etmək vəzifəsi qarşıya qoyulmuşdur.

İslahat proqramının ikinci mərhələsi 2000-2003-cü illəri əhatə edir. Bu mərhələdə əsasən təhsil sahəsində olan problemlərin həll edilməsi və xüsusilə, idarəetmədə yeni modellərin yaradılması və həyata keçirilməsi nəzərdə tutulmuşdur. Üçüncü mərhələ 2004-cü ildən başlayır və proqramda nəzərdə tutulmuş bütün planların həyata keçirilməsini özündə ehtiva edir.

Ümumtəhsil məktəblərində milli tariximizin, mədəniyyətimizin, adət və ənələrimizin öyrədilməsi, şagirdlərdə nəcib əxlaqi keyfiyyətlərin, xüsusilə vətənpərvərlik hissinin tərbiyə edilməsi İslahat Proqramında həlli vacib vəzifə kimi qarşiya qoyulur.

Azərbaycan Respublikasının Nazirlər kabineti tərəfindən 2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası(Milli Kurikulumu)" təsdiq edilmişdir. Milli Kurikulum konseptual xarakterli sənəd olub ümumi təhsilin bütün səviyyələri üçün həftəlik dərs saatlarını , pedaqoji prosesin təşkil edilməsini, qiymətləndirmə və monitorinqin həyata keçirilməsini əhatə edir. Eyni zamanda ümumtəhsil məktəblərində tərbiyə işinin düzgün təşkili mühüm vəzifə olaraq qarşıya qoyulur. Şagirdlərdə düzlük, doğruçuluq., başqalarının hüquq və azadlıqlarına hörmət etmək kimi tərbiyəvi keyfiyyətlərin aşılanması vacib hesab edilir.

Tərbiyə prosesinin idarə edilməsi baxımından normativ-hüquqi sənədlərdən biri də " Təhsil haqqında " Azərbaycan Respublikasının Qanunudur. 2009-cu il iyun ayının 19-da qəbul edilən bu qanunun əsas məqsədi hər bir Azərbaycan Respublikası vətəndaşının təhsil hüququnun təmin edilməsidir. Bu sənəd təhsil sahəsində qəbul edilən digər normativ-hüquqi aktlar üçün əsas baza rolunu oynayır. Təhsil sahəsində dövlət siyasətinin başlıca prinsiplərini özündə əks etdirən bu mühüm sənəddə milli və bəşəri dəyərlərin qorunması, insanlara və ətraf mühitə qayğıkeş münasibətin, tolerantlığın formalaşdırılması başlıca əxlaqi keyfiyyətlər kimi vurğulanır.

Azərbaycan Respublikası Nazirlər Kabineti 3 iyun 2010-cu ildə “Ümumi təhsil pillələrinin dövlət standartları və proqramları” adlı sənəd qəbul etmişdir. Bu sənəddə şagirdlərdə təlim bacarıqları ilə yanaşı bir sıra mənəvi keyfiyyətlərin formalaşdırılması təhsilverənlərin əsas vəzifəsi olaraq qarşıya qoyulur. Təhsilalanlarda Azərbaycan xalqının əxlaqi-mənəvi dəyərlərinə ehtiramla yanaşmaq, başqasının əməyinə qayğıkeş və ədalətli münasibət nümayiş etdirmək, məktəb əmlakını qorumaq, ünsiyyət, əməkdaşlıq və dialoq mədəniyyətinə yiyələnmək kimi zəruri keyfiyyətlərin tərbiyə olunması həlli vacib məsələ kimi irəli sürülür.

Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 2011-ci il 13 yanvar tarixində “Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi” təsdiq edilmişdir. Bu sənəd təhsilin idarə edilməsində mühüm rol oynayır. Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi “ Təhsil haqqında “ Azərbaycan Respublikasının Qanunu əsasında hazırlanır və bütün ümumtəhsil müəssisələrinin fəaliyyətini tənzimləyir. Nümunəvi nizamnamə təhsilin keyfiyyətinin artırılması, təhsilalanların təhsil hüququnun təmin edilməsi, ümumtəhsil məktəblərinin fərdi nizamnamələrinin hazırlanmasında əsas baza rolunu oynayır. Bu sənəddə təhsilalanlarin hüquq və vəzifələri, onların məktəbdə davranış qaydaları da öz əksini tapır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası “ Azərbaycan təhsil tarixində yeni bir dövr hesab edilir. Bu konsepsiyada əsasən yeni təlim texnologiyalarından istifadə, təhsilin modernləşdirilməsi, elektron tədris vəsaitlərindən istifadə edilməsi, milli və bəşəri dəyərlərə hörmət edən, müasir düşüncəli gənc nəsil yetişdirmək vəzifəsi qarşıya qoyulur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2013-cü il 24 oktyabrda qəbul edilmiş “Azərbaycan Respublikasinda təhsilin inkişafı üzrə Dövlət Strategiyası” təhsil tariximizdə yeni bir mərhələ hesab edilir. Strategiyanın qəbul edilməsində başlıca məqsəd ölkədə mükəmməl təhsil sisteminin yaradılmasıdır. Yüksək səviyyəli keyfiyyət göstəriciləri , müasir infrastrukturu, yeni təlim texnologiyalarının uğurlu tətbiqi ilə seçilən belə təhsil sisteminin Avropa standartlarına uyğunlaşdırılması nəzərdə tutulur. Ölkədə peşəkar və səriştəli müəllim kadrlarının hazırlanmasında da bu amillər həlledici rol oynayır. Strategiyada həmçinin azadlıq və demokratiya prinsiplərinə, Azərbaycan xalqının milli adət və ənənələrinə bağlı olan, müstəqil və yaradıcı düşünməyi bacaran təşəbbüskar şəxsiyyətlərin formalaşdırılması dəyəryönümlü tərbiyə prosesinin qarşısında duran əsas vəzifələr kimi diqqət mərkəzində saxlanılır

Nəticə etibarilə belə qənaətə gəlmək olar ki, adlarını çəkdiyimiz bütün bu sənədlər Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində təlim-tərbiyə işinin təşkili üçün normativ-hüquqi baza rolunu oynayır.

## TƏRBİYƏ PROSESİNİN İDARƏ OLUNMASINDA MƏKTƏB İCMASININ ROLU

**Hacıyev Ömər Əzizulla oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İcma əsaslı təhsil və məktəb icması anlayışları fərqli xüsusiyyətlərə malik olsa da , bəzən onları eyni aspektdən izah etməyə çalışırlar. İcma əsaslı təhsil müxtəlif formalarda mövcud ola bilər. Məsələn icma məktəbləri, məktəbəqədər uşaqlar üçün icma, böyüklər üçün təhsil proqramları və öyrənmə mərkəzlərini buna misal göstərmək olar. İcma əsaslı təhsilin əsas faydalarından biri öyrənənləri sinifdənkənar fəaliyyətə hazırlamaqdır. Bununla belə, icma əsaslı təhsildə bir sıra problemlər mövcuddur. Burada maraqlı tərəflərin perspektivlərini və prioritetlərini əlaqələndirmək və inteqrasiya etmək çətin olur. Bütün bu çətinliklərə baxmayaraq, icmaəsaslı təhsil ömürboyu öyrənməni nəzərdə tutur və canlı icmaların inkişafını dəstəkləmək üçün daha güclü vasitə olmaq imkanları kəsb edir. İcma əsaslı təhsil yeni öyrənmə təcrübələri yaratmaqla təhsili dəyişmək potensialına malikdir.

Uşaqların inkişafının ən zəruri komponentlərindən biri də icma əsaslı erkən təhsildir. İcma əsaslı erkən təhsil proqramında uşaqlar öz emosional bacarıqlarını inkişaf etdirməyə yönəlmiş yüksək keyfiyyətli təhsil alırlar. İcma əsaslı təhsilin əsas üstün cəhətlərindən biri də uşaqları təhlükəsiz və dəstəkləyici mühitlə təmin etməsidir. Uşaqlar bildiyimiz kimi özlərini rahat və təhlükəsiz hiss etdikləri mühitdə daha yaxşı inkişaf edir.

İcma əsaslı təhsildə uşaqların sosial, emosional bacarıqlarının inkişaf etdirilməsi üçün lazım olan dəstəyi almasına köməklik göstərilir. Onun ən üstün cəhətlərindən biri də valideynlərin təlim və tərbiyə prosesinə cəlb edilməsidir. Bildiyimiz kimi valideynlər uşağın ilk müəllimidir. İcma əsaslı təhsil valideynlərə seminarlarda, tədbirlərdə iştirak etmək imkanı yaradır ki, bu da öz növbəsində uşaqların bilik və bacarıqlarının inkişaf etdirilməsinə, öyrənməsinə və inkişafına kömək edir.

İcma əsaslı təhsil sosial mənşəyindən asılı olmayaraq uşaqların keyfiyyətli təhsilə çıxışını təmin edir. Bu cür proqramlar tez-tez kənd yerlərində və ya az gəlirli ərazilərdə, adekvat təhsil imkanlarına malik olmayan icmalarda təmin edilir. Belə proqramların təşkil olunması uşaqların keyfiyyətli təhsil almaları və həyatda uğur qazanmaları baxımından mühüm əhəmiyyət kəsb edir. İcma əsaslı təhsil proqramlarını həyata keçirilməsində əsas addımlardan biri cəmiyyətin tələbatlarını qiymətləndirmək və onları düzgün şəkildə dəyərləndirməkdir. İcma əsaslı təhsil proqramlarını qiymətləndirmək üçün valideynlər, pedaqoqlar və icma liderləri cəlb edilməlidirlər. Həmçinin həmin proqramlar uşaqlara keyfiyyətli təhsil almaq imkanının yaradılması və inklüziv öyrənmə mühitini təmin etmək üçün kifayət qədər cevik olmalıdır. İcma əsaslı təhsil təlim-tərbiyə prosesinin düzgün qurulmasında və həyatda uğur qazanmaq baxımından uşaqların bərabər imkanlara malik olmasını təmin etməkdə mühüm rol oynayır.

Bəs məktəb icması nədir və tərbiyə prosesində onun rolu nədən ibarətdir?

Müasir məktəbin tərbiyə prosesinin idarə olunması baxımından hansı üstünlüklərə malik olması hazırda pedaqoqları , təhsil işçilərini düşündürən əsas məsələlərdən biridir. Cəmiyyətin artan ehtiyaclarına cavab verə bilən , onu daha çox inkişaf etdirməyə qadir olan müstəqil təfəkkürlü, çevik, problemi vaxtında müəyyən edib operativ qərar qəbul etməyi bacaran, tolerant, rəqabətəqabil yeni insan tərbiyə etmək ümumtəhsil məktəblərinin qarşısında duran ən mühüm, həlli vacib problemlərdən biridir. Bəs ictimaiyyətin diqqət mərkəzində olan, inkişaf etmiş yaxşı məktəb hansıdır? Elm və təhsil naziri Emin Əmrullayevin fikrincə, hazırkı dövrdə məktəb indikatoru yalnız şagirdlərin topladığı balla deyil , yetişdirdiyi keyfiyyətli, faydalı, öz biliyi və baçarığı ilə ölkənin inkişafına töhfə verə bilən insanla ölçülür.

Hal-hazırda şagirdləri öz imkanları ilə qarşılayan, onların maraq dairəsini stimullaşdıran məktəblərin yaradılması təhsil fəaliyyətimizin mərkəzində durur. Uşaqlar öz məktəblərinə çox böyük rəğbət bəsləyir, öz müəllimlərini sevdikləri kimi öz məktəblərini də çox sevir və orada olmaqdan böyük fərəh hissi keçirirlər. Daim məktəbə getməyə can atır, dostları ilə zaman keçirməyə üstünlük verir, ən əsası isə müəllimlərinin söhbətlərindən və qayğısından məmnun qalır onlara məsləhət məkanı kimi yanaşırlar. Ona görə də məktəb bütün fəaliyyətində şagirdlərin etimadını doğrultmalı, onlara yüksək təhsil-tərbiyə imkanları yaratmalıdır. Ənənəvi məktəb-ailə- ictimaiyyət birliyi bu gün öz yerini daha çox məktəb içmasına verir. Hazırkı mərhələdə məktəb icmasının cəmiyyətin ehtiyaclarına nə dərəcədə cavab verə bilməsi ciddi pedaqoji problem olaraq düşüncə obyektinə çevrilir.

Lüğəvi mənası "ittifaq", "bir neçə obadan ibarət dairə", "cəm olmaq" mənasını verən " icma " anlayışı dilimizin lüğət tərkibində olsa da, son zamanlar çox geniş mənada işlənməyə başlamışdır. Xarici ölkələrdə həmçinin təhsil, mədəniyyət sahələrində meydana çıxmış və hal-hazırda da istifadə olunmaqdadır. Xarici ölkələrin təhsili daha çox demokratik əsaslar üzərində qurulduğundan təhsil müəssisələri ilə cəmiyyətin və digər bütün qurumların fəaliyyəti uşaqların düzgün inkişaf etməsinə , tərbiyə və təhsil almasına yönəlmişdir. Həmçinin məktəblər özləri də valideynlərlə sıx əlaqə saxlayır və onlarla əməkdaşlıq etməyə maraq göstərirlər. Eyni zamanda valideynlər də məktəbəqədər təhsil müəssisələrinin və məktəblərin fəaliyyətinə yaxından kömək göstərməyə çalışırlar. Bu da öz növbəsində təlim və

tərbiyə prosesinin keyfiyyət təminatında çox mühüm əhəmiyyət kəsb edir. Biz bilirik ki , təhsil sistemi qapalı sistem deyil və hamıya açıqdır. Müasir dövrdə təhsilin şagirdyönümlü , tələbəyönümlü olması onun çeviklik xüsusiyyətini artırır. Bu cür təhsil sistemi təhsilalanların fəaliyyətini məhdudlaşdırmır. Əksinə, onların imkanlarını daha da genişləndirir.

Bu gün cəmiyyətin əsas aparıcı qüvvəsi olan məktəb şagirdlərin davamlı fəaliyyətini təşkil edərək onların emosional və psixomotor inkişafına təsir göstərir. Bu cür məktəblər öz üzərinə düşən vəzifələri icra etmək məqsədi ilə valideyn təşkilatları və onlara yaxın olan digər təşkilatlarla tərəfdaşlıq çərçivəsində mükəmməl bir birlik yaradır. Hər bir məktəbin bu şəkildə bir birlik yarada bilməsi onun fəaliyyətinin inkişaf etməsini və daha da genişlənməsini təmin edir. Bu şəkildə olan məktəb icmaları məktəb şurası formasında daha da genişlənməkdə davam edir. Son araşdırmalara nəzər yetirildikdə görə bilərik ki, məktəb icması məktəb həyatını daha maraqlı, daha effektiv etmək üçün valideyn, müəllim və şagirdlər arasında yaradılmış sıx əməkdaşlıq hesab edilir. Məktəb icmasına insanların toplusu kimi baxırlar. Məlum olduğu kimi məktəb icması olan məktəblərdə valideynlər təlim-tərbiyə prosesi ilə yaxından tanış olmaq imkanı əldə edir. Bu prosesin fəal iştirakçısına çevrilirlər. Bəs bu gün məktəb icmasının fəaliyyətinə nəyə görə üstünlük verilir? Çünki məktəb icması tərbiyə prosesində əsas rol oynayır. Bu icmalar şagirdlərin biliyini artırmaq, onların sosial və fərdi bacarıqlarını inkişaf etdirmək üçün məntiqi, sosioloji və pedaqoji məqsədlərlə təşkil olunur. Məktəb icması təhsil sisteminin keyfiyyətini yaxşılaşdırmaq və şagirdlərin daha effektiv öyrənməsini təmin etmək, məktəbdə tərbiyə fəaliyyətini genişləndirmək məqsədi ilə təşkil olunur. Bu icmalar tərbiyə prosesini idarə etməkdə və təlim metodologiyasında yenilikləri tətbiq etməkdə önəmli bir rol oynayır. Azərbaycan təhsil sistemi daxilində məktəb icmaları şagirdlərin biliyini artırmaq, sosial və fərdi bacarıqlarını inkişaf etdirmək üçün çeşidli sahələrdə təşkil olunur . Məktəb icmaları müxtəlif təhsil səviyyələrində, təhsil müəssisələrində və digər təhsil sahələrində fəaliyyət göstərir.

"Dünyanın sürətli inkişafı, məlumatların çoxluğu və həyatı fəaliyyətlərin intellektual əsasda yüksəldiyi bir dövrdə təhsilin zəruri bilik, bacarıq və səriştələr əsasında keyfiyyətlə qurulmasını tələb edir. Bu, artıq məktəbin vəzifələrinin yerinə yetirilməsində yeni yanaşmaların tətbiqini, bu zaman təhsil nailiyyətlərinin yüksəldilməsində valideynlərlə, eləcə də məktəbdən kənarda əlaqəli təşkilatlarla işinin yenidən qurulmasını tələb edir" [1 ]. Bu zaman məktəblərin, ailə və digər qurumlarla tərəfdaşlıq fəaliyyətinin qurulması əsas şərt kimi qarşıya qoyulur. Məktəb icması məktəblə sıx əlaqədə olan insanların, daha dəqiq ifadə etsək, müəllimlərin, məktəb idarəçilərinin,şagirdlərin, həmçinin onların ailələrinin məcmusudur.

Həmçinin təhsil müəssisəsinin uğurunda payı olan təşkilatlar, mədəniyyət müəssisələri, valideyn-müəllim assosiasiyaları, rayon icra hakimiyyətinin nümayəndələri, xeyriyyə fondları da icmanın tərkibinə daxil ola bilir. Məktəb icmasının bütün üzvləri təlim-tərbiyə prosesində meydana çıxan problemlərin həll edilməsində mühüm rol oynayırlar. Bu qurumun nümayəndələri məktəblilərin ümumi mədəniyyətini yüksəltmək, müəllim-şagird münasibətlərini tənzimləmək, inklüzivliyi təmin etmək, kollektivçilik, qayğıkeşlik keyfiyyətlərini inkişaf etdirmək üçün ortaq şəkildə fəaliyyət göstərə bilərlər. Yuxarıda qeyd etdiyimiz kimi icmanın tərkibinə çoxlu sayda maraqlı tərəflər daxildir. Bu tərəflərin hər birinin nümayəndələri məktəbdə planlaşdırılan tərbiyəvi tədbirlərin reallaşdırılmasında fəal iştirak edirlər.

S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasının həyata keçirdiyi bütün tərbiyəvi tədbirlərdə pedaqoji kollektivin üzvləri və şagirdlərlə yanaşı məktəb icmasının üzvləri də yaxından iştirak edirlər. Məsələn, gimnaziyada keçirilən " Qarabağ Azərbaycandır", " Zəfər günü", "Milli qəhrəmanlarımız", " Şəhidlər unudulmur", " Xocalı-qan yaddaşımız" kimi geniş auditoriyalı tədbirlərdə məktəb icmasının bütün nümayəndələri iştirak etmişlər.

Məktəbdə " Ən yaxşı təqdimat" müsabiqəsi keçirilmiş və fərqlənən şagirdlər məktəb icmasının üzvü olan rayon icra hakimiyyətinin fəxri fərmanları ilə təltif olunmuşdur.

Gimnaziyada valideynlər üçün " Pedaqoji lektoriya " təşkil olunmuş, icma üzvü olan valideynlər məktəb rəhbərliyi ilə birlikdə şagirdlərin tərbiyəsində üzləşdikləri çətinliklər, onları aradan qaldırmağın yolları barədə maarifləndirici çıxışlar etmişlər.

Müəllimlərin səriştəliliyini artırmaq üçün təşkilati- metodik tədbirlərin, dəyirmi masaların keçirilməsində də məktəb icması nümayəndələrinin iştirakı nəzərdə tutulmuşdur.

Məktəb icması üzvlərinin hər birinin öz fəaliyyət çərçivəsi və ona uyğun olaraq öz məsuliyyətləri vardır. Məsələn, rəhbər şəxs olan direktorun səlahiyyətinə icmaya lazım olan dəstəyin göstərilməsi, vaxtlı-vaxtında icma üzvlərinin fəaliyyətinin izlənilməsi və.s daxildir. Məktəb icmasında müəllimlərin də fəaliyyət dairəsi çox genişdir. Bildiyimiz kimi müəllimlər bütün şagirdlərin inkişafına nail olmaq üçün çalışan peşəkarlardır. Məktəb icmasının idarə olunması baxımından təlim-tərbiyə prosesinin həyata keçirilməsində ən əsas iştirakçılardan biri də valideynlərdir. Onlar öz övladlarının davranış mədəniyyətinə yiyələnmələrinə, düzgün balanslı şəraitin təmin edilməsinə səy göstərməlidirlər.

"Məktəb icmasında şagirdlərin fəaliyyəti də keyfiyyətin təmin olunmasına təsir göstərən mühüm amillərdəndir. Şagirdlər məktəb icmasının daxili nizam – intizamını gözləməli, öhdəliklərini aydın dərk etməli, icma üzvləri ilə əlaqə saxlamalı, çətinlik çəkdiyi hər hansı bir vəziyyətdə icmanın dəstəyindən istifadəni bacarmalı, öz həmyaşıdları və məktəbin şagird kontingenti arasında icmanın fəaliyyəti ilə əlaqəli məlumat verməlidirlər."[4 ]

Araşdırmalara görə, müəllim-şagird-valideyn əlaqələrinin yaradılması və onun ümumi təhsilin təşkilinə təkan verməsi məqsədi ilə Valideyn-Müəllim Assosiasiyası yaradılmışdır. Məktəblərdə şagirdlərin nailiyyətlərinin yüksəldilməsi, onların inkişafına yönəlmiş, onu dəstəkləyən əlaqələrin yaradılması əsas zərurət kimi meydana çıxmışdır. Təhsil- tərbiyə vəzifələrinin yerinə yetirilməsində tərəfdaş ola bilən məktəb icması da məhz bu sərurətdən yaranmışdır. Bu layihənin həyata keçirilməsinə 2015-ci ildən başlanılmış və bundan sonra 50-dən çox məktəb icması fəaliyyət göstərməyə başlamışdır. Hal-hazırda da ölkəmizdə məktəb icmalarının sayı artırılır. Həmçinin 70 məktəbdə məktəb icması yaradılması planlaşdırılır. Həmin məktəblərin müəllim, valideyn və şagirdlərinin birgə iclaslarının keçirilməsi və əməkdaşlıq fəaliyyətinin genişləndirilməsi nəzərdə tutulur. Məktəb icması təlim-tərbiyə prosesinin idarə olunmasında çox mühüm əhəmiyyətə malikdir. Qarşıdakı illərdə məktəb icmasının fəaliyyətinin daha da genişləndirilməsi nəzərdə tutulur.

Beləliklə, yekun olaraq qeyd edə bilərik ki, məktəb icması, tərbiyə prosesində əsas rolu olan bir qurumdur. Burada şagirdlərin sosial və psixoloji inkişafı , mədəni və humanitar dəyərlərin aşılanması, tərbiyəli, məsuliyyətli və özünə güvənən gənc nəsil yetişdirilməsi üçün keyfiyyətli təhsil, müəllim-şagird münasibətləri və idarəçilik təmin edilir. Bu yolla, məktəb icması, tərbiyə prosesinin inkişafında və keyfiyyət təminatında əhəmiyyətli rol oynayır.

Ədəbiyyat

1. Abbasov Ə. Məktəb icması haqqında pedaqoji düşüncələr./Azərbaycan müəllimi, 7 aprel, 2023, səh.4

2.https://ednews.net/az/news/sience/567724-mekteb-icmasinin-inkisaf-etdirilmesi-vasitesile

3.https://tehsiljurnali.az/pedaqoji/2688-mktb-v-mktb-cmasnn-birg-faliyyti.html

4.Cəbrayılov İ. Məktəb icması və onun Azərbaycan şəraitində formalaşması /Azərbaycan müəllimi, 20 may, 2022.

5.Məktəblərdə icma əsaslı valideyn assosiasiyası yaradılacaq.URL: https://azedu.az/az/news/19989-mekteblerde-icma-esasli-valideyn-assosiasiyasi-yaradilacaq-

## XÜLASƏ

Məqalədə icma əsaslı təhsil və məktəb icması anlayışlarının fərqi araşdırılır, məktəb icmasının tərbiyənin idarə olunmasında rolu və əsas üstünlükləri diqqət mərkəzində dayanır. Məktəbin uğurlu fəaliyyətində, tərbiyə prosesinin keyfiyyətli təşkilində böyük rol oynayan

məktəb icması nümayəndələrinin məktəbə köməyinin müasir istiqamətləri araşdırılır. İcma üzvlərinin tərbiyə prosesinin təşkilindəki səlahiyyət dairəsi açıqlanır. Konkret məktəbin nümunəsində məktəb icmasının həyata keçirdiyi tədbirlərin tərbiyə prosesinin keyfiyyətlə həyata keçirilməsi işindəki rolundan bəhs edilir.

***Açar sözlər:*** *məktəb, tərbiyə, icma*


**РЕЗЮМЕ**

В статье рассматривается отличие понятий общинного образования и школьного сообщества, акцентируя внимание на роли и основных преимуществах школьного сообщества в управлении образованием. Исследуются современные направления деятельности представителей школьного сообщества, которые играют важную роль в успешной работе школы и качественной организации образовательного процесса. Раскрыт объем полномочий в организации образовательного процесса членов сообщества. На примере конкретной школы обсуждается роль действий, реализуемых школьным сообществом, в качестве образовательного процесса.

***Ключевые слова:*** *школа, образование, сообщество*



**SUMMARY**

The article examines the difference between the concepts of community-based education and school community, focusing on the role and main advantages of the school community in the management of education. The modern directions of the school community representatives, who play a major role in the successful operation of the school and the quality organization of the educational process, are being investigated. The scope of authority in organizing the educational process of community members is disclosed. In the example of a concrete school, the role of the actions implemented by the school community in the quality of the educational process is discussed.

***Key words:*** *school, education, community*


## ALİ MƏKTƏBLƏRDƏ İDARƏETMƏNİN HƏYATA KEÇİRİLMƏSIİƏ BAXIŞ


**Hacıyeva Firəngiz Mübariz qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


XIX əsrin sonlarından başlayaraq, idarəetmə anlayışı tez-tez işlənməyə başlanmış, idarəetmə elm sahəsi kimi formalaşmışdır. İdarəetmə elminə daxil olan sahələrdən ən mürəkkəbi təhsil fəaliyyətdir. Bu sistemdə əsas yeri universitet təhsili tutur. Ali təhsilin idarə edilməsi prioritet tədqiqat sahəsi hesab olunur. İlkin olaraq istehsal-iqtisadi sahədə yaranan müasir menecmentin əsas ideyaları universitet idarəetmə praktikasına nüfuz etməyə başladı. Lakin mədəniyyətin hər hansı forması kimi, müasir universitet idarəçiliyi də özbaşına yaranmır. Universitetdə tədris prosesinin idarə edilməsi üzrə mövcud ənənəvi sistemlər nə ali pedaqoji təhsilin məzmununun d əyişdirilmiş tələblərinə, nə də elmdə hazırda hakim olan humanitar paradiqmaya uyğun gəlmir. Ali məktəblərdə təhsili idarəetmə təlim-tərbiyə prosesinin idarəedilməsi, tələbə və müəllim kollektivinin idarəedilməsi və digər alt idarəetmə sahələrini əhatə edir. Ali məktəbdə təhsilin idarəedilməsi idarəetmə elminin nəzəriyyəsi və təcrübəsinə əsaslanır. Ali məktəbdə təhsilin idarəedilməsi məktəbi idarəetmənin əsas məzmununu təşkil edir. Təhsili idarəetmədə elmi-nəzəri və praktik yanaşma vəhdətdə həyata keçirilir. Təhsili idarəetmənin elmi-nəzəri əsaslarına Dövlətin Əsas Qanunu, Təhsil haqqında Qanun, təhsili inkişafetdirmə konsepsiyası, Ali təhsilin Əsasnaməsi, Ali məktəbin konkret nizamnaməsi, Ali orqanların əmr və göstərişləri, universitetdaxili əmr və göstərişlər və s. daxildir. Azərbaycan Respublikasında ali məktəbdə təhsili idarəetmə təcrübəsi zəngindir. Baxmayaraq ki, indiyədək onun nə nəzəri, nə də əməli istiqamətdə elmi araşdırılması aparılmayıb, bu sahədə ciddi elmi-tədqiqat əsəri yazılmayıb. Ali məktəblərdə idarəetmə

sistemi kollegiallıq üzərində qurulur ki, burda da demokratik prinsiplər əsas götürülür. Ali idarəedici orqan müxtəlif səlahiyyətli orqanları birləşdirən Rəyasət heyətidir. Rektor həmin kollegial qrup qarşısında hesabat verir. Rektorluq isə Elmi Şura və Idarə heyəti ilə sıx bağlıdır. Burdan da görünür ki, yuxarıdan verilən göstəriş və təlimatlar kollegial olaraq düşünülür. Həmçinin, aşağıdan-kafedralardan, dekanlardan, prorektorlardan gələn təkliflər yuxarı kollegial orqanlarda müzakirə edilir və qərarlar verilir. [4]

Təcrübə göstərir ki, özəl ali məktəblər kadr hazırlığı işində daha çevik, daha operativ hərəkət edir, təhsil sahəsində qazanılmış dünya təcrübəsindən, dünya standartlarından səmərəli istifadə edirlər. Özəl ali təhsil müəssisələrinin öz iş üsullarını dünya təcrübəsi əsasında qurmaları rəqabət prosesində dövlət ali məktəblərinin fəaliyyətində də müəyyən dönüş yaradır, nəticədə respublikamızın təhsil sistemi daha da təkmilləşir. Kadr hazırlanması sahəsində uğurlar qazanılır. [ 2, 159]

Ali məktəbdə pedaqoji fəaliyyətə başlayan müəllim ilkin olaraq öyrənməlidir:

- İşləyəcəyi, yaxud işlədiyi ali məktəbin strukturunu – fakültə və ixtisasları, ali məktəbdə tədris, tərbiyə və elmi – tədqiqat işinin xüsusiyyətlərini;
- Tədrisin təşkili, təqvim – tematik plan tərtibi, qiymətləndirmə, auditoriyanı idarəetmə qaydalarını;
- İşlədiyi fakültənin (bölümün) tədris planını, öz ixtisası üzrə fənn və ya fənlərin tədris planında yerini, müddətini, semestrlər üzrə ayrılmış tədris vaxtını, mühazirə, seminar, laborator işlərin yerini və həcmini, ixtisası ilə əlaqədar auditoriyadan (sinifdən) kənar müstəqil işlərin forması və həcmini.

Bu bələdlik müəllimə öz fəaliyyətini aydın, düzgün qurmağa kömək edir.

Qeyd edilənlərlə əlaqədar olaraq, H. Əhmədovun qənaətinə görə “ali təhsil sistemində mütəxəssis kadrların hazırlanması, ümumilikdə beynəlxalq çoxvariantlı komponentlərlə bərabər, beynəlxalq əmək bazarında təhsilin rəqabət qabiliyyətinin, elmi innovasiyaların operativ mübadiləsi, beynəlxalq məlumat şəbəkələrinin yaradılması, müəllimlərin və təhsilalanların çevikliyi, ali təhsil sistemində birgə beynəlxalq elmi-tədris layihələrinin həyata keçirilməsini də təmin etmək lazımdır” [3, s.33].

Bu baxımdan da müəllim tədrisi davam etdirərək öz fəaliyyətini daha da təkmilləşdirməyə çalışmalıdır və bu zaman öyrənməlidir:

- Ali məktəbin daxili nizam – intizam qaydalarının spesifik xüsusiyyətlərini;
- Həmkarları ilə həmkar tanışlığı;
- Tədris, təlim – tərbiyə metodikasına yiyələnmə və onu təkmilləşdirməyi;
- Tələbələrini tanıma və tələbələri ilə iş və ünsiyyət metodikasına qiymətləndirməyi və s.

Aparılan pedaqoji işin uğuru, yəni təlim – tərbiyənin səviyyəsi ali məktəbdə yaranmış pedaqoji mühitdən, başqa sözlə, pedaqoji rejimdən çox asılıdır. Belə ki, pedaqoji mühit hamını pedaqojiləşdirir. İnzibati işçiləri də, dərs deyənləri də, öyrənənləri də. Bu mühitin yaranması üçün hamı pedaqoji bilikləri öyrənməli və öz davranışında, hərəkətində, münasibətində, müraciətində, auditoriyada dərsin şərhində, praktik işlərində və s. metodik məqsəd daşımalıdır.

Aparılan təhlillər göstərir ki, ali məktəb müəlliminin pedaqoji fəaliyyət hazırlığına aşağıdakıları aid etmək olar:

- Ali məktəbin daxili nizam – intizam qaydalarına bələdlik, onun yerinə yetirilməsi və ümumi mühitin bərqərar olmasına səy;
- Həmkarların tədris, təlim – tərbiyə üslubu ilə tanışlıq;
- Tədris, təlim – tərbiyə metodikalarına yiyələnmə və onu təkmilləşdirmə;
- Tələbələrin fərdi xüsusiyyətlərinə, marağına, psixoloji və sosial durumuna görə tanıma;
- Davranış, ünsiyyət, münasibət mədəniyyəti nümayiş etdirmə və s.

Eyni zamanda, ali məktəb müəlliminin uğurlu pedaqoji fəaliyyətinin şərtlərinə daxildir:

- Etik və taktik yanaşmalarda səhv etməmək;
- Ali məktəbdə vahid intizam rejiminə riayət edilməsi;

- Ali məktəbdə maddi – texniki təchizatın, sosial təsisatların tamlığı;
- Ali məktəbdə tam sağlam – mənəvi mühitin olması;
- Obyektiv qiymətləndirmə;
- Müəllim – tələbə əməkdaşlığının yüksək metodik səviyyəsi;
- Müəllimin nüfuz sahibi olması;
- Tələbələrin sosial, bədii, estetik, idrakı və s. qabiliyyətləri ilə maraqlanmaq və tələbə ictimai – mədəni tədbirlərində iştirak və s.
- Tələbə sağlamlığının qorunması və s.
- Həddindən artıq tələbə yorğunluğuna yol verilməməsi və s.

Ədəbiyyat
1. Azərbaycan Respublikasının Təhsil Qanunu 2009.
2. Əhmədov H. Ali təhsilin modernləşdirilməsi. Bakı, Maarıf, 2008, 190 səh.
3.Sadıqov F.- Pedaqogika, Bakı 2008, 448 səh.
4. http://ajdaragayev2017.blogspot.com/2017/08/ali-mktbd-thsili-idaretmnin-humanizm-v.html

## ÖZƏL ALİ MƏKTƏBLƏRDƏ STRATEJİ PLANLAŞMANIN TƏTBİQİ: STRATEJİ MƏQSƏDLƏR, ƏMƏKDAŞLIQ VƏ TƏLƏBƏ MƏMNUNLUĞU

**Heydərli Aytən Əskərqulu qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Özəl ali məktəblərdə strateji planlaşmanın tətbiqi strateji planlaşma prosedurunun incələnməsini və özəl ali məktəblərin strateji planlaşma prosedurları və bu prosedurların özəl məktəbin inkişafına təsirini araşdırmağı tələb edir. İlk növbədə SWOT təhlilinin məktəblərə təsiri (güclü, zəif, əməkdaşlıq və təhlükə) bu təhlilin özəl ali məktəblərin strateji planlamasında necə istifadə olunduğu və nəticələrinin nə olduğu müəyyən edilir.

Özəl ali məktəblərdə strateji planlaşmada bir sıra əmədaşlıqlar nəzərədə tutulur. Bunlar universitetlərlə, iş dünyası ilə, digər dövlət və qeyri-dövlət müəssisələri ilə, sosial və mədəni təşkilatlarala iş birliyini nəzərdə tutur. (1;2) Tədqiqatçılar təhsildə dövlət və özəl bölmənin müqayisəsindən bəhs edərkən "dövlət təhsili və özəl təhsil arasında 3 tip bölgü göstərir: 1. Kütləvi özəl və məhdud dövlət təhsili; 2. Paralel dövlət və özəl təhsil; 3. Kütləvi dövlət və məhdud özəl təhsil" [3,s 2].

Universitetlərlə əməkdaşlıq özəl ali məktəblərə tələbələrə daha geniş təhsil imkanları təqdim etmək və akademik təcrübələri artırmaq üçün vacibdir. Strateji planlaşma prosesində bu əməkdaşlığın necə tənzimləndiyi və nəticələrinin nə olduğu araşdırıla bilər.

Özəl ali məktəblərin iş dünyası ilə əməkdaşlığı, tələbələrə iş təcrübəsi və əlaqələri gücləndirmə imkanı verir. Strateji planlaşma ilə bu əməkdaşlığın necə inkişaf etdirildiyi və məktəblər üçün necə faydalı olduğu araşdırıla bilər. "Dünya təcrübəsində də universitetlər müstəqildir, yəni idarəetmə funksiyalarını sərbəst yerinə yetirirlər. Düşünürəm ki, ölkəmizdə də universitetlərə maksimum sərbəstlik verilməli, tabelik naminə səlahiyyətləri məhdudlaşdırılmamalıdır. Təcrübə göstərir ki, fəaliyyətin təşkili və idarəolunmasında müstəqil olan universitetlər daha çox uğurlar əldə edir və dünya səviyyəli universitetlərə çevrilirlər".[2, s 325]

Özəl ali məktəblərin digər təhsil müəssisələri ilə əməkdaşlığı, tələbələrə daha geniş təhsil imkanları və fərqli təcrübələr təqdim etməyə kömək edir. Strateji planlaşma ilə bu əməkdaşlığın necə tənzimləndiyi və nəticələrinin nə olduğu incələnə bilər. "...özəl təhsil müəssisələri müəyyən qədər «dövlətinkiləşir», dövlət təhsil müəssisələri isə müəyyən qədər «özəl» sahəyə nüfuz edir. Ona görə də dövlət və özəl sektor arasında dəqiq bir təcrübəyə əsaslanan fəaliyyət ardıcıllığı yoxdur və bu ikimənalılıq həmişə dövlət və özəl sektorun

müqayisəli öyrənilməsində problem kimi meydana çıxır. Ümumiyyətlə, həmişə dövlətin özəl təşkilatlara, özəl təşkilatların isə dövlət aparatına nüfuz etməsi müşahidə olunur" [4, s. 17].

Məruzədə innovativ təcrübələrin strateji planlaşma prosesində necə yer tutduğu və özəl məktəblərin inkişafına necə təsir etdiyi, özəl ali məktəblərin digər təhsil müəssisələri, universitetlər və iş dünyası ilə əməkdaşlıq və şəbəkələşmə proseslərinin strateji planlaşma ilə necə tənzimləndiyi və bu əməkdaşlığın məktəbin inkişafına təsiri göstərilir.

Ədəbiyyat


1. İsaxanlı İ. Ali təhsildə dövlət və özəl sektor. Müqayisəli təhlil: Maliyyələşmə, idarəetmə və funksiyalar. /Xəzər Universiteti/"Təhsil və cəmiyyət" (jurnal), № 2,- 2012, -səh.10-15.
2. Mərdanov M. Azərbaycan təhsili: yaxın keçmişə, bu günə və gələcəyə bir baxış 12 iyun 2009,№22(8335) https://www.muallim.edu.az/www.old/arxiv/2009/n22/ardi1.html
3. Geiger Roger. Private Sectors in Higher Education: Function, and Change in eight countries. Ann Arbor, M\: University of Michigan Press, 1986
4. Levy Daniel. Higher Education and the State in Latin America: Private challenges to Public Dominance. Chicago: University of Chicago Press, 1986.



## XÜLASƏ

Məruzədə bu gün üçün aktual olan mövzudan-özəl ali məktəblərin strateji planlaşmasından və strateji məqsədlərdən, tələbə məmnunluğundan danışılır. Özəl ali məktəblərin digər təhsil müəssisələri ilə əməkdaşlığı, tələbələrə daha geniş təhsil imkanları və fərqli təcrübələr təqdim etməsinə dədiqqət yetirilir. kömək edir. Həmçinin məruzədə innovativ təcrübələrin strateji planlaşma prosesində necə yer tutduğu və özəl məktəblərin inkişafına necə təsir etdiyi, özəl ali məktəblərin digər təhsil müəssisələri, universitetlər və iş dünyası ilə əməkdaşlıq və şəbəkələşmə proseslərinin strateji planlaşma ilə necə tənzimləndiyi və bu əməkdaşlığın məktəbin inkişafına təsiri göstərilir.



***Açar sözlər:*** *özəl ali təhsil, strateji planlaşma, tələbə məmnunluğu, SWOT təhlil, innovativ təcrübələr*



## РЕЗЮМЕ

В докладе говорится об актуальной на сегодняшний день теме – стратегическом планировании и стратегических целях частных высших школ, удовлетворенности студентов. Особое внимание уделяется сотрудничеству частных университетов с другими учебными заведениями, предоставляющему студентам более широкие образовательные возможности и различный опыт. помогает. В отчете также показано, как инновационные практики имеют место в процессе стратегического планирования и как они влияют на развитие частных школ, как процессы сотрудничества и сетевого взаимодействия частных высших школ с другими учебными заведениями, университетами и деловым миром регулируются стратегическим планированием и бизнесом. влияние этого сотрудничества на развитие школы.



***Ключевые слова:*** *частное высшее образование, стратегическое планирование, удовлетворенность студентов, SWOT анализ, инновационные практики*



## SUMMARY

The report talks about the topic that is relevant for today - strategic planning and strategic goals of private higher schools, student satisfaction. Emphasis is placed on the cooperation of private universities with other educational institutions, providing students with wider educational opportunities and different experiences. helps. The report also shows how innovative practices take place in the strategic planning process and how they affect the development of private schools, how the cooperation and networking processes of private higher schools with other educational institutions, universities and the business world are

regulated by strategic planning and the impact of this cooperation on the development of the school.

***Keywords:*** *private higher education, strategic planning, student satisfaction, SWOT analysis, innovative practice*

## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ PROFESSOR-MÜƏLLiM HEYƏTİNDƏ MOTİVASIYANIN YARADILMASI ÜSULLARI

**Həsən Arzu Natiq qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Elmi ədəbiyyatda motivasiya anlayışına dair müxtəlif yanaşmalar mövcud olsa da, əksər yanaşmalarda bu anlayışın mahiyyəti tam açıqlanmamışdır. Bu baxımdan, hazırda bir çox tədqiqatçılar motivasiya anlayışının şərh etməyə cəhd edirlər. Motivasiya anlayışı ilk dəfə A. Şopenhauer tərəfindən 1813-cü ildə elmə gətirilmişdir. Mənası "içəridən görünən səbəb" kimi izah edilmiş və bundan sonra psixoloqlar, sosioloqlar, iqtisadçılar tərəfindən bir termin olaraq davamlı şəkildə istifadə edilmişdir.

Motivasiya (latınca movere-hərəkət etdirmək, itələmə deməkdir) dedikdə tələbatların təmin olunması ilə əlaqədar olaraq insanı fəaliyyətə təhrik edən amillər nəzərdə tutulur. Motivasiya insanlara təsir edən və peşə fəaliyyətində nailiyyətlər əldə etmələrini stimullaşdıran bir prosesdir və eyni zamanda onların istiqamətini müəyyən edən bacarıqlarından, dünyagörüşündən, eləcə də düşüncələrindən, ümidlərindən, inanclarından, bir sözlə, arzularından yaranır. İnsanın fəaliyyətində motivasiya çox mühüm rol oynayır.

Peşəkarlıq və səriştəlilik müəllimin peşə fəaliyyətinin əsas atributlarından biridir. Onun formalaşmasının əsası müəllim hazırlığı prosesində qoyulur. Buna görə də müəllimin pedaqoji peşəkarlığının və səriştəliliyinin formalaşmasına pedaqoji təhsil illərindən, yəni peşə biliklərinin aşılanması prosesindən başlanılmalıdır. Peşə bilikləri peşə fəaliyyətinin nəzəri və praktik əsaslarının mənimsənilməsindən ibarət olduğundan pedaqoji fəaliyyətin səviyyəsinə də ciddi təsir göstərir. Peşə biliklərinin formalaşdırılması prosesinin müasir tələblər səviyyəsində təşkil edilməsi, məzmunlu və peşəkarlıqla aparılması tələbələrdə peşəkarlıq və səriştəliliyin ilk elementlərinin yaranmasında böyük rol oynayır. Ali məktəbdə bu istiqamətdə formalaşmış olan bilik, bacarıq və vərdişlər pedaqoji fəaliyyətdə peşəkarlıq və səriştəliliyin özünü göstərməsi ilə müşayət olunur. Buna görə də gələcək müəllimlərdəpeşəkarlıq və səriştəliliyin yüksək səviyyədə olmasına nail olmaq üçün onlarla ilk növbədə pedaqoji-psixoloji hazırlığın aparılmasına böyük ehtiyac vardır. Bu hazırlıq içərisində motivlərin formalaşdırılması xüsusi yer tutur.

Pedaqoji heyətin motivsiyasında iki mühüm amil əsas rol oynayır: daxili amil və xarici amil. Şagird və tələbələrin dərsə olan marağı, müəssisə kollektivi və rəhbərlik arasında müsbət münasibətlər, rəhbərliyin öz müəllimlərinə ehtiyac duyduqlarında dəstək olmaları, müəllimə qiymət verilməsi, müəllimlərin şagird və tələbələrin inkişafında yaratdığı fərqin təqdir olunması, təlimin effektiv həyata keçirilməsi üçün təhsil müəssisələrinin otaqlarında kifayət qədər alət və avadanlıqların olması müəllimləri həvəsləndirən və fəaliyyətlərində müsbət irəliləyişlər yaradan əhəmiyyətli xarici amillər hesab olunur .

Müəllimlik peşəsindən zövq almaq, tələbələrə sevgi, tələbələrə faydalı olmaq fikri, vətənə, millətə sevgi, güclü məsuliyyət hissinin olması, çətin işlərə nail olmaq istəyi və s. daxili amillərdir. Ali təhsil müəssiaələrində çalışan professor-müəllim heyətininin motivasiyası bir neçə amillərlə bağlıdır:

Öyrənmək və inkişaf: Müəllimlər öyrənməyə, yeni məlumatlar öyrənməyə beynəlxalq tədqiqat sahəsində iştirak etməyə maraqlıdırlar. Universitetlərdə tədqiqat layihələri, beynəlxalq və respublika səviyyəli konfranslar və seminarlar kimi tədbirlərlə onların inkişafını dəstəkləyərək bu motivasiyanı artırmağa çalışılmalıdır..

Tələbələrlə əlaqə: Müəllimlər tələbələrlə əlaqə qurmaq, onların öyrənmə prosesinə dəstək olmaq və müvafiq sahədə inkişaf etməsinə kömək etmək istəyirlər. Tələbələrlə

müntəzəm əlaqə yaratmaq və onların elmi naliyyətlər qazanmasına kömək etmək və eləcə də, təhsildə naliyyətlər əldə etmək müəllimlərin işində təsirli olduğunu hiss etmələrini təmin edir.

Araşdırma və yaradıcılıq imkanları: Ali təhsil müəssisələrində müəllimlər öz tədqiqatlarını aparır və yaradıcılıqlarını inkişaf etdirmək üçün imkanlar əldə edirlər. Bu, müəllimlərin öz sahələrində istedadlarını göstərmələrini və öz potensiallarını maksimum səviyyəyə çıxarmaq üçün onları stimullaşdırır və elmi fəaliyyətlərini optimallaşdırır.

Mükafatlandırma və tanınma: Universitetlər, müəllimlərinin əməkdaşlığı və uğurları üçün müxtəlif həvəsləndirici tədbirlər həyata keçirdir. Bu, onların motivasiyasını artırmaq üçün effektiv bir yollardan biridir.

Karyera imkanları: Müəllimlər universitetdə karyera imkanları, əlavə ödənişlər, sıralama və mükafatlar kimi əlavə maddi və mənəvi vasitələrdən istifadə edirlər.

İşlərinə marağı və təcrübələrinin artırılması, onları işə daha da bağlı olmalarına və daha da məsuliyyətli hiss etmələrinə şərait yaradır. Ayrıca, müəllimlərin işlərində uğurlu olmaları və müvəffəqiyyətlərə nail olmaları, öz məqsədlərinə çatmaq üçün əlavə motivasiya verir. Universitetlərdə tərbiyə işinin təşkili, təlim texnologiyalarının və dərs materiallarının, tədris prosesinin  inkişaf etdirilməsi, tədqiqat və yaradıcılıq imkanlarının verilməsi kimi fəaliyyətlər də müəllimlərin motivasiyasını artıra bilər. Son olaraq, mükafatlandırma sistemləri və karyera imkanları da müəllimləri təşviq etməklə yanaşı onların motivasiyasına müsbət təsir edir.

Bütün bu amillər kompleks şəkildə ali təhsil müəssisələrinin professor-müəllim heyətinin təlimin keyfiyyətini yüksəltməsinə kömək edir.

Müəllimlərin motivasiyasiyasının artmasında və öz işlərində uğurlu olması üçün onların xarici motivasiya mənbələrini gücləndirilməsində bacarıqlı məktəb rəhbərlərinin olması  vacib şərtlərdən sayıla bilər. Bu baxımdan ölkəmizdə təhsil sistemində bir sıra müsbət addımlar atılmışdır. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında üçüncü strateji istiqamət təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, təhsil müəssisələrində nəticəyönümlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması kimi hədəfləri əhatə edir.

Mühitin təlim, təhsil və tərbiyə işlərinin səviyyəsinin yüksəldilməsində güclü amillərdən biri olması müəllimlərin yaradıcılığına, yenilikçi olmağına da onun böyük təsiri vardır. Xüsusən gənc müəllim yeni işləməyə başladığı məktəbdə yenilikçi bir mühitlə qarşılaşdıqda, müəllimlərin yeniliyə meylli və yaradıcılıqla məşğul olduğunu gördükdə, belə bir mühit onda da yenilikçi və yaradıcılıq motivlərinin yaranmasına və inkişafına mühüm təsir göstərir. O da özünün qüvvə və bacarığından istifadə edərək yeniliklərdən geri qalmamağa, yenilikçi müəllim kimi fəaliyyətlə məşğul olmağa can atır. Yenilikçi və yaradıcı mühitin səciyyələndiyi başlıca xüsusiyyət müəllimlərin yeni təlim metodlarını, müasir təhsil texnologiyalarını tətbiq etməklə məktəbdə fəal bir təhsil mühitinin yaradılmasıdır.Müəllimlər yenilikləri izləyir, qabaqcıl təcrübəni öyrənir, tətbiq edir və peşəkarlıqlarını artırmağa çalışırlar.

Bilik və bacarıqlarını davamlı artıran müəllimlər təhsilalanların nailiyyətlərinə əlavə töhfə verirlər. Peşəkarlığa əsaslanan stimullaşdırıcı əmək haqqı sisteminin olmaması, təhsil müəssisəsi səviyyəsində idarəetmənin qeyri-effektivliyi, müəllim hazırlığı üzrə infrastrukturun zəif olması müəllimin fəaliyyətinə təsir edən amillər sırasındadır. Bu baxımdan təhsil islahatı uğurla aparılan ölkələrdə müəllim peşəkarlığının inkişafı üçün stimulların yaradılmasına və müəllim hazırlığının təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir.

# TƏHSİL SİSTEMİNDƏ KEYFİYYƏTƏ NƏZARƏT

**Həsənov Elsevər Vüqar oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Pedaqoji prosesin effektivliyinin kriteriyaları kimi təlimin məqsədləri və yaxud normativləri (standartları) götürülə bilər. Təhsilin keyfiyyəti ilə əlaqədar problemlərdən biri də təlim məqsədlərinin taksanomiyası (taksanomiya yunan sözü olub, tacis – qayda ilə yerləşdirmə, nomos – qanun deməkdir, başqa sözlər təlim məqsədlərinin şəbəkəli (iyerarxik) yə ya sistemli qururlması) ilə bağlıdır, çünki, təlim prosesini o halda effektiv saymaq olar ki, onun qarşısında qoyulmuş məqsədlər həyata kecmiş olsun.

Bu baxımdan pedaqoji təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı praktiki bilik və bacarıqların, səriştənin (kompitensiyanın) vacibliyi önə çəkilməlidir. Səriştə isə əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha əhəmiyyətli xidmət göstərir.

Təhsil müəssisələrində keyfiyətli (effektiv) təhsil sisteminin qurulmasına və onun idarəedilmasinə yanaşmalar müxtəlifdir. Bir qrup mütəxəssislər idarəetmənin effektivliyinin bürokratiyaya yol verməden dəqiqliyə və operativliyə əməl etməkdə, digərləri onu idarəetmə aparatnın minimum xərclə işləməsində, üçüncü qrup isə idarəetmədə riyazi metodlardan və kompüter texnologiyalarından geniş istifadə etməkdə görürlər. Bu yanaşmaların hər üçündə qismən də olsa, idarəetmədə demokratik prinsiplərin tətbiq olunması istiqamətində müsbət fikirlər vardır. Müasir yanaşmalara görə təhsil müəssisələrində elə bir pedoqoji sistemi olmalıdır ki, səxsiyyətin inkişafı, meyl, maraq və qabiliyyətlərin formalaşması, həmçinin, onun mənəvi və əxlaqi cəhətdən layiqli bir vətəndaş kimi yetişməsi üşün maksimum şərait yarada bilsin.

Müasir şəraitdə təhsil müəssisələrini iki qrupa bölmək olar:

-fəaliyyət rejimi ilə isləyən təhsil müəssisələri;

-inkişaf rejimi ilə işləyən təhsil müəssisələri:

İndiki dövrdə ikinci qrup təhsil müəssisələrinə üstünlük verilir. Deməli, mütərəqqi idarəetmə sistemi təhsil müəssisəsinin həm müvafiq səviyyədə fəaliyyətini, həm də onun daim inkişafını, cəmiyyətin yeniləşməsi və sosial inkişaf istiqamətinə uyğun olaraq yenidən qurulmasını, moderinləşməsini təmin etməlidir. Yəni, təhsil müəssisəsinin effektiv idarəedilməsində təkcə proqnozlaşdırılmış nəticələrə nail olmaq yox, həm də onun inkişaf dinamikasını təmin etmək vacib sayılmalıdır. Təhsil sisteminin məqsədləri əsasında müəyyən edilmiş təhsil nailiyyətlərini əldə etmək üçün idarəetmənin əsas vəzifələri aşağıdakılar olmalıdır:

-demokratik prinsiplərə əsaslanan əksmərkəzləşmə metodlarının tətbiqi;

-vaxtaşırı planlaşdırılmış şəkildə qiymətləndirmə və monitorinqin keçirilməsi;

-öyrədənlərin müsbət təşəbbüslərinin dəstəklənməsi və onların tələb olunan informasiyaları əldə etməsinə şəraitin yaradılması;

-müəllimin öz ixtisas səviyyəsini yüksəltməsi və peşəkarlığını (səriştəsini) artması üçün şəraitin yaradılması;

-öyrənənlərin effektiv tədris-təlim prosesi ilə əhatə olunmasının təmin edilməsi;

-təhsil sisteminin demokratikləşdirilməsində və onun idarə olunmasında müəllimlərlə bərabər, valideyn və öyrənənlərin ictimaiyyətin nümayəndələrinin fəal iştirakını təmin etmək üçün idarə etmə ilə bağlı Şuranın fəaliyyətinin gücləndirilməsi.

Bundan başqa təhsil müəssisəsində təhsil keyfiyyətinin idarə olunması, üç texnologiyaya əsaslanmalıdır:

-məqsədə görə idarəetmə;

-prosesə görə idarəetmə;

-son nəticəyə görə idarəetmə.

Belə yanaşmalarda təhsil müəssisəsində təlim keyfiyyətini yüksəltməyin minimum iki üsulundan istifadə etmək məqsədəuyğundur:

-qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və ən səmərəli olanların seçilməsi yolu ilə, tələb olunan bilik və bacarıqları öyrənənlərin əldə etməsinə mane olan halların aşkar edilməsi, prosesin optimal modelinin 1.3. Pedaqoji prosesdə obyektivliyin və şəffaflığın təminində qiymətləndirmənin rolu

Qiymətləndirmə kurikulum islahatının əsas tərkib hissəsi kimi əldə olunan nəticələrin dəyərləndirilməsi kimi başa düşülür.Təhsilin keyfiyyətini üzə çıxaran ən etibarlı mənbə şagirdlərin təlim nəticələrinin obyektiv qiymətləndirilməsidir. Qiymətləndirmə təlim nəticələrini, standartlarını mənimsəmək, şagirdlərin təlimə marağını yüksəltmək, şagirdin nəyə nail olduğunu bilmək üçün zəruri bir prosesdir. Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yənəldilir və onu idarə edən vacib amil kimi meydana çıxır. Şagirdin təlim nailiyyəti (qazandığı dəyərlərin) qimətləndirilir, inkişafı izlənilir.

Təhsildə islahatların həyata keçirilməsi, pedaqoji yeniliklərin daha geniş dəstək verilməsi, mütərəqqi ənənələrin qorunub saxlanılması, çoxvariantlı iş sisteminə keçməklə yeni keyfiyyət göstəricilərinin təmin olunması ilə səciyyələnir. İslahat proqramının tələblərinə uyğun həyata keçirilən təhsil islahatının əsas vəzifəsi Azərbaycan təhsil sistemində elə çevik, demokratik, daim inkişaf edən fasiləsiz təhsil sislemi formalaşdırmaqdır ki, yaxın gələcəkdə iqtisadi yüksəliş, ümummilli birlik və vətəndaş həmrəyliyi, hər bir insanın mənəvi və mədəni dəyərlərə yiyələnməsi, ölkənin həyatında onların fəal, şüurlu iştirakı, həmçinin fiziki sağlamlığının qorunması təmin edilsin.

Təhsilin keyfıyyətini, təhsil iştirakçılarının nailiyyətlərini, təhsil müəssisəsinin bütövlükdə fəaliyyətini və digər sahələrdə aparılan işlərin səviyyəsini qiymətləndirmək üçün müvafiq göstəricilər (parametrlər, indikatorlar) müəyyənləşdirilməli və elmi cəhətdən əsaslandırılmış metodika işlənib hazırlanmalıdır.

Bütövlükdə təhsil müəssisəsində dəyişikliklərə şüurlu fəaliyyətə əsaslanan təşkilati proses kimi münasibət bildirilməlidir. Bu fəaliyyət tədris müəssisəsinin dinamik durumunun, təşkilati strukturunun davamlı fəaliyyətinə yönəldilməli, dəyişikliklərin idarə olunması aşağıdakı ardıcıllıqla həyata keçirilməlidir:

-məqsədlərin və təhsil müəssisəsinin inkişaf istiqamətlərinin müəyyən edilməsi;

-inkişafı təmin edən məqsədlərin yönümünün dəqiqləşdirilməsi;

-diaqnostik yolla problemlərin həqiqi səbəblərinin öyrənilməsi;

-eksperiment nəticəsində dəyişikliklərin yenidən aşkarlanması;

-yeni qərarın və onun icrası üzrə öhdəliklərin qəbulu;

-dəyişikliklərin dəstəklənməsi və razılaşmanın həyata keçirilməsi.

Xüsusi ilə qeyd etmək lazımdır ki, təhsil müəssisəsi tərəfindən idarə olunma ilə bağlı həyata keçirilən dəyişiklilərin qəbul olunması və yeniliklərin tətbiqinə razılığın dəstəklənməsi problemlərinin müzakirəsi, qərarların qəbul edilməsi işi pedaqoji heyətin bütün üzvləri cəlb olunmaqla həyata keçirilməlidir.


## XÜLASƏ

Təhsilin keyfiyyəti cəmiyyətin inkişafının əsasını təşkil edən mühüm göstərici kimi dəyərləndirmişdir. Təhsil sferasında keyfiyyət dedikdə təhsilin nəticələrinə uyğun olaraq əvvəlcədən müəyyən edilmiş normativlərə (standartlara) müvafiq öyrənənlərin səviyyəsi, ümumi halda isə təhsil sisteminin durumu başa düşülür. Pedaqoji təhsilin nəticələri təkcə öyrənənin təhsilini başa vurduqda yiyələndiyi bilik və bacarıqların səviyyəsi deyil, həm də onun düyaya, cəmiyyətin inkişafına münasibətlərini göstərən müəyyən şəxsi keyfiyyətlərdir.



***Açar sözlər:*** *təhsil, qiymətləndirmə, keyfiyyət, inkişaf, idarəetmə, texnologiya*



## SUMMARY

He valued the quality of education as an important indicator that forms the basis of the development of society. In the sphere of education, quality means the level of learners

corresponding to pre-defined norms (standards) according to the results of education, and in general, the state of the education system. The results of pedagogical education are not only the level of knowledge and skills acquired by the learner when he completes his education, but also certain personal qualities that show his relationship to the world and the development of society.

***Keywords:*** *education, assessment, quality, development, management, technology*

## TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ KORPORATİV MƏDƏNİYYƏTİN ƏHƏMİYYƏTİ

**Həsənova Məsmə Yasin qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məqalə təhsil müəssisələrində korporativ mədəniyyətin əsas rolunu araşdırır, onun işçilərin məmnunluğuna, əməkdaşlıq və tələbə nəticələrinə dərin təsirini vurğulayır. Əsas dəyərlər və liderlik üslubları kimi korporativ mədəniyyətin komponentlərini müəyyən etmək və başa düşməklə, məqalə müsbət mədəniyyəti inkişaf etdirmək üçün uğurlu nümunə araşdırmalarını və innovativ strategiyaları vurğulayır. İşçilərin sorğuları və saxlama dərəcələri vasitəsilə qurumlar mədəni sağlamlığı ölçə və qiymətləndirə bilər ki, bu da davamlı inkişaf üçün əsaslandırılmış qərarların qəbul edilməsinə səbəb olur. Fəaliyyətə çağırış, təhsil təşkilatlarının dinamik mənzərəsinin formalaşdırılmasında onun mühüm əhəmiyyətini dərk edərək, qurumları prioritetləşdirməyə və mədəni inkişafa sərmayə qoymağa çağırır.

Korporativ mədəniyyət istənilən təşkilatın uğurunda və davamlılığında mühüm rol oynayır və təhsil müəssisələri də bundan istisna deyil. Təşkilatın şəxsiyyətini formalaşdıran paylaşılan dəyərlər, inanclar və təcrübələr kimi müəyyən edilən korporativ mədəniyyət iş mühiti üçün əhəmiyyətli bir faktordur və qurum daxilində fərdlərin qarşılıqlı əlaqə və əməkdaşlıq etməsinə təsir göstərir. Korporativ mədəniyyət təşkilat daxilində fərdlərin davranışlarını istiqamətləndirən yazılmamış qayda və normaları əhatə edir. Bu, əsas dəyərləri, missiya bəyanatlarını və üzvlərinin kollektiv düşüncə tərzini özündə cəmləşdirən mürəkkəb çərçivədir. Təhsil müəssisələrində bu mədəniyyət inzibati ofislərdən kənara çıxaraq sinif otaqlarına şamil edilir və həm müəllimlərin, həm də tələbələrin öyrənmə təcrübəsinə təsir göstərir.

İllər keçdikcə təhsil mühitində korporativ mədəniyyət anlayışı inkişaf etmişdir. Başlanğıcda diqqət ilk növbədə inzibati səmərəliliyə yönəldilmiş, lakin o, tədricən daha bütöv və əməkdaşlıq mühitinin təşviqinə doğru dəyişmişdir. Texnologiyanın qəbulu, liderlik üslubunda dəyişikliklər və bütün maraqlı tərəflərin qarşılıqlı əlaqəsi haqqında artan məlumatlılıq bu təkamülə öz töhfəsini verdi. Təhsil müəssisələrində korporativ mədəniyyətin əhəmiyyəti onun təşkilati davranışa, müəllim-şagird münasibətlərinə və ümumi öyrənmə mühitinə təsir göstərmək qabiliyyətindədir. Müsbət mədəniyyət işçi məmnuniyyətini, əməkdaşlığı və innovasiyanı təşviq edir, nəticədə daha yaxşı təhsil nəticələrinə töhfə verir. Qurumlar yeni çağırışlar və imkanlarla üzləşdikcə, güclü korporativ mədəniyyəti başa düşmək və inkişaf etdirmək onların davamlı olaraq dəyişən təhsil mənzərəsində uzunmüddətli uğurları və uyğunlaşma qabiliyyəti üçün vacib olur.

Təhsil müəssisələrində korporativ mədəniyyəti dərk etmək həm pedaqoqların, həm də tələbələrin təcrübələrinə əhəmiyyətli dərəcədə təsir edən müsbət və birləşmiş mühiti inkişaf etdirmək üçün çox vacibdir. Korporativ mədəniyyət bir qurumun şəxsiyyətini kollektiv şəkildə formalaşdıran və üzvlərinin davranışlarını istiqamətləndirən müxtəlif komponentləri əhatə edir.

Birinci əsas komponent əsas dəyərlərin yaradılmasıdır. Bu dəyərlər qurum daxilində qərar qəbuletmə prosesləri və fəaliyyətləri üçün əsas rolunu oynayır. Çox vaxt qurumun etik mövqeyini və təhsil fəlsəfəsini əks etdirən əsas dəyərlər qurumun xarakteri və prinsiplərinin müəyyən edilməsində həlledici rol oynayır. Bundan əlavə, missiya və vizyon bəyanatları korporativ mədəniyyətin müəyyənləşdirilməsinə kömək edir. Missiya bəyanatı qurumun əsas

məqsəd və vəzifələrini əks etdirir, vizyon bəyanatı isə onun gələcəyə olan istəklərini ifadə edir. Birlikdə onlar uzunmüddətli məqsədlərə və prioritetlərə təsir edərək aydın istiqamət və məqsəd hissini təmin edirlər [8, s.53].

Ortaq inanclar və təcrübələr qurumun üzvləri arasında birlik və bərabərlik hissini gücləndirməklə korporativ mədəniyyəti daha da formalaşdırır. Bu paylaşılan elementlərə tədrisə yanaşma, tələbələrlə qarşılıqlı əlaqələr və pedaqoqlar arasında birgə səylər daxildir. Müsbət mədəniyyət çox vaxt təhsildə mükəmməlliyə ortaq öhdəlik və dəstəkləyici, əməkdaşlıq mühiti ilə xarakterizə olunur. Korporativ mədəniyyətin formalaşmasında liderliyin rolu mühümdür. Transformasiya, xidmətçi və ya birgə liderlik kimi liderlik üslubları təşkilat mühitinə birbaşa təsir göstərir. Məsələn, transformasiya liderləri müsbət və dinamik mədəniyyətə töhfə verərək innovasiyaları və təhsildə mükəmməlliyə ortaq öhdəliyi ruhlandırırlar.

Bundan əlavə, rəhbərliyin təşkilati davranışa təsirini də vurğulamaq vacibdir. Effektiv liderlər açıq ünsiyyəti, əməkdaşlığı və ortaq məqsədlərə kollektiv bağlılığı təşviq edərək, qurumun vəziyyətini təyin edirlər. Onların hərəkətləri və qərarları bütün təşkilatda əks-səda verir, müəllimlərin və işçilərin münasibət və davranışlarına təsir edir. Təhsil müəssisələrində korporativ mədəniyyətin hərtərəfli başa düşülməsi əsas dəyərlərin, missiya və vizyonun, paylaşılan inancların və liderlik üslublarının əhəmiyyətli rolunun qarşılıqlı təsirini dərk etməyi əhatə edir. Bu anlayış təkcə pedaqoqların peşəkar inkişafını və məmnunluğunu dəstəkləyən deyil, həm də tələbələr üçün ümumi öyrənmə təcrübəsini artıran mühit yaratmaq üçün vacibdir [2, s.53].

Korporativ mədəniyyətin işçilərin məmnunluğuna və təhsil müəssisələrində iştirakına təsirini qiymətləndirməmək olmaz. Güclü və pozitiv mədəniyyət müəllimlərin və işçilərin rifahını və öhdəliyini təmin edən iş mühitinə töhfə verən geniş təsirlərə malikdir. Güclü korporativ mədəniyyət işçiləri mənəvi cəhətdən yüksəldir, işçi qüvvəsi arasında məqsəd və aidiyyət hissi yaradır. Təşkilat daxilində fərdlər onun əsas dəyərlərinə və missiyasına uyğunlaşdıqda, o, müsbət və həvəsləndirici atmosfer üçün zəmin yaradır. Yüksək əhval-ruhiyyənin dalğalı təsiri işçi heyətindən kənara çıxaraq tələbələrə də yayılır və daha əlverişli öyrənmə mühiti yaradır. Müəssisənin əxlaqı ilə əlaqə hiss edən pedaqoqlar öz rollarına daha çox fədakarlıq və həvəslə yanaşırlar ki, bu da ümumi təhsil təcrübəsinə müsbət təsir göstərir.




**Şəkil 1. Korporativ mədəniyyətin təsirləri**

*Mənbə: İnternet resursları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Güclü korporativ mədəniyyətin digər mühüm müsbət təsiri iş məmnunluğunun artmasıdır. İşçilərin rifahını prioritetləşdirən, peşəkar inkişaf üçün imkanlar təklif edən və fərdi töhfələri tanıyan təhsil müəssisələri iş məmnunluğunu artıran iş mühiti yaradır. Məmnun

olan işçilər təşkilatın məqsəd və vəzifələrinə müsbət töhfə verərək, öz rollarına sadiq qalacaqlar. Bu, öz növbəsində, tələbələr üçün təhsil təcrübəsinin ümumi sabitliyinə və davamlılığına fayda verir [5, s.76].

Əksinə, zəif və ya mənfi korporativ mədəniyyət əhəmiyyətli problemlər yarada bilər. Yüksək dövriyyə göstəriciləri əsas problemlərdən biridir. İşçilər təşkilatın dəyərlərindən qopduğunu hiss etdikdə və ya dəstək olmadıqda, başqa yerlərdə fürsət axtarmağa daha çox meyllidirlər. Yüksək dövriyyə təkcə təhsilin davamlılığını pozmur, həm də işə qəbul və təlim xərcləri vasitəsilə müəssisəyə maliyyə yükü qoyur.

İşçilərin məhsuldarlığının azalması zəif və ya mənfi korporativ mədəniyyətin başqa bir nəticəsidir. Belə mühitlərdə pedaqoqların əlaqəsi kəsilə bilər ki, bu da işçilər arasında tədris və əməkdaşlığa həvəsin azalmasına gətirib çıxarır. Nəticədə ümumi məhsuldarlığın azalması tələbələrə verilən təhsilin keyfiyyətinə birbaşa təsir göstərə bilər. Mənfi korporativ mədəniyyət təşkilatın təhsil məqsədlərinə nail olmaq qabiliyyətinə mane olan narazılıq və əlaqədən uzaqlaşma dövrü yaradır.

Korporativ mədəniyyətin işçilərin məmnuniyyətinə və bağlılığına təsiri təhsil müəssisələrinin uğuru və davamlılığı üçün çox vacıbdir. Müsbət mədəniyyətin yetişdirilməsinin vacibliyini dərk etmək və onun inkişafı istiqamətində fəal işləmək vacibdir. Güclü korporativ mədəniyyətə üstünlük verən qurumlar həm peşəkar inkişafa, həm də tələbənin optimal nəticələrinə kömək edən mühiti gücləndirərək, xüsusi pedaqoqları cəlb etmək və saxlamaq üçün daha yaxşı mövqe tuturlar.

Təhsildə pozitiv korporativ mədəniyyətin təşviqi

Təhsil müəssisələrində müsbət korporativ mədəniyyətin yetişdirilməsi əsas dəyərlərin inkişafını, ünsiyyətini və effektiv liderliyin tərbiyəsini vurğulayan düşünülmüş və əhatəli yanaşma tələb edir. Bu cür səylər yalnız ahəngdar iş mühitinə kömək etmir, həm də həm müəllimlər, həm də tələbələr üçün ümumi təhsil təcrübəsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

- Əsas dəyərlərin inkişafı və ünsiyyəti

Müsbət korporativ mədəniyyət üçün güclü bünövrə yaratmaq üçün əsas dəyərlərin inkişafı təhsil ictimaiyyəti daxilində bütün maraqlı tərəflərin cəlb olunduğu birgə proses olmalıdır. Bura idarəçilər, müəllimlər, tələbələr, valideynlər və hətta icma üzvləri daxildir. Bu müxtəlif qrupları fəal şəkildə cəlb etməklə, əsas dəyərlər bütün cəmiyyətin ortaq ideallarını və istəklərini daha yaxşı əks etdirə bilər. Maraqlı tərəflərin cəlb edilməsi bir çox məqsədə xidmət edir. Bu, əsas dəyərlərin qurumun kollektiv kimliyini təmsil etməsini və icma daxilində olanlar tərəfindən daha çox qəbul edilməsini təmin edir. Bundan əlavə, bu, maraqlı tərəflər arasında mülkiyyət və öhdəlik hissini gücləndirir, çünki onlar qurumun mədəni çərçivəsinin formalaşmasına fəal töhfə verirlər.

Əsas dəyərlər müəssisənin təhsil məqsədləri və missiyası ilə qüsursuz şəkildə birləşdirilməlidir. Dəyərlər və məqsədlər arasında uyğunluq olduqda, bütün cəmiyyətin hərəkətlərinə və qərarlarına rəhbərlik edən məqsəd hissi aşılanır. Məsələn, innovasiyaların təşviqi əsas dəyərdirsə, bu, təşkilatın kurrikulumun hazırlanması, tədris metodologiyası və tələbələrin fəallığı ilə bağlı məqsədlərində öz əksini tapmalıdır. Bu uyğunlaşmanın məlumatlandırılması təhsil ictimaiyyətinin bütün üzvlərinin əsas dəyərlər və ümumi məqsədlər arasında simbiotik əlaqəni başa düşməsini təmin etmək üçün çox vacibdir. Xəbər bülletenləri, görüşlər və seminarlar kimi müxtəlif kanallar vasitəsilə müntəzəm ünsiyyət dəyərlər və məqsədlər arasında əlaqəni gücləndirir, ortaq anlaşmanı və qurumun missiyasına sadiqliyi artırır [4, s.12].

- Liderliyin inkişafı və təlimi

Liderlik korporativ mədəniyyətin formalaşmasında və davam etdirilməsində mühüm rol oynayır. Güclü liderlik potensialına və qurumun əsas dəyərlərinə sadiqliyə malik şəxslərin müəyyən edilməsi çox vacibdir. Bu dəyərləri təcəssüm etdirən liderlər, komandalarına müsbət təsir edərək və ortaq məqsəd hissini təşviq edərək, mədəni stüardlara çevrilirlər. Bu müəyyən edilmiş liderləri yetişdirməyə yönəlmiş liderliyin inkişafı proqramlarının həyata keçirilməsi

vacibdir. Bu cür proqramlara təşkilatın dəyərlərinə uyğun gələn təlim sessiyaları, mentorluq imkanları və təcrübi öyrənmə daxil ola bilər. Liderlərin böyüməsinə və inkişafına sərmayə qoymaqla, təhsil müəssisələri arzu olunan korporativ mədəniyyətin davamlı olaraq möhkəmlənməsini təmin edir.

Birgə liderlik tərzi müsbət korporativ mədəniyyətin formalaşmasında mühüm rol oynayır. Açıq ünsiyyəti təşviq edən, müxtəlif perspektivləri qiymətləndirən və birgə qərarların qəbulunda fəal iştirak edən liderlər inklüziv və dəstəkləyici iş mühitinə töhfə verirlər. Təhsil müəssisələri təlim təşəbbüsləri və mentorluq proqramları vasitəsilə birgə liderlik üslubunun təşviqinə üstünlük verməlidirlər. Komanda işinin və qarşılıqlı hörmətin vacibliyini aşılamaqla, liderlər pedaqoqların öz ideyalarını və perspektivlərini töhfə vermək səlahiyyətində olduqlarını hiss etdikləri bir mədəniyyət yarada bilərlər. Bu əməkdaşlıq yanaşması təkcə işçilərin məmnuniyyətini artırmır, həm də təşkilat daxilində problemlərin daha effektiv həllinə və innovasiyaya gətirib çıxarır [3, s.29].

Ümumiyyətlə, təhsil mühitində müsbət korporativ mədəniyyətin təşviqi əsas dəyərlərin inkişaf etdirilməsi və çatdırılmasında, həmçinin effektiv liderlərin müəyyən edilməsində və tərbiyəsində məqsədyönlü səylər tələb edir. Maraqlı tərəflərin əsas dəyərlərin müəyyənləşdirilməsində iştirakı inklüzivliyi və aidlik hissini təmin edir, təhsil məqsədləri ilə uyğunlaşma isə bu dəyərlərin arxasında duran məqsədi gücləndirir. Eyni zamanda, liderliyin inkişafına sərmayə qoymaq və birgə liderlik üslubunu təşviq etmək, müsbət mədəniyyətin davamlı şəkildə yetişdirilməsinə töhfə verir, hər kəs üçün ümumi təhsil təcrübəsini artırır.

Təhsil müəssisələrində korporativ mədəniyyətin uğurlu tətbiqi. Korporativ mədəniyyətin uğurlu tətbiqi ilə təhsil müəssisələri yaxşı hazırlanmış mədəniyyət çərçivəsinin dəyişdirici gücünün nümunəsidir. Xüsusi nümunələrin araşdırılması effektiv strategiyalara, innovativ yanaşmalara və nəticədə həm işçilərə, həm də tələbələrə müsbət təsirə işıq salır.

Müxtəlif şəhər şəraitində yerləşən Harmony Liseyi müsbət və inklüziv korporativ mədəniyyəti inkişaf etdirmək öhdəliyi ilə uğurlu nümunələrdən biridir. Bu məktəbin rəhbərliyi şagirdlərin uğuru üçün əlverişli mühit yaratmaq üçün müəllimlər və işçi heyəti arasında əməkdaşlığın vacibliyini dərk etmişdir [9, s.90].

Harmony-də tətbiq olunan innovativ yanaşmalardan biri fənlərarası tədris komandalarının formalaşdırılmasıdır. Müxtəlif fənlərdən olan müəllimlər şagirdlərdə intizamlar arası bacarıqları inkişaf etdirərək inteqrasiya olunmuş dərs planlarını tərtib etmək üçün əməkdaşlıq edirlər. Müntəzəm komanda quruculuğu fəaliyyətləri və açıq ünsiyyət kanalları işçi heyəti arasında birlik hissini gücləndirmiş, müsbət iş mühitinə töhfə vermişdir.

Harmony Liseyi, həmçinin nailiyyətlərin tanınması və qeyd olunması üçün mükafat verir. Təhsil işçilərinin görkəmli töhfələrinin təqdir olunduğu aylıq tanınma mərasimləri əsas məqama çevrilmişdir. Bu təcrübə təkcə mənəviyyatı yüksəltmir, həm də üzvlərinin səylərini qiymətləndirən bir mədəniyyəti gücləndirir. Bu təşəbbüslərin nəticəsi olaraq Harmony Liseyi kadr dəyişikliyində əhəmiyyətli dərəcədə azalma, müəllim əməkdaşlığının artması və tələbələrin fəallığının və akademik performansının yaxşılaşmasına nail olmuşdur. Müsbət korporativ mədəniyyət məktəbin uğurunun arxasında duran hərəkətverici qüvvəyə çevrilmişdir.

Özəl təhsil müəssisəsi olan Qlobal Öyrənmə İnstitutu (Global Learning Institute - GLI) öz korporativ mədəniyyətinin təməli kimi peşəkar inkişafı uğurla prioritetləşdirir. Pedaqoqların ən son alətlər və metodologiyalarla təchiz edilməsinin vacibliyini dərk edərək, GLI müəllim heyətini gücləndirmək üçün innovativ strategiyalar həyata keçirmişdir. GLI həm daxili, həm də xarici resursları özündə birləşdirən davamlı peşəkar inkişaf proqramına başlamışdır. Buraya təcrübəli pedaqoqların rəhbərlik etdiyi seminarlar, təhsil texnologiyası təminatçıları ilə əməkdaşlıq və əlavə akademik ixtisaslar üçün imkanlar daxildir. Diqqət təkcə fənn üzrə təcrübənin artırılmasına deyil, həm də pedaqoqlar arasında böyümə şüurunun formalaşmasına yönəlmişdir [1, s.22].

Ənənəvi peşəkar inkişafla yanaşı, GLI təcrübəli pedaqoqların yeni heyət üzvlərinə rəhbərlik etdiyi mentorluq proqramı yaratmışdır. Bu mentorluq modeli birgə öyrənmə və bilik

mübadiləsi mədəniyyətinə töhfə verir. Nəticədə, GLI-də müəllimlər daha yüksək iş məmnuniyyəti, innovativ tədris metodlarının mənimsənilməsinə inamın artdığını və davamlı təkmilləşdirməyə kollektiv öhdəliyin olduğunu bildirirlər. Müsbət təsir tələbə nəticələrinə də şamil edilir, GLI ardıcıl olaraq həmyaşıdları ilə müqayisədə daha yüksək akademik performans göstəricilərinə nail olur. Peşəkar inkişaf öhdəliyi GLI-nin korporativ mədəniyyətinin əlamətdar xüsusiyyətinə çevrilərək onu innovativ və effektiv təhsil təcrübələrində lider kimi yerləşdirmişdir [6, s.338].

Ümumiyyətlə, Harmony Liseyi və Qlobal Öyrənmə İnstitutu korporativ mədəniyyətin təhsil mühitində uğurlu tətbiqi üçün cəlbedici nümunə kimi xidmət edir. Bu qurumlar həm müəllimlər, həm də tələbələr üçün faydalı olan müsbət mühitlərin yaradılmasında əməkdaşlığın, innovasiyaların və peşəkar inkişafın vacibliyini nümayiş etdirir. Onların təcrübələri davamlı uğur üçün təşkilati mədəniyyətlərini gücləndirmək istəyən digər təhsil müəssisələri üçün dəyərli fikirlər təqdim edir.

Korporativ mədəniyyətin ölçülməsi və qiymətləndirilməsi. Təhsil müəssisələrində korporativ mədəniyyətin sağlamlığının qiymətləndirilməsi müsbət və məhsuldar iş mühitinin qorunması üçün vacibdir. İki əsas performans göstəricisi təşkilat mədəniyyətinin effektivliyini və təsirini ölçməkdə mühüm rol oynayır: işçilərin sorğuları və işçilərin rəyi ilə birlikdə işdə saxlama dərəcələri.

1. İşçi sorğuları. İşçilərin müntəzəm sorğularının keçirilməsi mədəni sağlamlığın qiymətləndirilməsi üçün əsas üsuldur. Bu sorğular işçilərin üstünlük təşkil edən iş mədəniyyətinə dair fikirlərini, narahatlıqlarını və perspektivlərini ifadə etmək üçün birbaşa kanal rolunu oynayır. Bu sorğulardakı suallar əsas dəyərlərə uyğunluq, işdən məmnunluq, aidiyyət hissi və liderliyin effektivliyinə dair təsəvvürlər kimi aspektləri əhatə edə bilər.

Sorğu cavabları dəyərli kəmiyyət və keyfiyyət məlumatları təqdim edərək, idarəçilərə güc sahələrini və diqqət tələb edə biləcək sahələri müəyyən etməyə imkan verir. Zamanla tendensiyaların təhlili müsbət korporativ mədəniyyətin yetişdirilməsinə yönəlmiş təşəbbüslərin effektivliyini aşkar edə bilər. Məsələn, əməkdaşlıq və ya ünsiyyətlə bağlı müsbət cavabların ardıcıl artması uğurlu müdaxilələri göstərə bilər [10, s.204].

2. Saxlama dərəcələri və işçilərin rəyi. İstedadlı pedaqoqların və kadrların saxlanılması müsbət korporativ mədəniyyətin əyani göstəricisidir. Yüksək tutma dərəcələri işçilərin iş mühitində dəyər tapdığını, dəstək hiss etdiyini və müəssisədə qalmağa həvəsləndiyini göstərir. Əksinə, aşağı saxlama dərəcələri təhqiqat tələb edən təşkilat mədəniyyəti ilə bağlı potensial problemlərə işarə edə bilər. Çıxış müsahibələri və ya müntəzəm yoxlamalar vasitəsilə əldə edilən işçi rəyləri dövriyyənin arxasında duran səbəblərə dair keyfiyyətli anlayışlar əldə etmək üçün çox vacibdir. İşçinin işdən çıxmaq qərarına təsir edən amilləri başa düşmək xüsusi mədəni problemlərin həllinə yönəlmiş strateji müdaxilələrə rəhbərlik edə bilər. Bu əks əlaqə dövrü təhsil müəssisələrinə məqsədyönlü təkmilləşdirmələri həyata keçirməyə, mədəniyyətin müsbət aspektlərini gücləndirməyə və mənfi təsirləri azaltmağa imkan verir [7, s.122].

Saxlama dərəcələrindən əldə edilən kəmiyyət məlumatlarını işçilərin rəyi vasitəsilə toplanmış keyfiyyət anlayışları ilə birləşdirərək, qurumlar öz mədəni sağlamlıqları haqqında hərtərəfli anlayışı inkişaf etdirə bilərlər. Bu ikili yanaşma nüanslı və strateji qiymətləndirməyə imkan verir, müsbət korporativ mədəniyyəti artırmaq və saxlamaq üçün məlumatlı qərarların qəbulunu asanlaşdırır. Xülasə, işçilərin sorğuları və saxlama dərəcələri kimi əsas performans göstəricilərindən istifadə etməklə, işçi rəyləri ilə birlikdə təhsil müəssisələri korporativ mədəniyyətlərinin sağlamlığını ölçmək və qiymətləndirmək üçün dəyərli vasitələr təqdim edir. Müntəzəm qiymətləndirmələr təkcə təkmilləşdirilməli sahələrin müəyyən edilməsinə kömək etmir, həm də təşkilatlara öz mədəniyyətlərinin müsbət aspektlərini qeyd etməyə və gücləndirməyə imkan verir, təşkilatın uzunmüddətli uğuruna və davamlılığına töhfə verir.

Yekun olaraq, təhsil müəssisələrində korporativ mədəniyyətin əhəmiyyətini qiymətləndirməmək olmaz. Müsbət və yaxşı müəyyən edilmiş mədəniyyət iş mühitini formalaşdırır, işçilərin məmnunluğuna təsir edir və nəticədə tələbə nəticələrinə təsir göstərir. Bu müzakirədə araşdırıldığı kimi, uğurlu institutlar məqsədyönlü mədəni inkişafın dərin

faydalarını nümayiş etdirirlər. Korporativ mədəniyyət təhsil müəssisəsinin şəxsiyyətini və davranışını müəyyən edir. O, əməkdaşlığı, innovasiyanı və işçilərin məmnunluğunu artırır, optimal tələbə öyrənməsi və inkişafı üçün əlverişli mühit yaradır.

Təhsil müəssisələrinə öz korporativ mədəniyyətlərinin məqsədyönlü şəkildə inkişafına üstünlük verməyə və investisiya qoymağa çağırılır. Təşkilat uğurunda öz rolunu dərk edən qurumlar resursları ayırmalı, strateji təşəbbüsləri həyata keçirməli və müsbət və inklüziv mədəniyyətə sadiqliyi gücləndirməlidir. Gələcəyə nəzər salsaq, təhsil korporativ mədəniyyətinin gələcəyi inkişaf edən tendensiyalara uyğunlaşmağı nəzərdə tutur. Çeviklik, inklüzivlik və texnoloji irəliləyişlərin qəbul edilməsi mühüm əhəmiyyət kəsb edəcək, çünki qurumlar təhsil mənzərəsinin dinamik ehtiyaclarını qarşılamağa çalışırlar. Bu tendensiyaları fəal şəkildə idarə edən qurumlar davamlı uğur və həm müəllimlərə, həm də tələbələrə müsbət təsir göstərmək üçün daha yaxşı mövqe tutacaqlar.

Ədəbiyyat


1. Cardona, J., Naranjo-Valencia, J., Hernández, G. Relationship between organizational culture and school performance. A study in elementary, middle and high school institutions. Desarrollo Gerencial. 15, 2023, p.1-25.
2. Efeoğlu, I., Ulum, Ö. Organizational Culture in Educational Institutions. 54, 2017, p. 39-56.
3. Eger L. Application of the Corporate Culture in the Field of School Management. Ekonomika A Management, 3/2010, p.26-32.
4. Emmanuel, I. O. Understanding Organisational Culture and Organisational Performance: Are They Two Sides of the Same Coin?. Journal Manajemen. 2017; 1 (9).
5. Engin E., Akgöz B.E. Corporate Culture in Educational Institutions and Perceptions of Student Subculture. International Journal of Business and Management Invention, 5 (3), 2016, p.69-78.
6. Guiso L., Sapienza P., Zingales L. Corporate Culture, Societal Culture, and Institutions, American Economic Review, 105(5), 2015, p.336–339.
7. Həsənov H. Korporativ idarəetmənin təməl daşları. Monoqrafiya. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı – 2012.-257 səh.
8. Lorraine R.D.O., A Study Of The Relationship Between Teachers' Perception Of Principal's Leadership Practices And School Culture To Student Achievement, doctoral diss., South eastern Louisiana University, Louisiana, 2011
9. Lubis F.R., Hanum F. Organizational Culture. Advances in Social Science, Education and Humanities Research, volume 511, 2020, p.88-91.
10. Məmmədov F.T. "İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi" – Bakı, "Apostrof" Çap Evi. 2013. 672 səh.
11.



**SUMMARY**

The article explores the key role of corporate culture in educational institutions, highlighting its profound impact on employee satisfaction, collaboration and student outcomes. By identifying and understanding the components of corporate culture, such as core values and leadership styles, the article highlights successful case studies and innovative strategies for fostering a positive culture. Through employee surveys and retention rates, organizations can measure and evaluate cultural health, leading to informed decisions for sustainable development. The call to action urges institutions to prioritize and invest in cultural development, recognizing its critical importance in shaping the dynamic landscape of educational organizations.



***Keywords:*** *corporate culture, educational institutions, employee satisfaction, leadership styles, cultural development, student outcomes*

**РЕЗЮМЕ**

В статье исследуется ключевая роль корпоративной культуры в образовательных учреждениях, подчеркивая ее глубокое влияние на удовлетворенность сотрудников, сотрудничество и успеваемость учащихся. Путем выявления и понимания компонентов корпоративной культуры, таких как основные ценности и стили лидерства, в статье освещаются успешные тематические исследования и инновационные стратегии формирования позитивной культуры. Посредством опросов сотрудников и показателей удержания сотрудников организации могут измерять и оценивать культурное здоровье, что приводит к принятию обоснованных решений для устойчивого развития. Призыв к действию призывает учреждения расставить приоритеты и инвестировать в культурное развитие, признавая его решающую важность в формировании динамичного ландшафта образовательных организаций.

***Ключевые слова:*** *корпоративная культура, образовательные учреждения, удовлетворенность сотрудников, стили лидерства, культурное развитие, успеваемость студентов.*

## TƏHSİLDƏ KORPORATIV MƏDƏNİYYƏTDƏ PROBLEMLƏR VƏ ONUN FORMALAŞDIRILMASI STRATEGİYALARI

**Həsənova Məsmə Yasin qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məqalədə ünsiyyət maneələri, dəyişikliyə qarşı müqavimət, iyerarxik strukturlar və qeyri-adekvat peşəkar inkişaf kimi təhsil korporativ mədəniyyətində geniş yayılmış problemlər vurğulanır. Məqalə həll yolları təklif edir, şəffaf ünsiyyəti müdafiə edir, innovasiyaları təşviq edir, iyerarxiyaları düzəldir, peşəkar inkişafa üstünlük verir və müsbət və inklüziv təhsil mühiti yaratmaq üçün dəyərləri ümumi missiya ilə uyğunlaşdırır.

Korporativ mədəniyyət təhsil müəssisələrinin dinamikasının formalaşdırılmasında, iş mühitinə təsir etməkdə və son nəticədə təhsilin keyfiyyətinə təsir etməkdə mühüm rol oynayır. Təhsil sahəsində "korporativ mədəniyyət" termini təhsil müəssisəsini xarakterizə edən ümumi dəyərlərə, inanclara və davranışlara aiddir. Müsbət korporativ mədəniyyət əməkdaşlığı, innovasiyaları və həm müəllimlər, həm də tələbələr üçün əlverişli öyrənmə mühitini inkişaf etdirmək üçün vacibdir.

Təhsildə inkişaf edən korporativ mədəniyyət sadəcə inzibati siyasətdən deyil, o, həm də kollektiv böyümə və inkişaf üçün zəmin yaradır. O, istedadlı pedaqoqları cəlb etmək və saxlamaq, aidiyyət hissini artırmaq və ümumi vizyona sadiqliyi ruhlandırmaq üçün katalizator rolunu oynayır. Bununla belə, əhəmiyyətinə baxmayaraq, təhsil sektoru müsbət korporativ mədəniyyətin formalaşmasında ümumi problemlərlə üzləşir. Ünsiyyət maneələri, dəyişikliklərə qarşı müqavimət, iyerarxik strukturlar, peşəkar inkişafın kifayət qədər olmaması kimi məsələlər təhsil müəssisələrində ideal iş mühitinin formalaşmasına mane olur. Bu problemlərin həlli bütün maraqlı tərəflər üçün vahid və effektiv təhsil təcrübəsini təmin etmək üçün çox vacibdir.

Təhsildə korporativ mədəniyyət onun effektivliyinə mane olan bir sıra problemlərlə mübarizə aparır. Birincisi, məlumat axınını məhdudlaşdıran gizli şöbələr və səmərəsiz kommunikasiya kanalları ilə örnək olan ünsiyyət və əməkdaşlıq çatışmazlığı davam edir. İkincisi, innovasiyaya mane olan ənənəvi təfəkkürlərdən və yeni texnologiyalar və metodologiyaları mənimsəmək qorxusundan qaynaqlanan dəyişikliyə qarşı müqavimət üstünlük təşkil edir. Üçüncüsü, iyerarxik strukturlar qərarların qəbul edilməsində güc balanssızlığına kömək edir və təhsil işçilərinin və işçilərin müstəqilliyini məhdudlaşdırır. Nəhayət, qeyri-adekvat peşəkar inkişaf problemləri davamlı təlim imkanlarının olmaması və bacarıqların inkişafı üçün kifayət qədər dəstəyin olmaması ilə birləşdirir. Bu problemlərin

həlli maraqlı tərəflər arasında əməkdaşlığı, yeniliyi və davamlı peşəkar inkişafı təşviq edən müsbət təhsil mədəniyyətini inkişaf etdirmək üçün çox vacibdir.

- Açıq ünsiyyətin təşviqi. Təhsil müəssisələri müntəzəm xəbər bülletenləri, forumlar və intranet platformaları kimi şəffaf kanalları qəbul etməklə kommunikasiyanı gücləndirə bilərlər. Şəffaf ünsiyyət etimadı artırır və bütün maraqlı tərəfləri institusional inkişaflar, siyasətlər və məqsədlər haqqında məlumatlandırır. Həmçinin, departament siloslarının parçalanması müəllimlər, idarəçilər və işçilər arasında əməkdaşlığı təşviq edir. Müntəzəm şöbələrarası görüşlərin, əməkdaşlıq layihələrinin və paylaşılan resursların təşviq edilməsi daha vahid və əməkdaşlıq edən iş mühitini asanlaşdırır.

Ümumiyyətlə, komanda və ya təşkilat daxilində açıq ünsiyyətin təşviq edilməsi müsbət və məhsuldar mühitin inkişafı üçün çox vacibdir. Açıq ünsiyyəti təşviq etmək üçün bir neçə strategiya var:

1. Təhlükəsiz Mühit Yaradılması
2. Nümunə ilə rəhbərlik edilməsi
3. Fəal dinləməyin təşviqi
4. Daimi görüşlərin asanlaşdırılması
5. Birdən çox kommunikasiya kanalından istifadə edilməsi
6. Əlaqə Mədəniyyətinin Təşviqi
7. Ünsiyyət Təliminin təklif edilməsi
8. Açıq Ünsiyyətin tanınması və mükafatlandırılması
9. Ünsiyyət maneələrinin aradan qaldırılması

- İnnovasiya mədəniyyətinin təşviqi. Təhsil müəssisələri eksperiment və innovasiyaları dəstəkləyən mühit yaratmalıdır. Bu, pilot proqramlar üçün resursların təmin edilməsini, pedaqoqların yeni tədris metodlarını kəşf etməyə həvəsləndirilməsini və uğursuzluqları öyrənmə və təkmilləşdirmə imkanları kimi nəzərdən keçirən mədəniyyəti inkişaf etdirməyi əhatə edir. İnnovativ töhfələrin qəbul edilməsi və mükafatlandırılması müsbət yaradıcılıq mədəniyyətini gücləndirir. Tanınma mükafatlar, ictimai təriflər və ya peşəkar inkişaf imkanları şəklində ola bilər ki, bu da müəllimləri və işçiləri innovativ həllər axtarmağa davam etməyə həvəsləndirir.

- İerarxik strukturların hamarlanması. Təhsil işçiləri heyətini qərarların qəbulu proseslərinə cəlb etməklə, qurumlar daha inklüziv və təmsilçi yanaşmanı təmin edə bilər. İnklüziv qərar qəbulu təkcə işçilərə səlahiyyət verməklə yanaşı, həm də təşkilatın məqsədlərinə uyğun gələn yaxşı məlumatlı və əməkdaşlıq seçimlərinə gətirib çıxarır. Təşkilatın müxtəlif səviyyələrində liderlik üçün imkanların yaradılması sahiblik və məsuliyyət hissini artırır. Bu, təkcə peşəkar inkişafı təşviq etmir, həm də daha geniş yayılmış və iştirakçı liderlik modelinə töhfə verir.

Yekun olaraq, korporativ mədəniyyətin təhsildə əhəmiyyətini qiymətləndirməmək olmaz. Müsbət mədəniyyət əməkdaşlığa, innovasiyaya və əlverişli öyrənmə mühitinə kömək edir. Təhsil mənzərəsi inkişaf etdikcə, davamlı inkişaf və uyğunlaşma davamlı uğur üçün vacib olur. Təhsil müəssisələri üçün müsbət korporativ mədəniyyətin yaradılması, kommunikasiya boşluqlarının aradan qaldırılması, innovasiyaların təşviqi, iyerarxik strukturların düzəldilməsi, peşəkar inkişafı təşviq etmək və dəyərlərin ortaq missiya ilə uyğunlaşdırılmasını prioritetləşdirmək çox vacibdir. Bununla, institutlar təhsildə hərtərəfli böyümə və mükəmməllik üçün əlverişli mühit yarada bilərlər.

Ədəbiyyat


1. Engin E., Akgöz B.E. Corporate Culture in Educational Institutions and Perceptions of Student Subculture. International Journal of Business and Management Invention, 5 (3), 2016, p.69-78.
2. Guiso L., Sapienza P., Zingales L. Corporate Culture, Societal Culture, and Institutions, American Economic Review, 105(5), 2015, p.336–339.

3. Həsənov H. Korporativ idarəetmənin təməl daşları. Monoqrafiya. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı – 2012.-257 səh.
4. Lorraine R.D.O., A Study Of The Relationship Between Teachers' Perception Of Principal's Leadership Practices And School Culture To Student Achievement, doctoral diss., South eastern Louisiana University, Louisiana, 2011
5. Məmmədov F.T. "İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi" – Bakı, "Apostrof" Çap Evi. 2013. 672 səh.

## PEDAQOJI KADR HAZIRLIĞI

**İskəndərzadə Nərmin Eldar qızı**
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Ölkəmizdə kadrların necə hazırlandığını bilmək üçün "elmi kadr", "pedaqoji kadr", "elmi-pedaqoji kadr" və "yüksək ixtisaslı elmi-pedaqoji kadr" anlayışlarının mahiyyətinə nəzər salmaq faydalıdır. Nə üçün? İlk növbədə ona görə ki, kadr hazırlığı müxtəlif sahələr üzrə həyata keçirilir. Buna görə də ədəbiyyatlarda elmi kadr, pedaqoji kadr, elmi-pedaqoji kadr və yüksək ixtisaslı kadr anlayışları istiqamətində şərh olunur. Fikrimizcə, bu məfhumların izahını professor N.Kazımovun "Ali məktəb pedaqogikası" adlı dərsliyində tapmaq olar. Dərslikdə elmi kadr barədə belə yazılır: Elmi kadrlar sırf elmi tədqiqatla məşğul olan müəssisələrdə fəaliyyət göstərir. Bu müəssisələr elmi-tədqiqat institutları da, konstruktor büroları da ola bilər. Beləliklə, "Sırf elmi işlə məşğul olan kadrlar elmi kadrlar adlanır".

Son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla apardığı sosial siyasət müəllimlərin sosial vəziyyətinin daim diqqətdə saxlanılaraq daha da yaxşılaşdırılmasına geniş imkanlar açır. Ölkəmizin dinamik və davamlı inkişaf edən iqtisadi potensialı bunu həyata keçirməyə real zəmin yaradır.

Azərbaycanda pedaqogika elminin inkişafını şərtləndirən, onun inkişafını təmin edən əsas amillərdən biri də elmi-pedaqoji kadr hazırlığıdır. Elmi-pedaqoji kadr hazırlığının əsas məqsədi təhsil işçilərinə pedaqogika, didaktika, psixologiya, inklüziv təhsil, bütövlükdə təhsilşünaslıq üzrə yenilikləri çatdırmaqla, təhsilin elmi əsaslar üzrə təşkili və idarə olunmasını təmin etmək, ali məktəblərin professor-müəllim heyətinin peşəkarlıq səviyyəsini yüksəltməkdən ibarətdir. Ali təhsil islahatının yaxın və uzaq perspektivdə həyata keçirilməsi keyfiyyəti elmi-pedaqoji kadrların hazırlanmasından asılıdır. Buna görə də elmi-pedaqoji kadrların hazırlanması üçün lazımi şərait yaradılır, professor-müəllim heyətinin yeniləşməsinə və gəncləşməsinə diqqət yetirilir. Nəticədə təhsil sahəsində çalışan professor-müəllim heyətinin peşəkarlıq səviyyəsi yüksəlir.

İndi isə pedaqoji kadr anlayışını nəzərdən pedaqoji kadrın əsas xüsusiyyəti onun pedaqoji fəaliyyətlə məşğul olması ilə müəyyənləşir: "Sırf pedaqoji işlə məşğul olan pedaqoji təhsilli kadrlara pedaqoji kadrlar deyilir". Əlbəttə, pedaqoji kadrlar da kadr sayılır. Lakin onlar bilavasitə peşə təhsili dövründə tədris müəssisələrində çalışmaq üçün hazırlandıqlarından müəyyən fərqli xüsusiyyətlərə, keyfiyyətlərə yiyələnirlər. Bu keyfiyyətlər özünü daha çox pedaqoji hazırlıqda, psixoloji biliklərə yiyələnmədə göstərir.

Azərbaycanda elmin, səhiyyənin, təhsilin, istehsalatın müxtəlif sahələri üçün kadrlar ilk peşə-ixtisas məktəblərində, orta ixtisas məktəblərində, ali təhsil verən universitetlərdə, institutlarda, akademiyalarda hazırlanır. Bildiyimiz kimi, tabeçiliyinə görə tədris müəssisələri dövlət və özəl olmaqla iki qrupa bölünür. Pedaqoji kadrlar pedaqoji təmayüllü məktəblərdə, o cümlədən, müxtəlif ixtisaslar verən məktəblərin pedaqoji fakültələrində (pedaqoji şöbələrində) təhsil alırlar.

Rəhbər pedaqoji kadrların ixtisasının artırılması sistemində vəziyyətin və istifadə edilən elmi-pedaqoji ədəbiyyatın təhlili göstərir ki, bu sahədə ciddi yeniliklər həyata keçirilməlidir. Rəhbər pedaqoji kadrların yenidən hazırlanmasına, ixtisaslarının artırılmasına ehtiyac yaranmış və bu sahədə köklü dəyişikliklər həyata keçirilməlidir. Bu məsələ bizim diqqətimizi

cəlb edir və konsepsiyada göstərildiyi kimi, bu sahədə bir sıra ciddi tədbirlərin həyata keçirilməsi tələb olunur:

- müəllim hazırlığı proqramlarına təhsilin idarə olunması üzrə fənlərin daxil edilməsi;
- bakalavr və magistr təhsili pilləsində təhsil menecerlərinin hazırlanması üzrə yeni ixtisasların açılması,
- təhsil sisteminin idarə olunması üzrə qısa müddətli təhsil proqramlarının hazırlanması və həyata keçirilməsi; yenidənhazırlanma təhsili pilləsində müxtəlif kateqoriyalı təhsil menecerlərinin hazırlanması üzrə tədris proqramlarının hazırlanması və prosesə tətbiqi.

Onu da nəzərə alsaq ki, Azərbaycan dövlətinin Təhsil Sahəsində İslahat Proqramının əsas müddəalarından biri olan dövlət-ictimai idarəetmədən ictimai-dövlət idarəetməsinə keçid bu problemlərə münasibəti bir az da ciddiləşdirir. Çünki ölkənin sosial-iqtisadi inkişafı da dəyişir, bazar iqtisadiyyatına keçid formalaşır, münasibətlərin hüquqi-normativ bazası dəyişir. Şəxsi mülkiyyət, sahibkarlıq fəaliyyəti, yerli idarəetmə, təhsil haqqında və s. qanunlar qəbul edilmişdir. Bunlar da təhsil sistemində rəhbər idarəçi kadrların ixtisasartırma, yenidənhazırlanma təhsili sisteminin daha effektiv təşkili üçün qanunvericilik bazasının yeniləşdirilməsinə əsas yaradır.

Rəhbər pedaqoji kadrların hazırlanması, seçilib yerləşdirilməsi, onlardan düzgün istifadə (iş şəraitinin yaradılması və tabeçilikdə olanların elmi əsaslarla idarə olunması) edilməsi təhsil sisteminin inkişafının, onun məzmunun müasir tələblərə cavab verməsidir. Bu problemə belə münasibətlə yanaşma, dərk etmək idarəetmə kadrlarının formalaşmasının mürəkkəb proses kimi qəbul edilməsi rəhbər pedaqoji kadrların hazırlanmasının, bütövlükdə onun sisteminin açıqlanmasına şərait yaratmış olar.

## TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MARKETİNQİN PEDAQOJİ FƏALİYYƏTƏ TƏSİRİ

**İsmayılova Cəmilə Akif**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bəzi yanaşmalara görə təhsil – davranış formalarının dəyişdirilməsi prosesidir.təhsilin məqsədi isə fərdə müəyyən bilik və bacarıqlar qazandırmaq, cəmiyyətə uyğunlaşdırmaqdır. Təhsil sahəsində bilik mübadiləsi pedaqok və təhsil alanlar arasında baş verir və təhsil sahəsində marketinqin məqsədi bilik almaq və diplom əldə etməkdir. Müasir dövrdə müasir innovasiaların tətbiq olunması marketinq baxımından pedaqoqlara qarşı çox saylı tələbləri artırır. Bu prinsip pedaqoqun fəaliyyətini yaradıcılıq kimi qiymətləndirir. Elə buna görədə hər bir pedaqok öz üzərində işləməli, yeniliklərdən xəbərdar olmalıdır.

Təhsilin səviyyəsini yüksəltmək üçün marketinqin tətbiqi əsas şərtdir. Təhsil müəssisələrində marketinq öz məqsədləri, məhsulları və xidmətləri haqqında ictimaiyyətə, təhsil alanlara məlumat vermək və xidmət göstərmək üçün vasitədir.

Azərbaycanda bazar iqtisadiyyatına keçiddən sonra təhsil xidməti bazarının formalaşması nəticəsində təhsilin strukturu və təhsil sahəsində əhalinin ehtiyacları və tələbinin ödənilməsinə yönəlmiş insan fəaliyyətinin bir növü kimi marketinqin təkamül dövrü baslamışdır.Marketinq sözünün azərbaycan dilində hərfi tərcüməsi “bazarda fəaliyyət” deməkdir.

Pedaqoji fəaliyyətin strukturununda bir neçə cəhətləri ayırd edə bilərik,məsələn pedaqoji fəliyyətin predmeti, motivləri, məqsədi, pedaqoji fəaliyyətin vasitələri və pedaqoji fəaliyyətin nəticəsi.

Pedaqoji fəaliyyətdə müəllimin şəxsiyyəti böyük əhəmiyyətə malikdir.Müəllimin peşə qabiliyyətləri sırasında akademik qabiliyyət, bilikləri öyrətmə bacarığı yəni didaktik qabiliyyət, ünsiyyət qabiliyyəti, uşaqların və özünün hərəkətlərini düzgün planlaşdırmaq qabiliyyəti və emosiyalarını idarə etmə qabiliyyəti mühüm yer tutur.(antifenu.wordpress.com)

Marketinq təhsil müəssisəsi ilə onun hədəf auditoriyası yəni təhsil alanlar arasında körpü rolunu oynayır. Yəni hər iki tərəf arasında qarşılıqlı əlaqəni təmin edir. Marketinqin əsas məqsədlərindən biri təhsil müəssisəni tanıtmaq və insanların təhsil müəssisəsi haqqında məlumatlarını artırmaqdır.

Hər bir sahədə olduğu kimi təhsil müəssisəsində də rəqabət vardır. Düzgün hazırlanmış marketinq strategiyası təhsil müəssisəsinin güclü tərəflərinin vurğulaya və bazarda üstunlük verilən, seçilən təhsil müəssisəsi kimi tanıda bilər.

Belə nəticəyə gəlmək olar ki,marketinqin təhsil müəssisələrindəki pedaqoji fəaliyyətə təsiri böyükdür. Təhsil müəssisələrində pedaqoji fəaliyyətin yüksək səviyyədə olması üçün yalnız müvafiq bilik və bacarıqlara malik olan nəsil deyil, eyni zamanda müasir tələblərə cavab verən yeniliklərlə ayaqlaşa bilən müasir nəsil yetişdirilməlidir.

Ədəbiyyat

1.Ванькина И. В., Егоршин А. П., Кучеренко В. И. Маркетинг образования: учеб. пособие, 2007. 334с.

2.Гвоздева Л. А., Колерова Е. В. Педагогическая стратегия маркетингового подхода к образовательному процессу // «Актуальные проблемы химического и экологического образования»: сб. науч. тр. по материалам Всерос. науч.-практич. конф. химиков с междунар. участием. СПб.: Изд-во РГПУ им. А.И. Герцена, 2012. С. 309–312.

3.antifenu.wordpress.com

4.”AZƏEBAYCAN MÜƏLLİMİ” 6 sent.2019cu il səh 12

## XÜLASƏ

Məruzədə təhsil müəssilərində marketinqin rolu,pedqoji fəaliyyət və təhsil müəssisələrində marketinqin pedaqoji fəaliyyətə təsiri barəsindən bəhs olunur. Marketinq anlayışı pedaqogikaya başqa səhələrdən məsələn,sosiologiya,ekonomiya və ya iqtisadiyyat kimi sahələrdən gəlmişdir. Marketinqin nəzəri əsasasını öyrənən Filip Kotler marketinq analyışını belə ifadə etmişdir ki, marketinq insanların tələb və ehtiyaclarını mübadilə vasitəsilə ödəyən fəaliyyət növüdür. Yəni bu baxımdanda marketinqi təhsil sahəsindədə tətbiq etmək olar.

**Açar sözlər:** təhsil, təhsil müəssisəsi, marketinq, pedaqoji fəaliyyət

## SUMMARY

The report talks about the role of marketing in educational institutions, pedagogical activity and the influence of marketing on pedagogical activity in educational institutions.The concept of marketing came to pedagogy from other fields, such as sociology, economics or economics. Philip Kotler, who studied the theoretical basis of marketing, expressed his marketing analysis as follows: "marketing is a type of activity that satisfies people's demands and needs through exchange. In this sense, applying marketing in the field of education can

***Keywords:*** *education, educational institution, marketing, pedagogical activity*

## РЕЗЮМЕ

В докладе говорится о роли маркетинга в образовательных учреждениях, педагогической деятельности и влиянии маркетинга на педагогическую деятельность в образовательных учреждениях. Понятие маркетинга пришло в педагогику из других областей, таких как социология, экономика или экономика.Филипп Котлер, изучавший теоретические основы маркетинга, выразил свой маркетинговый анализ следующим образом: «Маркетинг – это вид деятельности, удовлетворяющий запросы и потребности людей». посредством обмена. В этом смысле можно применить маркетинга в сфере образования.

***Ключевые слова:*** *образование, образовательное учреждение, маркетинг, педагогическая деятельность*

# KEYFİYYƏTLİ MÜƏLLİM HAZIRLIĞININ İDARƏ EDİLMƏSİ

**İsmayılova Sara Nizami qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsil cəmiyyətlərin tərəqqisi və inkişafı üçün mühüm amildir və bu prosesin ən mühüm parçalarından biri müəllimlərdir. Öyrənənlərin bilik və bacarıqlarının formalaşmasında, onlara istiqamət verilməsində və ictimai dəyərlərin ötürülməsində müəllimlər əsas rol oynayır. Ona görə də keyfiyyətli müəllimlərin hazırlanması təhsil sistemlərinin ən mühüm prioritetlərindən biridir.

Bu tezis keyfiyyətli müəllimlərin hazırlanmasının əhəmiyyətini və təsirini araşdırır. Xüsusilə, müəllimlərin ixtisaslarının müəyyən edilməsi, müəllim hazırlığı proqramlarının planlaşdırılması və həyata keçirilməsi, müəllimliyə namizədlərin seçilməsi və təlim prosesləri kimi məsələlərə toxunulmuşdur. Bundan əlavə, tezis mövcud təcrübələri qiymətləndirmək və daha effektiv strategiyalar təklif etmək məqsədi daşıyır. Bu tədqiqatın məqsədi təhsil siyasətçiləri, təhsil iştirakçıları, təhsil müəssisələri və tədqiqatçılar üçün keyfiyyətli müəllim hazırlığı prosesini başa düşmək və təkmilləşdirmək üçün ədəbiyyata töhfə verməkdir.

Müəllimlərədən tələb edilən əsas bacarıqlar vardır ki, onlardan əsas olanlara müəllimlərin ixtisas, davamlı peşəkar inkişaf, mentorluq, qiymətləndirmə və s. nümunə göstərilə bilər:

Müəllimlərin ixtisas bacarıqları:

Müəllimlərin ixtisas bacarıqları təhsil sisteminin əsasını təşkil edir. Keyfiyyətli müəllim təkcə akademik biliyinə güvənmir, həm də şəxsi keyfiyyətləri və pedaqoji bacarığı ilə müəyyən edilir.

Mövzu haqqında bilik və təcrübəsi: İxtisaslı müəllim öz tədris sahəsində geniş təcrübəyə malikdir. Bu, kurs materialını başa düşmək, cari tədqiqatlardan xəbərdar olmaq və tələbələrə dərin anlayış vermək deməkdir.

Pedaqoji bacarıqlar və təhsil yanaşmaları: İxtisaslı müəllim effektiv təhsil strategiyaları və metodlarından istifadə edə, öyrənmə proseslərini idarə edə və müxtəlif öyrənmə üslublarına uyğun şəkildə qurmaqla bbilik və bacarıqları tələbələrə çatdıra bilər.

Ünsiyyət və münasibət bacarıqları: Uğurlu müəllim tələbələr və valideynlərlə effektiv ünsiyyət qura bilən, empatiya bacarıqlarını inkişaf etdirən və müsbət sinif mühiti yarada bilən biridir. O, həm də liderlik və idarəetmə bacarıqlarına malikdir.

Davamlı peşəkar inkişaf: İxtisaslı müəllimlər öz peşələrində daim təkmilləşməyə və yeni pedaqoji yanaşmaları öyrənməyə hazır olan şəxslərdir.

Keyfiyyətli müəllim hazırlığı proqramlarının dizaynı və həyata keçirilməsi:

Keyfiyyətli müəllim hazırlığı proqramları gələcək müəllimləri peşəkar bacarıqlarını inkişaf etdirmək və tədris rolunu səmərəli şəkildə yerinə yetirmək üçün hazırlanan hərtərəfli yanaşmanı tətbiq edir.

Kurikulum və proqram məzmunu: Müəllim hazırlığı proqramları pedaqoji nəzəriyyə və təcrübələr, sinifin idarə olunması üsulları, şagirdin qiymətləndirilməsi strategiyaları, tədris texnologiyaları və mədəni məlumatlılıq kimi mövzuları özündə birləşdirən balanslaşdırılmış kurikulum təklif etməlidir.

Sahə təcrübəsi: Müəllim namizədlərinə real sinif mühitlərində təcrübə qazanmaq üçün təcrübə imkanları təklif edilməlidir. Bu, nəzəri biliklərin praktikaya çevrilməsinə imkan verir.

Mentorluq və dəstək sistemi: Keyfiyyətli müəllim hazırlığı proqramları müəllim namizədlərinə mentorluq və fərdi dəstək göstərmək üçün strukturlaşdırılmış sistem təklif etməlidir.

Qiymətləndirmə və əks-əlaqə: Proqramlara müəllim namizədlərinin tərəqqisini müntəzəm olaraq qiymətləndirmək və rəy bildirmək üçün mexanizmlər daxil edilməlidir ki, bunlar tədris prosesində effektiv qiymətləndirmə və əks-əlaqəni təmin edə bilsin.

Müəllim Namizədlərinin Seçilməsi və Hazırlanması Prosesləri:

Müəllim namizədlərinin seçilməsi və təlim prosesi ixtisaslı müəllimlərin hazırlanmasında mühüm rol oynayır. Bu proseslər namizədlərin peşəkar səriştələrini müəyyən etmək, öyrətmək və inkişaf etdirmək üçün ciddi şəkildə planlaşdırılıb.

Seçim prosesi: Müəllim namizədlərinin seçim prosesi onların akademik keyfiyyətləri, şəxsi keyfiyyətləri, ünsiyyət bacarıqları və müəllimlik peşəsinə maraqları kimi meyarları qiymətləndirir. Bu proses namizədlərin təlim proqramına qəbul edilməzdən əvvəl uyğunluğunu müəyyən edir.

Təlim proqramları: Müəllim namizədlərinə təklif olunan təlim proqramlarına pedaqoji bacarıqların inkişaf etdirilməsi, tədris strategiyalarının öyrənilməsi, sinifin idarə edilməsi üsullarının başa düşülməsi və tələbə müxtəlifliyi ilə effektiv şəkildə məşğul olmaq daxildir.

Tədris və təcrübə: Məktəbəqədər müəllimlər öyrənmə nəzəriyyələrini tətbiq etmək və sinif təcrübəsi qazanmaq üçün tədris və təcrübə proseslərində iştirak edirlər. Bu proses namizədlərə nəzəri biliklərini praktiki tətbiqə çevirməyə və sinif mühitində tələbələrlə ünsiyyət qurmağa imkan verir.

Təcrübə və müraciət proseslərinin qiymətləndirilməsi:

Təcrübə və müraciət proseslərinin qiymətləndirilməsi müəllim namizədlərinin peşəkar inkişafını izləmək və təkmilləşdirmək üçün vacibdir. Bu proseslər namizədlərin güclü tərəflərini müəyyən etmək və inkişaf sahələrini müəyyən etmək üçün istifadə olunur.

Mentorluq və rəhbərlik: Təcrübə proseslərində mentorluq və rəhbərlik müəllim namizədlərinin peşəkar inkişafına kömək edir. Təcrübəli müəllimlər və ya akademiklər tərəfindən təklif olunan mentorluq namizədlərə güclü tərəflərini vurğulamağa və inkişaf sahələrini müəyyənləşdirməyə kömək edir.

Əks-əlaqə və qiymətləndirmə: Təcrübə və təcrübə proseslərində müntəzəm rəy və qiymətləndirmə müəllim namizədlərinin irəliləyişinə nəzarət etmək üçün istifadə olunur. Bu proses namizədlərə güclü tərəflərini müəyyən etməyə və inkişaf sahələrində irəliləyiş əldə etməyə kömək edir.

Tələbə uğurlarının və fəaliyyətlərinin qiymətləndirilməsi: Təcrübə və müraciət prosesləri zamanı tələbə uğurlarının və fəaliyyətlərinin qiymətləndirilməsi namizədlərə öz tədris strategiyalarını və təcrübələrini təkmilləşdirməyə kömək edir.

Bu araşdırma keyfiyyətli müəllimlərin hazırlığına yönəlib. Xüsusilə, müəllimliyə namizədlərin seçilməsi və hazırlığı proseslərinin vacibliyini vurğulayaraq, təcrübə müddətlərinin qiymətləndirilməsinin zəruriliyini ortaya qoyub.

## ALİ TƏHSİL MÜƏSSİSƏSİNİN DEMOKRATİK İDARƏ EDİLMƏSİNƏ ÜMUMİ NƏZƏR

**İsmayılova Sevil Aydın qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Demokratik cəmiyyətin və idarəetmənin qurulması təhsil sahəsində də demokratik mədəniyyətin və idarəetmə prinsiplərinin formalaşmasına öz töhfəsini verir. Müasir Azərbaycan Respublikasının təhsilin inkişafı sahəsində həyata keçirdiyi siyasət, qəbul etdiyi qərarlar, həyata keçirilən islahatlar, tədbirlər təhsilin, xüsusən də ali təhsilin dünya standartlarına uyğun idarəetmə sisteminin yaradılmasında mühüm əhəmiyyət kəsb edir. Təhsildə demokratik münasibətlərin yaranması və formalaşması dövlətin demokratik dəyərlərinin inkişafı ilə sıx bağlıdır, belə ki, dövlətin demokratiklik təməlləri nə qədər sağlamdırsa, təhsil sistemi, xüsusilə ali təhsil bunu özündə əks etdirir. Ali təhsil müəssisələrinin demokratik idarəedilməsi tarixi orta əsrlərə, ilk təhsil ocaqlarının, universitetlərin yaranmasına əsaslanır. Demokratiya anlayışı isə daha qədimdir, antik yunan fəlsəfəsində Heredot tərəfindən istifadə olunub. Orta əsrlərdə yaranan universitetlərin demokratik təməllər üzərində yarandığı hesab olunur. Həm də qeyd etmək də lazımdır ki, yeni dövrün ilk müasir demokratik ali təhsil modelləri alman və fransız modelləridir. Alman ali təhsil modeli Vilhelm fon Humboldtun ideyalarından bəhrələnmiş, bir sıra demokratik

prinsipləri dəstəkləyərək fikir müxtəlifliyini, akademik muxtariyyəti, tətqiqat və tədris vahidliyini fəaliyyətində əhəmiyyətli hesab etmişdir. [1]

İdarəetmə elminin əsas üslubi modellərindən biri kimi demokratiya istənilən sosial münasibətlərdə öz yerini tapır. Demokratik dəyərlərin əsasında hər şeydən əvvəl bu ideya durur ki, bütün insanlar hüquq və ləyaqəti nöqteyi-nəzərindən azad və bərabər şərtlərlə dünyaya gəlirlər. Bu şərtlərin sosial həyatda və bilavasitə təhsil (ali təhsil) sahəsində üstün prinsip kimi götürülməsi özlüyündə idarəetmənin demokratik prinsiplərə əsaslanmasını şərtləndirir. Demokratik idarəetmə təhsil subyektinin anadangəlmə azadlıq və bərabərlik hüquqlarına istinaddır. Demokratik dəyərlər demokratik mədəniyyətin əsasını təşkil edir, demokratik dəyərlərə sahiblənmiş rəhbər demokratik mədəniyyətə də yiyələnir.

Aydındır ki, demokratik mədəniyyətin aşılanması ümumi təhsil müəssisələrində artıq özünü göstərir, ali təhsil müəssisəsi isə bu ənənəni sistemli şəkildə davam etdirir. Tədris prosesinin demokratik idarə olunması nəticəsində tələbə müxtəlif konfliktlərin demokratik çərçivə daxilində həll etmə vərdişlərinə yiyələnir. Tələbələrin demokratik mədəniyyətinin formalaşması və inkişafı üçün demokratik mühitin yaradılması mühümdür. Demokratik mühit dedikdə maddi mühitdən deyil, demokratik dəyərləri təşviq edən mənəvi yüksək emosional mühit nəzərdə tutulur. Demokratik mühit bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir:

- təhsilverən və təhsilalanların arasında yüksək etimad münasibətləri;
- təhsilalanların söz və ifadəsinə yüksək dəyərin nümayiş etdirilməsi;
- təhsilalanların fikirlərinə və töhfələrinə hörmət;
- çətin gündəlik məsələlər də daxil olmaqla müxtəlif yanaşma və perspektivlərin nəzərə alınması;
- çox vaxt əmrlər verilməsi yerinə, dialoqdan və qrup əməkdaşlığının təşviqi;
- tələbələrin tənqidi şüuru da daxil olmaqla hərtərəfli inkişafına diqqət göstərilməsi.

Ümumilikdə, ali təhsilin demokratik idarə edilməsi dünyanın həm inkişaf etmiş, həm inkişafda olan ölkələrinin təhsilin inkişafı sahəsində əsas məqsədlərindən biridir. Lakin demokratikləşmənin birbaşa mövcud olması mümkün deyil, ali təhsil sahəsində demokratik mexanizmlərin özünə yer tapması həm mövcud ölkənin müasir demokratik səviyyəsindən asılıdır, həm də ali təhsil subyektlərinin demokratik dəyərlərə nə qədər sahiblənməsindən, özünün və başqalarının hüquq və azadlıqlarına verdiyi dəyərdən, fəaliyyətində demokratik prinsiplərə nə dərəcədə riayət etməsindən asılıdır. Bu proses kompleks və kollektiv xarakter daşıyır və ümumi demokratik şüurun hakim olması ilə şərtlənir.

Ədəbiyyat


1. *Сантоцкая Ксения Эдуардовна. ЭВОЛЮЦИЯ ИДЕИ УНИВЕРСИТЕТА. Векторы благополучия: экономика и социум. 2020. № 1 (36) с.72-83. г. Томск: 2020*
2. *Максвелл Д. Воспитай в себе лидера [Электронный ресурс]. Режим доступа: http://www.sunhome.ru/books/b.vospitay_v_sebe_lidera/4*


## Z NƏSLİ MÜƏLLİMLƏRİNİN MOTİVASİYASINA TƏSİR EDƏN FAKTORLAR


**Kərimova Jalə Cəlil qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Təhsil sistemi nəsillərarası fərqlərin və dəyişən gözləntilərin təsiri altındadır. Z nəsli texnologiyanın üstünlük təşkil etdiyi rəqəmsal və sürətlə dəyişən bir dünyada böyümüşdür. Bu nəslin müəllimləri ənənəvi tədris üsullarını şübhə altına almış və öz motivasiya mənbələrini yaratmışlar.

Z nəsli müəllimlərinin fərqlilikləri müasir dünyanın sürətlə dəyişən dinamikası və texnoloji inkişaflarla formalaşır. Bu nəsil digər nəsillərdən bəzi mühüm məqamlarla fərqlənir.

İlk olaraq, Z nəsli rəqəmsal aləmdə böyüyüb və texnologiyanı yaxşı bilir. Bu nəsil müəllimlər rəqəmsal vasitələrdən daha səmərəli istifadə edə bilərlər. Onlar sinifdə tədris materiallarını və öyrənmə üsullarını texnologiya ilə birləşdirməyi yaxşı bacarırlar. Bundan əlavə Z nəsli əsnək iş rejimi və sərbəstliyə meyillidir. Həmçinin onlar müxtəlifliyə və daxili dəyərlərə də diqqət yetirir. Bu müəllimlər müxtəlif mədəniyyətlərə və baxış bucaqlarına qarşı daha həssasdırlar.

Z nəslinin müəllimləri tələbə mərkəzli bir yanaşma qəbul edirlər. Şagirdlərin fərdi ehtiyaclarına diqqət yetirmək və onları fəal iştirakçı kimi görmək bu nəslin müəllimlərinin prioritetləri sırasındadır. Eyni zamanda davamlılığa və sosial məsuliyyətə önəm verirlər. Bu dəyərləri şagirdlərə də aşılamağa çalışırlar. Z nəsli yaradıcı düşüncə və innovasiyaya açıqdır. Onlar sinif fəaliyyətini daha yaradıcı və innovativ şəkildə tərtib edə bilərlər.

Bu xüsusiyyətləri fərqləndirə bilmək təhsil sistemini daha yaxşı başa düşmək və Z nəsli müəllimlərinin təkmilləşməsinə dəstək vermək üçün vacibdir. Nəsillərarası anlaşma təhsil sahəsində uğurlu əməkdaşlığın əsas elementidir.

Z nəsli müəllimlərinin motivasiya mənbələrini müəyyən etmək, bu mənbələrin təsirini təhlil etmək və təhsil siyasəti üçün təkliflər verməkdir. Bu tezis təhsil sahəsində çalışan tədqiqatçılar, idarəçilər və müəllimlərə mühüm töhfə verəcəkdir.

Tezisin vəzifələrinə aiddir: 1. Z nəsli müəllimlərinin motivasiya mənbələrinin müəyyən edilməsi; 2. təhsil siyasətləri üçün təkliflərin verilməsi.

Z nəsli müəllimlərinin motivasiyasına toxunaraq təhsil sahəsində yeni perspektiv təklif edir. Z nəsli rəqəmsal dünyada böyüdüyündən və fərqli gözləntilərə malik olduğundan, bu nəslin müəllimlərinin motivasiyasını başa düşmək gələcəyin təhsil sistemi üçün faydalı olacaqdır.

Bu tədqiqat təhsil sahəsində çalışan tədqiqatçılar, idarəçilər və müəllimlər üçün mühüm mənbə olacaqdır. Z nəsli müəllimlərinin motivasiyasını başa düşmək təhsil sistemini daha yaxşı istiqamətləndirmək və tələbələrə daha yaxşı təhsil vermək üçün mühüm addımdır.

1. Texnologiya: Z nəsli müəllimləri onlayn platforma və proqramlardan istifadə etməyə meyllidirlər. Texnologiyaya əsaslanan təhsil resursları müəllimlərə dərsləri daha effektiv və cəlbedici etməyə kömək edə bilər. Məsələn, interaktiv kurs məzmunu, virtual sinif otaqları və onlayn tələbələrlə qarşılıqlı əlaqə müəllimlərin motivasiyasını artıra bilər. Müxtəlif digital platformalar müəllimlərə dərsləri planlaşdırmağı, ev tapşırıqlarını izləməyi və şagird performansına nəzarət etməyi asanlaşdırır. Bu, müəllimlərə işlərini daha səmərəli yerinə yetirməyə kömək edir.

2. Elastiklik və sərbəstlik: Z nəsli müəllimlərinin motivasiyasına əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Müəllimlər sərbəst iş saatlarına və məkanlara üstünlük verirlər. Onlar işlərini daha yaxşı təşkil etmək və iş-həyat balansına sahib olmaq üçün elastiklik istəyirlər. Həmçinin, müəllimlər dərsin təşkilini fərdiləşdirmək və onu şagirdlərin ehtiyaclarına uyğunlaşdırmaq istəyirlər.

3. Qərar qəbul etmə səlahiyyəti: Z nəsli müəllimləri öz siniflərində daha çox qərar vermə səlahiyyətinə malik olmaq istəyirlər. Tələbələrin qiymətləndirilməsi, kurikulumun məzmunu və öyrənmə metodları üzərində müstəqillik onların motivasiyasına təsir edən amillərdəndir.

4. Peşəkar inkişaf: Müəllimlər öz peşəkar inkişaflarını istiqamətləndirə bilmək istəyirlər. Müəllimlərə öz maraqlarına və ehtiyaclarına uyğun təlim keçməyə imkan yaratmaq onların motivasiyasına müsbət təsir edir. Həmçinin, davamlı öyrənməyə və şəxsi inkişafa da önəm verirlər. Karyera yüksəlişi üçün imkanların yaradılması onların motivasiyasını artıra bilər.

5. İş mühiti: Z nəsli müəllimləri müxtəlifliyə əhəmiyyət verirlər və fərqli perspektivləri dəyərləndirirlər. Eqalitar iş mühiti və iştirak onların motivasiyasını artıra bilər.

Bu araşdırmanın nəticələrinə əsasən, Z nəsli müəllimlərinin motivasiyasını artırmaq üçün aşağıdakı təkliflər təklif olunur:

• Z nəslinin öyrənmə üslubları və təhsildə texnologiyanın rolu haqqında pedaqoqların maarifləndirilməsi;

• Z nəsli müəllimlərinin ehtiyaclarına cavab verən və dəstəkləyən mentorluq və kouçinq proqramlarının hazırlanması;

• Z nəsli müəllimlərinin peşəkar inkişafını dəstəkləmək üçün təqaüdlər və vəsait təmin edilməsi;

• Z nəsli müəllimlərinin iştirakını təşviq edən və onları qərar qəbul etmə prosesinə daxil edən məktəb icmalarının yaradılması;

• Z nəslinin müəllimlərinin motivasiyasını və iş məmnunluğunu artırmaq üçün ədalətli və bərabər əmək haqqı siyasətinin həyata keçirilməsi.

Bu tövsiyələrin həyata keçirilməsi Z nəsli müəllimlərinin motivasiyasını artırmaq və gələcəyin təhsil sisteminin uğurunu təmin etmək üçün mühüm addım olacaq.

## PUBLİK HÜQUQİ ŞƏXS STATUSLU ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ İDARƏETMƏNİN YENİ FORMASI KİMİ

**Qasımova Türkan Rizvan qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Publik hüquq modern, hüquqi dövlət anlayışının yaranması ilə meydana gələn bir anlayışdır. Publik hüquq daha çox idarəetmə funksiyası ilə bağlı olan anlayışdır.

Publik hüquqi şəxs institutu təxminən XIX əsrdə Avropada inzibati dövlət quruculuğu çərçivəsində yaranıb. Azərbaycanda isə ilk dəfə publik hüquq ifadəsi 2005-ci ildə "inzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunu ilə hüquq sisteminə gətirilmişdir. Azərbaycan Respublikasının Publik hüquqi şəxslər haqqında qanunu 4 fevral 2016-cı ildən qüvvəyə minmişdir. Publik hüquqi şəxslər haqqında əsas məlumatlar, onların hüquq və vəzifələri bu qanunda yer almışdır.

Müəssisələr ya öncədən publik hüquqi şəxs statusu ilə yaradılır ya da yenidən təşkil olunma ilə publik hüquqi şəxs statusu əldə edir. Hər hansı bir müəssisə publik hüquqi şəxs statusu əldə etmək istəyirsə, bunun üçün öncəliklə dövlət qeydiyyatından keçməlidir.

Hal hazırda ölkəmizdə bir çox sahə üzrə publik hüquqi şəxs statuslu müəssisələr fəaliyyət göstərir. Bu müəssisələr içərisində ali təhsil müəssisələri demək olar ilk publik hüquqi şəxs statusu əldə edən müəssisələrdir.

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq, ali təhsil müəssisələrinin publik hüquqi şəxs statusuna malik olmaqla yenidən təşkil olunması, ölkədə ali təhsilin inkişafı ilə bağlı nəzərdə tutulan hədəflərə çatmaq üçün yeni imkanlar yaradacaq. Ali təhsil müəssisələrinin publik hüquqi şəxs statusuna malik olmaqla yenidən təşkili idarəetmənin keyfiyyətinin artırılmasında, həmçinin maraqlı tərəflərin - ictimaiyyətin, işəgötürənlərin bu prosesdə iştirakını daha da genişləndirəcək. Həmçinin şəffaf və səmərəli idarəetmə mexanizmləri yaradacaq.

Ali təhsil müəssisələrinin publik hüquqi şəxs olması onların maliyyə cəhətdən asılılığını aradan qaldırır. Bu o deməkdir ki, publik hüquqi şəxs statuslu ali təhsil müəssisələri həm özlərini maddi cəhətdən idarə etməyi, həm işçilərin əmək haqqını qarşılamağı, həm tələbə təqaüdlərini verməyi, həm də universitetin digər xərclərini qarşılamağı bacarmalıdırlar. Bunun üçün publik hüquqi şəxs elan olunan ali təhsil müəssisələri maliyyə vəsaitlərini artırmaq üçün əlavə imkanlar axtaracaq, ayrı-ayrı layihələr həyata keçirəcəklər. Yəni bu mexanizm təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsinə, göstəriləcək ödənişli təhsil xidmətlərinin çeşidinin genişləndirilməsinə şərait yaradacaq. Bu da ali təhsil müəssisəsinin maddi-texniki bazasının və infrastrukturunun yeni keyfiyyət əmsalı deməkdir. Ali təhsil müəssisələrinin iqtisadi cəhətdən dayanıqlılığının təmin olunması onların ölkədə və beynəlxalq səviyyədə rəqabət qabiliyyətini yüksəltməklə təhsil–tədqiqat–innovasiya mərkəzlərinə çevrilməsini və tədqiqat universiteti statusunu əldə etməsini stimullaşdırır. Bu

da əldə edilmiş innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqinin əsas şərtlərindəndir.

## MƏKTƏBİN MÜASİR İDARƏ OLUNMA XÜSUSİYYƏTLƏRİ

**Qasımova Zemfira Əhməd qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsil dövlət idarəetməsinin strateji istiqamətlərindən biri olub daha çox diqqət tələb edən sahələrdəndir.Sürətlə genişlənməkdə olan qloballaşma dövrünün əsas şərtlərindən biri idarəetmə sistemini yeni cəmiyyətin tələblərinə uyğun formalaşdırmaqdır. Cəmiyyətin davamlı inkişafını təmin etmək üçün təhsil müəssisələrində idarəetmənin səmərəli təşkili əsas strateji hədəf kimi seçilmişdir. Bu baxımdan təhsili idarəetmənin əsas variantlarından biri olaraq beynəlxalq təcrübədən geniş istifadəolunur.

Müasir təlim-tərbiyə müəssisələri bir-biri ilə əlaqəli sosial pedaqoji sistem kimi qəbul edilir. Ənənəvi idarəetmədə məktəb rəhbərliyi idarəetmənin böyük bir hissəsini təşkil etsə də,müasir məktəblərdə bu sistem xarici mühitlə də müəyyən dərəcədə əlaqədə olur.Müasir məktəbdə idarəetmənin əsas mahiyyətitəlim və tərbiyə prosesində daha səmərəli nəticə əldə etmək üçün valideynlərin də bu prosesə cəlb olunmasıdır. Məktəbin müasir idarə olunmasında qarşıya aşağıdakı məqsədlər qoyulur:

- Məktəbin məqsədlərini və yeni perspektivlərini ifadə etmək;
- Keyfiyyətli tədrisin təmin olunmasını təşkil etmək;
- Təhsilalanların akademik nəticələrinin yüksəldiməsinə nəzarət etmək;
- Şagirdlərin məktəb mühitinə uyğunlaşmasını yaxşılaşdırmaq;
- Müəllimləri qabaqcıl təlim kurslarına cəlb etmək.

Məktəb rəhbərinin idarəetmə funksiyaları. Məktəb rəhbərlərinə ənənəvi olaraq liderlər kimi baxırdılar. Ona görə də müasir yanaşmada məktəbin effektiv idarəolunması sahəsində professional idarəçi kadrlar-menecerlər hazırlamaq qarşıya qoyulan başlıca tələblərdəndir. Menecer-idarəetmə prosesində şəraitin tələblərinə müvafiq olmaq üçün müxtəlif vəziyyətlərdə fərqli mövqe nümayiş etdirərək fəaliyyət göstərən mütəxəssisdir. Məktəb menecerinin əsas funksiyaları – pedaqoji işin səmərəli təşkil olunması, məktəbdaxili fəaliyyətləri əlaqələndirilməsi və resurslardan düzgün istifadəolunması və s. daxildir.

Rəhbərlikdə uğur qazanmaq üçün 3 əsas kateqoriya müəyyən edilir:istiqamətlərin müəyyənləşdirilməsi,pedaqoji kadrların professional inkişafı və müəssisənin inkişafı. İstiqamətlərin müəyyənləşdirilməsi-məktəb direktoru pedaqoji heyəti fəaliyyətlərə cəlb etmək üçün strateji istiqamətləri müəyyən edir. O, təşkilati işin icrasına nəzarət edir və monitorinq prosesini həyatakeçirir.

İşçilərin professional inkişafı- məktəbdə səmərəli işin təşkili birbaşa olaraq pedaqoji heyətin səylərindən asılıdır. Peşəkar rəhbər məktəbdə pedaqoji heyətə fərdi dəstək göstərmək və intellektualstimullaşdırmanı təklif etməklə insan resurslarının inkişafına böyük təsir görstərir.

Müəssisənin inkişafı-Məktəb direktoru həm insan resurslarını, həm də fiziki imkanları təşkil edən şəxsdir. Səmərəli inkişafı təmin etmək məqsədilə rəhbər şəxs müəllimlər və şagirdlər də daxil olmaqlabütün işçilərin işini dəstəkləməyi qarşısına məqsəd qoyur.

Məktəbdaxili idarəetmənin təşkili və tənzimlənməsi mexanizmi. Məktəbin idarə edilməsi prosesi müəyyən mərhələlər əsasında keçirilir.Pedaqoji ədəbiyyatlarda əsas 3 mərhələ qeyd olunur: Hazırlıq işlərinin görüldüyü birinci mərhələdə müvafiq təşkilatçılıq tədbirləri həyata keçirilir və kollektivdə müsbət mənəvi-psixoloji mühit yaratmaq üçün addımlar atılır.

II mərhələdə müəyyən edilmiş proqramın həyata keçirilməsi məqsədilə pedaqoji kollektiv səfərbərliyə alınır və işin icrası üçün əlverişli şərait yaradılır.Təşkiletmə funksiyasının həyata keçirilməsi ilə əlaqəlibir sıra tədbirlər görülür. Bunlara səmərəli metod və formaların seçilməsi,icraçı şəxslərin əməyinin stimullaşdırılması, ictimai özünüidarə orqanlarının fəal iştirakının təmin olunması və s. daxildir.

III mərhələdə bütün görülən işlər təhlil edilərək qiymətləndirilir. Təcrübə göstərir ki, nəticələrin təhlili zamanı pedaqoji kollektivin fəal iştirakı və fəaliyyət nəticlərinin aşkarlıq prinsipi əsasında müəyyən edilməsi effektiv idarəetmə baxımından böyük əhəmiyyətə malikdir.

IV Təlimatlı idarəetmə mexanizmi. Məktəb menecerləri idarəetmə işinin təkmilləşdirilməsi üçün təlim prosesində qarşıya çıxan problemlərin aradan qaldırılması üçün müəllimlərlə birgə çalışırlar. Səmərəli idarəçilər çox vaxt pedaqoji fəaliyyətə yeni başlamış müəllimlərə proqram (kurrikulum) biliklərinin yenilənməsi haqqında göstəriş verməklə tədrisdə inkişafı bu istiqamətdə təşviq edirlər.

V Məktəb daxili nəzarət mexanizmi. Daxili nəzarət mexanizmi çərçivəsi daxilində təlim nəticələrinə nail olmaq üzrə dərslərin təşkilinə və şagirdlərin davamiyyətinə nəzarət edilir. Buna əsasən məktəb rəhbərləri müntəzəm olaraq müəllimlərin pedaqoji fəaliyyətini izləyir, onlara təlim-tədris prosesini səmərəli təşkil etmək üçün təkliflər verir və mütəmadi olaraq şagirdlərin akademik səviyyələri və məktəbin nizam-intizam qaydalarına əmək olunmasını izləyirlər.

VI Qeyd olunanlara əsasən deyə bilərik ki, müasir məktəbin idarə olunmasında məktəb rəhbəri müntəzəm olaraq pedaqoji prosesi müşahidə etməli, nailiyyət göstəricilərini izləməli,yeni qerarların səmərəliliyini müəyyən etməli, dövlətin təhsil siyasətininin həyata keçirilməsinə yönəlməlidir.

## BƏDƏN TƏRBİYƏ VƏ İDMANIN İNKİŞAFINDA DÖVLƏT DƏSTƏYİ

**Məhərrəmov Məhəmməd Qayıbalı oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bəşəriyyət tarixinin təhlili göstərir ki, bütün dövrlərdə dövlətin funksiyaları cəmiyyətin inkişaf mərhələləri ilə sıx bağlıdır. Elə buna görə də zaman keçdikcə bu funksiyaların bəziləri əsas, bəziləri isə ikinci dərəcəli ola bilər. Amma elə funksiyalar da mövcuddur ki, onlar daim əsas sırada yer alır. Buna dövlətin ümumi daxili funksiyaları arasında yer alan sosial-mədəni funksiyanı əyani misal qismində gəstərmək olar. Sözügedən funksiya mədəni dəyərləri, təhsili, səhiyyəni, bədən tərbiyəsi və idmanı, eləcə də digər belə vacib məqamları özündə ehtiva edir. Təbii ki, sosial-mədəni funksiya arasında bədən tərbiyəsi və idman özünəməxsus mühüm yer tutur. Bədən tərbiyəsi və idman sahəsində dövlət siyasəti Azərbaycanda aşağıdakı prinsiplərə uyğun olaraq həyata keçirilir:

1. Bədən tərbiyəsi və idmanın inkişafı üçün müvafiq proqramların hazırlanmasında və həyata keçirilməsində, insanların sağlamlıq və fiziki vəziyyətinə görə məsuliyyətinin tanınmasında bütün vətəndaşların maraqları nəzərə alınır.
2. Qanunun tələblərinə cavab verən bütün bədən tərbiyəsi və idman dərnəklərinin, federasiyaların, məktəblərin və digərlərinin sərbəst fəaliyyəti təmin edilir. Bu müstəvidə müxtəlif təşkilati-hüquqi fəaliyyət və mülkiyyət formaları indi ölkəmizdə geniş yayılmaqdadır.
3. Bədən tərbiyəsi və idman xəstəliklərin, zərərli vərdişlərin qarşısını almaq, sağlamlığı gücləndirmək və yüksək insan performansını qorumaq vasitələrindən biri hesab edildiyindən, həyatlarının bütün mərhələlərində müxtəlif yaş qruplarında olan insanların idmanla məşğul olmasına xüsusi diqqət yetrilir.

Digər önəmli cəhət də budur ki, bədən tərbiyəsi və idman təşkilatlarının, idman sənayesinin müəssisələrinin maddi-texniki və informasiya resurslarından, tədqiqat və

texnologiyalardan cəmiyyətin, xüsussən də uşaq və yeniyetmələrin istifadə etmələri üçün dövlət tərəfindən müvafiq şərait yaradılır. Hər növdə uşaq və gənclər üçün idman məktəblərinin, klublarının, sağlamlıq düşərgələrinin, tibbi və fiziki dispanserlərin sayının artırılması və maddi -texniki bazasının gücləndirilməsi üçün də yenə dövlət tərəfindən müvafiq şəraitin yaradılması uğurla həyata keçirilir. Qüvvədə olan "Bədən tərbiyəsi və idman haqqında" qanun ölkədə bədən tərbiyəsi və idman sahəsində fəaliyyətin təşkilati-hüquqi, sosial-iqtisadi əsaslarını və dövlət siyasətinin əsas prinsiplərini müəyyən edir, hər kəsin bədən tərbiyəsi və idmanla məşğul olmasına imkan yaradır. Eyni zamanda idmanın ayrı-ayrı növlərinin inkişafına dair dövlət proqramları qəbul edilmişdir. Hazırda ölkəmizdə 500 min nəfərə yaxın adam idmanla məşğul olur. Müqayisə üçün, 2005-ci ildə bu rəqəm 376 min nəfər təşkil edirdi. Eləcə də qazanılan uğurlar ildən-ilə artır. Ötən ilin nailiyyətləri buna bariz misaldır. Belə ki, idmançılarımız 180 dünya, 228 Avropa çempionatı və birinciliyində iştirak etmişlər. Bundan əlavə, 4296 nəfər 358 beynəlxalq turnirdə qüvvəsini sınamışdır. Azərbaycan idmançıları 619 medal qazanmışlar ki, bu da 2008-ci illə müqayisədə 69 medal çoxdur. Olimpiya idman növlərində 37 medal əldə edilmişdir. İlk dəfə olaraq 4 idmançımız dünya çempionu adını qazanmışdır.

Təbii ki, əsas diqqət idmanın maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilir. Keçən il paytaxtın Hövsan və Şağan qəsəbələrində, eləcə də Şəmkir, Şərur və İsmayıllı rayonlarında yeni olimpiya kompleksləri tikilib istifadəyə verilmişdir. Hazırda ölkədəki olimpiya komplekslərinin sayı 24-ə çatır. Dövlət tərəfindən idmanın kütləviliyi təmin edilərək ölkədə sağlam nəsl formalaşdırılır. Sözsüz ki, bu formalaşdırılırmış nəsil də vətənimizin sağlam gələcəyi deməkdir. Bildiyimiz kimi, gənclik və idman bir-brini tamamlayan məfhumlardır. Müasir gənclərin hərtərəfli formalaşmış, rəqabətədavamlı yetişdiriliməsi məhz dövlətin uğurlu gənclər siyasətinin davamıdır. Gənclərimiz tək idman deyil, bütün sferalarda aktiv rolu ilə seçilir, ictimai-siyasi, sosial-iqtisadi tədbirlərin təbliğində də mühüm rol oynayırlar. Bütün bunlar ölkə başçısı İlham Əliyevin və Birinci Vitse- prezident Mehriban xanım Əliyevanın gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanların, yüksək diqqət və qayğının nəticəsidir. Heydər Əliyev gənclərin sağlam ruhda tərbiyə alması və əsl vətəndaş kimi yetişməsi üçün əlindən gələni əsirgəməyəcəyini bəyan edib. Ulu öndər həmin zaman idman tariximizdə möhtəşəm uğurların qazanılmasının təməlini qoydu. 1997-ci il iyulun 31-də Azərbaycanın idman tarixində yeni mərhələyə keçid baş verdi. İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti seçildi. Bundan sonra ölkəmizdə Olimpiya hərəkatı tamamilə yeni bir mərhələyə qədəm qoydu. Növbəti illərdə "Bədən tərbiyəsi və idman haqqında", "Dövlət gənclər siyasəti haqqında" qanunlar qəbul edildi, ümumən, ölkə idmanının inkişafına xidmət edən qanunvericilik bazası yaradıldı. Eyni zamanda, idmançıların yaşayış səviyyəsi və təlim-məşq şəraiti ildən-ilə yaxşılaşdırıldı/yaxşılaşdırılmaqdadır.

2004-cü ildə "Azərbaycan Respublikasında 2004-2008-ci illər ərzində bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramı" təsdiqləndi. Bu, ölkədə bədən tərbiyəsi və idmanın gələcək illərdə sistemli inkişafının təmin edilməsinə hesablanmışdı. İdmanın kütləviləşməsi və inkişafı yolunda görülən tədbirlərin davamı kimi dövlət başçısı İlham Əliyev 2005-ci ilin 4 martında Sərəncam imzaladı. Sərəncam "Bədən Tərbiyəsi və İdman Günü"nün müəyyənləşdirilməsini nəzərdə tuturdu. Həmin tarixdən 5 mart böyük coşqu ilə Azərbaycanda Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd olunur. Ölkə idman siyasətinin ardıcıl düzgün tətbiqi nəticəsində Azərbaycan idmanı zirvə dövrünü yaşayır. İdmanımızın belə inkişaf səviyyəsi uşaq və gənclərin fiziki və mənəvi inkişafına, sağlam gənc nəslin yetişməsinə göstərilən dövlət qayğısının nəticəsidir. Dövlət başçısı səviyyəsində idmana göstərilən qayğı Azərbaycanın qarşıdakı illlərdə daha böyük uğurlar qazanmasının təminatçısıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Gənclər İdman və Turizm Nazirliyi (2004), Heydər Əliyev və Azərbaycan İdmanı. Turan Evi, Bakı.

2. Qurbanov H.H. (2001), Fiziki tərbiyə nəzəriyyəsi və metodikası. Adiloğlu Nəşriyyatı, Bakı.
3. Abbas, N. (1939b). “Başka Memleketlerde Beden Terbiyesi-Almanya”, Ülkü Halkevleri Dergisi, 13(76), Temmuz.
4. Başaran İbrahim, Eğitim Psikolojisi, Ankara: Kadıoğlu Matbaası, 2000.
5. Rzayeva Q.M. (2004), Bədən tərbiyəsi nəzəriyyəsi və metodikası. AzDBTİA, Bakı.

## ESTONİYA VƏ AZƏRBAYCAN TƏHSİL SİSTEMLƏRİNDƏ İDARƏETMƏ FƏALİYYƏTİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Məmmədli Vüsalə Namik qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Estoniya və Azərbaycan təhsil sistemləri bir-birindən fərqlənir. Bu fərqlər təhsil sisteminin təşkili və idarəolunması sahəsində özünü daha çox göstərir. Estoniya təhsil sistemi "Estoniya Respublikasının Təhsil Qanunu" əsasında idarə olunur. Azərbaycanda isə 2009-cu ildə qəbul olunmuş "Təhsil haqqında Qanun" təhsil müəssisələrinin idarəolunması üçün əsas sənəd hesab olunur. Əlbəttə, təhsil sistemi sadəcə təhsil qanunu ilə deyil, həm də təhsillə bağlı müəyyən qanunvericilik aktları və sərəncamlar vasitəsilə də idarə edilir. Estoniyada təhsil sistemi qanunvericilik və inzibati hakimiyyət səviyyəsində Parlament,Estoniya Respublikasının hökuməti ilə Təhsil və Tədqiqat Nazirliyi tərəfindən idarə edilir. Ölkəmizdə isə təhsil sisteminin əsas subyektlərinə Nazirlər Kabineti, Elm və Təhsil Nazirliyi,Yerli təhsil orqanları aiddir. Təhsilin idarəolunmasında həmçinin,elmi-pedaqoji kollektivlər, peşə yaradıcılıq ittifaqları, cəmiyyətlər, ictimai-siyasi qurumlar və ictimaiyyət iştirak edir.

Estoniyada Parlament təhsil sisteminin formalaşması,fəailiyyət göstərməsi və inkişafı prinsiplərini müəyyən edir. Eyni zamanda,dövlət müəssisələri və universitetlər üçün təhsil haqqını da Parlament müəyyənləşdirir. Azərbaycanda təhsilin idarəolunmasında ən üst qurum Nazirlər Kabinetidir. Nazirlər Kabinetinin əsas səlahiyyətlərinə - təhsilin strategiyasını müəyyənləşdirmək, Təhsil Qanununun, qanunvericilik aktlarının və sənədlərin yerinə yetirilməsinə nəzarət etmək, təhsilin mərkəzi dövlət idarə strukturlarını yaradıb,onlara rəhbərlik etmək aiddir.

Estoniya Respublika hökuməti,milli təhsilin inkişaf proqramlarını qəbul edir, dövlət təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və fəailiyyətlərinə xitam verilməsi qaydasını müəyyən edir. Bu qurum təhsil kreditlərinin miqdarının, şagirdlər, tələbələr və təhsil işçiləri üçün kredit güzəştlərinin, təhsil iştirakçılarının mükafatlandırılması qaydalarının müəyyən olunmasında birbaşa iştirak edir. Bu sadaladığımız işləri ölkəmizdə Nazirlər Kabineti həyata keçirir.

Azərbaycanda Təhsil sisteminin idarəolunmasında bir çox vacib işləri Elm və Təhsil Nazirliyi yerinə yetirir. Estoniyada bu qurum Təhsil və Tədqiqat Nazirliyi adlanır. Təhsil və Tədqiqat Nazirliyinin əsas funksiyası təhsil,elmi-tədqiqat, gənclər və dil siyasətinin məqsədyönlü və səmərəli inkişafını təmin etməkdən ibarətdir. Bundan başqa,milli kurikulumun hazırlanması və onun tətbiqinə nəzarəti də Təhsil və Tədqiqat Nazirliyi yerinə yetirir. Təhsil və Tədqiqat Nazirliyinin fəailiyyəti ilə yanaşı, digər qurumlar da təhsil siyasətinin həyata keçirilməsində iştirak edir. Bura Estoniyanın Ali və Peşə təhsili üzrə Keyfiyyət Agentliyi, İnnove Fondu, Arximed Fondu, Bələdiyyələr və Yerli təhsil orqanları aiddir. Ali və Peşə təhsili üzrə Keyfiyyət Agentliyi təhsil müəssisələrinin akkreditasiyasını həyata keçirir. İnnove Fondu Avropa İttifaqı ilə birbaşa fəailiyyət göstərir və təhsillə bağlı layihələrin icrasını təşkil edir. Arximed fondu isə təlim,təhsil və tədqiqat sahəsində gənclər və ali təhsil bağlı olan milli,beynəlxalq proqram və layihələri həyata keçirirlər. Bələdiyyələrə gəldikdə, onların işi xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün ümumi təhsil xidmətlərini təqdim edən məktəbəqədər təhsil müəssisələri yaratmaq və onların işini təşkil etməkdir.

Bundan başqa, məktəbə nəzarət orqanları məktəbin inkişaf planlarını, büdcəsini və kurikulumları nəzərdən keçirir. Azərbaycanda isə bələdiyyələrin işini Yerli təhsil orqanları icra edir.

Estoniyada təhsil müəssisələrinin idarəsi Azərbaycandan fərqli olaraq tam mərkəzləşdirilməmişdir. Məktəblər daha çox yerli hökumət təşkilatları və bələdiyyələr tərəfindən idarə olunur. İki ölkənin təhsil sistemlərinin idarəolunması arasındakı əsas fərqlərdən biri də idarəçilikdə muxtariyyətin verilməsi məsələsidir. Belə ki, Estoniyada məktəblərə geniş şəkildə azadlıq verilir. Nəticədə, öz məktəbləri daxilində təhsilin keyfiyyətinə, maliyyə məsələlərinə,müəllimlərin vəzifəyə təyin edilməsi və ya azad olunmasına, müəllimlərin əmək haqqlarının müəyyənləşdirilməsinə görə məktəb direktorlarına tam azadlıq verilir. Əlbəttə, bu prosesin təhsil sistemində müsbət və mənfi təsirləri vardır. Onu da qeyd edək ki, məktəb direktorları məktəbin təsisçiləri tərəfindən işə götürülür və ya azad edilir. Ölkəmizdə isə direktorlar Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən qaydalara görə təyin olunur. Məktəblərdə idarəçilik fəailiyyətində direktordan başqa məktəb şuraları da iştirak edir. Peşə və Ali təhsil müəssisələrində belə şuralar müəssisənin ali, kollegial qərar qəbul edən, fəailiyyətini təşkil edən və inkişafını planlaşdıran orqandır. Eynilə, Azərbaycanda da peşə, orta-ixtisas və ali təhsil müəssisələrində belə şuralar olur. Şuraya məktəb direktoru,direktor müavinləri,məktəbin struktur bölmələrinin rəhbərləri,tələbə qruplarının nümayəndələri aiddir.

Ədəbiyyat

1.Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu (2009)
2.OECD Reviews of School Resources: Estonia 2016
3.Education Policy Outlook of Estonia (April 2016)
4.ttps://eurydice.eacea.ec.europa.eu/national-education-systems/estonia/management-staff-higher-education

## TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏEDİLMƏSİNDƏ MULTİKULTURAL YANAŞMA: İDARƏÇİLİK VƏ MƏDƏNİ DƏYƏRLƏR

**Məsiyeva Nərminə Habil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir dövrdə təhsil müəssisələrinin idarəedilməsi, mədəni dəyərlərin və təcrübələrin bir-birinə qarşılıqlı zənginlik kimi tanınmasını və qəbul edilməsini təmin edən multikultural yanaşmalara dəstək verməlidir. Bu yanaşma, müxtəlif mədəni, etnik və dil fərqliliyinə sahib insanların eyni məktəb və ya universitetdə bir araya gəlməsi halında təşkilatların qarşılaşdığı məsələləri həll etmək üçün bir sıra tədbirlərin reallaşdırılmasını, xüsusən ilk olaraq strateji plan hazırlamağı tələb edir. “Multikulturalizm nisbətən yeni anlayış olsa da, dünya sosial-fəlsəfi fikrində onun çox zəngin ənənələri vardır” [1, s.20]. Bu yanaşma təhsil müəssisələrində cəmiyyətin müxtəlif təbəqələrinə, mədəniyyətlərinə və dilinə hörmət etmək, onları qeydə almaq və dəyərləndirmək məqsədilə keyfiyyətli təhsilin təmin edilməsini dəstəkləyir və tələbələrin və əməkdaşların bir-birilərini daha yaxından tanımaq və başqa mədəniyyətlərə hörmət etmək üçün bir baza yaradılmasını təşviq edir. Eləcə də, multikultural yanaşma təhsil müəssisələrində inkluziv bir mühitin yaradılmasına kömək edir ki, bu da öz növbəsində hər bir şəxsin fikrinə, dəyərlərinə və təcrübəsinə hörmət etməyi tələb edərək tələbə və digər əməkdaşların öz potensiallarını reallaşdırmaq üçün daha rahat, daha sağlam bir mühit yaradır.

Əgər təhsil müəssisələri idarəçiləri multikultural yanaşmaları qəbul edərək təhsil müəssisələrinin idarə olunmasında bu prinsipləri tətbiq edərlərsə, təhsil sistemlərində inkluziv və effektiv bir təhsil mühiti yaradılmasına nail olarlar. Prinsip etibarilə multikulturalizm həm öz mədəniyyətinin başqa əsaslarına, həm də, ümumiyyətlə, digər

mədəniyyətlərə münasibət deməkdir [2, s.19]. Bəs idarəetmədə multikulturalizm necə həyata keçirilməlidir? Qeyd etdiyimiz kimi, idarəetmədə multikulturalizmi həyata keçirmək üçün bir neçə əsas prinsip və yanaşmalar mövcuddur:

İlkin yanaşma olaraq mədəni dəyərlərə hörmət hissinin formalaşdırılması lazımdır. İdarəçilər, əməkdaşlar müxtəlif mədəni, etnik və dini fərqliliklərə hörmət etməli, hər bir şəxsin mədəni dəyərlərinə empatiya göstərərək onların fikirlərinə və inanclarına hörmətlə yanaşmağa önəm verməlidirlər.

İdarəçilər multikultural yanaşma, müxtəlif mədəni, etnik və dil fərqliliklərinə sahib insanların qeydə alınmasını təmin etməlidirlər. Bu, hər bir şəxsin öz təcrübəsini və mədəniyyətini paylaşmaq imkanına malik olduğu hissi yaradaraq insanların rahat həyat sürmələrinə və özlərini güvənlikdə hiss etmələrinə inam yaratmaq deməkdir. “Tarixdə ayrı-ayrı ölkələr, xalqlar, sosiumlar və ayrı-ayrı şəxslər bəşəriyyətin mədəniyyətlə bağlı olan dialoq fəaliyyətini həyata keçirməyə həmişə səy göstərmişər” [3, s.116].

Günümüzdə daha çox diqqət verilən mövzulardan biri inkluziv mühitin yaradılmasıdır. İdarəetmədə inkluziv bir mühit yaratmaq buna uyğun fəaliyyət göstərilməsi, hər kəsin özünü rahat hiss etdiyi, qəbul edildiyi və dəyərləndirildiyi bir mühitdə yaşamasının təmin edilməsi deməkdir.

Təcrübə göstərir ki, təlim və təşviq prosesləri də idarəçilər üçün multikultural yanaşmanın vacibliyini və əhəmiyyətini vurğulayır. Bu, əməkdaşları və tələbələri müxtəlif mədəniyyətlər və fərqliliklərlə daha yaxından tanış olmağa və tolerantlıq göstərərək digər mədəniyyətlərə hörmət etməyə cəlb etməlidir.

Təhsil müəssisələrinin idarəedilməsində multikultural yanaşma və idarəçilik mədəni dəyərlərə dəstək göstərilməsi prinsiplərini önə çıxardır. Bu prinsiplər və yanaşmalar idarəetmədə multikulturalizmin həyata keçirilməsini təmin edir və təhsil müəssisələrinin daha inkluziv və effektiv bir şəkildə idarə olunmasına yardım göstərir və vacib olan bəzi mədəni dəyərləri qeyd edək:

Hörmət və ədalət, Anlayış və tərəfdaşlıq, Birlikdə işləmə və korporativ mədəniyyət, Empati və müşahidə, Məsuliyyət və dəstək.

Bu mədəni dəyərlər, idarəçilərə və əməkdaşlara multikultural yanaşmanın əhəmiyyətini vurğulayır və onları müxtəlif mədəniyyətlərə qarşı daha açıq, anlayışlı və əlaqəli olmağa cəlb edir.

Ədəbiyyat

1. Quliyeva S. Azərbaycan ədəbiyyatında multikulturalizmin bədii inikası. /Bakı. 2021-227 s
2. Məmmədzadə İ. Multikulturalizm fəlsəfi problem və idologen kimi. /AMEA-nın Xəbərlər məcmuəsi.1 c, 2014, №2, s.19-22
3. Hüseynov S. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı. Təknur, 2012, s.116

**XÜLASƏ**

Məqalə aktual mövzuya həsr olunmuş və təhsil müəssisələrinin idarəedilməsində multikultural yanaşmalar fonunda idarəçilik və mədəni dəyərlər araşdırılmışdır. Mədəniyyətlərarası münasibətlərin idarəetmədəki rolu, prinsiplər və mədəni dəyərlər nəzərdən keçirilmiş, təhsil sistemlərində inkluziv və effektiv bir təhsil mühitinin yaradılmasının əhəmiyyəti vurğulanmışdır. Belə ki, mədəni dəyərlər, idarəçilərə və əməkdaşlara multikultural yanaşmanın əhəmiyyətini vurğulayır və onları müxtəlif mədəniyyətlərə qarşı daha açıq, anlayışlı və əlaqəli olmağa cəlb edir.

***Açar sözlər:*** *multikultural yanaşma, idarəetmə, mədəni dəyərlər, idarəçilər, prinsiplər*

**РЕЗЮМЕ**

Статья посвящена актуальной теме и исследует управленческие и культурные ценности на фоне мультикультурных подходов в управлении образовательными учреждениями. Рассмотрена роль межкультурных отношений в управлении, принципы и культурные ценности, подчеркнута важность создания инклюзивной и эффективной образовательной среды в образовательных системах. Таким образом, культурные ценности подчеркивают важность мультикультурного подхода к менеджерам и сотрудникам и привлекают их к большей открытости, пониманию и связи с разными культурами.

***Ключевые слова:*** *мультикультурный подход, менеджмент, культурные ценности, менеджеры, принципы*

**Summary**

The article is dedicated to the current topic and management and cultural values are investigated against the background of multicultural approaches in the management of educational institutions. The role of intercultural relations in management, principles and cultural values were considered, and the importance of creating an inclusive and effective educational environment in educational systems was emphasized. Thus, cultural values emphasize the importance of a multicultural approach to managers and employees and attract them to be more open, understanding and connected to different cultures.

***Keywords:*** *multicultural approach, management, cultural values, managers, principles*

## PEŞƏ TƏHSİLİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏDƏ TƏLİMİN TƏŞKİLİNİN ROLU

**Mikayılova Nəzrin Nazim qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Peşə məktəbləri və liseyləri müxtəlif peşə sahələri üzrə tələbləri ödəyən, o cümlədən təhsilalanlarda peşəyə maraq formalaşdırılmasına xidmət edən təhsil müəssisələridir. Günümüzdə təhsildə qiymətləndirmə müəssisələrin rəhbərliyi və pedaqoji kollektiv tərəfindən məktəbdə təşkil olunan düzgün təlim-tərbiyə işindən çox asılıdır. Təlim dedikdə müəllimin rəhbərliyi ilə insanın təhsil alması, başqa sözlə desək öyrədən və öyrənənin qarşılıqlı əlaqəsi nəzərdə tutulur. Bu əlaqələr çərçivəsində şagirdin idrak prosesi inkişaf edir.

Ölkəmizdə peşə təhsili müəssisələrində ixtisaslı mütəxəssis kadrların hazırlanması məsələləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilir. Burada təhsilin məzmunu Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş tədris planı və proqramlarında, həmçinin dərsliklərdə əks olunur. Təlimin təşkili zamanı təcrübə məktəbin laboratoriyaları, tədris sahələrində təşkil olunur. Peşə məktəbləri və liseylərində təlim-tərbiyə prosesi təşkil olunan zaman müəllim-şagird arasında demokratik ünsiyyət və fəaliyyətin yaradılmasına, humanizm prinsipinin gözlənilməsinə diqqət yetirilməsi əsas şərtdir. Təlim zamanı dərsdən əlavə müxtəlif seminar və məşğələlərdən, laboratoriya üzrə praktikumlardan, sərbəst şəkildə hazırlanmış praktiki işlərdən, tədris kurslarından geniş şəkildə istifadə edilir. Təlim zamanı istifadə olunan metodlar müəllim tərəfindən seçilir.

Peşə təhsil müəssisələrində tədris müvafiq qaydalara uyğun olaraq sentyabr ayının ilk günündə başlayır və tədris müddəti iyulun 1-də başa çatır. Peşə təhsili müəssisələrində təlim zamanı nəzəri məşğələlərə yer ayrılır ki, onların da müddəti 45 dəqiqə, məşğələ arası fasilə isə 5-10 dəqiqə ərzində müəyyən olunmuşdur. Təhsilalanların səriştələrinin qiymətləndirilməsi üzrə istehsalat təlimi zamanı isə birinci il 50 dəqiqə, daha sonralar, 2-ci və 3-cü illər zamanı isə 1 saat 50 dəqiqə olmaqla təşkil olunur. Peşə təhsili müəssisələrinə dair qaydalarda göstərilmişdir ki, şagirdlərin tədris zamanı dərslə əlaqəli olmayan işlərə cəlb olunması qəti qadağandır. Peşə məktəbi və liseylərində şagird sayı bu və ya digər peşədən asılı olaraq

ortalama 15 nəfər nəzərdə tutulmuşdur. Tədris zamanı qrupların 2 yerə ayrılması da müvafiq qaydalara uyğun şəkildə tənzimlənir. Nümunə olaraq xarici dil və Azərbaycan dili dərslərində, xüsusən istehsalat təlimi zamanı şagirdlər 2 qrup şəklində ayrılır.

Peşə təhsili müəssisələrində təlimin təşkili zamanı qiymətləndirmə şagirdlərin tədris proqramlarını nə dərəcədə və hansı səviyyədə mənimsəmələrindən asılı olaraq 9 ballıq sistem ilə qiymətləndirilir. Qiymətləndirilmə prosesi isə yarım illər üzrə aparılır və ilin sonunda şagirdlərin nəticələri üzrə yekun qiymət çıxarılır. Peşə təhsilində ixtisaslar üzrə buraxılış imtahanları keçirilir. Peşə məktəbi və liseylərində təhsil proqramlarının mənimsənilməsi üzrə səviyyə müvafiq şəkildə Əsasnamə əsasında attestasiyanın keçirilməsi ilə yekunlaşır. Təhsilalanların attestasiya forması, qaydaları, o cümlədən attestasiyanın keçirilmə müddəti məsələləri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən xüsusi normativ sənədlərlə müəyyən edilir. Peşə təhsili üzrə şagird və məzunlara dərəcələrin verilməsinə dair qaydalar isə Elm və Təhsil Nazirliyi tərəfindən qəbul edilmiş normativ sənədlərə əsasən icra edilir. Əgər şagirdlərdən hər hansısa biri xəstəliyə yoluxubsa tibbi komissiyanın rəyi əsasında imtahandan azad oluna bilirlər. İmtahandan azad etmək hüququ verən xəstəliklərin siyahısı isə Elm və Təhsil Nazirliyi və Səhiyyə Nazirliyinin birgə qərarı əsasında müəyyən olunur.

Müxtəlif ixtisaslar üzrə təhsil alanlar proqram üzrə dövlət attestasiyası imtahanı verirlər. İmtahanlara yalnız təlim kursunu nəzəri və praktiki cəhətdən dərindən mənimsəmiş, cari attestasiyanı müvəffəqiyyətlə başa vuraraq yekun qiymət alan şagirdlər buraxılır. Elm və Təhsil Nazirliyinin müəyyənləşdirdiyi qərara əsasən attestasiyanın keçirilməsi məcburi hesab olunur, onun hazırlığına 4 həftə zaman ayrılır. Yekun attestasiya zamanı peşə təhsili üzrə təhsilalanlar dövlət imtahanı verə və ya buraxılış işi üzrə müdafiədə iştirak edə bilərlər. Peşə təhsili müəssisələrində təhsil proqramları üzrə kreditlər ayrılmışdır ki, həmin kreditləri tam şəkildə toplayan şagird proqramı tam mənimsəmiş hesab olunur.

**Ədəbiyyat**

1.Ağayev, Ş, O., Məmmədova, S.H. (2010). Peşə təhsili müəssisələrində təlimin təşkilinin didaktik məsələləri
2.Qafarov, Q.A (2020) Peşə təhsilində düzgün gəlim strategiyasının müəyyənləşdirilməsi: anlayış xəritələrinin tətbiqi
3.Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı
4“Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanunu
5.Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu

## PEŞƏ-İXTİSAS TƏHSİLİ ÜZRƏ MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

**Mikayılova Nəzrin Nazim qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan Respublikası müstəqillik əldə etdiyi dövrün əvvəllərində bir çox sahələr kimi peşə təhsilində də çətinliklərlə üzləşmişdir. Nazirlər Kabineti tərəfindən 23 avqust 1996-cı ildə ölkədə “peşə təhsilinin təkmilləşdirilməsi istiqamətində tədbirlərə dair” qərar qəbul edilmişdir. Bu qərara əsasən peşə təhsili üzrə fəaliyyət göstərən müəssisələrə peşə məktəbi statusu verilərək və peşələrin yer aldığı siyahı tərtib olunmuş, müasir tələblərə cavab verməyən müəssisələr isə ləğv edilmişdir. Müasir dövr, 21-ci əsr cəmiyyətə nəzəri və praktiki cəhətdən yüksək bacarıqlara sahib olan ixtisaslı kadrlar yetişdirilməsini, təhsil sistemində düzgün idarə etmə sisteminin qurulmasını , inkişaf etdirilməsini tələb edir. Ölkəmizdə peşə təhsili uzun və tarixi yol qət etmişdir. Xüsusən də bu yol ümumilli lider Heydər Əliyevin rəhbərlik dövründə daha da inkişaf etmişdir. Heydər Əliyevin rəhbərliyi ilə ölkədə 100-dən çox peşə təhsil müəssisəsi istifadəyə verilmiş və burada 109 min şagirdin təhsil almasına şərait yaradılmışdır. Respublikamızda kadrların peşəyönümündə hazırlanması və onların

biliyinin qiymətləndirilməsi milli tələblərə nəzərən həyata keçirilir. Hər bir ölkənin inkişafı onun yüksək elmə, biliyə , texnologiyaya hansı səviyyədə yiyələnməsindən olduqca asılıdır.

Ölkəmizdə peşə-ixtisas təhsili üzrə ən ciddi problemlərdən biri maddi-texniki baza, onun tələblərə cavab verməməsi və ya tədris avadanlıqlarının yararsızlığı, təhsilalanların zəruri bilik və bacarıqlara malik olmaması ilə əlaqədardır. Peşə təhsilinə ayrılan büdcə təhsilə ayrılan ümumi xərclərin 3 faizini əhatə edir ki, bu da başlıca problemlərdən biri hesab olunur. Peşə-təhsili müəssisələrində fəaliyyət göstərən müəllimlərin aylıq məvacibinin aşağı olması 20 il ərzində müəllim sayında 2 dəfə azalmaya gətirib çıxarmışdır. Onların içərisində kişi müəllimlərin sayı xüsusən azdır. Məvacibin artırılması həm də regionlarda məşğulluğun təmin olunması cəhətdən də vacibdir.

Avropada peşə məktəbləri iqtisadiyyatda əsas güc rolunu oynayır. Bu səbəbdən qərb ölkələri peşə məktəblərinin inkişafı üçün hərtərəfli şərait yaradırlar. Avropa ölkələrində yeniyetmələrin 25 faizə qədəri peşə təhsilinə yönəlir ki, ölkəmizdə bu göstərici 10 faizdən də azdır. Bu faizin də əksəriyyəti məktəbdən kənarlaşdırılan və ya attestat almağa məcbur qalıb peşə məktəbini seçənlərdir. Hal-hazırda statistik göstəricilərə əsasən ölkədə peşə-ixtisas təhsili müəssisələrində 126 peşə istiqamətində 23.875 şagird təhsil alır. Faktlar göstərir ki, ölkəmizdə peşə təhsili müəssisələrinə məktəbi bitirənlərin yanlızca 7-8%-i üz tutur. Qərb ölkələrində isə bu rəqəm 3 qata bərabərdir. Əsas mənfi hallardan da biri odur ki, 9-cu sinifi bitirib məktəbdən ayrılan şagirdlərin böyük bir qismi peşə təhsilinə cəlb edilmir.

Peşə-ixtisas təhsili müasir tələblər və əmək bazarının tələbatlarına uyğun olaraq ümumi orta və tam orta təhsil bazası üzrə müxtəlif peşələr istiqamətində kadrların hazırlanmasını həyata keçirir. O həm də peşə-ixtisas təhsili müəssisələrində, müxtəlif hökumət və qeyri-hökumət təşkilatlarının bazasında həyata keçirilir. Təhsil müəssisələrində peşə-ixtisas təhsili proqramlar əsasında tətbiq olunur. Peşə-ixtisas təhsili müəssisələrinin orta təhsil bazası üzrə təhsil almaq imkanı əldə edən şəxslər həm də tam orta təhsil almaq hüququna sahibdirlər. Burada orta ixtisas təhsili dedikdə isə dövrün tələblərinə uyğun olaraq ümumi və tam orta təhsil müəssisələrində müxtəlif sahələr üzrə mütəxəssis hazırlayan müəssisələr nəzərdə tutulur.

Texnologiya və elmin sürətlə inkişaf etdiyi bir dövrdəyik. Belə bir zaman kəsiyində gəncləri əmək fəaliyyətinə cəlb etmək məqsədilə onların peşə hazırlığı səviyyələri hər şeydən öncə peşə-ixtisas müəssisələrinin necə təşkil edilməsindən asılıdır. Peşə təmayülü istiqamətində elə tədbirlər həyata keçirmək lazımdır ki, hər bir təhsilalanda peşəyə maraq və təsəvvüründə möhkəm həvəs formalaşmış olsun. Bu gün ölkəmizdə peşə-ixtisas təhsili müəssisələri kadrlar hazırlamaqla icbari orta təhsilin müvəffəqiyyətli şəkildə yerinə yetirilməsində xüsusi rol oynayır. Ölkəmizdə müəyyən statistik göstəricilərə nəzər saldıqda görə bilərik ki, təhsilalan şəxslərin böyük bir əksəriyyət peşə seçimi zamanı təsadüfi amillər üstünlük təşkil edir. Onların əksəriyyətində seçim zamanı görəcəkləri işə, əldə edəcəkləri nəticəyə dair təsəvvürlər zəif olur. Bütün bunlar isə nəticə etibarı ilə gəncdə həmin peşəni seçdiyinə görə peşmançılıq və məyusluq hissi yaradır və peşə-ixtisası sahəsində , işçi sektorunda çatışmazlıqların yaranmasına gətirib çıxarır. Digər bir tərəfdən bu gün ümumitəhsil məktəblərinin özündə belə şagirdlərdə peşəyə marağın formalaşdırılması üçün tədbirlər görülmür və yaxud zəif görülür. Bu marağın yaradılmasında peşə-ixtisas təhsili müəssisələri ilə ümumitəhsil müəssisələrinin bir-biri ilə qarşılıqlı əlaqəsi də mühüm şərtlərdən biridir. Peşə təmayülü üzrə göstərilən xidmətlər elə bir istiqamətə yönəlməlidir ki, sonda yaradılan şərait nəticəsində təhsilalanların peşəyə saldığı maraq daha da möhkəmləndirilmiş olsun.

Müstəqil respublikamızda təhsil müəssisələrində keyfiyyət istiqamətində bir çox uğurların əldə olunmasına baxmayaraq təhsildə əsas məqsədi olan yeniyetmə və gənclərin peşəyə yiyələnmək istəyir ilə ona nail imkanları arasında mövcud olan fərqlər daha da genişlənmişdir. 2011-2014-cü illərdə müqayisədə 2018-ci ildə aparılan monitorinqlər nəticəsində peşə təhsili müəssisələrinin plan yerlərinin dolma faizi 42.8%-dən 40.5%-ə

enmişdir. Qeyd edilənlərdən də savayı təhsilalanların peşə-ixtisas biliyinə yiyələnməsində böyük rol sahibi olan müəssisələrin rolu da gözlə görünəcək səviyyədə aşağı enmişdir. Bütün bu göstəricilər onu deməyə imkan verir ki, 15 və yuxarı yaşda olan əhali arasında peşəyə yiyələnmə faizi kəskin bir şəkildə azalmış, peşə təhsili olmayanların çəkisi isə xeyli artmışdır. Günümüzdə təhsilalanların peşə sahələrinə dair bilik, bacarıqlarının formalaşdırılması və onları praktiki qabiliyyətlərə yiyələnmələrinə şərait yaradılması məqsədilə 3 istiqamətdə tədbirlər həyata keçirilməsi labüd hesab edilir :

1. Şagirdlərin hər hansısa peşəyə dair maraqlarının formalaşdırılması ;
2. Onların əmək fəaliyyəti ilə dərindən tanış edilməsi ;
3. Təhsilalanın fərdi, psixoloji xüsusiyyətlərinin aşkar edilməsi və potensialını ortaya çıxarmaq.

Tədqiqatlar göstərir ki, 9-11-ci siniflərdə təhsil alanların əksəriyyəti məzun olduqda heç bir məlumata sahib olmadan peşə seçimi etməyə cəhd göstərirlər. Təhsilalanlarda peşəyə dair biliklərin formalaşdırılması məqsədilə ilk növbədə seminarlar təşkil edilməlidir, onlarla söhbətlər aparılmalıdır. Bu tədbirlər şagirdlərin gələcək peşə seçimi haqqında məlumata, dünyagörüşünə sahib olmalarına, müxtəlif peşələrin vəzifə və tələbləri ilə yaxından tanış olmalarına şərait yaradır. Əlavə olaraq şəxsin özünü inkişaf etdirməsinə təsir göstərir. Təhsilalanın peşə seçimi olduqca mürəkkəb bir proses hesab olunur. Bu prosesdə aşağıdakı amillər özünü göstərir:

1. Təhsilalanların peşə seçiminə dair təsəvvürlərinin məhdudluğu ;
2. Peşə seçimi zamanı ailə tərəfindən göstərilən təzyiqlər ;
3. Peşə seçimi zamanı təhsilalanların psixoloji və fiziki cəhətdən hazırlığı ;
4. Dövrün inkişaf tələbləri.

Yeniyetmə və gənclərin peşə seçimindəki çətinliklərin əksəriyyəti sosial-psixoloji , iqtisadi, iş tapmaqla bağlı çətinliklərlə də əlaqəlidir. Əhali arasında yaş qrupları cəhətdən gənclərin çəkisinin də artması bu problemi biraz da qəliz edir. Rəqabətin yüksək olduğu dövr də bu problemi daha da artırır. Bu problemin həlli istiqamətində atılmalı addımlardan biri peşə yaxud məşğulluq növlərinin azad şəkildə seçilməsinə şərait yaratmaqdır. Bir çox araşdırmalara istinadən demək olar ki, təhsilalanların peşə seçimi zamanı subyektiv amillərə də rast gəlinir. Nəticə olaraq bu onu göstərir ki, peşə seçimində həm də həyat şəraiti, sosialoji amillərin də rolu qaçılmazdır. Burada həm də şəxsin gələcək hədəfləri, psixoloji xüsusiyyətləri də əhəmiyyətli şəkildə yer tutur. Ancaq hər şeydən əvvəl əsas məsələdə təhsilalanlarda peşə-ixtisas sahələrinə fəal münasibət və maraq formalaşdırmaqdır. Hərçənd ki, bir sıra sosial amillər buna imkan vermir. Peşə-ixtisası üzrə hədəflərin müəyyən edilməsində cinsiyyət kimi əsaslar da rola sahibdir. Bəzi sosioloji tətqiqatlar göstərir ki, hər hansısa peşə sahəsi qızlar üçün maraqlı olduğu halda, oğlan cinsinin nümayəndələri üçün əksinə ola bilər. Ancaq şübhəsiz ki, elə peşələr də vardır ki, onlar hər iki cinsdən olan təhsilalanlar üçün əhəmiyyətli dərəcədə maraqlıdır.

Hazırki dövrdə peşə-ixtisas təhsili müəssisələrində qiymətləndirmə və kadr hazırlığı kimi məsələlər aparılarkən əmək bazarının tələbatları diqqətə alınmalıdır. Burada yenidənhazırlıq da vacibdir. O cümlədən əlavə etmək olar ki, kadr hazırlığına dair görülən tədbirlər çevik xarakter daşımalıdır. Nəhayət görülən tədbirlər zamanı maliyyələşdirilmə məsələsi dəqiq müəyyən edilməli və yerinə yetirilməlidir.

Günümüzdə təhsilalanlar yetkinlik və ya məsuliyyətli yaş həddinə çatdıqda tədricən peşə ixtisasını daha dərindən və ciddi şəkildə düşünməyə başlayırlar. Ölkəmizin bu və ya digər sahəsindəki nailiyyətləri bir daha onu göstərir ki, yeniyetmə və gənclərimizin bütün sahələrdə peşəkarcasına formalaşmasını təmin etmək lazımdır. Hər bir insanın müasir dövrün tələbləri ilə ayaqlaşması üçün peşəyə yiyələnməsi , ixtisas sahibi olması vacibdir. Bu gün ölkəmizdə peşə-ixtisas təhsilinə yiyələnən şəxslərin sayında azalma müşahidə olunur ki, bunun əsas səbəblərindən biri də təhsildə ödənişin artmasıdır. Bu gün dövlət nəznində olan peşə-ixtisas təhsili müəssisələrində təhsil alanların 40%-dən çoxu ödənişli əsaslarla biliyə

yiyələnir. Ölkə vətəndaşlarının peşə imkanlarından səmərəli və geniş istifadə etmələrinə şərait yaratmaq üçün bir neçə alternativ yollardan istifadə edilə bilər:

1. Peşə təhsili üzrə kadr rolunun artırılması ;
2. Peşəyönümü üzrə fəaliyyət göstərən müəssisələrin inkişaf etdirilməsi ;
3. Təhsilalanların peşə ixtisas təhsili ilə tam şəkildə əhatə edilməsinin təşkili.

Bu gün aparılan araşdırmalardan məlum olur ki, gənclərimiz arasında işsizlik problemi ilə üzləşənlərin sayı normadan artıqdır. Bu da təhsildə gənclərin əyani təhsilə üstünlük verməməsinə gətirib çıxarır. Hazırda peşə-ixtisas təhsilində əsas məqsəd ilk öncə əhali arasında əmək potensialını normallaşdırmaqdır. Günümüzdə kənd və şəhərlərdə peşə-ixtisas təhsili ilə məşğul olan gənclərin əksəriyyətini yaşlı gənclərimiz təşkil edir ki, bu da həmin yaş qrupuna məxsus gənclərin zaman etibarı ilə peşə sahəsinə yiyələnmələri üçün daha çox imkan sahibi olması ilə izah olunur.

Müstəqil Azərbaycan Respublikasında peşə təhsilinin hüquqi bazasının möhkəmləndirilməsi və müasir tələblərə cavab verəcək şəkildə təşkil edilməsi məqsədilə işlər görülür, mühüm addımlar atılır. Bu addımlardan biri da Azerbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilən qərar ilə əksini tapmış "İlk peşə-ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı"dır. Bundan savayı peşə-ixtisas təhsili istiqamətində Təhsil Problemləri İnstitutunun nəznində peşə təhsilinə dair mərkəz fəaliyyətə başlamışdır. Bu addımlar ölkəmizdə Təhsil Nazirliyinin təhsilə ayırdığı diqqət və qayğıdan xəbər verir. Nazirlik bir neçə şirkətlə birgə layihələr də həyata keçirmişdir. Müasir dövrümüzdə təhsilalanlarda peşəyə marağın formalaşdırılmasında ümumitəhsil məktəblərinin rolu böyükdür. Məktəblərdə yuxarı sinifdə oxuyan şagirdlərə "gələcəkdə hansı peşəyə sahib olmaq istərdin" mövzusunda inşalar yazdırılmalıdır. Bu onlarda hər hansısa peşəyə dair təsəvvürlər yaradır. Əlavə olaraq onlara arzusunda olduqları peşə haqqında ədəbiyyatlardan da istifadə edərək referat yazmalarını tapşırmaq olar.

Bir sıra məktəblər vardır ki, onlarda hər il peşələrə dair sərgilər təşkil edilir, şagirdlərin biliyi genişləndirilir. Ancaq bunlara baxmayaraq görülən tədbirləri tam qənaətbəxş hesab etmək olmaz və burada təşkili məsələlər baxımdan xeyli çatışmazlıqlara rast gəlinir. Bir sıra peşə-ixtisas təhsil müəssisələrində müasir günün tələbləri nəzərə alınmadan sıradan çıxmış avadanlıqlardan istifadə həyata keçirilir. Peşə təhsili müəssisələrinin maddi-texniki bazasının yeniləşdirilməsinə , texnoloji cəhətdən kompüterləşdirilməsinə şərait yaradılmalıdır. Nəticədə müasir avadanlıqlarla təmin edilmə təlimdə tədris bazasının təkmilləşməsinə, ixtisaslı kadrların hazırlanmasına şərait yaradacaqdır. Yuxarıda qeyd etdiyimiz kimi bu gün peşə-ixtisas təhsil muəssisələri dövrün tələbləri istiqamətində ixtisaslar üzrə peşəkar kadrlar hazırlamaq iqtidarına tam malik deyildir. Bunun bir tərəfdən səbəbi müəssisələrdə maddi texniki bazanın keyfiyyətcə yüksək olmamasıdırsa , digər səbəbi təhsilalanlara peşə üzrə biliklər, bacarıqlar aşılayacaq ixtisaslı müəllimlərin çatışmamasıdır.

**Ədəbiyyat**


1.Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi
2.Azərbaycan Respublikasının Konstitusiyası – Bakı 1995
3. T.Ə.Quliyev-Insan resurslarının idarəedilməsi – Bakı –2016
4. T.Ə.Quliyev-Menecmentin (idarəetmənin) əsasları – Bakı –2001
5. T.Ə.Quliyev-Əməyin sosiologiyası – Bakı –1998
6. V.İ.Ismayılov. Əməyin elmi təşkili – Bakı -2003
7. A.B.Məmmədov – Elmi-texniki tərəqqi, əməyin təşkili və normallaşırdırılması
8. İlyasov M. Peşəyönümünün əsasları. Dərs vəsaiti. Bakı: Mütərcim, 2011
9. Qaralov Z, Hüseynov Ə. Bütün peşələr yaxşıdır, istədiyini seçə bilərsən. Bakı : Maarif,1979
10. Axundov S. Mənəvi tərbiyə və peşə oriyentasiyası. Bakı: Gənclik, 1980

## XÜLASƏ

Müasir dövrdə ölkəmizdə peşə-ixtisas təhsilinin inkişaf etdirilməsi və əmək bazarının tələblərinə uyğun şəkildə kadrların hazırlanması məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Respublikamızda peşə-ixtisas təhsilinin inkişaf yolu və tarixinin öyrənilməsi onu göstərir ki, öyrənilənlər ölkənin bütün sahələrində kadrlara olan tələbatın ödənilməsində əsas rola sahibdir. Təcrübələrə əsasən onu deyə bilərik ki, peşə-ixtisas təhsili sistem olaraq bütövlükdə ümumi təhsilin əsas istiqamətlərindən biri kimi ölkənin iqtisadi və sosial həyatında insanların iştirakını, onların cəmiyyətə təsirini və imkanlarının genişləndirilməsini təmin edir. Müstəqilliyin əldə olunduğu ilk dövrlərdə peşə təhsilinə maraq normadan aşağı olmuşdur. Ancaq bunlara baxmayaraq ölkəmizin sürətlə inkişafı, ümumilli lider Heydər Əliyev tərəfindən görülən tədbirlər bu sahəyə marağın artmasına səbəb oldu. Peşə-ixtisas təhsili istiqamətində qəbul edilmiş dövlət proqramı və digər inkişafa xidmət edən proqramlar bu sahənin inkişafına daha da təkan verdi. Müasir dövrdə də peşə-ixtisas təhsilinin inkişaf etdirilərək, şəbəkəsinin formalaşdırılması, o cümlədən yüksək ixtisaslı kadrların hazırlanması məqsədilə mühüm işlər həyata keçirilmişdir.



***Açar sözlər:*** *Peşə təhsili, təhlilin aparılması, müqayisə, texnoloji yeniliklər, inkişaf*



## РЕЗЮМЕ

В современное время в нашей стране реализован ряд мер с целью развития профессионального образования и подготовки кадров в соответствии с требованиями рынка труда. Изучение пути развития и истории профессионально-специального образования в нашей республике показывает, что изучаемое играет ключевую роль в удовлетворении потребности в кадрах во всех сферах страны. На основе опыта можно сказать, что профессиональное образование как система как одно из основных направлений общего образования обеспечивает участие людей в экономической и социальной жизни страны, их влияние на общество и расширение возможностей. В первые периоды независимости интерес к профессиональному образованию был ниже нормы. Однако, несмотря на это, стремительное развитие нашей страны и меры, предпринятые общенациональным лидером Гейдаром Алиевым, привели к росту интереса к этой сфере. Принятая Государственная программа по направлению профессионального образования и другие программы развития дали дополнительный импульс развитию этой сферы. В современную эпоху проведены важные работы в целях развития профессионально-специального образования и формирования его сети, в том числе по подготовке высококвалифицированных кадров.



***Ключевые слова:*** *Профессиональное образование, анализ, сравнение, технологические инновации, развитие.*



## SUMMARY

In modern times, a number of measures have been implemented in our country for the purpose of developing vocational education and preparing personnel in accordance with the requirements of the labor market. Studying the development path and history of vocational-specialized education in our republic shows that what is learned has a key role in meeting the demand for personnel in all fields of the country. Based on experience, we can say that vocational education as a system as one of the main directions of general education ensures the participation of people in the economic and social life of the country, their influence on society and expansion of opportunities. In the first periods of independence, interest in vocational education was below the norm. However, despite this, the rapid development of our country and the measures taken by the national leader Heydar Aliyev led to an increase in interest in this field. The state program adopted in the direction of vocational education and other development programs gave further impetus to the development of this field. In the modern era, important works have been carried out for the purpose of developing

professional-specialized education and forming its network, including the training of highly qualified personnel.

***Keywords:*** *Vocational education, analysis, comparison, technological innovations, development*

## TƏHSİL SİSTEMİNİN İDARƏ EDİLMƏSİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASINDA METODİKİ XİDMƏTİN TƏŞKİLİNİN PEDAQOJİ ASPEKTLƏRİ

**Mikayılzadə Ayəni-Zəhra Nazim qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir dövrdə metodik xidmət təhsil sisteminin kadr siyasətinin ən mühüm tərkib hissələrindən biridir.Bu baxımdan,Azərbaycanda müəllimlərin peşəkar fəaliyyətinə dəstək verən bu ictimai quruluşun yaranma tarixinə qısa bir ekskursiya etmək vacibdir.Azərbaycan Rusiya İmperiyasının bir hissəsi olduğu dövrlərdə təhsil sahəsində metodiki işin təşkili mühüm məsələlərdən biri idi. Bu dövrlərdə təhsil sistemi Rusiya İmperiyasının təhsil siyasəti və tədqiqatları ilə tənzimlənmişdi. İmperiyaya aid ərazilərdə təhsil sahəsində metodik işin təşkili Rusiya İmperiya Təhsil Nazirliyi və məktəb idarəçilik orqanları tərəfindən həyata keçirilirdi. XIX əsrin 60-70-ci illərində baş verən yeni sosial-iqtisadi münasibətlər zəminində həyata keçirilən müxtəlif islahatlar təhsil sistemində köklü dəyişikliklərə gətirib çıxardı.

1920-ci ilin sentyabrında, Azərbaycan Xalq Komissarlar Soveti Nazirlər Şurasının "Azərbaycan Məktəbi və Xalq Təhsil Komissarlığı İdarə Heyətinin işləri barədə əsas qərarlar" qərarını qəbul etdi. Bu qərarda, təhsil işlərinin yerinə yetirilməsi, təhsil proqramlarının tərtib edilməsi və təlim metodikasının təşkili ilə bağlı müəyyən tədbirlər əhatə olunurdu.Tarixi baxımdan, 19-cu əsrin ortalarına və sonlarına doğru təhsil sistemi əvvəlki dövrə nisbətən daha çox cəmiyyətə müraciət edən və ictimai tələbatları qarşılayan bir mərhələyə çatmışdır.Nəzəri mənbələrin təhlili göstərir ki.metodiki xidmətin inkişaf etdirilməsi problem tarixi-pedaqoji aspektə malikdir.Müasir məktəb vəzifəsi yalnız bilikləri çatdırmaq, müstəqil öyrənən "ağıllı adamlar" yetişdirmək deyil, həm də onlara mənəvi və ictimai dəyərləri aşılamaq, onların şürunu həqiqəti dərk etmək, demokratik dəyərlərin mənimsənilməsinə yönəltməkdir. Başqa sözlə, Təhsil Qanununda deyildiyi kimi təhsilin təşkili : " Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edir, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəhsiyyət yetişdirmək"dir.

Azərbaycanda pedaqoji prosesin formalaşmasında formalizasiya dövrü əsasən Sovet dövrünə, xüsusilə də SSRİ dövrünə daxil edilir. Bu dövrdə, təhsil sistemi tənzimlənməyə başlandı və standartlaşdırıldı, məktəblər, kolleclər, universitetlər və digər təhsil müəssisələri açıldı, tədris metodları standartlaşdırıldı.1993-cü ildə ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdı və təhsil sahəsində müxtəlif islahatlar keçirilməsi istiqamətində mühüm addımlar atdı. Bu ehtiyacı böyük uzaqgörənliklə duyan Heydər Əliyev 1998-ci ildə ölkəmizdə təhsil sistemində islahatlar aparılmasına dair xüsusi sərəncam qəbul edildi və 1999-cu il iyunun 15-də Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı ölkə başçısı tərəfindən imzalandı.Bu islahata uyğun olaraq tədris müəssisələrində metodiki xidmətin fəaliyyəti müəllim hazırlığının müasir tələblər səviyyəsində yenidən qurulması, ümumi təhsilin məzmunun yeniləşdirilməsi, dərsliklərin təkmilləşdirilməsi, təhsil sistemində elmin, eləcə də elmi tədqiqatların inkişaf etdirilməsi, tədris prosesində informasiya və kommunikasiya texnologiyalarından geniş istifadəyə doğru yönəldi.

2009-cü il 14 dekabr tarixində Təhsil Nazirliyində təhsil müəssisələrində metodik işin təkmilləşdirilməsinə həsr olunmuş müşavirə keçirildi. Müşavirədə müzakirə olunan məsələ ilə bağlı geniş fikir mübadiləsi aparıldı,çıxış edənlər bu sahədə qarşıda duran problemlərin həlli yollarını araşdırdılar və bacarıqlı müəllimlərin aşkarlanması, maddi-texniki bazanın

gücləndirilməsi, informasiya-kommunikasiya texnologiyalarından geniş istifadənin vacibliyi, ölkədə fəaliyyət göstərən türk liseylərinin təcrübəsinin öyrənilməsi, metodistlərin təhsil müəssisələrində fəaliyyətinin təmin edilməsi və s. ilə bağlı təkliflərini səsləndirdilər. Daha sonra 2013-cü il 24 oktyabrda "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" qəbul edildi.İkinci strateji istiqamət təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutardu.

Təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin etmək, səriştəli təhsilverənin formalaşdırmaq və təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasınıa istiqamətlənirdi. 2017-2018-ci ilin "Təhsildə keyfiyyət ili" elan edilməsi ümumtəhsil məktəblərində metodiki xidmətin təkmilləşdirilməsinə təsir göstərdi.

Ənənəvi təlimin üstünlük təşkil etdiyi əvvəlki illərdə təhsilverənlərin tədris etdikləri fənnin məzmununu yaxşı bilməsi kifayət edirdi. Bu istiqamətdə medodik xidmət təhsilverənlərin səriştəliliyinin artırılmasını, qabaqcıl pedaqoji təcrübəyə qısa müddətdə yiyələnməsini sürətləndirir, eləcə də, yaradıcı fəaliyyətə motivasiya edir. Müasir dövrümüzdə metodiki işin təşkili forması 2 yerə bölünür;fərdi iş və kollektiv iş forması. Elmi və praktiki konfranslar ,yaradıcı müəllim qrupları, məktəbdaxili metodik birliklər, açıq dərslər, təcrübə məktəbləri və s.kollektiv; mentorluq, təcrübəkeçmə, yaradıcı mövzu üzərindəiş fərdi təşkil formasına aiddir. Ümümtəhsil məktəblərində metodiki xidmət tərəfindən "metodoloji protfel"inin işlənib hazırlanması müəllimə il ərzində öz metodik işini sistemləşdirməyə, ən uğurlu metodik texnikaları seçməyə və onları metodik işlənmələr şəklində ümumiləşdirməyə imkan verir. Həmçinin,Təhsildə "Milli Kurikulum" konsepsiya sənədinin qəbulu müəllimlərin metodiki yöndə inkişafına böyük təsir göstərdi.

Bu gün müəllimlərin yaradıcılıq fəaliyyətinin artırılması müəllimlərlə işin qeyri-ənənəvi, interaktiv metod və formaları vasitəsilə mümkündür. İnteraktiv təlimdə qarşılıqlı əlaqə prosesi elə təşkil olunur ki, demək olar ki, bütün iştirakçılar idrak və müzakirə prosesinə cəlb olunurlar. Dialoq zamanı müəllimlər eşitdikləri məlumatların və şəraitin təhlili əsasında tənqidi düşünmək, əsaslandırmaq və mübahisəli problemləri həll etmək bacarıqlarını inkişaf etdirirlər. Müəllimlər alternativ fikirləri ölçməyi, düşünülmüş qərarlar qəbul etməyi, fikirlərini düzgün ifadə etməyi, müzakirələrdə iştirak etməyi, həmkarları ilə peşəkar ünsiyyət qurmağı öyrənirlər. unun üçün peşə birliklərinin siniflərində müxtəlif formalar təşkil olunur - fərdi, altqrup, qoşa, rollu oyunlardan istifadə olunur. Qrup qarşılıqlı əlaqəsinin ən sadə forması "böyük dairə"dir. İş üç mərhələdə aparılır.Birinci mərhələ - Problemi lider yaradır. müəyyən bir müddət üçün hər bir iştirakçı fərdi olaraq problemin həllinə təklif olunan tədbirləri öz vərəqinə yazır. Yol boyu hər bir bənd üzrə səsvermə aparılır - ümumi qərara daxil edilib-edilməməsi söhbətin gedişində lövhədə qeyd olunur.

Digər bir forma "İşgüzar oyun"dur. Bu o zaman təsirli olur ki, müəllimlər oyunda əks olunan problem haqqında kifayət qədər biliyə malik olsunlar. İşgüzar oyunu təşkil edərkən və keçirərkən oyun rəhbərinin rolu fərqlidir - oyundan əvvəl o, təlimatçı, oyun zamanı məsləhətçi, son mərhələdə isə müzakirə rəhbəridir. Onun növlərinə aiddir: təqlid, burada kopyalama aparılır, sonra təhlil aparılır; xüsusi idarəetmə funksiyalarının təkrar istehsal olunduğu idarəedici;elmi-tədqiqat işi ilə bağlı tədqiqatlar, burada konkret sahələr üzrə metodlar oyun forması vasitəsilə öyrənilir;təşkilatçı və aktiv. Bu oyunların iştirakçıları müəyyən bir mövzuda fəaliyyətin erkən naməlum məzmununu simulyasiya edirlər; məşq oyunları,bunlar müəyyən bacarıqları gücləndirən məşqlərdir.Başqa ən geniş istifadə olunan vasitə "Dəyirmi Masa"dır. Dəyirmi masanın aparıcısı öz yerini müəyyən edir ki, bütün iştirakçıları görə bilsin. Burada dəvət olunmuş mütəxəssislər, idarə və s. də ola bilər.İş zamanı problemin hər bir məsələsi ayrıca müzakirə olunur. Söz problem üzərində işləmək təcrübəsi olan müəllimlərə verilir. Təqdimatçı hər bir məsələnin müzakirəsinin nəticələrini ümumiləşdirir. Sonda iradları, əlavələri və düzəlişləri nəzərə alaraq ümumi mövqenin

variantını təklif edir.Ümumtəhsil məktəblərində metodik xidmətin təşkilində istifadə olunan bəzi müasir texnikalar mövcuddur.Bunlar: "Mozaika" texnikası, “Genişləndirilmiş konfrans” metodologiyası, Cütlənmiş və ya inteqrasiya olunmuş dərs", " Akvarium" və s.dir.

Ədəbiyyat

1.Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası.Azərbaycan məktəbi.2013.№5

2..Əliyeva.S. Məktəbin idarə edilməsinin pedaqoji, psixoloji əsasları,Bakı-2021,276 s

3. Жуковский И. Методическая служба: структура и технология управления // Директор школы, 2000. №1. С. 97-117.

## MÜƏLLİM ƏMƏYİNİN STİMULLAŞDIRILMASI – MOTİVASİYA VASİTƏSİ KİMİ

**Muxtarlı Nərgiz Oqtay qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müəllimlik sadəcə bir peşə deyil; bu, pedaqoji duyum, fədakarlıq və şagirdlərin həyatında dəyişiklik etmək üçün həqiqi arzu ilə idarə olunan bir peşədir. Müəllim öyrədən, yol göstərən olmaqla yanaşı , həm də təlimə maraq oyadan bir motivatordur. Bu funksiyanı yerinə yetirmək üçün onun özünün də güclü motivasiyası olmalıdır. Müəllimlərin motivasiyasına müxtəlif amillər təsir etsə də, mühüm aspektlərdən biri onların əməyinin, iş mühitinin stimullaşdırılmasıdır.

Bir sıra inkişaf etmiş ölkələrdə müəllimlərin əməyi davamlı olaraq və müxtəlif vasitələrlə stimullaşdırılır. Müəllimlərin stimullaşdırılması aşağıda sadalanan səbəblərdən dolayı vacibdir:

- Tədrisin keyfiyyəti üçün;
- Müəllimlərin öz işlərindən məmnun olmaları üçün;
- Onların öz pedaqoji fəaliyyətini uzun müddət davam etdirmələri üçün;
- Təhsildə innovasiyaların tətbiqi üçün;
- Məktəbdə sağlam mənəvi-psixoloji mühitin daha səmərəli təşkili üçün.

. Müəllimlərin əməyi davamlı olaraq stimullaşdırılarsa, onlar öz peşələrinə, tədris etdikləri fənlərinə daha ciddi yanaşmış olacaqlar. Öz fənlərini və dərslərini davamlı olaraq yeni informasiya və mənbələrlə zənginləşdirəcəklər. Bu stimullaşdırma tədbirləri onları məktəb mühitində daha məmnun və xoşbəxt etmiş olacaq. Stimullaşdırmanın məntiqi nəticəsi kimi məktəblərdə olan iş mühiti və ümumiyyətlə, ölkədə olan təhsil mədəniyyəti daha müsbət məcralara gəlib çıxacaq. Bu məmnunluq həm də müəllimlər arasında yerdəyişmələrin və işdən çıxmaların sayını azaldacaq. Motivasiyalı müəllimlər hər zaman innovativ alətlərdən, inkişaf etmiş digər ölkələrin təhsil sistemlərində istifadə olunan rəqəmsal tətbiqlərdən öz dərslərində istifadə etməklə tədris prosesini daha maraqlı etmiş olacaqlar. Bütün yuxarıda sadaladığımız məqamların tətbiqi son nəticədə məktəblərdə təhsil mühitini, ümumilikdə təhsil sistemini inkişaf etdirmiş olacaq.

Müəllimlərin motivasiyalarını müxtəlif vasitələrdən və alətlərdən istifadə etməklə artırmaq olar:

Bu vasitələrdən biri rəqabətli əməkhaqlarının olmasıdır. Daha yüksək maaşlar müəllimlərə öz əməyinə görə dəyərli olduqlarını hiss etməyə imkan verir və maddi sabitliyi təmin edir. Bu vasitədən ən çox istifadə edən ölkələr İsveç, Avstraliya və Finlandiyadır. Bu ölkələrdə müəllimlərin maaşları digər sənət sahələrilə rəqabət apara bilir və bu rəqabətə davamlı əməkhaqları müəllimlərə çox motivasiya verir. Əlavə bonusların verilməsi müəllimlər üçün xüsusi motivasiyadır. Əgər daha aydın izah versək, akademik göstəriciləri yuxarı olan şagirdlərə görə müəllimlərə əlavə bonusların və maddi mükafatların verilməsi onların fəaliyyətlərini çox stimullaşdırmış olacaq.

Digər ən vacib alətlərdən biri müəllimlərin davamlı peşəkar inkişaflarını təmin etməkdir. Davamlı öyrənmə müəllimlərin ən son pedaqoji texnikaları, təhsil texnologiyalarını və innovasiyaları daha peşəkarlıqla tətbiq edə bilməsi üçün vacibdir. Peşəkar inkişaf üçün imkanların yaradılması müəllimləri müasir bilik və bacarıqlarla silahlandıraraq onların işini stimullaşdırır. Bu kimi imkanlara müxtəlif seminarlarda, təhsil tədbirlərində, yerli və beynəlxalq təhsil forumlarında müəllimlərin iştirakını təmin etmək aiddir. Amerika Birləşmiş Ştatları, Çin, Finlandiya kimi inkişaf etmiş ölkələrdə müəllimlərin peşəkar inkişafları ilə bağlı müxtəlif imkanlar davamlı olaraq yaradılır.

Müəllimlərin əməyini stimullaşdırmağın ən təsirli yollarından biri birgə iş mühitinin yaradılmasıdır. Əməkdaşlıq fikir mübadiləsini, yaradıcılığı təşviq edir və müəllimlər arasında problemlərin həlli bacarıqlarını artırır. Rəhbərlər müntəzəm komanda görüşləri, peşəkar inkişaf seminarları və mentorluq proqramları təşkil etməklə əməkdaşlığı asanlaşdıra bilərlər. ABŞ, Böyük Britaniya, Kanada, Avstraliya, Sinqapur, Yeni Zelandiya kimi inkişaf etmiş ölkələrdə ən geniş yayılmış vasitələrdən biri mentorluq proqramlarıdır. Mentorluq proqramları yeni müəllimləri dəstəkləmək və onların peşəkar inkişafını təşviq etmək təşəbbüslərinin bir hissəsi kimi həyata keçirilir. Bu proqramlar tez-tez yeni müəllimləri peşədə ilk illərini idarə etməyə kömək etmək üçün rəhbərlik, dəstək və resurslar təmin edən təcrübəli mentorlarla əlaqələndirir. Müəllimləri birlikdə işləməyə, ən yaxşı təcrübələri bölüşməyə və bir-birini dəstəkləməyə təşviq etməklə, məktəblər peşəkar inkişafı və motivasiyanı stimullaşdıran dinamik atmosfer yaradır. Bu kimi alətlərdən istifadə həmin ölkələrin təhsil mühitlərinə çox müsbət təsir göstərir.

Nailiyyətlərin tanınması müəllimlər arasında müsbət davranışı və minnətdarlıq hissini gücləndirən güclü motivatordur. İdarəçilər müəllimlərin həm böyük, həm də kiçik nailiyyətlərini etiraf etməklə onların işini stimullaşdıra bilərlər. Bu, mükafatlandırma mərasimləri, işçi görüşləri zamanı ictimai təriflər və ya məktəb xəbər bülletenlərində və ya sosial media platformalarındakı funksiyalar vasitəsilə edilə bilər. Müəllimlərin fədakarlığını, yeniliklərini və tələbələrin həyatına təsirini tanımaq onların mənəviyyatını yüksəltməklə yanaşı, həm də onları mükəmməlliyə can atmağa təşviq edir.

Sağlam iş-həyat balansının qorunması tükənmənin qarşısını almaq və müəllimlər arasında uzunmüddətli motivasiyanı saxlamaq üçün vacibdir. Bundan əlavə, stresin idarə edilməsi, sağlamlıq proqramları və psixi sağlamlıq dəstəyi üçün resursların təmin edilməsi müəllimlərin rifahına sadiqlik nümayiş etdirir, müsbət və stimullaşdırıcı iş mühitini təşviq edir.

Digər tərəfdən müəllimlərə pedaqoji fəaliyyətlərində muxtariyyət vermək və onlara tədris metodları və kurrikuluma dair qərar qəbul etmək səlahiyyətinin verilməsi iş məmnunluğunu və motivasiyasını artıra bilər. Bu, həmçinin müəllimlərin tədris metodlarında yaradıcılıq və innovasiya tətbiq etmələrinə imkan verməklə onların işini stimullaşdırır.

Azərbaycanda da müəllimlərin stimullaşdırılması üçün bir sıra tədbirlər həyata keçirilməkdədir. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda strateji hədəf kimi müəllimin karyera inkişafı və fəaliyyətinin stimullaşdırılması üzrə yeni sistemin yaradılması, müəllim peşəsinin nüfuzunun artırılması hər dövr üçün aktual məsələ kimi qeyd olunub. Strategiyaya müvafiq olaraq müəllim hazırlığı və müəllim əməyinə qiymət verilməsi istiqamətində davamlı kompleks tədbirlər ardıcıl olaraq davam etdirilir.

Bunlardan ən vacibi müəllimlərin sertifikatlaşdırılmasıdır. Sertifikasiya imtahanları nəticəsində yüksək bilik və bacarıqlara, eləcə də müasir təhsil standartlarına cavab verən müəllimlər təhsil sistemimizdə öz əmək fəaliyyətlərini davam etdirəcəklər. Səriştəsiz müəllimlər isə təhsil mühitindən tədricən kənarlaşdırılacaqlar. Sertifikasiya imtahanlarından uğurla keçmiş müəllimlərin maaşlarına əlavələr edilir və onların motivasiyaları artırılmış olur. Motivasiyaedici alətlərdən biri də müəllimlərə güzəştli mənzillərin təqdim olunmasıdır. Daimi əmək müqaviləsi olan müəllimlər dövlətdən sosial mənzilləri almaq hüququna malik olurlar.

Bundan başqa banklarda müəllimlər üçün bir sıra güzəştli kredit layihələri həyata keçirilir. Onlara daha aşağı faizlərlə kreditlər təqdim olunur.

Dövlət müəllimlərin gərgin və gərəkli əməyinin stimullaşdırılmasına diqqət və qayğı ilə yanaşır. Müəllimlərin maaşlarında vaxtaşırı artımlar olur. Onlar orden və medallarla təltif edilir. Dövlətimiz tərəfindən müəllimlər üçün Əməkdar müəllim fəxri adı yaradılmışdır. Hər il bir sıra mötəbər müəllimlər həmin ada layiq görülürlər. Bu adın verilməsi həmin müəllimlərə olan hörmət və ehtiramı artırır və müəllimləri motivasiya edir. Digər tərəfdən, ölkə üzrə stimullaşdırıcı tədbir kimi 2008-ci ildən bəri hər il ənənəyə çevrilmiş "Ən yaxşı ümumtəhsil məktəbi", "Ən yaxşı müəllim" nominasiyaları üzrə müsabiqələr keçirilir. Əlavə olaraq Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsindən də danışmaq olar. Elm və Təhsil Nazirliyi tərəfindən hər il keçirilən bu müsabiqə müəllimlərə imkan verir ki, onlar öz ideyalarını reallaşdıra bilsinlər.

Yekun olaraq qeyd edək ki, müəllimlərin əməyinin stimullaşdırılması onların peşəkar yüksəlişinə, iş məmnunluğuna və pedaqoq kimi ümumi səmərəliliyinə töhfə verən həyati motivasiya vasitəsidir. Müəllimlərin əməyinin stimullaşdırılmasına sərmayə qoymaq təkcə ayrı-ayrı müəllimlər üçün deyil, həm də bütün təhsil ictimaiyyəti üçün faydalıdır.

## VII SİNİF FİZİKA DƏRSLƏRİNDƏ PROBLEM VƏ TƏDQİQAT ƏSASLI TƏLİMİN ƏHƏMİYYƏTİ

**Musayeva Nuranə Abıtalıb qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Şagirdlərdə fizika dərslərində XXI əsr 4K bacarıqlarının (tənqidi təfəkkür ,ünsiyyət ,əməkdaşlıq və yaradıcılıq) formalaşdırılması və praktik qabiliyyətlərinin inkişaf etdirilməsi əsas hədəflərdən biri kimi götürülür. Dünya təhsil sisteminə inteqrasiya, o cümlədən baş verən texnoloji proseslər fizika fənninin tədrisi zamanı diqqətdən kənarda qalmamışdır əksinə fizika dərslərində yeni tədris modellərinin və metodlarının istifadəsi zəruri hesab edilir. Bu modellərdən PƏT(PBL -Problem Based Learning ~Problem əsaslı öyrənmə ) və TƏT (IBL - Inquriy Based Learning ~Tədqiqat Əsaslı Öyrənmə ) köməyimizə çatacaqdır. Problem Əsaslı Öyrənmə (PƏT) və Tədqiqat Əsaslı Öyrənmə (TƏT) hər ikisi tədqiqat vasitəsilə fəal öyrənmə və tənqidi düşüncəni təşviq edən şagird mərkəzli tədris modellərdir. Hər iki üsul şagirdlərə nəzərə alınacaq maraqlı problemlər təklif edir. Tədqiqatlar göstərir ki, həm PƏT, həm də TƏT effektiv öyrənmə modelləridir. Bunları nəzərə alaraq VII sinif fizika dərslərində əsas baza mövzular tədris olunduğundan şagirdlərin onları dərindən və gözəl şəkildə mənimsəməsi çox vacibdir.

Respublikamızda fizika fənninin tədrisi dərsliklərdə iki konsentrik çevrə əsasında qurulmuşdur. Ümumorta( VII-IX) siniflər və tam orta (X-XI) siniflər. Birincisində bütün orta məktəb fizikasının sinif fizika dərslərində şagirdlər ilk dəfə fiziki anlayışlar, kəmiyyətlər, hadisələr, terminlər, düsturlar və s. ilə tanış olurlar .İlkin təməl şagirdlər də nə qədər sağlam qurularsa, tədrisin keyfiyyətidə o qədər yüksək olar. Bu baxımdan yeni təlim metodu ,modeli, üsulu və vasitələrindən geniş istifadə olunmağı məqsədə uyğundur (labüddür). Təcrübələr göstərir ki, yeni biliklərin əldə edilməsi prosesində problem situasiyasının yaradılması və tədqiqat sualının verilməsi uyğun və effektivdir. Bu təlim modellərinin VII sinif fizika dərslərində istifadəsi zəruri hesab edilir. Şagirdlərdə yeni materialın daha şüurlu qavranılmasına, kompleksin sadə və asan başa düşülməsinə kömək edir.

Problem əsaslı təlimdə şagirdlərin qarşısına qoyulan suallar, əsasən gündəlik həyatda qarşılaşdıqları hadisələrlə bağlı olur.Burada şagirdlər həmin hadisələrə, öz münasibətlərini bildirilər, əqli əməliyyatlar icra edərək (analiz, sintez, müqayisə, ümumiləşdirmə, sistemləşdirmə, induksiya, deduksiya və.s) öz fikrini irəli sürür. Beləliklə Problem əsaslı təlim şagirdlərə hazır bilik (reproduktiv) deyil, özlərinin təfəkkürünün məhsulu (produktiv) olan

bilik verir. Tədqiqat əsaslı təlimdə Problem əsaslı təlim kimi şagirdyönümlüdür. Burada fərq ondan ibarətdir ki, Tədqiqat əsaslı təlimdə şagirdlər müəllimin istiqaməti olmadan da sərbəst şəkildə axtarıcılıq qabiliyyətinə malik olurlar. Yəni hər hansı bir fiziki hadisəni müəyyən ləvazimatların köməyi ilə sərbəst şəkildə sınaqdan keçirə bilərlər. Tədiqat əsaslı təlimin Problem əsaslı təlimdən üstün cəhətlərindən biri odur ki, şagirdlər tədqiq etdiyi hadisəni həm hiss üzvləri vasitəsi ilə mənimsəyir həmdə əqli əməliyyatları eyni anda icra edə bilir. Hər iki təlim fizikanın tədrisində mühüm əhəmiyyət kəsb edir.

Problem əsaslı təlimin mərhələləri:

1. Anlayışların aydınlaşdırılması
2. Problemin müəyyən edilməsi
3. Problemin müzakirəsi
4. Mümkün həllərin müəyyən edilməsi
5. Təlim nəticələrinin tərtib edilməsi
6. Həllin axtarılması
7. Nəticələrin təhlili

Tədqiqat əsaslı təlimin mərhələləri:

1. Motivasiya
2. Tədqiqat
3. İzah
4. Təkmilləşdirmə
5. Dəyərləndirmə

Beləliklə, bu təlim metodlarından istifadə şagirdlərin təfəkkürünün inkişaf etdirilməsinə həmçinin yaradıcı düşünməsinə şərait yaradar.

Ədəbiyyat


1. İsa İsmayılov. Ümumtəhsil məktəblərində fizika təliminin müasir texnologiyaları. Bakı, "Elm", 2012
2. Q. M. Şərifov. Liseylərdə “fizika” fənni üzrə problem əsaslı təlimdə “fişboun” üsulundan istifadənin əhəmiyyəti. Azərbaycan məktəbi – elmi nəzəri pedaqoji jurnal. №4. 2021.
3. Г.М.Шарифов. Влияние гидростатического давления на свойства кристаллов TlGaSe2 / Материалы научной конференции аспирантов НАН Азербайджана, Баку, май, 2006


## KARYERA PLANLAŞDIRILMASI VƏ MƏZUNLARIN SOSİAL-PSİXOLOJİ HAZIRLIĞI


**Niftaliyev Namiq Elçin oğlu**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Karyera planlaşdırılması fərdin karyera məqsədlərini müəyyənləşdirməsi, inkişaf etdirməsi və uğurlu karyera səyahəti üçün strategiyaların yaradılması prosesidir. Bu proses fərdlərin mövcud bacarıq və maraqlarını qiymətləndirməyi, qısa və uzunmüddətli hədəfləri müəyyən etməyi, lazımi təhsil və təcrübəni planlaşdırmağı və irəliləyişlərə nəzarət etməyi əhatə edir. ‘’Karyera müəyyən başlanğıcı və qeyri-müəyyən sonu olan bir yoldur. İnsanların karyeraları doğulduğu andan istiqamət almağa başlayır. İqtisadi şərait karyera qurmaqda ən böyük amildir” [2,s. 12]. Təşkilatlar özlərində karyera aparırlar. Təşkilatdakı hər bir insanın fərqli karyera məqsədləri var. Öz karyerası üçün məqsəd qoyan insanın motivasiyası çox vaxt başqalarından daha yüksək olur. Fərdlər şəxsi karyera məqsədləri qoyur və onlara nail olmaq üçün strategiyalar hazırlayır.

Karyera planlaşdırılması fərdlərə öz qabiliyyətlərini və məqsədlərini daha yaxşı anlamağa kömək edir. O, həmçinin fərdlərə gələcək karyera imkanlarını qiymətləndirməyə və uğurlu

olmaq üçün lazımi addımları atmağa kömək edə bilər. Karyera planlaşdırılması fərdlərə cari karyeralarını daha məmnun etməyə və potensiallarını maksimum dərəcədə artırmağa kömək edə bilər. Karyera planlaması bir sıra əsas addımları əhatə edir:

Qiymətləndirmə:Mövcud bacarıqların, maraqların və dəyərlərin qiymətləndirilməsi.

Məqsədlərin müəyyən edilməsi: Qısa və uzunmüddətli karyera hədəflərinin müəyyən edilməsi.

Planlaşdırma: Tələb olunan təhsil, təcrübə və bacarıqların planlaşdırılması.

İcra və Qiymətləndirmə: Planı həyata keçirmək və hədəflərə doğru irəliləmək. Mütəmadi olaraq tərəqqinin qiymətləndirilməsi və lazım gəldikdə planın yenilənməsi.

Karyera mərkəzlərinin yaradılması: Bu mərkəzlər işin daha planlı təşkilini həyata keçirir və uğurlu perormansa aparan yolu istiqamətləndirir. [3, s.157-160]

Məzunların karyera hazırlığı onların iş dünyasına keçidində və karyerasına başlamasında mühüm rol oynayır. Məzunların karyera hazırlığı prosesində əməl etməli olduğu bəzi vacib addımlar vardır. İlk növbədə məzunların özünü tanıması vacibdir. Buraya onların qabiliyyətlərinin, maraqlarının, dəyərlərinin və güclü tərəflərinin qiymətləndirilməsi daxildir. Bu məlumat hansı karyera yollarının ən uyğun olduğunu müəyyən etməyə kömək edə bilər.

Məzunlar qısa və uzunmüddətli karyera məqsədləri qoymalıdırlar. İş axtarış bacarıqlarının təkmilləşdirilməsi istiqamətində CV hazırlamaq, müsahibələrə hazırlaşmaq və iş axtarışı strategiyaları kimi iş axtarış bacarıqlarını inkişaf etdirmək vacibdir[1,s.2]. Bu bacarıqlar məzunlara əmək bazarında rəqabətədavamlı olmağa kömək edə bilər. Həmçinin iş dünyasına girərkən effektiv şəbəkə qurmaq vacibdir. Buraya işəgötürənlərlə ünsiyyət, mentorluq almaq və sənaye mütəxəssisləri ilə əlaqələr qurmaq daxil ola bilər.

Məzunların sosial-psixoloji hazırlığı onlara insanlarla qarşılıqlı əlaqəni və iş həyatında liderlik bacarıqlarını inkişaf etdirməyə kömək edə bilər. Buraya iş yerində münasibətləri idarə etmək, komandalarda işləmək, ünsiyyət qurmaq və problem həll etmək kimi bacarıqlar daxildir. Məzunlar karyera planları qurarkən sosial-psixoloji məlumatlardan faydalana bilərlər. Məsələn, hansı karyera yollarının şəxsiyyətlərinə və sosial bacarıqlarına uyğun olduğunu müəyyən etmək üçün sosial-psixoloji testlərdən istifadə edə bilərlər.

Empatiya və ünsiyyət bacarıqlarının inkişafı da məzunların sosial-psixoloji hazırlıġnda mühüm rola malikdir və məzunlara iş həyatında empatiya və effektiv ünsiyyət bacarıqlarını inkişaf etdirməyə kömək edir. Həm də işgüzar əlaqələrin və əməkdaşlığın möhkəmlənməsinə bir töhfədir. Mədəni maarifləndirmə və müxtəliflik məzunların sosial-psixoloji hazırlığında mühüm addımdır. Sosial-psixologiya bilikləri məzunların mədəni şüurunu artırmağa və müxtəlifliyin öhdəsindən daha yaxşı gəlməyə, tolerant olmağa, multikultural dəyərlərə hörmət etməyə imkan verir və onlar iş dünyasındakı müxtəlifliyə daha yaxşı uyğunlaşırlar.

Sosial-psixoloji hazırlıq məzunlara stresin öhdəsindən gəlmək və davamlılıq nümayiş etdirmək bacarıqlarını inkişaf etdirmək və iş həyatında qarşılaşacaqları çətinliklərin öhdəsindən daha yaxşı gəlmələrinə yardım edir. Karyera planlaması və sosial-psixoloji hazırlığın inteqrasiyası məzunlara iş dünyasında daha uğurlu olmağa və karyeralarını daha effektiv idarə etməyə kömək edərək onların karyera yollarında uğurlu performansını reallaşdırır.

Ədəbiyyat

1. Ələkbər T., Orucova T., "Karyera A-dan Z-yə". Bakı 2015. 11 s

2. Hasanov Ş., danişman: Öğr.Gör. Məcidli F. "Üniversitelerde öğrencilerin kariyer planlamasi açisindan kariyer merkezlerinin faaliyetlerine yönelik araştirma" - lisans bitirme tezi./ Bakü,- 2019,- 73 s.

3. Ерлинг А. В., Соловьев Д. Д. Понятие трудоустройства и отношений по трудоустройству // Modern Science. – 2020. – № 2-1. – С. 157–160.

**XÜLASƏ**

Karyera planlaşdırması hər bir tələbənin peşəsi ilə əlaqədar önəmli bir məsələdir və bu gün üçün çox aktualdır. Ali məktəb məzunlarının hər birində karyera quruculuğunda öz şəxsi inkişafları ilə bağlı analiz etmə bacarığı formalaşır. Onlar karyera planlaşdırılması sayəsində inkişaf yollarını aydınlaşdırmağı bacarır, özünün peşə ilə bağlı ehtiyaclarını müəyyən edir, şəxsi inkişaf istiqamətlərini müəyyən edərək özünə uyğun kariyera qurur. Peşə fəaliyyəti istiqamətində seçəcəyi müəssisə haqqında müvafiq seçimləri müstəqil şəkildə edir, əsas kariyera məqsədlərini müəyyən edir, müasir işaxtarma və müraciət üsullarından istifadə etməyi bacarır işə qəbul üsul və mərhələlərinə bələd olur və sosial-psixoloji hazırlığı sayəsində cv qaydası, müsahibə şərtləri ilə tanış olaraq peşəsi üzrə mövcud addımları atır.
***Açar sözlər:*** *karyera planlaşdırılması, məzun, sosial-psixoloji hazırlıq, ixtisas bacarıqları, cv hazırlığı*

## РЕЗЮМЕ

Планирование карьеры – важный вопрос, связанный с профессией каждого студента, и очень актуален на сегодняшний день. У каждого выпускника школы развивается способность анализировать свое личностное развитие в построении карьеры. Благодаря планированию карьеры они могут прояснить пути своего развития, определить свои профессиональные потребности, определить направления своего личностного развития и построить для себя подходящую карьеру. Выпускники приобретают необходимую информацию для развития карьеры, строят для себя карьерный план, после завершения обучения знакомятся с методами и этапами поиска работы, трудоустройства и благодаря своей социально-психологической подготовке предпринимают текущие шаги в свою профессию, ознакомившись с правилами резюме и условиями собеседования.
***Ключевые слова:*** *планирование карьеры, выпускной, социально-психологическая подготовка, специальность навыки, подготовка резюме*

## SUMMARY

Career planning is an important issue related to the profession of every student and is very relevant today. Each of the high school graduates develops the ability to analyze their personal development in career building. Thanks to career planning, they are able to clarify their development paths, determine their professional needs, determine their personal development directions and build a suitable career for themselves. Independently makes appropriate choices about the enterprise he will choose in the direction of his professional activity, defines the main career goals, is able to use modern job search and application methods.
***Keywords:*** *career planning, graduation, social-psychologica preparation, specialty skills, cv preparation*

# ALİ TƏHSİLİN IDARƏ OLUNMASINDA MÜNAQİŞƏLƏR: MÜNAQİŞƏLƏRİN NÖVLƏRİ VƏ HƏLL STRATEQİYALARI

**Ramazanova Sevda Əhməd qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsil müəssisələrində münaqişələr geniş sferaya yayıla bilən kompleks bir məsələdir. Bu münaqişələr tələbələr və müəllimlər, tələbələr və tələbələr, təlbələr və rəhbərlər, rəhbərlər və müəllimlər arasında ola bilər və buna səbəb olaraq müəyyənliklər, qeyri-müəyyənliklər, dərslərdən geri qalmalar, məktəb iqlimi, intizam qaydalarının pozulması, bullinq və mobbinq kimi təsirlər və digər məqamlar səbəb ola bilər. "Münaqişələr bütün sosial institutların, sosial qrupların fəaliyyətində, insanlar arasında qarşılıqlı münasibətlərdə meydana çıxır. Ona görə

də müəssisə rəhbəri, hər bir mədəni insan münaqişələr haqqında adi təsəvvürlərə malik olmalıdır, onların baş verdiyi vaxtda davranış üsullarını bilməlidir"[2].

Təhsil müəssisələrində münaqişələrə effektiv cavab vermək üçün müəyyən strategiyalar və həllər işlədilir. Buraya tələbələrin, müəllimlərin, əməkdaşların sosial və emosional bacarıqlarının inkişafına yardım edən, problemin əvvəlcədən qarşısını almağa yönələn proqramlar və digər metodikalar daxildir. Bunlar münaqişələrin minimuma endirilməsinə kömək edir və müəyyənliyi təmin edir.

Təhsil müəssisələrində münaqişələr fərqli növ və intensivlikdə ola bilər. Bəziləri daha sadə və yalnız tərəflər arasında yaranan mübahisələr olarkən, digərləri daha ciddi məsələlərə, məsələn, tələbənin davranışlarına və ya tələbələr arasındakı qarşılıqlı münasibətlərə çevrilə bilər. Bir qədər də genişlənsə, müəllim- tələbə, rəhbərlər-tələbə münaqişələri həddin də daha kompleks məsələləri əhatə edə bilər.

Bəzi tədqiqatlarda münaqişələrin həlli üçün 4 əsas strategiya təklif edirlər: 1.Başqalarının perspektivlərini və hisslərini başa düşmək üçün onları aktiv dinləmək; 2.Empati qurma strategiyasını tətbiq etmək; 3. Həll üçün zəmin yaratmaq üçün ümumi əsas axtarmaq; 4.Münaqişəyə töhfə verə biləcəyinizi etiraf etmək [1,s 6, 12].

Ali təhsilin idarəolunmasında münaqişələrin digər müxtəlif növlərinə rast gəlmək mümkündür:

Sosial Münaqişələr-bu tələbələr, müəllimlər,əməkdaşlar arasında dostluq münasibətləri, qruplara qarşı mübarizə və ya qrupların tərəf dəyişimi kimi sosial məsələlər nəticəsində yaranır.

Akademik Münaqişələr tələbə və ya müəllim arasında dərs prosesində və ya bunula bağlı digər məsələlər, qiymətləndirmələr və ya dərs materialının başqa cür tərcümələri ilə əlaqədar münaqişələrdir və öz həll yollarıvardır.

İdarə Münaqişələri: Tələbə, müəllim və ya idarəçi arasında idarəetmə ilə bağlı yaranan münaqişələrdir ki, az hallarda təsadüf edilir və bəzən hüquqi müstəvidə həll olunur.

Psixoloji Münaqişələr: Tələbələr arasında yaranan psixoloji çətinliklər, hərəkət etmək və ya davranışlar, inklüzivliklə bağlı yaranan mübahisələrdir.

Səhiyyə Münaqişələri: Tələbələr, müəllimlər və ya idarəçilər arasında səhiyyə məsələləri-sağlamlıq, fiziki əlillik, qeyri-müəyyənliklə bağlı münaqişələr hesab olunur.

Bu münaqişə növləri ali təhsil müəssisədə müəyyənliyin qorunması və münaqişələrin effektiv şəkildə həll edilməsi üçün müxtəlif strateqiyalar və prosedurlar tələb edir. "İkitərəfli qalibiyyət"in əldə edilməsi xüsusilə də tərəflər uzunmüddətli və ya davamlı münasibətlər saxlamalı olduqda vacib əhəmiyyət daşıyır. Sıfır nəticə və ya daha da pisi,mənfi nəticə əldə edildikdə münaqişənin daha da dərinləşmək ehtimalı yaranır"[3].Buna görə də ali təhsil müəssisələrində baş verən münaqişələrin həllinə dair bir çox strateqiyalar vardır. Bu strateqiyalar müxtəlif məsələlərə və münaqişələrin intensivliyinə görə dəyişə bilər. Bəzi tədqiqatlarda münaqişələrin qarşısını almaq üçün proaktiv yanaşmalar təklif edilir, digərləri isə münaqişələri həll etmək üçün müasir təcrübələrə əsaslanaraq müxtəlif strateqiyalar təqdim edir. Ali təhsil müəssisədə münaqişələrin effektiv şəkildə idarəedilməsi ciddi məsələdir və rəhbərlikdən diqqət tələb edir. Çünki təhsil müəssisəsinin əməkdaşları, müəllim və tələbə kontingenti burda qarşılıqlı fəaliyyətdə olur, bu zaman məqsədlər fərqlənə, fikirlər ayrıla bilir və münaqişələr yaranır. İdarəetmə prosesində əsas məsələ də münaqişələrin həli ilə bağlı strateqiyaların düzgün seçilməsidir.

Ədəbiyyat

1.Maks A. Eggert və Vendi Falzon. Münaqişələrin həll edilməsi./ Bakı: - 2004,- 113 s.
2.Məmmədzadə K. Münaqişələr və onların həll edilməsi./ -2022- https://www.linkedin.com/pulse/m%C3%BCnaqi%C5%9F%C9%99l%C9%99r-v%C9%99-onlar%C4%B1n-h%C9%99lli-yollar%C4%B1-kamran-m%C9%99mm%C9%99dzad%C9%99/?originalSubdomain=tr

3.Münaqişələrin Həlli Strategiyaları /Naviqasiya İş Yerində Harmoniya /2024 üzə çıxır https://ahaslides.com/az/blog/conflict-resolution-strategies/
4. Xəlilli A. Münaqişənin həllinin əsasları./-26 dekabr 2023- https://vetennamine.az/munaqisenin-hellinin-esaslari/

**XÜLASƏ**

İnsan olan yerdə münaqişələtrin olması normaldır. Çünki hər insanın öz dəyərləri, ehtiyacları və vərdişləri vardır, ona görə də bir-birimizi səhv başa düşmək və ya qıcıqlandırmaq, ya da daha da ağırı, münaqişəyə düşmək mümkündür. Düzgün idarə edilmədikdə, münaqişə pis qərarlara və açıq mübahisələrə, zorakılığa və ya təqiblərə-bullinqə, mobbinqə səbəb ola bilər. Xüsusilə ali təhsildə münaqişələr komanda işini pozur, mənəviyyat düşür və iş sistemi sanki dayanır. Məruzədə münaqişələrin idarə olunması strateqiyalarından və həll yollarından danışılır. Münaqişə həll edilə bilər. Üstəlik, o, problemləri üzə çıxara, əlaqələri gücləndirə və innovasiyaları alovlandıra bilər. İdarə etmə düzgün olarsa, bu proses əlçatandır.

***Açar sözlər:*** *münaqişələr, strateqiyalar, münaqişələrin növləri, qeyri-müəyyənlik, həll strateqiyaları*

**РЕЗЮМЕ**

Там, где есть люди, конфликты – это нормально. Поскольку у каждого человека есть свои ценности, потребности и привычки, можно неправильно понять или раздражать друг друга, или, что еще хуже, вступить в конфликт. Если не управлять конфликтом должным образом, он может привести к неправильным решениям и открытым спорам, насилию или притеснениям – издевательствам, травле. Конфликты, особенно в сфере высшего образования, нарушают командную работу, моральный дух падает, а рабочие системы, похоже, останавливаются. В докладе говорится о стратегиях и решениях управления конфликтами. Конфликт можно разрешить. Более того, это может выявить проблемы, укрепить отношения и стимулировать инновации. Если управление правильное, то этот процесс доступен.

***Ключавые слова:*** *конфликты, стратегии, виды конфликтов, неопределенность, стратегии разрешения*

**SUMMARY**

Where there are people, it is normal to have conflicts. Because each person has their own values, needs and habits, it is possible to misunderstand or irritate each other, or even worse, get into a conflict. If not managed properly, conflict can lead to bad decisions and open arguments, violence or harassment - bullying, mobbing. Especially in higher education, conflicts disrupt teamwork, morale drops, and work systems seem to grind to a halt. The report talks about conflict management strategies and solutions. Conflict can be resolved. Moreover, it can uncover problems, strengthen relationships, and ignite innovation. If the management is correct, this process is accessible.

***Keywords:*** *conflicts, strategies, types of conflicts, uncertainty, resolution strategies*

## ADPK-nin İDARƏ EDİLMƏSİNİN MÖVCUD VƏZİYYƏTİ

**Səfərli Əli Mirxan oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müstəqil Azərbaycan dövlətinin yaxın gələcək üçün qarşıya qoyduğu hədəflərə doğru mühüm bir addım olan bu strategiya ulu öndər Heydər Əliyevin milli təhsilin inkişafı

sahəsində formalaşdırdığı zəngin ənənələrə, Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə bu sahədə əldə edilmiş böyük nailiyyətlərə söykənir.

2019-cu ildə Azərbaycanın nüfuzlu elm və təhsil ocağı olan ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin təsis edilçəsilməsinin 100 illiyi tamam oldu. ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin şərəfli bir yol keçmişdir. Tarixi faktlara nəzər yetirsək, Kollec 1919-cu ildən indiyə kimi müxtəlif adlarla fəaliyyət göstərmişdir:

- 1919–1920-ci illərdə — Bakı Kişi Müəllimləri Seminariyası;
- 1920–1925-ci illərdə — Bakı Qadın Müəllimləri Seminariyası;
- 1925–1926-cı illərdə — Bakı Müttəhid (Birləşmiş) Müəllimlər Seminariyası;
- 1926–1930-cu illərdə — Azərbaycan Mərkəzi Beynəlmiləl Pedaqoji Texnikumu;
- 1936–1938-ci illərdə — M.Ə.Sabir adina Mərkəzi Beynəlmiləl Texnikumu;
- 1938–1963-cü illərdə — M.Ə.Sabir adına Rus Pedaqoji Məktəbi;
- 1968-ci ildən — M.Ə.Sabir adına Bakı Pedaqoji Məktəbi;
- 1991-ci ilin dekabrından — M.Ə.Sabir adına Bakı Pedaqoji Texnikumu;
- 23 dekabr 1999-cu ildən — M.Ə.Sabir adına Azərbaycan Dövlət Pedaqoji Kolleci;
- 13 iyun 2000-ci ildən — Azərbaycan Dövlət Pedaqoji Kolleci;
- 03 fevral 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03.02.2016-cı il tarixli, 30№-li Qərarına və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 04.03.2016-cı il tarixli əmrinə əsasən digər qocaman təhsil müəssisəsi olan Bakı Sənaye - Pedaqoji Kolleci Azərbaycan Dövlət Pedaqoji Kollecinə birləşdirilərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdinə verilmişdir və hazırda Azəarbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci adlanır.

ADPK-da aşağıdakı tədris şöbələri və şöbələrə daxil olan ixtisaslar fəaliyyət göstərir:

1. Məktəbəqədər təhsil şöbəsi
2. Korreksiyaedici təlim şöbəsi
   - Məktəbəqədər təhsildə korreksiyaedici təlim
   - İnkluziv təhsil
3. Pedaqoji şöbə
   - Fiziki tərbiyə müəllimliyi
   - Təsviri incəsənət müəllimliyi
   - Texnologiya müəllimliyi
4. Ailə və ev təhsili şöbəsi
   - Ailə və ev təhsili
   - Sosial iş
5. Peşə təlimi şöbəsi
   - İnformasiya texnologiyaları sistemi
   - Mühasibat uçotu
   - Nəqliyyatda daşımaların təşkili
   - Geyimlərin modelləşdirilməsi və kontruksiyası
   - Rəngkarlıq
   - Dekorativ tətbiqi sənət
   - Mədəni kütləvi tədbirlərin təşkilatçısı
   - Komputer şəbəkələri və şəbəkə inzibatçılığı
6. Davamlı təhsil və təlim şöbəsi

Kollecin təlim-tərbiyə və metodiki işin, təhsil müəssisəsinin fəaliyyətinin digər məsələlərinin müzakirəsinin kollegiallığını təmin etmək üçün direktorun əmri ilə məşvərətçi orqan olan Pedaqoji Şura mövcuddur.

Şuranın əsas vəzifəsi Kollec kollektivinin fəaliyyətini aşağıdakı istiqamətlərdə birləşdirməkdən ibarətdir:

- orta ixtisas təhsili proqramları həcmində lazımi nəzəri və təcrübi biliyə malik, vətənpərvərlik və beynəlmiləlçilik ruhunda tərbiyə olunmuş kiçik mütəxəssislər hazırlanması;
- müasir istehsalın, elm və texnikanın, mədəniyyətin inkişaf perspektivlərini nəzərə almaqla mütəxəssis hazırlığının keyfiyyətinin müntəzəm təkmilləşdirilməsi;
- tələbələrdə Vətənə məhəbbət və onun müdafiəsinə hazır olmaq hissinin tərbiyə edilməsi;
- tələbələrin fiziki hazırlığını təmin edən və sağlamlıqlarının möhkəmləndirilməsi üzrə tədbirlər həyata keçirilməsi və sair məsələlər.

Şuranın tərkibi direktordan, direktor müavinlərindən, müəllimlərdən, filial və şöbə müdirlərindən, fənn komissiyasının sədrlərindən, bədən tərbiyəsi və ibtidai hərbi hazırlıq müəllimlərindən, kitabxana müdirindən ibarət tərkibdə təşkil edilir. Şuranın tərkibinə tədris-istehsalat emalatxanalarının müdirləri, həmkarlar təşkilatlarının, baza, idarə, müəssisələrin nümayəndələri də daxil edilə bilər.

Pedaqoji şura aşağıdakı məsələləri müzakirə edib müvafiq qərar qəbul edir:

- kiçik mütəxəssislərin hazırlanması barədə dövlət hakimiyyəti və idarəetmə orqanlarının, təsisçi təşkilatların əmr, sərəncam, qərar və təlimatlarını yerinə yetirmək üçün tədbirlərin hazırlanması;
- təlim-tərbiyə və metodiki işin vəziyyəti və yekunlarını, gündüz, axşam və qiyabi təhsil formalarında təlim üsullarının təkmilləşdirilməsi. Təlimin nəzəri və təcrübi əlaqələndirilməsinin gücləndirilməsi;
- filialların, şöbələrin və digər bölmələrin işinin gedişi və yekunları, həmçinin sinif rəhbərlərinin və tədris müəssisəsinin başqa işçilərinin hesabatları;
- mədəni-kütləvi, hərbi idman işlərinin vəziyyəti;
- təhsil müəssisəsinin təlim-tərbiyə işlərinin planı;
- təhsil müəssisəsinin inkişaf planı və maddi-texniki bazasının möhkəmləndirilməsi məsələləri;
- fənn (fənn birləşmə) komissiyalarının və qabaqcıl müəllimlərin iş təcrübələrinin öyrənilməsi;
- təlim və tərbiyənin aktual problemləri üzrə müəllim və digər işçilərin məruzələri;
- müəllimlərin, istehsalat təlimi ustalarının, pedaqoji təcrübə rəhbərlərinin və eyni zamanda istehsalatda çalışan orta ixtisas təhsili mütəxəssislərinin ixtisas hazırlığının yüksəldilməsi məsələləri;

tələbələrin təcrübə-konstruktor işinin, texniki və bədii yaradıcılığı üzrə işin vəziyyəti, əməyin mühafizəsi məsələləri;

- semestr, kursdan-kursa keçirmə, dövlət imtahanları və diplom layihələri müdafiəsinin təşkili və keçirilməsi və tələbələrin semestr və tədris ili ərzində tələbələr sırasından xaric edilməsi;
- tələbələrin intizamının vəziyyəti və onların təltif olunması. Adlarının şərəf lövhəsində yazılması;
- tələbələrin zəif oxumaları, dərs intizamının və daxili intizam qaydalarını pozmağa görə xaric edilməsi, həmçinin ayrı-ayrı hallara bərpa olunması məsələləri, tələbə qəbulu və mütəxəssis buraxılışının, təkmilləşdirilməsi məsələləri;

ADPK-da həmçinin istiqamətverici-məsləhət orqanı hesab edilən Tədris-Metodiki Şura da fəaliyyət göstərir və Kollecdə təlim-tərbiyə prosesində elmi-metodiki təminatı yüksəltməyə xidmət edir. Şuraya rəhbərliyi Tədris işləri üzrə direktor müavini edir. Şuraya üzvlər olaraq şöbə müdirləri, FBK sədrləri, metodist və mütəxəssislər, həmçinin yüksəkixtisaslı müəllimlər daxildir.

ADPK-nın təşkilati mədəniyyətinə aid olan elemetləri aşağıdakı kimi izah edə bilərik:

ADPK-nın vizyonu: Bəşəriyyət və ölkəyə faydalı, bilikləri ilə gələcəyə istiqamət verən yenilikçi məzunlar yetişdirən kollec olmaqdır.
ADPK-nın missiyası: Sosial məsuliyyət şüuru ilə problemlərə həssaslıqla yanaşan, etik dəyərlərə riayət edən, şəxsi və peşəkar sahədə daim yenilənən şəxsiyyətlər yetişdirməkdir
ADPK-nın əsas dəyərləri aşağıdakılardır:
Təşkilati etika: ADPK daim fəaliyyətində akademik və peşə etikasını qoruyur, işçi və tələbə kontingentinin hüquqlarına, fikirlərinə hörmətlə yanaşmaq

- İştiraklılık: Qərarvermənin bütün mərhələlərində maraqlı tərəflərin iştirakı
- Keyfiyyətlilik: Bütün fəaliyyətlərdə - təhsil, tərbiyə, təhsilalan və təhsilverən münasibətlərində yüksək keyfiyyət əldə etməyə çalışmaq
- Cəmiyyət mənafeyini düşünmək: Təhsil millətin gələcəyidir prinsipi ilə yanaşaraq daim cəmiyyətin mənafeyini qorumaq
- İnnovativlik: Daim yeniliklərə açıq olmaqla, dəyişməkdən və inkişaf etməkdən çəkinməmək
- Əməkdaşlıq: Bütün dəyərlərə əməl etməklə ümumi məqsədlər naminə müvafiq tərəfdaşlarla əməkdaşlıq etmək.

ADPK-nın şüarı: Öyrən, inkişaf et – gələcəyi şəkilləndir
ADPK-nın hədəfləri aşağıdakılardır:

1. Əmək bazarının tələblərinə uyğun məzunlar hazırlamaq və nəticədə yüksək göstəricili tələbə qəbulu səviyyəsini artırmaq
2. Təhsilalanlarda texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək bacarıqları formalaşdırmaq
3. Təhsilin keyfiyyətini yüksəltməklə ixtisaslı məzunlar yetişdirmək
4. İnnovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılması
5. Ehtiyac duyulan sahələrdə ixtisaslı pedaqoji heyətin sayını artırmaq

## ÇAĞDAŞ TƏHSİLDƏ 21-Cİ ƏSR BACARIQLARI: PROBLEM HƏLL ETMƏ BACARIĞI

**Səmədzadə Ceyla Emin qızı**
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Kompleks problemlərin həlli bugünkü sürətlə dəyişən və günbəgün yenilənən dünyada vacib bir bacarıqdır. Texnologiya, cəmiyyət, yaşam tərzi dəyişdikcə, insanlar müasir həyata adaptasiya olduqca mövcud problemlər də xeyli sayda bir-biri ilə əlaqəli dəyişənlər, dinamik və qeyri-müəyyən struktura malik, ziddiyyətli məqsədləri özündə ehtiva edir. Mürəkkəb problemlərin müvəffəqiyyətlə həlli dəqiq analiz və strateji düşüncə tələb edir. Həm öyrənənlər, həm də çağdaş iş dünyası üçün problem həll etmə bacarıqlarının inkişafı məhsuldarlığı, səmərəliliyi və effektiv qərar qəbulunun kefiyyətini artıra bilər. Mürəkkəb problemləri həll etmək bacarığı qlobal sferada, əmək bazarında rəqabət üstünlüyü təmin edə və həm şəxsi, həm də peşəkar işlərdə uğur qazanmağa kömək edə bilər.

21-ci əsr texnoloji inkişafın sürətlə irəlilədiyi, qlobal rəqabətin artdığı daim dəyişən bir dünya ilə qarşı-qarşıyadır. Bu dinamik mühit ənənəvi təhsil konsepsiyalarının transformasiyasına və təhsil sistemlərinin yenidən formalaşdırılmasına səbəb olmuşdur. 21-ci əsrdə öyrənənlərə yalnız ilkin bilik və bacarıqları aşılamaq kifayət etməyə bilər. Onlar müasir dünya ilə ayaqlaşa bilmələri üçün həmçinin tənqidi düşünmə, problem həll etmə, ünsiyyət, əməkdaşlıq və yaradıcılıq kimi 21-ci əsr bacarıqlarını əldə etməlidirlər. Bu bacarıqlar öyrənənlərin qarşılaşdıqları mürəkkəb problemləri həll etmək, dəyişən şərtlərə uyğunlaşmaq

və yenilikçi həll yolları formalaşdırmağa imkanı verməklə onları uğura aparan əsas elementlərdir.

Təhsildə problem həll etmə bacarıqlarının formalaşdırılması 21-ci əsrin tələblərinə uyğun olaraq təhsil sisteminin əsas prioritetlərindən biridir. Problem həll etmək bacarığı öyrənənlərə qarşılaşdıqları problemləri təhlil etməyə, müxtəlif həll yollarını qiymətləndirməyə, strateji planlar yaratmağa və onların nəticələrini qiymətləndirməyə imkan verir. Bu bacarıq öyrənənlərin təkcə akademik uğurunu deyil, həm də şəxsi və peşəkar uğurlarını müəyyən edən mühüm nüansdır.

Bu tezisdə 21-ci əsrin öyrənmə bacarıqları çərçivəsində problem həll etmə bacarıqlarının inkişafından bəhs edilir. Xüsusilə, öyrənən mərkəzli təhsil yanaşmasının problem həll etmə bacarıqlarına təsiri vurğulanır, bu sahədə aparılan tədqiqatlar nəzərdən keçirilərək məqbul hesab oluan effektiv strategiyalar təklif edilir.

21-ci əsrin işçi qüvvəsi texnologiyanın əsas rol oynadığı, sürətlə dəyişən və çətin iş mühiti ilə xarakterizə olunur. PISA və PIAAC kimi beynəlxalq qiymətləndirmələr problem həll etmə bacarıqlarının vacibliyini qəbul etmiş və onları öz testləri vasitəsi ilə ölçmüşdür. PISA effektiv problemlərin həlli ilə bağlı dörd əsas prosesi müəyyən edir: məlumat axtarışı, modelləşdirmə, proqnozlaşdırma və monitorinq Bu proseslər məlumatı anlamaq, dəyişənləri əlaqələndirmək, plan yaratmaq və həyata keçirmək, davamlı olaraq qiymətləndirmək və dəyişən şərtlərə uyğunlaşmağın vacibliyini vurğulayır. Problemin həlli müasir dövr öyrənənlərində çox axtarılan bir bacarıq olsa da, həm də əldə edilməsi və inkişaf etdirilməsi ən çətin bacarıqlardan biri hesab olunur. Buna görə də, bir çox ölkə kurikulumlarında problem həll etmə və qərar qəbul etmə bacarıqlarına, xüsusən də bu bacarıqların mütəmadi olaraq yoxlanıldığı və qiymətləndirildiyi elmlərə daha çox diqqət yetirilməyə başlanmışdır.

Problemin həllində uğur əsasən öyrənənin problemə münasibətindən və yanaşmasından asılıdır. Xarici ədəbiyyatlarda effektiv problem həll edən şəxs aşağıdakı keyfiyyətlərə malik olmalı olduğu vurğulanır:

- Açıq fikirlilik və qərəzsizlik
- Qeyri-müəyyənliyi və dəyişikliyi qəbul etmək və problemi həll etmək istəyi
- Fikir və davranışlarda çeviklik və şəffaflıq
- İnformasiya və kommunikasiya texnologiyalarından istifadə bacarığı
- Şəxsi qərəzlərdən xəbərdar olmaq
- Gərəkli hallarda baxışları yenidən qiymətləndirmək və tənzimləmək bacarığı
- Sürətli düşünməkdən daha çox dəqiq düşünməyi seçmək
- Problemin həllinə mütəşəkkil və sistemli yanaşma
- Perspektivləri nəzərə almaq
- Problemi araşdırmaq və aydın şəkildə müəyyən etmək üçün vaxt sərf etmək istəyi

Problemin uğurlu həlli idrak qabiliyyətləri və şəxsi xüsusiyyətlərin birləşməsini tələb edir. Milli Tədqiqat Şurasının araşdırmalarına əsasən, nəzərə alınmalı bəzi əsas amillər bunlardır:

- Ekspertiza: mövzunu dərindən başa düşmək müvafiq məlumatların toplanması və təhlili üçün çox vacibdir
- Verilənləri əlaqələndirmək: verilənlərdə əlaqələri müəyyən etmək bacarığı problemin köklü səbəbini aşkar etmək üçün vacibdir
- Prioritetləşdirmə: Məlumatı gözdən keçirmək və nəyin ən vacib olduğunu müəyyən etmək bacarığı problemin həllində mühüm addımdır
- Vahid düşüncə: Effektiv problem həll edənlər sadəcə olaraq problemin diaqnostikasından kənara çıxa və bunun əvəzinə bütün məlumatların daha geniş şəkildə necə birləşdiyini görə bilərlər
- Konseptual anlaşma: İnformasiyanın bir-biri ilə necə əlaqəli olduğunu dərindən anlamaq problemin daha effektiv həllinə imkan verir
-Refleksiya: Seçilmiş strategiya və onun effektivliyi haqqında mütəmadi olaraq düşünmək problem həll etmə bacarıqlarını daim təkmilləşdirmək üçün çox vacibdir

Bu bacarıq və xüsusiyyətlər bir araya gəldikdə çox yönlü və effektiv problemlər həllində və qərar qəbulunda mühüm rol oynayır. Xüsusi strategiyalarla birlikdə istifadə edildikdə, onlar prosesin effektivliyini və səmərəliliyini daha çox artıra bilər.

Qrup işi bu kontekstdə əsas strategiyadır. Bu, fərdlərə fərqli perspektiv və bacarıqlarından istifadə edərək ümumi məqsədə doğru əməkdaşlıq şəraitində birlikdə işləməyə imkan verir. Problemlərin birgə həlli başqalarının perspektivlərini tanımaq, öz bilik və təcrübəsinə fayda vermək, problemin həlli strukturlarını və prosedurlarını tanımaq, qrup şəklində bilik və anlayış yaratmaqdan ibarətdir.

Problem əsaslı öyrənmə (PBL) də effektiv bir strategiyadır. Bu, kurikulumun yenidən nəzərdən keçirilməsini nəzərdə tutur ki, müəllimlər mürəkkəb, real həyat problemləri ətrafında kompleks yanaşmalar tətbiq etsinlər. Bu problemlər öyrənilməli və başa düşülməli olan fundamental anlayışları əhatə edir və mürəkkəbliyi və düzgün, yaxud yanlış cavabların olmaması səbəbindən "yaxşı qurulmuş" və ya "yaxşı müəyyən edilməmiş" hesab olunur. Tədqiqatlar göstərir ki, PBL metodlarından istifadə etməklə tədris alan öyrənənlər ənənəvi metodlarla tədris olunanlarla müqayisədə performansa əsaslanan, bacarıqlara əsaslanan və ya bilik, bacarıqlara əsaslanan qiymətləndirmələrdə daha yüksək nəticə əldə edirlər.

Nəticə etibarı ilə qrup işi və problemə əsaslanan öyrənmə kimi ümumi strategiyaların xüsusi strategiyalarla birlikdə istifadəsi problemin həlli və qərar qəbulu prosesinin effektivliyini və səmərəliliyini xeyli artıra bilər. Tədqiqatların təhlili göstərir ki, öyrənən mərkəzli təhsil problemi həll etmə bacarıqlarının inkişafında mühüm rol oynayır. Öryənən mərkəzli yanaşma onların təlim-tədris prosesində fəal iştirakını təşviq edir, təlim prosesini fərdiləşdirir və öyrənənlərə problemin həlli prosesində fəal iştirak etmək imkanı verir. Bu yanaşma onların tənqidi düşünmə, ünsiyyət, əməkdaşlıq və yaradıcılıq kimi 21-ci əsr bacarıqlarını gücləndirməklə yanaşı, həm də özünü idarə edən və özünə güvənən şəxsiyyətlərin inkişafına töhfə verir.

## DAVAMLI TƏHSİLİN DÖVRÜN TƏLƏBLƏRİNİ QARŞILAYAN İŞÇİ QÜVVƏSİ YETİŞDİRMƏSİNDƏ ƏHƏMİYYƏTİ

**Süleymanova Leyla Teymur qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Davamlı təhsil zamanın tələbidir. Bugünkü iqtisadi mühit və işçi qüvvəsinin qarşısına qoyulan tələblər kəskin şəkildə əvvəlki dövrlərdən fərqlənir. Qloballaşma dünya iqtisadiyyatında rəqabəti gücləndirdi. Ölkələrin iqtisadiyyatının rəqabətə tab gətirə bilməsi üçün insan resurslarının XXI əsrin yüksək səviyyəli bacarıqlarına olan tələbatı qarşılaya bilməsi vacibdir. Azərbaycan modeli olaraq "neft kapitalı"- nın "insan kapitalı"- na çevrilməsi, insanların yeni bacarıqlara yiyələnməsi və köhnə biliklər üzərində biliklərini formalaşdırması əsas amillərdən biridir. XXI əsrdə gedən sürətli texnoloji yeniliklər, innovasiyalar və hərtərəfli inkişaf dünya iqtisadiyyatında "qazananlar və itirənlər"-i bir-birindən kəskin şəkildə ayırır. Qazananlar, yəni iqtisadiyyatını sürətlə inkişaf etdirənlər sözsüz ki, insan kapitalının inkişafına sərmayə qoyan ölkələrdir. İnsan kapitalının yeni əsrə uyğun hazırlanması isə birbaşa təhsil ilə bağlıdır. Universitetlər və digər təhsil müəssisələri insan kapitalının inkişafı üçün böyük rol oynayır. Onlar işçi qüvvəsini yenidən formalaşdırmaq və əmək bazarının tələblərinə, qlobal rəqabətə uyğunlaşdırmaq üçün çox şey edə bilərlər və bunun da əsasını davamlı təhsil təşkil edir. Ancaq bunu etmək üçün təhsil müəssisələri, təhsilverənlər dəyişdirilməli və öz ənənəvi təhsil formalarından əl çəkməlidirlər. Dünya təhsilinin nailiyyətlərindən, texnologiyalardan istifadə bu dəyişmənin ən mühim göstəricilərindən biridir.

Həm yerli, həm qlobal şəraitə uyğunlaşaraq inkişafı yaxından izləməli və inkişafın bir parçası olmaq üçün daha fəal olmalıdırlar. Təhsil müəssisələri sadəcə təhsil və tədqiqat

müəssisəsi olmaqla kifayətlənməməli, vətəndaşları ömürboyu öyrənmə imkanları ilə təmin etməlidirlər. İnsan kapitalının inkişafı, yəni bütün səviyyələrdə təhsil, ixtisasın artırılması, ömürboyu peşəkar inkişafın təmin olunması bu prosesdə əsas amildir. Ömür boyu təhsil bu kontekstdə aktuallıq kəsb edir. Təhsil imkanlarının yaradılması insanları öyrənməyə təşviq edir.

Ömür boyu öyrənmə nədir?

"Ömür boyu öyrənmə" ("life-long learning") anlayışı ilk olaraq XX əsrin əvvəllərində amerikalı təhsil filosofu və psixoloq Con Dyui tərəfindən istifadə olunmuşdur. Dui təhsilin təkcə gənclik illərində deyil, bütün həyat boyu davam etməli olduğunu vurğulayırdı. Bu anlayış daha sonra populyarlaşdı və bir çox pedaqoq və tədqiqatçılar tərəfindən qəbul edildi.

Ömür boyu öyrənmə həm şəxsi inkişaf, həm də peşəkar inkişaf üçün ömür boyu könüllü şəkildə öz-özünə motivasiyalı bilik axtarışıdır. Bu təkcə sosial inklüzivliyi, aktiv vətəndaşlığı və fərdi inkişafı gücləndirmir, həm də yeni dövrdə rəqabət qabiliyyətini və iş imkanlarını artırır. Həmçinin ömür boyu öyrənmə insanların fəaliyyət ömrünün uzadılması, həyat keyfiyyətinin yüksəldilməsi istəyi, insanları fiziki və əqli cəhətdən yaxşı vəziyyətdə saxlamağa çalışmaqla yanaşı axtarıcılıq meylini artırır. Bu səbəblərə görə ömürboyu öyrənmənin əhəmiyyəti artmaqdadır. Dünyada baş verən dəyişikliklər və yeniliklər fərdlərdən daim təkamül etməyi tələb edir və cəmiyyətdə fərdlərin ömür boyu öyrənməyə ehtiyacı yaranır. Başqa sözlə, insanların dünyada sürətlə baş verən texnoloji və məlumat dəyişikliklərindən xəbərdar olmaq, peşəkar və intellektual inkişafını təmin etmək, müxtəlif sahələrdə şəxsi bacarıqlarını təkmilləşdirmək üçün müasir cəmiyyətdə ömür boyu təhsil almasında mühüm rol oynayır. Buna görə də ömür boyu öyrənmə anlayışı araşdırma tələb edən bir tədqiqat predmeti kimi meydana çıxmışdır. Həmçinin UNESCO-nun 1960-cı ildə keçirilmiş beynəlxalq konfransında müzakirəyə səbəb olan aşağıdakı məsələlər xüsusilə diqqəti cəlb edir.

1. Tədris fəaliyyəti məktəb illəri və məktəb binaları ilə məhdudlaşmamalıdır.
2. Təhsil fəaliyyətinə həm məktəb təhsili, həm də məktəbdənkənar təhsil daxildir.
3. Təhsil fəaliyyəti daha çevik struktura malik olmalıdır.
4. Təhsil ömür boyu davam edən bir proses kimi qurulmalıdır.

Bu gün Azərbaycanda "ömür boyu öyrənmə" yanaşması haqqında əlavə məlumatlılıq yaradılmalıdır və bunun üçün seminarlar, konfranslar və s. kimi fəaliyyətlər təşkil edilməlidir. Bundan əlavə, universitetlərlə əməkdaşlıq vasitəsilə cəmiyyətin inkişafı üçün yeni ömür boyu öyrənmə proqramları hazırlanmalıdır. Hal- hazırda Avropa İttifaqı ömür boyu öyrənməni dəstəkləyən 6 proqrama malikdir. (Comenius Programme, Erasmus Programme, Leonardo Da Vinci Programme, Grundtviq Programme, Programme with Common Subject, Jean Monnet Programme) Proqramların keçmiş fəaliyyətləri müxtəlif olsa da ümumi bir məqsədləri vardır. Bu proqramlar universitetlər və peşə-təhsil müəssisələri ilə əməkdaşlıq nəticəsində ömür boyu öyrənməni təmin etməyi və yüksək ixtisaslı işçi qüvvəsi yetişdirməyi qarşısına məqsəd qoymuşdur.

## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ STRATEJİ İDARƏETMƏNİN ROLU

**Süleymanova Ülviyyə Etibar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Cəmiyyətin inkişafını və intellektual potensialını formalaşdırmaqda mühüm rola sahib olan ali təhsil müəssisələri sürətli dəyişən təhsil mühitində, yalnız bilikləri ötürmək məqsədli təşkilatlar olmaqdan çıxmış, daha irəliləyən bir rola sahib olmuşdur. Ali təhsil müəssisələri, bir ölkənin inkişafında ən əhəmiyyətli strukturlardan birini təşkil edir. Geniş spektrumda təhsil və təlim proqramlarının təqdim olunduğu, elmi tədqiqatların aparıldığı və sosial inkişafın dəstəkləndiyi ali təhsil müəssisələrinin effektiv idarəedilməsi və stratejik nəzarəti

təhsilin keyfiyyətinin yaxşılaşması və tələbələrin nailiyyətinin artırılması üçün əhəmiyyətli bir rola malikdir.

Əmək prosesinə uyğun və yenilikçi texnologiyanı daha asan mənimsəyən insan yetişdirən təhsil insan kapitalının inkişafını təmin edərək, əhalinin rifahını artırmaq, sosial-iqtisadi həyatı müasirləşdirmək kimi vəzifələri əhatə edir və fərdin ömürboyu öyrənməsi üçün zəmin yaradır.

Son illər ərzində ölkəmizdə təhsilin idarə olunması üzrə əhəmiyyətli inkişaf addımları atılmışdır. Azərbaycan Respublikasının Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" – nın üçüncü strateji istiqamətinə əsasən, beynəlxalq təcrübələrə əsaslanan nəticəyönümlü, müasir, şəffaf və səmərəli tənzimləmə və idarəetmə sistemi, həmçinin, təhsildə keyfiyyət təminatı və idarə olunmasının məlumat və hesabat sistemləri yaradılması kimi hədəflər əhatə olunmuşdur. Azərbaycan Dövlət Pedaqoji Universitetinin 2018-2021-ci illər üzrə strateji inkişaf planında da beynəlxalq təcrübələrə əsaslanan cavabdeh, şəffaf və səmərəli idarəetmə yaratmaq məsələsi öz əksini tapmışdır.

"Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında, təhsil müəssisələrinin müstəqilliyini artırmaq və ictimaiyyəti təhsilə cəlb etmək məqsədi ilə müasir texnologiyalardan istifadə edən idarəetmə modelinə üstünlük verilməsi məsələləri diqqətə alınmışdır.

Fasiləsiz xüsusiyyətə malik olan idarəetmə düzgün qərar qəbul etmə, tənzimləmə, nəzarət etmə, təhlil etmə və yekunlaşdırma fəaliyyətlərindən ibarətdir. Təhsil sahəsində idarəetmənin məqsədi cəmiyyətin və dövlətin tələblərinə uyğun vətəndaş yetişdirmək və bunun üçün əlverişli şərait yaratmaqdır. Strategiya isə müəssisənin işini daha yüksək səviyyəyə çatdırmaq üçün planlaşdırılan tədbirlər kompleksi kimi ifadə olunur.

Maddi qazanc əldə etmək, müəssisənin mədəniyyətini qoruyub saxlamaq, nizam-intizama nəzarət etmək kimi təşkilati hədəflərə nail olmaq strateji idarəetmənin əsas məqsədlərindəndir. Uzun və mürəkkəb bir proses olan strateji idarəetmənin strukturu müəssisənin missiya və məqsədini yaratmaq, xarici mühit amillərinin təhlili, güclü və zəif tərəflərin təhlili, strateji alternativlərin formalaşması, strategiyanın reallaşmasınının idarə edilməsi, strategiyanın istiqamətində düzəlişlərin qiymətləndirilməsi mərhələlərindən ibarətdir.

Ali təhsil müəssisələrinin strategiyasının planlaşdırılması müəssisənin uzunmüddətli hədəflərinin müəyyən edilməsi, bu hədəflərə necə nail olunacağını planlaşdırılması və keyfiyyətin artırılması məqsədi ilə əhəmiyyətli rol oynayır. Strateji plan, müəssisənin missiyasını və vizyonunu təyin edir və bütün fəaliyyətlərin bu məqsədlərə necə töhfələnəcəyini qeyd edir.

Strateji idarəetmə, ali təhsil müəssisələrinin müstəqil, effektiv və nailiyyətə yönəlmiş fəaliyyətinin təmin edilməsində əhəmiyyətli bir rol oynayır. Müəssisələr bu strateji yanaşmaları ilə tələbələrin nailiyyətini artırmaq, rəqabət mühitində öndə olmaq və ictimaiyyəti təhsilə cəlb etmək üçün daha yaxşı bir mövqe əldə edə bilərlər.

Strateji idarəetmə ali təhsil müəssisələrinin missiyasını və məqsədini dəqiqləşdirməklə başlayır və təhsilin sosial-iqtisadi tələbatlara cavab verən bir şəkildə təmin edilməsi üçün effektiv strategiyaların təyin edilməsini qaydaya salır. İdarəetmənin təşkil edilməsi, müəssisənin fəaliyyətini nəzarət altında saxlamaq, keyfiyyəti artırmaq və vətəndaş yetişdirmək üçün mümkün ən yaxşı şəraitin yaradılmasını hədəfləyir. Daim dəyişən təhsil mühitində, şəffaf və səmərəli idarə olunma sistemi yaratmaq təhsilin keyfiyyətini artırmaq və cəmiyyətin tələbatlarına cavab verməkdə əhəmiyyətli bir rola malikdir.

# NEFT KAPİTALININ İNSAN KAPİTALINA ÇEVRİLMƏSİ

**Şahbazova Aybəniz Balaəli qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir dünyada artıq heç bir mübahisəsiz qəbul olunur ki, insan kapitalı hər bir ölkənin stabil iqtisadi inkişafının başlıca amillərindən biridir. Ölkə iqtisadiyyatının müasir qlobal rəqabətin tələblərinə cavab verən rəqabətqabiliyyətli strukturunun formalaşdırılması və cəmiyyətin rifah səviyyəsinin yüksək yaşam standartlarına çatdırılması məqsədlərini qarşısına qoyan Azərbaycan kimi ölkələr üçün insan kapitalının sürətlə inkişaf etdirilməsi xüsusilə əhəmiyyət daşıyır.

Son illər Azərbaycanın dünyada artan nüfuzu və nailiyyətləri onun iqtisadiyyatın bir çox sahələrində əldə etdiyi uğurların nəticəsidir. Bu nailiyyətlərdə təhsilin müsbət rolu qaçılmazdır. Azərbaycan gəlirlərinin çox hissəsini neft sektorundan əldə etməsinə baxmayaraq qeyri-neft, o cümlədən, təhsil sektoruna daha çox investisiya ayırır, bu sahələrin yüksək inkişafına nail olmaq üçün bir sıra tədbirlər və proqramlar həyata keçirir. İnsanların elmə, ali təhsilə artan marağı nəticəsində ali təhsil müəssisələrinə tələbatın artması müşahidə olunur. Bu səbəbdən ildən-ilə tələbə qəbulu proqnozu yerlərinin sayı artırılır. İxtisaslar üzrə dövlət sifarişi ilə təhsil almaq üçün tələbələr arasında rəqabətin artdığı qəbul imtahanlarında abituriyenlərin göstərdikləri nəticələrdə özünü göstərir [3, s.24].

İnsan kapitalının inkişaf etdirilməsi üçün insana qoyulan investisiyanın miqdarı əhəmiyyətlidir. Dövlətimiz neft kapitallarını digər kapitallara, o cümlədən, insan kapitalına çevirərək inkişaf etdirməkdə maraqlıdır. Almaniya, Niderland, Norveç, Belçika, Sinqapur, ABŞ, İsveçrə, Finlandiya, Avstraliya, Danimarka kimi ölkələrdə inkişaf etmiş təhsil sistemi, güclü iqtisadi potensial və təhsilə qoyulan investisiya yüksək insan kapitalının inkişafına təkan verir. Dünya ölkələrinə baxdığımızda Tayvan və Koreya kimi ölkələrdə də yüksək insan kapitalının olduğunun şahidi oluruq.

Hazırki iqtisadiyyatımız biliyə, elmə, savada, inkişafa əsaslandığından bilik insanların həyat səviyyəsinə, o cümlədən iqtisadi şəraitə təsir göstərir. Bilik iqtisadiyyatı zamanı insan faktoru önə çəkildiyindən bilikli, təhsilli və bacarıqlı mütəxəssislər üçün geniş imkanlar yaranır. Belə ki, yüksək ixtisaslı kadrların hazırlanmasında və rəqabətə cavab verən məzunların yetişdirilməsində universitet təhsilinin əhəmiyyəti vacibdir. Avropada təhsil islahatları aparılarkən məzunların əmək bazarında rəqabətqabiliyyətinin yüksəldilməsi, təhsilalanların isə bilik, bacarıq, səriştə və vərdişlərinin inkişaf etdirilməsi mühüm prioritet olur [7, s.16].

İnsanların rifahının təmin olunmasını göstərən İnsan İnkişafı İndeksi sağlamlıq, təhsil və layiqli həyat səviyyəsi ilə ölçülür. İnsan inkişafı konsepsiyasının vacib göstəricisi olan təhsil həm də əhalinin şəxsi inkişafında da mühüm rola malikdir.

Azərbaycanın dünyaya inteqrasiyasını təmin edən ali təhsil günü-gündən kütləviləşməyə doğru gedir. Təəssüflər olsun ki, kütləviləşmə zamanı keyfiyyət aşağı düşür. Təhsilin keyfiyyətinin artırılması və inkişaf etdirilməsi ölkəmiz üçün prioritet məsələlərdəndir. Təhsilin keyfiyyətini göstərən meyarlar müxtəlifdir. Bu meyalara tədris edənlərin peşəkar hazırlıq səviyyəsi, təhsilverənlərin motivasiyası, ali təhsil müəssisəsinin mövcud maddi-texniki bazası, tədris ləvazimat və materiallarının keyfiyyəti, həmçinin məzmunu, tədris edilən metodologiyanın səmərəliliyi və s. aid ola bilər. Reytinq cədvəllərinə baxdığımızda dünyanın ən yaxşı universitetləri siyahısında ABŞ və Böyük Britaniyada yerləşən universitetlərin olduğunu görürük. Siyahıda bu ölkələrlə yanaşı, Yaponiya, Çin, Fransa, Almaniya, Cənubi Koreya, İtaliya, İspaniya kimi və s. ölkələrin də universitetləri yer almaqdadır.

Təhsildə müasir innovasiyaların tətbiqi inkişaf etmiş, eləcə də, inkişaf etməkdə olan bütün ölkələrin ən mühüm prioritet məsələlərindən biri sayılır. Yeni intellektual məhsul anlayışlarından olan kəşf, tövsiyə, eyni prinsip, elmi yanaşma, metodika, standart

təkmilləşdirilərək patent, sənədləşmə, səmərələşdirici təklif, marketinq tədqiqatlarının nəticələri, ixtira kimi qanuni cəhətdən rəsmiləşdirilə bilər. Bundan əlavə universitetlər həm də konsaltinq xidmətləri göstərə bilərlər.

İnsan kapitalının inkişaf etdirilməsi üçün insana qoyulan investisiyanın miqdarı əhəmiyyətlidir. Dövlətimiz neft kapitallarını digər kapitallara, o cümlədən, insan kapitalına çevirərək inkişaf etdirməkdə maraqlıdır. Almaniya, Niderland, Norveç, Belçika, Sinqapur, ABŞ, İsveçrə, Finlandiya, Avstraliya, Danimarka kimi ölkələrdə inkişaf etmiş təhsil sistemi, güclü iqtisadi potensial və təhsilə qoyulan investisiya yüksək insan kapitalının inkişafına təkan verir. Dünya ölkələrinə baxdığımızda Tayvan və Koreya kimi ölkələrdə də yüksək insan kapitalının olduğunun şahidi oluruq.

Hazırki iqtisadiyyatımız biliyə, elmə, savada, inkişafa əsaslandığından bilik insanların həyat səviyyəsinə, o cümlədən iqtisadi şəraitə təsir göstərir. Bilik iqtisadiyyatı zamanı insan faktoru önə çəkildiyindən bilikli, təhsilli və bacarıqlı mütəxəssislər üçün geniş imkanlar yaranır. Belə ki, yüksək ixtisaslı kadrların hazırlanmasında və rəqabətə cavab verən məzunların yetişdirilməsində universitet təhsilinin əhəmiyyəti vacibdir. Avropada təhsil islahatları aparılarkən məzunların əmək bazarında rəqabətqabiliyyətinin yüksəldilməsi, təhsilalanların isə bilik, bacarıq, səriştə və vərdişlərinin inkişaf etdirilməsi mühüm prioritet olur [7, s.16].

2005-ci ildən başlayaraq Azərbaycan böyük neft gəlirləri əldə etmişdir. Azərbaycan Respublikası Dövlət Neft Fondunun məlumatlarına əsasən 2000-2022-ci illər dövründə Fonda ümumilikdə 160 milyard ABŞ dolları məbləğində vəsait daxil olub ki, onun da 120 milyard dolları ölkə iqtisadiyyatının inkişafı ilə bağlı (həm dövlət büdcəsi vasitəsilə, həm də birbaşa Fonddan maliyyələşdirilməklə) müxtəlif layihələrə sərf olunub [5, s.38].

İnsan kapitalının mahiyyəti və inkişafı zəruriliyi müasir dövrdə hər bir ölkə iqtisadiyyatının effektiv fəaliyyəti insan kapitalının inkişafı ilə birbaşa bağlıdır. "İnsan kapitalı" anlayışı insanın biliyi, bacarığı, qabiliyyəti və sağlamlığı ilə bağlı elementlərin məcmusunu özündə ehtiva edir. Beləliklə, insan kapitalı cəmiyyətin və iqtisadiyyatın inkişafının intensiv məhsuldar amilidir. Bu, yaradıcı peşəkarlar, intellekt, biliklər, keyfiyyətli və yüksək məhsuldar əmək, habelə yüksək keyfiyyətli rifah deməkdir. İnsan kapitalının daşıyıcıları – özünün tibbi, psixoloji, intellektual, mədəni, yaradıcı və peşəkar qabiliyyətləri, habelə keyfiyyətli rifah səviyyəsi ilə rəqabətqabiliyyətli (yaxud rəqabətə yararlı) insanlardır.

2005-ci ildən başlayaraq aparıcı beynəlxalq təşkilatlar və bir sıra araşdırma mərkəzləri Azərbaycanın neft-qaz gəlirlərindən səmərəli istifadə olunması, ölkə iqtisadiyyatının diversifikasiyası və insan kapitalının inkişafına diqqətin artırılması istiqamətində çox sayda ciddi araşdırmalar aparmış və hesabatlar hazırlamışlar. Azərbaycan hökumətinin sifarişi ilə 2006-cı il BMT-nin İnkişaf Proqramı tərəfindən hazırlanan "Qara qızılı insan qızılına çevirmək: neft gəlirlərindən davamlı inkişafa nail olmaq üçün istifadə" adlı hesabatında əsas fikir bundan ibarət olub ki, "Azərbaycanın iri neft ixracatçısı olması hələ onun qlobal iqtisadiyyata tam inteqrə ola bildiyi anlamına gəlmir" [8].

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında dövrümüzün mühüm çağırışlarından biri kimi qeyd olunurdu ki, "artıq indidən ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatına" keçidin əsası qoyulmalı, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilməlidir". Konsepsiyanın 7-ci bölməsi "İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması" adlanırdı. Sənəddə qeyd olunurdu ki, "Konsepsiya çərçivəsində insan kapitalının inkişafı sahəsində ölkədə əhalininkeyfiyyətli səhiyyə və təhsil xidmətləri ilə təmin edilməsi və bu xidmətlərin müxtəlifsosial qruplar, o cümlədən aztəminatlı ailələr və yoxsul vətəndaşlar üçün əlçatanlığıəsas strateji xətt olaraq ön plana çəkilir" [6].

Konsepsiyada insan kapitalının inkişafının əsas istiqamətləri kimi aşağıdakılar göstərilmişdir [8, s.39]:

- Əhalinin sağlamlığı və səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələr,
- Müasir təhsil sisteminin formalaşdırılması,
- Sosial müdafiə sisteminin təkmilləşdirilməsi,
- Gender bərabərliyinin təmin olunması və ailənin inkişafı,
- təhsildə idarəetmənin təkmilləşdirilməsi davam etdiriləcək, bütün maraqlı tərəflərin cəlb olunmasını təmin edən idarəetmə modelinə üstünlük veriləcək;
- ölkə üzrə azyaşlı uşaqların məktəbəqədər təhsilə cəlbolunma səviyyəsi orta Avropa göstəricisi səviyyəsinə çatdırılacaqdır.

İnsan kapitalının inkişafı sahəsində dövlət siyasətini əks etdirən daha bir sənəd Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasınınmilli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsidir. Bu sənəddə nəzərdə tutulmuş 4 əsas strateji məqsəddən biri məhz insan kapitalının inkişafı ilə bağlıdır: "Rəqabətli, inklüziv və dayanıqlı iqtisadi məqsədlərə nail olmaq üçün göstərilən səylərin tərkib hissəsi kimi, üçüncü məqsəd insan kapitalının inkişafının daha da sürətləndirilməsidir". Buna uyğun olaraq sənəddəki 3-cü strateji hədəf insan kapitalının inkişaf etdirilməsidir. Orada vurğulanır ki, Azərbaycanda iqtisadiyyatın transformasiyası istiqamətində həyata keçiriləcək islahatların ayrılmaz tərkib hissəsi kimi, insan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və biliyin iqtisadi inkişafda rolunun artırılması ilə bağlı tədbirlər hərtərəfli dəstəklənəcəkdir [2, s.48].

Ancaq reallıq budur ki dünya dəyişir yeni proqramlar qəbul edilir amma təhlillərimiz belə bir qənaətə gəlməyə əsas verir ki, insan kapitalının inkişafı sahəsində həyata keçirilən tədbirlərdə insan kapitalını əmələ gətirən bütün komponentlərin inkişafını əhatə edən, bir-biri ilə əlaqələndirilmiş hədəflərə malik vahid proqram (strategiya) sənədinin hazırlanmasına və həyata keçirilməsinə ehtiyac var.

Nəticə olaraq qeyd edə bilərik ki, neft və neft məhsullarından son 30 ildə əldə edilən gəlirlər ölkəmizin sosial-iqtisadi inkişafında müstəsna rol oynayıb. Bölgələrdə müasir məktəblər tikilib, böyük infrastruktur layihələr həyata keçirilib. 2020-ci ildə 44 günlük Vətən müharibəsində qələbədən sonra bu proseslər işğaldan azad olunmuş ərazilərdə sürətlə davam etdirilir. Belə ki "Ağıllı kənd", "Ağıllı şəhər" prinsipi ilə qurulan Qarabağda müasir biliklərə sahib, dünyaya inteqrasiya olmuş bacarıqlı, səriştəli gənclərə ehtiyac var. 2024- cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə yeni perspektivlər açır. Bu reallıqlardan irəli gələrək neft kapitalını insan kapitalına çevirib yüksək keyfiyyətli təhsil və əmək bazarının tələblərinə cavab verən peşəkar hazırlıq mərkəzlərinin fəaliyyəti gələcək üçün müsbət zəmin yaradır [5, s.13].

Müasirləşən cəmiyyətlərdə bilik və bacarıqlar kapital sayılır və iqtisadiyyatın əsas resursuna çevrilir. İntellektual işçilərin üstünlük təşkil etdiyi cəmiyyət insanların ictimai fəaliyyətinə və sosial məsuliyyətinə də yeni tələblər irəli sürür və beləliklə "təhsilli insan" anlayışı da yeni məna kəsb edir. Təhsil hər bir ölkənin insan inkişafı və dövlətin gələcəyi üçün vacibdir. Biz artıq elə bir sürətlə dəyişən dövrdə yaşayırıq ki, təhsil sahəsində atılan addımlar müasir tələblərlə deyil, gələcəyin perspektivləri üzərində köklənməli və kəmiyyətə deyil, keyfiyyətə yönlənməlidir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun hesabat məlumatları. https://www.oilfund.az/report-and-statistics/report-archive

2. Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilib. BMT-nin İnkişaf Proqramı, (2022) İnsan İnkişafı, Bakı.

3. Aslanli K., Agayev R., İsmayil Z., Mehtiyev A., (2013), Assessment of Economic and Export Diversification Azerbaijan. RWI.

4. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilib.
5. Ahad M. Osman-Gani. Human Capital Development in Singapore: An Analysis of National Policy Perspectives.
6. Becker G.S., (1962), Investment in Human Capital: A Theoretical Analysis, Journal of Political Economy. Supplement.
7. Gülalıyev M.G., (2018), İnsan kapitalının və "zəka axınının" dövlət tənzimlənməsi, AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərləri, №3.
8. https://www.yeniazerbaycan.com/Gundem_e4049_az.html

**Xülasə**

Məqalədə Azərbaycanda son 30 ildə neftdən gələn gəlirlərin insan kapitalının inkişafı üçün həyata keçirilən tədbirlər araşdırılmış, eləcə həyata keçirilən layihələrin insanların həyatında sosial, iqtisadi və mədəni sahədə təsirləri ön plana çəkilmişdir. Azərbaycan kimi müstəqilliyini yeni əldə etmiş inkişaf etməkdə olan ölkələrin neft kapitalını insan kapitalına çevirməsi üçün inkişaf etmiş ölkələrin təcrübəsindən yararlanmağı araşdırılır. Ölkəmizdə son illərdə aparılan islahatlar qəbul edilən edilən fərman və sərəncamlar insan rifahının yaxşıladırılmasına, vətənpərvər ruhda böyüməsinə və müasir biliklərə yiyələnməsinə yol açır. Bu mənada sözügedən məqalədə elmə, təhsilə ayrılan vəsaitlərin hesabına əmək bazarında rəqabətqabiliyyətinin yüksəldilməsi, təhsilalanların isə bilik, bacarıq, səriştə və vərdişlərinin inkişaf etdirilməsi mühüm prioritet olaraq qaldığı diqqətə çatdırılır.

***Açar sözlər:*** *insan kapitalı, dünya təcrübəsi, təhsil, neft, cəmiyyət.*

**РЕЗЮМЕ**

В статье были исследованы меры, реализованные для развития человеческого капитала нефтяных доходов в Азербайджане за последние 30 лет, а также отмечено влияние реализованных проектов на жизнь людей в социальной, экономической и культурной сферах. В настоящее время изучается возможность использования опыта развитых стран для преобразования нефтяного капитала в человеческий капитал новых независимых развивающихся стран, таких как Азербайджан. Реформы, проведенные в нашей стране в последние годы, принятые указы и распоряжения открывают путь к улучшению благосостояния людей, росту патриотического духа и приобретению современных знаний. В этом смысле в упомянутой статье обращается внимание на то, что повышение конкурентоспособности на рынке труда и развитие знаний, умений, компетенций и навыков обучающихся за счет средств, выделяемых на науку и образование, остаются важным приоритетом.

***Ключевые слова:*** *человеческий капитал, мировой опыт, образование, нефть, общество.*

**SUMMARY**

In the article, the measures implemented for the development of human capital of oil revenues in Azerbaijan in the last 30 years were investigated, as well as the effects of the implemented projects on people's lives in the social, economic and cultural spheres were highlighted. It is being investigated to benefit from the experience of developed countries in order to convert the oil capital into human capital of newly independent developing countries like Azerbaijan. The reforms carried out in our country in recent years, the decrees and orders adopted, pave the way for improvement of human welfare, growth in patriotic spirit and acquisition of modern knowledge. In this sense, in the mentioned article, it is brought to attention that increasing the competitiveness in the labor market and developing the knowledge, skills, competence and habits of the students at the expense of the funds allocated to science and education remain an important priority.

***Keywords:*** *human capital, world experience, education, oil, society.*

# TƏHSİL MÜƏSSİSƏSİNİN İDARƏ EDİLMƏSİNİN METODLARI

**Şahbazova Aybəniz Balaəli qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsil idarəçiliyi təhsil müəssisələrinin istiqamətinin, effektivliyinin və keyfiyyətinin formalaşmasında həlledici rol oynayır. O, öyrənmə təcrübəsini optimallaşdırmaq və tələbələrin ümumi inkişafına kömək etmək məqsədi daşıyan müxtəlif yanaşma və strategiyaları əhatə edir. Bu tezis təhsil idarəetməsinin dörd fərqli növünü araşdırır: mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş, xarici və daxili, avtokratik və demokratik və yaradıcı təhsil idarəetməsi.

Təhsil müəssisəsinin idarə edilməsini başa düşmək təhsil mühitində tətbiq olunan müxtəlif yanaşmalar haqqında dəyərli fikirlər verə bilər.

Təhsil İdarəetməsinin 4 Növü var.

*Əsasən dörd növ intizam hökmü və fiziki resursların müəyyən edilməsi var. Onların hamısı aşağıda verilmişdir:*

1. Mərkəzləşdirilmiş və Mərkəzləşdirilməmiş Təhsil İdarəetmə

Mərkəzləşdirilmiş təhsil idarəetməsi qərar qəbul etmə səlahiyyətinin ilk növbədə mərkəzi idarəetmə orqanına və ya administrasiyaya aid olduğu iyerarxik sistemə aiddir. Bu yuxarıdan aşağıya yanaşma standartlaşdırılmış siyasətlərə, sadələşdirilmiş kurrikulumun icrasına və səmərəli resurs bölgüsünə imkan verir. Bununla belə, bu, çevikliyi məhdudlaşdıra və xüsusi ehtiyaclara yerli uyğunlaşmaya mane ola bilər.

Digər tərəfdən, qeyri-mərkəzləşdirilmiş təhsil idarəetməsi qərar qəbuletmə səlahiyyətinin yerli məktəblərə, şöbələrə və ya ayrı-ayrı müəllimlərə verilməsini nəzərdə tutur.

2. Xarici və daxili təhsilin idarə edilməsi

Xarici təhsilin idarə edilməsi təhsil müəssisələrinə nəzarət etmək və tənzimləmək üçün dövlət orqanları, tənzimləyici qurumlar və ya özəl təşkilatlar kimi kənar qurumların təyin edilməsini nəzərdə tutur. Bu kənar orqanlar hesabatlılığı təmin edir, standartlar təyin edir və uyğunluğu təmin edir. Bununla belə, həddindən artıq kənar nəzarət yaradıcılığı boğa və yerli muxtariyyəti məhdudlaşdıra bilər.

Daxili təhsilin idarə edilməsi isə təhsil müəssisəsinin özünün rəhbərlik və qərar qəbul etmə məsuliyyətini vurğulayır. Bu, məktəblərə və ya kolleclərə öz əməliyyatlarına, kurrikulumun dizaynına və tədris strategiyalarına daha çox nəzarət etməyə imkan verir. Daxili idarəetmə sahiblik hissini təşviq edir və qurumun baxışı və dəyərlərinə uyğun gələn mühiti gücləndirir. Buna baxmayaraq, keyfiyyəti qorumaq və potensial qərəzlərdən qaçmaq üçün güclü liderlik və hesabatlılıq mexanizmləri tələb olunur.

3. Avtokratik və Demokratik Təhsil İdarəetmə

Avtokratik təhsil idarəçiliyi mərkəzləşdirilmiş səlahiyyətli şəxsə, çox vaxt təhsil müəssisəsinin direktoruna və ya rəhbərinə arxalanır, o, birtərəfli qaydada və başqalarının əhəmiyyətli töhfəsi olmadan qərarlar verir. Bu yanaşma səmərəliliyi, vahidliyi və nizam-intizamı üstün tutur. Bununla belə, bu, əməkdaşlığı məhdudlaşdıra, yaradıcılığı sıxışdıra və tələbələr arasında tənqidi düşünmə bacarıqlarının inkişafına mane ola bilər.

Digər tərəfdən, demokratik təhsil idarəçiliyi iştirakçı qərarların qəbul edilməsini və paylaşılan idarəetməni vurğulayır. O, idarəçilər, müəllimlər, tələbələr və valideynlər arasında əməkdaşlığı təşviq edir, sahiblik və inklüzivlik hissini aşılayır. Bu yanaşma tələbələr arasında yaradıcılıq, tənqidi düşünmə və problem həll etmə bacarıqlarını təşviq edir. Bununla belə, konsensusun yaradılması və həyata keçirilməsi üçün daha çox vaxt tələb oluna bilər, bu da inzibati prosesləri potensial olaraq ləngidə bilər.

4. Yaradıcı Təhsil İdarəetmə

Yaradıcı təhsil idarəçiliyi tədris və öyrənmə üçün innovasiyaları, təcrübələri və yaradıcı yanaşmaları təşviq edən mühitin formalaşmasına diqqət yetirir. Bu idarəetmə tərzi tələbə

mərkəzli təhsili, fəal iştirakını və incəsənət, texnologiya və fənlərarası fənlərin inteqrasiyasını təşviq edir.

Təhsil idarəçiliyi hər biri öz güclü və məhdudiyyətləri olan müxtəlif yanaşmaları əhatə edir. Təhsilin idarə edilməsinin nüanslarının başa düşülməsi effektiv öyrənmə mühitlərini təşviq etmək üçün istifadə olunan müxtəlif strategiyalar haqqında dəyərli anlayışlar təmin edir.

Ədəbiyyat
1. Məmmədzadə, R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010. – 170 s.
2. https://ru.scribd.com/document/538788613/t%C9%99hsilin-idare-olunmasl

## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN REYTİNQİNDƏ REKLAMIN ROLU

**Timraliyeva Samirə Rasim qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ali təhsil müəssisələrində informasiya və reklam tələbələrin məlumatlandırılması və cəlb edilməsində mühüm rol oynayır. Reklamın rolunun mahiyyəti akademik proqramlar, fakültə məlumatları, tədqiqat imkanları və universitet daxili imkanlar haqqında dəqiq və hərtərəfli təfərrüatların təmin edilməsindən ibarətdir. Bu, tələbələrə təhsil səyahətləri ilə bağlı məlumatlı informasiya əldə etmək imkanı verir. Digər tərəfdən, reklam müraciət edən tələbələri cəlb etmək üçün qurumun güclü tərəflərini, unikal xüsusiyyətlərini və nailiyyətlərini təbliğ etmək məqsədi daşıyır. Reklamın vəzifəsi universitetin layihələri, uğur yolu, reytinqn, ən müasir qurğular və ya uğur qazanmış məzunlar kimi rəqabət üstünlüklərini vurğulayan cəlbedici hekayələr yaratmaqdır. Həm informasiya təminatı, həm də reklam ali təhsil müəssisələri haqqında təsəvvürün formalaşdırılması, qəbul tendensiyalarına təsir göstərmək, akademik ictimaiyyətdə inam və etibarı artırmaq üçün həyati əhəmiyyət kəsb edir.

"Müəssisə reklamı həm də korporasiya və ya imic reklamı adlanır. Bunun görkəmi, əsasən korporasiya səviyyəsində tanınmaq və ya hər hansı bir təşkilatda əhalidə maraq oyatmaqdır " [1]. Ali təhsil müəssisələrinin reytinqində reklamın rolu əhəmiyyətlidir. Reklam universitetin brend görünməsini artırır, onu gələcək tələbələr, tədqiqatçılar və maraqlı tərəflər arasında daha tanınan və yaddaqalan edir. Bu yüksək göstəriş qavrayışa müsbət təsir göstərə bilər ki, bu da dolayısı ilə reytinqlərə təsir edə bilər. Effektiv reklam istedadlı tələbələri, müəllimləri və tədqiqatçıları quruma cəlb etməyə kömək edə bilər. Yüksək səviyyəli şəxslər akademik mükəmməlliyə, tədqiqat nəticələrinə və ümumi institusional nüfuza töhfə verirlər, bunların hamısı sıralama sistemləri tərəfindən nəzərə alınan amillərdir. Reklama sərmayə qoyan universitetlər həmçinin tədqiqat sahələri, fakültələrin inkişafı və ya keyfiyyətin təminatı kimi digər sahələrə də sərmayə qoya bilər. Bu investisiyalar universitet tələbə münasibəti, tədqiqatların maliyyələşdirilməsi və tələbə məmnuniyyəti kimi reytinqlərə təsir edən müxtəlif göstəriciləri təkmilləşdirə bilər.

Ali təhsil müəssisələrində reklamın strateji istifadəsi təhsil müəssisəsinin ümumi nüfuzuna və fəaliyyətinə töhfə verə bilər və bununla da onun reytinq sistemlərindəki mövqeyinə təsir göstərə bilir. Bununla belə, qeyd etmək vacibdir ki, reytinq təşkilatları universitetləri qiymətləndirərkən ilk növbədə obyektiv məlumatlara və ölçülərə əsaslanır. Məsələn, " Qs World University Rankings" universitetlərin reytinq baxımından sıralamasında rol oynayır [3].

Ali təhsil müəssisələrinin reytinqində reklamın rolu çoxşaxəlidir, baxmayaraq ki, onun reytinqlərə birbaşa təsiri məhduddur. Reklam universitetlər üçün potensial tələbələri və professor-müəllim heyətini cəlb etmək və müsbət ictimai imic yaratmaq üçün bir vasitə kimi xidmət edir. Reklam vasitələri beynəlxalq tələbələri və professor-müəllim heyətini cəlb etməklə ali təhsil müəssisələrinin əhatəsini qlobal miqyasda genişləndirə bilər. Artan

beynəlmiləlləşmə mədəni müxtəlifliyi, qlobal nüfuzu və əməkdaşlıq imkanlarını, reytinq təşkilatları tərəfindən qiymətləndirilən amilləri artıra bilir. Universitetin məzunlarını hədəfləyən reklam məqsədləri ali təhsil müəssisəsinə inam hissini yarada və universitet fəaliyyətlərində fəal iştirakı təşviq edə bilər. Məzunların cəlb edilməsi maliyyə resursları və universitetin inkişafla bağlı göstəriciləri təkmilləşdirməklə reytinqlərə müsbət təsir göstərə bilər.

"Universitet rəhbərləri xidmətlərini istiqamətləndirmək və qiymətləndirmək üçün reytinq məlumatlarından əsas fəaliyyət göstəriciləri kimi istifadə edirlər. Akademiklər reytinqdən iş axtarışında istifadə edirlər. Tələbələr və onların valideynləri harada təhsil alacaqları barədə qərar vermək üçün onlardan istifadə edirlər" [2]. Reklam sayəsində ali təhsil müəssisələri öz institusional nailiyyətlərini, cəmiyyətə töhfələrini və unikal təkliflərini vurğulamaqla ictimai rəyi formalaşdıra bilər. Müsbət ictimai rəy maraqlı tərəflərin rəy və quruma münasibətinə təsir edərək əhəmiyyətli şəkildə reytinqləri yüksəldə bilər.

Ali təhsil müəssisələrinin reytinqində reklamın rolu mürəkkəb, çoxşaxəli məsələdir və diqqətlə nəzərdən keçirilməyi tələb edir. Reklam, şübhəsiz ki, ali təhsil müəssisələri haqqında məlumatlılığın formalaşmasında mühüm rol oynayır. Reytinqlər adətən akademik reputasiya, professor-müəllim heyətinin keyfiyyəti, tədqiqat nəticələri, tələbə məmnuniyyəti və institusional resurslar da daxil olmaqla geniş spektrli amilləri nəzərə alır. Beləliklə, hətta yaxşı maliyyələşdirilən bir reklam kampaniyası, akademik mükəmməlliyin bu əsas aspektlərinə toxunmasa, müəssisənin reytinqini əhəmiyyətli dərəcədə dəyişdirmək üçün kifayət olmaya bilər.

Qeyd edə bilərik ki, reklam universitetlərə öz brend imicini artırmağa, potensial tələbələr, müəllimlər və maraqlı tərəflər arasında onların görünürlüyünü artırmağa kömək edir. Güclü brend mövcudluğu bir çox sıralama sistemlərinin mühüm tərkib hissəsi olan akademik reputasiya kimi amillərə müsbət təsir göstərə bilər. Bununla yanaşı, reklam ali təhsil müəssisələrinin güclü tərəflərini və resurslarını nümayiş etdirməklə yüksək istedadı, o cümlədən fakültə və tədqiqatçıları cəlb edə bilər. Bu, öz növbəsində, bir çox sıralama metodologiyasında əsas amillər olan tədqiqat nəticələrinin və akademik mükəmməlliyin təkmilləşdirilməsinə kömək edə bilər.

Bundan əlavə, reklam bir qurumun nailiyyətlərini, təşəbbüslərini və cəmiyyətə təsirini vurğulamaqla vəsait toplamaq səylərinə kömək edə bilər. Artan maliyyə resursları universitetlərə infrastruktura, fakültənin inkişafına və tələbələrə dəstək xidmətlərinə sərmayə qoymağa imkan verir ki, bunların hamısı reytinqlərdə öz mövqelərini yüksəldə bilər. Reklam, reytinq təşkilatları tərəfindən getdikcə daha çox qiymətləndirilən müxtəliflik və inklüziv təşəbbüslərin təşviqində mühüm rol oynaya bilər. Müxtəlifliyə sadiqliyini nümayiş etdirməklə və inkluzivliyi olan qruplara yönəlmiş proqramları vurğulamaqla universitetlər öz reytinq xallarını və reputasiyalarını yaxşılaşdıra bilərlər. Bununla belə, reklam və təhsilin keyfiyyətinə arasında tarazlıq yaratmaq vacibdir. Əsas akademik sahələrdə əhəmiyyətli təkmilləşdirmələr olmadan marketinqə həddən artıq etibar etmək reputasiyanın zədələnməsinə səbəb ola bilər və uzunmüddətli uğuru sarsıda bilər.

Əslində, reklam ali təhsil müəssisələrinin reytinqlərin yeganə müəyyənedicisi olmasa da, onun strateji istifadəsi qurumun mövqeyinə töhfə verən əsas amillərə müsbət təsir göstərə bilər. Akademik mükəmməlliyi artırmaq üçün həqiqi səylərlə yanaşı, reklamdan səmərəli istifadə etməklə universitetlər ali təhsilin rəqabətli mənzərəsində öz mövqelərini gücləndirə bilərlər.

Ədəbiyyat

1. Axundbəyli P.X. Reklam işinin təşkili və idarə edilməsi. Dərslik. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı – 2016. 416 səh.

2. Hazelkorn, E., Loukkola, T. and Zhang, T. (2014). Rankings in institutional strategies and processes: Impact of illusion? European University Association. EUA Publications 2014
3. https://www.topuniversities.com/qs-world-university-rankings

## ELEKTRON MƏKTƏBİN STRATEJİ İDARƏ OLUNMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ

**Valehova Günay Ramil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məktəbi idarəetmə - məktəbin daxilində baş verən mürəkkəb prosesləri və münasibətləri (buraya pedaqoji, psixoloji, təşkilati, metodik proeslər daxildir) şüurlu sürətdə təzimləmə prosesidir. Məktəbin idarə edilməsinin əsas obyektləri dedikdə, orta təhsil sistemi, xalq təhsil orqanları və məktəb rəhbərlərinin idarəetmə ilə bağlı fəaliyyət sahələri nəzərdə tutulur. Məktəb rəhbərləri, müəllimlər və məktəbdaxili ictimai idarəetmə orqanları isə məktəbi idarəetmənin subyektləri kimi çıxış edirlər. Ümumdövlət səviyyəsində təhsil sistemini idarəedən başlıca subyektlər isə respublika hökuməti, Elm və Təhsil Nazirliyi və yerli idarəetmə orqanları və məktəb rəhbərləri hesab edilir [1, s.113].

Məktəbi idarəetmənin əsas fəaliyyət parametrləri bir çox elmi-pedaqoji tədqiqatlarda aşağıdakı kimi öz əksini tapmışdır:

– Planlaşdırma;
– Təşkiletmə;
– Stimullaşdırma;
– Pedaqoji prosesin nəticələrinin yoxlanması və təhlili.
– Pedaqoji prosesin monitorinqlərinin keçirilməsi.

Məktəbin fəaliyətinə ümumi rəhbərliyi - məktəb direktoru, təlim-tərbiyə işləri üzrə direktor müavinləri, sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçı (müavin), hərbi rəhbər ( gənclərin çağrışaqədər hazırlığı üzrə rəhbər) və təsərrüfat işləri üzrə direktor müavinindən təşkil olunmuş eyni məqsədə müxtəlif vəzifələrlə xidmət edən məktəb rəhbərləri həyata keçirirlər.İdarəetmənin təkmilləşdirildiyi bir dövrdə məktəbin idarəedilməsi və ona rəhbərliyin köhnə üslub və metodlarından uzaqlaşıb yeni, daha humanist, demokratik əsaslarla idarəetmə prinsiplərinə əsaslanmadan məktəb rəhbərlərinin səylərini birləşdirmək və düzgün idarə etmək olmaz.

Dünyada sürətlə genişlənməkdə olan qloballaşma dövrü yeni cəmiyyətin tələblərinə uyğun idarəetmə elminin formalaşdırılması zərurətini qarşıya qoyur. Bu baxımdan "pedaqoji menecment" anlayışı məktəbin müasir idarə olunmasında təhsil prosesinin subyektlərinin maraqları, tələbləri, ehtiyacları və motivləri üzrə istiqamətlərini əks etdirir.

Məktəbin daxili mexanizmlərinin idarə edilməsi orta təhsilin keyfiyyətinin yüksəldilməsi üçün məktəbin fəaliyyətinin artırılmasına töhfə verir. Məktəb idarə olunmasının effektiv təşkili nəticəsində müəllimlərin iş fəaliyyəti şagirdlərin gözlənilən nəticələrə malik olmasına təsir edir və bu təsir məktəb rəhbərliyinin səmərəliliyi və təlim nailiyyətləri nəticələrinin əldə olunmasında daim hiss olunur [4, s.65].

Məktəbin idarə olunma vasitələri məktəb rəhbərliyi ənənəvi idarəetmənin daha böyük bir hissəsi olsa da, müasir idarəetmə nəzəriyyəsi və düşüncəsi məktəbin daha çox sahələrinin idarə olunmasından bəhs edir. Məktəbin müasir idarə olunması aşağıdakı məqsədlərə xidmət edir:

• Məktəbin missiyası, məqsədi və yeni baxışlarını ifadə etmək;
• Tədrisin keyfiyyətli idarə olunmasını təşkil etmək;
• Tədrisin səmərəliliyi, təhlükəsizliyi və etibarlılığını təmin etmək;
• Şagirdlərin məktəb mühiti ilə qarşılıqlı əlaqəsini yaxşılaşdırmaq;
• Şagirdlərin akademik nəticələrinin irəliləməsinə nəzarət etmək;

• Müəllimlərin peşəkar inkişafını idarəetmə sistemi ilə əlaqələndirmək;
• İcmanın demokratik təhsil mühitində yaşamasını təmin etmək.

Tədris prosesinin təkmilləşdirilməsi EDM metodologiyalarının inkişafının ümumi məqsədidir. EDM-nin dörd məqsədi verilmişdir:

1. Təlim prosesi zamanı şagirdlərin necə hərəkət edəcəyini proqnozlaşdırmaq. Məqsəd şagirdin idrak imkanları, biliyi, davranışı və oxumaq üçün motivasiyası haqqında hərtərəfli məlumatlara malik modelin qurulması ilə həyata keçirilir.

2. Sahədə bilik üçün yeni təmsilçi çərçivələrin və modellərin yaradılması. EDM metodologiyalarından istifadə edən tələbələrdə aşkar edilmiş öyrənmə üstünlükləri və idrak imkanları spektrinə uyğun olan təhsil təqdimatı yanaşmalarını seçmək vacibdir.

3. Şagirdlər və təlim sistemləri arasında və ya daha ümumi şəkildə müəllim və tələbələr arasında qarşılıqlı əlaqənin nəticələrinin tədqiqi. Buraya tələbələr üçün uyğunlaşa bilən təkliflərin işlənib hazırlanması, fənnin təqdimatını necə qurmaq barədə təlimatçıya göstəriş verən rəylərin verilməsi və təhsil mühitinin öyrənmə dəstəyinin bu öyrənmənin nəticələrinə təsirinin tədqiqi daxildir.

4. Öyrənənlərin və tələbələrin psixologiyası haqqında anlayışın artırılması. EDM-də istifadə olunan əsas klassik məlumatların öyrənilməsi üsulları təsnifat, qruplaşma, ardıcıl nümunələrin axtarışı, məcburi qaydaların axtarışı və mətnlərin intellektual təhlilidir.

EDM metodlarının tətbiqi prosesi, bir qayda olaraq, aşağıdakı beş mərhələdən ibarətdir:

1. məlumatların əvvəlcədən işlənməsi;

2. bir və ya bir neçə verilənlərin çıxarılması texnikasından istifadə, verilənlərdə nümunələrin tapılması;

3. aşkar edilmiş nümunələrin təsdiqi (yoxlanması);

4. tədris mühitində qarşıdan gələn hadisələri proqnozlaşdırmaq üçün aşkar edilmiş nümunələrdən istifadə etmək;

5. qərarların qəbul edilməsində və təhsil siyasətinin formalaşdırılmasında kömək etmək üçün yaradılmış proqnozlardan istifadə.

Başdan sona EDM strategiyası və tətbiqi bütün maraqlı tərəflər üçün məxfilik və etika tələb edir. EDM-də gələcək tədqiqatlar üçün istiqamətlər aşağıdakılardır:

1. EDA alətləri müəllimlər tərəfindən istifadə oluna biləcək qədər sadə və istifadəçi dostu olmalıdır. Bu alətlər EOS-a inteqrasiya edilməli və məlumat əldə etmək üçün interfeys təmin etməlidir [5, s.113].

2. Modellərin və verilənlərin standartlaşdırılması. Təhsil məlumatlarının toplanması üçün alətlər onları saxlamalı və nəticədə yaranan modelləri vahid şəkildə təsvir etməlidir ki, modellər və məlumatlar müxtəlif ETS arasında ötürülə bilsin.

3. Məlumatların təhlili metodları onların təhsil məlumatlarına tətbiqi üçün uyğunlaşdırılmalıdır. Xüsusilə, onlar semantik informasiya ilə işləməyi bacarmalıdırlar.

Ədəbiyyat

1. Azərbaycanda əlavə təhsil: tarixi və müasir problemləri (şərikli). Bakı, “Müəllim” nəşriyyatı. 2012, s.113-137.

2. Elektron, rəqəmsal məktəb / Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş “Gənc tədqiqatçıların ümumrespublika elmi konfransı”, Qafqaz Universiteti. 06-07 may, 2010 s.347-349.

3. Məktəbdaxili idarəetmədə bazis istiqamətlər // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, 2008, №24, s.133-140

4. Məktəbdaxili idarəetmədə İKT-dən istifadə // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2007, №2, s.65-69

5. Məktəbin bir sistem kimi təkmilləşdirməsinin bəzi məsələləri. // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, 2010, №29, s.113-117

6. Новый подход к управлению образованием в Азербайджане, электронная школа. Воронеж: Мастеринг. // Перспективы развития современной школы. Научно-методический журнал, 2009, №6, s. 35-40

7. Основные направления подготовки менеджеров образования. // Вестник Павлодарского Государственного Университета Серия педагогические науки. (Совместно с Казахстанским многопрофильным институтом «Парасат»), 2011, № 1, s.147-153

8. Трайнев, В.А. Новые информационные коммуникационные технологии в образовании / В.Ю. Теплышев, И.В. Трайнев. - М.: Издательско-торговая корпорация "Дашков и К", 2013. - 320 с.

## XÜLASƏ

Məktəb mühüm, mürəkkəb mexanizmli pedaqoji sistemdir. O, elmi-nəzəri idarəetmənin obyektidir. Məktəbin idarə edilməsi anlayışının mahiyyətini təhlil etsək görərik ki, bu ad altında təşkilati, metodiki, kadr, tərbiyə, planlaşdırma, maliyyə, təchizat, nəzarət və s. problemlərin məcmusu, təhsil sistemi müəssisələrinin fəaliyyətinin düzgün təmin olunması, kəmiyyət və keyfiyyət baxımından bu məsələlərin gələcəkdə genişləndirilməsi və inkişaf etdirilməsi prosesləri dayanır.

***Açar sözlər:*** *strateji idarəetmə, təkmilləşdirmə, yeni model.*

## SUMMARY

School is an important, complex pedagogical system. It is the object of scientific-theoretical management. If we analyze the essence of the concept of school management, we will see that organizational, methodical, personnel, education, planning, finance, supply, control, etc. are included under this name. the set of problems, the proper provision of the activities of educational system institutions, the processes of future expansion and development of these issues in terms of quantity and quality.

***Keywords:*** *strategic management, improvement, new model*

## РЕЗЮМЕ

Школа – важная и сложная педагогическая система. Это объект научно-теоретического управления. Если проанализировать сущность понятия управление школой, то мы увидим, что под это название включены организационные, методические, кадровые, воспитательные, плановые, финансы, снабжение, контроль и т.д. комплекс проблем, правильное обеспечение деятельности учреждений образовательной системы, процессы дальнейшего расширения и развития этих вопросов в количественном и качественном отношении.

***Ключевые слова:*** *стратегический менеджмент, улучшение, новая модель.*

# ELEKTRON MƏKTƏBİN STRATEJİ İDARƏ OLUNMASININ SƏMƏRƏLİ FƏALİYYƏTİ ÜÇÜN PEDAQOJİ ŞƏRAİT

**Valehova Günay Ramil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bu gün qlobal iqtisadi inkişafın gələcəyini müəyyənləşdirən texnologiyalar dünyanın ən aparıcı dövlətlərinin həyata keçirdikləri siyasətdə əsas xətti təşkil edir. Sürətlə yayılmaqda olan informasiya- kommunikasiya texnologiyaları (İKT), onların fonunda formalaşaraq yeni inkişaf vüsəti qazanan qloballaşma prosesləri ölkələrin sosial-iqtisadi həyatına birbaşa təsir göstərməkdədir. Təsadüfi deyil ki, XXI əsr "Kompüter əsri" adlandırılır və bütün sahələrdə İKT-nin tətbiqi prosesi gedir. Demək olar ki, dünyanın əksər ölkələri İKT-dən müxtəlif

sahələrdə, o cümlədən təhsil sahəsində istifadəni nəzərdə tutan milli strategiyalar qəbul etmişlər. Bir çox hallarda bu strategiyaların məqsədi şagirdlərə, eyni zamanda, müəllimlərə lazımi İKT bilikləri verməkdir. Digər vacib cəhət məktəblərin müasir texnologiya və infrastrukturla təchiz edilməsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 avqust 2004-cü il tarixində təsdiq etdiyi "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)" ölkəmizdə bu prosesə start verdi. Bundan sonra 10 iyun 2008-ci il tarixində ölkə başçısı tərəfindən qəbul edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" isə İKT-dən istifadə etməklə ölkəmizdə beynəlxalq standartlara uyğun keyfiyyətcə yeni təhsil modelinin qurulmasını, vahid elektron təhsil məkanının yaradılmasını və təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya etdirilməsini əsas məqsəd kimi qarşıya qoyub. Dünya təcrübəsi göstərir ki, İKT-dən istifadə etməklə qurulan müasir təhsil modeli məktəbin pedaqoji heyəti qarşısında da yeni tələblər və vəzifələr qoyur [1].

Dünya ölkələrinin bir çoxunda tətbiq edilən e-məktəb sistemində yazılan qeydlərə müəllimlər və digər məktəb rəhbərləri tərəfindən nəzarət edilir. Beləliklə, e-məktəb sisteminin köməyi ilə tədris ili başa çatmadan şagirdlərin qiymət cədvəlini əldə etməsi mümkündür

Ölkədə informasiya cəmiyyətinin bərqərar olması, onun yaratdığı imkanlardan vətəndaşların, cəmiyyətin, dövlətin inkişafı üçün səmərəli istifadə edilməsi, ölkənin davamlı və dayanıqlı tərəqqisi, İKT-nin dövlət idarəçiliyində hərtərəfli tətbiqi, habelə sosial-iqtisadi və mədəni sahələrin inkişafına təkan verən iqtisadi sektor kimi inkişaf etdirilməsi Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiyanın əsas məqsədlərindən biridir. Burada İKT-nin cəmiyyətin inkişaf amili kimi göstəricilərindən biri kimi məhz e-təhsil göstərilir.

Qeyd edək ki, "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il Sərəncamının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Burada da gözlənilən nəticələrdən biri odur ki, təhsilin bütün pillələrində İKT-nin tətbiqi və ondan istifadə genişləndiriləcək. Dövlət proqramının həyata keçirilməsi üçün nəzərdə tutulan tədbirlər planında icrası Təhsil Nazirliyinə həvalə edilən tədbirlər də var.

E-məktəb sistemi sayəsində valideynlər də rahatlıqla məktəbdəki övladı haqqında məlumat ala bilirlər

Bu gün dünyada təhsilin müxtəlif pillələrində nəzərdə tutulan tədbirlər var ki, bu da şagirdlərin təhsil almasında mühüm rol oynayır. Eləcə də valideyn-şagird-müəllim arasında elektron formada məlumat bazasının yaranmasına imkan verir.

Hazırda dünyanın bir çox məktəblərində tətbiq olunan belə yeniliklərdən biri e-məktəb sistemidir. Bu gün dünyada internetdən istifadənin geniş yayılması ilə artıq bir çox sahədə internetin təsirini görmək mümkündür. Beləliklə, yarana biləcək ən kiçik bir problem ilə bağlı internetə müraciət edirik. İnternet üzərində kiçik əməliyyatlar sayəsində daha asan bir şəkildə məlumat ala bilirik. İstifadəyə açıq olan internet sistemi vətəndaşların da marağını çəkməyi bacarmış və şagirdlər üçün də müxtəlif sahələrdə asanlıqlar yaradılıb. Məsələn, bir çox təhsil məlumatlarının olduğu e-məktəb sisteminə internetdən daxil olmaq mümkündür. E-məktəb sistemi sayəsində artıq şagirdlərin məktəbdə etmiş olduqları hər cür hərəkətləri və eyni zamanda daxil olduqları imtahanlarda aldıqları qeydlər öz əksini tapır. E-məktəb sistemində yazılan bu qeydlərə müəllimlər və digər məktəb rəhbərləri tərəfindən nəzarət edilir.

Təhsil sisteminin informasiyalaşdırılması bir çox aparıcı ölkələrdə, o cümlədən Azərbaycanda da davamlı olaraq həyata keçirilir. Belə ki, İKT-nin təhsilin idarə edilməsinə səmərəli inteqrasiyası davam etdirilir və təhsilin vahid informasiya sisteminin yaradılması

yolu ilə idarəetmə mexanizmləri tətbiq olunur. Həmçinin elektron sənəd dövriyyəsi sisteminin tətbiqi genişləndirilməsi hesabına təhsil sisteminin idarə edilməsində şəffaflığın artması imkanı yaranır. Hal-hazırda ali təhsil müəssisələrinin ölkənin sosialiqtisadi inkişaf tələblərinə uyğun bilik və bacarığa malik mütəxəssis yetişdirməsinə, onların təhsil-tədqiqatinnovasiya mərkəzlərinə çevrilməsinə dəstək verən standartlar hazırlanıb tətbiq olunmaqda davam edir. Ali təhsil müəssisələrində aparılan elmi tədqiqatlar müasir standartlar səviyyəsinə çatdırılır, elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiqi təşkil olunur və elmin informasiya təminatının gücləndirilməsi, beynəlxalq elmi əlaqələrin dərinləşdirilməsi sahəsində tədbirlərin görülməsi imkanları yaranır. Elektron təhsil texnologiyalarının tətbiqi daha da genişləndirilir, müəllim və şagirdlər üçün virtual öyrənmə mühiti formalaşdırılır.

Bu məqsədlə bütün fənlər üzrə elektron tədris və metodik resursların yaradılması davam etdirilir, elektron resursların etibarlı saxlanılması və onlara asan çıxışın təmin olunması üçün "bulud" texnologiyalarının tətbiq olunması, "Elektron Məktəb"lərin sayının 1000-ə çatdırılması, rəqəmsal təhsil resurslarından istifadə imkanlarının genişləndirilməsi nəzərdə tutulur. 2009-cu ildən reallaşdırılmasına başlanmış "Elektron Məktəb" layihəsinə hazırda 50 təhsil müəssisəsi cəlb edilmişdir. Bunlardan 43-ü ümumtəhsil müəssisələridir. Bu layihənin məqsədi İKT-nin tədris sistemində geniş və hərtərəfli istifadəsi, o cümlədən əldə edilmiş müsbət nəticələrin Azərbaycanın digər tədris müəssisələrində tətbiqindən ibarətdir. Bu layihələr vasitəsilə məktəblərin daxili idarəetməsi həyata keçirilir, şagirdlərin qiymətləndirilməsi üçün elekton jurnallardan istifadə olunur, valideynlərə öz uşaqlarının davamiyyətini onlayn rejimdə və ya SMS-lər vasitəsilə izləmək imkanı yaranır [6].

Ədəbiyyat

1. "Azərbaycan 2020":Gələcəyə baxış inkişaf konsepsiyası, http://www.president.az/files/future_az.pdf
2. Abdullayev S.H., Abasova S.E., "Təhsil prosesində İKT-nin tətbiqinə sistemli yanaşma prinsipləri haqqında", Təhsil Nazirliyi, Sumqayıt Dövlət Universiteti və AMEA İnformasiya Texnologiyaları İnstitutu təşkilatçılığı ilə "Riyaziyyat tətbiqi məsələləri və yeni informasiya texnologiyaları" II Respublika elmi konfransı", 27-28 noyabr 2012-ci il, Sumqayıt, səh. 228-230.
3. Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan), http://www.president.az/articles/564?locale=az
4. Azərbaycanda əlavə təhsil: tarixi və müasir problemləri (şərikli). Bakı, "Müəllim" nəşriyyatı. 2012, s.113-137.
5. Elektron, rəqəmsal məktəb / Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş "Gənc tədqiqatçıların ümumrespublika elmi konfransı", Qafqaz Universiteti. 06-07 may, 2010 s.347-349.
6. Məktəbdaxili idarəetmədə İKT-dən istifadə // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2007, №2, s.65-69
7. Məktəbin bir sistem kimi təkmilləşdirilməsinin bəzi məsələləri. // Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, 2010, №29, s.113-117.

## ALİ MƏKTƏBİN FƏALİYYƏTİNİN SƏMƏRƏLİ QİYMƏTLƏNDİRİLMƏSİNDƏ STRATEJİ PLANLAŞDIRILMANIN ROLU

**Zahidova Nazilə Mətləb qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Strategiya planlaşdırılması təşkilatın məqsədlərinə çatmaq üçün keçəcəyi yolun müəyyən edilməsi prosesidir. Bu proses məqsədlərin müəyyən edilməsi, bu məqsədlərə hansı vasitələrlə

nail olunacağını planlaşdırmaq və nəticələrin qiymətləndirilməsi daxil olmaqla müxtəlif addımlardan ibarətdir.

Ali məktəbin fəaliyyətinin səmərəli qiymətləndirilməsi strateji planlaşdırmanın tərkib hissəsidir”[3, s.17]. Bu, ali məktəbin qarşıya qoyduğu məqsədlərə nail olmaq üçün strategiya və tədbirlərin işlək olub-olmadığını qiymətləndirmək üçün vacibdir. Bu qiymətləndirmə ali məktəbin nə dərəcədə effektiv olduğu, mövcud strategiya və tədbirlərin nə dərəcədə yaxşı işlədiyi və ya onların təkmilləşdirilməsinə ehtiyac olub-olmaması barədə məlumat verir. Bu məlumat strategiyanın planlaşdırılması prosesində dəyişikliklərə səbəb ola və onun effektivliyini artıra bilər. “Hər bir məktəbin qazandığı nailiyyətlər onun həyata keçirdiyi fəaliyyətlərin səmərəli qiymətləndirilməsi ilə ölçülür. Qiymətləndirmə məktəbdə biliklərin artırılması və qərarların qəbul edilməsi üçün aparılan monitorinq məlumatlarına əsaslanan bir prosesdir”[3, s.55].

Strateji Planlaşdırma ali məktəb üçün ümumi məqsədləri və prioritetləri müəyyən etdiyindən bu prioritetlər sırasında qiymətləndirmənin təsiri böyükdür. Qiymətləndirmə təşkilatın missiyası və vizyonu ilə birbaşa əlaqəlidir və qiymətləndirmə səyləri strateji məqsədlərlə uyğun olur. Universitet ilk olaraq özünütəhlillər apararaq fəaliyyət sahələrinə, strukturların fəaliyyətinə nəzarəti həyata keçirir, monitorinq və qiymətləndirmə aparır.

Tələbə uğurları və təlim nəticələrinin də strateji planlaşmaya təsirini qeyd edərək, qiymətləndirmə tədbirləri tələbələrin nailiyyətlərinə, məmnunluğuna və hədəflənmiş təlim nəticələrinin əldə edilməsinə yönəldiyindən bu sahədə uğurlu nəticələr universitetin uğurlu performansını yüksəldir, populyarlığını qoruyur, yüksək balla tələbə qəbuluna və qəbul planının 100 faiz yerinə yetirilməsinə səbəb olur.

Tədqiqat məhsuldarlığı və innovasiyalar da Strateji planlaşdırmaya öz təsirini göstərir. Əgər strateji plan tədqiqat və innovasiyaları vurğulayırsa, qiymətləndirmə tədqiqat məhsuldarlığını və innovativ layihələrin təsirini ölçmək üçün uyğunlaşdırıla bilər. Hər il universitet üzrə həyata keçirilən elmi-tədqiqat işlərinin istehsalata tətbiqi nəticələri təlimin keyfiyyətinə təsir edən ən mühüm amildir.

Ali məktəbin qiymətləndirilməsi beynəlxalq tərəfdaşlıqlar, tələbə mübadiləsi proqramları və kurrikulumun qloballaşması ilə bağlı göstəriciləri də əhatə edir və fakültənin inkişafı, tədris metodlarının yeniləşdirilməsi, müasir və rəqəmsal texnologiyaların tətbiqi və tələbə rəyi Strateji planlaşmaya öz müsbət təsirini göstərir. İcma ilə əlaqələrin qurulması universitet fəaliyyətinin yerli icmaya təsirini əks etdirir və bu universitetin fəaliyyətində müsbət təsirə malikdir. Son illər valideynlər, təhsil şurası nümayəndələri və digər qurumların imtahan prosesini izləmə imkanları müsbət qiymətləndirilirsə də, bunun faydalı olmayan tərəfləri də müzakirə obyektidir.(diqqətin yayınması, vaxtın düzgün idarə olunmaması, tələbə stresi və s. mənfi təsirlərdir).

Ali məktəblərdə tətbiq edilən innovativ tədris texnologiyalarının strateji planlaşdırmaya təsiri strateji planın tədrisdə texnologiyaya inteqrasiyasınının vurğulanması ilə bağlıdır. Bu zaman qiymətləndirmə tədris və öyrənmədə texnologiyanın effektivliyini ölçə bilir. Belə ki, Keyfiyyətə Təminat və Akkreditasiya tədbirləri Strateji planlaşdırmaya təsir edərək akkreditasiya statusunun saxlanması və ya əldə edilməsini vurğulayaraq qiymətləndirmənin akkreditasiya standartlarına uyğunluğu təmin edərək davamlı təkmilləşdirməni hayata keçirə bilər.

Ali məktəblərdə maliyyə davamlılığı Strateji Planlaşdırmanın ümumi strateji prioritetdir. Ali məktəbdə qiymətləndirmə resursların bölüşdürülməsinin səmərəliliyini və effektivliyini qiymətləndirmək üçün maliyyə göstəricilərini nəzərə alınmalı və təkmilləşdirilməlidir. Burada müxtəliflik və inklüzivlik xüsusi vurğulanaraq inklüziv mühitin yaradılmasında irəliləyişləri qeyd etmək lazımdır.

Strateji planlaşmada İR tərəfindən strateji məqsəd olaraq etik davranış və effektiv idarəetmənin nəzərə alınması, qiymətləndirmədə etik davranış ölçülərini, şəffaflıq və müəyyən edilmiş standartlara riayət olunmasını əhatə edir. Qiymətləndirmədə davamlı

təkmilləşdirmə səyləri təkmilləşdirmə üçün sahələrin müəyyən edilməsində və davamlı təkmilləşdirmənin dəstəklənməsində əsas rol oynayır. Bu qərarların qəbul edilməsində Strateji plan məlumatlarına əsaslanır. Çünki qərarların qəbulunda Strateji planlaşmanın düzgün həyata keçirilməsinin rolu böyükdür və strateji planlaşmada qeyd edilən qiymətləndirmə səyləri strateji planlaşdırmanı dəstəkləyən əks əlaqə quraraq qərarların qəbulu üçün lazımi məlumatları təmin edir, strateji planlaşdırma prosesi qurumun istiqamətini və prioritetlərini formalaşdırır. Qiymətləndirmə, bu strateji prioritetlərə uyğunlaşdırıldıqda, tərəqqinin ölçülməsi, təkmilləşdirilməli sahələrin müəyyən edilməsi və qurumun öz arzuladığı nəticələrə doğru səmərəli şəkildə irəliləməsini təmin etmək üçün güclü alətə çevrilir.

Strateji planlaşdırma və qiymətləndirmə arasında davamlı əks əlaqə dövrü universitetin ümumi irəliləyişini və inkişafını dəstəkləyir. "Qiymətləndirmə prosesi aparılarkən əldə olunan nəticələr əsas kimi götürülür. Bu da həmin nəticələrin təkmilləşdirilməsinə şərait yaradır. Strateji plan fəaliyyətin qiymətləndirilməsi prosesində obyektivliyin təmin olunmasında (qiymət meyarlarına düzgün əməl edilməsi) monitorinq sisteminin əhəmiyyətini artırır"[2].

Ali məktəbin Strateji plan əsasında fəaliyyətinin qiymətləndirilməsində GZİT (SWOT) təhlilin də xüsusi rolu vardır. "SWOT-təhlili strateji menecmentdə ən səmərəli alətlərdən biridir"[5, s 150]. Daha geniş mənada SWOT-təhlilin mahiyyəti ali məktəbin daxili və xarici amillərinin təhlili, rəqabət qabiliyyətinin qiymətləndirilməsindən ibarətdir.

Ali təhsildə strateji planlaşdırma qlobal bir hadisədir və bütün dünyada universitetlər öz unikal kontekstləri, çağırışları və məqsədləri əsasında müxtəlif yanaşmalar qəbul edirlər. Strateji planlaşdırma ali məktəbin fəaliyyətinin effektiv qiymətləndirilməsinin vacib göstəricisidir. Buna görə də ali məktəbdə Strateji planın həyata keçirilməsi zamanı qiymətləndirmənin TKTA-nin meyarlarına uyğun aparılması universitetin uğurlu performasının təminatıdır [1, s.10-17].

Ədəbiyyat

1. Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnstitusional akkreditasiya qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının YEKUN HESABATI// 2023, 117 səh.
2. Əbdülrəhimov V., Strateji planlaşdırma mexanizmi və onun tətbiqi. https://www.muallim.edu.az/www.old/arxiv/2011/07/28.htm
3. Hüseynova F. Məktəb meneceri.// Bakı, 2020 – 121 səh. Səh.17
4.Məmmədov H. Azərbaycanda bilik iqtisadiyyatının formalaşdırılması istiqamətində dövlət səviyyəsində ciddi tədbirlər həyata keçirilir. Müsahibə. Yeni Azərbaycan qəzeti, 13 yanvar 2011-c il, onlayn: http://www.yeniazerbaycan.com/Musahibe_e7357_az.html
5. İsmayılov B.V..Strateji menecment// Dərs vəsaiti// 2018-296 s s 150

## XÜLASƏ

Məruzədə strateji planlaşdırma ali məktəbin fəaliyyətinin effektiv qiymətləndirilməsinin göstəricisi olaraq qeyd edilmişdir. Müəllif göstərir ki, ali məktəbdə strateji planlaşdırma təşkilatın məqsədlərinə çatmaq üçün hazırlanmış yol xəritəsidir. Bu məqsədlərin müəyyən edilməsi, bu məqsədlərə hansı vasitələrlə nail olunacağını planlaşdırmaq və nəticələrin qiymətləndirilməsi daxil olmaqla müxtəlif addımlardan ibarətdir.

Ali məktəbin fəaliyyətinin səmərəli qiymətləndirilməsi strateji planlaşdırmanın tərkib hissəsi olaraq qarşıya qoyulan məqsədlərə nail olmaq üçün strategiya və tədbirlərin işlək olub-olmadığının qiymətləndirilməsi prosesində vacibdir. Bu qiymətləndirmə ali məktəbin nə dərəcədə effektiv olduğu, mövcud strategiya və tədbirlərin nə dərəcədə yaxşı işlədiyi və ya onların təkmilləşdirilməsinə ehtiyac olub-olmaması barədə məlumat verir. Göstərilirki ki, bu məlumat strategiyanın planlaşdırılması prosesində dəyişikliklərə səbəb ola və onun effektivliyini artıra bilər. Ali təhsildə strateji planlaşdırma qlobal bir hadisədir və bütün dünyada universitetlər öz unikal kontekstləri, çağırışları və məqsədləri əsasında müxtəlif

yanaşmalar qəbul edirlər. Strateji planlaşdırma ali məktəbin fəaliyyətinin effektiv qiymətləndirilməsinin vacib göstəricisidir.
***Açar sözlər:*** *strategiya planlaşdırması, ali məktəb, səmərəli qiymətləndirmə, SWOT təhlil, uğurlu performans*

## РЕЗЮМЕ

В отчете стратегическое планирование упоминается как показатель эффективной оценки деятельности высшей школы. Автор показывает, что стратегическое планирование в высшем образовании представляет собой дорожную карту, предназначенную для достижения целей организации. Существуют различные этапы определения этих целей, планирования средств, с помощью которых эти цели будут достигнуты, и оценки результатов.

Эффективная оценка деятельности высшей школы важна в процессе оценки того, работают ли стратегии и меры для достижения целей, поставленных в рамках стратегического планирования. Эта оценка предоставляет информацию о том, насколько эффективно высшее учебное заведение, насколько хорошо работают существующие стратегии и меры или нуждаются ли они в улучшении. Показано, что эта информация может привести к изменениям в процессе стратегического планирования и повышению его эффективности. Стратегическое планирование в сфере высшего образования является глобальным явлением, и университеты по всему миру применяют разные подходы, основанные на их уникальных контекстах, проблемах и целях. Стратегическое планирование является важным показателем эффективной оценки деятельности высшей школы.
***Ключевые слова:*** *стратегическое планирование, высшая школа, эффективная оценка, эффективный оценка, SWOT-анализ, успешная работа*

## SUMMARY

In the report, strategic planning is mentioned as an indicator of the effective evaluation of the activity of the higher school. The author shows that strategic planning in higher education is a road map designed to achieve the organization's goals. There are various steps involved in defining these goals, planning the means by which these goals will be achieved, and evaluating the results.

Effective evaluation of the higher school's performance is important in the process of evaluating whether strategies and measures are working to achieve the goals set as part of strategic planning. This evaluation provides information on how effective the higher education institution is, how well existing strategies and measures are working, or whether they need to be improved. It is shown that this information can lead to changes in the strategy planning process and increase its effectiveness. Strategic planning in higher education is a global phenomenon, and universities around the world adopt different approaches based on their unique contexts, challenges and goals. Strategic planning is an important indicator of effective evaluation of higher school activities.
***Key words:*** *strategic planning, high school, effective assessment, SWOT analysis, successful performance*

# ИСТОРИЯ РАЗВИТИЯ ДРЕВНЕКИТАЙСКОГО ОБЩЕСТВЕННОГО ОБРАЗОВАНИЯ

**Чжан Юньхао**
Азербаджанский государсвенный педагогический университет

Образование, как социальное явление, образование было связано с развитием человеческого общества с первого дня своего возникновения, и оно развивается и

меняется вместе с развитием общества. Образование, как сейчас, так и в прошлом, рассматривалось как основа основания страны. Китай - единственная страна среди четырех древних цивилизаций, которая не была прервана или вымерла. Среди них большой вклад внесли сохранение письменности и уделяемое нацией особое внимание образованию.

Согласно историческим записям, образование в Древнем Китае можно проследить до эпохи до Ся. Около 5000 лет назад сельское хозяйство и животноводство получили новое развитие, постепенно формировались обычаи и даже обычное право, а образовательная деятельность приобрела более осознанный и целенаправленный характер.

В дополнение к некоторому обучению производственным навыкам, люди стали требовать от членов клана овладения знаниями о жертвоприношениях и религии, а также пения и танцев во время общественных мероприятий, чтобы развивать такие таланты, как “Ву”. В конце кланового общества между племенами часто происходили войны, и поэтому военная подготовка также стала важным содержанием образования. Согласно легенде, в эпоху Пяти императоров существовала школа под названием “Чэнцзюнь”. Образовательная деятельность в Чэнцзюне, как правило, сводилась к религиозной деятельности и пению. Это было независимо от производственного процесса и могло рассматриваться как зарождение древних школ.

С появлением системы частной собственности и классовой дифференциации первобытное общество сошло с исторической сцены, и начало формироваться рабовладельческое общество. На этом этапе образование было отделено от производительного труда и стало инструментом класса рабовладельцев для воспитания наследников и осуществления социального воспитания. В то время было введено правление лордов и знати, и правящий класс монополизировал образование, и только дворяне имели право на получение образования. Дети аристократов изучают шесть искусств: ”обряд, музыку, стрельбу, имперское искусство, написание и счет" .Это означает, что законы и предписания, исторические тексты и церемонии жертвоприношений, зафиксированные в письменной форме, находятся в руках имущественного класса.

В конце династии Шан традиционная экономическая основа правления лордов и знати. Этот период является знаменитым “Чуньцю и Чжаньго” в истории Китая. В истории Китая период Чуньцю и Чжаньго был самой блестящей и звездной эпохой мысли и культуры. Не имея экономического фундамента, правящий класс утратил фундамент образования. В результате официальные исследования пришли в упадок и появились частные.Развитие и распространенность ”частного обучения" позволили группе частных мастеров, таких как Конфуций, Мэн-цзы, Мози и Сюньцзы, свободно продвигать свои притязания в ту эпоху. В этот период сложилась беспрецедентная академическая ситуация, в которой сотни семей расспрашивали друг друга, спорили друг с другом и устраивали беспрецедентную пышность. В то время как каждый из них активно держал высоко знамя мысли, они также обобщили свой образовательный опыт, заложив основы древнекитайской образовательной мысли.

То, что оказывает наибольшее влияние на образование в частных школах, - это конфуцианство, представленное Конфуцием. Впервые Конфуций выдвинул положение “нет класса без образования”, разрушив границы между знатью и простыми людьми и даже национальные границы. Он основал конфуцианскую частную школу. Пока он может зарабатывать достаточно денег, он может быть его учеником.

В 221 году до нашей эры Цинь Шихуанди объединил шесть царств и основал первую феодальную династию Китая - династию Цинь. Однако из-за недостаточного внимания к интересам народа династия была уничтожена. Во время правления императора Уди из династии Хань всесторонняя мощь страны значительно возросла.

Он начал “свергать сотни людей и доминировать в конфуцианстве”. Тайсюэ утвердился в центральном правительстве, а в местных районах были созданы местные официальные школы, в которых преподавалась конфуцианская классика. В результате конфуцианское образование стало национальной образовательной политикой, которая будет продолжаться в течение двух тысяч лет.

Во времена династий Суй и Тан (581-907) правительство провело радикальные реформы в области социального образования. В это время существовала очень важная система отбора чиновников, которая правила Китаем более тысячи лет, - императорская экзаменационная система.Императорская экзаменационная система - это система для отбора должностных лиц в китайском феодальном обществе посредством предметных экзаменов. Независимо от происхождения кандидатов, до тех пор, пока они сдают экзамены на разных уровнях, они могут войти в династию в качестве официальных лиц. Появление имперской экзаменационной системы оказало неоценимое влияние на развитие китайского феодального общества, политическую стабильность, распространение и наследование китайской цивилизации и конфуцианской культуры, а также способствовало развитию древнекитайского образования. В этот период, чтобы адаптироваться к имперской экзаменационной системе, правительство создало относительно полноценную школьную систему. Во времена династии Тан в центральном правительстве было “шесть школ” и “два зала”. “Шесть школ” - это Гоцзисюэ, Тайсюэ, четыре школы каллиграфии, арифметики, и юриспруденция. Шесть школ принадлежат Гуоцзыцзяну. Среди преподавателей - доктора философии, ассистенты преподавателя, ведущие лекции и т.д.

Требования к частному образованию при династиях Суй и Тан также были относительно смягчены. Начальные частные школы включают городские школы, сельские школы, частные школы на дому и т.д. Кроме того, династия Тан также создала форму организации образования в виде колледжей. Колледж - это высшее учебное заведение, объединяющее сбор книг, преподавание и научные исследования.

Во времена династии Сун (960-1279) политика была относительно ясной, а отношение к культуре и образованию энергично поддерживалось.Центральное правительство по-прежнему создавало Гооцзысюэ и Тайсюэ для передачи специализированных знаний и навыков.В окрестностях появились различные колледжи. Во времена династии Сун колледж использовался как место для преподавания, чтения лекций и развития талантов, объединяющее образование, преподавательскую деятельность и академические исследования.

Во времена династии Мин (1368-1644) колледж постепенно приходил в упадок. В школах династии Мин существовали Гооцзыцзянь (благородные школы) при центральном правительстве, префектурах, уездах и уездных округах, а также военные школы в приграничных районах и особых местах. Но имперская экзаменационная система постепенно становилась жесткой, особенно с упором на литературу из восьми разделов, которая постепенно становилась непригодной для развития общества. Эта система просуществовала до конца правления династии Цин. В 19 веке Китай подвергся вторжению западных держав, и школьное образование и социальное воспитание претерпели серьезные изменения. Усвоение западных знаний стало первоочередной задачей. Школьная система и образовательная мысль сильно отличались от древних времен.поэтому。Китайское образование вступило в совершенно новый этап развития.

История развития древнекитайского образования подобна зеркалу, в котором содержится опыт и мораль для будущих поколений. Среди них есть не только образовательные идеи и системы, достойные изучения современными людьми, но и ошибки и неудачные меры, которые послужат тревожным сигналом для будущих поколений. В то же время, в сочетании с древней китайской историей, можно

обнаружить, что те династии, которые ценят образование и имеют совершенную и передовую систему образования, часто прославляются в истории, а династии с хаотичными и отсталыми системами образования обычно переживают смутные времена. Исходя из этого, можно сделать вывод, что образование тесно связано с выживанием и развитием страны и является основой и движущей силой развития страны и цивилизации.

Литература

1. Лун Сяотао. Новое подразделение цикла истории развития древнекитайского образования [J]. Журнал западных исследований, 2019 (03): 114-116.DOI:10.16721/j.cnki.cn61-1487/c.2019.03.026.

2. Лю Ин.Основные события, характеристики и откровения трансформации древнекитайского образования [J].Академическая теория, 2012 (27): 140-141.

3. Чэнь Вэй."Траектория развития древнекитайского образования и культуры".Сборник статей, посвященный 20-летию основания "Исследований по истории образования" (1) - Теория истории образования и исследования по истории истории.Эд.. , 2009, 35-40.

4. Ву Кеда.Другая интерпретация древнекитайского образования: производство и потребление конфуцианства [J].Новая теория Тяньфу, 2009 (02): 131-133.

5. Ву Ли.Влияние императорской экзаменационной системы на древнекитайское образование [J].Журнал Юго-Западного университета национальностей, 2005 (05): 350-352.

6. Хуан Цзи.История развития и основные характеристики древнекитайской философии образования и мысли [J].Журнал Пекинского педагогического университета (издание по общественным наукам)),1994(06):28-34+106.

7. Чжоу Фэй.О древнекитайском способе мышления об образовании [J].Журнал социальных наук, 1993 (05): 111-115.

8. Лю Яо.Комментарий к истории развития высшего образования в Китае [J].Журнал Наньянского педагогического университета,2009,8(02):106-110.

9. Ян Чжэньци.О просветительской мысли Конфуция и ее вкладе [J].Шаньдунское образование и научные исследования, 1999 (11): 37-39.

10. У Яньцзюнь.Краткое обсуждение статуса и влияния Дун Чжуншу в истории китайского образования [J].Журнал обычного колледжа Цзяоцзуо,2019,35(02):28-31.

11. Тао Юйчуань.Исследование по истории китайского образования [J].Журнал Квилу, 1983 (05): 22-31.

# II BÖLMƏ

# İNNOVASİYALAR VƏ TƏHSİLİN KEYFİYYƏTİ

## DİLİN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN TEXNOLOJİ AVADANLIQLAR

**Abbasova Laçın Ramiz qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Sürətlə inkişaf edən təhsil mənzərəsində texnologiyanın inteqrasiyası, xüsusən də dil öyrənmə sahəsində əvəzolunmaz hala gəldi. Bu tezis ingilis dilinin mənimsənilməsində texnologiyadan istifadənin əhəmiyyətini araşdırır, təkmilləşdirilmiş texnologiyalardan istifadə edən pedaqoji strategiyaları müzakirə edir, texnologiyanın inteqrasiyasında müəllimlərin rolunu, dil tədrisində istifadə olunan müxtəlif texnoloji avadanlıqları və ağıllı sinif texnologiyalarının müsbət və mənfi cəhətlərini, dil tədrisində süni intellektin mövcud tendensiyalarını və gələcək perspektivlərini araşdırır. Texnologiya fərqli öyrənmə üslublarına cavab verən müxtəlif resurslar təklif edərək ingilis dilinin effektiv mənimsənilməsi üçün katalizator rolunu oynayır. İnteraktiv multimedia, dil öyrənmə proqramları və onlayn platformalar cəlbedici və dinamik məzmun təqdim edərək, daha immersiv və fərdiləşdirilmiş öyrənmə təcrübəsini təşviq edir. Bu, təkcə söz ehtiyatını və qrammatikanı deyil, həm də dil biliyi və ünsiyyət bacarıqlarını inkişaf etdirir.

Texnologiyanın ingilis dilinin tədrisinə daxil edilməsi pedaqoji strategiyaların dəyişməsini nəzərdə tutur. Ənənəvi sinif üsullarını onlayn resurslarla birləşdirən qarışıq öyrənmə modelləri daha çevik və fərdi yanaşmaya imkan verir.Virtual reallıq simulyasiyaları, oyunlardan istifadə həmçinin, öyrənmə proqramları və onlayn əməkdaşlıq vasitələri müxtəlif şagird ehtiyaclarına cavab verən interaktiv və cəlbedici mühitlər yaradır.

Müəllimlər texnologiyanın ingilis dilinin mənimsənilməsinə uğurlu inteqrasiyasında mühüm rol oynayırlar. Onlar vasitəçi kimi çıxış edir, tələbələri rəqəmsal resurslar vasitəsilə istiqamətləndirir, tərəqqiyə nəzarət edir və fərdi rəy təmin edir. Pedaqoqlar üçün peşəkar inkişaf imkanları onların ən son texnoloji vasitələrə və tədris metodologiyalarına yaxşı bələd olmalarını təmin etmək üçün vacibdir.

Müxtəlif texnoloji vasitələr audio-vizual vasitələrdən tutmuş interaktiv lövhələrə qədər dil tədrisini təkmilləşdirir. Multimedia resursları, planşetlər və noutbuklarla təchiz olunmuş dil laboratoriyaları daha dinamik və interaktiv öyrənmə təcrübəsinə töhfə verir. Bu vasitələr ənənəvi tədris metodlarını tamamlamaqla yanaşı, həm də əməkdaşlıq və layihə əsaslı öyrənmə imkanlarını təmin edir .

Ağıllı sinif texnologiyaları təkmilləşdirilmiş əlaqə, əlçatanlıq və real vaxt rejimində əks əlaqə də daxil olmaqla bir sıra üstünlükləri təklif edir. Bununla belə, tətbiqin ilkin dəyəri, texniki məsələlər və müəllim hazırlığına ehtiyac kimi problemlər yarana bilər. Ağıllı sinif texnologiyalarının üstünlüklərini artırmaq üçün ənənəvi və texnoloji tədris metodları arasında tarazlığın yaradılması vacibdir.Süni intellekt (AI) chatbotlar, dil təhlili vasitələri və süni intellektlə idarə olunan repetitorluq sistemlərinin üstünlük təşkil etməsi ilə dil tədrisində üstünlük qazanıb .Mövcud tendensiyalar süni intellektin fərdiləşdirilmiş öyrənmə təcrübəsini təmin etmək, fərdi ehtiyaclara, uyğunlaşmaq və ani rəy təklif etmək qabiliyyətini göstərir. Gələcəyə baxsaq, süni intellekt proqnozlaşdırıcı analitika və təkmil dil qiymətləndirmə vasitələri kimi daha da irəliləyişlər vəd edir.

İngilis dilinin mənimsənilməsində texnologiyanın tətbiqi dinamik və effektiv öyrənmə mühiti yaratmaq üçün zəruridir Pedaqoji strategiyaların, müəllimlərin cəlb edilməsinin və diqqətlə

seçilmiş texnoloji vasitələrin düzgün qarşılığı ilə dil müəllimləri tələbələri ingilis dilində bacarıq və səlis danışıq qabiliyyətini inkişaf etdirir.

Ədəbiyyat

1.Ansyari M.F. “Designing and evaluating a professional development program for basic technology integration in English as a foreign language (EFL) classrooms” .Australasian Journal of Educational Technology.31,2015,p.699-712.
2.Celik I., Dindar M ., Muukkonen H.‘‘The promises and challenges of artificial intelligence for teachers : A systematic review of research .”TechTrends ,66,2022,p.616-630.
3.Tajeddin Z.,Rezanejad A.‘‘Intercultural teaching in L2 classrooms : exploring English language teachers‘ beliefs.”Teaching .English .Foreign Language .1,2019,p.12-15.

## MƏKTƏBLİLƏR VƏ TƏLƏBƏLƏR ÜÇÜN MOBİL COĞRAFİYA

**Abdullayeva Leyla Qəhrəman qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ölkəmizin ümumitəhsil pilləsində təhsil alan məktəbliləri və ali məktəb tələbələrinin müasir çöl tədqiqat metodları və geoinformatika ilə tanış edərkən GIS platforması, ArcGIS Online və Survey 123 for ArcGIS mobil proqramından istifadə təcrübəsi günümüzün ən aktual məsələlərindəndir. Təqdim edilmiş tezisdə tədris metodları, tapşırıqlar və yerinə yetirilmiş işlərin nümunələri verilmişdir.

Məktəblərdə və digər təhsil müəssisələrində coğrafi informasiya sistemlərinin (CİS) istifadəsini dəstəkləmək üçün Esrinin qlobal proqram təminatlarının Azərbaycana gəlişi coğrafi təhsilin inkişafı və gənclərin müasir metodlarla informasiyanı emal etmə qabiliyyəti, coğrafi məlumatların təhlili və təqdim edilməsi, ilkin praktiki bacarıqlara yiyələnməsi üçün geniş imkanlar açdı. Gələcəkdə bu imkanlardan nəinki rniversitet tələbələri üçün, həmçinin orta məktəblərdə şagirdlərin coğrafiya fənninin texnologiya vasitəsilə mənimsənilməsində istifadə olunması məqsədəmüvafiqdir.

Məktəblilərlə aparılan dərslər

Müxtəlif illərdə bəzi xarici rniversitetlərin müəllimləri məktəblər üçün yenilənmiş "ArcGIS for Schools Bundle" proqramına əsaslanaraq, coğrafi informasiya sahəsindən eksperimental dərslər keçirdilər. Bu dərslər adətən 12-14 yaşlı məktəblilərdən ibarət qruplarla aparılmışdır. Burada əsas məqsəd coğrafi informasiya sistemlərinin əsas funksiyalarını, o cümlədən sahə məlumatlarının toplanması, təhlili və kartoqrafik təsvirini təqdim etmək və ətrafımızdakı dünya haqqında səpələnmiş məlumatların coğrafi məlumatlara necə çevrildiyini sadə misallarla izah etmək idi.

Bütün təhsil prosesi GIS platformasının ArcGIS Online modul proqramı əsasında qurulmuşdur. Məktəblilərin coğrafi informasiya sistemlərinin potensialı ilə yaxından tanış olmaqları üçün ilkin olaraq Survey 123 for ArcGIS proqram paketi seçilmişdir. Burada şagirdlərin sorğu forması vasitəsilə məlumatları toplamaq və təhlil edə bilmək imkanları genişdir.

Çöl tədqiqatları üçün stasionar və mövsümi məntəqələrdən (besedkalardan) istifadə edilmişdir. İşin görülməsi, məlumatların toplanması üçün sxematik ardıcıllıq nümunəsindən istifadə edərək sorğu formalarının işlənib hazırlanmasını və sahə geoməlumatlarının toplanmasının əsas prinsiplərini başa düşmək ən əlverişli üsuldur. Ardıcıllıqdakı hər bir tapşırıq çöl tədqiqatında əldə edilmiş məlumatın verilənlərinə uyğundur və bu sxem üzrə araşdırma aparmaq tədricən məktəblilərdə bu barədə bir fikir formalaşdırır. Atribut cədvəlində coğrafi məlumatların tədqiqat obyektinə aid faktlar yazılır.

Tədqiq olunan obyektləri təsvir etmək üçün sahədə geoməlumatların toplanması ardıcıllığı:

1. Müşahidənin tarixi və vaxtı
2. Məntəqənin yeri
3. Məntəqənin fotoşəkli
4. Məntəqənin növü
5. Məntəqənin döşəməsinin materialı
6. Masaların sayı
7. Stulların sayı
8. Skamya sayı
9. Tavan materialı(şifer,metal və s.)
10. Məntəqənin ümumi vəziyyəti.

Sorğu forması uşaqlar tərəfindən addım-addım yaradılıb və ən populyar dizayn alətlərini (tarix və vaxt, geopoint, siyahı, nömrə və s.) və smartfon funksiyalarını (GPS naviqasiyası, fotoqrafiya) əhatə edib.

Mobil cihazlardan istifadə etməklə məlumatların toplanmasının sahə mərhələsində məktəblilərə əlavə olaraq obyektlərin yerləşdirilməsinin üstünlükləri və əhəmiyyəti, qlobal yerləşdirmə sistemlərinin işinin əsas prinsipləri, mobil cihazların ətraf aləmi dərk etmək üçün alət kimi imkanları haqqında məlumat verilir. Toplanmış materialların sonrakı təhlili Survey 123 for ArcGIS-də aparılır. Uşaqlar alınan məlumatların cədvəlində fərdi cavabları tapmağı və onlara baxmağı, habelə nəticələrini cədvəllər, sütunlar, xəttlər və qrafiklər şəklində təqdim etməyi, tematik xəritələrdə nəticələri görüntüləməyi öyrənirlər. Dərslərin ikinci hissəsində məktəblilərdən böyük populyarlıq qazanmış "Hekayə xəritələri" formatından istifadə etməklə kartoqrafik hekayə yaratmaq tapşırılır. Esri Story Maps resursu, ArcGis Story Maps interaktiv xəritələri və multimedia məzmununu birləşdirmək imkanları ilə tanış olduqdan sonra uşaqlar ilk coğrafi veb tətbiqini yaratmağa başlayırlar. Bunun üçün müəllimlər tədqiqat ərazisində bəzi fotoşəkillər çəkirlər və bu fotoşəkillərdən ibarət kolleksiya yaradırlar. Daha sonra ArcGIS Online-a əlavə edirlər. Tədqiqat ərazisində olan hər bir obyekti bir kateqoriyaya ayırıb xəritədə fərqli simvol və rənglərlə təsvir edirlər. Gənc coğrafiyaçılar özləri tətbiq elementlərinin tərtibatını, ümumi rəng sxemini seçməli və obyektlər üçün başlıqlar hazırlamalıdılar. ArcGIS StoryMaps-dən istifadə edərək xəritələri, daxil edilmiş mətni, 3D səhnələri, multimedianı və s. birləşdirməklə çoxcəhətli məlumatlılıq yarada bilərsiniz. İstifadəsi asan, dinamik, tez-tez dəyişilə bilən coğrafi informasiya sistemi (GIS) işinizi və xarici məzmunu özündə birləşdirən rəqəmsal hekayələr və təqdimatlar yaratmağa kömək edir. Hekayələr kolleksiyalarda qruplaşdırıla və müvafiq gələn mövzulara uyğunlaşdırıla bilər.

Uşaqlar üçün ən maraqlısı fotoşəkillərin xəritədə nöqtələrə çevrilməsi prosesidir: əsas xəritədə axtarış, obyektlərin müəyyən edilməsi və onların düzgün xəritələşdirilməsi. Bu, xəritədə coğrafi koordinatlar, simvollar və oriyentasiya kimi anlayışları yadda saxlamaq üçün vacibdir.

Coğrafiyanın əsas prinsiplərindən birində deyilir: "Təsvir edilməyəni müşahidə edə, xəritəyə salınmayanı isə təsvir edə bilməzsən". Bu prinsipin mahiyyətindən anlaşılır ki, çöl tədqiqatı və müşahidə üsullarından əldə olunan nəticələrin xəritələşdirilməsi coğrafiya elminin əsasını təşkil edir. Bu tip təcrübələr coğrafiya elminin əsaslarının dərk edilməsinə və onların əyləncəli təhsil təcrübəsi prosesində tətbiqinə öz töhfəsini verə bilər.

Tələbələrlə aparılan dərslər

Esri Universitetlərdə təhsil və tədqiqat işlərinin aparılması məqsədi ilə istifadə olunan xüsusi şərtlər altında ArcGIS proqram məhsulunun paketlərini təqdim edir. Onlara təkcə ArcGIS platformasının əsas masa üstü və server komponentləri deyil, həm də sahə, coğrafi, geoekoloji və digər tədqiqat prosesini asanlaşdıran və sürətləndirən bir çox mobil və veb proqramlar daxildir. Bakalavr təhsili alan tələbələrin yay təcrübəsi zamanı sahə tədqiqatlarının təşkili və mənimsənilməsi üçün bu dərslərin keçirilməsi çox əhəmiyyətlidir. Belə dərslər zamanı toplanmış materiallardan həm tədris prosesində, həm də fakültənin elmi-tədqiqat işlərində fəal istifadə olunur.

Qeyd etmək lazımdır ki, Esri təhsil proqramlarının bir hissəsi kimi təklif olunan "ArcGIS for Schools Bundle" və bəzi CİS proqramlarının təhsildə əhəmiyyətli dərəcədə böyük rol oynaması, həmçinin yuxarıdakı misallarda təsvir ediləndən daha çox GIS alətlərindən istifadə edərək tədqiqat aparmaq, praktik dərslərin sayını artırmaq coğrafiya fənninin daha səmərəli öyrənilməsinə gətirib çıxarır.

Müasir Kurikulum təhsil sistemi və onun inkişafı ilə bağlı davamlı fəaliyyət göstərən kurslar öz mobil proqramlarını inkişaf etdirən tələbələr üçün məntiqi nəticə kimi MapTour hekayə xəritəsi şablonu ilə işləyə, AppStudio for ArcGIS veb dizaynerindən istifadə etməklə bu sahəni genişləndirilə bilərlər.

Survey123 for ArcGIS və ya Collector for ArcGIS mobil proqramları tərəfindən toplanan coğrafi məlumatların həcminin artırılması MapSeries, Shortlist, Crowdsource və bir sıra digərləri kimi daha mürəkkəb Hekayə Xəritələri şablonlarından təlimdə istifadə etməyə imkan verəcək. Müxtəlif fənlər üzrə üçüncü tərəf kimi coğrafi məlumat mənbələrinin tədrisə cəlb edilməsi məktəblilər və tələbələr üçün unikal məlumat bazasına sahib olmaq imkanlarını açacaqdır. Geoməlumatların redaktəsi və təhlili, onların əsasında kartoqrafik materialların məktəb vaxtından yaradıla bilmə qabiliyyəti şagirdlər arasında böyük marağa səbəb ola bilər. Bu proqram texnologiyalarının və tədris prosesinin ölkəmizin məktəblərində də tətbiq olunması coğrafiya fənninə marağı artıracaq və şagirdlərin fənni daha yaxşı mənimsəməsinə səbəb olacaqdır.

## TƏLİMİN İDARƏ EDİLMƏSİNDƏ İNNOVASIYA VƏ TƏHSİL TEXNOLOGIYALARININ TƏTBİQİ

**Abdullayeva Nisə Rasim qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsil sisteminin tərəqqisinə gətirib çıxaracaq metod və strategiyaların həyata keçirilməsi fərdlərin, xüsusən də rəhbər vəzifələrdə olan şəxslərin mühüm məqsədlərindən biridir. Təhsil sisteminin təkmilləşməsinə səbəb olacaq yanaşmaları təcrübədə tətbiq etmək vacibdir. Təhsildə innovasiyalar və təhsil texnologiyalarının tətbiqi təhsil sisteminin tərəqqisinə səbəb olacaq həyati aspektlər kimi qiymətləndirilir.

Bütün təhsil müəssisələrində müəllimlər şagirdlərə akademik anlayışlar baxımından məlumat ötürmək üçün müasir texnologiyalardan istifadə edirlər. Bundan əlavə, şagirdlər öz tapşırıqlarını və layihələrini hazırlamaq üçün innovativ texnologiyalardan istifadə etməyə təşviq olunurlar. Təhsil müəssisələrinin üzvləri öz səriştə və bacarıqlarını artırmalıdırlar ki, bu da onlara qarşıya qoyulan vəzifələri qənaətbəxş şəkildə yerinə yetirməyə imkan verəcəkdir. Burada nəzərə alınan əsas anlayışlara təhsildə innovasiyanın əhəmiyyəti, innovasiya və təhsil texnologiyalarının üstünlükləri, eləcə də qarşıya çıxan maneələr və insan kapitalı tərəfindən innovasiyanın formalaşdırılması daxildir.

İnnovativ texnologiyalardan əlavə, tədris-təlim proseslərində istifadə olunan digər innovativ metodlar- qrafiklər, xəritələr, modellər, dərsliklər və digər oxu materialları daxildir. Bu texnologiya və materiallardan istifadə etməklə müəllimlər şagirdin öyrənməsini artırmaq üçün zəruri olan müxtəlif növ təlim strategiyalarını tətbiq edirlər. Tədris strategiyalarının müxtəlif növlərinə Power Point təqdimatları vermək, oxumaq və izahat vermək, qrafiklərdən, modellərdən və xəritələrdən istifadə etməklə izahat vermək və s. daxildir. İnnovasiya və təhsil texnologiyası tədris strategiyalarında dəyişikliklərin həyata keçirilməsinə kömək edə bilər.

İnnovasiya və Təhsil Texnologiyalarının Faydaları

İnnovasiyaların və təhsil texnologiyalarının tətbiqi təhsil müəssisələrinin fəaliyyətinin lazımi qaydada həyata keçirilməsində fərdlər üçün faydalı olduğunu sübut etmişdir. İnnovasiya və təhsil texnologiyalarının əsas üstünlükləri aşağıdakı kimi ifadə edilmişdir.

Tapşırıqlar daha az vaxt aparan olur – Texnologiyalardan istifadə etməklə şagirdlər öz vəzifələrini daha az vaxt aparan şəkildə yerinə yetirə bilirlər. Onlar kompüterlərlə kifayət

qədər təchiz olunduqda, öz tapşırıqlarını, hesabatlarını və layihələrini daha az vaxt sərf etməklə yerinə yetirə bilirlər. Beləliklə, texnologiyadan istifadə onlara verilən tapşırıqları vaxtında yerinə yetirməkdə səmərəli töhfələr verməyə imkan verir.

Təhsil sistemində əsaslı transformasiyalara- dəyişikliklərə aparır - Mövcud təhsil sistemində dəyişikliklərin aparılması zəruridir. Transformasiyalar həyata keçirildikdə, onların üzvlərin və ümumi təhsil sisteminin rifahının yüksəldilməsi üçün effektiv öyrənmə modelləri tətbiq olunur. Bu da müəllimlər və şagirdlər arasında əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verir.

Problemlərin həlli üçün ideyaların yaradılması – İdeyaların yaradılması yarana biləcək problem və çətinliklərin həllini təmin etmək üçün lazımdır. Texnologiya, müasir və innovativ üsullardan istifadə etməklə fərdlər problemlərin həllini təmin edə bilirlər. Çox vaxt innovativ həllərin əksəriyyəti faktlara yeni rakursdan və ya yeni baxışlarla baxanlardan gəlir. Problemlər və ya çətinliklər baş verdikdə, şagirdlərdən yenilikçi problem həlli üsullarını tətbiq etmələri tələb olunur.

Effektiv Qiymətləndirmələrin Təşviqi – Qiymətləndirmələr tədris və təlim proseslərinin tərkib hissəsidir. Dərs planını tamamladıqdan sonra müəllimlər şagirdlərin nə dərəcədə təkmilləşdiyini və onların tədris-təlim metodlarının və təlim strategiyalarının faydalı olub-olmadığını başa düşməyə imkan verən müvafiq qiymətləndirmə üsullarını işə salmalıdırlar.

İdarəetmə funksiyalarının həyata keçirilməsi üçün texnologiyaların inkişafı – Təhsil müəssisələrində, eləcə də sinif otaqlarında şagirdlərin idarəetmə funksiyalarını yerinə yetirməsi həyati əhəmiyyət kəsb edir. İdarəetmə funksiyalarını lazımi şəkildə yerinə yetirmək üçün idarəetmə səlahiyyətlərinin artırılması vacibdir. Texnologiyaların inkişafı idarəetmə funksiyalarının həyata keçirilməsi üçün zəruri hesab olunur. İdarəetmə funksiyalarına planlaşdırma, təşkil etmə, rəhbərlik, əlaqələndirmə və nəzarət aid edilir. Bu idarəetmə funksiyalarının həyata keçirilməsində texnologiyalar böyük ölçüdə istifadə olunur. Texnologiyalardan istifadə etməklə təhsil müəssisələrinin üzvləri bu funksiyaları idarə olunan şəkildə həyata keçirə bilirlər. Təhsil müəssisələrinin üzvlərinin ehtiyaclarını ödəmək üçün texnologiyalarda təkmilləşdirmələr aparılmalıdır. Kompüterlərdən başqa istifadə edilən digər texnologiyalar skanerlər, printerlər, fotokopi aparatları, proyektorlar, I-padlar, planşetlər, smartfonlar və mobil telefonlardır.

Müasir və innovativ yanaşmaların tətbiqi zamanı müəyyən maneələr də yaranır ki, bunlara aşağıdakılar aid edilir:

Kənd icmalarında texnologiya və innovasiyanın olmaması – Kənd icmalarında ilk növbədə məktəblərdə və böyüklər üçün təhsil və təlim mərkəzlərində texnologiya infrastrukturu lazımi səviyyədə inkişaf etdirilməyib. Şəhər və kənd yerlərində təhsil sistemində böyük fərqlər var. Şəhər yerlərindəki təhsil müəssisələrində bütün səviyyələrdə təhsil müəssisələrində texnologiya və innovativ metodlardan istifadə olunur. Digər tərəfdən, kənd yerlərindəki təhsil ocaqlarında texnologiya, müasir və innovativ metodlar yoxdur. Texnologiyanın və innovasiyanın olmaması səbəbindən ümumi təhsil sisteminin tərəqqisində problemlər və maneələr yaranır. Əlavə olaraq, ənənəvi metodlardan istifadə şagirdlərin öyrənməsinə mane olur. Ona görə də kənd yerlərindəki təhsil müəssisələrində tədris-təlim metodlarında texnologiya və innovasiyaların tətbiqi həyati əhəmiyyət kəsb edir.

İnfrastruktur imkanlarının olmaması – Təhsil müəssisələrində ümumi təhsil sisteminin tərəqqisi üçün infrastrukturun inkişafına diqqət yetirilməlidir. İnfrastruktur obyektlərinin inkişafı təhsil müəssisələrində və sinif otaqlarında mühüm əhəmiyyət kəsb edir. Əsas infrastruktur obyektlərinə laboratoriyalar, kitabxanalar, kompüter mərkəzləri, uşaq meydançaları, ictimai iaşə obyektləri, sinif otaqları daxilində müvafiq mebel, avadanlıq və tədris materialları və digər obyektlər daxildir ki, bu da fərdlərdə maraq və motivasiyanın inkişafına səbəb ola bilər. Bu obyektlərin olmaması tapşırıq və fəaliyyətlərin həyata

keçirilməsində əsas maneə kimi qiymətləndirilir. Buna görə də, təhsil işçilərinin infrastruktur obyektlərində təkmilləşdirmələr aparması çox vacibdir.

Bacarıqların olmaması – səriştələrinin olmaması tapşırıqların və fəaliyyətlərin həyata keçirilməsində əsas maneə kimi qiymətləndirilir. Onlar yeniliklər gətirmək istədikləri zaman öz səriştələrini və qabiliyyətlərini artırmalarını təmin etməlidirlər. İstənilən nəticəni əldə etmək üçün ən yaxşı bacarıqlarını ortaya qoymalıdırlar.

Beləliklə, bütün regionlarda təhsil sisteminin tərəqqisinə gətirib çıxarmaq, şagirdlər arasında təhsilin mənimsənilməsini asanlaşdırmaq, təhsil müəssisələrinin üzvlərinin öz vəzifə və funksiyalarını mütəşəkkil şəkildə həyata keçirmələrinə şərait yaratmaq üçün təhsilin bütün sahələrini əhatə edən müasir texnologiyalardanvə innovativ metodlardan istifadə etmək lazımdır.

İnnovasiya və təhsil texnologiyalarının əsas üstünlükləri tapşırıqların daha az vaxt aparması, redaktə və dəyişiklikləri asanlaşdırmaq, ünsiyyət qurmaq, təhsil sistemində əsaslı dəyişikliklərə gətirib çıxarmaq, problemlərin həllini təmin etmək üçün ideyalar yaratmaqdan ibarətdir.

Nəzərə alınan digər konsepsiya təhsildə innovasiyaya maneələrdir. Bunlar həll edilməli olan problemin aydın olmaması, texnologiya və innovasiyanın olmaması, səriştələrin olmaması, zəif bilik bazası, infrastruktur imkanlarının və maliyyə resurslarının olmamasıdır.

Ədəbiyyat


1. Howard, R. (1968). Innovations in Education. Retrieved October 15, 2019
2. Innovating Education and Educating for Innovation. The Power of Digital Technologies and
skills.(2016).
3. Smith, K. (2009). Innovation in Public Education: Problems and Opportunities, 2019
4. What Is 'Innovation' … and, what isn't ? (2009). Retrieved October 15, 2019


## ALİ MƏKTƏBDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ


**Ağaraziyeva Rəhiməxanım Eyyub qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


İnformasiya təhlükəsizliyi mövzusu müasir dünyada son dərəcə aktualdır, çünki rəqəmsal transformasiyanın sürətlənməsi ilə informasiya və kommunikasiya texnologiyalarından istifadənin artması müsbət dəyişikliklərlə yanaşı təhlükələrin, təhdidlərin də artmasına səbəb olub. Texnologiyaların yayılması ilə informasiya təhlükəsizliyi və məxfilik problemləri də zərurətə çevrilib. Böyük təşkilatlar, o cümlədən də təhsil müəssisələri həssas tələbə məlumatlarını qorumaq üçün güclü informasiya təhlükəsizliyi tədbirlərinə ehtiyac duyurlar. Buna görə də, informasiya təhlükəsizliyi mədəniyyətinin yaradılması və idarə olunması təhsil müəssisələrinin uğurlu idarə olunması üçün həyati əhəmiyyət kəsb edir. “İnformasiya təhlükəsizliyinin təmin edilməsi vasitələri mükəmməl deyil, informasiya texnologiyalarında dinamik dəyişikliklər baş verir və informasiya təhlükəsizliyinin təmin edilməsinə zəruri resurslar ayırmaq mümkün olmur. Təəssüf ki, bu və digər səbəblərdən informasiya təhlükəsizliyini tam təmin etmək mümkün deyil və informasiya təhlükəsizliyinin pozulması halları – informasiya təhlükəsizliyi insidentləri baş verir”[2, s. 80]

Bəs bu məsələ ilə bağlı əsas amillər hansılardır? Araşdırma belə hesab edir ki, ali təhsilin idarəedilməsində ali məktəbdə informasiya təhlükəsizliyinin əsas amilləri İnformasiya Təhlükəsizliyi Şöbələrinin yaradılmasından başlamalıdır. Bundan sonra digər amillər nəzərə alınmalıdır ki, bəzilərinə diqqət edək:

Təcrübələr göstərir ki, ilk olaraq informasiya təhlükəsizliyi strateji perspektivdə həll edilməlidir. Qurumun məqsəd və ehtiyaclarına uyğun strateji planlar hazırlanmalı, mühafizə

tədbirləri və prosedurları müəyyən edilməlidir. Bu tədbir və prosedurlar ali məktəb əməkdaşlarına və tələbələrə necə davranmalı və məlumatları paylaşmalı olduqlarını müəyyən etməyə kömək etməlidir. Sonrakı addımlarda informasiya təhlükəsizliyi ilə bağlı təlimlərin keçirilməsi vacibdir və əlavə məlumat riski olmayan tədbirlər və prosedurlar mümkün qədər tez hazırlanmalıdır. İnformasiya təhlükəsizliyinin "keyfiyyətli mühafizəsini təmin etmək üçün təkcə onun yerləşdiyi binanın mühafizəsini təşkil etmək və proqram mühafizə vasitələri qurmaq kifayət deyil. Hesablama sisteminin mühafizəsinin təşkilinə onun strukturuna, həll olunan məsələlərə, mühafizənin məqsədinə və imkanlarına uyğun kompleks yanaşma tələb olunur"[1, s.246]

Təhlükəsizlik tədbirləri sırasında firewall, antivirus proqramları, məlumat ehtiyat sistemi kimi texniki vasitələrin yaradılması və tətbiqi dayanır. Bu prosesdə rəhbərlik tərəfindən verilən məlumatların təhlükəsizliyinin vacibliyi vurğulanmalı və məsuliyyət paylaşılmalıdır. Eyni zamanda da monitorinq və qiymətləndirmənin aparılması, sistemlərin monitorinqi və kəmiyyətinin müəyyən edilməsi və məlumatın risksizliyinin dərəcəsini yoxlamaq vacibdir. Bu tədbirlər informasiya təhlükəsizliyinin idarə olunmasında mühüm rol oynayır və bütün ali təhsil müəssislərində bu sahədə səmərəli tədbirlərin həyata keçirilməsini təmin edir.

"Tədbir" sözü bir təşkilatın, şirkətin və ya dövlətin müəyyən bir məsələ ilə bağlı qərarlarını, hərəkətlərini və yanaşmalarını tənzimləmək üçün yaradılmış rəsmi alətdir. Tədbirlər, ümumiyyətlə, limitləri, prosedurları, məsuliyyəti və məsələ ilə bağlı digər məsələləri müəyyən edir. Risksiz məlumat sahəsində tədbirlər risksiz məqsədlərə nail olmaq üçün lazım olan fəaliyyətləri, prosedurları və qərarları müəyyən edir. Məsələn, informasiya təhlükəsizliyi tədbirləri şirkətin şəbəkələrinin necə idarə olunacağını, giriş nöqtələrinin necə qorunacağını və məlumatın necə saxlanacağını müəyyənləşdirməyə xidmət edir.

İnformasiya təhlükəsizliyi ilə bağlı tədbirlərdə məlumatın təhlükəsizliyi üçün strateji planın hazırlanması zəruri addımdır. Bu plana məqsədlər, strategiya mövqeləri, həyata keçiriləcək tədbirlər və nəzərdən keçirilən nəticələr daxildir və strategiyanın planlaşdırılması təşkilatın məqsəd və tələblərinə uyğun strategiyanın hazırlanması prosesidir."İnsidentlərin emalına insidentlərin aşkarlanması (hadisələr, insidentlər, həyəcan siqnalları haqqında məlumatların alınması və analizi), sistemləşdirmə (insidentlərə prioritetlərin verilməsi), analiz (nə baş verib, ziyan nə qədərdir, hansı təhdidə səbəb ola bilər, dəf etmək və bərpa üçün hansı addımlar lazımdır) və insidentlərin cavablandırılması (planlaşdırma, koordinasiya və həyata keçirilmə, informasiyanın yayılması, əks əlaqə və dərs çıxarma) daxildir" [3, s. 199].Bu prosesin bəzi addımlarına diqqət edək:

-Təhlükəsizliyin yenilənməsini qiymətləndirmək: İlk növbədə, təşkilatın məlumat təhlükəsi olmayan mövqeyi qiymətləndirilməlidir. Bu, mövcud təhlükəsizlik standartlarını və prosedurlarını nəzərdən keçirmək, problemləri müəyyən etmək, limitləri və təhlükəsizlik boşluqlarını müəyyən etmək deməkdir.

-Məqsədlərin müəyyən edilməsi: Təşkilatın məlumat riskindən qaçmaq məqsədi müəyyən edilməlidir. Məsələn, məlumatın məxfiliyinin qorunması, məlumatın daxili və xarici təhdidlərdən qorunması, məlumatın risksiz yayılması kimi məqsədlər qoyula bilər.

-Strategiya Təkliflərinin Təhlili: Daxili və xarici mənbələrdən gələn məlumatların təhlükəsizliyi üçün strategiya təkliflərini təhlil edin. Bu təkliflər informasiya təhlükəsizliyinin idarə edilməsi, texniki tədbirlər və insan resurslarının təlimi kimi müxtəlif sahələri əhatə edə bilər.

-Tədbirlərin həyata keçirilməsi və monitorinqi: Strateji planın davamlılığını təmin etmək üçün planın həyata keçirilməsi və nəticələrin monitorinqi vacibdir. Bu risksizliklə bağlı dəyişikliklərin vəziyyətinə uyğun olaraq planın yenilənməsi ilə nəticələnə bilər. Strategiya planlaşdırma prosesinin bu addımları informasiya təhlükəsizliyini idarə etmək üçün effektiv üsul təqdim edir və təşkilata informasiya təhlükəsizliyi üçün məsuliyyəti qəbul etməyə kömək edir.

Ədəbiyyat:
1.Kərimov S.Q., Həbibullayev S.B., İbrahimzadə T.İ./ İnformatika. Dərslik / Bakı.- 2011- 436 s
2.İmamverdiyev Y.N. İnformasıya təhlükəsizliyi insidentlərinın emalı proseslərinin optimal planlaşdırılması modeli./ AMEA İnformasiya Texnologiyaları İnstitutu, "İnformasiya Texnologiyaları" nəşriyyatı/, Bakı,2015, -219 s
3.Əliquliyev R.M., İmamverdiyev Y.N. İnformasiya təhlükəsizliyi insidentləri. Bakı: "İnformasiya Texnologiyaları" nəşriyyatı, Bakı.-2015, 219 səh.

## XÜLASƏ

Tədqiqat işində ali məktəblərdə informasiya təhlükəsizliyi tədbirlərindən bəhs edilir. Ali təhsilin idarəedilməsində ali məktəblərdə informasiya təhlükəsizliyinin əsas amilləri araşdırılır və İnformasiya Təhlükəsizliyi Şöbələrinin yaradılmasının vacibliyi qeyd edilir. Təhlükəsizlik tədbirləri sırasında firewall, antivirus proqramları, məlumat ehtiyat sistemi kimi texniki vasitələrin yaradılması və tətbiqi tövsiyə olunaraq tədbirlərin həyata keçirilməsi və monitorinqi, strateji planın davamlılığını təmin etmək üçün nəticələrin monitorinqi tövsiyə edilir.

***Açar sözlər:*** *informasiya təhlükəsizliyi, strateji perspektivlər, tədbirlər, nəticələrin monitorinqi*

## РЕЗЮМЕ

Меры информационной безопасности в вузах рассмотрены в исследовательской работе. В управлении высшим образованием исследуются основные факторы обеспечения информационной безопасности в высшей школе, а в качестве первого шага отмечается важность создание стурктуры информационной безопасности. Среди мер безопасности рекомендуется создать и внедрить технические инструменты, такие как межсетевой экран, антивирусные программы, систему резервного копирования данных, реализацию и мониторинг мер, а также мониторинг результатов для обеспечения непрерывности стратегического плана.

***Ключевые слова:*** *информационная безопасность, стратегические перспективы, действия, мониторинг результатов.*

## SUMMARY

In this work talks about information security measures in higher institutions. In the management of higher education, the main factors of information security in the higher school are investigated, and the establishment of Information Security Departments is noted as the first step. Among the security measures, it is recommended to create and implement technical tools such as firewall, antivirus programs, data backup system, implementation and monitoring of measures, and monitoring of results to ensure the sustainability of the strategic plan.

***Keywords:*** *information security, strategic perspectives, events, monitoring of results*

# MUĞAM VƏ AŞIQ MUSİQİSİNİN MUSİQİ DƏRSLƏRİNDƏ İNNOVASİYALI METODLARLA TƏDRİSİ

**Ağayev Ceyhun Cavid oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Milli-mənəvi dəyərlərimizdən biri hesab edilən muğamlarımızın düzgün tədrisi şagirdlərin musiqi mədəniyyətində əhəmiyyətli dərəcədə rol oynayır. Günümüzdə gənc nəslin nümayəndələri arasında muğam dinləyən, onun dərin fəlsəfəsini anlayan çox az

adama rast gəlirik.Ggənc nəsil daha şən, pop, rok, rep və s. kimi musiqidən zövq alır. Buna görə şagirdlərə elə məktəb dövründən xalq musiqimiz, o cümlədən də muğamlarımız maraqlı innovasiyalı metodlarla tədris olunmalıdır. Bunun üçün ümumtəhsil məktəblərində musiqi fənnini tədris edən müəllimlərimizin üzərinə böyük məsuliyyət düşür.

Muğamlarımız (xalq mahnılarımız və rəqslərimiz kimi) müxtəlif siniflərdə tədris olunur. Muğamın ağır və sanballı bir janr olduğunu musiqi sahəsində fəaliyyət göstərən hər bir şəxs bilir. Bunu nəzərə alsaq, bu ağır janrın tədrisinə gərəkən azı 5-ci sinifdən başlanılsın.5-ci sinif dərsliyində muğamlarla bağlı mövzulara baxaq. Burada «Muğamların növləri» və «Zərbi-muğam və poeziya» mövzuları vardır. Təcrübəmizdən irəli gələrək, biz hesab edirik ki, 5-ci sinif dərsliyində muğamlarla bağlı ardıcıllaşan bu iki mövzunu birləşdirib keçmək daha yaxşı nəticə verir. Burada həmçinin vaxtdan səmərli istifadəni ön plana çəkirik. Yəni bir 45 dəqiqə ərzindəşagirdlərə muğamların növləri (ayrı-ayrılıqda adları), ifa xüsusiyyətləri barədə ümumi məlumat verib, əsas muğamları onlar üçün izah ediriksə, növbəti dərsdə artıq ayrı-ayrılıqda zərbi-muğamlar haqqında ümumi məlumat veririk.

Mövzunun keçirilməsi üçün motivasiya olaraq «Rast» muğamından bir hissə instrumental və vokal-instrumental ifada səsləndirilir və müəllim lövhədə muğamların növlərini qeyd edir. Musiqi nümunələrini dinlədikdən sonra sinfə bu sözlərlə müraciət olunur: Uşaqlar biz sizinlə daha əvvəlki dərslərimizdə vokal və vokal-instrumental ifanın nə olduğunu keçmişdik. Muğamlar da ifa olunmasına görə vokal və vokal-instrumental muğamlara ayrılır. Siz deyə bilərsinizmi dinlədiyimiz muğamlardan hansı instrumental, hansı vokal-instrumentaldır?

Şagirdlərin düzgün cavablarından sonra, məllim sinfə bu sözlərlə müraciət edir: Uşaqlar, lövhəyə diqqətlə baxsaq görərik ki, əsas muğamlara aid olan 7 muğam vardır ki, bu muğamlar insanda müxtəlif əhval-ruhiyyəni yaradır. Məsələn: «Rast» mərdlik,gümrahlıq, «Şur» şən əhval-ruhiyyə, «Segah» məhəbbət, «Çahargah» həyəcan, «Bayatı-şiraz» qəmginlik, «Şüştər» dərin kədər, «Humayun» isə daha dərin kədər hissini yaradır. Biz hal hazırda bir muğam dinlədik. Dinlədiyimiz bu muğam «Rast» muğamıdır və bizdə mərdlik, cəsarət hisslərini yaradır.

İkinci dərsimizdə, yəni «Zərbi-muğamlar və poeziya» mövzusunda şagirdlərə zərbi-muğamlardan bir neçəsini dinlətdirib, əsas muğamlarla müqayisə etmək tapşırılır. Müqayisəli təhlil nəticəsində muğamların hansı növlərinin oluduğuşagirdlərin yaddaşında daha yaxşı qalır.

6-cı sinif musiqi dərsliyində «Klassik Azərbaycan muğamı-Segah» mövzusunu nümunə dərs götürək. Dərsin əvvəlində motivasiya olaraq «Segah» muğamından bir hissə səsləndirilir. Müəllim sinfə bu sözlərlə müraciət edir:

-Uşaqlar V sinifdən muğamların növləri və ayrı-ayrılıqda adları artıq bizə məlumdur. Dinlədiyimiz «Segah» muğamı əsas, əlavə, yoxsa zərbi-muğamdır?

Şagirdlər cavab verir: - Dinlədiyimiz «Segah» muğamı 7 əsas muğamdan biridir.

Müəllim: - Bəs yaxşı «Segah» muğamını dinlədikdə insanda hansı hisslər yaranır?

Şagirdlər cavab verir: - «Segah» muğamını dinlədikdə insanda sevgi, məhəbbət hisləri yaranır.

Müəllim: - Uşaqlar, «Segah» sözünün mənası 3-cü yer, məkan deməkdir. 7 əsas muğamımızdan üçüncüsü olan «Segah»ın digər muğamlardan fərqli olaraq ayrıca növləri vardır ki, bunlar 1) « Zabul segah»; 2) «Mirzəhüseyn segahı»; 3) «Xaric segah»dır.

Daha sonra müəllim «Segah» muğamının məhşur ifaçılarının adlarını çəkir və qeyd edir ki, «Segah» muğamının intonasiyalarına əsaslanan bir çox xalq mahnı və rəqslərimiz vardır ki, bunlara misal kimi «Sarıbülbül» xalq mahnısını, «Tərəkəmə» xalq rəqsini göstərə bilərik(«Tərəkəmə» xalq rəqsi barədə uşaqlar artıq 5-ci sinifdən məlumatlıdırlar, bu səbəbdən «Tərəkəmə» rəqsini misal çəkmək məqsədəuyğundur). Dərsin gedişində «Segah» muğamının növləri, onun instrumental və vokal-instrumental ifası barədə fikir mübadiləsi

aparılır və müzakirə təşkil olunur. Belə nəticəyə gəlinir ki, « Segah»ın ayrı-ayrı variantlarda ifası bu muğamın zəngin ifa xüsusiyyətlərinin olmasından xəbər verir.

9-cu sinfin musiqi dərsliyində mövzular xalq çalğı alətləri, musiqi ocaqları və musiqi kollektivləri ilə bağlı mövzular olduğu üçün bu mövzularında ayrı-ayrı keçirilməsində xalq musiqisi nümunələrindən geniş istifadə olunur. Xalq çalğı alətləri ilə bağlı mövzuların tədrisindəalətin ifa imkanlarından danışarkən (simli və nəfəsli alətlər), həmin alətin ifasında muğam və ya digər xalq musiqi nümunələri, məsələn, «Saz» aləti ilə bağlı olan mövzunun gedişində aşıq musiqisi, «Tar» alətinin ifa xüsusiyyətlərini vurğulayan zaman, bu alətin ifasında «Çahargah» muğamından bir hissə səsləndiriə bilər. «Kamança» alətinin ifasında isə «Şüştər» və ya «Bayatı-Şiraz» muğamlarından bir hissə səsləndirilməsi daha məqsədəuyğundur.

*Aşıq musiqisi* şagirdlərin musiqi tərbiyəsində mühüm rol oynayır. Sazın və sözün sintezindən yaranan bu sənət növünün tədrisi məktəblilərdə saza, sözə olan marağı artırır. 5-ci sinfin musiqi dərsliyində verilən «Aşıq musiqisi və poeziya» mövzusunun keçirilməsində motivasiya kimi Aşıq Ələsgərin «Dağlar» şeri saz alətinin müşayiətilə səsləndirilir. Müəllim aşıqların yaradıcılıq imkanlarına görə bölündüyü qrupları lövhədə qeyd edir (şək.1)




***Şəkil 1.***

Şək. 1.

Şeri dinlədikdən sonra, müəllim şagirdlərə sual verir: - Uşaqlar dinlədiyimiz şeri hansı alət müşayiət edirdi, biz hansı alətin səsini eşitdik?

Şagirdlər cavab verir: - Biz şeri «saz» alətinin müşayiətilə dinlədik.

Müəllim: - Bəs yaxşı, «saz» aləti necə alətdir?

Şagirdlər cavab verir: - «Saz» aləti simli alətdir.

Daha sonra müəllim lövhədə qeyd etdiyi ustad, ifaçı, şair aşıqlar barədə məlumat verir. Və aşıqların istifadə etdikləri ədəbiyyat janrlarının adlarını çəkir: -Uşaqlar, aşıqlar şerdən başqa klassik ədəbiyyatımızın nümunələri sayılan dastan, gəraylı, müxəmməs, qoşmalardan da istifadə edirlər.

Aşıq sənətinin tarixindən qısa məlumat vermək məqsədilə , əvvəlcə şagirdlərə bu sözlərlə müraciət olunur: -Uşaqlar «Kitabi-Dədə Qorqud» dastanı haqqında hər birimizeşitmişik. Dastanda Dədə Qorqudun hansı alətdə ifası təsvir olunmuşdur?

Şagirdlər cavab verir: - « Kitabi- Dədə Qorqud» dastanında Dədə Qorqud «saz» ifa edir.

Müəllim : -Uşaqlar, dastanda Dədə Qorqud«ozan» kimi təqdim olunur və «qopuz»alətində ifası təsvir edilmişdir ki, bu alət indiki «saz» alətinin əcdadı hesab edilir. Necə ki, «qopuz» aləti təkmilləşərək öz yerini «saz» alətinə vermişdir, zaman keçdikcə ozanlar da öz yerini aşıqlara vermişlər. Aşıqlar keçmişdə *ozan*, ondan əvvəlki dövrdə isə *varsaq*adlanmışlar.

Şagirdlərə maraqlı olsun deyə, dərsin gedişində şagirdlərdən ikisi lövhənin qarşısında duraraq, aşıq yaradıcılığında özünəməxsus yer tutan *«deyişmə»* söyləyirlər. (Təbii ki, bu «deyişmə» formasını əvvəlcədən müəllim vərəqlərə yazıb, şagirdlərə verməlidir). Dərsin sonunda belə nəticəyə gəlinir ki, aşıq mahnılarının yaranmasında sözün və sazın sintezi rol oynayır.

Gördüyümüz kimi, problemli, müzakirə, müqayisəli təhlil, şaxələndirmə (klaster) və s. kimi innovasiyalı üsullar xalq musiqimiizin yaxşı mənimsənilməsinə gətirib çıxara bilər.

## MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRMƏNİN TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİRİ

**Alicəfərzadə Sultan Namik oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müstəqil Azərbaycan Respublikasında təhsil sisteminə müasir tələblərə cavab verən məqsədyönlü dəyişikliklər edilir. Müasir cəmiyyət, peşə təhsili də daxil olmaqla insan fəaliyyətinin bütün sahələrində yenilikçi konsepsiyaların və qabaqcıl texnologiyaların tətbiqi ilə xarakterizə olunur. Cəmiyyətin sosial-iqtisadi inkişafında əsas amil təhsil sistemidir. Təsadüfi deyil ki, müxtəlif ölkələrdən olan alimlər iyirmi birinci əsrdə bəşəriyyətin üzləşdiyi problemləri həll etmək üçün təhsilin getməli olduğu yolları müəyyənləşdirməyə diqqət yetirirlər.

Effektiv idarəetmə mövcud şəraitdə təhsili yaxşılaşdırmaq üçün ən vacib strategiyalardan biridir. Təhsilin məqsədi sadə görünsə də, məktəb sisteminin məqsədlərinə çatmaq çətin ola bilər. Təhsil keyfiyyətinin əsaslı öyrənilməsi üçün aydın bir məqsəd və vəzifələr qoymaq çox vacibdir. Bu problemlərin həlli çox vacibdir. Akademik və elmi ədəbiyyatda bir qurumun verdiyi təhsilin keyfiyyəti çox vaxt məktəbin uğuru və məktəbdaxili qiymətləndirmə sisteminin effektivliyi ilə ölçülür. Təhsil nailiyyətləri müştərilərin, cəmiyyətin və şagirdlərin tələblərinə cavab verməli olan əhəmiyyətli elementlərlə müəyyən edilir

Müasir təhsil sistemi bir çox diaqnostik metodlardan istifadə edir, bəziləri müəllimlərin özləri tərəfindən hazırlanır və tətbiq olunur. Beləliklə, qiymətləndirmə nəzəriyyəsini dərindən başa düşmək müəllimlərin və məktəb rəhbərliyinin peşəkar inkişafının ayrılmaz hissəsidir. Bundan əlavə, bu biliklə pedaqoji səhvlərdən qaçınmaq olar. Tətbiqi proqramların və təlimin effektivliyinin qiymətləndirilməsi tədris prosesinin diaqnozunu tələb edir. Təlim prosesində əldə olunan hər bir nəticə problemin miqyasını əks etdirir. Son zamanlarda öyrənmədə uğur qazanmaq üçün xüsusi metodlardan və ya nailiyyətlərdən geniş istifadə olunur. Təhsil və digər sahələrdə tədris proqramları tez-tez çoxsaylı qiymətləndirmələrdən istifadə etməklə qiymətləndirilir.

Müəllimlər sinifdə qiymətləndirməni peşəkar şəkildə həyata keçirməyənail olmalıdır, çünki bu, təhsil sisteminin tərkib hissəsidir. Qiymətləndirmə eyni zamanda sinif təcrübəsini və şagirdlərin fəaliyyətini təkmilləşdirmək üçün mühüm vasitədir. O, öyrənənlər üçün daha diqqətli tətbiq təmin etməklə tədris və öyrənməni gücləndirir. Qiymətləndirmə müəllimlərə öz tədrislərini fərdi şagird ehtiyaclarına uyğunlaşdırmaq və bütün şagirdlərə yüksək standartlara çatmaqda kömək etmək imkanı verir. Qiymətləndirmə üsulları təhsilin bütün səviyyələrində təkmilləşdirilməlidir; deməli, bu, tədrisin və öyrənmənin tərkib hissəsidir, çünki müəyyən bir təhsil sahəsində şagirdlərin zəif və düz tərəflərini aşkar edir.

Ümumi təhsil sistemində təhsilin keyfiyyətini qorumaq və yüksəltmək üçün məktəbdaxili qiymətləndirmələr həlledici rol oynayır. Məktəbdaxili qiymətləndirmə şagirdlərin öyrənməsinə nəzarət etmək, öyrənmədə boşluqları müəyyən etmək, kurikulum strategiyasını məlumatlandırmaq, kurikulumların uyğunlaşdırılmasını qiymətləndirmək, hesabatlılığı təşviq etmək, seçimləri məlumatlandırmaq üçün vacibdir. Məktəblər qiymətləndirmə məlumatlarından səmərəli istifadə etməklə ümumi təhsil sistemində təhsilin keyfiyyətini davamlı olaraq yüksəldə bilər.

Məktəbdaxili qiymətləndirmənin məqsədi metodik və vahid metodologiyadan istifadə edərək təhsilin keyfiyyətini qiymətləndirmək və artırmaqdır. Şagird fəaliyyətinin qiymətləndirilməsi ilə yanaşı, təhsilin standartları və təşviqi ilə bağlı müvafiq məlumatlar toplanır və təhlil edilir. Təhsilin keyfiyyətinə dair obyektiv məlumatlar toplamaq üçün

effektiv milli və məktəbdaxili qiymətləndirmə sistemləri hazırlanmışdır. Ölkə beynəlxalq qiymətləndirmə layihələrində də iştirak edir. Tədqiqat işin fəsillərində aşağıdakı məsələlərə ətraflı şəkildə toxunulacaqdır:

-Qiymətləndirmə fənn kurikulumlarında öyrənmə ilə sıx bağlıdır, əks əlaqə yaratmaq, tələbələri həvəsləndirmək, təlim nəticələrini ölçmək, yüksək səviyyəli düşünmə bacarıqlarını inkişaf etdirmək və təhsil sistemində hesabatlılığı və keyfiyyət təminatı kimi

-Şagird nailiyyətlərinin qiymətləndirilməsi sistemi təlim nəticələrinin qiymətləndirilməsi, əks əlaqənin təmin edilməsi, təlimat qərarlarının məlumatlandırılması, təhsilin effektivliyinin monitorinqi, hesabatlılığın təşviqi, tələbə qərarlarının qəbuluna dəstək və köməklik daxil olmaqla bir çox funksiyaya malikdir. Bu fəaliyyətin səmərəli şəkildə yerinə yetirilməsi vasitəsilə qiymətləndirmə sistemi şagirdin öyrənilməsinin yaxşılaşdırılmasına və təhsilin keyfiyyətinə töhfəsi

-Təlimin müxtəlif mərhələlərində məktəb əsaslı qiymətləndirmənin bu üsulları müəllimlərə şagird tərəqqini ölçməkdə, rəy bildirməkdə, öyrənmə və inkişafa dəstək olmaqda kömək edir. Müəllimlər təlim məqsədlərinə uyğun gələn, ədalətli və şagirdin fəaliyyəti haqqında yaxşı təsəvvür yaradan qiymətləndirmə metodu

## DİSTANT TƏHSİLDƏ RƏQƏMSAL TEXNOLOGİYALARDAN İSTİFADƏNİN ROLU VƏ YERİ

**Allahhverdiyeva Fidan Telman qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

2020-ci ildə pandemiya nəticəsində bütün dünyada məktəblərin qapıları bağlandı. Müəllimlərin tədris tərzi və tələbələrin öyrənmə tərzi bir gecədə dəyişdi , “yataq otaqları sinif otaqlarına, qonaq otaqları elmi laboratoriyalara, binanın həyətləri idman zalına çevrildi”.

Pandemiyanın iki il davam etməsi ilə distant təhsilə keçid bizi həm də bir çox çətinliklərlə üz-üzə qoydu. Heç kimin alışmadığı bu tədris üsulları müəllim və tələbələr arasında stress və çaşqınlıq yaradırdı. Bununla belə, təhsil məkanındakı sosial dəyişikliklər də öz təsirini göstərirdi. Şagirdlər kəşf etdilər ki, sinifdəki sosial təzyiqlər olmadan öz templəri ilə işləmək müsbət nəticə verə bilər.

Distant təhsilin məqsədi müəllimlərə və tələbələrə sinifdə fiziki olaraq iştirak etmək mümkün olmadıqda öyrənmək üçün vasitələr və imkanlar təmin etməkdir. COVID-19 pandemiyası zamanı müəllimlər tələbələrin müəllimləri və bir-birini görə biləcəyi və eşitdiyi rəqəmsal sinif otaqları yaratmaq üçün bəzi təhsil platformalarında olan kommunikasiya texnologiyasından istifadə etdilər.

Uzaqdan işləmək zərurəti həm müəllimləri , həm də tələbələri ilk dəfə rəqəmsal bacarıqlara daha yaxşı yiyələnməyə məcbur etdi. Bu, innovativ və yaradıcı düşüncənin stimullaşdırılmasına gətirib çıxardı və tələbələri daha çox rəqəmsal vasitələrdən istifadə etməyə və buna görə də rəqəmsal bacarıqları inkişaf etdirməyə gətirib çıxardı. Beləliklə, distant təhsil yenilikçi və yaradıcı düşüncəni stimullaşdırır və tələbələri çoxsaylı rəqəmsal vasitələrdən istifadə etməyə və bununla da rəqəmsal bacarıqları inkişaf etdirməyə təşviq etdi.

Bir çox tələbələr bunun sayəsində müstəqil öyrənmə və problem həll etmə bacarıqlarını təkmilləşdirdilər. Eyni zamanda, şagirdlərin əksəriyyəti öz sürətlərində öyrənmənin zəruri olduğunu bildirib. Təlim videolarına yenidən baxa bilmək onlara mövzuları daha yaxşı başa düşməyə kömək edir. Onlar həm də müəllimləri ilə rahat əlaqə saxlaya bilərlər.

Pandemiyadan əvvəl dərslərdə fəal iştirak etməkdə və ya ümumiyyətlə sadəcə iştirak etməkdə çətinlik çəkən bir çox tələbə distant təhsil zamanı daha az sosial təzyiqə məruz qaldı. Onlar üzləşdikləri bəzi problemlərə görə tədris prosesində daha az iştirak etməyə məcbur

olurdular. Lakin distant təhsil onları bu problemlərdən uzaqlaşdırdı. Əlbəttə bu məsəslənin tam həlli demək deyil. Lakin qismən problemlərin həlli üçün yollar açdı.

Yaranmış vəziyyətdən uğurla istifadə etməyi bacaran tələbələr distant təhsil vasitəsilə interaktiv elektron portfolioların hazırlanması, fikirləri bölüşmək və qrup tapşırıqlarını yerinə yetirmək üçün müzakirə lövhələrindən istifadə etmək, birgə rəqəmsal posterlər və videolar yaratmaq və onları sosial mediada paylaşmaq kimi yeni əməkdaşlıq yollarını kəşf etdilər. Onlayn təhsil platformalarının yazı funksiyasından istifadə etmək və paylaşılan sənədləri redaktə etmək və şərh etmək əməkdaşlıq və ünsiyyət baxımından tələbələr üçün xüsusilə faydalı oldu. Beləliklə, karantin zamanı texnologiyadan istifadə zərurəti bizə qiymətləndirmələrin formalaşdırılması və çatdırılması üçün orjinal imkanlar kəşf etməyə imkan verdi.

Standartlaşdırılmış, test əsaslı qiymətləndirmə mədəniyyətinə malik ölkələr üçün onlayn qiymətləndirməyə keçid çətin idi. Öyrənənlərin formativ qiymətləndirilməsi bəzən videokonfrans funksiyalarının köməyi ilə həyata keçirilirdi. Bu yanaşma müəllimlərə şagirdlərini fiziki olaraq görməyə və dinləməyə imkan verdi. Bununla belə, ədəbiyyat, rol oyunu, onlayn debatlar, teatr səhnələrindən istifadə və şifahi tapşırıqların qiymətləndirilməsini asanlaşdırıb. Müəllimlərin fikrincə, bu, onların sosiallaşmasını asanlaşdırıb və özlərini sinifdə hiss etmələrinə kömək edib, bu da şagirdlərin rifahı üçün vacibdir. Eyni zamanda, onlayn testlərdən istifadə tələbələrə öz qiymətlərini özləri üçün əlverişli vaxtda yoxlamağa imkan verirdi. Həmçinin, müəllimlər də bu rəqəmsal fəaliyyətləri bir-biri ilə asanlıqla paylaşa, qiymətləndirmədə ədalətliliyi və testlərin təkrar istifadəsini təmin edə bilirdilər.

Distant təhsilə valideynlərin yanaşması isə birmənalı deyildi. Bəzi valideynlər buna rəqəmsal bacarıqlarınızı təkmilləşdirməyin bir yolu, bəzisi lazımsız pul və vaxt itkisinin aradan qalxması, bəziləri isə yaxşı olmayan bir hal kimi baxırdılar. Amma distant metodun valideynlərə gətirdiyi əsas şey onların övladlarına daha asan nəzarət etmələri və onları daha çox tədris prosesinə cəlb etmək oldu.

Distant təhsilə keçidlə məktəblər, hətta pandemiya kontekstindən kənarda olsa da, təhsildə bərabərsizliklərin azaldılmasına , təhsilə çıxışın yaxşılaşdırılmasına və həyat boyu bizə xidmət edəcək öyrənmə bacarıqlarının təkmilləşdirilməsinə nail oldular.

## RƏQƏMSAL TƏHSİL VASİTƏLƏRİNİN TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏSİRİ

**Allahverdiyeva Fidan Telman qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Rəqəmsal təhsil qlobal fenomenə və tələbə həyatının ayrılmaz hissəsinə çevrilib. Bu da son illərdə geniş müzakirə olunan mövzulardan biridir. Bu gün rəqəmsal təhsil bu dövrdə müxtəlif öyrənmə yollarını təmin edən texnoloji cihazlara-texnika və texnologiyalara əsaslanır.

Rəqəmsal təhsil son vaxtlar rəqəmsal inkişaf və transformasiyadan keçən ölkələr üçün xüsusi əhəmiyyət kəsb edir. O, rəqəmsal alətləri və qabaqcıl texnologiyanı təhsil təcrübələrinə inteqrasiya etməklə tədris və öyrənməni asanlaşdırır. Rəqəmsal təhsil konsepsiyası yeni olmasa da, onun təhsil müəssisələrində rolu əhəmiyyətli dərəcədə artıb, müəllimlər bu gün rəqəmsal öyrənmə və tədrisi təşviq etmək üçün texniki üsullara etibar edirlər və bununla təhsilin xarakteri transformativ olmuşdur. Əksər təhsil müəssisələri rəqəmsal təhsili daim dəyişən rəqəmsal mühitə cavab olaraq qəbul edirlər. O, sinif otaqlarında adi lövhə tədrisini əvəz etmək üçün mükəmməl alternativ hesab olunur. Həmçinin, hökumətlər hazırda bir çox regionlarda rəqəmsal təhsil bazarını genişləndirəcək və ondan yaranan geniş imkanları gücləndirəcək siyasətlər hazırlamaq üçün lazımi tədbirlər görür.

Rəqəmsal təhsil tədris və öyrənmə zamanı rəqəmsal texnologiyaların və metodologiyaların yaradıcı tətbiqidir. Rəqəmsal texnologiyalardan istifadənin tədqiqi

müəllimlərə öz dərslərində maraqlı öyrənmə imkanları yaratmağa imkan verir ki, bu imkanlar tamamilə onlayn kurs və proqramlarla birləşdirilə və ya onlara çevrilə bilər. Rəqəmsal texnologiya təhsildə davamlı bu yaradıcı tətbiqindən həm müəllimlər, həm də tələbələr faydalanacaqlar. Bu, təhsildə davamlı iştirak etməyi təşviq edir və təhsildə davamlı öyrənməni xoş fəaliyyətə çevirir, çünki öyrənmə yüksək dərəcədə uyğunlaşa bilən və məhsuldar olmuşdur. Təhsildə rəqəmsal imkanların hesabına tələbələr istədikləri zaman təhsil ala bilməklə yanaşı, istənilən yerdən dərslərdə iştirak edə bilərlər.

Bundan əlavə, onlayn və ya rəqəmsal öyrənmə ilə fərdi əlaqəni qarışdırmaqla rəqəmsal təhsil tələbələr və müəllimlər arasında hərtərəfli dialoqu təşviq edir. Rəqəmsal alətlər, material, müəllim rolu və kurrikulumun hamısı effektiv öyrənmə üçün bu proqramda mükəmməl şəkildə birləşdirilib. Tələbələr həmçinin yeni imkanlarla tanış olma, uyğunlaşdırılmış təlimat, yüksək səviyyəli iştirak, ümumi inkişaf və təkmilləşdirilmiş nəticələr kimi müxtəlif üstünlüklər əldə edirlər. Rəqəmsal təhsilin təhsil müəssisələrini dəyişdirməsi nəticəsində ənənəvi təbaşir və lövhə mədəniyyəti tamamilə dəyişdi. Kompüter və ya planşet qələm və kağızı, onlayn mühazirələr və ya video mühazirələr isə üzbəüz mühazirələri əvəz edir. Tələbələrin qarşılıqlı əlaqəsi üçün onlayn lövhələr də var. Daha çox məktəb və təhsil müəssisəsi bu rəqəmsal təhsil sistemindən istifadə etməyi seçdikcə, o, gələcəkdə daha da genişlənəcəkdir.

Rəqəmsal təhsilin iki fərqli, lakin əlaqəli konsepsiyası var:

- Birincisi, daha əhatəli rəqəmsal bacarıqlar toplusunu yaratmaq üçün geniş spektrli texnologiyalardan istifadə etmək və öyrənməni sürətləndirmək və artırmaq üçün bu alətləri daha dərin, texniki, yaradıcı və innovativ üsullarla tətbiq etmək üçün hesablama düşüncəsindən istifadə etmək. Ölkələr təhsildə daha rəqəmsal gələcəyə, dəyişikliyi göstərən yenilənmiş kurrikuluma inteqrasiya etdikcə, elektron təhsilin bu təsiri bir çox ölkələrdə daha geniş yayılır.
- İkincisi, şəxsi bacarıqları təkmilləşdirmək və onları cari təlim prosesinə daxil etmək üçün rəqəmsal texnologiyalardan istifadə. Rəqəmsal öyrənmə tədricən ənənəvi tədris üsullarını əvəz edir. İnternet və smartfonlar, noutbuklar və s. kimi yüksək texnologiyalı cihazlar rəqəmsal dünyada effektiv rəqəmsal təhsili asanlaşdırmaq üçün tətbiq olunan fərdiləşdirilmiş alətlərdən bəziləridir. Lakin tədris mühitində texnologiyadan istifadə bu alətlərdən necə istifadə edəcəyini bilməkdən daha çox şey tələb edir, rəqəmsal düşüncə tərzi, rəqəmsal sinif otağı, rəqəmsal materiallar və daha çox digər amillər yüksək təsirə malikdir.

Rəqəmsal təhsil nə üçün vacibdir?

Həm şəxsi, həm də peşəkar həyatımızda rəqəmsal platformalar və texnologiyalar getdikcə daha vacib hala gəlir. Tələbələri həm bu gün, həm də gələcəkdə uğur qazanmaq üçün zəruri olan zehniyyət və bacarıqlarla təchiz edən rəqəmsal öyrənmə sayəsində təhsil və bilik daha geniş hal alır. Çoxsaylı araşdırmalar göstərir ki, tələbələrə texnologiyadan sadəcə istifadə etmək daha yaxşı nəticələrə zəmanət vermir; əvəzində, bütün öyrənmə təcrübəsini əhəmiyyətli dərəcədə təkmilləşdirmək üçün rəqəmsal öyrənmənin uğurla həyata keçirilməsi və rəqəmsal təfəkkürün fəal şəkildə mənimsənilməsi tələb olunur.

Yaxın gələcəkdə məşğulluq uğuru üçün müvafiq rəqəmsal təhsil zəruri olacaqdır. Artan rəqəmsal transformasiya sinifdə, biznesdə və ali təhsildə İT bacarıqlarının dəyərini artırmaqdadır. Bundan əlavə, müasir texnologiya daha cəlbedici və dəyərli öyrənmə təcrübələrini asanlaşdırarkən rəqəmsal media onlayn öyrənmə üçün yeni şanslar yaradır. Rəqəmsal tədris üsulları PowerPoint təqdimatları, video təqdimatlar, onlayn təlimlər və s. kimi vasitələr sinifdə tədrisə yeni görünüş bəxş edib və onu interaktiv edib. Tələbələrin onlayn təhsil platformalarından təhlükəsiz istifadəsi təhsil rəhbərliyinin həll etməli olduğu əsas məsələlərdən biridir. Onlar tələbələri çoxsaylı zərərli təhlükələrdən qorumalı, eyni zamanda effektiv və müsbət platformalar yaratmalıdırlar.

Rəqəmsal öyrənmə uşağın həyatını dəyişdirmək üçün bir sıra üstünlüklərə malikdir, o cümlədən daha yüksək akademik nailiyyətlər, təkmil qərar qəbuletmə, təkmilləşdirilmiş mədəni məlumatlandırma və s. Rəqəmsal təhsildə tələbələri cəlb etmək, öyrənmə imkanlarını fərdiləşdirmək və əlçatanlığı artırmaq üçün çoxsaylı imkanlar mövcuddur. Rəqəmsal təhsil onu öyrənmə üçün unikal tədris sistemi edən bəzi xüsusiyyətlərə malikdir:

Fərdiləşdirmə: Öyrənmə resursları rəqəmsal formatlarda təqdim edildikdə, onlara daxil olmaq üçün istifadə olunan avadanlıqda onların parametrlərini dəyişdirərək fərdiləşdirilə bilər. Bunun nəticəsində tələbənin akademik tərəqqini ən yaxşı şəkildə dəstəkləyəcək şəkildə məlumat əldə etməyi və istifadə etməyi daha asan olacaq. Bir çox ölkələr müəllimlərə öz metodlarını və tədris sürətini tələbələrinin tələblərinə, üstünlüklərinə və maraqlarına daha yaxşı uyğunlaşdırmaq üçün dəyişdirməyə imkan verməklə, sinifin müasirləşdirilməsinə kömək edən fərdiləşdirilmiş öyrənməni təşviq edir. Sinifdə fərdiləşdirilmiş öyrənmə metodologiyalarından faydalanan tələbələr oxu və riyaziyyat bacarıqlarında əhəmiyyətli irəliləyişlər əldə edə bilirlər. Əlavə olaraq, tələbələr nə qədər fərdilşdirilmiş təhsildən yararlansalar, onların performansı bir o qədər əhəmiyyətli dərəcədə artacaqdır. Rəqəmsal öyrənmənin köməyi ilə indi hər bir tələbəyə unikal təhsil imkanları dəsti vermək mümkündür.

Əlçatanlıq: Rəqəmsal təhsilin gəlişi ilə tələbələr indi öz təhsil proqramlarını seçmək və istədikləri zaman və hər yerdə məlumat əldə etmək azadlığına malikdirlər. Bu, ömür boyu öyrənməyə dəstək verə bilər. Universitetdən uzaqda yaşayan və ya uşaq baxımı və ya məşğulluq öhdəliyi olanlar kimi təhsilalma çətinliyi olan tələbələr üçün təhsilin əlçatanlığı da onlayn və qarışıq öyrənmə vasitəsilə yaxşılaşdırıla bilər.

Çeviklik: Tədris məzmununu bir neçə formada, rejimdə və ya dildə çatdırmaq və bütün dünyada fərdlərlə sinxron və asinxron əlaqə yaratmaq çevikliyi rəqəmsal texnologiyaların tez-tez təklif etdiyi və ənənəvi formatlarda mövcud olmayan imkanların yalnız iki nümunəsidir.

Orijinallıq: Rəqəmsal bacarıqlar indi vacib məzun atributudur, çünki müasir qlobal vətəndaşın rəqəmsal dünya ilə qarşılıqlı əlaqədə olması üçün onlardan istifadə etmək bacarığı olmalıdır. Əsasən, rəqəmsal təhsildən qaçaraq, müəllimlər və tələbələr texnoloji cəhətdən bir-birinə getdikcə daha çox bağlı olan rəqəmsal təhsildə qalmaq riski ilə üzləşirlər.

Effektivlik: Rəqəmsal qiymətləndirmələr müəllimlərə və tələbələrə öz səylərini daha çox başa düşməyə və ən çox ehtiyac duyulan sahələrə yönəltməyə imkan verir. Adaptiv göstərişlərin köməyi ilə müəllimlər səhv təsəvvürləri və səhv cavabları dərhal aydınlaşdıra, eyni zamanda real vaxt rejimində problemin həllində tələbələrə kömək edə bilərlər. Bundan əlavə, sürətli qiymətləndirmələr, vizuallaşdırmalar, oyunlar, simulyasiyalar, filmlər və annotasiya texnologiyaları tələbələrə anlayışları daha dolğun qavramağa kömək edən daha zəngin öyrənmə mühiti yaradır.

Maddi ucuzdur: Onlayn təhsil ənənəvi sinif təhsilindən daha ucuzdur. Bu, büdcəni daha effektiv idarə etməyə imkan verir. Onlayn platformalarda bir çox pulsuz kurs resursları var ki onlar materialla zəngindir. Bu materiallar pulsuz olduğu üçün rəqəmsal təhsildə qiymət adətən aşağıdır.

Ədəbiyyat

1. Azərbaycanda rəqəmsal bacarıqlar və onlayn təlim
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası
3. Bill & Melinda Gates Foundation. Teachers Know Best: Making Data Work for Teachers and Students. Bill & Melinda Gates Foundation; 2015
4. Delgado AJ, Wardlow L, McKnight K, O’Malley K. Educational technology: A review of the integration, resources, and effectiveness of technology in K-12 classrooms. Journal of Information Technology Education: Research. 2015

## XÜLASƏ

İllər keçdikcə texnologiya dünyanın hər bir sektorunda üstünlük təşkil edir və rəqəmsal texnologiyanın təhsil müəssisələrinə təsiri digər təsirlərdən heç də geridə qalmır. Müasir texnoloji tərəqqi dövründə rəqəmsal təhsil olduqca vacibdir. Çünki o, fərdiləşdirilmiş öyrənmə, qeyri-məhdud miqdarda məlumatlara açıq çıxış, çevik tədris metodları və s. vasitəsilə öyrənməni səmərəli edir. Beləliklə, ənənəvi sinif şəraitində mövcud olan məhdud resurslara etibar etmədən zamanla müxtəlif materiallar təhsilə daxil edildi. Bunun sayəsində tələbələr əsas rəqəmsal bacarıq və texnologiyaların köməyi ilə məlumatları daha asan öyrənə və araşdıra bilirlər. Tələbənin akademik performansı və aktiv öyrənmə ilə məşğul olması həm müsbət münasibət, həm də öyrənmədə motivasiyanın yaranmasına gətirib çıxardı. Bütün bu qarşılıqlı əlaqələr nəticəsində deyə bilərik ki, rəqəmsal təhsilin tədris mühitində müxtəlif müsbət və mənfi cəhətləri və onun müxtəlif kütlələrə müxtəlif təsiri var.

## РЕЗЮМЕ

На протяжении многих лет технологии доминировали во всех секторах мира, а влияние цифровых технологий на образовательные учреждения не имеет себе равных. Цифровое образование чрезвычайно важно в современную эпоху технического прогресса. Потому что оно обеспечивает персонализированное обучение, открытый доступ к неограниченному объему информации, гибкие методы обучения и т. д. делает обучение эффективным благодаря Таким образом, с течением времени в образование были включены различные материалы, не полагаясь на ограниченные ресурсы, доступные в традиционных классах. Это позволяет учащимся легче учиться и изучать информацию с помощью базовых цифровых навыков и технологий. Успеваемость студентов и их участие в активном обучении привели как к положительному отношению, так и к мотивации к обучению. В результате всех этих взаимодействий мы можем сказать, что цифровое образование имеет разные плюсы и минусы в среде обучения и его влиянии на разные аудитории.

## SUMMARY

Over the years, technology has dominated every sector of the world, and the impact of digital technology on educational institutions is second to none. Digital education is extremely important in today's era of technological advancement. Because it provides personalized learning, open access to an unlimited amount of information, flexible teaching methods, etc. makes learning effective through Thus, different materials were incorporated into education over time without relying on the limited resources available in the traditional classroom setting. This allows students to learn and explore information more easily with the help of basic digital skills and technologies. Student academic performance and engagement in active learning led to both positive attitudes and learning motivation. As a result of all these interactions, we can say that digital education has different pros and cons in the learning environment and its impact on different audiences.


# MÜƏLLİM HAZIRLIĞI PROSESİNDƏ ƏMƏKDAŞLIQ XÜSUSİYYƏTLƏRİ


**Bağırlı Ürfan Toğrul oğlu**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Təhsil, insanların bilik və bacarıqlarını artırmaq, fərdlərin müstəqil düşünməyə və fəaliyyətlərinə yönətmək məqsədi ilə təşkil olunan sistematik bir prosesdir. Müasir dövrümüzdə qarşıda duran əsas məsələlərdən biri də təhsil prosesinin inkişafı və keyfiyyətli tədris üçün düzgün üsul və metodların seçilməsi məsələsidir.

Təhsil prosesində müəllim hazırlığı mərhələsi təhsil sisteminin əsas dirəyi kimi əhəmiyyətli bir rola sahibdir. Bu mərhələdə müəllimlər, təhsil sahəsində sürətli inkişaf etmək və müasir tədris metodlarını tətbiq etmək üçün mümkün olan ən yaxşı təhsil alaraq öz bacarıqlarını artırmağa nail olmalıdırlar. Bu, tələbələr üçün daha interaktiv və əlaqəli təhsil imkanları təmin edərək onların öyrənmə potensialını maksimuma çıxarmağa kömək edir. Əməkdaşlığın mövcudluğu və əməkdaşlığın dərin tədqiqatı, müəllim hazırlığı mərhələsində əldə edilən bilik və bacarıqların daha effektiv şəkildə paylanmasına və təhsil prosesinin təkmilləşdirilməsinə nail olmağa kömək edir.

Müəllim hazırlığı mərhələsi təhsil sahəsində bacarıqlı və peşəkar müəllimlərin yetişdirilməsində xüsusi rola malik hesab edilir. Bu mərhələ əsas məsələlərdən biri əməkdaşlığın tətbiqi və güclü əlaqələrin qurulması prosesidir. Əməkdaşlıq əlaqələrinin mövcudluğu və inkişafı ümumtəhsil sisteminin güclənməsi və tələbələrə daha yaxşı təhsil verilməsi prosesində əhəmiyyətli faktor hesab edilir.

Əməkdaşlıq, əsasən, müəllimlər arasında effektiv və düzgün kommunikasiya imkanlarının təmin edilməsi ilə başlayır. Bu, dərs prosesi zamanı təcrübə və bacarıqların düzgün paylaşılması, yeniliklər barədə fikir mübadiləsi aparmaq və dialoqlar yaratmaq üçün kömək edir. İnformasiyaların geniş yayıldığı və sürətlə paylaşıldığı müasir dövrdə düzgün kommunikasiya üsullarından istifadə etmək və pedaqoji ustalıqlara sahib olmaq heç də asan prosses deyildir. T.Ə.Quliyevin də dediyi kimi, "işçilər ünsiyyətin əlaqələndirici (kommunikativ) xüsusiyyətinin çox böyük əhəmiyyət daşıdığını bilməli və işlərində rəhbər tutmalıdır" [3].

İ.P.Yakovlev və digər çoxsaylı tədqiqatçılara görə "kommunikasiya deyildikdə, ünsiyyətin inkişafı, kommunikasiya proseslərinin məzmun və strukturu, kommunikasiya vasitələrindən istifadə və s. nəzərə alınmaqla, kommunikasiyanın cəmiyyətdəki rolu ilə bağlı tədqiqatların məcmusu başa düşülməlidir" [5].

Əməkdaşlığın digər bir önəmli aspekti, müəllimlər arasında müxtəlif tədris metodlarından istifadə üsullarının və strategiyalarının mübadiləsi və paylaşılması da nəzərdə tutulur. Hər bir tələbə fərqli öyrənir, buna görə də müəllimlərin bir-birilərinin təcrübəsindən istifadə etməsi və müxtəlif öyrətim üsullarını paylaşması, tələbələr üçün müstəqil öyrənmə imkanlarını yaratmağa kömək edir. Bu, tələbələrin müxtəlif öyrətim üsulları ilə daha yaxından tanış olmalarını və öz öyrənmə tərzlərinə daha yaxşı cavab verməlerini təmin edir. "Müəllim hazırlığı prosesi, təhsil sahəsində peşəkar inkişaf və təcrübə qazanmağın bir yolu olaraq dəyərləndirilə bilər" [7]. Aydın məsələdir ki, bu əməkdaşlıq həm də gənc və yeni tədrisə başlayacaq müəllimlər üçün də faydalı və mühüm əhəmiyyətə sahib prosesdir.

Əməkdaşlığın müxtəlif tərəflərdən mentorluq mərhələsi kimi funksiyası da var. Təcrübəli müəllimlərin yeni gələn müəllimlərin öyrətən bacarıqlarını inkişaf etdirməsi və onları müstəqil müəllimlər kimi hazırlamağa kömək edir. Bu, müəllimlər arasında tələbələr üçün daha səmərəli və təkmilləşdirilmiş tədris təmin etməyə nail olmağa yardım edir. "Təşkilati davranışın məqsədi insan məqsədlərinə, sosial məqsədlərə, təşkilat məqsədlərinə nail olmaqla, onlar arasında daha güclü əlaqə yaratmaqdan ibarətdir" [2].

Əməkdaşlığın ən əhəmiyyətli aspektlərindən biri də tələbələrin bədii və ruhi inkişafına diqqət yetirməkdir. Müəllimlər, öz aralarında tələbələrin fərqli güclərinə və zəifliklərinə diqqət yetirərək, tələbələrin daha çox özünü ifadə etməsi, öz potensialını müşahidə etməsi və özünü inkişaf etdirməsi üçün uyğun şərait yaratmalıdırlar.

"Müəllimlərin fəaliyyətlərində qarşılaşdıqları problemlərin həlli zamanı metodik və instruktiv dəstək üçün metodistlərə müraciət etməsi onların peşəkar inkişafına şərait yaradır" [6]. Bu tələbələrə fərdi nailiyyətlərinə uyğun müstəqil öyrənmə təcrübələri təmin etmək, onların motivasiyasını və öz inkişafını artırmağa kömək edir. Müəllimlərin idarəetmə bacarığı, müəllimlərin effektiv bir şəkildə tədris prosesini təşkil etmələri, tələbələrlə daha yaxından əlaqə qurmalıları və tədris materiallarını planlaşdırmalıları üçün də əhəmiyyətli bir

rol oynayır. Aydın məsələdir ki, "müəssisələrdə işləyən insanlar təşkilatdaxili mədəni mühiti, müəyyən qaydaları öz işlərində əsas prinsip olaraq qəbul edirlər" [4].

Təhsil müəssisələrinin nailiyyətinin əsasında müstəqil və peşəkar müəllimlərin mövcudluğu böyük bir rol oynayır. Bu səbəbdən müəllim hazırlığı, tədris prosesində özünü inkişaf etdirmək və tələbələrə müasir tədris metodu ilə yanaşmaq üçün əsaslı bir addımdır. Müəllim hazırlığı prosesi, bütün təhsil tədbirlərini və mövzularını özündə əks etdirir və bu proses, müəllimlərin peşəkar bacarıqlarını inkişaf etdirməsini, tədris metodologiyalarını ən yaxşı şəkildə tətbiq etməsini və tələbələrə maraqli və effektiv tədris verməsini təmin edir.

Son olaraq, müəllim hazırlığı mərhələsində əməkdaşlığın təşkil edici bir vasitə olduğunu nəzərə almalıyıq. Sürətli dəyişən təhsil sahəsində güclü və müstəqil müəllimlər yetişdirmək üçün bu əməkdaşlıq prinsipləri və təcrübə, təhsil sahəsində yenilik və inkişafı təmin etmək üçün əhəmiyyətli bir addım təşkil edir. Əməkdaşlığın gücündən istifadə etməklə müəllim hazırlığı mərhələsində tələbələrə daha effektiv şəkildə yanaşmaq və təhsilin keyfiyyətini artırmaq mümkündür. "Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri onun akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır" [1].

Ədəbiyyat


1. Abbasov, A.N., Hacıyev, A.X. və b. (2012). Müəllim hazırlığına yeni yanaşmalar. Bakı: Mütərcim, 324 s.
2. Əliyev M., Həmidov H., Biznesdə insan resurslarının idarə edilməsi (2013),Bakı: "İqtisad Universiteti". Nəşriyyatı, səh 532.
3. Quliyev T.Ə., (2001), Menecmentin (idarəetmənin) əsasları.-Bakı, 32 (800-803)
4. Зайцев Л.Г., Соколова М.И.(2007), с 146
5. Яковлев И.П. Ключи к общению (2006), Основы теории коммуникаций. СПб.: Авалон, Азбука-классика, 349 с.
6. C. D. Glickman, S. P. Gordon, (2013), J. M. Ross-Gordon, The basic guide to supervision and instructional, USA, p 384.
7. H. R. Lapman, (1957), Improving Teacher-Supervisor Relationships, University of North Carolina Press.


## KEYFİYYƏT TƏMİNATININ HƏYATA KEÇİRİLMƏSİNİN FORMALARI


**Baxşıyev Çingiz Rövşən oğlu**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Keyfiyyət təminatı sistemi ali təhsil müəssisələrinin idarə edilməsi üçün əvəzedilməz rola malikdir. Universitetdə keyfiyyət təminatının həyata keçirilməsi üçün bir neçə mövcuddur. Onlardan birneçəsi aşağıdakılardır:

Müsahibə. Müsahibələr sərbəst şəkildə aparıldığına görə səsyazma və ya kameralar vasitəsilə qeydə alınır. Həm diktofon, həm də kamera ilə qeydə alınan araşdırma analiz məqsədi ilə emal edilib yazı formasına gətirilməlidir. İlk öncə sınaq intervülərinin həyata keçirilməsi məsləhət olunur. Çünki, sınaq intervülər sayəsində texniki çatışmazlıqlar və yaranan səhvlər ortaya çıxır. MakQivern qeyd edir ki, müsahibələrdə araşdırmaçılar müsahibədən sonra səsyazmaya qulaq asdıqdan sonra aydın olmayan məqamları həll etmək üçün respondentlə bir daha ünsiyyət qura bilər.

Bundan əlavə, intervü onlayn formada da aparılır. Onlayn müsahibələri həm yazılı (elektron poçt), həm də videozəng olaraq aparmaq mümkündür. Onlayn yazılı müsahibə sinxron və asinxron formada yerinə yetirilə bilərsə, videozəng ilə müsahibə yalnız sinxron formada baş verir.

Başqa onlayn tədqiqat metodlarının həyata keçirilmə formalarından fərqli olaraq, video-intervülərdə danışığı yazılı şəkildə qeydə almaq mümkünsüz olduğundan söhbət səsyazma ilə qeyd olunur və daha sonra mexaniki üsulla emal edilir. Ancaq elektron poçt kimi onlayn yazılı müsahibələrdə tədqiqatçı bu cür maneələrlə qarşılaşmır.

Kurasinin onlayn tədqiqatlar sahəsində böyük təcrübələri vardır. Onun elektron poçt ilə müsahibə sorğusunun göndərilməsinə aid bir sıra fikirləri mövcuddur. İlk öncə hazırlanan sualların müsahibədəki iştirakçılara təqdim olunması üslubuna xüsusi diqqət yetirilməlidir. Çünki, bu zaman iştirakçı sualların hamısını oxuyub, sadəcə özü seçdiyi suallara cavab verə bilər. Bu halda tədqiqat üçün cavablandırılması önəmli olan suallar cavabsız qala bilər. Belə problemlərlə qarşılaşmamaq üçün ya tək-tək, ya da üç-dörd sual eyni anda göndərilir və nəticədə mövcud sualların hamısına cavab tapmaq ehtimalı artır.

Onlayn intervü forması canlı formada keçirilən intervüyə nisbətən daha az məsrəf tələb edir. Məsələn, nəqliyyat xərci, kağız xərci və s. Bundan əlavə, Kurasi əsas problemi onlayn intervüdə iştirakçıları araşdırmaya cəlb etməyin çətinliyində görür. Belə ki, iştirak edən şəxslər elektron poçt ünvanlarına gələn araşdırma ilə bağlı dəvətləri virus qorxusu səbəbindən açmır, bəzi vaxtlarda isə elektron məktub süzgəc funksiyasına görə respondent onu əldə edə bilmir. Bu problemli vəziyyəti aradan qaldırmağın əsas yollarından biri, tədqiqatçının özü, təhsil aldığı müəssisə, işlədiyi təşkilat və ya şirkət haqqında rəsmi sənədi də həmçinin, sorğu ilə birlikdə göndərə bilər.

Anket. Anket sorğusunun təşkil olunma forması iki cür olur: cavablayan tərəfindən yalnız qaldığı zaman cavablandırılan anket, yəni qiyabi sorğu, tədqiqatçının da iştirak etməsi ilə aparılan anket, yəni birbaşa sorğu.

Birbaşa sorğu. Anket metodunun bu formasında araşdırmaçı potensial respondentlərlə görüşərək, onlara sorğuda iştirak etməyi təklif edir. Əgər respondent təklifi qəbul edərsə, sorğu başlamazdan əvvəl anketçi özü və tədqiqat aparan müəssisə haqqında cavablayan şəxsə informasiya verməli, araşdırmanın əsas məqsədini nəzərə çatdırmalı və onun hüquq və haqlarını ona bildirməlidir.

Cavablayan insanlarda anketə qarşı maraq oyatmaq səbəbilə anketin tərtibatı tək yol deyil. Sorğunun yerinə yetirilmə tərzi də eyni dərəcədə önəmlidir. Belə ki, anket sorğusu aparan şəxs gülərüz olub respondentə diqqətlə qulaq asmalı və respondent üçün aydın olmayan hissələri izah etməyi bilməlidir. Hətta, sorğunun əvvəlində respondentin vəziyyətini, əhvalını soruşmaq da məsləhət görülür.

Çağdaş informasiya-kommunikasiya texnologiyaları anketlərin texnoloji alətlərdə (kompüter, planşet və s.) hazırlanması üçün böyük imkanlar yaradıb. Bu cür sorğularda texnoloji avadanlıqların əldə olunması zamanı xərcin artmasına baxmayaraq, araşdırmaçılara görə uzunmüddətli üstünlükdür.

Qiyabi sorğu. Anketi təşkil edən şəxsin özünün iştirakı olmadan gerçəkləşən bu tədqiqat formasında anket cavablayan tərəfindən doldurulur və araşdırmaçıya geri qaytarılır. Anket metodunun bu formasından adətən həssas olan mövzuları (məsələn, cinayətkarlıq, şiddət, zorakılıq və s.) qarşılıqlı müzakirə etmək istəməyən respondentlərin düşüncəsini öyrənmək üçün istifadə olunur. Qiyabi sorğu poçt vasitəsi ilə respondentə çatdırılır. Buna görə də, sorğunun strukturu, şərhi aydın və anlaşıqlı olmalıdır, çünki bu zaman respondentin anlamadığı hissələrlə bağlı sualları ola bilər, lakin anketçinin kömək etməyi mümkünsüzdür.

Tədqiqatı aparan araşdırmaçılar hazırlayıb payladıqları anketlərinin çox vaxt hamısından deyil, müəyyən bir hissəsindən geri dönüş ala bilirlər. Qaytarılma faizini artırmaq üçün anketçi sorğuları göndərdikdən bir müddət sonra respondentlərə xatırlatma mesajı göndərə bilərlər. Daha bir yol isə sorğuda iştirak edən iştirakçılara mükafat verilə bilər. Mükafatlar kupon, bilet formasında ola bilər. Qiyabi anketdə iştirak edib geri dönüş edən respondentlərin əsas nümunə kütləsi olub olmadığını müəyyən etmək qeyri-mümkündür. Bu hal tədqiqatın cavablarında qeyri-müəyyənlik yarada bilər.

Qiyabi anket həmişə sosial qrup üçün əlverişli sayılmır. Çünki uşaqların (azyaşlıların) və yazıb-oxumada çətinlik çəkənlərin bu anketdə iştirakı əlverişsizdir. Bu qrupa daxil olan insanlar üçün anketi müstəqil şəkildə oxuyub anlamaq çətindir və köməyə ehtiyacları olur. Bu sorğunun aparılmasında qarşılaşılan problemlərdən biridir. Lakin, buna baxmayaraq qiyabi sorğunun üstünlüyü ondadır ki, respondent anketi sərbəst, heç kəsin təsiri altında olmadan və tələsmədən cavablandıra bilər.

Qiyabi sorğuya nümunə göstərək. Azərbaycan Dövlət Pedaqoji Universiteti tələbələrə anket sorğu göndərir. Sorğunun məqsədi universitetin müəllim heyətinin fəaliyyəti haqqında məlumat toplamaqdır. Universitetin keyfiyyət təminatı şöbəsi 40 sualdan ibarət anket hazırlayaraq tələbələrin elektron poçt ünvanına göndərir. Sorğu 5500 tələbəyə çatır və onların cəmi 80%-i sorğunu cavablayır. Tələbələr müəllimləri barəsində olan fikirlərini anketdə əks etdirirlər. Anketdə müəllimlərin metodu, aktivliyi, savadı, ikt-dən istifadə edib etmədiyi və s. haqqında suallar tərtib olunmuşdur. Bu anketdə iştirak edən tələbələrin anonimliyi tamamilə qorunur. Tələbələr özünü güvəndə hiss edərək sorğunu cavablayır. Buna görə də respondentlərin sualları doğru cavablandırmaqdan çəkindikləri hallarda qiyabi sorğudan istifadə etmək ən düzgün metoddur.

## İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ TƏMİNATININ TEXNİKİ VASİTƏLƏRİ

**Bəybalayeva Türkan Ehtibar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnformasiyanin qorunmasına qarşı yönələn təhlükə dedikdə mühafizə sisteminin dağılması, verilənlərin aşkar edilməsi və ya dəyişdirilməsi və s. formalada ziyan vurulmasına səbəb olan hadisələr və proseslar nəzərdə tutulur. İnformasiya təhlükəsizliyi, məlumatı icazəsiz daxil olmaqdan qorumaq, məxfiliyin təmin edilməsi, məlumatın bütöv olmasının təmin edilməsi və mövcudluğuna zəmanət etməkdir. İnformasiya təhlükəsizliyi içərisində texnologiya(aparat və proqram), insan, proses, metod və metodologiya kimi ünsürləri birləşdirən və informatika dünyası üçün olduqca yüksək önəm daşıyan vacib bir məsələdir. Bu proses aşağıdakı şəkildə göstərilmişdir.




İnformasiya təhlükəsizliyinin təmin edilməsi üçün məlumat aktivlərinin qorunması lazımdır. Bir təşkilatın qazanc əldə etmək, əlavə dəyər yaratmaq, rəqabətdə olmaq və korporativ dayanıqlığı təmin etmək məqsədilə sahib olduğu və ya sahib olması lazım olan bazar, texnologiya və ya təşkilata aid bütün məlumatların hamısı informasiya aktivləri kimi müəyyən edilə bilən olmalıdır. Bu informasiya aktivlərinin fiziki olaraq qorunması üçün fiziki təhlükəsizliyin, köçürülməsi lazım olan məlumatların təmin edilməsi üçün rabitə

təhlükəsizliyinin, kompüter sistemlərinə girişi idarə etmək üçün kompüter və şəbəkə təhlükəsizliyinin təmin edilməsi vacib bir məsələdir.

Biometrika, bioloji məlumatları, yəni bir insanın fərdi xüsusiyyətlərini və ya davranışlarını təhlil edərək şəxsiyyəti təsdiqləyən bir elmdir. Həyatımızda böyük əhəmiyyət daşıyan biometrik əsaslı yoxlama etibarlı identifikasiya üçün güclü bir üsuldur. Bu gün biometriya getdikcə populyarlaşır. Biometrik sistem bir insanın təbiətini və ya davranışını araşdırır və əvvəllər yaradılan qeydlə müqayisə edir. Bu sistem fərdin barmaq izini, əlini, ovucunu, retinasını və ya səsini araşdırdığı üçün son dərəcə həssas olmalıdır. Fərdin anatomik və ya fizioloji xüsusiyyətlərini ölçərkən dəqiq və təkrar ölçülər edilməlidir . Biometriya termini yunan dilində bio (həyat) və ölçü (ölçmək) sözlərindən yaranmışdır. Avtomatlaşdırılmış biometrik sistemlər yalnız son bir neçə onillikdə kompüter işlənməsində əhəmiyyətli irəliləyişlər sayəsində mövcud olmuşdur. Biometrik metodlar insanların fiziki və ya davranış xüsusiyyətlərindən istifadə edərək şəxsiyyəti təmin edən üsullardır. Mövcud biometrik tanınma üsulları aşağıdakılardır:

Fizioloji xüsusiyyətlərə əsaslanan biometrik tanıma sistemləri: 1. Barmaq izinin tanınması 2. Əl həndəsəsinin tanınması 3. DNT-nin tanınması 4. Retinanın tanınması 5. Üzün tanınması 6. Səsin tanınması 7. Üz termoqramı 8. Damarların tanınması

Davranış xüsusiyyətlərinə əsaslanan biometrik tanıma sistemləri: 1. İmza tanıma 2. Gəzmək 3. Klaviatura vuruşu 4. Nitq

Barmaq izi- Barmaq izi yüz ildən bəri istifadə olunan təkrarolunmaz bir texnikadır. Yumurta əkizləri də daxil olmaqla illərdir dəyişməyən, istifadəsi asan və yeni texnologiyalar inkişaf etdirən hər bir insanın fərqli barmaq izləri bu texnikanın geniş yayılmasını təmin etmişdir.İstifadəsinin ilk illərindən bəri həm proqram, həm də aparatda barmaq izi sistemlərində əhəmiyyətli irəliləyişlər əldə edilmişdir. Avtomatik barmaq izi tanıma sistemində (OPTS) barmaq izinin tanınması ümumiyyətlə barmaq izindəki xüsusiyyət nöqtələrini və parametrlərini müqayisə etməyə əsaslanır.

Əl həndəsəsinin tanınması-Əl həndəsəsinin tanınması Amerikada 20 ildir istifadə olunan, xüsusilə hava limanlarında və nüvə stansiyalarında üstünlük verilən bir üsuldur. Bu üsulda, şəxslərin əlinin və ya iki barmağının həndəsi quruluşu təhlil edilir. Barmaqların uzunluğu, genişliyi, eni və əyilmə yerləri fərqli xüsusiyyətlər kimi istifadə olunur. Əl həndəsəsinin tanınması yüksək dəqiqliyə malik bir üsuldur, lakin böyük və ağır oxu cihazı sayəsində dəyəri və istifadəsi baxımından mənfi cəhətlərə malikdir.

DNT tanınması- İlk dəfə 1985-ci ildə kəşf edildi ki, deoksiribonuklein turşusunun quruluşu fərdi xarakterikdir. DNT tanınması bu gün ən etibarlı identifikasiya yanaşmalarından biridir və əsasən atalıq testlərində və məhkəmə proseslərində istifadə olunur. DNT tanıma zamanı saç, qan və digər bioloji materiallar müayinə olunur. Metodda hüceyrə nüvələrində xromosomlarda saxlanılan DNT molekulları istifadə olunur. Hər DNT molekulunda 4 kimyəvi vahid var. Bunlar Adenine (A), Guanin (G), Sitozin (C) və Timin (T) olaraq sadalana bilər. Bu quruluşlar şəkər molekulları və fosfat qrupları ilə birlikdə mövqe və ardıcıllıq baxımından genetik məlumatların kodlandığı çatı təşkil edir. Tandem təkrarları kimi tanınan A, G, C, T strukturlarının təkrarlanması və təkrar saylarının və miqdarının dəyişməsi özünəməxsusdur.Tək yumurta əkizləri istisnadır.

Üz tanınması- Üz tanıma sistemi əslində ən təbii biometrik fərqləndirici metoddur. İnsanlar birbirlərini ayırd etmək üçün üzlərindən istifadə edirlər. Bu səbəbdən bu metod demək olar ki, insan tarixi ilə biometrik fərqləndirmə metodudur. Buna baxmayaraq, bu metodu elmi olaraq kompüterlərdə fərqli bir xüsusiyyət kimi istifadə etmək nisbətən yeni bir mövzudur.

Səs tanıma- Səs tanıma tətbiqetməsində, siqnallar tanınmazdan əvvəl düzgün ifadə edilməlidir. Başqa sözlə, araşdırılan səs siqnalının tərkibində olan və yalnız tanınmağı hədəfləyən səs elementləri müxtəlif rəqəmsal siqnal emal üsullarını bir-birinin ardınca müəyyənləşdirilir. Sonra, göstərilən elementlər bir atribut vektoru ilə ifadə edilməlidir. Bu

xüsusiyyətlər ilə səs tanıma məlumat bazası yaradılır. Məlumat sorğusu zamanı istifadəçi tərəfindən sistemə təqdim olunan nümunə verilənlər bazasındakı qeydlərdən biri ilə uyğunlaşdırılmasına çalışılır. Uyğunlaşma prosesinin nəticəsi sistemin son qərar mexanizminə köçürülür və icazə tələbi müsbət və ya mənfi olaraq təyin olunur

İmza tanıma sistemi- Hər zaman yazdığı, oxuduğunu və ya təsdiqləndiyini ifadə etmək üçün bir adamın hər hansı bir yazı altında eyni şəkildə yazdığı adlar və ya işarələr kimi müəyyən edilə bilən imza, ömrü boyu dəfələrlə istifadə edilmişdir. Böyük hüquqi sanksiyaların və təqlidlərin olması, şəxsin borclu qalması, bütün varlıqlarını başqa şəxsə bağışlaması, törətmədiyi cinayətləri aşmasına səbəb olması kimi səbəblərdən ötrü həyati əhəmiyyət daşıyır. Buna görə bəlkə də ən çox istifadə edilən identifikasiya üsulu olan imzanın əslində həmin şəxs tərəfindən atılıb-atılmadığını müəyyən etmək vacib bir problemdir.

**Ədəbiyyat**

1.” Защита информации в информационном обществе” - Малюк А.А.

2. “Выявление специальных технических средств несанкционированного получения информации” - Бузов Г.А.

3. "Cryptography and Network Security: Principles and Practice" - William Stallings

## QİYMƏTLƏNDİRMƏDƏ GEOFF MASTERS PRİNSİPLƏRİNİN ƏHƏMİYYƏTİ

**Cümşüdova Minurə Füzuli qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Qiymətləndirmə təlimin ayrılmaz hissəsidir, çünki o, təhsilin məqsədlərinə nail olub-olmadığımızı müəyyən edir. Qiymətləndirmə irəliləmə, tədris ehtiyacları, kurrikuluma və bəzi hallarda maliyyələşdirmə ilə bağlı qərarlara təsir göstərir. O, həm öyrənənlərə, həm də müəllimlərə tələbələrin hazırda nə başa düşdükləri və sonrakı tədris və öyrənməni necə davam etdirəcəkləri barədə bərabər məlumat verir. Qiymətləndirmə bizi bu çətin sualları verməyə ruhlandırır: "Öyrətdiyimizi düşündüyümüz şeyi öyrədirikmi?" "Şagirdlər öyrənməli olduqları şeyi öyrənirlərmi?" "Fənni daha yaxşı öyrətmək və bununla da daha yaxşı öyrənməni təşviq etmək üçün bir yol varmı?"

Bu günün tələbələri təkcə əsas oxu və hesab bacarıqlarını deyil, həm də onlara daim dəyişən dünya ilə qarşılaşmağa imkan verəcək bacarıqları bilməlidirlər. Onlar tənqidi düşünməyi, təhlil etməyi və nəticə çıxarmağı bacarmalıdırlar. Tələbələrimizin ehtiyac duyduğu bacarıq bazası və biliklərindəki dəyişikliklər yeni təlim məqsədləri tələb edir; bu yeni təlim məqsədləri qiymətləndirmə və təlimat arasındakı əlaqəni dəyişdirir. Müəllimlər qiymətləndirmənin məqsədi və qiymətləndirilən məzmunla bağlı qərarların qəbulunda fəal rol oynamalıdırlar. Öyrənmə irəlilədikcə, öyrətmənin və öyrənmənin şagird ehtiyaclarını qarşılamaq üçün uyğunlaşdırıla bilməsi üçün öyrənənlərin öyrənmə prosesində harada olduğuna dair sübut toplamaq üçün qiymətləndirmədən istifadə olunur. İrəliləyiş və nailiyyətlərin dərəcəsini müəyyən etmək üçün yenidən inkişaf fəaliyyətləri və ya iş vahidləri başa çatdıqdan sonra qiymətləndirmə aparılır.

Qiymətləndirmə təhsil sisteminin doğru işləyib işləmədiyi haqqında bizə məlumat verir. Bu məlumat təhsildə idarəçi və təhsildə digər şagird valideyn kimi maraqlı tərəflərə verilir. Sistemdə yaxşı işləməyən və ya korreksiyaya ehtiyac olan hissələri müəyyən edib onun düzəldilib və ya inkişaf etdirilməsinə zəmin yaradır. Yəni qiymətləndirmə və dəyərləndirmə nəzarət mexanizmasını təmin edir. Əlavə olaraq, qeyd edək ki, təhsil sisteminin bütün sahələrində qiymətləndirmə və dəyərləndirməni həyata keçirmək mümkündür. Qiymətləndirmə monitorinq nəticələrinin müəyyən olunmuş norma və standartlarla qarşılaşdırılıb qərar verilməsi prosesidir. Buna uyğun olaraq təhsil proqramı, müəllim profesionallığı və şagird nailiyyətləri kimi bir çox mövzuda qərar verilir. Bu qərarlar

qiymətləndirmə nəticəsində əldə edilir. Qeyd etdiyimiz kimi qiymətləndirmə, ilkin məlumat alınması, inkişafın izlənilməsi, yekun nailiyyət səviyyəsinin yoxlanılması, güclü və zəif cəhələrin, boşluqların aşkarlanıb möhkəmləndirilməsi kimi müxtəlif məqsədlərlə həyata keçirilir. Qiymətləndirmədə əsas məqsəd hər hansısa bir istənilən cəhətin həqiqi dəyərinin tapılmasıdır. Lakin onu da unutmamalıyıq ki, qiymətləndirmə zamanı baş verən müxtəlif xətalar səbəbiylə qiymətləndirmə vasitəsi və nəticələr birbaşa ilk cəhddən əldə edilməyə bilir. Elə bu səbəbdən sonda düzgün nəticə əldə etmək və bu nəticələr əsasında doğru qərar verə bilmək üçün əvvəlcədən xətasız, ən optimal qiymətləndirmə üsulunu seçməyə xüsusi diqqət və zehni güc ayrılmalıdır. Bununla yanaşı onu da mütləq şəkildə qeyd etmək lazımdır ki, fiziki elmlər, sosiologiya və psixologiya kimi sosial elmlərdə qiymətləndirmə nəticələrində müəyyən qədər də olsa, xəta qaçınılmaz olur. Bu xətalar ölçmə vasitəsi, üsulu, həyata keçirildiyi mühitdən, ölçməni həyata keçirən subyektlərin prosesə təsiri və yanaşmasından və əlavə olaraq, profesionallıq dərəcəsi kimi müxtəlif səbələrdən qaynaqlanır.

Öyrənməni, inkişafı və qiymətləndirmənin nəticələrini təsvir edən əsaslı tədqiqatlar mövcuddur. Professor Geoff Masters, doğumdan yetkinliyə qədər effektiv qiymətləndirmənin məqsədini və mənasını əks etdirən bu tədqiqatı ümumiləşdirən aşağıdakı prinsiplər toplusunu ifadə edir.

1-ci prinsip. Qiymətləndirmə davamlı olmalı və öyrənmənin, inkişafın davamlılığına əsaslanmalıdır.

Fürsətlər artıq yaşanmış, öyrənilmiş və inkişaf etdirilmiş şeylərə əsaslanaraq, mövcud hazırlığa uyğunlaşdırıldıqda öyrənmə və inkişaf maksimuma çatır.

2-ci prinsip. Qiymətləndirmə məlumat verməlidir.

Qiymətləndirmə fərdlərin öyrənmə və inkişafında harada olduqları barədə məlumat verməli və mütərəqqi öyrənmə imkanlarının planlaşdırılması və təqdim edilməsində praktikantları məlumatlandırmalıdır.

Duyğular, inanclar və münasibətlər öyrənmə və inkişafda mühüm rol oynayır

3-cü prinsip. Qiymətləndirmə motivasiyaya səbəb olmalıdır. Qiymətləndirmə uşaqlarda, gənclərdə və öyrənənlərdə nəyə nail olduqlarını və əldə etdikləri irəliləyişləri görməyə kömək etməklə onlarda müsbət münasibət və özünə inam yaratmalıdır.

Rəy və düşüncə effektiv öyrənmə və inkişafın vacib elementləridir.

4-cü prinsip. Qiymətləndirmə konstruktiv rəylə vəhdət təşkil etməlidir.

Qiymətləndirmə konstruktiv rəylə birləşdirildikdə gələcək öyrənmə və inkişafa kömək etməlidir və əks etdirmək üçün imkanlar. Bu, fərdlərə əldə etdikləri irəliləyişləri görüb qiymətləndirməyə və öyrənmələrində uğur qazandıqlarını etiraf etməyə imkan verməlidir.

Prinsip 5: Qiymətləndirməyə yanaşmalarda əməkdaşlıq, mübadilə, dəstək prioritet tutulmalıdır.

Qiymətləndirməyə yanaşmalar ailələr və praktikantlar arasında əməkdaşlığı və bilik mübadiləsini maksimum dərəcədə artırmalı, bütün tərəflərə uşaqların və gənclərin öyrənmə və inkişafında dəstək və iştirak etməyə imkan verməlidir.

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ TESTLƏŞDİRMƏNİN ROLU

**Dəmirli Dünya İsmayıl qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Test sistemi şagirdlərin bilik, anlayış və bacarıqlarının səviyyəsini ölçür, həmçinin müəllimlərə və məktəb rəhbərlərinə tədris prosesinin inkişafı ilə bağlı qərar qəbul etməyə kömək edir, belə ki, şagird fəaliyyətinin qiymətləndirilməsində və təkmilləşdirilməsində mühüm rol oynayır. Test sisteminin əsas vəzifələrindən biri şagird fəaliyyətini

qiymətləndirməkdir. Yəni, test sistemi şagirdlərin müxtəlif sahələr üzrə bilik və bacarıqlarını qiymətləndirir.

Bundan əlavə, test sistemi şagird nailiyyətlərini qiymətləndirilməsinə kömək edir. Test hər bir şagirdin irəliləyişini izləməyə və zəif sahələri müəyyən etməyə imkan verir. Test sistemi şagirdləri daha yaxşı nəticələr əldə etməyə həvəsləndirən rəqabət mühiti yaradır və test şagirdlərin nəticələrini digər şagirdlərin nəticələri ilə müqayisə edə biləcəyi reytinq sistemi ilə müşayiət olunur. Bu, onların fəaliyyətini və davamlı inkişafını təkmilləşdirməyə həvəsləndirir.

Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası sənədində qeyd olunur ki, qiymətləndirmə sistemindəki islahatlar təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə olduğundan, yeni qiymətləndirmə sisteminin yaradılması prosesinin kurikulum və müəllim hazırlığı sahəsində aparılan islahatlarla sıx əlaqəli şəkildə həyata keçirilməsi, dərslik və təlim materiallarının yaradılmasına yeni yanaşmaların formalaşdırılması ciddi vəzifələrdən hesab olunur. Düzgün həyata keçirilmiş qiymətləndirmənin nəticələri müəllimin fəaliyyəti, bu fəaliyyətin şagirdlərin tələbatına nə dərəcədə cavab verməsi, habelə kurikulumda, planlaşdırmada və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etməyə şərait yaradır.

Şagirdlərin məzmun standartlarına nə dərəcədə nail olduqlarını ölçmək və qazanılmış bacarıqlar üzrə yekun (summativ) qiymətləndirmələr aparmaq üçün qiymətləndirmə vasitələrinin (testlərin) hazırlanması aşağıdakı ardıcıllıqla aparılır:

- qiymətləndirmə vasitələrinin (testlərin) hazırlanması prosesində testlərin məqsədəuyğunluğu (məhz "nəzərdə tutulanı" qiymətləndirməsi) və etibarlılığı (real məlumatlara əsaslanması);
- səmərəlilik üçün hər sinif üzrə nisbətən az (10) məzmun standartına malik olan iki fənn qrupunun müəyyənləşdirilməsi;
- yekun (summativ) testlərdə bütün standartların reprezentativ (təmsiledici) seçiminin təmin edilməsi;
- yekun (summativ) testlərdə bütün səviyyələr üzrə də reprezentativ seçimin təmin edilməsi (1-ci səviyyə üzrə suallar 20%, 2-ci səviyyə üzrə suallar 30%, 3-cü səviyyə üzrə suallar 30%, 4-cü səviyyə üzrə suallar 20%).

Ümumilikdə testləşdirmə şagirdlərin fəaliyyətinin qiymətləndirilməsində və təkmilləşdirilməsində mühüm rol oynayır. Bu, şagirdlərin bilik və bacarıqlarının səviyyəsini qiymətləndirməyə, onların zəif tərəflərini müəyyən etməyə kömək edir.

Test sistemini təkmilləşdirmək və onun səmərəliliyini artırmaq üçün müxtəlif yanaşmalardan, o cümlədən test tapşırıqlarının fərdiləşdirilməsi və uyğunlaşdırılması, onlayn sınaq texnologiyalarının istifadəsi və nəticələrin təhlili tətbiq oluna bilər. Burada bəzi mümkün yanaşmalar var. Misal üçün, test tapşırıqlarının fərdiləşdirilməsini qeyd edə bilərik.

Test tapşırıqlarını hər bir şagirdin fərdi ehtiyaclarına və bilik səviyyəsinə uyğunlaşdırmağa imkan verən yanaşmalardan istifadə edilə bilər. Buraya tapşırıqların çətinlik səviyyəsinin dəyişdirilməsi, müxtəlif tapşırıq variantlarının təqdim edilməsi və ya şagirdlərin maraq və üstünlüklərinə əsasən testlərin hazırlanması daxil ola bilər.

Hal-hazırda, təhsildə testdən istifadə şagird nailiyyətlərinin keyfiyyətinə nəzarətin cari formalarından biri hesab olunur ki, bu da mənimsənilən müəyyən fənnin həcmini obyektiv qiymətləndirməyə şərait yaradır. Müxtəlif növ test tapşırıqlarından istifadə dövlət təhsil standartının tələblərinə daha adekvat cavab verməyə imkan verir.

Test biliyə nəzarət vasitəsi kimi xüsusi əhəmiyyət kəsb edir, həmçinin şagirdlərin ayrı-ayrı mövzuların konsepsiyalarını, ideyalarını və əsas müddəalarını mənimsəməsinin tamlığının davamlı yoxlanılmasıdır. Testdən istifadə təhsil prosesinin təşkilini və keyfiyyətini yüksəltməyə kömək edir. Qeyd edək ki, test tapşırıqları öyrənilən fənnin tələblərinə uyğun hazırlanmalıdır. Test tapşırıqlarının bazası dövlət təhsil standartının minimum məzmununun bütün didaktik vahidlərini əhatə etməlidir.

Beləliklə, testlər şagirdlərin bilik səviyyəsini izləməyə və qiymətləndirməyə imkan verir. Bu, bir tərəfdən təhsilin keyfiyyətinin göstəricisi, şagirdin irəliləyişini müəyyən edən vasitədir, digər tərəfdən isə istifadə olunan didaktik sistemin, o cümlədən tədris metodlarının və tədris prosesinin təşkilinin səmərəliliyinin göstəricisidir.

## MATLAB-DA FUNKSİYALARDAN İSTİFADƏ EDƏRƏK QRAFİKLƏRİN QURULMASI

**Əsədova Məleykə Məhəmməd qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

MATLAB istənilən sənayedə istənilən mürəkkəblikdə olan geniş spektrli mühəndislik və elmi problemləri həll etmək üçün nəzərdə tutulmuş texniki hesablamalar üçün mühit və dildir. MATLAB ənənəvi proqramlaşdırma dilləri (C/C++, Java) ilə müqayisədə tipik məsələlərin həlli üçün tələb olunan vaxtı böyüklük sırasına görə azaltmağa imkan verir və yeni alqoritmlərin işlənib hazırlanmasını xeyli asanlaşdırır. MATLAB bütün MathWorks məhsullar ailəsinin əsasını təşkil edir və obyektlərin modelləşdirilməsi və idarəetmə sistemlərinin dizaynı, rabitə sistemlərinin dizaynı kimi sahələrdə geniş spektrli elmi və tətbiqi problemlərin həlli üçün əsas vasitədir.

Matlab vasitəsi ilə insanlar rahatlıqla matrisləri, funksiyaları və məlumatları vizuallaşdırır və alqoritmlər üzərində işləyirlər. Xətti cəbr, statistika, optimallaşdırma, ədədi analiz və Furye analizi kimi bir çox riyazi hesablamaların effektiv və sürətli şəkildə yerinə yetirilməsinə imkan verən matlab proqramı 2D və 3D qrafik rəsm üçün də istifadə olunur. Matlab proqramında bir, iki və ya daha çox ölçülü matrislərlə işləmək mümkündür, burada matrislər C və Java kimi proqramlaşdırma dillərində massivlərin istifadəsi ilə eyni məntiqlə istifadə olunur. Matlab ilə əsas riyazi funksiyaların iki və üçölçülü qrafiklərini çəkmək olar. Matlab ilə bütün növ iki və üç ölçülü riyazi qrafika, xüsusən də polinomlar, parbollar və sinus dalğaları əldə etmək olar. Matlab proqramında dəyişənlərə sadəcə olaraq qiymətlər təyin etmək və dəyişənlər üzərində riyazi əməliyyatlar yerinə yetirmək mümkündür. Bundan əlavə, matlab-da əsas proqramlaşdırma dillərində olan if və else kimi məntiqi əməliyyat funksiyalarından da istifadə olunur. Plot funksiyası ikiölçülü xətti qrafik yaratmaq üçün istifadə olunur. *0* və *2π* arasında salınan sinus funksiyasının qrafiki aşağıda göstərilmişdir.

```
x = 0:pi/100:2*pi;
y = sin(x);
plot(x,y)
```

Sinus funksiyasının qrafikini çəkmək üçün istifadə edilən plot əmri ilə standart olaraq mavi düz xətləri olan qrafiklər alınır. Yuxarıdakı misalda *plot(x,y)* əvəzinə *plot(x,y,'r--')* əmrindən istifadə etməklə qırmızı kəsikli xətlərdən ibarət qrafik əldə etmək olar. Əmrdə istifadə olunan *"r--"* ifadəsindəki *r* hərfi qırmızı rəngi, -- hissəsi isə kəsik xəttini ifadə edir. Digər hərflər və digər simvollarla qrafik çəkmək də mümkündür.






İndi isə Matlab-da daha çox istifadə olunan matris funksiyalara və onlara aid nümunələrə baxaq. Matlab-da funksyalar dedikdə misal və ya məsələləri daha tez həll etmək üçün istifadə edilən əmrlər nəzərdə tutulur. Bunlar aşağıdakılardır:

*sum(x)*- *x* elementlərinin cəmi. Matrislər üçün *sum(x)* hər bir sütun üzərində cəmi olan sətir vektorudur.

*size(x)* - *x* matrisinin ölçüsünü (ölçülərini) qaytarır.

*prod(x)*- *x* elementlərinin hasili. Matrislər üçün *Prod(x)* hər bir sütunun üzərində hasil olan sətir vektorudur.

```
>> x=[1 2 3
        4 5 6];
>> prod(x)
ans =  4    10    18
```

*median(x)*- *x* elementlərinin orta qiyməti. Matrislər üçün median *(x)* hər bir sütun üçün median dəyəri olan sətir vektorudur.

Qeyd etdiyimiz funksyalar bunların sadəcə bir hissəsidir. İndi isə bunlara aid bir neçə nümunəyə baxaq.

```
>> x=[1 2 3
      4 5 6];
>> sum(x)
ans =
      5     7     9
```

```
>> x=[1 2 3
      4 5 6];
>> size(x)
ans =
         2      3
```

Nümunə: əgər *x* = *[1,5,7,9,13,20,6,7,8]*, onda

a) *x* vektorunun ilk beş elementini onun maksimum qiyməti ilə əvəz edin.

b) bu vektoru yenidən *3x3* matrisə çevirin.

Həlli:

*a) >> x(1:5)=max(x)*

Burada max funksyasından istifadə edərək yuxarıdakı *x*-in ilk *5* elementini maksimum ilə əvəz etdik.

İndi isə verilmiş matrisi *3x3* matrisinə çevirək.

*b) >> y(1,:)=x(1:3);*
*>> y(2,:)=x(4:6);*
*>> y(3,:)=x(7:9);*
*>> y*

```
x=[4   6   8
   10  9   1
    8  2   5];
>> median(x)
ans =
      8      6      5
```

Təqdim edilmiş bu yazıda biz Matlabdakı bəzi funksyalara, onların qrafiklərinə və onlara aid misal nümunələrinə baxdıq.

Ədəbiyyat

1. Duane Hanselman, Bruce Littlefield, MathWorks Inc. The Student Edition of Matlab Version 5 User's Guide,2021
2. Eklas Hossain, MATLAB and Simulink Crash Course for Engineers 2019
3. Gökhun Yayla, Matlab,2022

# MÜƏLLİM HAZIRLIĞI SİSTEMİNİN İNKİŞAFINDA SİNERGETİK YANAŞMANIN TƏTBİQİ İMKANLARI

**Əsədzadə Zəhra Mehman qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müəllim yetişdirmək cəmiyyətin və ölkənin inkişafı üçün ən əhəmiyyətli və vacib məsələlərdən biridir. Təhsil sistemləri müəllimlərin keyfiyyətini yaxşılaşdırmaq və onları effektiv şəkildə hazırlamaq üçün ciddi dəyişikliklərə ehtiyac duyur. Bu proses təlim – tədris prosesinin təminatına, həmçinin cəmiyyətin hər bir vətəndaşının bilavasitə inkişafına, cəmiyyətdə yeniliklərin, dəyərlərin və mənəviyyatının qorunmasına kömək edir.

Ali təhsilli kadr hazırlığı prosesində bir çox yanaşma metodları mövcuddur. Belə metodlardan biri də müəllim hazırlığı prosesində sinergetik yanaşmadır. Müəllim hazırlığı, təlimin təşkili və metodologiyası, peşəkar inkişaf sahələrini birləşdirən kompleks bir prosesdir. Sinergetik yanaşma, bu prosesi effektiv şəkildə həyata keçirmək üçün istifadə olunan ən universal yanaşmalardan biridir. Sinergetik yanaşma, müxtəlif ədəbiyyatlardan və təlim formalarından gələn fərqli təcrübələri birləşdirərək daha güclü və müasir bir təlim mühitinin yaradılmasına nail olmağı hədəfləyir. Müəllim hazırlığında isə bu yanaşma çoxfaktorlu bir perspektivdə işləyən, komponentlərin bir-biri ilə qarşılıqlı əlaqələrinin və təsirlərinin nəzərdə tutulduğu bir təlim modelidir. Bu yanaşma, müəllimlərin təlim prosesinə baxışını dəyişdirərək, onları məzmun, metod və məqsədə uyğun şəkildə hazırlamaq üçün dinamik və müəyyən bir fəaliyyət dəstəyi təmin edir.

Özünütəşkil nəzəriyyəsinin tətbiqi əsasında təhsil sistemində modernləşmə təhsil konsepsiyası, təhsilin proqnostik və strateji funksiyaları yerinə yetirən, onun məzmununun və strukturunun yenişləşdirilməsinin əsas prinsiplərini müəyyən edən metodologiya təşkil edə bilər. Modernləşdirmə üsulu bir tədqiqat aləti kimi insanın təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqlarını dərk etməsi prosesində, ətraf aləmin praktiki dəyişdirilməsi yollarının axtarılmasında mühüm yer tutur. Yeni elmi biliklər alınması üsullarının, o, cümıədən, modernləşdirmənin tətbiqi istənilən elmi istiqamətin inkişafı üçün zəruri şərtlərdəndir. [3,s16.]

Müasir elmi araşdırmalar göstərir ki, bu qədər geniş informasiya axını qarşısında gələcək nəslin təhsili prosesində nələrin öyrənilməsinin, bu mənimsənilmiş biliklərin nə üçün zəruri olduğunu dərk edilməsi və onlardan istifadə əsas prioritet məsələlərdən biri olacaq. Müəllimlərin əsas fəaliyyəti müasir dövrdə olduğu kimi gələcəkdə də şagirdlərin müxtəlif araşdırmalara, tədqiqat yönümlü tapşırıqların həllinə yönləndirilməsi olacaqdır. Ölkəmizin təkcə təhsil sisteminin inkişafı üçün deyil, həm də mövcud sosial problemlərimizin perspektivi üçün təhsilin modernləşdirilməsi çox vacib addımlardan biri olacaqdır.

Müəllim hazırlığının modernləşdirilməsində müəllimlərin yaradıcı və peşə potensialının inkişafı əsasında tədris prosesi həyata keçirilməlidir. Buna uyğun olaraq ixtisasartırma hazırlığına və ümum təhsil məktəblərində müasir təhsil infrastrukturunun yaradılmasına, təhsil müəssisələrinin tədris, laboratoriya, idman və kompüter avadanlıqlarının modernləşdirilməsinə, gələcək müəllim kadrlarının distant təhsil texnologiyasından istifadə etmək bacarığının formalaşdırılmasına nail olmaq lazımdır.

“Azərbaycan - 2020: gələcəyə baxış ”İnkişaf Konsepsiyasında qeyd edilir: “Təhsil sisteminin səmərəliliyində, onun nailiyyətlərinin formalaşmasında müəllim amilinin həll edici əhəmiyyətini nəzərə almaqla müəllim hazırlığının gücləndirilməsinə xüsusi önəm veriləcəkdir. Bütün ümumi təhsilmüəllimləri üçün fəal (interaktiv) təlim tex-nologiyaları və inklüziv təhsil üzrə məqsədli ixtisasartırma təmin ediləcək, hər bir müəllimin İKT bacarıqlarına yiyələnməsi üçün çevik sistem yaradılacaqdır.” Konseptual sənəddə ehtiva olunan fikirlərdən aydın olur ki, təhsil sisteminin inkişafında qlobalsəciyyə daşıyan müəllim hazırlığı mühüməhəmiyyət kəsb edir. Xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: “Müəllim sənəti, peşəsi cəmiy yətdə yüksək qiymətə layiq olan bir peşədir.

XXI əsrin tələblərinə uyğun olaraq şagirdlərdə mənəvi keyfiyyətlər (çeviklik,bilikləri müstəqil qazanmaq, dostluq, əməkdaşlıq, öz xalqının və dünya sivilizasiyasınındəyərləri ilə tanış olmaq və s.) formalaşdırmaq, planetimizin hər yerində eyni tələblərinhəlli müəllim qarşısında başlıca vəzifə kimi durur. Müasir dövrdə müəllimin təlim hazırlığının peşə fəaliyyətinin ümumi əsasları, ixtisas sahələri, innovasiyalar kimi istiqamətlərdə təkmilləşdirilməsinə ciddi zərurət vardır.

Dünya təcrübəsindən aydın olur ki, müəllimin səriştəlilik və peşəkarlıq səviyyəsinin yüksəldilməsində interaktiv təlim metodlarından səmərəli istifadə bacarığı vacibdir. Məhz buna görə də Azərbaycan təhsilində uğurla həyata keçirilən təlimin məzmunu və metodları, öyrədici mühit, qiymətləndirməni özündə birləşdirən model millizəminə söykənməklə dünya təcrübəsi əsasında öyrənilir, ümumbəşəri dəyərlərə müvafiq olaraq tətbiq edilir. Müəllim hazırlığının başlıca amil olması dünyada aparılan məzmun islahatları və standartlara əsaslanan təhsil sisteminin qurulması ilə bağlıdır. Ali pedaqoji məktəblərdə müəllim kadrlarının hazırlığını müasir tələblər səviyyəsində qurmaq üçün əmək bazarının rəqabətinə uyğun öz təhsilini daim artıran, biliyin yeni nəslə verilməsi texnologiyasına yiyələnən mütəxəssislərin yetişdirilməsinə zərurət yaranmışdır.

Nəzəri və praktik cəhətdən müəllimhazırlığının təmin edilməsi dünyanın təhsilsistemində aktual problem kimi pedaqoqalim lərin diqqətini cəlb etmişdir. Burada fərdi şəxsi keyfiyyətlər, pedaqoji prosesdə tələbə şəxsiyyətinin formalaşdırılması, fasiləsiz təhsil sistemində xüsusi hazırlıq, didaktik prosesdə imkanların stimullaşdırılması və bir çox istiqamətlər üzrə geniş araşdırmaların aparılması məqsədəuyğun sayılır. İdrak fəaliyyətinin bir növü olan təlim prosesi elm, incəsənət, oyun və əməklə birlikdə ətraf aləmin dərk olunmasına kömək edir. Ali pedaqoji məktəbdə müəllim təlim işini elə təşkil etməlidir ki, tələbə müşahidəaparsın, faktlar toplasın, onları mücərrəd təfəkkürdə təhlil etsin, fikri əməliyyatlar aparsın, problemləri həll etsin, müstəqil düşünmək və əməli fəaliyyət göstərmək bacarıqlarına yiyələnsin, elmi idrakı formalaşsın.Yəni təlim prosesində canlı müşahidə, mücərrəd təfəkkür və praktikanın vəhdəti təmin edilməlidir. Müəllim tələbələrin elmi idraka marağını artırmaq üçün onların müstəqil yaradıcılıq qabiliyyətlərinin inkişafına daim şərait (müşahidələr aparmaq, faktlar toplamaq və s.) yaratmalıdır.

Ədəbiyyat

1. Müslüm Nəzərov (2020). Təhsilin modernləşdirilməsi konstektində pedaqoji texnologiyalar. Geostrategiya jurnalı.
2. Hümeyir Əhmədov (2021). Azərbaycanda elmi-pedaqoji kadr hazırlığının tarixi və müasir vəziyyəti. Azərbaycan məktəbi jurnalı, №3.
3. Vüsalə Qasımova, Sinergetika-təhsilin modernləşmə metodologiyası kimi.Ümumilli lider H.Ə.Əliyevin anadan olmasının 94 illiyinə həsr olunmuş ümumi pedaqogika kafedrasının konfrans materialı. 2017.

## TƏHSİLDƏ RƏQƏMSALLAŞMANIN FAYDALARI

**Fətullayeva Xəyalə İlham**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir dövrdə "rəqəmsallaşma" ifadəsi xeyli populyarlaşmışdır. Texnologiya müasir rəqəmsal dövrdə həyatımızın hər bir sahəsini, o cümlədən təhsili tamamilə dəyişdi. Texnologiyanın sinif otağına daxil edilməsi ənənəvi təlim mühitlərini dinamik və interaktiv məkanlara çevirdi. Rəqəmsal və internet texnologiyalarının təhsilə inteqrasiyası tədris və təlimin sərhədlərinin genişləndirilməsində mühüm rol oynayır. Təhsildə rəqəmsallaşma nəticəsində tədris və öyrənməyə innovativ yanaşmalar yaranıb. Bunun üçün tələbələr öyrənmə, anlanma, diqqətlilik və savadlarını artırmaq üçün ağıllı cihazlardan istifadə etməyi bacarmalıdırlar. Bu yeni şəraitdə müəllimlər daha çox istiqamətverici və əlaqələndirici rol

oynayırlar, bu isə o deməkdir ki, daha çox diqqət şagirdlərin istiqamətləndirilməsinə yönəldilir. Rəqəmsal texnologiyalar bilik yayımı və bilik mübadiləsi üçün mərkəz rolunu oynaya bilər, burada informasiya və bilik təkcə müəllimlərdən tələbələrə deyil, həm də tələbələr arasında sərbəst şəkildə axır. Rəqəmsal texnologiyalar düzgün istifadə olunduqda öyrənmə prosesinin sürətlə izlənməsinə imkan verdiyi üçün tələbələrə saysız-hesabsız faydalar təklif edir. Təhsildə rəqəmsallaşmanın üstünlüklərinə qısaca nəzər salaq.

1) Fərdi öyrənmə

Fərdiləşdirilmiş təlim hər bir fərdin ehtiyaclarına uyğun olaraq təhsili təşkil edir. Tələbələr müxtəlif yollarla və müxtəlif sürətlə öyrənirlər. Onların müxtəlif ehtiyacları olur və vizual, yazılı və şifahi məlumatlara fərdi şəkildə cavab verirlər. Bill və Melinda Gates Fondunun araşdırmasına görə, pedaqoqların böyük əksəriyyəti məlumatların və rəqəmsal vasitələrin “diferensiallaşdırma və fərdilləşdirmə yolu ilə tədrisi yaxşılaşdırdığına” inanır. Müasir təlim platforması hər bir tələbənin öz öyrənmə yolunu izlədiyi öyrənmə məkanı yaradır. Məsələn, tələbə mövzuda çətinlik çəkirsə ona mövzunu daha yaxşı başa düşməsi üçün əlavə resurslarla kömək göstərilə bilər. Bu sahədə artıq bacarıqlı olan başqa bir tələbənin əlavə məzmuna ehtiyacı olmayacaq əvəzinə mövzunun başqa hissəsinə daha çox vaxt ayırmalı ola biləcək. Öyrənməni fərdiləşdirmək ən yaxşı nəticələr üçün hər bir şagirdin xüsusi ehtiyaclarını qarşılamağı hədəfləyir.

2) Tələbələr öz sürətlərində öyrənə bilərlər.

Rəqəmsal təhsil istənilən vaxt hər yerdən öyrənmə imkanı ilə yanaşı, həm də tələbələrə öz sürətlərində öyrənməyə imkan verir. Öyrənmə platforması tələbələrə bir sıra materiallara, o cümlədən yenidən baxmaq istəyə biləcəkləri qeyd edilmiş mühazirələrə 24/7 çıxış imkanı verir. Mühazirə bitdikdə məzmun saxlanılır, itirilmir.

Tələbələrin öz sürəti ilə həyata keçirilən öz-özünə öyrənmə tələbələrə təlim nəticələrini maksimuma çatdırmaq və onları həvəsləndirmək üçün vacibdir.

3) Birgə öyrənmə

Bugünkü öyrənənlərin çoxu məzmunu onlayn paylaşmaqla artıq tanışdır. Rəqəmsal təhsilin yalnız ikitərəfli olması lazım deyil-müəllimdən tələbəyə və tələbədən müəllimə. Şagirdlər öz işlərini həm bir-biri ilə, həm də onlayn paltformada paylaşa bilərlər ki, onlar bir-birindən öyrənsinlər. Onlar həmçinin sənəd mübadiləsi alətləri, video konfrans və söhbət forumlarından istifadə edərək, qrup lahiyələri üzərində işləyə bilərlər. Bu cür əməkdaşlıq komandada işləmək və sosial bacarıqları inkişaf etdirir. Onlayn olaraq hər kəs yalnız bir klik uzaqdadır, beləliklə tələbələr bütün dünyada öz həmyaşıdları ilə əlaqə saxlaya, üfüqlərini genişləndirə və müxtəlif əlaqələr qura bilərlər.

4) Qarışıq öyrənmə

Qarışıq öyrənmə üzbəüz öyrənmə ilə onlayn öyrənməni birləşdirir. Bu, çox uğurla işləyə bilən bir yanaşmadır, çünki onlaynın rahatlığı və çevikliyi sinifdə müəllimin təlimə şəxsi toxunuşu ilə birləşir. Qarışıq təhsil və ya öyrənmə ənənəvi sinif otağında baş versə də dərsin təşkili, tərkibi və çatdırılmasında müasir texnologiyadan geniş istifadə olunur. Məsələn, dərsin bir hissəsi onlayn platformalarda aparılır, tapşırıqların bölüşdürülməsi, qiymətləndirmə, dərsin izahı və s. sinif otağında canlı yox, həmin platformalar vasitəsilə həyata keçirilir. Qısaca desək, qarışıq öyrənmə zamanı ənənəvi və onlayn təhsilin elementləri birləşdirilir.

5) Rəqəmsal savadlılığı artırır.

Bugünkü texnologiya əsrində hamımız rəqəmsal savadli olmalıyıq. Rəqəmsal savadlılıq məlumatı tapmaq və paylaşmaq üçün texnologiyadan düzgün istifadə etmək deməkdir. Bu, bir çox iş üçün ilkin şərt olmaqla yanaşı, həm də vacib həyat bacarığıdır. Rəqəmsal təhsil öyrənənlərin onlayn məzmunu tapmaq, əldə etmək, istifadə etmək və paylaşmaq kimi bacarıqların inkişaf etdirilməsinə kömək edir. Onlar gördükləri məzmunda fərasətli olurlar, nəyin qanuni, təhlükəsiz və fakta əsaslandığı barədə mühakimə yürüdürlər. Rəqəmsal savadlılıq nəinki öyrənmənin keyfiyyıtini yaxşılaşdırmağa kömək edir, həm də təlim nəticələrinin hər zaman aktual qalmasına imkan verir.

Rəqəmsal təhsil öyrənmənin tam onlayn olması və ya qarışıq tədris modelinin bir hissəsi olmasından asılı olmayaraq, bir çox üstünlüklər təmin edir. Rəqəmsal təhsil nəticəsində təhsilalanlar şəxsi və peşəkar həyatlarında onlara xidmət edəcək dəyərli rəqəmsal bacarıqlar əldə edə edə bilərlər. Artıq 21-ci əsr tələb edir ki, təhsil sistemi müasir dövrün tələblərinə uyğunlaşsın, köhnə təhsil sistemi yeni təhsil sistemi ilə əvəz olunsun. "Təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlara məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir". Bütün bu məqamlar prezidentimiz İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də öz əksini tapmışdır.

## TEST ÜSULU İLƏ QİYMƏTLƏNDİRMƏNİN ÜSTÜNLÜKLƏRİ

**Hacıyeva Xədicə Möhübbət qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir standartlara uyğun olaraq şagirdlərin akademik nailiyyətlərini qiymətləndirmək üçün testlər üstünlük verilən əsas üsul kimi ön plana çıxır. Testlər tədris prosesinin hər hansı bir hissəsində şagirdlərin fəaliyyətləri və bilikləri ilə bağlı məlumat təqdim edərək, əhatə olunan bütün fənlərin ədalətli və hərtərəfli qiymətləndirilməsi imkanı verir. Bundan əlavə, testlər təlim materialını fərqli komponentlərə bölməyə kömək edir, bölmələrin və mövzuların başa düşülməsini asanlaşdırır.

Hər bir fənn üzrə test nəticələri müqayisəni asanlaşdırır, tədris metodları və materiallarında mövcud çatışmazlıqları aşkar etməyə kömək edir. Bu yolla, hər hansı çatışmazlıqları aradan qaldırmaq üçün vaxtında müdaxilələr həyata keçirilə bilər.

Test üsulu ilə qiymətləndirmə təlim nəticələrinin sürətli, dəqiq, etibarlı və məqsədyönlü qiymətləndirilməsini asanlaşdırır, tədris prosesinin təşkilində keyfiyyətin idarə edilməsi üçün hərtərəfli və müasir analitik yanaşmanı dəstəkləyir. Testlər vasitəsilə mənimsənilən material müxtəlif səviyyələrdə qiymətləndirilə bilər ki, bu da şagirdlərin tədris fəaliyyətlərində fəal iştirakını təşviq edir və biliyin qiymətləndirilməsində müəllimin subyektivliyini azaldaraq şagird mərkəzli öyrənmə mühitinin yaradılmasına kömək edir.

Bu yanaşmanın üstünlüyü onun bütün sinfi eyni vaxtda əlverişli təlim fəaliyyətinə cəlb etmək imkanıdır. Bir neçə dəqiqə ərzində bütün şagirdlərin bilik səviyyələri haqqında məlumat əldə oluna bilər ki, bu da dərsin effektivliyini artırır. Buna görə də, bu gün əksər müəllimlərin şagirdlərin akademik nailiyyətlərini qiymətləndirməsi üçün istifadə etdiyi əsas üsul testlərdir.

Çoxsaylı psixoloji təcrübələr göstərmişdir ki, test üsulu ilə yoxlanılan şagirdlər digər üsullarla müqayisədə əhəmiyyətli dərəcədə daha optimal performans nümayiş etdirməyə meyllidirlər. Bununla belə qeyd etmək lazımdır ki, bütün test üsulları eyni effektivlik səviyyəsini vermir. Tədqiqatlar göstərir ki, qısacavablı testlər çoxseçimli testlər kimi digər test formalarından daha üstündür. Effektivlikdə müşahidə olunan qeyri-bərabərlik bundan qaynaqlanır ki, qısacavablı testlərdə tələb olunduğu kimi xatırlama, tanınmaya əsaslanan metodlarla müqayisədə uzunmüddətli yaddaşın saxlanması üçün daha çox faydalıdır.

Elmi araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, testin sadəcə qiymətləndirmədən kənara çıxan bir neçə fərqli üstünlükləri var:

Tənqidi düşünmə bacarığının inkişafı: Testlər öyrənməyə kömək edən axtarış proseslərini stimullaşdırır və zamanla biliklərin daha fəal şəkildə qavranılmasına səbəb olur.

Şagird biliyində boşluqlarının müəyyən edilməsi: Test müəllimlərin şagirdlərdə güclü və zəif tərəflərini müəyyən etməsinə imkan verir, şagirdlərin özünü qiymətləndirməsinə təşviq edir və məqsədyönlü təkmilləşdirmə səylərini istiqamətləndirir.

Sonrakı təhsil səviyyəsində təkmilləşdirilmiş öyrənmə imkanı: Növbəti təhsil səviyyəsindən əvvəl testlərlə məşğul olmaq sonrakı öyrənmə nəticələrinə müsbət təsir edir və ənənəvi üsullarla müqayisədə yadda saxlamanın yaxşılaşmasına səbəb olur.

Bundan başqa test üsulu ilə qiymətləndirmənin üstünlükləri kimi aşağıdakıları qeyd etmək olar:

- Test öyrənmə prosesi zamanı şagirdin özünü təkrar-təkrar sınaması üçün şərait yaradır və əldə olunan biliklərin uzunmüddətli yadda saxlanmasına kömək edir.
- Test məlumatın konseptual təhlilinə kömək edir, xüsusən suallar açıq olduqda, öyrənmə prosesində fəal iştiraka kömək edir.
- Test ümumi kursun şagirdlər tərəfindən nə dərəcədə başa düşüldüyünü ölçməyə xidmət etməklə yanaşı, müxtəlif mövzular və ya gündəlik tədris fəaliyyətləri də daxil olmaqla yeni vəziyyətlərə tətbiq oluna bilər.
- Real həyatla əlaqəli problemlərin testlərə daxil edilməsi şagirdlərin iştirakını və prosesin aktuallığını artıra bilər.

Yekun olaraq qeyd etmək olar ki, testlər müxtəlif fənlər üzrə şagirdlərin fəaliyyətinin və biliklərinin ədalətli və hərtərəfli qiymətləndirilməsini təmin edir, tədris metodları və materiallarında güclü və zəif tərəflərin müəyyən edilməsinə kömək edir. Test nəticələrinin təhlili vasitəsilə pedaqoqlar nöqsanları aradan qaldırmaq üçün vaxtında müdaxilələr həyata keçirə, effektiv təlim nəticələri əldə edə bilərlər.

Bundan əlavə, test keyfiyyətin idarə edilməsi üçün hərtərəfli analitik dəstək təklif edərək, təlim nəticələrinin sürətli, dəqiq və məqsədyönlü qiymətləndirilməsini asanlaşdırır. Həmçinin, testlər şagirdlərin biliyindəki boşluqları müəyyən etməyə və gələcək təhsil səviyyələri üçün öyrənmə imkanlarını təkmilləşdirməyə kömək edir.

Ümumilikdə, test müasir təhsildə mühüm rol oynayır, fəal iştirak, tənqidi düşüncə və biliklərin uzunmüddətli saxlanmasını təşviq etməklə yanaşı, şagirdlərin bilik səviyyəsinin müəyyənləşdirilməsi ilə bağlı dəyərli məlumatlar təqdim edir.

## BƏDİİ TƏSVİR VASİTƏLƏRİNİN MƏKTƏBDƏ TƏDRİSİ MƏSƏLƏLƏRİ

**Hacıyeva Məryəm Şükran qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Orta məktəblərdə tədris edilən bədii təsvir vasitələri şagirdlərə ədəbi nəzəriyyənin əsaslarını öyrətməkdə əsaslı rol oynamaqdadır. Ümumtəhsil məktəblərində ədəbiyyat dərslərində nəzəri biliklərə əhəmiyyət verilməsi şagirdlərin analitik düşünmə bacarıqlarının inkişaf etdirmələrinə kömək edir və bunun nəticəsində şagirdlər ədəbiyyatın zəngin xəzinəsini daha mükəmməl şəkildə kəşf edirlər. İndiki təhsil standartları ədəbiyyatın və dilin incəliklərini başa düşməyə, təsvir və ifadə bacarığını artırmağa və ədəbi sənətin dünyasına daha dərin bir şəkildə daxil olmağa yönləndirir.

Bədii təsvir vasitələrinin şagirdlər tərəfindən daha yaxşı mənimsənilməsi üçün bədii nümunələr şagirdlərin təhsil prosesində əhəmiyyətli rola malikdir. Ədəbi nümunələr müxtəlif janrlarda ola bilər. Hər bir janr şagirdlərə müəyyən bir bacarıq və ifadə üslubu üçün nümunə təqdim edir. Müəllimlərin bədii təsvir vasitələrinin tədrisi üçün müxtəlif janrlı bədii nümunələrdən istifadə etməsi təlim prosesini daha maraqlı və faydalı edir. Həm klassik nümunələrdən, həm də müasir ədəbi əsərlərdən bədii nümunələrin seçilərək bədii təsvir vasitələrinin tapılması onlar arasındakı müxtəlifliyin aşkar olunmasına xidmət etməkdədir.

Hal-hazırda orta məktəbdə şagirdlər bədii təsvir vasitələri ilə V sinif ədəbiyyat dərslərində tanış olurlar. Bu sinifdə onlara epitet və təşbeh tədris olunmaqdadır. Bu iki bədii təsvir vasitəsi haqqında şagirdlərə qısa məlumat çatdırılır və bundan sonra demək olar ki, bütün nəzm əsərlərinin əvvəlində "oxuda aydınlaşdırın" hissəsində bədii təsvir vasitələrinin müəyyənləşdirilməsi tapşırılır. V, VI, VII siniflərdə epitet və təşbeh tədris olunur. V,VI,VII

sinif ədəbiyyat dərslərində heca vəznli bədii nümunələr, VIII sinifdən etibarən isə müxtəlif vəznli şeirlər üzərində təhlil aparılar. Həmçinin VIII sinifdə şagirdlər metafora ilə də tanış olurlar.

Orta məktəblərdə bədii təsvir vasitələrinin tədrisi həm məzmun, həm də təhlil dərslərində aparılır. Məzmun dərsində şagirdlər sadəcə bədii təsvir vasitələri ilə tanış olurlar, təhlil dərsində isə həmin bədii təsvir vasitələrinin sənətkarlıq xüsusiyyətlərini və əsas rolunu müəyyən edirlər. Məzmun dərslərində bədii təsvir vasitələrinin hansı funksiyaları yerinə yetirdiyi və bədii məzmunu necə zənginləşdirdiyi haqqında məlumat verilir. Şagirdlər nəzəri biliklərlə tanış olur və bu vasitələrin mətnə necə effektiv şəkildə təsir etdiyini müzakirə edirlər. Təhlil dərslərində isə təsvir vasitələrinin ədəbi məzmun üzərindəki əhəmiyyəti və təsiri daha dərin şəkildə müzakirə olunur. Bu zaman şagirdlər müxtəlif nəzm və nəsr nümunələri üzərində müstəqil şəkildə və qruplarla iş aparırlar. Qrup halında verilən tapşırıqların həll olunması şagirdlərdə nitqin inkişafına, dinləmə bacarıqlarının formalaşmasına, əməkdaşlığın yaranmasına böyük təsir edir.

Müəllim bədii təsvir vasitələrinin tədrisi zamanı müvafiq metod və priyomları seçərkən şagirdlərin fərdi ehtiyaclarını və öyrənmə üslublarını nəzərə almalıdır. Hər bir şagirdin öyrənmə üslubu fərqlidir, hər biri müxtəlif təlim metodları vasitəsilə daha effektiv şəkildə öyrənirlər. Müəllim bu fərqlilikləri mütləq şəkildə nəzərə almalıdır.

Bədii təsvir vasitələri ilə bağlı olan dərsi müəllim müzakirə və ya tədqiqat yolu ilə aparmaq mümkündür. Venn diaqramı metodundan istifadə etmək də bədii təsvir vasitələrinin tədrisini təşkil etmək üçün səmərəli üsuldur. Bu metod bədii təsvir vasitələrinin və onların funksiyalarının daha yaxşı anlaşılmasına kömək edir və müəyyən bir mövzuda əlaqəli məlumatları göstərməyə imkan yaradır. Əvvəl müəllim Venn diaqramının tərtibatı ilə bağlı şagirdlərə qısa məlumat verməli, daha sonra mövzu əhatəli şəkildə təşkil edilməli və hər vasitənin özünəməxsus və fərqli xüsusiyyətləri müzakirə edilməlidir.

Müəllim bədii təsvir vasitələrinin tədrisi zamanı klaster analizi metodundan da istifadə edə bilər. Təqdim olunan bu metod vasitəsilə bədii nümunədə verilən bədii təsvir vasitələri fərqli mövzularla əlaqəli şəkildə təhlil edilir. Məsələn, eyni mövzulu və ya bir-biri ilə əlaqəli olan epitetlər, təşbehlər, metonimiyalar, metaforlar və s.

VIII sinif ədəbiyyat dərsində Aşıq Ələsgərin "Dağlar" şeirində bədii təsvir vasitələrindən metaforanın tədrisinə nəzər yetirək. Müəllim tədris zaman fərqli metod və priyomlar seçə bilər, lakin dərslikdə təqdim olunan tapşırıqların da işlənməsi təmin olunmalı müəllim üçün metodik vəsaitdə qeyd olunan məzmun xəttlərini əhatə edilməlidir. Adını qeyd etdiyimiz bu şeirin BİBÖ üsulu ilə təşkil edə bilərik. Bunun üçün lövhədə üç sütunlu BİBÖ cədvəli çəkmək lazımdır. Şagirdlərə məsələ ilə bağlı müxtəlif düşündürücü suallar verilir. Müəllimin tapşırıqlarına uyğun xanaları doldurmaq lazımdır.

Qeyd olunan metodlardan əlavə video və audio vasitələrin də istifadəsi dərsi daha effektli etməyə şərait yaradır. Bədii təsvir vasitələrinin tədrisində xüsusilə də, klassik ədəbi nümunələr üzərində təhlil zamanı mənası çətin başa düşülən sözləri tapmaq üçün müxtəlif lüğətlərdən istifadə etmək olar.

Müəllimin özünə olan inamı, təlim prosesində yaradılan mühitin və seçilən təlim metodlarının təcrübəyə əsaslanması, şagirdlərin təlim prosesində daha aktiv və daha motivasiyalı şəkildə iştirak etmələrinə imkan verir.

İstənilən təlim metodu, priyomu və vasitəsi hər bir şagirdin öz fikirlərini ifadə etməyə imkan yarada biləcək şəkildə olmalıdır. Müzakirələr, qrup işləri, tədqiqatlar və digər interaktiv təlim metodları şagirdlərin öz fikirlərini ifadə etmələrini və diqqəti cəlb etmələrini təmin edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Ümumtəhsil məktəbləri üçün Ədəbiyyat fənni üzrə təhsil proqramı (Kurikulum)(V-XI siniflər)- Bakı,-2013,-93 s.

2. Əliyev S., Həsənov B., Mustafayeva A., Verdiyeva N., Məmmədova S. "Ümumi təhsil müəssisələrinin 8-ci sinifləri üçün Ədəbiyyat fənni üzrə dərslik" -Bakı, Şərq-Qərb, -2019, -208 s.
3. Həsənov B., Əliyev S., Verdiyeva N., Mustafayeva A., Məmmədova S. "Ümumi təhsil müəssisələrinon 8-ci sinifləri üçün Ədəbiyyat fənni üzrə metosik vəsait" -Bakı, Şərq-Qərb, -2019, -212 s.
4. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası.- Bakı, Müəllim, -2016. -452 s.
5.

## İBTİDAİ SİNİFLƏRDƏ TƏHSİL PROSESİNİN HUMANİSTLƏŞDİRİLMƏSİ, ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASININ MÜHÜM AMİLİ KİMİ

**Heybətova Səriyyə Xasay qızı**
Azərbaycan Dövlət Pedaqoji Universiteti

1990-cı illərin əvvəllərindən etibarən orta məktəb üçün sosial təhsil forması dəyişdi. Bu isə özünü dərk etməyə qadir olan bütöv humanist şəxsiyyətin inkişafı üçün şəraitin yaradılmasına təkan verdi. Humanist təhsil sisteminin mərkəzində şagird, onun dünyanın vahid mənzərəsi, kommunikativ mədəniyyət və şəxsiyyətin davamlı ümumi mədəni, sosial və əxlaqi inkişafının vəhdətini təmin edən sistemli düşüncənin formalaşması istəyi dayanır. Bir çox tədqiqatçılar təhsilin humanistləşdirilməsindən, yəni keçidin yeni tarixi şəraitinə uyğun gələn yeni şəxsiyyətyönümlü təhsil və tərbiyə modelinin pedaqoji elmdə formalaşmasından və pedaqoji təcrübədə yayılmasından bəhs edirlər. Ənənəvi, yəni sosialyönümlü, şəxsiyyətdən uzaqlaşdırılmış təhsildən humanist, şəxsiyyətyönümlü təhsilə keçid pedaqoji paradiqmanın, yəni problemin formalaşdırılması nəzəriyyəsinin dəyişməsini, tədqiqat probleminin həllinin model kimi qəbulunu əks etdirir. Yeni paradiqma təhsil sisteminin hədəf komponentində mühüm dəyişiklik edir: bilik innovativ məktəbin tədris prosesində öz əhəmiyyətini saxlamaqla yanaşı, onun son məqsədi olmaqdan çıxır. Onlar getdikcə daha çox mədəniyyət adamının intellektual və şəxsi keyfiyyətlərini inkişaf etdirmək şərti və ya vasitəsi kimi qəbul edilir.

Hazırda pedaqoji elmdə şəxsiyyətin strukturu və onun xüsusiyyətləri nəzərdən keçirilir. A.A.Abdullayev, L.N.Qasımova, O.S.Qazman, V.D.Şadrikov və başqaları insanpərvər, yaradıcı şəxsiyyətin formalaşmasına üstünlük verir. Onlar qeyd edirlər ki, məhz belə bir şəxsiyyətin "defisit"i "hər şeyin əsas səbəbi"dir. A.A.Abdullayev vurğulayır ki, təhsilin humanist paradiqmada bilik, bacarıq və vərdişlərin mənimsənilməsi kimi ənənəvi anlayışı yenidən nəzərdən keçirilməlidir [1, s.128]. Müasir təhsil ibtidai sinifdə şagirdin formalaşması, onun özünəməxsus fərdiliyinə, özünütərbiyə, özünü həyata keçirmə, sosial uyğunlaşma, digər insanlar və mədəni mühitlə humanist qarşılıqlı əlaqə, yəni yüksək təhsilli, humanist, əxlaqlı şəxsiyyət kimi formalaşmasıdır.

Beləliklə, təhsilə şəxsiyyətyönümlü yanaşma nəzərdə tutur ki, həm müəllimlər, həm də şagirdlər hər bir insana öz məqsədlərinə çatmaq üçün vasitə kimi deyil, onlar üçün müstəqil dəyər kimi yanaşırlar. Müəllim öyrətmir, tərbiyə etmir, lakin şagirdin özünüinkişaf istəyini aktuallaşdırır və stimullaşdırır, onun fəaliyyətini öyrənir, məktəbin tədris mühitində hərəkətinə şərait yaradır. Şəxsiyyət mərkəzli yanaşmanın əsas ideyasını üç sözlə ifadə etmək olar: "Uşaq üçün məktəb". Bu müddəa o deməkdir ki, məktəb ailə kimi heç bir siyasi, ictimai, sinfi və digər qurumlara, təşkilatlara, partiyalara xidmət etməməlidir. O, yalnız şagird üçün, onun normal inkişafı üçün, yenilikçi məktəbin təhsil mühitində şagirdlərin kommunikativ mədəniyyətinin formalaşması üçün mövcud olmalıdır. Təhsilə şəxsiyyətyönümlü yanaşma ailənin təhsil mühiti ilə ibtidai məktəbin təhsil mühitini bir araya gətirmək üçün əsas şərait yaradır.

Bununla belə, təhsildə şəxsi elementin vurğulanmasını fərdiyyətçiliyin inkişafına istiqamətləndirmə ilə eyniləşdirmək olmaz. Bu, təəssüf ki, bəzən müasir təhsil təcrübəsində

baş verir və təhsilin xidmətlərinə, pedaqoji münasibətlərin isə "müştəri" münasibətlərinə çevrilməsinə gətirib çıxarır. Şəxsin və fərdin ictimaiyyətdən üstünlüyündən deyil, şəxsiyyətin və cəmiyyətin maraqlarının tarazlığından danışmalıyıq. Bir insanın, xüsusən də şagirdin mahiyyəti təkcə onun subyektiv maraqları və ehtiyacları ilə deyil, bir çox cəhətdən onun hansı dəyərlər sisteminə riayət etməsi, onu hərəkətə sövq edən, hansı məqsədləri güddüyü ilə müəyyən edilir. Bu baxımdan humanizm təhsilin dəyər aspektlərini sosial hadisə kimi səciyyələndirir.

Pedaqoji nöqteyi-nəzərdən ibtidai siniflərdə təhsil mühitində şəxsiyyətin inkişafı humanist təhsil və tərbiyənin əsas məqsədi kimi iki qrup əsas vəzifəni özündə birləşdirir. Birincisi, şəxsiyyətin özünü dərk etməsinə, mənəvi, əxlaqi və kommunikativ mədəniyyətinin inkişafına, ekoloji və vətəndaş şüurunun və davranışının vəhdətinə kömək edən vəzifələr, onun prinsiplərini səciyyələndirən bir insanın keyfiyyətləri kimi, fəaliyyət göstərmək bacarığı təhsil mühitinə olan inamının əsasını təşkil edir. Şagird şəxsiyyətinin kommunikativ inkişafı həm mövcud kommunikativ qabiliyyətlərin və maraqların, həm də hələ də formalaşmaqda olanların üzə çıxarılması üçün zəruri olan psixoloji və pedaqoji şərait sistemi başa düşülür. Təhsil mühiti, ətrafdakı cəmiyyətlə qarşılıqlı əlaqənin müxtəlif variantlarını və məktəblilərin şəxsiyyətinin inkişafı, onların formalaşması üçün optimal trayektoriyanın seçilməsini təmsil edən təhsil prosesinin subyektlərinin həyat fəaliyyəti üçün xüsusi təşkil edilmiş mühitdir.

İkincisi, sosial əhəmiyyətli funksiyaları yerinə yetirməyə hazırlığın inkişafına, biliklərin konkret ekoloji və vətəndaş inanclarına keçidinə, cəmiyyətdən və dövlətdən tələblərin vətəndaşlıq fəaliyyəti və sosial məsuliyyətin olduğu fərdin qəbul etdiyi normalarla üst-üstə düşmə dərəcəsinə yönəlmiş vəzifələr təsir edir. Bu problemlərin həlli gələcək vətəndaşın xarici görünüşündə sosial-səciyyəvi və fərdi keyfiyyətlərin birləşdirilməsi, onun həyatında şəxsi və ictimai maraqların uzlaşdırılması üçün ilkin şərtlər yaradır [2, s.51].

Məktəbin təhsil mühitində şagirdyönümlü təhsilin nəzərdən keçirilən bütün aspektləri həm də təhsilin yeni paradiqmasında - sonuncunun tərifində, prinsiplərində, məqsədlərində, məzmununda, forma və metodlarında özünü göstərir. Ənənəvi pedaqoji paradiqmaya uyğun olaraq, təhsil şəxsiyyətin və ya onun fərdi keyfiyyətlərinin formalaşması prosesinin cəmiyyətin ehtiyaclarına uyğun idarə edilməsi kimi qəbul edilirdi. Şəxsiyyətyönümlü paradiqma şəraitində bu konsepsiyanın məzmunu müəyyən dəyişikliklərə məruz qalmış və şagirdin şəxsiyyətinin inkişafı, özünü inkişaf etdirməsi və özünü həyata keçirməsi üçün şərait yaradılmasının məqsədyönlü prosesi kimi başa düşülür.

Təhsilin humanist yönümlülük prinsipi müəllimin şagirdlərə öz inkişafının məsuliyyətli subyektləri kimi münasibətini, habelə subyekt-subject münasibətlərinə əsaslanan qarşılıqlı fəaliyyət strategiyasını nəzərdə tutur.

Təhsilin ekoloji uyğunluğu prinsipi onun təbii və sosial-mədəni proseslər arasındakı əlaqənin elmi dərkinə əsaslandığını, şagirdlərin cinsinə və yaşına uyğun olaraq tərbiyə olunmasını, onlara öz inkişafı, onların hərəkətlərinin və davranışlarının ekoloji nəticələrini əks etdirir.

Mədəni uyğunluq prinsipi təhsilin ümumbəşəri dəyərlərə əsaslandığını, milli mədəniyyətin dəyər və normalarına və ümumbəşəri dəyərlərə zidd olmayan regional ənənələrə uyğun qurulduğunu nəzərdə tutur. Təhsil ənənəvi olaraq insan mədəniyyətinin, insana xas olan və onu heyvanlardan fərqləndirən mənəvi və maddi sərvətlərin yetişməkdə olan gənc nəsil tərəfindən ötürülməsi və mənimsənilməsi prosesi kimi başa düşülür. Bu ənənə şagird mərkəzli təhsil paradiqmasının müasir şərhində qorunub saxlanılmışdır.

Beləliklə, təhsilin və tərbiyənin humanistləşdirilməsi təhsil sisteminin və bütün təhsil prosesinin hər bir insanın hüquqlarına hörmət əsasında şagird və müəllim arasında qarşılıqlı hörmət münasibətlərinin inkişafına və qurulmasına yönəldilməsidir. Məhz bu təhsil və tərbiyə növü şagirdlərə fərdi inkişaf yolunu seçmək hüququnu təmin edir.

Ədəbiyyat

1. Abdullayev A.A. İbtidai təhsilin pedaqogikası. Bakı, “Elm və təhsil”, 2016, 338 səh.
2. Витковская И.М. Обучение младших школьников в совместной деятельности. Псков, 2000, 96 стр.

## GƏLƏCƏK MÜƏLLİMLƏRDƏ ÖYRƏNMƏK ÜÇÜN QİYMƏTLƏNDİRMƏ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI

**Həqiqətli Rəşidə Elmar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Keçmişdə qiymətləndirmə nadir hallarda tələbələrin daxilində mövcud olan potensialın üzə çıxarılması və onlara nə edə bildiklərini nümayiş etdirmək imkanı yaratmaq prosesi kimi qəbul edilirdi. “Qiymətləndirmə və test eyni şeydir” və ya “qiymətləndirmək üçün şagird lövhə qarşısında sual-cavab olunmalıdır” mülahizələri də cəmiyyətimizdə qiymətləndirmə barədə əksər hallarda düşünülən fikrlərdir. Halbuki qiymətləndirmə geniş termindir və onun müxtəlif üsul və vasitələri var.

Bu məqamda vurğulamaq lazımdır ki, son illər “öyrənmənin qiymətləndirilməsi” və “öyrənmə üçün qiymətləndirmə” anlayışları elmi ədəbiyyatlarda geniş istifadə olunur. Bu iki anlayış müvafiq olaraq qiymətləndirməyə ənənəvi və yeni baxışları əks etdirir.

"Öyrənmək üçün qiymətləndirmədə qiymətləndirmənin xarakteri deyil, məqsədi vacibdir." Öyrənmək üçün qiymətləndirmə tələbələrin fəaliyyətini yaxşılaşdırmaq məqsədilə rəydən istifadəni vurğulayan tədris və öyrənmə yanaşmasıdır. Şagirdlər öyrənmə prosesində daha çox iştirak edirlər və “müəllim kimi düşünməyə” başlayırlar. Yəni onlar müəllimlər kimi harada olduqlarını, hara gedəcəklərini və ora necə çatacaqlarını aktiv şəkildə düşünürlər.

Öyrənmə üçün qiymətləndirmədə bir neçə əsas proses baş verir:

- Müəllim hər bir şagirdə öyrənmələrini necə təkmilləşdirmək barədə rəy verir;
- Şagirdlər gördükləri hər tapşırıq üçün uğurlu işin necə göründüyünü, yəni hansı meyarlara və standartlara cavab verməli olduqlarını başa düşürlər;
- Şagirdlər həmyaşıdların qiymətləndirilməsində və özünüqiymətləndirmədə iştirak edərək öyrənmələrində daha müstəqil olurlar;
- Summativ qiymətləndirmələr onların irəliləyişinə kömək etmək üçün formativ şəkildə də istifadə olunur.

Öyrənmək üçün qiymətləndirmə yanaşması şagirdi çox və qətiyyətlə çalışsa, hədəflərə çata biləcəyinə inandırır. Testdən zəif qiymət alan tələbə “axmaq” deyil, “tənbəl” hesab edilməyə üstünlük verərək, öyrənməkdən imtina edə bilər. Bu yanaşması ilə müəllimlər öyrənənlərə öyrənənin şəxsi keyfiyyətlərinə yönələn rəydən daha çox görülən işə diqqət yetirən rəy verirlər. John Hattie-nin təhsilin effektivliyinə dair, Müəllimlər üçün Görünən (Visible) Öyrənmə (2011) adlı əsas işində Hattie rəy strategiyalarını öyrənənlərin nəticələrində əhəmiyyətli irəliləyişlərə səbəb olan 150 amil arasında 10-cu yerdə qoymuşdur. Bu, hər bir şagirdi daha yaxşı çalışsa, özlərini inkişaf etdirə biləcəklərini hiss etməyə təşviq edir.

Öyrənmək üçün qiymətləndirmə strategiyaları arasında az xatırladılan, lakin effektiv olan bir neçəsini təqdim etmək istərdim:

“Sorğu vərəqləri”: Öyrəndiyiniz mövzu ilə bağlı suallar hazırlamaq və dərsin sonunda və ya növbəti dərsin əvvəlində həmin suallardan istifadə etməklə şagirdlərin irəliləyişini yoxlamaq faydalı ola bilər. Bunu Kahoot! kimi platformalarda etməklə daha diqqətcəlbedici fona və dizayna malik, müxtəlif çeşidli sorğular hazırlaya bilərsiniz. Eyni zamanda şagirdlərinizdən də sinif yoldaşlarına suallar yazmağı istəyə bilərsiniz.

“Posterlər”: Bölmənin və ya həftənin sonunda öyrənənlərdən məsələn, dil dərsləri üçün hansı sözləri, cümlələri və ya qrammatik strukturları öyrəndiklərini göstərmək üçün qruplarda işləyərək poster yaratmalarını istəyə bilərsiniz.

“Jurnallar”: Öyrənənlərdən öz fikirlərini və öyrəndiklərinə münasibətini qeyd etmək üçün günlüyə bənzər “öyrənmə jurnalı” saxlamağı xahiş edə bilərsiniz. “Journaling” dünyada son

zamanlar geniş yayılmış anlayış olub, təkcə təhsil yox, gündəlik həyatda baş verənləri refleksiya etmək, baş verənlərdən nəticə çıxarmaq üçün yaxşı üsuldur.

"Şəxsi məqsədlər": Öyrənənlərdən şəxsi məqsədlər qoymalarını xahiş edin, məsələn: "Gələn həftə mən qısa hekayə oxuyacağam". Sizin özünüzün də şagirdlərinizlə fərdi və ya kiçik qruplarda onların öyrənmə məqsədləri və nailiyyətləri haqqında danışmağınız sizə qarşı onlarda isti münasibət yaratmağa və onların həmin məqsədlərə çatmaq üçün çalışmalarına yaxşı zəmin yaradacaq.

"Üz ifadəsi çəkmək": Öyrənənlərdən dərsə və ya işlərinə necə münasibət bəslədiklərini göstərmək üçün "smiling" çəkmələrini istəyə bilərsiniz. Onlara təqdim etdiyinzi sifətlər siyahısından seçim etmələri də yaxşı strategiya ola bilər: həvəsli, tənbəl, çalışqan və ya rahat.

"Öyrənmə divarı": Öyrənənlərin başqaları haqqında müsbət rəy bildirə biləcəyi "öyrənmə guşəsi" yarada bilərsiniz.

Qiymətləndirməni tədrisinizi planlaşdırmağınıza kömək edəcək bir vasitə kimi görmək vacibdir. Həmçinin unutmayın ki, qiymətləndirmə yalnız nailiyyət (nə qədər bildikləri) deyil, gedilən yolun ölçüsüdür. Məsələn, aşağı bal toplayan şagird, səviyyəsi lazım olan standartda olmasa belə, hələ də yaxşı irəliləyiş əldə etmiş ola bilər.

## MÜASIR İNFORMASİYA TEXNOLOGİYALARI ƏSASINDA TƏLİM MOTİVASİYASININ FORMALAŞMASI STRATEGİYALARI

**Həsənova Aysel Nizami qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Son bir neçə ildə İnformatika fənninin öyrənilməsində motivlərin strukturunda baş verən dəyişikliklər şagirdləri və tələbələri motivasiyalarını artırmaq üçün müxtəlif yolların və pedaqoji strategiyaların axtarışına sövq etməkdədir. Ali təhsil müəssisələrində informasiya texnologiyaları ilə işləmək bacarıqlarının tələbələrə aşılanması zamanı uğurlu nəticə qazanmağın əsas səbəblərindən biri güclü orta məktəb biliklərinin təməl bazanı təşkil etməsidir. Belə ki, İnformatika və İT üzrə məktəb kursu güclü fənlərarası əlaqələri ilə seçilir, çünki informatikanın metod və vasitələri müasir həyatın bütün sahələrində yayılmışdır və digər akademik fənlər tərəfindən tədris prosesində fəal istifadə olunur. İnformatika və İT siniflərində həll olunan tapşırıqlar açıq şəkildə fənlərarası xarakter daşıyır.

Müasir dövrdə təlim prosesinin əsasını zehni biliklərin öyrədilməsindən daha çox təcrübədə tətbiq oluna biləcək bilik və bacarıqların öyrədilməsi təşkil edir. İnformatika fənninin əsas texnoloji avadanlığı hesab olunan kompüterlərlə işləmək vərdişlərinin tələbələrə öyrədilməsi də onların həm fənni mənimsəməsində, həm də gələcək peşə fəaliyyətlərində köməkçi olacaqdır. Yeni informasiyaları öyrənməyə maraq yaratmaq üçün tələbədə motivasiya yüksək olmalıdır. Təbii ki, bu zaman əsas istiqamət idrak motivlərinin formalaşdırılmasına və müəllim-tələbə münasibətlərinin yaxşılaşdırılmasına yönəlir. Tələbə problemlərin həllində, nəticə əldə etməyin yeni yollarının axtarışında iştirak etdikcə öyrənmə və idrak motivləri də təkmilləşir. Son illərdə yeni biliyin şagirdə problem şəklində təqdim edilməsinə imkan verən müxtəlif vasitələrin optimal birləşməsinin zəruriliyi vurğulanır. Öyrənmək üçün motivasiyanın formalaşması ilə təlim prosesinə müsbət emosional münasibət və əldə edilən nəticələrdən daha yüksək səviyyədə məmnunluq yaranır.

Kompüterlərlə iş bacarıqlarının tələbələrə öyrədilməsi zamanı əsas iş müəllim kollektivinin üzərinə düşsə belə öyrənənlərin şəxsi qavrama keyfiyyətlərinin meyar göstəriciləri də mühim önəm daşıyır. Kompüter və informasiya texnologiyaları sahəsində tələbələri yüksək motivlərə köklənmək üçün bir sıra pedaqoji baxımdan təhlil edilmiş strategiyalar vardır. Bunlardan bəzisini qeyd edə bilərik:

- Müasir təlim metodlarına müvafiq olan mühitin yaradılması - Tədris metodları onu tələbələr üçün cəlbedici edə bilən öyrənmə komponentidir və öyrənmənin cəlbediciliyi öyrənmə fəaliyyəti üçün əsaslı səbəbdir;

- Bizim üçün qeyri-müəyyən (rasional) arqumentlər vasitəsi ilə real məqsədlərin qoyulması və onlara nail olunması - “Gözlənilən dəyər” adlanan motivasiya nəzəriyyəsinə görə, insan özü üçün dəyərli olan məqsədə can atdıqda və bu məqsədə nail olmaq ehtimalı yüksək olduqda aktiv olur. Müəllimin şagirdin qiymətləndirməsini istədiyi məqsəd öyrənmə məqsədidir;
- Yeni biliklərin mənimsənilməsində tələbənin sosial fəaliyyətində müstəqil qərar qəbul etməsinin formalaşması – Tədris prosesinin düzgün təşkili və idarə edilməsi idrak maraqlarının inkişafına, təhsil fəaliyyəti üçün müsbət motivlərin qurulmasına kömək edir ki, bu motivlər formalaşdıqdan sonra onun keyfiyyətinin yüksəldilməsi və effektivliyinin artırılması üçün təsirli daxili amillərə çevrilir.
- Müəllim və tələbə arasında didaktik informasiya məzmununda effektiv əlaqənin qiymətləndirilməsi - Nəzarət və qiymətləndirmə müxtəlif vasitələrlə həvəsləndirici təsir göstərir: qiymətləndirmənin göstərilən səylərə uyğun olması üçün zəruri şərtlərdən biri olan aydın tələblərin qoyulması; şəxsin iddialarının qiymətləndirilməsinin uyğunluğunu daha çox təmin edən fərdi nisbi normalardan istifadə və s. Öyrənmə motivləri əsasən şüurlu daxili stimullardır ki, bunun sayəsində şagird bilik əldə edir, bacarıqlar, vərdişlər formalaşdırır, məktəb vəzifələrini yerinə yetirir və müxtəlif tədris məktəbdənkənar tədbirlər həyata keçirir;

Bildiyimiz kimi motivasiya müəyyən məqsədlərə nail olmaq üçün hərəkətverici qüvvədir. Bu, davranışın məqsədyönlülüyünü əhatə edir və məqsədyönlü hərəkətlərlə əldə edilmiş nəticələr arasında birbaşa və vaxtında əlaqənin əldə edilməsini tələb edir. Son nəticə həmişə subyektivdir və psixoloji dəyərə malikdir. Motivasiya anlayışı ümumiyyətlə insanın “istiqamətləndirilmiş fəaliyyəti” deməkdir. Motivasiya birlik və qarşılıqlı təsirdə müxtəlif motivlərin tapıldığı çoxsəviyyəli iyerarxik sistem kimi qəbul edilir.

Fərd üçün güclü həvəsləndirici amil onun təhsil fəaliyyətində həm nəticə, həm də fəaliyyətin uğurunun təcrübəsi kimi əldə etdiyi uğurdur. Uğur və onun təcrübəsi öyrənmə motivasiyasının əsas növünü - uğur motivasiyasını təşkil edir. Danılmaz faktdır ki, uğurlu hərəkətlər şagirdlərin iddialarını stimullaşdırır, onlarda inamı və öyrənmə fəallığını artırır. Əldə edilən nəticə, yüksək qiymət, müəllimin tərifi şəklində əldə edilən uğur müsbət təcrübə mənbəyidir. Müvəffəqiyyət tələbənin öz fəaliyyətindən məmnunluq duyması və özünə əhəmiyyət verməsi üçün bir səbəbdir. Müvəffəqiyyətin həvəsləndirici təsiri müəllimlərə müxtəlif metodlardan istifadə etməklə uğur situasiyalarının qurulması çətin vəzifəsini qoyur - proqramlaşdırılmış təlim üçün xarakterik olan kiçik addımlarla təlim materialını öyrənmək, tədrisdə əlçatanlıq, təlim tələblərinin hər birinin imkanlarına uyğunlaşdırılması və s.

Yuxarıda qeyd olunan strategiyaları nəzərə almaqla İnformatika dərslərində tələbələri kompüterlərlə daha yaxından tanış olmağa və müxtəlif bacarıqların tədrisə tətbiq edilməsində fərqli üsullardan istifadəyə dair motivasiyaya köklənmək olar. Aydın məsələdir ki, həvəslə öyrənilmiş bilik və bacarıqlar zehni biliklərdən daha yaxşı yaddaşda qalacaqdır. Kompüterlərin təhsil sahəsində istifadəsinin əhatə dairəsinin genişləndirilməsi tələbələrin gələcək peşə fəaliyyətlərində nə qədər fərqli işlərdə çalışsalar da hər zaman köməklərinə çatacaqdır. Çünki müasir dövrümüzü informasiya texnologiyaları olmadan təsəvvür edə bilmərik.

## TƏHSİLDƏ KEYFİYYƏTİN İDARƏ OLUNMASINDA MÜASİR TƏLİM MÜHİTİNİN ƏHƏMİYYƏTİ

**Hüseynli Aytac Kamil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycanda ənənəvi təhsil sistemini müasir təhsil sistemi əvəz edir. XX əsrin sonlarından XXI əsrin əvvəllərinədək təhsildə ənənəvi təhsil sistemi olmuşdur.Bu təhsil sistemində təhsilalanlar bir obyekt kimi qiymətləndirilirdi. Azərbaycan müstəqillik əldə

etdikdən sonra demokratik prinsiplər təhsil sahəsində də öz əksini tapdı. Artıq təhsildə avtoritar idarəetmə üsulunundan demokratik idarəetmə üsuluna keçdi. Təhsil və təlim prosesində müasir texnologiyaların tətbiqi və idarəetmədə yeni yanaşmalar keyfiyyətli təhsil sisteminin qurulmasına istiqamətlənmiş yolları müəyyən etdi. Sinif-dərs sisteminin keyfiyyət təminatında müasir dərs formasının təşkili əhəmiyyətli rol oynayır. Bu zaman müəllim-şagird, şagird-şagird və məktəb-valideyn arasında müasir tələblərə cavab verən qarşılıqlı əlaqələr qurulur.

Müasir təlimin əsas məqsədi təlimin səmərəliliyini artırmaq, öz düşüncəsi, ağlı ilə bilikləri dərindən mənimsəyən və onu tətbiq etməyi bacaran, hər cür situasiyalardan çevik düşüncə qabiliyyəti ilə çıxmağı bacaran yüksək intellektli gənclər yetişdirməkdir.Bu məqsədi həyata keçirmək üçün fəal təlim metodlarından istifadə edərək, müasir dərslər bu formada qurulmalı və keyfiyyətli öyrənmə mühiti qurulmalıdır. Dərsin planı, dərs prosesi və dərsdən sonrakı mərhələlər geniş təhlil olunmalıdır. Mövzunun əhəmiyyətini anlatmaq üçün onun məqsəd və vəzifələrinə dair suallar formalaşdırılmalıdır. Sualları tərtib edərkən diqqət edilməlidir ki, onlar şagirdlərdə bilik, anlama, tətbiqetmə, analiz, sintez və qiymətləndirmə bacarıqlarının formalaşmasını təmin etsin .

Müasir təlim texnologiyalarının tətbiqi ilə keçirilən dərsləri ənənəvi dərslərdən fərqləndirən əsas cəhətlərdən biri odur ki, ənənəvi dərs müəllim-dərslik-şagird üçbucağında qurulurdusa, hazırda şagird-dərslik-müəllim dinamikası üstünlük təşkil edir. Müasir dərsin əsas üstünlüklərindən biri şagirdlərin fəallığıdır ki, buna da interaktiv təlim metodlarından istifadə etməklə çatmaq olar. Bu metodlara uyğun olaraq fərdi, cütlərlə, böyük və kiçik qruplarla iş formaları müəyyən olunur.

Hər bir dərsin məqsədləri (inkişafetdirici, öyrədici, tərbiyəedici) əvvəldən dəqiq müəyyənləşməli, dərsin quruluşu və mərhələlərin reallaşdırılması həmin məqsədlərə nail olmağa istiqamətlənməlidir. Fəal təlimi tətbiq etməklə aşağıda göstərilən bacarıqlara malik şəxsiyyətlər formalaşdıra bilərik:

- müstəqil şəkildə biliklərə yiyələnmək
- bilikləri həyati situasiyalarda istifadə istifadə etmək
- sinif yoldaşları ilə əməkdaşlıq edərək problemləri həll etmək
- öz potensialını reallaşdırmaq üçün mümkün yollar axtarmaq

İnteraktiv təlim texnologiyasının son nəticəsi hər bir təhsilalanın bir-biri ilə fəal qarşılıqlı təsirdə səmərəli, rahat öyrənmə şəraitinin yaradılmasıdır. Öyrədənlərin tədris prosesində məhz bu modeldən istifadə etmələri təlimə innovativ məzmun gətirir. İnteraktiv dərsin təşkili təlim prosesini həyatla əlaqələndirmək, rollu oyunlardan istifadə, situasiyanın analizi əsasında problemin qarşılıqlı, əməkdaşlıq şəraitində həlli ilə seçilir. İnteraktiv texnologiyalardan daha geniş istifadə üçün müəllimdən peşakar səriştə tələb olunur.

Müasir dərsə verilən əsas tələblərdən biri də dərsdə şagirdlərin müstəqil tədqiqata cəlb olunmasıdır. İnnovativdərs mühiti İKT ilə təciz olunmalı və onlardan dərsin nəticələrinə uyğunlaşdırılaraq istifadə olunmalıdır. Dərsdə olan fəndaxili və fənlərarası inteqrasiyadan geniş istifadə olunmalı, təlim materialın öyrədilməsi inteqrativ formada aparılmalıdır. Dərsin hər bir mərhələsi bir-birini tamamlamalı, hər mərhələyə ayrılan vaxt düzgün hesablanmalı, həm müəllimdə, həm də şagirddə vaxtdan qənaət etmək vərdişi yaradılmalıdır. Müasir dərsin əsas tələblərindən biri də şagirdlərin bilik və bacarıqlarının inkişafına nəzarət etmək, onların səviyyəsinin təkmilləşdirilməsinə nail olmaqdır.

Bildiyimiz kimi, 2006-cı ildən ölkəmizdə Milli Kurikulum çərçivə sənədi qəbul edilmişdir. Bu sənəd demokratizm, humanizm prinsiplərini əsas tutaraq şagirdlərin maraq və meyillərini anlayan, innovativ yanaşmalarına söykənən, dövlətin təhsil siyasətini əks etdirən bir sənəddir. Bu sənədin hazırlanmasında məqsəd təhsilin keyfiyyətinin yüksəldilməsi, müstəqil düşünə bilən, cəmiyyətin mədəni səviyyəsinin yüksəldilməsində yaxından iştirak edən gənc şəxsiyyətlərin yetişdirilməsindən ibarətdir. Bunun üçün təhsildə inteqrasiya prosesinə

qoşulmaq, dövrün tələbatına uyğun yenilikçi məzmun işləyib hazırlamaq, effektiv innovativ yanaşmaları yerli şəraitə uyğunlaşdıraraq tətbiq etmək lazımdır.

Milli Kurikulum sənədi müasir fəal təlim texnologiyalarının əsas keyfiyyətlərini əks etdirir və ümumilikdə yeni təlim konsepsiyaları ilə birbaşa qarşılıqlı təsirdədir. Bu konsepsiyaya görə təlim prosesi müəyyənləşdirilmiş nəticələrə, yəni nəticəyönümlülüyə əsaslanır və bu prosesdə təhsilverən əlaqələndirici, istiqamətverici və məsləhətverici subyekt kimi, təhsilalan isə müstəqil, tədqiqatçı subyekt kimi fəaliyyət göstərir.

Kurikulum islahatları təlim prosesinin təşkilinə, öyrədən-öyrənən münasibətlərinə yeni baxışdır və müəllim-şagird münasibətinin tamamilə dəyişdirilməsinə yox, onlar arasında əməkdaşlığa, qarşılıqlı hörmətə, bir-birinin hüquq və azadlıqlarına, şəxsiyyətinə hörmət etməyə əsaslanan yeni münasibətlərin yaradılmasını tələb edir.

## OKSİGENİN İNNOVATİV İNKİŞAFETDİRİCİ TƏDRİSİ

**Hüseynli Günəş Eldar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnnovasiyalardan təlim prosesində istifadə olunması, təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm amildir. Təhsildə pedaqoji innovasiyalar, onların tipləri, tətbiq sahələri və tətbiq metodları, funksional yenilikləri və qarşıya çıxan problemlərin həll edilməsi, onların təhsilin təşkili və keyfiyyətinə nəzarət mexanizminin təkmilləşdirilməsinə necə təsir etməsinin araşdırılmasına ciddi ehtiyac vardır. Pedaqoji prosesdəki yeniliklər innovativ qabaqcıl pedaqoji təcrübənin hərtərəfli öyrənilməsi, təhlil edilməsi və ümumiləşdirilməsi, pedaqoji – psixoloji tədqiqat nəticələrinin tədris prosesində tətbiq olunması və məktəblərdə yenilikçi mühitin yaranmasına nail olunması kimi məsələlərin həllini zəruri edir. Kreativ,innovativ inkişafetdirici tədris dedikdə, idrakı prosesin inkişaf etdirilərək mücərrəd təfəkkürə daha tez çatılması nəzərdə tutulur. XX əsrin son onilliyi və XXI əsrin əvvəllərində qarşıya qoyulan aktual problemlərdən biri də sosial-iqtisadi şəraitin tələb etdiyi yeni tip cəmiyyətin qurulmasıdır. Bu situasiya isə üç əsas aspektə əsaslanır: təhsil, elm və innovasiya[1].

Müşahidələr göstərir ki, bir sıra tələbələrin bilik səviyyəsi müasir tələblərə uyğun deyil. Buna görə də ali təhsil müəssisələrində həyata keçirilən inteqrasiya yeniləşmə və modernləşmə yolunu seçməlidir. XX əsrin ortalarından etibarən aparıcı dünya dövlətlərinin ən mühüm prioritetləri sırasında təhsilin inkişafına əsaslanan “bilik iqtisadiyyatı”nın formalaşdırılması, insan kapitalının yaradılması və beləliklə davamlı inkişafın təmin olunması amilləri xüsusi yer tutmağa başladı.

Hazırda digər fənlərdə olduğu kimi kimyanın tədrisində də innovasiya texnologiyalarından istifadə edilir.İnnovasiya texnologiyaları – innovasion (yeniləşən) fəaliyyəti təmin edən üsul, vasitə və tədbirlər toplusudur.

Şagirdlərdə mücərrəd təfəkkürü inkişaf etdirmək üçün şagirdlərə tanış olduğu həyati proseslərdən, hadislərdən, cismlərdən, ətraf mühitdən, nəqliyyat vasitələrindən, mətbəx cihazlarından, şagirdlərin istifadə etdiyi bütün kommunikasiya vasitələrindən istifadə edərək, onlarda şüurun daha məqsədyönlü inkişa etməsinə nail oluruq. Öyrətdiyimiz hər hansı mövzuya bu deyilən vasitələrlə giriş verərək, onların beyin həmləsinin pedaqoji prosesə daha tez hazırlanmasına nail oluruq. Bununla da, mənimsəmə artır, şagird passiv vəziyyətdən fəal vəziyyətə keçir[2].

Bu gün metodika sahəsində aktual olan əsas metodik yeniliklər, demək olar ki, bütün şagirdlərin təlim prosesinə cəlb olunması, öyrəndiyi bilikləri anlamaq və tətbiq etmək imkanı olan tədris prosesinin təşkilini nəzərdə tutan innovativ inkişafetdirici təlim metodları və müasir təlim texnologiyalarının istifadəsi ilə bağlıdır. Şagirdlərin öyrənmə, tədris materialının mənimsənilməsi prosesində birgə fəaliyyəti o deməkdir ki, hər bir fərd öz xüsusi töhvəsini

verir, bilik, fikir, fəaliyyət yolları mübadiləsi olur. Məhz bu öyrənmə texnologiyaları müasir təhsilimizdə ən yüksək səviyyəyə malikdir.

Bu tezisdə ümumtəhsil pilləsinin kimya kursunda oksigenin öyrədilməsinə innovativ inkişafetdirici yanaşmaların tətbiqindən və şagirdlərin dərketmə qabiliyyəti, dərsə cəlb edilmə yollarını artırmağın üsullarından bəhs edilir. Oksigen kimyada əsas element kimi həyat üçün vacib olduğundan, mövzunun ətraflı şəkildə aydın dərk edilməsinə nail olmaq effektiv tədris metodlarından istifadəyə sövq edir. Ənənəvi təlimdə tətbiq edilən yanaşmalar geniş formada tədqiq edilmiş və ortaya çıxan çətinlikləri həll etmək üçün innovativ tədris strategiyaları təklif edilmişdir.Oksigenin innovativ inkişafetdirici tədrisində şagirdlərin bilik, bacarıq və vərdişlərinin inkişaf etdirilməsində mövzu ilə bağlı metodiki ədəbiyyatlarla yanaşı, koqnitiv elmi prinsiplər və təhsil psixologiyası ilə bağlı ədəbiyyatlar da araşdırılmış, əldə olunan məlumatlar təhlil edilmiş və oksigenin öyrədilməsində yeni təlim metodları kimi istifadə edilmişdir. Bu metodlara interaktiv demostrasiyalar, multimedia, zehin xəritələri və əməkdaşlıqla təlim texnologiyaları və s. daxildir. Oksigenin tədrisini yanma, nəfəs alma, ətraf mühitdə baş verən digər proseslərdə və sənayedə istifadəsi kimi real dünya dünyadakı tətbiqi ilə əlaqənləndirərək şagirdlərin dərsə xüsusi bir maraqla cəlb edilməsinə, onların mövzu ilə bağlı nəzəri biliklərə yiyələnməsi ilə yanaşı, həyatda onlara lazım olacaq praktiki bacarıqlara yiyələnmməsinə yönəldən innovativ inkişafetdirici metodları ilə təşkil etmək olar.Mövzunun tədrisində inteqrasiyadan istifadə şagirdləri inkişafetdirici təlimə yönəldir, mövzunun öyrədilməsində fənnlər arasında mövcud olan boşluqlar doldurulur. Eyni zamanda mövzunun öyrədilməsində digər fənlərin tətbiqi şagirdlərdə tədqiqatçılığa olan meyli gücləndirir[3-5].

Bütün araşdırma və təhlillər nəticəsində aydın olur ki, innovativ inkişafetdirici metodlardan istifadə zamanı təhsilin əsas prinsiplərinə əməl edilir, şagird şəxsiyyəti və onun maraqları ön plana çəkilir, onlarda müstəqil öyrənmə, sərbəst düşünmə, əməkdaşlıq kimi keyfiyyətlər formalaşdırmaqla şagirdləri həm akademik, həm də real dünyada müvəffəqiyyət qazanmağa hazırlayır, müxtəlif fənlərə aid biliklərdən kompleks şəkildə istifadə etməyə imkan yaradır. Belə nəticəyə gəlirik ki, İnnovativ təlim ilə bağlı tədqiqatlar məktəb praktikasında tədris prosesinin daha düzgün, səmərəli qurulmasına köməklik göstərir. Yaradıcı, fəal, daima axtarışda olan müəllimlərin tədrisində əldə edilən uğurlar təhsilin təkmilləşdirilməsində yardımçı ola bilər.İnnovasiyalara əsaslanan təhsil müasir texnologiyaları mənimsəmək, yaşayış şəraitini, rifah halını daha da yüksəltmək, əmək bazarında rəqabətə davam gətirmək, layiqli yer tutmaq üçün insanlara geniş imkanlar yaradır.

Ədəbiyyat


1. Paşayeva A.Ə., MirzəyevaC.N..Kimyanın tədrisində bilik və bacarıqların sistemləşdirilməsində dərslərin didaktik vəzifələri.The XXIV International Scientific Symposium "Multidisciplinary Research in the Modern World" , dedicated to the 85th anniversary of Farman Karimzade, Tbilisi / Georgia ISBN: 978-605-71427-4-0 26 March 2022,səh.66-68
2. Şahgəldiyev A.Ə.İnnovasiyalar və onların tətbiqinin social-fəlsəfi məsələləri, Ali məktəblər üçün dərs vəsaiti. Bakı, “Müəllim” nəşriyyatı, 2017,s.29
3. Будина М.Э. Инновации в педагогической практике системы общего и профессионального образования по состоянию на начало 2016 года // Научно-методический электронный журнал,«Концепт», 2016, № 1,с.78-81
4. Пашаева А. А ., Мирзоева Ш. А.Современные подходы к проблеме педагогических инноваций . Current chrmical problems. V International (XV Ukrainian) scientific conference for students and young scientists book of abstracts to the 85 years of Vasyl’ Stus Donetsk National University and the International Year of Basic Sciences for Sustainable Development , March 22–24, 2022 Vinnytsia,s. 133
5. Beatner, N., Beatner, J.B. (2002). Integrating technology into the teaching process: eight keys to success. Journal of Technology and Pedagogical Education, 10 (1), pp.95-100.

# TƏHSİLDƏ MÜASİR QİYMƏTLƏNDİRMƏ ANLAYIŞINA BİR NƏZƏR

**Hüseynzadə Sənubər Arzuman qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan müstəqil təhsil siyasətini həyata keçirmək üçün ciddi qanunlar qəbul edib və təhsil sistemini müasir qlobal standartlara uyğunlaşdırmaq üçün fəaliyyətlər göstərib. Bu dövrdə şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi sahəsində çoxlu sayda əlavə və dəyişikliklər edilmişdir.

Təhsil sahəsində "Qiymətləndirmə" anlayışı mühüm əhəmiyyət kəsb edir, çünki o, şagirdin biliyinin qiymətləndirilməsində mühüm komponent rolunu oynayır. Lakin zaman keçdikcə bu məsələ ətrafında müzakirələr və mübahisələr davam edir. Müəllimin subyektivliyinə görə qiymətləndirmə prosesi qərəzsizliyi təmin edə bilmir və qeyri-dəqiqliyə yol verir. Bu, davamlı olaraq mübahisəli məsələdir və qərəzsizliyi müəyyən etmək çətin prosesdir.

Müasir qiymətləndirmə anlayışı ənənəvi qiymətləndirmə mexanizmini sıxışdırıb və daha geniş meyarları əhatə etməklə yalnız şagirdin biliyini nəzərə almaq yanaşmasından uzaqlaşıb. Müasir qiymətləndirmədə şagirdin bir fərd kimi şəxsiyyətinin qiymətləndirilməsinə daha çox diqqət yetirilir. Belə ki, şəxsiyyətin qiymətləndirilməsi ilə onun fərdi inkişafı üçün istiqamət təyin etmək, məqsədəuyğun təlim strategiyasını qurmaq, ədalətli və effektiv qiymətləndirməni təmin etmək və fərdi məsuliyyəti formalaşadırmaq mümkün olur. Ümumiyyətlə şagirdin şəxsiyyəti, onun maraqları, motivasiyası, güclü və zəif tərəflərini özündə birləşdirir. Müasir qiymətləndirmə zamanı isə bütün bu amillər nəzərə alınır.

Bu yeni perspektiv şagirdin biliyini yalnız kəmiyyətcə qiymətləndirməkdənsə, onu hərtərəfli qiymətləndirməyə imkan verir. Hazırda təhsil prosesində qiymətləndirmə təkcə maddi resursları deyil, həm də şagirdin təhsil və psixoloji xüsusiyyətlərini nəzərə alır. Bu yanaşma təlimin bütün əsas elementlərini əhatə edir və şagirdin potensialının daha səmərəli qiymətləndirilməsinə imkan verir .

Şagirdlərin qiymətləndirilməsi prosesində qiymətləndirmə yollarının seçilməsi mühüm əhəmiyyət kəsb edir. Bu strategiyalar fəal öyrənmə və tədris olunan məzmunun başa düşülməsini təşviq etməklə şagirdlərin biliyinin qiymətləndirilməsini həyata keçirməlidir. Ənənəvi yanaşmalar bəzən şagirdlərin bilikləri yalnız təlim vasitəsilə əldə etmələrinə hesablanıb ki, bu da onları uzun müddət ərzində məlumatı yadda saxlamağı çətinləşdirir. Buna görə də, nəticədə unudulacaq faktları yaddaşa həkk etməkdənsə, onları gücləndirmək üçün digər qiymətləndirmə üsullarından istifadə edilir, qiymətləndirmənin səmərəli olması və şagirdin fəaliyyətlərinin boşa getməməsi təmin edilir .

Hazırda yeni qiymətləndirmə formaları və üsulları tətbiq olunur. Qiymətləndirmə prosesi zamanı həm şagirdlərin, həm də müəllimlərin məsuliyyətləri və vəzifələri yenidən qiymətləndirilir. Bu, milli təhsil sistemlərinin qlobal nümunələri özündə əks etdirdiyini göstərir. Milli təhsil sistemlərinin əhəmiyyətli bir hissəsi beynəlxalq standartlara əsaslanan qiymətləndirmə metodlarını artıq qəbul etmişdir. Bu, tədris materialının və biliklərin mənimsənilməsi prosesinin daha dəqiq qiymətləndirilməsinə zəmanət verir.

Təhsilin qiymətləndirilməsinin əsas məqsədi şagirdlərin təlim prosesindən maksimum fayda əldə etmələrini təmin etməkdir. Bu məqsədə nail olmaq üçün müəllimlər və şagirdlər arasında səmərəli ünsiyyəti inkişaf etdirmək və əlaqələri gücləndirmək çox vacibdir. Müasir qiymətləndirmə anlayışı təhsili hər bir şagirdin unikal ehtiyaclarına uyğunlaşdırmaq üçün fərdiləşdirməyə üstünlük verir. Bu, şagirdlərin təhsilə münasibətini və motivasiyasını artırır.

Qiymətləndirmə prosesi boyunca müəllimlər uşaqların tərəqqisini hərtərəfli müşahidə etmək və izləmək imkanına malikdirlər. Bu, təhsilin effektivliyini artırmağa zəmanət verir. Müasir qiymətləndirmə konsepsiyası təhsilin cari şagirdlərə uyğun olmasını təmin edir. Müasir qiymətləndirmə konsepsiyasınn təcrübələri təhsilin sosial və ictimai məqsədlərini də nəzərə alır. Təhsil cəmiyyətin inkişafı və davamlılığının təşviqində mühüm rol oynayır.

Müasir qiymətləndirmə konsepsiyası təhsilin daha demokratik və hesabatlı şəkildə idarə olunmasını təmin edir. Bu, təhsilin səmərəliliyinin və ədalətliliyinin artırılmasına töhfə verir. Müasir qiymətləndirmə anlayışı şagirdlərin bir-birinə münasibətdə qiymətləndirilməsi təcrübəsini minimuma endirməkdir. Bu, hər bir şagirdə öz potensialını daha effektiv şəkildə reallaşdırmağa imkan verir. Qiymətləndirmə prosesi boyunca şagirdlərə aydın və obyektiv rəylərin verilməsi onlara öz irəliləyişlərini yaxından izləməyə imkan verir .

Müasir qiymətləndirmə konsepsiyasında məktəbdaxili, milli və beynəlxalq qiymətləndirmə növləri üzrə əsas prinsiplər, onların məqsədləri, zəruri tərəfləri və s. məqamlar yer alıb. Belə ki, beynəlxalq qiymətləndirmə vasitəsi ilə ölkədə olan şagirdlərin təlim göstəriciləri barədə təsəvvür əldə etmək, əldə edilmiş məlumatlar əsasında təhlil apararaq problemləri aşkar etmək və digər ölkələrlə olan təhsilin səviyyəsi ilə müqayisə etmək üçün çox faydalıdır.

Milli qiymətləndirmə, təhsilin təşkili, planlaşdırılması və aparıldığı şərait barədə məlumatların toplanması vasitəsi ilə kurikulumun keyfiyyətini və təhsil sisteminin dəyişikliklərini qiymətləndirmək məqsədilə həyata keçirilir. Bu sistemin məqsədi məktəb təhsilinin səviyyəli təşkil olunmasına və cəmiyyətin dinamik inkişafına dəstək verməkdir. Bu dəyişikliklərin təhsil sistemində daha dərin nəzəri və praktik əsaslar üzərində qurulması ilə təhsil işçilərinin elmi, pedaqoji, metodik və mədəni səviyyələrinin artırılması hədəflənir.

Məktəbdaxili qiymətləndirmə isə, dövlət təhsil standartlarının nəzarəti altında aparılır, bilik və bacarıqların məzmun standartlarına uyğunluğunu ölçür və təlim nəticələrini qiymətləndirir. Bu qiymətləndirmə üç əsas istiqamətdə - diaqnostik (ilkin), formativ (cari), summativ (yekun) qiymətləndirmə ilə həyata keçirilir. Birincisi, ilkin səviyyənin qiymətləndirilməsidir və təhsilalanların nailiyyət səviyyəsini konkret bir mərhələdə müəyyən etmək üçün son dərəcə məsuliyyət və böyük diqqət tələb edir. Diaqnostik qiymətləndirmədə şagird məsuliyyətlə və düzgün qiymətləndirilməzsə, onun sonrakı inkişafını müəyyənləşdirmək mümkün olmaz. İkincisi, təhsilalanların hər bir fənn üzrə təhsil proqramında müəyyən olunmuş məzmun standartlarının mənimsəməsi ilə bağlı irəliləyiş və ya geriləmələrini izləmək üçün aparılır. Bu qiymətləndirmənin digərlərindən əsas fərqi ondadır ki, formativ qiymətləndirmənin nəticəsini əldə etmək üçün müəllim hər bir təhsilalanla fərdi şəkildə işləməyə üstünlük verərək, onun mənimsəmə səviyyəsinə mütəmadi olaraq nəzarət edə, təlim prosesində daimi korreksiyalar apara bilir. Üçüncüsü, şagirdin öyrənmə səviyyəsinin müvafiq təlim nəticələrinə uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə həyata keçirilən rəsmi qiymətləndirmədir. Bu qiymətləndirmənin ən mühüm cəhəti şagirdlərin praktiki inkişafını təmin etməklə tədris prosesinin effektiv planlaşdırılmasına xidmət etməsidir. Eyni zamanda, summativ qiymətləndirmə təhsilalanların məsələ həlli bacarıqlarını yoxlamaq, riyazi hesablamalar aparmaq, qrafiklərlə işləmək, oxuyub-anlama bacarıqlarının inkişafını izləmək üçün çox böyük əhəmiyyət daşıyır. Qiymət o zaman effektiv sayılır ki, o, şagirdi özünü təkmilləşdirməyə təhrik etsin. Ona görə də, summativ qiymətləndirmə zamanı müəllimin əsas diqqəti şagirdin təkcə informasiyanı mənimsəməsinə deyil, həm də gələcəkdə zəruri olan bacarıqlara yiyələnməsinə yönəlməlidir.

Yekun qiymətləndirmə isə, ümumi təhsil pillələri üzrə mərkəzləşdirilmiş buraxılış imtahanları kimi həyata keçirilir. Bu qiymətləndirmə müvafiq təhsil sənədinin verilməsi ilə nəticələnir.

Müasir qiymətləndirmə ideyası təhsili inkişaf etdirmək üçün innovativ metodlardan istifadəni təşviq edir. Bu, həm də müasir təhsil sistemində yüksək nəticələr əldə etmək potensialını artırır.

# QİYMƏTLƏNDİRMƏ VƏ RƏQƏMSAL MÜHİT

**Xanatov Taleh Əlövsət oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsildə yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqi təhsil müəssisələrinin rəqəmsal transformasiyasına kömək edir ki, bu da informasiya texnologiyaları infrastrukturunun müasirləşdirilməsi, müasir platformaların, alətlərin və xidmətlərin inkişafı, insan resurslarının və məlumatların idarə edilməsi imkanlarını reallaşdırmaq üçün nəzərdə tutulur. innovativ texnologiyaların optimal şəkildə tətbiqi və tədris və təlimə yanaşmaların əhəmiyyətli dərəcədə dəyişməsi sevindirici haldır. Rəqəmsal təhsil texnologiyalarının dəqiq tərifi hələ verilməmişdir, lakin ümumilikdə onlar virtual məkanlarda qlobal problemlərin həllinə mühüm töhfə verməyə imkan verən təhsil vasitələri kimi müəyyən edilir. Eyni zamanda, universitetin rəqəmsal təhsil mühitinin ahəngdarlığı hər bir müəllimin fəaliyyəti ilə əldə edilir, "onun təhsil fəaliyyətinin subyekti kimi bu mühit daxilində digər fənlər ilə daimi qarşılıqlı əlaqəsi, təhsilə hazırlığı və bacarığı ilə kömək edir, fəaliyyətlərini istiqamətləndirir və əlaqələndirir. Müasir rəqəmsal cəmiyyətdə yeni tendensiyalar fonunda pedaqoji inancların və təcrübənin yenidən nəzərdən keçirilməsi də daxil olmaqla, belə dinamik və davamlı proses müəllimin rəqəmsal bacarıqları tələbinə daxil edilir və aşağıdakılar əldə edilir:

1) təhsildə iştirak yolu ilə. rəqəmsal təhsil mühitinin dizaynı;

2) bir mütəxəssisin şəxsiyyətinin inkişafına töhfə verən müəllimlər və şagirdlər arasında qarşılıqlı əlaqə təcrübəsinə əhəmiyyətli töhfə verməyə imkan verən mədəni (rəqəmsal) vasitələrdən istifadə etmək istəyində.

Ali təhsil təcrübəsini yeni reallıqda yenidən nəzərdən keçirmək üçün rəqəmsal pedaqogika konsepsiyası təqdim edilir və onun özəyi müəyyən edilir, rəqəmsal pedaqogikanın mahiyyəti və qanunauyğunluqları, şəxsiyyətin inkişafında onun rolu və artırılması yolları açılır.

Bununla belə, təhsildə rəqəmsal texnologiyaların geniş tətbiqinə baxmayaraq, pedaqoqların baş verən dəyişiklikləri qəbul etməyə nə dərəcədə hazır olması barədə kifayət qədər məlumat yoxdur. Müasir şagirdlər gündəlik həyatın rəqəmsal mühitində böyüdükləri və rəqəmsal təhsil mühitinin kifayət qədər yüksək səviyyəsini və keyfiyyətini tələb etdikləri üçün bunu düzgün qiymətləndirmək təhsilin keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər.

Son iki il ərzində koronavirus pandemiyası ilə əlaqədar dünyanın əksər təhsil müəssisələri distant təhsilə və ya hibrid təhsilə keçmək məcburiyyətində qalıb.

Rəqəmsal elementlərin tədrisə hər hansı bir tətbiqi şagirdlər tərəfindən daha yaxşı qarşılanır və buna görə də sevimli bir şey kimi qəbul edilir. Axı birinci il deyil ki, şagirdlər sosial şəbəkələrin tematik ictimai səhifələrindən və maarifləndirici video çarxlardan əlavə dərsdənkənar biliklər toplayır, bəzən universitetlərdə seminar və mühazirələrdə və ya məktəblərdə keçirilən dərslərdə olduğundan daha çox məlumat alırlar.

Eyni zamanda, bir çox insanlar hələ də onlayn təhsil haqqında çox az təsəvvürə sahibdirlər: onlayn mühit, əksəriyyətin anlayışına görə,yalnız öyrənmə üçün rəqəmsal platformadır, xüsusiyyətləri nəzərə almadan məktəb dərslərinin bir növ mexaniki şəkildə onlayn ötürülməsidir.

Effektiv onlayn dərs çox məlumatlı və çoxformatlı olmalıdır - kommunikasiya kanallarının müntəzəm dəyişdirilməsi və iş formatlarının dəyişməsi: nəzəriyyədən interaktivə, frontal işdən fərdi və qrup işinə. Rəqəmsal alətlər vasitəsilə bu müxtəlifliyi təmin etmək və ənənəvi "ekranda danışan baş"dan uzaqlaşmaq mümkündür. Onlayn rejimdə şagirdlərə mütəmadi rəy vermək çox vacibdir və rəsmi rəy deyil (doğru cavabın nümayişi ilə tamamlanan tapşırıqlar və testlər haqqında), lakin mənalıdır. Bu, əsas problemləri və ya səhvləri seqmentlərə ayırmaq və təhlil etmək, təcrübə mübadiləsi və bir-birinin işini nəzərdən keçirmək üçün şagirdi başqa bir şagird ilə "bağlamaq", tədrisin keyfiyyətini artırmaq üçün işi açıq şəkildə şərh etmək ola bilər. Onlayn iş yaradıcı rəqəmsal layihə tipli tapşırıqlara diqqət

yetirməklə digər ev tapşırığı formatlarından daha effektivdir. Məsələn, infoqrafika, longreads, animasiyalar, interaktiv və rəqəmsal xəritələr, vizual metaforalar, kvestlər və viktorinalar.

Məktəblərin maddi-texniki təchizatı məsələsi aktual olaraq qalır. Lakin əksər məktəblərdə təminat çox yaxşıdır. Bunun üçün müəllimlərdən müəyyən rəqəmsal və metodik bacarıqlar tələb olunacaq. Bir qayda olaraq, müəllimlərin rəqəmsal texnologiyaların tətbiqi zamanı qarşılaşdıqları problemlər tədrisdə rəqəmsal xidmətlərdən necə istifadə etmək barədə bacarıq və biliklərin, həmçinin bu səlahiyyətlərin öyrənilməsi və inkişafı üçün şəraitin olmaması ilə əlaqələndirilir. Bundan əlavə, müəllimlərin dərs yükü yüksəkdir, yeni texnologiyaların öyrənilməsinə vaxtları yoxdur, fərdi inkişaf proqramları kifayət qədər deyil və ya həmişə keyfiyyətli olmur.

Ümumilikdə, praktiki müəllimlərin rəqəmsal səriştənin təkmilləşdirilməsi proqramlarına cəlb edilməsi və təkmil təlim proqramlarının təcrübə yönümlü olmasını təmin etmək məktəblər və regional metodik birliklər səviyyəsində rəqəmsal texnologiyalardan istifadə təcrübəsinin keyfiyyətini yüksəltməyə kömək edəcək.

Bəli, valideynlər hələ də materialın onlayn deyil, oflayn rejimdə daha yaxşı izah edildiyini təkid edirlər. Bu problemlərdən biri şagirdlərin məktəb həyatında dərsdənkənar iştirakının azalması və onlayn rejimə keçid fonunda onların psixi sağlamlığı üçün yaranan təhlükələrdir. Digəri, təhsilin kompüterləşdirilməsi prosesində şəhər və kənd sakinləri arasında yaranan bərabərsizlikdir.

Texnologiya mənim də tədrisə yanaşma tərzimi dəyişdi. Rəqəmsal texnologiyanın inteqrasiyası sadəcə onun sinifdə olması səbəbindən dərhal uğurlu və ya effektiv olmur, çünki şagird öyrənmə qabiliyyətinin artırılması və düşünülmüş yanaşma tələb edir. Formativ və summativ qiymətləndirmələrdə rəqəmsal texnologiyalardan istifadə şagird nailiyyətlərinə və motivasiyasına necə təsir edir?

İKT texnologiyaları bizə müasir təhsilin məqsədlərinə çatmağa imkan verir; şagird ilə interaktiv formatda dialoq aparmaq və şagirdlərin fəaliyyətini tez qiymətləndirmək imkanı verir. Hesab edirəm ki, İKT texnologiyaları deyil, tədrisin əsas vasitəsi tətbiq edilməlidir. Bu tip texnologiyalar təlimin effektivliyini artıracaq və uşaqların intellektual, emosional və şəxsi inkişafına töhfə verəcək təhsil prosesinin əsas hissələrindən birinə çevrilməlidir.

Bir çox müəllimlər, rəqəmsal qiymətləndirmə vasitələri ilə işləyilər. Pandemiyada hər şey dəyişdi. Birdən və bir hərəkətlə hamımız onlayn olduq. Zoom, söhbətlər və ani messencerlər, xidmətlər və platformalar. Amma indi bu, gündəlik praktikaya çevrilib. Hansı öyrətmək daha yaxşıdır: onlayn yoxsa uzaqdan? Tapşırıq və dərsi necə yaratmaq olar? Necə qiymətləndirmək olar?

Qiymətləndirmənin şagirdlər üçün faydalı olması üçün üç şərt yerinə yetirilməlidir: tələbələr yaxşı performansın nə olduğunu, cari performansın ümumi performansla necə əlaqəli olduğunu və cari və ümumi performans arasındakı fərqi aradan qaldırmaq üçün necə hərəkət etməli olduqlarını bilməlidirlər. Bu, şagirdin fəaliyyətini əks etdirən qiymət deyil, əksinə, şagirdin fəaliyyətini təkmilləşdirməyə imkan verən dəyərli rəylər verir. Bu, şagirdə təkmilləşdirmək üçün nə etməli olduğunu göstərir; Bu vacibdir, çünki qiymətlərə deyil, bacarığa diqqət yetirildikdə, şagirdlər həqiqətən daha yaxşı çıxış edirlər. Yüksək keyfiyyətli qiymətləndirmə motivasiyanı artırır və şagirdlərin özlərini ifadə etmələrinə şərait yaradır.

## FƏNN OLİMPİADALARININ TƏŞKİLİNİN ƏSAS İSTİQAMƏTLƏRİNƏ DAİR

**Xankişiyeva Ayşən İman qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

"Məktəb fənn olimpiadalarının təşkili və keçirilməsi Qaydaları" Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Əsasnaməsinin 8.14-cü bəndinə uyğun olaraq hazırlanmışdır. Fənn olimpiadalarının keçirilməsində əsas məqsədlər şagirdlərə yüksək keyfiyyətli təhsil vermək, onlarda maraq oyatmaq, özgüvəni artırmaq, müəyyən bir fənn üzrə

öz qabiliyyətləri və orijinal düşüncələri ilə seçilən şəxsləri müəyyən etmək, inkişafın ən yaxşı şəkildə necə qurulacağına qərar verməkdir.

Məktəblilərin ümumrespublika olimpiadası istedadlı uşaqların üzə çıxarılması və inkişaf etdirilməsi, şagirdlərin elmi biliklərə marağının artırılmasının səmərəli formalarından biridir. Respublika fənn olimpiadaları hər il keçirilir.

IX-XI sinif şagirdləri Azərbaycan dili və ədəbiyyatı, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya, informatika fənləri üzrə fənn olimpiadalarında iştirak edirlər. Fənn olimpiadaları fənn müəlliminin və məktəb psixoloqunun təqdimatları əsasında unikal istedadına görə seçilən aşağı sinif uşaqları üçün əlavə seçimdir.

Elm və Təhsil Nazirliyi təsnifat mərhələsinin I turunun nəticələrinə əsaslanaraq, Respublika fənn olimpiadalarının respublika mərhələsinin iştirakçılarının siyahılarını təsdiq edir.

Olimpiadanın məqsədi aşağıdakılardır:

- Yaradıcılıq qabiliyyətinin inkişafı;
- Nəzəri biliklərin və praktiki bacarıqların araşdırılması;
- Özünə inam hisslərini gücləndirmək;
- İstedadlı uşaqların müəyyən edilməsi üçün şəraitin yaradılması;
- Şagirdlərin beynəlxalq olimpiadalarda iştirakı üçün seçilməsi və hazırlanması;
- Şagirdlərin ixtisas və peşə seçiminə hazırlanması üçün zəmin yaratmaq.

Fənn olimpiadaları orta və ümumi orta təhsil proqramlarının tələblərinə uyğun olaraq müvafiq təhsil müəssisələri tərəfindən tədris ili ərzində 4 mərhələdə keçirilir.

Ümumtəhsil məktəbləri şagirdləri tədris ili boyu müntəzəm sınaq və müşahidələr yolu ilə fənn olimpiadalarına hazırlayır. Məhz bu prosedurlar vasitəsilə fənn olimpiadalarının rayon (şəhər) mərhələsində iştirakçılar seçilir.

Mart ayının ikinci bazar günü Respublika Təşkilat Komitəsi Respublika mərhələsinin yarımfinal mərhələsi üçün mərkəzləri müəyyən edir. Bu mərkəzlər respublikanın bir çox regionlarına yayılmış ümumi təhsil müəssisələri arasından seçilir.

Rayon (şəhər) mərhələsinin nəticələrinə əsasən Respublika təşkilat komitəsi Respublika mərhələsinin yarımfinal mərhələsində mübarizə aparacaq şagirdləri seçir. Hər sinifdə ilk üç yeri tutan şagird hər mövzu üzrə sualların ən azı 60%-ni uğurla cavablandırdığı halda rayon (şəhər) mərhələlərinin yarımfinal mərhələsinə keçir. Hər sinifdə birinci yeri tutan Bakı şəhərinin şagirdləri yarımfinal mərhələsində mübarizə aparmaq hüququ qazanırlar.

Respublika təşkilat komitəsi olimpiadanın yarımfinal mərhələsinin respublika mərhələsində mübarizə aparacaq şagirdlərin siyahısını rayon (şəhər) mərhələsinin nəticələrinə əsasən bir ay əvvəl rayon (şəhər) təhsil şöbələrinə (idarələrinə) bildirir.

Hər bir fənn üçün:

Birinci mərhələ – rayon (şəhər) üzrə, rayon və şəhər təhsil idarələri tərəfindən təşkil edilir;

İkinci mərhələ – respublika təhsil təşkilatları tərəfindən aparılır;

Olimpiadanın birinci və ikinci mərhələlərində tam orta və ümumi orta təhsil üzrə təhsil müəssisələrinin şagirdləri iştirak edirlər.

Olimpiadanın ikinci mərhələsində I mərhələnin qalibləri hər fənn üzrə 9-11-ci sinif şagirdləri iştirak edirlər.

Olimpiadanın Respublika mərhələsinin yarımfinal mərhələsinin qaliblərinə Respublika təşkilat komitəsi tərəfindən diplomlar, təbrik məktubları, qiymətli hədiyyələr və pul mükafatları təqdim olunur, yerli təşkilat komitələri isə final mərhələsinin qaliblərini mükafatlandırır.

Qalib şagirdlərin müəllimləri fənn olimpiadalarının planlaşdırılması və icrasında münsiflər heyətinin üzvü kimi iştiraklarına uyğun olaraq mükafatlar alırlar.

Olimpiadaların respublika mərhələsinin planlaşdırılması və keçirilməsi ilə bağlı bütün xərcləri, fənn olimpiadalarının həm respublika, həm də rayon (şəhər) mərhələləri üzrə müsabiqə iştirakçılarının xərclərini, o cümlədən qaliblərin, münsiflər heyətinin üzvlərinin və təlimatçıların tanınması ilə bağlı xərcləri Təhsil Nazirliyi öz üzərinə götürür.

## ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNNOVASİYA FƏALİYYƏTİNİN TƏŞKİLİNDƏ MƏKTƏB RƏHBƏRİNİN ROLU

**Xasayzadə Afaq Rövşən qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Cəmiyyətin inkişaf mərhələsində insan həyatının müxtəlif sahələrində təhsil sisteminə təsir edən dəyişikliklər baş verir. Təhsildə innovasiya təhsilin təkmillik istiqamətində dəyişməsi üçün perspektivliyi olan tədris prosesində istifadə olunanan metod və üsulların inkişafına müsbət təsir göstərən yenilikdir. İnnovasiyanın təhsil sahəsində tətbiqi sosial gərginliyin azaldılmasında, əhalinin rifahını yaxşılaşdırlmasında mühüm rol oynayır.

Təhsil sahəsində innovativ yanaşmaların inkişafında məktəb menecerlərinin rolu xüsusi əhəmiyyət kəsb edir və məktəbin ümumi strateji istiqamətini müəyyən edir. Onlar təhsildə innovasiyaların həyata keçirilməsi üçün məqsədlərin müəyyən edilməsində bələdçilik edirlər. Məktəb rəhbərlərinin təhsil proqramlarını innovativ şəkildə inkişaf etdirmək üçün əvvəlcə müəllim və şagirdlərin ehtiyaclarını müəyyən etməli və buna uyğun strategiyalar müəyyənləşdirməlidir. Bundan başqa, məktəb menecerinin resurslardan və büdcədən səmərəli istifadə etməsi innovativ yanaşmaların müvəffəqiyyətlə həyata keçirilməsini təmin edir. Direktorun innovasiyanın təhsilə inteqrasiyasına münasibəti müəllimlərin də yeniliklərdə fəal iştirakını və uğurlarını artırmağa imkan verir. Məktəb rəhbərinin bu kimi yeniliklərə müsbət münasibəti ümumi müvəffəqiyyətə və rəqabət qabiliyyətinin artmasında xüsusi rolu vardır.

Təhsilin inkişafında əsas şərt innovasiya prosesinin optimal idarə edilməsidir. Məhz buna görə təhsil meneceri təhsil müəssində innovativ mühiti təhlil etməyi, inkişaf proqramlarını hazırlanması üsullarını, innovasiya prosesinin mahiyyətini, strukturunu anlamağı, uğurlu inkişaf strategiyalarının hazırlanmasını bacarmalı və bilməlidir. Təhsil meneceri innovativ mühiti təhlil edərkən müəssisədə innovativ prosesin strukturların müxtəlifliyini nəzərdən keçirməlidir. Bunula, dəyişiklikləri effektli idarə etmək və daha da inkişaf etdirmək mümkündür.

Yenilikçi təhsil müəssisələri, rəhbərlər, müəllimlər və digər komanda liderləri əsas diqqəti şagirdlərin öyrənməsinə, qabaqcıl öyrənmə və öyrətmə üsullarını axtarmağa yönəldir. Müəllimlərin rolu isə şagirdlərə diktə yolu ilə informasiyalar çatdırmaq deyil, istiqamətləndirici dəstək vermək, innovativ metodlardan istifadə edərək şagirdlərin ətrafdakılarla ünsiyyət quran, yaradıcı düşünən, xəyalpərəst, özünə güvənən, informasiya texnologiyalarından istifadə etmək bacarığına yiyələnən şagird kimi yetişdirməkdir və təhsil sisteminin vəzifəsi də bu olmalıdır. Məktəb direktoru öyrənməyə birbaşa təsir etmək əvəzinə, öyrənmə mühitini və mədəniyyətini inkişaf etdirməklə şagird nailiyyətlərinə dolayısı təsir göstərirlər.

Məktəb rəhbərləri təhsil müəssisələrində innovasiyanın həyata keçirilməsində əvvəlcə müəllimlər üçün əlverişli mühit və imkanlar yaratmağa çalışır. Bu imkanlara müəllimlərə davamlı olaraq innovativ metodlardan istifadə üzrə peşəkar inkişaf mühiti təqdim etməyi, müəllimləri innovativ yanaşmaya təşviq etmək üçün onlar arasında mütəmadi olaraq görüşlər təşkil etməyi, müəllimlərə dəstək vermək üçün əlavə resurslarla təmin etməyi, texnologiyalardan asanlıqla istifadə etmələri üçün mütəmadi olaraq təlimlərin keçirilməsi, müəllimlər arasında əməkdaşlıq mühiti təşkil edilməsi və pedaqoji bacarıqlarını gücləndirmək kimi imkanlar daxildir. Ümumiyyətlə, direktorlar məktəblərdə innovativ mədəniyyət yaratmaq, müəllimləri təlim və tədris prosesində yenilikçi və yaradıcı olmağa həvəsləndirmək məsuliyyətinə malikdir. Əlavə olaraq da, məktəb rəhbəri müəllimlərin güclü və zəif tərəflərini

tarazlaşdırmalı, onlar arasında görülən ziddiyyətləri hamarlaşdırmalı, ümumi məqsəd ətrafında toplaşmağa və onların özlərini inkişaf etdirməyə təşviq etməlidir.

## ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNTERNET SAYTLARININ TƏDRİS PROSESİNİN KEYFİYYƏTİNƏ TƏSİRİ

**İbrahimova Solmaz Pərviz qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Günümüzdə cəmiyyətin daim dəyişərək yeniliklərlə uyğunlaşan tələblərini nəzərə alaraq, qeyd edə bilərik ki, hər bir sahə üzrə internet saytlarının olması zəruri bir hala çevrilmişdir. Bir müəssisə və ya təşkilatı onun fəaliyyəti, xidmətləri haqqında məlumatları təqdim edən internet saytı olmadan düşünmək mümkün deyildir. Bütün bunları nəzərə alaraq, təhsil müəssisələrinin, xüsusilə də abituriyent və ali təhsilin hər hansı bir səviyyəsi üzrə təhsil alan tələbələr üçün ali təhsil müəssisələrinin internet saytının olması önəmli məsələlərdən biridir. Hazırda informasiya əsrində yaşayırıq və bu gün demək olar ki, bütün fəaliyyətlər internet vasitəsilə həyata keçirilir. Təkmilləşdirilmiş, faydalı informasiyaları özündə əks etdirən internet saytı təhsilin keyfiyyətinin yüksəldilməsinə səbəb olur. Bu məsələyə daha detaylı baxaraq təhlil edək.

Düzgün dizayn əsasında yaradılmış, sürətli veb sayt tədris prosesinin keyfiyyətinə əsaslı şəkildə öz təsirini göstərir. Veb saytın ana səhifəsində yerləşən naviqasiya menyuları və axtarış funksiyaları, tələbə bileti əsasında hər kəsə özəl yaradılmış şəxsi kabinet tələbələrin dərs materialını, tapşırıqları və sənədləri asanlıqla tapmağını, dərs materiallarına asan və sürətli giriş imkanı təmin edir. Əksər universitet saytlarında mövcud şəxsi kabinetlər tələbələr üçün tapşırıqların təhvil alınması, həll edilməsi kimi prosesləri sürətləndirir. Tələbələr, öz işlərini yükləyib göndərə, müəyyən müddətdə cavab ala, müəyyən müddətdə cavab verə bilərlər. Bu, tələbələrin təhsil standartlarına əsaslanaraq işlərinin qiymətləndirilməsini təmin edir. Təhsilalan tədris prosesi zamanı ona lazımlı olan məlumat və materialları təhsil aldığı ali təhsil müəssisəsinin internet resursu üzərindən əldə edə bilir. Bu materiallar sırasına tədris planı, sillabus, akademik təqvim və s. daxildir. Təhsilalan hər hansı çətinliklə qarşılaşmadan, istənilən vaxt asanlıqla internet saytına daxil olaraq materialları əldə edə, tədris planından semestr ərzində tədris olunacaq əsas və seçmə fənlərə, sillabusdan ayrı-ayrı fənlər üzrə mövzulara və ədəbiyyat siyahısına, akademik təqvim vasitəsi ilə isə semestrin nə zaman bitib, nə zaman başlayacağı, qeyri-iş günləri və s. kimi məlumatlara baxa bilər. Bu, onlara təhsil planlarını və dərslərin tərtibini daha yaxşı qurmalarına kömək edir.

Hər bir ali təhsil müəssisəsinin internet saytında verilmiş olan məlumatlar sırasına elmi jurnal və tezislər haqqında daxildir. Burada yazıya verilmiş tələblər, həmçinin əvvəlki buraxılışlarda nəşr edilmiş materiallar vardır. Heç bir yerə müraciət etmədən bu informasiyaları veb sayt vasitəsilə əldə edən təhsilalan əvvəlki nəşrlərə nəzər yetirərək yazacağı məqalə və tezislə bağlı müəyyən təsəvvürlərə sahib olur, məlumatlı olaraq yazmağa başlayır.

Tələbələrin təhsil həyatında ikili diplom, təqaüd və beynəlxalq mübadilə proqramlarının önəmli rolu vardır. Bəzi ali məktəblərdə beynəlxalq ikili diplom proqramları təklif edilir, tələbə bir deyil, iki universitetin diplomunu əldə etmək imkanına malik olur. Həmçinin Erasmus, Mevlana kimi beynəlxalq mübadilə proqramları da mövcuddur. Bu zaman proqramlarla bağlı internet saytında kifayət qədər təsvir olarsa, tələbə müvafiq şöbəyə müraciətlə vaxt itirmədən veb sayta daxil olaraq proqramın təşkili, müraciət, qəbul və s. haqqında ətraflı öyrənə bilər. Veb sayt bölmələri arasına bu istiqamətlərin əlavə edilməsi sayta daxil olan istifadəçilərdə xüsusi maraq oyadaraq ikili diplom, beynəlxalq mübadilə kimi proqramlara qoşulmaq üçün motivasiya yaradır. Bəzi internet resurslarında bu proqramlarda iştirak etmiş şəxslərin təcrübəsi də qeyd olunur. Bu isə təhsilalanın həmin proqramla bağlı

daha geniş təsəvvürünün yaranmasına səbəb olur, belə ki o, həmin proqrama qoşulduqdan sonra hansı təcrübə, bilik və bacarıqları əldə edə biləcəyi haqqında məlumatlı olmuş olur.

Bütün semestrlərdə - həm tədris prosesi, həm də elmi iş yazarkən müxtəlif ədəbiyyatlara müraciət edilir, fərqli kitabxanalardan istifadə edilir. Bu zaman universitetin internet saytında yaradılmış elektron kitabxana təhsilalanlara çox kömək edir. Onlar universitetin kitabxanasında mövcud, elektron versiyada olan kitabları bu veb sayt vasitəsi ilə telefon və ya kompüter üzərindən əldə edə bilirlər, bu isə təhsilalana öz təhsil proseslərini hər zaman və hər yerdə idarə etməsi deməkdir. Elektron kitabxana oxucuya müxtəlif mövzularda aktual məlumatlar əldə etmək imkanı verir. Kitabları rəqəmsallaşdırmaqla, ali məktəblər elektron kitabxanalar üzərindən bu resursların bütün dünyada tələbələr üçün əlçatan olmasını təmin edir Rəqəmsal resursların mütəmadi olaraq yenilənməsi ilə oxucular maraqlandıqları sahələr üzrə ən son araşdırma və inkişaflardan xəbərdar ola bilərlər.

Beləliklə, hər bir sahənin sürətlə elektronlaşdırıldığı dövrdə təhsil sahəsində də bu prosesinin tətbiqi zəruridir. Yuxarıda qeyd olunan material və məlumatların universitetin internet saytında verilməsi tədris prosesinin keyfiyyətinə təsir göstərərək, tələbələrin təhsil prosesində daha aktiv iştirak etmələrini təmin etməkdə əhəmiyyətli rol oynayır. Elektron platformaların istifadəsi tələbələrin zamanını daha effektiv şəkildə idarə etmələrini və müəyyən fəaliyyətlər üçün daha çox vaxt ayırmağa imkan verir. Bu cür bir tətbiq təhsil sahəsində effektivlik və keyfiyyəti artırmağa kömək edir.

## PEDAQOJİ İDARƏETMƏDƏ İNNOVASİYALARIN NÖVLƏRİ VƏ TƏTBİQİ İSTİQAMƏTLƏRİ

**İmanova Günel İman qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnnovasiya sözü ingiliscə, “innovation” sözündən götürülmüşdür. Mənası “yenilik” deməkdir. İnnovasiya pedaqoji prosesdə sistemin daxili ehtiyatları hesabına baş verir. İnnovasiya sözünün əvvəlindəki “in” hissəsinin mənası da daxili deməkdir. İnnovasiyalar istifadə sahələrinə görə müxtəlifdir. Bunlardan biri də pedaqoji innovasiyalardır. Pedaqoji innovasiya dedikdə, təlim, tərbiyə, təhsil prosesinin gedişini və nəticələrini yaxşılaşdırmaqdan ötrü pedaqoji prosesdə həyata keçirilən yenilik kimi başa düşülür. Pedaqoji innovasiyalarla təhsil innovasiyaları arasında fərq vardır. Bu fərq təhsil innovasiyalarının bütün təhsil infrastrukturu, daha çox təlim metodları və texniki vasitələrlə bağlı olmasındadır. Pedaqoji innovativ yeniliklər - yenilik gətirən bir cihaz və avadanlıq, elektron dərslik, informativ vasitə və buna oxşar digər formalarda, yəni daha səmərəli texnoloji yol, metodika və ya təhsil xidmətləri kimi bizə təqdim edilə bilər.

Pedaqoji innovasiyaların bir çox növləri vardır. Bu növlərə biz aşağıdakılar aid edə bilərik:

1. Belə ki, birinci növ pedaqoji innovasiyalarla daha səmərəli pedaqoji metodların istifadəsi ilə daha yaxşı təlim nəticələrinə nail ola bilərik. Əslində, bu pedaqoji innovasiya digər innovasiyalar üçün ümumi kriteriya rolunda çıxış edir.

2.İkinci növ pedaqoji innovasiyalara tələbələrin öyrənmə prosesi zamanı koqnitiv proseslərinə təsir imkanlarını genişləndirən və stimullaşdıran üsulları, bacarıqları, qabiliyyət və səriştəni inkişaf etdirməyi nəzərdə tutan metodları şamil edə bilərik.

3.Üçüncü növ pedaqoji innovasiyalara müəllimlərin təlimə münasibəti, müstəqil bacarıqları və məsuliyyətinin innovativ və qeyri-inzibati yollarla gücləndirilməsidir.

4.Dördüncü növ pedaqoji innovasiyalar tədris planları və proqramlarının tərtibində istifadə olunan qabaqcıl təcrübədən istifadə edilməsidir.

Bu pedaqoji innovasiyalar özünü üç istiqamətdə göstərir:

1) Tələbələrə yönəlmiş tədris işlərinin yeni metod və ya üsullarından istifadə etməklə onun təkmilləşməsinə təsir göstərən innovativ yeniliklər;

2) İnnovativ texnoloji qurğu və avadanlıqlarla tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edən yeniliklər;
3) Qabaqcıl innovativ təcrübəni təhsil proqramları və dərsliklərdə təks etdirən yeniliklər.
Təhsildə tətbiq olunan innovasiyaların aşağıdakı növləri vardır:
1. Təhsilin təşkilində və idarə olunması sahəsində olan innovasiyalar;
2. Sinif – dərs sistemində istifadə olunan yeni texnologiyalar;
3. Müəllimlərin işə qəbulu, hazırlanması sahəsində olan innovasiyalar.

Bu tip innovasiyalar həyata keçirilmə miqyasına görə endogen və ekzogen tiplərə bölünür. Endogen təhsil innovasiyaları – təhsil sisteminin bir və ya bir neçə sahəsi və onların müxtəlif aspektləri ilə: nəzəriyyə və praktika, kurrikulum, öyrənmə və öyrətmə və digər bu kimi sahələrlə əlaqədardır. Ekzogen təhsil innovasiyaları maraqlı tərəfləri, öyrənənləri, valideynləri, müəllimləri, təhsil inzibatçılarını, tədqiqatçılarını, təhsil siyasəti işçilərini əhatə edir.

Öyrənənlər dedikdə, tələbələrin öyrənmə prosesində üzləşdiyi koqnitiv və psixoloji xüsusiyyətləri, didaktik bacarıq və düşüncələri nəzərdə tutulur. Əqli proseslər həm də ekzogen sıraya aid edilir. Bunlara, eyni zamanda münasibətləri, öyrənmə üsullarını, davranışları, motivasiyaları, özünüqiymətləndirməni daxil etmək olar.

Göründüyü kimi, pedaqoji innovasiyalar heç də sadə yolla yaranan və təsir mexanizminə malik olan bir anlayış hesab edilmir.

Pedaqoji innovasiyaların növlərindən danışarkən, hər şeydən əvvəl, onun pedaqoji sahənin hansı fəaliyyət növünə aid olması nəzərə alınmalıdır. Pedaqoji fəaliyyətdə mövcud olan və gözlənilən innovasiyalar onların əsasən aşağıdakı sahələrdə tətbiqi ilə bağlıdır:
1. Təlim materiallarının, təhsil proqramlarının, dərsliklərin və digər biliklər sisteminin məzmun və forma (hər ikisi birlikdə və ya ayrıca) kəsb edən resurslarının, yenı məhsul və ya xidmətin meydana gəlməsi;
2. Xidmət sahəsində yeni, daha da təkmilləşdirilmiş və səmərəlilik baxımından daha üstün proseslərin, elektron fəaliyyət növünün təqdimatı;
3. Məktəbdaxili, məktəbdənkənar və sinifdənxaric işlərin yeni, daha səmərəli və asan yollarla, yeni texnologiyaların tətbiqi ilə qurulması metodları (məsələn, məktəb – valideyn, müəllim – valideyn məlumatlandırma siteminin tətbiqi, yeni texnologiyalarla məktəbdaxili nəzarətin bütöv və ya qismən bir hissəsinin həyata keçirilməsi, İKT vasitəsi ilə qarşılıqlı dərsdinləmələr, valideyn-məktəb arasında keçirilən virtual iclas və sessiyalar, konfrans rejimində mobil kommunikasiya vasitələrindən istifadə etməklə vacib məsələlərin həlli və s.);
4. İxtisaslara tətbiq olunan ödənişli xidmətləri məqsədyönlü şəkildə diferensiallaşdırmaqla və ya eyniləşdirməklə məqsədə çatmağı daha da təkmilləşdirmək.

## İNTELLEKTUAL YARADICILIQ VƏ ƏQLİ MÜLKİYYƏT MÜASİR DÖVRDƏ

**İmanzadə Aydan Qabil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Əqli mülkiyyət hər yerdə mövcuddur: telefonlar, oxuduğumuz kitablar, bədii əsərlər, dinlədiyimiz musiqilər, istifadə etdiyimiz mobil tətbiqlər və hətta yediyimiz yeməklərdə. Və beləcə məlum olur ki, əqli mülkiyyət müxtəlif formalarda özünü göstərə bilər və bunlara müvafiq olaraq onun növləri mövcuddur. Bura müəllif hüquqları, patentlər, əmtəə nişanları, kommersiya sirləri və s. aid edilə bilər.

Ümumilikdə "Əqli mülkiyyət nədir desək?", deyə bilərik ki, əqli mülkiyyət insan əqlinin, ideyasının fəaliyyətidir. Əqli mülkiyyət hüququ isə, müəllifin, ixtiraçının əsərini qoruyur, onu yaradıcılığa, inkişafa sövq edir. İnternet əsrinin və texnologiyanın sürətlə inkişaf etdiyi bu dövrdə əqli mülkiyyət hüququnun obyektlərini, ortaya qoyulmuş əməyin, yaradıcılığın nəticəsini mühafizə etmək daha çətindir. Müasir cəmiyyətlərdə, əqli mülkiyyətin inkişafı

mədəni inkişafın və müstəqil fikirlərin təşviqi üçün əhəmiyyətli bir vasitədir. Hüquq müdafiəsi altında olan inovativ fikirlər və məhsullar, yaradıcı insanları daha çox təşvik edir və texnologiya sahəsində böyük addımların atılmasına səbəb olur.

Əqli mülkiyyət hüququ, intellektual və yaradıcı fəaliyyətlərin nəticələrini qorumağa və sahibinə müstəqil fikirlərinin, məhsullarının və texnologiyalarının istifadə haqqını təmin etməyə həsr edilmiş bir hüquqi sahədir. Bu, tədqiqatın və yaradıcılığın inkişafını təşviq edir və sahibinə maddi və mənəvi haqq qazandırmağa kömək edir. Əqli mülkiyyət hüququn qorunması hüquqa və qanunvericiliyə əsaslanır. Qanunvericilikdə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respeblikasının qanunu mövcuddur. Bu qanunun məqsədi Azərbaycan Respublikası ərazisində elm, ədəbiyyat və incəsənət əsərlərinin (müəlliflik hüququ), habelə ifaların, fonoqramların, efir və ya kabel yayımı təşkilatlarının verilişlərinin (əlaqəli hüquqlar) yaradılması və istifadəsi ilə əlaqədar yaranan münasibətləri tənzimləməkdir. Əsərin yaradılması müəlliflik hüququnun yaradılmasında zəmin yaradır və bu hüquq müəyyən müddətlə məhdudlaşır. Belə ki, qanuna görə müəlliflik hüququnun qüvvədə olmağa müddəti müəlllifin bütün həyatı boyu və əlavə olaraq 70 ildir. Bu müddət Berlin konvensiyasına əsasən 50 ildir. Bu müddət bitəndən sonra isə əsər müəlliflik hüququn mühafizə obyekti olmaqdan çıxır və ictimai varidata çevrilir. Bu Qanunla nəzərdə tutulmuş müəlliflik hüququnun və əlaqəli hüquqların pozulmasına görə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun mülki, inzibati və cinayət məsuliyyəti nəzərdə tutulur.

Müəlliflik hüququ pozuntusu ilə plagiat anlayışları oxşar olduğu üçün bəzən qarışdırılır. Bəzən insanlar düşünür ki, əsərdə plagiat varsa deməli orda müəlliflik hüququ pozuntusu da var. Lakin heç də həmişə plagiat müəlliflik hüququ pozuntusu sayılmır. Nümunələrlə izah edək: Əgər biz müəllifin icazəsi olmadan onun əsərindən istifadə edib həmin əsəri öz adımıza çıxarırıqsa burada həm müəlliflik hüququ pozuntusu həm də plagiat var. İkinci nümunədə Nizaminin hər hansısa əsərinin bir hissəsini götürüb üzərində kiçik dəyişiklik edərək və ya dəyişiklik etmədən öz adımıza çıxarsaq, hardasa yayımlasaq, öz əqli fəaliyyətimizin nəticəsi olaraq təqdim etsək burada plagiat olsa da müəlliflik hüququ pozuntusu yoxdur. Çünki, Nizaminin əsərləri müəlliflik hüququnun qorunma müddtətini, yəni, müəllifin həyatı boyu və əlavə olaraq 70 ili keçdiyi üçün artıq müəlliflik hüququnun mühafizə obyekti deyil.

Sonda qeyd etmək olar ki, hər birimiz yaradıcı şəxslərin əsərlərinə hörmət etməli və hörmət əlaməti olaraq plagiata və müəlliflik hüququ pozuntusuna yol vermədən onların əsərlərindən istifadə etsək cəmiyyət, dövlət və yaradıcı şəxs üçün daha faydalı ola bilərik.

## İBTİDAİ SİNİF MÜƏLLİMİNİN İNNOVATİV PEDAQOJİ FƏALİYYƏTİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

**İmranlı Naibə Rəhim qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnkişaf edən cəmiyyət daim yeniliklərinbütün elm sahələrinə tətbiqini tələb edir. Təhsil sahəsi başlıca innovasiyaların həyata keçirildiyi istiqamətlərdəndir. Sözsüz ki, bu innovasiya prosesinin baş verməsi üçün yenilikçi fəaliyyət göstərən pedaqoji kadrlara ehtiyac yaranır. Cəmiyyətin tələb etdiyi yaradıcı düşünən,hər zaman inkişafa can atan şəxsləri müasir müəllimlər hazırlayır. Bu işdə isə əsas ibtidai sinif müəlliminin işini vurğulamaq lazımdır.

"Innovativ pedaqoji fəaliyyət mövcud olan təlim-tərbiyənin və təhsil prosesinin yenilənməsinə və təkmilləşdirilməsinə zəmin yaradır."

İbtidai siniflərdə yeniliklər kiçik yaşlı məktəblilərin tərbiyə və təhsilinin keyfiyyətinin yüksəldilməsinə yönəlib. Təşəkkülün müxtəlif dövrlərində bu yeni formasiyalar müxtəlif məqsəd, vəzifə, məzmun və təzahürlərə malikdir.

"Təhsildə innovasiyalar tədris və təlim praktikasının təkmilləşdirilməsində, eləcə də şagirdlərin və valideynlərin maraqlarının təmin olunmasında mühüm amildir."

Müasir müəllimlər qarşısında yeni tələblər qoyulur ki, bunlar arasında innovativ metod və texnologiyaların istifadəsi ,öz fəaliyyətlərində tətbiqidir. Müəllimlər ibtidai siniflərdə innovativ pedaqoji ideyaların həyata keçirilməsinin səmərəli yollarını seçməklə üzləşirlər, müəllimin peşəkar fəaliyyətinin mühüm xüsusiyyəti onun tədris fəaliyyətində daha geniş spektrli innovativ proseslərdə fəal iştirak etməsidir. Burada əsas məqam müəllimin səriştəsinin yüksək olması,düzgün yolu təyin etməkdir.

"Təhsil nəinki hərtərəfli və keyfiyyətli olmalı, həm də sürətlə dəyişən və qloballaşan dünyanın çağırışlarına cavab vermək üçün davamlı inkişaf etdirilməlidir. Bu təkamül sistemli, ardıcıl və geniş miqyaslı olmalıdır, şagirdlərin təhsilin əsas məqsədlərinin tələblərinə uyğun hazırlanmasını təmin etmək üçün təlim prosesində müsbət yeniliklərə nail olunmalıdır."

İnnovativ fəaliyyətləri həyata keçirərkən, bir çox ibtidai sinif müəllimləri, ilk növbədə, kiçik məktəblilərin yaş və fərdi xüsusiyyətləri ilə əlaqəli olan çətinliklərlə qarşılaşırlar.

İbtidai siniflərdə innovasiyanın inkişafında aşağıdakı sahələr vurğulanır:

- təhsilin fərdiləşdirilməsi və diferensiallaşdırılması məqsədilə yeni tipli məktəblərin yaradılması;
- estetik dövrün fənlərinə diqqət yetirmək, yeni təlim kurslarının yaradılması və tətbiqi, təhsilin məzmununun dəyişdirilməsi;
- ekoloji mədəniyyətin formalaşmasına böyük diqqət yetirmək;
- dərsliklərin, dərs vəsaitlərinin, proqramların hazırlanması;
- innovativ texnologiyaların, metodların tətbiqi: eksperimental saytların, siniflərin yaradılması, kompüterlərin tədris prosesinə tətbiqi.

Bununla belə, ibtidai sinif müəlliminin pedaqoji fəaliyyətində innovativ vektorun formalaşması praktikada çox vaxt fraqmentar şəkildə həyata keçirilir ki, bu da həm müəllimin, həm də şagirdlərin innovativ potensialının itirilməsinə səbəb olur. Buna görə də müəllimin diqqəti innovativ pedaqoji ideyaların məktəb praktikasında tətbiqi üçün effektiv mexanizmlərin tapılmasına yönəldilməlidir. Bu problem innovasiya prosesinin diaqnostikliyini, idarə oluna bilənliyini, ardıcıllığını, səmərəliliyini və effektivliyini təmin etmək üçün onun texnolojiləşdirilməsi nöqteyi-nəzərindən nəzərdən keçirilməlidir.

Bu problemi həll etmək üçün alimlər innovativ pedaqoji ideyaların məktəb praktikasına daxil edilməsi üçün model və alqoritmləri fəal şəkildə inkişaf etdirirlər (V.Bezpalko, İ.Volkov, V.Zaqvyazinski, O.Kobernik, L.Podimova, V.Monaxov, V.Yasvin).

Müasir həyat şəraiti məktəbin tədris prosesinə yeniliklərin daxil edilməsini diktə edir ki, bu da öz növbəsində peşəkar müəllimin ən vacib keyfiyyətidir, bunun sayəsində pedaqoqun yüksək pedaqoji məharətə nail olması mümkündür. İbtidai təhsilə innovasiyanın tətbiqi kiçik yaşlı məktəblilərin öyrənməyə həvəsini artırmağa, təhsil texnologiyalarını yeniləməyə, sözü təkmilləşdirməyə kömək edir.

Müasir təhsil sistemi öz dövrünün tələblərinə cavab verməlidir. Təhsil prosesinin inkişafı proqramının əsas məqsədi yüksək intellektli şagird hazırlamaqdır. Buna əsaslanaraq ibtidai sinif müəllimi hər bir şagirdə fərdi şəkildə tətbiq olunan psixoloji texnikaları mənimsəməlidir; tələbələrlə dərsdə və dərsdən kənarda ünsiyyət qura bilmək; yenilikləri öz peşə fəaliyyətlərində tətbiq etməyi bacarmalıdır.

İbtidai sinif müəllimlərinin innovativ fəaliyyəti kiçik yaşlı məktəblilərdə öyrənməyə marağın inkişafına, onların şəxsiyyətinin formalaşmasına və təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlib.

İbtidai sinif müəlliminin innovativ fəaliyyəti tədris prosesinə yeniliklərin daxil edilməsi ilə xarakterizə olunan çoxşaxəli hadisədir.

Müəllimim İnnovativ fəaliyyəti aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

1. ibtidai sinif müəllimi təhsil prosesində intellektual məhsul, yəni özü və şagirdlər üçün yeni bir şey yaradır və tətbiq edir;
2. əsas təhsil fəaliyyəti əlavə ilə birləşdirilməlidir;
3. kiçik yaşlı məktəblilər arasında öyrənməyə marağın artırılması.

Müəllimlərdən yeniliklərə açıq, komanda işinə meyilli və problem həll etmə bacarıqlarına malik olmaları gözlənilir.

"İnnovasiya təhsil sisteminin müxtəlif aspektlərində tərəqqiyə səbəb ola bilər: kurikulum islahatlarında, tədrisdə, texnologiyaların tətbiqində, idarəetmədə, müəllimin peşəkarlığının artırılmasında və təcrübənin yayılmasında.

İnnovativ Tədris Metodlarından istifadə edən müəllimlərin xüsusiyyətlərinə nəzər yetirək.

1.Etdiyi işi sevən müəllim əlindən gələni edər, şagirdlərini ruhlandırar, yaradıcılıq edər. Əks halda, bu işin arzuolunmayan bir nəticəsi ola bilər. Bu səbəbdən müəllimin gördüyü işi sevməsi ona yeni ideyaları sınamaq üçün özünə yer və imkanlar yaratmağa imkan verir. Müəllimin öz işini sevməsi motivasiyanın ən əsas mənbələrindən biridir.

2.Fərqli proqramlar və materiallardan istifadə etmək, dərslərdə audio və vizual materiallardan istifadə dərsi zənginləşdirir. Fərqli dərsliklərdən, maketlərdən, filmlərdən, videolardan, qrafikadan, slayd və təqdimatlardan və ya təxəyyülün gücləndirilməsini dəstəkləyən zehin xəritəsinin istifadəsi dərslərin zənginləşməsinə əhəmiyyətli töhfə verir. Çünki bu üsullar dərsləri daha maraqlı edir, şagirdlərin dinləmə və iştirakını artırır, onların başa düşülməsini asanlaşdırır.

3.Davamlı Öyrənməyə və İnkişafa Açıq Olmaq Yenilikçi müəllimlər öz peşələrində özlərini yenidən kəşf etmək üçün daxili motivasiyaya malikdirlər. Onlar tədqiqat aparmağa və yaradıcılığı təkmilləşdirmək üçün müxtəlif mənbələrdən kömək almağa hazır və həyəcanlıdırlar. Yaradıcı və ruhlandırıcı müəllim olmaq kreativ ideyalar və üsullar üzərində daimi araşdırma, yeniliklərlə ayaqlaşmaq və onları dərsdə tətbiq etmək tələb edir. Mövzu ilə bağlı araşdırmaları araşdırmaq, onlardan yaxşı nümunələr seçmək, digər müəllimlərlə bölüşmək, müzakirə etmək, təcrübə mübadiləsi aparmaq da peşəkar inkişafa töhfə verəcək.

4.Müəllimlərin İnnovativ Tədris Məkanları Yaratması Yolları Şagirdlərin dərslərdə iştirakını artırmaq üçün müxtəlif materiallardan və metodlardan istifadə etməklə müəllimlərin zənginləşdirilmiş təlim mühiti yaratması getdikcə daha çox əhəmiyyət kəsb edir. Çünki ənənəvi yazı lövhələri və hətta ağıllı lövhələrlə tanış olan dərs üsullarından istifadə fənləri öyrətmək üçün kifayət etmir. Tədrisin keyfiyyətinin yüksəldilməsi üçün tədris prosesində innovativ ideyalardan, daha səmərəli metodlardan istifadə edilməlidir.

Tədris üslubu seçərkən, yeni ideyaları qəbul etməyə inandırmaq ibtidai sinif müəllimlərinin onun biliklərindən daha çox təsiri var. Bu baxımdan ibtidai sinif müəllimi daim özünütəhsillə məşğul olmalı, öz imkanlarının hüdudlarını genişləndirməlidir. İbtidai sinif müəllimi zamanla ayaqlaşmalıdır. O, dərsdə yeni tədris formalarını, metod və texnologiyalarını tətbiq etməyi bacarmalıdır. İbtidai məktəbdə şagirdin inkişafı bir çox amillərdən, o cümlədən təhsilin aydınlığı və qavranılmasının asanlığından asılıdır

Müəllimin innovativ fəaliyyətinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün zəruri şərt innovativ qərarlar qəbul etmək, müəyyən risklər götürmək, innovasiyaların tətbiqi zamanı yaranan münaqişəli vəziyyətləri uğurla həll etmək, innovasiya maneələrini aradan qaldırmaq bacarığıdır.

Yenilikçi müəllim tərəfindən innovativ pedaqoji ideyaların məktəb təcrübəsinə tətbiqinin müxtəlif variantlarından istifadə edilməsi yeni təlim proseslərinin kəşfinə gətirib çıxarır.

Cədvəl 1. *Yenilikçi müəllimin xüsusiyyətləri*

| | |
|---|---|
| Tələbənin maraq və ehtiyaclarına diqqət yetirmək, bilik tətbiq etməkdən və öyrənməyə rəhbərlik edəndir | Müəllimin məqsədi təkcə şagirdi formalaşdırmaq deyil, həm də təhsilin davamlılığına əsaslanaraq şəxsiyyəti və cəmiyyəti bir araya gətirməkdir |

| | |
|---|---|
| Qrup işində fasilitator rolunu alır | Müəllim özünü bir çox insanın hələ qəbul etməyə hazır olmadığı ictimai fəal kimi qələmə verir |
| Müəllim təşkilat, proqramın qiymətləndirilməsi, münaqişələrin idarə edilməsi , hətta strateji planlaşdırma və buna bənzər sahələrdə biliyə malik olmalıdır | O, bəşəriyyət üçün daha yaxşı bir dünya prinsipinə əməl edir və mühüm problemlərə həssaslıqla yanaşır |

"Təhsil sahəsində innovasiyaların tətbiqi şagirdlərdə qabiliyyət, bacarıq və səriştələrin inkişaf etdirilməsinə, müəllimlərdə isə öyrətmək tərzi, motivasiya yaratmaq, bacarıqlar formalaşdırmaq, özünüqiymətləndirmə, yaradıcılıq, müstəqillik kimi keyfiyyətləri özündə ehtiva edən peşəkar inkişafı gücləndirmək səriştələrinin artırılmasına xidmət edir."

Beləliklə deyə bilərik ki, təhsildə yeniləşmə əsas olaraq müəllimin,sinif rəhbərinin immovatov pedaqoji fəaliyyətindən,özünü daim təkmilləşdirib inkişaf etdirməsindən, yeniliklərə maraq göstərməsində birbaşa asılıdır. Bunun üçün istər respublikamızın ərazisində olan qurum,təşkilatlar,istərsə də ümumtəhsil müəssisələrin rəhbləri pedaqoqların səriştəliyinin yüksəldilməsi üçün lazımi tədbirləri həyata keçirir,dövlət büdcəsindən müəyyən vəsait ayrılır,müəllimlərə dəstək göstərilir.

Ədəbiyyat

1. https://as-journal.edu.az/umumtƏhsil-mƏktƏblƏrindƏ-innovasiyalarin-tƏtbiqinin-ƏhƏmiyyƏti
2. İranə Məmmədova. İbtidai sinif müəllimi hazırlığında pedaqoji innovasiyadan istifadə üzrə işin sistemi, Bakı,2022.
3. İsmət Məmmədova, Müasir müəllimin innovativ pedaqoji fəaliyyətinin məzmunu və xüsusiyyətləri,Bakı,2018.
4. Беловицкая Светлана Ивановна. Инновационная деятельность учителя начальных классов как условие профессионального роста, Российская Федерация,2016.
5. Милованова, Л. А. Инновационная деятельность учителя начальных классов, Российская Федерация,2018.
6. Чванова Лариса Анатольевна. Инновационная деятельность учителя начальных классов, Российская Федерация, 2020.

## XÜLASƏ

Məqalədə ibtidai təhsillə əlaqədar innovasiyalar, ibtidai sinif müəlliminin yenilikçi fəaliyyətinin təşkili xüsusiyyətləri, innovativ müəllimlərin hazırlanması məsələləri öz əksini tapmışdır. Təhsil müəssisələrində innovasiya prosesinin icrasında pedaqoqun işinin əhəmiyyəti bu tədqiqat işində ətraflı şərh olunmuşdur. Yenilikçi müəllim pedaqoji fəaliyyətin müsbət keyfiyyət göstəricilərinə malik olması üçün yeni qərarlaf qəbul etməli, risklər götürərək yaranmış problemli vəziyyəti müvəffəqiyyətlə həll etməyi, çətinlikləri aradan qaldırmağı bacarmalıdır. İnnovativ pedaqoji kollektivin hazırlanmasında müxtəlif yanaşmalar mövcuddur. Müəllimlər innovativ təlim prosesi ilə necə məşğul olduqlarını müşahidə etməyi və təcrübələri müzakirə etməyə təşviq edilməlidir.

***Açar sözlər:*** *innovasiyalar, yenilikçi müəllim, ibtidai sinif, müəllimin innovativ fəaliyyəti*

## РЕЗЮМЕ

В статье отражены новации, связанные с начальным образованием, организационные особенности инновационной деятельности учителя начальных классов, подготовка учителей-новаторов. В данном исследовании подробно раскрыта

важность работы педагога в реализации инновационного процесса в образовательных учреждениях. Чтобы педагогическая деятельность имела положительные показатели качества, педагогу-новатору следует предпринимать новые меры, идти на риск и успешно решать проблемную ситуацию, устранять трудности. Существуют разные подходы к подготовке инновационных педагогических кадров. Учителей следует поощрять наблюдать за тем, как они участвуют в инновационном процессе обучения, и обсуждать свой опыт.

***Ключевые слова:*** *инновации, учитель-новатор, начальная школа, инновационная деятельность учител*

**SUMMARY**

In the article, the innovations related to primary education, the features of the organization of the innovative activity of the primary school teacher, and the issues of training innovative teachers are reflected. The importance of the work of the educator in the implementation of the innovation process in educational institutions is explained in detail in this research work. In order for the pedagogical activity to have positive quality indicators, the innovative teacher must make a new decision, take risks and be able to successfully solve the problematic situation and overcome the difficulties. There are different approaches to training innovative pedagogical staff. Teachers should be encouraged to observe and discuss experiences as they engage in innovative learning processes.

***Keywords:*** *innovations, innovative teacher, elementary school, innovative activity of the teacher*

## TƏHSİLDƏ İNNOVASİYALARIN TƏTBİQİNDƏKİ MANEƏLƏR

**İmranlı Naibə Rəhim qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Əsrimizin diqqət mərkəzində olan məsələlərindən biri də innovasiyalardır. Dəyişiklik, yeniləşmə cəmiyyətin bütün sahələrinə inteqrasiya və təsir edərək onların inkişafına, sürətlə irəliləməsinə imkan verir. Əlbəttə ki, yeniliklərin bu təsiri təhsil sahəsində də öz əksini tapmışdır. Daim dəyişib inkişaf etməkdə olan cəmiyyət təhsildən bu innovasiyaların yaradılmasını, tətbiqini tələb edir. Sözsüz ki, bütün innovasiyaları yenilik hesab etmək düzgün deyildir. İnnovasiyalar faktiki zaman, mühit üçün yararlı olan, illər keçdikcə öz əhəmiyyətini itirə və ya saxlaya bilər.

Bütün bunlar təhsilin pillələrində,təhsil müəssisələrində, təlim prosesində reallaşdırılır. Müasir cəmiyyətin tələbi ilə təhsil sahəsində yeni ideologiya, mühit yarandı. Bu ideologiya köhnə cəmiyyətin əksinə produktiv fəaliyyətin tətbiqini təmin edir. Yenilikçi, yaradıcı düşünən şəxslərin yetişdirilməsi başlıca fikir hesab olunur. Artıq "öyrənməyi öyrətmək" bacarığı kiçik yaşlardan uşaqlara təqdim olunur. Dövrün istəyi universal biliyə malik üzvlərdən ibarət cəmiyyətin mövcudluğudur.

Bütün bu fikirlər köhnə yanaşmaları sıradan çıxardaraq yeniləri ilə əvəzlənməsinə gətirib çıxartdı. Bu gün respublikamızın təhsil müəssisələrində innovativ təlim prosesi təşkil olunur. Bu prosesin həyata keçirilməsi üçün dövlət bir sıra tədbirlər görür: yeni tipli müəssisələr yaradılır, təhsil müəssisələri texniki avadanlıqlarla təmin olunur, yenilikçi pedaqoji kadrlar hazırlanır, müəllimlərin özünü, peşə biliklərini təkmilləşdirilməsi üçün tədbirlər görülür.

Bəs innovasiya bütün müəssisələrdə rahatlıqla hamı tərəfindən tətbiq oluna bilirmi? İnnovasiyaların tətbiqinin nəticələri səmərəlidirmi? Bütün suallar "İnnovasiyaların təhsildə tətbiqindəki çatışmazlıq və maneələr nədir?" sualını doğurur.

Məlumdur ki, maneələr bir sıra səbəblərdən yarana bilər: dəyişikliklərə verilən reaksiyalar; yeniliklərə məruz qalan şəxslərin xarakterindən təzahür edən reaksiyalar; dəyişikliklərin məzmunu, forması və s. Təhsil sahəsində bu prosesin iştirakçılarının

innovasiyalara verdiyi reaksiyalar müxtəlif olur. Bir qisim şəxslər innovasiyaların tətbiqinin ideyasını dəqiq dərk edir, digər qisim alışmış olduqları ənənəvi sistemi müdafiə edərək dəyişikliklərə müqavimət göstərir, onlardan öz fəaliyyətlərində istifadə də yayınırlar.

Pedaqoji ədəbiyyatlarda innovasiyalarla bağlı çatışmazlıqlar bu cür təsnif edilir:

- Şəxsi və psixoloji səbəblər

İnsanların öz fəaliyyətində alışdıqları işlərin,üsulların dəyişməsi onlarda yeni yaradılan iş və üsullara qarşı müqavimət formalaşdırır. İnsanlarda güvənsizlik hissi, biganəlik, qeyri-müəyyənlik qorxusu, vərdişlər onların şəxsi-psixoloji cəhətlərindən asılı olaraq təzahür edir.

- İqtisadi səbəblər

Hər il innovasiyaların tətbiqi üçün dövlət büdcəsindən kifayət qədər vəsait ayrılır. İnkişaf etmiş ölkələrdə iqtisadi, maliyyə cəhətdən güclü olduqları üçün onlar innovasiyaları asanlıqla tətbiq edirlər. İnkişaf etməmiş ölkələrdə isə bu hal əksi olduğuna görə proses yarım həyata keçirilir və ya ümumiyyətlə təşkil olunmur.

Respublikamızda hər il təhsil üzrə büdcədən vəsait ayrılır ki bu da təhsildə innovasiyaların tətbiqinə geniş imkan verir

- Sosial səbəblər

Sosial səbəblərin təsiri tək bir şəxs üzərində deyil ictimaiyyətin bütün iştirakçılarının sosial münasibətlərində təzahür edir.

- Texniki səbəblər

Texniki səbəblər isə başlıca maneədir. İnnovasiyaların tətbiqi üçün texniki avadanlıqların, resursların çatışmazlığı, pedaqoji kadrların müəyyən nümayəndələrinin bu aspektdən bilik və bacarıqlarının kifayət qədər olmaması, ucqar ərazilərdə internetdə çıxışın çətinliyi texniki səbəblərə nümunədir.

Sadalanan maneələr müəyyən olunaraq onların aradan qaldırılması üzrə işlər aparılır.

Ədəbiyyat

1. Fahri K. Eğitim kalitesine etki eden faktörler ve kaliteli eğitimin üretime katkısı.
2. Kamil Arif K. Yenilikçi Okullarda Öğrenme ve Öğretim, İstanbul, 2022.
3. Nil Gülende T. İlköğretim okullarında görev yapan öğretmenlerin örgütsel değişime ilişkin görüşleri, Aydın, 2012.

## UNİVERSİTETLƏRDƏ TƏDRİSİN KEYFİYYƏTİNİN QİYMƏTLƏNMƏSİ ÜÇÜN PRİNSİPLƏR, FUNKSİYALAR VƏ VASİTƏLƏR

***İmranova Sanay Elman qızı***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir cəmiyyətdə baş verən qloballaşma təhsil sisteminin bütün səviyyələrinə təsir göstərmişdir. Bu gün abituriyentlər ali təhsil müəssisəsini bir çox meyarlara görə qiymətləndirərək təhsil alacaqları ölkə, şəhər və konkret universiteti seçə bilirlər. Bu "abituriyentlər yarışında" universitetlər öz qarşılarına abituriyentlər üçün rəqabətli və cəlbedici olmaq vəzifəsini qoyurlar.

Boloniya prosesi vasitəsilə vahid Avropa ali təhsil məkanının yaradılması təkcə Azərbaycan təhsil sisteminin yenidən qurulmasını deyil, həm də peşəkar yönümlü təhsil çərçivəsində mütəxəssislərin hazırlanmasının keyfiyyətinə diqqəti artırdı. Ali peşə təhsili standartları universitetlərin qarşısında tələbəyə təkcə fənn üzrə bilik verməyi deyil, həm də sosial-şəxsi, ümumi elmi, və peşə səriştələrini inkişaf etdirməyi, şəxsi peşə sahəsində özünü həyata keçirməyə hazırlamaq məqsədini qoyur.

Mövcud qiymətləndirmə sistemlərində şagirdin öyrənmə nəticəsini standartlar və normalarla əlaqələndirərkən əks etdirən nəzarət funksiyası ön plana çəkilir. Bu yanaşmanın əsas çatışmazlığı ondan ibarətdir ki, yalnız təhsil fəaliyyətinin nəticəsi qiymətləndirilir,

prosesin özü deyil. Ali peşə məktəblərində istər ümumi, istərsə də ayrı-ayrı fənlər üzrə qiymətləndirmə sistemi prioritet sahələrin tənzimlənməsini və yenidən nəzərdən keçirilməsini tələb edir. Bu sistemin əsasını şagirdlərin təhsil fəaliyyətinin göstəricilərinin keyfiyyət və kəmiyyət baxımından ölçülməsi meyarları, yanaşmaları və prinsipləri təşkil etməlidir. Bununla əlaqədar olaraq, qiymətləndirmə funksiyaları genişlənir və monitorinqlə yanaşı, proqnostik və diaqnostik funksiyaları da əhatə edir. Proqnostik və diaqnostik funksiyaları həyata keçirərkən tələbə tədqiqatlarının nəticələrini müstəqil təhlil edə və sonradan təhsil istiqamətini və inkişaf vektorunu seçə biləcəkdir.

Beləliklə, mütəxəssislər öz tədqiqatında tələbələrin təhsil fəaliyyətinin qiymətləndirilməsi üçün təşkilati və pedaqoji şərtlərin yeni aspektlərini təsvir edir ki, bu da bütövlükdə universitetdə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edə bilər.

Bu gün ali təhsildə qiymətləndirmə sistemində yaranan problemlər alimlərin marağına səbəb olur və təşkilati-pedaqoji şəraitin dəyişdirilməsini, eləcə də yeni qiymətləndirmə texnologiyalarının tətbiqini tələb edir. Deməli diqqət əsasən qiymətləndirmənin prinsip və funksiyalarının təsvirinə yönəldilməlidir ki, bu da sistemin daha səmərəli olmasına imkan verəcək yeni meyarların işlənib hazırlanması əsasında təhsilin keyfiyyətinə nəzarətin bütün sistemində dəyişiklikləri nəzərdə tutur.

Biliyin qiymətləndirilməsi sahəsində müəllimin fəaliyyəti köhnə fəlsəfəyə yenidən baxılmasını tələb edir və yeni tendensiyaları diktə edir:

–keyfiyyətli qiymətləndirmələrin payının artırılması və əhəmiyyətinin artırılması;

- tələbələrin şəxsi nailiyyətlərinə diqqət yetirmək;

– tələbələri təhsil fəaliyyətinin nəticələrini özünü qiymətləndirməyə öyrətmək;

Ali təhsildə qiymətləndirmə sistemi strukturu dəyişdirilərkən innovativ prinsiplər üzərində qurulmalıdır. Belə ki, tələbələrin təhsil fəaliyyətinin qiymətləndirilməsi aşağıdakı prinsipləri əhatə edir:

– planlaşdırma prinsipi: qiymətləndirmə prosesi kortəbii şəkildə deyil, konkret plan üzrə baş verməlidir;

- ardıcıllıq və sistemlilik prinsipi: fənlərin iş proqramlarının komponentləri tələbələrin təhsil fəaliyyətinin nəticələrinin təhlili və qiymətləndirilməsi ilə əlaqələndirilməlidir;

– obyektivlik prinsipi: qiymətləndirmə sistemi humanizm və demokratiya prinsiplərinə əsaslanmalıdır, yəni qiymətləndirmə əsaslandırılmalı və müəllimin şəxsi üstünlüklərindən asılı olmamalıdır;

– açıqlıq və şəffaflıq prinsipi: tələbələr həm öz qiymətlərini, həm də qrup yoldaşlarının qiymətlərini bilməlidirlər ki, bu da onlara öz nailiyyətlərini təhlil etməyə imkan verəcək və gələcək uğurlu iş üçün stimul olacaq;

– mövzuya sadiqlik prinsipi: tələbələrin biliyinin qiymətləndirilməsi öyrənilən mövzu ilə əlaqələndirilməli və vaxtında başa çatdırılmalıdır;

– tələbələrin fərdi imkanlarının nəzərə alınması prinsipi: tələbələrin qiymətləndirilməsinə fərdi yanaşma hər bir tələbənin səviyyəsini müəyyənləşdirəcək, həmçinin müəllimin işini tənqidi təhlil etmək imkanı verəcək;

Bu prinsiplər həmçinin aşağıdakı kimi qiymətləndirmə meyarları ilə əlaqələndirilməlidir:

– qiymətləndirmə etibarlı olmalıdır, yəni nəticə açıq və aydın şəkildə müəyyən edilməlidir. Fənnin tədrisi metodu akademik intizamın inkişafı zamanı qarşıya qoyulan vəzifələrlə əlaqələndirilməlidir;

– qiymətləndirmə proseduru aydın və dəqiq olmalıdır;

– apellyasiya və təkrar qiymətləndirmə mexanizmi olmalıdır, bununla bağlı aydınlaşdırılmalıdır ki, qiymətləndirmə şəffaf və tələbələr üçün başa düşülməlidir;

– qiymətləndirmənin etibarlılığı onun sabitliyidir ki, bu da öz növbəsində oxşar şəraitdə oxşar materialda təsdiqlənir. Aydınlaşdırmaq lazımdır ki, qiymətləndirmə prosesində əsas fiqur kimi müəllimlə əlaqəli qiymətləndirmənin etibarlılığı üçün müəyyən şərtlər var:

– səriştə tələb olunur, yəni müəllim öz fənn sahəsi üzrə bilikli olmaqla yanaşı, pedaqoji ölçülərin xüsusiyyətlərinə də bələd olmalıdır;

- vaxt dövrlərini və nəzarət şərtlərini, eyni tipli tapşırıqlar üçün eyni vaxt meyarlarını, habelə eyni nəzarət üsullarını birləşdirmək lazımdır;

– nəticələrin qeydi həmişə sistemləşdirilməlidir.

Qiymətləndirmə sistemi qurmaq üçün biz qiymətləndirmə funksiyaları haqqında da qərar verməliyik. Universitet tələbələrinin qiymətləndirilməsi təkcə öyrənmə deyil, həm də tədris-metodiki aspektlərə təsir göstərir.

Qiymətləndirmə vasitəsilə təlimin keyfiyyətini artırmaq üçün inkişaf funksiyası daha ətraflı nəzərdən keçirilməlidir, çünki bu, öyrənmənin müxtəlif problemli aspektlərinin diaqnostikasını nəzərdə tutur. Bu gün İKT-nin tədris prosesinə cəlb edilməsi ilə tələbə nəinki real vaxt rejimində öz nailiyyətləri haqqında məlumat əldə etmək imkanı əldə edir, həm də fənn üzrə nəticələrini təkmilləşdirmək üçün vasitələr əldə edir. Həmçinin, yeni informasiya texnologiyalarının tətbiqi ilə qiymətləndirmənin aparılması da öz aktuallığını qazanıb. Tələbə problemlər haqqında məlumatlara malikdir və onları vaxtında həll edə bilir.

Qiymətləndirmə təlim prosesinin əsas və sistem formalaşdıran elementlərindən biridir. Universitetdə qiymətləndirmə sisteminin düzgün qurulması və səmərəli istifadəsi üçün həm bütün fənlər, həm də onun ayrı-ayrı mövzuları üzrə biliyin qiymətləndirilməsi meyarlarını, prinsiplərini və funksiyalarını dəqiq müəyyən etmək lazımdır. Metodlar, üsullar və qiymətləndirmə vasitələri fondunun məzmunu təkcə nəzarətedici deyil, həm də təlim və tərbiyəvi xarakter daşımalıdır.

## HUMANİST YANAŞMA PEDAQOJİ KADR HAZIRLIĞININ MÜHÜM ŞƏRTİ KİMİ

**İsmayılova Püstə Nazim qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müəllim hazırlığına humanist yanaşma müasir təhsilin mühüm aspektidir. Bu, onun fərdi xüsusiyyətlərini və ehtiyaclarını nəzərə alaraq, tələbə şəxsiyyətinin inkişafına diqqət yetirməyi, habelə onun özünü həyata keçirməsi və öz müqəddəratını təyin etməsi üçün şərait yaratmağı nəzərdə tutur.

Azərbaycan pedaqoq-alimlərinin fikrincə, humanist yanaşma hər bir tələbənin dəyərlərinə və ehtiyaclarına diqqət yetirməyi tələb edir. Pedaqoji fikir tarixində və praktik pedaqoji fəaliyyət təcrübəsində humanist pedaqogikanın nəzəri və praktik cəhətdən əsaslandırılması üzrə bir sıra pedaqoqlar Y.A.Komenski, İ.H.Pestalossi, K.D.Uşinski, Y.Korçak, V.A.Suxomlinski, psixoloqlardan A.Maslou, K.Rocers, Ş.A.Amonaşvili, Azərbaycan alimləri Ə.Ə.Əlizadə və Y.R.Talıbov xeyli işlər görülmüşlər. Bununla yanaşı, nəzəriyyədən praktikaya keçiddə hələ də bir çox problemlər qaldığından bu sahədə görüləcək işlərə xeyli ehtiyac vardır. Bu, müəllimlə şagird arasında onun rəyini və qərarların qəbulunda iştirakını nəzərə alaraq, müstəqillik və təşəbbüskarlığı təşviq edən etibarlı münasibətin yaradılmasını nəzərdə tutur.

Pedaqoji kadrların hazırlanmasında gələcək müəllimin şəxsiyyətinin inkişafına yönəlmiş uyğun metod və yanaşmalardan istifadə edilməsində humanist yanaşma özünü göstərir. Bu, düşünmə, özünü təhlil etmə, öz duyğuları ilə işləmək və digər insanlarla münasibətləri əhatə edə bilər [1,s. 39].

Pedaqoji kadrların hazırlanmasına humanist yanaşma aşağıdakılara kömək edir:

- Müəllimin emosional və sosial səriştəsinin inkişafı.
- Empatiya və hər bir tələbənin ehtiyaclarını və xüsusiyyətlərini anlamaq bacarığının formalaşdırılması.

- Əlverişli və dəstəkləyici təhsil mühitinin yaradılması.
- Gələcək müəllimlərdə özünü əks etdirmə və özünü təhlil etmə bacarıqlarının inkişafı.
- Humanist yanaşmada istifadə olunan metodların nümunələri:
- Tələbələrlə fərdi söhbətlər və məsləhətləşmələr.
- Ünsiyyət bacarıqlarını və əməkdaşlığı inkişaf etdirməyə yönəlmiş qrup işi.
- Tələbələrə mövzu və iş formalarını müstəqil seçmək imkanı verən layihə fəaliyyətləri.
- Emosiyalar və emosional zəka ilə işləmək.

Pedaqoji kadrların hazırlanmasına humanist yanaşma aktual və səmərəlidir, çünki o, hər bir tələbənin fərdi ehtiyaclarını və xüsusiyyətlərini nəzərə alır, onların şəxsiyyətinin inkişafına və müəllimin tam hüquqlu şəxsiyyətinin formalaşmasına kömək edir [2,s. 41].

Müəllimlərin peşəkar səriştələrinin formalaşmasında humanizm mühüm rol oynayır. Bu, müəllim və tələbələr arasında qarşılıqlı hörmət, anlaşma və dəstəyə əsaslanan ahəngdar münasibətlərin qurulmasını nəzərdə tutur. Təhsilə humanist yanaşma hər bir şagirdin unikallığını tanıyır və onların inkişafı və rifahını təhsil prosesinin mərkəzinə qoyur.

Müəllimlərin peşə səriştələrinin formalaşmasında humanizmin roluna aşağıdakı aspektlər daxildir:

Emosional və psixoloji atmosferin yaradılması. Humanist yanaşma müəllimlərə tələbələrlə etibarlı münasibətlər yaratmağa kömək edir ki, bu da onların emosional rifahına və inkişafına kömək edir. Humanist prinsiplərə əsaslanan müəllimlər hər bir şagirdə anlayış, empatiya və dəstək nümayiş etdirirlər.

Təhsilin fərdiləşdirilməsi. Humanist yanaşma hər bir şagirdin fərdi ehtiyaclarını, maraqlarını və qabiliyyətlərini nəzərə almağı nəzərdə tutur. Müəllimlər humanist metodlardan istifadə edərək, tədris prosesini hər bir şagirdin xüsusiyyətlərinə uyğunlaşdırmağa çalışırlar ki, bu da səmərəli öyrənməyə və peşəkar səriştələrin inkişafına kömək edir.

Sosial bacarıqların inkişafı. Humanist yanaşma tələbələrin ünsiyyət, əməkdaşlıq, empatiya və konstruktiv münaqişələrin həlli kimi sosial bacarıqlarının inkişafını vurğulayır. Müəllimlər humanist metodlardan istifadə edərək şagirdlərin peşəkar səriştələrinin mühüm tərkib hissəsi olan bu bacarıqların inkişafına kömək edirlər.

Özünü inkişafın stimullaşdırılması. Humanist yanaşma tələbələrin özünüinkişafının stimullaşdırılmasını əhatə edir. Müəllimlər humanist prinsiplərə əsaslanaraq şagirdlərə öz güclü tərəflərini tanımağa, istedadlarını inkişaf etdirməyə və müstəqil öyrənməyə kömək edir. Bu, özünü təşkil etmə, özünə nəzarət və özünə hörmət kimi peşəkar bacarıqların formalaşmasına kömək edir.

Yaradıcılıq üçün şəraitin yaradılması. Humanist yanaşma tələbələrin yaradıcılıq fəaliyyətini ifadə etməsinə imkan verən şəraitin yaradılmasına kömək edir. Müəllimlər humanist metodlardan istifadə edərək şagirdləri özünü ifadə etməyə, təşəbbüs göstərməyə və yeni həll yolları axtarmağa həvəsləndirir ki, bu da onların yaradıcılıq səriştələrinin inkişafına töhfə verir.

Humanizm müəllimlərin peşəkar səriştələrinin formalaşmasında mühüm rol oynayır, belə ki, o, əlverişli təhsil mühitinin yaradılmasına, təhsilin fərdiləşdirilməsinə, sosial bacarıqların inkişafına, şagirdlərin özünüinkişafının stimullaşdırılmasına və yaradıcılıq qabiliyyətlərinin inkişafına kömək edir.

Qeyd etmək lazımdır ki, pedaqoji kadr hazırlığında humanist yanaşma müəyyən texnologiyaların həyata keşirilməsini nəzərdə tutur. Pedaqoji kadrların hazırlanmasında humanist yanaşma texnologiyası bir neçə əsas aspektləri əhatə edir:

Şagird şəxsiyyətinin inkişafına diqqət yetirilməsi. Təhsilə humanist yanaşma şagirdin şəxsiyyətini, potensialını və öz müqəddəratını təyinetmə qabiliyyətini inkişaf etdirmək

məqsədi daşıyır. Bu o deməkdir ki, pedaqoji kadrların hazırlanması prosesində tələbələrin peşəkar və şəxsi keyfiyyətlərinin inkişafına, onların özünüdərkinə və özünüdərkinə diqqət yetirilir.

Dəstəkləyici və emosional təhsil mühitinin yaradılması. Humanist yanaşma şagirdin inkişafına və özünü təsdiq etməsinə kömək edən təhsil mühitinin yaradılmasını nəzərdə tutur. Buraya müəllimlər və tələbələr arasında inamın yaradılması, onların emosional rifahının dəstəklənməsi və fərdi ehtiyaclarının nəzərə alınması daxildir.

Fəal və müstəqil öyrənməyə diqqət yetirin. Müəllim hazırlığına humanist yanaşma tələbələrin fəal və müstəqil öyrənməsinə xüsusi diqqət yetirir. Bu o deməkdir ki, tələbələr təlim prosesində fəal iştirak edir, məqsəd və vəzifələrini formalaşdırır, məlumatları müstəqil şəkildə araşdırır və təhlil edir, qərarlar qəbul edir və öz hərəkətləri üzərində düşünür.

Hər bir şagirdə fərdi yanaşma. Təhsilə humanist yanaşma hər bir şagirdə onun fərdi xüsusiyyətlərini, ehtiyaclarını və maraqlarını nəzərə alaraq fərdi yanaşmanı nəzərdə tutur. Bu o deməkdir ki, müəllimlər pedaqoji kadrların hazırlanması prosesində şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alır, onların inkişafına şərait yaradır və təlim prosesində onlara dəstək olurlar.

Təhsilə dəyər münasibətin formalaşdırılması. Pedaqoji kadrların hazırlanmasına humanist yanaşma həm də şagirdlərdə təhsilə və müəllim peşəsinə dəyərli münasibətin formalaşmasına yönəlib. Bu o deməkdir ki, tələbələr təhsilin əhəmiyyətini, onun cəmiyyətin və fərdin inkişafındakı rolunu dərk edir, peşəkar dəyərləri və etik prinsipləri inkişaf etdirirlər [3,s.45].

Pedaqoji kadrların hazırlanmasında humanist yanaşma texnologiyası hər bir tələbənin dəyər və ləyaqətinə, onun ehtiyaclarına və özünü reallaşdırmağa yönəlmiş humanizm prinsiplərinə əsaslanır. Bu yanaşma müxtəlif tələbələrlə işləməyə və müsbət öyrənmə mühiti yaratmağa hazır olan səriştəli və emosional cəhətdən yetkin müəllimlərin inkişafına kömək edir.

Humanizm pedaqoji prosesin və pedaqogika elminin məramını, mahiyyətini və məzmununu birləşdirən və özündə əks etdirən bir prinsipdir.

Ədəbiyyat

1.İlyasov M.Pedaqoji prosesdə müəllim fəaliyyətinin texnoloji istiqamətləri // Azərbaycan məktəbi, 2023,№2,s.31-43

2.Rüstəmov F. Humanist pedaqogika,yoxsa pedaqogikada humanizm?// Azərbaycan məktəbi, 2017,№5,s.35-48

3. Гуманная педагогика: реком. спи-сок для педагогов, студентов и родителей/ сост. Е. А. Спицына, Я. Б. Коломенская.– Киров, 2006. 130 с.

## XÜLASƏ

Məqalədə əsaslandırılır ki, pedaqoji kadrların hazırlanmasına humanist yanaşma aşağıdakılara kömək edir:1)Müəllimin emosional və sosial səriştəsinin inkişafı; 2) Empatiya və hər bir tələbənin ehtiyaclarını və xüsusiyyətlərini anlamaq bacarığının formalaşdırılması; 3)Əlverişli və dəstəkləyici təhsil mühitinin yaradılması; 4) Gələcək müəllimlərdə özünü əks etdirmə və özünü təhlil etmə bacarıqlarının inkişafı və s.

***Açar sözlər:*** *müəllim, humanizm, ünsiyyət, təhsil, motiv*

## РЕЗЮМЕ

В статье утверждается, что гуманистический подход к подготовке педагогических кадров способствует: 1) развитию эмоциональной и социальной компетентности педагога; 2) Эмпатия и формирование способности понимать потребности и особенности каждого ученика; 3) Создание благоприятной и

благоприятной образовательной среды; 4) Развитие навыков саморефлексии и самоанализа у будущих учителей и т.д.
***Ключевые слова:*** *учитель, гуманизм, общение, образование, мотив*

**SUMMARY**

In the article, it is argued that the humanistic approach to the training of pedagogical personnel contributes to: 1) the development of the emotional and social competence of the teacher; 2) Empathy and formation of the ability to understand the needs and peculiarities of each student; 3) Creating a favorable and favorable educational environment; 4) Development of self-reflection skills and self-analysis among future teachers and others.
***Keywords:*** *teacher, humanism, communication, education, motive*

## PEDAQOJİ KADR HAZIRLAYAN ALİ MƏKTƏBLƏRDƏ TƏHSİLİN TƏŞKİLİNİN XÜSUSİYYƏTLƏRİ

**İsmayılova Püstə Nazim qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ali təhsil fərdlərin formalaşmasında, tənqidi təfəkkürün inkişaf etdirilməsində, tələbələrin peşəkar və şəxsi uğura hazırlanmasında mühüm rol oynayır. Cəmiyyət inkişaf etdikcə ali təhsil müəssisələrinin funksiyası da dəyişir. Ali təhsil müəssisələrində təhsil çoxşaxəli xüsusiyyətləri, akademik, sosial, texnoloji və mədəni ölçüləri ilə ilə diqqəti cəlb edir, Vacib hesab etdiyimiz xüsusiyyətlərin bəzilərinə diqqət yetirək.

1. Dövlət standartları əsasında hazırlanmış kurikulumlara malik olmaq

Ali təhsilin əsas xüsusiyyətlərindən biri ciddi və ixtisaslaşdırılmış kurrikulumlara (təhsil proqramlarına) istinad etməsidir. Təhsil proqramları xüsusi sahələr üzrə dərin biliklərin verilməsi, tələbələr arasında təcrübənin artırılması üçün nəzərdə tutulub. Kurikulum nəzəri məzmunu, praktik istiqamətləri və tədqiqat imkanlarını özündə birləşdirir. Müəllim hazırlığı ilə bağlı son Təhsil Proqramı 2020-ci ildə Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunub, onun əsasında tədris planları, onun da əsasında fənn proqramları və sillabuslar hazırlanıb.

2. İnnovativ tədqiqatlara əsaslanmaq

Ali təhsil müəssisələri tədqiqat və innovasiya xarakteri daşıyır. Ali təhsil müəssisələri pedaqoji kadr hazırlığında yalnız nəzəri biliklərin verlməsinə və onun tətbiqinə deyil, innovativ tədqiqatların aparılmasına istiqamətlənməlidir. Fakültə əməkdaşlarının apardıqları tədqiqat işləri tədris yönümlü olmaqla tələbələrin maraqlarını və intellektual mədəniyyətini inkişaf etdirməlidir.

3.Fənlərarası inteqrasiayanı təmin etmək

Tələbələrdə dünyanın inteqrativ mənzərəsini yaratmaq üçün ali təhsil müəssisələrində müxtəlif fənlərin qarşılıqlı əlaqəsi yaradılmalı, tədris qarşılıqlı inteqrasiyaya əsaslanmalıdır. Son illərdə xarici ölkələrdə ali təhsil müəssisələri daha çox fənlərarası proqramlar təklif edir, tələbələrə müxtəlif sahələr arasındakı kəsişmələri (sinergetik yanaşma) araşdırmağa imkan verir. Bu yanaşma mürəkkəb məsələlərin kompleks inkişafını təmin edir, tələbələri müxtəlif və sürətlə dəyişən dünyaya hazırlayır.

4.Elektron tədris platformalarına malik olmaq

Texnologiyanın inkişafı təhsil sahəsində əsl inqilabı dəyişiklik oldu. Son illərdə - pandemiyada və ondan sonrakı dövrdə ali təhsil müəssisələri tələbələri onlayn resurslar, mühazirələr və interaktiv materiallarla təmin edən elektron təhsil platformaları təklif etdi. Bu, tələbə ehtiyaclarına cavab verən çevik öyrənmə imkanlarına cavab verir. Bu platformalardan istifadə etmklə özünütəhsildə böyük uğurlar qazanmaq mümkündür.

5.Virtual laboratoriyalara sahib olmaq

Təcrübə tələb edən sahələrdə virtual laboratoriyalar real dünya təcrübələrini simulyasiya edir. Bu texnoloji yenilik tələbələrə ənənəvi laboratoriyalardan fərqli olaraq npraktiki öyrənmə ilə məşğul olmağa imkan verir. Virtual laboratoriyalar əlçatanlığı artırır və idarə olunan rəqəmsal mühitdə təcrübə aparmağı  asanlaşdırır. Belə laboratoriyalar kimya, biologiya və fizika dərsləri üçün çox vacibdir.

6.Qarışıq öyrənmə modellərinə malik olmaq

Bəzi ali təhsil müəssisələrində təlim prosesində ənənəvi və müasir təlim texnologiyalarından, müxtəlif platformalardan istifadə olunur.Bu qarışıq öyrənmə  modelləri son illərdə öz səmərəliliyi ilə diqqəti cəlb edir. Bu model müxtəlif öyrənmə metodlarını özündə cəmləşdirir, öz-özünə öyrənməyi təşviq edir.

7.Təhsildə müxtəliflik və inklüzivlik

Müxtəlifliyin təşviqi inklüzivlyin nəzərə alınması ilə  başlayır. Ali təhsil müəssisələri etnik mənsubiyyət, sosial-iqtisadi vəziyyət və mədəni irs daxil olmaqla, geniş spektri əks etdirən tələbə kollektivinə malik olmağa çalışır.  Bu müxtəliflik öyrənmə mühitini zənginləşdirir və tələbələri qloballaşan dünyaya hazırlayır.

8.Multikultural məzmuna malik olmaq

Müasir cəmiyyətin qlobal xarakterini dərk edən ali təhsil müəssisələri multikultural perspektivləri öz kurikulumlarına daxil edirlər. Tələbələr müxtəlif mədəni fərqliliyi tarixi kontekstldə və qlobal çağırışların mahiyyətinə uyğun olaraq  araşdırır, mədəni səriştəni gücləndirir və inklüziv dünyagörüşü təşviq edir.

9. Fəal  təlim strategiyaları

Son illərdə ali təhsil müəssisələrində ənənəvi texnologiyadan  uzaqlaşaraq, aktiv öyrənmə strategiyaları tətbiq edirlər. Qrup layihələri və interaktiv müzakirələr tələbələri öyrənmə prosesinə fəal cəlb edir, qavramağı və yadda saxlamağı artırır. Onlarda məntiqi düşüncənin formalaşmasında  fəal təlim metodları əhəmiyyətli rol oynayır.

10. Fərdiləşdirilmiş öyrənmə yolları

Tələbələrin müxtəlif öyrənmə üstünlüklərini və templərini qəbul edən alimlər daha çox fərdiləşdirilmiş öyrənmə yolları təklif edirlər. Adaptiv təlim texnologiyaları təhsil məzmununu fərdi tələbə ehtiyaclarına uyğunlaşdırır, daha fərdiləşdirilmiş və effektiv öyrənmə təcrübəsini təşviq edir.

## MÜASİR MƏKTƏBİN PROBLEMLƏRİNİN TƏZAHÜRÜ

**Qasımova Fidan Elman qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Daim inkişaf edən təhsil sistemində müasir məktəb texnoloji irəliləyişlər, sosial və pedaqoji dəyişikliklər nəticəsində formalaşan dinamik bir qurum kimi dayanır. Müasir məktəb müasir şagirdlərin müxtəlif ehtiyaclarını ödəmək üçün innovativ yanaşmaları əhatə edərək ənənəvi təhsil sistemindən üstünlüyünü göstərir. Təhsil, ictimai tərəqqinin əsas sütunu kimi, təkcə biliklərin verilməsinə deyil, həm də tənqidi düşüncənin, yaradıcılığın və hərtərəfli inkişafın təşviqinə xidmət edir. Müasir məktəb sistemindəki problemlərin təzahürlərini araşdırdıqca, ilk növbədə qurumun mahiyyətini dərk etmək və onun nail olmaq istədiyi çoxşaxəli məqsədləri dərk etmək vacib olur.

Müasir məktəblərdə fərdiləşdirilmiş öyrənmənin olmaması, şagirdlərin unikal öyrənmə üslublarına və güclü tərəflərinə məhəl qoymadan, vahid meyarlarla ölçüldüyü standartlaşdırılmış testlərin yayılması ilə daha da şiddətlənir. Kurrikulumun uyğunluğuna həddən artıq önəm verilməsi çevikliyi daha da məhdudlaşdırır, müəllimlərin dərsləri fərdi ehtiyaclara uyğunlaşdırmaq qabiliyyətinə mane olur. Bununla belə, texnologiya daha fərdiləşdirilmiş təhsil təcrübəsini inkişaf etdirərək müxtəlif öyrənmə üstünlüklərinə cavab

verən adaptiv öyrənmə platformaları və fərdiləşdirilmiş resurslar təklif edən potensial həll yolu təqdim edir. Bu problemləri həll etməklə, məktəblər hər bir şagirdin fərqli istedad və bacarıqlarını daha yaxşı inkişaf etdirə, daha effektiv və inklüziv öyrənmə mühitini təşviq edə bilər.

Təhsil sistemində qiymətlərə və performansa həddindən artıq əhəmiyyət verilməsi akademik nailiyyətləri hərtərəfli inkişafdan üstün tutan sinif mərkəzli yanaşmaya gətirib çıxarmışdır. Bu sıx diqqət şagirdlər arasında yüksək stress səviyyələrinə və psixi sağlamlıq problemləri, rəqabət və narahatlıq mühiti yaradır. Bu çətinlikləri aradan qaldırmaq üçün alternativ qiymətləndirmə üsullarını araşdırmaq vacibdir. Layihə əsaslı qiymətləndirmələr və portfolio icmalı kimi müxtəlif qiymətləndirmə yanaşmalarının həyata keçirilməsi, dəstəkləyici və daha az stressli öyrənmə mühitini təşviq edərək, şagirdin imkanlarını daha əhatəli şəkildə başa düşməyə imkan verir. Bu alternativləri qəbul etmək daha balanslı və şagird mərkəzli təhsil sisteminə töhfə verə bilər.

Müasir təhsil mənzərəsi çox vaxt tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməkdənsə, yadda saxlamağa meyl edir. Bu balanssızlığı dərk edərək, kurrikuluma tənqidi təfəkkürün daxil edilməsinə səy göstərilməlidir. Problemlərin həlli fəaliyyətlərini, debatları və analitik məşqləri birləşdirməklə müəllimlər şagirdlərə tənqidi düşünməyə imkan yarada bilərlər. Bu bacarıqları inkişaf etdirmək uzunmüddətli fayda gətirir, çünki tənqidi düşünmə qabiliyyəti ilə təchiz edilmiş şagirdlər real dünya problemlərinin mürəkkəbliyinə daha yaxşı hazırlaşırlar. Onlar uyğunlaşa bilən, məlumatlı qərarlar qəbul edə bilən və cəmiyyətə mənalı töhfə verən, ənənəvi akademik mühitin hüdudlarından kənarda uğura hazır olan şagirdlərə çevrilirlər.

Məktəblərdə texnoloji asılılıq, xüsusən də siniflərdə həddindən artıq ekran vaxtı problemi yaradır. Ekranlara uzun müddət məruz qalma şagirdlər arasında sosial bacarıqlara və şəxsiyyətlərarası münasibətlərə mane ola bilər, çünki üz-üzə qarşılıqlı əlaqə azalır. Təhsildə bu tarazlığın qorunması vacibdir. Rəqəmsal vasitələr öyrənmə təcrübələrini artırsa da, pedaqoqlar insanların qarşılıqlı əlaqəsini əvəz etməli, sosial inkişafın da tamamlanmasına əmin olmalıdırlar. Birgə fəaliyyətlərin və oflayn məşğulluğun birləşdirilməsi texnologiyanın sosial bacarıqlara mənfi təsirlərini azaltmağa kömək edir, hərtərəfli təhsil mühitini təşviq edir. Bu balansı idarə etməklə, məktəblər sosial inkişafın mühüm aspektlərinə xələl gətirmədən texnologiyanın faydalarından istifadə edə bilərlər.

Qeyri-adekvat müəllim hazırlığı və dəstəyi peşəkar inkişaf imkanlarının olmaması ilə daha da ağırlaşan təhsil sistemində əhəmiyyətli problemlər yaradır. Bu çatışmazlıq müəllimlərin tükənməsinə və təhsilin keyfiyyətinin aşağı düşməsinə və yüksək işdən çıxma dərəcələrinə şərait yaradır. Pedaqoqların əsas rolunu dərk edərək, onların bacarıqlarını, motivasiyasını və ümumi rifahını artırmaq üçün davamlı dəstəyə ciddi ehtiyac var. Hərtərəfli peşəkar inkişaf proqramlarına, mentorluq təşəbbüslərinə və psixi sağlamlıq resurslarına sərmayə qoymaq möhkəm və səlahiyyətli müəllim işçi qüvvəsini inkişaf etdirə bilər. Davamlı dəstəyi prioritetləşdirməklə, məktəblər effektiv tədris üçün əlverişli mühit yarada, nəticədə həm pedaqoqlara, həm də onların şagirdlərinə fayda verə bilər.

Təhsildə sosial-iqtisadi bərabərsizliklər şagirdlər arasında resurslara və imkanlara qeyri-bərabər çıxışı davam etdirir. Sosial-iqtisadi amillərin şagird performansına təsiri dərindir. O, akademik nailiyyətlərə və ümumi uğura təsir göstərir. Bu fərqləri aradan qaldırmaq üçün ədalətli təhsil siyasətinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, resurs boşluqlarını aradan qaldırmaq üçün təşəbbüslərin yaradılmasını, imkansız şagirdlər üçün əlavə dəstəyin təmin edilməsini və inklüziv öyrənmə mühitinin təşviqini əhatə edir. Sosial-iqtisadi mənsubiyyətindən asılı olmayaraq keyfiyyətli təhsilə bərabər çıxışı prioritetləşdirməklə, təhsil müəssisələri bərabərsizlik dövrünün qırılmasına və bütün şagirdlərin tam potensialına çatması üçün səlahiyyətlərin verilməsinə töhfə verə bilər.

Müasir məktəb sistemindəki problemlərə dair həll yolları və tövsiyələr daha effektiv və inklüziv öyrənmə mühitini inkişaf etdirmək üçün çox vacibdir. İlk növbədə, məktəblər şagird mərkəzli öyrənmə yanaşmalarını tətbiq etməyi düşünməlidirlər. Bu, təhsilin fərdi öyrənmə

üslublarına uyğunlaşdırılmasını, fəal iştirakın təşviq edilməsini və şagirdlər arasında müstəqillik hissinin gücləndirilməsini əhatə edir. Qiymətləndirmə metodlarının yenidən nəzərdən keçirilməsi eyni dərəcədə vacibdir. Standartlaşdırılmış testlərə ciddi inamdan kənara çıxaraq, məktəblər layihə əsaslı qiymətləndirmələr, portfoliolar və praktiki nümayişlər kimi müxtəlif qiymətləndirmə üsullarını qəbul edə bilərlər. Bu dəyişiklik şagirdin imkanlarını daha əhatəli başa düşməyə imkan verir və tənqidi düşüncəni təşviq edir.

Müəllim hazırlığı və dəstəyinin prioritetləşdirilməsi ümumi təhsil təcrübəsinin artırılması üçün mühüm əhəmiyyət kəsb edir. Məktəblər tükənmə hallarını aradan qaldırmaq üçün hərtərəfli peşəkar inkişaf proqramlarına, mentorluq təşəbbüslərinə və psixi sağlamlıq resurslarına investisiya qoymalı, müəllimlərin keyfiyyətli təlimat vermək üçün yaxşı təchiz olunmalarını və motivasiyasını təmin etməlidir. Təhsildə inklüzivliyin və müxtəlifliyin təşviq edilməsi müsbət öyrənmə mühitinin yaradılmasının ayrılmaz hissəsidir. Məktəblər müxtəlif mənşəyi, təcrübələri və perspektivləri tanımaq və qeyd etmək, hörmət və anlaşma mədəniyyətinin inkişaf etdirilməsi istiqamətində fəal şəkildə çalışmalıdırlar. Bu, nəinki təhsil təcrübəsini zənginləşdirir, həm də şagirdləri qloballaşan və bir-biri ilə əlaqəli dünyaya hazırlayır. Bu həlləri və tövsiyələri həyata keçirməklə məktəblər həm şagirdlərə, həm də müəllimlərə daha uyğunlaşan, dəstəkləyici və bərabərhüquqlu təhsil sisteminə töhfə verə bilər.

## MƏKTƏBDAXİLİ İDARƏETMƏNİN SƏMƏRƏLİLİYİNİN VƏ KEYFİYYƏTLİLİYİN TƏMİN OLUNMASI

**Qədirova Çinarə Rövşən qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Hər bir təhsil müəssisəsinin inkişafı üçün keyfiyyətli təhsil lazımdır. Bu, qurumun keyfiyyət idarəçiliyindən asılıdır. Müşahidə olunur ki, ölkəmizdə minlərlə qurum fəaliyyət göstərir, lakin demək olmaz ki bütün təhsil müəssisələri idarəetməni səmərəli və keyfiyyətli şəkildə yerinə yetirirlər.Səmərəli və keyfiyyətli idarəetməni tətbiq etmək üçün öncə bunin nə olduğunu bilmək və onu tətbiq etmək lazımdır. Sivilizasiyanın inkişafı üçün ölkənin təhsilinin inkişafını istəyiriksə, idarəetmə bacarığını bilməliyik. Biz akademik institutlar üçün idarəetmə strategiyalarını, keyfiyyətli menecment indekslərini və yol xəritələrini və s. bilməyimiz vacibdir.Xüsusən də müasir dövrdə- dünya təhsil sisteminin sürətlə inkişaf etdiyi bir vəziyyətdə əgər təhsil müəssisəsi keyfiyyətlə idarə olunmursa və ya səmərəli işlər ortaya qoymursan,bu təhsilin inkişafına böyük zərbə endirə bilər. Təhsil cəmiyyətlər və xalqlar arasında inkişafın gücləndirilməsi və sosial birliyin və davamlı sülhün qurulmasının güclü vasitəsi kimi qəbul edilir. Buna görə də təbii ki, hər bir uşağın keyfiyyətli təhsilə çıxışını təmin etmək üçün bir neçə ildir səylər göstərilir. Lakin“keyfiyyət” ölçüsünün əsas problem olaraq qaldığı aydındır. İstər yerli, istər milli, istər regional məktəblərin çoxunda idarəetmənin keyfiyyətliliyi sual doğurur.

Keyfiyyətli təhsil və idarəetmə üçün bir sıra metodlar tətbiq edilə bilər. Məsələn, idarəetmədə keyfiyyəti tənzimləmək üçün ilk növbədə nizam-intizam qaydalarına riayət etmək mütləqdir.Məntəbdaxili idarəetmədə nizam-intizam təkcə idarəedicilərə yox ,məktəb daxilində olan bütün şəxslərə şamil olunmalıdır.Təhsilin keyfiyyətli şəkildə idarə olunması məktəbdə şagirdlərin də akademik nailiyyətlərinə də öz təsirini göstərəcək.

Hər şeydən öncə onu nəzərə almaq lazımdır ki,bütün sahələr yenilik tələb etdiyi kimi , təhsil sistemi də yeniliklərə açıq olmalıdır.Təhsilin yeniliklər tətbiq etməsi üçün isə idarəçi şəxslərin yenilikləri dərk etməsi lazımdır.Bu yenilik təkcə dərsdə innovasiyaların tətbiqi deyil,eyni zamanda ümumi təhsil idarəetməsindəki qüsurlarda da yeni addımlar atılmasını nəzərdə tutur.

Ümumiyyətlə,təhsildə keyfiyyət anlayışı nədir? Keyfiyyətli təhsil odur ki, bütün fərdlərin öz cəmiyyətlərinin inkişafına, fərqlilik və müxtəliflik şəraitində ahəngdar yaşamasına töhfə verməklə, idrak, emosional və yaradıcılıq imkanları baxımından tam potensialını reallaşdırmaq hüquqlarını tanıyır. Daha operativ şəkildə, formal əsas təhsil sistemlərinə gəldikdə, təhsilin keyfiyyəti bütün vətəndaşların müvafiq yaşda təhsil sisteminə çıxışını təmin edən keyfiyyət kimi müəyyən edilə bilər. Bu təhsil onların sağlamlığını və rifahını təmin etməklə yanaşı, bütün tələbələr üçün rəvan məktəbə və müvafiq öyrənmə əldə etməyə kömək edir.

Ədəbiyyatda təhsilin keyfiyyətinin əsas determinantı kimi dörd amil müəyyən edilmişdir

1. effektiv məktəb və öyrənmə vaxtının idarə edilməsi təcrübələrinin olması;
2. səmərəli tədris etməyi bacaran ixtisaslı müəllimlərin yerləşdirilməsi;
3. İnfrastruktur və tədris resurslarının mövcudluğu və istifadəsi;
4. tələbələrin inkişafı və cəlb edilməsi üçün inklüziv və təhlükəsiz mühitlər.

Təhsilin son illərdə əhəmiyyətini nəzərə alsaq,deyə bilərik ki insanın şəxsiyyət kimi formalaşması, özünə mövqe tutması, cəmiyyət üçün yararlı şəxsə çevrilməsi üçün təhsil vacibdir. Azərbaycanda son dövrlərdə uşaqların dərsə cəlb olunması kifayət qədər geniş miqyas alsa da yenə də bəzi rayonlarda uşaqlar məktəbə cəlb olunmurlar. Bundan başqa təhsildə menecmentin keyfiyyətli idarəetmə ilə bağlı məlumatı məhduddur. Təhsildə olan yenilikləri ,dünyanın inkişaf imkanlarını nəzərə alsaq günümüzdə təhsil idarəetməsində keyfiyyətliliyin artırılması üçün konkret hansı tədbirlər görmək lazımdır, o zaman bu məsələdə ciddi məlumat əksikliyi meydana çıxacaq. Bu məsələlərlə bağlı kifayət qədər məlumatın olmaması da idarəetməyə öz təsirini göstərir.

Təlim prosesini müəyyən edən (yalnız) təlim keçmiş müəllimlərin mövcudluğu və maddi şərait deyil. Təhsil sistemlərinin idarə edilməsində onların fəaliyyətini müəyyən edən bir şey var. Keyfiyyət baxımından təhsilin uğuru həm nazirliyin müəllimdən tutmuş yerli və mərkəzi dövlət məmurlarına kimi bütün agentlərdən, həm də şagirdlərin valideynlərindən – xüsusən də təhsildə xüsusi idarəetmə və/və ya tənzimləmə mexanizmlərinin yaradılmasından asılıdır.

Bəs məktəbin idarəsində keyfiyyəti artırmaq üçün nə etmək lazımdır? Öncə onu qeyd etmək lazımdır ki keyfiyyətliliyin idarəetmədəki qarşılığı şagirdlərin nailiyyət qabiliyyəti ilə müəyyən edilir. Əgər müəssisə keyfiyyətli şəkildə idarə edilirsə ,bu şagirdlərin də nəticəsinə müsbət təsir etmiş olacaq.Təhsildə idarəetmənin nə dərəcədə keyfiyyətli olduğunu öyrənmək üçün şagirdlər arasında qiymətləndirmə prosesinin miqyasını çoxaltmaq lazımdır. İdarəetmənin təşkili üçün bir digər addım isə məktəbdə idarəçi şəxslərin hesabata cəlb olunması vacibdir. Bundan başqa əgər keyfiyyətli idarəetmə yaratmaq niyyətindəyiksə ilk növbədə ölkədə qoyulmuş qanun çərçivəsi əsasında inkişafa dair yol xəritəsi çəkməyimiz lazımdır.Yeni fikirlər ortaya qoruyarkən də onları sınaqdan keçirməli sonra fikir bildirməliyik. Məhz bu fikirlər reallaşdırılsa təhsildə keyfiyyət anlayışı inkişaf edə bilər.

Ədəbiyyat

1. Qəribov Ş.H Əsədova İ.M və bu təhsilin idarəetədilməsin müasir problemləri Bakı 2016
2. Ramiz Məmmədzadə "Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi".Bakı2010
3. https://dakar.iiep.unesco.org/sites/default/files/2022-02/MGuide_ENG-VSR_10_02.pdf
4. https://as-journal.edu.az/t%C6%8Fhsilin-keyfiyy%C6%8Ftin%C6%8F-t%C6%8Fsir-ed%C6%8Fn-amill%C6%8Fr

# İNKLÜZİV SİNFİN İDARƏOLUNMASINDA İSTİFADƏ EDİLƏN STRATEGİYALAR

**Quluzadə İlkin Vahid oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnklüziv təhsil sahəsində layihələrin səmərəli, effektiv idarə edilməsi və optimal şəkildə həyata keçirilməsi üçün mövcud vəziyyətin, müxtəlif peşəkar kateqoriyaların, sosial qrupların nümayəndələrinin fikirləri və qiymətləndirmələri nəzərə alınmalıdır. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları Azərbaycanda inklüziv təhsillə bağlı dövlət proqramının icrasına dəstək göstərir. Materiallar aşağıdakı iki layihə çərçivəsində hazırlanaraq Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNİCEF-in Azərbaycandakı nümayəndəliyi və Heydər Əliyev fondunun "Regional İnkişaf"İctimai Birliyinin rəhbərliyi və maliyyə dəstəyi ilə həyata keçirilir:

• Azərbaycanda əlilliyi olan uşaqlar üçün keyfiyyətli inklüziv təhsilin genişləndirilməsi;

• Müəllimlərin inklüziv təhsilə hazırlığının təmin edilməsi. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları üç əsas hədəf qrupu üçün nəzərdə tutularaq həyata keçirilir:

1. Ümumi təhsil müəssisələrində işləyən müəllimlər;
2. Xüsusi pedaqoqlar;
3. İlkin pedaqoji təhsil alan tələbələr.

Proqram təhsilalana yönələn, fəal və təcrübi fəaliyyətə əsaslanan yanaşmanı dəstəkləyir, konsepsiyaların praktik tətbiqi və refleksiya vasitəsilə həm müəllimləri, həm də ilkin pedaqoji təhsilalan tələbələri istiqamətləndirir. "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması"layihəsinə əsasən görülən işlər çoxşaxəli çərçivədə 4 istiqamət üzrə təsnifatlaşdırılıb:

1. İnklüziv təhsil üzrə tədris proqramı və materiallarının təkmilləşdirilməsi. Bu istiqamətdə inklüziv təhsil üzrə ekspert komandalarının birbaşa iştirakı ilə yeni təlim modullarının hazırlanması, onların ibtidai sinif müəllimliyi ixtisasında ilkin pedaqoji təhsil və ixtisasartırma təhsil proqramlarına daxil edilməsi, təlimat və tədris xarakterli müxtəlif vəsaitlərin (psixoloq, loqoped və s.) hazırlanması, bu məlumat və resursların daha əlçatan olması üçün onlayn portalın yaradılması nəzərdə tutulur.

2. Müəllim və yardımçı heyətin bacarıqlarının artırılması. Burada məqsəd təlim modulları əsasında ibtidai sinif müəllimləri, pedaqoji kadr hazırlığı aparan ali təhsil müəssisələrinin müəllimləri və tələbələrinin təlimlərə cəlb olunmasıdır.

3. Müəllim və yardımçı mütəxəssislər üçün inklüziv təhsil üzrə resursların yaradılması. Bu komponent çərçivəsində inklüziv təhsil üzrə mövcud kadr potensialı, təlim resursları və s. haqqında tədqiqat aparmaq, inklüziv təhsil mərkəzləri yaratmaq və həmin mərkəzlərdə müəllim hazırlığına xidmət əsas hədəflərdir.

4. İnklüziv təhsil üzrə təhsil siyasətinin təkmilləşdirilməsi və ictimai maarifləndirmə tədbirləri. Bu komponent çərçivəsində Bakı şəhərində və digər regionlarda məlumatverici posterlər
yerləşdirmək, inklüziv təhsilin əhəmiyyətini göstərən sosial çarxlar hazırlayıb televiziya kanallarında yerləşdirmək, sosial media, müxtəlif sosial aksiyalar və çoxsaylı digər vasitələrlə ictimaiyyətin məlumatlandırılmasını təmin etmək nəzərdə tutulmuşdur.

Sinifin effektiv idarə edilməsində müəllim müvafiq texniki vasitələrdən istifadə etməklə şagirdlərin nizam-intizamlı və hazırlıqlı olmalarını təmin etməlidir. Bu zaman şagirdlərin diqqəti dərsə cəmləşir,təlim nailiyyətləri yüksəlir, öyrənməyə mənfi təsir edən davranışlar aradan qalxır. Təhsil strategiyalarından düzgün istifadə etmək sinifdaxili münasibətlərin tənzimlənməsində, vaxt itkisinin qarşısının alınmasında əhəmiyyətli rol oynayır. Müəllim şagirdə onun davranışı və fəaliyyətinin necə olması barədə "Hamıya hörmətlə yanaşmaq", "Məsuliyyətli olmaq", "Təhlükəsizliyə riayət etmək" kimi tapşırıqları

verməklə yanaşı, onları necə icra etdiklərini müşahidə altında saxlamalıdır. İnklüziv siniflərdə dərs keçən müəllimlər müxtəlif əlilliyi olan uşaqlar üçün aşağıda göstərilən məqamlara diqqət yetirməlidirlər.

İnklüziv siniflərdə müəllimlərin davranışları modelləşdirilir. Onlar uşaqlara yönələn pedaqoji fəaliyyəti bütün təhsilalanlara uyğunlaşdırmaq üçün sinif otağında, dərsin planlaşdırılmasında, tədris üslubunda və təlimatlandırmada hansı dəyişikliklərin edilə biləcəyini əks etdirməyin yollarını aşağıdakı əməkdaşlıq modellərinə əsasən qurmalıdırlar:

• Birgə dərs tərtibatı — müəllimlər bir dərsi birlikdə planlaşdırır və ya təkmilləşdirir, onu sinifdə sınaqdan keçirir, müşahidə edir və şagirdin öyrənməsinə necə təsirini müəyyənləşdirmək üçün məlumatlar toplayır. Onlar arzuolunan müəyyən yanaşma əsasında (məsələn, didaktik metod və ya oxunanların başa düşülməsi ilə bağlı strategiyalar) silsilə dərslərin planlaşdırılmasında da digər müəllimlərlə birgə işləyirlər. Dərsin bu formada tərtibatı seminar və təlimlərdə, eləcə də sinifdə əldə edilən bilikləri, təcrübədə tətbiq etməyə imkanlar yaradır.

• Müşahidə və rəy — məktəb müəllimləri, mütəxəssis və ya çox təcrübəsi olan müəllimlər həmkar müəllimlərin dərslərində müşahidə apararaq, onların təlim fəaliyyətlərini qiymətləndirir və planlı rəylər verirlər.

• Açıq dərs — əsasən, müəllimin sinifdə davranışlarına, prosedur və qaydaların necə yerinə yetirilməsinə diqqət verilir. Müşahidələrdən sonra planlı müzakirələr aparılır.

• Tədqiqat qrupları — müəllimlər qruplar şəklində əməkdaşlıq edərək, ümumi bir problem həll etmək, ümumi məqsədə çatmaq üçün plan hazırlamaq və tətbiq etmək məqsədilə müəyyən bir məsələni tədqiq edirlər. Tədqiqat prosesində hazırladıqları resursların bir hissəsi sinif otaqlarında və öz təcrübələrində istifadə olunur.

• Birgə tədris — texniki, təchizat və təşkilatçılıq baxımından daha çox səylər tələb edir. Sinfi idarəetmə baxımından müəllimlər birbirinə kömək edir və onların real vaxt rejimində modelləşdirmə,
plan və dəstək alması təmin olunur.

• Müəllimlər fərdi xüsusiyyətləri nəzərə almaqla şagirdlərin təlim nailiyyətlərinin artırılmasına səmərəli kömək göstərilməsinə imkan verən pedaqoji metodikaları, strategiyaları mənimsəməlidirlər.

• Mütəxəssislər (tibb işçiləri, xüsusi profilli pedaqoqlar və başqaları) uşaqları daha ciddi şəkildə nəzərdən keçirməyə başlayır və problemlərə onların gözü ilə baxmağı öyrənirlər.

• Uşaq və ailəyə dəstək planını müəllimlərin, xüsusi profilli pedaqoqların, psixoloqların, məsləhətçilərin, terapevtlərin, eləcə də ailənin və mümkün olan təqdirdə uşağın özü ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində hazırlanır. Bu, əməkdaşlığa və birgə səylərin asanlaşdırılmasına vasitəçilik edir. İnklüziv təhsil xüsusi təhsil ehtiyacları və digər səbəbdən yaranan maneələrə baxmayaraq bütün uşaqların onlara yaxın ərazidə yerləşən məktəblərdə keyfiyyətli təhsilə cəlb edilmələri və təlimdə nailiyyət əldə etmələri üçün lazımi dəstəyin göstərilməsi və şəraitin yaradılmasını nəzərdə tutur. Bu cür təhsil, eyni zamanda sosial birliyi stimullaşdırır. Əlilliyi olan uşaqları yaşıdlarından və cəmiyyətdən təcrid olunmaqdan xilas edərək, onların inkişafına, ictimai həyata inteqrasiyasına və hüquqlarının təmin olunmasına kömək edir. Əlilliyi olmayan uşaqlarda isə öz həmyaşıdlarına və yaxud siniflərində olan sağlamlıq imkanları məhdud olan şəxslərə qarşı düzgün münasibətin formalaşmasına səbəb olur. İnklüziv təhsil iqtisadi cəhətdən də səmərəlidir, çünki cəmiyyətdə uğurlu adaptasiya prosesi keçən əlilliyi olan şəxslərin əmək məşğulluğunun artması perspektivi daha böyükdür. Belə olan halda müavinətlərdən asılılıq azalır, onların sosial vəziyyəti yaxşılaşır, bununla da iqtisadi inkişafa öz töhfələrini vermiş olurlar.

# İNKLÜZİV TƏHSİLİN TƏŞKİLİNDƏ VƏ İDARƏ OLUNMASINDA HÜQUQİ BAZA VƏ SİYASƏTLƏR

**Quluzadə İlkin Vahid oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsil insan ömründə vacib fəaliyyətlərdəndir. Hər bir şəxsin gələcəkdəki müvəffəqiyyətinin açarı təhsildir. Təhsilin insanlar üçün bir çox üstünlükləri var. . Təhsil, insanda bacarıqları, bilikləri inkişaf etdirir, həmçinin də insanın düşüncələrini, şəxsiyyətini özünə tanıtdırır və həyat təcrübəsi qazandırır. Həmçinin, təhsil düşüncələrimizi gücləndirir, digər insanlara davranışlarımızı formalaşdırır, zehnimizi cilalayır və üstəgəl düşüncələrimizi gücləndirir. Təhsil insanı həm əqli, həm psixi, həm də sosial baxımdan formalaşdırır. Lakin bilik qazanmaq və onları təkmilləşdirmək, cəmiyyətdə müəyyən mövqe tutmaq istəyi bəziləri üçün real olmur. Belə şəxslər arasında sağlamlıq imkanları məhdud olan şəxslər də var.

Son zamanlar təhsil platformasında geniş işlənən anlayışlardan biri də "inklüziya" terminidir. İnklüziya (fr. Inclusif-daxil olmaqla, lat. Include- nəticəyə gətirirəm) – bütün vətəndaşların, ən əsası da, əlilliyi olan insanların hamısının cəmiyyətdə bərabər iştirakının təmin edilməsi prosesidir. İnklüziya ümumi təhsilin mərhələsidir. Burada hamı ilk öncə SİM şəxslər təhsilə cəlb edilir. "İnklüziv təhsil" daha müasir termindir və təkcə təhsil sisteminə yox, insanın cəmiyyətdə mövqeyinə yeni bir baxışdır.

"İnklüziv təhsil" SİM uşaqların digərləri ilə bərabər formada keyfiyyətli təhsilə cəlb edilməsidir və bu, fasiləsiz prosesdir. İnklüziv təhsil sistemli yanaşma və uzunmüddətli bir strategiya kimi qəbul edilir. İnklüziya təhsilin bütün subyektlərinə aid olur: SİM və sağlam şagirdlər, onların valideynləri, müəllimlər və təhsil məkanındakı digər peşəkarlar, rəhbər işçilər.

Buna görə də, ümumi təhsil müəssisəsinin fəaliyyəti yalnız SİM uşağın tədrisi və böyüməsi üçün xüsusi şərait yaratmağa deyil, həm müəllimlər arasında, həm də SİM şagirdlər ilə onların sağlam yaşıdları arasında qarşılıqlı anlaşmanın təmin edilməsinə yönəldilməlidir. İnklüziya uşaqların sosial mühitdən ayrı düşməsinin, cəmiyyətdə ayrı-seçkiliklə üzləşməsinin qarşısını almaq üçün ən effektli vasitələrdən biridir. Hər uşağın özünəxas xüsusiyyəti, qabiliyyət və maraqları, öyrənmə ehtiyacı var.

Təhsil sistemlərinin və təlim proqramlarının tərtib edilməsində bu xüsusiyyətlərin və ehtiyacların müxtəlifliyini nəzərə alınmalıdır. Xüsusi təhsil ehtiyacları olan insanlar ümumi məktəblərdə təhsilə cəlb edilməli və onlar üçün təhsil ehtiyaclarını ödəməyə yönəlmiş pedaqoji metodlara əsaslanan şərait yaradılmalıdır. İnklüziv ümumtəhsil məktəbləri ayrı-seçkiliyə qarşı mübarizə , cəmiyyətdə müsbət aura yaratmaq, əlverişli təhsil təmin etmək və təhsil sisteminin səmərəliliyini və gəlirliliyini artırmaq üçün effekli bir vasitədir.

BMT-nin "Əlilliyi olan uşaqların hüquqları haqqında" Konvensiyasına görə ƏOŞ-nın təhsil hüquqları tam təmin edilməlidir. Bunun üçün ən effekli yanaşma inklüziv təhsildir. BMT-nin bu istiqamətdə bir neçə hüquqi aktları vardır:

"İnsan hüquqlarının ümumi Bəyannaməsi" (1948), "Uşaq hüquqları Bəyannaməsi" (1959), "Uşaq hüquqları barədə Konvensiya" (1989), "Uşaqların hüquq və müdafiəsinin təmin edilməsinin ümumdünya Bəyannaməsi" (1990), "Əlilliyi olan insanlar üçün bərabər imkanların yaradılmasına dair standart qaydalar" (1993) və nəhayət 1994-cü ildə Salamankada inkluziv təhsilin inkişafı üçün qəbul edilmiş Bəyannamə (Перфильевой, 2009, s.87)

İnklüziv təhsil, hər insanın təhsilalma hüququnu həyata keçirmək üçün beynəlxalq səviyyədə
tanınan bir yoldur. Bu termin 1994-cü ildə "Xüsusi Ehtiyacı olan Şəxslər üçün Təhsil Sahəsindəki Prinsiplər, Siyasətlər və Təcrübələrə dair Salamanka Bəyannaməsi" ilə meydana çıxmışdır.

İnklüziv təhsil, fiziki, zehni, mədəni, etnik, din, dil və başqa xüsusiyyətlərindən asılı olmayaraq hər şagirdlərin ümumi təhsil sisteminə daxil olduqları bir təlim prosesidir. İnklüziv təhsildə əsas olan SİM şagirdin həmyaşıdları ilə biryerdə təhsil alması və sosial təcrübə qazanmasıdır.

İnklüziv təhsilin xüsusiyyətlərini daha aydın anlamaq üçün xaricdə formalaşma müddətini nəzərdən keçirməyə dəyər.

İlk dəfə 1994 - cü ildə Salamanca şəhərində (İspaniya) keçirilən Xüsusi Ehtiyacı olan Şəxslər üçün Ümumdünya Təhsil Konfransında yeni öyrənmə modeli təqdim edildi. Salamanca Bəyannaməsinin qəbulu, inklüziv təhsil prinsipinin qanunverici səviyyədə qəbul edilməsinə və hər uşağın ümumi təhsil məktəblərinə qəbul olunmasına kömək etdi.

Daxil olmağın məqsədi (inteqrasiyadan fərqli olaraq) SIM uşaqların inkişafı, təhsili üçün mühit yaratmaqdır. Yəni inklüziv məktəbdə təhsil tələblərinə uyğunlaşan uşaq deyil, təhsil sistemi uşaq üçün dəyişir. Bu yanaşma ayrıseçkiliksizdir və bütün uşaqların məktəbə giriş imkanlarını təmin edir.

SİM uşaqların ümumtəhsil məktəblərində təhsilə cəlb olunması əksər ölkələrin, həmçinin də, Azərbaycanın maraq dairəsində olan inklüziv təhsilin qanunauyğun inkişaf mərhələsidir. Bu inkişaf aşağıdakı mərhələlərdən ibarətdir:

I mərhələ - diskriminasiya (SİM uşaqlar tamamilə təhsildən kənar qalır);

II mərhələ - seqreqasiya (SİM uşaqlar ya evdə, ya da xüsusi məktəblərdə təhsilə cəlb olunur);

III mərhələ - inteqrasiya (SİM uşaqlar ümumtəhsil məktəblərində digər uşaqlarla birgə, lakin ayrı siniflərdə xüsusi proqram əsasında oxuyur);

IV mərhələ - inklüziya (SİM uşaqlar ümumtəhsil müəssisələrində digər uşaqlarla birgə təhsil alır).

Müasir elm və praktika sağlam uşaqların və SİM uşaqların öyrədildiyi və birlikdə yetişdirildiyi pedaqoji prosesi ifadə etmək və təsvir etmək üçün inteqrasiya, əsaslandırılma və inklüziya kimi terminlərdən istifadə edir.

Xüsusi uşaqlar üçün təhsil mühitinin formalaşma tarixi xüsusi təhsilin inkişafı ilə bağlıdır - uşaqların ümumi kütləsindən təcrid olunmuş, ayrı-ayrı metodlara əsasən, ixtisaslaşdırılmış müəllim və tərbiyəçilərin müşayiəti ilə xüsusi təhsil müəssisələrində həyata keçirilir.

İnklüziv təhsilin beynəlxalq hərəkatının tarixində xüsusi bir mərhələ 1990-cı ildə Hamı üçün Təhsil haqqında Ümumdünya Bəyannaməsinin qəbul edilməsi oldu. Bəyannamə təhsil imkanlarının təmin edilməsinə və hər bir şəxsin əsas təhsil ehtiyaclarının ödənilməsinə yönəlmiş təhsil sektorunun inkişafı üçün əsas istiqamətləri müəyyən edir. “İnklüzyon” terminindən istifadə etmədən, buna baxmayaraq, Hamı üçün Təhsil üzrə Ümumdünya Bəyannaməsi təhsilin hər kəs üçün əlçatanlığı ilə bağlı əsas məzmun prinsiplərini formalaşdıraraq, təhsilə çıxışa mane olan hər hansı ayrı-seçkilik faktorlarının aradan qaldırılmasının zəruriliyini vurğulayır (Ağayev, Rzayeva, Hüseynova, Vahabova, 2008, s.78).

1993-cü ildə BMT Baş Assambleyasının 48/96 saylı Qətnaməsi ilə qəbul edilmiş Əlilliyi olan şəxslər üçün bərabər imkanların təmin edilməsi üzrə Standart Qaydalar (bundan sonra Qaydalar) əlilliyi olan şəxslərin təhsili ilə bağlı bir neçə əsas ideyanı formalaşdırmışdır: təhsil əlilliyi olan şəxslərin milli təhsil siyasətinin tərkib hissəsi olmalıdır; təhsil proqramları texniki dəstək xidmətlərinin göstərilməsi də daxil olmaqla, əlilliyi olan şəxslərin ehtiyaclarına cavab verməlidir; tədris materialları əlilliyi olan şəxslərin ehtiyaclarına uyğun olmalıdır; bu kateqoriyadan olan tələbələrlə işləyən müəllimlərin hazırlanmasına xüsusi diqqət yetirilməlidir. Bundan əlavə, Qaydalar daxilolma öncəsi mühüm mesajı ehtiva edir: dövlətlər xüsusi təhsil müəssisələrini ümumi təhsilə tədricən inteqrasiya etməyə çalışmalıdırlar. İnkişaf qüsurlu uşaqların sosial inteqrasiyası və sosiallaşması ilə bağlı yuxarıda göstərilən bütün ideyalar, o cümlədən inkluziv təhsil sisteminin inkişafı yolu ilə Əlillərin Hüquqları haqqında

Konvensiyada (13 dekabrda Nyu-Yorkda bağlanmışdır) konsentrasiya edilmiş formada təsbit edilmişdir, 2006), bu, iştirakçı dövlətlərin bütün səviyyələrdə inkluziv təhsili və əlillər üçün ömürboyu təhsili təmin etmək öhdəliyini birləşdirdi.

Hüquq və təhsil leksikonuna birbaşa "inklüziya" (ingiliscə daxil olmaq - daxil etmə) termini Ümumdünya Konfransı tərəfindən qəbul edilmiş Xüsusi Təhsil Ehtiyacı olan Şəxslərin Təhsili Sahəsində Prinsiplər, Siyasətlər və Praktikalar haqqında Salamanka Bəyannaməsi ilə təqdim edilmişdir. 1994-cü ildə xüsusi ehtiyacı olan şəxslərin təhsili haqqında bəyannamə qaəbul edilmişdir. Bəyannamə dövlətləri inkluziv təhsil prinsipini möhkəmləndirməyə çağırır, bu o deməkdir ki, bütün uşaqlar adi məktəblərdə oxuyurlar, burada hər hansı bir uşağın, o cümlədən xüsusi qayğıya ehtiyacı olanların təhsili üçün şərait yaradılır və inkluziv təmayüllü məktəblərin inkişafına kömək edilir.

1990-cı illərdən inkişaf etmiş ölkələrdə inkluziv təhsil tendensiyası fəal şəkildə təşviq edilmişdir, çünki bu, əlilliyi olan insanların sosial inteqrasiyası və hər hansı ayrı-seçkilik və təcridi istisna etmək üçün onların maraqlarının tam nəzərə alınmasına imkan verirdi. Bu qanun ölkəmizdə də dəstəkləndi. Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli, 20 nömrəli qərarına əsasən “Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsili”nin təşkili üzrə inkişaf proqramı təsdiq edilmişdir. Qanun əlilliyi olan şəxslərin, zərurət yarandıqda, əlillər üçün xüsusi təhsil müəssisələrinin yaradılması şərti ilə, əsasən ümumi tipli təhsil müəssisələrində ümumi orta, orta ixtisas və ali təhsil almaq hüququnu təmin etdi. Bu, ölkəmizdə təhsil inkluzivasiyası istiqamətində atılan ilk addım idi (İsmixanov,Vəliyeva, 2014, s.191).

Qeyd etmək lazımdır ki, hazırda təhsilə inkluzivlik ideyası müəyyən dəyişikliklərə məruz qalıb. Əvvəlcə bu, adi və xüsusi uşaqlar üçün “bərabər əsasda” təhsil sisteminin mövcudluğu, o cümlədən birgə təhsil və xüsusi təhsildən tədricən imtina demək idi. Bu təlimatlar əvvəllər qeyd olunan beynəlxalq sənədlərdə - Hamı üçün Təhsil üzrə Ümumdünya Bəyannaməsində, Salamanka Bəyannaməsində və başqalarında öz əksini tapmışdır. Onlara uyğun olaraq, adi məktəblərdə bu cür məhdudiyyətlərin dərəcəsindən və formasından asılı olmayaraq, əlilliyi olan uşaqların təhsilinə vasitəçilik edən inkluziv təhsil xaricdə inkişaf etmişdir.

Bu, bəzi inkişaf etmiş ölkələrdə xüsusi təhsil sisteminin faktiki olaraq ləğv edilməsinə gətirib çıxarmışdır. Məsələn, 1990-cı illərin əvvəllərində Norveçdə. 1825-ci ildən bu ölkədə mövcud olan sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər bağlandı. Belə addımların əsaslandırılması təkcə sağlamlıq imkanları məhdud uşaqlar üçün təhsil paradiqmasının dəyişməsi ilə deyil, həm də xüsusi məktəblərin saxlanması üçün büdcə xərclərinin ciddi şəkildə azaldılması ilə izah edilib. Eyni zamanda, bu ölkənin Təhsil Aktı (İbtidai və Orta Təhsil və Təlim haqqında Akt (Təhsil Aktı), 1998) müntəzəm təhsildən tam istifadə edə bilməyən və ya qənaətbəxş şəkildə istifadə edə bilməyən tələbələr üçün xüsusi təhsil almaq imkanını qoruyur. tələbənin təhsil ehtiyaclarının məcburi şəkildə nəzərdən keçirilməsi tələbi və ənənəvi təhsil proqramlarında təhsil almaqda çətinliklərin müəyyən edilməsini özündə əks edir.

Qeyd edək ki, təhsil haqqında bir çox xarici qanunlar xüsusi təhsil təşkilatlarının yaradılmasına və fəaliyyət göstərməsinə icazə verir, onlara qəbul və təlim üçün əsasların müstəsnalığını nəzərdə tutur. Böyük Britaniyada, 2001-ci il Xüsusi Təhsil Ehtiyacları və Əlillər Aktı və 2014-cü il Uşaqlar və Ailələr Aktı əsasında, standart olaraq, xüsusi təhsil ehtiyacı olan uşaqlar digər uşaqların maraqlarını nəzərə almamaq şərti ilə adi məktəblərdə tədris olunurlar. pozulub. Qanunvericilik sağlamlıq imkanları məhdud uşaqların da təhsil ala biləcəyi xüsusi məktəblərin və müstəqil məktəblərin fəaliyyət göstərməsini nəzərdə tutur. Lakin son vaxtlar sağlamlıq imkanları məhdud uşağın xüsusi məktəblərdə oxuması üçün müəyyən edilən şərtlər dəyişib. Valideynlərin müvafiq ərizəsi üçün yerli təhsil orqanının razılığı tələb olunur, o, belə bir uşağın ümumtəhsil məktəbində təhsil alması üçün imkanların olmadığını yoxlamalıdır.

Eyni zamanda, Fransa Təhsil Məcəlləsi müəyyən edir ki, əlilliyi olan tələbələr üçün xüsusi təhsil həm adi təhsil müəssisələrində, həm də ixtisaslaşmış təşkilatlarda əldə edilə bilər. Almaniyada dövlətlər arasında əsas məktəb sisteminin uyğunlaşdırılması haqqında 1971-ci il Hamburq sazişinə uyğun olaraq ümumtəhsil məktəbləri ilə xüsusi təhsil müəssisələri arasında fərq qoyulur. Bununla belə, xüsusi təhsilin strukturu ölkədən ölkəyə dəyişə bilər. Xüsusi təhsil üçün ümumi tələblər zəruri avadanlıq və xüsusi tədris materiallarının məcburi olmasıdır. Xüsusi təhsil müəssisələri təqdim etdikləri xüsusi təhsilin növündən asılı olaraq fərqlənirlər.

Zamanla inkluziv təhsil təcrübəsi hər iki kateqoriyalı tələbələr üçün birgə təlimin ciddi məzmunlu problemlərini ortaya çıxardı: birincisi, xüsusi təhsilə ehtiyacı olmayan tələbələr üçün təlimin effektivliyinin əhəmiyyətli dərəcədə azalması və əlilliyi olan insanlar üçün təhsil proqramının mənimsənilməsində geriləmə; ikincisi, müəllimlərin peşəkar səriştələri ilə bağlı müəyyən çətinliklər. Buna görə də, onun inkişafına daxil olmaq ideyası tədricən daha çevik yanaşmalara çevrildi.

Bu günə qədər inkluziv təhsilin “uyğunlaşdırılmış təhsil” (uyğunlaşdırılmış təhsil) kimi başa düşülməsi, yəni tədris metodlarının istənilən tələbənin ehtiyaclarına uyğunlaşdırılmasıdır. Bu, artıq xüsusi təhsilə ehtiyacı olan uşağın belə ehtiyacları olmayan uşaqlarla birlikdə təhsil prosesinə sadə “daxil edilməsi” deyil, universal deyil, fərdi yanaşmadan istifadə edən yeni təhsil modelinin qurulmasıdır. Bu cür təhsilin əsas prinsipi və forması onun fərdiləşdirilməsidir ki, bu da təhsil sistemini daha çevik, tələbələrin ən müxtəlif təhsil ehtiyaclarına yönəlmiş, təhsil prosesini bu ehtiyaclara uyğun olaraq tənzimləyə bilən sistemə çevirmək ehtiyacını əvvəlcədən müəyyən edir.

Azərbaycan Respublikası Qanunvericiliyi dövlət və yerli hakimiyyət orqanlarının əlilliyi olan şəxslərin təhsili üçün şərait yaratmaq öhdəliyini müəyyən edir. Qanunda təsbit edilmiş ən mühüm prinsip, bu cür şəxslərin sosial inkişafına, o cümlədən inkluziv təhsilin təşkili yolu ilə töhfə verən ayrı-seçkiliyə yol verilməyən, yüksək keyfiyyətli təhsildən bəhs edir (Ağayev, 2006, s.78).

Azərbaycan Respublikası qanunvericiliyi, inkluziv təhsili müəyyən edərkən, xüsusi təhsil ehtiyaclarının və fərdi imkanların müxtəlifliyini nəzərə alaraq, hər kəs üçün təhsilə bərabər çıxışın təmin edilməsi kimi başa düşərək, geniş bir yanaşma tətbiq edir. Bu o deməkdir ki, inkluzivlik prinsipi qanunvericilikdə təhsildə ayrı-seçkiliyə yol verilməməsi və təhsilin fərdin ehtiyaclarına uyğunlaşdırılması haqqında ümumi ideyaya vasitəçilik edən universal bir prinsip kimi təsbit edilmişdir. Bu yanaşma bir çox cəhətdən “Təhsil 2030: Həyat boyu universal inkluziv və ədalətli həyat keyfiyyətinin təmin edilməsi” İnçon Bəyannaməsində əks olunmuş inkluziv təhsilin başa düşülməsi konsepsiyası ilə uzlaşır. O, təkcə əlilliyi olan şəxslərin deyil, həm də sosial inteqrasiyaya və adaptasiyaya ehtiyacı olan digər kateqoriyaların (aztəminatlı təbəqələr, qaçqınlar, etnik azlıqlara mənsub şəxslər və s.) təhsilini əhatə edir (Воронич, 2013, с.18).

Bununla belə, “Təhsil haqqında” Qanunun məzmununun təhlili göstərir ki, inkluziv təhsilin universal prinsipi kimi elan edilmiş yanaşmaya baxmayaraq, inkluziv təhsil əsasən sağlamlıq imkanları məhdud şagirdlərin təhsil ehtiyaclarını ödəmək üçün şəraitin yaradılmasına yönəlib.

Qeyd etmək olar ki, hazırda Azərbaycanda inkluziv təhsil əsasən sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi təlim şəraiti yaratmaqla həyata keçirilir. Əlilliyi olan tələbələrin təhsil alması üçün xüsusi şərtlər altında, təhsil təşkilatının maddi-texniki komponentinə, təhsil prosesinin təşkilinə, əlilliyi olan tələbələrin imkanlarına uyğunlaşdırılmış təhsil proqramlarının məzmununa xüsusi tələblər başa düşülməlidir. və onların müvafiq səviyyədə tam hüquqlu təhsil almalarını təmin etmək. Belə xüsusi şərtlərə aşağıdakılar daxildir: xüsusi təhsil proqramlarından və təhsil və tərbiyə metodlarından istifadə; xüsusi dərsliklərdən, dərsliklərdən və materiallardan istifadə; xüsusi texniki təlim vasitələrindən istifadə; tələbələrə lazımi texniki yardım göstərən köməkçi (köməkçi)

xidmətlərinin göstərilməsi; qrup və fərdi düzəliş dərslərinin keçirilməsi, habelə təhsil təşkilatının binasına girişin təmin edilməsi - ümumiyyətlə Sənətdə tərtib edilmiş əsas qaydalara uyğundur.

Fikrimizcə, "xüsusi təhsil ehtiyacları" formulunun yalnız əlilliyi olan insanlar üçün təhsil kontekstində mövcud anlayışı tamamilə düzgün deyil. Bu, bu formulun yalnız bir tərəfidir.

Ədəbiyyat

1. Ağayev, Ə. (2006) Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2006. s.136-167
2. Ağayev, Ə.Ə., Rzayeva, Y.T., Hüseynova, T.M., Vahabova T.Ə. (2008) Sosial pedaqogikası. Bakı:Elm nəşriyyatı, s. 177-186
3. İsmixanov, M.A.,Vəliyeva S.V.Sosial pedaqogika. (2014).Mühazirə kursu.Bakı:Təhsil nəşriyyatı, s. 189-197
4. İsgəndərova, Y. (2011)Rollu oyunların təşkili qaydaları. \\ Kurikulum jurnalı, №4,s.103-109.
5. Воронич, Е.А. (2013). Сущность инклюзивного подхода в образовании //Периодический журнал научных трудов «Фэн-наука» - - №1 (16). - С. 17-20
6. Перфильевой М.Ю. (2009)Инклюзивное образование в России: право, принципы, практика / под ред.:. - М.: Транзит-ИКС, с.50-55

## XÜLASƏ

Məqalədə qeyd edilir ki, "İnklüziv təhsil" SİM uşaqların digərləri ilə bərabər formada keyfiyyətli təhsilə cəlb edilməsidir və bu, fasiləsiz prosesdir. İnklüziya uşaqların sosial mühitdən ayrı düşməsinin, cəmiyyətdə ayrı-seçkiliklə üzləşməsinin qarşısını almaq üçün ən effektli vasitələrdən biridir. İnklüziv təhsil sistemli yanaşma və uzunmüddətli bir strategiya kimi qəbul edilir. Eyni zamanda, inklüziv təhsilin təşkilində və idarə olunmasında hüquqi baza və siyasətlər araşdırılaraq təhlilə cəlb edilir.

***Açar sözlər:*** *inklüziv, təhsil, hüquq, təlim, siyasət*

## РЕЗЮМЕ

В статье указано, что «Инклюзивное образование» — это вовлечение детей с ограниченными возможностями здоровья в качественное образование наравне с другими, и это непрерывный процесс. Инклюзия является одним из наиболее эффективных средств предотвращения изоляции детей от социальной среды и дискриминации в обществе. Инклюзивное образование рассматривается как системный подход и долгосрочная стратегия. В то же время изучаются и анализируются правовая база и политика в области организации и управления инклюзивным образованием.

***Ключевые слова:*** *инклюзивное, образование, право, обучение, политика.*

## SUMMARY

The article states that "Inclusive education" is the involvement of children with disabilities in quality education on an equal basis with others, and this is a continuous process. Inclusion is one of the most effective means to prevent children from being separated from the social environment and facing discrimination in society. Inclusive education is considered as a systematic approach and a long-term strategy. At the same time, the legal framework and policies in the organization and management of inclusive education are examined and involved in the analysis.

***Key words:*** *inclusive, education, law, training, policy*

# MÜƏLLİM HAZIRLIĞINDA CHAT GPT-DƏN İSTİFADƏNİN METODİKİ XÜSUSIYYƏTLƏRİ

**Qurbanlı Nərmin Mübariz qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

21-ci əsr sürətli texnoloji tərəqqi və süni intellektin müxtəlif sahələr üzrə transformativ təsiri ilə yadda qalan bir dövrdür. Bu dövr təhsil sektorunu da öz təsiri altına almışdır. Təhsil sahəsi inkişaf etməyə davam etdikcə, müəllim hazırlığı proqramları texnoloji dövrün tələbələrinin müxtəlif və dinamik ehtiyaclarını ödəmək üçün müəllimləri lazımi bacarıq və biliklərlə təmin etmək üçün uyğun olmalıdır. Süni intellekt texnologiyalarının müəllim hazırlığı sahəsinə inteqrasiyası pedaqoqları bugünkü sinif otağı mühitinə uyğun şəkildə yetişdirmək üçün perspektivli bir yol kimi ortaya çıxdı. Bu süni intellekt texnologiyaları arasında ən müasir dialoq modeli olan Chat GPT müəllim hazırlığı metodologiyalarında kəskin dərəcədə dəyişiklik etmək potensialına görə bütün diqqətləri özünə cəlb etdi.Təhsil, ictimai tərəqqinin və insan inkişafının təməl addımı kimi tələbələrin ehtiyaclarına uyğunlaşan dinamik yanaşma tələb edir. Süni intellektin yaranması ilə pedaqoqlar indi nəinki hazırlıqları materialları təkmilləşdirə, həm də müasir təhsilin daim dəyişən tələblərinə cavab verməyə imkan verən innovativ vasitələrə çıxış əldə edirlər.

Chat GPT-nin müəllim hazırlığında potensial istifadəsi formaları:

Dərsin planlaşdırılması: Müəllimlər dərs planlanlarını şagirdlər arasında beyin həmləsi etmək, cəlbedici alət və metodlardan istifadə etməkç mövcud dərs planlarını təkmilləşdirmək üçün ChatGPT-dən istifadə edə bilərlər. ChatGPT kurikulum standartlarına uyğun, təlimin məqsədlərinə və təhsilalanların ehtiyaclarına əsaslanan təkliflər verə bilər.

Peşəkar inkişaf: ChatGPT müəllimləri tədris strategiyaları, elmi-pedaqoji tədqiqatlar və qabaqcıl texnologiyalar haqqında ən yeni informasiya ilə təmin etməklə peşəkar müəllim inkişafı üçün istifadə oluna bilər. O, sualları cavablandıraç davamlı öyrənməyə dəstək üçün resursları tövsiyə edə və hətta yeni yanaşmalar təklif edə bilər. ChatGPT tədris metodları, qiymətləndirmə strategiyaları, sinif idarəçiliyi və tələbə cəlb edilməsi ilə bağlı suallara cavab verməklə pedaqoji dəstək təklif edə bilər. Müəllimlər problemlərlə qarşılaşdıqları zaman ChatGPT ilə məsləhətləşə və ya tədris təcrübələrində rəhbərlik axtara bilərlər.

Əlaqə və Reflection: ChatGPT müəllimlər tərəfindən təqdim olunan video qeydlər və ya digər tədris materialları əsasında tədris performansı haqqında rəy verə bilər. O, tədris prosesinin keyfiyyətini təhlil edə, təkmilləşdirməli sahələri müəyyən edə bilər.

Xarici dillərin öyrənilməsi: Xarici dil fənnini tədris edən müəllimlər üçün ChatGPT kğməkçi dil öyrənmə vasitəsi kimi çıxış edə bilər. O, müəllimlərə materiallar hazırlamağa, dilin istifadəsi üçün aktiv dərs planı yaratmağa, orijinal nümunələr hazırlamağa kömək edə bilər.

Tədqiqat və İnnovasiya: ChatGPT müəllimlərə və tələbələrə ən son təhsil tədqiqatları və innovasiyalar haqqında məlumatlı olmaqda kömək edə bilər. O, tədqiqat məqalələrini ümumiləşdirə, yaranan tendensiyalar haqqında anlayışlar təqdim edə və yeni bilik və fikirləri sinifdə necə tətbiq etmək barədə müzakirələri konkretləşdirə bilər.

Müəllim hazırlığında Chat GPT-nin tətbiqi metodologiyası:

Bu tədqiqatın məqsədi ən müasir süni intellekt dialoq modeli olan Chat GPT-nin müəllim hazırlığı proqramlarına inteqrasiyasının təsirini araşdırmaqdır. Tədqiqat Chat GPT-nin tələbə kollektivində ümumi pedaqoji bacarıqları necə artıra biləcəyini qiymətləndirməyə çalışır. Qarışıq metodlar yanaşmasını qəbul etməklə, həm keyfiyyət, həm də kəmiyyət verilənlərinin toplanması və təhlilini birləşdirərək, bu tədqiqat Chat GPT-nin müəllim hazırlığında rolunu müxtəlif aspektlərdən araşdırır.

Tədqiqat müəllim hazırlığı proqramına daxil olan tələbələri əhatə edir. İştirakçılar iki qrupa bölünür: təlimlərinin bir hissəsi kimi Chat GPT-dən istifadə edən eksperimental qrup və Chat GPT olmadan ənənəvi təlim kurikulumunu izləyən nəzarət qrupu.

Sınaqdan əvvəl və sonra: Hər iki qrup öz pedaqoji bacarıq və biliklərini qiymətləndirmək üçün təlimdən əvvəl və sonrakı qiymətləndirmələrdən keçir. Bu qiymətləndirmələrə yazılı testlər, pedaqoji qabiliyyətlərin nümayişi və özünüqiymətləndirmə sorğuları daxildir.

Chat GPT İnteqrasiyası: Eksperimental qrupa dərs planlaması, real vaxt rejimində sinfin idarəsi və verilənlərin təhlili daxil olmaqla müxtəlif məqsədlər üçün Chat GPT-ə giriş təmin edilir. Onlara təlimlərinin bir hissəsi kimi Chat GPT-dən səmərəli istifadə etmək öyrədilir.

Verilənlərin toplanması: Verilənlər müxtəlif mənbələr, o cümlədən performans qiymətləndirmələri, iştirakçı sorğuları, müsahibələr və Chat GPT ilə qarşılıqlı əlaqə jurnalları vasitəsilə toplanır. Verilənlərin toplanması tədrisin effektivliyi, tələbənin tədris prosesinə cəlbi və məmnuniyyəti kimi bir sıra amilləri əhatə edir.

Verilənlərin təhlili: Təlimdən əvvəl və sonrakı test balları kimi kəmiyyət verilənləri Chat GPT-nin tədris prosesinin nəticələrinə təsirini qiymətləndirmək üçün statistik olaraq təhlil edilir. Müsahibələr və sorğulardan əldə edilən keyfiyyət verilənləri iştirakçıların qavrama qabiliyyəti və təcrübələri haqqında fikir əldə etmək üçün tematik olaraq təhlil edilir.

Müqayisə və nəticə: Tədqiqat Chat GPT-nin inteqrasiyasının tələbələrin pedaqoji bacarıqlarında əhəmiyyətli irəliləyişlərə gətirib çıxardığını yoxlamaq üçün eksperimental və nəzarət qruplarının performansını müqayisə edir. Son olaraq müəllim hazırlığında Chat GPT-nin üstünlükləri və çətinlikləri nəzərə alınaraq bunun əsasında yekun nəticə çıxarılır.

Gözlənilən nəticələr: Bu araşdırmanın Chat GPT-nin eksperimental qrup daxilində pedaqoji bacarıqlarda, fərdiləşdirilmiş təlim prosesində və tələbələrin məmnunluğunda əhəmiyyətli irəliləyişlərə səbəb olacağını gözləyir. Tədqiqatın nəticələri Chat GPT kimi süni intellekt vasitələrinin müəllim hazırlığı metodologiyalarında inqilabi dəyişiklik edərək pedaqoqların müasir təhsil sisteminə daha peşəkar şəkildə hazırlamasına işıq salacaq.

Bu elmi tədqiqat yanaşmasına riayət etməklə tədqiqatçılar Chat GPT-nin müəllim hazırlığı kontekstində təsirini sistematik şəkildə qiymətləndirə, onun effektivliyi və pedaqoqlar üçün potensial faydaları haqqında dəyərli fikirlər təqdim edə bilərlər.

Ədəbiyyat

1. Anderson, T., & Dron, J. (2011). Three generations of distance education pedagogy. The International Review of Research in Open and Distributed Learning, 12(3), 80-97.
2. Clark, R. E., & Mayer, R. E. (2016). E-learning and the science of instruction: Proven guidelines for consumers and designers of multimedia learning. John Wiley & Sons.
3. Fitzpatrick, C. R. (2019). Chatbots, human-robot interaction, and teacher identity: A new approach to teacher professional development. Journal of Interactive Learning Research, 30(4), 409-431.
4. Karsenti, T., & Collin, S. (2017). The use of artificial intelligence in education: A systematic review. Educational Technology & Society, 20(3), 34-48.
5. Siemens, G. (2005). Connectivism: A learning theory for the digital age. International Journal of Instructional Technology and Distance Learning, 2(1), 3-10.

## MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN OPTİMALLAŞDIRILMASI

**Qurbanova Əsmər Ələskər qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məktəbəqədər təhsil müəssisələrində təhsilin keyfiyyətinin optimallaşdırılması bir ölkənin təhsil sistemində əhəmiyyətli bir məsələdir. Bu, öyrənənlərin keyfiyyətli təhsil almasını təmin etmək və təhsilin məzmununu və təcrübəsini məhv etməkdən çəkinmək məqsədilə əsaslı bir addımdır. Azərbaycan məktəbəqədər təhsil sistemi milli inkişaf və mədəniyyətimizin əsasını qoyan əhəmiyyətli bir sahədir. Bu sahənin effektivliyi öyrənənlərin

təhsil keyfiyyətini və beynəlxalq sahədə məqsədlərimizə nail olmağı təmin etməkdə mühüm rol oynayır. Məktəbəqədər təhsil müəssisələrində təhsilin keyfiyyətinin optimallaşdırılması bu sahənin potensialını həyata keçirmək və daha yaxşı nəticələr əldə etmək üçün əsaslı bir məsələdir.

Təhsilin keyfiyyətinin optimallaşdırılması prosesi bir sıra əhəmiyyətli dəyişənləri əhatə edir. Bunlar arasında müəllim heyətinin təlimi, təlim prosesində texnologiyanın istifadəsi, tədris sahələrinin tənzimlənməsi və təhsil prosesində təcrübələrin artırılması kimi məsələlər var. Bu dəyişənlərin hamısı uşaqların təhsil keyfiyyətini yaxşılaşdırmaq üçün müvafiq tədbirlərin görülməsini tələb edir.

Müəllimlərin işgüzarlığının artırılması və müəllimlik bacarıqlarının inkişaf etdirilməsi üçün təlimlər təşkil olunur. Bu təlimlər müəllimlərin liderlik, kommunikasiya, problem həll etmə və motivasiya kimi sahələrdə öz bacarıqlarını inkişaf etdirmək üçün yardım edir.

Məktəbəqədər təhsil müəssisələrində təlim prosesində texnologiyadan istifadə edilməsi təhsil prosesini daha maraqlı və təhsilin keyfiyyətini daha effektiv etmək üçün vacibdir. Bu həmçinin uşaqlara müasir dünya ilə daha yaxından tanış olmağı, özünü inkişaf etməyi, müstəqil düşünməyi və texnologiya sahəsində bacarıqlarını inkişaf etdirməyi təmin edir.

Tədris sahələrinin tənzimlənməsi öyrənənlərin mədəni, intellektual və sosial bacarıqlarının inkişafını təmin etmək məqsədi ilə yerinə yetirilir. Bu tənzimləmə prosesi, müvafiq qurumlar və standartlarla təmin edilir. Bu proses onların həm təhsil dövründə, həm də həyat boyu öyrənmə prosesində uğurlu olmalarına imkan verir.

Həmçinin bu proses uşaqların məktəbə getməyə motivasiyasını artırmaq, onların mühitini səmərəli bir şəkildə tənzimləmək, müəllimlərin və idarəçilərin təlim və inkişafına diqqət yetirmək kimi məsələləri də əhatə edir. Bunlar öyrənənlərin müvafiq sahələrdə təcrübə qazanmasını təmin etmək üçün müəssisələrin sərgilədiyi əməkdaşlıq, təşviqat və dəstəyi də əhatə edir. Bütün bu tədbirlər məktəbəqədər təhsilin səviyyəsini yaxşılaşdırmaq üçün əsaslı bir addımdır.

Məktəbəqədər təhsil müəssisələrində təhsilin keyfiyyətinin optimallaşdırılması Azərbaycan təhsil sistemində mühüm bir məsələdir. Məktəbəqədər təhsil sahəsində effektiv strategiyaların və tədbirlərin icrası milli təhsilimizin inkişafını təmin etməkdə əsaslı bir rol oynayır. Bu, cəmiyyətin intellektual potensialının artırılması və inkişafı üçün əsaslı bir addımdır.

Ədəbiyyat

1. Cascio, E. U., & Schanzenbach, D. W. (2013). The impacts of expanding access to high-quality preschool education (No. w19735). National Bureau of Economic Research.
2. Kragh-Müller, G., & Ringsmose, C. (2015). Educational quality in preschool centers. Childhood Education, 91(3), 198-205.
3. Sundqvist, P., & Nilsson, T. (2018). Technology education in preschool: Providing opportunities for children to use artifacts and to create. International Journal of Technology and Design Education, 28, 29-51.
4. Turgunova, F., & Abdurahimovna, R. S. (2023). Research on the level of quality of preschool education and the development of trends in international experience. Журнал иностранных языков и лингвистики, 5(5).

# КОМПЬЮТЕРНАЯ ЗАВИСИМОСТЬ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА И ЕЁ КОРРЕЛЯЦИЯ С ЛИЧНОСТЫМИ КАЧЕСТВАМИ ИХ РОДИТЕЛЕЙ

**ЛИ-БЯО**

*Азербайджанский педагогический университет*

Компьютер и другие информационные устройства - мобильный телефон, планшет уже давно стали частью жизни современного человека. С одной стороны, это позволило упростить жизнь современному человеку, в том числе и ребенку. С другой стороны, появилось немало новых проблем, среди которых - компьютерная и интернет зависимость. Особенно тревожно, если пленником виртуальной реальности становится ребенок. Давайте вместе попробуем разобраться в том, что такое компьютерная зависимость у детей – болезнь или просто увлечение? Что делать, чтобы не допустить ее появления.

Зависимость появляется из-за решения родителей! Все начинается обычно по одному сценарию. Сотовый телефон, компьютер или планшет такая удобная вещь для отвлечения ребенка! Малыш пристает к маме, он хочет пообщаться или поиграть, но маме некогда – она с обеда еще не общалась “в контакте”. И чтобы нейтрализовать ребенка, она дает ему сотовый телефон: «На, поиграй». Таким образом, она получает полчаса свободного времени, и ребенок вроде как развивается, приобщается к технике и учится реагировать на ее сигналы. Это не может не понравиться им обоим. В этом возрасте у детей при непосредственном участии родителей формируется пока еще привычка развлекать себя при помощи компьютерных игр. У ребенка формируется устойчивая связь – захотел развлечься – взял телефон, айфон, планшет, ноутбук. Никакие другие классические детские развлечения его уже не интересуют. И скоро ребенок и сам не захочет складывать пирамидки и кубики и катать машинку. Ни чтение книги, ни настольная игра, ни “вышибалы”, ни “казаки-разбойники” не в состоянии конкурировать с теми поистине безграничными возможностями, которые дает компьютерный мир. Каждый вечер в доме будут звучать два слова: «Дай поиграть!» Заменяя пальчиковые игры вождением пальцем по плоскости монитора, родители закрывают перед детьми дорогу к развитию.

Учеными было научно доказано, что мозг ребенка развивается через руки. Так устроен наш организм, что в младенчестве сигналы, получаемые от рук, особенно от пальчиков, стимулируют развитие мозга. При взаимодействие с гаджетами ребенок учится не только так развлекаться, он привыкает перенаправлять, смещать свои эмоции и чувства с живых людей на игру и интернет-общение. И это тоже происходит при “помощи” родителей. Ребенку захотелось пообщаться с мамой, прижаться к ней, обнять, а она, занятая чем-то, дает ему свой айфон. Дети не учатся делиться своими переживаниями с близкими, отвыкают видеть глаза собеседника, понимать его без слов. Происходит эмоциональное отделение поколения, многие современные дети не умеют выражать своих чувств и эмоций. Происходит подмена объектов любви: захотелось ласки – выйди в интернет. захотелось общения с близкими по духу людьми – интернет наше все.

Компьютерная игра не способна заменить классических развивающих и обучающих игр с реальными предметами – кубиками, пирамидками, книгами и карандашами. Ребенку необходимо прикосновение, чтобы понять этот мир. Трогая новый предмет, он не только познает его в ключе твердый - мягкий/теплый - холодный, но и текстуру, форму, объем, массу. Компьютер не дает такой возможности.

Какие есть причины компьютерной зависимости:

- отсутствие контроля со стороны родителей, неумение ребенка самостоятельно играть, организовывать свою игру;

- дефицит общения в семье, т. е. стремление заменить компьютером общение с близкими людьми;

- родители не осознают взросление ребенка и не изменяют стиль общения с ним; ребенку дома не комфортно, т. к. у него нет личного пространства, где бы он чувствовал себя хозяином;

- низкая самооценка и неуверенность ребенка в своих силах, зависимость его от мнения окружающих;

- замкнутость ребенка, его неприятие сверстниками;

- незнание правил психогигиены взаимодействия с компьютером.

Последствия компьютерной зависимости для физического здоровья: - нарушение функций глаз (ухудшение зрения, синдром «сухого глаза»);

- опорно-двигательного аппарата (искривление позвоночника, нарушение осанки);

- пищеварительной системы (нарушение питания, гастрит, хронические запоры);

- общее истощение организма – хроническая усталость вследствие дефицита сна и отдыха.

При этом эйфория и возбужденность, вызванные играми, могут маскировать усталость, что становится причиной еще большего утомления организма.

Как уберечь ребенка от зависимости? К сожалению, нет абсолютного рецепта. Есть рекомендации, исполнение которых позволит снизить вероятность возникновения зависимости. Профилактика компьютерной зависимости.

1. Родителям необходимо являть собой пример для своих детей, ведь они обучают их жить так, как делают это сами. Если включенный в течение всего дня телевизор является фоном для времяпровождения членов семьи в квартире, если родители сами подолгу зависают в Интернете и социальных сетях или постоянно играют в компьютерные игры, то чего же ждать от детей?

2. Взрослые должны с самого начала озвучить ребенку четкие и жесткие правила пользования телевизором, планшетом, компьютером и т. п. Твердый запрет на то, что родители считают вредным для своих детей (причем не только в рассматриваемой области), отнюдь не проявление жестокости с их стороны. Конкретные и разумные ограничения упорядочивают мир ребенка, делают его простым и понятным: четко зная границы дозволенного, он чувствует себя в безопасности.

3. Можно и даже нужно записать ребенка в кружок или секцию в соответствии с его интересами. Тогда, во-первых, у него будет оставаться меньше времени на компьютер и телевизор, во-вторых, он будет увлечен живым общением со сверстниками.

4. Поднимайте самооценку ребенка. Найдите ребенку занятие, в котором он будет успешен и будет выгодно отличаться от товарищей. Его наградные листы, удачные поделки, медали необходимо выставлять на витрине, чтобы гости семьи видели его успехи.

5. Периодически вместо проведения вечера у телевизора, компьютера, планшета можно устраивать прогулку или игру всей семьей в игры-загадки, шашки, шахматы, конструктор и пр.

6. Компьютер можно использовать для проведения совместно с ребенком экскурсии по виртуальному зоопарку или установить полезные для развития программы. Главное, помнить, что все хорошо в меру.

7. Рекомендуется соблюдать следующие ограничения пользования дошкольником компьютером или планшетом :

• продолжительность пребывания за компьютером (использования мобильного телефона, планшета, айпода и пр.) недолжна превышать10минут для детей 5 лет и 15–20 минут для детей 6–7 лет;

• не стоит допускать ребенка дошкольного возраста к компьютеру чаще трех раз в неделю, более одного раза в течение дня, а также поздно вечером и непосредственно перед сном;
• необходимо следить за тем, во что играет ребенок и какие фильмы он смотрит.
• ребенку все же лучше не покупать отдельный компьютер, пусть играет на папином. Тогда у вас в любое время будет веская причина сказать "достаточно" – компьютер нужен папе.
• родителям придется ознакомиться с популярными у их детей играми. Дети часто думают, что родители запрещают им играть потому, что не понимают, насколько это увлекательно. В этом случае мнение родителя, который знает игру, будет гораздо весомей, чем мнение родителя, который "не читал, но осуждаю".
•в жизни ребенка должно быть как можно больше реальных событий: забота о домашних животных, общение с друзьями, занятие спортом, общий со взрослыми досуг в будни и выходные, веселые приключения
Современные проблемы образования

Литература

1. Андреев В.И. Педагогика. - Казань: Центр инновационных технологий, 2004. - 608 с.
2. Анисимов О.С. Методологический словарь для управленцев/ Энциклопедия управленческих знаний. - Москва, 2002. - 295 с.
3. Анисимов О.С. Развитие. Моделирование. Технологии: Методологическая концепция управления образования/ Рос. акад. гос. службы при Президенте РФ. - Калуга, 1996. - 92 с. 4. Антонова Л.Н. Региональное управление социально-педагогической системой поддержки детей группы риска. - М.: Просвещение, 2004. - 304 с.
5. Антонова Л.Н. Социально-педагогическая поддержка детей группы риска: федеральный уровень. - М.: Просвещение, 2004. - 52 с.


## MONİTORİNQ TƏLİMİN KEYFİYYƏTİNİN GÖSTƏRİCİSİ KİMİ


**Mahmudova Sürayyə Kamal qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Müasir dövrdə təhsilə getdikcə daha çox səmərəli sosial inkişafın vacib amillərindən biri kimi baxılır. Daim dəyişən təhsil məkanı hər dəfə təhsilin keyfiyyətinə yeni tələblər qoyur. "Təlimin keyfiyyəti" anlayışı təhsilə dair normativ və hüquqi tələbləri, tarixi-mədəni ənənələri və təhsil sisteminin qurulmasının nəzəri və metodoloji prinsiplərini özündə əks etdirir. Təlimin keyfiyyəti təhsil müəssisəsinin məzunlarının rəqabət qabiliyyətinin, təlimdə yüksək nailiyyətlərin, texnoloji səmərəliliyin və tədris prosesinin müasir səviyyədə təşkilinin nəticəsidir.

Bu gün təlimin keyfiyyətinin qiymətləndirilməsində "monitorinq" anlayışına getdikcə daha çox rast gəlinir. Ümumiyyətlə, monitorinq prosesin istənilən nəticəyə uyğunluğunu müəyyən etmək üçün onun daimi müşahidəsi kimi müəyyən edilir. Monitorinqin həyata keçirilməsi mümkün olduqda obyektin daimi monitorinqinin (qiymətləndirilməsi, öyrənilməsi) təşkilini nəzərdə tutur. Monitorinqin vəzifəsi obyektin səmərəli fəaliyyəti üçün sözün geniş mənasında müəyyən problem və ya təhlükə barədə xəbərdarlıq etməkdir. Yalnız təhlükə yaradan dəyişikliklərin baş verməsi faktının bəyanatı deyil, vəziyyətin geri dönməz ola biləcəyindən əvvəl bu barədə xəbərdarlıq deməkdir. Bu, mümkün dağıdıcı hadisələrin qarşısını almaq və ya minimuma endirmək imkanı yaradır.

Təhsildə monitorinq təhsil sistemi və ya onun ayrı-ayrı elementləri haqqında məlumatların toplanması, emalı, saxlanması və yayılması sistemidir, idarəetmənin informasiya təminatına yönəldilir, istənilən vaxt obyektin vəziyyətini mühakimə etməyə

imkan verir və onun keyfiyyətini artırır. Təlimin keyfiyyətinin qiymətləndirilməsində iki monitorinq qrupundan istifadə olunur. Birinci qrup informasiyanın bilavasitə toplanması və strukturlaşdırılması ilə bağlı olan məlumat monitorinqidir. İkinci qrup şagirdlərin biliklərinin inkişafının monitorinqi sistemidir. Ümumi mənada şagird biliyinin monitorinqi sistemlərini həm ayrı-ayrı şagirdlərin, həm də şagird qruplarının biliklərinin həcminin uzunmüddətli qiymətləndirilməsinə imkan verən qiymətləndirmə vasitələrinin seçimi kimi müəyyən etmək olar. Uzunmüddətli qiymətləndirmə daha uzun müddət ərzində irəliləyişin qeydə alınması deməkdir. Şagirdlərin biliyinin monitorinq sistemləri konsepsiyası həm də təhsil müəssisəsi və məktəb tərəfindən irəliləyişlə qarşıya qoyulan məqsədlər arasında uyğunsuzluqların müəyyən edilməsi və bu tərəqqinin qeydə alınması üçün xüsusi vasitə kimi müəyyən edilir.

Təlimin keyfiyyətinin qiymətləndirilməsində monitorinqin istifadəsi aşağıdakıları müəyyən etməyə kömək edir:

- təhsil məqsədlərinə nail olub-olmaması;
- şagirdlərin bilikləri nə dərəcədə mənimsədikləri.

Pedaqoji elmdə monitorinq təhsil prosesinin sistematik diaqnostik müşahidəsi kimi başa düşülür. Monitorinq şəxsiyyətin və təhsil prosesinin peşəkar inkişafının diaqnostikasını, proqnozlaşdırılmasını və korreksiyasını əhatə edir. Şagirdlərin hazırlıq səviyyəsinin yoxlanılması və qiymətləndirilməsi prosedurlarının həm motivasiya, həm də tədris prosesinin idarə edilməsi baxımından təlim prosesində mühüm rol oynadığını nəzərə alsaq, təlimin keyfiyyətinin monitorinqi üçün yeni modellərin işlənib hazırlanması zərurətini təsdiqləyir.

Bu gün "monitorinq" anlayışı ilə yanaşı, daha bir anlayış geniş istifadə olunur: "təlimin keyfiyyətinin qiymətləndirilməsi sistemi" ümumi və ya razılaşdırılmış məqsədlər, texnologiya və vasitələr, təşkilati strukturlarla birləşdirilmiş komponentlər (alt sistemlər) məcmusu kimi başa düşülür. Monitorinq cəmiyyəti və təhsil sistemini etibarlı, kifayət qədər dolğun və istifadə səviyyəsinə görə fərqləndirilmiş informasiya ilə təmin etmək üçün təlimin keyfiyyətinin ən mühüm xüsusiyyətlərinə dair məlumatların daimi toplanması, onların işlənməsi, təhlili və şərhi sistemi kimi başa düşülməlidir. Başqa sözlə, monitorinq təhsil prosesinin və onun nəticələrinin standartlaşdırılmış müşahidəsidir ki, bu da zamanla obyektin vəziyyətinin tarixini yaratmağa, təlim subyektlərində və təhsil sistemində baş verən dəyişiklikləri kəmiyyətcə qiymətləndirməyə, istiqamətləri müəyyənləşdirməyə və proqnozlaşdırmağa imkan verir. Monitorinq sisteminin yaradılmasında əsas məqsəd təlimin keyfiyyətinin yüksəldilməsidir.

Monitorinq sistemində toplanmış məlumatlardan tədris metodlarında çatışmazlıqlar, kurikulumların nisbətindəki təhriflər, məktəb dərslikləri müəlliflərinin səhv hesablamaları və s. ilə bağlı tədrisdə problemlərin müəyyən edilməsi üçün istifadə oluna bilər. O, bölgədə, rayonda və ya ayrı-ayrı məktəb daxilində həyata keçirilən təhsildə innovasiyaların təsirini qiymətləndirməyə kömək edir. Monitorinq məlumatları məktəb rəhbərliyini və müəllimləri öz fəaliyyətlərini təkmilləşdirməyə və tədris prosesinin nəticələrinə görə məsuliyyətin artırılmasına töhfə verməyə sövq edir.

## TƏHSİLDƏ QİYMƏTLƏNDİRMƏNİN EFFEKTİVLİYİ VƏ ZƏRURİLİYİ

**Mehdiyeva Laminə Şahin qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Qiymətləndirmə təlimin mühim hissəsidir, belə ki, o təhsildə tələb olunan məqsədlərə yiyələnməyimizi üçün meyar rolunu oynayır. Qiymətləndirmə irəliləmə, tədris ehtiyacları, kurrikuluma və bəzi hallarda maliyyələşdirmə ilə bağlı qərarlara təsir göstərir. O, həm öyrənənlərə, həm də müəllimlərə tələbələrin hazırda nə başa düşdükləri və sonrakı tədris və

öyrənməni necə davam etdirəcəkləri barədə bərabər məlumat verir. Qiymətləndirmə bizi bu çətin sualları verməyə ruhlandırır:

"Öyrətdiyimizi öyrədə bilirikmi?" "Şagirdlər öyrənməli olduqları şeyi öyrənirlərmi?" "Fənni daha yaxşı öyrətmək və bununla da daha yaxşı öyrənməni təşviq etmək üçün bir üsul varmı?"

Qiymətləndirmə təhsil sisteminin doğru işləyib işləmədiyi haqqında bizə məlumat verir. Bu məlumat təhsildə idarəçi və təhsildə digər şagird valideyn kimi maraqlı tərəflərə verilir. Sistemdə yaxşı işləməyən və ya korreksiyaya ehtiyac olan hissələri müəyyən edib onun düzəldilib və ya inkişaf etdirilməsinə zəmin yaradır. Yəni qiymətləndirmə və dəyərləndirmə nəzarət mexanizmasını təmin edir. Əlavə olaraq, qeyd edək ki, təhsil sisteminin bütün sahələrində qiymətləndirmə və dəyərləndirməni həyata keçirmək mümkündür. Qiymətləndirmə monitorinq nəticələrinin müəyyən olunmuş norma və standartlarla qarşılaşdırılıb qərar verilməsi prosesidir.

Buna uyğun olaraq təhsil proqramı, müəllim profesionallığı və şagird nailiyyətləri kimi bir çox mövzuda qərar verilir. Bu qərarlar qiymətləndirmə nəticəsində əldə edilir. Qeyd etdiyimiz kimi qiymətləndirmə, ilkin məlumat alınması, inkişafın izlənilməsi, yekun nailiyyət səviyyəsinin yoxlanılması, güclü və zəif cəhələrin, boşluqların aşkarlanıb möhkəmləndirilməsi kimi müxtəlif məqsədlərlə həyata keçirilir. Qiymətləndirmədə əsas məqsəd hər hansısa bir istənilən cəhətin həqiqi dəyərinin tapılmasıdır. Lakin onu da unutmamalıyıq ki, qiymətləndirmə zamanı baş verən müxtəlif xətalar səbəbiylə qiymətləndirmə vasitəsi və nəticələr birbaşa ilk cəhətdən əldə edilməyə bilir. Elə bu səbəbdən sonda düzgün nəticə əldə etmək və bu nəticələr əsasında doğru qərar verə bilmək üçün əvvəlcədən xətasız, ən optimal qiymətləndirmə üsulunu seçməyə xüsusi diqqət və zehni güc ayrılmalıdır.

Əsas qiymətləndirmə :

1.ilkin səviyyənin qiymətləndirilməsi(diaqnostik,qiymətləndirmə)

2.irəliləyişlərin monitorinqi(formativ qiymətləndirmə)

3.yekun qiymətləndirmə(summativ qiymətləndirmə)

Ölkəmizdə aparılan təhsil islahatlarında şagird nailiyyətlərinin qiymətləndirilməsinə üstün yer ayrılması bu zərurətdən meydana gəlmişdir. İlk dəfə 2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" dövlət sənədi hazırlanmış və onun "Ümumi təhsil sistemində şagird nailiyyətlərinin qiymətləndirilməsi" bölməsində qiymətləndirmə məsələlərinin ilkin qaydaları təsbit edilmişdir.Qiymətləndirmə Konsepsiyasında şagird nailiyyətlərinin qiymətləndirilməsinin əsas xüsusiyyətləri, qiymətləndirmə növlərinin ümumi cəhətləri, məktəbdaxili, milli və beynəlxalq qiymətləndirmə növlərinin mahiyyət və məzmunu konseptual olaraq müəyyənləşdirilir.

## MÜƏLLİMİN PEŞƏ KEYFİYYƏTİNİN ARTIRILMASI İMKANLARI

**Mehrəliyev Sabir Qəzənfər oğlu**

*Azərbaycan Dövlər Pedaqoji Universiteti*

Müəllim təkcə məktəbin yox, ümumilikdə təhsil,təlim və tərbiyənin güzgüsüdür desək daha dəqiq və doğru olar. Sözsüz ki, hər müəllim bu adı sonadək qoruyub saxlamağı bacarmır. Bəzi hallarda məktəbin güzgüsü olan müəllim işində hər hansı nöqsana, gərəksiz və kobud davranışa yol verdiyi üçün müəllimlik adından və məktəbdən, təhsildən kənarda qalır.

Bu da çox vaxt müəllimdə bir sıra peşə keyfiyyətlərinin olmamasından irəli gəlir.

Müəllimin peşə keyfiyyətinin artırılması, onun əməksevər,intizamlı,işinə məsuliyyətli ,dəqiq və mübariz olması müəllimin peşə keyfiyyətlərindəndir. Müəllim öz əməyi sayəsində ucalır. Təhsilalanların,valideynlərin daima diqqət mərkəzində duran məsələlərdən biri müəllimin öz işini nə qədər, hansı dərəcədə sevməsidir. Əgər müəllim tədris etdiyi fənnə dair

hər hansı əyani,pedaqoji və digər vəsaitləri hazırlayaraq dərsə başlayarsa bu zaman dərsin və sinfin səmərəsi yüksək olar. O, eyni zamanda intizamlı,məsuliyyətlii davranışı ilə pedaqoji prosesin düzgün idarəsinə nail olmuş olar. Müəllim şagirdləri hər cür təhlükədən qoruyaraq onların pis vərdişlərinə mane olmalı,onların layiqli vətəndaş kimi yetişməsində böyük rol oynamalıdır. Təhsilverənlərin peşə keyfiyyətinin artırılması məqsədilə Respublikamızda fənn müəllimilərinin sertifikasiya proseslərinə cəlb edilməsi mühüm yer tutur. Burada onların yaxşı dərs keçmələri nəzəri biliklərlərinin keyfiyyətinin yoxlanılması ilə yanaşı hətta onlar pedaqoji-psixoloji müsahibədə olurlar.Həmçinin son dövrlər müəllimin peşə keyfiyyətinin artırılması məqsədilə bir çox təlimlər,seminarlar keçirilir.Burada təhsilverənlərlə yanaşı, beynəlxalq təcrübənin öyrənilməsi,beynəlxalq aləmdə müəllimin əsas özəlliklərinin nələrdən ibarət olduğu da onlara öyrədilir. Müəllimin peşə keyfiyyətinin artırılmasında əsas amillərdən biri də humanist dəyərlərin inkişaf etdirilməsidir. Müəllim bilikli, bacarıqlı, intizamlı, səriştəli olmaqla yanaşı humanist də olmalıdır.

Əgər müəllimdə humanist keyfiyyət yoxdursa o,insanların gözündə ucalmaz.Müəllim qayğıkeş,mehriban,mərhəmətli, vicdanlı olmağı bacarmaldır. Çünki müəllim cəmiyyətə layiqli vətəndaş yetişdirir. O, şagirdi ilə düzgün kommunikativ əlaqə qurmağı bacarmalı, ünsiyyətini dostluq,yoldaşlıq,əməkdaşlıq əsasında qurmalıdır. O, şagirdlərində fəal vətəndaş mövqeyi, milli özünüdərk, milli və ümumbəşəri dəyərləri mənimsədərək uşağı şəxsiyyət kimi yetişməsində fəal rol oynamalıdır. Təhsilalanların şəxsiyyətinə hörmətlə yanaşmalı,onun hər dərdinə ortaq olmağı,onlara qayğısını əsirgəməmməlidir. Pedaqoji ədəbiyyatlarda müəllimin peşə keyfiyyətlərinin artırılmasında 3 əsas keyfiyyət, bacarıq verilmişdir:

1)Təşkilatçılıq bacarıq

2)Kommunikativ bacarıq

3)Qnostik(idraki) bacarıq

Müəllim təşkilatçı,sinfi,qrupu idarə etməyi bacaran fəal şəxsiyyətdir. O, fəaliyyəti müddətində daxil olduğu sinfi necə ələ almağı bacarmalı, təhsilalanlara öz fikir və düşüncələrini izah edib, təlqin etməyi bacarmalıdır. Müəllim həmçinin öz ünsiyyətini səmərəli quraraq uşaqlarda təhsilə maraq oyatmalıdır. O, uşaqla dərs vaxtı və dərsdənkənar vaxtlarda da ünsiyyətdə olmalıdır. Fəal ünsiyyət prosesində uşaq təlim və tərbiyə işinə maraq göstərəcəkdir. Müəllim qnostik(idraki) bacarıq və keyfiyyətə də malik olmalıdır. O,elmin yollarını həm nəzəri, həm də məntiqi baxımdan düzgün öyrədə bilməlidir. Bu zaman müəllimdə peşə keyfiyyəti artar,səmərəli təhsil mühiti yaranmış olar.

Ədəbiyyat

1.Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu ,Bakı,Bakı çap evi,,2009

2.M.İlyasov. Müəllim Peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri,Bakı,Elm və Təhsil,2018.

## CHATGPT – ÜSTÜN VƏ ÇATIŞMAYAN CƏHƏTLƏR

**Məmmədli İlhamə Rizvan qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

ChatGPT süni intellekt formasıdır və istifadəçilərə süni intellekt tərəfindən yaradılmış insana bənzər şəkillər, mətn və ya videolar almaq üçün göstərişlər daxil etməyə imkan verən alətdir. ChatGPT 30 noyabr 2022-ci ildə San-Fransiskoda yerləşən OpenAI (böyük dil modellərinin ilkin GPT seriyasının yaradıcısı) tərəfindən istifadəyə verilib. OpenAI -- süni intellekt tədqiqat şirkətidir. Bu şirkət 2015-ci ildə Elon Musk və Sem Altman da daxil olmaqla bir qrup sahibkar və tədqiqatçı tərəfindən təsis edilib. OpenAI bir neçə investor tərəfindən dəstəklənir.

ChatGPT insani danışıq dialoqu yaratmaq üçün təbii dil emalından istifadə edir. Dil modeli suallara cavab verə və müxtəlif yazılı məzmunlar, o cümlədən məqalələr, sosial media yazıları, esselər, kodlar və e-poçtlar yarada bilər.

ChatGPT insana bənzər mətn yaratmaq üçün maşın öyrənməsinin alt dəsti olan dərin öyrənmədən istifadə edir. Təlim ümumi məlumatlarla başlayır, sonra konkret tapşırıq üçün daha uyğunlaşdırılmış məlumatlara keçir. İnsan təlimçiləri söhbətləri təmin edir və cavabları sıralayır.

İstifadəçilər ChatGPT-ə müxtəlif suallar, o cümlədən sadə və ya daha mürəkkəb suallar verə bilərlər, məsələn, "Həyatın mənası nədir?" və ya "Neçənci ildə Nyu York ştat oldu?" ChatGPT STEM fənləri ilə təcrübəlidir və kodu sazlaya və ya yaza bilər. ChatGPT-dən soruşulacaq sualların növlərinə heç bir məhdudiyyət yoxdur. Bununla belə, ChatGPT 2021-ci ilə qədər məlumatlardan istifadə edir, ona görə də həmin ili keçən hadisələr və məlumatlar haqqında məlumatı yoxdur.

ChatGPT indi alqoritmi üçün incə tənzimləmə prosesini ehtiva edən GPT-3.5 modelindən istifadə edir. ChatGPT Plus daha sürətli cavab müddəti və internet plaginləri təklif edən GPT-4-dən istifadə edir. GPT-4 həmçinin əvvəlki modellərlə müqayisədə fotoşəkilləri təsvir etmək, şəkillər üçün başlıqlar yaratmaq və 25.000 sözə qədər daha ətraflı cavablar yaratmaq kimi daha mürəkkəb tapşırıqları yerinə yetirə bilər.

ChatGPT çox yönlüdür və insan söhbətlərindən daha çoxu üçün istifadə edilə bilər.

*ChatGPT-nin üstünlükləri nələrdir?* Proqram inkişaf etməyə davam etdiyi üçün şirkətlər və istifadəçilər hələ də ChatGPT-nin faydalarını araşdırırlar. Bəzi üstünlüklərə aşağıdakılar daxildir:

- Səmərəlilik. Süni intellektlə işləyən chatbotlar gündəlik və təkrarlanan tapşırıqların öhdəsindən gələ bilər ki, bu da işçilərin diqqətini daha mürəkkəb və strateji məsuliyyətlərə yönəltməyə imkan verə bilər.
- Xərclərə qənaət. Süni intellekt chatbotlarından istifadə əlavə işçiləri işə götürmək və öyrətməkdən daha sərfəli ola bilər.
- Təhsil və təlim. ChatGPT virtual tərbiyəçi kimi xidmət etmək üçün daha mürəkkəb mövzularda izahat verməyə kömək edə bilər. İstifadəçilər həmçinin bələdçi və cavablarla bağlı hər hansı lazımi izahat tələb edə bilərlər.
- Təbii dil anlayışı. ChatGPT insana bənzər mətni anlayır və yaradır, ona görə də məzmun yaratmaq, suallara cavab vermək, söhbətlərdə iştirak etmək və izahat vermək kimi tapşırıqlar üçün faydalıdır.

*ChatGPT – nin çatışmayan cəhətləri:*

- Sarkazm və ironiyanı başa düşə bilmir.
- ChatGPT mətn verilənlər toplusuna əsaslanır.
- Sualın yanlış hissəsinə fokuslana bilər və dəyişə bilməz.
- ChatGPT heç bir məlumat və ya statistikaya dair təhlil və ya fikir təqdim etmir. ChatGPT statistik məlumat verə bilər, lakin bu statistikanın nə demək olduğu və ya mövzu ilə necə əlaqəli olduğu barədə heç bir real şərh vermir
- 2021-ci ildən sonrakı məlumatlar və hadisələr üçün bilik çatışmazlığı. Təlim məlumatları 2021 məzmunu ilə bitir. ChatGPT götürdüyü məlumatlara əsaslanaraq yanlış məlumat verə bilər. ChatGPT sorğunu tam başa düşmürsə, o, qeyri-dəqiq cavab da verə bilər. ChatGPT hələ də öyrədilir, ona görə də cavab səhv olduqda rəy bildirmək tövsiyə olunur.

ChatGPT-yə necə daxil ola bilərik? ChatGPT-yə daxil olmaq üçün OpenAI hesabı yaratmaq lazımdır. Bunun üçün chat.openai.com saytına gedib və sonra "Qeydiyyatdan keç" düyməsinə klikləmək lazımdır. Açılan pəncərədə e-poçt ünvanı daxil edirik və ya daxil olmaq üçün Google və ya Microsoft hesabından istifadə edə bilərik. Qeydiyyatdan keçdikdən sonra

ChatGPT ana səhifəsi ekrana gəlir. Və biz bu səhifəyə bizi maraqlandıran sualları daxil etməklə cavablar əldə edə bilərik.

Ədəbiyyat

1. C't-Redaktion C't Working with AI. Inrease Your Productivity with Artificial Intelligence
2. Testbook.com Science and Technology Current Affairs E-Book.
3. Wil Hoverd, Deidre Ann McDonald State of Threat The Challenges to Aotearoa New Zealand's National Security

## PEŞƏ TƏHSİLİNİN ƏHƏMİYYƏTİ HAQQINDA

**Məmmədova Aydan Afiq qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bu gün qloballaşma və informasiya-kommunikasiya texnologiyalarında baş verən davamlı yeniliklər texniki və peşə təhsilinin inkişafını zərurətə çevirir. Bu təhsil növü fərdləri həyatın mürəkkəbliyinə hazırlayır və onlara demokratik cəmiyyətlərin əsas dəyərlərinə uyğun bacarıqlar verir. Xüsusilə, peşə təhsili və təlimi prosesi bədii istedadların inkişafında, real həyatda qarşıya çıxan problemlərin həlli üçün praktiki təcrübə və bacarıqların mənimsənilməsində mühüm rol oynayır. Buna görə də sənayeləşmiş cəmiyyətlər dünyanı daha yaxşı bir yerə çevirməkdənsə, peşə təhsilinə daha çox sərmayə qoymağa üstünlük verirlər. Peşə təhsili və təliminin bu şəkildə dəstəklənməsi fərdlərin cəmiyyətə daha faydalı olmasını təmin edir və sosial rifahın artmasına töhfə verir. Bu kontekstdə peşə təhsili və təlimi gələcəyin bacarıq və ehtiyaclarına uyğun olaraq daim yenilənməlidir. Bu yolla fərdlərin və cəmiyyətlərin dəyişən şərtlərə və tərəqqiyə uyğunlaşması mümkün olacaq. Müxtəlif sənaye sahələrində yaranan yeni biznes sahələri adətən yüksək səviyyəli təcrübə və peşəkar təlim tələb edir. Ona görə də peşə təhsili sistemi yenidən qurulmalıdır ki, fərdlərə müxtəlif əsas bacarıqlar aşılansın. Peşə təhsili fərdlərə iş bacarıqlarını, həyatı bacarıqlarını və şəxsi qabiliyyətləri öyrətməklə keyfiyyətli həyat üçün təməl imkanları təmin edə bilər. Bu bacarıqlara malik şəxslər gələcək çətinliklərə daha yaxşı uyğunlaşa və daha möhkəm ola bilərlər. Əsas məqsəd səmərəli tədris və təlimi təmin etmək üçün təhsil sisteminin yenidən qurulmasıdır. [3] Peşə təhsili məktəb, ətraf mühit və əmək bazarı arasında qarşılıqlı əlaqə vasitəsilə həyata keçirilir.

İqtisadi və sosial həyatın müxtəlif sahələrində məşğulluq üçün fərdlərin yetişdirilməsini hədəfləyən peşə təhsili texnologiya və əlaqəli elmlərdə işləməyi və praktiki bacarıqlara yiyələnməyi əhatə edir. Peşə təhsili fərdləri müasir iş dünyasında ehtiyac duyulan işçi qüvvəsi növlərinə hazırlayır və onlara əmək bazarında rəqabət üstünlüyü əldə etməyə imkan verir. Texnologiya, elm və sənayeləşmə sahələrində davamlı tərəqqi edən ölkələrdə bu tərəqqi ilə yanaşı, inkişaf edən texnologiya və sistemlərdən istifadə edə biləcək ixtisaslı işçi qüvvəsinə tələbat artır. Bu məqamda peşə və texniki bacarıqlara malik ixtisaslı kadrların yetişdirilməsi üçün səmərəli peşə və texniki təhsil sistemlərinin yaradılması böyük əhəmiyyət kəsb edir.

Peşə və texniki-peşə məktəblərində təklif olunan təlimlərlə tələbələrə müasir texnologiya üsulları öyrədilir. Lakin təkcə bu nəzəri və texniki təlimlər kifayət etmir. Bu səbəbdən bu tip təlimləri dəstəkləyən ölkələr və idarələr ixtisaslı işçi qüvvəsinə ehtiyacı olan müəssisə və qurumlarla əməkdaşlıq etməlidir. İxtisaslı işçi qüvvəsinin yetişdirilməsində nəzəri biliklərlə yanaşı, bu məlumatların şərhi, inkişaf etdirilməsi və iş həyatında səmərəli istifadə edilməsi də vacibdir. Müəssisələr təcrübə və məşğulluq imkanları təklif edərək ixtisaslı işçi qüvvəsinin hazırlanmasına kömək etməlidirlər. Peşə təhsilinin keyfiyyətini artırmaq və iş dünyasına daha çox töhfə vermək üçün dünyada edilən yeni tənzimləmələrin sayı artır. Bu islahatların uğuru təkcə ideya yaradan, siyasət hazırlayan və bu siyasəti həyata

keçirən idarəçilərdən deyil, həm də siyasəti həyata keçirəcək insanlardan asılıdır. Agrawals (2013) tərəfindən qeyd edildiyi kimi, peşə və texniki təhsil daha yaxşı iş imkanları üçün pasportdur. Peşə təhsili ümumiyyətlə orta və ali təhsil səviyyəsində təklif olunur, lakin təlimi təmin edən qurumların məqsədləri fərqli ola bilər. [1] Ümumiyyətlə, peşə təhsili məşğulluq üçün lazım olan bacarıqları təmin etmək məqsədi daşıyır. Peşə təhsili fərdləri müəyyən bir peşəyə hazırlamaq üçün nəzərdə tutulub və buna görə də ölkənin məhsuldarlığı və rəqabət qabiliyyəti ilə birbaşa bağlıdır. Peşə məktəblərində əldə olunan nəzəri biliklərin əmək bazarında təcrübə və təcrübə ilə birləşdirilməsi gənc fərdlərin əmək bazarına keçidini asanlaşdıra bilər. Bu birləşmə bizə marağının günü-gündən artan dual peşə təhsili modelini xatırladır.

Əmək əsaslı peşə təhsili və təlim sistemi Avropa və digər ölkələrdəki dövlətlər üçün mühüm modeldir və müxtəlif komponentləri özündə cəmləşdirir. Keyfiyyətli peşə təhsili və təlimi Almaniya, Avstriya və İsveçrə kimi ölkələrdə təklif olunur və bu ölkələr geniş ikili təlimləri (dual təlim) ilə tanınırlar. Bu təlim modeli müxtəlif maraqlı tərəflər arasında tədrisi birləşdirərək biznes ehtiyacları ilə daha yaxşı uyğunlaşır.

Peşə təhsili Azərbaycanın gələcəyi üçün hər zamankindən daha vacibdir. Buna görə də, dəyişən dünya ehtiyaclarına cavab vermək üçün peşə təhsilinin yenidən qurulması müzakirə edilməlidir. Çünki inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə insan resurslarının keyfiyyətinin yüksəldilməsi üçün peşə təhsili siyasətinə üstünlük verilir. Azərbaycanda işsizlik səviyyəsinin istənilən səviyyəyə endirilməməsi, təhsil sahəsində işsizlik səviyyəsinin artması sənayenin peşəkar və ekspert kadrlara ehtiyacının artdığını göstərir. Son illər peşə təhsili alanların sayı ali təhsil müəssisələrində təhsil alanların sayına yaxınlaşıb. Peşə təhsili müəyyən bir peşəni yerinə yetirmək üçün tələb olunan bilik, bacarıq və praktiki tətbiq bacarıqları ilə yanaşı, fərdlərin əqli, emosional, sosial, iqtisadi və şəxsi aspektlərinin balanslaşdırılmış şəkildə inkişaf etdirilməsi prosesidir. Əsas məqsəd fərdlərə peşə təhsili vasitəsilə karyeralarını planlaşdırmaq və cəmiyyətə faydalı olmaq imkanı yaratmaqdır. Təhlillərə əsasən deyə bilərik ki, XXI əsrin əvvəlləri ilə müqayisədə işsizlik səviyyəsi Azərbaycanda hazırda 10%-dən aşağı düşmüşdür və bu da peşə təhsil müəssisələrinin əhəmiyyətini artırıb. [5] Qarşıdakı dövrlərdə ixtisaslaşmış kadrların hazırlanmasında, peşə təhsilinin rolu daha da artacaqdır. Təhsilin gələcəyinə dair bu cür baxış onun qlobal dinamikasını və xüsusən də Azərbaycan üçün təsirlərini incə şəkildə başa düşməyi təklif edir. Yenilikləri qəbul etmək, problemləri həll etmək və təlim planlarını inkişaf edən işçi qüvvəsinin ehtiyaclarına uyğunlaşdırmaq vacibdir.

Ədəbiyyat

1. Özsoy E. C., "Mesleki Eğitim - İstihdam İlişkisi: Türkiye'de Mesleki Eğitimin Kalite Ve Kantitesi Üzerine Düşünceler", Electronic Journal of Vocational Colleges-UMYOS Özel Sayısı, 2015, s.174
2. İlk Peşə-İxtisas Təhsili: Problemlər Və Perspektivlər (Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun 85 illiyinə həsr olunmuş) Bakı - 2016
3. https://edu.gov.az/upload/file/serencama-elave/2016/peshe-tehsil-yol-xeritesi.pdf
4. https://edu.gov.az/az/vocational-education
5. https://modern.az/tehsil/363277/pese-tehsili-almaq-isteyenlerin-statistikasi/

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ OYUN METODLARININ ƏHƏMİYYƏTİ

**Məmmədova Aytac Rəfail qızı**

*Bakı Slavyan Universiteti*

Dövrümüz xarici dilin tədrisində yeni metodların axtarışı ilə xarakterizə edilir. Metodlar təkcə nitq bacarıqlarının keyfiyyətini inkişaf etdirmir, həm də şagirdlərin

şəxsiyyətinin inkişafına töhfə verir. Bəzi ümumtəhsil məktəblərində xarici dilin tədrisinin müasir metodlarının bizdən tələb etdiyi effektiv üsulları axtarmaq üçün biz oyunu həm təhsil, həm idrak və təhsil vəzifələrini tədris etmək, həm də həyata keçirmək üçün effektiv metod kimi öyrənən təhsil psixologiyasına müraciət edirik.

Bir çox psixoloq və müəllim oyunun və onun psixoloji prinsiplərinin öyrənilməsi haqqında araşdırmalar aparmışdır. Tanınmış şəxs D.B. Elkonin "Oyun psixologiyası" araşdırmasında yazırdı: "Oyun sözü sözün əsl mənasında elmi anlayış deyil. Bəlkə də məhz ona görə ki, bəzi tədqiqatçılar "oyun" sözü ilə ifadə olunan hərəkətlərin müxtəlifliyi və fərqliliyi arasında ümumi dil tapmağa çalışıblar ki, biz bu fəaliyyətlər arasında hələ də qənaətbəxş bir izahat tapmamışıq." [6, s. 14].

Oyun müxtəlif fəlsəfi, mədəni, psixoloji və metodoloji mövqelərdən öyrənilmiş mürəkkəb sosial-mədəni hadisədir. Oyunların təhsildəki funksiyasını inkişaf etdirərkən, bir çox müəllim təbiidir ki, təlim prosesində oyunlardan istifadənin effektivliyinə diqqət yetirir. Aydındır ki, dərs prosesində oyunlar sinifdə müsbət psixoloji ab-havanın yaradılmasına kömək edir və şagirdlərin fəaliyyətini aktivləşdirir. Oyunlar bir şəxsin xüsusi bir bacarığını və ya qabiliyyətini gözlənmədik bir şəkildə ortaya çıxarmağa da kömək edir.

Məqalənin aktuallığından danışmaq istəsək, A.E. Brambalovun dediklərinə diqqət yetirə bilərik. "Oyun emosional və zehni gücün gərginliyini tələb edən, xüsusilə təşkil edilmiş bir fəaliyyətdir. Oyunlar hər zaman: nə ediləcəyi, nə deyiləcəyi, necə qazanılacağı haqqında qərar qəbul etməyi əhatə edir. Bu problemləri həll etmək istəyi şagirdlərin zehni fəaliyyətini kəskinləşdirir" [3].

Oyun texnologiyalarından xarici dil dərslərində kifayət qədər istifadə olunmur və hələ də tam olaraq tədris vasitələrindən biri deyil. Ümumtəhsil məktəbərində oyunlar çox vaxt sinifdə əyləncəli bir an kimi və ya şagirdlərin istirahəti üçün istifadə edilir.

Unutmaq olmaz ki, XX əsrin ortalarından 1970-ci illərə qədər xarici dil dərslərində qrammatik tərcümə metodu üstünlük təşkil edirdi. Bu metodun əsas məqsədi xarici dil mətnlərinin oxunmasına və başa düşülməsinə imkan verən qrammatikanı öyrənmək idi. Rusiyada yalnız 1960-cı illərdə ictimai həyatın liberallaşması dövründə həvəsli novatorlar Ş. Amonaşvili, S. Lisenkova və S. Soloveyçik tərəfindən irəli sürülmüş "həvəslə öyrənmək" ifadəsi yayılmağa başladı. Oyun texnologiyaları, kommunikativ metodun yaranması ilə köhnə metodları əvəz etməyə başladı. Hal-hazırda həm uşaqlara, həm də böyüklərə xarici dilin öyrədilməsi metodu kimi oyunlar haqqında bir çox əsər yazılıb ki, onların müəlliflərinə A.S. Puqaçova, P.I. Pidkasisti, A.V. Zaporojets, A.P. Panfilova və bir çox şəxsi misal çəkmək olar. [1-5].

Bu məqalənin məqsədi xarici dil dərslərində istifadə olunan oyun texnologiyalarının mövcud təsnifatlarının tənqidi təhlilidir. P.I. Pidkasistinin araşdırmasına əsaslanaraq deyə bilərik ki, biz xarici dilləri öyrətmək üçün oyun texnologiyalarını təbii və süni olaraq iki yerə ayıra bilərik [4, s. 45]. Təbii oyun, öz-özünə öyrənmənin təbii prosesləri sayəsində bir insanın tanış və qeyri-adi mühitlərdə yeni fəaliyyət formalarını və üsullarını müstəqil şəkildə mənimsədiyi kortəbii istiqamətləndirici fəaliyyətdir. Bir neçə oyun qrupu var ki, onların hər biri müəyyən bir məqsədə xidmət edir və özünəməxsus xüsusiyyətlərə malikdirlər.

1-ci qrup – obyekt oyunları, məsələn, obyektlərlə manipulyasiyalardır.

2-ci qrup – yaradıcı oyunlar, rollu oyunlardır.

Bu oyunlar rollu oyunlara və simulyasiyalara (xəyali vəziyyətlərə) bölünür. Birinci tip təhsil fəaliyyətinin ən aşağı, ikinci tip isə ən yüksək səviyyə hesab olunur. Rollu oyunda hər bir rola aydın məlumat və konkret rol mövqeyi verilir. Simulyasiyada isə həlli vacib olan tapşırıq verilir ki, bu da insanın öz həyatından əldə etdiyi təcrübələri xatırladır. Bu tip oyun fəaliyyəti xarici dil öyrənmənin ilkin mərhələsində effektivdir, çünki o, xəyali vəziyyət daxilində spontan ifadələri əhatə edir.

3-cü qrup – intellektual oyunlardır.

Onlar şagirdlərin idrak fəaliyyətini aktivləşdirir, problem həll etmə bacarığını inkişaf etdirir və xarici dil dərslərində istifadə olunur.

4-cü qrup – texniki, dizayn oyunlarıdır.

5-ci qrup – didaktik oyunlar – tədris məsələlərini həll etmək üçün istifadə olunan hazır qayda və qanunları olan oyunlardır.

Bu qrupa xarici dil dərslərində oynanan faktiki linqvistik oyunlar daxildir. İştirakçıların sayına görə onlar fərdi, cüt və qrupa bölünür. Eyni zamanda, krossvordlar və anaqramlar fərdi tapmacalar, binqo kimi oyunlar, oxşar şəkilləri birləşdirərək suallardan istifadə edərək onları tapmaq, mənzil planının doldurulması, tapmacalar təsnif edilir [2] .

Tədris oyunları nəzərdə tutulan auditoriyanın dil bilik səviyyəsinə, təşkili üsullarına və pedaqoji məqsədlərinə görə təsnif edilə bilər. Məsələn, rollu oyunlar və intellektual oyunlar, şagirdlərdən spontan ifadələr tələb etdiyi üçün yüksək söz ehtiyatı tələb edir. Oyunlar oyun elementləri, situasiyalar, məşqlər şəklində təqdim oluna və başqa məqsədlərə yönəldilə bilər. Oyun üsulları iştirakçıların sayından, vaxtdan və s. asılı olaraq dəyişir; təşkili çox sadədir və xüsusi hər hansına bir şey tələb etmirlər. Onlar istənilən xarici dil dərsində istifadə oluna bilər, əsas odur ki, təlimin məqsəd və vəzifələrinə cavab versin və mövzuya uyğun gəlsin.

Xarici dil dərsində siz oyun elementlərindən istifadə edə bilərsiniz. Məsələn: xəyali bir vəziyyətin yaradılması, mövzu üzrə lüğəti təkrar etmək üçün oyunlar vs.

Bütün dərs oyun şəklində təqdim edilə bilər (mövzu ilə bağlı rollu oyunlar, intellektual oyunlar və s.). Oyun situasiyalarının yaradılması üçün rəsmlərdən, kartlardan, vəziyyətlərin təsvirindən, təlimatlardan, TCO-dan, bədii əsər mətnlərindən geniş istifadə olunur. Əksər müəlliflər bir mövzuda lüğətlə işləməyin son mərhələsində oyunun keçirilməsini məqsədəuyğun hesab edirlər, çünki oyun ünsiyyət vəziyyətində yeni materialdan istifadə etməyə imkan verir. Lakin sinifdə yeni lüğətin öyrənilməsi prosesini marağlı etmək üçün istifadə ediləcək çox sayda oyun var [1-6]. Oyunlar xarici dil lüğəti üzərində işin istənilən mərhələsində istifadə edilə bilər. İlk mərhələlərdə sözlərin yadda saxlanması prosesini maraqlı fəaliyyətə çevirəcək tipik oyun tapşırıqlarından istifadə etmək məqsədəuyğundur. Oyun üsulları iştirakçılar arasında çox real ünsiyyət vəziyyətləri yaratmağa imkan verir.

Oyun metodologiyası dedikdə biz müəyyən oyun texnologiyalarını, elementləri, təhsil fəaliyyətində motivləri nəzərdə tuturuq. Oyun psixoloqlar tərəfindən qeyri-məhsuldar fəaliyyət növü kimi tanınır; o, yaxşı vaxt keçirmək və zövq almaq üçün istifadə edilir. Nəzərə almalıyıq ki, oyun texnikaları artıq tanış olduğumuz nitq və qrammatik material üzərində qurulmalı, təlimatlarda qarışıqlıqdan qaçınmalıdır.

Oyun elementlərini dərs planınıza daxil etməyə başlamazdan əvvəl aşağıdakı suallara cavab verməlisiniz: Oyunun məqsədi nədir, şagird ondan nə öyrənməlidir?

Hansı nitq bacarığını yerinə yetirməlidir: bir sözlə və ya ifadənin yaradılması ilə bu mümkündürmü? Şagird belə bir ifadəni necə quracağını bilirmi, əlavə çətinlikləri, sualları varmı?

Bu suallara cavab verdikdən sonra özünüzü şagirdnin yerində təsəvvür etməlisiniz, hansı hallarda belə bir vəziyyət yarana bilər. Sonra, bu vəziyyəti elə təsvir etməlisiniz ki, o, olduqca sadə olsun və özündə kifayət qədər tapşırıq ehtiva etsin.

Dərsdə oyun fəaliyyətinin elementlərini təqdim edərkən yadda saxlamaq lazımdır ki, onlardan istifadənin məqsədi sadəcə şagirdin marağını artırmaq və ya tədris fəaliyyətini dəyişdirmək deyil, materialı nitqə daxil etmək, nitq bacarıqlarını təkmilləşdirmək və söz bazasını artırmaqdır. Bundan əlavə oyun uzun və ya yorucu olmamalı, bütün şagirdlərin fəal iştirak edə bildiyi qədər vaxt aparmalıdır.

Xarici dillərin tədrisi sahəsində mühüm rol oynayan oyunların aşağıdakı psixoloji və pedaqoji xüsusiyyətlərinə diqqət yetirək:

Manuleiko Z.V. O hesab edir ki, oyunun psixoloji mexanizmində motivasiyaya böyük əhəmiyyət verilir. Oyun əsaslı tədris metodları müxtəlif motivasiya üsullarından istifadə edir:

1. Oyun problemlərini birlikdə həll etmək şəxsiyyətlərarası ünsiyyəti inkişaf etdirərək

gücləndirir.

2. Oyunda şagirdlər özlərini, biliklərini, fəaliyyətə münasibətini müdafiə edə bilirlər.

3. Hər bir oyunun gözlənilən nəticəsi var və bu şagirdi məqsədinə çatmağa həvəsləndirir. Oyun zamanı hər bir şagird bərabər olaraq başlayır və nəticə iştirakçının özündən və şəxsi keyfiyyətlərindən asılıdır. Oyunda şəxsi olmayan öyrənmə prosesi şəxsi əhəmiyyət kəsb edir.

Puqaçova deyirdi ki: "Bir rolu yerinə yetirərkən davranış həm şagirdin öz hərəkətlərini və düşüncələrini digər şagirdlərlə müqayisə etdiyi, həm də özünü idarə etdiyi mərhələyə çevrilir. Bu səbəbdən biz deyə bilərik ki, oyunda şagird iki funksiyanı yerinə yetirir; O, öz rolunu yerinə yetirərkən davranışına da nəzarət edir.[5]

Psixologiya və metodologiya sahəsində aparılan tədqiqatlar göstərmişdir ki, xarici dilin mənimsənilməsinin uğuru təkcə idrak prosesləri ilə deyil, həm də fərdin emosional sferası ilə müəyyən edilir. C.Rogersin xarici dillərin tədrisi ilə bağlı humanist konsepsiyası C.Kurran və digər tədqiqatçıların işlərində də bu öz əksini tapmışdır.[6]

Gəlin, ümumtəhsil məktəblərində işləyən müəllimlərin oyun metodlarından istifadə etdiyi zaman qarşısına qoyduğu məqsədlərə nəzər yetirək. Oyun metodları necə istifadə edilir, onun köməyi ilə hansı məqsədlərə nail olmaq olar və oyunların formalaşması və inkişafına hansı kommunikativ bacarıqlar kömək edə bilər? Oyun metodları:

1) Şagirdlərə vahid ifadənin mənasını başa düşməyi, məlumat axınında əsas məlumatı tapmağı öyrədir;

2) Ünsiyyət prosesində eşitmə qabiliyyətini, qulaq yaddaşını və nitq qabiliyyətini inkişaf etdir;

3) Şagirdlərə fikirləri məntiqi ardıcıllıqla ifadə etmək bacarığını öyrədir;

4)Şagirdləri təbii mühitə yaxın situasiyalarda lüğətdən istifadə etməyi öyrədir.

Nəticə etibarı ilə deyə bilərik ki, ümumtəhsil məktəblərində dərsdə fəaliyyət növünün dəyişikliyini təmin etmək üçün oyunlardan istifadə olunur. Orta məktəbdə müəllim əmindir ki, şəxsiyyətlərarası ünsiyyət yeniyetmələr üçün aparıcı fəaliyyətə çevrilib və dərsin hər mərhələsində oyunların müxtəlif məqsədləri vardır. Oyun metodları müəllimə müəyyən bir tədris ilində, müəyyən bir bölmədə, müəyyən bir sinifdə bir şagirdin motivasiya sahəsinə təsir etmək üçün unikal imkan verir. Öyrənilən xarici dilin materialının ahəngdar şəkildə mənimsənilməsi üçün oyun metodlarından istifadə edilməsi çox əhəmiyyətlidir.

Ədəbiyyat

1. Амельченко А.О. Игра-сказка как активный метод обучения на уроках у младших школьников [Электронный ресурс] / А.О. Амельченко. – Режим доступа: http://nsportal.ru/nachalnaya-shkola/raznoe/2014/01/13/igra-skazkakak-aktivnyy-metod-obucheniya-na-urokakh-u-mladshikh

2. Богданова Р.М. Игра как средство обучения иностранному языку в школе [Электронный ресурс] / Р.М. Богданова. – Режим доступа: http://nsportal.ru/shkola/inostrannye-yazyki/angliiskiy-yazyk/library/2013/03/07/igrakak-sredstvo-obucheniya

3. Брамбалова А.Е. Игра как один из элементов урока иностранного языка [Электронный ресурс] / А.Е. Брамбалова. – Режим доступа: http://nsportal.ru/shkola/inostrannye-yazyki/library/2011/11/08/igra-kak-odin-iz-elementov-uroka-inostrannogo-yazyka

4. Пидкасистый П.И. Технология игры в обучении и развитии / П.И. Пидкасистый. – М., 2008. – 156 с.

5. Пугачев А.С. Игровая деятельность как средство обучения подрастающего поколения / А.С. Пугачев // Молодой ученый. – 2012. – № 11. –С. 474-476.

6. Эльконин Д.Б. Психология игры / Д.Б. Эльконин. – Издание второе. –М.: Гуманитарный издательский центр Владос, 1999. – 360 с.

7. Ota C., et al. Training and the Needs of Adult Learners / C. Ota // Journal of extension. – December 2006, Volume 44, Number 6. – URL: http://www.joe.org/joe/2006december/tt5.php

**Xülasə**

Oyun metodları nəzərdə tutulan auditoriyanın dil bilik səviyyəsinə, təşkili üsullarına və pedaqoji məqsədlərinə görə təsnif edilə bilər. Nəzərə almalıyıq ki, oyun texnikaları artıq tanış olduğumuz nitq və qrammatik material üzərində qurulmalı, təlimatlarda qarışıqlıqdan qaçınmalıdır. Dərsdə oyun fəaliyyətinin elementlərini təqdim edərkən yadda saxlamaq lazımdır ki, onlardan istifadənin məqsədi sadəcə şagirdin marağını artırmaq və ya tədris fəaliyyətini dəyişdirmək deyil, materialı nitqə daxil etmək, nitq bacarıqlarını təkmilləşdirmək və söz bazasını artırmaqdır. Oyun metodları şagirdlərin şəxsi inkişafında, dünya görüşlərinin formalaşmasında və kommunikativ bacarıqlarının inkişaf etməsində böyük rol oynayan əsas vasitələrdən biridir.

***Açar sözlər:*** *xarici dil, oyunlar, metodlar, təhsil, məktəb, tədris*

**Резюме**

Игровые методы можно классифицировать по уровню владения языком целевой аудитории, методам организации и педагогическим целям. Надо учитывать, что игровые приемы должны основываться на уже знакомом нам речевом и грамматическом материале и не допускать путаницы в инструкциях. Вводя на уроке элементы игровой деятельности, следует помнить, что цель их использования – не просто повысить интерес учащихся или изменить учебную деятельность, а ввести материал в речь, усовершенствовать речевые навыки и увеличить словарный запас. Игровые методы являются одним из основных инструментов, играющих большую роль в личностном развитии учащихся, формировании их мировоззрения и развитии коммуникативных навыков.

***Ключевые слова:*** *иностранный язык, игры, методы, образование, школа, обучение*

**Summary**

Game methods can be classified according to the level of language knowledge of the intended audience, methods of organization and pedagogical goals. We must take into account that game techniques should be based on the speech and grammatical material we are already familiar with, and confusion in the instructions should be avoided. When introducing elements of game activity in the lesson, it should be remembered that the purpose of their use is not just to increase the student's interest or change the educational activity, but to introduce the material into speech, improve speech skills and increase the vocabulary. Game methods are one of the main tools that play a major role in the personal development of students, the formation of their world views and the development of their communication skills.

***Key words:*** *foreign language, games, methods, education, school, teaching*

## TƏDRİSDƏ TƏHSİLALANIN BİLİYİNİN ÖLÇÜLMƏSİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİNİN KLASSİK METODLARI

**Gülnarə Məmmədova Etiram**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsildə keyfiyyət dedikdə, təhsilin qarşısında duran məqsəd və vəzifələrin hansı səviyyədə həll olunması başa düşülür. Ümumiyyətlə, təhsil-tərbiyə prosesinin keyfiyyəti

təhsil alanlara verilən bilik, bacarıq və vərdişlərin cəmiyyətin və dövlətin tələbatlarına, müvafiq dövlət standartlarına uyğunluğu və şəxsiyyətin inkişaf səviyyəsi ilə ölçülür.

Öyrədici mühit dedikdə, təlim prosesinin təşkili və bütövlükdə pedaqoji prosesə təsir göstərən amillər nəzərdə tutulur (pedaqoji prosesin cərəyan etdiyi şərait).

Təlim prosesinin yuxarıda təqdim olunmuş sadələşdirilmiş modelindən görünür ki, monitorinq və qiymətləndirmə pedaqoji prosesin mühüm tərkib elementləridir.

Qiymətləndirmənin ənənəvi anlamından, yəni oxuma qabiliyyətinin müəyyənləşdirilməsindən fərqli olaraq, monitorinq müasir şəraitdə daha geniş mənada işlədilir və ümumilikdə cəmiyyətin inkişafının bütün sahələrində bu və ya digər formada istifadə olunur.

XX əsrin 90-cı illərindən başlayaraq monitorinq-təhsil sahəsində aparılan tədqiqatların effektivliyini artırmaq, innovasiyaların səmərəliliyini müəyyənləşdirmək, nəticələri izləmək, korreksiya aparmaq, proqnozlaşdırmaq məqsədilə geniş tətbiq olunmaqdadır.

Deməli, monitorinq qiymətləndirmə ilə müqayisədə daha geniş, daha tutumlu anlayışdır. Çünki monitorinq təkcə qiymətləndirmə ilə bağlı deyil. O, üç əsas sütun-diaqnostika, proqnozlaşdırma və korreksiya üzərində dayanır. Deməli, monitorinq-qiymətləndirmə, qiymətləndirilən prosesin gələcək inkişafını təmin etmək, keyfiyyət göstəricilərini yüksəltmək məqsədilə korreksiya işi aparmaq kimi prosesləri planlaşdırmağa və həyata keçirməyə şərait yaradır.

Təlim prosesi qiymətləndirilərkən, onun bütün komponentlərinin işinin səmərəliliyi müəyyən indikatorlara (latınca-indiqator göstərici deməkdir) – göstəricilərə, parametrlərə, meyarlara əsasən öyrənilir və müqayisələr aparılır. Təlimin keyfiyyətini qiymətləndirmək üçün təlim prosesinin səmərəliliyini və məhsuldarlığını müəyyən etməyə imkan verən indikatorlar, ölçmə şkalası, qiymət sistemləri və qiymətləndirmə metodikası hazırlanmalıdır.

Monitorinq və qiymətləndirmənin qarşısında duran vəzifələr aşağıdakılardır:

-tam pedaqoji prosesə, onun ayrı-ayrı mərhələlərinə və nəticələrinə nəzarət etmək və məlumat toplamaq;

-təlim məqsədlərinin hansı səviyyədə reallaşdırıldığını aşkarlamaq;

-pedaqoji proses və onun ayrı-ayrı sahələrinin fəaliyyəti ilə bağlı müvafiq qərarlar qəbul etmək;

-pedaqoji proses və onun ayrı-ayrı sahələrinin fəaliyyətinə nəzarət etmək.

Deməli, qiymətləndirmə mexanizmi elə qurulmalıdır ki, o, təhsil-tərbiyə prosesini təkmilləşdirməyə imkan versin.

Yaşadığımız dövr təhsildə islahatların həyata keçirilməsi, pedaqoji yeniliklərin daha geniş dəstək verilməsi, mütərəqqi ənənələrin qorunub saxlanılması, çoxvariantlı iş sisteminə keçməklə yeni keyfiyyət göstəricilərinin təmin olunması ilə səciyyələnir.

Yuxarıda göstərilən problemlərin həllinin reallaşması təhsil müəssisələrində mövcud qanunvericilik və normativ aktların, dövlət standartlarının, maliyyə, iqti-sadi tələblərin lazımi səviyyədə həyata keçirilməsi ilə bərabər, təhsildə idarəetmə proseslərinin düzgün və keyfiyyətli tənzimlənməsindən çox asılıdır. Tənzimlənmənin səviyyəsi isə dövlət və ictimaiyyət tərəfindən təhsilin keyfiyyətinə edilən nəzarət və qiymətləndirmə ilə müəyyən olunur. Əlbəttə, nəzarət və qiymətləndirmə dövlət təhsil standartlarına, təhsil müəssisələrinin sertifikasiyası və attestasiyası sisteminin tələblərinə uyğun aparılmalıdır.

Təhsilin keyfiyyətini, təhsil iştirakçılarının nailiyyətlərini, təhsil müəssisəsinin bütövlükdə fəaliyyətini və digər sahələrdə aparılan işlərin səviyyəsini qiymətləndirmək üçün müvafiq göstəricilər (parametrlər, indikatorlar) müəyyənləşdirilməli və elmi cəhətdən əsaslandırılmış metodika işlənib hazırlanmalıdır.

Qeyd etmək lazımdır ki, təhsil müəssisələri fəaliyyətinin nəzəri və praktik olaraq ətraflı öyrənilməsi, pedaqoji prosesin və onun iştirakçılarının işinin keyfiyyətcə qiymətləndirilməsi dəqiq kəmiyyət xarakteristikalarının, meyarların (kriteriyaların) köməyilə aparılmalıdır.

Məlumdur ki, təlim-tərbiyə prosesi ayrı-ayrı, çoxparametrli əlaqələrlə bir-birilə üzvi surətdə bağlı olan sahələrin toplusu kimi qəbul edilir. Bu sahələrin hər biri başqasından öz əlamətlərinə (meyarlarına) görə fərqlənirlər. Pedaqogika və pedaqoji-psixologiya elmlərinin mühüm vəzifələrindən biri də təlim prosesini təşkil edən həmin sahələrin hər biri üçün təlimin keyfiyyətini və şagirdlərin inkişaf xüsusiyyətlərini müəyyənləşdirən göstəriciləri (indikatorları) seçmək, onların bilik səviyyəsini ölçməyə (təyin etməyə) imkan verən və qiyraətləndirilən hər bir sahəyə uyğun meyarların müəyyənləşdirilməsidir.

Pedaqoji monitorinqin əsas vəzifələri pedaqoji prosesin fəaliyyətini fasiləsiz olaraq izləmək, inkişafını vaxtında istiqamətləndirmək və proqnozlaşdırmaq üçün prosesə dair fasiləsiz olaraq informasiyaları toplayıb təhlil etmək, qiymətləndirmək və təlim-tərbiyə prosesinin yaxşılaşdırılması üçün tədbirlər görməkdən ibarət olmalıdır. Deməli, pedaqoji monitorinq sistemi təhsil müəssisələrinin fəaliyyəti barədə müxtəlif mənbələrdən alınan informasiyaları sistemləşdirir, qaydaya salır, təhlil edir, qiymətləndirir, müvafiq təkliflər hazırlayır və müəyyən korreksiya işləri aparır.

## PEDAQOJİ KADR HAZIRLIĞINDA İKİLİ TƏHSİL MODELİNİN ELEMENTLƏRİ

**Məmmədova Ülviyyə Rüfət qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir dövrün məktəbləri şagirdləri dəyişiklik və yeniliklərə, tənqidi düşünməyə, problem həll etməyə, ünsiyyət və əməkdaşlığa, texnologiyalardan istifadə etməyə və yaradıcılığa hazırlamalıdırlar. Bugün, məktəblərin qarşısında duran vacib bir məsələ şagirdləri fərqlilik və yenilikləri anlayışla qarşılayıb, bir-biriləri ilə qarşılıqlı hörmət əsasında uğurlu bir ünsiyyət qurduqları, kollektivin birgə rifahı üçün məsuliyyətli davranış nümayiş etdirdikləri müştərək bir dünyaya hazırlamaqdır. Əsas məsələ isə odur ki, belə idraki, sosial və emosional bacarıqların inşa edilməsi təlim-tədris prosesinə yüksək səviyyəli peşəkar müstəqillik və əməkdaşlıq mədəniyyəti çərçivəsində işləyə bilən qabaqcıl bilik və bacarıqlara sahib, yeni yanaşmalar və fərqli dünya görüşlərinə bələd innovativ, yaradıcı və həvəsli müəllimlərin cəlb olunmasını tələb edir. [1]

İnformasiya kommunikasiya texnologiyaların sürətli bir şəkildə inkişaf etdiyi və yayıldığı bu dövrdə pedaqoji sahə üzrə məzun olmuş gənc müəllim namizədlərin qarşısında qoyulan işə qəbul tələbləri mütəmadi olaraq dəyişir, bununla da onların peşəkar fəaliyyətə adaptasiya olmaları çətinləşir. Bir çox namizədlər işə qəbul prosesində qarşılarına çıxan gərginlik və stress ucbatından motivasiyalarını və öz potensiallarına inamı itirirlər. Məlumdur ki, pedaqoji işçilər qarşısındakı tələb və gözləntilər, onların peşəkar hazırlıq prosesi, işə qəbul qaydaları və prinsipləri ölkədən-ölkəyə dəyişir. Ümumilikdə götürdükdə isə, bugün dünyanın bir çox yerində tətbiq olunan müasir kurikulumların, eləcə də cəmiyyətin və dövlətin müəllimdən gözləntiləri və tələbləri sadəcə çox zəngin nəzəri bilik və güclü didaktik qabiliyyətlə kifayətlənmir, həm də şəxslərarası ünsiyyət, rəhbərlik, öz müəllim yoldaşları, şagird və ya tələbələri və onların valideynlərilə əməkdaşlıq, yaradıcılıq, özünü-inkişaf, daim öyrənməyə meyillilik, müasir texnologiyalardan effektiv şəkildə istifadə bacarıqları və s. hesab olunur.

Bunları nəzərə alaraq, təhsil islahatçıları beynəlxalq müqayisələr və araşdırmaların nəticələrindən yararlanaraq, başqa ölkələrin uğur qazanmış sistemlərindən ilham ala və öyrəndiyi bilikləri öz ölkəsindəki mövcud şərtlərə uyğunlaşdıra bilərlər. Eynilə, Almaniyanın ikili təhsil modelinin bugün bir çox inkişafetməkdə olan ölkələr tərəfindən öyrənilməyə və mənimsənilməyə çalışıldığı kimi...

Bilirik ki, başqa adla dual təlim də adlandırılan bu ikili təhsil tələbələrə imkan verir ki, peşə və ya ali təhsil müəssisəsində öyrəndikləri nəzəri bilikləri, paralel olaraq iş

müəssisəsində yiyələndikləri bacarıqlara və təcrübəyə inteqrasiya etməklə qısa bir zamanda işlə təmin olunsunlar. Təlimin ilk günündən başlayan praktiki təcrübə məzunların iş həyatına asanlıqla keçid etmələrinə və kollektivə çox tez uyğunlaşa bilmələrinə kömək edir. Bu halda belə bir sual meydana çıxır: "ikili modelin bu keyfiyyətlərini ali təhsil müəssisələrində pedaqoji kadr hazırlığına da tətbiq etmək olarmı?"

Pedaqoji təhsilini başa vurmuş gələcək müəllimlərin öz ixtisasları üzrə dərin nəzəri bilik, ümumi dünyagörüşü, pedaqoji, metodoloji və psixoloji savadlılıq ilə yanaşı kifayət qədər iş təcrübəsinə də sahib olmaları, onların təcrübə keçdikləri ümumitəhsil, peşə və ya ali təhsil müəssisələri tərəfindən səriştəli kadr kimi tanınmaları və irəli çəkilmələri üçün böyük fürsət olardı. Əlbətdə ki, ikili pedaqoji təhsilin üstünlüklərindən təkcə müəllimlər deyil, onları işə götürən təhsil müəssisələri də faydalanacaqdır. Belə ki, təhsil müəssisəsi əgər təlim verən tərəfdirsə, artıq tanıdığı, öz sistemini, daxili qayda və qanunlarına bələd olan, təcrübəli bir müəllimlə əməkdaşlıq etmə şansı əldə edəcək ki, bu da yeni və təcrübəsiz bir kadrla müqayisədə, həmin müəssisənin təlim-təhsil prosesində potensial xətaların meydana çıxma riskini olduqca azaldacaqdır. Hətta bu, tərəfdaş olmayan, tam fərqli bir təhsil müəssisəsi olsa belə yenə bənzər təcrübə yaşayacaqdır, çünki işə götürəcəyi şəxs yüksək təlim və təhsil sistemindən keçmiş, bir neçə il real iş (tədris) mühitində təcrübə qazanmış ali kvalifikasiyalı bir pedaqoji kadr olacaqdır. Bu hərtərəfli qazanc modelinin pedaqoji sahədə tətbiqi, gələcəkdə şagirdlərin daha təcrübəli, öz-güvənli, hərtərəfli biliyə və yüksək sosiallaşma qabiliyyətinə malik bir müəllim tərəfindən yetişdirilmələri ilə nəticələnəcəkdir.

Beləliklə, gələcək müəllimlərin peşə təlimlərində ikili model yönümlü öyrənmə ilə bağlı dəlil və sübutlara arxalanan anlayış və nəzəriyyələrin azlığı, eləcə də bu terminin özünün istifadəsinin yeniliyi, həmçinin peşəkar adaptasiya və uyğunlaşma prosesinə zaman ayırmayan gənc müəllimlərin qarşısındakı pedaqoji təcrübə tələbi imkan verir ki, elmi və pedaqoji sahəyə daxil olmuş bu anlayışın həmin sahəyə uyğunluğu problemini araşdıraq. Bunun üçün çox az sayda da olsa bu pedaqoji təhsilin təkmilləşdirilməsi probleminə bu innovativ yanaşmanı tətbiq etmək üzərində çalışan nümunə ölkələrə və onların pilot layihələrinə nəzər salmaq lazımdır.

İkili təhsil modeli Qazaxıstan Respublikasında 2011-2020-ci illərdə təhsilin inkişafına dair dövlət proqramlarının məqsədləri və göstərişləri əsasında həyata keçirilmişdir. Bu proqramlar 2012-ci ildən bəri Qazaxıstan Respublikası dövlət fərmanı ilə təsdiq olunmuş plan və öyrənilmiş təcrübələr əsasında uğurlu bir şəkildə tətbiq olunmaqdadır. Bu günə qədər bu ikili təlim-təhsil modelinin uğurlu tətbiqinə dair 100%-lik göstəricilər mövcuddur. Abay QMPU-nin pedaqoji və psixoloji departamentinin nəzdində 2015-ci ilin dekabr ayında U.M Abdiqapbarovanın təşəbbüsü ilə "məktəb-kollec-universitet" adlı elmi metodoloji kompleks yaradıldı və gələcək müəllimlərin peşəkar kompetensiyalarının formalaşdırılması məaqsədilə ikili təlim həyata keçirilməyə başladı. Gələcəyin mütəxəssisləri ilə məktəb, kollec və universitetlər arasında yaxın əməkdaşlıq əlaqələrinin qurulmasına, məktəblilərin peşə seçiminə yardım edilməsi və bəzi xüsusi peşə sahələrinin ön plana çəkilməsinə önəm verilirdi. Bu elmi-metodoloji kompleksin əsas məqsədi ikili təlim-təhsil modelinin pedaqoji və psixoloji cəhətdən adaptasiyasının yolları və şərtlərini müəyyən etmək idi. 2018-ci ildə Qazaxıstan respublikası elm və təhsil nazirliyinin dəstəyilə abay adına Qazax milli pedaqoji universiteti nəzdində professor U. Abdiqapbarovanın rəhbərliyi altında "İkili təlim – gələcək müəllimlərin peşə təlimini təkmilləşdirmək üçün şərait" adlı elmi bir layihə həyata keçirildi. Bu layihə çərçivəsində Abay QMPU-nin 1760 məzunu 2018-ci ilin aprel-may aylarında keçirilmiş bir sorğuda iştirak etdi. Sorğu gələcək müəllimlərin universitetlərdə peşəkar hazırlığından məmnunluq dərəcəsi, qarşıya çıxan çətinliklər və peşə təlimlərinin yaxşılaşdırılması ilə bağlı ideyalara həsr olunmuş 18 sualdan ibarət idi. Aparılan sorğu nəticəsində müəllim hazırlığı prosesində praktiki hissənin artırılmasına, universitetlər, kollec və məktəblərin fəaliyyətləri arasında əməkdaşlıq əlaqələrinin qurulmasını təmin edən innovativ bir sistemin yaradılmasına ehtiyac olduğu müəyyən edildi. Bundan əlavə, ikili

sistemin ali pedaqoji təhsilə tətbiqində qarşıya çıxan çətinliklərin müəyyən edilməməsi və onun tətbiqi üçün mexanizmlərin hazırlanmaması bu məsələnin nəzəri və praktiki baxımdan araşdırılmasını tələb edir. Bu məqsədlə, 2018-ci il oktyabrın 20-dən 29-na qədər Almaniyada təhsil sahəsində fəaliyyət göstərən 41 işəgötürən arasında tədqiqat sorğusu həyata keçirldi. Sorğu zamanı müəllimlərin təhsilində praktiki təlimlərin müddəti və keyfiyyətindən 47 % məmnun olsa da, 50%dən çoxu praktiki təlim müddətinin artırılmasının keyfiyyətə müsbət təsir edəcəyini bildirdi. [2]

Nəticə etibarilə, Qazaxıstan və Almaniyada peşəkar hazırlıq sahəsində ikili təlimin araşdırılması zamanı öyrənilən məlumatlar ikili təhsil modelinin elementlərinin ali pedaqoji təhsildə müəllim hazırlığı prosesinə tətbiq edilməsi haqqında elmi və metodoloji tövsiyələr hazırlamağa imkan verir. Bu tövsiyələri 3 əsas qrupa bölmək olar: 1) nəzəri və metodiki istiqamətdə elmi-metodoloji tövsiyyələr; 2) Təşkilati və hüquqi istiqamətdə metodoloji tövsiyyələr; və 3) Təcrübə-yönümlü metodoloji tövsiyələr.

Ədəbiyyat

1. Caroll J. 1963, “a model of school learning”, səh 723-733).

2.Uljarkin Abdiqapbarova və Alua Smanova “Dual Vocational Education in Germany and Kazakhstan”

## ALİ PEDAQOJİ MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİ PROSESİNDƏ YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ

**Mikayıllı Mikayıl İslam oğlu**

*Azərbaycan Dövlət Pedaqoji Univeristetinin*

Təlim texnologiyası - vasitə və metodların məcmusudur, həm də müəllimin təlim prosesində tələbələrə müxtəlif texniki və informasiya vasitələri ilə təsiri prosesidir. Təlim texnologiyası təhsilin məzmununu, təlim vasitələri, metod və formalarını sistem halında reallaşdırmaqla, məqsəd və vəzifələrin effektiv həllini təmin edir. [1,s. 17]

Müasir ali təhsil sisteminin qarşısında duran prioritet məqsəd - yaradıcılıq metodologiyasına və texnologiyasına dərindən bələd olan, yeni biliklər kəşf etməyə, yaranmış problemləri həll etməyə qabil insanlar, peşəkar mütəxəssislər yetişdirməkdir.

Konkret təlim texnologiyasının hazırlanması - müəllimin pedaqoji funksiyasıdır və aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

• təhsilin məzmununun müəyyənləşdirilməsi;
• əsas məqsədlərin müəyyənləşdirilməsi;
• texnologiyanın seçilməsi;
• təlim texnologiyasının işlənməsi.

Təlim texnologiyasının mahiyyəti tələbələrə təqdim olunan informasiyaların məzmunu və strukturunu özündə birləşdirir. Tələbələrdə təlim və professional bacarıq və vərdişlərin formalaşmasını təmin edən məsələlər, tapşırıq və çalışmalar da bu sistemə daxildir. [2,s. 275-279]

Ali təhsilin bakalvr pilləsində Azərbaycan tarixinin tədrisində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi müəllimdən yaradıcı təşəbbüskarlıq və metodik hazırlıq tələb edir. İnformasiya və kommunikasiya texnologiyasının Azərbaycan tarixinin tədrisində tətbiqi müəllimin qarşısında yeni didaktik imkanlar açır. Bu imkanlar aşağıdakılardır.

1. Müəllimlər hazır informasiya verməkl yerinə öyrənənlərə istiqamət vermək və mənbələri idarə etmək işini yerinə yetirirlər;
2. Müəllim suallara cavab vermək əvəzinə təhsilalanları cavab tapmaq üçün yönəldir;
3. Müəllimlər avtoritar qaydada tədris etmək əvəzinə qrup şəkilində təlimə rəhbərlik edirlər; və s. [3,s. 27-31]

Sonda belə bir nəticəyə gəlirik ki, ali pedaqoji məktəblərdə Azərbaycan tarixinin tədrisi prosesində yeni təlim texnologiyalarından istifadə etmək, öyrənmə təcrübəsini daha inkişaf etdirə bilər. Bu texnologiyalar, interaktiv dərs materialları, virtual səfərlər, animasiyalar, və hətta ədəbiyyat və multimedia resursları kimi bir çox alətləri daxil edir. Bu, tələbələrin öyrənmə bacarıqlarının daha çox inkişaf etdirilməsinə və tarixi mövzuları daha dərindən mənimsəmələrinə xidmət edir. Təhsilalanların, tarixi fakt və hadisələri daha yaxşı anlamalarına və əsaslı analtik təhlil aparmalarına şərait yaradır.

Ədəbiyyat

1. A.M.Nəzərov. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı-2012. 103 s.
2. F.A.Rüstəmov, TY.Dadaşova. Ali məktəb pedaqogikası. Magistratura pilləsi üçün dərslik. Bakı -2007. 568 s
3.A.Q.Qasımova. Ali məktəblərdə Azərbaycan tarixinin tədrisində yeni təlim yexnologiyalarından istifadə. Monoqrafiya. Bakı-2017. 264 s.

## DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏ TƏHSİLDƏ KEYFİYYƏTİN TƏMİNATI KİMİ

**Mirzəyev Adil Xanoğlan oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsildə keyfiyyəti təmin etməyin əsas yollarından biri də qiymətləndirmə prosesinin düzgün təşkilindən keçir. 2009-cu ildə qəbul edilən Azərbaycan Respublikasının Qiymətləndirmə Konsepsiyası sənədinə əsasən məktəbdaxili qiymətləndirmə ilə bağlı tənzimləmələr həyata keçirildi. Öyrənənlərin təlim nəticələri həm onlar, həm də təhsillə bağlı qərarların qəbulu prosesi üçün vacib rol oynayır. Məktəbdaxili qiymətləndirmə üç növə bölünür. Bunlar diaqnostik, formativ və summativ qiymətləndirmədir.

Diaqnostik qiymətləndirmə adından göründüyü kimi öyrənənlərin ilkin bilik və bacarıqlarının öyrənilməsi üçün həyata keçirilir. Məktəbdaxili qiymətləndirmə növləri içində keçirilən ilk qiymətləndirmədir və müəllimə öyrənənlərin keçiriləcək mövzu ilə bağlı nələr bildikləri, hansı səviyyədə olmaları haqqında məlumat verir. Diaqnostik qiymətləndirmə müəllimlərə təlim prosesinin təşkili və öyrənənlərin gələcək inkişaf planının qurulması haqqında istiqamət verir. İlkin səviyyə qiymətləndirməsi tədrisi ilinin, mövzu və ya bəhsin əvvəlində, sinifə yeni şagird gəldikdə və digər hallarda keçirilir. Qeyri-rəsmi qiymətləndirmə hesab olunur. Yalnız müəllimin öz şəxsi jurnalında, şagird portfoliosunda valideynlərə məlumat vermək üçün qeyd olunur.

Diaqnostik qiymətləndirmənin funksiyaları aşağıdakılardır:

1. Öyrənənlərin ümumi səviyyəsini müəyyənləşdirmək
2. Hər bir öyrənənin ilkin bilik və bacarıqlarını ortaya çıxarmaq
3. Müəyyən zaman çərçivəsində öyrənənin biliyini müqayisə etmək
4. Təlim prosesini istiqamətləndirmək
5. Təlim zamanı müəllimin hansı metoddan istifadə etməsini müəyyən etmək
6. Öyrənənin təhsilə marağını stimullaşdırmaq

Diaqnostik qiymətləndirmə zamanı müəllim öz məqsədinin nə olduğu haqqında dəqiq fikrə malik olmalıdır. Nəyi qiymətləndirəcəyimüəllimin məqsədlərindən asılıdır.Qiymətləndirmə zamanı şagirdlərin güclü və zəif tərəfləri aşkar edilir və fərdi yanaşma tətbiq edilir.

Diaqnostik qiymətləndirmə ilkin səviyyənin ölçülməsi üçün istifadə olunduğundan keyfiyyətli şəkildə həyata keçirilməsində sualların tərtibi məsələsi müəllimlər tərəfindən diqqətlə tənzimlənməlidir. Müəllim tərəfindən obyektivlik, aydınlıq, aşkarlıq kimi prinsiplərə riayət olunmalıdır. Vaxtdan səmərəli istifadə olunmalı, çevik həyata keçirilməlidir. Təməl bacarıqlar müəyyən olunaraq qiymətləndirmə meyarları təyin edilir. Müəyyən edilmiş meyarlara uyğun olaraq isə qiymətləndirmə vasitələri hazırlanır.

Keyfiyyətin təmin olunmasında məqsədəuyğunluq prinsipi gözlənilir. Məqsədi müəyyən olunmayaraq keçirilən qiymətləndirmə müsbət təlim nəticələrinin əldə olunmasına imkan verməyəcəkdir. Diaqnostik qiymətləndirmə inkişafetdiricidır. Ənənəvi qiymətləndirmədə olduğu kimi subyektivliyə yol verilməməlidir. Şəffaflıq prinsipi qiymətləndirmə üçün əsas rollardan birini oynayır. Müəllim tərəfindən qiymətləndirilmənin keçirilməsi ilə bağlı təlimatlar öncədən öyrənənlərə çatdırılmalıdır. Qarşılıqlı əməkdaşlıq prinsipi isə müasir təhsildə öyrənənlərin də qiymətləndirmə prosesində birbaşa iştirakının təmin olunması üçün vacib əhəmiyyət kəsb edir.

Keyfiyyətin qiymətləndirilməsi müxtəlif meyarlar üzrə aparıla bilər. Diaqnostik qiymətləndirmə zamanı ölçmə mexanizminin etibarlılığı bunlardan biridir. Ümumiyyətlə sualların relevant və etibarlı olması da əsas prinsiplərdən hesab olunur. Müəllim uşağın gələcək inkişaf planı haqqında məlumat əldə etmək istəyirsə keçirəcəyi qiymətləndirmə etibarlı olmalıdır. Əks halda yanlış diaqnoz öyrənənin fəaliyyətinə mənfi təsir göstərə bilər. Ölçmə mexanizmi dedikdə müəllimin məlumat toplama metodları ( qiymətləndirmənin üsul və vasitələri ) ona lazım olan informasiyanı əldə etməyə imkan verib-verməməsi nəzərdə tutulur. Sınaq zamanı müəllim həm fərdi şəkildə, həm də bütövlükdə siniflə bağlı məlumat əldə edir, lakin, təlimin gedişində və ya yekun qiymətləndirmə zamanı istənilən səviyyədə nəticələrin əldə edilmədiyini görür. Bir çox səbəbi ola bilər, burada isə müəllimin yararsız metodlardan istifadə etdiyini müşahidə edə bilərik.

Diaqnostik qiymətləndirmə şagirdlərin yalnız bilik və bacarıqlarının deyil, onların davranışları, hərəkətləri, tərbiyəsi ilə bağlı da çox şey deyə bilir. Diaqnostik qiymətləndirmə təhsilalanların müxtəlif inkişaf sahələri ilə bağlı da ilkin səviyyəni müəyyən edir:

1. Koqnitiv sahə. Koqnitiv və ya idraki sahə öyrənənin intellektual bacarıqlarını ölçür. Burada aşağı səviyyəli düşünmə bacarıqları olan bilik və anlamadan, yuxarı səviyyəli problem həll etmə, yaradıcı düşünmə və dəyərləndirmə kimi müxtəlif səviyyəli bacarıqlar ölçülə bilir.
2. Sosial-emosional sahə. Burada da aşağıdan yuxarıya doğru müxtəlif səviyyələr ölçülür. Öyrənənlərin münasibət qurmaq, ünsiyyətə girmək kimi bacarıqları, dostları ilə davranışlarının səviyyəsinin müəyyən edilməsi, təlimə yanaşmanın təyini xüsusi əhəmiyyət kəsb edir
3. Psixomotor sahə. Psixomotor və ya hərəki sahə isə praktik səviyyəni ölçür. Hiss etmək, hazır olmaq, bənzətmək, mexanizm, uyğunlaşma və sonda dəyərləndirmə mərhələləri ilə öyrənənlərin davranışlarında inkişafı görmək mümkündür.

Diaqnostik qiymətləndirmənin metodları vasitəsilə qeyd edilən funksiyalar, məqsədlər və sahələrin necə reallaşmasını görə bilərik.

1. Müsahibə üsulu hər bir şagirdlə fərdi qaydada aparılır. Bu zaman təlim məqsədlərindən asılı olaraq meyarlar müəyyən edilir və ona uyğun müsahibə sualları hazırlanır.
2. Söhbət üsulu ümumi üsuldur. Həm siniflə, həm də fərdi şəkildə keçirilə bilər. Xüsusilə öyrənənlərin psixoloji vəziyyəti ilə, psixomotor sahə ilə bağlı müəllimə bir çox fikir verə bilər.
3. Müşahidə üsulu yeni dərs zamanı öyrənənlərin o dərsə qarşı münasibətini ölçmək üçün istifadə oluna bilər.
4. Tapşırıqlar verərək mövzu ilə bağlı uşaqların ilkin bilikləri ölçülür
5. Valideynlər və digər müəllimlərlə əməkdaşlıq edərək öyrənənlərin vəziyyəti ilə bağlı qarşılıqlı fikir mübadiləsi aparıla bilər.

Diaqnostik qiymətləndirmə qısamüddətli və davamlı olaraq iki yerə ayrılır. Qısamüddətli qiymətləndirimə mövzunun əvvəlində dərsin müəyyən hissəsində aparılır. Məqsəd şagirdin bilik və bacarıqları haqqında məlumat toplamaqdır. Davamlı qiymətləndirmə isə bir çox dərsin əvvəllərində aparılır. Bu zaman bir çox qiymətləndirmə vasitələrindən istifadə edərək şagirdlərin inkişaf sahələri üzrə vəziyyətləri də yoxlanır.

# RİYAZİYYATIN TƏDRİSİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ HAQQINDA

**Muradlı Ceyran Muraz qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Son illərdə elm və texnologiyada baş verən radikal yeniliklər riyaziyyatın tədris-tədris fəaliyyətlərinə bir çox cəhətdən təsir göstərir. Bu kontekstdə inkişaf bir çox fənlərin tədris və təlim proqramlarında (kurrikulumda), xüsusən də məktəblərin məqsədi, kurs məzmunu, ölçmə və qiymətləndirmə meyarlarında struktur dəyişikliklərinə səbəb olur. Bu tezisdə, İnformasiya Texnologiyaları Dəstəklənən Riyaziyyat Təhsilini daha yaxşı başa düşmək üçün məktəblərdə riyaziyyat təhsilində bəzi yeniliklər haqqında məlumat veriləcəkdir.

Uzun illər məktəblərdə riyaziyyatın tədrisi və təlim-tərbiyə prosesində yazı lövhəsi-təbaşir, kağız-qələmdən başqa heç bir alətdən söz açılmayıb. Lakin son illər vəziyyət tam dəyişməsə də, riyaziyyatın tədrisinə və təhsili asanlaşdıracaq və prosesə kömək edəcək idrak vasitələrinə maraq artıb. Zehni yormaq və çoxlu mənasız məlumatları əzbərləmək və fərdi yorucu əməliyyatlarla məşğul etmək əvəzinə riyazi təfəkkür, problem həll etmə və yaradıcılıq bacarıqlarını inkişaf etdirmək, əməliyyatları yerinə yetirərkən texnologiyaya üstünlük vermək üçün bir sıra təkliflər var. Bu kontekstdə məktəb riyaziyyatının tədrisində İKT-dən səmərəli istifadə son illərdə intensiv şəkildə müzakirə olunan bir mövzudur. Bu konteksdə texnoloji, strategiyalar, tədris metodları və bədii ədəbiyyat işlənib hazırlanmış çoxşaxəli tədqiqat mövzularından biridir. Bu kontekstdə bir sıra riyaziyyat tədrisi və təhsil problemləri araşdırılır, müəllimlərin davamlı təhsili üçün sərmayələr qoyulur, onların səlahiyyətlərini artırmaq üçün müxtəlif səviyyələrdə və məzmunda fəaliyyətlər təşkil edilir. Bundan əlavə, müəllimlərin fənn üzrə səriştəsi son 15-20 ildə bir çox ölkələrdə tədqiqat və müzakirə mövzusuna çevrilmişdir. Çünki ənənəvi təhsil yanaşmasına görə uşaq və gəncləri maarifləndirmək, onları informasiya cəmiyyətinə hazırlamaq mümkün deyil. Bu prosesdə, müəllimlərin yeni bilik və bacarıqlara yiyələnməsinin zəruriliyi aydındır.

İnformasiya texnologiyalarının riyaziyyat fənninin tədrisində əhəmiyyəti:

Ortaq məqsədlərdən biri İKT-nin riyaziyyatın tədrisinə təsirini və çoxşaxəli şəkildə təqdim etdiyi imkanları müəyyən etmək, müvafiq alətlər hazırlamaq, bu sahədə müəllimlərin hazırlanması üçün kurikulum hazırlamaq və müəllimlərə dəstək xidmətləri göstərməkdir. Bu kontekstdə hər bir məktəbdə rast gəlinən və həllini tələb edən İKT problemləri ekspertlər və müəllimlər tərəfindən çoxşaxəli şəkildə araşdırılmalı, aidiyyəti tərəflərlə müzakirə edilməli, problemlərin həlli yolları axtarılmalı, ortaq fikir və tapıntılar axtarılmalıdır. bildirilməlidir. Daha dəqiq desək, digər ölkələrdə olduğu kimi Azərbaycanda da, İnformasiya Texnologiyaları Dəstəklənən Riyaziyyat Təhsili (İTDRT) araşdırılmağa və tədqiq olunmağa dəyər mövzulardan biridir. Bu prosesdə, pedaqoqların və müəllimlərin İnformasiya Texnologiyaları Təhsili –nin (İTT) təklif etdiyi imkanları bilməsi, qabaqcıl kalkulyatorlar kimi idrak vasitələrinə sahib olması çağın zərurətidir. Bu məsələdə əlavə gecikmə olmamalıdır; Uşaq və gənclərə informasiya cəmiyyətinin üzvü olmaq üçün yeni imkanlar yaradılmalıdır. Bu kontekstdə İTT-nin müəllim və şagirdlərə təqdim etdiyi yeni imkanlardan məktəblərdə və bütün səviyyələrdəki siniflərdə, xüsusilə riyaziyyat və təbiət fənləri kurslarında bütün dərslərdə istifadə edilməlidir. Bu sahədə çoxlu tədqiqatlar aparılır və ədəbiyyatda bir çox müsbət nəticələrin əldə edildiyi bildirilir.

İTT-nin məhsullarından biri olan qrafika/CAS HeMa-nın məktəb səviyyəsində riyaziyyatın tədrisində və öyrənilməsində effektivliyi getdikcə artsa da, onun müsbət töhfələrinin digər texnologiyalarla müqayisədə nisbi vəziyyəti, mümkün faydaları və effektivliyi müəyyən dərəcədə məlumdur. Bu səbəbdən Qərbi Avropa ölkələrində, xüsusilə ABŞ-da bəzi milli və beynəlxalq İTDRT layihələrinin başlandığı müşahidə edilir. Bu çərçivədə Azərbaycanda bəzi araşdırmalara başlanılıb və AzTU (Azərbaycan Texniki

UUniversiteti) kimi bəzi universitetlərlə əməkdaşlıq çərçivəsində İTT, xüsusilə HeMaDME ilə bağlı araşdırmalar və bir sıra fəaliyyətlər həyata keçirilir. Biz hesab edirik ki, müasir təhsil və təlim sistemlərində lazım olan və ya faydalı olduğuna inanılan bilik və bacarıqlar çox gecikdirilmədən və lazımi vaxtda öyrənmə-tədris fənni kimi müvafiq kursların kurrikuluma daxil edilməlidir.

İnformasiya əsri ərəfəsində İTT-də sürətlə inkişaf edir və onun istifadə sahələri genişlənir. Bu kontekstdə sinif və riyaziyyat müəllimləri ömürboyu təhsil anlayışı ilə təhsil sahəsində İKT əsaslı texnologiyalardan istifadə ilə bağlı bir müddətdir müşahidə etdiyimiz və şahidi olduğumuz dəyişiklik və yeniliklərlə bağlı yeni bacarıqlara yiyələnməli, onların öz peşələri üzrə yeni kompetensiyalar əldə edərək səriştəli olmaları müasir təhsilin tələbidir. Bununla belə, sözügedən yenilik və tətbiq dedikdə, hər şeydən əvvəl ixtisaslı insan resursları, yeni proqramlar, effektiv və faydalı alət və avadanlıqlar nəzərdə tutulur, bununla bağlı ilkin hazırlıqlar görülməlidir. Yekun etibarı ilə qeyd edə bilərik ki, müəllimləri yeni bacarıqlarla təmin etmək üçün davamlı təhsil seminarları təşkil edilməlidir.

Ədəbiyyat

1. Abdullayeva.M. Riyaziyyatın tədrisi metodikası – 1. Bakı, “Elm və təhsil”, 2020, 208 s.
2. Adıgözəlov. A.S. Məktəbdə riyaziyyat təliminin nəzəri əsasları, Bakı, “ADPU”, 2018, 310 s.
3. Polezhaev. V.D., Polezhaeva.L.N and Korzinova. E.I. ”The use of information and communication technologies in the training of students with disabilities in graphic disciplines”, Law and Practice, Vol.3, pp. 217-222. (Moscow, 2017).
4. Shirina.T.A., Smyk.A.F, “Computer testing in engineering education,” in Proceedings of the XIII International Conference Physics in the system of modern education, St. Petersburg, 2015, V.2, pp. 274–276.

## İNGILIS DILININ BEYNƏLMILƏL DIL KIMI MƏDƏNIYYƏTLƏRARASI ÜNSIYYƏTDƏ ROLU

**Niftaliyeva Aytən Aqşin qızı**
*Bakı Slavyan Universiteti*

İngilis dili qlobal lingua franca statusuna görə mədəniyyətlərarası ünsiyyətdə həlledici rol oynayır. Dünyada ən çox danışılan dil kimi ingilis dili müxtəlif mədəni mənşəli şəxslərin qarşılıqlı əlaqədə ola biləcəyi və fikir mübadiləsi apara biləcəyi ortaq bir dil kimi xidmət edir. Qloballaşma kontekstində ingilis dili beynəlxalq biznes, diplomatiya, akademiya və turizm üçün vacib hala gəlmişdir. Onun geniş istifadəsi müxtəlif dil və mədəniyyətə mənsub insanlar arasında ünsiyyət və anlaşmanı asanlaşdırır.

Mədəniyyətlərarası ünsiyyət üçün ingilis dilindən istifadənin əsas üstünlüklərindən biri onun neytrallığıdır. İngilis dili hər hansı bir millətə və ya mədəniyyətə bağlı olmadığından, müxtəlif ölkələrdən olan şəxslər arasında ünsiyyət üçün neytral zəmin rolunu oynaya bilər. Bu, anlaşılmazlıqları azaltmağa kömək edir və mədəniyyətlərarası qarşılıqlı münasibətlərdə qarşılıqlı anlaşmanı təşviq edir.

Bundan əlavə, ingilis dili biliyi müasir qloballaşan dünyada çox vaxt dəyərli bacarıq kimi qəbul edilir. Bir çox transmilli şirkətlər həmkarları, müştəriləri və dünyanın hər yerindən olan tərəfdaşlarla ünsiyyəti asanlaşdırmaq üçün işçilərdən ingilis dilini yaxşı bilmələrini tələb edir. Akademik şəraitdə ingilis dili tez-tez beynəlxalq proqramlarda tədris dili kimi istifadə olunur və müxtəlif ölkələrdən olan tələbələrə birlikdə təhsil almağa və öz perspektivlərini bölüşməyə imkan verir .

Tədqiqatın başlanğıc nöqtəsi kimi O. Perşukova, 1980-ci illərin ortalarında Braj Kachru tərəfindən təklif olunan məşhur modeli götürür, o, ingilis dilinin yayılmasının üç dairəsini təqdim edir: daxili dairə, xarici dairə və genişlənən dairə. Ancaq dil vəziyyəti çox tez dəyişir. Məşhur britaniyalı dilçi D.Kristal hələ 1997-ci ildə qeyd edirdi ki, B.Kaçrunun sxemi ingilis dilinin dünyada yayılma dərəcəsini təhlil etmək üçün çox faydalı olsa da, heç də bütün ölkələr ona tam şəkildə şəkildə uyğun gəlmir.[7, s. 60] Daxili dairədəki ölkələrin tərkibinə şübhə yoxdur: bunlar ingilis dilinin dövlət dili və əhalinin böyük əksəriyyəti üçün ana dili olduğu dövlətlərdir. Xarici dairənin ölkələrində - ingilis dilinin tarixən ikinci rəsmi dil rolunu oynadığı və oynamağa davam etdiyi keçmiş Britaniya koloniyalarında (Hindistan, Sinqapur, Filippin, Tanzaniya və s.) də dəyişikliklər baş verir. Əgər 30-40 il əvvəl bu ölkələrdə orta təbəqənin nümayəndələri praktiki olaraq ikidilli idisə, bu gün bu vəziyyət xeyli dərəcədə itirilib. Amma üçüncü dairənin ölkələrində ingilis dilinin öyrənilməsi sürətlə irəliləyir. Biznes, elm, innovativ texnologiyalar və siyasət dünyasına bir növ pasport olan ingilis dilinin tədrisinin bütöv bir sənayesi yaranıb. David Crystal qeyd edir ki, tarixdə ilk dəfə olaraq bir dildə danışan insanlar arasında ana dili olmayanların sayı ana dilində danışanların sayından üç dəfə çoxdur. Bu baxımdan, bir çox müəllimlər və hətta dilçi alimlər hesab edirlər ki, tələbələr ünsiyyət aktının pozulmasına gətirib çıxarmayan bir yaxınlaşma ilə əldə edə bilsələr, onları doğma danışanların nitq nümunələrini təqlid etməyə məcbur etməyə ehtiyac yoxdur [8].

İlk baxışdan Qərbi Avropa ölkələrində ingilis dilinin tədrisi prosesi aydın şəkildə inkişaf etmişdir. Bütün ölkələrdə ingilis dilinin tədrisi məktəbdə (bəzən də uşaq bağçasında) başlayır və orta təhsilin sonunda məzunların əlaqə dili kimi ingilis dilini mükəmməl bilməsi gözlənilir. Kontakt dili və ya lingua franca sosial təmasların məhdud sahələrində müxtəlif dillərdə danışanlar arasında beynəlxalq və ya millətlərarası ünsiyyət vasitəsi kimi fəaliyyət göstərən vasitəçi dildir [3, s. 267]. Dilin təmas dili kimi tanınmasına təsir edən amillər arasında etnolinqvistik, etnomədəni və iqtisadi-siyasi amillər, iqtisadi, siyasi və mədəni əlaqələri olan güclü dövlətin coğrafi yaxınlığı, kimi sosial prestij kimi, məsələn, öz ölkəsində və xaricdə xarici dildən istifadə edərək iş tapmaq imkanı kimi məsələlər durur. [1, s. 172-173].

Müasir Avropada "işgüzar kommunikasiyalar, mədəni və informasiya mübadiləsi genişlənir, həyatın müxtəlif sahələrində cəmiyyətlərin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri artır" [6, s. 55]. Bu cür qarşılıqlı əlaqə beynəlxalq ünsiyyətə imkan verən dilləri bilmək tələb edir. Əvvəllər olduğu kimi, Avropa ölkələrində qonşularının dilinin öyrənilməsi zəruri hesab edilir və siyasi və ya iqtisadi baxımdan "güclü" qonşuya üstünlük verilir. Tarixi keçmiş mühüm rol oynayır. Buna görə də Polşa, Çexiya və Macarıstanın bir çox sakinləri alman dilində ingilis dilindən daha yaxşı danışırlar. İrlandiyalılar üçün isə təbii seçim ingilis dilidir. Bu gün təsadüfən rastlaşan gürcü, erməni və azərbaycanlı rusca danışacaq, çünki Postsovet məkanında rus dili lingua franca kimi istifadə olunmağa davam edir. Gürcüstan, Ermənistan və Azərbaycan hökumətlərinin bu ölkələrin əhalisi ilə qonşuları arasında ünsiyyətdə ingilis dilini təmas dili kimi təqdim etmək cəhdlərinə baxmayaraq, ingilis dili hələ də onlarda "kök salmayıb". Onun universallığı fəal şəkildə təbliğ edilir və məktəblərdə onun tədrisinin yaxşılaşdırılması üçün səylər gücləndirilir. Ancaq yaxın gələcəkdə həm Qafqaz və Zaqafqaziya ölkələrində, həm də Baltikyanı ölkələrdə iki əlaqə dilinin - rus və ingilis dillərinin istifadəsindən danışmaq mümkün olacaq [1, s. 174-175]. Məşhur britaniyalı dilçi Bill Brayson yazır ki, dillər mövcud sərhədlərə hörmət etmir. Əgər Avropada sərhədlər dillərin yayılma əraziləri ilə müəyyən edilsəydi, İsveçrə Avropanın xəritəsindən tamamilə yox olardı, almandilli əraziyə təkcə ənənəvi Almaniya, Avstriya və "keçmiş" İsveçrənin bir hissəsi deyil, həm də hissələri daxil olardı.[7, s. 31]. Bunlar kiçik xalqların dillərinin və nəsli kəsilməkdə olan dillərin yayılma yerləridir.

Nəsli kəsilməkdə olan dillərdə danışanların demək olar ki, hamısı adətən yaşadıqları ölkənin rəsmi dili olan ən azı bir başqa dildə danışırlar. Perşukova hesab edir ki, ingilis dili

(Avropada) "uşaqların ana dilinin təhsil prosesindən tam və ya çox erkən çıxarılmasına gətirib çıxarır", çünki uşaqlar dominant dil kimi onunla ünsiyyət qurmağa məcbur olurlar [5].

Çoxdilli təhsil multikultural təhsillə sıx bağlıdır - əslində o, multikultural təhsili nəzərdə tutur. Bu məsələ son illərdə bir çox yerli və xarici alimlərin tədqiqat obyektinə çevrilib. (M.Bayram, İ.S.Bessarabova, N.E.Bulankina, A.N.Dzhurinski, L.P.Kostikova, Z.A.Malkova, S.Nieto, E.A.Sokolkov və b.) L.P. Kostikova multikulturalizmi müasir sosial dünya nizamının, o cümlədən təhsilin xarakterik xüsusiyyətidir.

Xarici dildə danışan insan istər-istəməz bu dilə xas olan dünyanın linqvistik mənzərəsinə qərq olur, dünyagörüşünün fərqli məntiqini, dəyərlər sistemini dərk edir. Bütün bu xüsusiyyətləri qəbul etmək və ya rədd etmək olar, lakin yad dilin və yad mədəniyyətin həm fərdi, həm də böyük insan qruplarına təsirini inkar etmək olmaz [1, s. 172-173].

Beynəlxalq işgüzar ünsiyyətdə geniş istifadə olunan ingilis dili Avropa İttifaqında əsas ünsiyyət dili kimi qəbul edilir. Biz lingua franca (ELF) kimi ingilis dilinə qayıdırıq. A. Mustayoki qeyd edir ki, ELF kimi ingilis dili birinci və ya ikinci dairəyə aid olan standart dil üçün xarakterik olmayan bəzi xüsusiyyətlər qazanmışdır: 3-cü şəxsin tək fellərində -s sonluğunun buraxılması; kim və hansı əvəzliklərinin qarışıqlığı; bölən suallardan düzgün istifadə edilməməsi; lazım olmayan yerlərdə ön sözlərdən istifadə etmək və s. [4, s. 15].

Beləliklə, görürük ki, ingilis dilini lingua franca kimi istifadə etmək üçün hansı ingilis dilinin tədris olunmalı olduğunu müəyyən etmək lazımdır. Bunun üçün, öz növbəsində, biz, birincisi, öyrənmənin məqsədini və ikincisi, tələbələrin motivasiyasını aydın başa düşməliyik. İngilis dilinin beynəlmiləl ünsiyyət dili kimi tədrisinin məqsədi tələbələrə öz fikirlərini və sosial-mədəni təsirlərini ingilis dilində adekvat şəkildə ifadə etməyi öyrətmək, ünsiyyət uğursuzluqlarından qaçmaqdır. Bu da təlimin məzmununu müəyyən edir. Tələbənin doğma mədəniyyəti ilə digər mədəniyyətlər arasındakı fərqi müzakirə etmək lazım olduğu halda, ingilis dilinin və ingilisdilli linqvistik mədəniyyətin tədrisini tələbələrin digər mədəniyyətlərlə paralel şəkildə tanışlığı ilə birləşdirmək səmərəli görünür. Əsas motivasiya amillərindən biri informasiya əldə etmək zərurətidir, çünki “müasir şəraitdə cəmiyyətin, sosial icmaların və fərdlərin fəaliyyəti əvvəlkindən daha çox dərəcədə böyük informasiyanın alınması, işlənməsi və dərk edilməsi ilə müəyyən edilir [2, s. 5]. İnternet texnologiyaları beynəlxalq və mədəniyyətlərarası ünsiyyət üçün geniş imkanlar yaradır. Birbaşa ünsiyyətdə olduğu kimi, virtual mühitdə də kommunikativ, koqnitiv və rol münasibətləri yarana bilər. Ümumilikdə, ingilis dili müxtəlif mənşəli insanların əlaqə saxlamasına, əməkdaşlıq etməsinə və bir-birini başa düşməsinə imkan verən ümumi dil kimi xidmət etməklə mədəniyyətlərarası ünsiyyətdə mərkəzi rol oynayır

Ədəbiyyat


1. Воевода Е.В. Контактные языки как лингвокультурная доминанта на постсоветском пространстве / Вестник МГИМО. – 2012, No6. – С. 172–175.
2. Гойхман О.Я. Коммуникативистика в современном обществе / Научные исследования и разработки. Современная коммуникативистика. – 2012, No1, с. 4–8.
3. Лингвистический энциклопедический словарь / Гл. ред. В.Н. Ярцева. – М.: Сов. энциклопедия, 1990.
4. Мустайоки А. Почему общение на лингва франка удается так хорошо? / Языки соседей: мосты или барьеры? Проблемы двуязычной коммуникации: сборник статей // отв. ред. Н.Б. Вахтин. – СПб.: Издательство Европейского университета в Санкт-Петербурге, 2011. – С. 10-31.
5. Першукова О.А. Влияние глобального английского языка как средства межкультурной коммуникации на развитие многоязычного образования в Европе / Научные исследования и разработки. Современная коммуникативистика. – 2013, No4, с. 25-30.

6. Романенко Н.М. Основные подходы к формированию коммуникативной компетенции муниципального служащего / Научные исследования и разработки. Современная коммуникативистика. – 2013, No1, с. 55-57.
7. Bryson, Bill. Mother Tongue. The Story of the English Language. – Penguin Books, 2009. – 270 p.
8. Crystal, David. English as a Global Language. Second Edition. – Cambridge University Press, 2009. – 212 p.

## XÜLASƏ

Bu məqalə ingilis dilinin qlobal dil kimi mədəniyyətlərarası ünsiyyətin asanlaşdırılmasında əsas rolunu araşdırır. O, müxtəlif mədəni fonlardan olan fərdləri birləşdirən və mədəniyyətlərarası qarşılıqlı əlaqənin təmin edilməsində ingilis dilinin lingua franca kimi əhəmiyyətini müzakirə etməklə başlayır. Bundan əlavə, ingilis dili biliyinin fərdlərin mədəniyyətlərarası ünsiyyət vəziyyətlərini idarə etmək və müxtəlif mədəni perspektivləri dərk etmək qabiliyyətlərinə necə təsir etdiyini araşdırır. Məqalədə, həmçinin dil biliyi, mədəni həssaslıq və güc dinamikası məsələləri də daxil olmaqla, ingilis dilindən mədəniyyətlərarası ünsiyyət vasitəsi kimi istifadə ilə bağlı çətinliklər və imkanlar nəzərdən keçirilir.

***Açar sözlər :*** *daxili çevrə, xarici dairə, genişlənən çevrə, təmas dili, lingua franca, ünsiyyət, çoxdilli təhsil, multikulturalizm.*

## SUMMARY

This article examines the pivotal role of English as a global language in facilitating intercultural communication. It begins by discussing the significance of English as a lingua franca in connecting individuals from diverse cultural backgrounds and enabling cross-cultural interactions. Furthermore, it explores how proficiency in English influences individuals' abilities to navigate intercultural communication situations and comprehend varying cultural perspectives. The paper also addresses the challenges and opportunities associated with using English as a medium for intercultural communication, including issues of language proficiency, cultural sensitivity, and power dynamics.

***Key words:*** *inner circle, outer circle, expanding circle, contact language, lingua franca, communication, multilingual education, policultural.*

## РЕЗЮМЕ

В этой статье рассматривается ключевая роль английского языка как глобального языка в содействии межкультурному общению. Он начинается с обсуждения значения английского языка как лингва-франка в объединении людей из разных культур и обеспечении межкультурного взаимодействия. Кроме того, в нем исследуется, как знание английского языка влияет на способность людей ориентироваться в ситуациях межкультурного общения и понимать различные культурные точки зрения. В документе также рассматриваются проблемы и возможности, связанные с использованием английского языка в качестве средства межкультурного общения, включая вопросы владения языком, культурной чувствительности и динамики власти.

***Ключевые слова:*** *внутренний круг, внешний круг, расширяющийся круг, контактный язык, лингва франка, коммуникация, многоязычное образование, поликультурный.*

## XARCİDƏ TƏHSİLİN ÜSTÜNLÜKLƏRİ VƏ ZƏRURİLİYİ

**Pənahova Günel İslam qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Xaricdə təhsilin üstünlükləri:

Son illərdə xaricdə təhsilin populyarlığı artmaqdadır. Tələbələri beynəlxalq arenada akademik təhsillərini davam etdirmək ideyası cəlb edir və dünyanın müxtəlif yerlərindəki universitet və institutlara müraciət edir. Bu tendensiya xaricdə təhsilin təklif etdiyi bir çox üstünlüklərin əksidir. Gəlin bu üstünlüklərə daha yaxından nəzər salaq.

Birincisi, mədəni şüurun artması əhəmiyyətli bir üstünlükdür. Xaricdə təhsil tələbələrə fərqli bir mədəniyyəti ilk əldən yaşamaq imkanı verir. Bu, onlara mədəni qərəzləri aradan qaldırmağa, empatiya bacarıqlarını təkmilləşdirməyə və müxtəlif mədəni kontekstlərdə daha effektiv ünsiyyət qurmağa kömək edir. Bundan əlavə, dil bacarıqlarının təkmilləşdirilməsi də böyük üstünlükdür. Xüsusən də xarici dil öyrənən tələbələr bu dilin real həyatda necə istifadə olunduğunu görə bilir və dil bacarıqlarını praktiki şəkildə təkmilləşdirirlər.

Beynəlxalq diplom əldə etmək məzunlara qlobal əmək bazarında daha rəqabətqabiliyyətli olmağa imkan verir. Bu diplom işəgötürənlərə göstərir ki, məzun təkcə texniki biliklərə deyil, həm də mədəniyyətlərarası bacarıqlara malikdir. Bundan əlavə, müxtəlif təhsil sistemlərinə məruz qalma tələbələrə yeni təlim metodları və yanaşmaları haqqında biliklər verir. Bu, tələbəyə öz təhsil sisteminə daha tənqidi yanaşmağa və təhsilinin keyfiyyətini yüksəltməyə imkan verir. Nəhayət, xaricdə təhsilin şəxsi inkişaf üstünlüyünü də nəzərdən qaçırmaq olmaz. Yeni ölkədə yaşamağın çətinlikləri tələbələrə müstəqillik, problem həll etmə bacarığı və özünə inam verir [1, s. 33].

Xaricdə təhsilin zəruriliyi:

Qloballaşan dünyada təhsilin hüdudlarından kənara çıxmaq artıq seçim deyil, öhdəlikdir. Xaricdə təhsilin zərurəti bugünkü beynəlxalq əmək bazarı, texnoloji tərəqqi və sosial-mədəni qarşılıqlı əlaqələrlə daha da aydınlaşıb.

İlk növbədə qlobal əmək bazarının tələbləri xaricdə təhsilin zəruriliyini vurğulayır. Şirkətlər və təşkilatlar fərqli mədəniyyətlərdən olan insanlarla işləmək bacarığı olan şəxslərə üstünlük verirlər. Xaricdə təhsil almış fərdlər qlobal şirkətlərin ilk seçiminə çevrilirlər, çünki onlar müxtəlif icmalarla səmərəli ünsiyyət qurmaq və əməkdaşlıq etmək bacarığına malikdirlər. İkincisi, texnoloji irəliləyişlər dünyanı daha da bağlı edir. Bu kontekstdə müxtəlif ölkələrin təhsil sistemləri, texnoloji yanaşmaları və innovasiyaları ilə tanış olmaq fərddə texnoloji bacarıqları inkişaf etdirməyə və qlobal tendensiyaları izləməyə kömək edir.

Üçüncü məqam kimi, müxtəlif təhsil sistemlərinin unikal üstünlükləri var. Tələbələrə təhsillərini xaricdə davam etdirmək şansı verilir və müxtəlif tədris metodları və akademik yanaşmalarla tanış olurlar. Bu, tələbəni öz təhsil sistemini daha geniş perspektivdən qiymətləndirməyə və tənqidi düşünmə qabiliyyətlərini inkişaf etdirməyə təşviq edir. Sosiomədəni qarşılıqlı əlaqə fərdin dünyagörüşünü genişləndirir. Fərqli mədəniyyətlər, dil strukturları və həyat tərzləri ilə birbaşa təmas insanın mədəniyyətlərarası anlaşmasını və empatiya qabiliyyətini artırır [2, s. 12].

Nəticə etibarı ilə, qloballaşan dünyada ön plana çıxan mühüm məsələlərdən biri də xaricdə təhsilin üstünlükləri və zəruriliyidir. Müxtəlif mədəni və akademik mühitlərdə təhsil almaq tələbələrə təkcə dil bacarıqları və ya nüfuzlu diplom təqdim etmir; O, həmçinin geniş dünyagörüşü, mədəniyyətlərarası anlaşma və müstəqillik kimi dəyərli həyat bacarıqlarını təmin edir. Xüsusilə beynəlxalq əmək bazarında rəqabətin artdığı və mədəniyyətlərarası qarşılıqlı əlaqənin getdikcə daha çox əhəmiyyət kəsb etdiyi bir dövrdə xaricdə təhsil almaq təkcə üstünlük deyil, həm də zərurətə çevrilib. Ona görə də xaricdə təhsilin dəyəri həm fərdi, həm də sosial baxımdan qiymətləndirildikdə danılmaz dərəcədə vacibdir.

Ədəbiyyat
1.Əzizov, E., & Salehli, M. (2019). Xaricdə təhsil şəxsi və peşəkar inkişaf vasitəsi kimi: Azərbaycanlı tələbələrin qavrayışları. Journal of Studies in International Education, 23(4), 457-475.
2.Quliyeva, F. (2015). Azərbaycan üçün xaricdə təhsil: Uğurlar və problemlər. Beynəlxalq Tələbələr Jurnalı, 5(2), 152-168.

**XÜLASƏ**

Xaricdə təhsilin təşkili fərdlərdən tutmuş qurumlara və cəmiyyətlərə qədər bir çox sahələrə müsbət təsir göstərir. Getdikcə qloballaşan dünyada hüdudları aşan təhsil proqramları fərdlərə təkcə akademik biliklər əldə etməyi deyil, həm də mədəni mübadilə, dil bilikləri və beynəlxalq əlaqələrin qurulması kimi dəyərli təcrübələr təklif edir. Bununla belə, onu da qeyd etmək lazımdır ki, xaricdə təhsilin təşkili təkcə populyar tendensiya deyil, əslində ayrı-ayrı şəxslərin və cəmiyyətlərin qlobal rəqabətdə seçilmələri üçün zərurətə çevrilib. Bu yazıda biz xaricdə təhsilin təşkilinin üstünlükləri və bu sahədə niyə belə böyük tələbatın olması ilə bağlı tələblər üzərində dayanacağıq.

**РЕЗЮМЕ**

Обучение за границей оказывает положительное влияние на многие сферы, от отдельных лиц до учреждений и общества. Во все более глобализированном мире трансграничные образовательные программы предлагают людям не только приобретение академических знаний, но и ценный опыт, такой как культурный обмен, языковые навыки и международные связи. Однако следует отметить, что организация образования за рубежом является не только популярной тенденцией, но фактически стала необходимостью для отдельных лиц и общества, чтобы выделиться в глобальной конкуренции. В этой статье мы остановимся на преимуществах обучения за рубежом и на том, почему в этой сфере такой большой спрос.

***Ключевые слова**: обучение за рубежом, преимущества обучения за рубежом, необходимость обучения за рубежом, студент.*

**SUMMARY**

Studying abroad has a positive impact on many areas, from individuals to institutions and societies. In an increasingly globalized world, cross-border education programs offer individuals not only the acquisition of academic knowledge, but also valuable experiences such as cultural exchange, language skills, and international networking. However, it should be noted that the organization of education abroad is not only a popular trend, but in fact it has become a necessity for individuals and societies to stand out in the global competition. In this article, we will focus on the advantages of studying abroad and why there is such a great demand in this field.

***Keywords**: study abroad, advantages of study abroad, necessity of study abroad, student.*

## RƏQƏMSAL TƏHSİLİN ÜSTÜNLÜKLƏRİNDƏN İSTİFADƏ YOLLARI

**Rəhimova Əsmər Çingiz qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Rəqəmsal təhsil mövcud təhsil imkanlarının növlərini genişləndirməklə yanaşı, praktiki olaraq öyrənmə prosesini sadələşdirir və daha əlçatan edir. İnternetin mövcudluğu sayəsində şagirdlər və tələbələr əlavə vaxt sərf etmədən seçdikləri dərslərə daxil ola bilirlər.

Bu, yeni dil əldə etməkdən tutmuş müxtəlif fənlər üzrə təlimlərə qədər geniş spektrli fəaliyyətləri əhatə edir.

Rəqəmsal vasitələrlə təhsil alan şagird və tələbələrə məhdudiyyətsiz məlumat bazasına giriş təmin edilir və informasiyanın axtarışı öyrədilir. Tələbələr Google və digər mənbələr sayəsində müstəqil şəkildə yeni biliklər əldə etmək imkanı əldə edirlər.

Bu yanaşma şagird və tələbələrə təkcə onlayn təhsil almağa imkan vermir, həm də onları müxtəlif təşkilatlarda bir araya gətirir. Şagirdlər və tələbələr Zoom, Microsoft Teams və başqaları kimi platformalar vasitəsilə birgə öyrənə bilirlər. Bu, qrup işi və söhbətlər üçün əlverişli mühit yaradır.

Fərdi uyğunlaşdırılmış öyrənmə rəqəmsal təhsilin ən əhəmiyyətli üstünlüklərindən biridir. Bunun sayəsində müəllimlər şagirdləri üçün fərdiləşdirilmiş dərs planları qurmağa imkan verən daha effektiv vasitələrə çıxış əldə etmiş olurlar. Şagirdlərin hər hansı bir məsələ ilə bağlı köməyə ehtiyacı olduqda, müəllimlər bunu tez və asan şəkildə təmin edə bilirlər.

Rəqəmsallaşdırımış imtahanlardan istifadə həm şagird və tələbələr, həm də müəllimlər üçün imtahan prosedurunu daha rahat edir. Rəqəmsal vasitələrlə imtahanların təşkili həm vaxta, həm də maddi vəsaitlərə qənaet etməyə imkan verir.

Vizual şəkillərdən və elektron dərsliklərdən istifadə etməklə şagirdlərin öyrənmə qabiliyyəti təkmilləşdirilir. Bu, təkcə mövzuları daha yaxşı bilməyə kömək etmir, həm də ən çətin mövzuları daha sadə şəkildə çatdırmağa imkan verir.

Göründüyü kimi, rəqəmsal təhsilin çoxsaylı üstünlükləri var. Bu sistemdən istifadə etməklə şagirdlərə müstəqil işləmək, informasiya axtarışı, məqsədyönlü yanaşma öyrədilir. Bunun nəticəsində fərdlərin xarakteri də güclənir və onların maraqlandıqları sahədə daha yaxşı uğur qazanmalarını təmin edir [2].

Müxtəlif texnoloji vasitələrdən istifadə etməklə, rəqəmsal təhsildən istifadə etməklə tədris və təlim prosesini daha səmərəli və cəlbedici etmək olar. Rəqəmsal təhsil fənnlərin onlayn tədrisi, təkmil kurslar və proqramlara onlayn giriş kimi seçimləri təmin etməklə yanaşı, geniş fəaliyyət spektrini əhatə edir.

Rəqəmsal təhsilin üstünlüklərindən ən əsası ondan ibarətdir ki, o, müxtəlif texnoloji vasitələrdən effektiv istifadə etməklə daha əlçatan və faydalı təhsil formasını təqdir edir. Müxtəlif imkanlara sahib proqramların tətbiqi ilə yanaşı, virtual öyrənməni də özündə birləşdirir.

Rəqəmsal texnologiyalardan istifadə müəllimlərə çoxsaylı yeni imkanlar təqdim edir. Nümunə olaraq, hazırda onların olduqları məkandan asılı olmayaraq onlayn platformalar vasitəsilə dərs keçmək şansı var. Bu, həm də, tələbələr üçün azad məkan seçimi təklif edir, çünki onlar internet bağlantısı olduğu müddətdə istənilən yerdən və istənilən vaxt sinifə rahatlıqla daxil ola bilərlər.

Bundan əlavə, müəllimlərin onlayn platformalar vasitəsilə ixtisasartırma kurslarına və proqramlarına yazılmaq imkanı var. Bu rəqəmsal öyrənmə yolları pedaqoqlara təlimin effektivliyini artırmaq və tədris üsullarını daha səmərəli şəkildə uyğunlaşdırmaq imkanı verir [1].

Rəqəmsal təhsil son illərdə əhəmiyyətli inkişaf yolu keçmiş təhsil paradiqmasıdır. Bu cür təhsil forması cəhdləri keçmişdə də mövcud idi. Lakin müasir cihazlarda və məlumat yayma üsullarında sürətli irəliləyişlər sayəsində onların mürəkkəbliyi və yayılması əhəmiyyətli dərəcədə artmışdır.

Kompüterlərin və genişzolaqlı İnternetin geniş şəkildə tətbiqi rəqəmsal təhsilin əlçatanlığını və effektivliyini artırmış, bununla da həm müəllimlər, həm də tələbələr arasında artan maraq yaratmışdır. Bu irəliləyiş nəticəsində təhsilin yeni üsulları, o cümlədən təhsil oyunları, elektron testlər, təhsil resurs portalları, rəqəmsal məktəb registrləri və təhsil prosesinin monitorinqi sistemləri yaranmışdır.

Hazırda rəqəmsal təhsil şagirdlərə daha sərbəst vaxt və məkan uyğunluğu verməklə öyrənmə təcrübəsini artırmaq imkanı verir. Bu sahədə irəliləyişlər təhsil sektorunun daha dərin və səmərəli modernləşdirilməsinə zəmanət verir [3].

Rəqəmsal təhsil, ilk növbədə İnternetin geniş əlçatanlığı sayəsində sürətli dəyişikliklərlə xarakterizə olunan müasir dünyada yeni bir tendensiya kimi meydana çıxdı. Yuxarıda qeyd olunan tədris üsulu dərsliklərdən və lövhələrdən tez-tez istifadə olunan ənənəvi sinifdə öyrənmədə əsaslı dəyişikliklərə səbəb olmuşdur. Rəqəmsal təhsil nəticəsində öyrənmə daha dinamik, interaktiv və əlçatan olmuşdur, tələbələr artıq internetə çıxışı olan istənilən yerdən akademik materiallara çıxış edə bilərlər.

2019-cu ildə baş verən qlobal pandemiya təhsil müəssisələrini və məktəbləri tələbələri və işçi heyətini qorumaq üçün distant təhsilə sürətlə uyğunlaşmağa məcbur etdi. COVID-19 pandemiyası rəqəmsal təhsilin həyata keçirilməsini daha da sürətləndirdi. Bu keçid təhsil sahəsində rəqəmsal alətlər və texnologiyaların əhəmiyyətini vurğuladı, çünki onlar coğrafi məhdudiyyətlərə baxmayaraq davamlı öyrənməyə imkan verirdi.

Qlobal miqyasda rəqəmsal təhsil tədris prosesini əsaslı şəkildə dəyişdirərək müasir təhsil sistemlərinin əvəzsiz komponentinə çevrilmişdir. Çox güman ki, texnoloji tərəqqi və təhsil metodologiyalarına daha çox inteqrasiya ilə birlikdə onun təsirinin daha da genişlənəcəyi gözlənilir [4].

Ədəbiyyat

1. Musayev A. “Rəqəmsal iqtisadiyyat və rəqəmsal təhsil. Azərbaycanda ali təhsilin beynəlmiləlləşdirilməsi və rəqabətliliyinin yüksəldilməsi istiqamətləri mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları.” Bakı. 2019, 739 səh.
2. Seyid N. “Təhsilin rəqəmsallaşdırılmasının faydaları və riskləri.” QƏDİM DİYAR Beynəlxalq onlayn elmi jurnal. Cild: 5(3), 2023, səh.19-23.
3. Mąkosa P. “Advantages and disadvantages of digital education.” Biuletyn Edukacji Medialnej. 2013, 2, p.21-31.
4. Матвиенко С.В., Васильева Е.В. “Образование XXI: плюсы и минусы цифрового образования.” Образование и право. 2022, 1, стр,165-170.

## VULKANLARIN DÖVLƏT İQTİSADİYYATINA TƏSİRİ

**Sadıqov Rafət Əkrəm oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Əsrimiz nə qədər inkişaf etsə də təbii fəlakətlər baxımından daima təhlükədədir.Amma əsrimizin texnika inkişafı sahəsində bizə yəni dövlətlərə bu təbii hadisələr zamanı azda olsa yardım göstərir.Bu texniki inkişaf özünü hadisə baş verəcək və ya baş verən ərazilərdə xilas etmədə,öncədən informasiya verilməsində və baş verəcək təbii hadisəyə qarşı ön tədbirlərin görülməsində göstərir.Bütün bunlara baxmayaraq, bu təbii fəlakətlər həm ekoloji həmdə iqtisadi cəhətdən ölkələrə böyük zərər vurur.Maraqlısı budur ki, araşdırma apararkən bu fəlakətlərin nə qədər mənfi tərəfləri olsa da, həm də müsbət tərəflərini də müşahidə etdim.Təbii fəlakət növlərinin çoxluğunu nəzərə alaraq mən yalnız vulkanların dövlət iqtisadiyyatına mənfi və müsbət təsirlərini araşdırmışam.

Çox uzağa getməyək 6 il əvvəl Havay və Qvatemalada baş verən vulkan püskürmələri dünyada aktiv vulkanların yaratdığı təhlükəni növbəti dəfə gündəmə gətirdi.Bir qədər haşiyəyə çıxıb qeyd etmək istəyirəm ki, vulkanlar fəaliyyətinə görə iki qrupa bölünür.Bunlar fəaliyyətdə olan vulkanlar və sönmüş vulkanlardır.Sönmüş vulkanın digərindən fərqi min illər bundan əvvəl pükürmələridir.Amma təhülükəsi daima var.Fəaliyyətdə olan vulkanlar isə hal hazırda da püskürməsi ilə təhlükə yaradan vulkanlardır.Hansı ki, bu vulkanlar öz pükürmələri ilə insanların və dövlətlərin hafizəsində yer tuturlar.

Qeyd etdiyimoz kimi, vulkanlar püskürmələri ilə dövlətlərə həm ekoloji , həmdə iqtisadi cəhətdən təsir göstərir. Mən iqtisadi təsirləri önə çəkib bu haqda yazacam. Vulkanlar dövlət iqtisadiyyatına həm müsbət, həm də mənfi təsir göstərə bilən təbii hadisələrdir.Gəlin il öncə müsbət təsirlərdən söz açaq:

Kənd təsərrüfatı: Vulkan püskürmələrindən sonra yaranan vulkan külü torpağın tərkibini zənginləşdirir və kənd təsərrüfatı məhsullarını artırır. Beləliklə bu da, rayonda kənd təsərrüfatının inkişafına, ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

Geotermal Enerji: Vulkanlar geotermal enerji istehsalı üçün mühüm mənbədir. Burda azacıq haşiyəyə çıxıb geotermal enerjinin yer qabığının müxtəlif dərinliklərində yığılmış isti su, buxar və qazlardan ibarət olmasını qeyd etmək istəyirəm.Elektrik enerjisi istehsalı, isitmə və soyutma üçün geotermal enerjidən istifadə enerji müstəqilliyini və davamlılığını artırır.

Mədən: Vulkanlar obsidian və pemza kimi vulkanik süxurlarla, həmçinin qızıl, gümüş, mis və qurğuşun kimi qiymətli metallarla zəngin ola bilər. Mədən fəaliyyəti regiona gəlir və məşğulluq təmin etməklə iqtisadiyyatı stimullaşdıra bilər.

Turizm: Vulkanlar təbii gözəllikləri və geoloji əhəmiyyəti ilə turistləri cəlb edən əhəmiyyətli bir cazibədir.Hələki dövrümüzdə turizmə verilən önəmi nəzərə alarsaq bu çox əhəmiyyətlidir. Bunun sahəsində vulkan turizmi bölgəyə gəlir və məşğulluq təmin etməklə iqtisadiyyatı stimullaşdıra bilər.

Gördüyünüz kimi, ölkədə vulkanların olması nə qədər təhlükəsi olsa da,həmçinin, iqtisadiyyata müsbət tərəfdən önəmli təsir göstərir.Amma nə qədər müsbət təsir olsa belə təhlükə təhlükədir.İndi isə təhlükə demişkən mənfi təsirlərə baxaq:

Təbii fəlakətlər: Vulkan püskürmələri lava axını, kül buludları və sunami kimi təbii fəlakətlərə səbəb ola bilər. Bu fəlakətlər infrastruktura və kənd təsərrüfatı sahələrinə ziyan vurmaqla maddi itkilərə və insan tələfatına səbəb ola bilər.

Miqrasiya: Vulkan püskürmələri və təbii fəlakətlər bölgədəki insanların miqrasiyasına səbəb ola bilər. Bu, işçi qüvvəsi çatışmazlığına və sosial problemlərə səbəb ola bilər.

İqtisadi fəaliyyətlərin kəsilməsi: Vulkan püskürmələri bölgədə turizm, kənd təsərrüfatı, mədənçıxarma və istehsal kimi iqtisadi fəaliyyətlərin kəsilməsinə səbəb ola bilər. Bu vəziyyət iqtisadi itkilərə və işsizlik problemlərinə səbəb ola bilər.

Vulkanların dövlət iqtisadiyyatına təsirini müəyyən edən bir sıra amillər vardır. Bunlara aiddir:

- Vulkan püskürmələrinin şiddəti və tezliyi
- Vulkanın yerləşdiyi rayonun iqtisadi quruluşu
- Bölgədə infrastrukturun möhkəmliyi
- Dövlətin təbii fəlakətlərin idarə edilməsi və iqtisadi inkişaf siyasəti

Dövlətlər vulkanların mənfi təsirlərini minimuma endirmək üçün fəlakət tədbirləri görməli, infrastrukturu gücləndirməli və iqtisadi inkişaf planları hazırlamalıdır.

Nəticə olaraq bunu söyləyə bilərik ki, vulkanların dövlət iqtisadiyyatına həm müsbət, həm də mənfi təsirləri ola bilər. Amma azda olsa bu təsirlərin idarə edilməsi dövlətlərin görəcəyi tədbirlərdən və siyasətlərdən asılıdır.

Ədəbiyyat

1.USGS: Vulkanlar və İqtisadiyyat
2.National Geographic: Vulkanlar Haqqında Məlumat
3.BBC News: Vulkan püskürmələri iqtisadi fəlakətə səbəb ola bilər
4.The Guardian: Vulkan püskürmələrinin iqtisadi təsiri arta bilər
5.Vikipediya: Vulkanlar: https://az.wikipedia.org/wiki/Vulkan

# MONİTORİNQ MÜASİR MƏKTƏBDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ VASİTƏSİ KİMİ

**Süleymanova Türkan Mübariz qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir dövrümüzdə təhsil ən çox müzakirə edilən məsələlərdən biridir. Təhsilin keyfiyyətinin artırılması yolunda müxtəlif geniş addımlar atılır. Güclü rəqabət mühitində yaşadığımıza görə təhsil müəssisələrini bir-birindən fərqləndirən başlıca amillərdən biri onların verdiyi təhsilin keyfiyyəti ola bilər. Təhsil müəssisələrinin təhsildə keyfiyyətə daha çox müvəffəq olması üçün bu prosesdə əsaslı şəkildə iştirak edən kollektivə sahib olmalıdır. Hər bir təhsil müəssisəsi üçün keyfiyyətə nail olmaq bir amal olmalıdır. Keyfiyyəti isə daim təkmilləşdirilən metodlarla idarə etmək lazımdır. Çünki hər bir müəssisə keyfiyyətli fəaliyyət üçün səy göstərməlidir ki, uzunmüddətli rəqabətə tab gətirə və gələcək inkişafını təmin edə bilsin. Keyfiyyət özlüyündən yaranan bir anlayış, məfhum deyildir, onu müəyyən etmək üçün və möhkəmləndirmək üçün əvvəlcədən müəyyən edilmiş meyar və göstəricilərdən istifadə etmək lazımdır.

Təhsil müəssisəsində effektiv təhsil keyfiyyətinin idarə edilməsi sistemini qurmaq üçün şagirdlərin bilik və təlim keyiyyətinin monitoriqindən istifadə edilir. Təhsilin keyfiyyətinin idarə edilməsi planlaşdırma, monitorinq, keyfiyyətin təmin edilməsi və təkminləşdirilməsi yolu ilə nəzərdə tutulmuş keyfiyyət məqsədlərinə nail olmağa yönəlmiş idarəetmənin bir hissəsidir. İstənilən elm sahəsində işin səmərəliliyinə və inkişafına yalnız kəmiyyət cəhətdən deyil, keyfiyyət cəhətdən də yanaşmaq lazımdır. Ümumiyyətlə, mövcud təhsil keyfiyyətinin təkmilləşdirilməsinə bir sıra xüsusi məqamlar təsir göstərir, məsələn, elmi-texniki inkişaf, sosial və təşkilati dəyişikliklər. Dəyişən dövrün tələblərinə cavab vermək, effektiv və həvəsləndirici təhsil mühitini təmin etmək zərurəti, yüksək keyfiyyətli nəticələr əldə etmək və bu kimi məsələlər keyfiyyətin idarə olunmasına olan tələbi daha da artırmışdır. Bütün təhsil müəssisələrində keyfiyyətin dayanaqlı olması və təkminləşdirilməsi əsas qayə olmalıdır. Bu məsələ həm müəllimlər, həm valideynlər, həm də rəhbərlik tərəfindən dərk olunmalıdır ki, müsbət nəticə əldə etmək olsun. Təhsildə mütəmadi monitorinqlərin aparılması şagirdləri, müəllimləri, valideynləri və təhsildə maraqlı olan tərəfləri keyfiyyətin təmin edilməsinə və mövcud nəticələrin daha da yaxşılaşdırılmasına istiqamətlənmiş planlı və daimi prosesə sövq edir.

Məktəb sistemində monitorinqlərin aparılması bu və ya digər şəkildə bütün dövrlərdə mövcud olmuşdur. Belə ki, şagirdlərin biliklərinin yoxlanılması, müəllimlərin dərslərində metodistlərin müşahidəsi və tövsiyələri və s. Lakin təcrübə onu göstərir ki, ənənəvi şəkildə aparılmış monitorinqlər bu gün kifayət qədər özünü doğrultmur, çünki onlar daha çox epizodik xarakter daşıyır və nəticələrə təsir edən amillərin aşkar edilməsinə o qədər də müvəffəq olmurdu. Müasir dövrdə aparılan monitorinqlər hesabına isə tədrisin uyğunluq dərəcəsini, məktəbdə tədris prosesinin təşkilinin faktiki vəziyyətini müəyyən etməklə mənfi hadisələrin inkişafının qarşısını almaq üçün tövsiyələr verməyə imkan verir. Monitorinq nəticəsində əldə edilmiş məlumatlar təhsil müəssisəsinin gələcək inkişafının proqnozlaşdırmasında, yəni yaxın və uzaq hədəflərinin müəyyən edilməsində faydalı və əsas rol oynayır. Sözsüz deyə bilər ki, monitorinqlərin nəticələri təlimin məzmununu düzəltməyə, müəyyən idarəetmə hərəkətlərinin qanuniliyini əsaslandırmağa imkan verir. Yəni təhsilin keyfiyyətinin monitorinqi məktəb idarəçiliyinin səmərəliliyini yüksəldən əsas amillərdən hesab olunur.

Demək olar ki, həmişə məktəbin təkminləşdirilməsində rəhbər şəxsin rolu öz əhəmiyyətini saxlamışdır. Təcrübə göstərir ki, yaxşı idarəetmə hər şeydən əvvəl həmin sahə haqqında olan biliklərdən asılıdır. İdarəetmədə uğurlu olmağın digər şərti məktəbdə baş verən hadisələrin hər birindən agah olmaqdır. İdarəetmədə diqqət edilməli məqamlardan biri də məktəbin məqsədini diqqət mərkəzində saxlamaqla fəaliyyət göstərməkdir. Bilirik ki,

məktəbin əsas missiyası təhsil alanlarda müəyyən bilik və bacarıqlar formaaşdırmaqla onları həyata hazırlmaqdır, bu istiqamətdə də rəhbərlərin də əsas missiyası müəllimlərin bu işdə səmərəli fəaliyyət göstərməsinə imkan yaratmaqdır. Rəhbərlərin strateji planlaşdırması vacib hesab olunur və məktəbin fəaliyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərir. Ümumiyyətlə, təhsilin planlaşdırılması şagirdlərin təlim nəticələrinin artırılmasına, həmçinin hər hansı dəyişiklikləri sərrast idarə etmək üçün məktəbin potensialının gücləndirilməsinə öz faydasını verməyə yönəlmişdir. Məhz çevik dəyişikliklərin aparılması potensialına sahib olmaq üçün məktəb rəhbəri öz idarəetmə fəaliyyətində mütəmadi monitorinqlər apararaq təhsil dəyişikliklərinə tez adaptasiya ola biləcək idarəetmə strukturularını yaratmalı, idarəetmə strategiyalarını məktəbin vizyon və missiyasına uyğun planlaşdımalıdır.

Keyfiyyətin inkişafında və idarə olunmasında menecerin də xüsusi rolu var. İstənilən müəssisədə menecerin funksiyasına aşağıdakılar aid ola bilər.

– Keyfiyyətin yaxşılaşdırılması prosesi haqqında aydın təsəvvürə malik olmaq;
– Şagirdin ehtiyaclarının müəssisənin diqqət mərkəzində olmasını təmin etmək;
– Problemlər yarandıqda sübut olmadan başqalarını gühanlandırmamaq;
– Müəssisə daxilində yeniliklər tətbiq etmək;
– Müəssisə daxilində işçilərin məsuliyyətlərinin dəqiq müəyyən edilməsi və məsuliyyətlərinin maksimum həvalə edilməsini təmin etmək;
– Müəssisə daxilində müvəffəqiyyətin monitorinqi və qiymətləndirilməsi üçün müvafiq mexanizmlərin işlənib hazırlanması;
– Keyfiyyətin qiymətləndirilməsinin əsas metod və prinsiplərindən istifadə etməklə bütün müəllimləri problemlərin həllinə cəlb etmək;
– Konfliktləri və problemləri həll etmək və danışıqlar aparmaq bacarıqlarını inkişaf etdirmək;

Təhsil sferasında "təhsilin keyfiyyəti" və "keyfiyyətin idarə olunması" anlayışları bizə monitorinq və qiymətləndirmənin mahiyyəti və məzmunu üzərində düşünməyə daha çox sövq edir. Bəzi müəlliflər tərəfindən təhsilin keyfiyyəti yalnız nailiyyət səviyyələri hesab olunur. Lakin müəllimlərin və şagirdlərin fəaliyyətlərinin xüsusiyyətləri, onların dövlət standartlarının tələblərinə cavab verən məqsədlərə uyğunluğu nəzərə alınmaqla tədris prosesinin keyfiyyətini dəyərləndirmək lazımdır. Tədris prosesinin keyfiyyətinin monitorinqi tədris prosesinin əsas elementlərinin həyata keçirilməsinə nəzarət etmək üçün məlumatların qeydə alınması prosesidir.

Dövlət və beynəlxalq normalara uyğun təhsil məzmununun müasir səviyyəsinin təmin edilməsi ümumtəhsil prosesinin keyfiyyətinin əsas tərkib hissəsidir. Hər bir ümumi təhsil müəssisəsində fəaliyyət göstərən təhsilin keyfiyyətinə nəzarət edən sistem və ya məsul şəxslər bu problemin həllinə, tədris kurslarının məzmununun yüksək elmi səviyyəsini, onların cəmiyyətin, elmin, texnikanın, istehsalın mövcud inkişaf vəziyyətinə uyğunluğunu təmin etməyə yönəlməlidir. Hazırda təhsilin normalara uyğun təşkilindən əlavə şagirdlərin şəxsiyyətini inkişaf etdirən, şagirdin yaradıcılıq fəaliyyəti üzərində qurulan proses yaradaraq təfəkkürlərini hər üç istiqamətdə formalaşdıran tədqiqat prosesi təşkil edilməlidir. Tədqiqat fəaliyyətinin tədris prosesinə inteqrasiya olunması bütünlükdə təhsil prosesinin xarakterini dəyişir. Bilikyönümlü proses biliyin müəllim tərəfindən ötürülməsindən və şagird tərəfindən mənimsənilməsindən ibarət idisə, tədqiqat fəaliyyətini təşkil edən konkret vəziyyət isə şagirdləri müstəqil təhlilə sövq edir.

# FİZİKANIN TƏDRİSİNDƏ İKT ƏSASLI PROBLEMLİ VƏZİYYƏTİN YARADILMASININ BƏZİ MƏSƏLƏLƏRİ

**Şahhüseynova Günel Şüküran qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universteti*

**"Düşünmək problemli vəziyyətdən başlayır"**
**S.L. Rubinstein**

Problemli təlim texnologiyası müəllimin sinifdə problemli vəziyyəti təqdim etdiyi, şagirdlərin isə müstəqil şəkildə həll etdiyi tədris sistemidir və eyni zamanda problemli təlim texnologiyası şagirdlərin həm praktiki, həm də nəzəri xarakterli problemli situasiyaların həlli yolu ilə yeni biliklərə yiyələnməsinə əsaslanan təlim sistemidir. O, yaradıcı təfəkkürün, komandada işləmək bacarıqlarının və dialektik-materialist təfəkkürün inkişafına yönəlib.

Problemli öyrənmənin məqsədi şagirdlərin təkcə yeni bilikləri öyrənmək deyil, həm də aktiv müstəqil axtarış yolu ilə onu əldə etməyin bütün yolunu keçməsidir. Bu yanaşma idrak müstəqilliyini, qeyri-standart problemləri irəli sürmək və həll etmək bacarığını inkişaf etdirməyə kömək edir.

Problemli təlimin mühüm və məsuliyyətli mərhələsi problemli vəziyyətin yaradılmasıdır. Bunun üçün əsas vasitə problemli suallardır, lakin bu məqsədlə fizika dərslərinin əsasını nümayiş və düşüncə təcrübələri, frontal təcrübələr, eksperimental tapşırıqlar və s. təşkil edir.Bunların həyata keçirilməsində isə müəllimin əsas və ən yaxşı köməkçisi İnformasiya Kommunikasiya Texnologiyasıdır (İKT-dir).

Təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi təcili və obyektiv tələbatdır ki, bu da bizə biliklərin ötürülməsini əhəmiyyətli dərəcədə sürətləndirməyə, təlimin keyfiyyətini yüksəltməyə, insanın ətraf mühitə və gedən sosial dəyişikliklərə daha uğurla və tez uyğunlaşmasına imkan verir. Bu baxımdan:

1. Dərslərdə İKT-dən istifadənin ən geniş yayılmış forması materialın təqdim edilməsi zamanı kompüterin multimedia imkanlarıdır (onlara daxil edilmiş video fraqmentləri olan kompüter təqdimatları, hadisə və cihazların interaktiv modelləri, tapşırıq və suallar, animasiyalar, səs, statik təsvirlər).
2. Nəzəri və praktiki məşğələlərdə kompüter məlumat kitabçalarından, ensiklopediyalardan, lüğətlərdən, elektron tədris materiallarından istifadə etmək məqsədəuyğundur.

Dərslərdə İKT-nin köməyi ilə aşağıdakı kimi problemli vəziyyətlərdən istifadə etmək olar:

1. Şagirdləri təəccübləndirən, qeyri-adi və paradoksal görünən faktlar, hadisələr, təcrübələr və nəticələrlə tanış etdikdə təəccüblü vəziyyət yaranır. Məsələn, problemli bir vəziyyət yaratmaq üçün əsas olan "Su otaq temperaturunda qaynaya bilərmi?" sualını vermək olar. Suyun otaq temperaturunda qaynamasını nümayiş etdirən məşhur təcrübəni isə İKT-nin köməyi ilə göstərmək məqsədə uyğundur. Həm də belə bir vəziyyətin yaradılması üçün əsas heyrətamiz təbiət hadisələrinin təsviri də göstərilə bilər. Müxtəlif mühitlərdə elektrik cərəyanını öyrənərkən isə müxtəlif hekayələrdən misal göstərmək olar ki, bu hekayələrdən biri də Elmonun atəşi hekayəsidir. Bu zaman belə bir sual vermək olar: "Gəmilərdə Müqəddəs Elmonun işıqlarının görünməsini necə izah etmək olar?".
2. Problemli vəziyyətindən əsasən fiziki nəzəriyyələrin və fundamental təcrübələrin öyrənilməsində istifadə olunur. İşığın təbiətini öyrənərkən şagirdlərə sual üzərində düşünməyə yönləndirmək üçün işıqla bağlı təcrübələri,işıq hadisələrini İKT vasitəsi ilə nümayiş etdirdikdən sonra belə bir sual vermək olar ki : " Sizcə İşıq nədir?" (onlarbu zaman işığın iki nəzəriyyəsini nəzərdən keçirirlər: korpuskulyar və dalğa.) Bu problemlərin həlli ilk növbədə "problem təqdimatı" xarakteri daşıyır.
3. Problemlilik vəziyyəti müəllimin şagirdləri tədqiqat axtarışına cəlb etməklə müəyyən qanunauyğunluq və ya hadisənin mövcudluğunun mümkünlüyü haqqında fərziyyə irəli sürməsindən ibarətdir. Məsələn, belə bir situasiya yaratmaq olar: "Məlumdur ki, elektrik

cərəyanı maqnit sahəsini yaradır. Bəs əks fenomeni əldə etmək mümkündürmü: bir maqnit sahəsindən istifadə edərək keçiricidə elektrik cərəyanını yaratmaq olarmı? Problemin həllinin müxtəlif variantlarını müzakirə edərək, şagirdlərə müzakirə nəticəsində M.Faradeyin elektromaqnit induksiya hadisəsinin kəşfi ilə bağlı məşhur təcrübəsini nümayiş etdirərək öyrətmək mümkündür.

4. Şagirdlərdən hər hansı ideyanın, layihənin, sübutun və ya antielmi nəticənin həyata keçirilməsinin mümkünsüzlüyünü sübut etmək istənildikdə təkzib situasiyası yaranır. Məsələn, daimi hərəkət maşınının müəyyən layihəsinin yaradılmasının, yaxud vakuumda işığın sürətini aşan sürətlə hərəkətin və sairlərin mümkünsüzlüyünü sübut etmək təklif olunur ki, bu zaman şagirdlər özləri İKT-dən istifadə edərək bunu həyata keçirilər.

5. Problemlilik vəziyyəti ondan ibarətdir ki, şagirdlərin həyat təcrübəsi, onların kortəbii şəkildə formalaşdırdıqları həyati ideyalar ilə elmi məlumatlar ziddiyyət təşkil edir. Aşağıdakı təcrübə nümayiş etdirilə bilər: sınaq borusuna tökülən su yuxarıdan qızdırılır. Sınaq borusunun dibində çəkidən istifadə edərək bir buz parçası bərkidilir. Suyun üst qatı qaynayır, lakin alt qat soyuq qalır (buz ərimir). Müəllimlər suyun zəif istilik keçiriciliyini bildikləri üçün eksperimentin nəticəsini sərbəst izah edə bilərlər. Lakin şagirdlərin bunu daha yaxşı mənimsəməsi üçün təcrübənin nümayiş etdirilməsi olduqca vacibdir.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, fizika dərslərində İKT-dən istifadə həm təlim prosesində, həm də şagirdlərin inkişafında yaradıcılıq imkanlarını genişləndirir. Öyrənmə daha fərdiləşir. Onu da qeyd etmək lazımdır ki, yeni informasiya texnologiyaları öyrənməni olduqca maraqlı prosesə çevirir.

## DÜNYA ÖLKƏLƏRİNDƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Şirəliyeva Şəms Əsgər qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Qloballaşma bütün dünyada ali təhsil sistemlərinə mühüm təsir göstərməklə onların strukturunun və fəaliyyətinin standartlaşdırılmasına və uyğunlaşmasına gətirib çıxarır. Ali təhsilin Avropa və Amerika modelləri arasındakı fərqlər bu təsirə yanaşmaların müxtəlifliyini nümayiş etdirir.

1. Avropa modelində ali təhsil sistemi:

- Əsas diqqət ali təhsil sistemində mühüm rol oynayan dövlət təhsil müəssisələrinə yönəlib.
- Təhsil müəssisələrinin maliyyələşdirilməsində və tənzimlənməsində dövlətin mühüm rolu vardır.
- Ənənəvi olaraq, Qərbi Avropa ölkələrində dövlət universitetləri ümumi əhalinin ali təhsilə çıxışını təmin edən əsas mexanizm olaraq qalır.

2. Amerika modelində ali təhsil sistemi:

- Öz standartları və maliyyə mənbələri əsasında fəaliyyət göstərən özəl təhsil müəssisələrinin üstünlük təşkil etməsi.
- İdarəetmə və maliyyələşdirmədə daha böyük muxtariyyət və çeviklik mümkündür, bu isə qurumlara qlobal tendensiyalar və ehtiyaclara uyğunlaşmağa imkan verir.
- Kiçik kolleclərdən tutmuş böyük tədqiqat universitetlərinə qədər təhsil müəssisələrinin mülkiyyət və növlərinin müxtəlifliyi təhsil sistemində rəqabəti və innovasiyaları təşviq edir.

Bu modellər ciddi istisnalar deyil və xüsusilə, qlobal təhsil tendensiyalar kontekstində qarışıq formalar mövcud ola bilər. Məsələn, bəzi Avropa ölkələri ali təhsilə özəl sektor elementlərini fəal şəkildə tətbiq etməyə başlayıblar, bəzi Amerika universitetləri isə dövlət maliyyələşdirmə modelləri ilə təcrübə keçirməyə başlayıblar.

Böyük Britaniyanın ali təhsil sistemi zəngin tarixə malikdir və 12-ci əsrdə Oksford və Kembric Universitetlərinin yaradılmasından başlayır. Bu universitetlər dünyanın ən nüfuzlu təhsil ocaqlarından bəziləri olmaqda davam edirlər. Britaniya ali təhsil sisteminin tarixində və inkişafında bir neçə əsas məqamı qeyd etmək vacibdir:

1. Milli Kurrikulum:

- İngiltərə, İrlandiya və Uelsdə təhsil Milli Kurrikuluma uyğun həyata keçirilir.
- Şotlandiyada müəyyən fərqlər var, məsələn, bakalavr təhsilinin müddəti.

2. Ali təhsilin ikili sistemi:

- 60-cı illərdə və 70-ci illərin əvvəllərində universitetlər və politexnik kollecləri də əhatə edən binar sistem formalaşmışdır.
- Bu sistem ali təhsili hər birinin özünəməxsus xüsusiyyətləri və məqsədləri olan iki sektora böldü.

3. İslahatlar:

- 1979-cu ildə Mühafizəkarlar hökuməti iki ali təhsil sektorunu bir-birinə yaxınlaşdırmağa və onların hüquqi bazasını uyğunlaşdırmağa başladı.
- Tədbirlər təhsil müəssisələrinin idarəetmə və maliyyələşdirmə sahəsində fəaliyyətini stimullaşdırmaq məqsədi daşıyırdı.

4. İkili sistemin ləğvi:

- 1992-ci ildə qəbul edilmiş "Əlavə və ali təhsil haqqında" qanun ikili sistemi ləğv etdi.
- Bu qanunda ali təhsilin vahid modeli tətbiq edilib, politexnik kollecləə və ona bənzər təhsil müəssisələrinə universitet statusu verilib.

Bu islahatlar Böyük Britaniyanın ali təhsil sistemini təkmilləşdirmək, onu ölkənin sosial-iqtisadi ehtiyaclarına daha uyğunlaşdırmaq məqsədi daşıyırdı. Nəticədə Böyük Britaniya qlobal təhsilin mühüm mərkəzi olmaqda davam edir.

Amerika ali təhsil sistemində özəl universitetlərin üstünlük təşkil edən rolunun təsdiqi universitetlərin geniş muxtariyyətə və hökumətin minimal müdaxiləsinə malik olduğu liberal idarəetmə sisteminin üstünlük təşkil etməsi ilə izah olunur. Bu, Amerika sistemini bir çox digər təhsil sistemlərindən, o cümlədən Avropa sistemlərindən fərqləndirir.

## ALİ TƏHSİLDƏ İNTEQSİYALI YANAŞMANIN METODİKİ ƏSASLARI

**Yaqubova Aysel Rüstəm qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ali texniki təhsil müəssisəsinin məzunu olan mütəxəssis öz praktiki iş sahəsində mövcud məsələləri lazımı riyazi aparat və hesablama texnikasının köməyi ilə həll etməyi bacarmalıdır. Ona görə də riyaziyyat fənni kompüterlərin istifadəsi ilə tam umumtexniki və xüsusi fənlər toplusunun öyrənilməsi üzrə tələbələrin professional təhsil əldə edilməsinin əsası olmalıdır.

Riyaziyyatın öyrənilməsinin tətbiqi istiqamətlərinin problemləri müxtəlif ixtisaslar üçün bir sıra elmi tədqiqatlarda baxılmışdır.

Müasir dövrdə bu tədris fəaliyyətinin köklü intensivləşməsi üçün münbit şərait yaranmışdır. Kompüter texnologiyasının imkan verdiyi hesablama, grafik, vizual, arayış-informasiya xarakterləri professional fəaliyyətin müxtəlif sahələrinə aid olan tətbiqi məsələlərin həllində umumi yanaşmaların formalaşmasıni reallaşdırır. Bu da öz növbəsində riyaziyyatın öyrənilməsi keyfiyyətini nəzərə çarpacaq dərəcədə artırır.

Ali Təhsil müəssisələrində riyaziyyatın öyrənilməsinin tətbiqi istiqamətləri nəzərə almalıdır:

1. Umumtexniki və xüsusi ixtisaslarda riyaziyyatın tətbiqinin tərkibi və öyrənilmə üsullarındakı yanaşmaların tələbələrin peşəkar hazırlığına uyğunluğunu;
2. Riyazi kursun struktur və tərkibinin özəlliklərini.

İnteqrasiya ideyaları təhsildə differensasiya prosesslərinin başlanması ilə əlaqədar son vaxtlar intensiv nəzəri və praktik tədqiqatların predmeti olmuşdur. Praktiki nöqteyi nəzərdən inteqrasiya predmetlər arası əlaqələrin güclənməsinə, tələbələrin dərslə yüklənməsinin azaldilmasina, tələbələrin məlumat alma sahəsinin genişlənməsinə, təhsil alma maraqlarının möhkəmlənməsinə xidmət edir.

Təhsilə inteqsiyalı yanaşmanın metodiki əsasları ətraf aləm və onun tam qanuna uyğunluqları haqqında biliklərin formalaşması, həmçinin elmin əsaslarının öyrənilməsində predmetlər daxili və predmetlər arası əlaqələrin müəyyənləşməsidir.

İxtiyari dərs öz strukturu ilə birgə o zaman inteqrasiyalı dərs adlanır ki, onun keçirilməsində digər elmlərin, digər tədris predmetlərinin bilik, bacarıq, öyrənilən materialın tədqiqinin nəticələri cəlb edilir.

İnteqrasiyalı dərslərin onların təşkili əlaməti ilə ümumi təsnifatı aşağıdakı şəkildə olmaqla inteqrasiya pillələri ierarxiyasının tərkib hissələrinə daxildir:

1. Dərsin təşkili və keçirilməsi müxtəlif fənlər üzrə iki və daha çox müəllim tərəfindən yerinə yetirilir;
2. Dərsin təşkili və keçirilməsi müxtəlif fənlər üzrə baza hazırlığı olan bir müəllim tərəfindən yerinə yetirilir;
3. Bu əsasda inteqrasiyalı mövzu, bölüm və nəhayət kursların yaradılması.

Riyaziyyat və informatikanın inteqrasya ideyası demək olar ki, ali məktəb və orta məktəblərdə informatika kursunun daxil edilməsi ilə eyni vaxtda yarandı.

İnformatika və riyaziyyat çoxplanlı elmi fənlərdir. Texnoloji aspektdə informatikanı "computer science" elminə yaxın fənn kimi, təbiət elmli fənn kimi və nəhayət müxtəlif formallaşmış və formal dilləri öyrənən dil yönümlü fənn kimi baxmaq olar. Riyaziyyata gəlincə abstrakt, nəzəri çoxluq, tətbiqi riyaziyyat, universal riyaziyyat dilləri haqqında danışmaq olar. Bu aspektlər arasında fərqlər kifayət qədərdir.

Ona görə də riyaziyyat və informatikanın dərk edilməsinin başqa aspektlərinə keçsək, məsələn "dil" aspektinə, bu sahələrin xeyli inteqrasiyası, beləliklə də müxtəlif ixtisaslar üzrə tələbələrin informasiya-riyaziyyat hazırlığının artirilması üçün imkanların olduğunu görərik.

Ancaq faktiki olan odur ki, əksər ali təhsil müəssisələrində riyaziyyat və informatikanın tədrisi əvvəlki kimi ya ayrıca keçilir, ya da riyazi məsələlərin həllində istifadə edilən müxtəlif proqram vasitələrinin istifadəsində inteqrasiya olunur.

Ona görə də müasir dövrdə informasiya-riyaziyyat hazırlığı sistemində yeni öyrənmə mahiyyəti axtarışı aktual məsələ olaraq qalır.

## DİQQƏT YÖNÜMLÜ TƏLİM PROQRAMLARININ EFFEKTİVLİYİ VƏ TƏTBİQİ

**Yüzbaşiyeva Ofelya Məhəmməd qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir şəraitdə şagirdlərin akademik uğurlarını artırmaq və öyrənmə prosesini daha da təkmilləşdirmək məqsədi ilə təhsil sahəsində müxtəlif strategiya və yanaşmalar hazırlanır. Bu baxımdan diqqət yönümlü təhsil proqramları məktəblilərin öyrənmə bacarıqlarını inkişaf etdirmək və dərs prosesinin səmərəliliyini artırmaq çox üçün mühüm yer tutur. Diqqət şagirdlərin marağını dərsə yönəltmək, əldə edilən məlumatları emal etmək və problemlər həll etmək bacarığına təsir edən fundamental idrak prosesidir və buna görə də, təhsil sahəsində diqqətin gücləndirilməsi ümumi təlim nəticələrinin yaxşılaşdırılması üçün əsas ola bilər.

Diqqətin inkişafına yönəlmiş təlim proqramları məktəblilərin diqqətini artırmaq üçün müxtəlif texnika, strategiya və fəaliyyətlərdən istifadə edir və beləliklə, onların öyrənmə proseslərini də daha effektiv edir. Təlim prosesində Məktəblilərin diqqətini inkişaf etdirmək məqsədilə istifadə edilən ən geniş üsullara aşağıdakıları nümunə göstərə bilərik: vizual və

audial materiallardan istifadə etmək, onları dərsdə aktiv olaraq iştirak etməyə təşviq etmək, şagirdlərin maraq dairələrini və ehtiyaclarını əsas götürmək, oyun metodlarından istifadə etmək və s. Vizuallaşdırma diqqətin mərkəzləşdirilməsinə kömək edən vacib üsullardandır. Bu zaman müəllim uşaqlardan zehinlərində bir rəsm və ya mənzərə canlandırmağı və onun necə göründüyünü izah etməsini istəyə bilər. Bəzi uşaqlarda audial qavrayış daha yaxşı inkişaf etmiş olur. Onların diqqətini mərkəzləşdirmək məqsədi ilə müəllim bir hekayə danışa və bu hekayə ilə bağlı suallar soruşa bilər. Dərs arasında yorğunluğu aradan qaldırmaq və uşaqların diqqətini toplamağa yönəlmiş ən yaxşı üsullardan biri də oyun və tapmacalardır. Müəllim dərs materialı ilə bağlı suallarını çarpaz tapmacalar (şaquli və üfiqi istiqamətlərdə sözlərin xanalara doldurulması) şəklində kağızlarda uşaqlara təqdim edə bilər. Beləliklə uşaqların yorğunluğu aradan qalxar, diqqətlərini mərkəzləşdirər, prosesə oyun kimi baxdıqları üçün öyrənməkdən zövq alarlar. Diqqətin inkişafına yönələn müxtəlif oyunlar, məsələn sudoku, pazl, yaddaş kartları uşaqlarda həm məntiqi təfəkkürün formalaşmasına, həm də problem həll etmə bacarıqlarının inkişafına kömək edəcəkdir.

Yuxarıda yazdıqlarımıza əsasən qeyd edə bilərik, təhsil proqramı şagirdlərin diqqətini dağıdıcı ünsürlərdən uzaqlaşdırır, dərs üzərində mərkəzləşləşdirməsinə kömək edir. Diqqətini daha yaxşı yönləndirməsi dərs və summativ qiymətləndirmələrində artışla müşayət edilir, beləliklə məktəblilər dərs prosesindən və öyrənməkdən daha çox zövq alır, motivasiyaları yüksək olur. Bu üsulların əhəmiyyətini təkcə şagirdlərin akademik uğurlarını artırılması ilə deyil, həm də onların ümumi idrak və sosial inkişafına töhfə verməsi baxımından da izah etmək lazımdır. Belə ki, diqqətə yönəlmiş təhsil proqramları stress və narahatlığın səviyyəsini azaldır, şagirdlərdə özünə inamı, özdəyər və hörməti, onların ünsiyyət bacarıqlarını artırır. Diqqət problemi olan tələbələr uğursuzluq və tənqidə məruz qalma səbəbindən aşağı özünə hörmətə malik ola bilərlər. Diqqətə yönəlmiş proqramlar tələbələrə diqqətlərini idarə etməyə, tapşırıqları yerinə yetirməyə və uğur qazanmağa imkan verməklə özlərinə hörmətlərini artırmağa kömək edir. Proqramın uğursuzluq təcrübələrini azaltması və tələbələrin güclü tərəflərinə diqqət yetirməsi də nəticədə özünə hörmətə müsbət təsir göstərir.

Diqqətə yönəlmiş təhsil proqramlarının sosial və psixoloji təsirlərini öyrənən müxtəlif araşdırmalar vardır. Bu tədqiqatların nəticələri göstərir ki, diqqət yönümlü təhsil proqramlarının sosial və psixoloji təsirlərini artırmaq üçün aşağıdakıları nəzərə almaq önəmlidir.

1. Proqramın məktəblilərin fərdi ehtiyacları və maraqları üçün uyğun olması,
2. Proqramın məktəblilərin sosial və emosional bacarıqlarını təkmilləşdirmək məqsədi daşıması,
3. Ailələrin maarifləndirilməsi və müəllimlərlə birlikdə prosesdə fəal iştirakı,
4. Müəllimlərin və digər işçilərin proqramı həyata keçirmək üçün lazım olan bilik və bacarıqlara sahib olması.

Diqqətə yönəlmiş təlim proqramları diqqət əksikliyi və hiperaktivlik pozuntusu olan və digər diqqət problemləri yaşayan tələbələrin akademik, sosial və psixoloji inkişafı üçün mühüm vasitədir. Korporativ dəstəyin təmin edilməsi və proqramın bütün maraqlı tərəflərinin fəal iştirakı bu proqramların effektivliyi və davamlılığı üçün vacib vasitədir.

Diqqət yönümlü təlim proqramlarının effektiv şəkildə həyata keçirilməsi üçün bəzi mühüm məqamları nəzərə almaq lazımdır. Hər şeydən öncə qeyd etməliyik ki, bütün uşaqlar fərdidir və eyni yanaşma hər bir şagirdə eyni təsiri göstərə bilməz. Bu baxımdan gələcəkdə diqətin inkişafına yönəlmiş təlim proqramının inkişafı və davamlılığı üçün çox saylı araşdırmalar etmək, müxtəlif şagird qrupları üçün fərqli yanaşmaları sınamaq önəmlidir. Proqramlar tələbələrin fərdi ehtiyac və maraqlarına uyğun hazırlanmalı və təcrübəli pedaqoqlar tərəfindən həyata keçirilməlidir.

Diqqətə yönəlmiş təlim proqramlarının gələcəkdə təhsil sistemlərində daha mühüm rol oynayacağı göz önündədir.. Buna görə də, proqramların hazırlanması və yayılmasında təhsil sisteminin bütün maraqlı tərəflərinin əməkdaşlıq etməsi vacibdir.

# III BÖLMƏ

# TƏHSİLDƏ SOSİAL-PSİXOLOJİ XİDMƏT

## PSİXOLOJİ XİDMƏT SAHƏSİNDƏ MONİTORİNQİN ROLU

**Abbaslı Fatimə Namiq qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Psixoloji xidmətin monitorinqi, müştərilərin təcrübələrinin və nəticələrinin izlənməsi və qiymətləndirilməsidir. Bu proses müştərilərin məqsədlərinə nail olmaq və onların müsbət dəyişikliklərə nail olmaq üçün müdaxilələri tənzimləməkdə kömək edir. Bu, müştərilərin problemlərinin mərhələləri boyunca necə inkişaf etdikləri və proqramın effektivliyi haqqında məlumat toplamaq üçün əhəmiyyətli bir alətdir.

Psixoloji xidmətin monitorinqi, müştərilərin təcrübələrinin və nəticələrinin izlənməsi üçün bir neçə mərhələdən ibarətdir:

1. Müştəri məlumatlarının toplanması: Müştərinin məlumatları, məqsədləri, müalicə tarixi, mövcud vəziyyəti, mövcud problemləri və digər təfərrüatlar toplanır.
2. Başlanğıc qiymətləndirmə: Müştərinin başlanğıcdakı vəziyyəti qiymətləndirilir. Bu, müştərinin məqsədlərinə nail olmaq üçün nəzərdə tutulan hədəfləri, müşahidələri daxil edir.
3. Müştəri tərəfindən müşahidələr: Müştəri, müşahidələrini, təcrübələrini və hislərini jurnal və ya başqa qeydiyyat formasında qeyd edir.
4. Müxtəlif metodlardan istifadə: Psixoloji testlər, anketlər, müşahidə və söhbət kimi müxtəlif metodlardan istifadə olunur.
5. İzləmə və müdaxilə: Müştərinin inkişafını izləyərək, mümkün müdaxilələr və dəyişikliklər təklif edilir.
6. Dəyişikliklərin qeydə alınması: Müştərinin məlumatları, inkişafı və dəyişiklikləri düzgün bir şəkildə qeydə alınır.
7. Nəticələrin qiymətləndirilməsi: Müştəri ilə birgə nəticələr qiymətləndirilir və müsbət dəyişikliklərin və yaranmış problemlərin müzakirəsi aparılır.
8. Təkrar monitorinq və izləmə: Müştərinin inkişafını müvafiq olaraq izləyərək, monitorinq və müdaxilə prosesi davam edir.

Bu mərhələlər müştəri təcrübəsini və məqsədlərinə nail olmaq üçün effektivliyi qiymətləndirməyə kömək edir. Lakin bəzən monitorinq apararkən ortaya bəzi problemlər çıxa bilər. Bu problemlər aşağıdakılardan ibarətdir:

- İstifadəçinin rahatlıq səviyyəsi: İstifadəçilər bəzən monitorinq prosesi ilə bağlı özlərini rahatsız və ya gərgin hiss edə bilərlər. Bu yığcam qorunma reaksiyası, qoruma mexanizmlərinin işlənməsi və ya təsir altında olunan təsəvvür və inancların təsiri ilə bağlıdır.
- Gizlilik və etik məsələlər: Monitorinq zamanı, müşahidə edilən şəxslərin gizliliyinin qorunması vacibdir. Bu, etik qaydaların və qanunvericiliyin müşahidə prosesinə uyğunluğunun təmin edilməsi ilə əlaqədardır.
- Məlumatların analizi və şərh olunması: Monitorinq zamanı toplanan məlumatların doğru şəkildə analiz edilməsi və şərh olunması vacibdir. Məlumatların çoxsaylı və çox dəyişkən olması doğru analiz etmək üçün çətinliklər yarada bilər.

- Məlumatların düzgün idarə olunması: Monitorinq zamanı əldə edilən məlumatların düzgün bir şəkildə idarə olunması vacibdir. Bu, məlumatların saxlanılması, emalı və paylaşılması ilə bağlı prosedurların gözlənilməsidir.
- Nəticələrin təhlili və tətbiqi: Monitorinq nəticələrinin doğru təhlil və uyğun tətbiqi prosesində çətinliklərlə üzləşilə bilər. Bu vəziyyətlərdə nəticələrin praktik tətbiqi çətin və ya mürəkkəb ola bilər.

Bu problemlərə yaxşı hazırlaşmaq və onları təhlil etmək üçün effektiv strategiyalar və prosedurlar təyin və tətbiq etmək vacibdir.

## ARTİKULYASİYA APARATININ VƏZİYYƏTİNDƏN ASILI OLARAQ ŞİFAHİ NİTQİN İNKİŞAFI

**Aydan Adıgözəlzadə Mehman qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universitet*

Nitq pozulmaları demək olar ki, bu sindromlu bütün uşaqlarda müşahidə olunur. Nitqin inkişafı uşağın ümumi inkişafının mühüm aspektidir və onun ünsiyyət bacarıqlarında mühüm rol oynayır. Daun sindromlu uşaqlarda da nitqin inkişaf prosesi normotipik uşaqlardan əhəmiyyətli dərəcədə fərqlənir. Daun sindromlu uşaqlarda nitq pozulmaları aşağıdakı amillərlə əlaqədardır:

- anatomik amillər;
- fizioloji amillər;
- nevroloji amillər;
- nitq qavrayışı ilə bağlı problemlər;
- dil faktorları;
- şifahi olmayan amillər;
- situasiya amilləri.

Daun sindromlu insanlarda nitqə təsir edən anatomik amillər aşağıdakılardır:

- hündür, dar tağlı damaq;
- diş çıxarma xüsusiyyətləri: dişlər daha gec görünür, bəzi dişlər ümumiyyətlə çıxmır, bəziləri isə çox sıxlaşa bilir. Bu hallar artikulyasiyaya mənfi təsir göstərir;
- açıq dişlər. Bu zaman yuxarı və aşağı dişlər birləşmir;
- nisbətən böyük dil. Daun sindromlu uşaqlarda ağız boşluğunun ölçüsü kiçik olduğundan dil ağız boşluğuna uyğunlaşmır və artikulyasiya çətinləşir.

Daun sindromlu uşaqlar digər uşaqlardan gec danışmağa başlayırlar (adətən iki və ya üç yaşında). Onlar, nitqin motor funksiyası ilə əlaqəli çətinliklər səbəbindən deyə biləcəyindən daha az söz deyir. Belə ki, Daun sindromlu uşaqlarda nitq pozulmaları təkcə əqli geriliklə deyil, həmçinin eşitmə pozulmaları və çox kiçik artikulyasiya ilə də əlaqədardır. [1,səh.,25]

Daun sindromlu uşaqlarda passiv lüğətlə müqayisədə aktiv lüğətin həcmi aşağı olur. Onlarda passiv və aktiv lüğət arasındakı fərq digər əqli geriliyi olan uşaqlara nisbətən daha qabarıqdır. Bu uşaqlarda söz ehtiyatı açıq şəkildə məhdudlaşır və nitqin tələffüz tərəfində kobud pozulmalar olur. Onlar tez – tez və sözlər aralarında fasilələr olmadan danışırlar ki, bu da sözlərin üst – üstə düşməsinə səbəb olur. Daun sindromlu uşaqlarda, həmçinin, nitqin həcmi, tembri və tempi çox vaxt pozulmuş olur.

Daun sinromlu uşaqlarda nitqin motor mexanizmi və artikulyasiya imkanlarının idarəetmə sistemindəki pozulmaları da xüsusilə qeyd etmək lazımdır. Bunlar nitqin həyata keçirilməsi üçün zəruri olan proqramlaşdırma, birləşmə, hərəkətlərin təşkili və ardıcıllığı ilə bağlı problemlərdir. Daun sindromlu uşaqlar eyni zamanda tez – tez nitq inkişafına təsir edən motor problemlər yaşayırlar. Nitqlə əlaqəli əzələlərin boşalması (hipotoniya), vaxt və koordinasiya problemləri nitqin inkişafına mənfi təsir göstərir. Bu, həmçinin çeynəmə və qidalanma bacarıqlarının inkişafına da mane olur. Onlarda artikulyasiya aparatı aşağıdakı xüsusiyyətlərə malikdir

- ağızın nisbətən dar olması;
- dilin quruluş və formasının pozulması;
- yastı uclu böyük dilin olması.

Çox vaxt bu uşaqlar dili idarə edə bilmir və o, tez - tez xaricə çıxır. Bu uşaqlarda üç yaşdan beş yaşa qədər tez - tez nitqin səs aspektinin inkişafında sapmalar müşahidə edilir. Bu həm artikulyasiya aparatındakı patologiyalarla, həm də fonemik qavrayışın pozulması ilə əlaqədardır. Zəif artikulyator motor bacarıqları nitqin sürəti, düzgün intonasiya və sözlərdəki vurğulara təsir göstərir. Artikulyasiya ilə bağlı problemlər, həmçinin, Daun sindromlu uşaqların daha uzun cümlələrlə danışmaq istəməməsi ilə nəticələnə bilər ki, bunun nəticəsində də özlərini məhdudlaşdıra bilərlər. [3]

Beləliklə də, Daun sindromlu uşaqlarda nitqin inkişaf xüsusiyyətləri aşağıdakı kimi xarakterizə edə bilərik:
- nitqin gec formalaşması;
- nitqin başa düşülməməsi;
- passiv söz ehtiyatının məhdudlaşması;
- dizartriya və ya dislaliya kimi nitq pozulmalarının olması;
- fraza və rabitəli nitqin olmaması;
- qrammatik quruluşun formalaşmaması;
- artikulyator motor bacarıqlarının pozulması;
- artikulyasiya aparatının hipotoniyası.

Korreksiya işi uşağın nitq imkanlarından asılı olaraq aparılır. Loqopedik dərslər sayəsində uşaqların passiv və aktiv lüğət ehtiyatı zənginləşir, tənəffüz məşqlərinin köməyi ilə nəfəs alma və artikulyasiya koordinasiyası qurulur. Ümumiyyətlə, erkən loqopedik yardımın göstərilməsi nəinki nitq bacarıqlarının formalaşmasına kömək edir, eyni zamanda belə uşaqların artikulyasiya aparatının inkişafına da faydalı təsir göstərir. Bu prosesdə təsirli nəticə əldə etmək üçün loqoped, həkim, korreksion pedaqoqu, sinif müəllimləri və valideynlər komanda şəklində çalışmalıdırlar.

Ədəbiyyat


1. Təhməzli T.A., "Daun sindromlu uşaqlarda özünəxidmət vərdişlərinin formalaşdırılması yolları" –dissertasiya işi, Bakı 2023
2. Морозова Т. , Святослав Д. - "Развитие коммуникации, языка и речи у детей с синдромом Дауна" - 10 мая 2020
3. https://semisvetik30.ru


## XÜLASƏ


Şifahi nitqdə onların əksəriyyətinin qarşılaşdığı əsas çətinliklər artikulyasiya pozulmaları və nitqin anlaşılmazlığı ilə bağlıdır. Bu uşaqların nitq xüsusiyyətləri müxtəlif amillərdən təsirlənir. Bu uşaqlar üçün loqopedik dərslərin əsas məqsədi erkən müdaxilə yolu ilə nitqin inkişafını sürətləndirmək və geridə qalmasının qarşısını almaqdır. Erkən loqopedik yardımın göstərilməsi nəinki nitq bacarıqlarının formalaşmasına kömək edir, eyni zamanda belə uşaqların artikulyasiya aparatının inkişafına da faydalı təsir göstərir.



***Açar sözlər:*** *Daun sindromu, nitq pozulmaları, artikulyasiya aparatı*


## РЕЗЮМЕ


Основные трудности, с которыми большинство из них сталкивается в устной речи, связаны с нарушениями артикуляции и неразборчивостью речи. На речевые особенности этих детей влияют различные факторы. Основная цель логопедических занятий с этими детьми – ускорить речевое развитие и предотвратить отставание посредством раннего вмешательства. Оказание ранней логопедической помощи не

только способствует формированию речевых навыков, но и благотворно влияет на развитие артикуляционного аппарата таких детей.

***Ключевые слова:*** *синдром Дауна, нарушения речи, артикуляционный аппарат.*

## UŞAQLARDA PSİXOMOTOR İNKİŞAFIN MƏRKƏZİ SİNR SİSTEMİ İLƏ QARŞILIQLI ƏLAQƏSİ

**Alılı Mədinə İsmayıl qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Psixomotor inkişaf uşağın koqnitiv, emosional və sosial inkişafına birbaşa təsir edərək onu tamamlayır. Uşaqlarda psixomotor sahənin inkişafı mərkəzi sinir sisteminin inkişafı ilə paralel olaraq müəyyən edilir. Mərkəzi sinir sisteminin inkişafı psixomotor sahəyə aid olan motor bacarıqlar və duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür və.s kimi psixi proseslərin müəyyən yaş dövrlərində sağlam inkişafına təsir edir.

Uşaqların psixomotor fəaliyyəti motor və mərkəzi sinir sistemlərinin qarşılıqlı təsirinin ayrılmaz nəticəsi kimi görünür. Hər bir fəaliyyətin keyfiyyəti idrak fəaliyyətinin məqsədindən və kinestetik aparatın inkişaf dərəcəsindən asılıdır. Bu baxımdan da, uşaqlarda psixomotor inkişaf sahəsi onların fəaliyyətinin kifayət qədər geniş tərəfini əhatə edir.

Uşağın həyatının ilk illərində motor bacarıqlar intensiv şəkildə formalaşır və bu proses birbaşa əqli fəaliyyətin əsasına çevrilir, buna görə də orqanizmə hər hansı bir mənfi təsir uşağın psixomotor inkişaf prosesini pozur. Ancaq hayatın ilk ilində uşağın psixomotor inkişaf pozulmasının aşkarlanması müəyyən çətinliklər yaradır. Bu, hər şeydən əvvəl MSS’nin fizioloji cəhətdən tam formalaşmaması, uşaq beyninin inkişafı və onun yaşa bağlı xüsusiyyətləri ilə əlaqədardır [2, s. 3].

Uşaqlarda motor fəaliyyətinin səviyyəsi mərkəzi sinir sisteminin fərdi tipoloji xüsusiyyətləri, sağlamlıq vəziyyəti və yaşla müəyyən edilir. Ümumiyyətlə, düzgün təşkil edilmiş motor fəaliyyəti maddələr mübadiləsi üçün əlverişli şərait yaradır ki, bu da sinir, ürək-damar, tənəffüs və dayaq-hərəkət sisteminin inkişafını yaxşılaşdırır.

Mərkəzi sinir sistemi bədənin idarəedici mərkəzi olub, düşüncə, hərəkət və hissləri idarə edir. O, uşaqların psixomotor inkişafında həlledici rol oynayaraq onların motor tapşırıqlarını yerinə yetirmək və idrak məlumatlarını emal etmək qabiliyyətinə təsir göstərir. Erkən uşaqlıq dövründə mərkəzi sinir sistemi sürətli şəkildə inkişaf edir. Bu baxımdan da, bu yaş dövrü motor bacarıqlar və idrak funksiyalarını asanlaşdıran neyron yolları və şəbəkələrin qurulması üçün çox vacibdir [1, s. 25]. Mərkəzi sinir sisteminin əsas funksiyalarından biri motor reaksiyalarını inkişaf etdirmək və hərəkətləri koordinasiya etmək üçün vacib olan sensor məlumatları qəbul və emal etməkdir.

Mərkəzi sinir sistemi beynin ətrafında formalaşır ki, beynin hər bir bölməsi də müəyyən psixomotor bacarıqların inkşafında mühüm rol oynayır. Bu bölmələri aşağıdakı kimi sadalamaq olar:

- Motor korteksi: Frontal lobda yerləşən motor korteksi ixtiyari hərəkətləri planlaşdırmaq, idarə etmək və həyata keçirmək üçün olduqca vacibdir. Motor korteksi bədənin motor funksiyalarına cavabdeh olub, əzələlərin hərəkətində iştirak edir. Kiçik əşyaları götürmək üçün etdiyimiz hərəkətlər belə motor korteksinin normal inkişafı ilə əlaqədardır. Bu bölmənin zədələnməsi uşaqlarda bədənin bir və ya bir neçə hissəsində hərəkətin tam və ya qismən itirilməsi, tələb olunan hərəkətləri yerinə yetirmək qabiliyyətinin pozulması və dizartriyanın yaranmasına səbəb olur.
- Bazal qanqliya: Beynin bu bölməsi ixtiyari motor hərəkətlərinin tənzimlənməsini həyata keçirən və idrak da daxil olmaqla, müxtəlif funksiyalarla əlaqəli olan nüvələr qrupudur. Bazal qanqliya beyinin ön hissəsindən məlumatları alır və korteksin motor sahələrinə geri göndərir. Bu proses nəticəsində motor hərəkətlərin idarə edilməsi üçün lazım olan əks əlaqə

dövriyəsi yaranmış olur. Bazal qanqliyadakı pozulmalar distoniyaya (əzələlərin nəzarətsiz şəkildə gərginləşdiyi hərəkət pozuntusu) səbəb ola bilər.

- Beyincik: Tez-tez "kiçik beyin" olaraq da adlandırılan beyincik beynin arxa hissəsində yerləşir. Beyincik həyatın ilk bir neçə ilində sürətlə böyüyür ki, bu da gəzinti və tarazlıq kimi motor bacarıqların inkişafında mühüm rol oynayır. Beyincikdəki inkişaf problemləri əzələ koordinasiyasının olmaması ilə xarakterizə olunan ataksiya ilə nəticələnə bilər.
- Prefrontal korteks: Beynin bu hissəsi kompleks idrak davranışının planlaşdırılması, qərarların qəbul edilməsi və sosial davranışların tənzimlənməsində iştirak edir. Prefrontal korteks koordinasiya və dəqiqlik tələb edən motor fəaliyyətinin planlaşdırılması və icrasına müsbət təsir göstərdiyi üçün psixomotor funksiyaların inkişafında da geniş rola malikdir [3, s. 9].

Ümumiyyətlə, psixomotor sahənin formalaşması mərkəzi sinir sisteminin inkişaf səviyyəsi ilə xarakterizə olunur. Bu baxımdan da, müxtəlif inkişaf dövrlərində mərkəzi sinir sisteminin zədələnməsi motor bacarıqlar və ali psixi funksiyaların inkişafında müəyyən çatışmazlıqların yaranmasına səbəb olur.

Ədəbiyyat

1. Семенович, А.В. Нейропсихологическая коррекция в детском возраст Метод замещающего онтогенеза: Учебное пособие / А.В. Семенович. - М. Генезис, 2008.
2. Д.В. Григорьев, Е.Э. Червякова “Формирование психомоторных функций у детей с отклонениями в развитии”, Грани познания, 2015.
3. “Brain development: anatomy, connectivity, adaptive plasticity, and toxicity”, Madhu Kalia, Metabolism Clinical and Experimental, 2008.

## XÜLASƏ

Psixomotor inkişaf uşağın koqnitiv, emosional və sosial inkişafına birbaşa təsir edərək onu tamamlayır. Psixomotor sahənin inkişafı mərkəzi sinir sisteminin inkişafı ilə paralel olaraq müəyyən edilir. Uşaqlar inkişaf etdikcə mərkəzi sinir sistemi də onlarla birlikdə inkişaf edir və ətraf mühitin təsirlərinə məruz qalır. Bu tezis mərkəzi sinir sisteminin bölmələri, onların təsir etdiyi psixomotor bacarıqlar və mərkəzi sinir sisteminin bölmələrində yaranan zədələnmələrin psixomotor bacarıqların inkişafına mənfi təsiri haqqında məlumat verir.

***Açar sözlər:*** *psixomotor inkişaf, mərkəzi sinir sistemi, motor bacarıqlar, beyin, motor korteksi*

## РЕЗЮМЕ

Психомоторное развитие напрямую дополняет когнитивное, эмоциональное и социальное развитие ребенка. Развитие психомоторной сферы определяется параллельно с развитием центральной нервной системы. По мере развития детей центральная нервная система развивается вместе с ними и подвергается воздействиям окружающей среды. В данной диссертации приводятся сведения об отделах ЦНС, психомоторных способностях, на которые они влияют, а также негативном влиянии поражения отделов ЦНС на развитие психомоторных навыков.

***Ключевые слова:*** *психомоторное развитие, центральная нервная система, двигательные навыки, мозг, моторная кора*

# MÜASİR DÖVRDƏ GENDER TƏHSİLİNİN PERSPEKTİVLƏRİ

**Allahverdiyev Elbar Əlibaba oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

"Gender şəxsiyyəti" anlayışının təfsirinin fənlərarası təhlili onu şəxsiyyətin sosial cəhətdən şərtləndirilmiş vahid inkişafının əsas komponenti kimi nəzərdən keçirməyə imkan verdi, onun daxili dinamik quruluşu subyektin özünüdərkini formalaşdırır və xüsusi bir şəxsiyyət sistemini müəyyənləşdirir. Məktəbəqədər dövrdə ailənin gender roluna münasibətindən və məktəb çağında təhsil sistemində gender stereotiplərindən asılı olaraq uşağın gender şəxsiyyətinin sərt və ya çevik xüsusiyyətləri formalaşır.

Gender kimliyinin formalaşmasında təhsil sisteminin rolu əvəzsiz olub və bu rolu müəyyən edən əsərlərin təhlili əsasında məktəbin gender strukturunun xüsusiyyətləri müəyyən edilir: təhsilin açıq amillərində cinssiz pedaqogika prinsipinin üstünlük təşkil etməsi; təhsilin gizli amillərində gender stereotiplərinin olması; uşaqların cinsinə görə ailə və peşə rollarını yerinə yetirməyə yönəldilməsi; məktəbli qızlara və məktəblilərə alternativ sosial-psixoloji keyfiyyətlərin aid edilməsi; həm qızlar, həm də oğlanlar üçün şəxsi özünü həyata keçirməyi çətinləşdirən müəyyən daxili maneələrin formalaşması; müəllimlər tərəfindən məqsədyönlü təşkil edilmiş prosesdən kənarda gender kimliyinin kortəbii formalaşması; təhsil prosesinin stereotipləşməsi səbəbindən məktəb yaşında sərt gender şəxsiyyətinin konsolidasiyası. Məktəbin gender strukturunun xüsusiyyətlərinin şagirdlərə təsiri onların birinci sinfə qədəm qoyduğu andan baş verir ki, bu da bu yaş mərhələsinə diqqətin zəruriliyini müəyyən edir.

Təhsildə universal meyarlar və şagird statusunun rəsmiləşdirilməsi sistemində ifadəsini tapan gender strategiyalarının ümumi məcmusu müxtəlif cinslər arasında qeyri-mütənasib rol gözləntiləri ilə ifadə olunan ziddiyyətli ictimailəşməyə və şagirdin sosial məkana inteqrasiyasına səbəb olur. Nəticədə, ən mütərəqqi təhsil sistemi belə məşhur istehlakçı cəmiyyət paradoksunu doğurur: həyat imkanlarının artımı həyatdan narazılığın artması ilə düz mütənasibdir. Kobud formada desək, son nəticədə qadın ya uğurlu karyera, ya da ailə qazanır, kişi isə ya sosial status, maddi və intellektual imkanlar baxımından bərabər tərəfdaş, ya da ailə naminə özünü "fəda edən" evdar qadın tapır. Qeyd etmək lazımdır ki, demokratik ölkələrdəki demoqrafik vəziyyət göstərir ki, çox adam "qurban vermək" istəmir. Bəs bu münaqişənin həllində təhsilin rolu nədir?

Birincisi, bu, iyerarxik bölgü olmadan müxtəlif həyat strategiyalarını birləşdirməyə imkan verən ideal normativ meyarlar sisteminin formalaşmasıdır. Aydındır ki, təhsil məkanının belə təşkili eyni zamanda bütün mümkün həyat strategiyalarına, onların dəyəri və mənəvi sıralaması olmadan tolerant münasibətin formalaşmasında mühüm rol oynayacaqdır. Qeyd edək ki, cəmiyyətdə ideal normativ modelin hüdudlarından kənara çıxan sosial qrupların: uşaqların və qocaların mövcudluğuna dair yanaşma mövcuddur.

İctimai şüurda uşaqların və qocaların özünəməxsus məhdudiyyəti onların spesifik vəziyyətinin (yaş xüsusiyyətlərinin) nəzərə alınması ilə əlaqədar normativ təmsil hüdudlarından kənara çıxır. Bu sosial qruplara qarşı tolerant münasibət mövcudluğun bu mərhələlərində cəmiyyətin hər bir üzvünə ekzistensial yaxınlığın olması ilə izah olunur. Bu, mənfi emosional yükü yaşa bağlı səriştəsizliklə bağlı meydana gələn məhdudiyyətlərdən çıxarmağa imkan verir.

İkincisi, bu, dövlət və onun sosial institutları tərəfindən ailəyə diqqətdir ki, bu gün gəncləri ailənin ən mühüm funksiyasını – nəsilləri davam etdirməyə hazırlamaq üçün zəruri şərtdir. Bununla birlikdə, sosial siyasətin hazırda ailəyə yönəldilməsi və doğum nisbətinin artırılmasına yönəldilməsi ilə yanaşı, ümumi əlverişsiz demoqrafik vəziyyət də inkişaf edir (boşanmaların artması - boşanmaların sayının nikahların sayını üstələməsi, ölüm göstəriciləri (uşaq da daxil olmaqla) və məhsuldarlıq arasında fərq azalır, əhalinin qocalması müşahidə olunur) və nikah yaşının artması, eləcə də gənclərin uşaq sahibi olmaq istəməməsi tendensiyası müşahidə olunur. Bu tendensiyalar bir sıra obyektiv və subyektiv amillərlə

əlaqələndirilir: ailənin möhkəmləndirilməsi və dəstəklənməsi üzrə dövlət siyasətinin zəifliyi; böyük bir ailənin aşağı nüfuzu; cinsi tərbiyə və gənclərin maarifləndirilməsi sistemindəki çatışmazlıqlar; müasir gənclərin karyera və təhsil sahələrində özünü həyata keçirmək istəyi; maddi çətinliklər; cəmiyyətin mənəvi ab-havasının kəskin dəyişməsi ilə bağlı nəsillərin özgəninkiləşdirilməsi; eləcə də əksəriyyəti indiki bir uşaqlı ailələrdə gənclərlə ünsiyyət təcrübəsinin olmaması səbəbindən uşaq qorxusu. Bütün bunlar deməyə əsas verir ki, gənclərin ailə həyatına hazırlanmasında bəyannamələr deyil, ailəyə, onun yüksək sosial statusuna və nüfuzuna real qayğı göstərmək ümummilli əhəmiyyətli vəzifədir. Ailə və məktəb gənclərin cinsi tərbiyəsi sisteminin şüurlu formalaşdırılması yolu ilə bu prosesə hər cür köməklik göstərməlidir.

Yuxarıda göstərilənlərin hamısı müəlliflərin həm orta məktəbdə, həm də gənclərin "sosial peyvənd" aldıqları və yetkinlik dövrünə başladıqları universitetdə gender problemlərinə dair xüsusi kursların tətbiqinin vacibliyi haqqında qənaətinə əsas verir. Ailə, məktəb və dövlət gənclər üçün gender təhsilinin üçlü sisteminə çevrilməlidir. Mənəvi tərbiyə və təhsilin şərtləri və səviyyələrinin bu üçlüyünü nəzərə alaraq, milli mənəviyyatın dirçəlişinin həqiqi meyvələrinin yetişməsinə ümid etmək olar.

## PEDAQOJİ PROSESDƏ GENDER İDENTİKLİYİ TƏRBİYƏSİNİN AŞILANMASININ ÜSTÜNLÜKLƏRİ

**Allahverdiyev Elbar Əlibaba oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycanda təhsilin gender aspektləri, xüsusən də müəllim hazırlığı sahəsində gender yanaşması hələ kifayət qədər öyrənilməmiş və tədqiq edilməmiş sahə hesab edilə bilər. Müəllim hazırlığında müəyyən gender təzadları bu sahədə fəaliyyətə mənfi təsir göstərir.

Azərbaycanda gender təhsilinin inkişafı və təkmilləşdirilməsi məqsədilə aşağıdakı vəzifələrin həyata keçirilməsi məqsədəuyğundur:

- gender tədqiqatının əsas istiqamətlərini müəyyən etmək;
- həm orta, həm də ali məktəblər üçün dərsliklərin gender ekspertizasını keçirmək;
- pedaqoji kadrların hazırlanmasında və təkmilləşdirilməsində gender komponentini tətbiq etmək;
- ali təhsil müəssisələrinin professor-müəllim heyəti üçün mütəmadi seminarlar və treninqlər, o cümlədən gender məsələləri təşkil etmək;
- gender məsələləri üzrə diplom və magistr dissertasiyalarının yazılması.

Bu gün təhsilin nəzəri və praktiki problemlərinin həllində gender yanaşmasından istifadə imkanları fəal şəkildə müzakirə olunur, oğlan və qızların gender təhsili modelləri nəzərdən keçirilir, sosial və ailə təhsilində onlardan istifadə perspektivləri təhlil edilir. Pedaqogikanın yeni sahəsinin inkişafı müasir pedaqoji reallığın tələblərinə cavab verən şəxsiyyətin sosiallaşmasına nəzəri və metodoloji əsasların və təsir mexanizmlərinin tapılmasına yönəlmiş təhsil və tərbiyənin məzmununun müasirləşdirilməsinin tərkib hissələrindən biridir.

Ölkədə təhsilin modernləşdirilməsi strategiyası müasir mərhələdə gender kimi mühüm yanaşmanın həyata keçirilməsini nəzərdə tutur. "Gender Strategiyası"nda "gender biliklərinin dövlət təhsil standartlarına daxil edilməsi, məktəbəqədər təhsil müəssisələrindən başlayaraq gender yönümlü proqramların kəsişən sisteminin tətbiqi" nəzərə alınmaqla təhsil sistemində islahatların aparılmasının vacibliyi qeyd olunub.

Təhsil subyektlərinin: müəllimlərin, tərbiyəçilərin, məktəblilərin gender özünüdərkinin formalaşması sosiallaşmasına nəzəri və metodoloji əsasların və təsir mexanizmlərinin tapılmasına yönəlmiş təhsil və tərbiyənin məzmununun müasirləşdirilməsinin tərkib hissələrindən biridir.

Ölkədə təhsilin modernləşdirilməsi strategiyası müasir mərhələdə gender kimi mühüm yanaşmanın həyata keçirilməsini nəzərdə tutur. "Gender Strategiyası"nda "gender biliklərinin dövlət təhsil standartlarına daxil edilməsi, məktəbəqədər təhsil müəssisələrindən başlayaraq gender yönümlü proqramların kəsişən sisteminin tətbiqi" nəzərə alınmaqla təhsil sistemində islahatların aparılmasının vacibliyi qeyd olunub.

Müəllimlərin, tərbiyəçilərin, məktəblilərin gender özünüdərkinin formalaşması sistemində müasir təhsil müəssisəsinin yeri və rolu haqqında düşünməyin vaxtı çatıb. Təsadüfi deyil ki, son illərdə gender təhsili yerli alimlər arasında getdikcə daha çox müzakirə obyektinə çevrilir. Ölkədə uzun müddət "cinssiz" pedaqogika mövcud olduqdan sonra pedaqoji biliyin yeni bir sahəsi - kişi və qadın nümayəndələrinin xüsusiyyətlərini, imkanlarını və təhsil ehtiyaclarını nəzərə almağa imkan verən gender pedaqogikası formalaşmağa başladı. Onun tədqiqat mövzusu qlobal sosial-iqtisadi və mədəni transformasiyalar dövründə genderdən asılı olaraq gənclərin sosiallaşması prosesinin korreksiyası problemidir.

Gender təhsilinin inkişafı dövlətin milli təhlükəsizliyini qorumaq üçün lazımdır: ölkəmizdə həyatın bütün sahələrində hər hansı bir cinsin, xüsusən də qadınların potensialını görməməzliyə vurmağa və ya lazımınca istifadə etməyə davam etmək şəraitini ödəyə bilməz. Dövlətin bərabərlik siyasəti kişilərin və qadınların ictimai həyatın bütün sahələrinə simmetrik və tarazlı daxil edilməsinin gender modelinə əsaslanır, buna görə də təhsildə gender yanaşmasının inkişafı və həyata keçirilməsi, bu yanaşmanın maraqlarının hərtərəfli nəzərə alınmasıdır. cəmiyyətin həm sosial-cins qrupları, həyati və əhəmiyyətli olur.

Gender pedaqogikası oğlan və qızların tərbiyəsi və öyrədilməsi, sosial təcrübənin və mədəniyyətin fəal mənimsənilməsi və bərpası yolu ilə ünsiyyətdə və fəaliyyətdə həyata keçirilən gender özünüdərkinin və dəyər yönümlərinin, gender davranışının inkişafı elmidir [2,s32].

Gender pedaqogikasının qarşısında duran vəzifələrdən biri məktəbəqədər yaşlı uşaqların gender tərbiyəsinin nəzəri əsaslandırılması, fərdi kişi şəxsiyyətinin müsbət inkişafına töhfə verən oğlan və qızların gender sosiallaşması prosesində səmərəli təhsili üçün psixoloji və pedaqoji şəraitin müəyyən edilməsidir. Uşaqlarda gender ideyaları sistemindəki dəyişikliklərin təhlili təhsil müəssisələrində oğlan və ya qızların tərbiyəsi prosesinə gender yanaşmasının tətbiqinin zəruriliyini göstərdi. Müasir şəraitdə qızların və oğlanların şəxsiyyətinə pedaqoji təsirin mümkünlüyünün əsaslandırılması məktəbəqədər uşaqlar üçün gender təhsili konsepsiyasının və modelinin hazırlanmasını tələb etdi.

Təhsilə gender yanaşması ona əsaslanır ki, məktəbəqədər təhsil müəssisələrinə aseksual uşaqlar deyil, öz sosial-mədəni ideyaları, şəxsi ehtiyacları və müəyyən gender davranış stereotipləri olan oğlanlar və qızlar gəlir.

Gender təhsili onlara sosiallaşma problemlərinin öhdəsindən gəlməyə kömək etmək məqsədi daşıyır, bunun mühüm hissəsi oğlan və ya qız kimi özünü müəyyən etməkdir. Gender təhsili uşaqların cinsi və yaşını nəzərə alaraq sosiallaşmasını və özünü identifikasiyasını təşviq etmək üçün nəzərdə tutulmuşdur.

Gender təhsili konsepsiyasına aşağıdakı komponentlər daxildir:

1) oğlan və ya qız fərdiliyinin müxtəlif sahələrinin təbii inkişafı üçün pedaqoji şəraitin yaradılması;

2) gender təhsili üzrə məqsədyönlü pedaqoji fəaliyyət;

3) gender sosiallaşması prosesinin sadələşdirilməsi (gender davranışının özünü tənzimləməsində uşağa fərdi yardım).

Biz gənc nəslin tərbiyəsini oğlan və qız şəxsiyyətinin, fərdiliyin müxtəlif sferalarının (intellektual, aktiv, emosional, özünütənzimləmə) inkişafına yönəlmiş məqsədyönlü pedaqoji fəaliyyət və oğlanların və qızların mənimsənilməsinə yönəlmiş gender təhsili hesab etdik.

Gender təhsili konsepsiyasının həyata keçirilməsi oğlan və qızların gender sosiallaşması prosesində səmərəli təhsili üçün aşağıdakı psixoloji və pedaqoji şərtlərə riayət etməyi tələb edir. Bunları daxil etdik:

– gender balanslaşdırılmış təhsil məkanının yaradılması;

– qismən gender təhsili proqramlarının həyata keçirilməsi;

– gender təhsili metodlarının işlənib hazırlanması və tədris prosesində tətbiqi;

– müəllimlərin bu fəaliyyətə peşəkar və pedaqoji hazırlığı;

- oğlan və qızların gender identifikasiyası və şəxsiyyətinin özünü həyata keçirməsi məsələlərində müəllim və valideynlərə məlumat və metodiki dəstək.

Gender balanslaşdırılmış təhsil məkanı dedikdə oğlan və qıza digər cinsin nümayəndələrindən fərqlənmək, öz cinsinin nümayəndələri ilə eyniləşdirmək və fərdi gender şəxsiyyət xüsusiyyətlərini və formalarını inkişaf etdirmək imkanı verən fərdi inkişaf üçün pedaqoji mühit nəzərdə tutulur. Belə tərbiyə və inkişaf mühiti uşağı müasir cəmiyyətin gender normalarının, dəyərlərinin, ideallarının və əxlaqının inkişafı yolu ilə cəmiyyətdə qəbul edilən sosial rollar və münasibətlər sistemi ilə tanış etməkdən ibarətdir. Gender balanslı təhsil mühiti yaratmaq üçün:

– oğlanlar və qızlar üçün özünü həyata keçirmə sahələrinin əlavə edilməsi (məsələn, qızları idmanla məşğul olmağa, oğlanları isə özünə qulluq etməyə həvəsləndirmək);

– birgə fəaliyyətdə oğlan və qızlar arasında bərabərhüquqlu əməkdaşlıq təcrübəsinin təşkili;

– oğlanların emosional özünüifadəsinə dair ənənəvi mədəni qadağaların aradan qaldırılması, onların hisslərini ifadə etməyə həvəsləndirilməsi; – qızlarda özünü təşviq etmək və özünə hörmətini artırmaq təcrübəsi yaratmaq;

– gender həssaslığının öyrədilməsi üçün şəraitin yaradılması (məşqlər və oyunlar, teatr tamaşaları, rol mübadiləsi vasitəsilə);

– hər iki cinsdən olan valideynlərin uşaqların tərbiyəsinə cəlb edilməsi.

Təhsil müəssisələri, öz növbəsində, cəmiyyətin və bütövlükdə mədəniyyətin gender təbəqələşməsini əks etdirir, öz nümunəsi ilə kişi və qadınların qeyri-bərabər statusunu nümayiş etdirir. Genderdən asılı olaraq fərdi potensialın inkişafına ənənəvi mədəni məhdudiyyətlərin aradan qaldırılması, pedaqoji qarşılıqlı əlaqə prosesində oğlan və qızların maksimum özünü həyata keçirməsi üçün şəraitin yaradılmasıdır. Onun inkişafı genderin həyatın hər hansı bir sahəsində ayrı-seçkilik üçün əsas olmadığı fikrini formalaşdırmağa imkan verir və məktəb məzunlarına özlərini həyata keçirmə yollarını və formalarını sərbəst seçmək imkanı verir. Beləliklə, gender məsələlərinin dərk edilməsi və gender konsepsiyasının əsas prinsiplərinin mənimsənilməsi gənclərin tərbiyəsi və təhsili sahəsində, eləcə də onların təhsili ilə peşəkarlıqla məşğul olan mütəxəssislərin hazırlanması sahəsində aktual vəzifəyə çevrilir.

Bu məqsədə nail olmaq üçün tələb olunur:

- məktəblərdə, orta ixtisas və ali təhsil müəssisələrində məktəbəqədər təhsil və ümumi təhsil proqramlarının korreksiyası;

- məktəblərdə və ali təhsil müəssisələrində pedaqoji kadrların hazırlanması sisteminə xüsusi kursların tətbiqi;

- ümumtəhsil məktəbləri üçün kişi və qadınların sosial rolları haqqında stereotiplərin aradan qaldırılmasına yönəlmiş gender yönümlü dərsliklərin hazırlanması;

- elmi-metodiki bazanın təmin edilməsi.

Tipik pedaqoji vəziyyətlərin təşkili uşağın müsbət gender təcrübəsinin toplanmasına və davranış mədəniyyətinin mənimsənilməsinə kömək etdi ("Kişi və qadın etiketi", "Oğlanların davranışı", "Qızların davranışı"və s.). Pedaqoji situasiyaların strukturlaşdırılması qızlar, gənc qadınlar və oğlanlar tərəfindən problemli pedaqoji situasiyaların həllini, qızın və ya oğlanın fərdiliyinin oyun fəaliyyətində təzahürünü və gender sosiallaşması zamanı həyat vəziyyətlərini əhatə edirdi.

Uşaqların gender identifikasiyası və şəxsiyyətinin özünü həyata keçirməsi məsələlərində müəllim və valideynlərin informasiya-metodiki dəstəyinin təşkili tədris-metodiki vəsaitin yaradılmasını əhatə edir.

Beləliklə, məktəbəqədər yaşlı uşaqların gender təhsili konsepsiyası və modeli müəllimlərə məktəbəqədər təhsil müəssisələrində oğlan və qızların təhsilinə ənənəvi yanaşmanı yenidən nəzərdən keçirməyə, təhsil prosesini şagirdlərin gender xüsusiyyətlərini nəzərə almaqla qurmağa, müasir cəmiyyətin sosial-mədəni ehtiyacları və müasir pedaqoji reallıq məktəbəqədər uşaqların səmərəli tərbiyəsində, onların müsbət sosiallaşmasında mühüm amilə çevrilir.

**Ədəbiyyat**


1. Azərbaycanda gender siyasətinin əsas istiqamətləri və reallıqlar//Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, 2008, № 23, 163s.
2. Azərbaycan təhsilindəki gender problemlərinin həlli yolları. Azərbaycan Müəllimlər İnstitununun Xəbərləri, 2013, №1, 36s.
3. Mollayeva E. Pedaqoji Kadr Hazırlığının Gender Aspektləri. /E.Mollayeva.- Bakı: Bakı, Elm və Təhsil,- 2021.- 432s.
4. Мудрик А. О полоролевом (гендерном) подходе в социальном воспитании // Воспитательная работа в школе. – 2003.– № 5. – 245s.


## XÜLASƏ


Məqalə təhsil müəssisələrində uşaqların tərbiyəsinə gender yanaşmasının tətbiqi probleminə həsr edilmişdir. Məqalədə müəllifin təhsil müəssisələrində sınaqdan keçirilmiş oğlan və qızlar üçün gender təhsili konsepsiyası və metodologiyası təqdim olunur ki, bu da gender təhsilinin məzmununu vahid pedaqoji prosesdə səmərəli şəkildə həyata keçirməyə imkan verir. Şagirdlər üçün gender təhsilinin effektivliyinin psixoloji və pedaqoji şərtləri bunlardır: təhsil müəssisələri üçün gender balanslaşdırılmış təhsil məkanının qurulması, oğlan və qızlarda gender özünüdərkinin, onların dəyər oriyentasiyalarının və qarşılıqlı əlaqədə gender davranışının inkişafının təmin edilməsi, gender təhsili konsepsiyasının və metodologiyasının işlənib hazırlanması, gender identikliyi və uşaqların şəxsiyyətinin özünü həyata keçirməsi məsələlərində müəllimlər və valideynlər üçün məlumat və metodik dəstək.



**Açar sözlər**: gender təhsili, gender identikliyi, təhsildə gender yanaşması


## РЕЗЮМЕ


Статья посвящена проблеме применения гендерного подхода к воспитанию детей в образовательных учреждениях. В статье представлены концепция и методика гендерного образования мальчиков и девочек, апробированные в авторских образовательных учреждениях, которая позволяет эффективно реализовать содержание гендерного образования в едином педагогическом процессе. Психолого-педагогическими условиями эффективности гендерного образования обучающихся являются: построение гендерно-сбалансированного образовательного пространства образовательных учреждений, обеспечение развития гендерного самосознания юношей и девушек, их ценностных ориентаций и гендерного поведения во взаимодействии, развитие концепция и методика гендерного образования, гендерной идентификации и детей, информационно-методическая поддержка педагогов и родителей в вопросах самореализации личности.



***Ключевые слова:*** *гендерное образование, гендерная идентичность, гендерный подход в образовании.*


## SUMMARY


The article is devoted to the problem of applying the gender approach to children's upbringing in educational institutions. The article presents the concept and methodology of gender education for boys and girls tested in the author's educational institutions, which allows to effectively implement the content of gender education in a single pedagogical process. The psychological and pedagogical conditions for the effectiveness of gender

education for students are: building a gender-balanced educational space for educational institutions, ensuring the development of gender self-awareness in boys and girls, their value orientations and gender behavior in interaction, developing the concept and methodology of gender education, gender identification and children information and methodical support for teachers and parents in matters of self-realization of personality.

***Keywords:*** *gender education, gender identity, gender approach in education*

## ŞAGİRDLƏRİN MƏNƏVİ TƏRBİYƏSİ ANLAYIŞININ MAHİYYƏTİ VƏ ƏHATƏ ETDİYİ MƏSƏLƏLƏR

**Bahaturova Tamara Zabil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Mənəvi tərbiyə insanın daxili aləmi ilə bağlı bir proses olub, müəyyən mənəvi keyfiyyətləri özündə ehtiva edir. Yüksək mənəvi keyfiyyətləri ilə seçilən zəngin mənəviyyatlı insanların hər biri mənsub olduğu xalqın milli-mənəvi dəyərlərini, adət-ənənələrini, məişətini və s. bilməlidir. Mənəvi zənginlik birdən-birə yaranmır. Bu zaman müəllimin öz üsul, vasitə və metodlları ilə təlqin etdiyi təlim-tərbiyə və təhsil ön planda olur. Müəllim şagirdi tərbiyə edən zaman onun yaş və anlama xüsusiyyətlərini də nəzərə almalıdır. Əlbəttə ki, tərbiyə ailədən başlayır. Hər bir uşaq əvvəlcə özünü dərk etməli, ailənin nə olduğunu və ailənin özünün də dəyərləri olduğunu anlamalıdır. Böyüyə və kiçiyə hörmət, qayğı, sevgi hissləri onlarda formalaşdırılmalıdır. Mənəviyyat "İnsanın mənəvi keyfiyyətləri, normaları, yüksək əxlaq" deməkdir [3, s.339].

Mənəviyyat sözü insanın daxili aləmini əks etdirən əxlaq və tərbiyə anlayışlarını ifadə edir. Əxlaq sözü mücərrəd məna ifadə etsə də, geniş məfhumları özündə cəmləşdirir. Namus, ləyaqət, xeyirxahlıq, həmçinin bu söz bütövlükdə ictimai həyata da aid edilməkdədir. İnsanın mənəvi cəhətdən inkişafı onun mənəvi keyfiyyətlərə sahib olmasının göstəricisidir. Məsələn, cəmiyyətin mənəvi həyatı, mənəvi mədəniyyət. Mənəviyyat ictimaiyyətlə də əlaqələndirilir. Belə ki ictimai mühitin özündə də əxlaqi-mənəvi meyarlar vardır.

Təkcə nəsihətlə, tərbiyə ilə, eləcə də təhsil verməklə insanın mənəvi cəhətdən kamil bir insana çevrilməsinə nail olmaq mümkün deyil. Bir şəxsiyyət kimi insanın daxili aləminin açılması da təkcə təlim-tərbiyə prosesində həyata keçirilə bilməz. Cəmiyyətin yüksək səviyyədə təşəkkül tapdığı vaxtda hər bir insanın fərdi həyatı özündən daha çox, kənar amillərdən asılı olur. İnsanlar hələ dünyaya gəlməmiş, onların yaşamalı olduğu təbii, sosial-iqtisadi və mədəni-mənəvi mühit artıq formalaşmış olur və bu mühit böyük miqyaslı proseslərlə bağlı olur. Onu da qeyd etməliyik ki, insanın mənəviyyatı təkcə mühitlə də formalaşmır.

Mənəvi tərbiyə anlayışının bir çox tərkib hissələri vardır ki, onlardan biri milli mənlik şüurunun formalaşdırılmasıdır. Milli mənlik şüuru millətimizin varlığının, özünü təsdiqinin, eləcə də, milli ləyaqətin, ümumbəşər keyfiyyətlərin məcmusudur. Onun əsas komponentlərinə millətin adı, varlığı, dili, dini, adət və ənənələri, psixologiyası, mənəviyyəti, mədəniyyəti və s. sahələr daxildir. Bütün bunlar şagirdlərin milli mənlik şüurunun formalaşması və onların tərbiyə olunmasında təzahür edir.

Şagirdlərə milli və mənəvi dəyərlərimizi tam şəkildə mənimsətmək üçün müxtəlif üsullardan istifadə etmək olar. Məsələn, sinifdənkənar tədbirlərdə və ictimai faydalı əmək prosesində bunu etmək olar. Hər bir şagirddə milli mənlik şüuru elə bir zəmin üzərində təşəkkül tapır ki, burada mədəniyyətin, elmin, ədəbiyyatın inkişafı xalqın böyüklüyü və kiçikliyindən deyil, həmin xalqın müdrikliyindən, zəngin təfəkkür tərzindən asılı olur. Bu şüur həm də, şagirdlərdə vətənə, doğma torpağımıza məhəbbət hissini formalaşdırır.

Şagirdlərin hansı mənəvi keyfiyyətlərə malik olduğunu yoxlamaq üçün, onların ana və vətən haqqında düşüncələrini öyrənmək lazımdır. Daha əvvəl də qeyd etdiyimiz kimi, bu iki anlayış bir-birilə çox yaxındır. Öyrətdiyimiz hər bir şeyi isə canlı aləmlə, real həyatla

əlaqələndirərək onların zehnində canlandırmaq lazımdır. Anasını və vətənini sevən hər bir insanın vicdanlı, xeyirxah, ədalətli və s. nəcib keyfiyyətlər daşıdığını dolayı yollarla aşılamaq olar. Cabir Novruzun (1933-2002) VI sinif ədəbiyyat dərsliyində tədrisi nəzərdə tutulan "Mən bizim anaları günəşlə tən tuturam" şeirini yada salmaqla müəllifin ana haqqındakı fikirlərinin hansı dillə, hansı hislə ərsəyə gəldiyini və şeiri oxuyarkən onlarda nə kimi hissin yarandığını soruşmaq lazımdır. Ailə dedikdə nə anladıqlarını, böyük və kiçiyin nə demək olduğunu, ədəb-ərkan, mərifət və digər mənəvi keyfiyyətləri onlarda formlaşdırmalı və inkişaf etdirməliyik. Bunları öyrədənin (müəllimin) üzərinə də məsuliyyət düşür. Belə ki müəllim şagirdlərinə bütövlükdə nümunə olmalıdır. Çünki uşaqlar özlərinə öyüd-nəsihət verənin əvvəlcə xarici görünüşünü nəzərdən keçirir, daha sonra onların bilik və savadını yoxlayırlar.

“Müasir gənc nəslin müstəqil Azərbaycan dövlətinin yüksək intellektə, milli və ümumbəşəri mənəvi dəyərlərə yiyələnmiş vətəndaşı, demokratik düşüncəli, yaradıcı şəxsiyyət kimi tərbiyə olunmasında bədii ədəbiyyatın rolu böyükdür” [2, s.106].

Hər bir əsər, hər bir fikir, eləcə də, gündəlik həyatımızda gördüyümüz bütün işlər müəyyən bir məqsədə xidmət edir. Məlumdur ki, orta məktəb ədəbiyyat dərsliklərində dərin əxlaqi fikirlər ifadə edən əsərlər çoxdur. Bunlardan biri də X.Şirvaninin (1126-1199) “Gənclərə nəsihət" şeiridir. Sənətkarın VIII sinif ədəbiyyat dərsliklərində əksini tapan bu şeiri şagirdlərin öz əməllərindən nəticə çıxarmalarına, müəyyən mənəvi keyfiyyətlər qazanmalarına və daxilən zənginləşmələrinə istiqamətlənən xüsusi əhəmiyyətli bir nümunədir. Gəncləri ibrətamiz və nəsihətamiz fikirləri ilə tərbiyələndirməyə çalışan yazıçı, onları zərərli işlərdən, pis vərdişlərdən uzaq olmağa çağırmışdır:

Fitnə törətmə, ey fitnəkar cavan!
Fitnədir elləri dərdlərə salan [1, s.27].

“Uşaqlar yaxşıların, yaxud da pislərin nələrdən ibarət olduğunu diqqətlə müşahidə etməli, onların necə törədiyini izləməli, müsbət və ya mənfiliyin yaranması prosesini hissələrinə ayırmalı və hər bir hissənin rolunu, vəzifəsini düzgün təyin etməyi bacarmalıdır” [6, s.286].

Ulu öndər H.Əliyev insanı ucaldan, onu zənginləşdirən mənəviyyat məsələlərinə milli Azərbaycan vətənpərvərliyini, xalqımızın adət və ənənələrini, ana dilini dərindən bilməyi, milli və ümumbəşəri mənəvi dəyərlərin vəhdətinin təmin edilməsininin vacibliyini əsas götürərək böyüyə hörmətinin, düzlük və doğruluğu olmayanın, öz dilini bilməyən, onu sevməyən adamın öz tarixini də dərindən qavraya bilməyəcəyi qənaətində olmuşdur. Ana dilini bilməyən bir insan isə, həmin dildə yazıb-yaradan sənətkarların - Füzulinin, Nəsiminin, Vaqifin, Cavidin, Vurğunun dilini anlaya bilməz.

Beləliklə, ədəbiyyat dərslərində ədəbi əsərlərin öyrənilməsi daim diqqət mərkəzində saxlanılmalı və bu əsərlər vasitəsilə mənəvi tərbiyə şagirdlərə məqsədəuyğun şəkildə aşılanmalıdır.

Ədəbiyyat

1. Ədəbiyyat VIII. Dərslik / S. Əliyev, B.Həsənov, A.Mustafayeva [və b.] – “Bakı” nəşriyyatı, – 2023. – 208 s.
2. Həsənli, B.A. Ədəbiyyatın tədrisi metodikası. Pedaqoji ali məktəblər üçün dərs vəsaiti vəsaiti / B.A.Həsənli. – Bakı: “Müəllim” nəşriyyatı – 2016. – 452 s.
3. Orucov, Ə. Azərbaycan dilinin izahlı lüğəti / B. Abdullayev, N.Rəhimzadə - Bakı: "Şərq-Qərb” nəşriyyatı, – 2006. Dörd cilddə. III cild – 672 s.
4. Süleymanova, A. Ədəbiyyat VI. Dərslik. / T.Bağırova - Bakı: “Təhsil Nəşriyyat-Poliqrafiya” MMC – 2017. – 242 s.
5. Tərbiyə. Baxılma tarixi (14.03.2024). URL: https://az.m.wikipedia.org/wiki/T%C9%99rbiy%C9%99

6. Yusifov, F. Ədəbiyyatın tədrisi metodikası / F. Yusifov. – Bakı: ADPU-nun nəşriyyatı, – 2023. – 420 s.

## SAĞLAMLIQ İMKANI MƏHDUD OLAN UŞAQLARIN CƏMİYYƏTƏ İNTEQRASİYASINDAKI ÇƏTİNLİKLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

**Balaağa-zadə Fatimə Rüstəm**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

SİM uşaqlara qayğı göstərmək cəmiyyətin əsas vəzifələrindən biridir. Bu onların insan haqlarına hörmət edilməsini və onların potensiallarının tam olaraq inkişaf etdirilməsi üçün gərəklidir.

Sağlamlıq imkanı məhdud uşaq - doğuşdan və ya sonradan hər hansı bir səbəblə fiziki, psixi, emosional və sosial qabiliyyətlərini müxtəlif dərəcələrdə itirməsi səbəbi ilə ətraf mühitə uyğunlaşma və günlük ehtiyaclarını qarşılamaqda çətinlik çəkən və dəstəyə ehtiyacı olan şəxsdir.

Dünyada SİM uşaqların sayı günbəgün artmaqda davam edir. Bu uşaqların mövcud vəziyyətdə rastlaşdığı ən böyük problem cəmiyyət tərəfindən qəbul edilməmələridir. Belə ki, cəmiyyət SİM uşağın təşəbbüskarlığını, müstəqil qərar qəbul etməsini, subyektiv fikirlərini çox vaxt nəzərə almır. Bununla da onların ictimai fəaliyyətlərdə iştirak etmələri qeyri-mümkün hal alır ki, nəticədə ağlabatan faydalılıq təmin edilmir. Məhz bu səbəbdən onların cəmiyyət tərəfindən müsbət qarşılanması üçün bir sıra tədbirlər həyata keçirilməli, onların sosiallaşması, cəmiyyətə inteqrasiyası təmin olunmalıdır.

Sosiallaşma – cəmiyyətə inteqrasiya bütün sosial proseslərin bir dəsti kimi başa düşülür. Bu sistem vasitəsilə uşaqlar cəmiyyətin tamhüquqlu üzvü kimi fəaliyyət göstərir, sosial rolları, davranışları və mədəni normaları ustalıqla mənimsəyir və onları nümayiş etdirir. SİM uşaqların cəmiyyətə inteqrasiyasının məqsədi onların digər həmyaşıdları kimi mövcud hüquqlarının qorunmasıdır. Bu hüquqlara siyasi və ictimai həyatda iştirak, təhsil, istirahət və s. aid edilir.

SİM uşaqların cəmiyyətə inteqrasiyasında müşahidə olunan çətinlikləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Fiziki çətinlik – uşaqda müşahidə olunan məhdudiyyət onun hərəkətliliyinə əsaslı şəkildə təsir edir. Məsələn, eşitmə qabiliyyətini tamamilə itirmiş uşaq sosiallaşmaqda çətinlik çəkir. Xüsusilə də ətrafdakı şəxslərin çoxunun daktil nitqi bilməmələri bu prosesi daha da çətinləşdir.
2. Psixoloji çətinlik – uşaq özünü başqaları ilə müqayisə edir, özü ilə başa çıxmaqda çətinlik çəkir, öz kimliyin qəbul etmir və bütün bunlar onun cəmiyyətdən uzaqlaşmasına səbəb olur. Məhz bu kimi halların yaşanmaması üçün ailələrin öz övladlarına olan münasibəti, onların uşağına olan mənəvi dəstəyi xüsusi əhəmiyyət daşıyır.
3. İctimai çətinlik – cəmiyyət SİM uşaqları bir mənalı qarşılamır. Belə ki, bir çox şəxslər onları qəbul etmir, öz övladları ilə onların eyni yerdə olmasına, eyni müəssisədə təhsil almasına və s. qarşı çıxır. Və onlar bu vəziyyətin uşaqlarının psixologiyasına mənfi təsir edəcəyini düşünürlər. SİM uşaq ətrafdakılar tərəfindən qəbul edilmədiyini görür və bununla əlaqədar cəmiyyətdən uzaqlaşmağa başlayır.
4. İnfrastruktur çətinlik – ictimai yerlərdə giriş, çıxış və hərəkət etmənin mümkünsüzlüyü SİM uşaqların qarşılaşdığı infrastruktur çətinlikdir. Belə ki, yol kənarları, metro, avtobus dayanacaqları, həmçinin müxtəlif müəssisələrin (məktəb, kurs, xəstəxana, restoran və s.) SİM şəxslərə uyğun olmayan formada tikilməsi onların həyat şəraitini yetəri qədər çətinləşdirir.

SİM uşaqların cəmiyyətə inteqrasiyasına maneə olan çətinliklərin aradan qaldırılması üçün aşağıdakı addımların atılması zəruridir:

1. Ailələrə psixoloji dəstəyin verilməsi – uşağın öz məhdudiyyətini qəbul etməsi, onların özlərini digər şəxslərlə müqayisə etməməsi kimi çətinliklərin yaranmamasında ailə dəstəyi

xüsusi rol oynayır. Ailələrin mövcud vəziyyət qarşısında dimdik durması, onu qəbul etməsi uşağın özünə olan münasibətinə əsaslı şəkildə təsir edir.

2. Cəmiyyət mədəniyyətinin dəyişdirilməsi – stereotiplərin, diskriminasiyanın qarşısının alınması cəmiyyətin SİM uşaqlara qarşı müsbət münasibət yaratmasına kömək edir. Bu istiqamətdə ciddi şəkildə maarifləndirmə tədbirləri həyata keçirilməlidir.

3. Təhsil imkanlarının artırılması – onların təhsil ala bilməsi üçün zəruri şəraitin yaradılması.

4. Proqram və layihələrin təşkili – bu proqram və layihələr uşaqların həm özü kimi, həm də sağlam uşaqlarla bərabər müxtəlif fəaliyyətləri yerinə yetirərək qarşılıqlı münasibətləri formalaşdırmağa xidmət etməlidir.

5. İnfrastrukturun uyğunlaşdırılması – ictimai məkanların infrastrukturunun SİM uşaqların rahat hərəkət edə biləcək formada təşkil edilməsi. Bu onların həm hərəkət azadlığına, həm də sosiallaşmasına şərait yaradır.

SİM uşaqların cəmiyyətə inteqrasiyasında atılan bu addımlar xüsusi əhəmiyyət kəsb edir. Onlar bir-biri ilə qarşılıqlı əlaqədədir və biri digərini tamamlayır.

## ВЛИЯНИЕ СОВМЕСТНОЙ РАБОТЫ ШКОЛЫ И СЕМЬИ НА РАЗВИТИЕ ЗДОРОВЬЯ УЧАЩИХСЯ НАЧАЛЬНОЙ ШКОЛЫ

**Бай Вэньхуа**
*Азербайджанский государственный педагогический университет*

В обучении в начальной школе, чтобы развивать больше выдающихся талантов, обладающих хорошими способностями и политический, учителя должны не только уделять внимание преподаванию базовых знаний, но и осознавать важность руководства психическим здоровьем. Модель совместного обучения семьи и школы поможет развитию здоровья учащихся. Для этого необходимо совместить анализ современной ситуации создоровьем учащихся начальных классов и конкретно разработать стратегии проведения обучения психическому здоровью учащихся начальных классов по модели совместной работы семьи и школы в этом направлении

В начальной школе ученики только что поступили в начальную школу из непринужденной обстановки детского сада и вступают в контакт с новыми людьми, вещами, знаниями и т. д., и в их сердцах неизбежно произойдут некоторые изменения. Если корректировка не будет хорошей, это повлияет на состояние учеников в последующем их обучении, а затем повлияет на их развитие. На этом этапе, если учителя смогут организовать работу над здоровьем учащихся и привлечь родителей для участия в руководстве по здоровью учащихся, это поможет улучшить их состояние, достичь хорошего медицинского руководства и здорового развития учащихся. Итак, как мы должны проводить совместное обучение семьи и школы для содействия развития здоровья учащихся? Учителя должны анализировать и обсуждать эту проблему совместно с родителями детей.

Глядя на развитие здоровья учащихся начальной школы, текущая ситуация не является оптимистичной. В частности, некоторые родители обращают внимание на оценки и неправильное руководство учителей, что может по влиять на здоровье учащихся. Согласно статистике, в начальной школе существуют проблемы, связанные со здоровьем. Если это не будет направляться вовремя, это повлияет на общее развитие здоровья учеников.

В начальной школе было обнаружено, что некоторые ученики, могут устать от обучения. Они невнимательно слушали в классе или делали вид, что слушают, но просто присутствовали чтобы выполнять домашние задания, заданные учителем, они выбрали больше способов сбежать и не выполнять эти задания . В такой среде

учеников трудно почувствовать их достижения в обучении, и они не могут получить прочное обучение, и тогда они устают, что влияет на развитие здоровья учеников. Если не своевременно направить учеников на выход из этого нездорового состояния обучения, это обязательно повлияет на их физическое и психическое здоровье. Ученики могут разочароваться в учебе.

В настоящее время многие ученики начальных классов являются всего лишь детьми в своих семьях. Когда учащиеся сталкиваются с некоторыми проблемами в обучении в классе, у них возникает сильное ошибочное мышление, и они думают, что они не так хороши, как другие, и реагируют на это отрицательно. Ученики могут справляться, когда они столкнутся с небольшой проблемой. Как только они столкнутся с более сложными проблемами, ученики постепенно разочаровываются и перестанют двигаться вперед. Если учителя не могут обеспечить своевременное руководство, это может создать скрытую психологическую опасность для учащихся.

Исследования показали, что в начальной школе учащиеся уже давно выросли и вышли из комфортной среды, где они учились и развивались в школе,в образовательной среде, созданной учителями, в большинстве случаев их поощряли учителя и родители. Учителя и родители устраивают проживание учащихся в школах в течение длительного времени, что приводит к тому, что учащиеся не смогут найти цель и направление обучения, со временем ученики могут оказаться в некоторых печальных ситуациях и потерять предприимчивые качества. Если это будет продолжаться в течение длительного времени, это неизбежно повлияет на здоровое развитие учащихся, в результате чего ученики будут сопротивляться обучению и не смогут выполнять учебные задачи, поставленные учителями.

Столкнувшись с проблемами физического и психического здоровья учащихся начальной школы, учителя постоянно пытаются включить различные методы обучения в процесс преподавания для улучшения их здоровья. На практике некоторые учителя уделяют особое внимание успеваемости учащихся.Хотя учителя начали работать новыми методами обучения, которые помогают учащимся развиваться в ходе реформы учебной программы.Но некоторые учителя  меняют методы обучения, что влияет и повышает результаты обучения. В целях оперативного решения проблем физического и психического здоровья учащихся в начальной школе, методы сотрудничества школы и семьи можно сочетать для решения психологических проблем учащихся, а затем развивать, чтобы поднять уровень обучения и их физическое здоровье.

Больше надо обращать внимание на психологические проблемы учащихся. В процессе быстрого развития интернета,который постепенно интегрируется во многие сферы жизни, и сфера образования не является исключением. Включение сетевых факторов в методические рекомендации по обучению может преодолеть ограничения времени и пространства, позволяя родителям и школе общаться без барьеров. Особенно некоторым родителям, которые заняты на работе, трудно найти время для общения с учителями, когда они сталкиваются с проблемами учеников. В таких обстоятельствах, если учителя хотят понять статус учеников в семье, они могут общаться только с дедушкой, бабушкой , что не способствует здоровому развитию учеников. В сочетании с сетевыми факторами мы можем преодолевать барьеры времени и пространства, сообщать о повседневной успеваемости учащихся и психологических проблемах непосредственно родителям учащихся, а также проводить подробный анализ на основе статуса учащихся в учебе и успеваемости дома, и полностью понять проблемы учащихся и способствовать повышению эффективности преподавания,которое не будет влиять на их здоровье.

Например, когда обнаруживается, что недавний статус учащихся в классе относительно негативный, а их учебный настрой невысокий, учителям не следует спешить с критикой учащихся, а следует своевременно общаться с родителями онлайн.

В то же время учителям также необходимо понимать повседневные ситуации учащихся в классе с учетом их роста и развития. Путем общения с родителями и учениками выяснилось, что причиной такого положения учащихся стала недавняя ссора их родителей. Таким образом, учителя могут посоветовать родителям разрешать семейные споры соответствующим образом, без присутствия ученика,а также на основе анализа потребностей его роста и развития, своевременно общаться с учениками и оказывать больше заботы. Благодаря сотрудничеству школы и родителей, мы можем оперативно понять причины  проблем учеников и своевременно принять меры по улучшению, чтобы помочь ученикам избавиться от своих проблем.

Таким образом, развитие образования в преподавании начальной школы, санитарное просвещение очень важно для роста учащихся. Поэтому учителям необходимо выявлять проблемы в обучении,участвовать в работе учебных центров, чтобы создать для них хорошую среду обучения через многократную практику и эффективного общения, а затем способствовать здоровому росту учеников, через совместное школьное и домашнее руководство.

Литература

1.Закон об образовании Азербайджанской Республики.Баку,2009.

2. Государственная стратегия по развитию образование в Азербайджанской Республике.Баку,2013.

3. Прокопьева М.М "Сотрудничество школы и семьи как условие формирования педагогической компетентности родителей" М.2018г.

4. Марченко И.С. "Партнерство семьи и школы как фактор успешного обучения и воспитания детей" М.2021г.

5. Ян Сяо. Влияние комбинированного домашнего и школьного образования в эпоху Интернета на психическое здоровье учащихся начальной школы. Современное семейное образование, 2018.

6. Чэнь Лижэ. Анализ сотрудничества дома и школы в обучении психическому здоровью в начальной школе . Primary School Times: Mysteries, 2018.

7. Чжан Хэн. Анализ стратегий сотрудничества дома и школы в обучении психическому здоровью в начальной школе . Журнал науки и образования (электронное издание), 2018 .

## XÜLASƏ

İbtidai məktəb təhsilin çox kritik mərhələsidir, çünki ibtidai sinif şagirdlərinin həyata baxışı və dəyərləri ilkin formalaşma mərhələsindədir. Əgər müəllimlər və valideynlər şagirdlərə doğru ilə yanlışı ayırmağın yollarını vaxtında deyə bilmirlərsə, bu, ibtidai sinif şagirdlərinin fiziki və psixi sağlamlığına birbaşa təsir edəcək. Buna görə də ibtidai sinif baş müəllimləri ev-məktəb kooperativ tədris fəaliyyətini hərtərəfli təkmilləşdirmək üçün şagirdlərin valideynləri ilə əməkdaşlıq etməlidirlər. Bu məqalədə ibtidai sinif müəllimlərinin İnternet dövründə valideynlərlə necə əməkdaşlıq etməli və ünsiyyət qurmalı olduğu təhlil ediləcək, zəngin şəbəkə resurslarının köməyi ilə valideynlərin maarifləndirici məlumatlılığının optimallaşdırılması və valideynlərin evdə-məktəbdə iştirakını təşviq etmək üçün real vaxt rejimində şəbəkə rabitəsindən istifadə etmək perspektivi nəzərdən keçiriləcək. birgə təhsil fəaliyyəti.

## РЕЗЮМЕ

Начальная школа является очень важным этапом образования, поскольку взгляды учащихся начальных классов на жизнь и ценности находятся на начальной стадии формирования. Если учителя и родители не смогут вовремя подсказать учащимся, как отличать добро от зла, это напрямую отразится на физическом и психическом здоровье

младших школьников. Поэтому учителя начальной школы должны сотрудничать с родителями учащихся для всестороннего улучшения совместной педагогической деятельности семьи и в школе. В этой статье проанализировано, как учителя начальной школы должны сотрудничать и общаться с родителями в эпоху Интернета с точки зрения оптимизации образовательной осведомленности родителей с помощью сетевых ресурсов и использования сетевой связи в реальном времени для содействия участию родителей в обучении, совместной образовательной деятельности.

**SUMMARY**

Primary school is a very critical stage of education, because primary school students' outlook on life and values are in their initial budding stage. If teachers and parents cannot tell students how to distinguish right from wrong in time, it will directly affect the physical and mental health of primary school students. Therefore, primary school head teachers must cooperate with students' parents to comprehensively improve home-school cooperative teaching activities. This article will analyze how primary school teachers should cooperate and communicate with parents in the Internet era from the perspective of optimizing parents' educational awareness with the help of rich network resources and using real-time network communication to promote parents' participation in home-school co-education activities.

## MÜƏLLİMİN STİMULLAŞDIRICI VƏ MOTİVASİYA EDİCİ ROLU

**Bəşirli Zərifə Qismət qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müəllimin stimullaşdırıcı və motivasiya edici rolu, tələbələrin öyrənmə prosesinə əhəmiyyətli bir təsir göstərir. Bir müəllim tələbələrinin maraqlarını və uğurlarını artırmaq üçün bir sıra effektiv strategiyalardan istifadə etməlidir.

Birincisi, müəllim tələbələrinə maraqlı və motivasiya verici dərslər təklif etməlidir. Bu, dərsləri tələbələrin günlük həyatları və maraqlarına uyğun hala gətirərək onların öyrənmə prosesinə olan maraqlarını artırmağa kömək edir. Müəllimin dərslərini tələbələrin maraqları və tələbələrin həyat təcrübələri ilə əlaqələndirməsi onların öyrənmə prosesinə olan motivasiyasını yüksəltəcək və daha çox bilik öyrənməsini təmin edəcəkdir.

İkinci olaraq, müəllim tələbələrin öz potensiallarını açığa çıxarmağa və öz inamlarını artırmağa çalışmalıdır. Bu, tələbələrin özəl bacarıqlarını tanımağa və inkişaf etdirməyə kömək edir. Müəllim tələbələri üçün mümkün olan ən yaxşı təlimatı təklif edərək onların öz potensiallarını tamamilə işlətməyə yönəltməlidir.

Üçüncüsü, müəllim tələbələri dəstəkləyərək onlara inam aşılamalıdır. Tələbələrin özəl təlimatlarında və həmkarları ilə əməkdaşlıq edərkən inamını göstərmək, onların özgüvənini artırmağa və öz potensiallarını daha çox işləmələrinə səbəb olur. Müəllim tələbələrə onların hədəflərinə çatmağa inandığını və onların uğurunun mümkün olduğunu vurğulayaraq motivasiya təmin etməlidir.

Nəhayət, müəllim tələbələrinin məqsəd qoyma və özöyrənmə bacarıqlarını inkişaf etdirmələrinə kömək edəcək motivasiya strategiyalarını tətbiq etməlidir. Bu, tələbələrin öyrənmə prosesinə aktiv olaraq cəlb olunmasına və öz öyrənmə proseslərini idarə etmələrinə yardım edir. Müəllim tələbələrin məqsədlər qoymağa, plan hazırlamağa, və özöyrənmə alətlərini effektiv şəkildə istifadə etməyə təşviq edərək onların motivasiyasını artıra bilər.

Bütün bu addımlar bir araya gələrək müəllimin stimullaşdırıcı və motivasiya edici rolunu nəzərə alır və tələbələrin öyrənmə prosesinə olan məhsuldarlığını və maraqlarını artırmağa kömək edir.

Müəllimlər şagirdləri motivasiya etmək üçün aşağıdakı yolları izləyə bilərlər:

1. Əlaqə qurmaq və başa düşmək: Şagirdlərlə yaxından əlaqə qurmaq, onların maraqlarını və məqsədlərini başa düşmək, onları dəstəkləmək və öz fikirlərini dinləmək.

2. Maraqlı və əyləncəli təcrübələr: Dərsləri maraqlı və təcrübəvi etmək üçün müxtəlif təhsil alətləri, interaktivlik, və müxtəlif dərslər və tədris üsulları tətbiq etmək.
3. Məqsəd qoymaq və dəstəkləmək: Hər bir şagirdə məqsədlər qoymaq və onları hədəflərinə nail olmaq üçün dəstəkləmək, onları qorumaq və təşviq etmək.
4. Pozitiv mühit yaratmaq: Dərslərdə müsbət atmosfer yaratmaq, şagirdləri dəstəkləyən, təşvik edən və müsbət rəhbərlik təmin edən bir mühit yaratmaq.
5. Düzgün geribildirim vermək: Şagirdlərə düzgün, ətraflı və müsbət geribildirim vermək, onların inkişafını qeyd etmək və onlara necə daha yaxşı olabiləcəkləri barədə məsləhətlər vermək.

Müəllimin şagirdləri stimullaşdırması və motivasiya etməsinin şagirdlərə bir neçə təsiri var:
1. Öyrənmə Arzusu: Müəllimin təşviq etməsi və dəstəkləməsi, şagirdlərin öyrənməyə olan maraqlarını və motivasiyalarını artırır, onları öyrənmə prosesinə daha coşqu ilə yanaşmağa sürükləyir.
2. Özgüvənin Artması: Müəllimin müsbət geribildirimləri və dəstəkləməsi, şagirdlərin özgüvənlərinin artmasına kömək edir, onların öz potensiallarını daha effektiv şəkildə istifadə etmələrini təmin edir.
3.Məqsədlərin Müəyyənləşdirilməsi: Müəllimin məqsədlər qoyması və şagirdləri bu məqsədlərə nail olmaq üçün dəstəkləməsi, şagirdləri öz öyrənmə yollarını və hədəflərini daha aydın şəkildə müəyyən etməsinə kömək edir.

4. Öz-disiplinin Artması: Müəllimin şagirdləri dəstəkləməsi və təşviq etməsi, onların öz-disiplinlərini artırır və öz öyrənmə prosesinə daha ciddi yanaşmalarını təmin edir.
5. Uğurların Təminatı: Müəllimin şagirdləri təşvik etməsi və dəstəkləməsi, onların uğurlarını qeyd etmələrini və öz inkişaflarını görmələrini təmin edir, bu da öz-motivasiyalarını daha da artırır.Beləliklə,şagirdlərin uğuları artır.

Ədəbiyyat
1. "Teaching with Love & Logic: Taking Control of the Classroom" - Jim Fay, David Funk
2. "Şagirdləri təşviq etmə və motivasiya etmə" - V. Babayev
3."Şagirdin dərsə marağı və motivasiyasını artırmaq üçün metodik və təlimatlar" - M. Bəşirova
4.Teaching with Love & Logic: Taking Control of the Classroom" - Jim Fay, David Funk
5."Şagirdləri təşviq etmə və motivasiya etmə" - V. Babayev

## ÖVLAD TƏRBİYƏSİNDƏ SEVGININ STİMULLAŞDIRICI VƏ MOTİVASİYAEDİCİ ROLU

**Bəşirli Zərifə Qismət qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ailələr üçün övladlarının mənsub olduğu mühitin qurulması və idarə edilməsi ictimai tərəfdən ən mühüm və ən çətin vəzifələrdən biridir. Bu dövrdə, tərbiyəçilər övladlarının ruhi, sosial və intellektual inkşafını təmin etməyə çalışarkən, müxtəlif metodlar  və təcrübələrə müraciət edirlər. Lakin, bir şey müəyyən olduqca aydındır: sevgi, tərbiyə prosesində ən güclü stimullaşdırıcı və motivasiya edici amildir.

Sevginin tərbiyə prosesindəki rolu və əhəmiyyəti ilə bağlı peşəkar tədqiqatlar və psixoloji mənbələrdə çox geniş məlumat vardır.. Əvvəlcə, sevginin övladın özünə inamını, öz potensialını tanımağını və özünü inkişaf etdirməsini təmin etməkdəki roluna diqqət yetiriləcək. Bundan sonra, sevginin övladın öyrənmə prosesinə, məsuliyyət hissinin inkişafına və sosial-emosional sağlamlığının formalaşmasına təsirini təhlil edəcəyik.

Ailə, şəxsiyyətin əsasını qoyan cəmiyyətin ilkin struktur vahidi kimi qəbul edilir. Məhz ailədə ilk tərbiyə alınır və uşaqlar sosial təcrübəyə ilk dəfə ailədən yiyələnir, bir şəxsiyyət kimi formalaşır. Ailə, uşağın gələcək inkişafında mühüm rol oynayır. Uşaq böyütmək,boya-başa çatdırmaq hər valideynin qarşısında duran ən çətin, məsuliyyətli və şərəfli bir işdir. İnsan nəslinin sağlam doğulub,böyüyüb boya-başa çatmasında və düzgün tərbiyəsində ailənin əsas xüsusi funksiyaları özünü büruzə verir. Ulu öndərimiz Heydər Əliyev ailə tərbiyəsinin önəmini yüksək qiymətləndirmiş və bu mövzuda dəyərli fikirlər söyləmişdir[1]. Pedaqogika elmində bu məsələləri öyrənən xüsusi bir sahə vardır ki, o "Ailə pedaqogikası"dır [2].

Valideynlər övladlarının stimullaşdırılması və motivasiya etməsi, onların uğurlu və məmnun həyatı üçün əhəmiyyətli bir rol oynayır. Bu məsələdə valideynlərin davranışları, münasibətləri və təcrübələri övladların öz potensiallarını həyata keçirmələri və öz məqsədlərinə nail olmaları üçün mühüm bir təsirə malikdir.

Valideynlər həm də övladlarının maraqlarını, güclü və zəif tərəflərini tanımalı və dəstəkləməlidirlər. Hər bir övladın fərqli maraqları və bacarıqları var, bu səbəbdən valideynlər övladlarının maraqlarına və tələbatlarına uyğun olaraq onları dəstəkləməlidirlər. Övladlarına maraqlı və məqsədəuyğun fəaliyyətlər təklif edərək, onları stimullaşdırmaq və motivasiya təmin etmək mümkündür. Həmçinin, valideynlər övladlarının güclü və zəif tərəflərinə diqqət yetirməklə onları öz potensiallarını daha yaxşı anlamağa və özünə inanmağa yönəldə bilərlər.

Bir çox hallarda valideynlərin övladları arasında ayrıseçkilik göstərir, dərslərində, işində daha müvəffəqiyyətli olana daha çox sevgi göstərir, daha çox əzizləyir. Amma bu hal yolverilməzdir. Valideynlər övladlarına sevgi göstərərkən onları ayırıb, fərqləndirməməlidirlər,övladlarına sevgi göstərib əzizləməyi onların bacarıq və qabiliyyətləri ilə əlaqələndirməməlidirlər.Onlar başa düşməlidirlər ki,hər bir uşağın fərdi xüsusiyyətləri var:kimi tənbəl,kimi zirək,kimi səliqəli,kimi pinti olmaqla fərdi xüsusiyyərləri ilə seçilir.Bəzən eyni valideynin övladı olmasına,eyni evdə,eyni insanlardan tərbiyə almasına baxmayaraq iki uşaq xasiyyətcə bir-birindən fərqlənir.Valideynlər bu kimi halları başa düşməli,övladlarını dəyişdirməyə çalışmaq əvəzinə onları olduğu kimi qəbul edib sevgi göstərməlidirlər[3, s.41].

Valideynlər, övladların hər birinin öz qabiliyyətlərinə və maraqlarına hörmətlə yanaşmalıdır. Bacarıqlarına görə bir övladı digərindən daha çox dəstəkləmək, digər övladın özünəgüvənini və özünə inamını zədələyə bilər və qısqanclıq və həyatın ədalətli olmadığı inancını inkişaf etdirə bilər.

Valideynlər, hər bir övladın öz potensialını inkişaf etdirməsinə kömək etmək üçün ədalətli bir şəkildə onları dəstəkləməlidir. Bu, ailədə sülh və dəstəklənmiş bir mühiti təmin edir və övladların müstəqil düşünmə, özünə güvənmə və həyatlarında müvəffəqiyyətə nail olmağa yönəlmələrinə kömək edir.Bəzən valideynlər övaldlarını dəstəkləmək üçün,uğurlarını mükafatlandırmaq üçün puldan istifadə edir,amma bu çox da düzgün deyil. Çünki,əgər bir övladın uğurunu və motivasiyasını təmin etmək məqsədi ilə rüşvət və ya pul istifadə edərsək,bu uzun müddətli vəziyyətdə ciddi mənfi nəticələrə səbəb ola bilər. Övladın məsuliyyət hissinin azalmağı, əxlaqi dəyərlərin zəifləməsi və ictimaiyyət qarşısında etik olmayan davranışların təbliğ olunması kimi nəticələrə gətirə bilər. Bunun əvəzində, valideynlər övladlarını mənəvi yolla mükafatlandırmağa,onlara gözəl sözlər söyləməyə,sevgi göstərərək stimullaşdırmağa və motivasiya etməyə, mənəvi dəyərləri təmin etməyə və övladlarına öz məsuliyyətlərini öyrətmək üçün çalışmalıdırlar.

Valideynlər övladlarının özünə inanmasını və öz potensiallarını həyata keçirmələrini təmin etməklə onları motivasiya etməkdə də mühüm bir rol oynayır. Övladlarına məqsədlər qoymalarını, hədəflər qoymalarını və onları bu hədəflərə nail olmaq üçün səy etməyə təşvik etmək əhəmiyyətlidir. Uğursuzluqla başa çıxmağı, məsuliyyət almağı və inkişaf etməyi öyrətmək, valideynlərin övladlarını stimullaşdırmaq və motivasiya təmin etməkdə dəstəklədikləri başqa bir yoludur.

Valideynlərin övladlarına sevgi göstərməsi,onları əzizləməsi övlada stimullaşdırıcı və motivasiya edici təsir göstərir.Ananın övladına sevgi göstərib onları əzizləməsi, sağlam bir ailə münasibətinin əsasını təşkil edir. Bu, valideynlik və ana babaların əsas vəzifələrindən biridir. Ananın övladına sevgi göstərməsi və onları əzizləməsi, övladlarının ruhi sağlamlığa sahib olması üçün vacibdir. Amerikalı pedaqoq Fred Rogersin də bu haqda maraqlı fikirləri vardır.. O, sevginin övladın mənəvi və ruhi inkişafında əhəmiyyətli bir rolu olduğunu vurğulayır. "Mister Rogers' Neighborhood" adlı televiziya proqramında, o, sevginin necə özünə sayğı, inam və möhkəmlik hisslərinin inkişafını təmin etdirdiyini vurğulamışdır[4].

Ananın övladına sevgi göstərməsi, onların öz potensialını inkşaf etdirməsinə və öz sayğı hisslərini gücləndirməsinə kömək edir. Bu, onların ruhi sağlamlığı və mənəvi inkişafı üçün əhəmiyyətlidir. Ananın övladını əzizləməsi, onların dəyərlərini, istəklərini və məqsədlərini qəbul etməsi və onlara dəstək olması deməkdir.Bu məsuliyət ananın övladının yaşına və fərqli ehtiyaclarına uyğun olaraq fərqlənə bilər. Amma ən vacib olan şey, ananın övladına hörmət və sevgi göstərməsidir. Bu, sağlam bir ailə dinamikası yaradır və övladların sağlam, müstəqil və müvəffəqiyyətli insanlar kimi yetişmələrinə kömək edir.

Ananın öz övladına sevgi göstərməsi, ona stimullaşdırıcı təsir edir çünki bu, övladın özünə dəyər verməsinə, özsayğı hisslərini inkişaf etdirməsinə və öz potensialını maksimuma çıxarmağa kömək edir.Ananın övladına sevgi göstərməsi, onun özünü dəyərləndirməsinə və özünə inamlı olmasına səbəb olur. Bu, övladın özünəgüvənin inkişaf etməsinə və öz potensialını daha effektiv şəkildə işə salmasına kömək edir. Sevgi dolu bir mühit, övladın özünə olan inamını artırır və onun həyatda daha çox uğur qazanmasına yönəlir.

Ananın övladına sevgi göstərməsi, onun motivasiyasını da artırır. Sevgi dolu bir ortamda yetişən övlad, özünü daha çox inkişaf etdirməyə, yeni məqsədlər qoymağa və öz potensialını daha yüksək səviyyəyə çatdırmağa daha cəsarətli hiss edir. Bu da onun daha yüksək nailiyyətlərə çatmasına və daha müvəffəqiyyətli bir həyat qurmasına imkan verir.

Anayla yanaşı həmçinin atanın da öz övladına sevgi göstərməsi və onlara sevgi sözləri söyləməsi vacibdir çünki bu,onların arasında sağlam bir əlaqə qurulmasına və ailə birliyinə töhfə verilməsinə kömək edir. Sevgi dolu bir münasibət, övladların öz aralarında hörmət və diqqət hisslərinin inkişaf etməsinə imkan verir.

Nəhayət, atanın övladına sevgi göstərməsi, onların həyatında saadət və məmnuniyyət hissini yaradır. Bu sevgi dolu münasibət, övladların ruhi baxımdan sağlam, müstəqil və müvəffəqiyyətli insanlar kimi yetişmələrinə kömək edir.

Uşaqların sağlam bir tərbiyə və yetişmə prosesində sevginin rolu əvəzsizdir. Sevgi, uşaqların motivasiyasını artırır və onları inkişaf etdirmək üçün güclü bir stimullaşdırıcıdır. Bu məqalədə, övlad tərbiyəsində sevginin stimullaşdırıcı və motivasiya edici rolunu müxtəsər araşdırdırdıq:

1. Sevginin stimullaşdırıcı rolu:

- Uşaqlar sevgi dolu bir mühitdə böyük tərəddüd olmadan öz fikirlərini ifadə etməyə daha meyllidirlər. Sevgi, onların öz mövqelərini daha çox güvənlə ifadə etmələrini təmin edir.

- Sevgi dolu bir mühitdə uşaqlar daha qabaqcıl fikirlərə sahib olurlar və öz potensiallarını daha çox hiss edirlər. Bu da onların yeni şeylər öyrənməyə daha açıq olmalarını və hədəflərinə nail olmaq üçün daha çox çalışmalarını təmin edir.

2. Sevginin motivasiya edici rolu:

- Uşaqlar sevgi dolu bir mühitdə öz məqsədlərinə nail olmaq üçün daha çox motivasiyaya malik olurlar. Sevgi, onların öz potensiallarını reallaşdırmağa və həyatlarındakı məqsədləri qorumağa yardım edir.

- Sevgi dolu bir mühitdə uşaqlar daha çox məsuliyyət hiss edirlər və öz hədəflərinə doğru irəliləmək üçün daha çox özümənə güvənirlər.

3. Praktik tətbiq:

- Uşaqların tərbiyəsində sevgi dolu bir yanaşma tətbiq etmək, onların öz inkişaflarını təmin edəcək və onları daha müvəffəqiyyətli həyatlar qurmasına kömək edəcək.

Uşaqların sağlam, müvəffəqiyyətli bir yetişmə prosesində sevginin əhəmiyyəti çox vacibdir. Sevgi, uşaqların duyğusal, sosial və intellektual inkişafında əsas rolu oynayır. Bu məqalədə, uşaqların tərbiyəsində sevginin stimullaşdırıcı rəolunu və bu mühitdə yetişən uşaqların nailiyyətlərini araşdıracağıq.

1. Sevginin tərbiyəvi təsiri:

- Sevgi, uşaqların özünə inamının inkişafında kritik bir rol oynayır. Sevildiyini hiss edən uşaqlar öz potensiallarını daha çox hiss edirlər və öz məqsədlərinə nail olmaq üçün daha çox motivasiyaya malik olurlar.

- Sevgi dolu bir mühit, uşaqların empatiya, hörmət və məsuliyyət kimi ənənəvi dəyərləri öyrənmələrinə kömək edir. Bu dəyərlər sosial münasibətlərini formalaşdırır və cəmiyyətdə müvəffəqiyyətli bir üzv olmalarına yardım edir.

2. Uşaqların nailiyyətləri:

- Sevgi dolu bir mühit, uşaqların öz yetenəklərini kəşf etmələrinə imkan verir. Uşaqlar sevgi dolu bir ortamda öz fikirlərini ifadə etmək və yeni şeylər öyrənmək üçün daha çox özgürlük hiss edirlər.

- Sevgi, uşaqların öz özəlliklərinə, maraqlarına və məqsədlərinə hörmət etməyə kömək edir. Bu da özgüvənliklərinin inkişaf etməsinə və öz məqsədlərinə doğru irəliləmələrinə səbəb olur.

3. Sevgi dolu tərbiyənin tətbiqi:

- Uşaqların tərbiyəsində sevgi dolu bir yanaşma, özüdə inamın, hörmətin və məsuliyyətin qorunmasına imkan verir. Bu, uşaqların öz mövqelərini daha doğru qiymətləndirmələrinə və başqalarına qarşı münasibətlərini daha effektiv şəkildə idarə etmələrinə kömək edir.

- Sevgi dolu tərbiyə, uşaqların problemləri həll etmələrində və müxtəlif məsələləri həll etmələrində daha yararlı yollar axtarmağa inkişaf etmələrinə səbəb olur.

Uşaqlara sevgi və hörmət dolu bir mühit yaratmaq, onların öz potensiallarını reallaşdırmaq və onları həyatlarındakı məqsədlərə yönəldir.

Ailədə övladın tərbiyəsində sevginin stimullaşdırıcı təsiri çox geniş və müsbətdir. Sevgi dolu bir mühit, övladın psixoloji və ruhi sağlamlığını inkişaf etdirməkdə, mənəvi dəyərləri öyrənməkdə və öz potensialını maksimuma çıxarmaqda əhəmiyyətli bir rol oynayır.

- Özünə inamın güclənməsi: Sevgi dolu bir ailədə yetişən övlad, özünə inamını və özsaygı hisslərini inkişaf etdirir. Atanın və ananın övladına göstərdikləri sevgi, onların öz potensialına inam qoymasına və daha çox uğur qazanmaq üçün güclü bir motivasiya qazanmasına kömək edir.
- Özsaygı və dəyərlərin öyrənilməsi: Sevgi dolu bir ailədə övladlar, hörmət və diqqət mədəniyyətini təcrübə edirlər. Bu, onların başqalarına hörmət etməyi, ədalətli olmağı və yardım etməyi öyrənərək onları mədəni və dəyərlərə sahib insanlar kimi yetişdirməkdə kömək edir.
- Mənəvi inkişaf: Sevgi dolu bir ailədə yetişən övlad, mənəvi olaraq inkişaf etməyə daha meylli olur. Onların ruhi sağlamlığı, mənəvi dəyərləri öyrənməsi və özünü ifadə etməsi daha asandır.
- Sağlam əlaqələr: Sevgi dolu bir ailədə övladlar arasında sağlam əlaqələr qurulur. Bu, onların bir-birilə dəstək olmağa, başqalarının ehtiyaclarına qarşı diqqətli olmağa və mənəvi dəstək göstərməyə daha meylli olmalarına səbəb olur.

Bütün bu faktorlar bir araya gəldikdə, sevgi dolu bir mühit övladın sağlam, müstəqil və müvəffəqiyyətli bir həyat qurmasına kömək edir.

Valideynlər övladlarının stimullaşdırılması və motivasiya etməsi, onların öz potensiallarını həyata keçirmələri, öz məqsədlərinə nail olmaları və uğurlu bir həyat qurmalari üçün əhəmiyyətli bir faktordur. Valideynlər övladlarının maraqlarını, güclü və zəif tərəflərini tanımalı və dəstəkləməli, öz nümunələri ilə onları təşviq etməli və özünə inanmalarını və öz potensiallarını möhkəmləndirmələrini təmin etməlidirlər. Bu, valideynlərin övladlarının

motivasiyasını artırmaq və onların uğurlu olmalarına yardım etməkdə effektiv bir yol təşkil edir.

Uşaqların sağlam bir şekildə yetişməsi və müvəffəqiyyətli bir tərbiyə prosesində sevginin əhəmiyyəti çox böyükdür. Sevgi dolu bir mühit, uşaqların duyğusal və intellektual inkişafını təmin edir, onların öz potensiallarını kəşf etmələrinə imkan verir və onları cəmiyyətdə müvəffəqiyyətli və münasibətlərinə diqqət yetirməyə imkan verir.

Ədəbiyyat

1.https://muallim.edu.az/news.php?id=9697
2.Hüseynzadə R.L. Ailə pedaqogikası.Dərslik. Bakı: ADPU, 2016, 340 s.
3..Quliyev S.M., Quliyeva M.A. Şərq mütəfəkkirlərinin əsərlərində ailədə övlad tərbiyəsi. Bakı: ADPU, 2008, 404 s. .
4.https://www.misterrogers.org/about-fred-rogers/

## XÜLASƏ

Bu məqalə, övlad tərbiyəsində sevginin stimullaşdırıcı və motivasiya edici rolu haqqındadır. Məqalə, sevginin uşaqların duyğusal və intellektual inkişafına dəstək olduğunu vurğulayır. Sevgi dolu bir mühitdə yetişən uşaqların öz potensiallarını daha yaxşı hiss etdiyi və öz məqsədlərinə nail olmaq üçün daha çox motivasiyaya malik olduğu vurğulanır. Məqalədə, praktik tətbiq edilə biləcək məsləhətlər də təklif edilir. Nəticə olaraq, sevginin övlad tərbiyəsində əhəmiyyətli bir rol oynadığı və uşaqların inkişafında motivasiya edici bir faktor olduğu haqqında məlumat verməkdədir.

***Açar sözlər:****Sevgi, stimullaşdırma, motivasiya, tərbiyə, valideyn.*

## SUMMARY

This article is about the stimulating and motivating role of love in parenting. The article emphasizes that love supports children's emotional and intellectual development. It is emphasized that children raised in a loving environment have a better sense of their potential and are more motivated to achieve their goals. The article also offers practical advice. As a result, it informs that love plays an important role in raising children and is a motivating factor in children's development.

***Key words:****Love, stimulation, motivation, nurturing, parent.*

## РЕЗЮМЕ

Эта статья о стимулирующей и мотивирующей роли любви в воспитании детей. В статье подчеркивается, что любовь поддерживает эмоциональное и интеллектуальное развитие детей. Подчеркивается, что дети, выросшие в любящей среде, лучше осознают свой потенциал и более мотивированы на достижение своих целей. В статье также даются практические советы. В результате сообщается, что любовь играет важную роль в воспитании детей и является мотивирующим фактором в развитии детей.

***Ключевые слова:****Любовь, стимуляция, мотивация, воспитание, родитель*

## MUSİQİNİN QAVRANILMASINDA ASSOSİATİV TƏFƏKKÜRÜN,TƏXƏYYÜLÜN,EŞİTMƏ VƏ MƏNTİQİ YADDAŞIN ROLU

**Bəşirov Arif Maarif oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Musiqi qavrayışı analitik, sintetik insan fəaliyyətidir. Bu, musiqinin dərk edilməsi prosesini yaradıcı edir. Musiqinin tam şəkildə qavranılmasının mahiyyəti, əsas xüsusiyyəti, musiqinin yaratdığı bədii obrazın, hisslərin və düşüncələrin gözəlliyini yaşamaq kimi başa düşülən estetik emosionallıqdır. Musiqinin estetik qavrayışı həmişə emosionaldır. Bir musiqi

əsərinin daha yaxşı və tez qəbul edilməsi üçün dinləyicinin bir tərəfdən musiqinin obraz sahəsinə nüfuz etməsi və digər tərəfdən musiqinin dilinə müraciət etməsi lazımdır. Musiqi qavrayışının bu iki tərəfi musiqi düşüncə prosesidir.

İnkişaf etmiş bədii-obrazlı təfəkkürə malik bir çox peşəkar musiqiçilər və musiqi həvəskarları üçün müxtəlif sənət növləri qarşılıqlı əlaqədə olur və bir-birinə nüfuz edir; ədəbiyyatın, rəssamlığın, teatrın musiqiyə "yayılması" baş verir. Aydındır ki, bu cür proseslərin zəruri şərti şagirdin inkişaf etmiş assosiativ düşüncəsidir, bu barədə musiqi müəllimi hansı səviyyədə çalışmasından (məktəb, məktəb, universitet), hansı kateqoriyalı şagirdlərlə işləməsindən asılı olmayaraq yadda saxlamalıdır. Elmdə, sənətdə olduğu kimi, istedadın heterojen və zahirən bir-birindən uzaq hadisələr, obrazlar, nümayəndəliklər arasında daxili əlaqələr və münasibətlər qurmaq üçün yüksək inkişaf etmiş bir qabiliyyətə sahib olduğu və istedadlı bir insanda hər hansı bir düşüncə, hər hansı bir mövzu, təsadüfi bir mövzu birləşmələrin tükənməz axınına səbəb olur. Assosiasiya (lat. Associatio-birləşmə), psixologiyada-şüurda əks olunan və yaddaşda sabitlənmiş fərdi hadisələr, faktlar, obyektlər və ya hadisələr arasında təbii əlaqə. Assosiasiya nədir? Bunlar düşüncələrimiz, yaxşı və pis, işıq və qaranlıq haqqında fikirlərimizdir. Bqtqn bunlar özümüzü və dünyadakı rolumuzu anlamağa imkan verirlər. Şifahi obrazlar uşaq nağıllarından, povestlərdən, hekayələrdən doğulur. Assosiasiyaların formalaşması prosesi davamlıdır. Şifahi obrazlar uşaq, məktəb və tələbəlik illərində ən fəal şəkildə formalaşır. Oxunan kitablar, şifahi ünsiyyət və eşidilən povestlər bizə bu sehrli meyvələri verir. Xəzinəmiz yetkin illərdə yorulmadan doldurulmağa davam edir. Bir insanın dünyanı tanıma prosesində, təbiətin, insanların və özünün müşahidələri nəticəsində əldə etdiyi təcrübədən fərqli olaraq, şifahi obrazlar fərqli bir xarakterə malikdir. Dil sayəsində bilik insandan insana birbaşa müşahidə obyektinə müraciət etmədən — həyat təcrübəsini atlayaraq ötürülür. Şüurumuz və assosiasiya ayrılmazdır.

Təsəvvür, intuisiya, assosiativ, təxəyyül – uşaq psixologiyasının bu keyfiyyətlərinin məcmusu həyatı bilmək üçün inanılmaz genetik şərtli, yaradıcı bir mexanizmdən başqa bir şey deyil. Musiqi sənətinin təsəvvürü bir musiqi əsəri çərçivəsində yalnız şagirdin emosional həssaslığının inkişafı haqqında deyil, həm də obraz qurma bacarığının formalaşması barədə görməyə imkan verir. Hələ empirik düsturlarla stereotiplərlə yüklənməmiş şagird intuisiyası bütövlüyü qavramağın unikal bir yoludur.

Bunun sübutu kiçik yaşlı şagirdlərin musiqinin ümumi intonasiyasını ən yaxşı şəkildə qavraması və obrazlı düşüncənin, demək olar ki, adi bir şeyi bədii hala "gətirmək" üçün hazır bir mexanizmə sahib olması nümunəsi ola bilər. Müəllim-musiqiçi, tədris tərzindən kənara çıxmağı qarşısına məqsəd qoyursa, vəzifəsini bilikləri dərinləşdirməkdə, musiqi proseslərini intensivləşdirməkdə görürsə şagirdin qavrayışı, məntiqi olaraq, bu və ya digər musiqi materialı üzərində işləyən obrazlardan istifadə etməli, həm şagirdin fərdiliyinə, həm də dərsdə inkişaf edən konkret vəziyyətə uyğun olaraq öz imkanları və ehtiyacları daxilində istifadə etməlidir. Bu cür möhtəşəm nümunələr bir vaxtlar G. G. Neigauzun pedaqogikası tərəfindən verilmişdir ki, bu cür müqayisələri, poetik bənzətmələri tapa bildi ki, musiqi dərhal aydın və başa düşülən oldu. Əlbəttə ki, hər Müəllim-musiqiçi, G. G. Neigauz kimi, assosiativ metodun imkanlarından "yüz faiz" istifadə edə bilmir. Eyni zamanda, zəruri hallarda hər kəs bu metodik "qolu" istifadə etməyi bacarmalıdır. Assosiasiya, təxəyyül eyni qaydanın hadisələridir və bütün bunları düzgün istiqamətə yönəltsək, lazımi səviyyədə təşkil etsək, onda uşağın musiqi inkişafı üçün təsirli bir texnologiya əldə edəcəyik. Assosiasiya, zehni idrak proseslərinin psixologiyasında birləşdirici əlaqə olmaqla, bir sıra metodlar üçün əsas olmuşdur. Analogiya tapmaq vəzifələrinə şagirdləri bəzi əsas xüsusiyyətlərə görə məlumatlara bənzər obyektlərin axtarışına yönəldənlər, yəni.obyektlər arasında assosiativ əlaqənin qurulması. Bu, məsələn, bir məktəb sinifidirsə, əvvəlcə hər bir şagirdtapşırığı təkbaşına yerinə yetirir, cavabları yazır və sonra "kəşfini" bütün siniflə bölüşür. Yazılı icradan sonra şagirdlər arasında şifahi mübadilə aparılır. Fərdi dərslərdə, sonra birbaşa müəllimlə.

Demək lazımdır ki, assosiasiya - əgər varsa - həmişə musiqiçi-ifaçının çalğısında hiss olunur. Və ifa ətrafında xüsusi bir psixoloji aura yaradır. Yalnız bu deyil, daha da təəccüblü hadisələr baş verir. Assosiativlik xarakterik xüsusiyyətlərdən və musiqi qavrayışından biridir. Musiqi obrazları ümumiyyətlə beyin hüceyrələrinin bir-birinə universal bağlılığı səbəbindən tamamilə istər-istəməz yaranır. Hər bir obraz bir şəkildə başqaları ilə əlaqəlidir.Obrazların təbiəti qəbuledicinin şəxsiyyətindən də asılıdır. Fərqli insanlarda qavrayışda müəyyən obrazlar üstünlük təşkil edir.

"Musiqi qavrayışının seçiciliyi istər-istəməz və ixtiyari ola bilər ki, bu da təcrübənin nəticəsidir və musiqinin özünün ümumi səsindən onun ayrı-ayrı elementlərini ayırmaq bacarığında ifadə olunur. Qavrayışın seçiciliyi melodik intonasiyaların ifadəliyini tutmaq,musiqi mövzularının inkişafını izləmək, əsərin ritmik və ya harmonik əsasını vurğulamaq və s.qabiliyyətində özünü göstərir.". Bütün hallarda seçicilik əsasən musiqi eşitmə və düşüncə fəaliyyətinə əsaslanır.

Musiqi fəaliyyəti prosesində uşaqlıqdan nitq və hərəkət təcrübəsi əsasında yaranan ən sadə obrazlardan musiqi dilinin ilkin semantik səviyyəsinə uyğun tezarus tədricən formalaşır. Ancaq bu səviyyəyə güvənmək kifayət deyil: gələcəkdə müxtəlif, estetik cəhətdən tam bir qavrayış və gerçəkliyin estetik mənimsənilməsi vasitələrindən biri kimi musiqi düşünmə qabiliyyətini əldə etmək üçün yalnız zəruri bir şərtdir, musiqi uşaqlıqdan başlayaraq insan təcrübəsini nizamlayır, qavrayış və inkişaf bacarıqları formalaşır.İnsan mədəniyyətinə xas olan xüsusi düşüncə formaları, hiss etməyi və düşünməyi, özünü ifadə etməyi və başqalarını başa düşməyi öyrədir. Bildiyiniz kimi, musiqi qavrayışının bir neçə forması var. Duyğuların üstünlük təşkil etdiyi emosional forma qavrayışın ümumi estetik formasına yaxındır. Başqa bir qavrayış növü intellektualdır. Musiqinin obrazlı qavrayışı eşitmə, vizual, habelə təxəyyül və fantaziyaya əsaslanır. Bir çox insan müxtəlif qavrayış formalarının qarışığı ilə xarakterizə olunur. Beləliklə, məsələn, musiqi mədəniyyətinin görkəmli nümayəndələri, bir qayda olaraq, emosional, intellektual və məcazi qavrayışda fövqəladə qabiliyyətlərə malikdirlər. Musiqi qavrayışı, bütün idrak prosesləri kimi, istər-istəməz formalaşır. Müəllimin tərbiyəvi fəaliyyəti əsərin məzmununa düşünülmüş nüfuz üçün həlledici əhəmiyyət kəsb edir. Musiqi qavrayışının inkişafının iki konsepsiyasını ayırmaq olar.

Birincisi, əsas vəzifəsi musiqi haqqında xüsusi biliklərə yiyələnərək şüurlu qavrayışın formalaşmasını görür. Digər bir vəzifə musiqi fəaliyyətinin psixoloji nəzəriyyəsinə əsaslanır və diqqətini musiqi və eşitmə qabiliyyətlərinin inkişafına yönəldir. Bu təcrübənin əldə edilməsi prosesinin xüsusiyyəti musiqi qavrayışının musiqi biliklərinin mənimsənilməsi ilə ayrılmaz əlaqəsi ilə əlaqədardır. Musiqi təəssüratlarının onların şüuruna toplanması yolu bu konsepsiyada musiqi qavrayışının inkişaf strategiyasını müəyyənləşdirir. Musiqinin qavranılması qabiliyyətinin yaxşılaşdırılmasında psixofizioloji amillər və şəxsiyyət xüsusiyyətləri də nəzərə alınmalıdır. Hər iki konsepsiya emosional cavab və zehni fəaliyyətin inkişaf etdirilməsinin vacib olduğunu qəbul edir.

## MÜASİR ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA DİDAKTİK VƏ METODİK TƏLƏBLƏRİN TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

**Cabbarova Elnazə Ənvər qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bəşəriyyətin çoxəsrlik idrak fəaliyyətinin nəticəsi kimi meydana çıxan elm təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemindən ibarətdir. Qloballaşma dövründə baş verən sosial dəyişikliklər elmi biliklər sistemində də bir sıra yeniliklərin ortaya çıxarılmasını zəruri edir. Cəmiyyətdə ardıcıl ictimai, siyasi, iqtisadi və mədəni hadisələrin yarnması ayrı ayrı elmi sahələrinin əhatə dairəsinin və predmetini geniş miqyas almasına

səbəb olur . Nəticə etibarilə praktik və nəzəri əhəmiyyət kəsb edən, öz spesifik xüsüsiyyətləri, qanun və prinsipləri cəhətdən fərqlənən yeni fənlər meydana gəlir.

Qeyd etdiyimiz fikirlərə əsasən deyə bilərik ki , tarix etibarilə ən qədim elmlər sırasına daxil olan didaktika elmi inkişaf və təkmilləşmə mərhələləri boyunca özunə sosial təcrübə qazanmış, məlum nəzəri sahələri də zaman -zaman praktik prosesə çevirmişdir.

Çağdaş zamanda didaktika müxtəlif elmi məlumatları vacib istiqamətlərini müəyyənləşdirərək təhsil və təlim məsələlərini təhlil etmək, aydınlaşdırmaq işinin tətbiqini təşkil edir. Digər elmlər kimi didaktika da inkişaf edir. Didaktik məzmun zənginləşir və beləliklə yeni məzmun öz quruluşuna müvafiq modern forma tələb edir. Nəticədə hasil olan yeni məzmun və forma yeni tələblərin ortaya çıxması və mövcud tələblərin dəyişməsi zərurəti yaradır. Bu isə müasir cəmiyyətin özünün tələblərindən doğan dəyişkən proses kimi dəyərləndirilə bilər.

Bütün bu proseslərin fonunda didaktik silsilədə onun tədris və tətbiqində yeni təlim və texnologiya meydana çıxır. Mövzunun didaktik mahiyyəti aktuallaşdıqca həmin aktuallığın tətbiqini səmərəli şəkildə təşkil edən müasir təhsil istiqamətini müəyyənləşdirmək və istifadəsini praktik vərdişə çevirmək çox vacibdir. Eyni zamanda, didaktik tələblərlə yanaşı, yeni didaktik vəzifələr də meydana çıxır. Formalaşmaqda olan tələb və vəzifə orijinal mahiyyət qazanmalı və vəhdətdə fəaliyyət göstərməlidir. Hər bir fənnin təliminin didaktik funksiyası vahid məqsədə xidmət etmək, şəxsiyyətin formalaşdırılmasını təşkil etməkdən ibarət olmalıdır. Təlim prossesi psixoloji pedaqoji biliklər sisteminə söykənən didaktik konsepsiya ilə bərabər inkişaf etdikdə daha keyfiyyətli və daha səmərəli nəticələr verir. Təlimin uğurlu alınması didaktik təcrubənin qarşıda duran vəzifələrinin məsuliyyətlə yerinə yetirilməsini təmin etməkdir.

Ümümtəhsil məktəblərində Azərbaycan dili təliminin ən böyuk didaktik vəzifəsi şagirdlərin dünyagörüşünü müasir ruhda formalaşdırmaqdır. Bu mükəmməl humanist məqsədə çatmağın müxtəlif metod və üsulları mövcuddur. Belə üsullardan biri də şagirdlərin düzgün nitq vərdişlərinin formalaşdırılması bilik və bacarıqların vərdişə çevrilməsidir.

Hər bir elmin didaktik prinsip və metodları vardır. Bu fənlər öx spesifik didaktik keyfiyyət və əlamətlərinə əsasən diferensiyasiya müşahidə edilir. Didaktika elmi məzmunundakı iki cəhətlə fərqlənir:

1) Elmi məzmun;
2) Əxlaqi- tərbiyəvi məzmun

Didaktika elminin özəyini təşkil edən bu iki əlamət hər bir elmi, həmçinin fənlərin mövzu dairəsinə daxildir. Lakin bu cəhətlər ayrı-ayrı elm və fənlərin tərkibində müxtəlifcür təzahür edir. Elmi cəhət məzmunca çox şaxəli olduqda ondan alınan nəticə mükəmməl xarakterə malik olur.

Fikrimizcə, elm və fənlərin daxili mahiyyətini təşkil edən bu iki cəhət tədris edilən mövzularda vəhdətdə olmalıdır. Mövzunun elmi potensialının güclü olması nəticə şəklində təzahür edən əxlaqi- tərbiyəvi motivlərin xaraktercə mükəmməl təzahürünü açıq büruzə verir.

Azərbaycan dili təlimində metodik və didaktik istiqamətlər bir sıra əlamət və xüsusiyyətləri, eləcə də inkişaf qanunauyğunluqları cəhətdən diferensiasiya hadisəsi ilə müşahidə edildiyi kimi, ayrı- ayrı meyarlar baxımından inteqrativ baxımdan da diqqəti cəlb edir.

Ədəbiyyat

1. Abbasov Ə., Orucova N., Aslanova Ü., Həsənova İ. Nitqin inkişafı (dərslik). ADNSU-nun mətbəəsi, Bakı – 2007, 148 s.
2. Paşayeva P., Abbasova S. Azərbaycan dili tədrisinin aktual problemləri, ADPU-nun mətbəəsi, Bakı – 2021, 157 s.
3. Balıyev H.B., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Elm və təhsil, Bakı – 2019, 384 s.

4. Qurbanov V. Azərbaycan dili təliminin problemlərinə dair. Mütəllim, Bakı – 2019, 204 s.
5. Qurbanov V., Əmirli A. Azərbaycan dili tədrisinin aktual problemləri. Müəllim, Bakı – 2009, 182 s.

## ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA MƏKTƏB İCMASININ ROLU

**Cəbiyeva Aytac Kamal qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İstənilən cəmiyyətdə sosial institut kimi təhsilin rolu böyükdür. Təhsil, ilk növbədə, gənc nəsli həyata hazırlamalı və bir vətəndaş kimi formalaşdırmalıdır. Təhsilin humanistləşdirilməsi XXI əsrdə başlıca şərtlərdən biridir. Təhsil şəxsiyyətin inkişafı,təlim isə məqsədə çatmaq üçün bir vasitədir. Təhsil təlim-tərbiyə prosesi olub çoxşaxəli və mürəkkəb bir sistemdir. Bildiyimiz kimi, təhsilin məzmununu elmi biliklər təşkil edir və şəxsiyyətin sosial xassələri təlim prosesində, cəmiyyətdə insanlarla ünsiyyətdə və sosiallaşma prosesində əldə edilir. Bu mənada, məktəb, şəxsiyyətin müsbət keyfiyyətlərini, sosial xüsusiyyətlərini formalaşdırır və inkişafına təsir göstərir.

Müasir dövrdə məktəbin fəaliyyəti, öhdəlikləri getdikcə artır. Bu da ilk növbədə cəmiyyətin tələbatlarının artması, qloballaşma dövrünün çağırışları, yeni informasiya texnologiyaları ilə bilavasitə bağlıdır. Hazırda müasir, hərtərəfli, cəmiyyət üçün faydalı ola bilən şəxsiyyətlərin formalaşdırılmasına ehtiyac çoxdur. Belə şəxsiyyətlərin yetişdirilməsi isə məktəblə, təlim-tərbiyə işi ilə birbaşa bağlıdır.

Məktəbdə şagirdlərin təhsil nailiyyətlərinə, ümumiyyətlə, inkişafına yönəlmiş, onu əsaslı şəkildə dəstəkləyən ciddi əlaqələrin yaradılması özlüyündə bir zərurət kimi meydana çıxmışdır. Belə olan halda, ümumi təhsil vəzifələrinin tərəfdaşlıq prinsipi əsasında yerinə yetirilməsində tərəfdaş ola bilən, məsuliyyəti bərabər bölüşə bilmək missiyasını daşıyan məktəb icması 2015-ci layihə şəklində həyata keçirilməyə başlanməş və 50-dən çox məktəb icması yaradılmışdır.

Məktəb icması hər kəsin təşəbbüs göstərə biləcəyi, ümumi işdə iştirak edə biləcəyi, özünə inanıb uğur qazanmaq imkanı olan bir mühitdir. Bu, sosial laqeydliyi aradan qaldırmaq və cəmiyyəti formalaşdırmaq yoludur. Hər atılan addım nəticəsində məktəbin necə dəyişəcəyini, real həyat hadisələri ilə dolacağını, müasir dünya ilə əlaqə quracağını görmək olar, çünki məktəblərdə çatışmayan cəhət məhz budur. Belə bir mühit onun bütün iştirakçıları üçün vahid kollektiv təcrübə sahəsidir. Məktəb icmasında müəllimlər və valideynlər, şagirdlər və məzunlar, məktəb direktorları və tərəfdaşlar məlumat, bilik və ya xidmət təminatçıları və istehlakçılarına bölünmürlər, lakin onlar yeni təhsil təcrübəsinin yaradılmasında bərabərhüquqlu kimi iştirak edirlər.

Belə bir mühitin formalaşması təkcə yeni fəaliyyət tərzi deyil, həm də birgə yaradıcılıqda, birgə fəaliyyətdə və birgə varlıqda yeni düşüncə tərzidir. Bu konsepsiyanın həyata keçirilməsi ilə hamı üçün keyfiyyətli təhsilin təmin edilməsi məqsədinə nail olmaq olar.

Məktəb icması hazırda cəmiyyətin və məktəbin həyatında aparıcı yer tutur. O, demokratiya, kollegiallıq, məktəbin səmərəliliyi, situasiya liderliyi, şagird və müəllimlərin bir-biri ilə qarşılıqlı əməkdaşlığı prinsiplərinə əsaslanır.

Məktəb icması əməkdaşlığı, məktəb rəhbərliyi, şagirdlər, müəllimlər, maraqlı tərəflər arasında qarşılıqlı əlaqəni nəzərdə tutur. Bu əməkdaşlığın şəffaf və demokratik prinsiplərlə təmin olunması, nəticələrin obyektiv qiymətləndirilməsi, görüləcək işlərin aydınlığı və konkretliyi nəticədə bütövlükdə icmaya marağı və inamı təmin edir. İcmaya inam isə onun gələcək fəaliyyətinin daha səmərəli təşkilinə zəmin hazırlayır.

Məktəb icması məktəbdə oxuyan şagirdlərin təhsili üçün ümumi dəyərlərə və standartlara malikdirlər. Tədris prosesinin bütün iştirakçıları-məktəb rəhbərliyi, müəllimlər, şagirdlər və valideynlər arasında bərabərhüquqlu qarşılıqlı əlaqə, onların icmanın tələblərinə uyğun yaşamaq istəyi olur. Məktəb icması, bir qayda olaraq, öz daxilində insanları birləşdirir, bu da öyrətmək və öyrənmək üçün müəyyən motivasiyanın yaranmasına təsir göstərir. Burada ortaq öyrənmə məqsədləri və əməkdaşlıq təmin edilir. Öyrənmə məqsədlərinin bölüşdürülməsi və əməkdaşlıq imkanlarının təmin edilməsi isə nəticədə bütün məktəb icması arasında hesabatlılığı artırır.

Məktəbdə təhsilin düzgün təşkil edilməsi şəxsiyyətin sosiallaşmasında böyük əhəmiyyətə malikdir. Çünki, təhsil prosesi şagirdləri həm biliklərlə silahlandırmalı, həm də onları sosial xarakterli problemlərin müstəqil həll olunmasına sövq etməlidir.

Amerikanın təhsil sisteminin tanınmış mütəxəssisi U.Qlasser yazır: «...əgər uşağın şəxsiyyət tələbatları evdə ödənmirsə, onlar məktəbdə reallaşmalıdır. Müvəffəqiyyətlərə doğru gedən yolu davam etdirmək üçün uşaq özündə olmayan zəruri keyfiyyətləri məktəbdə almalıdır”.

Məktəb icmasının hər bir üzvü məsuliyyət daşıyır, sağlam sosial mühit yaratmağa çalışır və intellektual öyrənməni təmin edir. Məktəbin rifahı üçün sərmayə qoyan müəssisələr, seçilmiş nümayəndələr, xeyriyyə təşkilatları məktəb icmasının bir hissəsi sayıla bilər. İcmanın təşkilinə belə yanaşma onun fəaliyyətinin çevik tənzimlənməsi baxımından əhəmiyyətlidir.

Məktəb icmasının bütün üzvlərinın- məktəb rəhbərlərinin, müəllimlərin, valideynlərin, şagirdlərin və maraqlı tərəflərin fəaliyyətində bir çox cəhətlərin nəzərə alınması zəruridir - üzvlər arasında qarşılıqlı inam olmalı, məktəbin bütün şagirdlərinin icmanın işində, təhsil dəyərlərinin dərk edilməsində iştirakı, müəllimlərin və valideynlərin birgə əməkdaşlığı, valideynlərin məktəb həyatına cəlb edilməsi təmin olunmalı.

Hazırda məktəb sosial sistem kimi deferensiallaşmağa və dəyişməyə açıq olan xidmətlər mühitinə çevrilir. Belə ümumi təhsil mühiti təhsil alanların fəaliyyətini məhdudlaşdırmır. Əksinə, onların fəaliyyət imkanlarını genişləndirməklə stimullaşdıra bilmək imkanı qazanır.

## ŞAGİRDLƏRDƏ VALEOLOJİ BİLİKLƏRİN FORMALAŞDIRILMASINDA AİLƏNİN ROLU

**Əbdürrəhmanova Lalə Elxan qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Hər bir insanın doğulduğu ev,valideynlər onların ilk müəllimidir.Sağlam həyat tərzi öz-özünə yaranmır, insanın erkən yaşlarından onun doğulduğu ailədən başlayır. Uşaqlarda sağlam həyat tərzinin formalaşdırılması mövzusunda valideynlərinin üzərinə düşən məsuliyyət övladları böyüdükcə artır. Təəssüflər olsun ki ölkəmizdə valideynlər uşaqlarının sağlam həyat tərzi ilə ancaq onlarda hər hansı psixoloji və fiziki qüsurla rastlaşdıqda maraqlanırlar.

Bu sahədə valideynlərin üzərinə düşən əsas öhdəlik övladlarında sağlam yaşamağın vacibliyini başa salmaq və bunun üçün onlarda motivasiyaedici dəyərlər forma laşdırmaqdır. Şagird anlamalıdır ki, sağlam həyat tərzi onun uğurlarının açarı və dəstəkçisidir.Ana və atanın davranış nümunələri şagirdlərin tərbiyəsindən mülahizə,təklif və müraciətlərdən daha təsiredicidir. Bu səbəbdən valideynlər özləri sağlam həyat tərzinə qədəm qoymalı və bunu övladlarında formalaşdırmalıdırlar. Şagirdlərin düzgün tərbiyəsi valideynlərin özünütərbiyəsini ehtiva edir. Şagirdlərdə valeoloji bilikləri formalaşdırmaq üçün əvvəlcə valideynlərlə çalışmaqdan başlamaq lazımdır. Uşaqların sağlamlığı valideynlərin təhsil səviyyəsindən,valeoloji biliklərindən,sosial vəziyyətlərindən,ailənin yaşayış şəraitindən birbaşa asılıdır.

Şagirdlərin emosianal inkişafı və onurğa sağlamlığı arasında asılılıq mövcuddur (Dr Elfanə Süleymanova). Şagirdlərin öz içlərində cavablaya bilmədiyi,səbəbini başa düşmədikləri duyğular onlarda aqresiyanın olmasına gətirib çıxarır. Belə vəziyyətdə valideynlərin üzərinə düşən əsas vəzifə övladlarını bu duyğularla üzləşdirib,onlara cavab tapmaqda yol göstərməkdir.Valideynlər əksər hallarda övladlarının akademik bacarıqlarına fokuslanaraq onu daha çox inkişaf etdirmək istəyirlər. Şagirdlərin duyğu və istəkləri göz ardı edilir və vaxtlarının çoxu dərs oxumaq,kurslara getmək və.s. ilə keçir. Belə olan halda bu şagirdlərdə onurğada skalioz, lordoz, kifoz kimi xəstəliklər müşahidə olunur. Şagirdlər sanki üzərlərində böyük bir məsuliyyət hiss edirlər və bu məsuliyyət fiziki qüsur olaraq büruzə verir. Bütün günü dərslə məşğul olan şagirdlər vaxlarının çoxunu masa arxasında keçirib təmiz hava və fiziki aktivlikdən məhrum qalırlar.




**MƏKTƏBƏQƏDƏR DÖVRDƏ PSİXİ İNKİŞAF LƏNGİMƏSİ OLAN UŞAQLARDA İNCƏ MOTOR BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİNDƏ OYUNLARIN ROLU**

**Əfəndi Nərmin Mirabbas qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafında oyunlar çox böyük əhəmiyyətə malikdir. Xüsusən məktəbəqədər yaş dövründə oyunlar uşağı daha çox cəlb edir və uşağın əsas fəaliyyətinə çevrilir. Oyunlar məktəbəqədər yaş dövründə tərbiyənin ən başlıca vasitələrindəndir. İlk növbədə oyun uşaqların əqli tərbiyəsini inkişaf etdirir, ətraf aləm haqqında təsəvvür və anlayışlarını təkmilləşdirir və bunun əsasında uşaqların əqli qabiliyyətləri formalaşır.

Psixi inkişaf ləngiməsi olan uşaqlarda hərəkət texnikası və motor keyfiyyətlərin inkişafı zəif olur. Barmaqların istifadəsini tələb edən hər hansı bir işi yerinə yetirərkən uşaqlar tez yorulur və bu işə maraqları zəif olur. Bu kimi problemlər incə koordinasiyalı əl hərəkətlərinin korreksiya və inkişafı üzrə məqsədyönlü xüsusi işlərin görülmə ehtiyacından xəbər verir. Psixi inkişaf ləngiməsi olan məktəbəqədər yaşlı uşaqların incə mator bacarıqlarının inkişaf etdirilməsi məqsədinə çatmaq üçün mütəxəssisin qarşısında aşağıdakı vəzifələri yerinə yetirməsi tələbi durur:

1. ədəbiyyatları düzgün müəyyənləşdirmək və təhlil etmək;

2. uşaqların diaqnostik müayinəsini aparmaq;
3. əllərin incə motor bacarıqlarını inkişaf etdirmək üçün məkan mühitini inkişafetdirici obyektlər və oyunlarla təşkil etmək;
4. müxtəlif fəaliyyət növlərinin inteqrasiyası əsasında psixoloji ləngiməsi olan uşaqlarla işin uzunmüddətli planlaşdırılmasını hazırlamaq və həyata keçirmək;
5. valideynlərin uşaqlarla işləməyə cəlb edilməsi;
6. görülən işlərin nə dərəcədə səmərəli olmasını təhlil etmək.

Bu dövrdə uşaqlarda hərəkətlərin ləng olması və yöndəmsizliyi, barmaqlar və əllərin qeyri-kafi koordinasiyası müşahidə olunur, bəzi uşaqlar isə qələmi və ya qaşığı düzgün tutmayıb, qayçıdan düzgün istifadə etməyi bilmirlər. Belə uşaqlarla korreksiya proqramı hazırlamaq üçün mütəxəssis işinə lazım olacaq düzgün ədəbiyyatları seçməklə başlamalı sonra isə qrup üçün inkişaf edən mövzu-məkan mühiti təşkil edib, təyin edilmiş tapşırıqları yerinə yetirmək üçün avadanlıq seçib, incə motor bacarıqlarını, motor koordinasiyasını və taktil hissiyyatı inkişaf etdirmək üçün obyektlərlə bir sıra köməkçi vasitələr və oyunlar yaratmalıdır. Bu problemləri həll etməyə kömək edən oyunlar və oyun məşqləri aşağıdakı qruplara bölünə bilər:

- Barmaq oyunları;
- Əllərin və barmaqların masajı;
- Obyektlərlə oyunlar;
- Quraşdırma, gil işi, rəsm, kəsib – yapışdırma məşğələləri;
- Qrafik bacarıqları inkişaf etdirən məşqlər: kölgələmə, rəngləmə.

Psixi inkişaf ləngiməsi olan uşaqlarla çalışan mütəxəssis işində müxtəlif üsullardan və iş formalarından istifadə edir. “Barmaq” oyunları incə motor bacarıqlarının inkişafında ən təsirli oyun növlərindən biridir. Oyun zamanı uşaq saymağı, yuxarı, aşağı, sağ və sol anlayışlarını qavrayır və başa düşür. Bu prosesdə uşaqlar böyüklərin hərəkətlərini təkrarlamaqla əl motor bacarıqlarını aktivləşdirirlər. Bu proses uşaqlarda çevikliyi, hərəkətləri idarə etmək və diqqəti bir fəaliyyət növünə cəmləmək bacarığını inkişaf etdirir. Əvvəlcə uşaqlar bir çox hərəkətləri yerinə yetirməkdə çətinlik çəkirlər. Oyun təkrarlanan zaman artıq uşaqlar tapşırıqları qismən yerinə yetirməyə başlayırlar. Tədricən uşaqlar tapşırıqları mənimsəyir və sərbəst yerinə yetirirlər. “Barmaq oyunları” kompleksinə aşağıdakı oyun növlərini daxil etmək olar:

Barmaq gimnastikası. Gimnastika həyata keçirərkən çalışmaq lazımdır ki, uşaq bütün barmaqlarından istifadə etsin. Mütəxəssis əvvəlcə məkəbəqədər yaşlı uşaqların anlaq səviyyəsinə aid şeiri aydın, sonra əllərin hərəkəti ilə eyni vaxtda, daha sonra isə uşaqlarla birlikdə tələffüz etməlidir. Mütəxəssis işlədikcə tempi, ritmi, intonasiyanı və səsi dəyişməlidir. Bu, uşaqların nitqinin inkişafına, hərəkətləri əlaqələndirməyə və ritm hissini inkişaf etdirməyə kömək edir.

Barmaq addımları. Bu məşqlər əllərin və barmaqların hərəkətlərinin koordinasiyasını inkişaf etdirir. İnkişafetdirici məşqlər yalnız məzmununa görə deyil, həm də təcrübə toplamaq, fantaziya etmək və yeni seçimlər tapmaq imkanı ilə maraqlıdırlar. Barmaq addımları ilə işə başlamazdan əvvəl, məşğələ zamanı uşağı düzgün istiqamətləndirmək üçün mütəxəssis öz başına məşqi özü tətbiq edir. Məşq zamanı sol və sağ əllər üçün seçimlər təqdim edilir.

Öz - özünə masaj. Psixi inkişaf ləngiməsi olan uşaqlar Su-Jok toplarından istifadə edərək öz özünə əl masajı edir. Öz-özünə masaj motor bacarıqlarını inkişaf etdirməyin ən təsirli yollarından biridir. Sadə masaj hərəkətləri əzələ tonusunun normallaşmasına səbəb olur, toxunma hissləri stimullaşdırılır və motor zonalarından beyin qabığına gedən impulsların təsiri altında nitq funksiyası daha faydalı inkişaf edir. Uşaqlara özünü masaj etməyi öyrədərkən ovuclar və əllərdə (barmaq ucundan biləyə qədər) masaj hərəkətlərindən istifadə olunur. Hər məşq sonrasında rahatlaşdırıcı sığallama və əlləri silkələmək lazımdır. Bu gərginliyi aradan qaldırır və barmaqları işə hazırlayır.

Qoz ilə oyunlar. Mütəxəssislər qozdan ovucu ilə stolun və ya başqa səthin üstündə, eləcə də ovuclarının arasında yuvarlamaq üçün istifadə edirlər. Bu fəaliyyət ovucların əlavə masajıdır və əl koordinasiyasını daha da yaxşılaşdırır. Yuvarlanan hərəkətlərə əlavə olaraq, qoz və fındıqları barmaqların arasına keçirmək və saxlamaq üçün istifadə edə bilərlər. Bu məşq barmaqların hərəkətliliyini və incə motor bacarıqlarını inkişaf etdirir.

Mütəxəssislər psixi inkişaf ləngiməsi olan uşaqların incə mator bacarıqlarını inkişaf etdirmək üçün dərsin bir hissəsi kimi hər gün barmaq oyunlarından istifadə etməlidir. Psixi inkişaf ləngiməsi olan məktəbəqədər yaşlı uşaqlarla işə başlayarkən oyun oynamağın prinsiplərinə əsaslanmaq lazımdır. Oyundan əvvəl uşaqla onu müzakirə etmək, lazımi jest, barmaq birləşmələrini və hərəkətləri dərhal məşq etmək lazımdır. Bu, uşaqlarda yalnız məşqi düzgün yerinə yetirməyə deyil, həm də müsbət emosional əhval-ruhiyyə yaradacaqdır. Məşqə başlamazdan əvvəl uşaqlar xoş bir istilik hiss edənə kimi ovuclarını sığallayaraq qızdırırlar. Bütün bu məşqlər yavaş tempdə - əvvəlcə bir əllə, (hər iki əlin iştirakı təmin edilmirsə, digəri ilə) sonra isə eyni anda hər iki əllə aparılır. Məşqlər bir neçə dəqiqə davam edir və gün ərzində 2-3 dəfə təkrarlanır. Bu oyunda uşaqlar təlimatlara uyğun olaraq sadə kombinasiyalar qurmağı öyrənir, incə motor bacarıqlarını inkişaf etdirir, gözü və hərəkətlərin koordinasiyasını təkmilləşdirir, diqqəti bir fəaliyyət növünə cəmləməyi öyrədir, düşüncə proseslərinin inkişafını stimullaşdırır və əzmkarlığı inkişaf etdirirlər. Oyun zamanı psixi inkişaf ləngiməsi olan uşaqlarda praktiki bacarıqlar formalaşır - onlar lent bağlamağı, ipləri bağlamağı, düymələri bağlamağı, saç hörməyi və s. öyrənirlər ki, bu da sonrakı həyatlarında onlara faydalı olacaq.

Məktəbəqədər yaşlı uşağın psixofiziki inkişafında yaradıcı fəaliyyətlər vacibdir. Onlar yalnız uşaqların ətrafdakı dünya haqqında anlayışını formalaşdırmır həmçinin yaradıcılıq qabiliyyətlərini, estetik qavrayışlarını inkişaf etdirir, uşaqların sensor standartları haqqında biliklərini möhkəmləndirir, diqqət və təfəkkürünü inkişaf etdirir, eləcə də əllərin motor bacarıqlarını inkişaf etdirir. Psixi inkişaf ləngiməsi olan uşaqlar üçün motor bacarıqlarının inkişafının böyük əhəmiyyətini nəzərə alaraq, tərbiyəçi müəllimlərin, psixoloq və loqopedlərin vəzifəsi bu problemin əhəmiyyətini valideynlərə çatdırmaqdır. İncə motor bacarıqlarının inkişafı və əl hərəkətlərinin koordinasiyası üzrə işlər valideynlər və eləcə də uşaq bağçası mütəxəssisləri ilə sıx təmasda aparılmalıdır. Bu, istədiyimiz nəticələrə daha tez nail olmağa kömək edəcək.

## YENİYETMƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINA VƏTƏNPƏRVƏRLİK HİSSİNİN TƏSİRİ

**Əhmədsoy Zərifə Cəfər qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan xalqının əski mifik görüşləri, inam və əqidələri, adət-ənənələri, böyüyə hörmət, namus, qeyrət və təəssübkeşliyi və başqa əxlaqi hisslərə yeniyetmələrimizin vətəndaş və şəxsiyyət kimi böyüməsində ən mühüm amillərdən biridir. Vətənpərvərlik hissi şəxsiyyətin ən ali hisslərindən olub, onun daxili psixoloji, xarici fiziki hissi emosional halları ilə bilavasitə əlaqədar olaraq baş verir. Bu hisslər şəxsiyyətin iradi keyfiyyətləri (qəhrəmanlıq, qətiyyət, mərdlik, cəsarət, inam, əqidə qorxmazlıq və s.) ilə sıx surətdə əlaqədardır. Vətənpərpərlik hissinin inkişafı ailədən, bağçadan, yaşadığı mühitdən, məktəbdən və s. asılıdır. Vətənini, dövlətini, onun sərhədlərini, rəmzlərini, yeraltı – yerüstü sərvətlərini, xalqını, millətini sevməyən vətənpərvər ola bilməz. Vətənə bağlılıq hissinin iç dünyasından, etnik kökündən, qan yaddaşından gəlir.

Vətənpərvərlik hissi bəşəri hisslərlə vəhdət təşkil edir. Ona görə də həmin hissin inkişaf etdirilməsi üçün yeniyetmələrdə mərdlik, qəhrəmanlıq, borc və mənəviyyat hissini, cəsarət, qətiyyət, qorxmazlıq kimi iradi keyfiyyətləri inkişaf etdirmək lazımdır. Vətənpərvər olmaq istəyən şəxsdə bu hissi daşımaq üçün bilik, bacarıq, qabiliyyət və vərdişlər də olmalıdır.

Vətənpərvərlik hissi, şəxsin mənəvi dəyərlərindən, dünyagörüşündən, inam və əqidəsindən ilham alır. Vətənpərvərlik hissi şəxsiyyətin bütünlüyünə təsir edən psixi proseslər və halətlər arasında quruluşa və əlaqəyə əsaslanır. Əxlaq tərbiyəsinin bütün xüsusiyyətləri, daxili psixoloji mexanizmlər, vətənpərvərlik kimi hisslər üçün əsas təşkil edir.

Vətənpərvərlik hissi onu daşıyan şəxsin mənəvi zənginliyindən, doğma yurda bağlılığından, şəxsi və ictimai – sosial məqsədlərindən, daxili zənginliyindən asılıdır. Vətənpərvərlik hissi yüksək olan şəxsdə iradəsi, inam və əqidəsi, cəsarəti, mərdlik və qəhrəmanlığı da yüksək səviyyədə olur. Uşaq və yeniyetmələrin vətənə, doğma yurda məhəbbəti və bağlılığı öz rişələrini folklor nümunələrindən götürmüş, böyük söz ustaları, dövlət xadimləri və sərkərdələrin, tarixi şəxsiyyətlərin, qəhrəmanların yaradıcılığında inkişaf etdirilmişdir.

Vətənpərvər vətənin tərəqqisi üçün fəal əməli mübarizə aparmalı və onu gerilikdən çıxartmaq üçün özünün bütün qüvvəsini səfərbərliyə almalıdır. Vətənpərvərlik arzu ilə əməli işin, məhəbbətlə fəaliyyətin birləşməsini tələb edir. O, insanı vətən uğrunda fədakarlıq göstərmək üçün ruhlandıran daxili hərəkətverici qüvvə olmalıdır.

Hərbi-vətənpərvərlik hissi bir şəxsin öz vətənini, ölkəsini, ana dilini, xalqını və adət-ənələrini sevməsi, hərbi xidmətə hazırlanması və müasir hərbi texnikadan bacarıqla istifadə etməsində ifadə olunur. Hərbi-vətənpərvərlik hissi, vətənin mövqeyi, vətən övladının həyatının əhəmiyyəti və ana vətənin hər qarış torpağı uğrunda ölüm-dirim savaşına hazır olmağa dair hisslərin daxili şəkildə özünü ifadəsidir.

Hərbi-vətənpərvərlik hissi vətən torpağına sadiq bir bağlılıq ilə birlikdə, onu müdafiə etmək üçün hər bir vətən övladından yüksək fiziki hazırlıq, çeviklik, dözümlülük, mətanət, iradə tələb edir. Bu xüsusiyyətlər bir vəhdət halında birləşəndə əsl vətəndaş mövqeyi ortaya çıxır. Vətənpərvərlik hissi də belə bir vətəndaşlıq mövqeyində özünü göstərir.

Vətənpərvərlik hissi, eyni zamanda döyüş üçün tələb olunan bilikləri, bacarıqları və vərdişləri də əhatə edir. Gənclərin sağlam, energetik və vətən müdafiəsinə hazır halı, həmişə dövlətin marağına səbəb olmuşdur. Yüksək mənəvi-fiziki hazırlığa, vətənpərvərlik hissinə malik olan şəxs, qarşılaşdığı çətinlik və maneələrə qarşı iradə, dözüm, mətanət, şücaət və qəhrəmanlıq prinsiplərini nümayiş etdirir. Vətənpərvərlik hissi yüksək olan insan heç bir şeydən qorxmaz, vətəni, doğma torpağı üçün əlindən gələni edər, vətənpərlik mövqeyindən dönməz. Yeniyetmələr, gənclər ən yaxşı şəkildə həyata hazırlanmalı və vətənin müdafiəsinə hər zaman hazır olmalıdırlar.

Vətənpərvərlik hissi, yeniyetmələr və digər yaş qrupundakı məktəblilərin əsas sosial psixoloji qabiliyyətlərinin inkişaf etdirilməsinə nail olmağı nəzərdə tutur. İnsanın müxtəlif hərəkət fəaliyyətlərinə qabiliyyəti, fiziki keyfiyyətlərin (güc, dözüm, çeviklik, surət və s.) yüksək səviyyədə inkişafı ilə təmin olunur.

Fiziki xüsusiyyətlər, hər hansı bir fəaliyyətdə hansısa fiziki bacarığın əhəmiyyətli rol oynamağına baxmayaraq, bir-biri ilə sıx əlaqədə təzahür edir. Yeniyetmə yaşlı uşaqlarda cəsarət və dözümlülükdən başqa cəldlik, davamlılıq, vətənə sədaqət kimi bir çox müsbət xüsusiyyət inkişaf edir. Yeniyetmələri həyata fiziki cəhətdən hazırlamaqla yanaşı, həm də mənəvi-iradi keyfiyyətləri inkişaf etdirməklə buna nail olmaq olar. Məktəbli, əgər müvafiq bilik, bacarıq və vərdişləri əldə edirsə, fəaliyyətini uğurla həyata keçirə bilər. Yeniyetmə bilik və təsəvvürlərə əsaslanaraq, fəaliyyətin müxtəlif səviyyələrində öz hərəkətlərini ifadə etmək imkanına sahib olur.

44 günlük vətən müharibəsində müzəffər ordumuzun göstərdiyi şücaət, qorxmazlıq bütün vətəndaşlarımıza o cümlədən, hər yaş qrupuna öz təsirini göstərdi. Mərd Azərbaycan gəncləri doğma torpaqlarımızı erməni işğalçılarından geri aldi. Bu döyüşlərdə minlərlə gənc igidlərimiz şəhid oldu.

II Qarabağ müharibəsində gənclərin mübarizəsi və bu mübarizənin gənclər üzərindəki psixoloji təsirləri böyük əhəmiyyət kəsb edirdi. Bir çox gənc, döyüş ərazisindən başqa, eyni zamanda təbliğatdan humanitar yardıma qədər bir çox sahədə fəal olaraq ölkələri üçün

mübarizə apardılar. Bu gənclər, çətinliklərlə başa çıxmaq üçün böyük bir əməkdaşlıq və qərarlılıq göstərdilər. Lakin, döyüşün gətirdiyi travma və itki, gənclər üzərində dərin bir təsir yaratdı. Bir çox gənclər, döyüş zamanı yaşadıqları acı və itkilər səbəbiylə psixoloji problemlər yaşadılar. Bu problemlər arasında postravmatik stress , depresiya və narahtliq kimi hallar var idi.

II Qarabağ müharibəsinin sonunda, gənclərin bu psixoloji problemlərlə başa çıxmaq üçün dəstək və müalicə xidmətlərinə ehtiyacı olmuşdur. Həmçinin, döyüşün gənclər üzərindəki uzunmüddətli təsirlərini azaltmaq üçün sosial dəstək və rehabilitasiya proqramlarına da ehtiyac var idi.

Bu müddətdə, beynəlxalq cəmiyyətin və yerli qurumların gənclərə yönəlik dəstək və yardım səyləri böyük önəm daşıyırdı. Gənclərin döyüşün gətirdiyi travmayı atlatmaları və gələcəyə ümidlə baxa bilmələri üçün bu dəstəklərin davamlı olması çox vacibdir.

II Qarabağ müharibəsində gənclərin mübarizəsi, onların kimlik və milli qürur hisslərini gücləndirdi. Bir çox gənclər, vətənləri üçün mübarizə verərkən böyük bir fədakarlıq və mərdlik göstərdilər. Bu mərhələ, gənclər arasında milli birləşmə və əməkdaşlıq hisslərinin güclənməsinə də kömək etdi. Bu mərhələdə, ailələrin və cəmiyyətin gənclərə dəstək olması da çox vacibdir. Gənclərin yaşadıqları travmaları paylaşa bilmələri və duyğularını ifadə edə bilmələri üçün açıq bir kommunikasiya mühiti yaratmaq vacibdir.

Nəticə olaraq, II Qarabağ müharibəsində gənclərin göstərdiyi mübarizə, onların milli kimliklərini gücləndirdiyi kimi eyni zamanda psixoloji cəhətdən də çətin bir mərhələ yaşamalarına səbəb oldu. Bu səbəbdən, gənclərə yönəlik dəstək və rəhbərlik xidmətlərinin davamlı olması vacibdir.

## MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNKLÜZİV TƏLİM MÜHİTİNİN TƏŞKİLİNİN ƏHƏMİYYƏTİ

**Əlibalayeva Xədicə Əliəsgər qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məktəbəqədər təhsil müəssisələrində hər bir uşağın təlimə, tərbiyəyə, bilik və bacarıqlara, qabiliyyətlərə yiyələnməsi üçün əlverişli təlim mühiti təşkil edilməsi zəruridir. Hər bir uşağın keyfiyyətli təhsil almaq hüququ var. Uşağın yaşından, cinsindən, fərdi xüsusiyyətlərindən, ailə vəziyyətindən asılı olmayaraq onların təlim mühitinə bərabər şəkildə cəlb olunması mütləqdir. Belə ki, təlimin, təhsilin hər bir uşaq üçün əlçatan olması, hər kəs üçün bərabər təhsilin təmin olunması, uşaqların ehtiyaclarının təmin olunması, inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Elə inklüziv təhsil sözünün mənası da "daxil edirəm", "özünə daxil edən" adlanır. İnklüziv təlim mühiti özündə sağlam uşaqlarla yanaşı, əlilliyi olan uşaqların da təhsilə cəlb olunmasını ehtiva edir.

İnklüziv təhsilin mahiyyəti əslində uşaqların müxtəlif ehtiyaclarının nəzərə alınaraq təlim mühitinin uşaqyönlü metedologiyaya əsaslanaraq qurulmasıdır. Bu aspektdən yanaşaraq inklüziv təlim mühitində uşaqların bərabər ünsiyyət qurmaq, münasibətdə olmaq, bir – birlərinə təsir göstərmək, kömək olmaq, həmyaşıdlarının dostluğu və dəstəyi vacibdir.

Yəni insanın dəyəri, onun inkişafı, bilik və bacarıqlara yiyələnməsi bu prosesin mahiyyətini əks etdirir. Bu baxımdan uşaqların təlim mühitində fərqli olması, müxtəlifliyi onların həyatının müxtəlif sahələrini də inkişaf etdirmiş olur.

İnklüziv təlim mühitinin məktəbəqədər təhsil müəssisələrində təşkili cəmiyyətdə sosial bərabərliyin təmin olunmasına da şərait yaradır.

Əsasən də tərbiyəçi – müəllimin inklüziv təlim mühitinin qurulmasında rolu xüsusilə vurğulanmalıdır. Belə ki, məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi – müəllim uşaqları kollektivçiliyə sövq etməli, davranış qaydalarına riaət olunmasına, onlarda etik və əxlaqi fərdişlərin formalaşdırılmasına, əmək vərdişləri, ümumi ilkin təsəvvürlərin yaradılmasına, bir

– birləri ilə ünsiyyət qurmalarına nail olmalıdır. Bir sözlə, tərbiyəçi – müəllim uşaqları tərbiyənin bütün sahələrinə hərtərəfli hazırlamalı, cəmiyyətin tələblərinə, vəzifələrinə uyğun onları fəaliyyətə hazırlamalıdır.

Ona görə də tərbiyəçi – müəllimin öz işini hər bir uşağın fərdi xüsusiyyətlərinə uyğun olaraq, onların ehtiyaclarını, qabiliyyətlərini, təlimə nə cür yanaşmalarını nəzərə alaraq planlaşdırması, qurması vacibdir. Və ona uyğun olaraq da təlim mühitini, şəraiti təşkil edə bilməlidir.

Tərbiyəçi - müəllim həm həkim, həm pedaqoq, həm psixoloq olmalıdır ki, uşağın ehtiyacına uyğun ona müsbət yöndə təsir edə bilsin.

İnklüziv təlim mühitində bütün uşaqlar müxtəlif yollarla öyrənir və inkişaf edir. Ona görə şəraitin hər bir uşaq üçün əlçatan qurulması vacib nüansdır. İlk olaraq məşğələnin qurulmasında uşaqların əvvəlki biliklərinə istinad edilməsi, gündəlik öyrəndiklərini təcrübədə tətbiq edilməsinə şərait yaratmaq önəmlidir.

Daha sonra uşaqların birgə, kollektiv və qrup şəklində öyrənməsi, işləməsi, əlaqə qurması da inkişafa aparır. Hər bir uşaq müəyyən vəzifəni icra etməklə məsuliyyəti öz üzərinə götürür.

Həmçinin məktəbəqədər təhsil müəssisələrinin mühiti, şəraiti, təlim imkanları, resurslar, vəsaitlərlə təmin edilməsi də mühüm faktordur. Bu mühitin təşkili uşaq üçün cəlbedici, inkişafetdirici və əlçatan şəkildə qurulmalıdır.

Şəraitin təşkili zamanı uşaqların ehtiyacları, maraqları nəzərə alınmalıdır. Ümumiyyətlə uşaqların hərtərəfli şəxsiyyət kimi yetişdirilməsi üçün, keyfiyyətli təhsilə yiyələnməsi üçün tərbiyəçi – müəllimin məşğələni düzgün planlaşdırmasından, nəticələrin nədən ibarət olacağından çox asılıdır. Uşaqlara öyrədici, tərbiyələndirici, inkişafetdirici, oyunlardan, xüsusən də didaktik oyunlardan istifadə edərək məşğələ prosesinin qurulması da həm öyrənmə prosesinə, həm də uşağı inkişafa sövq etmiş olar.

Eyni zamanda inklüziv təlim şəraitində məşğələ prosesinin qurulması tərbiyəçi – müəllimin valideynlərlə də sıx əlaqədə olmasından asılıdır. Ailədə başlayan prosesin valideynlər tərəfindən uşağa edilən təsirlərin məktəbəqədər təhsil müəssisələrində davam etdirilməsi də uşağın inkişafına ciddi şəkildə təsir göstərən amildir. Tərbiyəçi – müəllimin ailə ilə əlaqədə olması, məlumatların qarşılıqlı olaraq ötürülməsi, əməkdaşlığın təmin olunması, uşağın bağçada olduğu kimi, evdə də inkişafı izlənilməsi ona düzgün təsirə şərait yaradacaqdır.

Daha sonra valideynə dəstəyin göstərilməsi, onlarla söhbətlərin aparılması, müəyyən qədər maarifləndirmə prosesinin həyata keçirilməsi, müzakirələrin təşkil olunması uşağın inkişafına effektiv təsirə malik olar.

Müxtəlif uşaqların eyni mühitdə inkişaf etməsi, fəaliyyət göstərməsi onların bir – birlərinə olan təsiri, münasibəti də normal xarakter kəsb edir, cəmiyyət tərəfindən də normal şəkildə qarşılanır.

Bu o demək deyil ki, hər hansısa uşaq fərqlidirsə onu təlim prosesindən kənarlaşdırmaq və ya yad münasibət bəsləmək olmaz. Hansı ki, hər bir fərd fərqli qabiliyyətlə dünyaya gəlir və təbii olaraq da bunları nəzərə alaraq tərbiyəçi – müəllimin inklüziv təlim mühitinin düzgün şəkildə təşkilatlandırılmasına nail olmalıdır. Bu məsuliyyətli prosesin öhdəsindən peşəkar, səriştəli, yüksək erudisiyaya sahib tərbiyəçi – müəllimlər gələ bilər.

Beləliklə də, respublikamızda da yeni layihələr həyata keçirilir, cəmiyyətin baxış tərzi, yanaşma tərzi müasirləşir və dəyişir.

İnklüziv mühitin təşkili üçün də səriştəli pedaqoqların yetişdirilməsi naminə ali təhsil müəssisələrində də bu yöndə intensiv inkişaf gedir, dünya təcrübəsindən istifadə olunaraq yeni yanaşmalar həyata keçirilir.

# SOSİAL İŞİN TƏŞKİLİNDƏ MÜHÜM OLAN MƏRHƏLƏLƏR

**Əmirəliyeva Fidan Rahim qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Hər bir sahədə, eyni zamanda gənclərlə sosial işlərin yerinə yetirilməsində mühüm, vacib olnan, elmin tövsiyyə etdiyi bir sıra işlər yerinə yetirilməlidir. Konkret olaraq, gənclərdə özünə inam hisslərinin formalaşdırılması sahəsində də sosial işlərin yerinə yetirildiyi zaman aşağıdakı işlərin görülməsi vacibdir:

1. Sosial işi təşkil etməyə başlayanda əvvəlcə obyektin özünü konkret olaraq müəyyənləşdirmək lazımdır. Yəni, konkret olaraq bilinməlidir ki, özünə inam hissini gücləndirmək üçün seçilən gənclər kimlərdir? Bu obyekt universitetdə hər hansı bir qrup, fakultənin bütün tələbələri, universitetin bütün tələbələri, hər hansı bir müəssisədə çalışan, yaşayış məntəqəsində yaşayan gənclər və s.ola bilər.

2. Obyekt konkret olaraq müəyyənləşdikdən sonra həmin gənclərin özünə inam hissinin indiki vaxtda hansı səviyyədə olduğunu müəyyənləşdirmək lazımdır. Bunun üçün, aydınlaşdırılmalıdır ki, vəziyyəti öyrənmək üçün hansı göstəricilər üzrə məlumat toplanmalıdır. Bu göstəricilər içində həm özünə inam hissinin səviyyəsini öyrənməyə kömək edənlər olacaq, həm də həmin göstəricilərin formalaşmasına təsir edən amilləri xarakterizə edənlər.

3. Göstəricilər konkret olaraq müəyyənlişdikdən sonra, müəyyən etdiyimiz obyektdə həmin göstəricilər üzrə məlumatlar toplanmalıdır. Bu sosioloji araşdırmaların da köməkliyi ilə ola bilər, başqa vasitələrlə də. Məsələn statistik məlumatlarla, mətbuatda olan məlumatlarla, rəsmi orqanların məlumatları əsasında və s.

4. Toplanmış məlumatlar kompüterdə müasir tələblərə uyğun olaraq ümumiləşdirilməli, təhlil edilməlidir.Bu zaman xüsusi kompüter proqramlarından, məsələn SPSS paket-proqramlarından, xüsusi riyazi, statistik metodlardan istifadə edilməsi olduqca faydalı olur. Bu vasitələrdən istifadə etdikdə göstəricilər arasındakı qarşılıqlı əlaqələri daha dərindən öyrənməyə imkan yaranır. Bu qarşılıqlı əlaqələri əks etdirən qrafların qurulması isə göstəricilər arasında daha mühüm olanları üzə çıxarmağa imkan verir. Bu mühüm göstəricilərin üzə cıxarılması isə sosial işin daha tez bir zamanda, daha uğurla yerinə yetirilməsinə kömək edir. Kompüterdən, riyazi metodlardan istifadə etməyə imkan olmadıqda isə fərziyyələrdən, hipotetik əsaslandırılmalardan istifadə olunur.

5. Obyektdəki vəziyyət aydınlaşdıqdan sonra sosial işin məqsəd və vəzifələrini müəyyən etməliyik. Aydın şəkildə bilinməlidir ki, bu sosial işin yerinə yetirilməsi ilə seşdiyimiz obyektdəki gənclərin özünə inam hissini hansı səviyyətdə, hansı şəkildə yerinə yetirmək istəyirik. Bu sosial işin yerinə yetirilməsi ilə nəyə nail olmaq istədiyimiz barədə aydın təsəvvür olmalıdır.

6. Məqsəd və vəzifələr konkret olaraq müəyyənləşdikdən sonra, aydınlaşdırmaq lazımdır ki, həmin məqsəd və vəzifələr nə dərəcədə reallığa uyğundur? Yəni, bu obyektdə həmin nəticələrə nail olmaq üçün hansı imkanlar və məhdudiyyətlər mövcuddur?

7. Qarşıya həll etməmiz mümkün olmayan məqsəd və vəzifələr qoyula bilməz. Bu məqsəd və vəzifələr mövcud imkanlardan yuxarı olarsa, yaxud məhdudiyyətləri ortadan götürmək mümkün olmazsa o zaman bu sosial işi yerinə yetirdiyimiz zaman həm boş vaxt itkisi olar və maddi vəsait xərclənər, həm də əksinə, uğur əvəzinə bir sıra problemlər yarana bilər.

8. Bu vəzifələri yerinə yetirməklə qarşıya qoyulan məqsədə nail olmaq üçün hansı vacib işlərin görüləcəyi, addımların atılması müxtəlif yollarla müəyyən edilməlidir. İmkan daxilində bu sahədəki işlər də elmin köməyi ilə, məsələn "qərar qəbul etmə" metodlarının köməyi ilə müəyyənləşdirilməlidir. Belə bir imkan olmadıqda isə, analitik təhlillər hesabına idarəetmənin planı, bu plana uyğun idarəetmənin qrafiki müəyyən edilə bilər. Həmin bu qrafikdə, konkret

olaraq göstərilməlidir ki, hansı işi, kimlər hansı tarixə qədər, hansı səviyyədə yerinə yetirməlidir.

9. İstənilən bir sosial iş həm də bir idarəetmə məsələsidir. Seçilmiş obyektdə gənclərdə özünü inam hissini artırmaq istəyiriksə, deməli biz mövcud vəziyyətdən arzu etdiyimiz vəziyyətə keçmək üçün bir idarəetmə işini yerinə yetiririk. Hər bir prosesin idarə edilməsində isə monitorinqin xüsusi əhəmiyyəti vardır. Monitorinq sosial işin hansı şəkildə uğurlu gedib - getməməsini vaxtında üzə çıxarmağa, sosial iş zamanı idarəetmə prosesində zəruri düzəlişlər etməyə kömək edir. Vaxtında edilmiş düzəlişlər uğurlu nəticələrə daha tez nail olmağa yardım edir.

10. Monitorinq necə gəldi aparıla bilməz. Bu sahədə görüləcək işlərin aydın, dəqiq planı hazırlanmalıdır. Bu plan dərinn təhlillər əsasında qurulmalıdır. Bu zaman idarəetmənin məqsədi, vəzifələri, qrafikdə nəzərdə tutulmuş işlər bir daha təhlil edilməli, monitoriqin əsas meyarları müəyyən edilməlidir. Yəni aydınlaşdırılmalıdır ki, idarəetmə prosesinin hansı etabında əldə edilmiş nəticələr qənatəbəxş, idarəetmənin uğurlu aparılmasına kömək edən səviyyədə qəbul edilə bilər. Monitorinqi həyata keçirənlər olduqca diqqətli olmalı, aralıq mərhələdə alınmış nəticənin, sonra hansı proseslərə necə təsir edəcəyini proqnozlaşdıra bilməlidirlər.

11. Sosial iş yekunlaşmağa yaxın, seçilmiş obyektdə bir daha əvəldə müəyyənləşmiş göstəricilər üzrə məlumatlar toplanmalıdır. Sosial iş nəticəsində bu obyektdəki gənclərdə özünə inam sahəsində hansı dəyişikliklərin baş verdiyi aydınlaşdırılmalıdır. Müəyyən edilməlidir ki, qarşıya qoyulan məqsədə nə dərədə nail olunmuşdur? Hər bir göstərici üzrə hansı dəyişikliklər baş vermişdir?

12. Sosial iş o zaman uğurlu hesab edilə bilər ki, qarşıya qoyulmuş məqsədə yüksək səviyyədə nail olunm baş vermişdir.

## İNSANLARI XEYRİYYƏÇİLİYƏ TƏŞVİQ EDƏN SƏBƏBLƏR

**Fərzəliyeva Ayan Vəlzamin qızı**
*Azəbaycan Dövlət Pedaqoji Universiteti*

Xeyriyyəçilik hər il milyonlarla insanın ianə yardımı kimi geniş yayılmış fəaliyyət sahəsinə çevrilib. Ərzaq yardımı, humanitar fəlakətlərin baş verdiyi, müharibələrdən zərər görən ölkələrə dəstək olmaq və ya tibbi araşdırmalara töhfə vermək olsun, xeyriyyəçilik gündəlik həyatımızın bir hissəsinə çevrilib. Bununla belə, bəzən niyə xeyriyyəçilik etdiyimizi düşünməli oluruq. Zəhmətlə qazanılan pul və ya dəyərli vaxtı xeyriyyəçiliyə sərf etməyə insanları nə vadar edə bilər? Bu baxımdan xeyriyyə ianələrinin sosial və şəxsi faydalarını, bağışlamada empatiya və şəxsi dəyərlərin rolunu və xeyriyyəçiliyin daha çox insanlar arasında genişlənməsinə səbəb olan məqamları araşdırmaq önəm daşıyır.

Xeyriyyəçiliyin ən əhəmiyyətli faydalarından biri kimi yarada biləcəyi sosial əlaqələr elmi tədqiqatlarda qeyd olunur. Fərdlər xeyriyyəçilik vasitəsilə böyük bir fəaliyyətin bir parçası kimi çox vaxt cəmiyyətə aidiyyət hissini düşünürlər. Bundan əlavə, xeyriyyə ianələri fərdlər və təşkilatlar arasında əlaqələri gücləndirməklə sosial kapitalın qurulmasına kömək edə bilər. Tədqiqatlar göstərdi ki, ianəçilik güclü, sağlam icmaların qurulması üçün mühüm əhəmiyyət kəsb edən əməkdaşlıq, etimad və qarşılıqlı əlaqə kimi sosial davranışları təşviq edə bilər. Məsələn, ərzaq yardımı göstərmək ehtiyacı olan fərdlərin və ailələrin sağlamlıqlarını və rifahlarını yaxşılaşdıra biləcək, sağlam qidaya çıxışını təmin etməyə kömək edə bilər. Öz növbəsində, bu, insanların sağlamlığına və məhsuldarlığın artması kimi bütün cəmiyyət üçün daha müsbət nəticələrə gətirib çıxara bilər.

Xeyriyyəçilik xoşbəxtlik və yüksək rifah halı kimi şəxsi faydaları da artırır. Tez-tez xeyriyyəçilik etməklə insanlar "yardım edənin yüksəklişi", başqalarına kömək etməkdən gələn eyforiya və ya məmnunluq hissini yaşayırlar. Bu, ümumi rifaha kömək edə biləcək xoşbəxtlik, icra və məqsəd hisslərini təşviq edə bilər. Tədqiqatlar həmçinin göstərmişdir ki,

ianə etmək özünə hörməti artıra bilər. İnsanlar öz xeyriyyəçilikləri ilə dünyada fərq yaratdıqlarını hiss etdikdə, özlərini və müsbət dəyişikliklər etmək qabiliyyətini daha yaxşı hiss edirlər.

Empatiya və ya başqalarının hisslərini başa düşmək və bölüşmək bacarığı xeyriyyəçilik üçün mühüm motivasiya mənbəyidir. Ehtiyacı olanlara qarşı empatiya hiss edən insanların müəyyən bir işə ianə vermə ehtimalı daha yüksək olduğu bir faktdır. Bunun səbəbi, empatiya fərdlərə səbəblə emosional əlaqə yaratmağa imkan verir, onu daha mənalı və təsirli edir. Tədqiqatlar göstərdi ki, empatiya xeyriyyəçilik də daxil olmaqla, sosial davranışda dəyişikliyə səbəb ola bilər. Belə ki, Kaliforniya universitetində keçirilmiş tədqiqatların birində başqalarının əzabları haqqında düşünməsi tələb olunan şəxslərin başqalarının əzabları haqqında düşünmələri tələb olunmayanlara nisbətən xeyriyyəçilik üçün əhəmiyyətli dərəcədə daha çox ianə etdikləri ortaya çıxdı. Bu, xeyriyyə ianələrini idarə etməkdə empatiyanın gücünü vurğulayır.

Şəfqət, sosial məsuliyyət və ədalət kimi şəxsi dəyərlər də xeyriyyəçilikdə mühüm rol oynaya bilər. İnsanlar xeyriyyəçiliyi çox vaxt qərar qəbul etmə prosesinə öncüllük edən şəxsi dəyərlərinə əsaslanaraq edirlər. Məsələn, cəmiyyətdə sosial ədalətin bərqərar olması ilə bağlı insanlar yoxsulluq və ya ayrı-seçkilik kimi sistemli bərabərsizlikləri aradan qaldırmaq üçün fəaliyyət göstərən xeyriyyə təşkilatına ianə etməyi seçə bilərlər. Tədqiqatlar göstərir ki, dəyərlərə əsaslanan yardım fərdin ianələrini şəxsi inancları ilə uyğunlaşdırmaqla müsbət dəyişiklik yarada bilər. Bu, daha mənalı və təsirli yardıma səbəb ola bilər, çünki insanların öz dəyərlərinə, inanclarına uyğun gələn səbəblərə sərmayə yatırmaq ehtimalı daha yüksəkdir.

Nəticə olaraq xeyriyyəçilik müxtəlif amillərin, o cümlədən sosial əlaqələr, şəxsi dəyərlər, empatiya və şəxsi faydaların təsir etdiyi mürəkkəb davranışdır. Onun bir çox müsbət nəticələri ola bilsə də, ianələrinizin mənalı təsir göstərməsini təmin etmək üçün ona düşünülmüş və diqqətli yanaşmaq vacibdir. Biz xeyriyyə ianələrimiz, dəyərlərimizə və məqsədlərimizə uyğun gələn səbəbləri dəstəkləməklə, icmalarımızda və dünyada müsbət dəyişiklikləri təşviq etmək haqqında daha məlumatlı qərarlar qəbul edə bilərik.

## DEVİANT DAVRANIŞI OLAN MƏKTƏBLİLƏRLƏ PROFİLAKTİK İŞİN TƏŞKİLİ

**Hacıəli Sona Cəfər qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Hər bir cəmiyyətdə qəbul olunmuş müəyyən hüquqi və əxlaqi qaydalar toplusu vardır. Bu, insanların mövcud olduğu sosial mühitdə, kollektiv daxilində səmərəli şəkildə yaşamasına imkan verən davranış qaydalarıdır. Əks halda, sağlam sosial münasibət, ünsiyyət qurmaq çox çətin olardı. Deviant davranış, həmin qaydaların pozulması, qeyri-əxlaqi davranışlara yol verilməsidir. Yaşadığı kollektivin norma olaraq qəbul etdiyi əxlaq qaydalarından və davranış modellərindən kənara çıxan şəxslərə deviant davranışlı şəxslər deyilir. Cəmiyyət içərisində bu tip davranışlar mənfi qəbul olunur. Pedaqoji-psixoloji ədəbiyyatlarda deviant davranışın antisosial, destruktiv və hüquqazidd tipləri fərqləndirilir.

Antisosial şəxsiyyət pozğunluğu fərdin sosial qaydalara, başqalarının hüquq və hisslərinə məhəl qoymaması ilə əlaqəli davranış tipidir. Bu cür pozğunluqlar uşaqlıq, yeniyetməlik dövründə üsyankar və aqressiv, qısqanc münasibət kimi özünü göstərə bilər. Belə insanlar başqalarına qarşı hörmətsiz davranır, tez-tez sosial qaydaları pozur, yalan danışır və zərər verdikləri halda, peşmançılıq hissi keçirmirlər.

"Destruktiv" sözü inglis dilindən tərcümədə məhv etmək, dağıtmaq deməkdir. Adından da göründüyü kimi, destruktiv tipə mənsub olan şəxslər dağıdıcı, zərərverici təsirə malik olsa da, bu zərər onların özlərinə yönəlmiş olur. Belə insanlar alkoqolizmə, narkomaniyaya qurşanır, bir çox hallarda intihara təşəbbüs edirlər.

Hüquqazidd davranış tipi hüquqi və mənəvi normaların pozulması nəticəsində cəmiyyət həyatında ciddi fəsadlara səbəb olur. Terrorizm, basqın, qarət, qətl və s. bu davranış tipinə aiddir.

Profilaktika məqsədyönlü, elmi cəhətdən əsaslandırılmış və vaxtında həyata keçirilən hərəkətlər məcmusudur. Deviant davranışlı məktəblilərin profilaktikası məktəb, ailə və digər tərbiyə təşkilatları ilə birlikdə aparılmalıdır. Təlim fəaliyyəti şagirdlərin birlik şüuruna sahib olmasında, dostluq, yoldaşlıq hisslərinin aşılanmasında böyük rola malikdir. Təlim şagirdləri yalnız bilik və bacarıqlarla silahlandırmaq deyil, həmçinin onların öz həmyaşıdları ilə bir yerdə olmaq, onlarla oynamaq, birgə ünsiyyət qurmaq vasitəsi kimi xüsusi önəm daşıyır. Digər tərəfdən, məktəblilərdə humanizm, vətənpərvərlik, dürüstlük, vicdanlı olmaq, insanlara hörmətlə yanaşmaq, məsuliyyət və s. kimi mənəvi keyfiyyətlər tərbiyə etməkdə, onlara yüksək hisslər aşılamaqda təlim əvəzsiz vasitədir.

Məktəbdə həm təlim prosesində, həm də dərsdənkənar fəaliyyətdə profilaktik işi həyata keçirmək mümkündür. Bu zaman sosial pedaqoqun, məktəb psixoloqunun rolu çox əhəmiyyətlidir. Onlar təlimdən geri qalan, asosial şagirdləri aşkarlayır, onlarla pedaqoji-psixoloji söhbətlər aparmalıdır.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, asudə vaxtlarının səmərəli təşkil olunmaması məktəbliləri risk qruplarına sürükləyən amillərdən biridir. Bu səbəbdən dərsdənkənar fəaliyyətin təşkili mühüm əhəmiyyətə malikdir. Dərsdənkənar tədbirlər həm şagirdləri mühitin mənfi təsirlərindən qoruyur, həm də deviant davranışı neytrallaşdırır. Belə ki, məktəb tədbirlərinə davranışında nöqsanları olan şagirdləri cəlb etməklə onların mühitə əlverişli adaptasiyasını təmin etmək olar.

Son dövrlərdə Azərbaycan gənclərinin asudə vaxtlarının səmərəli təşkil olunması ilə bağlı vacib addımlar atılmışdır. Prezident İlham Əliyev tərəfindən “Azərbaycan Gəncliyi Dövlət Proqramı” qəbul edilməsi nəticəsində Bakıda “Gənclər mərkəzi”, regionlarda isə “Gənclər Evi” inşa olunmuşdur. Məktəblilərin istirahət vaxtlarının səmərəli təşkilinə yönələn bu proqram onların milli-mənlik şüurunun inkişafında və vətənpərvərlik hisslərinin artmasında böyük təsir gücünə malikdir.

Məktəbin ailə ilə əməkdaşlığı olmazsa məktəblilərin deviant davranışının profilaktikası səmərəli nəticə verməyəcək. Bu prosesdə əsas məsuliyyət sinif rəhbərlərinin, məktəb psixoloqlarının və sosial pedaqoqların üzərinə düşür. Hər bir tədris ilinin əvvəlində sinif rəhbəri şagirdlərin ailələrinin tipini müəyyənləşdirməli, valideynlərin təhsil və mədəni səviyyəsini öyrənməli, ailədə mədəni mühiti təhlil edərək diaqnostikasını həyata keçirməlidir.

Ümumiyyətlə, valideynlərin maarifləndirilməsi profilaktika işinin əsasını təşkil edir. Belə ki, deviant davranış daha çox yeniyetməlik dövründə meydana çıxır. Bunun əsas səbəbi ondan ibarətdir ki, valideynlərin əksəriyyəti övladlarının keçid dövrləri haqqında yetərli bilgiyə sahib deyil və övladlarına qarşı necə rəftar sərgiləməli olduqlarını bilmirlər. Nəticədə təşkil edilmiş tərbiyə sistemi lazimi effekt göstərmir. Ailə fərdin həm fiziki, həm də mənəvi təməlini qoyur. Uşaqların dəyərlər sisteminin yaranmasında, sosiallaşmasında, dünyagörüşünün inkişafında, cəmiyyətə, vətənə, milli-mədəni irslərə münasibətinin formalaşmasında ailənin rolu olduqca böyükdür. Valideynlər təhsil sisteminin vacib subyektidir. Onların köməyi və iştirakı ilə ailənin təsirini müsbətə doğru dəyişmək olar.

İnsanın psixi və fiziki sağlamlığı birbaşa ailə ilə bağlıdır. Pedaqoji-psixoloji ədəbiyyatlarda ailə daxili ixtilaflar uşaqlarda olan nevrozların əsas səbəbi kimi qeyd olunur. Bu münaqişələr ailəni dağıtmaqla yanaşı, həm də uşaqda deviant davranışın yaranmasına səbəb olur. Digər tərəfdən sağlam ailə ətraf mühitin mənfi təsirlərini neytrallaşdırmaq gücünə sahibdir.

# UŞAQ QORXULARININ ÜMUMİ XARAKTERİSTİKASI

**Həsənquluzadə Ayşə Elçin qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Qorxu hər kəsin zaman-zaman yaşadığı və normal inkişafın bir parçası olan hisdir. Başqa sözlə qorxu, insanın görünən və görünməyən və ya real olan və olmayan təhlükələrə qarşı verdiyi təbii reaksiyadır. İnsanın yaşadığı xoşbəxtlik, sevinc, kədər, əzab kimi hislərlə yanaşı, qorxu hissini yaşaması da olduqca normal bir prosesdir. Qorxu hər hansı bir şəxslə, obyektlə və ya yaşanmış hadisə ilə əlaqədar ola bilər. İnsanda qorxunun yaranmasında onun keçmişdə yaşadığı təcrübələr, ətraf mühitin ona olan təsiri, həmçinin insanın həmin andakı psixoloji və fizioloji vəziyyəti olduqca böyük əhəmiyyət kəsb edir. Qorxu hissini yaşayan hər bir fərd ona özünəməxsus şəkildə reaksiya verir. Kimisi ağlayaraq, kimisi qışqıraraq, kimisi də qaçaraq bu hisdən yaxa qurtarmağa çalışır. Müşahidələrə əsasən müəyyən edilmişdir ki, əksər insanlar öz reaksiyalarını daha çox həyəcanlanmaq və narahat olmaq formasında ifadə edirlər. Belə ki, bu hissi yaşayan insanlar narahat olaraq həyəcanlana və nəticədə uyğunsuz davranışlar sərgiləyə bilərlər. Bu baxımdan qorxu hissi, insana mənfi yöndə təsir edərək onun gündəlik həyati fəaliyyətini məhdudlaşdıra və normal şəkildə yaşamasına əngəllər yarada bilər.

Qeyd etmiş olduğumuz bu hal həm böyüklər, həm də uşaqlar üçün keçərlidir. Belə ki, yetkinlik dövründə fobiyadan əziyyət çəkən insanlarla bağlı araşdırma aparıldıqda məlum olmuşdur ki, bu insanlar uşaqlıq dövründə olan zaman onların valideynləri və ya müəllimləri nizam-intizam yaratmaq və ya təhsil-tərbiyə prosesini həyata keçirmək üçün qorxudan bir vasitə kimi istifadə etmişlər. Nəticə olaraq, uşaqlıqda qorxu yaşayan bu insanlar yetkinlik dövrünə çatdıqda isə artıq fobiya ilə üz-üzə qalmışlar. Bu baxımdan istər valideynlərin, istərsə də tərbiyəçilərin uşaq qorxuları, onların xüsusiyyətləri, səbəbləri və vaxtında aradan qaldırılması yolları haqqında məlumatlı olması, gələcəkdə daha ciddi problemlərlə qarşı-qarşıya gəlməməkdə önəmli rol oynayır.

Uşaq qorxuları körpəlikdən yeniyetməlik dövrünə qədər müxtəlif formalarda və səviyyələrdə təzahür edə bilər. Əvvəla onu qeyd etmək lazımdır ki, yaşanan qorxu hissi uşağın həyatında məhdudiyyətlər yaratmadığı və onun azadlığını əlindən almadığı təqdirdə normal qəbul edilməlidir. Çünki qorxu, uşağın təhlükə anında varlığını qorumasına, mübarizə aparmasına kömək edən vacib bir hisdir. Uşaqlıq illərində bir çox qorxu növlərinə rast gəlmək olar. Ən çox rast gəlinən uşaqlıq qorxularından bir neçəsinə diqqət yetirək. Körpələrin təxminən səkkizinci ayından başlayaraq 1-1,5 il davam edən qorxularından biri yad adamlardan qorxmaqdır. Burada bilməli olduğumuz ən vacib məqam, uşaqlığın müəyyən dövrlərində müşahidə olunan bu tip qorxuların müəyyən müddətdən sonra tamamilə yox olmasıdır. Məsələn, 6 yaşında olan bir uşaq hələ də yad adamlardan qorxursa, bu zaman müvafiq mütəxəssisdən yardım almaq məqsədəuyğundur. Uşaqlıq qorxularının ən geniş yayılanlarından biri tək yatmaq qorxusudur. Tək yatmaq qorxusunun əsas səbəbləri uşağın körpəlikdən etibarən hər gün valideyni ilə yatmağa vərdiş etməsi və ya evdə yeni doğulmuş başqa bir uşaq varsa, onun anasının diqqətini daha çox cəlb etməyə çalışmasıdır.

Valideynlər belə hallarla rastlaşan zaman uşağın qorxusunu dinləməli, onun gündəlik həyatı ilə bağlı olub-olmadığını aydınlaşdırmalı, lazım gələrsə uşaq yatana qədər onun yanında qalacağını söyləməlidirlər. Bununla yanaşı, günlük rejimi düzgün təşkil etmək, uşağın yatma və ya oyanma saatlarını özündə əks etdirən cədvəlin qurulması faydalı ola bilər. Uşaqlıqda sıx şəkildə rast gəlinən qorxulardan biri də qaranlıq qorxusudur. Bir çox araşdırmaçıların qənaətinə görə, uşaqlarda tək yatmaq qorxusu əksər hallarda qaranlıq qorxusu ilə əlaqəlidir. Qaranlıq qorxusuna qalib gəlmək üçün uşaqla gecə gəzintisi edərək ona gündüz görünməyən Ay, ulduz kimi maraqlı şeylər göstərmək olar. Burada ən önəmli məqam uşağın qorxusunu ciddiyə almaq, canavarların, cinlərin, ruhların ona heçnə edə bilməyəcəyinə və ya görünməyəcəyinə uşağı inandırmaqdır.

Uşağın gördüyü qorxulu şeyləri valideynlərinə danışması və ya onun şəklini çəkməsi də qorxunu azaltmağa kömək edə bilər. Uşaqlıqda, xüsusən də 3-7 yaş aralığında müşahidə olunan digər qorxulardan biri də ölüm qorxusudur. Bu yaşda olan uşaqların ölüm qorxusu daha çox valideynlərindən birinin ölməsi və onu tərk etməsi ilə bağlıdır. Uşaqların əksəriyyəti ölümü keçici bir proses kimi başa düşür və ölənin nə vaxtsa geri qayıdacağına və ya onun mələk olub yaşadığına inanırlar. Ölüm qorxusu yaşayan uşaqlara bu prosesi izah edərkən, onu xəstəliklə, qocalıqla və ya uzun səfərlə əlaqələndirmək uşağa daha çox zərər verə bilər. Çünki onlar sevdiklərini belə vəziyyətlərdə gördükdə daha çox narahat olarlar. Ona görə də uşağa onun yaşına uyğun olan bir dildə hər kəsin bir gün öləcəyini və həyatının sona çatacağını başa salmaq olar. Qeyd etdiyimiz qorxularla yanaşı, həmçinin ayrılıq qorxusu, yüksəs səslərə qarşı olan qorxu, heyvanlara qarşı qorxu, məktəb qorxusu və s. kimi qorxular da uşaqlıqda ən çox rast gəlinən qorxu növləridir.

Uşaqlarda qorxunun ortaya çıxmasına bir sıra faktorlar təsir göstərə bilir. Onların ətrafında olan insanların, xüsusən də valideynlərin hadisələrə qarşı verdiyi reaksiyalar və sərgilədikləri davranışlar uşaqlara ciddi şəkildə təsir edir. Çünki uşaq yaşa dolub böyüdükcə ata və anasını daha diqqətlə müşahidə edir və onların hərəkətlərini təqlid etməyə başlayır. Bununla yanaşı, uşağın dostları, müəllimləri və ya digər insanların danışdığı qorxulu hadisələr, baxdığı və ya oxuduğu qorxulu hekayələr, televiziya verilişləri, komputer oyunları və s. qorxunun yaranmasında əsas mənbə ola bilər. Uşaqlarda qorxuların yaranmasının digər səbəbləri isə aşağıdakılar ola bilər:

1)Uşağın valideynlərinin və ya onları əvəz edə biləcək etibarlı şəxslərin olmaması, ata-anadan tez-tez və uzun müddət ayrı qalmaq;

2)Fiziki cəza ilə hədələnmək;

3)Tərk edilməklə bağlı hədələmələr; Məsələn, əgər sözümə baxmasan, dediklərimə əməl etməsən səni qoyub gedəcəm və ya sənin anan (atan) olmayacam.

4) Valideynlərin hər zaman uşağı günahlandırması, uşağın təhlükəli olması və ya valideynlərini incitməsi ilə bağlı şikayətlər etməsi; Məsələn, sən məni axırda öldürəcəksən və ya məni xəstə edəcəksən və s. kimi ifadələr.

5)Valideynlərin uşağa qarşı həddindən artıq qoruyucu mövqedən yanaşması. Məsələn, real və əsası olmayan bir təhlükə olmadığı halda belə "ehtiyatlı ol", "diqqətli ol", "qaçma, yıxılarsan", "əlimi buraxma" və s. kimi ifadələr işlətməsi uşaqlarda qorxu yaradan əsas faktorlardır.

Uşaq qorxuları çoxsaylı və rəngarəng olduğu üçün ona yanaşma yolları da müxtəlifdir. Bu baxımdan uşağı yaxşı müşahidə etmək, onu tanımaq və uyğun həll yolunu seçmək lazımdır. Hər şeydən əvvəl onu bilmək lazımdır ki, böyüklər üçün çox cüzi və qeyri-real görünən şeylər, əslində uşaqlar üçün kifayət qədər qorxulu və realdır. Uşağın yaşadığı qorxu hissini, narahatçılığını dinləmək, onu anlamaq və yaşadığı hislərə hörmət etmək lazımdır. Əgər uşaq qorxuları haqqında danışmaq istəmirsə və ya fikrini ifadə etməkdə çətinlik çəkirsə, onunla oyun oynamaq, rəsm çəkmək işə yaraya bilər. Bu zaman uşaq istər-istəməz narahatlığı haqqında vacib məqamları ifadə edəcəkdir. Uşaq yaşadığı qorxunu paylaşdıqda onun hislərinə şərik olmaq lazımdır. "Yəqin ki, çox qorxmusan", "Hər kəs belə qorxular yaşaya bilər" kimi ifadələr işlətmək uşağın rahatlamasına və onun yanında olduğunuzu hiss etməsinə kömək ola bilər. Əgər uşaq həddindən artıq həssas və narahat olmağa meyillidirsə, onu yaşayacağı boşanma, yeni uşağın doğulması, məktəbə başlama, bir yerdən başqa yerə köçmə kimi yeni vəziyyətlərə psixoloji cəhətdən əvvəlcədən hazırlamaq lazımdır.

Uşağın qorxularını aradan qaldırmaq üçün atıla biləcək səmərəli addımlardan digəri isə onu qorxuları ilə tədricən üz-üzə gətirməkdir. Məsələn, uşağın dənizə qarşı qorxusu varsa, bunu aradan qaldırmaq üçün onu əvvəlcə dəniz kənarına apararaq müxtəlif oyunlar oynamaq olar. Valideynlərin etdiyi ən böyük yanlışlardan biri qorxudan uşaqları itaətdə saxlamaq və ya nizam-intizam yaratmaq vasitəsi kimi istifadə etmələridir. Bu proses uşaqların qorxularının

daha da şiddətlənməsinə, hətta gələcəkdə fobiyaya çevrilməsinə səbəb ola bilər. Ona görə də belə məsələlərdə diqqətli olmaq lazımdır.

## HOSPİS XİDMƏTİNDƏ SOSİAL İŞİN ROLU: PSİXOSOSİAL DƏSTƏKDƏN AİLƏ MƏSLƏHƏTÇİLİYİNƏ QƏDƏR

**Həsənli Zülfiyyə Kamran qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Palliativ qayğının bir parçası olaraq sosial xidmətlərə daxil olan hospis xidməti son dönəmlərdə inkişaf etdirilməsi vacib olan sahələrdən birinə çevrilmişdir. Keçmişdən bu günə qədər müxtəlif əhali kateqoriyaları ilə çalışan sosial işçilər üçün hospis xidməti yeni bir sahə deyildir. Yeni olan bu sahənin sosial işçilər tərəfindən günümüzdə layiq olduğu dəyərin verilməsidir. Hospis - ömrü uzadan müalicəvi tədbirləri dayandırmağı seçən, ölümə yaxınlaşmış xəstələrin və ailə üzvlərinin baxımı üçün nəzərdə tutulan qayğı xidmətidir. Hospis qayğısına ehtiyacı olan xəstələr depressiya, qəzəb və narahatlıq da daxil olmaqla, həddindən artıq çətinliklərlə üzləşirlər. Hospis baxımı kədər və yas tutmanın əlavə emosional ağırlığını daşıyır və xəstəliyin simptomlarının idarə edilməsini əhatə edir. Bu səbəblərə görə hospis sosial işçilərinin iştirakı xəstələrə və ailələrə bir çox problemlərin öhdəsindən gəlməkdə, eləcə də onların baxımının planlaşdırılmasında köməkçi rol oynayır.

Hospis sosial işçilərinin əsas vəzifələrinə psixososial qiymətləndirmələrin aparılması, baxım koordinasiyasının formalaşdırılması, məsləhət və psixoterapiyanın təmin edilməsi, kliyentlərin böhran vəziyyətlərinə müdaxilə edilməsi, xəstələr və ailə üzvlərinin müalicə planı və mövcud resurslar haqqında maarifləndirilməsi daxildir.

Psixososial Qiymətləndirmələr

Hospis sosial işçiləri xəstələrin və onların ailə üzvlərinin psixoloji, emosional, mənəvi və sosial ehtiyaclarını müəyyən etmək məqsədi ilə onların psixososial qiymətləndirilməsini həyata keçirirlər. Psixososial qiymətləndirmə ömür sonu baxımına ehtiyacı olan şəxslər üçün effektiv qayğı planının hazırlanmasında önəmli rol oynayır. Bu qiymətləndirmələr vasitəsi ilə sosial işçi keçmiş və indiki tibbi vəziyyət(lər); əvvəlki və cari müalicə planları; xəstələrin fiziki sağlamlığına təsir edən psixoloji və emosional vəziyyətləri ilə bağlı məlumatları toplayır və təhlil edir. Qiymətləndirməni tamamladıqdan sonra sosial işçilər xəstələrə və onların ailə üzvlərinə lazım ola biləcək psixoloji və sosial dəstək üçün tövsiyələr yazır.

Baxım Koordinasiyası

Hospis sosial işçilərinin təqdim etdiyi ən mühüm xidmətlərdən biri də baxım koordinasiyasıdır. Sosial işçilər hospis xidməti göstərən peşəkarlardan ibarət komanda ilə əməkdaşlıq edərək ömür sonu baxımına ehtiyac duyan xəstələr üçün baxım koordinasiyasını formalaşdırır. Baxım koordinasiyası xəstələrə effektiv tibbi, psixoloji və sosial yardımın göstərilməsində əhəmiyyətli rol oynayır.

Məsləhət və Psixoterapiya

Hospis sosial işçiləri xəstəlik zamanı psixoloji və emosional çətinliklər yaşayan xəstələrə və onların ailə üzvlərinə emosional dəstək, məsləhət və psixoterapiya göstərirlər. Onlar xəstələrə öz düşüncələrini və emosiyalarını qiymətləndirmək və idarə etmək, davranış problemlərini aradan qaldırmaqda köməkçi olmaq üçün klinik sosial işdə istifadə olunan psixoterapiya üsullardan istifadə edə bilərlər. Bu üsullara stressin azaldılması üçün koqnitiv davranış terapiyası, dialektik davranış terapiyası, dəstəkləyici psixoterapiya, ekspressiv sənət terapiyası və hekayə terapiyası daxildir.

Böhrana Müdaxilə

Hospis sosial işçiləri xəstələrə və onların ailə üzvlərinə psixi, emosional, sosial böhranlardan əziyyət çəkdiyi təqdirdə təcili psixoloji dəstək verirlər. Böhranlar adətən fərdlərin sıxıntıya, çətinliyə salan hadisələr kimi müəyyən edilir. Bunlar zamanla dəyişilə və son nəticədə xəstədə travmaya və intihar düşüncəsinin formalaşmasına gətirib çıxara bilər.

Böhran zamanı sosial işçilər dərhal psixoloji dəstək və məsləhət verir, eyni zamanda xəstələrin sıxıntısını həll etmək üçün hospis xidmətində iştirak edən digər mütəxəssislərlə əməkdaşlıq edirlər.

Kliyentlərin Məlumatlandırılması

Hospis sosial işçiləri xəstələr və onların ailələrinə müalicə planı və hospis xidməti ilə bağlı prosesləri başa düşməkdə kömək edir. Mövcud situasiyaya kimi ölümlə üzləşməmiş və həyatının son dönəmlərində ediləcəklər ilə bağlı təcrübəsi olmayan kliyentləri məlumatlandırmaq da onların məsuliyyətləri arasındadır. Sosial işçilər tibb bacıları və ya həkimlərin köməyi ilə bu şəxslərə qərar qəbul etmə prosesində dəstək olurlar. Onlar həmçinin xəstələrə və ailələrə müvafiq resurslar ilə tanış olmağa və bu resursların onlar üçün əlçatan olmasına kömək edirlər.

Hal-hazırda hospis xidməti sahəsinin inkişafına və bu sahədə sosial işçilərin rolunun artırılmasına böyük ehtiyac vardır. Çünki sosial işçilər öz problemlərini ifadə etməkdə çətinlik çəkən həssas qruplar üçün bu prosesdə iştirak edirlər. Hospis sosial işçiləri hər bir xəstənin və ailənin təcili ehtiyaclarına əsaslanaraq yanaşmalarını dəyişdirərək bir gün ərzində bir çox rol oynayırlar. Bu prosesin hər addımında isə sosial işçilər kömək etmək üçün oradadırlar.

## MƏKTƏBƏQƏDƏR DÖVRDƏ MÜRƏKKƏB İNKİŞAF POZULMALARI OLAN UŞAQLARDA ÖZÜNƏQULLUQ VƏRDİŞLƏRİNİN FORMALAŞDIRILMASININ METOD VƏ ÜSULLARI

**Həsənov Zeynal Araz oğlu**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məktəbəqədər dövrdə özünəqulluq uşaqların ətrafdakı dünya ilə qarşılıqlı əlaqəsidir. Bu, yalnız reallığın duyğu təcəssümlərinin toplanması, həyat təcrübəsinin zənginləşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda müstəqil həyat üçün zəruri olan bacarıq və qabiliyyətlərin əldə edilməsi ilə də bağlıdır.

Xüsusi qayğıya ehtiyacı olan uşaqlarda özünəqulluq bacarıqlarını inkişaf etdirmək vəzifəsi uşaqların özləri və valideynləri üçün əsas vəzifədir. Bu iş özünəqulluq bacarıqları üzrə addım-addım təlimə əsaslanır. Addım-addım sistemin üstünlüyü ondadır ki, xüsusi ehtiyacı olan uşağa vaxtında və effektiv şəkildə müəyyən bacarıq aşılamağa imkan verir. Bu bacarıq normal inkişaf halında formalaşır. Bunun üçün uşağın bu bacarıq daxilində hər hansı bir hərəkəti müstəqil şəkildə icra edə biləcəyi səviyyə müəyyən edilir. Özünəqulluq bacarığının formalaşmasının əsas üsulları təqlid, nümayiş və izahdır. Bu zaman müəllim praktiki hərəkətlərini şərhlərlə müşayiət edir. Gələcəkdə uşaqların öz şifahi deyimlərini stimullaşdırmaqla bacarıqları gücləndirilməlidir. Bu, həyata keçirilən fəaliyyət metodu, formalaşmaq məharəti və ümumilikdə sağlam həyat tərzi haqqında ümumiləşdirilmiş fikirlərin formalaşmasına təkan verir.

Özünəqulluq bacarıqlarının inkişaf etdirilməsi metodları uşağın əmək tərbiyəsi işinin başlanğıc mərhələsidir. Əqli geriliyə malik olan uşaqlara özünəqulluq bacarıqlarının öyrədilməsi prosesi insan mərkəzli tərbiyə modellərini nəzərə alaraq həyata keçirilməlidir və onların özlərinəqulluq etməsi üçün real imkanlar yaratmaq məqsədi daşımalıdır. Uşaq, yetkin insanın təsiri altında öz qayğısını ustalıqla idarə etməkdə müvəffəqiyyətə nail olur. O, daha bacarıqlı olur, yetkin insandan daha müstəqil olur, bacarıqlarına əmin olur. Nəticə uşağın mövcud sapmalarının korreksiyası (həm əqli, həm də şəxsi) üçün əsas yaradır və onun sonrakı sosiallaşmasını təmin edir.

Əqli cəhətdən zəif olan kiçik yaşlı uşaqlarla işləyərkən əqli proseslərin inertiyası, təqdim olunan məlumatla uşağın cavabı arasında uzun müddət davam edən və tez-tez motor problemləri kimi tələffüz olunan dövrü nəzərə almaq zəruridir. Bu baxımdan bacarıqların formalaşması yavaş-yavaş həyata keçirilməlidir. Eyni hərəkətlərin çox sayda təkrarlanması ilə

düzgün mövqe seçmək vacibdir. Uşaqlara özünəqulluq bacarığını öyrədərkən hər bir uşağın fərdi tələbatlarını və qabiliyyətlərini nəzərə almalıyıq.

İlk növbədə qeyd etmək istərdik ki, özünəqulluq bacarıqlarının formalaşmasına yanaşma sistemli və vahid olmalıdır. Müəllimlər və valideynlər xüsusi fərdi inkişaf proqramı tərtib edərkən mədəni və gigiyenik bacarıqların və özünəqulluq bacarıqlarının formalaşması bölməsində ümumi məqsədləri birgə müəyyən edirlər. Korreksiya və inkişaf təlim prosesində iştirak edən bütün mütəxəssislərə həmin an hansı bacarıq və qabiliyyətlərə xüsusi diqqət yetirilməli olduğu və onların formalaşdırılması üçün konkret məşğələlərin (vasitələrin və s.) hansı vasitələrdən istifadə edilməsi barədə məlumat vermək vacibdir. Məktəbəqədər yaş dövründə özünəqulluq bacarığının inkişaf etdirilməsi prosesində istifadə etmək zəruridir: real əşyaların nümayişi (məsələn, sabun və ya bir şüşə maye sabun), illüstrativ və vizual materialın nümayişi (məsələn, əlləri yuyan qızın şəkli olan vərəq).

Təlimin praktiki metod və üsullarından istifadə olunmasına çox diqqət yetirilməlidir:

- məşğələlər praktiki hərəkətlərin çoxsaylı təkrarı kimi;
- əyani-effektiv nümayiş (hərəkət üsulunun) təlim metodu kimi;
- didaktik oyun;
- modelləşdirmənin vizual və tətbiqi metodu.

Məktəbəqədər dövrdə mürəkkəb inkişaf pozulmaları olan uşaqlarda özünəqulluq vərdişlərinin və mədəni-gigiyenik bacarıqları inkişaf etdirərkən nəzərə alınmalı olan metodik tövsiyələri aşağıdakı kimi qruplaşdırmaq olar:

- mütəxəssis və valideynlərin hərəkətlərinin qarşılıqlı əlaqəsi və koordinasiyası;
- “özünəqulluq bacarıqları və mədəni-gigiyenik bacarıqlar” bölməsində xüsusi fərdi inkişaf proqramının məzmununun komanda şəklində hazırlanması;
- bacarıqların formalaşmasının nəticələrinin qeydə alınması;
- arzu olunan bacarığın formalaşdırılması üçün hərəkəti təhlil edərkən "Kiçik addımlar"ın işlənməsi;
- aydın təlimatlardan istifadə;
- təbii şəraitdə özünəqulluq bacarığının və mədəni-gigiyenik bacarıqların formalaşdırılması, məişət əşyalarından istifadə edilməsi, müvafiq vaxtda;
- yardımçı avadanlıqların istifadəsi (ehtiyac olarsa).

Bütün bunlar qüsurun mürəkkəb quruluşuna malik uşağa sonrakı həyatında mümkün qədər özünə güvənməyə və müstəqil olmağa imkan verəcək.

Özünəqulluq bacarıqlarının formalaşdırılması ilə bağlı korreksiya və maarifləndirmə işlərinin əsas istiqamətləri:

- *Soyunma bacarığının formalaşması.* Soyunma bacarığının formalaşması uşaq üçün əlçatan olan ilk iş növüdür. Hər bir özünə qulluq bacarığı kimi, özünü geyinmək də uşağa özünü əmin və sərbəst hiss etməyə kömək edir. Soyunma prosesi üzərində işləməyə başlamazdan əvvəl uşağın sabit vəziyyətdə olmasına diqqət etmək lazımdır. Tarazlığı qorumaq üçün əlavə enerji sərf etməmək çox vacibdir. Əksər hallarda uşaqlar paltar geyinərkən ardıcıllığı bilmirlər və ya pozurlar. Bu halda tərbiyəçi onlara yol göstərməli və hərəkətləri düzgün ardıcıllıqla yerinə yetirməyə kömək etməlidir.
- *Qida mədəniyyəti bacarıqlarının formalaşması.* Uşaqlarda yeməyin səliqəli olması bacarıqlarını formalaşdırmaq zəruridir. Uşaqlara süfrə arxasında oturmağı və düzgün mövqe tutmalarını öyrədilməsi.
- *Mədəni və gigiyenik bacarıqların formalaşması.*Gigiyenik prosedurlar ciddi müəyyən olunmuş vaxtda dəfələrlə təkrarlanmalıdır: səhər, yeməkdən əvvəl, sonra, dərsdən sonra, axşam və s. Belə ki, hərəkətlər vərdiş halına gəlir. Özünəqulluq bacarıqlarını təkmilləşdirmək üçün məşğələlər təşkil edilir: “Dişlərinizi düzgün fırçalamaq”, “Dırnaqlar xüsusi qulluq əşyadır”, “Bədən gigiyenası”, “Təmiz corablar”, “Ayaqqabılara qulluq”, “Saçlara qulluq”.

- Ətraf mühitdə nizam-intizamın qorunması üçün bacarıqların formalaşdırılması. Uşaqlara evə qulluq etmək, evdə nizam-intizam yaratmaq və qorumaq üsullarını ustalıqla idarə edirlər. Ona görə də sizə şkafda səliqə ilə paltarlar düzüb,qonaq otağındakı oyuncaqları, dərs otaqlarında isə tədris ləvazimatlarını kənara qoymağı öyrədirik. Mümkün qədər sizə arxanızdakı çarpayını düzəltməyi, ayaqqabılarınızı yerinə qoymağı öyrədirik.
- Mədəni davranış və nəzakətli münasibətlərin bacarıqlarının formalaşması. Uşaqlara salamlaşmağı, böyüklər və həmyaşıdları ilə vidalaşmağı öyrədirik; xahiş, minnətdarlıq ifadə edən sözlərdən istifadə etmək, insanlara qarşı qayğıkeş münasibət, böyüklərlə yoldaş münasibətləri yaratmaq, bir-biri ilə ünsiyyəti təşviq etmək, başqa uşağın xahişi ilə yardım göstərmək; adı ilə həmsöhbətə müraciət edin, suallara cavab verin. Məsələn: "Tanışlıq", "İctimai yerlərdə davranış", "Biz teatrda", "Hədiyyə", "Qonaqların qəbulu", "Mağazada" və s.

Məktəbəqədər dövrdə mürəkkəb inkişaf pozulmaları olan uşaqlarda özünəqulluq vərdişlərinin formalaşdırılması üçün işin ön şərtlərindən biri uşaqlara ünvanlanmış böyüklərin müsbət emosional əhval-ruhiyyəsi, müəllimlərin öz fəaliyyətlərini səbrlə və kompetensiyalı təhlil etməyə hazır olmasıdır.

## İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN SOSİALLAŞMASINDA MÜƏLLIM ŞAGİRD ƏMƏKDAŞLIĞININ MƏZMUNU VƏ ƏHƏMİYYƏTI

**Həşimov Seymur Yaqub oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müəllim və şagird arasında münaqişələr adətən, sinifdən-sinfə keçdiyi zaman və onların yaş dövrləri ilə əlaqədar olaraq baş verir. Məsələn, 4-cü sinifdən 5-ci sinfə keçəndə yeni müəllimlərlə tanışlıq zamanı şagirdlərin psixologiyasında müəyyən dəyişikliklər olur. Birdən-birə onlar bir müəllimin əlindən çıxıb, bir neçə müəllimin qarşısında otururlar. Yeni müəllimlərlə tanışlıq onların özünəməxsus xarakterlərinin formalaşmasında mühüm rol oynasa da, ibtidai sinfi yenicə bitirmiş şagirdlər arasında çaşqınlıq yaradır. Bu sahədə onlara yeni təyin olunmuş sinif rəhbəri və məktəbin psixoloqu kömək etməlidir.

İlk vaxtlarda onların çoxu ağlayır, müəllimə öz şıltaqlıqlarını bildirir, bunun da həlli yolu ondan ibarətdir ki, uşaqlar məktəbə gəlməmişdən əvvəl mütləq məktəbəqədər müəssisələrə, yəni uşaq bağçalarına getməli, cəmiyyətin arasında özlərini necə aparmaq lazım olduqlarını öyrənməlidirlər.

Düzgün qurulmuş müəllim - şagird münasibətləri şagirdlərin təlim marağının artmasında mühüm vasitədir. Qarşılıqlı ünsiyyət şagirdlərin fəallığını artırır, kollektiv şəkildə işləməyə istiqamət verir. Müəllimdə bu tip keyfiyyətlərin olmaması təhsil sistemində şagird - müəllim problemlərinin yaranmasına gətirib çıxarır.

Müəllim və şagird arasında problemləri aradan qaldırmaq üçün bu təklifləri irəli sürürəm:

1. Müəllim yaxşı psixoloq olmalıdır. Pedaqoji məktəblərdə psixoloji treninqlər keçirilməlidir, hətta orta məktəbdə işləyən müəllimlər üçün də ara-sıra belə məşğələlər təşkil olunmalıdır.
2. Müəllim etik, estetik mədəniyyətə malik olmalıdır.
3. Müəllim hər bir şəxsə fərdi yanaşmağı bacarmalıdır.
4. Müəllim valideynlə sıx əlaqədə olmalıdır.

Müəllimin şagirddə mənfi cəhət axtarmayıb onun yaxşı cəhətlərini qabartmağa çalışması da müəllim-şagird əməkdaşlığında mühüm cəhətdir. Çünki şagirdin diqqətini müəllim həyata, işə pozitiv münasibəti, peşəkarlığı ilə cəlb edə bilməzsə bu, şagirddə müəllimə, fənnə qarşı laqeydlik yarada bilər və şagird müəllimi, onun fənnini sevməz. Belə halların olmaması üçün həmin şagirdlə müəllim arasında saziş bağlanması kimi iş üsulundan istifadə edir və bu, təcrübədə yaxşı nəticə verdiyi üçün onu həmkarlarıma da tövsiyə edirəm.

Bu sazişdə şagirdin dərslə, davranışla bağlı öhdəlikləri öz əksin tapır. Burada habelə hər hansı bir davranış pozuntusu ilə bağlı şagirdə veriləcək "cəza" da müəyyənləşdirilir. Sazişi şagird və müəllim imzalayırlar. "Saziş"də şagird söz verir ki, dərslərə gecikməyəcək, dərsdə yoldaşlarının fikrini yayındırmağa cəhd etməyəcək, kobudluğa yol verməyəcək və s. "Saziş"ə əsasən şərtlərə əməl etdiyi təqdirdə şagirdi valideyninin yazılı formada tərif alması, məsuliyyətli iş (tapşırıq) alması, həftə içi müəllimin köməkçisi olması gözləyir. Əks təqdirdə, yəni şərtlərə əməl etmədikdə isə şagirdin valideyninin məktəbə çağırılması, sinfin ictimai işində iştirak etməməsi, tərifdən kənarda qalması kimi vasitələrlə "cəzalandırılması" nəzərdə tutulur.

Zamanında bağlanmış belə saziş, aparılmış söhbət gələcəkdə konfliktin yaranmasının qarşısını alar. Belə saziş, söhbət şagirdlə aparıldıqda bu, şagird - müəllim münasibətində qarşılıqlı inam, hörmət kimi hisslərin qorunub saxlanmasına gətirər. Bu halda şagird müəllimlə ünsiyyətdə, münasibətdə özünü sıxılmış, "gözü kölgəli" hiss etmir.

Şagirdlər hər hansı tapşırığın həlli prosesində bir-birlərinə pedaqoji yardım edir, fərdi fəaliyyətdən birgə fəaliyyətə keçid alırlar. Şagird yalnız ona məxsus olan təbii imkanlara,xüsusiyyətlərə, fərdi qabiliyyətlərə və məqsədlərə malik olan, fəal və sərbəst hərəkət edən, qərarlar qəbul edən subyektiv yanaşma statusundan birgəfəallıq statusuna keçid alır və şəxsi mövqe nümayiş etdirir. «Cütlərlə iş» formasında müəllim və şagirdlərin müəyyən qaydada və rejimdə həyata keçirilən birgə fəaliyyətinin sosial-pedaqoji ifadəsi üzə çıxır.Sosial səbəblər və didaktik sistemlərin innovatik təhlili onu deməyə əsas verir ki, «cütlərlə iş» formasının düzgün qurulması və istifadəsi nəticəsində ciddi reqlamentə, sərt pedaqoji qaydalara əsaslanan standart dərslər tədricən öz yerini qeyri-standart dərslərlə əvəzləyir.Bu baxımdan, qarşılıqlı müzakirələrin ilkin fazasını təşkil edən «cütlərlə iş» forması istər sosial-pedaqoji, istərsə də mənəvi-psixoloji baxımdan bütün parametrlər üzrə təhsil işinin məqsədinə tam uyğun gələn təlim formalarından biridir. Şagirdlərlə cari verilən tapşırıqların müzakirəsindən başqa, ev tapşırıqlarının yerinə yetirilməsi və ya müzakirəsi barədə də qarşılıqlı məsləhətləşmələr və fikir mübadilələri aparılır.

Bu prosesdə əsas elementlər idraki təlim və real həyati problemlərin həlli ilə bağlı əməkdaşlığın əks etdirilməsi və tapşırıqların həlli zamanı mümkün metod və üsullardan istifadənin təmin olunması ilə bağlıdır. Cütlərin məzmun sahəsi üzrə düşünmə prosesinin sürətlənməsində interaktiv mühitin nümayiş etdirdiyi effektivlik onların təlimi və ünsiyyəti üçün sosial-pedaqoji ölçü rolunu oynayır. İki şagirdin qarşılıqlı, interaktiv şəkildə fəaliyyəti zamanı müxtəlif məzmunlu yanaşmalardan yaranan əsas çətinlik təlimə nəzarəti qarşı tərəfə doğru yönəldərkən əmələ gəlir Buradan belə bir qənaətə gəlmək olur ki, pedaqoji işin təşkili zamanı təlim məqsədləri birmənalı olaraq təhsilin məzmununun mənimsənilməsinə deyil, həm də situativ, interaktiv,perspektiv, şərti, ilkin və modern strukturda formalaşdırılmalıdır ki, şagirdlərin qarşılıqlı ünsiyyətinin davamlılığı üçün rəngarəng sosialpedaqoji mühit yaransın. Təlimin məqsədi düzgün və dəqiq normalar səviyyəsində seçildikdə şagirdlərin özlərinin hiss etdikləri tələbat və ehtiyaclara görə yeni və davamlı fəaliyyət forması yaranır. «Cütlərlə iş» formasında şagirdlər qarşılıqlı qiymətləndirmə və qarşılıqlı yoxlamalar keçirəndən sonra fəaliyyət məhsullarını müəllimə təqdim edirlər.

Təlimin mükəmməl forması kimi «cütlərlə iş» formasında iki şagird cütlər üçün müəyyənləşmiş tapşırığın həlli prosesində qarşılıqlı nəzarət və qiymətləndirməni həyata keçirir. Burada sosial-pedaqoji əhəmiyyəti ilə seçilən əsas məsələ nəzarətin və qiymətləndirmənin formal şəkildə olsa da, şagird tərəfindən həyata keçirilməsidir. Belə ki, şagirdlər öz aralarında nəzarət və qiymətləndirmə apardıqda həmyaşıdlar mühitində qarşılıqlı yoxlamanın sosial-pedaqoji missiyası həyata keçirilir. Məhz bu tendensiya şagirdin şəxsiyyətyönümlü istiqamətdə formalaşmasını xarakterizə edən mühüm elementdir. Burada həm də dərsə ayrılan akademik saata qənaət məsələsi də qorunur. Şagirdin nailiyyəti əvvəlcə sinif yoldaşı tərəfindən nəzərdən keçirilir, ilkin nəticə olaraq qiymətləndirilir və sonradan müəllimə təqdim olunur.

Şagirdin fəaliyyəti sinif yoldaşı tərəfindən səhv qiymətləndirilə bilər, buna baxmayaraq şagirdlərarası fikir mübadiləsinin aparılması vacibdir. Çünki qarşılıqlı fikir mübadiləsi nəticəsində şagirdlərdə tənqidi baxış və qiymətləndirmə vərdişi formalaşır və bu vərdiş əsasında şagird müstəqil olaraq öz nailiyyətlərinə tənqidi yanaşa bilir və ilkin qiymətləndirməni aparır. «Qruplarla iş». Pedaqoji ədəbiyyatda qeyd olunduğu kimi, «qruplarla iş» formasında şagirdlər müəyyən problemi həll etmək üçün üç və altı say tərkibində olmaqla müəyyən qruplarda birləşirlər. Bu şəraitdə onlar müzakirə etmə, fikir mübadiləsi aparma, mühakimə yürütmə və birgə fəaliyyət bacarıqlarını inkişaf etdirmə imkanlarını əldə edirlər. Məhz pedaqoji işin təşkilində əsas önəm şagirdin fəaliyyətinə verilir. Kurikulum sisteminin əsas prinsiplərindən biri də şagird nailiyyətinin qiymətləndirilməsi olduğu üçün burada şagirdin fəaliyyətinə geniş sosialpedaqoji zəmin yaradılmalıdır.

## ASOSİALLIQ ANLAYIŞI, SİMPTOMLARI VƏ SƏBƏBLƏRİ

**İbişli Fatim Qəribalı qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Hər bir kəs bioloji varlıq kimi dünyaya gəlir. Amma dünyaya gəldiyi andan etibarən sosial həyatın içinə daxil olmuş olur. Vaxt keçdikcə o da sosial həyata adaptasiya olmağa başlayır, sosiallaşmağa çalışır. Sosiallaşmaq anlayışını bir termin kimi ilk dəfə Emile Durkheim işlətmişdir. Onun fikrincə, sosiallaşma "yaşlıların gənc nəsli ictimai həyata uyğunlaşmağa alışdırması, sosiallaşdırması"dır. Bir sözlə sosial insan o insandır ki, o, cəmiyyətdə öz üzərinə düşən vəzifəni, öz rolunu dərk edir, hər kəs tərəfindən qəbul edilən qaydaları qəbul edir, digər insanlarla qarşılıqlı münasibətə daxil ola bilir.

Bəzən öz ətrafımızda elə insanları müşahidə edirik ki, onlar ünsiyyətə girməyi, insanlarla qaynayıb-qarışmağı, insanların çox olduqları yerlərdə olmağı xoşlamırlar. Özləri ilə tək qalmaqdan məmnun olurlar. Həmin şəxslər özləri yalnız qalmağı seçirlər. Bəzən isə hər hansı problem səbəbindən şəxsdə yalnızlığa meyl müşahidə edilir. Belə insanların özlərini tək hiss etmələri, sosial rollarını anlamamaları, özlərini təqdimetmədə çətinlik, sosial normaları qəbul etməmək kimi problemlərin varlığı şəxsin sosiallaşa bilməməsinin təzahürü hesab edilir. Bu şəxslər asosial şəxslərdir. Asosiallıq həmin insanların həyatlarında demək olar ki, hər bir istiqamətdə öz mənfi nəticələrini göstərir. Həmin insanlar dostluq əlaqələri qurmaqda, iş tapmaqda, insanlar qarşısında çıxış etməkdə, bəzən hətta ən yaxın insanlarla belə ünsiyyətə girməkdə problemlər yaşayırlar.

Asosiallıq- şəxsin cəmiyyətə uyğun şəkildə davranma qabiliyyətinə malik olmaması, həmçinin, qarşılıqlı münasibətlərdən qaçması kimi başa düşülür. Asosial şəxslərin ünsiyyət bacarıqları zəif olur. Bu səbəbdən də kiminləsə münasibətləri düzgün irəliləməyəndə özlərini günahkar hesab edirlər. Bu problem çox uzun müddət davam etdikdə fəsadları da çoxalır və həmin şəxs özünü daha kəskin şəkildə insanlardan təcrid edir. Elə buna görə də asosiallıq probleminin qarşısı tez alınmalıdır.

Asosial şəxslərdə ən çox müşahidə edilən davranışlar isə bunlardır:

- İzdihamlı yerlərdən uzaqlaşmaq istəyi
- Belə məkanlarda narahatlıq hiss etmək
- Başqaları ilə ünsiyyətə girməyə meylin olmaması
- Fəaliyyətlərində təkliyə üstünlük vermələri
- Ünsiyyəti başladan tərəf olmamaları və s.

Çox vaxt asosiallıq şəxsin seçimi deyil, onun mövcud olan digər bir probleminin nəticəsidir. Yəni, asosiallıq ikinci dərəcəli problem hesab edilir. Birinci dərəcəli problemlər isə şəxsin daxili problemləri, uşaqlıq dövründə valideynləri ilə münasibətin növü, travma sonrası stress pozuntusu, şizoid şəxsiyyət pozuntusu, depresiya və s. ola bilir.

Sosial bacarıqların formalaşmasına təsir edən ən önəmli faktorlardan biri valideynlərlə qurulmuş münasibətin tərzidir.Xüsusən də 0-6 yaş arasında qazanılmış bacarıq və davranışlar şəxsin sonrakı yaş dövrlərində də müşahidə edilir və dəyişdirilməsi olduqca çətin olur. Əgər körpəlik dövründən etibarən uşaqla düzgün qarşılıqlı əlaqədə olunarsa, göz təması qurularsa və ünsiyyətdə olunarsa, uşaqda sosial və emosional bacarıqlar lazımi səviyyədə inkişaf edər. Əks halda isə uşaq sosial əlaqələr qurma bacarıqlarından məhrum olar və yaş artdıqca bu problem dərinləşərək asosiallığa çevrilə bilər. Banduranın öyrənmə nəzəriyyəsinə əsasən də deyə bilərik ki, insanın davranışları ətraf mühitdən çox asılıdır. Onun fikrincə, uşaqlar öz sosial əlaqələrində təqlidə yol verirlər. Kiçik yaşlarda uşaqların daha çox valideynlərini təqlid etdiklərini nəzərə alsaq, deyə bilərik ki, həqiqətən də, uşaqların sosial inkişaflarında valideynlərin rolu danılmazdır.

Depresiya da sosial əlaqələrin qurulmasına mənfi təsir edən səbəblərdən biridir. Depresiya vəziyyətində olan şəxs özünü daim dərin kədər içərisində hiss edir, gələcəyə dair fikirləri bədbindir. Təbii haldır ki, bu cür hisslər keçirən bir şəxs ətrafı ilə əlaqələrində də məsafə saxlayacaqdır. Depresiyada olan insanlar təkliyə üstünlük verirlər. Belə insanlar üçün sosiallaşmaq olduqca çətindir. Sosial əlaqələrə olan meyl depresiya ilə tərs-mütənasib asılılıq təşkil edir. Bir şəxsin sosial əlaqələr qurmaq üçün motivasiyası yüksəkdirsə, ətrafında çox insan varsa, belə insanların depresiyaya düşmə faizi, asosial şəxslərə nisbətdə 2% azdır. Mütəxəssislər tərəfindən 550 universitet tələbəsi ilə aparılan bir araşdırmaya görə məlum edilib ki, ümumilikdə tələbələr təkliyə meyllidirlər, 56,2%-də depresiya təzahürləri müşahidə edilir. Deməli, depresiya asosiallığa, asosiallıq isə depresiyanın yaranmasına səbəb ola bilər.

Depresiya bütün yaşlarda müşahidə edilə bilər. Lakin yeniyetmə və gənclərdə daha çox rast gəlinir. Xüsusilə də ali məktəb tələbələrinin çox hissəsi təhsilləri üçün yeni bir həyata qədəm qoyur, tək yaşayır, fərqli mühitlərdə olurlar. Yeni şəraitə adaptasiya olmağa çalışmaq, yeni insanlarla münasibət qurmaq, akademik problemlər, gələcək haqqında düşüncələr tələbələrdə depresiya yaranmasına, beləliklə də, təkliyə meyl edərək, asosial şəxsə çevrilmələrinə səbəb ola bilir.

Şizoid şəxsiyyət pozuntusu da şəxslərdə asosiallığı yaradan səbəblərdən biri hesab edilir. Bu problemi olan şəxslər ətrafına qarşı laqeyd olur, yaxın münasibətlər qurmaqdan çəkinirlər. Asosiallıq Şizoid Şəxsiyyət Pozuntusu olan şəxsin seçimidir.

DSM V-də verilmiş şizoid şəxsiyyət pozuntusunun təzahürlərinə baxdıqda asosiallığın əlamətləri ilə üst-üstə düşdüyü görülür. Şizoid şəxsiyyət pozuntusu diaqnozu qoyula bilməsi üçün bu əlamətlərdən ən azı 4-ü şəxsdə müşahidə edilməlidir.

1. Yaxın münasibətlərdən həzz almamaq
2. Tək işləyə biləcəyi fəaliyyətlərə üstünlük vermək
3. Cinsi istəyin olmaması
4. Sevdiyi fəaliyyət sahələrinin az olması
5. Yaxın dostlarının olmaması
6. Kiminsə onlara münasibət bildirməsini xoşlamamaq
7. Emosional soyuqluq, insanlardan hər zaman uzaq qalmaq

Bu pozuntu asosiallığa səbəb olduğu üçün, həmin əlamətlər eynilə asosiallıqda da müşahidə edilir.

Müasir dövrümüzdə asosiallığa səbəb olan bir digər aktual problem isə internet asılılığıdır. Ən əsası da gənclər və universitet tələbələri üçün internetdən istifadə etmək qaçılmazdır. Bəzən isə bir çox gənc vaxtının çox hissəsini internetdən səmərəsiz istifadəyə həsr edir. Həyatlarının çox hissəsini sosial şəbəkələrdə, onlayn oyunlarda və s. keçirən gənclərin real həyatla əlaqələri zəifləyir. Beləliklə də gənclər arasında asosiallıq problemi kəskin surətdə artır.

Travma Sonrası Stres Pozuntusu da insanların asosiallaşmalarına böyük təsir edir. TSSP hər hansı mövcud vəziyyətə cavab olaraq yaranır. Araşdırmalara görə TSSP sosial əlaqələrdən qaçmağa da səbəb olur. Travmanı yaşayan şəxs yenidən o hadisəni xatırlayacağı yaxud

yaşayacağı düşüncəsi ilə ətraf insanlardan, məkanlardan uzaqlaşaraq, tək qalmağa meyl edirlər. Uzun müddət bu halın qarşısı alınmazsa şəxsin sosial meylsizliyi daha da dərinləşə və asosiallaşa bilər.

Göründüyü kimi asosiallıq bir neçə təməl problemin nəticəsi olaraq meydana çıxır. Qeyd ediliyi kimi uşaqlıq dövründə qazanılmış davranış və bacarıqlar hər zaman öz təsirini göstərir. Bu səbəbdən asosiallıq probleminin yaranmaması üçün də valideynlər diqqətli olmalıdırlar. Günümüzdə internet asılılığının geniş yayılması və asosiallığa təsirini nəzərə alsaq, xüsusən gənclərin ilk növbədə bu asılılıq problemindən qurtulmalarının vacib olduğunu deyə bilərik. Ümumiyyətlə, asosiallığın aradan qaldırılması çox önəmlidir. Çünki bu hal şəxsin bütün həyatına mənfi təsirlərini göstərir.

## SOSİAL XİDMƏT SAHƏSİNDƏ İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ƏHƏMİYYƏTİ

**İmanova Fidan Anar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnformasiya texnologiyaları informasiyanın saxlanması, işlənməsi və toplanmasında böyük dəyişikliklərə səbəb olmuşdur. Sənaye İnqilabının baş verdiyi Qərb sivilizasiyası getdikcə artan informasiya həcmi və sürətli inkişafı ilə informasiya texnologiyalarının yaranmasında aparıcı rol oynamışdır. Xüsusən 60-cı illərdən etibarən qlobal sosial dəyişikliklər vüsət alıb, informasiyaya ehtiyac və maraq artıb. Bu inkişaflar çərçivəsində resurs və xidmət sektorlarında məlumatın dəyəri artmışdır. Bunun nəticəsində yaranmış informasiya cəmiyyəti yuxarıda deyildiyi kimi, bu məlumatların toplanması, işlənməsi və saxlanmasını təmin edən sosial quruluşdan xəbər verir.

Yeni sosial düzən əsas texnologiyaların inkişafı ilə informasiya sektorunun, informasiya istehsalının, bilgi kapitalının və ixtisaslı insan faktorlarının əhəmiyyət kəsb etdiyi, təhsilin davamlılığının ön plana çıxdığı, elektron ticarət kimi yeni inkişafların ortaya çıxdığı bir quruluşdur. İnformasiya sahəsində baş verən inkişaflar insan məhsuldarlığının artması, elm və texnologiyada yeni nailiyyətlərin meydana çıxması ilə paralel olaraq iqtisadi inkişafın da artmasına şərait yaradır. Bu inkişaflar çərçivəsində siyasətlərin dəyişməsi qaçınılmazdır. Ölkələr öz mədəni quruluşları, siyasi mədəniyyətləri və hakim ideologiyaları çərçivəsində texnologiyanın verdiyi nemətlərdən bəhrələnirlər.

Sosial xidmət sahəsində informasiya kommunikasiya texnologiyalarının rolu çox geniş və əhəmiyyətlidir. İKT (informasiya və kommunikasiya texnologiyaları) vasitəsilə məlumatların paylaşılması, sosial xidmətlərin istifadəçilər tərəfindən daha asan və tez əldə edilməsi təmin edilir. Bu, insanların ehtiyaclarını daha effektiv şəkildə müəyyən etməyə, onlara məlumatı təmin etməyə və onların problemlərinə daha tez həll tapmağa kömək edir. Elektronik qeydiyyat sistemləri, məlumat bazaları, mobil əlavələr və online müraciət platformaları kimi texnologiyalar, xidmətlərin təşkilatında daha sürətli, dəqiq və effektiv proseslər təmin edir. Xidmətlərin effektivliyini qiymətləndirmək, ehtiyacları proaktiv şəkildə müəyyən etmək və xidmətləri istifadəçilərin ehtiyaclarına uyğun şəkildə tənzim etmək üçün məlumatları analiz etməyə imkan verir. Mobil əlavələr və online platformalar insanların hər hansı bir cihazdan və istədikləri vaxt sosial xidmətlərdən istifadə etməsini təmin edir. Bu, istifadəçilərə daha tez müraciət etmə imkanı verir və xidmətlərin daha da əlçatan olmasını təmin edir. Bu cür informasiya kommunikasiya texnologiyalarının tətbiqi sosial xidmətlərin daha effektiv və insan-mərkəzli olmasına kömək edir. Buna görə də bu texnologiyaların sosial xidmətlər sahəsində əhəmiyyəti dərin və artmaqdadır.

İnformasiya texnologiyaları informasiya əldə etmək, informasiyadan düzgün istifadə etmək, informasiyanı qiymətləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Dəqiq məlumat sayəsində tələb olunan məqsədlərə daha tez nail olur və məlumatlar aktual qalır. İKT müdaxilə prosesləri, qəbul edilən qərarlar, izlənilən üsullar və resursları bir araya gətirməkdə

fəal rol oynayır və prosesin uğurlu həyata keçməsinə kömək edir. Sosial xidmət sahəsi sürətlə inkişaf edən və dəyişən texnologiyanı yaxından izləməli, istifadə etməli və onun cəmiyyətə təsirlərini müşahidə etməlidir. Çünki inkişaf edən texnologiya ilə həyat sürətlənib və insanlara daha sürətli və effektiv xidmət göstərməyin yeni yolları kəşf edilir. Sosial işçilərin öz müştəriləri haqqında məlumat əldə edə və qeyd edə biləcəyi, ya da hazırladıqları hesabatları qeyd edib saxlaya biləcəyi və ya əvvəllər yazılmış hesabatlara baxa biləcəyi informasiya sisteminə malik olmaq, göstərilən xidmətləri və əməliyyatları asanlaşdırır və sürətləndirir.

Beləliklə, insanların informasiya texnologiyaları ilə əlaqəsinin artırılması və onlara daha asan çıxış, kompüter və internet kimi texnoloji məhsullardan istifadənin artırılması, sosial xidmətlər sahəsində informasiya texnologiyalarından istifadənin artırılması təklif olunan xidmətlər baxımından səmərəliliyi təmin edəcək. Bu səbəblə sosial xidmət sahəsində çalışanlar kompüter və internet istifadəsi baxımından fərdi inkişaf nümayiş etdirməli, informasiya texnologiyaları və media savadlılığına önəm verməlidirlər.

## İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ DİNLƏMƏ BACARIQLARININ İNKİŞAFININ XÜSUSİYYƏTLƏRİ

**Kərimzadə Banu Kərim qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Qavrama mürəkkəb psixi prosesdir. O, görülən və ya eşidilən şeylərin əksidir. Qavrama fəaliyyətlə ayrılmaz şəkildə bağlıdır və yalnız fəaliyyətdə fəal şəkildə inkişaf edir. Musiqi qavrayışı insanın musiqi məzmununu bədii şəkildə emosional olaraq yaşamaq qabiliyyətidir.

B.M.Teplov hesab edir ki, duyğular, hisslər və əhval-ruhiyyə musiqi təcrübəsində qavrayışa xasdır. Emosional məzmununu itirən musiqi sənət olmaqdan çıxır. Yalnız duyğuların ifadəsi ilə musiqi "fikir və obrazları" və ya "təbiət mənzərəsini" çatdıra bilər. Estetik emosiya vasitəsilə insan dünyanı dərk edir. Bədii tərbiyənin ən çətin vəzifələrindən biri ifadə vasitələri mürəkkəbləşdikcə qavrayışın emosional xarakterini qorumaqdır.

İbtidai məktəb çağında qavrayış qeyri-iradi olaraq fərqlənir. Tez-tez təbiətdə impulsiv olur, uşağın musiqinin səsinə kortəbii, ani motor reaksiyalarında ifadə edilir. Bu olduqca normal hesab olunur. Tədricən, musiqi ilə ünsiyyət təcrübəsi əldə edərək, uşaq musiqi əsərlərini daha mənalı qavramağı, xarakterini, ötürülən əhval-ruhiyyəni təyin etməyi, bunu musiqinin obrazı, proqram məzmunu ilə əlaqələndirməyi öyrənir.

Teplov musiqi fəaliyyətinin uğurlu həyata keçirilməsinə kömək edən əsas musiqi qabiliyyətlərini ayırır:

1. Modal hiss, melodiya səslərinin modal funksiyalarını emosional olaraq ayırd etmək bacarığı.
2. Eşitmə qabiliyyəti, yəni melodiyanın yüksəkliyini və ritmik hərəkətini əks etdirən eşitmə təsvirlərindən özbaşına istifadə etmək bacarığı. Bu qabiliyyət musiqi yaddaşının və musiqi təxəyyülünün əsas nüvəsini təşkil edir.
3. Musiqili-ritmik hiss, yəni musiqini aktiv (hərəkətli) təcrübədən keçirmək, ritmin musiqi ifadəliliyini hiss etmək və hərəkətlərdə sonuncunu dəqiq şəkildə təkrarlamaq bacarığı.

B.M.Teplov sübut etdi ki, musiqinin qavranılması motor reaksiyaları (səslər, kiçik barmaq hərəkətləri və s.) ilə müşayiət olunur. Buna görə də musiqi qavrayışının inkişafının təsirli üsullarından biri musiqinin təbiətini hərəkətdə çatdırmaqdır. Hərəkətin köməyi ilə uşaqlar üçün "şəklə daxil olmaq", musiqini "bütün bədənlə" hiss etmək, onun əhval-ruhiyyəsinə daha dərindən hopmaq asanlaşır. Sinifdə hərəkətlər üçün az yer olduğundan, onlar oturaraq və ya masaların yanında dayanaraq həyata keçirilə bilər; biz həmçinin ayrı-ayrı qrupları musiqi sədaları altında masa cərgələri boyunca hərəkət etməyə dəvət edə bilərik.

Qavrayışın əsas vəzifəsi uşağın musiqi və eşitmə təsvirlərinin formalaşmasıdır: təcrübə nə qədər dolğun və zəngin olarsa, qavrayış bir o qədər dərin olar. Musiqi və eşitmə təsvirlərinin toplanması musiqi hadisələrinin mahiyyətinə daha çox nüfuz etməyə kömək edir. Bu isə qavrayış zamanı musiqi dilinin əsas normalarının ilkin səviyyədə inkişafına gətirib çıxarır.

Musiqi qavrayışının I mərhələsi qeyri-müəyyənlik, bölünməzlik ilə fərqlənir - dinləyici musiqi obrazı haqqında yalnız ümumi təsəvvür əldə edir. Unutmaq olmaz ki, çox vaxt aşağı qavrayış uşağın dinlədiyi musiqiyə biganə qalmasına səbəb olur. Məktəblilərdə musiqi qavrayışının ilk mərhələsində yaranan obraz öz dərinliyinə görə qeyri-bərabər ola bilər. Lakin jestlərdə, mimikalarda, motor-plastik təzahürlərdə, eləcə də eşitdiyi musiqi, bir musiqi parçası haqqında düşüncələrdə ifadə olunan emosional reaksiya vasitəsilə bu musiqinin onda hansı hissləri oyandırdığını başa düşmək olar.

Musiqi qavrayışının II mərhələsi musiqi əsərinin bütövlükdə və ya fraqmentlərlə təkrar dinlənməsi ilə bağlıdır. Eyni zamanda, əsərin məzmununun dərinləşməsi, bir növ "incəlməsi", onu eşitmə və düşüncə ilə "hiss etməsi", içindəki ən diqqətçəkən cəhətlərin qabardılması, ayrı-ayrı musiqi ifadə vasitələrinin dərk edilməsi prosesi gedir. I mərhələ üçün xarakterik olan vahid qavrayış yerini differensial, analitik qavrayışa verir; uşaqlar eşitdiklərinin təbiətini və əhval-ruhiyyəsini olduqca dəqiq ifadə edə bilirlər. Qavrayışın bu mərhələsində müəllimin vəzifəsi uşağa mənalı olana münasibətini tapmağa kömək etməkdir. Qavrayışın II mərhələsində musiqi müəllimi şagirdləri bəstəkarın əsərin məzmununu necə, hansı ifadə vasitələrinin köməyi ilə çatdırdığını anlamaqla bağlı suala cavab axtarmağa dəvət edir.

Musiqi qavrayışının III mərhələsi əvvəllər yaranan musiqi və eşitmə ideyaları və assosiasiyaları ilə zənginləşdirilmiş musiqi kompozisiyasına təkrar müraciətdir. Qavrayışın III mərhələsində ilk dinləmə zamanı alınan musiqinin vahid emosional təəssüratı və musiqi ifadə vasitələrinin təhlili ilə əlaqəli mənalı qavrayış qarşılıqlı təsirə keçir. Məhz qavrayışın III mərhələsində musiqinin yaradıcı qavrayışı mümkün olur ki, bu da dinləyicinin əsərə fərdi münasibəti, onun şəxsi qiymətləndirilməsi ilə rənglənir.

Aşağıdakıları nəzərə almaq şərti ilə musiqi dərslərində kiçik yaşlı şagirdlərdə yaradıcılıq qabiliyyətlərinin inkişafı mümkün olacaqdır:

- kiçik yaşlı məktəblilərin yaradıcılıq fəallığını və yaradıcılıq potensialını artırmaq;
- müəyyən sistemdə yaradıcı iş növlərindən istifadə etmək.

Ümumtəhsil məktəbində təhsil prosesində kiçik məktəblilərdə dinləyicinin musiqi səriştəsinin inkişafı probleminin nəzəri tədqiqi onu estetik tərbiyəli şəxsin şəxsi keyfiyyəti kimi xarakterizə etməyə imkan verdi.

Musiqi dərslərində kiçik yaşlı şagirdlərdə dinləmə səriştəsinin inkişafında musiqinin mənasının dərk edilməsinin mahiyyəti və əhəmiyyəti açılır.

Musiqi tərbiyəsinin mövcud məzmunu və metodlarının təhlili göstərdi ki, ibtidai məktəb yaşında uşaqların qavrayışı qeyri-iradilik ilə xarakterizə olunur. Tez-tez təbiətdə impulsiv olur, uşağın musiqinin səsinə kortəbii, ani motor reaksiyalarında ifadə edilir.

Nəticədə:

1. Kiçik yaşlı məktəblilərin dinləmə musiqi səriştəsi inteqrativ çoxsəviyyəli şəxsiyyət xüsusiyyətidir, təhsil və asudə vaxtlarda qavranılan və ifa olunan musiqi vasitəsilə mənəvi zənginləşmə qabiliyyətində özünü göstərir və bir-birindən asılı olan bir sıra komponentləri ehtiva edir: motivasiya, emosiya, koqnitiv-intellektual, qiymətləndirici, fəaliyyət.
2. Kiçik yaşlı şagirdlərdə dinləyicinin musiqi səriştəsinin inkişafının səmərəliliyinə aşağıdakı şərtlər daxilində nail olunur: musiqi təhsilinin məzmununa musiqi təhsili kimi komponentlərin daxil edilməsi.
3. Həyat və ətraf aləm haqqında bədii bilik forması kimi musiqi sənətinin əhəmiyyətli mənəvi və semantik potensialı haqqında bilik;
4. Məktəblilər tərəfindən musiqi əsərlərinin mənasını dərk etmək yollarının inkişafı;

5. Hər bir sahənin ifadə vasitələrinin xüsusiyyətləri nəzərə alınmaqla, yeniyetmə subkulturasında aktual olan musiqi nümunələrindən bədii material kimi, onların klassik musiqi-pedaqoji repertuar və müasir akademik musiqi əsərləri ilə münasibətdə geniş istifadə edilməsi; musiqi sənəti;
6. Bir-birini zənginləşdirən metodlar kompleksinin həyata keçirilməsi:
7. Təlimin kommunikativ, yaradıcı və evristik formalarından istifadə:

## MƏKTƏB TƏLİMİNƏ HAZIRLIQ DÖVRÜNDƏ UŞAQLARIN ƏQLİ İNKİŞAFININ FORMALAŞMASI MƏSƏLƏLƏRİ

**Qasımova Cəvahir Rövşən qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Uşağın obyektiv və sosial dünya haqqında təsəvvürü əlaqəli və vahid olmalıdır. Uşağın xarici dünya ilə tanışlığı həyatının ilk anlarından başlayır. Uşaqlar həmişə olduğu məkandan asılı olmayaraq, təbiətin obyektləri və hadisələri ilə bu və ya digər şəkildə təmasda olurlar. Ümumiyyətlə, bizi əhatə edən dünya olduqca böyük və müxtəlifdir. Uşağı əhatə edən dünyaya daxildir: 1) insanların sosial dünyası, 2) bizi əhatə edən təbiət dünyası və 3) insanların yaratdığı əşyalar dünyası. Sadaladıqlarımı 3 qrupda adlandırmaq mümkündür. Birincisi, canlı təbiətdir. Buraya insanlarla ünsiyyət, canlı təbiətlə əlaqə aiddir. İkincisi, cansız təbiətdir. Buraya da yuxarıda qeyd etdiyim kimi insanların yaratdığı əşyalar dünyası aiddir. Uşaqların daima əlaqədə olduğu əşyalar, onlara rəftar və münasibəti buraya nümunə göstərə bilərəm. Üçüncüsü isə sonuncu qrup olan ictimai mühit buraya aiddir. Buraya baş verən təbii fəlakətlərlə taanışlıq, hava vəziyyəti, hər il davamlı olaraq təkrarlanan təbiət hadisələri, fəsillər və sair nümunə göstərə bilərəm. Uşaqların ətraf aləmlə tanışlıq prosesi məhz bu 3 istiqamət üzrə aparılmalıdır. Məhz bizi əhatə edən ətraf aləm bizim həm təlimimizə, tərbiyəmizə, hərtərəfli inkişafımıza, mövcud cəmiyyətdə mövqeyimizə, ən əsası bir şəxsiyyət kimi inkişafımıza böyük təsir göstərir.

Cəmiyyətin inkişafının indiki mərhələsində ətraf aləmi dərindən bilən, düzgün davranışını seçə bilən, sağlam həyat tərzi sürən, çərçivədən kənar düşünən, yaradıcı, yeni tip şəxsiyyət tələb olunur. Bu məqsədlə böyüməkdə olan uşaqların ətraf aləmlə tanış edilməsi məktəbəqədər təhsilin ən vacib mövzularından biridir. Uşaq dünyaya gəldiyi ilk andan etibarən hər şey uşağın diqqətini cəlb edir, onu təəccübləndirir. Uşağın əldə etdiyi məlumatın mücərrəd olmaması, özünü ətraf aləmin bir hissəsi kimi dərk etməsi olduqca vacibdir. Dünya yavaş-yavaş uşaqların həyatına daxil olmağa başlayır: əvvəlcə uşaq evdə, daha sonra uşaq bağçasında onu əhatə edən şeylərlə tanış olur, əlaqəyə girir, öyrənir və istifadə edir. Zaman keçdikcə həyat təcrübəsi zənginləşir.

Məktəb təliminə hazırlıq dövründə yalnız uşaq bağçasında keçirilən tərbiyə işi deyil, həm də təlim işi və ümumtəhsil məktəblərində keçirilən təlim və tərbiyə işi nəzərdə tutulur. Məktəbəqədər yaşlı uşaqlarda əqli, zehni, fiziki inkişaf sürətlə gedir. Uşaqlarda əqli inkişafın zəif olması və ya əqli inkişafın olmaması bəzi səbəblərdən ola bilər. Buna səbəb irsiyyət, genetik problemlər, sonradan aldığı travmalar və s. aid etmək olar. Normal uşaqlarla yanaşı, əqli problemi olan uşaqlar da vardır ki onlarda sosial inkişaf vərdişləri, ünsiyyət formaları, özünüidarə düzgün olmur. Əqli inkişafın çətinliyi yaş kateqoriyalarında özünü göstərir. Kiçik yaşlı uşaqlarda özünüidarə həm valideyn, həm də uşaq üçün daha çətin olur. Təbii ki, əqli problemin həllinə daha kiçik yaşlardan başlasalar da bu, həmişə gözlənilən effekt vermir. Belə uşaqların inkişafında və təhsilində yüksək pedaqoji ustalığa sahib tərbiyəçi-müəllimlərin rolu böyükdür. Əqli geriliyin çox ciddi xəstəlik olmasına baxmayaraq, zehni funksiyalarına görə zamanla cəmiyyətə uyğunlaşdırmaq və bəzi problemləri korreksiya etmək mümkündür. Əqli geriliyi olan uşaqların yaşıdları, sinif yoldaşları ilə davranışında problem yaranır. Bunun üçün tərbiyəçi-müəllimlər təlim formasını düzgün təşkil etməlidilər. Təlim-tərbiyə prosesində hər bir uşağa fərdi yanaşılır, onların emosional vəziyyəti, temperament tipi, maraqları və

potensial imkanları nəzərə alınır. Əqli geriliyin səviyyələri vardir. Aşagi (zəif) orta və yuksək (ağır) formaları vardir. Əqli geriliyin zəif və orta səviyyələrində uşaqlar müəyyən bilik və bacarıqlara yiyələnirlər. İnklüziv təhsil əqli geri olan zəif və orta səviyyəli uşaqların təlim–tərbiyəsini nəzərdə tutur.

Uşaqlarda əqli inkişaf hələ kiçik yaşlardan, hansı ki, ətraf aləmi gördüyü, tanıdığı vaxtdan, əşyaları, heyvanları ümumiyyətlə özünüdərk prosesindən başlayır. Bu zaman əsas iş valideynin üzərinə düşür. Valideyn uşaqla danışmalı, gördüklərini tanıtmalı, ətraf aləmi başa salmalıdır. Məktəbəqədər yaşlı uşaqlarda əqli inkişaf daha çox məktəb və bağçalarda formalaşır. Burada həm nəzəri, həm praktiki biliklər formalaşdırılır. Uşaqlarda ünsiyyət, davranış, sinif və ya qrupa adaptasiya, ən əsası isə öyrənmə kimi vərdişlər yaranır.

Əqli tərbiyə deyilən anlayış da vardır ki, yeni nəsli cəmiyyətin inkişafına uyğun formalaşdırmaq, eyni zamanda, uşaqlara mədəni, əxlaqi keyfiyyətləri aşılamaqdır. Əqli tərbiyənin əsas vəzifələrindən biri də təxəyyülün qayğısına qalmaqdır. Çünki uşağın formalaşmasında təxəyyülün rolu böyükdür. Bütün bunlar inkişafla birlikdə vacib rol oynayırlar.

Uşağa məktəbdə təhsil vermək daha çox tərbiyə məsələsi deyil, uşağın inkişafı məsələsidir. Uşağın təhsil müəssisəsində təhsil almağa hazır olması problemi məktəblərdə uşaqların kütləvi təhsil almağa başladığı andan ictimaiyyəti və elmi narahat edir. Məktəbə gələn uşaq nəyi bilməli, bacarmalı və nələrə sahib olmalıdır? Bağça müəllimi uşaq bağçasında uşağa və valideynlərə necə kömək edə bilər ki, məktəb səmərəli və zövqlü olsun. Bunlar ritorik suallar deyil, hər bir yeni nəsil uşaq və valideynlərin üzləşdiyi təcili suallardır.

Alimlər məktəb təliminə hazırlığın intellektual tərəfinin məzmununa böyük diqqət yetirirlər. Müxtəlif dərəcədə əhəmiyyət kəsb edən müxtəlif müəlliflər söz ehtiyatını (aktiv və passiv), idrak proseslərinin inkişafı (yaddaş, təxəyyül, qavrayış, təfəkkür); təhsil bacarıqları, öyrənmə bacarığı və s. məsələləri daima diqqət mərkəzində tuturlar. Bu, ümumiyyətlə, qavrayışın diferensiallaşdırılmasıdır ki, o da ətraf aləmin cisim və hadisələrini müşahidə etməyə kömək edir, materialın yadda saxlanması üsullarını, məkan və zamanda oriyentasiyanı və s. məsələləri müəyyən edir.

Çox vacib, əhəmiyyətli bir məsələ kimi öyrənməyə münasibət, təlim fəaliyyətinə maraq, bilik əldə etmək istəyi motivasiya göstəricisinin ən mühüm aspektləridir. Müstəqilliyin təzahürü - yeni və təəccüblü olan hər şeyi həll və izah etmək yollarını axtarmaq istəyi, fərqli yollardan istifadə etmək, fərqli həllər vermək və kənar yardım olmadan praktik fəaliyyətdə idarə etmək istəyi kimi qəbul edilə bilər.

Bu baxımdan uşağın əqli inkişafını formalaşdırmaq üçün motivasiya, müxtəlif oyunlar və s. mühümdür. Çünki bu zaman onun əqli inkişafı formalaşmış olur.

## MƏİŞƏTDƏ ZORAKILIQ VƏ ONA QARŞI MÜBARİZƏ YOLLARI

**Qasımova Fidan Aqil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məişət zorakılığı problemi bütün dünyada aktualdır. Azərbaycanda bu problem məişət zorakılığı halları ilə bağlı mədəni ənənələrin, sosial-iqtisadi şəraitin və sosial normaların mövcudluğu səbəbindən güclənir. Məişət zorakılığı həmişə ailə münasibətlərinin bir hissəsi olub. Zaman keçdikcə cəmiyyətin və dövlətin məişət zorakılığı təzahürlərinə qarşı münasibəti dəyişmişdir. Ötən əsrdən etibarən, məişət zorakılığı sosial problem kimi tanınmağa başlanmış və bu problemlə məşğul olan mütəxəssis və alimlər tərəfindən mənfi qiymətləndirilmişdir. Kütləvi informasiya vasitələrində məişət zorakılığı probleminə həsr olunmuş yazılar çıxmış, daha sonralar hər yerdə böhran mərkəzləri, qaynar xətlər, məişət zorakılığı qurbanları üçün sığınacaqlar yaranmağa başlanmışdır.

Rəsmi sənədlərdə və Azərbaycan cəmiyyətinin ictimai şüurunda məişət zorakılığı kobud fiziki güc tətbiqidir. Məişət zorakılığı ailə sistemi daxilində birgə yaşayan fiziki

şəxslər arasında baş verən şəxsiyyətlərarası zorakılığın bir növüdür. Məişət zorakılığı ər-arvad/partnyorlar arası qarşılıqlı münasibətlərdə özünəməxsus xüsusiyyətləri ilə fərqlənən bir zorakılıqdır. Ər-arvad, partnyorlar arasındakı münasibətlərdə zorakılığın hər dörd forması baş verə bilər: fiziki, psixoloji (o cümlədən emosional), cinsi və iqtisadi. Ailədaxili zorakılıq hallarının ortaya çıxmasına səbəb olan amillər müxtəlif ola bilər. Burada, narkomaniya və alkoqolizm, əsəb və psixi xəstəliklər, qısqanclıq, xəyanət və digər bu kimi amillər səbəb kimi göstərilə bilər.

Ailələrin dağılmasına, ailədaxili zorakılıq hallarının artmasına və hətta, dəhşətli ailə cinayətlərinin ortaya çıxmasına səbəb olan amillərdən ən başlıcası əsəb və psixi xəstəliklərdir. Bu xəstəliklər, bəzən özünü biruzə vermir və müəyyən məqamlarda fəallaşır. Evlənənlər ilk dövrlərdə bu kimi halları müşahidə etməyə də bilərlər. Lakin, ailə qurulduqdan sonra belə hallar üzə çıxır. Azərbaycanda bəzən qadına qarşı zorakılıq müəyyən adət-ənənələr üzərində qurulur. Belə ənənə tərbiyə prosesində nəsildən-nəslə ötürülür. Uşaqlıqdan ailədə qadına qarşı hörmətsizliyi, məişət zorakılığını görən oğlan uşaqları gələcəkdə bunu öz ailələrində tətbiq edirlər. Belə ailələrdə böyüyən qızlara gəlincə, ərə gedəndə bütün təhqirləri təbii qəbul edir və ömür boyu hörmətsizliyə dözürlər. Problemi həll etmək üçün cəmiyyət bu kimi hallara öz münasibətini dəyişməlidir. Valideynlər insan hüquqlarına hörməti təbliğ etməli, uşaqlara sevgi və hörmət aşılamalıdırlar. Oğlan uşaqlarının böyüdüyü ailələrdə valideynlər onlara başqalarının hüquqlarına hörmət etməyi öyrətməlidir.

Onu da qeyd etmək lazımdır ki,ailədə zorakılıq dövriyyəsi uşaqlar tərəfindən mənimsənilir. Psixoloji ədəbiyyat göstərir ki, “həyat yoldaşları arasında aqressiv münasibətlər uşaqların zorakılığın məqbul olduğunu öyrəndiyi bir model ya da başqa insanlarla münaqişələrin həlli üçün effektiv vasitə növü kimi nümunə ola bilər. Uşaqlar valideynlərinin münasibətlərində zorakı davranışlar görür və gələcəkdə öz münasibətlərində zorakılıq dövrünü təkrarlayırlar. Məhz, buna görə də ər-arvad/ partnyorluq münasibətlərində zorakılıq sosial-psixoloji xarakter daşıyır.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-ci ildə Azərbaycanda 1260 məişət zorakılığı faktı qeydə alınıb. Bu, 2019-cu illə müqayisədə 3,7 faiz azdır. Məişət zorakılığı qurbanlarının sayı da bir il əvvəlki ilə müqayisədə 4,3 faiz azalaraq 1300 nəfər təşkil edib. Onların 75,9 faizini qadınlar, 1,2 faizini yetkinlik yaşına çatmayanlar təşkil edir. Lakin bu cinayətlər nəticəsində ölənlərin sayı il ərzində 34,1 faiz artaraq 59 nəfər, o cümlədən 41 qadın olub. Ekspertlər yekdilliklə qeyd edirlər ki, rəsmi statistika aysberqin görünən hissəsidir. Real həyatda belə hadisələr dəfələrlə çox olur, çünki əksər hallarda cəmiyyətdə mövcud olan stereotiplər ucbatından zərərçəkənlər heç bir orqandan kömək istəmirlər.

2010-cu ildə Azərbaycanda “Məişət zorakılığı haqqında” qanun qəbul edilib. İlk illərdə bu sənədin effektivliyi aşağı olsa da, 2016-cı ildən Nazirlər Kabineti bu qanunun fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi üçün nəzərdə tutulmuş bir sıra tədbirlərə başlayıb. Azərbaycan Prezidenti 2020-ci ildə “Məişət zorakılığına qarşı mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı”nı təsdiq edib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən zorakılıqdan zərərçəkmişlərə dövlət yardım mərkəzləri yaradılıb. Dövlət yardım mərkəzləri tərəfindən göstərilən xidmətlər pulsuzdur. Azyaşlı qurbanlara yardım mərkəzində 3 aya qədər, digər qurbanlara isə 2 aya qədər sığınacaq verilir. Mövcud vəziyyəti dəyişmək üçün cəmiyyətin məişət zorakılığı probleminə münasibətinin dəyişdirilməsi üçün ciddi iş tələb olunur, habelə qanunvericilik bazasının dəyişdirilməsi istiqamətində iş aparılmalıdır, yəni:

- ictimaiyyətin diqqətini bu problemə cəlb etmək və vətəndaşların sosial məsuliyyətini yaratmaq məqsədilə məişət zorakılığı ilə mübarizə üzrə məlumat və təbliğat kampaniyası aparmaq;
- məişət zorakılığı qurbanlarının hüquqları, mövcud yardım xidmətləri və onun əldə edilməsi qaydası, o cümlədən məişət zorakılığı qurbanları üçün Azərbaycan böhran

mərkəzlərinin ünvanları haqqında məlumatlılığının artırılmasına yönəlmiş məlumat və maarifləndirmə kampaniyasının aparılması, müvəqqəti yaşayış yeri, psixoloji, hüquqi yardım və məişət zorakılığının qurbanı olan qadınlar üçün yardım xətti;

- zərərçəkmiş şəxsin zorakılıq törədən şəxsdən qorunmasını təmin etmək;
- daxili işlər orqanları əməkdaşları üçün məişət zorakılığı ilə bağlı şikayətlərə necə reaksiya verilməli olduğuna dair peşəkar təlim proqramları hazırlamaq və həyata keçirmək;
- ailə münasibətləri sferasında törədilən hüquqpozmaların səviyyəsinin azaldılması, o cümlədən məişət zorakılığının qarşısının alınması üzrə dövlət orqanlarının fəaliyyətinin hüquqi, iqtisadi, sosial və təşkilati əsaslarının müəyyən edilməsi istiqamətlərinin işlənib hazırlanması.

Təcrübə göstərir ki, bu problemi ancaq cəmiyyətin bütün təbəqələrinin səyləri cəlb olunduğu halda həll etmək olar. Üstəlik, beynəlxalq təşkilatların dəstəyi və digər ölkələrin təcrübəsi olmadan heç bir ölkə müstəqil şəkildə qadınlara qarşı zorakılığın öhdəsindən gələ bilməz.

## MƏKTƏBLİLƏRİN MUSİQİ TƏRBİYƏSİNƏ "KÜTLƏVİ MƏDƏNİYYƏT"İN ESTETİK – İDEOLOJİ TƏSİRİ

**Qasımova Qəmərxanım İskəndər qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan xalq musiqisinin bədii xəzinəsi nəhəngdir. Buna görə də bu gün musiqi pedaqogikasının ən mühüm problemlərindən biri ondan ibarətdir ki, musiqi-nəzəri fənlərdən hər biri mövcud ümumi proqramdan başqa milli dünyanı dərk etmə, dünyaya münasibət, mentalitet, üslub, musiqi dili xüsusiyyətləri ilə birbaşa bağlı olan əlavə xüsusi kurslara malik olsun.

Azərbaycan fəal şəkildə dünyaya inteqrasiya edir. Azarbaycan mədəniyyətinin qədimiliyini, zənginliyini, nadirliyini nəzərə alaraq, kontekst əhəmiyyatə malik bütün problemlər xüsusi aktualliq kəsb edir. Bu mənada an mühüm humanitar problemlərdən biri azərbaycançılıq adlanan anlayışın öyrənilməsi, xarakteristikası, əsaslandırılması problemidir.

Müasir dövrdə tədris va tərbiyə probleminin həlli kreativ qabiliyyətlərin inkişafı və təkmilləşfirilməsi ilə ayrılmaz şəkildə bağlıdır. Buna görə də yaradıcı qabiliyyətlərin inkişafına yönəlmiş musiqi pedaqogikasının əsasını özlüyündə təhsilin yaradıcı amili təşkil edir.

Musiqi pedaqogikasının ilkin vəzifəsi tələbələrdə yaradıcı başlanğıcı inkişaf etdirmək, yaradıcı sərbəstliyi formalaşdırmaq, onların şəxsiyystinin fərdi xüsusiyylərini üzə çıxarmaqdır. Bir fikri söyləmək kifayətdir ki, hazır şablonlar bəzən neqativ formalar alır. «Artıq məlum olan fikirləşməye məcbur etmir, hətta – şüurdan yan keçir. Biz gənclərə nə veririk: elmin əlifbasını, yoxsa bayağılığın əlifbasını? Tələbə üçün bu sual başqa bir forma alır: mühazirələrə getməyə dəyərmi? Əlbəttə, müəllimin lazımi yaradıcı işi və peşəkar səriştəsi olduqda, hətta mövcud tədris planları çərçivəsində nəzəri musiqinin hazır düsturlar"ın fasadı arxasında gizlənən daxili zənginliyini göstərmək olar. Lakin bu da kifayət etmir".

Müasir sosial, bədii, madəni prinsiplərlə səsləşən musiqi tərbiyəsi musigi-pedaqoji prosesin vacib tərkib hissəsidir.

Bu gün biz tələbələrin dünyagörüşünü ali maktəbdə və ya məktəbdə aldığ biliklərlə məhdudlaşdıra bilmərik. Musiqi-pedaqoji prosesdə yaradıcı göstərişlərin formalaşmasına şərait yaratmaq, onu istiqamətləndirmək- müasir pedaqogikanın aktual problemlərindən biridir. Musiqi pedaqogikasının qarşısında duran başlıca vəzifələr – tədris və yaradıcılıq prosesini birləşdirməkdir.

Azərbaycan musiqisinin qədim qanunauyğunluqlarının dərk edilməsi dərəcəsi bu gün professional hazırlığn ən mühüm komponentidir. Metarialın bütün həcminin geniş əhatə olunması heç də har zaman mütəxəssisi formalaşdırmır. Fikrimizcə, Azərbaycan musiqi sisteminin tərkib hissəsi olan spesifik va buna görə də qədim elementlərin öərənilməsi ilə bağlı seçmə daha mühümdür.

Bu gün Azərbaycan incəsənətinin, mədəniyyətinin milli səciyyəvi xüsusiyyətlərinin axtarışı ilə bağlı proseslər daha fəal həyata keçirilir. Ümummilli lider H.Əliyevin elan etdiyi azərbaycançılıq ideyası Azərbaycan musiqi pedaqogikasında da proqram rəhbərlik xarakter əldə etdi.

Musiqi təhsilinin məzmununun musiqi mentallığına aksentlarin gücləndirilməsi vasitəsilə dəyişməsi, şübhəsiz ki, Azərbaycanda musiqi pedaqogikasının əsas vəzifəsidir. Lakin Azərbaycan musiqisinin mükəmməlliyinin və əhatəliliyinin dərk edilməsi zərurəti və bu cür pedaqoji prosesin təşkil edil- məsində vərdişlərin olmaması arasında müəyyən ziddiyyətlər mövcuddur. Burada tələbələrin təfəkkür tipinin şübhəsiz ki, zəruri Ümumavropa savadından – milli savada, dünya musiqi praktikasında formalaşan obrazlı sistemdən – Azarbaycan sisteminə və s. keçirilməsi vacibdir. Xalq musiqi mədəniyyəti ilə bağlı fənlərin dəyişdirilməsi həm də yaradıcı məqamla - təhsil alanlarin bacarıqlarını və zövqünü formalaşdıran məqamla sıx əlaqədardır. Azərbaycanda musiqi pedaqogikasının inkişafının müasir mərhələsində pedaqoqun mükəmməl musiqi-bədii fəaliyyəti xalq mədəniyyətinin bütün komponentlərini özündə birləşdirən bütöv bir kompleks haqqında biliklərin mənimsənilməsi ilə sıx əlaqədardır. Buraya nəinki mədəniyyətimizin tarixi, həm də Azərbaycan mənəviyyatının mühim tərkib hissələri daxildir. Masələn, ayinlar, davranış etikası, mərasim mədəniyyətinin xüsusiyyətləri, təqvim bayramlarının spesifikası, xalq oyunları. kölgə və kukla teatrı, fala baxmalar, dini misteriyalar va s.

Milli bədii yaradıcılığı səciyyələndirən bütöv mədəni kompleksi bilmə və dərk etmə həm müasir musiqiçiyə, həm də vətəndaşa lazımdır. Bundan əlavə, burada milli musiqi ilə məşğul olma formalarına tərəf məlum «əyilmə» də zəruridir. Müxtəlif profilli musiqiçilər xalq musiqisini işıqlandıran nəzəri materialın mənimsənilməsinə müxtəlif cür, qeyri-bərabər yanaşır. Ayrı-ayrı qruplara bu dəyişik münasibəti nəzərə alaraq, daha da dəqiqlaşdirməyə dəyərdi. Lakin bizi məhz hər bir musiqiçiyə eyni dərəcədə lazım olan parametrlər maraqlandırır.

Gələcəyin təhsilinin məzmununun, deyildiyi kimi, məlumat sahəsinin genişləndirilməsi, musiqi mühitinin dərindən öyrənilməsi ilə sıx bağlıdır. Bu mənada da «kütləvi mədəniyyət» anlayışı problemli məsələdir. Qeyd etmək lazınmdır ki, «kütləvi mədəniyyət» musiqi tərbiyəsi ilə sıx əlaqadədir. O, çox geniş yayılıb və cəmiyyətimizin həyatında çox mühüm hadisədir. "Kütləvi mədəniyyətə" bu qədər güclü diqqəti onun ictimai şüura estetik-ideoloji təsiri ilə izah etmək olar. Bu təsir indi, elmi-texniki inqilab əsrində, mən deyərdim ki, "mənfi işarəli" kütləvi tabliğat və təşviqat vasitələrinin çox geniş yayılması sayəsinda son dərəcə çoxlu sayda neqativ elementlər qazanmışdır. Beləliklə, respublikamızda humanitar təhsil tarafindən kütləvi mədəniyyət" güclü diqqət yetirilməsi vacibdir, belə ki, "kütləvi mədəniyyət"ə insan mədəniyyətinin inkişafında qanunauyğun mərhələ kimi baxılır.

Ayrı sosial orqanizmin keyfiyyət xüsusiyyətləri bir çox halda müxtəlif növ alınmalardan, təsirlərdən və s. asılıdır. Mədəniyyət ayrı-ayrı sosial orqanizmlərin konkret-tarixi keyfiyyət spesifikasının xarakteristikası kimi translyasiyaya olduqca həssas cavab verir. Mədəniyyətlərarası qarşılıqlı əlaqə - nəinki ayrı-ayrı sosial orqanizmlərin inkişafının mümkünlüyü, həm də obyektiv qanunauyğunluqdur. Bu ümumsistem qanunauyğunluq həm də bədii şüur səviyyəsində təsir edir.

"Kütləvi madəniyyət" nəzəriyyəsi estetik ixtisasların tələbələrinin tədris planlarında və proqramlarında öz əksini tapmışdır. Yaranan vəziyyət səbəbindən incəsənət və qeyri-incəsənət arasındakı maneə, əslində ört-basdır edilir. Yaranan vəziyyətdən praktiki çıxış yolu yalnız " kütləvi mədəniyyət " fenomeninin izah edilməsinin vacibliyində deyil, həm də onun

neqativ tərəflərinin göstərilməsindədir. Əks halda, tədris materialının izahı zamanı bu cür yanaşma forma və məzmunca sadə əsərə haqq qazandırır və istehlakçı mahiyyətinə bəraət verilməsinə yönəldilir. Beləliklə, gələcək nəslin qavrayışında «kütləvi mədəniyyət» istehlakçısının meşşan şüurunun səviyyəsi əsl sənətlə bir araya sığmayan səviyyəyə qalxır.

Tədris zamanı tələbələrin «kütləvi mədəniyyət»in müasir nəzəriyyələri, qeyd olunanın təhlili və tənqidi ilə müxtəlif mövqelərdən tanıs olması zəruridir. «kütləvi mədəniyyət» ideologiyası bədii silsilə mütəxəssislərinin hazırlanması zamanı özlərinin nəinki estetik, həm də mənəvi-etik xarakterli, insana nəinki cürbəcür manipulyasiva obyekti, həm də subyekt və yaradıcı şəxsiyyət kimi  yanaşmaga qadir olan dayərlər sisteminin yaradılmasına da yönəldilməlidir.

Tahsil alanlarda milli aspektə marağın formalaşdırılması problemi üzrə pedaqoji ədəbiyyatın öyrənilməsi təsdiq edir ki, mentalitetə idraki maraq çox böyük sövqedici qüvvəyə malikdir, şüurlu biliyə yiyələnmə üçün zəmindir.

## YENİYETMƏLƏRLƏ SOSİAL İŞ ANLAYIŞI

**Qasımova Zəhra Qasım qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Sosial iş nədir?

Sosial iş sosial dəyişikliyi və cəmiyyətin birliyini təşviq etmək məqsədi daşıyan bir elm sahəsidir. Başqa sözlə, ehtiyacı olanlara kömək etməklə daha yaxşı bir cəmiyyət yaratmağa yönəlmiş bir sıra texnika və prosedurlardan ibarətdir. Bu səbəbdən, sosial iş çox fərqli qruplardan olan insanlara kömək etmək vəzifəsini daşıyır. Əslində, cəmiyyətə inteqrasiya oluna bilməyən və ya sosial təcrid riski altında olan hər kəslə. Bu səbəbdən sosial işlə məşğul olan insanların ətrafdakıların istəklərini müşahidə etmələri, dinləmələri və onlara diqqət yetirmələri vacibdir. Eyni şəkildə, hər bir insanın düşdüyü sosial-ailə vəziyyətini öyrənmək üçün müxtəlif sosial tədqiqatlar aparırlar. Bütün bunlar eyni məqsədlə: hər bir şəxs və hər bir hala müvafiq müdaxilə planı yaratmaq üçün həyata keçirilir. İctimai işlə məşğul olan şəxslərə sosial işçi deyilir. Gənc uşaqlar və yeniyetmələrlə sosial iş görən şəxslərə isə çox vaxt uşaq sosial işçiləri deyilir.

Yeniyetmələrlə sosial iş anlayışı nədir?

Yeniyetməlik mərhələsi bioloji, psixoloji və sosial amillərin qarşılıqlı təsiri ilə fərdin yetkin bir insanın vəzifələrini öhdəsinə götürmək üçün lazım olan bacarıq və tələbləri əldə etdiyi mühüm və mürəkkəb və mühüm bir inkişaf mərhələsini təmsil edir. Yeniyetmələrin bu yaş dövründə müxtəlif xarakterli ehtiyacları olur. Bu ehtiyaclara fiziki, emosional, psixoloji ehtiyacları nümunə kimi gətirmək olar.

Yeniyetmələrin fiziki ehtiyacları kimi xüsusi emosional ehtiyacları var və bunun fərqində olmaq onların başqa cür izaholunmaz davranışlarını başa düşülən edir. Bu davranışlar: yetkinləşməyə doğru irəliləmək üçün təhlükəsiz "təməllərə" sahib olmaq ehtiyacı, onlar üçün daimi yer olduğunu bilmək; yeniyetmənin özü üçün şəxsiyyətini inkişaf etdirə biləcəyi və öz təcrübələrini müstəqil şəkildə yaşayarkən özü üçün seçim etməkdə sərbəst hiss edə biləcəyi məhdudlaşdırmayan bir sistemin mövcud olması; başqalarına münasibətdə özünə və mövqeyinə əmin olmamaqdan qaynaqlanan əsas, "ekzistensial" iztirablar (bu dövr özünəinam hissinin aşağı olması ilə xarakterizə olunur). Bu mərhələnin mürəkkəbliyi yeniyetmələrlə, xüsusən də antisosial yeniyetmələr, əlilliyi olan və ya nevroloji/psixiatrik/davranış patologiyası olan uşaqlarla işləyən mütəxəssislərdən xüsusi bilik və bacarıqların mənimsənilməsini tələb edir.

Yeniyetmələrə müdaxilə hansı formada olmalıdır?

Uşaq böyüyüb yeniyetməlik dövrünə çatdıqdan sonra onun qayğıları və problemləri də böyüyür və problemlərin öhdəsindən gəlmək üçün sosial işçilər müxtəlif müdaxilə planlarının cızılmasını həyata keçirirlər. Məhz bu zaman, yəni yeniyetməlik yaş dövründə gənclərin çoxu yanlış yol alır (onlara uyğun olmayan davranışlar göstəririlər) və yaxşı davranışlardan

getdikcə uzaqlaşmağa başlayır. Həmişə yeniyetmələrin günahı olmasa belə (yeniyetmələrdə baş qaldıran bir çox problemlər çox zaman onların özlərindən asılı olmadan (ətraf mühit və cəmiyyətlə əlaqədar olaraq) və sırf yeniyetməlik dövrünün çətinliyindən irəli gələrək baş qaldırmış problemlər olur, qeyd olunduğu kimi bu problemlər onlarda qeyri-ixtiyari formada, psixologiyada, fiziki quruluşda baş verən dəyişikliklər nəticəsində yaranır. Yeniyetmələr fiziki görünüşlərində olan bəzi qüsurları özlüyündə böyük bir problem hesab edirlər və bu problemlər öz növbəsində onların psixologiyasında böyük psixoloji və emosional problemlərin yaranmasına gətirib çıxarır), sosial işçilər tərəfindən müdaxilə proseslərindən keçməli olan çoxlu gənclər var. Yeniyetməlik yaş dövründə bir çox yeniyetmələr aşağıdakı problemlərdən əziyyət çəkirlər:

- Emosional problemlər
- Davranış problemləri
- Narkomaniya

Bu və digər hallarda (yuxarıda qeyd olunan problemlər yeniyetmələr arasında daha sıx qarşılaşılan problemlər hesab olunurlar) sosial işçilər gənclərin bu vəziyyətlərə düşməsinə təsir edə biləcək aspektləri araşdırırlar. Yeniyetmələrin düşə biləcəyi bütün mühitləri bir çox aspektlərdən öyrənməyə çalışırlar. Nəticə nədən ibarətdir? Yeniyetmələrin özünə hörmətini artırmağa, özünü tanımağa təşviq etməyə və həmrəylik və ya empatiya kimi duyğuları tənzimləməyə imkan verən bir müdaxilə planı qurmaq imkanı yaradır.

## EŞİTMƏ MƏHDUDİYYƏTLİ UŞAQLARLA OYUN FƏALİYYƏTİ TƏLİMİNİN METOD VƏ ÜSULLARI

**Qaybalızadə Aytac Tapdıq qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Eşitmə məhdudiyyətli uşaqlara oyunların öyrədilməsi metodikası eşitmə məhdudiyyətli uşaqların oyun nümunələrinə əsaslanır, eşitmə məhdudiyyətli məktəbəqədər uşaqlara xas olan xüsusiyyətləri nəzərə alır [2, s. 19].

Kiçik məktəbəqədər yaşlı uşaqlarla işləyərkən oyunlara maraq, oynamağa həvəs, oyuncaqlarla obyektiv hərəkətləri öyrənmək, bəzi oyuncaqlarla yerinə yetirilən hərəkətləri başqa oyuncaqlara ötürməyi öyrətmək vacibdir. Bu mərhələdə gələcəkdə süjetli oyunlar üçün ilkin şərtlər qoyulur. Əksər hallarda, kar və zəif eşidən uşaqlar süjetli oyuncaqlarla necə oynamağı bilmir, ancaq manipulyasiya ilə məhdudlaşırlar, yəni oyuncaqları ora-bura fırladırlar, bir yerdən başqa yerə aparırlar, maşınları məqsədsiz şəkildə sürürlər və ya otaqda kukla ilə gəzirlər.

Oyunlar çox qısa xarakter daşıyır və tez bitir. Tərbiyəçi uşaqları oyuncaqları diqqətlə araşdırmağa, müqayisə etməyə, diqqət və yaddaşı inkişaf etdirməyə təşviq edir. Bu mərhələdə əsasən istifadə olunan oyuncaqlar: kuklalar, heyvan oyuncaqları (ayı, dovşan, it, pişik və s.) maşınlar, toplar, kublar, paltarlar, mebellər, kuklalar üçün qab-qacaqlar. Uşaqların gözü qarşısında bir neçə sadə süjet tədricən birləşir (kuklanı yedizdirib yatmağa qoyurlar, kukla yeməyini yeyib oturub televizora baxmağa və s.).

Tərbiyəçinin əvvəllər nümayiş etdirdiyi oyunlara uşaqların öz elementlərini qatmaları çox vacibdir. Gələcəkdə uşaqlara birlikdə oynamağı öyrətmək üçün onlarla cüt-cüt hərəkət etdiyi oyunları oynamaq məsləhətdir: topla oyunlar, iplə tullanma və s.

Süjetli oyuncaqlar ilə hərəkətlərin düzgün təşkilinin ən vacib şərti daimi olaraq nitqin istifadəsidir: bütün oyun vəziyyətləri nitqlə müşayiət olunur, oyuncaqların nümayişi və onlarla hərəkətlər zamanı hərəkətləri mənimsəmək üçün vacib olan bəzi sözlər və ifadələr ayrıca kartlarda yazılır və "oxunur" yəni, tərbiyəçi söyləyir (“Bu kukladır. Kuklaya yemək verin. Kukla yeyir”). Elə oyunlar təşkil olunur ki, burada uşaqlar kuklanın paltarlarını yuyur, kuklanı soyundurur və geyindirir, çimizdirir, ona yemək hazırlayır və s. Belə oyunlardan əvvəl müşahidələrlə yanaşı, şəkillərə baxmaq, uşaqlarla söhbət etmək, atributlarla tanışlıq da

keçirilir. Tərbiyəçinin hərəkətlərinin təqlidi metodik bir üsul kimi istifadə olunur: o, uşaqların sonradan oynayacaqları oyun hərəkətlərinin düzgün ardıcıllığını göstərir.

Eşitmə zəifliyi olan uşaqlara əvəzedici əşyalardan istifadə etməyi öyrətmək müəyyən ardıcıllıq tələb edir və uşağın oyununun inkişaf səviyyəsindən asılıdır. [1, s. 6]. Müəllim yalnız əvəzedicilərdən istifadə edərək oyunları öyrətməyə başlayanda, hərəkəti real obyektlə (daraq, sabun, termometr) nümayiş etdirir. Yalnız bundan sonra, bu obyekt olmadıqda, uyğun bir əşya tapılır və adı dəyişdirilir (məsələn, çubuq, karandaş və s. - bu daraq olacaq... Darağı itirmişik... Kuklanın saçını daramağa heç nə yoxdur. ...), və onunla hərəkət nümayiş etdirilir.

Oyunu qurmaq və zənginləşdirmək üçün başqa bir üsul rol oynayan davranışdır. Oyun qurmağın bu üsulu ilə süjetdəki əsas personaj uşağın xarakterik davranışını təqlid etdiyi, obyekt-oyun hərəkətlərini ona tabe edən xarakterdir. Oyunun inkişafının əvvəlki mərhələlərində rolun açıq şəkildə qəbulu yoxdur, bir sıra hərəkətlər təkrarlanır (qidalandırmaq, kukla müalicə etmək, ev tikmək və s.), Lakin rol əlaqəli hərəkətlərdə olur. süjet oyuncağı ilə. Oyun inkişaf etdikcə tərbiyəçi rolu bir sözlə adlandırır və təyin edir.

Yadda saxlamaq lazımdır ki, uşaqlar üçün bir rolun mənimsənilməsi müvafiq obyektlər və hekayə oyuncaqları ilə hərəkətlərlə əlaqələndirilir. Buna görə də, birincisi, müəyyən bir rolla əlaqəli oyuncaqların mövcudluğuna nəzarət etmək vacibdir, ikincisi, oyuncaqlarla hərəkətləri stimullaşdırmaqla, uşağın hansı rolu seçə biləcəyini təklif edin ("Sükan sizindir. Kim olacaqsınız? Sənsən? sürücü?"). Daha yaşlı məktəbəqədər yaşda oyunlar daha uzun olur, bir neçə həftə davam edir, dəyişir, yeni elementlərlə zənginləşir; Aktyorların və əks olunan hadisələrin dairəsi genişlənir. Bu mərhələdə süjet qurma üsullarına yiyələnmə baş verir. Çox vaxt uşaqlar “Bərbər”, “Şəhər”, “Həkimdə”, “Poçtda”, “Məktəb”, “Studiya” və s. kimi oyunlar oynayırlar. Bu oyunlar bir sıra süjetləri birləşdirir (məsələn, dərzilik , uşağın xəstəliyi, valideynlərin hərəkətləri, bərbərə getmək, mağazaya baş çəkmək və nənə üçün hədiyyə almaq, uşaq bağçasına gəlmək). Bütün uşaqlar bu cür kollektiv oyunlarda iştirak edirlər, çünki bu, nitq vasitələrinin diqqətlə seçilməsini və onların ilkin aydınlaşdırılmasını tələb edir.

Proqramda rollu oyunlarla yanaşı, dramatik oyunlar da var. Onları mənimsəmək nağıllarla tanışlıqla əlaqələndirilir: "Üç kiçik donuz", "Balaca Qırmızı papaq" və s. Bu cür oyunlara hazırlıq karlar müəlliminin iştirakını tələb edir, çünki nitq inkişafı dərsləri zamanı uşaqlar nağıl mətnləri ilə tanış olurlar. Əvvəlcə nağılın emosional izahı personajların və onların hərəkətlərinin nümayişi ilə həyata keçirilir (şəkillər, lentlər göstərmək, kukla teatrından istifadə etməklə);

Yol boyu tanış olmayan sözlərin mənaları aydınlaşdırılır, söhbət aparılır. Sonra nağılın süjeti uşaqlar tərəfindən oxunub təkrar danışılmaqla canlandırılır. Və yalnız nağıl bütün uşaqlar üçün başa düşüləndə, müəllim onu oyuna köçürür. Personajların hərəkətləri və onların ardıcıllığı açılır; geyimlər və oyun atributları seçilir, rollar təyin olunur.

Eşitmə qüsuru olan uşaqlarda təxəyyül inkişafında gecikmə olur, onlar yaradıcı bir rola girə bilmirlər. Eyni zamanda, uşaq canlandırdığı obrazın xarici xüsusiyyətlərini, hətta verilmiş rol üçün vacib olmayanları da mümkün qədər dəqiq çatdırmağa çalışır: yeriş tərzi, eynəyi çıxarmaq, adət etdiyi jestlər və s.

Oyun fəaliyyətinin gündəlik idarə olunması reallığa yaradıcı münasibətin formalaşmasına və təxəyyülün inkişafına kömək edir. Adekvat şərait yaratmaq və oyunun düzgün təşkili ilə korreksiya həm fərdi zehni funksiyalarda, həm də bütövlükdə uşağın şəxsiyyətində baş verir.

Ədəbiyyat

1.Выгодская Г. Л. Обучение глухих дошкольников сюжетно-ролевым играм. – М., Педагогика, 1975. – 112с.

2.Гозова А. П. Психология трудового обучения глухих. – М.: Педагогика, 1979. – 156с.

**SUMMARY**

The methodology of teaching games to hearing-impaired children is based on the game examples of hearing-impaired children, taking into account the characteristics of hearing-impaired preschool children. When working with small preschool children, it is important to develop interest in games, desire to play, learn objective actions with toys, and teach them to transfer actions performed with some toys to other toys. İn most cases, deaf and hard-of-hearing children do not know how to play with plot toys, but are limited to manipulation, that is, they move the toys around, move them from one place to another, drive cars aimlessly, or walk around the room with a doll. At this time, the teacher encourages children to carefully examine toys, compare them, develop attention and memory.

**Keywords:** hearing-impaired children, play activities, plot games, role-playing games, didactic games

## AİLƏDAXİLİ KONFLİKTLƏR VƏ YENİYETMƏ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINA ONUN TƏSİRİ

**Qədirova Nərgiz Rövşən qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ailə - həyatımızın həm ən çətin, həm də ən gözəl anlarını yaşayıb, bölüşdüyümüz mühitdir. Ailənin psixoloji mühiti ailədaxili münasibətlərdən asılıdır. Ailədaxili münasibətlərin müsbət xarakter daşıması, ailədə əlverişli psixoloji mühitin yaranması üçün ailə üzvlərinin hər zaman bir-birinə dəstək çıxması, çətin anlarda bir-birini anlaması və bir-birinin yanında olması vacibdir. Təəssüf ki, bu arzuolunan mühiti hər zaman qoruyub saxlamaq mümkün olmur. Bir-birinə dayaq olan, bütün çətinlikləri birlikdə aşmağa çalışan ailə üzvləri bəzən anlaşa bilmir, konfliktə girir və ailədə aqressiv, gərgin bir mühit yaranır. Bütün bu hallar ailədaxili konfliktləri əhəiyyətli bir mövzuya çevirir. Ailədaxili konfliktlər demək olar ki, bütün ailələrin üzləşdiyi bir problemdir. Bu cür konfliktlər ailə üzvləri arasında müxtəlif səbəblərdən baş verir: ailə üzvləri arasında ünsiyyət problemi, fərqli istək və arzuların olması, maliyyə problemləri, məsuliyyətin düzgün bölüşdürülməməsi, ailə üzvlərinin fərqli düşüncə tərzi, uşaqların tərbiyəsi zamanı yaranan ziddiyyətlər və s.

Ailə üzvləri arasında ünsiyyət problemi ilə bağlı konfliktlər. Bəzən yaranan problemlər ailədə açıq şəkildə müzakirə edilmir, hisslər və ya fikirlər düzgün ifadə edilmir, yaxud heç dilə gətirilmir, bu bəzən ailə üzvləri arasında yaranan utancaqlıqdan loru dildə desək “araya çəkilən pərdə”dən, qorxudan, çəkingənlikdən irəli gəlir. Bu cür hallar uzun müddət davam etdikdə və həll olunmadıqda ailədə konfliktlərin yaranması qaçılmaz olur.

Tərbiyə zamanı yaranan konfliktlər. Yeniyetməlik yaş dövründə uşaqlar çılğın olurlar, onlar səbirsiz, aqressiv olurlar, özlərinin artıq böyüdüyünü, bütün qərarları özlərinin verə biləcəyini düşünürlər. Müstəqil olmaq, sərbəst olmaq istəyirlər. Bu cür istəklər yeniyetməlik dövründə olan uşaqlarla valideynlər arasında konfliktlərə, anlaşılmazlıqlara yol açır. Belə ki övladlarının səhv addım atmasından ehtiyat edən valideynlər onlara qadağalar qoyur, sərt əmrlər verir, bir növ doğru yolu göstərməyə can atır. Həmin valideynlər ya uşaqlarının artıq yeniyetməlik yaş dövründə olduğunu anlamır, ya da yeniyetmələrdə baş qaldıran psixoloji dəyişiklikləri, onların emosiyalarını nəzərə almırlar Bu cür davranışlar isə yeniyetməni artıq özünün böyüdüyünü, uşaq olmadığını sübut etməyə məcbur edir.

Məsuliyyətin düzgün bölüşdürülməməsi. Ailədə məsuliyyətin vaxtında və düzgün bölüşdürülməsi ailədə əmin –amanlığın, rahatlığın, həmçinin hər bir ailə üzvünün öz məsuliyyətini dərk etməsinin əsasıdır.

Ailə qarşısında məsuliyyət hiss etmək, əsl kişilik əlamətidir. Bu məsuliyyət hissi ərdən tələb edir ki, o, yalnız özü üçün deyil, ailəsi üçün də yaşasın həyatın şirinliklərindən təkbaşına deyil, ailəsi ilə birlikdə bəhrələnsin. Təəssüf ki bu məsuliyyət hissini tərsinə başa düşən öz kişilik hüququndan sui-istifadə edən ərlər də az deyil. Onlar ailədə mənəmmənəmlik etməyi

ailəyə başçılıq etmək kimi başa düşür. Ənənəvi Azərbaycan ailələrində kişi ailə başçısı, ailəni maliyyə ilə təmin edən, ailəni idarə edən , qadın isə uşaqların tərbiyəsi ilə məşğul olan, uşaqları boya-başa çatdıran, ərinin və övladlarının qayğısını çəkən şəxs hesab olunur. Lakin belə ailələrdə bəzən qadınlar həddən artıq özünü ailəsinə həsr edir, bütün məsuliiyəti öz üzərinə götürür, uşaqlarının yerinə hər xırda işi belə özü görür, onların əşyalarını yığışdırır, böyük yaşlarında belə onları yedizdirir, pal-paltarlarını səliqəyə salır və i.a. Bu bir müddət belə davam edir. Lakin uşaqlar artıq yeniyetməlik və ya gənclik yaşına çatdıqda ana düşünür ki, bu işləri uşaq özü görməlidir. Uşağın qarşısına bir sıra tələblər qoyur. Təbii ki, birdən-birə ortaya çıxan bu tələblər yeniyetmə üçün gözlənilməz olur və yerinə yetirilmir. Birdən peyda olan bu öhdəliklərə əməl olunmaması ana ilə yeniyetmə arasında konfliktə, gərginliyə şərait yaradır. Halbu ki valideynlər kiçik yaşlarından doğru şərtlər altında öz övladının qarşısına yaşına və gücünə uyğun tələblər verərsə, bu onun şəxsiyyət kimi formalaşmasına və öz məsuliyyətini dərk etməsinə şərait yaradar. Müəyyən şərtlər əsasında verilən tələblər, o cümlədən uşağa tapşırılan və icrasına nəzarət edilən gücə uyğun vəzifələr onda məsuliyyət hissini artırır, öz hərəkətlərini tənzim etməkdə, iradə və xarakterini formalaşdırmaqda uşağa kömək edir. (1, səh 51)

Tez-tez ailədaxili münaqişələrin arasında qalamaq, və ya ailədaxili ünsiyyətin ümumiyyətlə yoxluğu yeniyetmələrdə aqressiya, autoaqressiya, depressiya və suisid kimi neqativ hallara səbəb olur. Yeniyetməlik dövründə aqresiya adətən öz həm yaşıdları ilə münasibətdə özünü göstərir. Həmçinin ailə qayğısından məhrum olmuş uşaqlar bütövlükdə həyata qarşı aqresiv hisslər bəsləyirlər. Sakit mühitli ailələrdə, daha yaxşı sosial şərtlərdə yaşayan uşaqlara qarşı paxıllıq və qısqanclıq hissləri meydana gəlir. Belə yeniyetmələrin digər yeniyetmələrdən ayrıca və ya onlarla birlikdə kollektivdə fəaliyyət göstərib göstərməməsinə dair müxtəlif fikirlər mövcuddur. Bəzi psixoloqların fikirincə belə yeniyetmələr eyni kollektivdə fəaliyyət göstərsələr və psixoloji dəstək də göstərilərsə, onlar arasında dostluq münasibətlari yarana bilər. Dirgər tərəfdən aqresiv yeniyetmələrin digər yeniyetmələrə mənfi psixoloji təsir edə biləcəkləri düşünülür. (5, səh 30-31) Yeniyetməlik yaş dövrü öz emosional qarışıqlıqları ilə çətin bir dövrdür. Belə bir dövrdə yeniyetmələrə ailə dəstəyinin olmaması onların vəziyyətini daha da çətinləşdirir.

Konliktli ailələrdə böyüyən yeniyetmələr üçün suisidal davranışlar də çox təsadüf edilən hallardandır. Çünki valideynlər arasında yaranan bu gərginliyi sezən yeniyetələr psixoloji sarsıntılar keçirir, bəzən özünü günahkar sayır, bu problemi həll etməli olduğunu lakin bacarmadığını düşünür. Bu zaman çıxılmaz vəziyyətdə olduğunu düşünən yeniyetmə intihara əl atır.

Suisidlərin ilk təsnifatlarından biri Emil Dürkheymə məxsusdur. O sosial faktorların rolunu əsas götürərək intiharın üç formasını ayırd etmişdir: eqoistik suisid- öz sosial qrupu ilə vəhdət hissini itirmiş və buna görədə ailəvi, dini, ictimai nəzarətə tabe olmayan şəxslər tərəfindən törədilir, anomik susid- sosial və siyasi dəyişikliklər dövründə cəmiyyətlə sosial inteqrasiyası pozulmuş şəxslərdə təsadüf edilir, altrustik suisid- öz həyatını sosial motivlər naminə qurban verən və bununla yüksək dərəcədə qrup identifikasiasına malik şəxslərdə təsadüf edir. Yeniyetmələrdə rast gəlinən əsasən sadə suisiddir ki, bu zaman yeniyetmə həyatla hesablaşdığını, diqqət çəkəcəyini, problemlərin həll olacağını düşünür.

Münaqişə yaşayan ailələr bəzən bunu uşaqlara hiss etdirmədiklərini, onları qoruduqlarını desələr də, münaqişələrin olduğu hər bir ailədə yeniyetmə uşaqların da mənfi nəticə ilə üzləşdiyi müəyyən olunmuşdur. Münaqişələr olan ailələrdə böyüyən yeniyetələrdə çəkinmə, qorxu, ünsiyyət problemi, məktəb həyatındakı uğursuzluq, ailəsi ilə bağlı sual verilməsindən çəkindikləri üçün məktəbə belə getmək istəməmək kimi davranışlar özünü göstərir. Ailədaxilində davamlı konfliktlərin baş verməsi ailədə pedaqoji və etik normalara riayət edilməməsi belə ailədə böyüyən uşaqların şəxsi keyfiyyələtinə mənfi təsir göstərir. Bu cür ailə mühitində tərbiyə alan yeniytmələri səciyyələndirən cəhətlərdən biri də onların məktəb mühitinə dərsə, təlimə marağının olmamasıdır. Normal fikirli uşaqların əksinə olaraq idrak

motivi, təhsil almaq motivi yoxdur. Belə uşaqlarda məcburiyyət motivi ön plana çıxır. Bundan isə neqavitizm, aqressiya qaynaqlanır. Bu yeniyetmələrin əksəriyyəti özünə məktəbdə və təhsil fəaliiyəti kollektivində yer tapmır, özünü belə mühitdə ifadə edə bilmir. Bunun nəticəsi olaraq isə uşaq kollektiv tərəfindən qəbul olunmur və digər kefiyyətsiz qruplara yönəlir. Hansı ki, bu qruplar mənfi təsirli küçə qruplarıdır. Qanunu pozan belə yeniyetmələr özlərini böyüklərin tənqidinə qarşı qoruyurlar. Belə uşaqların planları arzu və istəkləri cəmiyyət üçün təhlükəlidir.

## GƏNCLƏRDƏ ƏXLAQİ TƏRBİYƏNİN FORMALAŞDIRILMASINDA İNKİŞAF DİNAMİKASININ TƏDQİQİ

**Qəniyeva Şəfiqə Daşqın qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bəşər tarixi yaranandan bəri sürətlə dəyişir, inkişaf edir, bəşər övladı bir növ hər dəyişən əsrin bir öncəkindən nələrisə alıb dəyişir, özünə uyğunlaşdırır, qalanını isə tarixin tozlu səhifələrinə göndərir. Bura ən bəsit məişət əşyasından, geyimdən, texnologiyadan, təhsilə, əxlaq normalarına qədər bir çox şey aiddir. Hər hansı texnoloji avadanlığın yox olub, yenisi, müasiri ilə əvəzlənməsi cəmiyyətin xeyrinədir, lakin əxlaq normalarında bu belə deyil. Dünyanın sürətli inkişafı əxlaqi normaları yox edə bilməz, çünki bu, cəmiyyətin məhvi deməkdir. Əxlaq cəmiyyətin təməlidir. Bu təməli düzgün formalaşdırmaq isə hər bir insanın borcudur. Şekspirin də dediyi kimi heç bir miras əxlaq qədər dəyərli deyil. Əxlaq dəyəri toplumun məhvinin qarşısını alan ən önəmli vasitədir.[8] Müəllim, həkim, mühəndis toplumun firavan yaşamını təmin edir, lakin əxlaqi olmayan heç nə və heç kim cəmiyyətə fayda verə bilməz. Con.S.Milin də dediyi kimi əxlaqi hisslər doğuşdan deyil, sonradan qazanılır. Buna görə də kiçik yaşdan etibarən əxlaqi davranışları aşılamalıyıq ki, gənclik dövründə bu artıq dəyərə çevrilsin. Eyni zamanda hələ kiçik yaşlardan əxlaq tərbiyəsini formalaşdırmaq üçün biz müxtəlif yaş dövrlərinin xüsusiyyətlərini bilməli, ona əsasən uşaqları formalaşdırmağa çalışmalıyıq. Hələ gənclik dövründə əxlaq tərbiyəsini formalaşdırmaq üçün onun mərhələlərini və hər mərhələyə məxsus xüsusiyyətləri bilmək lazımdır. Gənclik dövrü öz növbəsində iki mərhələyə bölünür. Birinci mərhələ- ilkin gənclik dövrü 15-17 yaşı əhatə edir. İkinci mərhələ isə yetkin gənclik dövrüdür və 18-21 yaşı əhatə edir. Gənclik dövrünün hər iki mərhələsinə məxsus xüsusiyyətlər müxtəlif amillərin təsiri ilə formalaşır. Bu amillərə sosial, psixoseksual, bioloji, psixoloji amilləri aid edə bilərik. Bu amillər insanın bir şəxsiyyət kimi formalaşmasına əsaslı təsir göstərir. [5, s.263]

İnsanların bir şəxsiyyət kimi formalaşmasına bir sıra amillər təsir göstərir. Bu amilləri əsasən üç növə bölürlər: 1. İrsiyyət 2. Mühit, 3. Tərbiyə. Bu üç amilin şəxsiyyət inkişafında rolu danılmazdır. İrsiyyət dedikdə, valideynlər vasitəsilə övladlarına keçən xüsusiyyətlər nəzərdə tutulur. Mühit dedikdə, insanda ətraf mühitin təsiri ilə müxtəlif xüsusiyyətlərin formalaşması nəzərdə tutulur. Tərbiyə dedikdə isə, insanların tərbiyə prosesində qazandığı keyfiyyətlər nəzərdə tutulur. [8]

Müasir dövrdə gənclərin formalaşdırılmasında diqqət yetirilməsi lazım olan məsələlərdən biri də inkişafetdirici amillərin onların inkişafına olan təsiridir. Gənclərin inkişafına təsir göstərən amillər müxtəlifdir. İnkişafetdirici işlər kiçik yaşlardan etibarən uşaqlara tətbiq edilməlidir. Məktəb yaşı dövründə də müxtəlif inkişafetdirici işlərdən istifadə olunur. Bu inkişafetdirici işləri həyata keçirtmək üçün müxtəlif metodlardan istifadə olunur. Xüsusən də, məktəblərdə bu metodlardan istofadə olunur: nəql, aydınlaşdırma, öyüd-nəsihət, etik və estetik söhbət, disput, nümunə, çalışma, tələb, alışdırma, tapşırıq, rəğbətləndirmə, yarış, cəzalandırma, subyektiv-praqmatik metodları aid edə bilərik. Bu metodların həyata keçirilməsi mürəkkəb bir prosesdir. Buna görə də müəllimlər yüksək pedaqoji və əxlaqi keyfiyyətə sahib olmalıdırlar. İnkişafetdirici işin həyata keçirilməsində istifadə olunan

metodlardan biri də söhbət metodudur. Bu metodun tətibiqi zamanı söhbəti təşkil edən şəxs əvvəlcədən mövzunu seçməli, onun haqqında ətraflı məlumat toplamalı və prosesin təşkilində yaş dövrlərinin xüsusiyyətlərini nəzərə almalıdır.

Müasir dövrdə gənclərdə əxlaq tərbiyəsinin formalaşmasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən müxtəlif layihələr vardır ki, bu layihələrə "Məktəblinin dostu", "Gələcək üçün kod", "SABAH qrupları" və s. aid edə bilərik. Eyni zamanda gənclərin formalaşmasında Erasmus proqramının rolu böyükdür, bu proqram gənclərdə həm dünyagörüşün, həm də təhsil səviyyəsinin inkişafına kömək edir. Həmçinin gənclərdə əxlaq tərbiyəsinin formalaşmasında MEP də əhəmiyyət daşıyır. Elmi işdə həmçinin dünyanın müxtəlif ölkələrində əxlaq tərbiyəsinə yanaşma ələ alınmış, kurikulumun tətbiq edildiyi bir sıra ölkələrdə istifadə olunan MEP- Mənəvi Əxlaq Tərbiyəsi proqramı haqqında məlumat verilmişdir. Müxtəlif Avropa ölkələrində MEP birinci sinifdən on ikinci sinfə qədər tədris olunan və Azərbaycan Təhsil sistemində yer alan Təşkilat saatı dərsi kimi bir dərsdir. [9]

Gənclərdə əxlaqi tərbiyəsinin formalaşdırılmasının önəmindən, mahiyyətindən kifayət qədər danışdıq. Lakin ən mühimi bu prosesin necə icra olunacağıdır. Bəzən gənclər əxlaq, mentalitet adı altında müxtəlif tabulara, qısnamalara məruz qalır. Bu da onların doğru davranışlara belə qarşı çıxmalarına gətirib çıxarır. Çünki başqalarının çərçivəsindən çıxmanı onlara aşılanan hər şeyi rədd etməkdə görürlər. Doğrunun yanlış şəkildə öyrəndildiyi insan təbii ki, zamanla onu yanlışdan ayırd edə bilməyəcək. Yeniyetməlik dövründə başlayan sorğulama, üsyan doğru idarə edilməlidir. Belə bir latın atalar sözü var: -"Kimə görə doğru?". Məhz fərqli yaş qrupundan insanlar arasında çıxan anlaşmazlıqların əsas səbəbi budur. Əgər məqsəd əxlaqi dəyər fornalaşdırmaqdırsa, şəxsin psixoloji vəziyyəti, yaşadığı mühit, ailə vəziyyəti nəzərə alınmalıdır.

Mövzumun daha geniş formada araşdırmaq və dəqiq məlumatlar əldə etmək məqsədilə eksperiment keçirtdik. Eksperimenti həyata keçirtmək üçün "Nəzakət qaydalarina riayət edirsinizmi?" adlı ekperimental sorğudan istifadə etdik. Bu sorğu 9 sualdan ibarətdir və hər sualın 3 cavab variantı var. Sorğuda "a" variantının ballarının sayı çoxluq təşkil edən şəxslər nəzakət qaydalarına ciddi riayət edən insanlardır. Cəmiyyət tərəfindən müəyyən olunan qaydalara əməl edirlər. Sorğuda "b" variantlarının ballarının sayı çoxluq təşkil edən şəxslər nəzakət qaydalarına riayət edir, lakin bəzən nəzakət qaydalarına riayət etməklə bağlı problemlərlə qarşılaşırlar. "c" variantının ballarının sayı çoxluq təşkil edən şəxslər isə əsasən nəzakət qaydalarına əməl etməkdə çətinliklərlə qarşılaşırlar.

Eksperimental sorğunu Azərbaycan Dövlət Pedaqji Universitetində Təhsildə sosial-psixoloji xidmət ixtisası, üçüncü kurs tələbələri ilə keçirtdik. Sorğuda 18-19 yaş aralığında 41 nəfər iştirak edirdi. 41 nəfərdən 29-da "a" variantının ballarının sayı, 11-də "b" variantının, 1-də isə "c" variantının ballarının sayı üstünlük təşkil edirdi. Sorğuda "a" variantının ballarının sayı 220, "b" variantının ballarının sayı 134, "c" variantının ballarının sayı isə 15 olmuşdur. Buradan bu nəticəyə gəlirik ki, gənclərin böyük əksəriyyəti gündəlik həyatlarında nəzakət qaydalarına riayət edirlər. Onların az qismi nəzakət qaydalarına riaəy etsə də, bəzən bu qaydaları gerçəkləşdirmədə çətinliklərlə qarşılaşırlar. Sorğuda sadəcə bir nəfərdə "c" variantının ballarının sayı üstünlük təşkil etdi. Yəni nəzakət qaydalarına riayət etməkdə əsasən çətinliklərlə üzləşirlər.

Sorğu keçirtdiyimiz gənclərdə nəzakət qaydalarına əsasən riayət olunmasına baxmayaraq bu davranış normalarını onlarda daha da inkişaf etdirməliyik. Fikrimizcə, təhsil müəssisələrində Etikanın bir fənn kimi tədris olunması gələcək nəsillərin inkişafına gətirib çıxara bilər.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası: universitetlərin magistratura səviyyəsi üçün dərslik. Bakı: Mütərcim, 2013, 324 s.

2. Əliyev P.B. Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı;2023, ABU, Təhsil, 460s.
3. Məmmədli Y. Davranış və nəzakət qaydaları. Goranboy;2020, 42s.
4. Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya, Bakı;2014, 434s.
5. Vəliyev M.V. İnkişaf və yaş psixologiyası: universitetlərin psixologiya ixtisası üzrə təhsil alan tələbələri üçün dərs vəsaiti. B.: Elm, 2013, 297, s.
6. Vidadi Orucov, Müasir təhsilin mənəvi-əxlaqi aspektdə dəyərləndirilməsi Azərbaycan məktəbi, 2019, No 2, s 87
7. Zeynaloğlu C. Təlim fəaliyyətinin psixoloji prosesi. Metodik tövsiyələr //.Bakı: Print-S, 2017, 144 s.
8. https://erasmus-plus.ec.europa.eu/
9. https://aztehsil.com/psixoloq/311-xlaq-trbiysinin-mahiyyti-v-mzmunu.html
10. https://edu.gov.az/az/programmes

## XÜLASƏ

Məqalədə əxlaq tərbiyəsinin mənimsənilməsi zamanı göstərilən davranışların və aparılan işin psixoloji əsasları açılır. Tədqiqatın obyekti olan gənclərin bu məsələlərə münasibətindəki əsas məqamların səbəblərinə diqqət yetirilir. Əxlaq cəmiyyətdəki davranış normalarını tənzimləyən qaydalar toplusudur. Necə ki, cəmiyyətlərin yaşamı, mövcudiyyəti, adət-ənənələri bir-birindən fərqlənir, eləcə də davranış normaları və onların aşılanma üsulları da fərqlənir. Elmi işdə həmçinin dünyanın müxtəlif ölkələrində əxlaq tərbiyəsinə yanaşma ələ alınmış, kurikulumun tətbiq edildiyi bir sıra Avropa ölkələrdə istifadə olunan MEP- Mənəvi Əxlaq Tərbiyəsi proqramı haqqında məlumat verilmişdir. Avropa ölkələrində MEP birinci sinifdən on ikinci sinfə qədər tədris olunan və Azərbaycan Təhsil sistemində yer alan Təşkilat saatı dərsi kimi bir dərsdir.

Azərbaycan Dövlət Pedaqoji Universiteti "Təhsildə sosial-psixoloji xidmət ixtisası", 3-cü kurs tələbələri arasında apardığım sorğuya əsasən gənclərdə nəzakət və əxlaq qaydalarının nə dərəcədə mənimsənilməsi barədə nəticələr əldə etdik. Nəticələrə əsasən gənclərin bir çoxu gündəlik həyatlarında müxtəlif nəzakət qaydalarına riayət edirlər, bəzi gənclərdə isə bu, belə deyil. Biz bu göstəriciləri nəzərə alaraq gənclərin yüksək əxlaqi xüsusiyyətlərə yiyələnməsi üçün çalışmalıyıq.

***Açar sözlər:*** *gənclik dövrü, tərbiyə, əxlaq, inkişaf, amillər, yaş xüsusiyyətləri, nəzakət qaydaları*

## SUMMARY

This article reveals the psychological basis of behavior and engagement in acquiring moral education. Attention is paid to the reasons for the most important points in the attitude of the studied young people towards these topics. Morality is a set of rules that regulate the norms of behavior in society. Just as societies differ in their lives, existence, and traditions, so do their codes of conduct and the way they are communicated. This scientific study examined approaches to moral education in different countries of the world and provided information about his MEP-Moral moral education program, which is used in many European countries where the curriculum is applied . In European countries, MEP is taught from grades 1 to 12 and is part of Azerbaijan's education system.

According to a survey I conducted among third-year students at the Azerbaijan State Pedagogical University "Educational Specialized Social Psychology Service", results were obtained regarding the extent to which young people have mastered the rules of etiquette and morality. The results show that while most young people observe various rules of politeness in their daily lives, some young people do not. Based on these indicators, efforts should be made to ensure high moral standards among young people.

***Key words:*** *youth period, upbringing, morality, development, age characteristics*

**РЕЗЮМЕ**

В данной статье раскрываются психологические основы поведения и участия в приобретении нравственного воспитания. Уделяется внимание причинам наиболее важных моментов в отношении исследуемой молодежи к данным темам. Мораль – это совокупность правил, регулирующих нормы поведения в обществе. Точно так же, как общества различаются по своей жизни, существованию и традициям, так же различаются и их кодексы поведения и способы их распространения. В этом научном исследовании были рассмотрены подходы к нравственному воспитанию в разных странах мира и предоставлена информация о программе морального воспитания MEP-Moral, используемой во многих европейских странах, где применяется учебная программа. В европейских странах MEP преподается с 1 по 12 классы и является частью системы образования Азербайджана.

По данным опроса, проведенного мной среди студентов третьего курса Азербайджанского государственного педагогического университета «Педагогическая специализированная служба социальной психологии», были получены результаты относительно того, насколько молодые люди усвоили правила этикета и морали. Результаты показывают, что большинство молодых людей соблюдают различные правила вежливости в повседневной жизни, но некоторые этого не делают. На основе этих показателей необходимо предпринять усилия по обеспечению высоких моральных качеств среди молодежи.

***Ключевые слова:*** *юношеский период, воспитание, нравственность, развитие, возрастные особенности.*

## TƏHSİLDƏ PSİXOLOJİ XİDMƏTİN ƏSASLARI

**Quliyeva Nərmin Qadir qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Şagirdlərin psixi sağlamlığı üçün psixoloji təhsil xidmətinin əhəmiyyətini qiymətləndirmək vacibdir, çünki, hər bir uşağın əqli və fərdi inkişafının vaxtında və tam təmin edilməsində əsas rol oynayır. Bu məqsədə çatmaq üçün şagirdlərin inkişafının müxtəlif mərhələlərində müxtəlif yaşlarda olan şagirdlərlə mütəxəssislərin birgə işini nəzərdə tutan davamlı psixoloji yardım göstərmək lazımdır.

Təhsildə psixoloji xidmətin əsas vəzifələrinə aşağıdakılar daxildir:

1. Bütün yaş qruplarında inkişaf imkanlarının təyini: Psixoloji xidmət müxtəlif yaşlarda olan uşaqların spesifik inkişafını nəzərə almalı və onların potensialını reallaşdırmaq üçün fəal işləməlidir.
2. Fərdi xüsusiyyətlərin inkişafı: Peşəkarlar şagirdlərə öz unikal maraqlarını, qabiliyyətlərini və meyllərini kəşf etməyə və inkişaf etdirməyə kömək etməlidirlər.
3. Münbit psixoloji mühitin yaradılması: Buraya şagirdlərlə məhsuldar ünsiyyətin təşkili daxildir.
4. Vaxtında psixoloji yardım və dəstəyin göstərilməsi: Psixoloji xidmət şagirdlərə, onların valideynlərinə, pedaqoqlara və lazım gəldikdə müəllimlərə yardım göstərməyə hazır olmalıdır.

Bu məqsədlərə çatmağın əsas vasitəsi hər bir uşağın tam mənəvi inkişafını və mənəvi rahatlığını təmin edəcək əlverişli psixoloji və pedaqoji şəraitin yaradılmasıdır. Müəllimlər və valideynlər şagirdlər üçün münbit psixoloji mühitin formalaşmasında əhəmiyyətli rol oynadığından onlarla əməkdaşlığı da nəzərə almaq lazımdır.

Təhsil sistemində psixoloji xidmətin fəaliyyəti mütəxəssislərin işini istiqamətləndirən, şagird, müəllim və valideynlərlə səmərəli qarşılıqlı əlaqəni təmin edən bir sıra prinsiplərə əsaslanır. Əsas prinsiplərə aşağıdakılar daxildir:

1. Fərdi yanaşma prinsipi: Psixoloqun işi hər bir uşağın fərdi xüsusiyyətlərini müəyyən etməklə, onun inkişafı və korreksiyasının fərdi yollarını göstərmək.

2. Qarşılıqlı fəaliyyət prinsipi: Psixoloqun ümumi pedaqoji məqsədə - cəmiyyətin tamhüquqlu üzvünün formalaşmasına nail olmaq üçün birgə fəaliyyət göstərməklə müəllim və valideynlərlə qarşılıqlı əlaqə:

3. Hüquq və vəzifələrə hörmət prinsipi: Psixoloqun müvafiq sənədlərə uyğun olaraq onun fəaliyyətini tənzimləyən hüquq və vəzifələrə əməl olunması;

4. İşin forma və üsullarının müxtəlifliyi prinsipi: Psixoloqun birtərəfli ixtisaslaşmadan və xaosdan uzaq olmaqla, müxtəlif iş üsul və formalarından istifadə etməsi;

5. Əxlaqi prinsip: Psixoloqun əxlaqi məsələlərə əməl etməsi;

6. Davamlılıq prinsipi: Psixoloqun həm müasir elmi nailiyyətləri, həm də sələflərin təcrübəsini nəzərə alması, həddindən artıq konservatizmdən və ya yeniliyə yaxınlıqdan çəkinməsi;

7. Özünü həyata keçirmə prinsipi: Psixoloqun passivliyin və ya həddindən artıq fəaliyyətin qarşısını alaraq, daxili inkişaf mənbələrini fəal şəkildə axtarması;

8. Peşəkar cəmiyyətin prinsipi: Psixoloq özünü təcrid etməməli, peşəkarlığın artırmaq üçün müxtəlif təşkilatlarda və tədbirlərdə iştirak etməlidir.

Bu prinsiplər təhsil müəssisələrində psixoloji xidmətlərin məqsədyönlü, səmərəli və etik işini təmin edir, uşaqların uğurlu inkişafına və öyrənilməsinə kömək edir.

Psixi sağlamlıq xidmətlərinin təhsil müəssisəsinin təşkilati strukturuna daxil edilməsi məqsəd və vəzifələrin aydın başa düşülməsini tələb edir. Psixoloji xidmət təhsilin psixoloji komponentinə cavabdehdir, onun inkişaf xarakterini təmin edir. Psixoloq müəllimi əvəz etmir, lakin təhsil proqramlarının təhsil müəssisəsində şagirdlərin inkişafına necə təsir etdiyi barədə obyektiv məlumat verə bilər. Psixoloq və müəllimin birgə işi təhsil problemlərinin həlli üçün ən yaxşı üsulları seçməyə, profilaktik proqramlar hazırlamağa və valideynlərlə qarşılıqlı əlaqə qurmağa imkan verir.

Öz vəzifələrini uğurla yerinə yetirmək üçün psixoloqa xüsusi təlim və metodik hazırlıq lazımdır. Təhsil bir proses kimi şəxsiyyətin, cəmiyyətin və dövlətin xeyrinə həyata keçirilir. Hər bir insanın humanist prinsiplərə, ümumbəşəri dəyərlərin üstünlüyünə və şəxsiyyətin sərbəst inkişafına əsaslanan təhsil almaq hüququ vardır. Yüksək peşəkar psixoloji xidmətlər olmadan bu məqsədlərə nail olmaq çətindir.

## UŞAQLARDA DEVİANT DAVRANIŞIN KORREKSİYA EDİLMƏSİNDƏ PSİXOLOJİ XİDMƏTİN ROLU

**Quliyeva Səidə Azər qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Uşaq — adətən, doğumdan yeniyetməlik dövrünə qədər yaş aralığında olan şəxslər üçün işlədilən termindir. Bu dövrdə uşaqlar müxtəlif inkişaf mərhələlərindən keçərək fiziki, əqli, emosional və sosial cəhətdən formalaşırlar. Uşaqlıq dövrü ayrı-ayrı fərdlərin əsas davranış tərzlərini əldə etmələri, sosial bacarıqları inkişaf etdirmələri və dünya haqqında daha yaxşı bir anlayış əldə etmələri dövrüdür. Hazırda bütün dünyada baş verən və yayılmaqda olan gərgin sosial, ekoloji, iqtisadi və s. problemlər uşaqların inkişaf dövründə mənimsədikləri davranışlarında neqativ tendensiyaların sürətlə artmasına səbəb olur. Mütəxəssislər bu tendensiyalar sırasına uşaqların davranışında öz əksini tapan potensial konfliktliyin, aqressivıiyin, qəddarlığın və s. artmasını qeyd edirlər. Uşaqların psixi vəziyyətində aktuallaşan daxili ziddiyyətlər deviant davranışların formalaşmasına gətirib çıxarır. Uşaqlarda deviant davranışlar cəmiyyət normalarına, qaydalarına və gözləntilərinə uyğun olmayan davranışlar kimi müəyyən edilir. Bu davranışlar çox vaxt açıq-aşkar, aqressiv, təcavüzkar, üsyankar və ya qeyri-qanuni ola bilər. Deviant davranışlar uşağın emosional,

sosial və ya psixi sağlamlığı ilə bağlı problemlərin əlaməti ola bilər. Bu tip davranışların həmçinin uşağın daxili münaqişə və ya çətinliklərinin təzahüründən formalaşması da mümkündür. Uşaqlarda deviant davranışın ilkin təzahürləri əksərən kiçik məktəb yaşı dövründən etibarən nəzərə çarpır. Yaş artdıqca isə uşağın özü ilə yanaşı davranışındakı qüsurlar da böyüyür, mürəkkəbləşir. Nəticədə uşaq yeniyetməlik yaş dövründə, artıq formalaşmış deviant davranışları səbəbindən məktəb normaları ilə uzlaşmır və beləliklə məhz bu zaman təlimdəki uğursuzluqları yeniyetmədə təhsilə olan marağın itməsinə səbəb olur. Təhsildən yayınan azyaşlının asudə vaxtı artır. Bu vaxt ərzində əsasən yeniyetmənin məşğuliyyəti idrak sferasından kənar olan əyləncə və digər fəaliyyət növləri ilə şərtlənir.

Deviant davranışları olan uşaqlar ətrafdan daima psixoloji dəstək və rəhbərlik tələb edir. Psixoloqlar uşağın davranışını qiymətləndirərək bunun əsas səbəblərini müəyyən edə, müvafiq müalicə və məsləhət xidmətləri göstərə bilərlər. Bundan başqa, ailələrin də bu prosesə dəstək olması vacibdir. Valideynlərin uşaqları ilə səmərəli ünsiyyət qurması və ardıcıl tərbiyə strategiyasını həyata keçirməsi də uşağın deviant davranışlarının aradan qaldırılması işinin sürətlənməsinə təkan verə bilər. Nəticədə, uşaqların deviant davranışlarının öhdəsindən gəlməkdə psixoloji dəstək, ailə dəstəyi, effektiv ünsiyyət və tərbiyə strategiyaları mühüm rol oynayır. Bu amillərin uşağın emosional və sosial ehtiyaclarının ödənilməsi, onların sağlam inkişafına dəstək olması üçün birgə fəaliyyət göstərməsi vacibdir. Psixoloji xidmət fərdin psixi, emosional və davranış sağlamlığının dəstəklənməsi üçün təklif olunan müxtəlif xidmətlərdir.

Psixoloqlar və terapevtlər müxtəlif üsul və metodlardan istifadə edərək insanların həyatlarındakı çətinliklərin öhdəsindən gəlməkdə psixoloji dəstək, ailə dəstəyi, effektiv ünsiyyət və tərbiyə strategiyaları mühüm rol oynayır. Bu amillərin uşağın emosional və sosial ehtiyaclarının ödənilməsi, onların sağlam inkişafına dəstək olması üçün birgə fəaliyyət göstərməsi vacibdir. Psixoloji xidmət fərdin psixi, emosional və davranış sağlamlığının dəstəklənməsi ücün təklif olunan müxtəlif xidmətlərdir. Psixoloqlar va terapevtlər müxtəlif üsul va metodlardan istifadə edərək insanların həyatlarındakı çətinliklərin öhdəsindən gəlməkdə və daha sağlam həyat sürməkdə kömək edirlər. Uşaqlarda deviant davranışların korreksiya edilməsində psixoloji xidmət mühüm rol oynayır. Psixoloq uşağın emosional, psixi va sosial inkişafını dəstəkləmək ücün müvafiq strategiyalar hazırlayır.

Ekstremal davranışların səbəblərini müəyyən etməklə mütəxəssis usağın ehtiyaclarını anlamağa kömək edə və bu ehtiyacların müvafiq həll yollarını tövsiyə edə bilər. Deviant davranışlı uşaqlarla korreksiya işi aparan zaman onların cinsi fərqlərinin də nəzərə alınması zəruridir. Psixoloq yalnız uşaqla deyil, həm də valideyn ilə də iş aparmalıdır ki, bu prosesdə ailələrə dəstək verməklə uşağın davranışının yaxşılaşmasına da kömək edə bilər. Onlar ailalərə övladlarının davranışlarını dərk etməkdə, effektiv ünsiyyət və tərbiyə strategiyaları hazırlamaqda kömək edə bilərlər. Uşaqların emosional, davranış və sosial inkişafını dəstəkləmək, onların problemlərinin öhdəsindən gəlməkdə yardımçı olmaq üçün uşaq terapiyası xidmətləri göstərilir. Psixoloji xidmət insanlara həyatlarındakı çətinliklərin öhdəsindən gəlməyə, emosional rifahlarını artırmağa kömək etmək, daha sağlam, daha xoşbəxt və səmərəli həyat yaşamalarına dəstək olmaq üçün təklif olunur. Deviant davranışları düzəltmək və insanın sosial normalara uyğunlaşmasını artırmaq üçün müxtəlif metodlardan istifadə etmək olar. Deviant davranışın korreksiya edilməsi üçün mütəxəssislər tərəfindən qeyd olunmuş bəzi fikirlərə nəzər salaq:

1. Davranışın mənbəyini anlamaq. Birincisi, deviant davranışın səbəblərini anlamaq vacibdir. Davranışın arxasında duran emosional, psixoloji və ya sosial amillərin müəyyən edilməsi düzgün müdaxilə etmək üçün zəruridir.

2. Müsbət istiqamət və təşviq. Deviant davranış sərgiləyən insanlar müsbət istiqamətləndirmə və təşviq vasitəsilə motivasiya edilərək korreksiya işinə hazırlana bilərlər. Digər alternativ davranışlar təklif etməklə insana daha uyğun və sağlam davranışların formalaşmasına kömək etmək olar.

3. Dəstək sistemlərinin yaradılması. Deviant davranışın korreksiyası üçün, şəxsə dəstək vermək istiqamətində sistemlər yaradıla bilər. Bunu üçün ailə, dostlar, müəllimlər və ya peşəkarlardan tövsiyyə və məsləhət almaq olar.
4. Müsbət istiqamətdə gücləndirmə və cəza tədbirləri. Deviant davranışların korreksiyası üçün müsbət istiqamətdə gücləndirmə üsulları istifadə edilə bilər. Uşaq pis davranış nümayiş etdirdikdə cəza tədbirləri görülə və ya arzu olunan davranışları nümayiş etdirdikdə mükafat verilə bilər.
5. Peşəkardan kömək istəmək. Deviant davranışların korreksiyasında peşəkarın dəstəyi vacibdir. Psixoloqlar, psixiatrlar və ya məsləhətçilərlə əməkdaşlıq etməklə insanın davranışını qiymətləndirmək və müvafiq müdaxilə planları yaratmaq mümkündür.
6. Deviant davranışın korreksiyası **fasiləsiz və qətiyyətli iş tələb edə bilər.** Yalnız düzgün seçilmiş üsul və dəstəklə bu davranışları düzəltmək və daha sağlam həyat tərzi keçirmək mümkün ola bilər.

## TƏHSİL SİSTEMİNİN TƏŞVİŞ POZUNTUSUNUN FORMALAŞMASINA VƏ QARŞILIQLI MÜNASİBƏTLƏR PROSESİNƏ TƏSİRİ

**Quluyev Lətif Malik oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ünsiyyət prosesinin xarakteri insanların birgə fəaliyyətinə, qarşılıqlı münasibətlərinə özünəməxsus təsir göstərdiyi kimi, ünsiyyət prosesinə də təsir edən amillər mövcuddur. Bu amillərdən biri olaraq qəbul edilən təşviş pozuntusunun yaranması özünü adətən uşaqlıq və yeniyetməlik dövründə göstərir.

Təşviş pozuntusunun müşahidə edildiyi fokus qruplardan biri də məktəb yaşlı uşaqlardır. Uşaqların məktəbdə aşağı nəticələr göstərməsi müxtəlif səbəblər ilə bağlı ola bilir. Məktəbdə aşağı nəaliyyət göstəricilərinə sahib olan uşaqların əhəmiyyətli bir hissəsi həmyaşıdları və müəllimləri tərəfindən mühakimə olunmaq, mənfi qiymətləndirilmək qorxusu ilə üzləşir. Bir çox hallarda bu qorxu və narahatlıqlar o qədər güclü olur ki, dərslərdə iştirak etmək kabusa çevrilir.

Sosial mühitdə, məsələn, məktəbdə yaşanan bu qorxu və həyəcanlar əhəmiyyətli narahatlıq yaradan səviyyələrə çatdıqda, psixi sağlamlıq mütəxəssisləri sosial təşviş pozğunluğu diaqnozunu nəzərdən keçirməyə başlayırlar. Amerika Psixiatriya Assosasiyasının verdiyi tərifə əsasən, sosial təşviş pozuntusu sosial mühitdə mühakimə olunmaq, rədd edilmək və ya mənfi qiymətləndirilmək qorxusunu ifadə edir.

Aparılmış tədqiqatların təhlilinə əsasən, hazırda tədris sistemində istifadə edilən kurikulum metodikası, şagirdlərin mütəmadi olaraq gərgin situasiyada imtahan-yoxlama üsulu ilə qiymətləndirilməsi də onlarda təşviş pozuntusunun yaranmasına gətirib çıxaran səbəblərdəndir.

Əgər məktəb mühitində qorxu və narahatlıq hissləri yaşayan şagirdlər varsa, məktəb psixoloqunun başlıca vəzifəsi bu narahatlıq hissinin hansı səbəbdən qaynaqlandığını ortaya çıxarmaqdır. Yəni bu narahatlıq və qorxu hissinin arxasında duran motivi bilmək vacibdir, çünki, bu qorxuların hamısı təşviş pozuntusu olaraq qəbul edilə bilməz. Əgər şagirdin narahatlığının arxasında duran səbəbi müəyyən etsək, onda bu səbəbi aradan qaldırmaq üçün hansı yollardan istifadə etməli olduğumuzu da rahatlıqla müəyyən edə bilərik.

Hazırda təşviş pozuntusu ilə mübarizənin ən təsirli üsulu kimi psixoloqlar əsasən koqnitiv davranış terapiyasından istifadə edirlər. Koqnitiv davranış terapiyası insanların düşüncə, hiss və davranışları arasında bir əlaqənin mövcud olduğunu iddia edir. Bu terapiyaya əsasən, şəxs düşüncə tərzini dəyişərək problemlərini ortadan qaldıra bilər.

Məktəb psixoloqu olaraq mütəxəssisin öncəlikli vəzifəsi tələbələrə özlərini sakitləşdirməyi, narahatlığa səbəb olan fikirləri tənzimləmək yollarını öyrətməkdir. Terapiya gedişində şagirdlər tədricən qorxulu vəziyyətlərdən qaçmaq əvəzinə onlarla qarşılaşmağı

öyrənirlər. Hətta, sosial narahatlığın gündəlik fəaliyyətə mane olduğu bəzi hallarda həkimlər narahatlığı azaltmaq üçün dərmanlar təyin edə bilərlər. Bəzi şagirdlərin qorxulu vəziyyətlərlə üzləşməzdən əvvəl buna ehtiyacı ola bilər.

Özgüvənsiz və narahat hiss edən bu şagirdlərlə iş zamanı müəllimlərin də üzərinə böyük yük düşür. Müəllimlər üçün bu şagirdlərə kömək etməyin ən yaxşı yolu dəstəkləyici olmaq və mühakimə etməməkdir. Müəllimlər sinif daxili fəaliyyətləri elə tənzim etməlidir ki, narahat olan tələbələr kənarda qalıb özünü tənha hiss etməsin. Şagirdlərə qrup işi zamanı öz partnyorlarını seçməkdə sərbəstlik vermək, onları mümkün qədər dərs prosesində iştirak etməyə həvəsləndirmək, mümkündürsə onlara hansı sual və tapşırıqların veriləcəyini əvvəlcədən bildirmək, narahat tələbələri öz arzu və istəkləri haqqında danışmağa təşviq etmək, şagirdin tərəqqisini və onlara kömək etməyin ən yaxşı yollarını tapmaq üçün müntəzəm olaraq valideynlər ilə söhbət aparmaq sosial təşviş pozuntusu olan şagirdlər ilə tədris prosesinin təşkili zamanı onların narahatlığının qarşısını almaq üçün əhəmiyyətli addımlar olaraq qəbul edilir.

## YETKİNLİK YAŞNA ÇATMAMIŞ ANALARIN SOSİAL MÜDAFİƏSİ MODELİNİN NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

**Mehdiyeva Fidan Qabil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Hal-hazırkı dövrdə yetkinlik yaşına çatmayanların analığı fenomeni ilk növbədə sosioloji, sosial-pedaqoji və sosial-psixoloji elmlərin daimi tədqiqat obyektidir. Azyaşlı anaların sosial müdafiəsinin təşkili probleminin müxtəlif aspektlərinin öyrənilməsi diqqət mərkəzində olan məsələlərdəndir.

Ənənəvi olaraq, sosial işin nəzəriyyəsi və təcrübəsi ondan irəli gəlir ki, azyaşlı anaların etibar edə biləcəyi sosial müdafiə tədbirləri arasında adətən sosial dəstəyə, yəni onun maddi komponentinə xüsusi əhəmiyyət verilir. Ümumiyyətlə, yetkinlik yaşına çatmayan anaların sosial müdafiəsi üzrə dövlət və qeyri-dövlət proqramları üç əsas blokdan ibarətdir: faktiki sosial, sosial-tibbi və sosial-psixoloji.

Sosial proqramlar blokunun əhalinin bu kateqoriyası ilə sosial iş praktikasında həyata keçirilməsi çətin həyat vəziyyətində olan azyaşlı analara və onların ailələrinə maddi dəstək göstərməyə, sosial yetimliyin qarşısını almağa imkan verir.

Proqramların sosial və tibbi bloku yetkinlik yaşına çatmayan anaların və ya hamilə yeniyetmə qızların ixtisaslaşdırılmış tibb müəssisəsində mütəmadi olaraq monitorinqinə, sağlam uşaq dünyaya gətirmək üçün profilaktik dərmanların qəbulu ilə bağlı tövsiyələrə əməl olunmasına yönəlib.

Proqramların sosial-psixoloji bloku yeniyetmə qızlara hamiləlik, uşağın doğulması və tərbiyəsi, ailə dəstəyinin təşkili, "qayğı dairəsi"nin formalaşdırılması üçün əlverişli psixoloji şəraitin yaradılmasını nəzərdə tutur.

Yetkinlik yaşına çatmayan anaların və onların övladlarının xüsusiyyətlərini və problemlərinin geniş spektrini nəzərə alaraq onlarla sosial iş bir neçə istiqamətdə sosial pedaqoqlar və sosial işçilər tərəfindən aparılmalıdır.

Yeniyetmə analarla sosial işin birinci istiqamətinə aşağıdakılar daxildir: gənc anaya kömək edə biləcək təşkilatların və müxtəlif fəaliyyət növlərinin (hüquqi, sosial, hüquq-mühafizə, səhiyyə, təhsil), ictimai təşkilatlar, bələdiyyə və regional hakimiyyət orqanlarının cəlb edilməsi.

Yetkinlik yaşına çatmayan analarla işləyən sosial pedaqoqun və sosial işçinin ikinci fəaliyyət sahəsi gənc anaya göstərilən ünvanlı yardımıdır. Bu fəaliyyət elmi təhlili nəzərdə tutan praktiki məzmun daşıyır və sosial-texnoloji tədbirlər kompleksini əhatə edir: hamilə yeniyetmə qızlar müəyyən edilir və qeydiyyata alınır, ailədə şəxsiyyətlərarası münasibətləri

müxtəlif aspektlərdə nəzərə alan ailə profili tərtib edilir, ailənin maraq dairəsi, ailə üzvləri arasında antisosial davranışın olması və s. nəzərdən keçirilir.

Sosial pedaqoqların və sosial işçilərin peşə fəaliyyətində yeniyetmə analarla profilaktik iş xüsusi yer tutur, çünki onlar müxtəlif psixoloji xidmətlər, təhsil müəssisələri, hüquq-mühafizə orqanları, qonşular və yaxın ətraf mühitlə qarşılıqlı əlaqədə olurlar.

Beləliklə, yetkinlik yaşına çatmayan anaların sosial müdafiəsi onların spesifik sosial-demoqrafik və gender xüsusiyyətlərinə görə ailə funksiyalarını tam şəkildə həyata keçirə bilməməsi faktına əsaslanır.

Sosial iş nəzəriyyəsində belə bir fikir var ki, gənc anaların ümumi sosial müdafiəsi sisteminin inkişafına başlıca maneə bu cür müdafiə üçün aydın hüquqi mexanizmlərin olmamasıdır, bu da gənc anaların müəyyən edilməməsi ilə əlaqədardır. Normativ sənədlərdə azyaşlı analar sosial cəhətdən həssas insanların ayrıca kateqoriyası kimi qeyd edilmir və onlar üçün əlavə müddəalar,ödənişlər və ya sosial müavinətlər nəzərdə tutulmur. Sosial müdafiə müəssisələrində yetkinlik yaşına çatmamış analarla mövcud sosial iş təcrübəsinin elmi şərhi yetkinlik yaşına çatmayan anaların sosial müdafiəsi modelinin formalaşdırılması üçün ilkin şərtlər yaradır. Öz növbəsində, belə bir modelin məzmununun təhlili müvafiq nəzəri və metodoloji əsasların müəyyənləşdirilməsini nəzərdə tutur. Bunlara aşağıdakı mülahizələr, ifadələr və fərziyyələr daxil ola bilər:

1. Yetkinlik yaşına çatmamış ana ilə sosial iş onun sosial müdafiəsi üçün konkret texnologiya seçərkən məzmun və vəzifələrə görə reproduktiv-peşəkar, peşəkar-adaptiv və peşəkar-yaradıcı olaraq fərqləndirilməsi ideyası;
2. Yetkinlik yaşına çatmamış anaların sosial müdafiəsi problemlərinin öyrənilməsi üçün ilkin şərtlər olan nəzəri yanaşmaların təsnifatının olması;
3. Uşaqlar və yeniyetmələrlə sosial işin nəzəriyyəsi və praktikasında azyaşlı anaların sosial müdafiəsi probleminin öyrənilməsinə elmi yanaşmaların olması, onların müqayisəli təhlili və nəzəri əsaslandırılması;
4. Sosial iş nəzəriyyəsində "Yetkinlik yaşına çatmamış anaların sosial müdafiəsi" anlayışının elmi əsaslandırılmış məzmunu;
5. Sosial müdafiə müəssisələrində yeniyetmə analarla sosial iş təcrübəsinə dair tədqiqatın nəzəri aspektlərinin şərhi məzmunu;
6. Sosial müdafiə müəssisələrində yeniyetmə analarla sosial işin nəzəriyyəsi və təcrübəsi haqqında sistemləşdirilmiş elmi biliklər.

Yetkinlik yaşına çatmayan anaların sosial müdafiəsi modelinin məzmununun metodoloji təhlili aşağıdakı məqamları əhatə edir: azyaşlı anaların sosial müdafiəsi elmi konsepsiya və praktik sosial işin istiqaməti kimi; sosial müdafiə müəssisələrində yeniyetmə analarla sosial iş sosial iş nəzəriyyəsində problem kimi; sosial müdafiə müəssisələrində azyaşlı analara peşəkar sosial yardımın xüsusiyyətlərinin öyrənilməsi elmi tədqiqat istiqaməti kimi.

Beləliklə, yetkinlik yaşına çatmayan anaların sosial müdafiəsi problemlərinin öyrənilməsinin nəzəri və metodoloji əsaslarının təhlili onu deməyə əsas verir ki, yetkinlik yaşına çatmayan analarla sosial iş sosial müdafiə müəssisələrində uşaq və yeniyetmələrlə peşəkar sosial işdə müstəqil bir istiqamətdir və bu, onun uşaq və yeniyetmələrlə sosial iş və sosial müdafiədən fərqləndirilməsini tələb edir.

## ƏDALƏTLİ VƏ İNKLÜZİV CƏMİYYƏTİN YARADILMASINDA GENDER BƏRABƏRLİYİNİN ROLU

**Məmmədli Əli Natiq oğlu**
*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

Ədalətli və inklüziv bir cəmiyyət yaratmaq hər bir dövlətin ən mühüm məqsədlərindən biridir. Ədalətli və inklüziv bir cəmiyyət hər bir fərdin öz potensialını tam şəkildə inkişaf

etdirməsi üçün lazım olan imkanları və şəraitləri təmin edən bir mühit yaratmaq deməkdir. Bu cür cəmiyyət fərqli arxa planlara, mədəniyyətlərə və baxış bucaqlarına sahib insanların birgə yaşayışını və əməkdaşlığını təşviq edir. Ədalətli və inklüziv bir cəmiyyətin yaradılması həm fərdi, həm də kollektiv rifahın artırılmasında mühüm rol oynayır. Ədalətli bir cəmiyyət hər kəsin qanun qarşısında bərabər olduğu və eyni hüquqlara sahib olduğu bir sistemdir. Bu, həmçinin sosial, iqtisadi və siyasi hüquqların hər kəs üçün bərabər şəkildə təmin edilməsinidə əhatə edir. İnklüzivlik isə, cəmiyyətin hər bir üzvünün qərar qəbulu proseslərində iştirak etməsi və öz səslərini eşitdirməsi imkanını ifadə edir. İnklüziv cəmiyyətlər müxtəlifliyi qəbul edir və hər kəsin özünü cəmiyyətin bir parçası kimi hiss etməsi üçün şərait yaradır. Ədalət və inklüzivlik bərabər imkanlar yaratmaqla yanaşı, diskiriminasiyanın və sosial təcridin qarşısını alır. Bu, cəmiyyətin hər bir üzvünün təhsil, sağlamlıq, iş və yaşayış kimi əsas ehtiyaclarını ödəmək üçün lazımi resurslara çıxışının olmasını təmin edir.

Gender bərabərliyi ədalətli və inklüziv bir cəmiyyətin qurulmasında mühüm bir rol oynayır. Bu, müxtəlif gender identifikasiyalarına sahib olan fərdlərin sosial, iqtisadi və siyasi həyatda bərabər imkanlara və hüquqlara sahib olması deməkdir. Gender bərabərliyi cəmiyyətin bütün üzvlərinin inkişafına və rifahına töhfə verir, müxtəliflik və yaradıcılığı təşviq edir, daha sülhsevər və sabit bir dünya yaratmağa kömək edir. Ədalətli və inklüziv cəmiyyət yaratmaq üçün gender bərabərliyinin təmin edilməsi, hər kəsin potensialını tam şəkildə inkişaf etdirməsinə imkan verir. Qadınlar və kişilər arasında bərabər imkanlar yaratmaq, hər iki cinsin təhsil, iş və siyası qərar qəbulu proseslərində aktiv iştirakını təmin edir. Bu cəmiyyətin daha geniş bir prespektivdən faydalanmasına və daha effektiv və yenilikçi həllər tapmasına imkan verir.

Sosial ədalət və inklüzivlik baxımından, gender bərabərliyi qadınların və kişilərin ailə və cəmiyyət həyatında bərabər rolları paylaşmasını təşviq edir. Bu, gender əsaslı zorakılığın və diskiriminasiyanın azalmasına, həmçinin ailələrin və cəmiyyətin daha sağlam və sabit olmasına kömək edir. Ədalətli və inklüziv bir cəmiyyətin yaradıması məqsədi ilə həyata keçirilən gender bərabərliyinin təmin olunması məsələlərində sosial iş strukturları və sosial işçilərin rolu müstəsna əhəmiyyətə malikdir. Sosial işçilərin gender məsələlərində məlumatlılığı və həssaslığı, müştərilərlə qurulan əlaqələrin dərinliyinə və müdaxilə nəticələrinin effektivliyinə doğrudan təsir göstərir. Bu məlumatlılıq və həssaslıq, müxtəlif gender kimliklərinə sahib olan şəxslərin ehtiyaclarını, problemlərini daha yaxşı anlamağa və onlara cavab verməyə imkan verir. Bu, sosial iş prinsiplərinin mərkəzində yer alan sosial ədalət və bərabərlik məqsədlərinə uyğunlaşdırılmışdır. Müştərilər öz ehtiyaclarının və problemlərinin anlaşıldığını hiss etdikdə, sosial işçilərlə daha açıq və dürüst kommunikasiya qurmağa daha meylli olurlar. Bu, müdaxilə prosesində müştərilərin daha fəal iştirakını və müdaxilələrin uğurlu nəticələrini təmin edən əsas amillərdən biridir.

Bütün bunlar onu göstərir ki, sosial işçilər gender bərabərliyini təmin etməyə çalışaraq ədalətli və inklüziv cəmiyyət yaratmaqda fəal rol oynanırlar. Təbii ki, sosial işçilərin gender bərabərliyi məsələləri ilə bağlı məlumatlarını artırılmasında gender bərabərliyi məsələlərinə həssas tədris proqramlarının olması çox vacibdir. Gender bərabərliyinin sosial iş təhsilində və davamlı peşəkar inkişafla əlaqədar olaraq mərkəzi yer tutması, sosial işçilərin müxtəlif gender idnetifikasiyali fərdlərin ehtiyaclarına həssas müdaxilələr hazırlamaq bacarıqlarını gücləndirərək, daha ədalətli və effektiv sosial xidmətlərin göstərilməsinə imkan verir. Bu məqsədlə, gender bərabərliyi, sosial iş təhsil və təlim proqramlarının hər səviyyəsində, dərs proqramlarına, praktiki təlimlərə inteqrasiya edilməlidir. Sosial iş təhsilində gender bərabərliyinə daha çox önəm verilməsi, tələbələrin genderin sosial konstruksiyası və onun insanların həyat təcrübələri, imkanları və hüquqları üzərində necə əhəmiyyətli təsirlərə malik olduğunu anlamalarına kömək edir.

Tələbələrə gender stereotipləri, gender əsaslı zorakılıq, diskriminasiya kimi məsələlərlə bağlı dərin biliklər verilməlidir. Bu, onların bu məsələləri müşahidə etmək və müdaxilə edərkən daha məqsədyönlü yanaşmalar tətbiq etmələrinə imkan verir. Praktiki təlimlər və staj

proqramları da gender həssaslığını vurğulamalıdır. Tələbələr müxtəlif cinsiyət qrupları ilə işləyərkən, onların ehtiyaclarını başa düşmək üçün konkret bacarıqlar və strategiyalar öyrənməlidirlər. Bütün bu tədbirlərin həyata keçirilməsi gender bərabərliyinin təşviq olunmasında çox mühüm rol oynayacaq. Nəticə olaraq deyə bilərik ki, gender bərabərliyini təmin olunması ədalətli və inklüziv cəmiyyətin yaradılmasını əsasını təşkil edən məsələlərdən biridir. Gender bərabərsizliyini olduğu bir cəmiyyəti heç vaxt ədalətli bir cəmiyyət adlandıra bilmərik.

## KİÇİK YAŞLI ŞAGİRDLƏRDƏ TƏLİMƏ MARAĞIN FORMALAŞDIRILMASINDA AİLƏ MÜHİTİNİN ROLU

**Məmmədli Lalə Xalid qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Katharine Birbalsinghin "Battle Hymn of the Tiger Teachers" kitabında izah etdiyi kimi, valideynlər əksər hallarda həm məktəbin səmərəli və uğurlu fəaliyyət göstərməsində, həm də övladlarının təhsil həyatının müsbət yönə istiqamətlənməsində öz rol və təsirlərinin əhəmiyyətindən xəbərsizdirlər.[5] Kiçik məktəb yaşı dövrü uşaqların həyatında əsaslı dəyişikliklərin baş verdiyi dövr kimi xarakterizə olunur. Kiçik məktəb yaşlı uşağın qarşısında yeni fəaliyyətlər, yeni məsuliyyətlər və vəzifələr dayanır. O, öz inkişafının yeni mərhələsinə qədəm qoyur. Ailə şəxsiyyətin formalaşmasında, ümumbəşəri və fərdi keyfiyyətlərin inkişafında güclü bir amildir, çünki ailədə uşaq ilk dəfə özünə və digərinə qarşı davranış, münasibət və hiss normalarını öyrənir. Ailə uşaqlara ilkin tərbiyə, fiziki, psixoloji və ümumiyyətlə sosial müdafiə və dəstək verir. Valideynlər uşağın ilk sosial mühitini təşkil edirlər. Valideynlərin uşağın həyatında, təlim və tərbiyəsindəki rolundan savayı, onun hisslərinin formalaşmasında necə əhəmiyyətli mövqeyə sahib olması uşağın ömrü boyunca hiss olunur. Təsadüfi deyil ki, həyatın çətin anlarında valideynlərə, xüsusən anaya zehni olaraq müraciət edirik. Buna görə valideynlərin ilk və əsas vəzifəsi uşağın emosional və sevgi ehtiyaclarını ödəmək, onlarda sevildiklərinə dair hər hansı şübhə hissi yaratmamaqdan ibarət olmalıdır. Heç vaxt, heç bir şəraitdə uşağın valideyn sevgisinə şübhə olmamalıdır.

Uşaqda valideynə qarşı inam hissi olmalıdır ki, valideyn onu yönləndirdikdə, təlim və tərbiyəsi ilə bağlı söhbətlər apardıqda bu tövsiyyələrdən şübhə duymasın. Elm adamları tərəfindən şiddətlə qeyd olunan məsləhətlərdən biri də məhz uşaqla yaradılan ünsiyyət keyfiyyətidir. Bunu da bilməkdə fayda var ki, effektiv ünsiyyətin qurulmasında əsas məqam inamın mövcud olmasıdır. Nəinki kiçik yaşlı uşaqlar, yaşlılar belə "quru məsləhət"dən qaçır, dinləmək istəmirlər. Buradakı təməl ehtiyac, qarşıdakı insan tərəfindən dinlənmək və onun sözlərinə inanmaqdan ibarətdir.

Kiçik məktəb yaşı dövrünün qabarıq şəkildə nəzərə çarpan əlamətlərindən biri də odur ki, uşaq məktəbəqədər təhsil müəssisəsindən ayrılır və məktəb təliminə başlayır.[4] Sözsüz ki, kiçik yaşlı şagirdlər məktəb həyatına başlayan zaman bir sıra çətinliklər yaşanır. Bu çətinliklər gözləniləndir və aradan qaldırılması müəyyən zaman tələb edən məsələlərdir. Bu çətinlikləri az və ya çox dərəcədə hər bir məktəbli yaşayır. Qeyd etdik ki, çətinliklərin həll olunması üçün zamana ehtiyac duyulur. Lakin bunu da qeyd etmək vacibdir ki, bu zaman çərçivəsində uşağa dəstək göstərən valideynlər, müəllimlər, məktəb işçiləri bu prosesin daha rahat keçirilməsinə və psixoloji cəhətdən sağlam mühitin yaradılmasına müvəffəq ola bilərlər. Kiçik yaşlı şagirdlərin həyatındakı ən böyük dəyişiklik məhz məktəbəqədər müəssisədən ayrılaraq tamamilə yeni mühitə, yeni insanların əhatəsinə düşməsi və özünə orada yer tapması məsələsidir.

Elə görünə bilər ki, övladları təhsil alan valideynlərin yeganə vəzifəsi onların davamlı məktəbə gedib-gəlməsinə nəzarət etmək və uşaqlardan yüksək göstəricilər gözləməkdir. Əslində isə, uşaqların təhsilində valideynlərin rolu göründüyündən qat-qat əhəmiyyətli və vacibdir. Valideynlər uşağın ümumi inkişafında mühüm rol oynayırlar. Valideynlik daim

inkişaf edən bir prosesdir və yalnız uşağın zəruri, tərbiyəvi ehtiyaclarını təmin etməklə məhdudlaşmır. Görkəmli rus pedaqoqu A.S.Makarenkonun valideyn-təlim-tərbiyə sxemi əsasındakı fikirləri bir növ bələdçi rolunu oynayır. A.S.Makarenkoya görə, o, valideynin nüfuzu məsələsini də ailənin quruluşu məsələsinə aid etmişdir.

O, burada həmin nüfuzu necə yaratmaq məsələlərinə toxunmuşdur. A.S.Makarenkoya görə, əgər valideynin nüfuzu yoxdursa, yaxud saxta, uydurma, zorakı nüfuzudursa, demək ailədə işlər qaydasında deyil, əksinə bütün işlər bir qədər baş-ayaq gedir. İlk addım, uşağa təhsil vermək məsuliyyətinin təkcə təhsil müəssisəsinin məsuliyyəti olmadığını dərk etməkdən ibarətdir. Uşağın təhsili ilk olaraq evdə başlayır və valideynlər onların ilk müəllimləri rolundadırlar. Valideynlər uşağın şəxsiyyətinin, xarakterinin, vərdişlərinin, emosional inkişafının və s. formalaşmasında həlledici rol oynayırlar. Əslində, tədqiqatlar göstərmişdir ki, şagirdin uğurunun ən yaxşı göstəricisi valideynlərin uşağın təhsilində iştirak dərəcəsidir. Aparılmış bir çox araşdırma və tədqiqata əsaslanaraq demək olar ki, valideynlərin təlim-tərbiyə prosesində fəal iştirak etməsi, bu prosesin bir parçası olması, uşaqların dərsləri, dərsdənkənar fəaliyyəti ilə yaxından maraqlandıqda uşaqların təlim motivasiyası əsaslı şəkildə müsbətə doğru dəyişir. Belə araşdırmalardan biri tədqiqatçı-psixoloq H.R.Alfiansyah tərəfindən aparılmışdır. Tədqiqat 4-cü sinif şagirdləri arasında aparılmışdır. Tədqiqata 136 şagird cəlb olunmuş və anket metodundan istifadə edilmişdir. Aparılan tədqiqatın sonunda belə bir nəticə əldə olunur ki, valideynlərin uşaqların təhsil həyatındakı fəal iştirakı uşaqlarda öyrənmə motivasiyasına 39.7% təsir edir.[1] Bu nəticəyə baxaraq valideynlərin rolunun nə dərəcədə əhəmiyyətli olmasını, valideynlərin səmərəli iştirakının uşaqların təlim uğurlarına, eyni zamanda valideynlərin laqeyd münasibətinin isə təlim uğursuzluqlarına səbəb olacağını müəyyənləşdirmək elə də çətin deyil. Araşdırmada ortaya çıxan göstərici kifayət qədər böyük göstəricidir və valideynlərin rolunun hansl əhəmiyyətə malik olduğunu bir daha sübut edir. Sosial məkan olaraq ailə və təhsil, ortaq tərəfləri ilə yanaşı, fərqli tərəfləri ilə də bir-birilə əlaqəli və qarşılıqlı təsirdədirlər. Ailə, ümumi təlim, tərbiyə və təhsil ocağıdır və fərdin təhsili, tərbiyəsi öncə ailədə başlayır və kütləvi müəssisələr olan məktəblərdə davam edir(Bolat, 2007: 1548). Bu mənada təhsili ailədə başlayan uşağın sağlam inkişafı baxımından valideynlərin məsuliyyətli davranışları olduqca önəmlidir.

Yuxarıda göstərilən tədqiqatın nümunəsində valideynlərin iştirakının nə dərəcədə əhəmiyyətli olduğu sübut olunur. Lakin valideynlər övladlarının təhsilinə, şəxsi inkişafına necə təsir göstərəcəklərini, hansı yolu izləməli olduqlarını bilmirlər və ya yanlış üsullardan istifadə edirlər. Təcrübədə çox rast gəlinən hallardan biridir ki, valideynlər övladlarının dərslərdən geri qalmamaq, müəllim tərəfindən danlanmamaq, zəif qiymət almaması məqsədilə uşaqların ev tapşırıqlarını özləri həll edib göndərirlər. Düşüncə və məqsəd uşaqda dərsə qarşı məsuliyyət hissi oyatmaq, uşağın dərslərdən geri qalmaması olsa da izlənilən bu yolun mənfi təsirləri olduqca çoxdur. Bu üsul, əksinə şagirdlərdə məsuliyyətsizlik hissi yaradır. Şagirdlərdə arxayınlıq hissi formalaşır, müstəqil işləmə bacarıqları zəifləyir və tapşırıqları yalnız valideyn nəzarəti olan zaman yerinə yetirir. Bunun əvəzinə, əvvəlcə tapşırıqları yerinə yetirməyin nə kimi faydalarının olduğu haqqında uşaqla söhbət aparmaq lazımdır. Uşaq öz məsuliyyətinin nədən ibarət olduğunu, tapşırıqların nə qədər əhəmiyyətli olduğunu dərk etməlidir. Bu məsuliyyət sağlam formada şagird tərəfindən qəbul edildiyi zaman valideyn və ya müəllimin məcburiyyəti olmadan, şagird müstəqil formada, kənar müdaxilələrə ehtiyac qalmadan elmə yönələcək, öhdəliklərini daha uğurlu formada yerinə yetirəcəkdir.

Şagirdlərdə təlimə maraq oyatmaq, onlarda sağlam çalışma vərdişlərinin inkişafına nail olmaq yalnız bir üsulun köməyi ilə nəticə verə bilməz. Burada bir sıra təsirlərin qarşılıqlı təsirinin vəhdətini yaratmaq lazımdır. Yuxarıda hər zaman üçün aktual olan məsələlərdən birini qeyd edərək, valideynlərin izlədiyi yanlış yol və onu əvəzləyici üsulu qeyd etdik. Lakin qeyd etməliyik ki, burada iş sadəcə uşaqda məsuliyyət formalaşdırmaq ilə yekunlaşmır. Təsəvvür edək ki, uşaq məsuliyyət və öhdəliklərini anlayır, lakin dərslə məşğul olmaq ona sıxıcı gəlir, onun tapşırıqları həll etməyə həvəsi yoxdur, başqa fəaliyyətlə məşğul olmağa

üstünlük verir. Artıq bu məqamda valideynlərin uşağa olan təsiri, onların yanaşması, situasiyanı yönləndirməsi həlledici önəm daşıyır. Dərs prosesi, tapşırıqların həlli zaman-zaman hər yaşdan insana çətin gələ bilir. Əgər söhbət qeyri-ixtiyari diqqətin ixtiyari diqqətdən daha aktiv olduğu yaş dövründən gedirsə, bu halların baş verməsi olduqca təbiidir. Kiçik yaşlı şagirdlərdə zamanın idarəsi, hədəflərin bölünməsi və növbələşdirilməsi, çalışma-istirahət bölgüsü və s. texnikalar haqqında bilik və təcrübələri mövcud deyil.

Buna görə də, onlar ertəsi gün üçün tələb olunan çoxsaylı tapşırıqların çoxluğunu görüb ya stress keçirib həyəcanlanırlar, ya da onsuzda heç birini çatdıra bilməyəcəklərini düşünüb həll etməməyi, əvəzinə başqa iş görməyi seçirlər. Məhz bu məqamda, valideynlər uşaqların ən yaxın dəstəkçisi, "ikinci müəllimi" olmağı bacarmalıdır. Valideynlər uşaqlar üçün dəstəkləyici çalışma atmosferi yaratmalı, onlara tapşırıqları növbələşdirmə, işləri planlamaqda yardım etməli, öyrənilməsi çətin olan mövzuları müxtəlif əyləncəli metodlardan istifadə edərək bu prosesi sıxıcı və yorucu deyil, maraqlı və əyləncəli hala gətirə bilərlər. Buradakı təməl vəzifə lazımi motivasiyanın ötürülməsi və cəsarətləndirmə olmalıdır. Uşaqları həvəssiz və ya uğursuz olduqları üçün danlamaq yerinə, onlarda təhsilə, elmə qarşı sevgi, maraq oyatmaq valideynlərin ən ümdə vəzifəsi olmalıdır. Uşaqları başqaları ilə müqayisə etmək, onlara lazımsız məsuliyyətlər yükləmək, bu məsuliyyətləri yerinə yetirə bilmədikləri üçün danlamaq və cəzalandırmaq uşaqları yalnız elmdən, təhsildən uzaqlaşdırar, onlarda müxtəlif mənfi vərdişlər, psixi, o cümlədən şəxsiyyət pozuntuları yarada bilər.

Təlim və tərbiyə prosesinə müəyyən amillər təsir göstərir ki, təsir göstərən ən mühüm xüsusiyyətlərdən biri də məhz valideynlərin şəxsi nümunəsidir. Unutmaq olmaz ki, biz öz davranışlarımızla uşaqlara müəyyən formada təsir göstəririk, vərdişlər aşılayırıq. Davranışlarla aşılanan vərdişlər söz vasitəsilə deyilənlərdən qat-qat daha təsirlidir. Çünki uşaqlar yaşlıları təqlid edərək öyrənirlər. Uşaqların sosial təcrübəni mənimsədiyi ilk nümunə - onun valideynləridir. Gənc ata və ana isə özlərinin zahiri görkəmi, dünyagörüşü və insanlara münasibətləri ilə gənc nəslə mühüm təsir göstərirlər. Yəni uşağın yaşı nə qədər azdırsa, onda valideynin şəxsi nümunəsi daha böyük əhəmiyyət daşıyır. Uşaq böyütmək ilə bağlı bilik sahibi olmayan valideynlər uşaqlara necə davranmaq, onlarla necə vaxt keçirmək, onları təlim və təhsilə necə cəlb etmək barədə məlumatsızdırlar və necə davranacaqlarını, necə bir yol izləyəcəklərini bilmirlər. Məhz bu səbəbdən ata və analar uşaqlıqda öz ailələri tərəfindən necə münasibət görüblərsə onun eynisini tətbiq etməyə meyl edirlər. Bunun nəticəsində isə heç də həmişə müsbət hallar ilə rastlaşmaq olmur. Çünki, ata və ananın fikirləri arasında uyğunsuzluq yaranır, fikir ayrılığı yaşanır və davranışlarda fərqliliklər müşahidə olunur. Və, bu fərqliliklər uşağın doğru istiqamətdə inkişaf etməsinə mane olur, onun gələcəyini mənfi yöndə təsirləndirir.

Valideynlər uşaqlarının düzgün formada inkişaf etməsi, sağlam psixologiyaya və düşüncəyə sahib olması üçün mümkün qədər ortaq qərarlar qəbul etməli, qarşılıqlı anlaşma ilə düzgün yolu seçməli, müzakirə və mübahisələri isə qəti şəkildə uşaqlara yansıtmamalıdırlar. Valideynlərin uşaqların təhsili, tərbiyəsi, gələcək həyatı ilə bağlı bənzər fikirlərə və qərarlara sahib olmaları uşaqların inkişafında müsbət nəticələr yaradacaqdır. Məsələn, uşaq məktəbdə sinif yoldaşına qarşı kobud bir hərəkət etmişsə, ana uşağı etdiyi hərəkət üçün danladığı halda, ata uşağa "afərin!" deməməlidir. Uşağın etdiyi hərəkətin yanlış olduğu ona izah olunmalıdır. Yuxarıda qeyd etdiyimiz situasiyada olduğu kimi, valideynlər fərqli-fərqli reaksiyalar verdiyi zaman uşağın inkişafı mənfi istiqamətə yönələr. Belə ailə mühitində böyüyən uşaq, nəyin doğru, nəyin yanlış olduğunu əsla dərk etmir və daha da yanlış davranışlar nümayiş etdirir. Uşaqların təlim tərbiyəsində, inkişafında bu kimi arzuolunmaz hadisələrlə qarşılaşmamaq üçün valideynlər uşaq böyütmə mövzusunda geniş bilgi sahibi olmalıdırlar. Məhz bu kimi məsələlərdə ailə təlim və tərbiyəsi məsələsinin əhəmiyyətini daha aydın anlamaq mümkün olur.

İllər dəyişdikcə, uşaq böyütmək haqqında bilgilər, uşaqlara yanaşma tərzi, davranış forması dəyişir. Bunu müşahidə etmək o qədər də çətin deyildir ki, bizi böyüdən valideynlərin

bəzi davranış və üsullarını qəbul etmir, yaşlı insanların təcrübə və tövsiyyələrini dinləyərkən fikir ayrılığı yaşayır və bəzi məsləhətləri qəbul etmirik. Əlbətdə ki, bu yeniləşən dünya, aparılan çoxsaylı araşdırma və tədqiqatlarla bağlı olaraq meydana çıxır. Belə ki, illər əvvəl doğru bildiyimiz, tətbiq etdiyimiz üsullar araşdırmalardan sonra əslində yanlış kimi qarşımıza çıxır. Buna görə də, uşaq böyüdən valideynlərin fikir qarışıqlığı yaşaması normal və gözləniləndir. Valideynlərin doğru yanaşma, doğru üsulları istifadə etməsi üçün mütəxəssis məsləhətinə ehtiyacları vardır. Məhz bu səbəbdən, valideynlər tez-tez maarifləndirici təlimlərdə, seminar və treninqlərdə iştirak etməli, pedaqoq və psixoloqlardan lazımi yardımları və məsləhətləri almalıdırlar.

Ədəbiyyat

1. H. R. Alfiansyah. The role of parental ınvolvement towards the students' learnıng motıvatıon https://www.researchgate.net/publication/324497851_PARENTAL_INVOLVEMENT_IN_EDUCATION
2. Qədirov Ə. Yaş psixologiyası. Maarif. Bakı.1986.192s.
3. Quliyev E. Kiçik məktəblinin psixologiyası. ADPU-nun nəşriyyatı. Bakı. 2003.122 s.
4. M. Koç , N. Koçtürk, T. Zencir. Anne-baba eğitimi: ebeveynlerin eğitim deneyimleri ve gereksinimleri
https://dergipark.org.tr/tr/pub/firatsbed/issue/68126/946663
5. С. И. Иннокентьевна. Роль семьи в воспитании ребенка младшего школьного возраста
https://interactive-plus.ru/e-articles/collection-20140318/collection-20140318-1797.pdf

## BƏDİİ MƏDƏNİYYƏTİN TƏHSİLDƏ VƏ İNSAN YARADICILIĞINDA SOSİAL-PSİXOLOJİ ROLU

**Məmmədli Şəbnəm Fuad qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bədii mədəniyyət geniş bir konseptdir və fərqli mənalara gələ bilər. Əsasən, Bədii mədəniyyət, insanların yaradıcı ifadələrini və fəaliyyətlərini müəyyənləşdirən mədəniyyət formasıdır və insanların ruhani, sosial və psixoloji perspektivlərdə inkişafını təmin edir. Bu mədəniyyət forması daxilində rəsm, heykəltəraşlıq, musiqi, teatr, rəqs və digər ifadə formalarını birləşdirir. Bədii mədəniyyət insanların incəsənət yaradıcılığı və ifadə qabiliyyətləri ilə bağlıdır.

Bədii mədəniyyətin təhsildə sosial-psixoloji rolu və əhəmiyyəti böyük vəzifələr daşıyır. Bədii ifadə, insanların özündəki hissləri, düşüncələri və dəyərləri ifadə etmək üçün bir vasitədir. İnsanların müəyyən mədəni məzmunlarla təması onların sosial qərarları, münasibətləri və tənqidləri üzərində müsbət və ya mənfi təsir göstərə bilər. Bədii mədəniyyət, insanları bir araya gətirərək birlik və əlaqələrin formalaşmasına kömək edir və sosial bağlantıları gücləndirir. Bununla birlikdə, ədəbiyyat, musiqi, rəssamlıq və digər bədii ifadə formaları insanların mədəni dəyərləri və ideoloji inancları üzərində də təsir göstərir.

ədii mədəniyyət, insanların əsas psixoloji və sosial ehtyiyaclarını qarşılayan bir vasitədir. İnsanlar ətraflarındakı dünyanı anlamaq, özünü ifadə etmək və digər insanlarla əlaqə qurmaq üçün bədii ifadələrdən faydalanırlar. Bədii mədəniyyət, insanların mədəni dəyərləri və inancları üzərində dərin təsir qoyur. Musiqi, rəssamlıq, ədəbiyyat, teatr və kinoya baxış insanların öz yaşam təcrübələrini anlamaq və başqaları ilə birləşdirmək üçün güclü alətlərdir.
Bədii ifadələr, insanların mədəni irsini formalaşdırmaqda kritik bir rol oynayır. Həmçinin, mədəni ifadələr insanların bir-biriləri ilə əlaqələrinin keyfiyyətinə təsir edir və sosial

bağlantıları gücləndirir. Bədii ifadə, sosial münasibətləri və qərarları təsirləyərək bir cəmiyyətdə bərabərlik və anlayışı təşkil edir.

Bu baxımdan, bədii mədəniyyət təhsil prosesində sosial-psixoloji rolu və əhəmiyyəti vacibdir çünki insanların düşünmə və davranma üsullarını formalaşdırır və cəmiyyətin bütününə olan təsirini nəzərdə tutur.

Bədii mədəniyyət, insanların ruhani, sosial və psixoloji inkişafında müxtəlif rollar oynayır. İnsanlar bədii ifadə vasitəsilə öz hisslərini, fikirlərini və təəssüratlarını ifadə edə bilirlər. Rəssamlar, şairlər və musiqiçilər, öz təəssüratlarını və düşüncələrini sənət vasitəsi ilə ifadə edərək insanlara çatdırırlar.

Bədii mədəniyyət ayrıca insanların bir-biri ilə əlaqə qurma və münasibətlərini inkişaf etdirmək üçün də vacibdir. Bir teatr nümayişində, bir konsertdə və ya bir sərgidə birləşən insanlar, ortaq maraqlar və hisslər ətrafında bir araya gəlir və bu, birlik və dəstək hissi yaradır.

Həmçinin, bədii mədəniyyət insanların psixoloji sağlamlığına da təsir edir. Sənət təcrübəsi, insanların stresi azaltmaq, özünü ifadə etmək və yaradıcılıqlarını inkişaf etdirmək üçün əsas vasitələrdən biridir. Rəsmlə məşğul olmaq, musiqi dinləmək və ya teatrda iştirak etmək, insanların ruh sağlamlığına və ümumi xoş hisslər keçirməsinə çox yaxşı təsir edir.

Əvvəlcədən bəlli ola bilən bir şeydir ki, bədii mədəniyyət insanların həyatında əhəmiyyətli bir rol oynayır. Bu, insanların yaradıcı potensialını üzə çıxarmaq, əlaqələr qurmaq və psixoloji sağlamlığı təmin etmək üçün güclü bir vasitədir. Buna görə də bədii mədəniyyətə olan dəstək və qiymət, bir cəmiyyətin inkişafında ənənəvi olaraq əhəmiyyətli bir yerə malikdir.

Opera, balet və teatrlar bədii mədəniyyətə dəyər və zənginlik əlavə edir. Onlar insanların yaradıcılığını və ifadə qabiliyyətlərini təşvik edir, bədii incəsənət formalarına hörmət və anlayış yaradır, və cəmiyyətin ənənələrini və mədəni irsi yaşadır. İşlədikləri musiqi, rəqs və səhnə dizaynı bədii ifadələrinin zənginliyini və görsəli keyfiyyətini təmin edir.
Yaradıcılığı təşvik edir: Opera, balet və teatrlar yaradıcı ifadəyə imkan verir. Bu sahələrdə işləyən insanlar musiqi, rəqs və səhnə dizaynı ilə öz fikirlərini və duyğularını ifadə edirlər.
Bədii incəsənətə hörmət və anlayış yaradır: Opera, balet və teatrlar mədəni ifadələrin dəyərini və əhəmiyyətini vurğulayır. Onlar ənənələri, mədəni irsi və bədii zənginliyi qoruyub yaşadır.
Cəmiyyətin ənənələrini yaşadır: Opera, balet və teatrlar bədii mədəniyyətin ənənələrini yaşadır və növbəti nəsillərə ötürür. İnsanlar bu sahələrdə mədəni və ənənəvi təcrübələri yaşayaraq və paylaşaraq mədəni mənsubiyyətlərini gücləndirir.

Tərəqqi və inkişafı təmin edir: Opera, balet və teatrlar səhnə texnologiyasının və performans sənətlərinin inkişafına dəstək olur. Bu sahələr inkişaf edən sənətçilərə, rəhbərlərə və texnoloqlara inkişaf və tərəqqi imkanı təqdim edir.

Bu səbəblərdən opera, balet və teatrların bədii mədəniyyətə çox böyük bir xeyri və önəmi var.çMusiqi insanın inkisafında və bədii mədəniyyətin formalaşmasında əhəmiyyətli bir rol oynayır. Musiqi insanların ruh halını, hisslərini, düşüncələrini və davranışlarını təsir edən güclü bir ifadə vasitəsidir.

Ruhani təsir: Musiqi insanların ruh sağlamlığına müsbət təsir edir. Bəzi musiqi nümunələriçinsanların stresslərini azaldır, onları rahatlaşdırar və həm də motivasiya verir.

Duyğusal təsir: Musiqi, insanların hisslərini ifadə etmək və başqalarının hisslərinə daha dəqiq birləşmək üçün bir vasitə kimi fəaliyyət göstərir. Sözlü musiqi və səsləmələr, insanların həssas vəziyyətlərini ifadə etmək üçün güclü bir vasitədir.

Düşüncə və yaradıcılıq təsiri: Musiqi insanların düşünmə və yaradıcılıq proseslərini dəstəkləyir. Bir çox insan, musiqi dinləyərək və ya musiqi ifa edərək yaradıcı fikirlər və həllər taparlar.

Bədii mədəniyyət formalaşmasında rolu: Musiqi, bədii mədəniyyətin əsas bir hissəsidir. Musiqi yaradıcı ifadəyə imkan verir və insanları fərqli mədəni ifadələrlə bəzəyir. Bu, bir cəmiyyətin mədəniyyət və ənənələrinin inkişafında əhəmiyyətli bir rol oynayır.

Bütün bunlar göstərir ki, musiqi insanın ruh sağlamlığını, hisslərini və düşüncə proseslərini dəyişdirən güclü bir vasitədir və bədii mədəniyyətin formalaşmasında əhəmiyyətli bir rol oynayır.

Azərbaycan musiqiçiləri, bədii zövqün və incəsənətin əhəmiyyətini çox qıymətləndirirlər. Onlar musiqi ifasında bədii incəsənəti, rəngarəng ifadələri və dərin mənalı ifadələri dəstəkləyirlər. Bəzən musiqi əsərləri, bir əsərin mənasını və duyğularını daha dəqiq ifadə etmək üçün əlində olan ən güclü vasitədir.

Azərbaycan musiqiçiləri, mənəvi dünyanın zənginliyini və insanın iç dünyasını ifadə etmək üçün musiqinin bədii potensialından faydalanmaqda birlikdə, ədəbiyyat və incəsənətin digər sahələri ilə də sıx əlaqəlidirlər. Bir çox bəstəkarlar ədəbiyyatdan, mədəniyyətdən və rəngarəng incəsənət ifadələrindən mənimsəyib öyrəndikləri mənalardan ilham alaraq öz musiqi əsərlərini yaradırlar.

Bütün bunlar, Azərbaycan musiqiçilərinin bədii zövq və incəsənətə olan həssaslığını və dəyər verdiyini göstərir. İncəsənət və bədii ifadələr, Azərbaycan musiqi dünyasında əhəmiyyətli bir rol oynayır və musiqiçilər bu konseptə çox müsbət baxaraq yaradıcılıqlarında peşəkarlıqla istifadə edirlər.

## ŞAGIRDLƏRDƏ YARADICILIQ QABILIYYƏTININ FORMALAŞDIRILMASINDA MODELLƏŞDIRMƏ VƏ KONSTRUKSIYAETMƏ BIR AMIL KIMI

**Məmmədova Hökümə Nazim qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Şagirdlərdən bu günkü gündə təkcə nəzəri biliklərə yiyələnmək deyil, bununla yanaşı praktik bacarıqların formalaşması tələb olunur. Müasir insanın formalaşmasında bu bacarıqlar əsas rol oynayır və XXI əsr bacarıqlarını bir hissəsi hesab olunur. Bu özəlliklər şagirdlərin gələcək əmək fəaliyyətində uğur qazanmalarına yol açır. Həm nəzəri, həm də praktik bacarıqlara yiyələnmiş şagirdin gündəlik fəaliyyəti məhsuldar hesab olunur. Cəmiyyətin qeyri-standart stuasiyalardan çıxış yollarını tapa bilən, düşünməyi bacaran insanlara ehtiyyacı var. Bəzi mənbələrdə yaradıcılıq qabiliyyətinin gender struktur obrazi kimi verilib.Yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasında şagirdə verilən qeyri-standart tapşırıqlar böyük rol oynayır. Şagird bu tapşırıqları həll edən zaman təfəkkürü inkişaf edir, müxtəlif baxış istiqamətində düşünür, hətta özünü emosianal şəkildə ifadə etməyə də meyl göstərir. Emosianal təcrübələr şagirdlərin yeniliklərə açıq olmalarına şərait yaradır, bu da öz təcrübələrini daha yaxşı başa düşməyə təkan verir. Beləliklə şagirdlərin yaradıcılıq qabiliyyətləri effektiv şəkildə inkişaf edir. Məktəblilər bu yolla yaradıcı ruhda formalaşır. Yaradıcı fəaliyyət sağlam insan həyatının zəruri tərəfi hesab olunur. Gələcək həyatlarında uğur qazanmaları üçün bacarıqların formalaşması məktəbli yaş dövründən başlayır. Məktəb burada əsas əhəmiyyət daşıyır. Bu gün müasir dövr yüksək sürətlə inkişaf etsədə, bəzi məktəblərimiz hələ bu dəyişikliklərə tam uyğunlaşmayıb.Tədris prosesində dəyişikliklər həyata keçirilərək, müasir təlim metodları yaradılıb. Tədris prosesində bir çox müəllimlər bu təlim metodlarından istifadə etməyərək, ənənəvi təlim metodlarını üstün tuturlar. Xüsusən də texnologiya dərsləri müasir təlim metodlarından istifadə edərək tədris prosesinin həyata keçirilməsini daha üstün tutulur. Texnologiya dərslərində müasir təlim metodlarının tətbiqi, müəllimin kompüterdən istifadə edərək dərs izahında şagirdlərin daha yaxşı qavraması üçün şəkillər üzərindən izah etməsi, yaxud parçanın emal texnologiyası mövzusunu tədris edərkən müxtəlif parça növləri ilə şagirdləri tanış edə bilir. Müəllimin dərs prosesinin təşkili zamanı bütün parça növlərini təşkil edib sinfə gətirə bilmə imkanın olmadığına görə, bəzi parça növlərini komputerdə göstərərək şagirdləri tanış edir. Şagirdlərdə yaradıcılıq bacarıqlarının formalaşdırılmasında modelləşdirmə və konstruksiyaetmənin böyük əhəmiyyəti var.

Hansısa bir geyim məmulatının hazırlanmasında ilk öncə konstruksiyaetmə həyata keçirilir, sonra isə o modelləşdirilir.Konstruksiyaetmə xəyali təsəvvürün yaradılması ilə başlayır. Konstruksiya latın dilindən tərcümədə quruluş deməkdir. Həmişə birinci konstruksiyaetmə, sonra isə modelləşdirmə mərhələsi gəlir. Konstruksiyaetmə zamanı lazım olan materiallar seçilir, məmulatı hazırlamağa başlayırlar. Konstruksiyaetmə zamanı bir necə variantdan istifadə olunur. Konstruksiyaetmə şagirdlərin əqli inkişafının formalaşmasına böyük kömək göstərir. Şagirdlər məmulatı konstruksiya edərkən təkcə onun ayrı-ayrı hissələri, quruluşu ilə tanış olmurlar, bununla yanaşı onun həyatda tətbiqini və əhəmiyyətini öyrənmiş olurlar. Şagirdlər bütün proseslərin canlı iştirakçıları olmaqla, gələcək həyat fəaliyyətləri üçün düzgün peşə seçməyə istiqamətlənirlər.

Konstruksiyaetmə şagirdlərdə bir çox bacarıq və vərdişləri formalaşdırır. Şagirdlər konstruksi-yaetmə mərhələsində elm və texnika ilə yaxından tanış olur, texnikanın təkmilləşməsi istiqaməti haqqında biliklərə yiyələnir, müasir cihaz və qurğuların iş prinsipini nəzərdən keçirir. Texnikada istifadə olunan müxtəlif cihaz və qurğuları artıq sərbəst şəkildə idarə edə bilir, hansısa bir məsələlərin həllində texnikada əldə etdiyi bilikləri ortaya qoyur, işi sərbəst şəkildə yerinə yetirmək bacarığı formalaşır. Konstruksiyaetməni yerinə yetirməyi şagirdə tapşıran zaman onun yaş səviyyəsini, təfəkkürünü nəzərə almaq lazımdır. Hər bir şagirdin təfəkkür səviyyəsindən asılı olaraq tapşırığın çətinlik səviyyəsi müəyyən olunmalıdır. Dərs prosesində digər metoddan istifadə edərək zəif və güclü şagirdləri bir qrupda deyil fərqli qruplarda toplayaraq bütün qrupu tapşırığın həllinə yönəlməsini təşkil etmək olar. Konsruksiyaetmə kiçik və yuxarı siniflərdə fərqli formalarda təşkil olunmalıdır. Kiçik siniflərlə konstruksiyaetmə prosesində müəllim yaxından iştirak etməlidir. Hər mərhələni şagirdə ətraflı şəkildə izah etməli, konstruksiyanın bütün hissələrini ayrılıqda nümayiş etdirməli, iş prosesində şagirdlərin çətinlik çəkdikləri hissələrin həllində onlara dəstək olmalıdır. Konstruksiyaetmə yuxarı siniflərdə təşkil olunduqda isə şagirdlərə sərbəstlik verilməli, konstruksiyanın ayrı-ayrı hissələrini onların özlərinin araşdırıb məlumatlar əldə etmələrinə sadəcə istiqamət verməlidir. Konstuksiyaetmə zamanı model hazırlayarkən texnoloji xəritələrdən istifadə olunması məqsədəuyğun hesab olunur. Texoloji xəritə əsasında hər bir mərhələ haqqında geniş, ətraflı məlumat əldə etmək, işin icra ardıcıllığını öyrənmək mümkündür.Texnoloji xəritəni hazırlamaq üçün hər bir şagird qrafik savada malik olmalıdır. Qrafiki biliklər əsasında ölçüləri düzgün qeyd etməklə texnoloji xəritəni hazırlamaq mümkündür. Kiçik sinifdən yuxarı sinfə qalxdıqca konstruksiyaetmə sadədən mürəkkəbə doğru dəyişir.

Mürəkkəbləşən konstruksiyaetməni yerinə yetirmək üçün bizə alət, tərtibat və cihazlar lazımdır. Kiçik siniflərdə bunlardan istifadə olunmama səbəblərindən biri də şagirdlərin təhlükəsizliyinin qorunmasından ibarətdir. Konstruksiyaetməyə başlamazdan əvvəl texnoloji analiz aparılır ki, burada iş prosesində bizə lazım olacaq alət və ləvazimatları əvvəlcədən seçirik. Emalatxana iş prosesinə hazır olmalı, səliqəyə salınmalı və işıqlandırılmalıdır.

Modelləşdirmə dedikdə hər hansısa bir obyektin, məmulatın hazırlanması zamanı təsvir edilə bilməsi üçün qrafik üsullardan istifadə olunmasıdır. Modelləşdirmədən təkcə texnologiya dərslərində istifadə olunmur. Ətrafımızda olan bütün obyektlər, əşyalar, və s. hazırlanan zaman ilk öncə onu modelləşdirirlər. Məsələn komputerdə də modelləşdirməyə rast gələ bilərik ki, bu iki sahə üzrə aparılır: görüntülərin işlənməsində və biznesdə. Qrafik modelləşdirmədə obyektlər arasında əlaqələrin yaradılması üçün riyazi üsullardan istifadə olunur. Modelləşdirmə zamanı geyimin üslubunu, təyinatını, parçanın materialını, modelin zövqünü, mövsümə uyğunluğunu nəzərə almaq lazımdır. Bütün bunları nəzərə almaqla eskizi hazırlayırıq. Bu vaxt rəng, moda, siluet xətləri, siluet əsas nəzərə alınır. Modelləşdirmə dedikdə mütənasiblik, forma, siluet, rəng, üslub fikrimizdə canlanır. Zaman, şərait, mühit, iqtisadi inkişaf modanın təkmilləşərək inkişaf etməsinə yol açır. Geyimin modelləşdirilməsi arxitektonik incəsənət sahəsinə aid edilə bilir və özündə iki funskiya daşıyır: praktik və estetik. Estetik tələb dedikdə geyimin bizim zövqümüzə uyğun olması, xarici görünüşümüzü

yaxşı göstərməsi, dəbdə olması və s. kimi xüsusiyyətlər hesab olunur. Praktik tələb dedikdə isə geyimimizin bizi soyuqdan qoruyaraq isti olması və bizim hərəkətimizin sərbəstliyini təmin etməsi nəzərdə tutulur. Geyimimizin təkcə gözəl görünməsi ilə iş bitmir. Biz geyimimizi olduğumuz şəraitə uyğun seçməliyik,yəni geyimi alarkən onu nə vaxt, harada istifadə edəcəyimizə diqqət yetirməliyik.

Texnologiya fənni şagirdlərin hərtərəfli inkişafında böyük rol oynayır. Şagirdlər məmulatı hazırlamazdan əvvəl onu konstruksiya edir, onun eskizini, çertyojunu çəkirlər. Beləliklə şagirdlərdə qrafik savad və bacarıqlar da formalaşmış olur. Konstruksiyaetmədən sonra isə onun modelləşdirmə mərhələsi başlayırki, burada materialların seçilməsi, rənglərin müəyyən edilməsi, ümumi kompozisiyanın bütövlüyünü təmin etməklə əyani olaraq məmulatın hissələri ilə tanış olurlar, onların birləşmə üsulları haqqında məlumatlanırlar.

## İNTELLEKTUAL POZULMALARI OLAN UŞAQLARIN NİTQİNİN İNKİŞAFINDA OYUNLARIN ROLU

**Məmmədova Mina Hidayət qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universitet*

İntellektual pozulma beynin davamlı üzvi zədələnməsidir ki, bu zaman psixi inkişaf xüsusilə də ali idrak proseslərinin (qavrayış, iradi yaddaş, şifahi-məntiqi təfəkkür, nitq və s.) normal inkişafının pozulması müşahidə olunur. Mövzu ilə bağlı aparılan tədqiqatlarda qeyd olunur ki, [3] intellektual pozulma mürəkkəb struktura malik, qeyri-proqressiv olan, sosial adaptasiyanı çətinləşdirən müxtəlif irsi, anadangəlmə və ya erkən qazanılmış etioloji səbəblər sisteminə malik olan davamlı zəif əqli inkişafla xarakterizə olunan diaqnozdur.

Həyatın ilk ilində intellektual pozulma motor bacarıqlarının inkişafında geriləmə və emosional sahənin çatışmazlığı ilə özünü göstərir. 2-3-cü ildə isə intellektual pozulma ilk növbədə oyun fəaliyyətinin xüsusiyyətlərində özünü göstərir. İntellektual pozulmaları olan məktəbəqədər yaşlı uşaqlarda oyun fəaliyyəti stereotipləşdirmə, imitasiya və sadə gündəlik süjetlərlə xarakterizə olunur.

İntellektual pozulması olan uşaqların inkişafında oyunun rolu çox yüksəkdir. Oyun uşağın əsas fəaliyyəti, şəxsiyyətinin və zəkasının hərtərəfli inkişafı üçün zəruri şərtdir. [1] Oyun böyüklər tərəfindən uşaqları tərbiyə etmək, onlara əşyalarla müxtəlif hərəkətləri öyrətmək, ünsiyyət metodu və vasitələrini mənimsəmələri üçün istifadə olunur. Oyunda uşaq şəxsiyyət kimi inkişaf edir, təhsil və əmək fəaliyyətilə bağlı anlayışlar yaranır, insanlarla qarşılıqlı münasibətin qurulması formalaşırdırılır. İntellektual pozulmaları olan uşaq oyunda təqdim olunan obyektlərlə tez-tez təkrarlanan ünsiyyətə girir, bunun nəticəsində onları qavramağa çalışır və hafizəsinə həkk olunur. Hər bir obyektin öz adı, hər bir hərəkətin öz feili vardır. Oynayan uşaq dayanmadan danışır, tək oynasa belə bu fəaliyyət davam edir, söhbətə təkan verməyən obyektləri manipulyasiya edir. Oyuncaqlarla xüsusi fəaliyyətlər oyunda oyunun və nitqin inkişafına böyük təsir göstərir. Oyunlar zamanı baş verənlərlə bağlı birgə fəaliyyət və empatiya üçün imkan yaradılır. Bu, uşaqlar və onların tərbiyəçiləri arasında müvafiq əlaqənin qurulmasına kömək edir.

İntellektual pozulmaları olan uşaqlar üçün oyun ətraf mühitlə tanış olmaq, ana dilini öyrənmək üçün təsirli vasitədir. Çünki oyunlar uşaqların əqli və kommunikativ fəaliyyətinin güclü stimulyatorudur. Oyun fəaliyyəti nitqin inkişafının bütün problemlərini həll etmək üçün istifadə olunur, məsələn, söz ehtiyatını, sözlərin dəyişməsini və formalaşmasını birləşdirir və aydınlaşdırır, ardıcıl ifadələr tərtib etməkdə məşq edir, izahlı nitqi inkişaf etdirir. [1]

Nitqin inkişafı ilə yanaşı, idraki inkişaf da oyunda həyata keçirilir, buna görə oyun ətrafdakı reallıq haqqında fikirlərin genişlənməsinə, diqqətin, hafizənin, müşahidə bacarığının və təfəkkürün inkişafına kömək edir. Bəzi oyunlar uşaqlardan ümumi, spesifik anlayışlardan fəal şəkildə istifadə etməyi tələb edir. Antonimləri, sinonimləri, səs baxımından oxşar sözləri

tapmaq bir çox söz oyunlarının əsas vəzifəsidir. İntellektual pozulmaları olan uşaqlarda nitqin inkişafına oyunların təsirini aşağıdakı kimi qeyd etmək olar: [2]

- uşaqları bir-biri ilə ünsiyyətə həvəsləndirir;
- fəal nitqdən istifadə bacarıqlarının tətbiqinə kömək edir;
- danışıq dilini formalaşdırır;
- lüğəti zənginləşdirir;
- dilin qrammatik quruluşunun formalaşmasına təsir göstərir.
- lüğət ehtiyyatı artır və aktivləşir;
- düzgün səs tələffüzü formalaşır;
- ardıcıl nitq, fikirlərini düzgün ifadə etmək bacarığı inkişaf etdir.

Şübhəsiz ki, oyunlar uşaqlarda nitqin inkişafı üçün güclü bir vasitədir, evdə valideynlər tərəfindən istifadə olunması tövsiyə edilə bilər. Oyunların təşkili onların pedaqoji elmlər sahəsində xüsusi biliklərə malik olmasını və oyunun hazırlanmasında əlavə xərclər tələb etmir. Müəllimin oyunlardan istifadə etməsi uşaqların nitq fəaliyyətinin inkişafına, korreksiya işinin səmərəliliyinin artmasına kömək edir. Yadda saxlamaq lazımdır ki, oyun fəaliyyəti zamanı intellektual pozulmaları olan uşaqların nitqinin inkişafı uşaqlara rahat, sevinclə və məcburiyyət olmadan öyrətmək cəhdidir.

Ədəbiyyat

1. Ильина М.Н. Психологическая оценка интеллекта у детей. — СПб.: Питер, 2006. — 368 с.
2. Д.Б.Эльконин. Психология игры От Автора. 270 с
3. Макаров И.В. Клинические рекомендации по диагностике и лечению умственной отсталости у детей и подростков. — 2015.

## Xülasə

İntellektual pozulma müxtəlif irsi, anadangəlmə və ya erkən qazanılmış etioloji səbəblər sisteminə malik olan sosial adaptasiyanı çətinləşdirən və davamlı zəif əqli inkişafla xarakterizə olunur. İntellektual pozulmaları olan uşaqlarda oyun fəaliyyəti stereotipləşdirmə, imitasiya və sadə gündəlik süjetlərlə xarakterizə olunur. İntellektual pozulmaları olan uşaqlar üçün oyun ətraf mühitlə tanış olmaq, ana dilini öyrənmək üçün təsirli vasitədir. Nitqin inkişafı ilə yanaşı, idraki inkişaf prosesi də oyun vasitəsi ilə həyata keçirilir, buna görə oyun ətrafdakı reallıq haqqında fikirlərin genişlənməsinə, diqqətin, hafizənin, müşahidə bacarığının və təfəkkürün inkişafına kömək edir.

***Açar sözlər:*** *intellekt, nitq, oyun, ünsiyyət, inkişaf*

## Резюме

Умственная отсталость характеризуется стойким умственным недоразвитием, имеющим систему различных наследственных, врожденных или рано приобретенных этиологических причин, что усложняет социальную адаптацию, имеющую сложную структуру. Игровая деятельность дошкольников с ограниченными интеллектуальными возможностями характеризуется шаблонизацией, подражанием и простыми бытовыми сюжетами. Для детей с ограниченными интеллектуальными возможностями игра является эффективным средством познания окружающего и изучения родного языка. Помимо развития речи в игре осуществляется познавательное развитие, поэтому игра способствует расширению представлений об окружающей действительности, развитию внимания, памяти, наблюдательности и мышления.

***Ключевые слова:*** *интеллект, речь, игра, общение, развитие*

# MÜNASİBƏTLƏRİN ÖYRƏNMƏYƏ TƏSİRİ

**Məmmədova Türkan Umudvar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Öyrənmə anlayışı, insanların məlumatları qəbul etmə, anlama, təhlil etmə və yadda saxlama prosesini əhatə edir. Bu anlayış, məlumatın sadəcə passiv şəkildə qəbul edilməsini deyil, eyni zamanda təcrübə prosesində istifadəsini özündə əks etdirir. İnsanlar yeni məlumatları mövcud bilikləri və təcrübələri ilə birləşdirərək anlayışa çevirir və bu anlayış onların davranışlarına, fikirlərinə və düşüncələrinə təsir edir. Öyrənmə anlayışı, təhsil metodlarının və təlim texnologiyalarının inkişafında əhəmiyyətli rol oynayır. Bəs uşaqlarda öyrənmə prosesi necə inkişaf edir? Uşaqların öyrənmə prosesi kompleksdir və buna bir çox faktor təsir edir. Bu proses, zəka, mənəvi inkişaf, sosial münasibətlər və müasir təhsil metotları ilə əlaqəlidir. Uşaqlar geniş maraqları və təcrübələri vasitəsilə öyrənir və oyun yolu ilə, həmçinin praktika vasitəsilə öyrəndiklərini yadda saxlayırlar. Onların öyrənmə prosesi, kitab oxumaq, oyun oynamaq, tədqiqat etmək və sosial münasibətlərdə iştirak etmək kimi müxtəlif fəaliyyətlər yolu ilə baş verir. Öyrənmə prosesində fəal iştirak və təkrar əsas məsələrdəndir.

Münasibətlər uşağın öyrənmə prosesinə və inkişafına necə təsir edir ? Münasibətlər uşağın inkişafında əhəmiyyətli rol oynayır. Sağlam, dəstəkləyici və fəal münasibətlər uşaqların sosial, emosional və mənəvi inkişafına təsir edir. Yaxşı münasibətlər, öyrənmə prosesinə dəstəkləyici təsir edir , uşaqların empatiya qabiliyyətini gücləndirir, özünü ifadə etmə bacarığını inkişaf etdirir və özünə güvəni artırır. Uşaq ailəsi, yoldaşları, müəllimləri və digər insanlarla arasında olan münasibətləri vasitəsilə dünya haqqında daha çox şey öyrənir və müqayisə etməyi öyrənir. Müsbət münasibətlər, uşaqlara sağlam bir əlaqə qurmaq, təmkinli olmaq və başqaları ilə iş birliyi etməyi öyrədir.

Uşağın öyrənmə prosesinə əsasən iki amil təsir edir: ailədaxili münasibətlər və müəllim-şagird münasibətləri.

Ailədaxili münasibətlərin öyrənmə prosesinə təsiri. Ailədaxili münasibətlər uşağın təhsil həyatına və inkişafına böyük təsir göstərir. Ailə münasibətləri uşağın təhsilinə və öyrənmə prosesinə müxtəlif formalarda təsir edə bilər. Tədqiqatlar göstərir ki, valideynlərin uşağın təhsilində əhəmiyyətli rolu vardır. Müsbət ailə münasibətləri çox vaxt valideynlərin uşağın təhsilində daha çox iştirakına səbəb olur, o cümlədən ev tapşırıqlarına kömək etmək, məktəb tədbirlərində iştirak etmək və müəllimlərlə ünsiyyət qurmaq da bura daxildir. Valideynlər övladının öyrənməsi ilə fəal məşğul olduqda, bu, onların motivasiyası artır, akademik performansı yaxşılaşır və məktəbə müsbət münasibət bəsləməsinə səbəb olur. Eyni zamanda, ailə münasibətlərinin yaratdığı mühit uşağın təhsilinə böyük təsir göstərə bilər. Sevgi, həvəsləndirmə və hörmətlə səciyyələnən dəstəkləyici və qayğıkeş ailə mühiti öyrənmə üçün güclü zəmin yaradır. Əksinə, xaotik və ya stresli bir ailə mühiti uşağın diqqətini dərslərinə yönəltməsinə mane ola bilər və onun akademik tərəqqisinə mənfi təsir göstərə bilər. Ailə münasibətləri uşaqların təhsillə bağlı dəyərlərini, inanclarını və gözləntilərini formalaşdırır. Təhsilə və öyrənməyə dəyər verən ailələr uşaqlarına güclü iş etikası və akademik motivasiya aşılayırlar. Əksinə, mənfi ailə münasibətləri və ya təhsillə bağlı aşağı gözləntilər məktəbdən uzaqlaşmaya və müvəffəqiyyətsizliyə səbəb ola bilər.

Ailə münasibətləri uşaqların akademik uğurları üçün vacib olan ünsiyyət bacarıqlarının inkişafında mühüm rol oynayır. Ailə üzvləri ilə qarşılıqlı əlaqədə uşaqlar öz fikirlərini ifadə etməyi, fəal şəkildə dinləməyi və fikirlərini ifadə etməyi öyrənirlər. Ailə kontekstində əldə edilmiş güclü ünsiyyət bacarıqları uşaqların sinif müzakirələrində iştirak etmək, tədris materialını başa düşmək və lazım olduqda yoldaşlarına kömək göstərmək qabiliyyətini artıra bilər. Sağlam ailə münasibətləri uşaqların sosial və emosional inkişafına kömək edir, bu da öz

növbəsində onların akademik performansına təsir göstərir. Ailələri tərəfindən sevilən və dəstəklənən uşaqların, sinif uğuru üçün vacib olan əməkdaşlıq, empatiya və münaqişələrin həlli kimi müsbət sosial davranışlar nümayiş etdirmə ehtimalı daha yüksəkdir. Əksinə, mənfi ailə münasibətləri emosional sıxıntıya və davranış problemlərinə səbəb ola bilər. Ailə münasibətləri uşaqların davranış və rəftarları üçün güclü model rolunu oynayır. Ömür boyu öyrənməyə, problemləri həll etməyə və möhkəmliyə güclü bağlılıq nümayiş etdirən valideynlər övladlarına örnək almaları üçün dəyərli nümunələr təqdim edirlər. Ailə daxilində müsbət rol modelləşdirmə uşaqları akademik nailiyyətlər üçün vacib keyfiyyətlər olan çətinliklərə inamla, maraqla və inkişaf zehniyyəti ilə yanaşmağa həvəsləndirir. Ailə münasibətləri uşaqların dəyərlərini, gözləntilərini, ünsiyyət bacarıqlarını, sosial və emosional inkişafını və rol modellərini formalaşdırmaqla onların təhsilinə əhəmiyyətli təsir göstərir.

Müəllim-şagird münasibətlərinin öyrənmə prosesinə təsiri. Müəllim-şagird münasibətləri, effektiv təhsil prosesinin əsas elementlərindən biridir. Müəllimlərin şagirdlərlə arasındakı yaxın əlaqə və dəstək, təhsil prosesinin keyfiyyətinə və uğuruna ciddi dərəcədə təsir edir. Bu münasibətlər necə olamlıdır ki, uşağın öyrənmə qabiliyyəti yaxşı inkişaf etsin?

Müəllimlərin şagirdlərlə qurduğu əlaqə, yaxşı bir təhsil mühitinin əsasını təşkil edir. Müəllimlər, şagirdlərlə dərin və dəstəkləyici əlaqələr qurmalıdırlar. Bu, şagirdlərin öz məqsədlərinə nail olmasında və öyrənmə prosesində yüksək nailiyyətlər əldə etməsində onlara kömək edir. Müəllimlər, şagirdlərə qarşı müsbət və səmimi bir münasibət qurmaq üçün əlavə səy göstərməlidirlər. Bu, şagirlərin öz inkişafını artırır və öyrənmə prosesinə daha tez cəlb edir.

Müəllimlər, öz dərslrində və qiymətləndirmələrində məsuliyyətli və ədalətli olmalıdırlar. Şagirlərin müsbət motivasiyasını və inkişafını qorumaq üçün, onlara dərslərində şəffaflıq və ədalətlilik göstərilməlidir. Müəllimlər, şagirlərin potensialını müsbət istiqamətdə inkişaf etdirmək üçün onları cəsarətləndirməlidirlər. Müəllimlər, şagirdlərlə əməkdaşlıq etməyi və birlikdə çalışmağı bacarmalıdırlar. Birlikdə işləmək, şagirdlərə sosial və tərbiyəvi bacarıqlarını inkişaf etdirmək və müxtəlif fikirlər almaq imkanı verir. Müəllimlər, şagirdlərin qarşısına müəyyən məqsədlər qoymaqla və onları hədəfləməklə, öz öyrənmə proseslərini idarə etmək üçün kömək edə bilərlər. Bu, şagirdlərin özünə inamını və öz idarəçilik bacarıqlarını artırmağa kömək edir.

Müəllimlər və şagirdlər arasında qurulan sağlam münasibətlər, öyrənmə prosesində dərinliyi və zənginliyi artırır. Bu münasibətlər, təhsilin sosial və akademik tərəflərini də dəstəkləyir və uşaqların öz potensiallarını maksimum səviyyəyə çıxarmağa kömək edir.

## HEYDƏR ƏLİYEVİN FORMALAŞDIRDIĞI GƏNCLƏR SİYASƏTİNİN GƏNCLƏRLƏ SOSİAL İŞ SAHƏSİNDƏ YARATDIĞI İMKANLAR

**Məmmədzadə Səbinə Maarif qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müstəqil dövlət quruculuğu sahəsində inamla irəliləyən ölkəmizdə müxtəlif sahələrdə sosial işin qurulmasına, sosial iş xidmətlərinin yaradılmasına ehtiyac günü-gündən artmaqdadır. Bu da olduqca təbiidir. Zaman keçdikcə mürəkkəbləşməkdə olan cəmiyyətdə sosial xarakterli hər hansı bir problemin həll edilməsi, proseslərin idarə edilməsi xeyli çətinləşir. Bu sahədə elmin köməyinə tələbat artır.

Müasir dövrdə bir çox elm sahələrindən bəhrələnərək sosial problemlərin həlli sahəsində xeyli təkmilləşmiş elmi metodlar sosial işlərin uğurla yerinə yetirilməsinə kömək edir. Sosial iş özü artıq bir elm sahəsi kimi formalaşmışdır.

Mövcud elmi-metodoloji bazaya əsasən hər bir sosial işin yerinə yetirilməsində onun əsaslandığı humanitar, sosial siyasət olduqca mühüm rol oynayır. Bu siyasət problemin həlli sahəsində konkret meyarların müəyyən edilməsinə kömək edir. Gənclərlə sosial iş sahəsində də bu işin əsaslandığı siyasətin həlledici rolu vardır. Məmnuniyyətlə qeyd edə bilərik ki, ulu

öndərimiz, öz dövrünün çox görkəmli siyasətçisi, müasir dövlətimizin əsas qurucusu olan kimi formalaşdırdığı, ölkəmizin gələcəyi üçün möhtəşəm rol oynayan ümumi siyasət, humanitar, sosial siyasət də gənclər siyasətimizin əsasını qoymuşdur. Bu siyasət gənclərimizlə bağlı bir çox sosial problemlərin həll edilməsi üçün qurulan sosial işdə böyük uğur qazanmağa fundemantal şəkildə kömək edir.

H. Əliyev ölkəmizdə ikinci dəfə dövlət başçısı kimi fəaliyyətə başladığı dövrdə ilk növbədə verdiyi əsas qərarlardan biri də ümumi inkişaf siyasətimiz çərçivəsində gənclərimizlə bağlı siyasətin formalaşdırılması oldu. Gənclərimizin bütün təbəqələrinin nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə bu siyasətin əsası qoyuldu. Görüşdə bu istiqamətdə görülməli olan işlərin əsas məqsəd və vəzifələri müəyyənləşdi. 2002-ci il 9 aprel tarixində Milli Məclisdə "Gənclər Siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu" qəbul olundu.

Bundan əlavə ümumi siyasətimizlə, humanitar, sosial siyasətimizlə bağlı qəbul edilən xeyli sayda sərəncamlar, qanunlar, digər mühüm sənədlər mükəmməl bir gənclər siyasətinin formalaşmasına kömək etdi.

Bu siyasət aşağıdakı istiqamətlərdə görülən işlərdə əvəzedilməz rol oynayır:

1) Gənclərimizin fəaliyyəti ilə bağlı ideyaların formalaşmasında;
2) Bu fəaliyyətin ölkəmizin tərəqqisində faydalı olması üçün əsas strategiyaların, prinsiplərin seçilməsində;
3) Gənclərimizin vətənpərvilk ruhunda, daha mənəviyyatlı inkişafında;
4) Bu problemlərin həllinə kömək edən layihələrin, fəaliyyət proqramlarının, yol xəritələrinin hazırlanmasında;
5) Gənclərimizin problemləri ilə bağlı sosial işlərin daha mükəmməl şəkildə qurulmasında və həyata keçirilməsində və s.

Bu gün torpaqlarımızın işğaldan azad olunmasında, böyük quruculuq işlərinin aparılmasında qazandığımız uğurların hər birində eyni zamanda Heydər Əliyev siyasəti mühüm rol vardır. 07 fevral 2024 – cü ildə keçirilən növbədənkənar preziden seçkilərində bu siyasət gənclərimizə öz mövqelərini müəyyənləşdirməkdə xeyli kömək etdi.

Qeyd etmək lazımdır ki, indiki vaxtda gənclərimizlə bağlı sosial işlərin yerinə yetirilməsində Heydər Əliyev siyasətindən daha əhatəli, elmi şəkildə istifadə olunması sahəsində yeni elmi metodologiyalarr hazırlanmasına da böyük ehtiyac vardır.

## AZƏRBAYCANDA SOSİAL İŞ SAHƏSİNİN İNKİŞAFININ ƏSAS XÜSUSİYYƏTLƏRİ

**Mirzəyeva Şəbnəm Tərlan qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycanda sosial iş sahəsinin səmərəli inkişafı son illərdə daha aydın müşahidə olunur. Bu inkişaf sosial təşkilatların sayının artması, fəaliyyət sahələrinin genişlənməsi və təhsil-təlim imkanlarının inkişafı ilə əlaqədar olmuşdur. İlk olaraq, sosial iş təşkilatlarının sayında artım diqqəti çəkir. Belə ki, Azərbaycanda sosial problemlərin həllinə dair fəaliyyət göstərən təşkilatların sayı xeyli artmış və onların fəaliyyət dairəsi daha geniş sahəni əhatə etmişdir. Bu təşkilatlar, əsasən sosial yardım, təhsil və sağlamlıq sahələrində fəaliyyət göstərərək insanların problemlərinin optimal həlli yollarını tapmağa çalışırlar. "Nəqliyyat və İnfrastuktur Müdafiəsi İctimai Birliyi", "Gəncə Qadın Mərkəzi" və "İctimai Rifah və Sağlam İnkişaf İctimai Birliyi" kimi sosial problemlərin həlli istiqamətində fəaliyyət göstərən təşkilatların sayı xeyli dərəcədə artmış və onların fəaliyyəti daha geniş sahələri əhatə etməyə başlamışdır. "İnkişaf və Sosial Müdafiə İctimai Birliyi" kimi təşkilatlar isə sosial qruplara dəstək olmaq üçün xüsusi proqramlar və layihələr təşkil edirlər. Bu təşkilatların fəaliyyəti ictimai rifahın yüksəldilməsi və sosial problemlərin minimuma endirilməsinə yönəldilmişdir.

İkincisi, sosial iş sahəsində təhsil və təlim imkanlarının artması önəmli bir məqamdır. Universitetlər, təhsil mərkəzləri və beynəlxalq təşkilatlar sosial iş sahəsində peşəkar təhsil

proqramları təşkil və təklif edir, sosial iş sahəsində çalışanlar üçün peşəkarlaşma imkanlarını artırır. Bu, sosial iş sahəsində fəaliyyət göstərən kadrların daha yaxşı hazırlanmasına və sosial problemlərin daha effektiv şəkildə həllinə kömək edir.

Üçüncü olaraq, sosial sahibkarlığın inkişafı da diqqət çəkən bir məqamdır. Azərbaycanda dövlət və beynəlxalq təşkilatlar sosial sahibkarlığı dəstəkləyən layihələr və fondlar təşkil edir. Bu, sosial problemlərin həllinə alternativ yolları təmin edir, yeni iş sahələri yaradır və inkişafı dəstəkləyir. Həmçinin Azərbaycan sosial iş sahəsində beynəlxalq təcrübə ilə də əlaqəli olmuşdur. Beynəlxalq təşkilatlarla iş birliyi sayəsində sosial iş sahəsindəki təcrübə və standartlar daha da yaxşılaşmaqdadır. Bütün bu, qeyd etdiklərimiz Azərbaycanın sosial iş sahəsinin daha da inkişafına əlverişli şərait yaratmış və bu sahədəki problemlərin effektiv yollarının tapılmasına kömək etmişdir.

Nəticə olaraq, Azərbaycanda sosial iş sahəsinin inkişafı sosial problemlərin həllinə və ictimai rifahın artırılmasına əhəmiyyətli töhfələri təmin edir. Bu sahədəki fəaliyyətlərin dəstəklənməsi və təcrübə mübadiləsi davamlı olaraq daha effektiv həll yollarının tapılmasını şərtləndirəcəkdir.

## SOSİAL SAHİBKARLIQ GƏNCLƏRİN İŞSİZLİYƏ QARŞI MÜBARİZƏSİNDƏ TƏSİREDİCİ FAKTOR KİMİ

**Nazar Aysu Əlikram qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İşsizlik bir çox ölkədə əsas sosial problemlərdən biridir. Təəssüf ki, müasir dövrdə işsizlikdən əziyyət çəkən gənclərin sayı getdikcə artmaqdadır. Sözü gedən vəziyyət cəmiyyətin iqtisadi və sosial həyatının inkişaf etməsinin qarşısında duran böyük bir maneədir. Sosial sahibkarlıq işsizlik probleminə alternativ və innovativ həllər təklif edərək, gənclərin məşğulluğunu artırmaq və gənclər üçün iqtisadi fürsətlər yaratmağa çalışır. Sosial sahibkarlar mənfəət qazanmaq məqsədi daşımayan təşkilatlar və ya şirkətlərin təsiri ilə cəmiyyətdəki problemləri həll edən və davamlı dəyişiklik yaratmağı hədəfləyən şəxslərdir. Bu səbəbdən, sosial sahibkarlığın işsizliklə mübarizədəki rolu hərtərəflidir. Əvvəla, sosial sahibkarlar gənclərə iş bacarıqları qazandırmaq, peşə təhsili və işlə təmin etmək proqramları təklif edərək öz işçi qüvvələrinin sayını artırmağa çalışır. Bu proqramlar gənclərin iş dünyasına inteqrasiya etməsinə və işəgötürənlərlə əlaqə quraraq məşğulluq imkanları əldə etməsinə köməklik göstərir. Bundan əlavə, sosial sahibkarlar gənclərin öz işlərini qurmalarına və sahibkarlıq bacarıqları əldə etməsinə istiqamətlənən dəstək və mənbələr yaradaraq, gənclərin iqtisadi müstəqillik əldə etmələrinə çalışır. Bu isə gənclərin yeni ideyalarını həyata keçirməyə və öz bizneslərini yaratmağına səbəb olur. Həmçinin, gənclərin yerli iqtisadiyyata və cəmiyyətə fayda verməsin imkan yaradır. Sosial sahibkarlıq həm də gənclərin cəmiyyətdəki ehtiyaclara uyğun həssas layihələri inkişaf etdirərək, ona müsbət təsir göstərməsini təmin edir.

Sosial sahibkarlıq, gənclərin yeni ideyalarını həyata keçirməsini və öz bizneslərini yaratmağı təmin edərkən, eyni zamanda, onların liderlik bacarıqlarını, sahibkarlıq ruhunu və davamlı iş modellərini inkişaf etdirməyə yardımçı olur. Bu da gənclərin işsizliklə mübarizəsində müstəqil və uzun müddətli həllər yaratmağa səbəb olur. Sosial sahibkarlıq həm də gənclərin cəmiyyətə, ətraf-mühitə münasibətdə məsuliyyətli olmasını aşılayır.

Dünyada bir çox sosial sahibkarlıq layihələri gənclərin işsizliklə mübarizəsinə yönəlib və onların təcrübəsi ölkəmizdə də öyrənilməyə layiqdir:

1. Youth Business International (YBI): YBI bütün dünyada gənc sahibkarlara biznes qurmaq və biznes bacarıqlarını artırmaq üçün dəstək verən təşkilatdır. YBI maliyyə, təlim və mentorluq kimi resurslar təqdim etməklə gənclərə biznes qurmağa və məşğulluq yaratmağa kömək edir.

2. Ashoka Gənc Sosial Sahibkarlar Şəbəkəsi: Ashoka gəncləri sosial problemlərə innovativ həllər gətirərək, cəmiyyətə töhfə verməyə təşviq edən bir təşkilatdır. Ashoka-nın Gənc Sosial Sahibkarlar Şəbəkəsi gənc sosial sahibkarlara işsizliklə mübarizədə fəal rol oynamağa dəstək verir.

Azərbaycanda da sosial sahibkarlığın gənclərin işsizliklə mübarizəsində rol oynayan layihələrinə aşağıdakıları nümunələri göstərmək olar:

1. Azərbaycan Sosial Sahibkarlıq Fondu (ASGF). ASGF sosial sahibkarlıq sahəsində fəallıq göstərərək Azərbaycan gənclərinin işsizliklə mübarizəsinə dəstək verir. Fond gənc sahibkarlara maliyyə yardımı, təlim və mentorluq edir.

2. *UNICEF Azərbaycanın Sosial Mülkiyyət Təşəbbüsü*: UNICEF Azərbaycan gənclərə sosial mülkiyyət sahəsində fəal olmaqla işsizliklə mübarizədə kömək etmək məqsədi ilə bir sıra proqramlara başlamışdır və onu həyata keçirir. Bu proqramlara gənclər üçün iş təhlükəsizliyi, işçi bacarıqlarının öyrədilməsi və əmək bazarına daxil olmaq üçün dəstək proqramları daxildir.

Nəticə etibarı ilə, gənclərin işsizliklə mübarizəsində sosial sahibkarlığın rolu böyükdür. Bu sahədəki layihələr, gənclərin iqtisadi və sosial tərəfdən böyük təcrübə qazanmasına kömək olarkən, eyni zamanda, cəmiyyətdəki dəyişim və davamlı inkişaf üçün də mühüm bir potensiala sahibdir. Bu səbəbdən, sosial sahibkarlıq sahəsində görülən işlərin və onlara dəstəyin artırılması, gənclərin işsizliklə mübarizəsində təsirli və davamlı həllər tapmağa kömək edə bilər. Sosial sahibkarlıq gənclərə cəmiyyətə qarşı məsuliyyətli olmağı, cəmiyyətə müsbət təsir etməyi hədəfləyən və işlə təmin olunmaqda gənclərə kömək edən sahibkarlıq fəaliyyyəti olduğu üçün sosial sahibkarlıq layihələrinin dəstəklənməsi və gənclərin sosial sahibkarlıq fəaliyyətlərinə cəlb olunmağa təşviq edilməsi vacibdir.

## MÜƏLLİM HAZIRLIĞINDA PSİXOLOJİ ASPEKTLƏRİN ƏHƏMİYYƏTİ

**Nəbiyeva Mədinə Azər qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir dövrümüzdə müəllim hazırlığında əsas diqqət mərkəzində olan mövzulardan biri pedaqoqların həm bilikli, həm də bacarıqlı yetişdirilməsidir. Bilikli müəllim dedikdə fənni ilə bağlı məlumatlara, bacarıqlı müəllim dedikdə isə biliklərini sinifdəki şagirdlərə ötürmək üçün müxtəlif üsul və metodlara sahib olan şəxs başa düşülür. Müəllim hazırlığı idrak inkişafının təmin edilməsi, effektiv ünsiyyətin qurulması, sinifin idarə edilməsi və müsbət öyrənmə mühitinin təşviqini öyrədir və təlim edir. Bu, tədris metodlarını təkmilləşdirmək və şagirdlər üçün cəlbedici təhsil təcrübəsi yaratmaq üçün psixoloji prinsiplərin tətbiqini nəzərdə tutur.

Müəllim hazırlığı ilə məşğul olan ali təhsil müəssisələrinin pedaqoji psixologiya fənni ilə nəzərdə tutulmuş psixoloji aspektlər gələcək pedaqoqlara öyrədilmiş olur. Pedaqoji psixologiyanın əsasında müəllimlərin gələcəkdə siniflərdə istifadə edəcəyi proqramları, müxtəlif resursları, müəllimlərin davranış şəkillərini və s. əhatə edir. Bütün bunların əsasında isə şagirdlərin özünəməxsusluğu durur.

Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Bir sinifdə minimum 20 şagirdin olduğunu nəzərə alsaq, onların hər birinin müxtəlif dünyagörüşünə, qavrama potensialına, maraq dairəsinə, sosial mənsubiyyətə, fərqli xarakterə malik fərdin olduğunu anlamalıyıq. Təbiidir ki, hər bir şagirdin bu kimi özəlliklərinə uyğun ayrıca proqram təşkil etmək, resurslarla təmin etmək bir qədər absurddur. Bu zamanı müəllimin üzərinə düşən əsas məsələ onları uyğunlaşdırmağı bacararaq, bir neçə tədris proqramı əsasında öz sinifinə uyğun proqram təşkil etmək, tədris prosesi ərzində istifadə edilən resursların hamıya uyğunlaşdırılmasını təmin etməkdir. Onlar həmçinin, fərdi

şagirdlərin ehtiyac və qabiliyyətlərinə uyğunlaşdırılmış effektiv tədris metodlarından istifadə etməyə təşviq edilməlidir.

Müəllimin psixoloji aspektlərdən xəbərdar olması onun şagirdlərinin öyrənmə tərzlərini müəyyənləşdirməyə və bunun əsasında tədris prosesinin əhəmiyyətini artırmağa imkan verir. Müəllim, öyrənmə tərzlərinə diqqət yetirərkən əsasən davranışçılıq, koqnitivizm, konstruktivizm, humanizm, sosial öyrənmə və konnektivizm kimi fərqli nəzəriyyələrini xüsusilə nəzərə almalıdır.

Hər bir öyrənmə tərzi fərqli gücləri və zəiflikləri ola bilən şagirdlər üçün əlverişli olabilir, buna görə də müəllim təcrübəli və müvəffəqiyyətli bir tədris metodologu olmaq üçün bu fərqli nəzəriyyələri effektiv şəkildə birləşdirməlidir.

Digər bir tərəfdən müəllimlərin psixoloji olaraq nəzərə almalı olduğu məqam hər bir öyrənənin intellekt səviyyəsinin, öyrənmə stilinin müxtəlif olmasıdır. Öyrənənlərin çox növlü zəka səviyyəsinin olduğunu araşdırmaları ilə təsdiq edən Harvard Universitetinin təhsil üzrə professoru Hovard Qardnerin nəzəriyyəsi pedaqoqların özlərinə rəhbər tutduğu biliklərdəndir. Ona görə, insanın zəkası ən azı 8 müxtəlif növ zəkadan ibarət olur:

Sözsüz-zəka (kinestetik zəka): Həssas əlaqələr, simvolik fikirlərin anlaşılması və mədəni ifadələrin yaratılması üzərindəki qabiliyyətləri ifadə edir.

Məntiqi-matematik zəka: Məntiqi hesablama, problem həll etmə və riyaziyyatlı düşünmə ilə əlaqəlidir.

Lüğət-zəka: Dilə nəzarət, lüğət və dil qanunlarına maraqlı, lüğət sərəncamlarını yaxşı anlama və lüğət ifadələrində rəngarənglik yaratma bacarıqları əhatə edir.

Məntiqi-şəkil zəka: Görsəl məlumatları düşünmə və yaradıcılıq, mənzərələri məntiqi olaraq anlama üçün əhəmiyyətlidir.

Muzikal zəka: Musiqi qaydalarının yaxşı anlaşılması, musiqi alətləri ilə başa düşmə və musiqi ifadəsi üzərindəki qabiliyyətləri ifadə edir.

Əhval-zəka (sosial zəka): Başqalarının ehtiyaclarını anlamaq, empatiya qurmaq, sosial interaksiyaları idarə etmək və münasibətləri inkişaf etdirmək üçün əlaqələndirilir.

Naturalist zəka: Təbii dünyanın məntiqini anlamaq, bitki və heyvanlar arasındakı münasibətləri anlamaq, təbii hadisələrin qaydalarını müəyyənləşdirmək və təbiət ilə ünsiyyət qurmaq üçün əhəmiyyətlidir.

İnterpersonal zəka: Başqaları ilə yaxşı əlaqələr qurmaq, liderlik bacarıqlarını inkişaf etdirmək, qrup içi dinamikaları anlamaq və təşkil etmək üçün əhəmiyyətlidir.

Qardnerin bu çoxnövlü zəka nəzəriyyəsi, müəllimlərə insanın müxtəlif güclərinin və bacarıqlarının çeşidli növ və formalarını tanımağı təşkil edir və bu da təhsil prosesində və həyatın müxtəlif sahələrində insanların güclərini müvafiq şəkildə inkişaf etdirməsinə kömək edir.

Tədris prosesində müəllimin müxtəlif üsul və vasitələrlə şagirdlərin bu kimi xüsusiyyətlərini müəyyən etməsi mümkündür. Bunun üçün müşahidə etmək, testlərdən istifadə etmək, şagirdlərlə diskusiyaya girmək, valideynlərlə ünsiyyətə girmək və müxtəlif tədris resurslardan istifadə etməklə sinifin ümumi vəziyyətini müəyyən etməsi mümkündür.

Müəllimlərin şəxsiyyətyönümlü tədris prosesini qurması və məktəb-sinif mədəniyyətini formalaşdırması üçün onların şagirdlər və valideynlər ilə effektiv ünsiyyət qurması çox böyük əhəmiyyət daşıyır. Müəllimlərin şagirdlər arasında dəstək və dəyərli hiss yaratmaq üçün aydın gözləntilər, sərhədlər və təlimatlar müəyyənləşdirməsi əhəmiyyətli bir addımdır. Bu, təhlükəsiz və hörmətli bir öyrənmə mühiti yaratmağa kömək edir. Müəllimin bu cür təhlükəsiz psixoloji mühit təşkil etməsi üçün valideynlər ilə daim əməkdaşlıq şəraitində fəaliyyət göstərməlidir. Bu, valideynləri sinif fəaliyyətlərinə cəlb etməklə, şagirdləri qruplarda işləməyə həvəsləndirmək və şagirdlərin dərsdənkənar fəaliyyətlərdə iştirakına imkan yaratmaqla həyata keçirilə bilər.

Müəllimlərin üzərinə düşən digər bir psixoloji aspekt isə şagirdlərin tədris prosesində motivasiyasını təmin etməklə, onların hər birinin dərsdə iştirakını təmin etməkdir. Bunun

üçün müəllim hazırlığı zamanı pedaqoqlara dərsin maraqlı aparılması yolları təlqin edilir. Bunlara əyləncəli tədris metodlarından instifadəni, praktik təcrübələrin həyata keçirilməsini, dinamik tədris metodlarından istifadəni, şəxsi diqqət göstərməyi, texnologiyadan istifadəni və s. misal göstərə bilərik.

Ümumiyyətlə peşəkarlıq və səriştəlilik müəllimin fəaliyyətində əhəmiyyətli yer tutur. Danılmaz həqiqətdir ki, müasir müəllimin səriştəli olması, təşkilatçılığı, motivasiyası və nəzarət qabiliyyəti öyrənənlərin tərəfdarlığını və mədəniyyətini formalaşdırır.

## ЗНАЧИНИЕ ЗКЗАМЕНА В ОБУЧЕНИИ И ВОСПИТАНИИ КИТАЙСКИХ ШКОЛЫНИКОВ

**Пу Дань**

*Азербайджанский государственный педагогический университет*

Современное обучение-это модель образования, основная цель которой состоит в том, чтобы подготовить учащихся к получению высоких или отличных результатов на сдаче экзаменов. Особое внимание уделяется запоминанию и прикладным способностям учащихся к получению знаний, а также развитию навыков сдачи экзаменов в целях достижения хороших результатов на академических экзаменах. При оценке успеваемости учащихся в рамках экспериментального обучения обычно используется стандартизированная система экзаменов и оценок. Образование на основе экзаменов обычно практикуется в тех системах образования, где результаты экзаменов оказывают значительное влияние на поступление учащихся в школу, их трудоустройство и продвижение по службе. В нем делается упор на целенаправленную подготовку по предметным знаниям и освоение навыков сдачи экзаменов в целях достижения высоких результатов в условиях экзаменационной обстановки, характеризующейся высоким уровнем напряжения. Учебные программы часто ориентированы на запоминание и применение знаний и относительно мало внимания уделяется развитию творческих способностей учащихся, критического мышления и способности решать возникающие проблемы.

Отличительной чертой обязательного обучения является использование результатов экзаменов в качестве единственного критерия оценки и уделение меньшего внимания развитию и личностным качествам учащихся, что может привести к тому, что мотивация учащихся к обучению будет в основном обусловлена стрессом, связанным с проведением экзаменов, а не подлинным интересом и внутренней мотивацией к обучению. В то же время обязательное образование легко приводит к неравномерному распределению образовательных ресурсов, поскольку ученики и школа тратит много времени и сил на погоню за высокими баллами, игнорируя необходимость всестороннего развития учеников.

Тем не менее, обучение и имеет свои требования к экзаменам, также имеет свои причины и оправданность, особенно в условиях высокой конкуренции в обществе, где результаты экзаменов часто являются одним из важных факторов получения учащимися возможностей и дальнейшего развития.Таким образом, в рамках реформы образования также изучается вопрос о том, как уравновесить начальное образование и необходимость развития всестороннего развития учащихся, пропагандируя развитие у учащихся таких комплексных навыков, как творческий потенциал, критическое мышление, дух сотрудничества и практические способности.

Экспериментальное обучение имеет свои преимущества. Успехи и способности учащихся измеряются по результатам экзаменов, что приводит к определенному давлению на их успеваемость и тем самым повышает их соревновательное сознание.Это чувство соперничества не только проявляется в соперничестве между

студентами, но и способствует постоянному вызову и прогрессу учеников по отношению к самим себе.

Поскольку в рамках экзаменационного обучения ценятся результаты экзаменов, результаты учеников тесно связаны с их собственными усилиями и самодисциплиной. Студенческие советы стараются учиться и самодисциплинированно управлять своим временем и поведением, чтобы добиться хороших результатов. Такая способность к самоуправлению и дух самодисциплины очень важны для будущего развития ученика.

В ходе обязательного обучения изучаются не только предметные знания учащихся, но и их способности и навыки сдачи экзаменов. Сдавая экзамены и повторяя упражнения, ученики постепенно овладевают навыками сдачи экзаменов и развивают свои способности к обучению. Эти способности и навыки важны не только после поступления в высшие учебные заведения, но и положительно влияют на будущую работу и жизнь студентов.

Благодаря открытой и объективной системе оценки экзаменов обязательное обучение предоставляет студентам честную платформу для конкуренции. Такая система оценки позволяет не влиять на оценку учащихся субъективными факторами и справедливо отражать результаты обучения и способности учащихся.В некоторых случаях экспериментальное обучение может даже устранить социальную несправедливость.

Повышению качества и уровня образования способствует обязательное обучение. Учащиеся должны научиться овладевать определенными предметами и навыками в течение определенного периода времени, что требует от преподавателей не просто преподавать по учебникам, но и уделять внимание развитию у учеников способностей к обучению и навыков сдачи экзаменов. Наличие обязательного образования может способствовать улучшению преподавания и повышению квалификации преподавателей.

Современное обучение способствует развитию у учащихся чувства состязательности и способности к самодисциплине, что повышает их социальную конкурентоспособность. Студенты могут постоянно совершенствовать свои способности к учебе, работе и инновациям в условиях жесткой конкуренции, закладывая прочный фундамент для своего будущего.

Успехи и способности учащихся оцениваются по результатам экзаменов, что открывает перед учащимися возможности для продвижения по службе и развития. Учащиеся могут получить более широкие возможности для получения образования и профессионального роста, поступив в хорошую среднюю школу, университет или аспирантуру. Эти возможности открывают перед учащимися более широкие возможности для будущего и развития.

Хотя обязательное обучение ориентировано на результаты экзаменов, оно также способствует самопознанию и развитию личности учащихся. Сдавая экзамены и размышляя о своем учебном процессе, учащиеся могут постепенно осознать свои особенности и потребности и дальше развивать свою индивидуальность[1].

экзамены в системе современной системы обучения развивает у учащихся чувство состязательности и способности к обучению, что помогает учащимся лучше адаптироваться к конкуренции и переменам в обществе. Ученики могут научиться сотрудничать, адаптироваться и внедрять инновации в условиях конкуренции, чтобы подготовиться к тому, чтобы в будущем войти в общество.

Важной составной частью развития страны является обязательное обучение. Посредством экспериментального обучения страна сможет подготовить еще больше талантов и инновационных кадров[2], содействовать процветанию и развитию всех сфер деятельности. Важное значение для долгосрочных интересов страны имеет также экспериментальное обучение.

С учетом нынешней ситуации основные проблемы в области начального образования заключаются в том, что, во-первых, дети и подростки не обладают открытым мышлением, творческими способностями и комплексными качествами; Во-вторых, ученики сталкиваются с сильным беспокойством и стрессом при проведении экзамена, что оказывает существенное негативное влияние на физическое и психическое здоровье учеников[3]. В рамках экспериментального обучения учащиеся отдают предпочтение механическим и заучиваемым методам обучения, которые редко затрагивают вопросы глубокого осмысления и понимания содержания учебной программы, что приводит к дисбалансам и несправедливости в образовании.

Хотя экспериментальное обучение имеет некоторые негативные последствия, оно также обладает многими преимуществами.Таким образом, есть несколько вариантов решения проблем, связанных с экспериментальным обучением. Во-первых, семья и общество должны сосредоточиться на развитии реальных жизненных способностей ребенка, чтобы повысить его способность к всестороннему развитию и инновациям, особенно важно воспитание бессмертных. Во-вторых, школы и правительство должны продвигать реформы и выступать и инновационно ориентированный подход к обучению. Кроме того, сектору образования следует поощрять школы к использованию Интернет-технологий в целях предоставления учащимся более богатых и разнообразных учебных ресурсов[4]. Необходимо адаптироваться к потребностям развития современного общества. Целью обязательного обучения является подготовка высококвалифицированных кадров, однако для того, чтобы они соответствовали потребностям современного общества, следует ориентироваться на комплексные кадры, обладающие отличными предметными способностями, а также выдающимися комплексными качествами и способностью реагировать на будущие социальные изменения. Необходимо сломать учебное мышление и сосредоточиться на практических способностях. В обязательном обучении особое внимание уделяется передаче знаний и результатам экзаменов. В целях более эффективного развития практических способностей учащихся содержание обучения должно быть максимально приближено к реальной жизни и производственной практике. Образование может побудить учащихся к активному участию в различных практических занятиях и социальных практиках, дальнейшему углубленному обучению и практическому освоению знаний, а также к раскрытию своего потенциала и способностей на практике. Необходимо путем реформирования экзаменационной системы постепенно ликвидировать недостатки, связанные с обязательным обучением.Реформа методов оценки требует широкого участия всех слоев общества, экспертов и ученых в разработке критериев и методов проведения экзаменов, которые в большей степени отражают уровень обучения и компетентности учащихся; Педагогическая реформа должна сосредоточиться на сочетании теории и практики,больше внедрять открытые изыскания, открытия и инновационную деятельность,повышать интересность и откровенность обучения. Реформируя экзаменационную систему, мы должны также уменьшить чрезмерную нагрузку на учащихся и давление, связанное с проведением экзаменов, с тем чтобы они могли лучше развиваться и расти, а также обладать более широкими способностями к обучению и инновациям. Следует также отметить, что успех экспериментального обучения зависит не только от учебных механизмов и педагогов, но и от роли учащихся и семей. Семейное воспитание в настоящее время приобретает большое значение. Родители должны активно направлять детей на формирование правильных установок и ценностей к обучению, помогать им в формировании самосознания и уверенности в себе в ходе экзаменационного обучения, рассказывать детям о своих сильных и слабых сторонах, смело брать на себя ответственность, развивать их совокупные качества и способности. Особенно необходимо развивать у детей навыки речевого самовыражения и социальные навыки,

чтобы они обладали более сильными совокупными качествами и способностями к трудоустройству.

Для учащихся обязательное обучение представляет собой вызов и возможность. Студентам необходимо осознать суть образования, понять важность и необходимость экзаменов, заручиться многогранной поддержкой и помощью, а также овладеть навыками сдачи экзаменов и методами обучения, успешно справляться с различными экзаменами, максимально использовать свои личные преимущества и потенциал, бороться за осуществление своей жизненной мечты.

Образование на экспериментальной основе вносит позитивный вклад в подготовку высококвалифицированных кадров, однако мы должны признать, что проблемы, с которыми оно сталкивается, не являются непреодолимыми и что если мы примем правильные концепции образования и меры по реформированию, то в будущем мы сможем добиться более всеобъемлющего, плюралистического и научного образования. В этом процессе мы должны сосредоточиться не только на развитии предметной компетентности студентов, но и на повышении их совокупных качеств и способностей к собственному развитию, чтобы студенты лучше адаптировались и развивались в этом более конкурентном обществе, а также вносили еще более ценный вклад в дело государства и общества.

Подводя итог, можно сказать, что обязательное обучение является важной системой в китайском образовании и тесно связано с национальными условиями и культурными традициями Китая. Основная проблема, с которой сталкиваются китайские студенты в процессе обязательного обучения, заключается в том, что в центре внимания находится способность к творческому мышлению и развитию всесторонних качеств, в то время как основное внимание уделяется способности решать экзаменационные задачи. Для решения основных проблем необходимо объединить усилия всего общества и принять целый ряд комплексных мер, с тем чтобы учащиеся могли получить более качественное образование и развиваться.

**Литература**

1.Ли Цзинин, анализ проблем семейного воспитания в нашей стране, Магистерская диссертация Восточно-Китайского педагогического университета [D].-2006.41

2.Лю Айцин,“Двойное сокращение” и “прорыв” в обучении сдаче тестов[J]-2012.

3.Цзян Ронгронг, Следует ли разрезать ”обучение сдаче тестов" на части. 2021.

4.Фэн Инцзе.Основываясь на результатах вступительных экзаменов в колледж, измените обучение по сдаче тестов на прикладное образование,[J-]2022.

## РЕЗЮМЕ

Под обязательным образованием в Китае понимается система образования, в которой экзамен имеет приоритет и которая широко распространена по всей стране. В рамках этой системы изучаются прежде всего способности учащихся к сдаче экзаменов и уровень их знаний, с тем чтобы они могли получить более высокие результаты. Система обязательного обучения в Китае возникла в период феодального строительства и продолжается уже сотни лет. Она является знаковой системой в современной системе образования Китая.

**Ключевые слова:** Китай、образование、система образования、результат、способности.

**SUMMARY**

Compulsory education in China is understood as a test-first, widely distributed education system across the country. The system mainly examines the ability and knowledge level of students to pass the exam, so that they can get better results in the exam. The compulsory education system originated in the feudal construction period and has a history of hundreds of years. It is a landmark system in China's modern education system.Modern education is a mode of education whose main purpose is to prepare students to achieve high or excellent results through examinations.

**Key words:** China、education、education system、consequence、method.

## ÖYRƏNMƏ FƏALİYYƏTİNİN PSİXOLOJİ MƏZMUNU

**Rəcəbova Gülyanaq Ehtibar qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir və yeniləşməkdə olan dünya həyatımızın istənilən sahəsinə yeni tələblər qoymaqla bərabər təlim fəaliyyətinə, təlim-tədris işlərinə yeni tələblər irəli sürür. Milli dəyərlər əsasında qurulan təhsilimizin hal-hazırkı inkişaf mərhələsində tədris prosesində biliklərin "hazır" şəkildə öyrənilməsi artıq öz yerini yaradıcı, fəal öyrənməyə vermişdir. Aydın məsələdir ki, öyrənmə insanın həyatı boyu əsas fəaliyyət növlərindən biridir. Öyrənmə prosesi dedikdə, biliklər sistemi, bacarıq və vərdişlərin mənimsənilməsi və sonradan bunların təcrübəyə tətbiq edilməsinə yönəlmiş məqsədəyönlü idraki fəaliyyəti nəzərdə tutulur. Bununla da deyə bilərik ki, mənimsəmə müxtəlif növ fikri əməliyyatlarla əlaqəli şəkildə olduğundan, o fəal bir proses kimi cərəyan edir. Məhz təlim prosesində şagirdlərin öyrənmə fəaliyyəti həyata keçirilir. XXI əsrin təlim-tədris fəaliyyətində öyrətmək dedikdə, müəllimlə birgə fəal əməkdaşlıq şəraitində biliklərin, bacarıq və vərdişlərin mənimsənilməsinin sürət və keyfiyyətinin fərdi göstəriciləri nəzərdə tutulur. Bu zaman bunu nəzərə çarpdıra bilərik ki, öyrənmə şagirdlərin yalnız daxili psixoloji imkanlarına deyil, həmçinin şagirdin müəllimlə faydalı münasibətə girmə meyilinə də əsaslanır. Hal-hazırda təlim prosesi zamanı müəllim şagirdlə qarşılıqlı əməkdaşlıq şəraitində və uşaqların iştirakı ilə bilik, bacarıq və vərdişləri müstəqil mənimsəmələrinə şərait yaradır və həmin bu prosesi idarə edir. Bir başqa sözlə, uşaqlara "öyrənməyi öyrədir". Bu baxımdan deyə bilərik ki, təlim öyrənənlərin yəni, uşaqların, şagirdlərin tələbələrin, gənclərin bilik, bacarıq və vərdişlərin mənimsənilməsində idraki fəaliyyətlərinin öyrədən tərəfindən idarə edilməsi prosesidir.

Burada qeyd edilməli olan əsas məsələlərdən biri də, təlim materialının mənimsənilməsində şagirdlərdə öyrənməyə müsbət münasibətin formalaşdırılmasıdır. Təlim prosesi şagirdin malik olduğu öyrənmə meyilləri, həvəsi ilə əlaqələndirilərsə, bu zaman təlim materialı daha yaxşı anlaşılar. Bilmək əslində hələ hər şey demək deyildir. Əsas biliyi təcrübəyə tətbiq etməkdir. Bu da onu göstərir ki, şagirdin müstəqil fəaliyyətdə informasiyaların tərkib və tiəhlilinə, qərarlar qəbul etməsinə, həyata keçirməsinə hazır olması da əsasdır. Bu nöqteyi-nəzərdən qeyd edə bilərik ki, müəllimin mövqeyi öyrətmək, fənnə həvəs, maraq oyatmaq, informasiya mənbəyi deyil də, informasiya almanın təşkilatçısına, idraki fəaliyyətə təhrik edən zehni və mənəvi impulsa çevrilir.

Tanınmış pedaqoq və psixoloq L.V.Zankovun fikrinə görə, insanın hərtərəfli inkişafı, daxili və mənəvi zənginliyi həmin insanın biliyə, incəsənətə. elmə meyili, marağı olmadan qeyri-mümkündür. Bu da, yalnız şagirdin öyrəndiyi təlim materialına marağı yarandıqda, şagird öyrənməyə tələbat duyduqda baş verir. Şagirdlərdə öyrənməyə maraq və tələbatı formalaşdırmaq metod və üsulların təsiri ilə həyata keçir. Həmin bu metod və üsulların psixoloji mexanizminin mahiyyətini məşhur didaktik alim M.A.Danilov "biliksizlik və bilik arasında daxili əksliklərin həyəcanı" adlandırırdı.

Uşaqların idraki fəallığı öyrənmə prosesinin hərəkətverici qüvvəsini təşkil edir. Şagirdlərdə öyrənməyə tələbatın və marağın formalaşdırılması müəllimin pedaqoji ustalığından, onun öyrənənlərə hörmət və tələbkarlığa əsaslanan münasibətindən, təlimin metod və üsullarının düzgün seçimindən, şagirdlərdə öz qüvvələrinə inamın aşılanmasından və s. asılıdır. Bunun üçün öyrədən tərəf, yəni müəllimlər müxtəlif didaktik metod və üsullardan istifadə etməlidirlər. Müəllim bu zaman "müqayisə edin", "təhlil edin", "ümumiləşdirin", "fərqləndirin" kimi produktiv fəallığa təhrik edən suallar hazırlayaraq düşündürməyə vadar edən tapşırıqlar verməlidir. Müəllimin burada əsas məqsədi dərsə, təlimə uşaqda maraq formalaşdırmaqdır ki, bunu sadə priyomların növbələşdirilməsi, digər fənlərə inteqrasiya, müəllimin fəallığı, emosionallığı, dərs boyu maraqlı fakt və misalların, nümunələrin çəkilməsi ilə nail olmaq olar.

Psixoloji-pedaqoji ədəbiyyatlarda öyrənmə prosesi ilə əlaqədar müəyyən konsepsiyalar və nəzəriyyələr irəli sürülmüşdür. Bunlardan biri isə Blumun öyrənmə taksanomiyasıdır. B.Blum məhz bu taksanomiyanı təklif etməsilə öyrənmə fəaliyyətinin üç əsas növünü müəyyən etmişdir: 1. Koqnitiv öyrənmə - idraki bacarıqlar; 2. Affektiv öyrənmə - hiss və emosional sahələrdə inkişaf; 3. Psixomotor öyrənmə - fiziki və ya praktiki bacarıqlar.

Öyrənmə fəaliyyətinin bu sadalanan növləri kateqoriya kimi düşünülə bilər. Bunu qeyd edə bilərik ki, təlimçilər, müəllim və öyrədənlər bu üç kateqoriyanı BBM (Bilik, Bacarıq, Mövqe) adlandırırlar. Məhz bu öyrənmə taksanomiyası "öyrənmə prosesinin məqsədi" kimi xarakterizə olunur. Buna görə də, öyrənmə prosesindən sonra öyrənənlər mütləq yeni biliklər və bacarıqlar əldə etməlidirlər. B.Blumun rəhbərliyi əsasında işləyən qrup koqnitiv və affektiv öyrənmə fəaliyyətləri üçün bir strateji izahat tərtib etmişlərdir. Ancaq bu izahat psixomotor öyrənmə fəaliyyəti üçün nəzərdə tutulmamışdır. Daha sonralardan Blum və qrupunun bu nəzərdən qaçırılmış "səhvləri" üçün olan izahatlarında belə qeyd etmişlər ki, onlar orta məktəb səviyyəsi üçün praktiki bacarıqların öyrədilməsində kiçik bir təcrübə aparmışlar.Yuxarıda göstərdiyim kimi izahat-tərtibat üç əsas bölməyə və alt-bölmələrə ayrılır. Bu bölmələr isə öz növbəsində ən sadə bölmədən ən mürəkkəb bölməyə doğru inkişaf etdirilir. Qeyd edilən bütün bu mürəkkəbliklərə baxmayaraq, Blumun taksanomiyası asan başa düşüləndir və dünya təhsil sistemində geniş tətbiq olunur. Koqnitiv öyrənmə metoduna gəldikdə isə, bura xüsusi faktların dərk edilməsi, üsul nümunələri, intellektual qabiliyyətlərin və bacarıqların inkişafına xidmət edən fəaliyyətlər toplusu daxildir. Koqnitiv öyrənmənin özünün də altı əsas bölməsi vardır ki, bu da aşağıdakı sxemdə verilmişdir.

1. Bilik: Bu, universal və xüsusi biliyin, prosedurların və metodların və ya nümunənin, strukturun və ya mühitin xatırlanmasına aiddir.

2. Qavrama: İnsanın əlaqəli olanı qiymətləndirə biləcəyi, hər hansı bir materialı və ya fikri digəri ilə uzlaşdırmadan və ya bütün nəticələri görmədən qiymətləndirə biləcəyi bir anlama və ya qavrama prosesi növünə aiddir.

3. Tətbiq: Xüsusilə də, konkret vəziyyətlər üçün konkret məlumatların istifadəsi deməkdir.

4. Təhlil: Bu isə öz növbəsində, fikirlərin nisbi iyerarxiyasının aydınlaşdırılması, ya da ifadə edilən fikirlər arasında əlaqənin aydınlaşdırılması üçün əlaqənin onun hissələrinə və ya tərkib elementlərinə parçalanmasına aiddir.

5. Sintez: Burada isə, bütövlük yaratmaq üçün hissələrin və elementlərin bir araya gətirilməsi prosesini əhatə edir.

6. Qiymətləndirmə: Verilmiş məqsədlər üçün metodların və materialların əsaslandırılması prosesinə aiddir.

Blum Taksonomiyası pedaqoqlara tələbələrin çata biləcəyi intellektual səviyyəni müəyyən etməkdə kömək etmək məqsədi daşıyır. Bu, həm də tələbələrə daha ətraflı suallar verməyə imkan verir. Bu yolla son üç pilləyə (analiz, sintez və qiymətləndirmə) çatmağa çalışan tələbələrin tənqidi düşünmə bacarıqlarını inkişaf etdirmələrinə də kömək edir. Alford, Herbert və Fragenheim-a görə, müəllimlər gündə 300-400 sual verirlər. Buna görə də

pedaqoqlar sinifdə müzakirələri təşviq etməklə, həmçinin şagirdin öyrənmə prosesini qiymətləndirməklə idrak təfəkkürünü artırmalıdırlar. Bu nöqtədə Bloom Taksonomiyası təlimçilər üçün asanlıqla tətbiq oluna bilən güclü bir vasitə kimi ortaya çıxır. Bunun səbəbi, Blum Taksonomiyası yüksək koqnitiv düşüncə, problem həlli, mühakimə, qiymətləndirmə və əks etdirmə kimi digər əlaqəli bacarıqların əldə edilməsinə imkan verməyə meyllidir. Bloom taksonomiyası sayəsində verilən çətin suallar təkcə bilik bazası yaratmır, həm də tələbənin öyrənmə prosesinə sahib çıxmasına və onun proses üzərində gücünü hiss etməsinə şərait yaradır. Bu yolla tələbələr qərar qəbul etməyə və onu ideya üzərində tətbiq etməyə həvəsləndirilə bilər. Əsasən, Blum Taksonomiyası tələbələrə təkcə sinifdə qərar qəbul etməyi öyrədir; həm də onların gündəlik həyatında lazım olan əsas bacarıqları inkişaf etdirməyə kömək edir. [1]

Öyrənmə fəaliyyəti ilə bağlı bir digər nəzəriyyə isə Kolbun təcrübəli öyrənmə nəzəriyyəsidir. Təbrübəli öyrənmə nəzəriyyəsi isə bir şəxsin iş öhdəliklərinin və bacarıqlarının ölçülməsi və dəyərləndirilməsini əhatə edən metoddur. Bu nəzəriyyə iki səviyyədə dəyərləndirilir: dördmərhələli öyrənmə periodu kimi və dörd fərqli öyrənmə metodu kimi. Kolbun bu nəzəriyyəsi təcrübə, idrak davranışı və qavrayışı özündə birləşdirən yanaşmaya sahibdir. Kolbun nəzəriyyəsinin iki əsas bünövrəsi var: hər hansı bir şəxsin məlumatı necə başa düşməsi və necə emal etməsi. Bu məlumatlar daha sonra mücərrəd təcrübə və ya mücərrəd konseptləşdirmə olaraq təsnif olunur və aktiv təcrübələr ya da ki reflektiv müşahidə ilə emal edilir.

1. Fərqliləşdirmə: Bu növ öyrənmə üslubuna sahib olan insanlar hadisələrə fərqli perspektivlərdən yanaşa bilirlər. Onların güclü təsəvvür qabiliyyətləri və incəsənət ruhları olur. Bu öyrənmə üslubuna sahib olan şəxslər qrup halında işləməyə üstünlük verir, rəylərə açıqfikirli yanaşır və fərqli mədəniyyətə aid olan insanlara qarşı geniş maraqlara sahib olurlar.

2. Özününküləşdirmə: Bu öyrənmə üslubuna sahib olanlar isə yaxşı və dəqiq məlumatlara üstünlük verir, əldə edilən məlumatı məntiqi olaraq formalaşdırır və analitik modellərini ortaya çıxarırlar. Bu üsluba sahib olan şəxslər üçün mücərrəd konseptləşdirmə və reflektiv müşahidə uyğun gəlir.

3. Yaxınlaşdırma: Bu üslubda isə bir-birinə yaxınlaşaraq işləyən qruplar problemləri həll edir. Bu qruplar öyrəndiklərini praktiki formada tətbiq edirlər. Bununla bərabər, onlar texniki vəzifələrə üstünlük verir və yeni düşüncələr sınaqdan keçirirlər. Onlar emosiyasız olmağa daha çox meyillənir, aktiv təcrübələrdən və mücərrəd konseptləşdirmədən sıxlıqla istifadə edirlər.

4. Yerbəyer etmə: Bu üsluba gəldikdə isə, burada fərdlər təcrübəyə əsaslanan işlər görürlər. Onlar bu üslubda yeni çətinliklərə maraq göstərməyi və problemləri hislərə əsaslanaraq həll etməyə üstünlük verirlər.

Təlim fəaliyyətinin düzgün aparılması ilk növbədə öyrədənlərin, yəni müəllimlərin öz işinə, pedaqoji fəaliyyətinə yaradıcı münasibətindən asılıdır. Hər bir uşaq-şagird, hər seydən qabaq, vətəndaşdır və müəllim də şagirdə bu münasibətdə yanaşmalıdır. Müəllimin pedaqoji fəaliyyətində səmimi, qayğıkeş münasibəti öz növbəsində şagirdi elmə, biliyə həvəsləndirirMəhz buna görə, indi öyrədənlər, yəni müəllimlər öyrənənləri, yəni şagirdləri yormadan, az vaxt sərf etməklə keyfiyyətli və çox iş görməlidirlər. Zəmanəmizdə pedaqoji işin, təlim fəaliyyətinin keyfiyyəti əvvəlki sistemə nisbətdə qat-qat üstün olmalı, müsbət mənada dəyişikliklər və yeniliklər hamının səyi ilə həyata keçirilməlidir. Bugün əsas məqsəd daha fəal, müstəqil, yaradıcı qabiliyyətə malik, lazımi həyati bacarıqlara yiyələnən sözün əsl mənasında vətənə, millətə, dünyaya yararlı vətəndaşlar yetişdirməkdir.

Şagirdlərin fərdi və yaş xüsusiyyətlərini nəzərə almayan müəllim təlim prosesində müvəffəqiyyət qazana bilməz. Şəxsiyyətə yanaşmada hörmətlə tələbkarlığın birliyini təmin etmək tərbiyə prosesində də, təlim prosesində də mühüm amillərdəndir. Dərsdə şagirdə nəvazişli olan, valideyn qayğısı göstərən, güzəştə getməyi bacaran müəllim, eyni zamanda, tələbkarlığını, ciddiliyini unutmursa, o, daim uğur əldə edir. Təlim və tərbiyə prosesinin

qarşılıqlı əlaqəsi və bir-birinə zəmin yaratması isə öz növbəsində pedaqoji prosesin tamlığını biraz daha gücləndirir.

Deməli, bunu qeyd edə bilərik ki, öyrənmə fəaliyyətində müəllim-şagird ünsiyyəti əsas məsələlərdəndir. Təlimdə müəllimin mülayimliyindən, qayğıkeşliyindən, səmimiyyətindən çox şey asılıdır. Müəllimdə bu keyfiyyətləri görən şagirdin isə öz növbəsində məktəbə, təlimə, öyrənməyə, biliyə meyli artır. Ancaq bu proses əksinə təzahür edərsə, şagird nəinki müəllimlə ünsiyyətdən çəkinir, onun tədris etdiyi fənnə marağı azalır, hətta digər fənlərə də soyuq münasibət göstərir.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ÜNSİYYƏT MƏDƏNİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN YOLLARI

**Rzayeva Gülşad Rəşad qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Uşaqların harmonik inkişafında səmərəli təşkilatın əhəmiyyəti və onun şəxsiyyətinin formalaşdırılmasında ünsiyyət böyük əhəmiyyət kəsb edir. Bəs uşaqlarda ünsiyyəti necə təkmilləşdirmək olar? Bunun bir çox yolları var.

1.Aktiv dinləmə

Aktiv dinləmə uşaqlara eşidildiyini və başa düşüldüyünü hiss etməyə kömək edir. Fərqli mimikalarla (təbəssümlər, başını tərpətmək və s.) uşağın danışdıqlarına olan marağı göstərmək olar.Uşaqlarla ünsiyyət qurarkən eyni göz səviyyəsində olmaq üçün aşağı əyilmək olar. Beləliklə o, özünü daha təhlükəsiz və rahat hiss edəcək. “Nə? ", " Haradan ? ", " Necə," kimi suallar verərək uşaqlara diqqətlə qulaq asdığımızı bildirə bilərik. Bu zaman uşaqlar hekayəni necə danışmaq və hansı məlumatı çatdırmaq lazım olduğunu bilirlər..

2. Yenidən ifadə etmək

Yenidən ifadə etmək uşaqların dediklərinə qulaq asmaq və onunla maraqlanmağı göstərmək üçün ən yaxşı yollardan biridir.Bu zaman sözləri güzgü kimi sual formasına çevirərək:Məsələn, hər hansısa uşaq “Mən daha Rüfət ilə oynamaq istəmirəm” deyirsə, “Artıq dostunla oynamaq istəmirsən?” deyə sualla qarşılıq vermək olar. Bu, uşaqlara öz hisslərini mühakimə etmədən ifadə etmək imkanı verir.Uşaqların hər zaman danışmaq istəyəcəyi əhvalatları vardır.

3.Aydın şəkildə ifadə etmək

Uşaqların yaşından asılı olaraq həmişə anlaya biləcəyi danışıqdan istifadə etmək lazımdır. Aydın və qısa danışmaq, uşaqları incidəcək sözlərdən istifadə edilməməlidir.. Uşaqlara nəzakətlə müraciət etmək onlara nümunə olur. Uşaqların hər söhbətində ona olan hörmət və sevgini hiss etməsi vacibdir.

4. Hissləri ifadə etmə

Uşaqların emosional intellektini inkişaf etdirmək üçün ona hiss etdiklərini ifadə etməyi öyrətmək vacibdir. Bu vəziyyətdə empatiya ilə qulaq asılmalı və mühakimə edilməməlidir. Uşaqlar emosiyalarını şifahi şəkildə danışaraq deyil, əksinə, qəzəblənərək, gülərək və ya bir fəaliyyətdən həzz almaqla ifadə edə bilər.Sevinc, kədər, rahatlıq, ağrı, qorxu , aclıq, qürur, yorğunluq, qəzəb, məyusluq, qıcıqlanma, utanc, yaxşı əhval-ruhiyyə və s.hislər göstərdiyi zaman ona hiss etdiyi reaksiyaya ad qoymağa kömək etmək lazımdır.

5. Müsbət yanaşmalar

Müəyyən bir hərəkətdən sonra hər hansısa uşağı tərifləmək onun özünə inamını gücləndirir və valideynin, tərbiyəçinin və ya müəllimin təqdir etdiyi davranışları anlamağa kömək edir. Sadə bir "yaxşı" ifadəsi əvəzinə, uşaqların hansı gözləntisinə cavab verdiyini göstərərək müsbət cavablar vermək olar.Məsələn: Nahardan əvvəl bütün oyuncaqları yığışdırdığını müşahidə etdim. Afərin sənə, gözəl iş bacardın və s. kimi ifadələrdən istifadə etmək olar.

6. Birlikdə zaman keçirtmək

Uşaqlar böyüdükcə təlim-təhsil prosesi mürəkkəbləşməyə başlayır. Buna görə də valideynlər və uşaqlar üçün birlikdə əylənmək və uşaqların istədiyi hər mövzuda danışmaq daha vacibdir:Bu zaman valideyn-usaq münasibətləri daha da güclənəcək. Övladınız üçün vacib olan mövzuya pozitiv yanaşaraq, onun maraqlarına diqqət yetirərək,müxtəlif oyunlar oynayaraq, birlikdə zarafatlar edərək zaman keçirdilməlidir.

7. Davranışları tənqid etmək

Uşaqlarla bağlı tənqidlər olduğu zaman, tənqid və izahatların onun şəxsiyyəti deyil, davranışı ilə bağlı olmalıdır.Məsələn, "Niyə bu qədər dağınıqsan?" demək yerinə"Paltarını yerə atmağı xoşlamıram"demək daha düzgün ifadədir.

8.Mükafatlandırmaq

Uşaqlar ünsiyyət qurduğu zaman müəyyən səhflərə yol aça bilərlər.Ya sözlərində qrammatik səhf ya da leksik baxımdan səhf danışa bilərlər.Uşaqların bu səhflərini nəzərə alıb onlara doğru danışmağı öyrətməyə sövq etmək üçün mükafatlardan istifadə etmək olar. Uşaqları parka,teatra aparmaq və ya onların istədiyi hədiyyələrdən alaraq uşaqların düzgün danışmasina şərait yaratmaq olar.

## GƏNC AİLƏLƏRİN ƏSAS PROBLEMLƏRİ

**Seyfəddinova Xanım Allahverdi qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Cəmiyyətin inkişaf perspektivləri baxımından gənc ailə xüsusi sosial dəyərə malikdir və sosial-iqtisadi və demoqrafik dəyişikliklərin ən mühüm amilidir. Cəmiyyətdə baş verən dəyişikliklər gənc ailələrin həyatına daha çox təsir edir.

Cəmiyyətin uzunmüddətli inkişafı baxımından gənc ailə bazar münasibətlərinə keçid mərhələsində baş verən dəyişiklikləri təmsil edir. Odur ki, bu kateqoriyadan olan vətəndaşların problemlərinə və mümkün həll yollarına diqqət yetirmək çox vacibdir.

Gənc ailənin spesifikliyi onun formalaşması, intensiv inkişafı, üzvləri arasında münasibətlərin qeyri-sabitliyi, sosial rolları mənimsəməsi, habelə ailənin müstəqil bir ailə kimi cəmiyyətdə sosiallaşması ilə müəyyən edilir.

Bu gün bəzi müəlliflər gənc ailənin aşağıdakı problemlərini müəyyənləşdirirlər: psixoloji, sosioloji, iqtisadi, hüquqi. Bunlara: həyat yolunu seçmək, peşə axtarmaq və əldə etmək, karyera yüksəlişi daxildir. Gənclər bu dövrdə ailə həyatı qurmaqla yanaşı, sosiallaşmanın müəyyən mərhələlərindən keçməli, təhsil almalı, iş axtarmalı və öz həyat mövqelərini formalaşdırmalıdırlar. Başqa sözlə desək, onlar yetkinlik və sosial subyektivliyin inkişaf mərhələsindədirlər və hələ bu mərhələdə ailə münasibətləri sferasında sosial qanunauyğunluqlar tam formalaşmamış olur ki, bu da qeyri-sabitliyə gətirib çıxarır.

Gənc ailələrin ən aktual problemləri sosial-iqtisadi və sosial-psixoloji problemlərdir. Sosial-iqtisadi problemlərə maddi, mənzil, məşğulluq və həyat səviyyəsi problemləri daxildir. Gənc ailə aztəminatlıdır, çünki gənc mütəxəssislərə əmək bazarında tələbat demək olar ki, yoxdur və geniş iş təcrübəsi olmadığından əmək haqqı azdır, bu da gənc ailələrin maddi rifahının pisləşməsinə səbəb olur. Sosial-psixoloji problemlərə isə gənc həyat yoldaşlarının bir-birinə, yeni qohumlara, yeni vəziyyətə, yəni rolların, stereotiplərin və davranış rollarının dəyişməsinə uyğunlaşma problemləri aiddir.

Qeyd etdiyimiz kimi,gənc ailənin əsas problemlərindən biri maddi və iqtisadi problemdir. Ailə həyatının ilkin mərhələsində gənclərin işsizliyi onun möhkəmlənməsinə ciddi maneədir. Gənc ailələrin gəlirləri aşağı, maddi ehtiyacları yüksəkdir, çünki ailənin mənzilə ehtiyacı var, məişətini təşkil etməlidir. Çox vaxt iqtisadi qeyri-sabitlik səbəbindən ailə münasibətlərinin ilkin mərhələsində olan gənclər uşaq sahibi olmağa hazır olmurlar. Bundan əlavə, həyat yoldaşlarından birinin və ya hər ikisinin təhsilinin davam etməsi onların iş və layiqli maaş almasına mane olur. Gənc ailənin ailə büdcəsi əmək haqqı (əgər varsa),

uşaq müavinəti, valideynlərə müxtəlif ödənişlər və kompensasiyalar və qohumların maddi yardımından ibarətdir. Bu maliyyə resursları normal həyat fəaliyyətini təşkil etmək üçün kifayət etmir.

Növbəti problem məşğulluq problemi kimi müəyyən edilə bilər. Gənc ər-arvadın iş axtarışına regional əmək bazarındakı vəziyyət təsir edir. Gənc mütəxəssislər çox vaxt öz karyeraları ilə bağlı böyük gözlənti içində olurlar və bu gözləntilər özünü doğrultmayanda onların bütün gələcəklə bağlı planları puç olur və bu da qeyri-müəyyənliyə gətirib çıxarır. Üstəlik, gənc ailə kifayət qədər peşəkar və sosial təcrübəyə malik olmadığı üçün əmək bazarında rəqabətə davam gətirməyə bilir. Məşğulluq problemi gənc ailəni ailə kimi mövcud olma riski ilə üz-üzə qoyur, çünki işsizlik səbəbindən ər-arvad maddi cəhətdən sıxılır və təkbaşına ailəni təmin edə bilmirlər. Maliyyə qeyri-sabitliyi bəzən gəncləri başqa şəhərdə, hətta ölkədə iş axtarmağa sövq edir ki, bu da ailənin möhkəmlənməsinə, sevgi və qarşılıqlı anlaşma mühitinin yaranmasına mane olur.

Ailənin qurulmasının ilkin mərhələsindəki münasibətlərin qeyri-sabitliyi də gənc ailə üçün problem kimi vurğulanır, çünki gənc həyat yoldaşları ailə həyatı ilə bağlı fikir ayrılıqları səbəbindən qarşılıqlı qeyri-sabit münasibətləri inkişaf etdirmiş olurlar. Ailə vəzifələrinin bölüşdürülməsi, uşaqların tərbiyəsi, asudə vaxtlarının keçirilməsi ilə bağlı narazılıqlar münaqişələrə səbəb olur. Məsələ burasındadır ki, gənc ailədə insanlar bir-birlərini kifayət qədər yaxşı tanımırlar və heç də həmişə dözümlü olmurlar. Münasibətlərin bu dövründə həyat yoldaşları bir-birinə uyğunlaşmalı və ailə həyatına ümumi baxışları formalaşdırmalıdırlar.

J.Çernova və L.Şpaqovskaya qadınların  uşaq dünyaya gətirməsi ilə işə düzəlmə, peşəkar kimi fəaliyyətə başlama planlarının əlaqələndirilməsində problemlər yaşadığını vurğulayırlar. Belə bir münasibət var ki, analar əsasən ailənin tərbiyəvi funksiyalarını yerinə yetirməlidirlər. Bu baxımdan qadınların əmək bazarında rəqabət qabiliyyətinin azalması, bəzən hətta itkisi müşahidə olunur ki, bu da onları kişilər və uşaqsız qadınlarla müqayisədə iqtisadi cəhətdən əlverişsiz vəziyyətə salır. Bu səbəbdən  qadınlar ilk növbədə, karyera yüksəlişinə diqqət yetirməyə çalışırlar ki, uşaq doğulduqdan sonra minimum itki ilə işə qayıda bilsinlər.

Müasir gənc ailənin münasibətlərində psixoloji və emosional rahatlıq çox vacibdir. Buna görə də, gənc ailənin psixoloji problemlərini nəzərə almaq vacibdir, yəni: valideynlərlə anlaşılmazlıqlar, ilk uşağın doğulması zamanı yaranan çətinliklər, ailə vəzifələrini bölüşdürülməsi  və həyat yoldaşlarının bir-birinə uyğunluğu və s.. Ailələrdə sevgi, qarşılıqlı hörmət, ümumi baxışlar, maraqlar və mənəvi yaxınlıq kimi göstəricilər yüksək qiymətləndirilir. Həyat yoldaşlarına qarşı soyuqluq, inam və diqqətin olmaması, ünsiyyət problemləri ailənin dağılmasına səbəb ola bilər, buna görə də həyat yoldaşları bir-birlərinin dəyər sistemini, yeni həyat tərzini, tərəfdaşının xarakterini və hobbilərini qəbul etməlidirlər.

Gənc ailələrin çətinlikləri arasında tibbi problemlər mühüm yer tutur. E.A.Vetrova qeyd edir ki, "gənclərin qeyri-qənaətbəxş cinsi tərbiyəsi və nikaha hazır olmaması intim münasibətlərə girməyin tam məsuliyyəti haqqında erkən yaşlarından formalaşmalı olan intim münasibətlər mədəniyyətinin formalaşmamış olması ilə ifadə olunur". Bundan əlavə, öz sağlamlığına qarşı məsuliyyətsiz münasibət uşağın doğulmasına mənfi təsir göstərə bilər.

Yuxarıdakıları ümumiləşdirərək deyə bilərik ki, gənc ailələrin problemləri öyrənilməyi və bu problemlərin  həlli yollarını axtarmağı tələb edir, çünki cəmiyyətin gələcəyi bundan asılıdır. Gənclərin əsas sosial-iqtisadi problemləri maddi və iqtisadi səviyyələrinin aşağı olması və işsizlik, maddi ehtiyaclar, mənzilə ehtiyac və onun əlçatan olmamasıdır. Sosial və psixoloji problemlərə aşağıdakılar daxildir: həyati və peşəkar özünü təyinetmə problemləri, yetkinliyə keçidin böhran dövrü, dəyər oriyentasi sisteminin olmaması, ailə münaqişələri və valideynliklə bağlı çətinliklər. Bundan əlavə, ailənin reproduktiv funksiyasına mənfi təsir göstərən tibbi problemləri (cinsi təhsilin olmaması, intim münasibətlər mədəniyyətinin olmaması, sağlamlığa qeyri-ciddi münasibət)də xüsusi olaraq qeyd etmək lazımdır. Bütün bu problemlər gənc ailələrə sosial yardım obyekti kimi diqqət yetirilməsini zəruri edir.

## SEREBRAL İFLİCLİ UŞAQLARLA SOSİAL İŞİN APARILMASININ ƏSAS PRİNSİPLƏRİ

**Soltanov Zaur Saleh oğlu**
*Azərbaycan Universiteti*

Serebral iflic insan bədənində əzələlərin hərəkətinə, tonusuna və ya duruşuna təsir edən fiziki qüsurlar qrupuna verilən addır. Serebral iflic yetişməmiş beynin inkişafı zamanı, ən çox doğumdan əvvəl baş verən zədələnmə nəticəsində yaranır.

Serebral iflic zədənin yerindən və şiddətindən asılı olaraq müxtəlif problemlərə gətirib çıxarır.Ən çox görülən problemlər isə bunlardır:

●Danışıq və ünsiyyət problemləri

●təhsil problemləri

● Sosial və emosional çətinliklər [1].

Digər bir problem isə psixolojik problemdir.

Milner və digərlərinə görə serebral iflicli uşaqların valideynləri uşaqlarının yetiştirilməsində və qayğısında real, praktik və psixoloji problemlər: günahkarlıq hissi, özünə inamsızlıq, utanc, ümidsizlik, kədər, nifrət, təcrid olunma, qərarsızlıq; serebral iflicli uşaqların valdeyinlərinin yaşadığı stres olaraq ifadə edilmişdir [2].

Tew, Lawrence, Merliyn və başqaları serebral iflicli uşaq analarında əhəmiyyətli dərəcədə yüksək stres leveli aşkar etmişdilər. Daha sonra isə Mc Cubbin də bu prosesə qoşularaq ciddi qüsurlu uşaqları olan ailələrdə ailə stresinin daha yüksək olduğunu vurğulamışdır [3].

Serebral iflicli uşaq analarının stress səviyyələrinə diqqət yetirən araşdırmalar bunu ortaya qoydu ki, evlilik məmnuniyyəti, emosional dəstək qaynaqları, maliyyə bacarıqları və uşaq baxımına əsaslanan fiziki yardım və həyat yoldaşı dəstəyi (Mcubbin and Patterson, 1987) bu stres səviyyəsində əsas rol oynaya bilər [4].

Həmçinin öz özlüyündə mübarizə ve sosial dəstək serebral iflicli uşaqların valdeyinlərinə kömək edən əsas resurslardandır (Alternative Futures in Special Education 32). Ədəbiyyatda valideynlər tərəfindən bildirilən problemlər arasında serebral iflicli uşaqlarda təcrid olunma, azalan sosial həyat, duyğusal problemlər, depresiya, duyğusallıq, günahkarlıq göstərilmişdir [5].

Burada sual yaranır ki, sosial işçi ailəyə, pasientə necə yanaşmalıdır və burada üzləşəcəyi situasiyanı necə idarə etməlidir [6]. İlk olaraq tədqiqatçı sosial işin mürəkkəbliyini və özündə bir çox funksiyaları əhatə etdiyini bildirməyi vacib sayır. Onlar müxtəlif səviyyələrdə təlim keçmiş həkimlər, fizioterapevtlər və loqopedlər kimi bir çox sağlamlıq mütəxəssisi ilə qarşılıqlı əlaqədə olurlar.

Ədəbiyyat

1. https://www.romatem.com/serebral-palsi-cp/
2. Steenkamp, E. and Steenkamp, W. (1992) The Intellectually Handicapped, *Child: A Manual for Parent. Teacher and Related Professions.*
3. Marilyn , A . Mc cubbin , M . C . and Haung , S . T (1989) *Family Strength in the care of Handicapped Children : Family Relations*, Volume 38, September, Page 336-73
4. https://doi.org/10.1037/0022006X.47.6.1140)(https://www.google.com/url?sa=t&source=web&rct=j&opi=89978449&url=https://www.jstor.org/stable/352326&ved=2ahUKEwiM4J-npqOCAxWmRPEDHbJCDbUQFnoECBIQAQ&usg=AOvVaw27HySHNEphOWT4kFCtxAEu
5. https://www.researchgate.net/publication/49176503_The_Instruction_of_Reading_Comprehension

6. Patterson, J.M. and McCubbin, H.I. (1987) *Adolescent Coping Style and Behaviors: Conceptualization and Measurement. Journal of Adolescence,* 10, 163-186.

## KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN MUSİQİ TƏFƏKKÜRÜNÜN İNKİŞAFINDA QAVRAYIŞIN ROLU

**Təbibzadə Günay İlqar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Orta məktəbdə tədris olunan musiqi dərslərində fənnin bir çox istiqamətləri öyrənilir. Bunlar musiqi fəaliyyətinin növləri adlanır. Bu növlərə qavrayış, düşüncə, yaradıcılıq, xor və vokal oxuma kimi fəaliyyət növləri aiddir.

Sadə fiziki eşitmə qabiliyyətinə malik hər bir şəxs musiqinin harada ifa olunduğunu və müxtəlif obyektlərin yaratdığı səs-küyün harada olduğunu müəyyən edə bilər. Amma ən incə mənəvi hərəkətlərin əksini, ciddi və dərin təcrübələrin musiqi sədalarında ifadəsini hər kəs eşidə bilməz. Musiqi qavrayışını inkişaf etdirmək, dinləyiciyə bəstəkarın ifadə etdiyi hissləri və əhval-ruhiyyəni xüsusi şəkildə təşkil edilmiş səslərin ifası vasitəsilə yaşamağa öyrətmək deməkdir. Bu, dinləyicinin qeyri-verbal ünsiyyət dilində ifadə olunan ideya və obrazlarla fəal birgə yaradıcılıq və empatiya prosesinə daxil edilməsi deməkdir; bu həm də musiqiçinin – bəstəkarın, ifaçının estetikanı hansı vasitələrin köməyi ilə çatdığını başa düşmək deməkdir.

Musiqi qavrayışının inkişafının ilk mərhələlərində kiçik yaşlı şagirdlər əsasən musiqi əsərini ümumi şəkildə qavrayır. Sonrakı mərhələlərdə dinləyici kompozisiyanın ayrı-ayrı detalları və fraqmentləri ilə tanış olur.

Musiqini eşitmək, onun haqqında düşünmək bacarığı uşaqlarda elə ilk dərslərdən formalaşmalıdır. Eyni zamanda, məktəbliləri musiqi ilə tanış etməyin müxtəlif formalarını hərtərəfli inkişaf etdirərkən, həmişə yadda saxlamaq lazımdır ki, bu formalardan hər hansı birinin əsasını onun emosional, aktiv qavrayışı təşkil edir.

İbtidai sinif şagirdlərinin musiqi qavrayışının inkişafı üçün artıq ilkin şərtlər var. Eyni zamanda, kiçik məktəblilərdə, digər yaş dövrlərinin uşaqlarından fərqli olaraq, şəxsi oriyentasiya xarici obyektiv dünyaya diqqət yetirməklə müəyyən edilir; onlar üçün vizual-məcazi düşüncə və reallığın emosional-sensor qavrayışı üstünlük təşkil edir; oyun fəaliyyəti onlar üçün aktual olaraq qalır. . Bu yaşın xarakterik xüsusiyyəti dərhal təəssüratlara emosional reaksiyadır. Musiqi sənətinin spesifikliyi, bədii və obrazlı təbiəti ibtidai sinif şagirdinin şəxsi tələbatına mükəmməl cavab verir. Bu, ibtidai siniflərdə musiqi təhsilinin pedaqoji potensialını və əhəmiyyətini müəyyən edir.

Kiçik məktəblilərin musiqi təhsili prosesində ilk addım musiqi qavrayışının inkişafıdır, çünki musiqinin real, ürəkdən və düşüncəli qavranılması musiqi ilə tanışlığın ən fəal formalarından biridir. Musiqi qavrayışının inkişafı ibtidai məktəb şagirdlərinin musiqi təhsilinin ən mühüm vəzifəsidir və bütün növ musiqi fəaliyyəti prosesində baş verir. Məsələn, sinifdə mahnı öyrənmək üçün ilk növbədə ona qulaq asmaq lazımdır. Sonra onu ifa edərkən melodiyanın intonasiyasının saflığına, səsinin ifadəliliyinə və s.

Beləliklə, böyüklərin musiqi qavrayışı uşaqdan onunla fərqlənir ki, musiqi daha zəngin həyat assosiasiyaları, hisslər, eləcə də musiqi əsərini uşaqlardan fərqli səviyyədə qavramaq bacarığını doğura bilər. Eyni zamanda, artıq ibtidai məktəb yaşında, müəyyən fəaliyyətlərlə, uşaqlar qavrayışın inkişafı üzərində məqsədyönlü şəkildə aparılmayan uşaqlarla müqayisədə musiqi qavrayışının inkişafında əhəmiyyətli irəliləyişlər müşahidə edə bilərlər.

İbtidai məktəb yaşlı uşağın musiqi qavrayışı haqqında danışarkən onu xarakterizə edən aşağıdakı xüsusiyyətləri qeyd etmək lazımdır:

1. Musiqinin eşitmə obrazında qeyri-spesifik musiqi vasitələrinin səs-küy-ritmik münasibətlərdən üstün olması;

2. Səsin bütün cəhətlərinin sanki şüurda birləşərək bir şeyə (məsələn, musiqinin tembrinə və ya tempi-ritmik tərəfinə) yönəldiyi obrazın vahid və bölünməzliyi;

3. Parçalanma, musiqi bütövü sistem kimi deyil, ayrı-ayrı fraqmentlərin toplusu kimi qəbul edildikdə;

4. Musiqi düşüncəsi üçün aparıcı təlimat kimi qısa ifadələrin təkrarlanması istəyi.

Musiqinin ilk və çox vaxt sonrakı dinləmələri zamanı musiqi qavrayışının birinci mərhələsi qeyri-müəyyənlik və fərqləndirmənin olmaması ilə xarakterizə olunur. Bir əsəri ilk dəfə qəbul edən kiçik məktəbli musiqi obrazı haqqında yalnız ümumi təsəvvür əldə edir.

Həqiqətən də, ibtidai sinif şagirdləri yeni musiqi əsəri ilə ilk tanış olduqda, yenini qavramağa birbaşa maraq yaranır, musiqiyə emosional reaksiya, əksər hallarda müsbət, adətən ən aydın şəkildə özünü göstərir. Amma unutmaq olmaz ki, çox vaxt qüsurlu qavrayış uşağın dinlədiyi musiqiyə biganə qalmasına səbəb olur. Kiçik məktəblilərdə musiqi qavrayışının ilk mərhələsində yaranan obraz öz dərinliyinə görə çox fərqli ola bilər. Lakin jestlərdə, mimikalarda, motor-plastik təzahürlərdə, eləcə də eşitdikləri musiqi haqqında düşüncələrdə (bəzən tək hecalı olsa belə) ifadə olunan emosional reaksiya vasitəsilə uşaqlar dinlədikləri musiqi əsərinin xarakterini və əhval-ruhiyyəsini kifayət qədər dəqiq ifadə edə bilirlər. Məktəblilər tərəfindən qavranılan musiqi obrazı müəyyən məzmunu çatdırmaq üçün bəstəkar tərəfindən yaradıcılıqla istifadə olunan müxtəlif musiqi ifadə vasitələrinin mürəkkəb vəhdətidir.

Musiqinin qavranılması prosesində uşaqlarda yüksək bədii musiqiyə məhəbbət aşılanır, onunla ünsiyyət qurmaq zərurəti yaranır, musiqi maraqları və zövqləri tərbiyə olunur.

# IV BÖLMƏ

# TƏDRİSİN MÜASİR PROBLEMLƏRİ

## ŞİFAHİ XALQ ƏDƏBİYYATI ÖRNƏKLƏRİ:ATALAR SÖZLƏRİNİN TƏDRİSİ MƏDƏNİ İRSİ QORUMAĞIN BİR NÜMUNƏSİDİR

**Abbasova Samirə Mirsabir qızı**
*Mingəçevir Dövlət Universiteti*

Şifahi xalq ədəbiyyatı insanların həyatını, ədəbi incəsənətlərini, mənəvi dəyərlərini və gündəlik həyatları ilə bağlı məqamlarını əks etdirən ən qədim ədəbi mədəniyyət növüdür. Bu ədəbiyyat növü ən çox müstəqil xalq ədəbiyyatlarında, dəyişik etnik və mədəni qrupların əlində xalq təfəkkür nümunələrini toplamaq və onları nəsildən-nəslə təqdim etmək üçün yaranmışdır. Şifahi xalq ədəbiyyatının əsas məqsədi, mədəni və ədəbi irsələrin qorunmasını və yaşadılmasını təmin etməkdir.

Şifahi xalq ədəbiyyatının tədrisi, məktəblərdə və universitetlərdə dil və ədəbiyyat sahələrində təhsil alan şagirdlər, tələbələr üçün vacibdir. Bu, onlara xalq ədəbiyyatının əsas prinsiplərini öyrədir və bu ədəbiyyat növünün mənəvi və ədəbi dəyərlərini təqdim edir. Şifahi xalq ədəbiyyatının tədrisi, həm bu mədəniyyəti yaşadılmasını təmin edir, həm də insanların mədəniyyət və irsini öyrənərək mədəniyyətin, ədəbiyyatın inkişafı üçün şərait yaradır.

Heydər Əliyev şifahi xalq ədəbiyyatına da böyük diqqət ayırmış və onun inkişafına və tədrisinə dəyər vermişdir. O, şifahi xalq ədəbiyyatının mənəvi dəyərlərini, mədəni irsini və tarixini qorumaq üçün çalışmış və bu ədəbiyyat növünün daha geniş auditoriyaya çatmasını təmin etmişdir. Heydər Əliyev Azərbaycanın mədəniyyət və tarixi diqqət yetirmiş, şifahi xalq ədəbiyyatının tədrisini və inkişafını dəstəkləyərək bu irsi qorumağa və yaşatmağa çalışmışdır.

Şifahi ədəbiyyat, bir mədəniyyətin, bir cəmiyyətin, bir xalqın mədəni incəsənətini, tarixini, dünya görüşünü, dini inancını, mənəvi dəyərlərini əks etdirən ən əsas ədəbi incəsənət növü olaraq əsasən qədim dövrlərdə, yazılı ədəbiyyatın olmaması zamanlarında meydana gəlmiş, bu gün də öz nümunələrini yaratmaqdadır. "Zəngin şifahi söz mədəniyyəti yaradan türklər bu sərvəti zaman-zaman, qətrə-qətrə, kəlmə-kəlmə icad etmişlər".

Şifahi ədəbiyyatın bir janrı-nümunəsi olaraq atalar sözləri insanların həyatında, münasibətlərində, fikirlərində, mənəvi dünyasında, mədəni və ədəbi dəyərlərində böyük əhəmiyyət daşıyır. Xalqımızın zəngin milli-mənəvi mədəniyyətinə sahib durmaq böyükdən-kiçiyə hər bir kəsin vətəndaşlıq borcudur. Çünki bundan böyük, dəyərli nəsə olanımız yoxdur. Bir toplum, xalq, millət olmanın baş və birinci şərti də bəlkə elə budur.Bu müdrik ifadələr vasitəsilə insanlar öz tarixlərini, atalarının öyüdlərini, əcdadlarının yadigarlarını, milli dəyərlərini öyrənir və öz mənəvi dünyalarını inkişaf etdirir, həmçinin, mənəvi dəyərləri, insanlığı, dini dəyərləri, əxlaqiyyatı, doğruluğu, yaxşılığı, mərhəməti, mənəviyyati əks etdirir,tədris yolu ilə bu mənəvi dəyərləri öz nəslinə, cəmiyyətinə ötürür."Atalar sözü xalqın əqli birliyinin təntənəsi, parlaq təzahürüdür. Xalqın zehni inkişaf fitri istedadını, esteti duyumundakı zərifliyi büruzə verən əsas amildir. Atalar sözü xalqın tarixə, tarixin də xalqa verdiyi ibrət dərsinin hamı tərəfindən qəbul və təsdiq edilən elə nəticəsidir ki, düzlüyünə və dəqiqliyinə şübhə yeri yoxdur. Xüsusən, atalar sözləri tədrisdə böyük əhəmiyyət kəsb edir və öyrənənləri mədəni məktəbləşməyə, insanlıq dəyərlərinə, ədəb qaydalarına, mənəvi dəyərlərə yönəltməklə mədəni irsin qorunmasında əhəmiyyətli rol oynayır, insanların tarixi və mədəni irsinin qorunmasını, təbliğ edilməsini təmin edir və onlara mədəni dəyərlərini nəsillərə ötürməkdə kömək edir.

Atalar sözləri, bir cəmiyyətin mədəni irsini, təcrübəsini, dünya görüşünü, mənəvi dəyərlərini, incəsənətini, fəlsəfəsini özündə əks etdirən dəyərlər bütünüdür. Bu sözlər, nəsildən- nəslə ötürülərək mədəni irsin qorunmasına və yaşadılmasına yardım edir. Atalar sözlərinin tədrisi və öyrənilməsi, öyrənənlərin mənəvi inkişafında və dəyər qazanmasında əhəmiyyətli rol oynayır.

Atalar sözləri həmisə doğru, ədəbli, əxlaqi, mənəvi dəyərlər barədə öyrətmələri və nəsihətləri ilə diqqəti cəlb edir. Bu sözlər, insanlara doğru yolu göstərməklə, düzgün yolla yaşamağı, insanlığa yararlı olmağı, mərhəməti, doğruluğu, cömərtliyi, mənəviyyatı öyrədir. Həmçinin, atalar sözləri, insanlara mənəvi dəyərləri və etik normları öyrədir, mədəni irsi qoruyur və nəsillər arasında mənəvi inkişafı təmin edir. Atalar sözlərinin tədrisi həmçinin mədəni irsin qorunmasında və yaşadılmasında əhəmiyyətli rol oynayır. Bu sözlər məktəblilərin mənəvi inkişafında böyük rola malikdir.

## İBTİDAİ SİNİFLƏRDƏ MÜSTƏQİL İŞ PROSESİNDƏ ŞAGİRDLƏRİN İDRAKİ FƏALLIĞININ FORMALAŞDIRMASI PROSESİ

**Abdullayev Allahverdi Namiq oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Pedaqoji sistemdə müstəqil iş ifadəsinə müxtəlif tərəflərdən yanaşılmış pedaqoji fəaliyyətin yeni bir modeli kimi baxılmışdır. Təlim və təhsil prosesində müstəqil iş qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsini labüd etməyə əsas verən layihələşdirilmiş fərdi və ya birlikdə işləməyi nəzərdə tutan sistemdir. Öyrədənin və öyrənənin müəyyən dərəcədə məqsədli tərtib edilmiş elə bir fəaliyyətdir ki, nəticədə əvvəlcədən nəzərdə tutulmuş bilik, bacarıq və vərdişlər, bir sözlə, kompetensiyalar daha asanlıqla mənimsənilsin.

Müstəqil öyrənmək üçün şagirdlər, hər şeydən əvvəl, qarşılarına müəyyən məsələlər qoymaqla, həmin məsələlərin həlli yollarını, üsullarını tapmaq bacarığına malik olmalıdırlar. Bu məqsədlə şagirdlərdə dərin müşahidəçilik, məsələnin mahiyyətinə nüfuz etmək qabiliyyəti inkişaf etdirilməlidir.

Kurrikulumun tələbinə görə təbiət hadisələri üzərində müşahidə aparmaq ibtidai sinif şagirdlərinin gündəlik idraki fəaliyyətinin ayrılmaz hissəsi olmalıdır. Müşahidə olmadan azyaşlı şagirdlər səma, torpaq, su, bitkilər, bərk cisimlər, insanların əmək alətləri, əmək fəaliyyətləri, və s. haqqında lazımi bilik əldə edə bilməzlər.

Pedaqoji ədəbiyyatda müstəqil işin təlim prosesində yeri ilə bağlı vahid fikir yoxdur. Müstəqil işin bəzən təlim metodu, şagirdin öyrənmə üsulu və ya priyomu, təlim fəaliyyəti, fəaliyyət növü, təlim vasitəsi və ya forması kimi səciyyələndirilir.

Müstəqil işi təlim metodu kimi qəbul edən mövqe nisbətən geniş yayılmışdır. Akademik Y.K. Babanski təlim metodlarının bir qolu kimi nəzərdən keçirdiyi təlim – idrak fəaliyyətinin təşkili və həyata keçirilməsi metodları sırasında müəllimin rəhbərliyi ilə iş və müstəqil iş metodlarını xüsusi qeyd edir. O, təlimin söz, əyani və praktik metodlarını müəllimlə iş metodlarına, müəllimin bilavasitə rəhbərliyi olmadan həyata keçirilən fəaliyyət növlərini isə müstəqil iş metodlarına daxil edir.(6, s400).

Təlimdə şagirdin müstəqil işinin xüsusiyyətləri aşağıdakılardır :

• Qarşıya qoyulmuş təlim məqsədinin dərk edilməsi;
• Müəyyən motivlə zehni və əməli fəallıq, iradi səy göstərməsi;
• Tapşırığın həlli üçün zəruri biliklərin və səmərəli yolların seçilib tətbiq edilməsi;
• Tapşırığı bilavasitə kömək olmadan şagirdin öz gücü ilə yerinə yetirməsi;
• Özünənəzarət və özünüqiymətləndirmə.

Müstəqil iş şagirdin təlim tapşırığını, müəllimin köməyi ilə yox, öz gücü ilə, yəni zahiri cəhət ilə, başqalarını təqlid etməklə və ya hazır sxemlə mexaniki şəkildə yox, zehni və əməli fəallıq, iradi səy, bəzən təşəbbüskarlıq və yaradıcılıq göstərməklə, yəni daxili cəhət ilə yerinə yetilməsini nəzərdə tutur.

Ibtidai siniflərdə müstəqil iş prosesində şagirdlərin idraki fəallığının formalaşdırılması prosesi müasir kurrikulumun əsas hədəflərindən biridir. Kurikulum gələcək, müasir cəmiyyət haqqında çevik düşünən, bacarıqlı şəxsiyyətləri yetişdirmək üçün nəzərdə tutulmuş strukturlaşdırılmış təhsil proqramına aiddir. Kurikulum yeni təlim məqsədlərini, nəticələrini və məzmun standartlarını nəzərə almaq üçün hərtərəfli yanaşmaları əhatə edir. Müasir dövrdə ibtidai siniflərdə müstəqil iş prosesi idarki fəallığı formalaşdıran əsas təlim metodlarından hesab edilir.

Ədəbiyyat


1. Pidkasistı P.İ. Şagirdlərin müstəqil fəaliyyəti. M.: 1972.
2. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika (yeni kurs). B.: 2002.
3. Pedaqogika (Y.K.Babanskinin redaktəsi ilə). M.: 1988.
4. Həsənov A., Ağayev Ə. Pedaqogika. B.: 2007.


## IX SİNFİN KİMYA KURSUNDA İSTEHSALATLA ƏLAQƏLİ MÖVZULARIN FƏAL İNTERAKTİV TƏLİM METODLARI ƏSASINDA TƏDRİSİ METODİKASI


**Abdullayeva Elnarə Mədət qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


IX sinfin kimya kursunda istehsalatla əlaqəli mövzuların fəal interaktiv təlim metodları əsasında tədrisi metodikasında aparılan müasir dərs idrak fəallığı şəraitində şagird şəxsiyyəti ön plana çəkilməklə, onların fərdi xüsusiyyətləri, maraq və meylləri, eləcə də cəmiyyətin tələbi nəzərə alınmaqla təşkil olunmalıdır. Dərsdə şagirdlərin müstəqil biliklər qazanmalarına şərait yaradılmalı, müəllim özünün bələdçilik funksiyasını düzgün yerinə yetirməlidir. Dərsə bir texnoloji proses kimi də yanaşılmalıdır. Mövzuların tədrisində şagird nailiyyətinin ölçülə bilməsində, interaktiv təlim üsullarından istifadə edən müəllim təfəkkürün yuxarı səviyyələrilə bağlı fəaliyyətlərdən də istifadə etdiyi üçün şagirdlərin fənni necə mənimsədiyini daha dəqiq ölçə bilir. İnteraktiv fəaliyyətlər komanda işi, ünsiyyət, qərar qəbuletmə, problem həlletmə kimi XXI əsr bacarıqlarını ön plana çəkir. Rollu oyunlar və simulyasiyalar vasitəsilə real həyat ssenariləri təcrübədən keçirilir və bununla da şagird məktəbdə real həyata hazırlaşdırılır.İnteraktiv dərs mühitinin yaradılması üçün lazım olan müəyyən direktivlər vardır. Bunlar aşağıdakılardır:şagirdin dərsə cəlb olunmağa həvəsləndirilməsi, cavab verməyə, müzakirə etməyə və praktik tətbiqə sövq edən sualların verilməsi,şagirdlərin diqqətini çəkən, onları cavab verməyə sövq edən təlim vasitələrindən istifadə olunması və s.

IX sinfin kimya kursunda istehsalatla əlaqəli mövzuların fəal interaktiv təlim metodları əsasında tədrisi metodikasında istifadə edilən təlim üsulları: Əqli hücum, müzakirə, müstəqil işlərin təşkili, strategiya ilə oxu və qısa mühazirə üsullarından, didaktik oyunlardan istifadə etmək olar. Krossvord formasında təklif olunan tapşırıqlar idrak fəaliyyətinin fəallaşmasına, dərs materialının daha yaxşı qavranılmasına, təlim fəaliyyətinin dinamikliyinə, yarışmaqla bilik və bacarıqların nümayişinə kömək edir. Krossvordlar həm dərsin müxtəlif mərhələlərində tətbiq oluna, həm də şagirdlərin bilik və bacarıqlarını qiymətləndirmə vasitəsi kimi istifadə edilə bilər. Krossvordları həll edərkən müxtəlif iş formalarını (fərdi, cütlərlə, qrup şəklində, frontal sorğu formalarını) tətbiq etmək olar.

Akvarium üsulundan istifadə edəbilərik: Bu üsulun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir. Akvarium bir neçə variantda keçirilə bilər. Anlayışların çıxarılması üsulu isə oyun-tapmaca formasında keçirilir və öyrənənlərdə yüksək fəallıq yaradır. Müəllim lövhədən kart asır, onun arxasında öyrənənlərin tapacağı anlayış yazılır. Kartın yazı olmayan tərəfini öyrənənlərə göstərir və gizlədilmiş anlayışın xüsusiyyətlərinə aid 2 və ya 3 yönəldici söz sadalayır və ya yazır. Öyrənənlər həmin xüsusiyyətlərə uyğun olaraq gizlədilmiş anlayışı tapırlar.Əgər öyrənənlər anlayışı tapmaqda çətinlik çəksələr, müəllim əlavə olaraq yeni

xüsusiyyətlər sadalayır.Öyrənənlər öz fərziyyələrini dedikdən sonra müəllim bu tapmacanın tapılıb- tapılmamağını hamıya çatdırır və kartlarda yazılan sözləri açıqlayır.

Nəticə olaraq, hazırlanmış interaktiv dərslər və onlar üçün metodiki rəhbərlik məktəbdə kimyanın öyrənilməsinin səmərəliliyini artırmağa və hər şeydən əvvəl şagirdlərin gələcək peşə fəaliyyəti üçün zəruri keyfiyyət kimi idrak fəaliyyətinin inkişafına kömək edə bilər. Bu kurs orta məktəb şagirdlərinin müxtəlif təhsil ehtiyaclarını ödəmək üçün kimya fənninin kifayət qədər məhdud imkanlarını bir çox cəhətdən kompensasiya edə bildi. Tədqiqatın əsas nəticələrindən məktəb müəllimləri öz praktik fəaliyyətlərində, eləcə də ali məktəblərdə mütəxəssislər - gələcək kimya müəllimləri hazırlayarkən istifadə edə bilərlər. İnteraktiv təlim metodları şagirdlər üçün olduğu kimi, müəllimlər üçün də çox məqsədəuyğundur. Xüsusən müəllimlər üçün şagirdlərin materialı nə qədər yaxşı anladığını müəyyənləşdirməyə, təlimi məqsəduyğun şəkildə dəyişməyə, şagirddə təlimə maraq oyatmağa, təlimdən zövq almağa şərait yaratmağa kömək edir.

## TAM ORTA SƏVİYYƏSİNDƏ BİOLOGİYA FƏNNİ ÜZRƏ “İNSAN VƏ ONUN SAĞLAMLIĞI İLƏ ƏLAQƏDAR VALEOLOJİ BİLİKLƏRİN FORMALAŞMASINDA MƏNTİQİ TƏFƏKKÜRÜN İNKİŞAFI

**Abdullayeva Leyla Adil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bütün dövrlərin və xalqların ən aktual mövzulardan biridə insan və onun sağlamlığıdır . XXI - ci əsrdə insan və onun sağlamlığı mövzusu hər şeydən üstündür . Azərbaycan məktəblərində şagirdlərin sağlamlıq halları mütəxəssisləri çox narahat edir. Məktəblərdə şagirdlərin sağlamlığı otuz il əvvəl ki sagirdlərin sağlamlığı ilə müqayisədə pisləşmişdir. Şagirdlərin arasında xəstəliklərin yayılma tezliyi yetkinlik yaşlarında başlayır. Tam orta təhsil səviyyəsində şagirdlərin sağlamlığı , sosial -psixoloji adaptasiyası, normal inkişafı və böyüməsi ətraf mühit amillərindən asılıdır. Və onun ən əsas komponenti məhz məktəblərdir. Bu dövrdə həmdə şagirdlərin həyatlarının qalan hissəsi üçün sağlamlığın formalaşması baş verir. Məktəblərdə şagirdlərin sağlamlığı xarici mühit amillərindən daha çox aslıdır. İndiki dövrdə stress, sosial və zehni yükləmələr çox vaxt şagirdlərin sağlamlığında ağır fəsadlar törədə bilər. Tam orta təhsil səviyyəsində valeoloji təhsil yalnız valeoloji biliklərin ötürülməsi üçün mütəşəkkil bir proses deyil, həm də tələbənin istirahət və ailə həyatı sistemində sağlam həyat tərzinin təşkili, dərsdənkənar fəaliyyətlərdə fiziki inkişafdır. Məktəblərdə şagirdlərin valeoloji biliklərin formalaşması prosesində onun üç əsas və bir-biri ilə əlaqəli komponentləri nəzərə alınmalıdır: valeoloji təhsil, valeoloji şüur, valeoloji davranış.

Valeologiyanın predmeti fərdi sağlamlıq və insan sağlamlığı ehtiyatları, eləcə də sağlam həyat tərzidir. Bu, tövsiyələri xəstəliklərin qarşısının alınmasına yönəlmiş valeologiya və profilaktik tibbi fənlər arasındakı ən mühüm fərqlərdən biridir.

Valeologiyanın obyekti praktiki olaraq sağlam insan, habelə onun psixofizioloji, sosial-mədəni və mövcudluğunun digər aspektlərinin bütün sərhədsiz müxtəlifliyində xəstəlikdən əvvəlki vəziyyətdə olan insandır. Məhz belə bir insan xəstə olana qədər özünü səhiyyə maraqları çərçivəsindən kənarda görür. Sağlam bir insan və ya risk altında olan bir şəxslə əlaqə qurarkən, valeologiya əsasən sağlam həyat tərzinə giriş yolu ilə sağlamlığı qorumaq üçün insan orqanizminin funksional ehtiyatlarından istifadə edir.

Valeologiyanın metodu insan sağlamlığı ehtiyatlarının artırılması yollarının öyrənilməsidir, bura sağlamlıq üçün motivasiya yaratmaq, sağlam həyat tərzinin tətbiqi və s. aiddir. Burada insan sağlamlığının və sağlamlıq ehtiyatlarının keyfiyyət və kəmiyyətcə qiymətləndirilməsi, onların artırılması yollarının öyrənilməsi mühüm rol oynayır.

Valeologiyanın əsas məqsədi insan həyatının irsi mexanizmlərindən və ehtiyatlarından maksimum istifadə etmək və orqanizmin daxili və xarici mühit şəraitinə uyğunlaşmasını yüksək səviyyədə saxlamaqdır. Nəzəri baxımdan, valeologiyanın məqsədi sağlamlığın

qorunması, modelləşdirilməsi və sağlam həyat tərzinə nail olmaq nümunələrini öyrənməkdir. Praktiki baxımdan valeologiyanın məqsədi sağlamlığın qorunması və möhkəmləndirilməsi üçün tədbirlərin işlənib hazırlanmasında və şərtlərin müəyyən edilməsində görünə bilər.

Şagirdlərdə məntiqi, tənqidi, yaradıcı təfəkkürün inkişafı idrak fəaliyyətinin axını ilə əlaqəlidir. Məntiqi təfəkkür insanlara xas olan vərdişdir, və insanın bütün həyatı boyu bütün sahələrdə lazım olur. Düşüncə aydın olduğu halda təfəkkürün normal fəaliyyəti mümkündür. Düşüncənin bu və ya başqa dərəcədə pozulması təfəkkürün əlaqəsizliyinə, bəzən isə avtomatik fəaliyyət göstərməsinə səbəb olur. İnsanın yaradıcı fəaliyyətinin təfəkkür təşkil edir. Təfəkkürə əsaslanaraq biz maddi texniki bazamızı yaxşılaşdırır, sənət əsərləri yaradır və əsas olan fəaliyyətimizi tənzimləyirik.

Təfəkkür prosesi zamanı faktları təhlil edir, ümumiləşdirmə aparır və yeni nəticələr əldə edirik. Məntiqi, tənqidi, yaradıcı təfəkkürün inkişafı üçün ibtidai sinifdən başlayaraq bu istiqamətdə tapşırıqlarla şagirdləri çalışdırmaq lazımdır. Təlimdə maraq yaratmaq ,həmdə məntiqi təfəkkürü inkişaf etdirmək üçün dərslərdə bəzi misallardan istifadə etmək lazımdır. Məntiqi təfəkkürü inkişaf etdirən metodlardan biridə əyləncəli oyunlardır. Məntiqi təfəkkürə əsaslanan əyləncəli oyunlara "alqoritmin çıxarılması-analizdən sintezə" "canlının adımı tap", "bioloji loto", "kim tez və çox", "oyun -tapmaca", "krossvord", "sözü tap", və başqaları aiddir. Əyləncəli oyunlar şagirdlərdə təkcə maraq kəsb etmək deyil ,onların məntiqi düşünməsinə ,şagirdlərdə idrak fəallığının artırılmasına səbəb olsun. Əyləncəli oyunların şagirdlərdə valeoloji biliklərin necə inkişaf etdirdiyini misallarla müəyyənləşdirək. Buna misal olaraq "Analogiyalar zənciri" və ya "gölə atılan daş "texnikasında bir söz deyilir və hər biri özündən əvvəl söylənən sözə uyğun fikir bildirməsi üçün müəllim şagirdlərə 5 saniyə vaxt verilir. Təlim prosesində bu texnikadan istifadə şagirdləri fəallaşdırır, onların hazır cavab olmasını, valeoloji biliklərə yiyələnməsini ,intellekt səviyyəsinin yüksəlməsini tələb edir. Sözlərdən sanki vaqon hazırlanır, uzun bir zəncir qurulur.

## MAGİSTRANTLARIN PEDAQOJİ FƏALİYYƏTİNDƏ ELMİ-PEDAQOJİ TƏCRÜBƏNİN ROLU

**Ağababayeva Aytən Adil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Magistratura pilləsində təhsil alan tələbələrin elmi-pedaqoji təcrübəsi magistr hazırlığı proqramının əsas hissələrindən birini təşkil edir. Ali təhsil müəssisələrində elmi-pedaqoji təcrübə prosesinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr 489 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali(orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında əsasnamə" də qeyd edilən qaydalara əsasən keçirilməsi nəzərdə tutulmuşdur.

Hər bir magistrant təlim-tədris planında nəzərdə tutulan semestrə uyğun olaraq ixtisasları üzrə elmi-pedaqoji təcrübədə iştirak etməlidirlər. Qısa şəkildə qeyd etsək, elmi-pedaqoji təcrübə dedikdə, magistrantların pedaqoji fəaliyyətə müstəqil və peşəkar hazırlığı nəzərdə tutulur və müxtəlif tərəflərin iştirakı və məqsədyönlü fəaliyyəti ilə təşkil olunur. Aydın məsələdir ki, təcrübə müddətində magistrantlar məlumatları müstəqil şəkildə öyrətmək, innovasiyaları tətbiq etmək, qarşılaşdıqları problemləri optimal həll etmək, pedaqoji prosesin nəticələrini hərtərəfli dəyərləndirmək və s. kimi bacarıqlar qazanırlar. Elmi-pedaqoji təcrübə dövründə magistrantların semestr boyu qazandıqları nəzəri biliklər dərinləşir, mütəxəssis hazırlığı məhz praktiki yolla başa çatır. Artıq nəzəri məlumatlar əməli şəkildə icra olunaraq mənimsənilir. Çünki təcrübə prosesində təhsilin, pedaqoji fəaliyyətin məzmununun yaranıb təkmilləşməsində akademik bilik, bacarıqlarla yanaşı təcrübi səriştələrin vacibliyi də önə çəkilir. Bununla da magistrantlarda pedaqoji təfəkkür, pedaqoji qabiliyyət, pedaqoji ustalıq formalaşır.

Elmi-pedaqoji təcrübənin magistrantların pedaqoji fəaliyyəti üçün mühüm tərəfi magistratura məzunlarının gələcəkdə daha çox rəhbər vəzifələrdə çalışması ilə əlaqədardır. Buraya uyğun olaraq təlim materialının planlaşdırılması, tədris üçün proqramların hazırlanması, inkişafyönümlü bacarıq və vərdişlərin əldə edilməsi daxildir. Təcrübənin gedişində magistrantlar elmi pedaqoji əməyin spesifik və özünəməxsus hissələri ilə tanış olurlar.

Magistrantların pedaqoji fəaliyyətində elmi-pedaqoji təcrübənin rolu nədən ibarətdir? Ümumiyyətlə, elmi-pedaqoji təcrübə real tədrisin fəal şəkildə mənimsənilməsi prosesi kimi xarakterizə edilir. Təcrübənin həyata keçirilməsi zamanı magistrantlar müəllim mövqeyindən çıxış edərək pedaqoji fəaliyyəti duyur və uyğun istiqamətdə ilkin mənəvi kapital toplayır. Təcrübə dövrünün üstünlüyü ondadır ki, yaradıcılıq qabiliyyəti inkişaf edir, potensial bacarıqlarını təkmilləşdirmək imkanı əldə edir. Bütün magistrantlar elmi-pedaqoji təcrübə müddətində yenilikləri mənimsəməklə peşə bacarıqlarına yiyələnirlər. Həm pedaqoji, həm də psixoloji cəhətdən formalaşırlar. Bu təkmilləşmə prosesi isə peda-qoji bacarıqların, peşə qabiliyyətinin, təcrübənin sonunda məqsədlərin reallaşdırılmasına əasaslanır.

Magistrantlarda pedaqoji bacarıqların, səriştələrin formalaşmasının əsası elmi-pedaqoji təcrübənin ilk dövrlərindən qoyulur. Məlum məsələdir ki, elmi-pedaqoji təcrübə dövründə hər bir magistrant təhkim olunduğu ixtisas kafedrasının pedaqoji kollektivinin üzvü hesab olunur, aktiv şəkildə kafedranın bütün işlərində istirak edir. Təcrübənin bu mərhələsində onlar yüksək əməkdaşlıq bacarıqları nümayiş etdirir, seminar və mühazirə məşğələlərinin təşkilini, qabaqcıl müəllimlərin iş təcrübəsini öyrənirlər. Həmçinin təcrübə rəhbərinin magistrant üçün müəyyən etdiyi mövzular üzrə praktiki məşğələlərə hazırlaşır, bunu reallaşdırmaq üçün isə müasir metod, üsul və vasitələrdən istifadə edir. Magistrantların təcrübə prosesinə yaradıcı yanaşması, özünün akademik və tədqiqat bacarıq-larını inkişaf etdirməsi, müstəqil işləməsi, ixtisası üzrə keyfiyyətli təcrübə qazanması yekunda qarşıda duran məqsədlərə çatmasında effektiv vasitədir. Elmi-pedaqoji təcrübə müddətində magistrantın bu sahədə təcrübəli şəxslərlə əlaqə qurması, həmkarlarından dəstək alması əhəmiyyyətlidir. Bu, ona fərqli nöqtələrdən baxmağa və sahəsində ixtisaslaşmasına kömək edər.

Magistrantlar pedaqoji bacarıqlarını inkişaf etdirmək üçün sadəcə təcrübi fəaliyyətdə olmaqla kifayətlənmir, o cümlədən, bütöv prosesi müşahidə edib öz bacarıqlarını, real potensiallarını daha yaxşı üzə çıxarmağa çalışırlar. Bu, onların təhsil və karyera yolunun müəyyənləşdirilməsində və təhlil edilməsində yardımçı mərhələdir. Çünki elmi-pedaqoji təcrübə ərzində daim ətrafdakı proses izlənilir, nəticələr çıxarılır, münasibətlər bildirilir.

Hər bir magistrantın ixtisasından asılı olaraq gələcək tədris fəaliyyəti, pedaqoji cəhətdən formalaşması, ixtisaslı kadr kimi yetişməsi üçün elmi pedaqoji təcrübədən keçməsi vacibdir. Çünki təcrübə dövründə qazandıqları pedaqoji bacarıqlar zaman keçdikcə onlarda vərdiş halını alır.

## ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ: ELMİ-METODİKİ YANAŞMA VƏ MÜLAHİZƏLƏR

**Ağalarova Sevda Mircəlal qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Qarşılıqlı özünəhörmət və özünüqiymətləndirmə müasir psixoloji pedaqogikanın əhəmiyyətli problemlərindən biridir. Adekvat özünə hörmət problemi psixologiya elmində ən əhəmiyyətli məsələlərdəndir.

İnsan fərdiliyinin əsas komponentlərindən biri hesab edilən özünüqiymətləndirmənin adekvatlığı (obyektiv və zəhmətə münasib) sonradan onun həyat mövqeyini müəyyənləşdirir. Sağlam özünə hörməti olan insanlar özlərini sevirlər və nailiyyətlərini qiymətləndirirlər. Özünü düzgün dəyərləndirməyən insanlar qabiliyyətlərinə az güvənir, qərar qəbul etmədə inamsız, şübhəli olurlar. Bunun əksi olan halda da, yəni özünə güvənin əsaslı olmaması

vəziyyətində də eqoizm və təkkəbbürlülük, başqalarının ağıllı məsləhətinə dəyər verməmək kimi cəhətlər formalaşır ki, bu da fərdin normal inkişafına maneəçilik törədir. Özünü mükəmməl görməyə meyllilik fərdi problemlərə mübarizə aparmağa, özünü təkmilləşdirməyə mane olur.

Deməli, özünüqiymətləndirmə akademik nailiyyyət, sosial fəaliyyət və psixo-pedaqogika ilə əlaqəli bir komponentdir, xasiyyətin formalaşmasında onun rolu mühümdür. Bu komponentin mahiyyəti, təlimi əhəmiyyəti ilə bağlı tədqiqi araşdırmalar aparılmış, onun psixoloji, pedaqoji tərəfləri, didaktik mahiyyəti dərindən öyrənilmişdir.

M.Breen, C.Candil, R.Lens, G.Şneyder kimi xarici, Ə. Əlizadə, F.Rüstəmov, E.Bəylərov, V.Əliyeva, B.İbadova kimi ölkə mütəxəssiləri problemin nəzəri, praktik-metodiki, psixo-pedaqoji istiqamətləri haqqında elmi mülahizələrlə çıxış etmişlər. “Azərbaycan Respublikasının ümumi təhsil sistemindən Qiymətləndirmə Konsepsiyası”nda bu məsələyə belə münasibət bildirilmişdir: “Təhsilin keyfiyyətinin müəyyənləşməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur”[2] .

Təbii ki, geniş mənada qiymətləndirmənin beynəlxalq, milli və məktəb qiymətləndirməsi kimi növləri mövcuddur. Ümumtəhsil məktəblərində də məktəb qiymətləndirməsinin diaqnostik, formativ və summativ növlərindən istifadə olunur. Dərslik və metodik vəsaitlərin təhlili göstərir ki, adlarını sadaladığımız qiymətləndirmə növlərindən fərqli olaraq şagirdin, müəllimin özünüqiymətləndirməsi ilə bağlı normal metodiki göstərişlərə rast gəlmirik. Halbuki, qabaqcıl ölkələrinin tədqiqatlarında bu problem məktəbəqədər mərhələdən başlayaraq araşdırılır və təlim prosesində ona geniş yer verilir.

Şəxsiyyətin formalaşma və təkmilləşməsində özünüdəyərləndirmənin qiymətini bilən peşəkar mütəxəssilər belə hesab edirlər ki, özünüqiymətləndirmə fərdin başqaları ilə münasibətini asanlaşdırır, güclü həyat təcrübəsi qazanmağa yardım edir. Hətta böyük alman filosofu Kant özünüqiymətləndirməni insanın özünü tanıması, öz şəxsiyyət və ləyaqətinin mütləq dəyərini dərk etməsi kimi görür. Deakart özünüqiymətləndirməni fərdin ən vacib vəzifələrindən biri hesab edir.

Bu mövzu bu gün psixo-pedaqogikanın, məktəbşünaslığın diqqət mərkəzində dayanan və müzakirəyə açıq olan məsələlərdəndir.

Özünüqiymətləndirmə motivasiya, emosional sabitlik, effektiv stress və ziddiyyətlərin dərk edilməsi, akademik bilgi, praktik nailiyyət, son nəticədə xoşbəxtlik ilə əlaqələndirilir. Bəzi alimlər özünüqiymətləndirməni mənlik anlayışı və hissiyatla bağlayır, onu özünüdərkin müstəqil formalaşması qəbul edirlər. Bəziləri bunu təlim prosesinin, akademik nailiyyətlərin, praktik uğurların nəticəsi kimi izah edirlər. Bəziləri isə son nəticəni “Mən” obrazı ilə bağlayırlar. Bu anlayışı da ilk dəfə psixologiyaya gətirən, onun konsepsiyasına fiziki, maddi, sosial-mənəvi “mən” elementlərini daxil edən U.Ceymsdir. O, sadə formulada özünüqiymətləndirməni insanın özündən razılığı və narazılığı kimi təqdim edir.

Təbii ki, bizi özünüqiymətləndirmənin pedaqoji-didaktik və məktəb təcrübəsi tərəfi daha çox maraqlandırır. Amma “öz” və “mən” psixo-pedaqogika aspektində araşdırılmadan onun təhsil sistemindəki rolunu da dəqiq müəyyənləşdirmək mümkün deyildir.

“Təlimin qarşısında duran başlıca vəzifələrdən biri şagirdlərdə müstəqil öyrənmə, ömürboyu öyrənmə bacarıqları formalaşdırmaqdır. Öz nəticəsini özü qiymətləndirə bilən şagird müstəqil öyrənməyə doğru addımlayır. Bu bacarığı həyata inteqrasiya edir və daha çox uğur qazanır. Öz nəticəsinə tənqidi yanaşan, öz zəif və güclü tərəflərini müəyyən edən şagird özünü müstəqil şəkildə inkişaf etdirir” [2.10].

Peşəkar müəllim təlim prosesinin məzmun elementini, onun strategiya və qiymətləndirmə istiqamətlərini elə qurmalıdır ki, şagird mənimsədiyi biliyə, tətbiqi yolla həll etdiyi çalışmalara, qazandığı nailiyyətin dəyərləndirilməsinə önəm versin, onun bəhrəsini görsün, öz “mən”ini tanıya bilsin. Təlimin son nəticəsi yalnız şagirdi deyil, müəllimi də

düşündürsün, o da öz nailiyyət və uğursuzluqlarına qiymət verə bilsin, öz əməyini dəyərləndirsin.

Bu tezisin nəticəsi olaraq onu deyə bilərik ki, özünüqiymətləndirməni psixoloji, pedaqoji, metodiki vəhdətdə dərk etmədən, onu məktəb qiymətləndirməsinin vacib elementi, xüsusilə, formativ qiymətləndirmənin tərkib hissəsi kimi anlamadan müəllim nə şagirdlərdə, nə də özündə özünüqiymətləndirmə bacarıqları formalaşdıra bilməz.


Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı, "Kövsər", 2015, 212 s.
2. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. // Kurikulum, 2009, №2, s.138.
3. Azərbaycan dili təlimində şagirdlərin özünüqiymətləndirmə bacarıqlarının formalaşması üzrə işin sistemi (V-IX siniflər). Avtoreferat. Bakı, 2023, 26 s.
5. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, "Mütərcim", 2012, 402 s.


## MƏKTƏBLİ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN ROLU


**Ağamirova Zöhrə Mirəli qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


İnsan dünyaya fərd kimi gəlir, uzun bir inkişaf yolu keçərək şəxsiyyət kimi formalaşır. Şəxsiyyət sosial-mədəni həyatın subyektidir, onun formalaşması düşünüldüyündən daha mürəkkəb bir prosesdir. Uşağın şəxsiyyət kimi formalaşması ailədə başlayır və məktəbə daxil olduqdan sonra da bu proses davam edir. Müəllimin nüfuzu, şəxsi nümunəsi, müəllim-şagird münasibətlərinin məktəbli şəxsiyyətinin formalaşmasında özünəməxsus rolu vardır. Valideynlərin, müəllimlərin nümunəsi, vətən uğrunda mübarizə aparan qəhrəmanların nümunəsi və s. bunların hər biri uşaqların tərbiyəsinə təsir göstərən amillərdəndir. Bunların içərisində müəllimin şəxsi nümunəsi mühüm yer tutur. Ona görə ki, cəmiyyətimiz müəllimə həmişə yüksək qiymət vermişdir, müəllim böyüyən nəsli şəxsiyyət kimi formalaşdırdığına görə hər sözündə, əməlində kamillik nümunəsi kimi insanların etimad göstərdiyi şəxs olmuşdur. Buna görə də, müəllimlik peşəsi hər bir cəmiyyətdə ən nüfuzlu, ən hörmətli peşə, müəllim adı isə ən yüksək ad hesab olunur.

Ulu öndər Heydər Əliyev müəllimlik peşəsini, müəllim əməyini yüksək qiymətləndirərək demişdir: "Mən yer üzündə müəllim adından yüksək bir ad tanımıram". Cəmiyyətin inkişafı, təhsil, tərbiyə, əxlaq və davranış mədəniyyətinin formalaşdırılması, insanların hərtərəfli inkişaf etmiş şəxs kimi formalaşması müəllimin pedaqoji ustalığından, səriştəsindən çox asılıdır. Müəllimlik peşəsi ona görə şərəfli və dəyərlidir ki, müəllim insanı həyata hazırlayır, onun şüurunu, mədəniyyətini formalaşdırır. Böyüyən nəsil müəllimdən təhsil, tərbiyə alır, geniş dünyagörüşünə yiyələnir. Müəllimlik peşəsi öz məsuliyyət və mürəkkəbliyinə görə digər peşələrdən fərqlənir. Çünki müəllim cəmiyyətin üzvü olan insan yetişdirir. Burada yol verilən hər hansısa səhv cəmiyyətin həyatına mənfi təsir göstərəcəkdir.

Müəllim-şagird münasibətlərinin məktəbli şəxsiyyətinin formalaşmasında böyük rolu vardır. Bu münasibətlər şagirdlərin motivasiyasını artırmaq, inkişafını dəstəkləmək, özgüvənini artırmaq və öyrənmə prosesini səmərəli şəkildə aparılmasını təmin etmək üçün əlverişli bir mühit yaratmağa kömək edir. Müəllim-şagird əlaqələri şagirdlərin psixoloji və intellektual inkişafına dəstək verir, onların müvəffəqiyyətini təmin edir. Bu münasibətlərin pozitiv olması, təhlükəsiz və dəstəkləyici bir mühit yaradaraq, şagirdlərin öyrənmə prosesində daha çox səmimiyyət hissi yaşamasını təmin edir. Müəllimin şagirdləri ilə necə münasibət qurması onun şəxsiyyət xüsusiyyətlərindən çox asılıdır. Müəllim və şagird arasındakı sağlam münasibət təhsil və tərbiyə proseslərindəki uğurun açarıdır. İşgüzar, eyni zamanda şagirdlərlə

etibarlı qarşılıqlı əlaqə qurmaq üçün müəllim müəyyən keyfiyyətlərə malik olmalıdır. Müəllimin peşə keyfiyyətlərinə bunlar daxildir: əməksevərlik, ədalətlilik, dürüstlük, intizamlıq, əzmkarlıq, məsuliyyət və s. Müəllimin əsas keyfiyyətlərindən biri humanizmdir. Müəllimin humanist olması önəmlidir. Bu barədə V.A.Suxomlinski yazırdı: "Tərbiyəçinin ən qiymətli keyfiyyətlərindən biri insanlıqdır". Bu isə müəllimin şagirdlərinə diqqət və qayğısında, həssaslığında özünü göstərir. Müəllim öz peşəsinə, şagirdlərinə sevgi və təmkinlə yanaşmalı, ədalətli, səriştəli olmalıdır. Həmçinin, müəllim şagirdlərin meyl və maraqlarını, onların fərqli xüsusiyyətlərini də nəzərə almalıdır.

Müəllim tədris etdiyi fənni yaxşı bilməli və öz fənninə sevgi ilə yanaşmalıdır. Əks halda heç bir metod və yeni texnologiya şagirdlərin öyrənməsinə kömək etməyəcəkdir. Buna əsasən hər bir müəllim öz fənnini bütün incəliklərinə qədər öyrənməlidir.

Təlimə, fənnə məhəbbət yaratmaq üçün ilk növbədə müəllim şagirdlərlə düzgün ünsiyyət qurmalıdır. Pedaqoji ədəbiyyatlarda müəllimin şagirdlərlə bir sıra ünsiyyət tərzinin olduğu qeyd edilir. Bunlar avtoritar, avtokratik, demokratik və liberal ünsiyyət tərzləridir. Düzgün müəllim-şagird ünsiyyətinin formalaşmasının ən təsirli vasitəsi demokratik ünsiyyət tərzidir. Demokratik ünsiyyət prosesində müəllimlə şagirdlər arasında əməkdaşlıq münasibəti yaranır. Bu halda müəllim şagirdlərə şəxsiyyət kimi baxır, onların sözlərini, təkliflərini diqqətlə dinləyir və nəzərə alır. Effektiv müəllim-şagird qarşılıqlı əlaqəsi birtərəfli münasibət kimi xarakterizə olunmamalıdır. Burada bir sıra qaydalara əməl edilməlidir:

— bir-birinin fikirlərini dinləmək;
— birlikdə qərarlar qəbul etmək;
— öz hərəkətlərinə və bütün sinifin işinə görə məsuliyyət daşımaq.

Cəmiyyətin inkişafında müəllimin rolu həmişə xüsusi olub, çünki, müəllimlər gələcək nəsillərə ötürülən biliklərin daşıyıcısıdır. Müəllim yetkinliyə qədəm qoymağa kömək edir, hörməti, məhəbbəti, milli və bəşəri dəyərləri, düzgün davranış qaydalarını öyrədir, şagirdlərə əxlaqi anlayışlar aşılayır. Müəllim öz vəzifəsini şərəflə, ləyaqətlə, qürurla yerinə yetirir. Çoxları belə düşünür ki, müəllim məktəbdə və ya universitetdə çalışan insandır, əslində isə müəllim bizə ictimai həyatın, cəmiyyətin qapılarını açan, gələcəyimizi kiçik kərpiclərlə tikən insandır. Müəllim bilikdir, müəllim yeni dünyanın qapısını açmağımıza kömək edən insandır. Müəllimlər təkcə bilik və bacarıqlar əldə etməyimizə kömək etmir, həm də gələcək həyatımıza böyük təsir göstərirlər.

## VII SİNİFDƏ ƏNVƏR MƏMMƏDXANLININ "QIZIL QÖNÇƏLƏR" HEKAYƏSİNİN TƏDRİSİ

**Ağayeva Səbinə Ramin qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Orta ümumtəhsil məktəblərində ədəbiyyat fəninin tədrisinin qarşısında mühüm vəzifələr durur. Qarşıda duran məqsəd və vəzifələrin bir qisminin icrası bədii əsərlərin tədrisi prosesində həyata keçirilir. "Azərbaycan ədəbiyyatının dəyərli nümunələrinin, xarici ölkə ədəbiyyatından seçmələrin öyrənilməsi prosesində şagirdlərin idraki maraqları, əqli və yaradıcılıq qabiliyyətləri, şifahi və yazılı nitqi inkişaf etdirilir, onlarda həyati bacarıqlar, mütaliə mədəniyyəti, estetik zövq formalaşdırılır" [3, s.10]. Təhsilə müasir yanaşmaların tətbiq olunduğu bugünkü günümüzdə ədəbiyyat tədrisi də bu yanaşmalardan geridə qalmır. Və yeni yollar məktəblərimizdə də geniş şəkildə tətbiq edilir.

Orta məktəb ədəbiyyat dərsliyinin proqram materiallarını nəzərdən keçirdikdə buraya bir çox görkəmli ədiblərimizin əsərlərinin salındığının şahidi oluruq. Bu ədiblərimizdən biri də Ənvər Məmmədxanlıdır. Ənvər Məmmədxanlı vətənə məhəbbət, zülmə, haqsızlığa nifrət ruhunda yazılmış çoxlu sayda əsərin müəllifidir. Məmmədxanlının sevilə-sevilə mütaliə edilən və böyük təsir gücünə malik olan əsərlərindən biri də Cənubi Azərbaycanda,

bütünlüklə İranda xalqın zəhmətkeş təbəqəsinin ağır həyat şəraitindən bəhs edən “Qızıl qönçələr” hekayəsidir.

Hekayə VII sinifdə keçirilir. “Uşaq aləmi, uşaq taleyi” bölməsinə daxil olan əsərin tədrisinə 3 saat vaxt ayrılmışdır. 1 və 2-ci saatlar əsərin məzmunu üzrə işə, 3-cü saat isə təhlili üzrə işə həsr olunmuşdur. Hekayənin məzmununun mənimsənilməsinin birinci saatında 1.1.1., 2.1.1., 2.1.2. standartları tətbiq edilir. Seçilən standartlara müvafiq olaraq dərsdə şagirdlərin hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərin köməyilə aydınlaşdıra bilmələrinə, yeni sözlərdə müzakirə və təqdimatlarda istifadə edə bilmələrinə, fikirlərini hekayədən nümunələr göstərməklə şərh edə bilmələrinə nail olmaq istiqamətində işlər görülməlidir. İlk olaraq motivasiya mərhələsinin təşkili ilə dərsə başlanılır. Bu mərhələdə məzmuna müvafiq müxtəlif şəkillərin təqdimindən və ya “Cənubi Azərbaycan həyatından bəhs edən hansı əsərlərlə tanışsınız?”, “Bu əsərlərdə insanların xüsusən də uşaqların yaşadığı hansı çətinliklərin şahidi olmusunuz?” və b. bu kimi suallarla sinfə müraciət edib ümumi müzakirə əsasında iş aparmaq olar. Daha sonra tədqiqat sualı formalaşdırılır: “İnsanın zəhmətkeşliyi bütün hallarda onun səadətinə yol aça bilərmi?”. Tədqiqat sualına dair ilkin fərziyyələr dinlənilir və heç bir dəyişiklik edilmədən lövhədə qeyd olunur. Tədqiqatın aparılması mərhələsində əsərin ilk 3 hissəsinin oxusundan sonra sinif kiçik qruplara bölünür. Dərslikdəki tapşırıqların və mətnkənarı sualların cavablandırılması qrup işi olaraq verilir. Qrupları dairəvi formada əyləşdiririk, təqim edilmiş vaxt sonlandıqdan sonra qrup işləri saat əqrəbi istiqamətində digər qrupa ötürülür. Hər qrup 5 dəqiqə ərzində sual və cavabı ilə tanış olur, əlavəsi varsa, öz rəngli qələmilə qeyd edir. Məlumat mübadiləsi mərhələsində qruplar işlərini təqdim edirlər. Məlumatın müzakirəsi və nəticələrin çıxarılması mərhələsində ümumi müzakirə həyata keçirilir, doğrular və yanlışlar müəyyən edilir. Yaradıcı tətbiqetmə mərhələsi üçün “Hekayənin sonluğunu necə görmək istərdim” başlığı altında təqdimat hazırlamaq tapşırılır. Qiymətləndirməni məzmun standartları əsasında müəyyənləşdirilmiş meyarlara görə, aparmaq lazımdır. Ev tapşırıqları üçün dərslikdəki tapşırıqdan istifadə edilir.

Hekayənin məzmununa həsr edilmiş 2-ci saatda 1.1.1., 2.1.2., 3.1.3 standartlarının tələbləri reallaşdırılır. Hekayənin davamını evdə oxuduqları və mənası aydın olmayan sözlərin mənasını müəyyənləşdirdikləri üçün əsas iş əldə etdikləri məlumatları genişləndirib dərinləşdirmək üzərində aparılır. Artıq tam formada tanış olduqları məzmunun daha yaxşı mənimsənilməsi üçün cütlüklərlə iş formasından istifadə edərək dərslikdəki tapşırıqların icrası istənilir. Həmçinin əlavə olaraq mənasını aydınlaşdırdıqları sözləri cümlədə işlədərək yazmaları istənilir. Tədqiqatın aparılması mərhələsi başa çatdıqdan sonra məlumat mübadiləsində cütlüklər növbəli şəkildə gördükləri işi təqdim edirlər. Digərləri dinləyib öz əlavələrini hazırlayır. Müzakirə mərhələsində ümumi fikirlər dinlənilir, müvafiq nəticələrə doğru yol qət edilir. Nəticələrin çıxarılması zamanı artıq şagirdlər məzmununu dolğun şəkildə mənimsədikləri hekayədən belə bir nəticəyə gəlirlər ki, zəhmətkeş olmaq hələ xoş günün, yaxşı yaşayışın və səadətin təmin olunması demək deyil. Ev tapşırığı olaraq “Sürəyyanın taleyi məndə hansı düşüncələr yaratdı?” [1, s.129] mövzusu əsasında esseninin yazılması tapşırılır. Meyarlara müvafiq formativ qiymətlənsirmə və yaxud şagirdlərin bir-birini qiymətləndirməsi aparıla bilər.

Təhlil üzrə işə ayrılmış 3-cü saatda təlim standartlarından 1.2.2., 1.2.4., 2.2.1 seçilir. Dərsin gedişi prosesində ilk olaraq ev tapşırıqlarının icra vəziyyətilə tanışlıq həyata keçirilir. Dərsin motivasiya mərhələsinin təşkili üçün yoxsulluq, səfalət içərisində olan insanların ağır iş şəraitini, güzəranını özündə əks etdirən video nümayişi həyata keçirilə bilər. Video əvəzinə şəkillərdən də istifadə oluna bilər. Şagirdlər oxuduqları əsərin məzmunu ilə səsləşən bu şəkillərə münasibət bildirdikdən sonra tədqiqat sualını ünvanlayırıq: “Sizcə, Sürəyya, Firuz baba və onlar kimi yüzlərcə uşağın, insanın faciəsinin səbəblərini yazıçı nədə görür?”. Alınan və qeyd olunan ilkin fikirlər sonda gəlinən nəticələrlə müqayisə olunur. Tədqiqatın aparılması mərhələsində cütlüklərlə iş formasından istifadə edirik. Daha sonra cütlüklər arasında dərslikdəki 2, 3 və 4 nömrəli tapşırıqlar bölünür. Tapşırıqların icrasından sonra mübadilə və

müzakirə həyata keçirilir. Müzakirəni nisbətən fərqli formada icra edirik. Belə ki, eyni tapşırığı icra edən cütlüklər fərqli fikirlərdə olan cütlüklərə qarşı öz ideyasının düz olduğunu sübut etməyə çalışırlar. Nəticələrin çıxarılması mərhələsində artıq şagirdlər Sürəyyanın və Firuz babanının acınacaqlı taleyinin səbəbini həmin dövrdə hökm sürən ədalətsizlik, hakim dairələrdə özbaşınalıq, soydaşlarımıza yad münasibət, ədalətsizlik, quruluşun yaramazlığı olduğu qənaətinə gəlirlər. Bununla da ilk məzmun dərsində qoyduğumuz tədqiqat sualının cavabı daha da aydın olur. Ev tapşırığı olaraq dərslikdəki tapşırığa dəyişiklik edərək şifahi təqdimat deyil, slayd hazırlanması istənilir. Və son olaraq formativ qiymətləndirmə aparılır.

Orta məktəbdə nəsr əsərlərinin tədrisində interaktiv təlimin üsul, vasitə və metodlarından yaradıcı şəkildə istifadə edilməlidir. Hər bir müəllim dərsdə fəallığın, şagirdin yaradıcı düşüncəsinin, əməkdaşlıq şəraitinin təmini üçün monotonluqdan qaçmalıdır.

Ədəbiyyat

1. Əliyev S., Həsənov B., Məmmədova S., Mustafayeva A., Verdiyeva N. Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı: “Şərq-Qərb” MMC, 2022, 208 səh.
2. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: “Müəllim”, 2014, 424 səh.
3. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal\interaktiv təlim. Bakı: 2009, 200 səh.
4. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı: “ADPU-nun nəşriyyatı”, 2023, 414 səh.

## ÜMUMİTƏHSİL MƏKTƏBLƏRİNDƏ VI SİNİF ŞAGİRDLƏRİNİN KARTOQRAFİK VASİTƏLƏRDƏN İSTİFADƏ ETMƏK BACARIĞININ FORMALAŞMASI

**Ağayeva Türkan Balabəy qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müstəqilliyinin 33-cü ilini yaşayan Azərbaycan Respublikasının Təhsil sistemi özünün davamlı inkişafı təhsil sektoruna göstərilən qayğının nəticəsidir. Təhsil xalqın ümidli gələcək sferasını yaratmaqla vətəndaşı cəmiyyətdə təfəkkürlü qüvvəyə çevirir. Müasir təhsil sisteminin yenidən qurulması ilə əlaqədar olaraq gerçəkləşmiş islahatlar nəticəsində təhsildə çoxsaylı uğurlara imza atılmışdır. Belə ki,”Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası” və bura daxil olan mühüm əhəmiyyətli tədbirlər təhsilin yenidən qurulmasında öz əksin tapır. Ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisi şagirdlərdə elmi dünyagörüşün formalaşması həmçinin onların vətənpərvərlik ruhunda tərbiyə olunmasında əhəmiyyətli rol oynayır. N.N Baranskinin xəritə coğrafiyanın dilidir ifadəsi bütün coğrafiyaşünaslara məlumdur. Coğrafiya dərslərində bütün mövzuların şərhi zamanı xəritənin əhəmiyyəti böyükdür. Məqsəddən asılı olaraq xəritədən tədris prosesi zamanı əyani vəsait ,informasiya mənbəyi və idrakın predmeti kimi istifadə olunur. Xəritə şagirdin hafizəsində əyani obrazlarla qeydə alınmış informasiyanı yada salmaqda , hafizənin assosativ mexanizmini hərəkətə gətirməkdə şagirdin köməyinə gəlir.

VI sinifdə şagirdlər məhəllin planı ilə tanış olur, qlobus, dünya və yarımkürələr xəritəsində Azərbaycanın mövqeyinə dair ilkin kartoqrafik biliklər alır. Ümumiyyətlə yeni biliklərin yaradıcı tədqiqatcılıq yolu ilə əldə olunması həmçinin idrakın inkişafına yönəldilmiş problemli təlim zamanı xəritə işarəli obrazlı model rolunu oynayır. Plan şagirdlərin işini təşkil edir,xəritə üzrə dolğun və düzgün təsvirlər tərtib edilməsinə , xəritəni diqqətlə oxumağa kömək edir. VI sinif şagirdləri planı öyrənməklə kağız üzərində üfüqün cəhətlərini çəkməyi, miqyasa görə məsafələri təyin etməyi və planın tərtib olunmasında iştirak etməyi öyrənməlidirlər. Fəaliyyətin bu növü əsasən müəllimin rəhbərliyi altında praktik işlər kimi yerinə yetirilir. Aparılan işlər şagirdlərə xəritəni başa düşməyə imkan yaradır. Şagirdlərin məhəllin planı , onunla əlaqədar olan anlayışları və tədris işi piriyomlarını öyrənməsində 6-cı sinif atlasının əhəmiyyəti böyükdür.

Mətni oxuduqca şagirdlər coğrafi obyektləri seçməli , dəftərinə yazmalı, kontur xəritəyə köçürməli , atlasında axtarmalı və nəticədə şagird yer kürəsində ki obyektlərin yerini müəyyən etməlidir. Atlasın xəritələri əyani və dərk edilən olmaqla dərslikdə dərslik xəritələrində bəhs olunan bütün məsələləri əhatə etməli və məzmununa görə onlardan zəngin olmalıdır.

VI sinif şagirdləri atlas və dərslikdən istifadə edərək kontur xəritələri üzərində işləməli və sadə, qara karandaş vasitəsilə onun üzərində obyektləri qeyd etməli, konkret tapşırıqları həll etməlidir. Hər hansı şərti işarəni düzgün anlamaq üçün şagirdlər onun real vəziyyətini təsəvvür etməyi bacarmalıdır. Belə təsəvvürlər ekskursiyalarda, şagirdlər üçün nümayiş etdirilən kinofilmlərdə, şəkillərdə, plastilindən hazırlanan yapmalarda formalaşır. Əşyaların kartoqrafik təsvirlərə uyğun olmasına diqqət yetirmək lazımdır. VI sinifdə şagirdlərə çayların, dağlar və düzənliklərin tədrisi zamanı Azərbaycanda olan bu təbii obyektlərin adlarını həm özlərinin həmdə valideynlərinin köməyilə xəritədən tapmalarına aid tapşırıqlar verilməli ,bu tapşırıqlar bir növ əyləncəli, maraqlı olmalıdır.

Qeyd etmək lazımdır ki, interaktiv təlim metodlarından istifadə etməklə şagirdlərdə kartoqrafik bilik və bacarıqların formalaşması istiqamətində, idrak fəaliyyətinin o cümlədən dərsin keyfiyyətinin artırılmasına nail olmaq mümkündür. VI sinif şagirdlərinin mövzuları mənimsənilməsində kartoqrafik sual və tapşırıqlar önəmli yer tutur. Coğrafiya fənninin tədrisində əldə olunan müvəffəqiyyət müəllimin elmi pedaqoji hazırlığılından çox asılıdır. Ümumiyyətlə ümumitəhsil məktəblərində kartoqrafik vasitələrdən istifadənin düzgün istiqamətləndirilməsinə xüsusi diqqət yetirilməlidir. Çünki, xəritəni oxumaq piriyomlarının formalaşdırılmasının məqsədyönlü təşkil edilmiş prosesi şagirdlərdə orta məktəbi qutardıqda fiziki , iqtisadi və siyasi xəritələri müstəqil surətdə oxumaq imkanı verir ki,bu da ölkəmizin təsərrüfat və ictimai həyatında fəal iştirak etmək üçün olduqca lazımdır.

Ədəbiyyat

1.O.Alxasov “Coğrafiyanın tədrisi metodikası” Bakı 2013 368 səh

2.A.M.Huseynov “Coğrafiya xəritəsi və onun üzərində çalışmalar” Bakı 1997 192 səh

3.Bibik .A.J ”Orta məktəbdə Coğrafiya təliminin metodikası” Bakı 1978 , 424 səh

## TƏLİMDƏ QİYMƏTLƏNDİRMƏNİN NƏTİCƏLƏRİNDƏN İSTİFADƏ

**Axundova Gültac Məmməd qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Yeni qiymətləndirmə sisteminin hazırlanması Təhsil Sektorunun İnkişafı layihəsində prioritet istiqamətlərdən biri kimi müəyyən olunmuşdur[1]. Təlim və tədris prosesinin təkmilləşdirilməsi, ölkə üzrə şagirdlərin nailiyyətləri barədə obyektiv məlumatların əldə edilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsi üçün müasir qiymətləndirmə mexanizmlərinin yaradılması mühüm vəzifə kimi irəli sürülür. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur.

Müasir qiymətləndirmə mexanizmlərinin yaradılması təlim nəticələrinin obyektiv qiymətləndirilməsində, təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici kimi şagird nailiyyətlərinin kəmiyyət və keyfiyyətini üzə çıxaran ən etibarlı mənbə hesab olunur. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan əsas qiymətləndirmə növlərinin tətbiqi məsələlərinin dərindən apaşdırılması aktuallıq kəsb edir.

Təhsildə proqnozlaşdırmanın əsas tərkib hissəsi olan qiymətləndirmə sistemli məlumat toplama və məlumatların təhlili vasitəsilə təlim prosesinin dəyərləndirilməsini və təhsilin

keyfiyyətini idarə edən sistemli prosesdir. Qiymətləndirmənin mahiyyəti şagirdlərin təlim nailiyyətlərini bal və yaxud faizlə ölçmək deyil, onların təlim nəticələrinə çatmasına maneə yaradan amilləri aradan qaldırmaq və kömək əldə etmək imkanı yaratmaqdır.

Əsasən, təhsildə qiymətləndirmənin 3 aspekti fərqləndirilir:

1. Kəmiyyət, maraqlanılan hadisənin nəzərəçarpan tərəfləri ( biliyin həcmi, testdə düzgün cavabların miqdarı və s);
2. Bizi maraqlandıran, narahat edən hadisənin baş verməsi hallarının sayı;
3. Narahatlığa səbəb olan hər hansı bir hadisənin və halın həcmi, başvermə qüvvəsi, intensivliyi.

Təhsil sahəsində qiymətləndirmə fəlsəfi məna tutumuna malikdir. Yəni qiymətləndirmə keyfiyyətin idarəolunmasına, keyfiyyətin yüksəldilməsinə xidmət edir. Qiymətləndirmənin mərkəzində təhsilalanların nailiyyətləri dayanır. Qiymətləndirmənin nəticələrindən istifadə zamanı qiymətləndirmənin mahiyyətini və xarakterini belə qruplaşdıra bilərik[4, s. 16].

İdarəedici-təhlil vasitəsilə əldə edilən nəticələr əsasında yeni keyfiyyət səviyyəsinin müəyyənləşdirilməsi;

Səfərbəredici-təhsilin keyfiyyətinin təmin olunmasında təhsilverənlərin, təhsilalanların, valideynlərin, məktəb rəhbərlərinin, təhsili idarəetmə orqanlarının səylərinin birləşdirilməsi və məsuliyyətinin artırılması;

İnkişafetdirici-qiymətləndirilmənin nəticələrinə görə keyfiyyət dəyişikliklərinin aparılması prosesində təhsilalanların, təhsilverənlərin inkişafı;

Perspektivlik-mövcud nəticələrə görə gələcək fəaliyyət istiqamətlərinin və təhsil siyasətinin müəyyənləşdirilməsi;

Proqnostik-təhsilin keyfiyyətinin bugünkü inkişaf səviyyəsi baxımından növbəti mərhələlər üçün hədəflərin real təsəvvür edilməsi.

Şagird nailiyyətlərinin qiymətləndirilməsinin nəticələri müxtəlif səviyyələrdə aşağıdakı beş mühüm məsələ üzrə təhlil edilir:

- Standart baxımından əldə edilən nəticələrin səviyyəsi.
- Bir qrupun nəticəsinin oxşar şəraitli digər qrupun nəticəsi ilə müqayisəsi.
- Zaman baxımından bir qrupun nailiyyət keyfiyyətində baş vermiş dəyişikliklər.
- Zaman baxımından bir qrupun nailiyyət keyfiyyətində baş vermiş dəyişikliklərin digər qrupun nailiyyət keyfiyyətindəki dəyişikliklərlə müqayisəsi.
- Yeni qərarların qəbul edilməsində şagird nailiyyətlərinin nəzərə alınması.

Azərbaycan təhsil siyasətində qiymətləndirmə təhsilalanın təlim nəticələrinə aid olan məsələ kimi qəbul edilir. Bu qiymətləndirmə ənənəvi qiymətləndirməyə daxildir. Ənənəvi qiymətləndirmə müəllimin subyektiv mülahizələrinə əsaslanırdı, şagirdlərin təlimə marağı artmaq əvəzinə, azalırdı, onların inkişafını sistemli şəkildə izləməyə imkan vermirdi. Bu qiymətləndirmə şagirdlərin nailiyyətini keyfiyyət baxımından deyil də, kəmiyyət baxımından qiymətləndirir və nəticədə şagirdin öz səviyyəsi barədə dolğun fikir formalaşmır, özünü düzgün qiymətləndirə bilmir.

Müasir qiymətləndirmə siyasətinin mahiyyəti və onun ənənəvi qiymətləndirmədən fərqli cəhətləri, müasir qiymətləndirmənin əsas xüsusiyyətləri, müasir qiymətləndirmənin əsas növləri, üsul və vasitələrinin öyrənilməsi təhsilimizin Avropa kontekstində inkişafı istiqamətində atılan mühüm addımdır[2, s.21].

Bildiyimiz kimi, qiymətləndirmənin 3 növü var: milli, beynəlxalq və məktəbdaxili. Təhsildə qiymətləndirmənin sadəcə məktəbdaxili formasından istifadə edilməsi, milli, beynəlxalq qiymətləndirmənin tətbiq edilməməsi məktəblərdə reytinq sahəsində işlərin aparılmasına, təhsildə şagirdlərin nailiyyətlərini keyfiyyət baxımından qiymətləndirilməsinə təsir götərməklə, nəticələrin real təhlili mümkün olmurdu.

Məktəbdaxili qiymətləndirmənin diaqnostik, formativ və summativ növü mövcuddur.

Diaqnostik qiymətləndirmənin nəticələrindən istifadə. İlkin qiymətləndirmədir, dərs ilinin, yarımilin, bölmənin əvvəlində keçirilir. Diaqnostik qiymətləndirmə müəllimlər üçün dəyərli

alətdir, çünki bu qiymətləndirmə şagirdlərin güclü və zəif tərəfləri haqqında məlumat verir və bu, müəllimin gələcək fəaliyyətini istiqamətləndirməyə kömək edir. Şagirdlərin əlavə dəstəyə və təlimata ehtiyacı olduğu sahələri müəyyən etməklə müəllimlər hər bir şagirdin fərdi ehtiyaclarına cavab verən dərslər və fəaliyyətlər tərtib edə bilərlər.

Formativ qiymətləndirmənin nəticələrindən istifadə. Təhsilalanların məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, qarşıya çıxan çətinlikləri müəyyən edib onları aradan qaldırmaq məqsədilə aparılır. Müəllim formativ qiymətləndirmə dəftərində şagirdlə bağlı rəylərini qeyd edir və bu dəftərə nəzər salmaqla hansı şagirdin nəyi bilib, nəyi bilmədiyini, hansı bacarıqlara yiyələndiyini, hansının formalaşdırılmasına ehtiyac olduğunu müəyyən edə bilir.

Summativ qiymətləndirmənin nəticələrindən istifadə. Summativ qiymətləndirmə mövzu, bəhs və bölmənin, yarımillərin sonunda keçirilir (KSQ və BSQ). Şagirdin nəticələri öz əksini KSQ və BSQ-lərdə tapır. Summativ qiymətləndirmənin nəticələrindən istifadə edərək hər bir müəllim öz hesabatlılığını yoxlaya bilr. Summativ qiymətləndirmə nəticələrindən eyni zamanda məktəb rəhbərliyi də istifadə edə bilir. Məktəb rəhbərliyi BSQ qiymətləndirmə nəticələrini istifadə edərək şagirdlərin irəliləyişinin harada az olduğunu və ya heç olmadığını müəyyən edir. Bu da müəllimlərdəki ümumi peşəkar boşluğu aşkarlamağa kömək edir. Qeyd edək ki, qiymətləndirmə standartları təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, şagird nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir, qiymətvermə prosesinin qanuniliyinə zəmanət verir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə konsepsiyası //Kurikulum, 2009, №2
2. Bəylərov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsində yeni yanaşmalara dair//Kurikulum, 2011, №2
3. Hacıyeva T. Məktəbdaxili qiymətləndirmənin aparılması yolları //Kurikulum, 2010, №2
4. Mehdiyeva N. Qiymətləndirmə üsullarından istifadə qaydaları//Kurikulum, 2009, №2
5. Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması Qaydaları //Kurikulum, 2009, №4

## ABŞERON RƏSSAMLIQ MƏKTƏBİNDƏ MÖVCUD OLAN MİFOLOJİ JANRLI ƏSƏRLƏRİN BƏDİİ CƏHƏTLƏRİ

**Allahverdiyeva Günay Oqtay qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Abşeron Rəssamlıq məktəbində önəm kəsb edən sənətkarlardan bir çoxlarının yaradıcılıqlarında mifoloji janra mənsub olan bir çox əsərlər mövcuddur. Hər bir rəssam mifoloji obrazlara fərqli tərzdə yanaşmışlar onların bədii xüsusiyyətlərini fərqli şəkildə yerinə yetirmişlər. Onlardan ilk ağla gələn Mircavad Mircavadov və Rasim Babayevdir. Mircavad Mircavadov əsərlərində mifoloji varlıqları göstərərkən Xeyir və Şər qüvvələrin bir biri ilə mübarizəsini başlıca olaraq vurğulamış, xeyirin hər zaman qalib gələcəyinə inamı tam olmuşdur. Rasim Babayevin mifaloji varlıqları isə fantastika dünyası ilə reallıq dünyasında birləşmiş, həqiqətləri fəlsəfi nüanslarla ötürməyə çalışmışdır.

Mircavad Mircavadovun (1932-1992) yaradıcılığı demək olar ki, abşeronçu rəssamların hər birinə nümunə kimi göstərmək olar. Mircavad Mircavadovun müxtəlif dövrlər də yaratdığı əsərlərində ənənənin müasir şəkildə kontraksı ilə tanış oluruq. Rəssamın əsərlərində orta əsr miniatür üslubuna mənsub olan təsvirçilik xüsusiyyətlərini, Qobustan qayaüstu piktoqrafik təsvirlərdən qidalanaraq yaratdığı hər bir əsəri bədii cəhətdən baxımlığı ilə daima diqqət mərkəzində qalacaqdır. Rəssamın əsərlərinin əsas ideasını xeyir və şərin daima mübarizəsi əks

olunmuşdur. Rəssamın yaratdığı əsərlər Sovet dövründə tamaşaçı və siyasi elita tərəfindən bəyənilməsədə ölkəmiz müstəqillik əldə etdikdən sonra rəssamın yaratdığı hər bir əsərin dərin məna kəsb etdiyi hər tərəfli mütəxəsislər tərəfindən öyrənilmiş və yüksək qiymət verilmişdir. Mircavad Mircavadovun müxtəlif dövrlərdə "Ümid İşığı", "Od Gəlini" əsərlərinin ideya daşıyıcılığı ilə daima ənənənin müasirlik baxımının öndə getdiyini görə bilərik.

Cavadovun yaradıcılığında skiflərin üslübü, Azərbaycan nağıllarındakı div obrazları, Afrika plastikasını daim görmək mümkündür. Onun əsərlərində zaman keçdikcə formalar böyüyərək div obrazına çevrilirlər. Cavadov Akademik gözəlliyə meydan oxuyaraq, öz obrazlarının dərinliyini öncədən sezirdi. Mircavad Cavadov Sezanın əsərlərindən öyrəndiyi həcmlərin həndəsiləşdirilməsi qaydası burada da özünü göstərir. O əsərlərində formaları sadələşdirsədə, formanı və hissləri ötürməyi bacarmışdır. Sənətinin formalaşmasında sadəcə Avropa rəssamlarının rolu olduğunu demək düzgün olmazdı. O Şərq incəsənətini də özünə xas formada öyrənmiş və əsərlərində tətbiq etmişdir. Bunu "Od Gəlini" əsərində də görmək olar. Əsərdə baş personaj olan qadın fiquru alovlar içində rəqs etməsi təsvir olunmuşdur. Kənardan ona tamaşa edənləri rəqsi ilə özünə cəlb etməyi bacarmışdır. Personajlardan bir başında çadra olan yaşlı qadındır. O əlində nal tutaraq bizim qədimdən gələn inanclarımızı təmsil etmişdir. Arxada dayanan kişi fiquru sanki od gəlininin parlaqlığı qarşısında gözləri qamaşdığı üçün əli ilə işığın qarşısını almağa çalışmışdır. Rəssam yaratdığı əsəri qara fonda versədə isti tonlardan yerində və məharətlə istifadə etməyi bacarmışdır. Azərbaycanın qədim zərgərlik nümunələrinə xas olan sırqa isə nəzərə çarpandır.

Rasim Babayevin karyerası bütövlükdə fəlsəfi kosmoqonik sorğularla bağlı idi. Onun sənəti mövcudluğundan ilkin və hər hansı əsas prinsip kimi güclü idi. Rəssam mələklərin və şeytanların olduğu, insan üçün sirli və görünməz yeganə real həyatı ifadə edir, hər şeyi görən gözü ilə həyat hadisələrinin daxili mahiyyətini araşdırır, o, həyat fəlsəfəsinə aid məsələləri güclə, səmimiyyətlə , şənlik və yumor hissi ilə açıq şəkildə ifadə edirdi.

Onun sənəti ilk baxdığımızda həqiqətdən uzaq olsa da, mifoloji və həyatın özündəndir. Onun rəsmləri rəng mistisizmində, onların mənzərəli süjetlərində və boyanın qalın, şirəli teksturasında təlqinedici və cəlbedicidir, metafiziki əhəmiyyətlə doludur. Məncə, o, XX əsr Azərbaycan incəsənətini təmsil edən aparıcı adlardan biridir. Sadəcə olaraq onun bəzi əsərlərini adlandırmaq onun mənzərəli kainatının məkanına qərq olmaq deməkdir: "Qadın və Div", "Ağlayan mələk", "Döyüş", "Tənhalıq", "Türk yazıları", "Qəm", "Cəhənnəmdəki divanə", "Müqəddəs yer".

Div obrazlarına maraq salan Babayev milli mifologiyanın qaranlıq tərəflərini araşdırmağa başlayır. Özünün də qeyd etdiyi kimi , bu qaranlıq obraz inkişaf edərək zülmün rəmzinə çevrilmişdir.

"Qadın və div" əsərində üç başlı div və bir qadın obrazı təsvir olunmuşdur. Mavi örtük üzərində uzanan və transformasiyaya uğramış qadın, dörd əl və üç ayağa sahibdir. İsti və soyuq rənglərin sintezi bu əsərdə nəzərə çarpandır. Sanki bu iki personaj qırmızı məkanla əhatələnmişdir. Rasim Babayevin təsvir etdiyi Div obrazı isə çoxəlli, çoxayaqlı bir personajdır. Əsərdə qadın sükütunu qoruya bilsədə div obrazı onun əksi duyğular yaşayır. Daha çox nəzərə çarpan dörüd rəng vardır ki, bu rəngləri Rasim Babayevin demək olarki bütün əsərlərində görmək mümkündür. Divi qara, qadını ağ rəngdə təsvir etməklə rəssam sanki onlar arasında olan zidliyi vurğulamışdır. Qadının təsvir olunma formasına əsasən ona bir neçə siferadan baxmaq mümkündür. Buda rəssamın sənətində necə yaxşı olduğunu vurğulayan nüanslardan biridir. Sanki fantastika dünyası ilə reallıq dünyasını birləşmişdir. Əsərində yaratdığı obrazlar ilə göstərmək istədiyi həqiqətləri fəlsəfi nüanslarla ötürməyə çalışmışdır. Bəşəri məsələlərdən biri olan Xeyir və Şərin, İşıq və Zülmətin qarşılaşması açıq-aydın görünür. Onun həyata baxdığı prizma bizimkindən çox fərqlidir. Sanki o əsərində aysberqin görünmüyən tərfini bizə göstərməyə çalışmışdır.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏLİM MARAQLARININ FORMALAŞDIRILMASINDA İNKİŞAFETDİRİCİ TƏLİMİN TƏŞKİLİ YOLLARI

**Aslanova Validə Gündüz qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məktəbəqədər yaş dövrü uşaqlara həyatda vacib olan bilik, bacarıq və vərdişlərin aşılandığı dövrdür. Məktəbəqədər təhsilin əsas məqsədi uşaqların fiziki, psixoloji, emosional və intellektual cəhətdən inkişafının təmin olunması və onların məktəbə psixoloji və əqli cəhətdən tam hazırlanmasıdır. Bu baxımdan uşaqların təlimə sevgi və maraqla yanaşmaları vacibdir. Araşdırmalar göstərir ki, uşaqların maraqla icra etdikləri fəaliyyətlərin nəticəsi daha yaxşı olur və onlar maraqla yanaşdıqları fəaliyyətlərdən qaçmır, daha çox məşğul olurlar. Nəticədə təlimə maraq yarandığı zaman onlar uşaq bağçasına hər gün həvəslə gedirlər və təlim prosesində fəal iştirak edirlər.

Pedaqoji proses öyrədən və öyrənənin qarşılıqlı fəaliyyətidir, qarşılıqlı komponentləri olan tam bir prosesdir. Bu prosesin mərkəzində uşaq dayanır, tərbiyəçi ona istiqamət verir, ehtiyacı olduğu zaman kömək edir. Mariya Montessori qeyd edirdi ki, normal bir uşaq dünyanı araşdırmaq arzusundadır, onun araşdırmaq istədiyi bir sahə var. Uşaq böyüklərdən birinin köməyi olmadan bu yeni zonaya özü daxil ola bilməz. Bunun üçün qısa bir dərs, müstəqil araşdırma, körpənin psixikasını inkişaf etdirən fəaliyyətlər üçün təkan lazımdır.

Uşaqların təlim maraqlarının formalaşması, əqli və digər cəhətlərdən inkişafının təmin olunması üçün təhsil müəssisələrində inkişafetdirici təlimdən istifadə olunur. İnkişafetdirici təlim nəzəriyyəsi özündən əvvəlki nəzəriyyələrdən fərqlənir. Burada tərbiyəçi-uşaq münasibətləri obyekt-subyekt münasibətindən subyekt-subyekt münasibətinə keçmişdir. Tərbiyəçi uşaqlara yeni materialı öyrətmir, öyrənməyi öyrədir. Uşaqların araşdıraraq yeni bilikləri ‘kəşf edərək’ öyrənməsinə şərait yaradır. Beləliklə, uşaqlarda müstəqil düşünmək, müxtəlif situasiyalarda azad qərar qəbul etmək, öz fikirlərini ifadə etmək və s. kimi qabiliyyətlər formalaşır. Araşdırmalar göstərir ki, uşaqlar yeni bilikləri araşdıraraq, kəşf edərək əldə etdikləri zaman onlarda təlim prosesinə maraq artır və yeni kəşflər etməyə, biliklər öyrənməyə səy göstərirlər. İnkişafetdirici təlim uşaqyönümlü təlimdir, uşaqların potensiallarının üzə çıxarılıb inkişaf etdirilməsi əsas məsələdir. Yəni inkişafetdirici təlimin düzgün şəkildə təşkil olunması uşaqlarda təlimə qarşı maraq formalaşdırır və bunu artırır, onları inkişaf etdirir.

İnkişafetdirici təlim elə təşkil olunmalıdır ki, təlimin məzmunu, forması, metodları, üsul və vasitələri uşaqların hərtərəfli inkişafına xidmət etsin, onların daxili potensialını, yaradıcı qabiliyyətlərini üzə çıxarsın.

Tərbiyəçi-müəllim uşaqların təlim maraqlarını formalaşdırmaq üçün inkişafetdirici təlimi təşkil edərkən əvvəlcə onların fərdi və ümumi maraqlarını müəyyənləşdirməlidir.

İnkişafetdirici təlim səmərəli şəkildə təşkil olunmalıdır. Təlimin səmərəli təşkili üçün bir sıra şərtlərə əməl olunması vacibdir:

- Məktəbəqədər yaşlı uşaqların müstəqil şəkildə idrakı inkişafı üçün şərait yaratmaq;
- Məktəbəqədər yaşlı uşaqların yaş və fizioloji xüsusiyyətlərinə uyğun təlim texnologiyalarının seçilməsi, sistemləşdirilməsi və təkmilləşdirilməsi;
- Təlimin inteqrativ şəkildə həyata keçirilməsi;
- Uşaqların həm tərbiyəçi, həm də öz yaşıdları ünsiyyətinin təmin olunması, əməkdaşlıq münasibətlərinin təmin olunması;
- Məktəbəqədər təhsil ilə ibtidai sinif arasındakı varisliyin qurulması və s.

Bunlarla yanaşı tərbiyəçi-müəllim təhsildə baş verən yenilikləri izləməli və yeni təlim metodları və üsullarından istifadə etməlidir.

# BƏDİİ MƏTNLƏRIN MƏNİMSƏDİLMƏSİ PROBLEMİNİN İBTİDAİ SİNİFLƏRİN AZƏRBAYCAN DİLİ KURİKULUMUNDA QOYULUŞU

**Aslanzadə Elvina Elşən**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan dili kurikulumu müasir pedaqoji təcrübəyə uyğunlaşdırılması və təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atmaq lazımdır. Bu mənada bədii mətnlərin tədrisi və mənimsənilməsi problemləri mühüm yer tutur. Belə ki, ibtidai siniflərdə müəlliflərin əsərlərinin müzakirəsi, şagirdlərin öz fikirlərini ifadə edə bilmələrinə və ədəbiyyatın zəngin dünyasına daha yaxından tanış olmalarına kömək edir.

Bədii mətnlər şagirdlərdə Vətənin şanlı tarixi haqqında təsəvvür yaradır, onları əhəmiyyətli tarixi şəxsiyyətlərlə tanış edir və sədaqətli olmaq, cəsurluq, xeyirxahlıq, vətənpərvərlik kimi insani, xüsusiyyətlərlər formalaşdırır.

Bədii mətnlər ədəbiyyatın tərkib hissəsidir və müəlliflərin dünyagörüşünü, dilin gücünü öyrədərək ədəbiyyat irsinin əhəmiyyətini şagirdlərin nəzərlərinə çatdırır. Bu keyfiyyətləri aşılayan bədii əsərlərin orta məktəb, xüsusilə də ibtidai sinif Azərbaycan dili dərsliklərində verilməsi əhəmiyyətli addımlardandır.

Bildiyimiz kimi, ibtidai təhsil pilləsi bir şəxsin əsas təhsilini aldığı, fikirlərini, bacarıqlarını, və dəyərlərini inkişaf etdirdiyi ən vacib mərhələlərdən biridir. Bu mərhələdə məktəblilər əsas riyaziyyat, dil və ictimai elmlərdə bacarığa sahib olmuş olurlar.

İbtidai təhsilin sosial və psixoloji tərəfdən də böyük əhəmiyyəti var. Bu mərhələ bir şəxsin ictimai bacarıqlarını, əməkdaşlıq qurmağı və özünü idarə etməyi öyrəndiyi pillədir. Bu baxımdan, ibtidai təhsilin əhəmiyyəti bir cəmiyyətin inkişafında və sürətli dəyişikliklərə cavab vermədə çox böyük rol oynayır.

Həm əvvəlki illərdə, həm də müasir dövrdə ibtidai məktəb dərsliklərinin kifayət qədər yaradıcı məzmuna sahib olub. Bu məzmun şagirdlərin bədii zövqünü, emosional düşüncəsini və ünsiyyət bacarıqlarını inkişaf etdirmək üçün hazırlanmışdır. Yeni kurikulum təhsilinin tələbləri, həmçinin, ümumi təhsilin, yəni I -XI siniflərin fənn standartları, bu standartlara cavab verən dərsliklərin tərtibi və xüsusi hazırlıqlardan keçmiş müəllimlərin təcrübəsi bu iddiaya inanmağa əsas verən amillərdir [1, s.37].

Azərbaycan dili üzrə kurikulum proqramı fənnin məqsəd və vəzifələrini əks etdirən və onun üçün müəyyən edilmiş standartlara nail olmaq üçün zəruri fəaliyyətləri əks etdirən konseptual sənəddir. Bu sənədin hazırlanmasında cəmiyyətin tələbatları və ehtiyacları, şagirdlərin maraqları və istəkləri diqqətlə nəzərə alınıb. Azərbaycan dili fənni üzrə kurikulum proqramı şəxsiyyətyönümlülük, inteqrativlik, nəticəyönümlülük prinsipləri əsasında hazırlanıb.

Azərbaycan dili kurikulumunda bədii üslubda olan oxu materiallarının da təlim məzmunu meyarları və məqsədlləri əhəmiyyətli dərəcədə dəqiqləşdirilib. Metodistlər hesab edirlər ki, Azərbaycan dilinin tədrisində şagirdlərin bədii materialları mükəmməl mənimsəmələri onların şəxsiyyət kimi formalaşmasının ən əsas aspektidir.

D.T. Əsgərova qeyd edir ki: “Təəssüflər olsun ki, ibtidai sinif şagirdləri üçün Azərbaycan dili dərslərində bədii materialların səmərəli öyrənilməsinin metod və yollarının öyrənilməsi müasir islahatların tələblərinə uyğun olaraq hərtərəfli tədqiq olunmayıb., Bundan əlavə, bu mövzu ciddi elmi tədqiqatların və ya dissertasiyaların predmetinə çevrilməyib” [3, s.6-7].

Əsgərova D.T. bu sahədə daha çox tədqiq və elmi işlərə ehtiyac olduğunu və mövzu ilə əlaqəli ciddi elmi tədqiqatların hələ də aparılmadığını vurğulayaraq, bu boşluğun doldurulması üçün tədbirlər görməyə çağırır.

Buna baxmayaraq isə Azərbaycan dili kurikulumunda ibtidai siniflər üçün məzmun xətləri üzrə təlim nəticələri aydın və dəqiq şəkildə verilib. Həmin sənəddə oxu məzmun xətti üzrə aşağıdakı standartlar qoyulub [2, s.12]:

- ✓ mətni şüurlu, ifadəli, sürətli, düzgün oxuyur;
- ✓ tam sözlərdən istifadə edərək müxtəlif mətnləri ucadan və səssiz oxuyur;
- ✓ oxunan mətnlərin məzmunu ilə bağlı fikirlərini ifadə edir;
- ✓ mətnin müxtəlif hissələri arasındakı semantik əlaqələri müəyyən edir;
- ✓ bədii və elmi kütləvi mətnlər arasında fərq qoyur.

I-IV siniflər üçün Azərbaycan dili kurikulumu tədrisin əhatə dairəsini, strukturunu və yanaşmasını vahid sistemi formalaşdıran hərtərəfli və inteqrasiya olunmuş material hesab edilir. Kurikulum gələcək, müasir cəmiyyət haqqında çevik düşünən, bacarıqlı şəxsiyyətləri yetişdirmək üçün nəzərdə tutulmuş strukturlaşdırılmış təhsil proqramına aiddir. Kurikulum yeni təlim məqsədlərini, nəticələrini və məzmun standartlarını nəzərə almaq üçün hərtərəfli yanaşmaları əhatə edir. Bu mənada kurikulum dünyanın, kainatın, təbiətin qarşılıqlı əlaqəsinin vahid anlaşılmasına yönəlmiş, eləcə də interaktiv üsullarla elmi bilik, bacarıq və vərdiş əldə edilməsinə və tətbiqinə diqqət yetirir. Bunlar ibtidai siniflər üzrə Azərbaycan dili kurikulum sənədindən hasil olunan nəticələrdir. Müasir dövrdə Azərbaycan dilinin tədrisinin, o cümlədən, bədii mətnlərin mənimsədilməsi üzrə məsələlərin elmi-metodiki əsaslar üzərində qurulması üzrə ən mühüm vəzifəni səmərəli yerinə yetirmək üçün kurikulum sənədi hərtərəfli başa düşmək çox vacibdir.

Ədəbiyyat

1. Abbasov Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri // Kurikulum islahatı: tədqiqatlar, nəticələr, Bakı: Mütərcim, 2008, №1 "səh.31-37
2. Azərbaycan Respublikasinin Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili üzrə Təhsil Proqramı (Kurikulumu) (I - XI siniflər). Bakı 2013, 135 s.
3. Əsgərova D.T. "Ana dili dərslərində bədii materialların mənimsədilməsinin vasitə və yolları" Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı – 2015, 27 s.

## İBTİDAİ SİNİFLƏRİN AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ MƏKTƏBLİLƏRİN LÜĞƏT EHTİYATININ ZƏNGİNLƏŞDİRİLMƏSİNDƏ FƏAL TƏLİM ÜSULLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Azərli Jalə Azər qızı**
*Mingəçevir Dövlət Universiteti*

Təhsil bizim gələcəyimizdir. Bu səbəbdən də gələcəyimizin təminatına daha diqqətli yanaşmalıyıq. Təhsil prosesi həm də gələcək üçün şəxsiyyətlər hazırlayır. Şəxsiyyətin hərtərəfli inkişafında onun öz ana dilinə olan münasibəti xüsusi yer tutur. Məlumdur ki, doğma dilinə dərindən bələd olmayan şagird şəxsiyyət kimi formalaşa bilməz. Doğma dilə yiyələnməyin əsas şərtlərindən biri dilin zənginləşdirilməsi və lüğət ehtiyatının artırılması istiqamətində iş aparmaqla başlayır. Dilin zənginləşdirilməsi, lüğət fondunun genişləndirilməsi, nitqin inkişaf etdirilməsi, bir sözlə, nitq mədəniyyətinin formalaşdırılması şəxsiyyətyönümlü yanaşmanın başlıca üstünlükləridir. Bütün bunlar ibtidai siniflərdə Azərbaycan dilinin tədrisinin qarşısına müəyyən məqsəd və vəzifələr qoyur. Belə ki, Azərbaycan dilinin tədrisinin optimallaşdırılması, bu istiqamətdə yeni təlim üsullarından düzgün və səmərəli istifadə artıq günün tələbinə çevirilib. Respublikamızda Azərbaycan dilinin tədrisinin optimallaşdırılması, təlimdə müasir tendensiyaların tətbiqini labüdləşdirmək istiqamətində bir sıra sənədlər təsdiq olunmuşdur: Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu) – 30 oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərar, "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın təsdiq edilməsi" haqqında – 3 iyun 2010-cu il 103 nömrəli qərar və sair. Qeyd edilən bu sənədlər Azərbaycan dili təliminin təşkilinə xüsusi diqqət yetirilməsi və bu istiqamətdəki fəaliyyətin həssaslıqla qurulmasına hərətərfli imkanlar açır. Müasir təhsilin əsas məqsədi inkişaf etmiş, geniş

dünyagörüşə malik şəxsiyyət yetişdirməkdir. Odur ki, respublikamızda təhsil sahəsində aparılan islahat proqramına uyğun olaraq hər bir fənnin, habelə "Azərbaycan dili" təliminin qarşısında konkret tələblər qoyulmuşdur: "*Azərbaycan dili təliminin məqsədi şagirdlərə sərbəst nitq fəaliyyəti aşılamaq və onlarda lazımi linqvistik anlayışlar formalaşdırmaqdır. Dil təlimində nitq fəaliyyəti həmişə ön plana çəkilməli, verilən biliklər ona istiqamətlənməlidir*" [4, s.100].. Bu istiqamətdə aparılan işlərin əsasında lüğət ehtiyatını zənginləşdirmək dayanır. Azərbaycan dilini tədqiq edən dilçilər, metodistlər nitqin inkişaf etdirilməsini, lüğət üzrə işi, o cümlədən öyrənənlərin söz ehtiyatının genişləndirilməsini Azərbaycan dili tədrisinin ən mühüm məsələsi kimi dəyərləndirmiş, dilin tədrisində lüğət üzrə işi ön plana çəkmişlər. Bu mənada metodistlərimiz Y.Ş.Kərimov[6], A.N.Rəhimov[5], N.B.Cəfərovanın [3] əsərlərində İbtidai siniflərin Azərbaycan dili dərslərində şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi istiqamətində aparılan işlər haqqında təhlillər və araşdırmalar yer alır, bu istiqamətdə müəllimlər üçün faydalı ola biləcək üsullar verilir. Bundan əlavə xarici metodistlər, məsələn, M.T.Baranovun metodik cəhətdən apardığı tədqiqatlarda qeyd edilir ki, danışa bilən hər kəs müəyyən (cüzi, orta və ya yüksək) səviyyədə doğma dilinin söz bazasına malik olur. Bu da şəxsiyyətin lüğət fondunu təşkil edir. Söz yalnız anlaşılması, qavranılması mümkün olduqda nitqin tərkib hissəsinə çevrilir. Əgər səs kompleksi (söz) düşünüləni ifadə etmək qabiliyyətinə malik deyilsə, o, insanın lüğət ehtiyatı hesab edilə bilməz.

Hazırda ibtidai siniflərin Azərbaycan dili dərslərində şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək məqsədilə qabaqcıl müəllimlər bir sıra yeni təlim üsullarından istifadə edir. Ümumilikdə unutmaq olmaz ki, fəal təlim şagirdlər üçün yeni və zəruri olan biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi prosesidir. Bu zaman müəllim tərəfindən idraki problem-situasiya yaradılır, problem situasiyanın həlli prosesində isə şagirdlər fəal tədqiqatçı mövqeyinə çatmağa çalışırlar.Bu prosesdə müəllimlərə fəal təlim metodlarından istifadə zəruri olur. Fəal təlim metodları öz zənginliyi və rəngarəngliyi ilə seçildiyi kimi həm də öz çətinliyi ilə də fərqlənir və hər bir müəllim bilməlidir ki, fəal təlim-idrak fəaliyyətinin təşkili və idarə olunması üsullarının məcmusudur. Yeni təlim üsullarına həm xarici təcrübədə, həm də respublikamızın pedaqoqları tərəfindən hazırlanan vəsait və dərsliklərdə rast gəlinir. Nümunə üçün Türkiyəli tədqiqatçı İ.Karakuşun metodik yönümdə olan araşdırmalarında rast gəlinən bəzi təlim texnologiyalarına diqqət edək:

1.Şəkil və sxem əsasında kəlmə qazanma: Müəllim 3-4 şagirdi könüllü lövhəyə çıxardır, əllərinə taxta qələm verir və lövhəni boş ərazi kimi təsəvvür etməklərini tapşırır. Hər uşaq lövhədən bir hissə götürür və içinə ev, daxma və s. çəkir, balaca kənd görüntüsü formalaşdırırlar. Sonra isə tədricən kəndə məktəb, baxça, məscid şəkli əlavə edilir, qəsəbəyə çevrilir. Xəstəxana, poçt da çəkilərək rayon görüntüsü əldə olunur. Burada ev, tarla, xəstəxana, dayanacaq və sair kimi sözlər işləndikcə yeni kəlmələrin öyrənimisi zərurəti yaranır.

2."Otuz söz üstəgəl on" oyunu: Bu üsul danışma və yazma bacarıqlarını inkişaf etdirir, müəllim tərəfindən həyata keçirilir. Müəllim otuz sözü səviyyəyə uyğun olaraq şagirdlərə təqdim edir, bu kəlimələrlə məktub, nağıl, hekayə, memuar, xəbər və sair yazmağı tapşırır. Hər həftə sözlərin sayı on ədəd artırılır. Bu üsul düşünməyi, doğru qərar qəbul etməyi təmin edir, yazma, yazaraq dərs hazırlamaq bacarığı qazandırır, oxumağa marağı artırır, tam, doğru cümlə qurmaq vərdişini formalaşdırır, məsuliyyətlilik hissini təlqin edir, şagirdin yaşına uyğun olaraq mənsub olmayan, çatışmayan xüsusiyyətlərinin ortatya çıxmasını, aradan qaldırılmasına zəmin yaradır [8].

Hər bir işinin ustası olan müəllim şagirdi təlim fəaliyyətinə cəlb etməyi bacarmalı, öyrənməyə sövq etməyin səmərəli yollarını axtarıb tapmalıdır. Şagirdlərə yalnız informasiyanı ötürməməli, həm də onlara bilikləri müstəqil qazanmaq üçün istiqamətlər verməlidir. Şagirdlərə ən vacib təlim materialını öyrətməklə bu prosesdəə qanunauyğunluqları üzə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı, nəticə çıxara bilməyi, əsl tədqiqatçı olmağı öyrətmək yolunda bələdçi olmalıdır. Əyər məktəbdə təhsil alan uşaq

gələcəkdə öz üzərinə düşən vəzifələri, cavabdehliyi bugündən dərk edə bilsə sabahın əmin əllərdə olacağına ümid etmək olar. Müəllim üçün qaranlıq qalan bir yer şagird üçün zülmətdir. Bunun üçün də müəllim öz üzərində daim işləməli, dərslərinin tədrisində böyük dönüş yaratmalıdır.

Ədəbiyyat


1. Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmanı. / "Azərbaycan müəllimi" qəz., Bakı: –1-7 iyul, –2001.
2. Balıyev, H.B. Azərbaycan dilinin tədrisi metodikası / H.B.Balıyev, A.H.Balıyev – Bakı: Qismət, – 2014. – 384 s.
3. Cəfərova, N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. Dərslik / N.B.Cəfərova. − Bakı: ADPU-nəş., − 2016. − 403 s.
4. Hacıyev, A.X. Linqvistik və metodik araşdırmalar / A.X.Hacıyev. − Bakı: Nurlan, 2009. 192 s.
5. Rəhimov, A.N. Əsərlər. 20 cilddə. XX cild (Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə)) / A.N.Rəhimov. − Bakı: BQU nəşriyyatı, − 2015. − 470 s.
6. Kərimov, Y.Ş. Ana dilinin tədrisi metodikası: Dərslik / Y.Ş.Kərimov. − Bakı: Nasir, − 2005. − 520 s.
7. Kərimov, Y.Ş. Uşaq məktəbə gedir / Y.Ş.Kərimov. − Bakı: Maarif, − 2007. − 152 s.
8. Karakuş, İ. Türkçe, Türk Dili ve Edebiyatı Öğretimi (Öğretmen El Kitabı) / İ.Karakuş. − Ankara: Sistem Ofset Yayınları, − 2000. − 240 s.
9. Verdiyeva, Z. Azərbaycan dilinin semasiologiyası: Ali məktəblər üçün dərs vəsaiti / Z.Verdiyeva, F.Ağayeva, M.Adilov. – Bakı: Maarif, – 1979. – 306 s.


## İNGİLİS DİLİNİN DÜNYA DİLİ KİMİ ƏHƏMİYYƏTİ


**Babayeva Ədilə Mehman qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Dil informasiya mübadiləsi, mədəni dəyərlərin ifadə edilmə vasitəsidir. Dil cəmiyyətin inkişafı üçün çox lazımlı bir vasitədir. Cəmiyyətdə dilin başlıca rolu onun əsas ünsiyyət vasitəsi olmasındadır. Dilin başqa əlaməti isə ondan ibarətdir ki, o bir neçə ilin məhsulu deyil, dil əsrlər boyu yaranır və inkişaf prosesi keçərək get-gedə formalaşır, zənginləşir. Müasir ingilis dili çox əsrlik inkişafı əks etdirir. Geniş təkamül yolu keçmiş ingilis dilinin tarixi xalqımızın tarixi qədər qədimdir. Bu dil hazırki inkişaf mərhələsinə birdən-birə çatmamış, çox ciddi təsir və istilalara məruz qalmışdır. Zaman-zaman bir sıra işğalçılarla üz-üzə gəlmiş və bunlar da ingilis dilinin söz ehtiyatına önəmli təsirini göstərmişdir. Qloballaşan və inkişaf edən dünyamızda ingilis dilini öyrənmək artıq "məcburi"dir. Çünki ingilis dili artıq təkcə elm və texnologiyanın əsası deyil. İndi ingilis dili təhsil və biznesin beynəlxalq dilinə çevrilib. Dil hər bir ölkədə tanınan xüsusi rolu inkişaf etdirdikdə həqiqi qlobal status qazanır.[1. s 3] Getdikcə dünyanın ünsiyyət qura bilməsi üçün ortaq dilə çevrilən ingilis dili ölkəmizdə də artıq geniş şəkildə yayılıb. Britaniya ingiliscəsi, Amerika ingiliscəsi, Kanada ingiliscəsi, Avstraliya ingiliscəsi ingilis dilinin variantlarıdır. Bu variantlarda tələffüzdə fərqlər olduğu kimi, sözlərdə də müxtəlifliklər mövcuddur.

Kökləri, V əsrdə yaşayan alman tayfalarına qədər uzanan ingilis dili dinamik təkamül yaşayıb. Eramızın 450-ci ildən 1150-ci ilinə qədər danışılan köhnə ingilis dili, dilin linqvistik bazasını təşkil etmişdir. Vikinq işğalları zamanı qədim skandinav dilinən təsirlənib, həmçinin 1066-cı ildə Normanların fəthi dilə fransız lüğətini aşılayıb və orta ingilis dilinin yaranmasına səbəb olub. XV-XVll əsrlərdəki İntibah Dövrü və Böyük Saitlərin Dəyişməsi prosesi bir çox dəyişikliklər gətirib. Müasir ingilis dili isə XVlll əsrdə yaranıb, Sənaye inqilabı və Britaniya İmperiyasının genişlənməsi amillərilə formalaşmışdır.

Bu gün ingilis dili regional nüansları əks etdirən variasiyaları ilə qlobal bir dildir. Köhnə ingilis dilinin müasir ingilis dilinə təkamülü, sosial və mədəni dəyişiklikləri özündə əks etdirir. Hazırda ingilis dili dünyada ən geniş yayılmış dillərdən biridir. İngilis dili dünyada diplomatiya, kommersiya, dənizçilik, elmi-texniki və kütləvi informasiya dili kimi məşhurdur. Zəmanəmizdə nəşr olunan ədəbiyyatın və kütləvi mətbuatın əksəriyyəti ingilis dilində dərc olunur. Bütün bu deyilənlərə görə ingilis dilinin öyrənilməsi hər kəs üçün həyati zərurət kimi qarşıda durur. İngilis dilinin fonetik quruluşu bir sıra inkişaf mərhələlərindən keçməklə özünəməxsus orijinal səs strukturu yarada bilmişdir.

Danışanların sayında, eləcə də beynəlxalq ünsiyyət üçün istifadələrində və digər daha az ölçülə bilən ölçülərdə ingilis dili dünyanın ən vacib dillərindən biridir. Böyük Britaniyada, ABŞ-da və keçmiş Britaniya İmperiyasında 380 milyondan çox insan tərəfindən danışılan bu dil Qərb dillərinin ən böyüyüdür. [2. s 3]

İngilis dili beynəlxalq dil olmaqla bərabər, hər biri özünəməxsusluğu ilə seçilən Böyük Britaniya, ABŞ, Kanada, Yeni Zelandiya və Avstraliya kimi böyük ölkələrin dilidir. Milli-mədəni özəlliklərlə, bir sıra ekstra-linqvistik amillərin təsiri ilə bağlı olaraq ingilis dilinin variantları leksik baxımdan xeyli fərqlənir. Bu variantların fərqli cəhətləri, eyni zamanda, linqvistik amillərlə də bağlıdır.

Müxtəlif dillərin danışıldığı ölkələrdə insanların bir-birini başa düşmək üçün çox vaxt ingilis dilində danışırlar. Çünki ingilis dili böyük kütlə tərəfindən qəbul edilən qlobal dil hesab olunur. Hindistan da, Pakistan da buna misal ola bilər. Hindistanda 24 müxtəlif dildə danışan bir milyondan çox əhali üçün ingilis dili ümumi dil hesab olunur.[3]

Ədəbiyyat

1. David Crystal English as a global Language second edition 2003
2. Albert C.A Baugh, Thomas Cable A History of the English Language 2002
3. https://www.amerikaninsesi.org/a/history-of-english/1573283.html

## KİMYA DƏRSLƏRİNDƏ UNİVERSAL TƏDRİS BACARIQLARINI FORMALAŞDIRAN TAPŞIRIQLAR

**Babazadə Aygun Tahir qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təbiət elmlərindən biri olan kimya texnologiya sahəsində həlledici yer tutur və şagirdlərə kimyanın əsas prinsiplərini dərk etməyi və bu prinsipləri təcrübədə tətbiq etməyi öyrətməlidir. Bu, təhsil müddəti ərzində fundamental universal bacarıqların formalaşmasını təmin edir, kimya dərslərində universal pedaqoji bacarıqları formalaşdıran tapşırıqların mahiyyəti izah edilərkən, onun əsas məqsədi şagirdlərin bu sahədə ilkin universal bilik və bacarıqlara yiyələnməsini təmin etməkdir. Bu vəzifələrin mahiyyəti aşağıdakı aspektlərdən ibarətdir:

1. Konseptual biliklər: kimya sahəsinin əsas anlayışlarını dərk etməyə yönəlmiş ümumi tədris bacarıqları,şagirdlər kimyəvi terminologiyanı başa düşməli və kimyanın elementar prinsipləri haqqında hərtərəfli biliyə malik olmalıdırlar.

2. Tədqiqat bacarıqları. Bu tapşırıqlar şagirdlərdə ümumiləşdirilə bilən tədqiqat bacarıqlarının inkişafına kömək etməli və laboratoriyada tədqiqat apararkən kimya prinsiplərini tətbiq etməyi bacarmalıdır.

3. Analitik təfəkkür bacarıqları: Şagirdlərin analitik təfəkkür bacarıqlarının inkişafına yönəlmiş universal tədris bacarıqları, şagirdlər kimya məsələlərini həll etmək üçün yaradıcı təfəkkürə yiyələnməlidirlər.

4. Tətbiq bacarıqları: Bu məşğələlər şagirdlərə həyatın müxtəlif sahələrində kimyanın prinsiplərini tətbiq etmək bacarığını inkişaf etdirməyə kömək edir, şagirdlər kimyanı gündəlik həyatda, digər sahələrdə tətbiq etməyi bacarmalıdırlar.

5. Ünsiyyət bacarıqları. Qarşılıqlı universal tədris bacarıqları şagirdlərə kimya ilə bağlı məlumatları birləşdirməyə, kimyanı digər elmlərlə və həyatın müxtəlif aspektləri ilə əlaqələndirməyə imkan verir.

Bu tapşırıqların yerinə yetirilməsi şagirdlərin kimya sahəsində uğur qazanmasına və bu sahədə daha böyük inkişafa nail olmasına kömək edir. Kimya dərslərində ümumbəşəri tədris vərdişlərinin formalaşdırılması əsasən müasir tədris metodlarından və pedaqoji prinsiplərdən istifadə etməklə həyata keçirilir. Onun digər fənlərlə əlaqəsi şagirdlərə kömək edir. Kimyanın praktik tətbiqlərini daha yaxşı başa düşmək, müstəqil təlim şagirdlərə özünütədqiqat materialını daha dərindən öyrənməyə imkan verən müstəqil universal tədqiqat bacarıqları, şagirdlərin fəal iştirakını təmin edən və onların özünüqiymətləndirmə vərdişlərinin inkişafına töhfə verən interaktiv təlim metodları ilə təmin edilməsi deməkdir, bu zaman özünüqiymətləndirmə həyata keçirilir. Şagirdin özü tərəfindən. təhsil prosesinizdə universal bacarıqların qiymətləndirilməsi inkişafa nəzarət etməyə və təlimin effektivliyini qiymətləndirməyə imkan verir. Bu yanaşmalar şagirdlərin kimya tədrisi bacarıqlarını inkişaf etdirməyə və onların müasir öyrənmə tələblərinə cavab verməyə kömək edir.

Bu mövzunun aktual olduğunu qeyd edərək, ümumtəhsil məktəbində təlim-tərbiyə prosesində təhsil texnologiyalarından istifadə, şagirdlərin əsas universal bacarıqlarının inkişafını təmin etmək, onların təhsil motivasiyasını və tədris prosesinə cəlb edilməsini təmin etmək mühüm məsələdir. Yeni tədris metodları şagirdlərin praktik fəaliyyətlərinin fəallığını və yaradıcılığını təmin edən sistemlərdir; müasir təhsilin keyfiyyətinin göstəricisi təhsil prosesinin səmərəli idarə olunmasıdır; yüksək standartlara yönəlmiş və dinamik sistem kimi inkişaf edir. Ümumbəşəri təhsilin keyfiyyətinin göstəricilərindən biri şagirdin bilik və bacarıqlarının əvvəlcədən müəyyən edilmiş gözləntilərə, təlim nəticələrinə və qiymətləndirmə meyarlarına uyğunluğudur. Müasir pedaqoji prosesdə şagirdlərin sosial-mədəni və ünsiyyət bacarıqlarının olması təhsilin keyfiyyətinin mühüm göstəricisi kimi qiymətləndirilir və onun davamlı və səmərəli effekti zəruridir. Bu baxımdan təhsil prosesinin şəxsiyyətyönümlü təşkili və fəaliyyətin qiymətləndirilməsi müasir təhsilin paradiqmaları hesab olunur. Bilik, məlumatlılıq və səriştəlilik şagirdlərin keyfiyyətli təhsil alması üçün ən zəruri komponentlər kimi önə çəkilir. Tədris prosesinin yüksək keyfiyyətli təşkilinə nail olmaq üçün müasir mexanizmlər, universal kurrikulumun keyfiyyət göstəriciləri, təlim nəticələrinə uyğunluq, keyfiyyət metodları, şagird nailiyyətlərinin və təlim prosesinin qiymətləndirilməsi ilə bağlı ideya və ideyalar üzə çıxarılır, mühüm təcrübə və prinsiplər müəyyənləşdirilir.

## ALİ MƏKTƏBLƏRDƏ ORTA ƏSRLƏR TARİXİ FƏNNİNİN TƏDRİSİ PROSESİNDƏ YARADICI TƏFƏKKÜRÜN İNKİŞAF ETDİRİLMƏSİNİN İMKAN VƏ YOLLARI

**Bağırova Səadət Hidayət qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Orta əsrlər tarixi dünya tarixinin mühüm tərkib hissəsi olub, onun mühüm və əhəmiyyətli sferasını təşkil edən bufer dövr hesab olunur. Universitetlərdə tarix elminin qayəsi tələbənin tarixə qarşı istəyini stimullaşdırmaq və real həyatın xüsusiyyətləri ilə yanaşı, dünyanı, mühüm məsələləri öyrənmək, xronoloji bilikləri təkmilləşdirmək, keçmişi indiki zamanda dərk etməkdir. Orta əsrlər tarixinin dövrləşməsi problematik məsələdir. O heç də bütün regionlarda eyni dövrdə başlayıb sona çatmamışdır. Hazırda Azərbaycan tarixinin orta əsrlər dövrünü xronoloji çərçivə baxımından tarixçilər 3 hissəyə bölür:

- Erkən orta əsrlər dövrü (III-XI əsrlər);
- Klassik feodalizm mərhələsi (XI-XV əsrlər);
- Son orta əsrlər dövrü (XVI-XVIII əsrin ortaları) [1,s.8-9].

Orta əsrlər tarixinin hər bir mərhələsinin Azərbaycan tarixində səciyyəvi cəhətlərini müəyyən etmək və onu dünya tarixi ilə müqayisəli şəkildə öyrənmək tələbələrdə yaradıcı metod və üsulların inkişaf etməsinə səbəb olacaqdır.

Mövzu barədə yazmadan öncə bildirmək lazımdır ki, problemin işlənmə səviyyəsi ali təhsil müəssisələrində demək olar ki, çox aşağıdır. İndiyədək orta əsrlər tarixinin tədqiqi ilə Oqtay Əfəndiyev, Şahin Fərzəliyev, Yaqub Mahmudov, Nailə Vəlixanlı, Nərgiz Axundova, Tofiq Nəcəfli kimi görkəmli tarixçilərimiz məşğul olsa da, ali təhsil müəssisələrində bu nəhəng dövrün tədris olunmasında ciddi yeniliklərə və reforma ehtiyac var.

Tezisi hazırlayarkən yaradıcı metodların tətbiqini bir neçə vasitə ilə reallaşdırmağı müəyyən etməyə çalışacağıq. Bu nümunələri aşağıdakı formada qruplaşdırmaq olar:

- İKT vasitələrinin orta əsrlər dövrünə tətbiqi ilə;
- Dünya təcrübəsində istifadə olunan yolları ali məktəblərin orta əsrlər dövrünə tətbiq etməklə;
- Mənbələr üzərində işin çərçivəsini böyütməklə [3,s.34-40].

Göstərilən nümunələri ayrı-ayrı formada dərslərə tətbiq etmək Azərbaycan tarixində orta əsrlər tarixinin ali təhsil müəssisələrində öyrənilməsinə mühüm təkan verəcəkdir.

Alimlərin apardığı araşdırmalara əsasən, insanların təxminən 3000 il öncə 1 il ərzində əldə etdiyi məlumatları hazırki dövrdə 1 günə qazanmaq mümkündür. İnformasiya texnologiyalarının tətbiqi tələbələrdə təfəkkür institutunun təkmilləşməsinə, audio-video materiallar isə bəhs olunan proseslərin yaddaşda uzun müddət qalmasına səbəb olacaqdır. [2,s.77-84]. Məsələn, ali təhsil müəssisələrinin I kursunun II semestrində Azərbaycanın orta əsrlər tarixinin klassik mərhələsini tədris edərkən, ölkə ərazisində XII əsrdə yaranmış Eldənizlər (Atabəylər) dövlətinin tarixinə həsr olunan filmin çəkilməsi haqqında xəbərlərin tələbələrə çatdırılması istər tarix fakültələrində öyrənənlərin, istərsə də tarixlə həvəskar şəkildə maraqlanan insanların bu mövzuya maraq göstərməsinə səbəb olacaqdır.

Günümüzdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul planı tarix fakültələri üçün hər il 800 nəfərə yaxın olur. Bu, universitetlərin özündən də yenilikləri tətbiq etməyi, xarici təcrübəni öyrənməyi tələb edir. Hazırda dünyanın qabaqcıl universitetlərinin tarix ixtisaslarında "alternativ tarix", "ailə tarixi" və s. kimi fənnlər tədris olunur. Məsələn, alternativ tarix dərsindən bir nümnunəni Azərbaycanın orta əsrlər tarixində tətbiq etsək, müəllim auditoriyada tələbələrə müraciət edə bilər ki, "Çaldıran döyüşü nəticəsində Sultan I Səlim deyil, Şah I İsmayıl qalib gəlsəydi nələr baş verərdi? Və ya adı keçən döyüşdə Səfəvi qoşunlarının məğlub olma səbəbləri hansılardır ki, onlar olmasaydı Osmanlı dövləti Şərqi Anadoluya yiyələnə bilməzdi?". Tarixi ədəbiyyatdan bizə məlumdur ki, Şah I İsmayılın qoşununun sayının azlığı, Osmanlı dövlətinin odlu silahlarla təmin edilməsi kimi səbəblər döyüşün taleyini həll edən başlıca faktorlar olmuşdur. Bu tip yanaşmalar tələbələrdə yaradıcı düşüncəni oyadacaq, yeni fikir və fərziyyələrin ortaya çıxmasına səbəb olacaq [4,s.1-5].

Tarixi mənbələr olmadan, istinad yeri göstərilmədən düşünmək mümkün deyildir. Azərbaycanın qədimdən bəri mövcud olan siyasi-mədəni tarixini öyrənmək üçün 70-ə yaxın dövlətin tarixinə nəzər salmaq lazımdır. Bütün bunlara nəzər yetirmək üçün həmin dövlətlərin dilini və tarixini də bilmək labüddür. Orta əsrlər tarixinin erkən dövrünün öyrənilməsi üçün əsasən, qrabar, alban, ərəb və fars dillərini bilmək lazımdır. Sonrakı dövrləri öyrənmək üçün isə rus və digər dillər öyrənilməlidir. Bütün bu dilləri öyrənmək də bəzən kifayət etməyə bilər. Orta əsrlər tarixinin tələbələrlə işlənməsi zamanı bu mənbələri həm sistemli şəkildə öyrənmək, həm də onların müqayisəsini aparmaq gərəklidir [5].

Nəticə olaraq bildirmək istəyirik ki, Azərbaycan tarixinin orta əsrlər dövrünün ali təhsil müəssisələrində tədrisi zamanı yaradıcı təfəkkürün formalaşdırılması yolunda vacib işlər görülməlidir. Bu istiqamətdə bəzi təkliflərin irəli sürülməsi yazılan tezisin əsas predmeti oldu.

Ədəbiyyat

1. Mahmudov Y. Orta əsrlər tarixi. Avropa erkən orta əsrlərdə, BDU nəşriyyatı, Bakı, 2012, s.205.
2. Altınay F. The Role of Tecnology in Education, Rijeka. İntechopen publisher, 2020, s.118.
3. Massey, D. D. and Heafner, T. L.,“Promoting reading comprehension in social studies”. Journal of Adolescent & Adult Literacy, London, 2004, s.26-40.
4. Turtledove, Harry; Greenberg, Martin H. The Best Alternate History Stories of the 20 th Century. New York: Del Rey, 2001, s. 1–5.
5. [Elektron resurs] 2024. URL: https://www.youtube.com/watch?v=iIdM6RRw9k8

## MƏKTƏB KİMYA KURSUNUN TƏDRİSİNDƏ EKOLOJİ TƏRBİYƏ PROBLEMİ

**Bağırzadə Neycan Ağamirzə qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir təhsildə baş verən dəyişikliklər müəllimləri diqqəti müəllim və şagirdin birgə məhsuldar əməyinə yönəltməyə məcbur edir ki, burada məqsəd şagirdlərdə praktiki bilik, bacarıq və təcrübə formalaşdırmaqdır Bu gün getdikcə mürəkkəbləşən sosial, iqtisadi, mənəvi mühit məktəb proqramlarının əsaslı şəkildə yenidən nəzərdən keçirilməsini və insanın təbiətdəki hərəkətlərinin nəticələrinə görə ekoloji məsuliyyət məsələlərinin təhsil müəssisəsinin təhsil prosesində əks olunmasını tələb edir.

Hazırki dövrdə ətraf mühitin ekoloji problemlərinin həllində təhsil müəssisələri, xüsusilə də ümumi orta təhsil müəssisələri mühüm rol oynayır. Cəmiyyətin hər bir üzvü məktəb yaşlarından ətraf mühitin vəziyyətindən, yerli və qlobal problemlərdən xəbərdar olmalı, ətraf mühitə qayğı ilə yanaşma ruhunda tərbiyə olunmalıdır. Məktəbdə ekoloji maarifləndirmə, təbii sərvətlərdən davamlı istifadə haqqında maarifləndirmə və ekoloji problemlərə qarşı həssaslığın formalaşdırılmasında mühüm rol oynayır. Müasir məktəbdə ekoloji tərbiyənin formalaşdırılmasının vacib elementləri bunlardır:

1. Kurikulum İnteqrasiyası: Ekologiya təhsili kurrikulumun müxtəlif kurslarına inteqrasiya edilməlidir. Elm, coğrafiya və biologiya kimi kurslarda təbii mühit, ekosistemlər və ətraf mühitin çirklənməsi kimi mövzular müzakirə oluna bilər ki, tələbələr ətraf mühit haqqında əsas biliklərə yiyələnə bilsinlər.

2. Tətbiqi Fəaliyyətlər: Məktəblərdə ekologiya obyektləri yaradıla, bağçılıq və təkrar emal proqramları kimi tətbiqi fəaliyyətlər təşkil edilə bilər. Bu cür tədbirlər tələbələrə birbaşa təcrübə verməklə ekoloji maarifləndirməni artırılmasına töhfə verir.

3. Sahə tədqiqatları və ekskursiyalar: Tələbələrin təbii mühiti müşahidə etmələrini təmin etmək üçün çöl tədqiqatları və təbiət ekskursiyaları təşkil edilməlidir. Bu cür fəaliyyətlər şagirdlərə təbiəti kəşf etməyə, təbii həyatı dərk etməyə və ətraf mühitin qorunmasının vacibliyini dərk etməyə imkan verir.

4. Layihə Əsaslı Öyrənmə: Layihə əsaslı təlim yanaşmaları tələbələri ətraf mühit problemlərinin həlli yollarını tapmağa həvəsləndirmək üçün istifadə edilə bilər. Tələbələr öz ətraf mühit problemlərinə diqqət yetirərək tədqiqat aparmağa və həll təklifləri hazırlamağa həvəsləndirilə bilər.

5. Davamlılıq haqqında məlumatlılıq: Məktəblər davamlılıq prinsipini qəbul etməli və ekoloji cəhətdən təmiz təcrübələri təşviq etməlidir. Təkrar emal, enerjiyə qənaət, su sərfiyyatının azaldılması kimi mövzular şagirdlərə nümunələrlə izah edilməlidir.

6. Sosial İştirak: Ekoloji təhsil təkcə məktəbdə deyil, həm də cəmiyyətdə dəstəklənməlidir. Şagirdlər ətraf mühit problemlərinə qarşı həssaslığını inkişaf etdirmək üçün ictimai fəaliyyətlərdə iştirak etməyə təşviq edilməlidir.

Məktəbdə ekologiya təhsili şagirdlərin ətraf mühitə qarşı şüurlu, məsuliyyətli fərdlər kimi böyüməsinə kömək edir və gələcək ətraf mühit liderləri və müdafiəçiləri yetişdirmək üçün mühüm yol ola bilər.

Təhsil sahəsində ekoloji problemlərin həlli böyük əhəmiyyət kəsb edir, çünki gənc nəsillərin ekoloji şüurunu inkişaf etdirməli və ekoloji problemlərin həllində fəal rol oynamalıdırlar. Təhsildə ekoloji problemlərin həlli üçün bəzi təkliflər:

- Ekoloji Maarifləndirmə Dərsləri:

Məktəb kurrikulumunda ekoloji maarifləndirmə kurslarının keçirilməsinə və mövcud kurslarda ətraf mühit məsələlərinə daha çox diqqət yetirilməsi vacibdir. Bu kurslarda iqlim dəyişikliyi, biomüxtəliflik, tullantıların idarə olunması və suyun çirklənməsi kimi ekoloji problemlərin müzakirə olunması və tələbələrin maarifləndirilməsi üstünlük təşkil edir.

- Praktiki Təcrübələr:

Məktəblərdə praktiki ekoloji təcrübələrin verilməsi şagirdlərə ətraf mühiti daha yaxşı anlamağa və təbii sistemlərin fəaliyyətini müşahidə etməyə şərait yaradır. Buraya təbiətdə gəzintilər, ətraf mühitin təmizlənməsi fəaliyyətləri, təbii yaşayış yerlərinə səfərlər kimi fəaliyyətlər daxil ola bilər.

- Layihə Əsaslı Öyrənmə:

Tələbələrə öz ətraf mühit layihələrini inkişaf etdirmək və həyata keçirmək üçün imkanlar yaradıla bilər. Məsələn: məktəb həyatində əkinçilik təcrübələri, təkrar emal proqramları və ya enerji səmərəliliyi layihələri kimi tələbə yönümlü layihələr tələbələrin fəal iştirakına şərait yarada bilər.

- Tədris Materialları və Resursları:

Məktəblər ekoloji təhsil üçün müvafiq materiallar, kitablar, videolar və onlayn resurslar təqdim etməklə müəllim və tələbələrə dəstək olur. Bu resurslar müxtəlif yaş qruplarına və öyrənmə üslublarına uyğun tərtib edilməlidir.

Təhsildə ekoloji problemlərin həlli tələbələrə ekoloji şüur və davamlılıq sahəsində səriştə qazanmağa kömək etməli və gələcək nəsillərə ətraf mühitə dost liderlər olmaq üçün şərait yaratmalıdır.

## TƏLİMDƏ FƏNLƏRARASI İNTEQRASİYANIN REALLAŞDIRILMASININ ƏHƏMİYYƏTİ

**Bağışova Məleykə Fəxrəddin qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnteqrativ tədris ideyası müəyyən bir fənn hüdudlarında tədrisin təşkil edilməsi kimi anlaşıla bilər. Müasir təhsilin məzmununun quruluşu, dövlət standartlarının inteqrativliyi təhsilalanların hərtərəfli inkişafı və məktəb təliminə əhatəli hazırlığının zəruri komponentləri kimi müəyyən edilir. Digər tərəfdən, mütərəqqi təhsil yanaşması ilə ortaya çıxan fənlərarası tədris, ümumiyyətlə, müxtəlif fikirləri mənalı şəkildə birləşdirərək ənənəvi fənn sahələrinin təqdimatı kimi müəyyən edilə bilər. Türkiyəli tədqiqatçı Mahbub Yalçın fənlərarası yanaşmanı iki və ya daha çox fənnin və ya təhsil sahəsinin birləşməsi və ya əhatə dairəsi kimi ifadə etmişdir [3, s.119]. Fənlərarası yanaşma bir mövzu və ya təcrübəni hazırlamaq üçün müxtəlif fənlərin metodoloji biliklərindən istifadə edilən kurikulum yanaşması adlandırıla bilər. Burada təhsilverən fənlərarası yanaşmanın əsasını təşkil edən biliklərə uyğun olaraq bir çox fənləri birləşdirir və ya əlaqələndirir.

Tədris prosesində fəndaxili və fənlərarası inteqrasiyanın təmin edilməsi bilik və bacarıqların təhsilalanlar tərəfindən daha asan mənimsənilməsi, dərslərin daha inteqrativ formada təşkili və uşaqlarda yaradıcılıq, tədqiqatçılıq fikirlərinin gücləndirilməsi üçün önəmlidir. Fənlərarası inteqrasiya bir neçə fənnə aid olduğu ortaq bilik və bacarıqların sintezi olmaqla yanaşı, bir fənnə aid anlayışların və metodların digər bir fənnin tədrisində istifadəsini nəzərdə tutur. Belə inteqrasiya müxtəlif fənlər arasında məntiqi əlaqələrin qurulmasına kömək

edir. Bundan başqa, bu proses eyni bir bacarığın ayrı-ayrı fənlər vasitəsilə daha da təkmilləşdirilməsini təmin etmək məqsədilə təlim prosesinin keyfiyyətinin artırılmasına şərait yaradır. Fənlərarası və fəndaxili münasibətlərin, sadəcə, əlaqə deyil inteqrasiya xarakteri daşıması bu münasibətlərin daha sıx və möhkəm olmasına, onun bütöv bir prosesə çevrilməsinə kömək edir. Bundan başqa, fənlərarası və fəndaxili inteqrasiya təhsilalanlari interaktiv öyrənməyə yönəldir, onların təbiət, cəmiyyət və insanlar haqqında qarşılıqlı əlaqələr şəraitində qurulmuş biliklərə yiyələnməsini stimullaşdırır [1, s.150].

Bundan əlavə, fənlərarası yanaşmanın təhsilanların özünü tanımasına, ətrafında baş verənlərdən xəbərdar olmasına və dəyişiklik etməyə imkan verdiyi və onun intizam əsaslı təhsildən daha faydalı və inteqrativ olduğu qeyd oluna bilər [2, s.190]. Bu yanaşma fənləri yeni nöqteyi-nəzərdən qiymətləndirmək imkanını yaradır. Fənlərarası metodlara əsaslanan proqramlar vahid intizamlı yanaşmalara əsaslanan proqramlardan daha çox material ehtiva etsə də, bütün sahələri inteqrasiya etmək mümkün deyil. İnteqrasiya, fənlər arasında müvafiq və faydalı əlaqə olduqda multidissiplinar yanaşmada baş verir. Başqa sözlə, fənlər arasında əlaqələr aydın və möhkəm olmalıdır. Nəticədə, məktəblərdə hər bir sahəyə xas olan tədris-təlim mühiti ilə yanaşı, fənlərarası yanaşmaya əsaslanan təlim-tədris mühiti də yaradılmalıdır. Məktəblərdə müasir cəmiyyətin gözlənti və tələblərinə cavab verəcək yeni dərs strukturlarının hazırlanması və buna uyğun olaraq dərs materiallarının hazırlanması böyük əhəmiyyət kəsb edir. XXI əsrin tələblərinə uyğun olaraq eyni vaxtda birdən çox fənni əhatə edəcək şəkildə elmi və texnoloji araşdırmaların aparılması və tək tip tələbə əvəzinə, fərqli düşünə bilən tələbələrin yetişdirilməsi zərurəti bu dövrün tələblərinə uyğun olaraq, elmi və texnoloji tədqiqatların aparılmasında dəyişikliklərə səbəb olur [2, s.200].

Fənlərarası inteqrasiya prosesində də bir neçə fənn üzrə bilik, bacarıq və vərdişlər təkrarlanır, nəticədə biliyin təhsilalanlar tərəfindən sistemli mənimsənilməsi təmin olunur. Belə nəticəyə gəlmək olar ki, fənlərarası inteqrasiya tədrisin keyfiyyətini yüksəldir, təhsilalanlarin təfəkkürünü inkişaf etdirir, dünyagörüşünü artırır. Buna görə də məktəblərdə təhsilə ayrı-ayrı fənlərin öyrədilməsi kimi deyil, XXI əsrin tələb etdiyi həyat bacarıqlarının inkişaf etdirilməsi prosesi kimi baxmalı və təhsilalanlar həyat boyu öyrənməyə hazırlanmalıdır. İnteqrasiya nəticəsində təkrara yer verilmir, təhsilalanlar artıq yüklənmir və tədris vaxtına qənaət edilir [4]. Onlar az vaxt müddətində çox, həm də bir-biri ilə sıx əlaqəli olan biliklərə yiyələnirlər. Bu məqsədlə şagirdəri inteqrativ biliklər əldə etmək üçün təhsilverən bütün fənlər üzrə proqram materiallarına həm yaxşı bələd olmalı, həm də fənlərarası əlaqədən istifadə etməyin yollarını, onun metodikasını dərindən mənimsəməlidir.

**Ədəbiyyat siyahısı**

1. Aydın G., Balım A. Yapılandırmacı yaklaşıma göre modellendirilmiş disiplinlerarası uygulama: Enerji konularının öğretimi //Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi Dergisi, 2005, № 2, s. 145-166.
2. Gür T. Araştırma eğitiminde Disiplinler Arasılık, eğitimim geleceği, üniversitelerin ve eğitimin değişen paradigması, İstanbul: Sabancı Üniversitesi, 2003, 203s.
3. Yalçın, M. Biyoloji dersinde disiplinlerarası çalışmaların öğrenme üzerine etkilerinin incelenmesi //Eğitim ve Öğretim Araştırmaları Dergisi, 2013, № 3, s. 117-122.
4. https://arti.edu.az/az/presentation/838-fanlararasi-inteqrativ-tadris-faaliyyati

## XI SİNİF ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ BƏXTİYAR VAHABZADƏNİN "ŞƏHİDLƏR" POEMASININ TƏHLİLİ YOLLARI

**Bayramova Aysun Elvin qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ədəbiyyat üzrə təhsil proqramı hər bir şagirdin ümumi inkişafını, maraq və meyillərini nəzərə almaqla, onun təlim-tərbiyəsi, təhsili və ədəbi inkişafı üçün optimal şəraitin yaradılmasına yönəlib. Bu məqsədə nail olmaq üçün ümumi orta təhsil səviyyəsində bir-biri

ilə üzvi şəkildə əlaqəli məzmun və fənn standartları, şagird bacarıqlarının inkişaf etdirilməsi istiqamətləri aydınlaşdırılır. Şagirdlərin görkəmli sənətkarların həyat və yaradıcılıq yolu üzrə bilikləri dərindən mənimsəməsi mühüm əhəmiyyət kəsb edir. XI sinifdə həyatı və yaradıcılığı monoqrafik şəkildə öyrənilən Bəxtiyar Vahabzadə çoxşaxəli, zəngin bədii irsi ilə ədəbiyyatımıza yeni ab-hava gətirmişdi. Onun şeirlərində dilimizin bütün rəng və çalarlarını görmək mümkündür. B.Vahabzadə şeirlərində sevgini, imanı, vətəni, milləti, tarixi bir-biri ilə birləşdirmişdir. Onun yaradıcılığı məktəb dərsliklərində daima yer alır və şagirdlərə tədris olunur.

Xalq şairi Bəxtiyar Vahabzadənin 1990-cı ilin qanlı 20 Yanvar hadisələrindən bəhs edən "Şəhidlər" poeması Azərbaycan milli-azadlıq ədəbiyyatının tipik nümunəsidir. Poema 20 Yanvar şəhidlərinin azadlıq mübarizəsində bənzərsiz qəhrəmanlıqlarını tərənnüm edir, əlləri günahsız insanların qanına bulaşmış qatillərə ümumbəşəri nifrətini əks etdirir.

"Şəhidlər" poeması şairin ötən əsrin sonlarında xalqımızın həyatında baş vermiş tarixi hadisələr, azadlıq, müstəqillik uğrunda mübarizədə canlarından keçmiş şəhidlər haqqında fikirlərinin bədii ifadəsidir. Poemada azadlıq uğrunda mübarizə aparan bir xalqın şəhid olması, igid vətən övladlarının şəhidlik zirvəsinə ucalması qürurverici tarixi hadisə hesab olunur. Şairə görə, azadlıq və istiqlal istəyən xalq öz mübarizəsində özünü qurban verməyə hazır olmalıdır. Poemanın bədii xüsusiyyətləri şairin kamil sənətkar olduğunu bir daha təsdiqləyir. Şəhidlərin qəhrəmanlığının tərənnüm edilməsi və faciəli hadisələrin pislənməsi üzvi birlik təşkil edir. Bu bədii əks etdirmə texnikası əsərin məzmunundan yaranan təəssüratı artırır. Yazıçı epitet, müqayisə, təzad, təkrar, məcaz kimi təsvir və bədii ifadə vasitələrindən istifadə edərək fikirləri daha təsirli ifadə etməyə çalışıb.

XI sinif "Ədəbiyyat" dərsliyində şairin bu poeması "Nə istəyir bu millət?", "Təzadlar içində", "Eşq olsun sizə", "Matəm mərasimi", "Axı biz neyləmişdik?" və "Şəhidlər" parçaları verilmişdir.

İlk olaraq müasir təlim üsullarından biri olan BİBÖ-dən (bilirik, bilmək istəyirik, öyrəndik) istifadə etmək olar. Bu üsul şagirdlərə mövzular və problemlər haqqında düşüncələrini stimullaşdırmaqla yanaşı, əvvəlki biliklər və təcrübələr arasında yeni biliklərlə əlaqə yaratmağa imkan verir. Müəllim lövhədə 3 sütunda cədvəl asır və bunları qeyd edir: "Bilirik", "Bilmək istəyirik", "Öyrəndik" [1, s.52].




Şagirdlər mövzu ilə bağlı əvvəlki biliklərini təhlil edir, araşdırmaq istədikləri problem və sualları müəyyənləşdirir və cavab tapır. Bunun üçün müəllim və ya şagirdlər özləri mətni cüt və ya qrup şəklində oxuyurlar. Cütlər və ya qruplar mövzu ilə bağlı mövcud biliklərini qeyd edirlər. Müəllim mətni oxuduqdan sonra mətnlə bağlı suallar olarsa, ikinci sütundakı suallara qayıdır. Cavablar varsa, onları üçüncü sütuna yazmağı xahiş edir. Şagirdlərin qeydləri dinlənilir və müvafiq xanaya cavablar qeyd olunur. Şagirdlər mövcud bilikləri (birinci sütunda) yeni əldə edilmiş biliklərlə (yeni sütundakı məlumat) müqayisə edir və nəticə çıxarırlar.

Poemanın tədrisi zamanı məzmun üzrə iş prosesində şagirdlərə aşağıda qeyd olunan suallar verilir və fikir mübadiləsi aparılır [2, s.174]:

| Şəhid kimə deyilir? | “Şəhidlik zirvəsi”, “şəhidlər ölməz” ifadəsinin mənasını necə başa düşürsünüz? | Şəhidlərin keçdiyi yol bizə nəyi öyrədir? |
|---|---|---|
| | | |

Dərs prosesində müəllim şagirdləri 6 qrupa bölə bilər və hər bir qrupa poemanın bir parçasını həvalə edərək mətnin oxusu həyata keçirə bilər. Daha sonra qruplardan oxuduqları hissənin hansı milli-mənəvi dəyərləri əks etdirdiyi soruşulur. Daha bir tapşırıq isə hər bir qrupa təqdim olunan parça ilə əlaqəli açar sözləri və ya terminləri müəyyən etmələridir. Şagirdlər bu açar sözlərdən və ya terminlərdən istifadə edərək bir neçə sual hazırlayırlar.

Təlim zamanı şagirdlərdən eyni zamanda poemada mənasını aydınlaşdırdıqları sözlər üzərində iş tapşırılır.

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

Poemada daha çox məcazlara rast gəlinir və qruplardan məcazların növünü müəyyən etmək, eləcə də onları nə üçün maraqlı hesab etmələrinin səbəbləri soruşulur.

İstifafə olunan vasitələrlə şagirdlər məlumat əldə edəcəkdir. Amma bunu daha maraqlı şəkildə və müasir texnologiyalardan istifadə etməklə də icra etmək mümkündür. Həmin yollara nəzər yetirək.

Misal üçün, *Youtube*-da Bəxtiyar Vahabzadənin 20 Yanvar hadisələri zamanı televiziyada çıxışını, eləcə də “Şəhidlər” poemasının audio şəkildə materialını əldə etdik. Onu şagirdlərə dərs zamanı təqdim etmək məqsədəuyğundur: https://www.youtube.com/watch?v=Fren-LEpz3E [3]; https://www.youtube.com/watch?v=U59RP3wvupY [4]. Həmçinin “Şəhidlər” poemasının audio yazısını dinləmək şagirdlərə materialları daha yaxşı mənimsəməyə kömək edəcəkdir.

Beləliklə, onu qeyd edək ki, dərs zamanı müəllim bir çox üsul və formalardan istifadə edə bilər. Ən əsası elə üsul və forma seçilməlidir ki, sinifdə olan şagirdlərin hamısı məlumat əldə edə bilsinlər.

Ədəbiyyat

1.Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulum) V-XI siniflər. Bakı, 2013, 93 səh.
2.Həbibəyli İ.A., Əliyev S.H., Həsənov B.A., Mustafayeva A.C. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün “Ədəbiyyat” fənni üzrə dərslik. Bakı, “Bakınəşr”, 2013, 209 səh.
3.https://www.youtube.com/watch?v=Fren-LEpz3E
4.https://www.youtube.com/watch?v=U59RP3wvupY

## SƏNAYE MƏNZƏRƏLƏRİNİN TƏSVİR VƏ MÖVZU MÜXTƏLİFLİYİ

**Bilallı Əbdürəhman Akif oğlu**
*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

XX əsrdən başlayaraq Azərbaycan təsviri sənətinin aparıcı sahələrindən biri olan rəngkalıqda sənaye mənzərəsinin əksi və onun həyatımızda tutduğu mövqeyi haqqında məlumat öz əksini tapmışdır. Yetişən gənc nəsillərin formalaşmasında sənaye mənzərələri aparıcı məqamlardan birini əks etdirir. Azərbaycan incəsənətində sənaye mənzərələrinin təsviri öz mövzu müxtəlifliyi, rəngarəngliyi ilə uzun və zəngin tarixə malikdir. Sənaye və texnologiyaya həsr olunmuş sənət əsərləri ölkənin həyatının və mədəniyyətinin müxtəlif aspektlərini əks etdirir. Azərbaycan incəsənətində ən məşhur mövzulardan biri də neft

istehsalıdır. Azərbaycanlı rəssamların rəsmlərində neft buruqlarının, neft kəmərlərinin və neft emalı zavodlarının təsvirlərinə tez-tez rast gəlinir, bu əsərlər neft sənayesinin ölkə iqtisadiyyatı üçün əhəmiyyətini və onun tarixi köklərini əks etdirir. Bundan əlavə, Azərbaycan incəsənətində sənaye mənzərələrində fabriklərin və digər sənaye strukturlarının təsvirlərinə də rast gəlinə bilər. Rəssamlar bu yerlərin ab-havasını və xüsusiyyətlərini çatdırmaq üçün müxtəlif texnika və üslublardan istifadə edirlər.

1950-ci illərin sonlarında Azərbaycan rəssamlığı sovet incəsənətinin ümumi kontekstində onu fərqləndirən müəyyən xüsusiyyətlər topladı və əldə etdi. Şübhəsiz ki, əsərlərin böyük əksəriyyəti neft mədənlərinin təsviri ilə bağlıdır və nəzərə alsaq ki, 1940-50-ci illərin əvvəllərində neft hasilatı sahələrində texniki avadanlıqlar yenilənirdi (xüsusən də taxtaların dəyişdirilməsi). Prefabrik dəmir konstruksiyaları olan qüllələr, eləcə də boruların və neft kəmərlərinin digər texnoloji komponentlərlə dəyişdirilməsindən sonra bir çox rəsmlər bədii əhəmiyyəti ilə yanaşı, son dərəcə vacib görünən sırf sənədli məna kəsb etməyə başlamışdır.

Sonrakı illərdə daha bir böyük əsərlər qrupu əvvəlki illərdən fərqli olaraq daha geniş şəkildə, bəzən də quş baxışı nöqtəsindən nümayiş etdirilən neft mədənlərinin panoramasıdır. Bu zamanın əsərləri sırf mənzərə görünüşləri kimi müəyyən edilə bilər. Eyni zamanda, bu əsərlərdə romantiklik, müasir texnoloji nailliyətlərin gözəlliyinə açıq heyranlıq çalarları o qədər güclüdür ki, onları sənaye mənzərələri adlandırmaq yalnız böyük bir konvensiya ilə edilə bilər. Bakının müəyyən neft sənayesi obyektlərinə aid qocaman rəssamlarımız tərəfindən bir çox əsərlər yaradılmışdır. Şübhəsiz ki, burda aparıcı rolu NBNZ (1976-cı ildə Andreyev zavodunun bazasında yaradılmış Novo-Bakı Neft Emalı Zavodu), eləcə də "Qara şəhər" (indiki zamanda "Ağ şəhər" ) adlanan ərazilər oynamışdır.

Azərbaycanın təsviri sənət sahəsində bir çox qocaman rəssamlarımız öz yaradıcılıqlarında sənayə mövzusuna toxunmuş və biri-birindən möhtəşəm olan əsərləri ilə yadda qalmışlar.

Azərbaycanın dahi rəssamlarından biri Tahir Salahov da öz yaradıcılığında sənaye mənzərələri geniş yer almışdır. Salahovun əsərlərində digər rəssamların əsərləri ilə müqayisədə rənglər daha solğun, təsvir etdikləri obrazlarda isə sərtlik hiss edilirdi. Tahir Salahov təkcə üslubunun sərtliyi və sadəliyi ilə deyil, həm də tamaşaçıya dərin təsir bağışlaması ilə seçilirdi. Onun əsərlərini hər bir xırda detalın əks olunmasına va diqqətlə nəzərdən keçirilməsinə səbəb olan güc və parlaqlıqla hopdurulmuşdur. Rəssam əsərlərində öz duyğularını və fikirlərini izləyiciyə çatdırmaq üçün minimalist üsullardan istifadə edir, insan qavrayışının dərinliklərinə qədər nüfuz edirdi. Tahir Salahovun səyane mənzərələrinə aid nəyinki Azərbaycanda eləcə də xarici ölkələrin bir çox sərgilərində müayiş olunmuş "Təmirçilər", "Növbədən qayıdanlar", "Səhər eşelonu" və digər məhşur əsərlərini göstərmək olar. Tahir Salahovun əsərlərində eləcə də sənaye mövzularının mütəlifliyini vurğulamaq olar. Rəssamın "Səhər eşelonu" digər əsərlərlə müqayisədə insan obrazlarının olmadığının şahidi oluruq. Bu da fikrimcə əsərdə bir boşluq yaratmış olur.

Nəticə olaraq deyə bilərik ki, Azərbaycan rəssamları neft istehsalının tarixi, onunun iqtisadi potensialını hələ Sovet dövründən bəri diqqət mərkəzinə çevirmişlər. Rəssamlar sənaye sahəsində baş verən hadisələri qələmə alaraq gələcək nəslin bu əsərlərə baxarkən sanki keçmişə qayıdaraq o dövrdə baş verənləri canlı izləyirmiş kimi hiss etməsinə və tarixin boyalar vaistəsilə qorunub saxlanmasına nail olmuşlar. Bununla bərabər əsərlərə tamaşa edərkən əsərdə təsvir olunan emosiaları yaşamaq mümkün olur.

Azərbaycan rəssamlarının sənaye mövzusunda işlədikləri əsərlər bizə neftin çıxarılma taxirindən əlavə ölkənin iqtisadi inkişaf və bü günki Azərbaycanın rifahı üçün nə qədər vacib faktor olduğunu gələcək nəsilə çatdırmaq üçün əyani vəsait kimi əvəzolunmazdır.

# ORTA MƏKTƏBDƏ QEYRİ-ÜZVİ KİMYADAN HESABLAMA MƏSƏLƏLƏRİNİN ŞAGİRDLƏRDƏ KİMYA BİLİKLƏRİNİN İNKİŞAFINDA ROLU

**Cabbarlı Cəfər Şahin oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Orta məktəbdə kimyanın əsaslarının öyrənilməsində kimya məsələlərinin həlli mühüm təlim əhəmiyyətinə malikdir. Kimya məsələləri şagirdlərdə fəallığın, müstəqilliyin yüksəlməsinə, onlarda möhkəm biliyin, bacarığın formalaşmasına, təlimin həyatla əlaqəsinə, peşə yönümünə şərait yaradır. Məsələ həlli kimya təhsilində təlim materialının tam və dərindən mənimsənilməsinə xidmət edən təlim vasitəsidir. Məsələ həllində şagirdlərin maddə və proseslər haqqında anlayışlara dair kimya bilikləri dəqiqləşir və möhkəmlənir.

Təlim prosesinə kimya məsələlərinin daxil edilməsi təlimin aşağıdakı didaktik prinsiplərinin hə-yata keçirilməsinə şərait yaradır.

1. Şagirdlərin fəallığı və müstəqilliyinin inkişafı.
2. Möhkəm bilik və bacarığın formalaşması və inkişafı.
3. Təlimin həyatla əlaqələndirilməsi.
4. Kimyanın peşə yönümünün təmin olunması.

Kimya məsələlərinin həlli şagirdlərdə təhsil, inkişafetdirici və tərbiyə funksiyasını həyata keçirir. Hesablama məsələləri şagirdlərdə kimyanın dəqiq elm olmasına dair təsəvvürləri möhkəmləndirir. Kimya məsələlərinin həlli vasitəsi ilə şagirdlərdə nəzəriyyə ilə praktika arasında əlaqə, kimyanın qanunları, nəzəriyyələri, maddə və proseslər haqqında anlayışlar möhkəmlənir və təkmilləşir. Belə ki, kimya məsələlərinin həllində şagirdlər kimyanın qanunları, nəzəriyyələri, müxtəlif kimyəvi anlayışlar, kimyəvi formullar, kimyəvi tənliklər, maddə miqdarı, həmçinin riyaziyyat və fizika fənlərindən malik olduqları bilikləri tətbiq etməklə fəndaxili və fənlərarası inteqrasiya şəraitində kimya məsələlərini həll etməyi öyrənirlər.

Şagirdlərin kimya məsələlərini həlletmələri onların özfəaliyyəti olmayıb, kimya biliklərinin möh-kəmlənməsini təmin edən təlim vasitəsidir.

Kimya müəllimi təlim prosesi üçün kimya məsələlərini seçərkən aşağıdakı müddəaların reallaşdırılmasını nəzərə almalıdır.

1. Məsələ həllində hansı anlayışlar, qanunlar və nəzəriyyələrə dair biliklər möhkəmlənməlidir.
2. Məsələ həllinin hansı üsulu inkişaf etdirilməlidir.
3. Məsələ həlli hansı didaktik prinsipin formalaşmasına kömək edir.

Təlim prosesində məsələ həlli dərsin müxtəlif mərhələlərində: yeni materialın öyrənilməsi; ma-terialın möhkəmləndirilməsi; müstəqil işlərin təşkili; ev tapşırıqlarında; öyrənilən materialın təkrarı; biliyin yoxlaması; mövzu üzrə şagirdlərin biliyinin ümumiləşdirilməsi və s. tətbiq oluna bilər.

Məsələ həllində alqoritmlərdən istifadə olunması şagirdlərin məntiqi təfəkkürünün inkişafına, kəmiyyətlər arasında asılılığın analizinə, öyrənilən materialda əsas olanları ayırmağa, məsələnin sə-mərəli həllini tapmağa kömək edir.

Burada hesablama məsələlərinin həllində alqoritmlərdən istifadə olunmasına dair nümunə verilir.

Reaksiyanın nəzəri mümkün olan çıxımının(%) hesablanmasına dair məsələ həllinin alqoritmi

1.Məsələnin şərti qısa qeyd olunur.
2. Reaksiyaya daxil olan maddələrdən birinin məlum olan kütləsinə görə reaksiya məhsulunun kütləsini(m nəzəri) hesablayın.
3. Reaksiya məsulunun kütlə payını (%) hesablayın:

$$m(\text{praktik}) : m(\text{nəzəri}) \cdot 100\ \%$$

Məsələ . Natrium sulfatın məhlulda 20,8 qram barium xloridlə qarşılıqlı təsirindən barium sulfat çöküntüsü alınmışdır. Çöküntünü süzüb qurutduqdan sonra kütləsi 22 qram olmuşdur. Əmələ gələn duzun nəzəri mümkün olan çıxıma görə kütlə payını təyin edin

Verilir: m($BaCl_2$) = 20,8 q.; m praktik($BaSO_4$) = 22 q.

Tapılmalı: m($BaSO_4$) = ?

Həlli:

$BaCl_2 + Na_2SO_4 \rightarrow BaSO_4 + 2NaCl$

M($BaCl_2$) = 137 + 71 = 208 q/mol

M($BaSO_4$) = 137 + 32 + 64 = 233 q/mol

1. Barium xloridin maddə miqdarını tapaq:

□ ($BaCl_2$) = m : M = 20,8 : 208 = 0,1 mol

Barium sulfatın maddə miqdarını tapaq:

□ ($BaSO_4$) = m : M = 22 : 233 = 0,1 mol

3.Reaksiya tənliyinə görə

v($BaCl_2$): v($BaSO_4$) = 1mol : 1 mol

4. Barium sulfatın nəzəri çıxımını tapaq:

m (nəzəri) $BaSO_4$ = M · □ = 233 q/mol · 0,1 mol = 23,3 qram.

5. Reaksiyanın praktik çıxımının nəzəri çıxıma görə kütlə payını (%) təyin edək:

ω( % ) = m(praktik) : m(nəzəri) ·100 % = 22 : 23,3 · 100 % = 94,4 % .

Cavab. $BaSO_4$ = 94,4 % .

Cədvəl 1.

Qarşılıqlı təsirdə olan maddələrdən birinin miqdarı artıq götürüldükdə reaksiya məhsulunun miqdarının ( kütləsi və ya həcminin) təyininə aid məsələ həllinin alqoritmi

| Əməliyyatların ardıcıllığı. | Əməliyyatların icrasının nümunəsi. |
|---|---|
| 1. Məsələnin şərtini oxuyun. | 1. Tərkibində 24 qram mis(II) sulfat $CuSO_4$ və 16 qram natrium hidroksid NaOH olan məh-lulları qarışdırdıqda əmələ gələn mis(II) hid-roksidin $Cu(OH)_2$ kütləsini hesablayıb tapın. |
| 2. Məsələnin şərtini və tələb olunanı qəbul olunmuş şərti işarələr ilə yazın. | 2. Verilir:<br>* mis(II) sulfat = 24 q.<br>* natrium hidroksid = 16 q.<br>Tapın: m $Cu(OH)_2$ - ?<br>Həlli. |
| 3. Reaksiya tənliyini yazın. | 3. $CuSO_4 + 2NaOH \rightarrow Cu(OH)_2 + Na_2SO_4$ |
| 4. Birləşmələrin $CuSO_4$, NaOH, $CU(OH)_2$ nisbi molekul kütlələrini hesablayın. | 4. *M($CuSO_4$)=64+32+16·4=160 q./mol*<br>*M(NaOH)=23+16+1=40 q/mol*<br>*M($Cu(OH)_2$)=64+(16+1)·2=98* q./mol |
| 5. □ = $\frac{m}{M}$ formulu ilə başlanğıc maddələrin mol nisbətlərini tapın | 5 □ ($CuSO_4$) = 24 : 160 = 0,15 mol<br>□ (NaOH) = 16 : 40 = 0,4 mol |
| 6. Hansı maddənin qrtıq və hansının az götü-rüldüyünü hesablayın. | 6 Reaksiya tənliyinə görə:<br>□ ($CuSO_4$) : □ (NaOH) = 1: 2<br>Məsələnin şərtinə görə<br>□ ($CuSO_4$) : □ (NaOH) = 0,15 : 0,4 = 1: 2,7<br>Reaksiyada mis(II) sulfat az, natrium hidroksid atıq götürülmüşdür. |
| 7. Reaksiya məhsulunun $Cu(OH)_2$ maddə miq-darı və kütləsini mis(II) sulfata görə hesab-layın. | □($Cu(OH)_2$) 0,15 mol<br>m($Cu(OH)_2$) = M ·□ = 98 · 0,15 = 14,7 q.<br>Cavab: 14,7 q. |

Beləliklə, məsələ həlli kimya təliminin  tərkib hissəsidir. Təlimdə yüksək nailiyyətə yalnız dərslərdə sistemli olaraq məsələ həllindən geniş istifadə etməklə nail olmaq olar.

**Ədəbiyyat**

1. A.C. Quliyev, C.Ş. Cabbarlı. Orta məktəbdə qeyri-üzvi kimyadan hesablama məsələlərinin həllində şagirdlərin kimya biliklərini tətbiq etmək bacarıqlarının inkişaf etdirilməsi. Kimya məktəbdə jurnalı. 3(83) 2023. S. 13- 19.

2.. A.C.Quliyev, L.V.Vəlizadə. məktəbdə  IX sinifində kimyadan hesablama məsələlərinin alqoritmlərdən istifadə olunmasının şagirdlərin dərketmə fəallıq-larının inkişaf etdirilməsində rolu. Kimya məktəbdə jurnalı. 2-3(70-71)202020.  s.54-58

3. A.C.Quliyev.  Orta məktəbdə  şagirdərin kimya biliklərini tətbiq etmək baca-rıqlarının formalaşması. Kimya məktəbdə jurnalı. 4(72) 2020.  s.77-82.

## İNGİLİS DİLİNDƏ ŞİFAHİ NİTQ BACARIQLARININ İNKİŞAFI ÜÇÜN İSTİFADƏ OLUNAN METOD VƏ TAPŞIRIQLAR

**Cahangirova Aynur Eldəniz qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Nitq bacarıqları dil tədrisində kurrikulumun vacib hissəsidir. İngilis dilini öyrənməkdə mənimsənilməli olan dörd qabiliyyətdən biri danışıq qabiliyyətidir. Digər dillərdə danışanlara ingilis dilində danışmaq bacarığını öyrətmək çətindir, çünki öyrənənlərin qavramalı olduğu bir çox komponentlər var, məsələn, söz ehtiyatı, qrammatika və düzgün tələffüz. Tələbələr danışmaq istədikləri zaman bütün bu komponentləri nəzərə almalıdırlar.[2, s.59] Nəticə etibarı ilə nitq tələbələrin əldə etmələri olduğu ən çətin bacarıqdır. Çünki insanlar başqaları ilə danışmaq və ya nəsə demək istədikdə fikirlər, dil seçimi, nə deyəcəkləri, qrammatika və lüğətdən necə istifadə edilməli, məzmun, tələffüz, dinləmək və digər insanlara cavab vermək kimi bir-biri ilə əlaqəli bir sıra amilləri nəzərə almalıdırlar. Şifahi nitq bacarıqlarının inkişaf etdirilməsində istifadə olunan müasir metodlara daxildir;

Kooperativ öyrənmə metodu (Cooperative Learning Method)

Şifahi nitq bacarıqlarını və vərdişlərini inkişaf etdirmək üçün auditoriyanın cəlb edilməsini təşkil etmək üçün kooperativ metoddan istifadə məqsədəuyğun hesab olunur. Kooperativ öyrənmə qrup işinə əsaslanır və ümumi məqsədə nail olmaq üçün tələbələrdən komanda şəklində birgə işləməyi tələb edir. Belə bir təlim metodunda tələbələr bütün komanda üçün vahid məqsədə malik olmaq, işi bölüşmək, məzmunun ümumiliyi, rol bölgüsü və tapşırığın yerinə yetirilməsi üçün həvəsləndirmə nəticəsində yaranan qarşılıqlı asılılığı dərk edirlər. Komandalarda işləyərək, hər bir tələbə materialı öyrənmək və tətbiq etmək üçün fərdi olaraq məsuliyyət daşıyır. Bu zaman onların yaşına, sosial vəziyyətinə və şəxsi xüsusiyyətlərinə görə dəyişən ünsiyyət bacarıqlarının inkişafına böyük diqqət yetirilir.[3, s.9]

Sorğuya əsaslanan öyrənmə metodu (Inquiry-Based  Learning Method)

Bu metod tələbələri sinif fəaliyyətlərində fəal iştirak etməyə həvəsləndirir. Sorğuya əsaslanan öyrənmə tələbələrə öz tədqiqatlarını apara bilən və daim dəyişən dünyada inkişaf edə bilən, düşüncəli, yaradıcı və əməkdaşlıq etməyi bacaran mütəfəkkirlər kimi formalaşmağa kömək edə bilər. Sorğuya əsaslanan öyrənmə yanaşmasından istifadə etməklə tələbələr onları maraqlandıran mövzunu seçə və nitq fəaliyyətlərində iştirak edə bilirlər. Kanada metodisti B.Albertaya görə, sorğuya əsaslanan öyrənmə tələbələrin öyrənmə prosesində fəal iştirak etdikləri, suallar tərtib etdikləri, geniş tədqiqat apardıqları və nəticədə yeni mənalar, anlayışlar və biliklər inkişaf etdirdikləri bir prosesdir.[1, s.1] A.Lane sorğuya əsaslanan öyrənmə metodunun tələbələri müəyyən kurrikuluma aid mövzuları, problemləri və sualları araşdırmağa fəal şəkildə cəlb etdiyini iddia edir.

Eklektik metod (Eclectic Method)

Eklektik yanaşma tədrisi innovativ və zövqlü edir, çünki o, təlim məqsədlərinə çatmağı asanlaşdırır, tələbələri dərsdə fəal iştirak etməyə həvəsləndirir və tələbələrə müxtəlif ehtiyacları ödəmək, özünü inkişaf etdirmək və inamlarını artırmaq üçün müəllimlər və digər tələbələrlə birlikdə işləməyə kömək edir. Bu metod tələbələrə uzun müddət ərzində məlumatı saxlamağa və səlis danışmağa kömək etdiyi üçün effektiv öyrənməni gücləndirir. Sinifdə dillərin tədrisində problem əsaslı yanaşma kimi qəbul edilən bu yanaşma müəllimə tətbiq etmək istədiyi metodologiya və ya yanaşmanı seçməkdə sərbəstlik verir.

**Ədəbiyyat**


1. Alberta, Focus On Inquiry: A Teaher's Guide To Implementing Inquiry-Based Learning (Canada: Alberta Learning, Copyright, 2004), 1.
2. Haryudin, A., & Jamilah, S. A. (2018). Teacher's Difficulties in Teaching Speaking Using Audio Visual AID for Autistic Students. ELTN Journal, 6(2), 59-68.
3. Kaur, M. (2017). Cooperative learning: An effective teaching strategy. International
   Educational Journal, 4(1), 9-20


## ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ VƏTƏNPƏRVƏR RUHLU ƏSƏRLƏRİN ŞAGİRDLƏRƏ ÖYRƏDİLMƏSİ YOLLARI


**Cavadlı Anarə Anar qızı**

*Mingəçevir Dövlət Universiteti*


Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən hazırlanmış V-XI siniflər ədəbiyyat dərsliklərində verilmiş vətənpərvər ruhlu əsərlər şagirdlərin vətəni sevən vətəndaşlar kimi böyüməlırində, eyni zamanda, vətəninə, millətinə xidmətdə sadiq qalacaqlarını aşılayır. Vətənpərvərlik ruhunda yazılmış əsərlər sinif dərsliklərinə salınan zaman şagirdlərin yaş və anlaq səviyyəsi nəzərə alınmalıdır.

Vətənpərvərlik hissi təkcə məktəbdə deyil, eyni zamanda ailədə başlamalıdır. Belə ki ailədə başlayan vətənpərvərlik tərbiyəsi, məktəbdə müəllimlər tərəfindən davam etdirilməlidir. Vətənpərvər ruhlu əsərlər şagirdlərə öyrədilən zaman müəllim müxtəlif üsul və vasitələrdən, eyni zamanda, təlim texnologiyalarından ustalıqla istifadə etməlidir.

Fəxrəddin Yusifovun qeyd etdiyi kimi " V-XI siniflərdə əbiyyat fənninin özəyini ədəbi əsərlər təşkil etdiyindən tədris üçün ayrılan vaxtın çoxu həmin əsərlərin öyrənilməsinə həsr olunur" [1, 232]. Böyük Vətən müharibəsi , 20 Yanvar və Xocalı faciələri , eləcə də birinci Qarabağ müharibəsi Azərbaycan xalqını mənfur düşmənlərə qarşı mübarizəyə səfərbər etdi. Bu şəraitdə məktəbdə bütün tədrisin yenidən qurulması lazım idi. Lakin müəllimlər ədəbiyyatın emosional təsir gücünü adekvat qiymətləndirmirdilər. Dərslərdə rasional təhlil üstünlük təşkil edirdi, uşağın emosional sferası demək olar ki, təsirsiz qalırdı. Yazıçının və şairin bioqrafiyasının tərbiyəvi , vətənpərvərlik əhəmiyyəti lazımi dərəcədə nəzərə alınmayıb , uşaqlara doğma vətəni sevmək yetərincə öyrədilmirdi.

Həsən Balıyevin fikrincə "Vətənpərvərlik tərbiyəsi, gənc nəsildə milli birlik, vətən namusunun hər şeydən üstün olması, xalqa, xalq işinə sədaqət, doğma torpağa, soykökünə bağlılıq hissinin formalaşdırılması" dır [2, s. 110]. Bu gün bizi düşündürən ən aktual mövzulardan biri də vətənpərvərlik, igidlik, azərbaycançılıq və Qarabağ mövzusuna aid olan əsərlərdir. Ədəbiyyat dərsliklərində qeyd etdiyimiz mövzulara rast gəlirik. Bu materiallar şagirdlərdə düşməninin kim olduğunu bilmələrinə və böyüdükləri zaman vətəni qorumaq , vətənə xidmət borclarını yerinə yetirmək üçün cəbhəyə yollanmaqlarını , eyni zamanda Qarabağ uğrunda gedən döyüşlərdə vətən uğrunda canından keçmiş igidlərimizin qisaslarını necə alacaqlarını və s. kimi xüsusiyyətlərini indidən formalaşdırırlar.

Müxtəlif dövrlərdə yaşayan şair və yazıçılarımız bu əsarət altında yazıb yaratmış və ədəbiyyatımızda üstüörtülü şəkildə xalqın, millətin ayılmasına, bu əsarətdən xilas olmağa səsləmişdir. Bir çox yazıçılarımızın isə bu hərəkətləri aşkarlanmış, ya öldürülmüş, ya da sürgünə göndərilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə bu günə kimi Azərbaycan ədəbiyyatı müxtəlif keşməkeşli, enişli-yoxuşlu yollar keçmişdir. Artıq 1991-ci il dekabrın 25-də Azərbaycan Respublikası öz müstəqilliyini elan etdi və nəhayət yeni dərsliklər, ədəbiyyat dərslikləri işlənməyə başlandı. Dərsliklərdə vətənpərvərlik motivi daha qabarıq, daha emosional formada verilmişdir. Azərbaycan çox ağrılı-acılı günlər yaşamışdır. Birinci Qarabağ müharibəsi ilə bu acılı günlər daha da böyüdü. Azərbaycan xalqının köksündə bir yumruq kimi olan Qarabağ 30 il ərzində Ermənistanın, yəni mənfur düşmənin və onun havadarlarının əsarətində qalmışdır. Fəxrəddin Yusifov vətənpərvərlik və bədnam düşmənlərimiz haqqında aşağıdakı fikirlərini əsaslandırmışdır.

"Ötən əsrin əvvəllərindən üzləşdiyimiz, hələlik öhdəsindən gələ bilmədiyimiz bədnam ermənilər silahın deyil, məhz siyasətin hesabına irəli çıxdıqlarına görə doğma torpaqlarımızı müvəqqəti işğal edə bildi və əhalimizin 1 milyonunu qaçqın, köçkün və didərgin vəziyyətinə saldı" [3, s. 264].

Nəhayət, 2020-cil il 10 noyabr tarixində bu acıya son qoyuldu. Cənab Ali Baş Komandan İlham Əliyev və müzəffər ordumuzun şücayətli səyi nəticəsində Qarabağ işğaldan azad edildi. Artıq Qarabağımız düşmənlərdən təmizlənmiş, millətini və xalqını öz ağuşuna almışdır.

Nəticədə, deyə bilərik ki, ədəbiyyat dərslərində verilmiş vətənpərvər ruhlu əsərlər müəllimin səriştəliliyi və ustalığı nətəcəsində şagirdlərə öyrədilməlidir. Vətənpərvər ruhlu əsərlər şagirdlərin yaşları nəzərə alınaraq dərsliyə salınmalı və şagirdlərə aşılanmalıdır.

**Ədəbiyyat**

1.Yusifov Fəxrəddin , “ Ədəbiyyatın tədrisi metodikası” ,Bakı,2014,s,293

2. Muradov B.H , “ Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi”. Bakı,Maarif, 1992

3.Həsənli Bilal ,“Ədəbiyyatın tədrisi metodikası”, Bakı,2016, s.452

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN TƏDRİSİNİN MÜASİR PROBLEMLƏRİ

**Cavadova Əminə Azər qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Biologiya təbiət elmləri ilə humanitar elmlərin kəsişməsində yerləşən və təbiət elmlərinin tədrisində xüsusi yer tutan fənlərdən biridir. Bu gün həm Azərbaycanda, həm də dünya ölkələrində bioloji təhsil çətin dövrdən keçir. Bu isə ilk növbədə cəmiyyətin tələbləri, yeni Təhsil Standartlarına keçid, ümumi təhsilin strukturunda və məzmununda baş verən dəyişikliklərlə əlaqədardır. Azərbaycanda biologiyanın tədrisinin hazırki vəziyyəti bir çox tədqiqatçılar tərəfindən araşdırılır. Ümumtəhsil məktəblərində biologiyanın tədrisinin müasir problemlərinə müxtəlif tədqiqatçı alimlərin yanaşmaları, eyni zamandamüşahidələr bu sahədə bir sıra məsələlərə aydınlıq gətirilməsinə ehtiyac olduğunu deməyə əsas verir.

– Biologiyanın tədrisi prosesinə layihəyönümlü və qeyri standart dərslərin qurulması fəaliyyətinin daxil edilməsi, şübhəsiz ki, biologiyanın öyrənilməsi üçün vacibdir. Çünki layihə dərslərin məqsədişagirdlərin intellektual qabiliyyətlərinin inkişafı, dəyişən dünyanı dərk etməyə və həyatın praktik problemlərini həll etməyə hazırlığını inkişaf etdirməkdir. Həqiqətən də bəzi məktəblərdə şagirdlərin layihə fəaliyyətləri kifayət qədər yaxşı inkişaf etdirilir və onlara qoyulan tələblərə cavab verir. Lakin əksər hallarda tamamilə əks mənzərəni müşahidə etmək olar: Layihə və ya praktik dərslər bəzən monoloji mühazirələrlə əvəz olunur ki, bu da biologiyanın tədrisində olan çatışmazlıqdır. Bu, şagirdlərin layihə fəaliyyətinə cəlb edilməsi zamanı onların təfəkkürünün inkişafına təkan vermək üçün tam şəraitin

yaradılmaması ilə özünü göstərir. Bəli, həqiqətən, layihəni tamamlamaqla şagird yeni biliklər əldə edir, lakin eyni zamanda ətraf aləmi öyrənməyin və praktiki problemlərin həllinin yollarını mənimsəmir ki, bu da xüsusilə vacibdir. Bioloji təhsilin dezavantajı, şəxsiyyətin inkişafında və şagirdlərin şəxsiyyətinin formalaşmasında mühüm rol oynayan, həmçinin onların tədris prosesi zamanı əldə etdikləri bilikləri tətbiq etmək istəyini formalaşdıran, kifayət qədər təminat və resurs olmayan təhsil məkanı hesab edilə bilər. Biologiyada tədris prosesi təkcə məktəblə məhdudlaşmamalı, təbii həyat kontekstində baş verməlidir. Müəllimlər təhsil mühitinin bu hissəsində müxtəlif real şəraiti yaradaraq hər bir şagirdin ətraf mühitlə: təbii, mədəni və s. görüşlərinə təşəbbüs göstərməlidirlər. Bu çatışmazlıqlar müəllimlərin metodiki hazırlığı məsələlərinə xüsusi diqqət ayrılmasını tələb edir.

– Bioloji təhsilin digər mənfi cəhəti odur ki, məktəblilərə real elmdə mövcud olanlardan öyrədilən materialda az bir hissə var, yəni dərsliklərin məzmunu müasir elmin inkişaf səviyyəsini əks etdirmir. Məsələn, yeni nailiyyətlər, hətta qeyd olunsa belə, o qədər səthi verilir ki, onların aktuallığı itir.

–Praktik metodlardan istifadəyə geniş yer verilməməsi. Bu, xüsusi qorunan ərazilərə, meşələrə, muzeylərə, zooparklara ekskursiyaların sayının azalmasında, məktəb ərazilərində işin tədris praktikasından itməsində özünü göstərir ki, bunun mövcudluğu məktəblilərdə böyük maraq doğurur, onların canlı təbiətlə əlaqəsini təmin edir. Tədris prosesində müəllimlər şagirdlərə mümkün qədər tətbiqi deyil, faktiki biliklər verməyə çalışırlar. Bütün bunlar onunla nəticələnir ki, şagirdlər tələb olunan situasiyalarda bioloji bilikləri tətbiq etmək bacarığından məhrum olurlar. Bunun səbəbi, yuxarıda yazıldığı kimi, müəllimlərin əsasən reproduktiv təlim metodlarından istifadə etmələrindən ibarət olan kifayət qədər metodik hazırlığı, habelə fənnin öyrənilməsinə ayrılan saatların kifayət qədər olmaması ola bilər.

– Bioloji təhsilin digər problemlərindən biri maddi-texniki baza ilə bağlıdır. Biologiya kabinetlərində əsasən tablo, labaratoriya avadanlıqları çox hallarda kifayət qədər olsa da, şagirdlərin layihələr üzərində işləməsi, tədqiqat işləri üçün zəruri olan elektron mikroskopların və rəqəmsal laboratoriyaların əlçatan olmamasıdır.

– Həmçinin ilk növbədə şagirdlərdə biologiyanın tədrisindəinformasiya ilə işləməkbacarıqlarının, yəni müxtəlif formalarda (diaqramlar, cədvəllər, rəsmlər, mətnlər, diaqramlar və s.) təqdim olunan məlumatlarla işləmək bacarığının formalaşdırılmamasıdır.

Müəyyən edilmiş bir sıra çatışmazlıqlarla yanaşı bu sahədə bir sıra uğurlarımız da danılmazdır:

- Son zamanlar təbiət elmlərinin, biologiya və həyat bilgisinin məzmununun dünyagörüşü, əxlaqi və ekoloji cəhətdən dəyərli ideyalarla zənginləşdirilməsi tendensiyası müşahidə olunur;
- Biologiyanın tədrisində fənlərarası(həyat bilgisi, coğrafiya, kimya, fizika) inteqrasiyanın aktuallığı göz qabağındadır;
- Biologiyanın tədrisi üzrə məktəb təcrübəsində məktəb dərslərinin şagirdlərin müstəqil işi ilə kitabxanalarda, internet mənbələrində, sinif otaqlarında, laboratoriyalarda və s. kombinasiyası da mövcuddur.

Beləliklə, biologiyanın tədrisi metodikası sahəsində hələ də müşahidə olunan bir sıra problemlərə baxmayaraq, bu gün bu istiqamətdə məktəblilərə bu fənnin tədrisi prosesinin optimallaşdırılması üçün uğurlu addımlar atılır.

## KİMYƏVİ REAKSİYALARIN İSTİLİK EFFEKTİ ZEHİN XƏRİTƏSİNDƏ

**Cəlilova Aynur Muxram qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı yeni təlim metodlarından, təlim texnologiyalarından istifadənin elmi, pedaqoji - psixoloji əsaslarının işlənilməsini əsas problem kimi qarşıya qoymuşdur. Təhsil sistemində yeni təlim texnologiyalarının tətbiqi təlim

prosesinin səmərəliliyini, keyfiyyətini yüksəldən əsas amil olduğundan, belə nəticəyə gəlmək olar ki:

- tədris prosesi nəticəyönümlü proses olduğu üçün, məqsədi əvvəlcədən müəyyənləşdirilmiş və şagirdə istiqamətlənmiş təlim həyata keçirilməlidir;
- tədris və təlim bir-biri ilə sıx bağlı olduğundan daim qarşılıqlı əlaqədə götürülməlidir;
- tədris prosesi hər birinin öz rolu və statusu olan bir neçə fərdlərin əməkdaşlığından irəli gələn sosial bir proses olub inkişaf rejimində fəaliyyət göstərməlidir.

Azərbaycan Respublikasında da informasiya cəmiyyətinin qurulması və kompüterləşmə sahəsində ciddi, uğurlu addımlar atılmışdır. Bu sahədə həyata keçirilən dövlət siyasətinin ümdə vəzifələrdən biri İKT-nin cəmiyyətin müxtəlif sahələrində, xüsusilə də təhsil sisteminə geniş tətbiq edilməsi məsələsidir. Hazırda Respublikamızda bütün sahələrdə, xüsusilə də təhsil sisteminə mütəxəssislərin informasiya və kommunikasiya texnologiyaları (İKT) ilə işləmək və onlardan düzgün istifadə etmək bacarığına çox böyük önəm verilir Təhsildə yeni təlim metod və texnologiyalarından istifadə daha yüksək nəticələrin əldə edilməsinə gətirib çıxarır, şagirdlərdə müstəqillik, işgüzarlıq, təfəkkür fəallığı, məsuliyyət kimi keyfiyyətlər formalaşdırır. Yeni təlim texnologiyalarının tətbiqi ilə keçirilən müasir dərslər ənənəvi dərslərdən bir çox üstün cəhətləri ilə fərqlənir. Ənənəvi dərslərdə təlim müəllim-dərslik-şagird paradigması ilə qurulurdu, amma müasir dərslərdə şagird-dərslik-müəllim paradigması üstünlük təşkil edir və tələbələrin hərtərəfli inkişafını təmin edir. Müasir dərsin əsas cəhətlərindən biri şagirdlərin fəallığıdır ki, buna interaktiv təlim metodlarından istifadə etməklə nail olunur.Müəllim dərs formasını seçərkən şagirdin marağını nəzərə almalıdır. Bu gün şagird, məktəb mühitində mövcud informasiya vasitələrindən fəal istifadə edərək dərslərdə onlar üçün maraqlı olanları görmək istəyir.

Bunun üçün müəllim mövzuya uyğun resursları seçməlidir ki, bu resurslar dərslərin maraqlı keçməsinə, qoyulan məqsədə nail olmağa imkan yaradacaqdır. Müəllim dərsə yaradıcı yanaşmalıdır, məzmun standartlarına əsasən dərsin məqsədini müəyyənləşdirməlidir. Bu zaman öyrədici, inkişafetdirici, tətbiqedici funksiyalar nəzərə alınmalıdır. Beləliklə, bu məsələlər bir-biri ilə sıx əlaqədə olub, biri digərini tamamlayır. Bunların əsasında isə şagirdlərin nail olacağı nəticələr, məzmun standartları, təlim strategiyaları dayanır. Əlbəttə, məqsəd təhsilin keyfiyyətinin yüksəldilməsi, yüksək intellektual səviyyəli, elmi dünyagörüşlü, müstəqil düşünmək və yaradıcı fəaliyyət göstərmək qabiliyyətinə malik olan gənc nəslin yetişdirilməsindən ibarətdir. Bundan ötrü müasir dünyanın şəxsiyyətə yönəlmiş təhsil sferasına daxil olmaq, tələbatlara uyğun interaktiv məzmun, ən yeni təlim strategiyaları, qiymətləndirmə mexanizmləri, demokratik idarəetmə sistemi işləyib hazırlamaq üçün ənənəvi və mütərəqqi dünya texnologiyalarından istifadə edilməlidir.

Bu istiqamətdə istifadə olunan ən yeni texnologiyalardan biri də zehin xəritələridir. Zehin xəritələri Britaniyalı psixoloq Toni Buzen tərəfindən təqdim olunmuşdur. 1960-cı illərin axılarında insan beynini araşdırarkən,neyronların quruluşuna diqqət yetirib. Neyronlar, məlumatı qəbul edən, işləyən və başqa neyronlara məlumatı ötürən beyin hüceyrələridir. Neyronun mərkəzindən – ağacın budağına bənzəyən növlər yayılır. Buzen bu məlumatı eyni prinsiplər əsasında təşkil etmişdir. Zehni xəritəsi məlumatın strukturlaşdırılması və onun hissələri arasında əlaqələri tapmağa kömək edən bir vizuallaşdırma vasitəsidir. Bu, əsasən bir "əsas blok" ilə başlayır ki, bu blok əsas ideyanı, mövzunu, probleminizi və ya konsepsiyasını göstərir. Daha sonra, əsas bloka əlavə bloklar və ya şöbələr əlavə olunur, bunlar əsas fikrin alt mövzularını, ayrıntılarını və əlaqələrini təmsil edir. Böyük bir mövzunu daha kiçik hissələrə bölərək və bu hissələri daha da detallandıraraq, məlumatın strukturlaşdırılmasına kömək edir. Bu sayədə məlumat daha anlaşıqlı, düzgün və görsəl olaraq təqdim edilir.Zehin xəritələri keçilən mövzunu mənimsədikdən sonra onu təkrar etmək etmək üçün istifadə olunur.Zehin xəritəsinin kimya dərslərində tətbiqi mövzulardakı əsas məqamlara diqqət çəkilməsinə, öyrənmənin daha asan və qalıcı olmasına köməklik göstərir. Məsələn: Şagird "Kimyəvi reaksiyanın istilik effekti " mövzusunun tədrisinə dair ümumiləşdirici təkrar zamanı əvvəlki

dərslərdə öyrəndiyi biliklərə əsasən zehin xəritəsini özü tərtib eliyə bilər. Bu zaman əsas başlıq kimi kimyəvi reaksiyaların istilik effektini götürdükdə kimyəvi reaksiyalara dair keçilən biliklərdən istifadə edə bilər. Onun əsas qollarına kimyəvi reaksiyaların istilik effektinə görə ekzotermik və endotermik olan növlərini çəkə bilər.İstilik effektinin reaksiyada iştirak edən maddələrin yanma və əmələgəlmə istilklərinə görə hesablandığını, Hess qanunu haqqında olan əsas məqamları, yaranmış olan istisna prosesləri, istilik effektinin maddələrin aqreqat halına təsirini və s. hadisələri çəkilən 3-cü və ondan sonrakı budaqlarda qeyd edə bilər. Bununla da şagird həm oxumaqla, həm də vizual görüntüyə sahib olmaqla qısa zaman ərzində öyrəndiklərini həm təkrarlaya bilər, həm də yeni biliklər əldə bilər. Mərkəzdə verilən mövzunun adından başlayaraq saat əqrəbi istiqamətində çəkilən şaxələr ardıcıl olaraq izləndikdə deduksiyadan induksiyaya, əksinə izlənmə zamanı isə induksiyadan deduksiyaya keçmək olur.Zehin xəritəsi keçilən mövzunun açar sözlər və parlaq rənglərlə verilmiş qısa , konkret, əyləncəli bir rəsmidir. Mövzu mənimsənildikdən sonra onu təkrar etmək üçün əvəzolunmazdır.

## RİYAZİYYAT TƏLİMİNDƏ ŞAGİRDLƏRDƏ İNTUİSİYANIN İNKİŞAF ETDİRİLMƏSİ TEXNOLOGİYASI

**Eyyublu Ruziyyə Məcid qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir cəmiyyətdə həyat üçün riyazi təfəkkürün formalaşması vacibdir. Riyazi təfəkkürün komponentlərindən biri də intuitiv təfəkkürdür. İntuisiya hər hansı bir elmin, xüsusilə də riyaziy-yatın öyrənilməsi prosesində mühüm yer tutur. Riyazi həqiqətlərin dərk edilməsi bəzən konkret bir görüntünün dəstəyi olmadan uzun bir düşünmə prosesi şəklində baş verir. İntuisiya «həqiqəti dərk etməyin xüsusi üsuludur». Riyaziyyat məktəb kursunun öyrənilməsində intuisiya bir forma, metod kimi və öyrənmə vasitəsi kimi təzahür edir.

Bəzi tədqiqatçılar (D.Maiburova, V.Qəhrəmanov) intuisiyanın bir neçə növünü riyazi idra-kın bir növü kimi fərqləndirirlər: hissi intuisiyası, idraki intuisiya və konseksiya. Tədris prosesində 4 bilik, öyrənmə forması mövcuddur: 1. bir duyğu obrazından digərinə (duyğusal dərk etmə); 2. bir anlayışdan digərinə (məntiqi idrak); 3. obrazlardan anlayışlara (duyğu və məntiqi anlayışların qarşı-lıqlı təsiri); 4. Konsepsiyadan obrazlara ("Məntiqi və duyğusal qavrayış"ın qarşılıqlı təsiri).

Üçüncü və dördüncü formalar intuitiv öyrənməni nəzərdə tutur. Əldə edilmiş bilikləri effek-tiv şəkildə tətbiq etməyə imkan verən mövzunun həqiqi dərki intuisiya olmadan mümkün deyil. A.Poincaré yazırdı ki, məntiq bizə bütövlükdə elm haqqında təsəvvür verə bilməz, nəinki intuisiya. İntuisiya inkişaf etmədən, biliklərin formal, məlumatlandırıcı və təbiətdə istinadlı olduğu ortaya çıxır.

Riyaziyyat tarixində rasional intuisiya anlayışı mühüm rol oynamışdır. Məsələn, bütün hən-dəsi şəkillər rasional intuisiya ilə mükəmməl sağlam, dəqiq, aydın və maksimum elmi bilik və dü-şüncənin əsasını təşkil edir. Psixoloqlar iddia edirlər ki, obrazın görüntüsü, problemin həllinin nəti-cəsi intuisiyadan (beynin sağ yarımkürəsi ilə yaradıcı, intuitiv və instinktiv kimi düşünmək) və məntiqi təhlildən (sol yarımkürənin xətti, analitik, sistemli və şüurlu proses kimi fəaliyyəti) yaradılır.

Riyazi intuisiya, düzgün həll yolunu tez tapmaq, müəyyən bir problem nəticəsində yaranan vəziyyətləri istiqamətləndirmək və nəticəni proqnozlaşdırmaq bacarığı kimi, çox vaxt insanın doğuşdan əldə etdiyi fərdi xüsusiyyət hesab olunur. Beləliklə, təhsil və tərbiyə prosesində onun inkişaf etdirilməsinin mümkün olub-olmadığı sual yaranır. Müasir məlumatlara görə, təlim və tərbiyə yolu ilə insanın miras qoyduğu keyfiyyətlərə birbaşa təsir etmək demək olar ki, mümkün deyil. Digər tərəfdən, təhsil və tərbiyə öz-özlüyündə şəxsiyyətin psixiki inkişafı baxımından böyük potensiala malikdir.

Riyaziyyat şagirdlər üçün olduqca çətin olan bir elmdir. Ona görə də bu fənnin tədrisinin keyfiyyətini yüksəltmək və riyazi mədəniyyətin komponentlərini inkişaf etdirmək imkanlarının heç biri nəzərdən qaçırılmamalıdır. A.D.Kudryavtsev yazırdı ki, həm bilik, həm də intuisiya riyazi mədəniyyətin əsas komponentləridir. Amerika riyaziyyatçısı M.Kline özünün tarixi materialın təhlili əsasında riyazi həqiqətlərin dərk edilməsində və riyaziyyatçıların yaradıcılıq fəaliyyətində intuisiya elminin böyük rolunu göstərmişdir. Yuxarıda göstərilənlərin hamısı bizi inandırır ki, intuitiv idrak üsulunun formalaşmasına xüsusi diqqət yetirilməlidir.

Eyni zamanda intuisiya inkişafı ilə bağlı bir neçə təklifi fərqləndirmək mümkündür.

1. Bilikdən əvvəl gələn intuisiya

Bu cür intuisiya xarici formal təriflər və deduktiv nəticələr olmadan müxtəlif riyazi təsəvvürlərin və faktların bilavasitə müşahidəsində özünü göstərir. Faktların təqdim edilməsindən xeyli əvvəl intu-itiv "qabaqcadan bilmə" zəruridir. Bu məqsədlə müvafiq terminlər mümkün qədər tez işlədilir: xətt, uzunluq, sahə, həcm. Həndəsənin öyrənilməsi xüsusilə yaradıcılıq prosesinin əsaslarını təşkil edən intuisiya, təxəyyül və digər vacib keyfiyyətlərin inkişafına təkan verir. Beşinci sinif şagirdlərinin tanış olacağı ilk həndəsi anlayışlar ibtidai siniflərdə ilkin vizual istifadə edilmişdir. Həndəsi öyrən-mənin başlanğıc mərhələsinə uyğun olan daha bir neçə maraqlı tapşırıq: Hansı vahidlərdə öz addı-mınızın uzunluğunu, məktəb meydançasının perimetri, aya olan məsafəni ölçərdiniz? Hansı daha böyükdür: kvadratın diaqonalı, yoxsa onun tərəfi?

2. Əldə edilmiş biliklərin nəticəsi olaraq özünü göstərən intuisiya

Bu cür intuitiv biliklər konkret situasiyaları – misalları, problemləri, şəkilləri təhlil etməklə inkişaf edir. Belə təhlil əsas anlayışların, faktların və ideyaların qısa formulları ilə müşayiət olunmalıdır. Belə ki, şagirdlərin axtarış istiqamətləri düzgün olmalıdır. Bu cür təhlilin bəzi nümunələrini göstər-mək olar: Müəyyən bir problem üçün nə qədər tənliklər etmək lazımdır? Bir ədədi çox böyük ədədə bölsək, nə alarıq?

İntuitiv biliklərin inkişafına diqqət yetirərək, müzakirə olunan əsas anlayışların "kobud mənasını" daim açıqlamaq zəruridir. Lakin bəzən müəyyən anlayışlarla bağlı məntiqi baxımdan ciddi intuisiyalar belə kifayət etmir. Məhz intuitiv ideyalar son nəticədə yaddaşda qalır, onlar əsasən şagirdlərin riyazi inkişafını, riyaziyyatı praktikada tətbiq etmək qabiliyyətini müəyyən edir. Konsepsiyanın formalaşması prosesində ən yaxşı nəticələri əldə etmək üçün onlarda intuisiya və məntiq arasında didaktik baxımdan sərfəli korrelyasiya tapmaq zəruridir.

3. Problemlərin həllində intuisiya

İnkişaf etmiş riyazi intuisiya, əlində olan problemin analizində əhəmiyyətli dərəcədə kömək edə bilir. İlk növbədə, onun həlli üsulunun seçilməsi nəzərdə tutulr. Müəyyən sualların öyrənilməsində həll üsulu əvvəlcədən müəyyən edilir. İki il ərzində aparılan işin təhlili göstərdi ki, tənliklərin köməyi ilə yaranan problemlərin həlli zamanı testlər üzrə tələbələrin 80%-i tənlikləri düzgün edir.

Tapşırığın təhlili emosional olmalıdır. Yeni ideya və fikirlərin ifadəsini təşviq etmək, şagirdlərin hadisələrin iştirakçısı kimi hiss etməsi (mətn imkan verirsə) və təklif olunan tapşırıqlar vacibdir.

Nümunə: “Birinci kran hovuzu 2 saata doldurur, ikincisi – 4 saata, hər iki kran açıq olarsa hovuzu doldurmaq neçə saat çəkəcək?” Əvvəlcə birinci kranın daha güclü olduğunu, əlavə heç bir hesablama olmadan, intuisiyaya əsaslanaraq, kranların bir-birinə kömək etdiyi üçün tələb olunan vaxtın iki saatdan az olacağı qənaətinə gəlirik. Əgər ikinci kranın birincisi ilə eyni gücə malik olsaydı, o zaman birlikdə bütün hovuzu 1 saata doldurardılar. Beləliklə, problemi həll etməzdən əvvəl cavabın qiymətləndirilməsini aldıq. Cavab aldıqdan sonra onun bu qiymətləndirməyə cavab verdiyini yoxlamaq lazımdır. Riyaziyyatın tədrisi zamanı bu cür dəyər mühakimələrinə diqqətsizlik məktəblilər arasında kobud hesablama səhvlərinə gətirib çıxarır.

Qeyd edək ki, daha bir neçə sahə var ki, burada tələbənin intuisiyası çox vacibdir. Bunlar, ilk növbədə, cavabların analizi, funksiyaların qrafiklərinin öyrənilməsi, stereometrik problemlərin həlli, eləcə də vəziyyətin intuitiv qiymətləndirilməsi və intuitiv təxminidir. Bununla işləmək şagirdlərin real nəticələri təsəvvür etməsi, problemlərə daha şüurlu şəkildə cavab tapması zərurətinin ortaya çıxmasına gətirib çıxarır.

*Ədəbiyyat*


1. Ə.A.Quliyev. Riyaziyyatın təlimi üsulları ADPU-nun nəşriyyatı, B., 1989
2. Riyaziyyatın tədrisində ümumiləşdirmə, Bakı, "Nurlan" nəşriyyatı, 2009
3. Adıgözəlov A.S. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası, ADPU nəşriyyatı, B., 2006
4. Ананьев Б.Г., Педагогические приложения современный психологии, «Советская педагогика», 1964, №8;
5. Методика преподавания математики в средней школе, частная методика, составитель В.И.Мишин, М., «Просвещение», 1987


## SABİRİN SATİRİK POEZİYA NÜMUNƏLƏRİNDƏ BƏDİİ İFADƏ VASİTƏLƏRİNİN TƏDRİSİ YOLLARI


**Əbilhəsənli Gülyaz İlkin qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Azərbaycan ədəbiyyatının qüdrətli qələm sahiblərindən biri də Mirzə Ələkbər Sabirdir. Yaradıcılığının ən məhsuldar dövrü XX əsrin əvvəllərinə təsadüf edən Sabir, satirik şair kimi tanınır. O, şeiri xalqdan, mübarizədən, həyatdan ayırmır. "Sənət sənət üçündür…"- şüarını bayraq edən şairlərə qarşı çıxırdı.

Mirzə Ələkbər Sabirin obrazlı təfəkkürünü ən sadə oxucu belə anlayır. Çünki şairin satiralarında istifadə etdiyi bədii təsvir və ifadə vasitələri yerli-yerində, məqsədəuyğun şəkildə işlənir. Görkəmli ədib hər zaman, hər yerdə qəlbini bir kitab kimi açır. Bu kitab elə bir xəzinədir ki, o kitabdakı sözlər öz dolğun məzmunu, dərin mənası, obrazlı ifadəsi ilə oxucuları valeh edir. Orta məktəb dərsliklərində şairin "Əkinçi" və "Neylərdin, ilahi?!" satiralarının tədrisi nəzərdə tutulmuşdur. VIII sinif ədəbiyyat dərsliyində "Əkinçi" satirası tədris olunur. Hər iki satira Sabir qələmindən çıxan parlaq bədii nümunələrdir. Bu nümunələrin tədrisini səmərəli qurmaq üçün satiranı satirik ədəbiyyat nəzəriyyəsinə aid biliklərlə vəhdətdə tədris etməliyik. Şairin hər iki satirasında həm bədii təsvir, həm ifadə vasitələri bol-bol işlənmişdir. Biz bilirik ki, bədii ifadə vasitələri bədii dilin mühüm məcazi elementlərindəndir. Bədii sual, bədii təzad, təkrir, kinayə, mübaliğə, litota və inversiya bədii ədəbiyyatda rast gəlinən bədii ifadə vasitələridir. Satiraların tədrisi zamanı dərsin gedişində tədqiqatın aparılması mərhələsində bir neçə iş üsulundan istifadə edərək ifadə vasitələrinin öyrədilməsini səmərəli qurmalıyıq. Əvvəla, şagirdlərə bədii ifadə vasitələrini bir-birindən fərqləndirməyi, asanlıqla tapmağı mənimsətməliyik. Sabirin "Əkinçi" şeirinin səsli oxusunu qurduqdan sonra şagirdlərə tədqiqat aparmaqları üçün suallar verə bilərik. Dərsdə *tədqiqat mərhələsini* qurarkan aşağıdakı suallarla bədii ifadə vasitələrinin tədirisini göstərməyimiz doğru olar.

1. Şagirdləri cütlüklərə bölüb, onlara "satirada qarşınıza çıxan bədii ifadə vasitələrini cədvəldən istifadə etməklə qruplaşdırın"- deyə tapşırıq verə bilərik. Cədvəlin bir tərəfində ifadə vasitələrinin adı, digər tərəfində nümunə göstərilməlidir.
2. Şeirin üzərində BİBÖ iş üsulundan istifadə edib şagirdlərin tam öyrəndiklərini, öyrənə bilmədiklərini, öyrənmək istədiklərini üzə çıxarmış oluruq.
3. Şagirdləri kiçik qruplara bölərək onların hər birini rollu oyun vasitəsilə tədqiqata cəlb etmiş oluruq. Rollu oyunlar onlara təfəkkürlərini işə salmaqda böyük köməklik göstərə bilir.

Uşaqların hər biri oynadıqları rollar ilə tanış olurlar. Rollarımız müəllim tərəfindən paylanıldıqdan sonra şagirdlərin hər biri nümayiş etdirəcəkləri rollarla tanış olur, məlumatlarını yığcamlaşdırır, həmin ifadə vasitələr üçün satiralardan nümunələr gətirilər.. Məsələn, "bədii sual" rolunu oynayan şagird əvvəla, özünün kimliyini müəyyənləşdirməlidir. Bilməlidir ki, əsərin emosional təsirini artırmaq üçün fikrin sual şəklində ifadə olunmasına bədii sual deyilir. Şagird rolu ilə tanış olduqdan sonra ədibin iki satirasına müraciət edib nümunə gətirməlidir. O, " Aldı dolu əldən sərü samanını neylim?"- misrasını "Əkinçi" şeirindən verə bilər. Təkrir rolunu oynayan digər şagird bilməlidir ki, bədii əsərdə eyni sözün, yaxud söz qrupunun, ifadənin bilərəkdən təkrar olunmasına təkrir deyilir. Şagirdlər təkririn anafora və epifora kimi növləri olduğunu göstərdiyi nümunə ilə əsaslandıra bilərlər. Bundan başqa, fikrimizcə, kinayə, litota, mübaliğə, inversiya rollarını oynayan şagirdlərdə də obrazlı təfəkkürün inkişafı ön plandadır. "Kinayə" rolunu canlandıran şagird bir növ Sabir qələmindən istənilən nümunəni rahatlıqla misal göstərə bilər. Kinayə şairin satiralarının özəyini təşkil edir. Şagird "Əkinçi" şeirindən ilk bəndin əvvəlinci misralarını rahatlıqla nümunə göstərə bilər. Həmçinin şagird mübaliğəyə aid "Əkinçi" satirasından "Yainki çəyirtkə yedi bostanını, neylim?"- misrasını nümunə göstərə bilər.. Eyni zamanda şagirdlər "Neylərdin, ilahi?!" satirasından "Məzlumların göz yaşı dərya olacaqmış"- misrasını nümunə gətirə bilərlər. Onu da deyək ki, Mirzə Ələkbər Sabirin satiralarında çoxlu sayda belə nümunələrə rast gəlmək olar. Bu cür təşkil olunan iş üsulları və formaları ilə məktəblinin satirik şeirdə istifadə olunan bədii ifadə vasitələrinə müstəqil baxışını formalaşdırmış oluruq. Bədii ifadə vasitələrinin tədrisi obrazlı təfəkkürün inkişafına səbəb olur. Məhz bu səbəbə görə, məqsədə çatmaq üçün getdiyimiz yolda müəllimlər V sinifdən başlayaraq yuxarı siniflərə qədər tədris prosesində iş aparmalıdırlar.

Ədəbiyyat

1. Həbibbəyli İ., Həsənov B., Mustafayeva A.,Əliyev S. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bakı: "Bakı" nəşriyyatı, 2018, 209 s.
2. Həsənov B., Mustafayeva A., Əliyev S. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Ədəbiyyat fənni üzrə metodik vəsaiti. Bakı: "Bakı" nəşriyyatı, 2018, 211 s.
3. Həsənli.B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: "Müəllim" nəşriyyatı, 2016, 423 s.
4. Həsənov B., Əliyev S., Verdiyeva N., Mustafayeva A., Məmmədova S. Ümumi təhsil müəssisələrinin 8-ci sinifləri üçün Ədəbiyyat fənni üzrə metosik vəsait. Bakı: " Şərq-Qərb" nəşriyyatı, 2019, 212 s.
5. Hacıyev X C. Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri, Bakı, 1962 435 s.

## İNGİLİS BƏDİİ ƏSƏRLƏRİN LİNQVİSTİK TƏHLİLİNİN TƏŞKİLİ VƏ TEXNİKASI

**Əhmədova Fidan Rafiq qızı**
*Bakı Slavyan Universiteti*

İngilis dili dərslərində linqvistik təhlilin texnika və metodikası haqqında kifayət qədər fikir söylənilmişdir. "Bədii mətnin linqvistik təhlili" dərslərində dinləyicilərin adətən linqvistik təhlilinin texnikasına dair müəyyən olunmuş metodlardan bir etalon kimi istifadə olunur. Bədii mətnin linqvistik təhlili mərhələli formada aparılır. Təbii olaraq ilkin mərhələdə hər hansı bir bədii əsərin oxunmasının təşkili vacib məsələlərdəndir.

Bədii mətnin dilçilik mövqeyindən təhlilinin müəyyən məqsədləri olmalıdır. Buna görə də təhlilin qarşıya qoyduğu məqsəd və vəzifədən asılı olaraq müxtəlif mətnlər üzərində axtarış elmi araşdırma aparıla bilər. Belə hallarda təhlil bütöv oxu üzərində aparıldığı kimi, onun bir parçası, müəyyən bir hissəsi və ya fəsli üzərində də aparıla bilər. Hər iki halda iş linqvistik təhlil üçün faydalı və məqsədəuyğun hesab oluna bilər.

Bədii mətnin müəyyən hissəsinin linqvistik təhlilində əsas məqsəd əsərin ümumi ideya-siyasi məzmunu ilə bağlı bir cəhəti aşkar etməkdən, yazıçının fikrinin fonetik, leksik, frazeoloji və qrammatik vasitələrlə necə ifadə olunduğunu müəyyənləşdirməkdən ibarətdir.

Burada linqvistik təhlil üçün hər hansı ədəbi növdə yazılmış əsərin elə hissəsini ayırmaq lazımdır ki, yazıçının nəzərdə tutduğu ümumi ideya-siyasi məzmunun açılmasında həmin parça xarakterik dil faktları verə bilsin.

Ədəbi mətnlərə beş cür yanaşmaya elmi ədəbiyyatda rast gəlmək olur.

1. "mətnə yönəlimiş yanaşma" -bədii əsərin formal strukturu, üslubu və dili ilə bağlı məsələləri ehtiva edir;
2. "müəllif mövqeyi"- bədii mətnlə onun yazıçısı arasında əlaqəni araşdırmağa yönəlir;
3."oxucu və oxucu mövqeyi" – bədii mətnin oxucusuna ola biləcək təsirlərin araşdırılması;
4 "kontekstual yanaşma"- bədii əsərin mətninin tarixi, sosial və siyasi hadisələr fonunda öyrənilməsi;
5.ədəbi tənqid və dəyərləndirmə.

Deməli, ingilis dili dərslərində bədii ədəbiyyat nümunələrinin təhlilə cəlb olunması qeyd olunmuş yanaşmaların hər biri və ya bir neçəsi vasitəsilə yerinə yetirmək mümkün olar. Məsələn, birinci yanaşma ilə *O. Henrinin "Suite homes and their romance"* əsəri götürülərək onun strukturu, üslubi və yazıçının dili ilə bağlı məsələlər stilistika mövqeyindən təhlil olunur. Və ya ikinci yanaşma vasitəsilə eyni əsərdə müəllifin əsərdə mövqeyi, müəllif ilə oxucusu arasında olan dialoq və s. araşdırılır.

Məlumdur ki, ingilis dilində oxu bacarığı və vərdişi öz-özünə əmələ gəlmir. Məhz buna görə də "bədii mətnlərin linqvistik təhlili", eləcə də digər xarici dil üzrə praktiki dərslərin əsas vəzifələrindən biri oxunun tədrisi və həmin dilə mükəmməl formada yiyələnməkdir.

Bədii mətnlərin qiraəti oxu fəaliyyətinin ünsiyyət sahəsinə, insanların sosial fəaliyyətinə daxil olan bir formasıdır və müəyyən şifahi ünsiyyəti təmin edir, bədii-estetik zövqü zənginləşdirir, onun dil daşıyıcılarının sosial, məişət və mədəni dəyərlərini dərk etməyə, hiss etməyə kömək edir.

Təcrübə göstərir ki, tələbələr dil daşıyıcıları kimi adətən sürətli danışmağa və sürətli oxumağa meyl göstərirlər. Lakin mətnin sürətlə oxunması prosesində fonoloji xətaların tez-tez baş verməsi, eləcə də sürətli oxu prosesində bu və ya digər dil faktlarının müşahidə edilməsi və müqayisə edilməsi də çətinləşir. Hətta sürətli oxu zamanı leksik və qrammatik xətalar da baş verir. Buna leksik vahidlərin səhf tələffüz edilməsi və durğu işarələrinə riyayət olunmaması nəticətinsə yarana biəcək qrammatik məna səhflərini misal göstərmək olar.

Bədii əsərlərin oxunuşundan sonra onlar üzərində aparıla biləcək ilk linqvistik təhlil kommentariyanın-şərhlərin verilməsidir. A. Qurbanova görə, kommentariyanın iki növü vardır:

- linqvistik kommentariya;
- mədəni-tarixi kommentariya.

Bədii mətn üzərində linqvistik təhlil apararkən, mənası oxu tərəfindən dərk edilməyən, müasir ədəbi dil normalarına uyğun gəlməyən, əsərin anlaşılmasını çətinləşdirən lüğəvi vahidlərə linqvistik kommentariya deyilir [1, 67]. Burada frazeoloji birləşmələr, eyni zamanda arxaikləşmiş dil vahidlərini də aid etmək olar:

*Hearth-rug- palaz, thee-sən, thy-sənin, your grace-əlahəzrət, do him grace-ona xidmət etmək, və s. (Hamlet, Şekspir)*

Bədii mətnin təhlili zamanı linqvistik kommentariyanın təşkili məqsədilə ilə aşağıdakı kimi tapşırıqlar verilə bilər:

*Find the following phrases in the text of the short story The Model Millionaire by Oscar Wilde and translate them:*

*To be no use in doing smth; to bequeath mb; bulls and bears; to be on one's way; drop in to do smth; bright buoyant spirits;*

Mədəni -tarixi kommentariya dedikdə isə bədii mətndə olan tarixi və əfsanəvi şəxsiyyətlərin, toponimlərin, onomastik vahidlərin və s. xüsusi sözlərin izahı başa düşülür[1, 67]. *Jesus-İsa, Moisey-Musa, Abraham-İbrahim, Celts-Keltlər, Nomads-köçərilər, və s.*

Mədəni-tarixi kommentariyanın tarixi bədii romanların üzərində aparılması daha effektiv ola bilər. Məsələn, Böyük Britaniya orta əsrlərindən bəhs edən Hilari Mantelin Wolf Hall, 19-cü əsr Rusiyasından bəhs edən Lev Tolstoyun Hərb və Sülh, 16-cı əsr İngiltərəsindən bəhs edən Meqan Kapisinin The Sin Eater və s. əsərlərini nümunə göstərmək olar.

Bədii mətnlərin linqvistik təhlili zamanı növbəti mərhələdə bədii əsərin ideya-siyasi məzmun və onun yaranma tarixi haqqında yazılı və yaxud şifahi məlumat müəllim tərəfindən motivasiyanın və ya girişin edilməsi üçün verilir. Məsələn,

William Somerset Maugham is a well-known English novelist, short-story writer. He is popular with his precise style of writing.

The themes of his stories demonstrate the disaffection of his characters with the contemporary world. His four books come to particular prominence, O f Human Bondage (1915), The moon and sixpence (1919), Cakes and Ale (1930) and The Razor's edge (1944).The short story "The verger" is an example of how a person can be successful in life even though he is illiterate. He makes a good use of his creativity. What is more important is how to use our knowledge precisely. The author's aim is to show that being illiteracy is not equal to intelligence. (The Verger by W. Somerset Maugham)

Bədii əsərlərin hər birinin özünəməxsus kompozisiyası olur. Bədii əsərlərdə hadisələrin, faktların, oradakı surətlərin, işlədilən söz və ifadələrin məqsədəuyğun düzülüş və tərtibi əsərin kompozisiyası adlanır. Əsərin komozisiyası "əsərin quruluşu" olalraq da adlanır. Əsərin kompozisiyasına onun hissələri, bölmələri, dramdakı pərdələr misralar, abzaslar və s. aid edilir [1,76]. İngilis dilində əsərin kompozisiyası " plot and nattative structure" olaraq verilir.

Hər bir bədii əsəsrin kompozisiyası onun məzmunu ilə sıx bağlı olur. Buna görə də bədii əsərin linqvistik təhlili zamanı yazıçının öz fikrini ifadə etmək məqsədilə tərkib hissələrini necə seçdiyini, necə düzdüyünü şərh etmək və aydınlaşdırmaq zərurəti yaranır:

The new vicar of St. Peter;s Church s astonished to learn that the long-serving verger, Albert Foreman, is illiterate, When Foreman refuses to learn to read, the vicar feels he has no choice but to fire him.

On his way back, Albert figures out that there is not a tobacconist shop around. Needing work, he decided to open a tobacco shop. He also take this opportunity to propose to his landlady, Emma. Their business is successful and Albert soon opens another one, run by his stepdaughter and her husband. …..(The Verger by W. Somerset Maugham)

Bədii əsərlərin linqvistik təhlili zamanı təhlilə cəlb edilən əsərin məzmunu və tematikasıdır. Əsərin ideyası dedikdə, birbaşa və dolayısı yolla əsərdə verilən ismarıc nəzərdə tutulur. Əsərin ideyası üzrə linqvistik təhlillərin aparılmasının məqsədi müəllifin fikirlərinin və mövqeyinin araşdırılmasıdır [2].

Bədii əsərin tematikaı dedikdə mətnin əsas ideyası başa düşülür. Bədii ədəbiyyatda tematika "əsərin başlıca tematikası" və "əsərin ikinci dərəcəli tematikaları" kimi şərh olunur. Əsərin əsas tematikası dedikdə əsərdə yazıçı tərəfindən təkrarlarla möhkəmləndirilən faktordur. İkinci dərəcəli tematika isə əsər boyunca az hiss olunan və rast gəlinən ədəbi elementdir[3].

Bədii linqvistik təhlil zamanı auditoriya növbəti belə bir tapşırıq veirlə bilər:

Find the message themes of "The Verger" by W. Somerset Maugham

Tələbələr isə öz növbələrin istər yazılı və ya istərsə də şifahi olaraq aşağıdakı kimi bir cavab hazırlaya bilərlər.

The text discloses the themes of appearance, independence and humility. The first of all, Maugham explores the theme of appearance as he suggests it is significant for Edward Likewise, the vica looks to consider appearance and formalities as important The ability of

reading and writing sets a standard that the vicar trusts each one should attain. ……………..

Bədii linqvistik təhlilin texnikalarından biri də təsvir və xarakterlərin təhlil edilməsidir. Təsvir dedikdə, müəllifin reallığı subyektiv halda əks etdirməsi kimi başa düşülür. Təsvirlər özləri də makro və mikro olaraq iki yerə ayrılır: mikro təsvirlər əsərdə leksik vahidlər səviyyəsində makro təsvirlər isə tam mətn səviyyəsində olur. Əsərlərin əsas təsvirləri xarakterlər, başqa sözlə desək obrazlardır. Obrazlar təhkiyədə şəxsin təsviridir. Obraz və ya xarakter hər hansı bir şəxs, canlı və cansız da ola bilər. Xarakterlər özləri də təbiətinə görə bölünürlər:

1. Aparıcı xarakter (confidante) - o mərkəzdə olan obrazın fikirlərini, niyyətini və şəxsiyyətini ifadə edir. Aparıcı xarakter insan olmayan xarakter də ola bilər. Məsələn S.Moemın The verger əsərindəki aparıcı xarakter Albert Edvarddır. Yazıçı əsərdəki mövqeyini, fikirlərini və niyyətini bu qəhrmanının vasitəsilə oxucusuna çatdırır.
2. Dinamik xarakter - əsərin sujet xətti boyunca dəyişən obraza deyilir. Bu dəyişiklik obrazın xarakterində və ya görünüşündə də ola bilər;
3. Statik xarakter – bütün əsər boyu eyni olaraq qalan xarakteridir.
4. Antoqonist – pis obrazda olan və müsbət obrazların əleyhinə əsərdə olan obrazlara deyilir;
5. Protoqonist - əsərin baş qəhrəmanı olub, əsər boyu oxucularında maraq və simpatiya yaradan obrazdır[3].

Bədii linqvistik təhlil zamanı əsərin obrazlarının daxili və xarici aləminin təsviri məqsədilə tələbələrə aşağıdakı kimi tapşırıq verilər bilər:

Describe characters of The model Millionaire by O. Wilde

Tələbələr isə aşağıdakı kimi yazılı və ya şifahi təhlil apara bilərlər.

In the work we can identify several characters: the protagonist Alan Trevor, Baron Hausberg, colonel Merton, the baron's employee and Laura. The characters are quite well-developed adn presented..........

Bədii linqvistik təhlil zamanı qrammatik hadisələrin və vahidlərin əsərin məzmunu ilə əlaqəli və bir-biri il bağlı izah edilir. İstər morfoloji. İstərsə də sintaktik vasitələrin təhlili ilə onların əsərin formalaşmasındakı rolu açılın aydınlaşdırıla bilər.

Morfoloji səviyyənin təhlilində əsas diqqət şəkilçilərin, prefiks və suffikslərin işlədilməsinə verilir. Bu kimi dil vahidlərinin təkrarı, onların bədii effekt yaratması, nitq hissələri, onların qrammatik xüsusiyyətləri, quruluşu və s. hadisələrə təhlildə geniş yer ayrılır.

Bədii mətnin sintaktik səviyyəsinin təhlilində sintaktik konstruksiyaların rolu xüsusi olaraq şərh olunur. Burada poetik sintaksis məsələlərinə xüsusi diqqət yetirilir, poetik sualların üslubi xüsusiyyətlərinin izahına böyük əhəmiyyət verilir, söz birləşməsi, cümlə və onların quruluş xüsusiyyətləri aydınlaşdırılır. Bu kimi çalışmlalar tələbələrin leksik və nəzəri qrammatik materialların daha yaxşı mənimsəməsinə səbəb ola bilər.

Complete the sentences with words and expression from The Verger.

He wore it with ____ for it was the dignifed symbol of hs office, and without it he had the disconcerting sensation of being somewhat insufficiently clad;

(Cassock, verger)

Qeyd etdiyimiz kimi linqvistik təhlil zamanı leksik çalışmaların da yerinə yetirilməsi mümkündür:

Define the following words and word combinations. Make up your own sentences with them. To face, to glisten, easel, compact, dignity, to bow

Bədii mətnlərin qrammatik səviyyədə təhlilində dilin təkcə bir və ya bir neçə cəhəti deyil, bütün sahələri nəzərə alınmalıdır. Buraya sözyaratma ilə bağlı hadisələr də əsərin məzmunu ilə əlaqədar şəkildə təhlil olunmalıdır. Müəllifin sözyaratma prosesinə münasibəti, bu sahədə fəaliyyəti, dilə gətirdiyi yeni vahidlərin uğurlu nümunələri göstərilməlidir. Məsələn, S.Moemin the Verger əsərini təhlil edən tələbələr mətndəki derivativ və mürəkkəb sözləri seçirlər. Məsələn, evensong marble font, christening və s.

Bədii mətnlətin təhlili aparılarkən frazeoloji xüsusiyyətlərinin də öyrənilməsi kənarda qalmamalıdır. Çünki obrazlılıq yaratmağa çalışan yazıçılar çox zaman kifayət qədər frazeoloji vahidlərdən istifadə edirlər. Bu leksik vahidlərin yaranma yollarının şərhi, onların xüsusiyətləri və semantikaları bədii təhlilin əsasını təşkil etməlidir. Müəllifin novatorluğunun müəyyənləşdirilməsində frazeoloji material geniş imkan yaradır. Məsələn , müxtəlif əsərlərdən seçilmiş aşağıdakı frazeoloji nümunələri misal göstərmək olar:

to stir finger- əlini ağdan qaraya vurmamaq, to give rein to one's tongue / to loosen one's tongue- boş boğazlıq etmək, to cast covetous eyes- göz qoymaq, to please one's eyes- göz oxşamaq, to keep one's eye on someone- göz olmaq, .

Aparılmış təhlillər onu deməyə əsas verir ki, ingilis dili dərslərində oxunun tətbiqi, xüsusilə bədii mətnlər üzərində təhlillərin aparılması ingilis dilinin öyrənilməsində böyük əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Qurbanov A., Bədii mətnin linqvistik təhlili. Bakı: 2019, 552 səh....
2. Budaqova Z.İ. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə, Azərnəşr, Bakı, 1963, 224 s.
3. Sobolyova N.P. Linguistic Analysis of English Fiction, Kazan Federal university, Kazan: 2019, 130 p.
4. Short Stories & Classic Literature for Readers & Teachers (americanliterature.com)

## XÜLASƏ

İngilis dili dərslərində linqvistik təhlilin texnika və metodikası haqqında kifayət qədər fikir söylənilməsinə baxmayaraq, hələ də bu məsələ öz aktuallığını qoruyub saxlamaqdadır. Sözügedən mövzunun araşdırılmasına həsr olunmuş məqalədə bədii mətnlə bağlı bir sıra nəzəri məsələlərin öyrənilməsi və ingilis dili dərslərində bədii mətnlərin təhlilinin texnikaları öyrənilmişdir. Tədqiqatın yeniliyi ingilis dili dərslərində bədii mətnlərdən səmərəli istifadə yollarının araşdırılaraq təhlil edilməsidir. Tədqiqat zamanı əldə olunmuş elmi nəticələr, fundamental tədqiqat işlərinin aparılmasında, eləcə də ingilis dili dərslərində ingilis bədii mətnlərin linqvistik təhlilin səmərəli təşkilində əhəmiyyətli ola bilər.

***Açar sözlər:*** *ingilis dili, bədii, mətn, linqvistik, müəllif, yaradıcı.*

## РЕЗЮМЕ

Несмотря на то, что существует множество исследований и дискуссий о приемах и методах лингвистического анализа английской литературы, тем не менее, эта тема сохраняет свою актуальность. Статья посвящена анализу понятия художественных текстов и метод анализа английской литературы. Здесь основной целью является определение цели и критериев, а также методов анализа английской литературы на занятиях по английскому языку. В статье, посвященной указанной теме, изучаются теоретические материалы и организация методик лингвистического анализа английской литературы. Основная цель – найти эффективные способы анализа английской литературы. Научные результаты исследований могут сыграть роль в развитии фундаментальных исследований, а также могут быть применены на уроках английского языка.

***Ключевые слова:*** *англиского языка, литература, текст, автор, креативностъ, лингвистика*

## SUMMARY

Althouth there are a lot of studies and discussions about the techniques and methods of linguistic analysis of English literacy, yet this topic keeps its topicality. The article is devoted to the analysis of notion of fictional texts and techniques to literacy analysis. In here, the main purpose is to define purpose and criterium as well as techniques for analysis of literacy in English languages classes. The article which is dedicated to the aforesaid topic, studies

theoretical materials and organization of techniques of linguistic analysis of English literacy. The main goal is to find out effective ways of analysis of the English literay. Scientific outcomes through the research could play a role in developing of fundamental researches as well as could be applied in English language classes.

***Key words:*** *the English language, fictional, text, linguistic, author, creative.*

## XARİCİ DİLİN TƏDRİSİNDƏ MƏDƏNİYYƏTLƏRARASI YANAŞMA

**Əhmədova Ülviyyə Fərman qızı**
*Bakı Slavyan Universiteti*

Müasir qloballaşan dünyamızda mədəniyyətlərarası anlaşılma və ünsiyyət bacarıqları daha çox əhəmiyyət kəsb edən mövzulardan biri hesab edilir. Digər ölkələrin mədəniyyətləri haqqında öyrənmək, yeni biliklərə yiyələnmək üfüqlərimizi genişləndirməyə və effektiv ünsiyyətçi olmağa kömək edən amillərdəndir. Tədris zamanı keçirilən bütün fənnlərdən misal olaraq bildirsək texnologiya dərslərindən tutmuş dil dərslərinə kimi digər mədəniyyətləri müqayisəli formada öyrənərək dərk etməyə kömək edən təcrübələr qazanılır. Əldə olunan mədəniyyətlərarası biliklər gələcək fəaliyyətlərdə mühüm rol kəsb edən nüanslardan biri hesab edilir.

Beynəlxalq münasibətlərdə baş verən əsaslı dəyişiliklər milli mədəniyyətlər baxımdan çox böyük məsələlər qarşıya qoyubki, bunlarında ən vacibi mədəniyyətlərarası yanaşma və fəaliyyətdir. Milli mədəni dəyərlərin, mədəniyyətlərin  gələcək inkişafı baxımından çox böyük narahatlığa səbəb olmuşdur. Milli köklərdən və koloritlərdən kənarda digər bir mədəniyyət mövcud olmamışdır və yoxdur desək kobud səslənməz. Azərbaycan Respublikasının hər bir sahədə inkişafı dünyanın inkişaf etmiş ölkələrinin gözü qarşısında davam edir və ölkəmizin son dönəmlərdə belə sürətli inkişafı və bu inkişafla yanaşı bir çox mötəbər mədəni tədbirlərə ev sahibliyi etməsi dövlətimizin xalqlararası, mədəniyyətlərarası münasibətlərə necə əhəmiyyət verdiyini göstərən faktlardandır. Qloballaşma və inteqrasiya münasibətlərin inkişafı baxımdan əsas özəy hesab edilir. Əgər hər hansı bir dil öyrəniriksə bu bir hadisədir və qloballaşmanın, milli mədəniyyətlərin qarşılıqlı təsiri, elm adamlarının tədqiqi və əsas müzakirə obyektidir. Əsrlər boyu təkamül yolu keçmiş ingilis dili tarixi baxımından da qədimdir. Bildiyimiz kimi mənbələrdə ingilis dilinin inkişafı üç mərhələyə bölünür: qədim dövr ingilis dili (450—1066), orta dövr ingilis dili (1066—1500), yeni dövr ingilis dili (1500-ci ildən indiki dövrə qədər).

Qəbul edilmiş elmi araşdrmalara görə “cultio” və “culte” terminləri latın dilindən gəlmiş və  “torpağın becərdilməsi” mənasını verir. Daha sonralar Roma sivilizasiya dövründə terminin məzmunu genişlənmiş və “cultura” ( mədəniyyət ) nəzəri termin kimi Siseron tətbiq etmişdir və təxmini olaraq insanın zəkasını və qəlbinin “becərdilməsi” mənası kimi tərcüməsini vermişdir. On səkkizinci əsrlərdən başlayaraq mədəniyyət anlayışının yeni formada izahı verilməyə, işlədilməyə başladılmışdır. Daha sonra isə Alman alimi Samuel Pufendrof mədəniyyəti insan fəaliyyətinin nəticəsi, insanı ucaldan müsbət keyfiyyətlərin məcmusu kimi səciyyələndirmişdir. Və nəticə olaraq mədəniyyət anlamı yekun olaraq bu ifadə ilə izah edilir.[2]

İngilis dilinin tədrisində mədəniyyətlərarası yanaşma geniş spektri əhatə edir. Dil necə yaşadılır, dil necə məna kəsb edir, bir-birimizin ifadələri necə məna verir, hamısı dəqiq kontekstlərdə baş verir. Xarici dilin tədrisi dedikdə orda  dörd bacarıqdan bəhs edilir və bu tədris zamanı bir biri ilə sıx əlaqəli olaraq davam etdirilir. Bu kontekstlərdə elə mədəniyyətlər varki, qarşılıqlı əlaqə nümunələri, sosial təcrübənin rutin formaları kimi bir neçə növə daxildir. İstənilən zaman dilimində dil faktı özlüyündə kod kimidir. Bizim araşdırmamızda mədəni aspekdən bəhs etdikdə bizə daha da aydın olur ki, mədəniyyətlər sərhədsizdir və bu sərhədsilzikdə kontekstin hansı xüsusiyyətləri üçün əhəmiyyətli olacağını təxmin etmək daha da çətindir. Tədris zamanı  onlara imkan verən mədəni fərqliliyi araşdırmaq üçün

metodologiyalarla mədəniyyət, eləcə də hədəf dil araşdırılır. İnkişaf davam etdikcə qlobal ünsiyyət nümunələri mədəni fərqləri aşındırmaq təhlükəsi yaradır. Lakin dəyişiklik sürətləndikcə, cəmiyyətlər parçalandıqca və mədəniyyətlər bölündükcə, mədəniyyətin özü və dərəcələri arasındakı mədəni fərqlər daha çox görünür.
Dil öyrənməyimiz açıq və davamlı bir proses olaraq linqvistik və mədəni kontekstdən digərinə keçid üçün tərcümədə yeni səylər, cəhdlər tələb edir. Təklif olunan yanaşmalarda dilin öyrənilməsini zənginləşdirmək labud bilinir, bundan əlavə, mədəni fərqlilik haqqında öyrənənlər mədəniyyəti digəri ilə müqayisə etmək üçün üsullar təqdim edir. Təhsil alanların öz aralarındakı bağları daha yaxşı müzakirə etməyə şərait yaradır.

1980-ci illərin ortalarından sonlarına qədər bir sıra pedaqoqlar ikinci dilin tədrisində "mədəniyyətlərarası yanaşma" olduğunu iddia edirdilər. Ən əsası fərziyyələri yenidən nəzərdən keçirməyə sövq edir və dilin tədrisi ilə nəyə nail oluna bilinəcəyini göstərirdilər. Bəzi hallarda ikinci dilin tədrisinə "kommunikativ" metodlara, "informasiya boşluğunu"nun doldurulması vasitəsi kimi baxılmışdır. Dil öyrənmə prosesi özlüyündə bir sıra məlumatların əldə edilib bölüşülməsi baxımından körpü rolunu oynadığı güman edilib.

Dilə və linqvistik inkişafa dair mədəniyyət aşağı səviyyədə olduğu hesab edilmişdir. Davamlı və ardıcıl olmasına baxmayaraq Stern qeyd edir ki, başda Amerika olmaq üzrə əsas quruluş əhəmiyyətli dərəcədə diqqət çəkir və dil tədrisində "mədəni komponenti praktikada yerləşdirmək çətindir". Bununla belə, son vaxtlar inteqrasiya üçün yeni cəhdlər olunmuşdur və bu "mədəniyyət"in kommunikativ kurrikuluma daxil edilməsi kimi fikirlər səsləndirmişdir.

İnformasiyanın ötürülməsi vasitəsi kimi dilin əhəmiyyəti ilə yanaşı mədəniyyətlərarası yanaşma tərəfdarları onun sosial əhəmiyyətini də vurğulayırdılar. Məsələn yazıçıların sosial qruplarını, iyerarxiyalardakı yerlərini müzakirə etməklə tətbiq edə bilirdilər. Aydın olurdu ki, bu danışıqların aparılması yolları müxtəlifdir, icmadan icmaya əlaqəli bir dil "mədəniyyət" təkmilləşdirilməsinə diqqət yetirməklə əhatə dairəsini genişləndirir. Öyrənənlərə kömək etmək üçün oxuma, yazma, dinləmə və danışma bacarıqları sistemli müşahidə strategiyaları kimi mədəni bacarıqlar əldə edilməsi davranış nümunələri hesab edilirdi. Bundan əlavə, öyrənənlər hədəf dilin açıq və gizli məqsədlərə nail olması üçün necə istifadə edildiyini daha dərindən dərk edirdilər. Xarici dil cəmiyyətinin mədəni məqsədləri üçün olmalıdır və öz dilinin üzərində düşünməyə sövq etməlidir.

İngilis dilini xarakterizə etsək ilk öncə onu misal olaraq gətirə bilərik ki , onun əsas xüsiyyəti qısa sözlərdən ibarət olmasıdır. Təbii ki hər dilin quruluşunda uzun sözlər də var lakin, ingilis dilində uzun sözlərə işlək halda çox rast gəlinmir. Yuxarıda tarixi aspektdən izah etdiyimiz kimi uzun sözlər fransız dilindən keçməsi qısa sözlərin isə alman tayfalarından gəlmə olduğu düşünülür. Elmi araşdırmalarda uzun sözlərdən daha çox istifadə edilir.

Qloballaşmanın səbəbindən ingilis dili ünsiyyətə ehtiyac yaranan dil olaraq inkişaf etdi və informasiyanın əldə edilməsi, elmi tədqiqatların, mədəni aspektlərin inkişafı buna şərait yaratdı. Mədəni mübadilə proqramları müxtəlif mədəniyyətlərdən olan şəxslərin bir araya gəlməsi və bir-birindən öyrənmələri üçün bir platforma yaratdı. Bu proqramlar müxtəlif səviyyələrdə təşkil edilə bilər,
buna misal olaraq tələbə mübadiləsi proqramlarını, peşəkar mübadilə proqramlarını misal göstərə bilərik. Təhsil alanlar müxtəlif mədəniyyətləri birbaşa təcrübədən keçirmək, onların adət-ənənələri, dəyərləri haqqında məlumat əldə etmək və müxtəlifliyə daha dərin qiymət vermək imkanı əldə edirlər.

Mədəniyyətlərarası ünsiyyət təlimləri də mədəniyyətlərarası öyrənmənin vacib hissəsi olaraq qalır. Qeyd olunan dərslərdə hər bir fərdə müxtəlif mədəni fonlardan olan şəxslərlə ünsiyyət qurarkən effektiv ünsiyyət bacarıqlarını inkişaf etdirməyə imkan verən təcrübələrdən, metodikadan istifadə edilir. Müxtəlif mədəniyyət daşıyıcısı insanlarla effektiv ünsiyyət qurmağı öyrənməklə və qiymətləndirmələr aparmaqla əldə etdikləri bilik və təcrüəblərini artıra bilərlər.

Amerikanın məhşur yazıçılarından biri olan Toni Morrison yazılarında qeyd etmişdir: "Oxumaq istədiyiniz, amma hələ yazılmamış bir kitab varsa, o kitabı özünüz yazın.” Bu fikri çox müdrik fikirlərdən biri hesab edə bilərik. Amma bunu həyata keçirə bilmək nə dərəcədə mümkün ola bilər. Bəzilərimiz uşaqlıqdan sadəcə qələmi əlimizə almaqla yazsaq da, çoxlarımız yazıya başlamağa belə əziyyət çəkirik və yazı qabiliyyətimizin olmadığını bəhanə gətirərək bu sahədən uzaqlaşırıq. Texnologiyanın sürətlə inkişaf etdiyi bir zamanda uşaqlarda yazıya maraq oyatmaq, onların yazı qabiliyyətlərini inkişaf etdirmək məsuliyyəti yenə də biz müəllimlərin öhdəsinə düşür.

Peşəsindən və işindən asılı olmayaraq, hər bir kəs nitq vərdişlərinə sahib olmalıdır. Harada işləməsindən asılı olmayaraq, insan öz fikirlərini yazılı ifadə etmək tələbatı ilə qarşı-qarşıya olur. Bu prosesin çətinliyi ondan ibarətdir ki, hər bir yazı işi müxtəlif parametrlərdən yoxlanıla bilər. Buna misal olaraq “Summer Holidays (Yay tətili)” mövzusuna aid müxtəlif sinif dərsliklərində rast gəlmək olar . Bu mövzu barədə sərbəst yazı və ya esse verdikdə, təbii olaraq müəllim beşinci sinif şagirdindən fərqli olaraq yeddinci sinif şagirdindən daha mürəkkəb cümlə quruluşlarından,daha zəngin söz ehtiyatından istifadəsini və tətbiqini gözləyəcəkdir. Əks təqdirdə, qiymətləndirmə zamanı şagirdlər aşağı nəticələr və qiymətlər əldə edəcək.

Qeyd etdiyimiz kimi fərqli dilləri öyrənərək həmin ölkələrin müxtəlif mədəniyyətləri və dil bacarıqlarını təkmilləşdirərək öz fəaliyyətlərində istifadə etmək müəyyən bir nəticə əldə olunmasına gətirib çıxarır. Mədəniyyətlərin tədrisi xarici dillərin tədrisindən başlayır desək yanılmarıq. Hər bir dil özlüyündə mədəniyyət aktıdır və təhsil alan şəxs xarici dili öyrənərkən öz doğma dili ilə müqayisədə fərqli və oxşar nüasnları ayıra bilərək biliklərini təkmilləşdirəcəkdir. İştirakçılar dil öyrənmə resurslarını paylaşa, danışanlarla danışmağa məşq edə və müxtəlif dillərin mədəni nüansları haqqında fikir əldə edə bilərlər. Son illərdə daha əlçatan olan dil mübadiləsi proqramları həm onlayn, həm də oflayn təşkil edilir ki, bu da öyrənənlərə yeni dil və mədəniyyəti öyrənmək üçün əlverişli mühit yaradır.

Tədris zamanı mədəni oyunlar fərdlərə müxtəlif mədəniyyətlər haqqında məlumat əldə etmək üçün interaktiv və cəlbedici bir yol təqdim edə bilər. Bu oyunlar müxtəlif formalarda ola bilər, məsəl üçün viktorinalar, stolüstü oyunlar nümunə gətirilə bilər. Onlar iştirakçılara təcrübələr haqqında əyləncəli və cəlbedici şəkildə öyrətmək üçün nəzərdə tutulub. Bu tip oyunlar tədris zamanı həm fərdlərlə həmdə qruplarla təşkil edilə bilər. Mədəni şüur və anlayışı təşviq etmək üçün mədəni oyun tipli tapşırıqlar təhsil alanlara məktəblərdə, universitetlərdə və iş yerlərində və ya bütün tədris təşkil edilən yerlərdə istifadə edilə bilər. Əldə olunan nəticələrə əsaslanıb deyə bilərik ki, tədris edən bu tip tapşırıqlarla qarşıya qoyduğu məqsədinə daha tez və effektli formada çata bilir. Kommunikativliyi səmərəli inkişaf etdirib artırmaq üçün nitq modellərini, nitq etiketlərini situativ formalarda müəyyən mövzulara tətbiq edərək onları təhsil alanların yaddaşında avtomatlaşdırmalı və onların müntəzəm bu modellərdən istifadə etməsinə şərait yaradılmalıdır.

Digər nümunə tədris zamanı hekayə tipli tapşırıqlardan istifadə edilməsi təhsil alanın mədəni təcrübələri, ənənələri və inancları bölüşmək üçün təsirli bir yol olması artıq qəbul olunmuş metodikalardandır. Fərdləri öz hekayələrini paylaşmağa dəvət etməklə mədəni mübadilə üçün platforma yaradır və iştirakçılara dünyanı fərqli perspektivdən anlamağa kömək edir. Dərs zamanı təqdim edilən hekayələr həm şifahi hekayə həm də yazılı hekayələr və vizual hekayələr daxil olmaqla müxtəlif formatlarda edilə bilər. Digər motivli və ya yaşanmış hekayələrini dinləməklə, fərdlər fərqli mədəniyyətlər haqqında fikir əldə edə və başqaları üçün empatiya və anlayışı ikişaf etdirə bilərlər.

Xarici dilin tədrisində mədəniyyətlərarası aspektdən qısa da olsa məqalədə müəyyən faktlara toxuna bildik. Hər bir dili tədris edərkən və öyrənərkən dilin ölkəsinin mədəniyyəti mənimsədilir və eyni şəkildə öz doğma dili ilə müaqyisə edilərək oxşar və fərqli məqamlar bölüşülür. Təhsil alanın fərdi xüsusiyyətlərinin nəzərə alınması, yeni üsulların tətbiq edilməsi, ənənəvi dərs formasının saxlanılması, yeni üsulların tətbiqi zamanı təhsil alanın yaş və bilik

səviyyəsinin, eləcə də fərdi xüsusiyyətlərinin əsas götürülməməsi əsas diqqət çəkən problemlərdir. Bir sıra mütəfəkkirlərin fikirlərindən istinadlar gətirərək bu problemlərin həlli yollarını məqaləmizdə araşdırmağa çalışdıq. Yekun olaraq qeyd edək ki, hər bir sahədə və o cümlədən ingilis dilinin tədrisində mədəniyyət və mədəniyyətlarası nüansların tədrisi və təbliği mütləqdir. Bu həm tarixi baxımdan bu günümüzə gəlib çatması həm də onun inkişafı baxımdan çox vacibdir. Bildiyimiz kimi hər bir sahədə olduğu kimi dildə inkişaf gedir, dilə yeni sözlər daxil olur, işlək olmayan sözlər istifadədən çıxır. Bu baxımdan dilin tədrisində mədəniyyətlərarası mövzular hər zaman aktual olub və elmi araşdırmalar bu sahədə marağa səbəb olub.

Ədəbiyyat

1. Hüseynova İ. Dövlətçilik naminə B. Bakı Universiteti nəşriyyatı,2001.

2.Xarici dillərin tədrisinin aktual problemləri mövzusunda Respublika elmi konfransının tezisləri (2018). (06-07 dekabr 2018-ci il, Azərbaycan). ADU.

3. Myron,W. Lustic & Koester, J. Intercultural Competence: Interpersonal communication across cultures. Pearson: USA. (2010),

4.Sevda Əhədova. Müasir Dünyada mədəniyyətlər arası münasibətlər. Bakı-Elm 2014

5.Elley, Warwick. Conclusion: What have we Learned. International Journal of Educational Research 35, pp.237-246. 2001.

## XÜLASƏ

Dil mədəni dəyərlərin ünsiyyət və ifadə vasitəsidir. Məqalədə qısa olsa da, mədəniyyətlərarası yanaşmanın yaranma səbəbi, mənşəyi və inkişafı açıqlanır. O, həm də ingilis dilinin tarixi baxımdan inkişafını və müasir dövrdə mühüm xarici dil olduğunu vurğulayır. Məqalədə mədəniyyətin əhəmiyyətindən və bütün sahələrə göstərdiyi təsirdən söz açılıb. Araşdırma nəticəsində məlum olur ki, hər bir xalqın dilinin formalaşmasında onun mədəniyyətinin təsiri xüsusi əhəmiyyət kəsb edir. Məhz buna görə də xarici dillərin tədrisində mədəniyyətlərarası yanaşmanı hər zaman nəzərə almaq lazımdır.

***Açar sözlər:*** *ingilis dili, mədəniyyət, tarix,tədris, fəaliyyət*

## РЕЗЮМЕ

Язык является средством общения и выражения культурных ценностей. Несмотря на то, что статья короткая, объясняется причина, происхождение и развитие межкультурного подхода. Он также подчеркивает историческое развитие английского языка и его важность как иностранного языка в наше время. В статье говорится о значении культуры и ее влиянии на все сферы. В результате исследования известно, что влияние ее культуры имеет особое значение в формировании языка каждого народа. Именно поэтому при обучении иностранным языкам всегда следует учитывать межкультурный подход.

***Ключевые слова:*** *английский язык, культура, история, преподавание, деятельность.*

## SUMMARY

Language is a means of communication and expression of cultural values. Although the article is short, the reason, origin and development of the intercultural approach is explained. It also emphasizes the historical development of English and its importance as a foreign language in modern times. The article talks about the importance of culture and its influence on all areas. As a result of the research, it is known that the influence of its culture is of special importance in the formation of the language of each nation. That is why the intercultural approach should always be taken into account in teaching foreign languages.

***Key words:*** *english language, culture, history, teaching, activity*

# ORFOEPİYA VƏ ORFOQRAFİYA TƏLİMİNİN LİNQVİSTİK-METODOLOJİ ƏSASLARI

**Ələskərli Dilarə İlqar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Məlum olduğu kimi ədəbi dil normalaşdırılmış dil olduğundan onun həm yazılı həm də şifahi növlərində müəyyən qaydalardan, normalardan istifadə olunur. Ədəbi dilin yazılı növündə istifadə olunan orfoqrafik qaydaların məcmusuna orfoqrafiya deyilir. Orfoqrafiya dilin istər saflığı, istərsə də inkişafı üçün əvəz olunmaz bir vasitədir.

Azərbaycan yazısının orfoqrafiyası özünəməxsus tarixə malikdir. Azərbaycan dilinin tarixinə nəzər yetirdiyimiz zaman aydın şəkildə görə bilərik ki, orfoqrafiya müxtəlif səbəblərdən dəfələrlə dəyişikliklərə məruz qalmış və bununla əlaqədar əsaslı təkmilləşmə yolu keçmişdir. Müəyyən vaxtlarda Azərbaycan əlifbasında ərəb, rus və latın əlifbaları istifadə olunmuşdur. Bu səbəbdən sözlərin yazılışında daha çox dəyişikliklər olmuşdur.

Ərəb əlifbası Azərbaycan orfoqrafiyası üçün həddindən artıq ağır olduğundan onu olduqca çətinləşdirirdi. Onu da qeyd etməliyik ki, ərəb əlifbasından istifadə olunarkən yazımızda sabit qayda-qanun olmamışdır. Bu isə öz növbəsində xalqın inkişafına maneə törətməklə yanaşı oxu və yazı prosesinin də kifayət qədər qarışıq olmasına səbəb olurdu.

Orfoqrafiyamızın qaydaya salınmasına çox çalışan, yazıda sabitliyin olmasını istəyənlərdən biri, böyük mütəfəkkir alim, görkəmli sənətkar Mirzə Fətəli Axundov olmuşdur. Onun bu yoldakı ən böyük xidməti isə heç, şübhəsiz, yazıda fonetik prinsipi irəli sürməsi və bu prinsipi həm nəzəri, həm də əməli surətdə əsaslandırmasında olmuşdur.

Azərbaycan orfoqrafiyasının əsaslarına aid xeyli dəyərli fikir söyləyənlərdən biri də Mahmud bəy Mahmudbəyov olmuşdur. Belə ki, XX əsrin 20-ci illərində isə orfoqrafiya problemləri dövlət işinə, ümumxalq işinə çevrilmişdir. 1922-ci ildən isə orfoqrafiya məsələlərinə aid böyük işlər görülmüşdür. Hazırlanan tezis və layihələr xüsusi orfoqrafiya konfranslarında müzakirə edilmişdir. Azərbaycan orfoqrafiyasının inkişaf tarixinə nəzər yetirdiyimiz zaman bir daha aydın olur ki, yazımız üçün yaradılan qaydalar ayrı-ayrı illərdə müzakirə olunaraq getdikcə daha da təkmilləşdirilmişdir.

1929, 1940, 1960-cı illərdə "Azərbaycan dilinin orfoqrafiya lüğəti" nəşr olunur. 1975-ci ildə nəşr olunan lüğətdə isə artıq 58.000 söz yer alır. Sonrakı lüğətlərdə də çox sözlərə yer verilir. 1975-ci ildən sonra 2004 (80.000 söz), 2012 (98.000 söz), 2013 (110.563 söz), 2021-ci (90.000 söz) illərdə də "Azərbaycan dilinin orfoqrafiya lüğəti" nəşr olunmuşdur.

Yazılı ədəbi dilin təkmilləşməsində orfoqrafiya xüsusi rol oynayır. Təbii ki, ümumxalq tərəfindən qəbul edilmiş vahid və düzgün orfoqrafiya qaydaları yazının imkanlarını artırmaqla yanaşı onu sabitləşdirir və beləliklə yazı və ədəbi dil inkişaf edir.

Orfoqrafiya qaydalarının tərtib olunması müəyyən prinsiplərə əsaslanır. Hər dildə orfoqrafik qaydaların müəyyən edilməsi üçün müəyyən prinsiplərdən istifadə olunur. Lakin müxtəlif dillərdə orfoqrafiyanın bütün prinsiplərindən yox, hər bir dilin xüsusiyyətinə uyğun olan prinsiplərdən istifadə edilir.

Professor Afad Qurbanova əsaslanaraq deyə bilərik ki, müasir Azərbaycan dilinin orfoqrafiyasında üç prinsip əsas götürülür: fonetik prinsip, morfoloji prinsip, ənənəvi prinsip.

Fonetik prinsip hər bir sözün müasir ədəbi tələffüz əsasında yazılmasını tələb edir. Bu prinsip üçün əsas meyar sözlərin düzgün tələffüzü hesab edilir. Daha dəqiq desək, söz deyildiyi kimi yazılır. Məsələn:

| Deyilir: | Yazılır: |
|---|---|
| [ana] | ana |
| [qırmızı] | qırmızı |
| [beş] | beş |

Qeyd etməliyik ki, Azərbaycan dili orfoqrafiyası üçün əsas prinsip fonetik prinsip hesab olunur. Dilimizdəki sözlərin böyük əksəriyyəti bu prinsipə uyğun şəkildə, yəni tələffüz edildiyi kimi yazılır.

Orfoqrafiyanın digər prinsipi isə morfoloji prinsip adlanır. Bu prinsip sözün mənalı hissələrinə əsaslanaraq müxtəlif şəkildə tələffüz edilən morfemlərin eyni formada yazılmasını tələb edir. Bu prinsipə əsasən dilin xüsusiyyətləri nəzərə alınmaq şərti ilə müxtəlif formada tələffüz olunan kök və şəkilçilər deyildiyi kimi yox, vahid qaydada yazılır; məsələn:

| Deyilir: | Yazılır: |
|---|---|
| dəyil | deyil |
| döyül | |
| dögü | |

Orfoqrafiyanın prinsiplərindən biri də tarixi-ənənəvi prinsipdir. Bu prinsip sözün tələffüzünü deyil, tarixi formasını əsas tutur. Qeyd etməliyik ki, başqa dillərdən keçən bir sıra sözlərin orfoqrafiyasında bu prinsip əsas götürülmüşdür. Əlbəttə ki, bu prinsip bütün alınma sözlərə şamil edilmir. Bir sıra sözlər vardır ki, onlar mənşəyindən fərqləndirilmir. Məsələn, dilimizə rus dilindən keçən samovar, kolxoz və s. kimi sözləri nümunə göstərə bilərik.

Zənnimizcə, sözlərin yazılışında istifadə edilən prinsiplərin əhəmiyyətini Azərbaycan dili müəllimləri dərindən anlamalı, eyni zamanda sözlərin yazılış formalarının səbəblərini müəyyənləşdirməli və orfoqrafiya təlimində bunlardan istifadə etməlidir. Təbii ki, əks halda Azərbaycan dili dərslərində orfoqrafiya təlimini ardıcıl və düzgün formada tədris etmək mümkün olmayacaqdır.

**Ədəbiyyat**

1. Abdullayev N. Orfoepiya və orfoqrafiya təlimi məsələləri. Bakı, 1985, 148 s.
2. Abdullayev A. Orta məktəbdə Azərbaycan dilinintədrisinin metodikası. Bakı, "Maarif", 1978, 84 s.
3. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikasından mühazirələr. Bakı. ADPU, 2007, 421 s.
4. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: 2014. 384 s.

## BULLİNQ – MÜASİR DÜNYA TƏHSİLİNİN AKTUAL PROBLEMLƏRİNDƏN BİRİ KİMİ

**Əliyev Amid Məhəmməd oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bullinq müasir dünya təhsilində həm təhsilalanlar, həm də dünya təhsili üçün geniş aspektdə çox ciddi təhlükələr yaradır. Bullinq termini dilimizin lüğət tərkibinə daxil olmaq üzrədir. Termin Azərbaycan dilinə öz məzmununa uyğun olaraq "zorakılıq", "qısnama", "məktəbdə şiddət, aqressiya", "şagirdlərin bir-birinə qarşı törətdiyi zorakılıq" kimi tərcümə olunur. Bu tezis zorakılığın zərərlərini araşdırmaq, onun məktəbdə, təhsil kontekstində ən təhlükəli təzahürlərini tədqiq etmək məqsədi daşıyır. Tezis yazılarkən mövcud elmi ədəbiyyatlar araşdırılmış, təhlillər aparılmışdır.

Məktəblər müxtəlif təbəqədən olan təhsilalanları bir araya gətirən və onlara təhsil verməyi öz qarşısına məqsəd qoyan ən əhəmiyyətli təhsil müəssisidir. Şagirdlər bir-biri ilə sinifdə və sinifdən xaricdə qaşılıqlı əlaqə qura, ünsiyyət yarada bilirlər. Şagirdlərin məktəbdə və ya ondan kənarda həmyaşıdları və ya bir neçə yaş böyük uşaqlar tərəfindən qurban seçilməsi, qorxudulması bullinqin bariz nümunəsidir. Bullinq bir nəfər və ya qrup halında bir neçə nəfər tərəfindən bir şəxsə qarşı qəsdən, məqsədli və təkrar şəkildə törədilən mənfi davranışlardır. Bullinqə məruz qalan qurban, törədən isə "buller" adlanır. Koliforniya

Universitetinin professoru Adams və Kolorado Universitetinin professoru Konnerin araşdırmalarına görə, təkrarlanan fiziki hücumlar, sataşma, verbal, sosial təhdid, bir sözlə, bullinq istənilən yerdə və istənilən zamanda ola bilər. Lakin bu daha çox özünü məktəb mühitində göstərir.

Kanadalı filosof Brauna görə, gənclər arasında aqressiya adi, normal haldır, lakin bullinq özünəməxsus xüsusiyyət daşıyır. Bullinq təkrar və məqsədli şəkildə törədilən zorakılıq hallarını özündə ehtiva edir. Braunun tədqiqatlarına əsasən, ABŞ-də hər 5 ibtidai sinif şagirdindən biri, hər 10 orta məktəb şagirdindən biri bullinqə məruz qalır. İsveç tədqiqatçısı Frisenin araşdırmaları isə onu göstərir ki, İsveç məktəblərində təxminən 15% məktəbli ya qurban seçilir, ya da buller kimi cəlb olunur. Hətta "buller"in köməkçiləri və ya qurbanın müdafiəçiləri bu prosesə daxil olduqca bullinqin arealı daha da böyüyür.

Təhsil müəssisələrində zorakılıq ənənəvi fiziki hədə-qorxudan tutmuş şifahi təhqir və sosial təcridin daha məkrli sahələrinə qədər müxtəlif formalarda olur. Təhsil müəssisələrində baş verən bu bullinq formaları zərərvermə və təsiretmə xüsusiyyətlərinə görə bir-birindən fərqlənir, lakin bunlar birlikdə də özünü göstərə bilər. Ən çox müşahidə olunan bullinq formaları bunlardır:

- fiziki bullinq: qurbanın fiziki güc tətbiq edilməsi ilə qorxudulması, döyülməsi və ya şəxsi əşyalarına ziyan vurulması və s. kimi bullinq halları.
- sosial bullinq: şagirdlərin yalan, şər, şayiə və sosial təcridə məruz qalmaları və s.
- kiber bullinq: şagirdlərə güc tətbiq edərək onları utandıracaq, rüsvay edəcək video, şəkil və ya yazıların hazırlanaraq paylaşılması, şəxsi məlumatların ələ keçirilərək yayılması və s.
- verbal bullinq: bullerin təhqiramiz ifadələrdən işlədərək öz qurbanını alçaltması və s.

Bullinqin nəticələri sadəcə baş verdiyi məkan və zamanda qalmır, qurban zorakılığın emosional təsiri ilə mübarizə apararkən bu onun akademik performansına da mənfi təsirlər göstərir. Bullinq psixi sağlamlığa, ümumi rifaha çox mənfi təsir göstərir. Hətta qısnamanın təsiri ömür boyu qurbanın üzərində qala bilər. Asiyalı professor Honq və kolumbiyalı professor Espaleqə görə, dünyanın bütün yerlərində bullinqin yaratdığı əsas problemlər sosial problemlərdir. ABŞ professorları Boulan və Nensiyə görə, bullinqə məruz qalan şagirdlər məktəbdən imtina edirlər və çox zaman özünədəyər və özünəhörmət səviyyələri aşağı olur.

Kanadalı filosof Braun və həmkarlarının eksperimentlərinə əsasən, bullinq qurbanları "yuxusuzluq, yatağını islatma, mədə ağrıları, ümumi narahatlıq, baş ağrıları, depressiya" kimi simptomları daşıyırlar. Hətta zorakılıq qurbanları intihara belə sürükləmişdir. İntihar qurbanlarının faiz dərəcələrinə nəzər saldıqda bullinqə məruz qalan gənclərin bullinq qurbanı olmayan gənclərə nisbətən daha yüksək faiz göstəricisinə sahib olduğu aydınlaşır. ABŞ məktəblərində bullinq qurbanlarının intihar faizi sadəcə Massaçusets ştatında 40.9%-a çatmışdır. Qeyd olunanlara əsaslansaq, bullinqə lokallaşdırılmış bir mövzu kimi baxmaq olmaz, o bütün təhsil mühitinə nüfuz edir. Onun yaratdığı geniş areallı təhlükənin həm öyrənmə mühiti, həm də akademik nailiyyət üçün çox mənfi təsiri vardır. Həmçinin bununla da təhsil müəssisələrinin reputasiyası və effetivliliyi də təhlükə altına düşür.

Bullinqin aşkar olunması və aradan qaldırılması üçün pedaqoq və psixoloqlarla çalışmaq lazımdır. Pedaqoqlar zorakılıq təhlükəsinin davam etdirilməsində və ya azaldılmasında mühüm rol oynayırlar. Müəllimlərin bullinqi müəyyən etmək və onu həll etməkdə qarşılaşdıqları çətinlikləri görməkvacibdir. Müəllimlərin bullinqlə fəal mübarizə strategiyaları ilə gücləndirilməsi şagirdlərin özlərini təhlükəsiz, dəyərli və öz potensiallarını üzə çıxarmaqda azad hiss etdikləri mühiti gücləndirir. Bullinq təhlükəsini aradan qaldırmaq çoxşaxəli yanaşma tələb edir. Qurbanları dəstəkləmək və zorakılıq davranışının əsas səbəblərini aradan qaldırmaq üçün müdaxilə proqramları olmalıdır. Hörmət və empatiya mədəniyyətini inkişaf etdirməyə yönəlmiş profilaktika səyləri bullinqi və onun təsirlərini aradan qaldırmaq üçün açardır. Təhsil və maarifləndirmə kampaniyaları zorakılığın

nəticələrini işıqlandıra, daha təhlükəsiz tədris mühiti yaratmaq üçün kollektiv öhdəliyi təşviq edə bilər.

Bullinq, yəni qısnama özünün geniş nəticələri ilə təhsildə, tədrisdə ən ciddi təhlükələrdən biri kimi önə çıxır. Bu problemin ciddiliyini dərk etmək və onun aradan qaldırılması istiqamətində fəal işləmək təhsil işçilərinin, idarəçilərin və bütövlükdə cəmiyyətin üzərinə düşür. Yekun olaraq, bu tezis tədris mühitində zorakılığın ağırlığını vurğulayır və hərtərəfli müdaxilələrə təcili ehtiyac olduğunu bildirir. Bullinqin müxtəlif təzahürlərini, nəticələrini və potensial profilaktik tədbirlərini başa düşməklə, biz bütün təhsilalanlar üçün daha təhlükəsiz və daha əlverişli təhsil imkanları yaratmağa çalışa bilərik. Yalnız kollektiv səylər və tərbiyəvi təhsil mühitinin yaradılmasına davamlı öhdəlik vasitəsilə biz zorakılığın təhsilin hər bir təhsil alan üçün vəd etməli olduğu daha parlaq gələcəyə kölgə salmamasını təmin edə bilərik.

## BULLİNQİN MAHİYYƏTİ VƏ ƏSAS NÖVLƏRİ

**Əliyev Amid Məhəmməd oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Dünyanın hər bir ölkəsində olduğu kimi Azərbaycanda da təhsildə aktuallaşmaqda olan ciddi problemlərdən biri də bullinqdir. Bullinq termini dilimizin lüğət tərkibinə daxil olmaqdadır. Bu termin Azərbaycan dilinə məzmununa uyğun olaraq “zorakılıq”, “qısnama”, “məktəbdə şiddət, aqressiya” kimi tərcümə olunur.

Bullinq təhsilalanların və ya uşaqların cəmiyyətdə məruz qaldıqları zorakılıq hallarının məcmusudur. Azərbaycanda bullinq haqqında ilk dəfə sosial mediada aktiv müzakirələrin başlanmasına 13 yaşlı Elina Hacıyevanın məktəbdə üzləşdiyi bullinq nəticəsində aprelin 4-ü 2019-cu ildə oxuduğu 162 nömrəli məktəbdə sarsıdıcı intiharı səbəb oldu.[2] Bullinq bir nəfər və ya qrup halında bir neçə nəfər tərəfindən bir şəxsə qarşı qəsdən, məqsədli və təkrar şəkildə törədilən mənfi davranışlardır.[1, s.10] Uşaq-yeniyetmə psixiatrı, psixoterapevt türkiyəli professor Özden Şükran Üneri bullinqə həmyaşıd zorakılığı kimi yanaşmış və bu cür tərif vermişdir: “Həmyaşıd zorakılığı aralarında güc bərabərsizliyi olan şəxslərdən, güclünün gücsüzə qəsdən, sistemli bir şəkildə törətdiyi mənfi və təkrarlanan fiziki və ya verbal zorakılıq kimi ifadə olunur” [4, s.352].

Bullinqə məruz qalan şəxs qurban, bullinqi törədən şəxs isə “buller” adlanır. Aparılan tədqiqatlarda bullinqə məruz qalmış şagirdlər zorakılığın daha çox aşağıdakı yerlərdə baş verdiyini bildirmişdirlər: məktəb koridorunda və ya pilləkən altında (43%), sinif daxilində (42%), yeməkxanada (27%), məktəb ərazisindən kənarda (22%), sosial şəbəkələrdə (15%), hamam otağında və ya paltardəyişmə otağında (12%) və ictimai nəqliyyatda (8%) [7].

Bullinqin tiplərini müəlliflər ayrı-ayrılıqda təsnifləşdirmişlər. UNICEF-in Norveç nümayəndəliyində “Uşaq hüquqları və davamlılıq” şöbəsinin müdiri Kristin Oudmayer bullinqi 2 formada təsnif etmişdir: birbaşa və dolayı. O, birbaşa bullinqə fiziki, verbal tipləri, dolayı bullinqə isə kiber və sosial bullinq tiplərini aid etmişdir. [1, s.10] Amerika alimləri Rivers və Smith bullinqin 3 növünü qeyd etmişlər: fiziki, verbal və dolayı [5, s.361]. ABŞ-nin Çikaqo Universitetinin professoru Jacobsen və Arizona Universitetinin professoru Bauman isə bullinqin tiplərini fiziki, verbal və əlaqəli bullinq olaraq təsnifləşdirir. [3, s.1]

Bullinqin tiplərini ümumi şəkildə belə qruplaşdıra bilərik: [8]

- fiziki bullinq;
- verbal bullinq;
- kiber bullinq;
- sosial bullinq;
- homofobik bullinq;

Fiziki bullinq: Fiziki bullinq şagird və ya şagirdlərin digər şagirdlər tərəfindən qəsdən güc tətbiqinə məruz qalmasıdır. Fiziki zorakılığa vurmaq, döymək, təpikləmək, itələmək,

saçını qırxmaq, ayaqqabısını sildirərək alçaltmaq, fiziki güc göstərib qorxudaraq üz nahiyəsinə hər hansı nalayiq ifadələrin yazılması və s. kimi fiziki proseslər daxildir

Verbal bullinq: Verbal bullinq adından da göründüyü kimi uşaqların məruz qaldığı şifahi zorakılıq hallarıdır. Buraya ləqəb qoymaq, təhqir, söyüş, dini, irqi, cinsi, milli ayrı-seçkiliyi dəstəkləyən ifadələrin işlədilməsi və s. kimi hal və vəziyyətlər daxildir.

Kiber bullinq: Kiber bullinq şagirdlərin kiber hücuma məruz qalmalarıdır. Zorakılıq törətmək istəyən şagird utancaq, özünəqapalı uşaqların şəkil və ya videolarını çəkib onları şantaj edə və ya sosial şəbəkələrdə paylaşa bilər. Bu kimi hallar kiber zorakılığın ən bariz nümunələridir. Kiber bullinq həmçinin özündə verbal və fiziki bullinq hallarını ehtiva edə bilir. Kiber bullinq daha çox qrup şəklində törədilir. Qurban qrup halında birləşən bullerlərin kiber hücumlarına məruz qalır. Fiziki gücü və verbal təzyiqi daha çox əsas buller törədir. Digər bullerlər isə zorakılıq halını videoya çəkməklə, qurbanı qorxutmaqla, gülərək onu daha da qısnamaqla məşğul olurlar. Buna nümunə olaraq yanvar ayının 17-də Bakı şəhərində baş vermiş bullinq halını nümunə göstərmək olar. Bu bullinq hadisəsində bir qrup şagird əsas "buller"in ətrafına toplaşaraq köməksiz bir şagirdə qarşı verbal, fiziki və kiber bullinq hallarını törətmişdirlər. Belə qənaətə gəlmək olar ki, Azərbaycan kontekstində kiber bullinq daha çox təhlükə doğuran zorakılıq növüdür.

Sosial bullinq: Sosial bullinqə şagirdlərin məktəbdə və cəmiyyətdə məruz qaldıqları qeybət, barələrində yalan danışılması, şər atılması və s. bullinq halları aiddir. Bu cür qısnama halları da qrup şəklində törədilir. Bullerlər qruplaşaraq məqsədli şəkildə əvvəlcədən hər hansı bir şagirdi izləyir və onu qurban seçirlər. Yalan, şər atılarkən buller qrupunun digər nümayəndələri yalançı şahidlik edərək qurbanı tamamilə sıxışdırırlar.

Homofobik bullinq: Homofobik bullinq isə təhsil müəssisələrində və ailələrdə qeyri-ənənəvi oriyentasiyaya sahib olan uşaqların digər yoldaşları və ya ailə üzvləri tərəfindən məruz qaldıqları zorakılıq növüdür.

Dünyada aparılan araşdırmalarda uşaqların bullinqə məruz qalma faizləri olduqca yüksəkdir. ABŞ Təhsil Departamentinin məruzəsinə əsasən, 12 yaşdan 18 yaşadək hər dörd uşaqdan biri tədris ili ərzində bullinqin qurbanı olub. Ukraynada UNICEF üçün aparılmış tədqiqatlara əsasən, məktəblilərin 89%-i billinqə məruz qalır. Qərb mənbələrinin məlumatına görə, 14 yaşa qədər şagirdlərin 50%-i məktəbdə təqiblərə məruz qalır. Yeniyetmə yaşında isə bu faiz dərəcəsi azalır.[6] Milli Təhsil Statistikaları Mərkəzinin 2019-cu il nəticələrinə əsasən hər beş şagirddən biri bullinqə məruz qaldığını bildirir ki, bu da təxminən 20.2% edir. Məktəblərdə bullinqə məruz qalan şagirdlərin 41%-i zorakılığın yenidən baş verəcəyini düşündüyünü bildirmişdirlər. Qısnamaya məruz qalan şagirdlərin 13%-i verbal bullinqin, digər 13%-i sosial bullinqin qurbanı olduğunu, 5%-i isə məqsədli şəkildə sosial təcridə məruz qaldığını qeyd etmişdir. [7]

İstər mövcud elmi ədəbiyyatların təhlili, istərsə də ölkə kontekstindəki baş verən zorakılıq hadisələri bullinqin ona məruz qalan şagirdlərin indiki və sonrakı həyatlarına çox pis təsir göstərdiyini təsdiq edir. Buna görə də məktəb rəhbərliyi və ailələr bullinq və ya qısnama halları ilə bağlı geniş məlumata sahib olmalı, uşaqlar daim diqqət mərkəzində saxlanılmalı, hər hansı bir bullinq halı aşkarlanarsa, məktəb pxioloqunun köməyi ilə həmin anda müdaxilə edilməlidir. Gələcəyimiz olan uşaqları qorumalı, onları cəmiyyətə fayda verəcək şəkildə yetişdirməliyik.

Ədəbiyyat

1. Oudmayer, K. Övladımızın gizli kabusu – bullinq. 172 səh., Bakı 2021.
2. Mahmudova, L. Azərbaycan məktəblərində Bullinqin Profilaktikasına ətraflı yanaşma.https://bakuresearchinstitute.org/a-comprehensive-approach-to-bullying-prevention-in-azerbaijani-schools-2/
3. Jacobsen, K. E., & Bauman, S. Bullyting in schools: School counselors' responses to three types of bullying incidents. *Professional School Counseling, 11*(1) 2007.
4. Üneri, Ö. S. Çocuklarda Akran Zorbaligi. *Düşünen Adam, 24*(4), 352. 2011.

5. Rivers, I., & Smith, P. K. Types of bullying behaviour and their correlates. *Aggressive behavior*, *20*(5), 359-368. 1994.
6. https://muallim.edu.az/news.php?id=5140
7. https://www.pacer.org/bullying/info/stats.asp
8. https://bullyingfree.nz/about-bullying/different-types-of-bullying/

**XÜLASƏ**

Məktəb daxilində və ya məktəbdən xaricdə şagirdlər arasında bullinq – zorakılıq və qısnama halları müşahidə olunur. Zorakılıq halları şagirdlərin həm akademik nailiyyətlərinin, həm də sosial bacarıqlarının inkişafına mənfi təsir göstərir. Bullinq özünü bir sıra növləri ilə göstərir. Bu növlər də bir-birindən zərərvermə xüsusiyyətinə görə fərqlənir. Bullinqin hansı növlərinin daha çox yayıldığını öyrənmək, hansı növ və ya növlərinin daha təhlükəli olduğunu müəyyənləşdirmək üçün araşdırmaların aparılması zəruridir. Təqdim etdiyimiz bu məqalə keyfiyyət çalışmasına əsaslanaraq, bullinq hallarının ümumi mahiyyətini araşdırmağı, əsas növlərini müəyyənləşdirməyi, lazımi məlumatları diqqətə çatdırmağı əsas məqsəd kimi qarşıya qoymuşdur. Məqalə yazılarkən ədəbiyyat təhlili metodundan istifadə olunmuş, mövcud elmi ədəbiyyatlar araşdırılmışdır.

***Açar sözlər:*** *bullinq, zorakılıq, qısnama, məktəbdə şiddət*

**SUMMARY**

There are cases of bullying –violence and harassment among students inside or outside the school. Bullying negatively affect the development of both academic achievement and social skills of students. Bullying  shows up in various types. These types also differs from each other in the nature of damage. It is necessary to conduct research to find out which forms and types of bullying are more common, to determine which types or types are more dangerous. This presented article, based on a qualitative study, set as the main goal to investigate the general nature of bullying cases, identify their main types, and bring the necessary information to the attention. While writing the article, the method of literature analysis was used, the available scientific literature was examined.

***Keywords:*** *bullying, violence, harassment, school violence*

**РЕЗЮМЕ**

Имеются случаи издевательств – насилия и притеснений среди учащихся как внутри школы, так и за ее пределами. Буллинг негативно влияет на развитие как академических достижений, так и социальных навыков учащихся. Буллинг проявляется в различных видах. Эти виды также отличаются друг от друга по характеру повреждений. Необходимо провести исследование, чтобы выяснить, какие формы и виды издевательств встречаются чаще, определить, какие виды или виды более опасны. Представленная статья, основанная на качественном исследовании, поставила основной целью изучить общий характер случаев издевательств, выявить их основные виды и довести до сведения необходимую информацию. При написании статьи был использован метод литературного анализа, изучена доступная научная литература.

***Ключевые слова:*** *буллинг, насилие, преследование, насилие в школе.*

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA ÖYRƏNMƏ MARAĞININ FORMALAŞDIRILMASINDA ƏMƏKDAŞLIĞIN ROLU

***Əliyeva Aytən Zoir qızı***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir dövrdə həyatın bütün sahələrində olduğu kimi təhsil sahəsində də köklü dəyişikliklər öz əksini tapmışdır. Bunlardan ən başlıcası yaradıcı, müstəqil düşünən və hərtərəfli inkişaf edən şəxsiyyət formalaşdırmaq və yetişdirməkdir.

Təhsil sisteminin ilk pilləsi məktəbəqədər təhsildir. Müasir dövrdə uşaqları hərtərəfli inkişaf etdirmək, şəxsiyyət kimi formalaşdırmaq üçün məktəbəqədər təhsil müəssisələrində bir sıra önəmli işlər görülüb. Bunlardan başlıcası öyrənmə marağının formalaşdırılmasıdır.

Məktəbəqədər yaşlı uşaqların öyrənmə marağının formalaşdırılmasında əməkdaşlıq əhəmiyyətli rola malikdir. Əməkdaşlıq ümumi məqsədə nail olmaq üçün birlikdə işləmək aktıdır və uşaqların sonrakı həyatlarında sosial və akademik uğur qazanmağı öyrənmələri üçün lazım olan mühüm bacarıqlardan biridir. Ümumiyyətlə əməkdaşlıq 4 formada həyata keçirilir:

1) Uşaq-uşaq əməkdaşlığı

Uşaq-uşaq əməkdaşlığı ümumi məqsədə çatmaq üçün birlikdə fəaliyyət göstərməyə şərait yaradan əsas amildir. Əməkdaşlıqla öyrənmədə əsas fəaliyyət sadəcə qruplarla işləmək deyil, bununla yanaşı uşaqların bir-birinə kömək etmələri də əsas şərtdir. Əməkdaşlıq cütlərlə, qruplarla və ya kollektivlə iş zamanı həyata keçirilə bilər. Bu zaman uşaqların nitqinin formalaşması da əhəmiyyətli rol oynayır. Çünki uşaqların bir-birinə fəaliyyətləri ilə bağlı rəy verməsi və ya öz fikirlərini bildirməsi, həmçinin kiçik müzakirələrdə fəal iştirak etməsi uşaqların nitqinin inkişafına səbəb olan məsələlərdən biridir.

2) Tərbiyəçi-uşaq əməkdaşlığı

Müasir təhsil sistemini ənənəvi təhsil sistemindən fərqləndirən əsas məsələ təlim prosesində "subyekt-subyekt" münasibətinin qurulmasıdır. "Subyekt-subyekt" münasibəti tərbiyəçi-uşaq əməkdaşlığının olmasına gətirib çıxarır. Tətbiyəçi ilə uşaq arasında qurulmuş uğurlu əməkdaşlıq şəxsiyyətin formalaşmasına, uşağın özünü reallaşdırmasına, özünə inamının yaranmasına, digər insanlarla sağlam münasibətlər qura bilməsinə kömək edir. Tərbiyəçi-uşaq əməkdaşlığı hər iki tərəfin – həm tərbiyəçinin, həm də uşağın inkişafına yönəldikdə səmərəli hesab olunur. Burada müəllimin inkişafı dedikdə, onun dərsin tədrisi prosesini təkmilləşdirməsi, davamlı surətdə öz üzərində çalışaraq şəxsi bilik və bacarıqlarını mükəmməlləşdirməsi, təlim və tədris prosesi ilə bağlı yeniliklərdən xəbərdar olması və s. nəzərdə tutulur. Uşağın inkişafı dedikdə isə nitq, təfəkkür, təxəyyül, bir sözlə, hərtərəfli inkişafı nəzərdə tutulur.

3) Tərbiyəçi-valideyn əməkdaşlığı

Biz bilirik ki, uşağa çox yaxın olan iki tərəf valideyn ilə tərbiyəçidir və hər iki tərəfin əməkdaşlığı uşaqların təlim prosesinə olan marağını artırmağa şərait yaradır. Burada hər iki tərəf aktiv olmalı, uşaqların səmərəli öyrənməsi üçün bir məqsəd uğrunda çalışmalıdır. Tərbiyəçi-müəllim uşaqların mənfi və ya müsbət cəhətlərini mütəmadi olaraq valideynlərə bildirməli və bu zaman konfidensiallığı təmin etməyi bacarmalıdır. Zərurət yaranarsa fərdi şəkildə valideynlərlə söhbətlər aparılmalı, plan qurulmalı, uşaqların öyrənmə marağını formalaşdırmaq üçün yollar müəyyənləşdirilməlidir. Bəzən valideynlər öz övladları haqqında məlumat almır və onların təlim prosesi ilə maraqlanmırlar. Bu zaman tərbiyəçi-müəllim valideynlərlə əlaqə saxlamalı və əməkdaşlığa sövq etməlidir. Bu əməkdaşlıq zamanı maarifləndirici söhbətlərin aparılması uşaqları təlim prosesinin daha uğurlu olmasına gətirib çıxarır. Belə ki, tərbiyəçi valideynlərə uşaqların maraqları, bacarıqları və vərdişləri haqqında məlumatlar verərsə, valideynlər də evdə uşaqları ilə daha yaxından məşğul ola bilərlər.

4) Valideyn-uşaq əməkdaşlığı

Bu əməkdaşlıq nəticəsində valideynərlə uşaqların münasibətləri formalaşır.

Həmçinin valideynlər övladlarının maraq və tələbatlarına daha yaxşı bələd olur. Bu əməkdaşlıq daha çox "açıq qapı günü", "valideyn günü", "ailə günü" təşkil ediləndə istifadə olunur. Valideyn-uşaq əməkdaşlıq təkcə müəssisə daxilində deyil, ev mühitində də təşkil olunmalıdır. Bunun üçün tərbiyəçi-müəllim valideynlərə maarifləndirici məlumatlar verməli, uşaqları ilə maraqlanması ilə bağlı məlumatlar verməlidir. Valideyn uşaqların şəxsiyyət kimi formalaşması üçün ev şəraitində öyrənmə mühiti yaratmalıdır. Misal olaraq valideynlər uşaqlar üçün kiçik bir kitabxana təşkil edə bilərlər. Təbii ki, kitabların uşaqların yaş və anlaq səviyyələrinə, həçinin maraqlarına uyğun olmalıdır.

# FUNKSİYANIN ELEMENTAR VƏ TÖRƏMƏNİN KÖMƏYİ İLƏ MÜQAYİSƏLİ ARAŞDIRILMASI

**Əliyeva Xatirə Bəhruz qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Funksiya mövzusu riyaziyyat elminin əsas və zəruri bölmələrini özündə birləşdirir. Ümumtəhsil məktəblərdə " Törəmə və onun tətbiqləri" mövzusu 11-ci sinfin VI fəslində tədris olunur və bu mövzunun tədrisinə qədər şagirdlər xətti, kvadratik, kubik (kub parabola), tərs mütənasiblik, triqonometrik, üstlü, loqarifmik və.s funksiyalar və onların elementar metodlarla müəyyən edilmiş monotonluq xassələrini öyrənmiş olurlar. Həmin funksiyaların monotonluq xassələrini tədqiq edərkən onların təbiətinə uyğun müəyyən elementar metoddan istifadə olunur. Lakin, funksiyaların monotonluq xassələrini tədqiq olunması törəmənin tətbiqi vahid-universal metod kimi meydana çıxır.

Funksiyanın elementar üsulla araşdırılması ilə şagirdlər aşağı sinifdən mərhələli şəkildə tanış olurlar. Bu üsuldan istifadə etmek üçün şagirdlər funksiyanın təyin oblastını, qiymətlər çoxluğunu, monotonluğunu, sıfırlarını, dövriliyini, tək və ya cütlüyünü, ekstremumlarını, ən böyük və ən kiçik qiymətlərini, məhdudluğunu araşdırılmalıdır və ən sonda qrafikini qurmalıdır. Bu araşdırmalar əsasında funksiyanın qrafikinin qurulması aparılır.

Misal üzərində izah edək;

$$y = f(x) = x^2 + 4$$

funksiyasını elementar üsul ilə araşdıraraq qrafiki quraq.

1. $f(x) = x^2 + 4$ funksiyasının təyin oblastını araşdıraq. Funksiyanın təyin oblastı dedikdə biz $x$-ın yəni arqumentin ala biləcəyi qiymətlər nəzərdə tutulur. Bu funksiyaya nəzər yetirsək görərik ki, $x$ istənilən qiyməti ala bilər. Bu zaman təyin oblastımız
   $D(f) = (-\infty; +\infty)$ aralığında istənilən qiyməti alacaqdır.
2. $f(x) = x^2 + 4$ funksiyasının qiymətlər çoxluğunda isə y-in yəni asılı dəyişənin aldığı qiymətlər tapılmalıdır. Qeyd edək ki, funksiyanın qiymətlər çoxluğunun tapılmasının ümumi bir qaydası yoxdur. Bu zaman verilmiş misalın xarekterindən asılı olaraq xüsusi qayda tətbiq etmək lazımdır. Misala nəzər yetirsək görərik ki, bu funksiyanın qiymətlər çoxluğu $E(f) = [4; +\infty)$aralığına daxil olacaqdır.
3. $f(x) = x^2 + 4$ funksiyası artan funksiyadır yəni, monotondur. Bilirik ki, artan və ya azalan funksiyalara monoton funksiyalar deyilir.
4. $f(x) = x^2 + 4$ funksiyası cüt funksiyadır. Belə ki, $x$-ın istənilən qiymətində $f(-x) = (-x)^2 + 4 = x^2 + 4$ , $f(-x) = f(x)$.
5. $f(x) = x^2 + 4$ funksiyasının sıfırlarını tapmaq dedikdə arqumentin hər hansı bir qiymətində funksiyanın qiymətinin sıfıra çevrilməsi başa düşülür. Yəni, $x^2 + 4 = 0$, $x^2 = -4$ . Tənlikdəndə görürük ki, bu funksiyanın sıfırları həqiqi ədədlər çoxluğunda təyin olunmamışdır. Buradan deyə bilərik ki, funksiyanın qrafikinin başlanğıcı ordinat oxunun 4 nöqtəsindədir.

6. Bu funksiya haqqında nə bilirik? Funksiya kvadratik funksiyadır, qrafiki paraboladır, başlanğıcı ordinat oxu üzərindədir və koordinatı $(0; 4)$, bu funksiyada $a > 0$ olduğundan parabolanın qolları yuxarı olacaqdır. Qrafiki quraq.



Funksiyanı törəmə vasitəsilə araşdırdıqda elementar üsuldan fərqli olaraq şagirdlər burada funksiyanın törəməsi, böhran nöqtəsi, ekstremumları və.s anlayışlarından istifadə etmiş olurlar. Şagirdlərə funksiyanın törəmə vasitəsi ilə araşdırmaq elementar üsul ilə araşdırmaqdan daha asan gəlir. $f(x) = x^2 - 4$ funksiyanı törəmənin köməyi ilə araşdıraq.

1. Koordinat oxları ilə kəsişmə nöqtələrini tapsaq alarıq ki, $x = 0$ olduqda $f(0) = -4$ $və$ $y = 0$ olduqda $x = \pm 2$ olur.
2. Böhran nöqtələrini təyin etmək üçün funksiyanın törəməsini alıb sıfıra bərabər etmək lazımdır. Aydındır ki, $x_0 = 0$ nöqtəsində $f(x) = x^2 - 4$ funksiyasının törəməsi

$$f'(x) = 2x$$
$$2x = 0$$
$$x = 0$$

Lakin $x = 0$ nöqtəsində $f(x) = x^2 - 4$ funksiyasının ekstremum nöqtəsi yoxdur.

3. Bu funksiyanın artma və azalma aralıqlarını təyin edək. Bu zaman aşağıdakı bərabərsizliklər sistemi alınır;

$$\begin{cases} x^2 - 4 \geq 0 \\ x^2 - 4 \leq 0 \end{cases} \qquad \begin{cases} (x-2)(x+2) \geq 0 \\ (x-2)(x+2) \leq 0 \end{cases}$$

funksiya [-2;2] aralığında azalan, $(-\infty; -2] \cup [2; +\infty)$ aralığında isə artan funksiyadır.




4. Bu funksiya kvadratik funksiya olduğuna gör a> 0 olduğundan bu funksiyanın qrafikinin q parabolanın təpə nöqtəsinin qeyd edilməsi old önəmlidir. $f(x) = x^2 - 4$ funksiyasına uyğun parabola $f(x) = x^2$ parabolasının 4 vahid sürüşdürülməsidir ki, işarəyə görə yuxarı və ya aşağı sürüşməsi dəyişir. Şagirdlər bu barədə 9-cu sinifdə tədris olunan "Kvadratik funksiya və onun qrafikləri" mövzusundan tanışdırlar. Deməli bu qrafikin olacaqdır. Deyilənləri nəzərə alsaq funksiyanın qrafiki aşağıd




Günümüzdə bu iki araşdırma üsulunun hər ikisindən geniş önəmə sahibdirlər. Şagirdlər elementar üsul ilə funksiyaları aş araşdırır və törəmə anlayışını mənimsədikdən sonra ondan istifadə edərək yeni bir araşdırma üsulu öyrənmiş olurlar.

Xülasə: Funksiyanın elementar və törəmənin köməyi ilə araşdırılması orta məktəbdə geniş istifadə olunur və şagirdlər tərəfindən mənimsənilməzində bəzi çətinliklər yaradır. Belə çətinliklər onların funksiyanı araşdırarkən yanlışlara yol verməlerinə və ən əsası funksiyanın qrafikinin yanlış olmasına gətirib çıxarır.

Summary: The investigation of the function with the help of elementary and derivative is widely used in high school and creates some difficulties in its mastery by students. Such difficulties lead them to make mistakes when investigating the function and, most importantly, to make the graph of the function wrong.

Резюме: Исследование функции с помощью элементарной и производной широко применяется в старшей школе и создает некоторые трудности в ее усвоении учащимися. Подобные трудности приводят к тому, что они допускают ошибки при исследовании функции и, самое главное, делают неверным график функции.

Ədəbiyyat

1. Adıgözəlov A.S. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası. ADPU-nun nəşriyyatı, Bakı-2006.

2. Adıgözəlov A.S. Məktəb riyaziyyat təliminin nəzəri əsasları. ADPU-nun nəşriyyatı, Bakı-2018.
3. Əliyeva T.M., Mütəllimov T.E., Adıgözəlov A.S. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası: Ümumi metodika. II h. Dərs vəsaiti, ADPU, Bakı-1993
4. Mərdanov M.C. və b. Cəbr. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik. Çaşıoğlu, Bakı-2004.
5. N.Qəhrəmanova, M.Kərimov, İ.Hüseynov: Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün dərslik, Radius, Bakı-2020.

## İİNGİLİS DİLİ DƏRSLƏRİNDƏ KOMMUNİKATİV DİL TƏDRİSİNİN FORMALAŞDIRILMASI

**Əliyeva Leyla Etibar qızı**
*Bakı Slavyan Universiteti*

Dil müəllimləri hər zaman tələbələrini öyrətdikləri hədəf dildən istifadə edərək öyrənmələri və ünsiyyət qura bilmələri üçün müxtəlif üsul və ya yanaşmalar işləyib hazırlayırlar. Tələbələrin öyrətdikləri fənlərdə səriştəli olmalarının ən yaxşı yolunu tapmaq üçün edilir. Dil müəllimləri dilin tədrisində metod və ya yanaşmalar haqqında fikirləri bilmək üçün müəllim hazırlığına gəlirlər. Metodlara/yanaşmalara məruz qaldıqda nə və nə üçün etdiklərini daha aydın görürlər. Tədris və təlim sinfində öz mövqelərini bilməklə, onlar nə üçün müəyyən bir metodu şərtləndirilmiş deyil, məlumatlı seçdiklərini görə biləcəklər. Tədris və öyrənmə sinifində tətbiq oluna biləcək bir çox mümkün metod və ya yanaşmalar mövcuddur. Ən populyar yanaşmalardan biri Kommunikativ Dil Tədrisi yanaşmasıdır və ya CLT kimi qısaldılmışdır. Əslində, dil tədrisində, xüsusən də İngilis Dili Tədrisində (ELT) CLT-nin yaranmasına səbəb olan bəzi amillər də var idi. Bu məqalə, ilk növbədə, CLT-nin nə olduğunu, tərifini, xüsusiyyətlərini və onun yaranmasının bəzi amillərini müzakirə edir.

NƏZƏRİ ÇƏRÇİVƏ

Kommunikativ Dil Tədrisi ikinci və ya xarici dilin öyrədilməsi yanaşması kimi müəyyən edilir ki, bu da hədəf dili öyrənmək üçün vasitə və ya son məqsəd kimi tələbələrin qarşılıqlı əlaqəsinə diqqət yetirir. Burada qarşılıqlı əlaqə iki və ya daha çox tərəfin bir-birinə təsir etdiyi fəaliyyət deməkdir. CLT həm də ikinci və ya xarici dilin tədrisinə kommunikativ yanaşmaya aiddir. Şübhəsiz ki, bir çox ölkələrdə öyrənənlərin kommunikativ səriştəsinə yönəlmiş ən effektiv yanaşma hesab olunur.

CLT-nin bəzi xüsusiyyətləri

Dil tədrisi sinfində CLT-nin bəzi xüsusiyyətləri var. Bunlar tədris planı, sinif fəaliyyəti, materiallar və tapşırıqlar, müəllim və şagirdin rollarıdır.

1. Dərs proqramı

Sillabus böyük bir tədris prosesində əldə ediləcək planın konturudur. CLT yanaşmasını ehtiva edən tədris proqramı dil müəllimlərinə hədəf dil haqqında dərs planında təlim materialları və fəaliyyətlər hazırlamaq üçün yer təmin edir. Qinghong-da (2009) istinad edildiyi kimi, Van EK (1980) CLT yanaşma proqramı şəklində altı əsas funksiyanı deyir: (1) faktiki məlumatın verilməsi və axtarışı; (2) intellektual münasibətləri ifadə etmək və aşkar etmək; (3) emosional münasibətləri ifadə etmək və aşkar etmək; (4) mənəvi münasibətləri ifadə etmək və aşkar etmək; (5) işləri görmək; və (6) sosiallaşma. Tədris proqramında olan bütün bu funksiyalar xüsusi vəziyyət daxilində xüsusi rolun formasına əsaslanaraq müxtəlif reallaşdırma yolu ilə dil tədrisində CLT yaradacaq.

2. Sinif Fəaliyyətləri

CLT-də bir çox kommunikativ fəaliyyətlər tətbiq oluna bilər, lakin xüsusilə, sinifdə hədəf dili öyrənənlər arasında qarşılıqlı əlaqəni asanlaşdıran CLT-də bəzi tipik kommunikativ fəaliyyətlər qrup müzakirəsi, simulyasiya və rol oyunudur. Birincisi, müzakirə cütlük, qrup və ya bütün sinif müzakirəsi şəklində aparıla bilər. Şagirdlərin əməkdaşlıq və ünsiyyət

bacarıqları cütlərdə, qruplarda və ya bütün sinifdə işləyən fəaliyyətlərlə gücləndiriləcək. İkincisi, simulyasiya şagirdləri sinifdəki real həyat vəziyyəti ilə təchiz edir ki, onlar hədəf dildən istifadə edərkən real dünyanı stimullaşdırsınlar. Üçüncüsü, rol oyunu simulyasiyaya bənzəyir; fərq rol oynaya bilər, qəbul edilmiş şəxsiyyəti istifadə edə bilər, başqası kimi davrana bilər. Müxtəlif sosial kontekstlərdə və müxtəlif sosial rollarda ünsiyyət qurmaq, hədəf dil öyrənənlərə hədəf dilin sosial mədəniyyətlərini öyrənmək imkanı verir, çünki ünsiyyət mədəniyyətlərin cəlb edilməsinə ehtiyac duyur.

3. Tapşırıqlar və Materiallar

Kommunikativ tapşırıqlar hədəf dili öyrənənlərə hədəf dili ifadə etmək və istifadə etmək imkanı verir. Şagirdlərin kommunikativ materiallarından istifadə etməklə, öyrənənlər real həyatın kontekstinə, zamanına və vəziyyətinə uyğun olaraq istifadə olunan dil atmosferinə daxil olurlar. Dil tədrisində CLT yanaşmasında üç növ materialdan isdifadə olunur:

• Orijinal materiallar öyrənənlərin xarici dünyadan öyrənə bilmədiklərini sinif otağına köçürür və müxtəlif vəziyyətlərdə öyrənənlərə təbii dili nümayiş etdirir.

• Tapşırıq əsaslı materiallar hədəf dil öyrənənlərə müəyyən rollar vasitəsilə hədəf dildən istifadə etmək şansı verir.

• Mətnə əsaslanan materiallar mövzu, tapşırıq təhlili və ya hədəf dilin istifadəçiləri arasında ünsiyyətdə təcrübə vəziyyətinin təsvirini təmin edir.

4. Müəllim və Şagirdlərin Rolları

CLT yanaşmasının konsepsiyası öyrənən mərkəzlidir və burada müəllimin rolu hədəf dili öyrənənləri kommunikativ öyrənmə mühitinə gətirə bilən fasilitator kimi gözlənilir. Müəllim kommunikativ tədris planı hazırlayır və onu bütün tələbələri sinifdə ünsiyyətcil şəkildə qarşılıqlı əlaqədə olmağa məcbur edən sinif fəaliyyətlərində tətbiq edir.

Tələbələrin CLT-də rolu ən vacibdir, çünki onlar dil tədrisi prosesinin kommunikatorlarıdır. Kommunikatorlar olaraq, onlar öz ünsiyyətlərinin mənasını müzakirə etməkdə məsuldurlar, hədəf dildə öz bacarıqlarından istifadə edərək ünsiyyət zamanı başqalarının mesajlarının mənasını anlamağa və əldə etməyə çalışırlar .

TƏHLİL VƏ MÜZAKİRƏ

ELT-də CLT-nin yaranmasına səbəb olan amillər

Əslində, İngilis Dili Tədrisində (ELT) CLT-nin yaranması bir çox amildən qaynaqlanır, lakin bu məqalə onun müzakirəsini iki ilə məhdudlaşdıracaq: əvvəlki yanaşmaların məhdudlaşdırılması və dildə səriştəli olmanın yeni anlayışları:

1. Əvvəlki yanaşmaların məhdudlaşdırılması

Dil tədrisi prosesində yaradılmış və istifadə olunan bəzi üsul və ya yanaşmalar olmuşdur. Əslində, dil tədrisi dərslərində həmin metod və ya yanaşmaların tətbiqi prosesi tələbələrin ehtiyaclarını ödəməkdə uğursuzluğa düçar olduğu üçün bəzi tənqidlər və ya məhdudiyyətlərlə nəticələndi.

Qrammatik Tərcümə Metodunun məhdudiyyəti ondan ibarətdir ki, şagirdin sinifdə fəal rol oynamaması, hədəf dildə danışıq və yaza bilməməsi; Birbaşa Metodun tənqidi ondan ibarətdir ki, bu metodu sinifdə əldə etmək çətindir, çünki sinif şəraiti real vəziyyət deyil və müəllimin məhdud bacarığı bu metodun pozulmasına səbəb olur; Audio-Lingual Metodun (ALM) bəzi tənqidçiləri iddia edirlər ki, öyrənənlərin hədəf dildə kommunikativ səriştəsi səhvlərin dəqiqliyi və təkrarlanması ilə əldə olunmayıb, öyrənənlərin hədəf dildən istifadə etməkdə öz yaradıcılıqlarından istifadə etmək imkanları çox məhduddur; və İcma Dilinin Öyrənilməsi (CLL) dilin qrammatikası sisteminə nəzarətdə qeyri-kafidir, çünki dəqiqlikdən çox rəvanlığa daha çox diqqət yetirilir.

2. Dildə Bacarıqlı Olmağın Yeni Anlayışları

Dildə səriştəli olmaq anlayışı zaman zaman hədəf dil kimi ingilis dili də daxil olmaqla böyük dəyişikliklərə məruz qalır. Əvvəllər, 17-18-ci əsrlərdə ingilis dili səriştəsi ingilis ədəbiyyatını oxumaq bacarığı idi. Daha sonra, 19-cu əsrdə, bu, əsasən məktəb imtahanlarında

keçmək üçün ingilis dilinin formalarını və ya qrammatikasını mənimsəmək bacarığı idi. İndiki vaxtda ingilis dilində hədəf dil kimi səriştəli olmaq anlayışları birdən artıqdır. Birincisi, səriştə ingilis dilindən səmərəli istifadə etməklə ünsiyyət qurmaqdır. Bu səriştə ingilis dili müəllimlərindən mexaniki yanaşmanı mənalı olana çevirən CLT yanaşmasından istifadə etməyi tələb edir . Tələbələrin ingilis dilini effektiv ünsiyyət vasitəsi kimi mənimsəmək ehtiyacı dörd makro bacarıqdan ayrı olaraq əldə edilmir. CLT yanaşmasında bütün makro-bacarıqlar ingilis dilinin tədrisinə inteqrasiya olunur ki, tələbələrin səriştəli olmaq ehtiyacını qarşılamaq üçün effektiv ünsiyyət qururlar.

İkincisi, İngilis dili üzrə səriştə standart İngilis İmtahan Qiymətlərindən görünə bilər. Bir çox təhsil müəssisəsi Standart ballarını təyin etmişdir

TOEIC, TOEFL və ya IELTS kimi ingilis dili imtahanı tələbələrin ingilis dilində səriştəsi kimi. Tələbələrin ingilis dili biliyi imtahanından keçməsi üçün dörd makro bacarıq həqiqətən lazımdır. Fəaliyyətinin xarakterik xüsusiyyətləri ilə CLT yanaşması həqiqətən tələbələrin Standart İngilis dilini mənimsəmələrini artırır. Bundan əlavə, Standart İngilis Dili İmtahanlarından yüksək nəticə də tələbələrə təhsillərini xaricdə davam etdirmək və ya xarici şirkətlərdə işləmək imkanı verəcək.

Üçüncüsü, ingilis dilinin mənalarını hədəf dil kimi qəbul etməkdə çeviklik bacarığı. İngilis dili bütün dünyada geniş yayılmışdır və istifadəçilər arasında çoxlu dialektlər yaradır. İngilis dili müəllimləri tələbələrini ingilis dili istifadəçiləri arasında müxtəlif dialektlərin məlumatları ilə təchiz etməlidirlər. Bu məlumatı CLT yanaşmasında məna fəaliyyətlərində danışıqlar yolu ilə əldə etmək olar. Onların real vəziyyətdə mənasını müzakirə etməkdə çevikliyi CLT yanaşmasında informasiya boşluğu fəaliyyətinin nümunəsidir.

CLT-nin Mənim Tədris Kontekstimə uyğun olması

CLT son iki onillikdə ən geniş yayılmış tədris təcrübəsidir. Xüsusilə, CLT kommunikativ səriştəni dil tədrisinin, o cümlədən İngilis dilinin tədrisinin məqsədi kimi qəbul etməklə kommunikativ yanaşma kimi qəbul edilir.

1. Kurikulum

Şübhəsiz ki, xüsusi peşələr üçün ingilis dili tələb olunur. Tələbələr ingilis dilini ofisiant/ofisiant, tur bələdçisi, tibb bacıları, katiblər, rəhbərlər, mühəndislər və s. kimi müəyyən rollarda hədəf dil kimi öyrənirlər . Onlara ümumi ingilis dilindən deyil, kommunikativ bacarıqlardan istifadə edərək xüsusi ingilis dilini öyrətmək daha səmərəlidir. Bu xüsusi ingilis dilini həyata keçirmək üçün kursun məqsəd və vəzifələrini müəyyən edən əsas kimi müvafiq kurikulum lazımdır. Peşə məktəbi olaraq kurikulum institusional kurikulum şəklində müəyyən edilmişdir.

İngilis dili departamentinin turizm və qonaqpərvərlik sənayesində konsentrasiyasının məqsədləri kimi tələbələrin ingilis dilini istifadə edərək turizm və ünsiyyətdə həm səriştə və peşəkarlığa malik olacağı bildirilir . Bundan əlavə, kurikulum və institut tələbələr, müəllimlər və idarəçilərin mühüm əməkdaşlığının böyük sistemidir. Bu kurikulum tipik CLT proqramına mükəmməl uyğun gəlir. İngilis dilinin tədrisi proqramına ingilis dilini öyrənənlərin ehtiyaclarını ödəmək, effektiv ünsiyyət qurmaq üçün CLT yanaşması daxil edilməlidir. Bundan əlavə, CLT yanaşmasından istifadə edən tədris proqramının məqsədləri ELT-də CLT-nin yaranmasına kömək edəcəkdir. Tələbələrdən funksiyalar, məna və dilçilik forması haqqında biliklərə malik olmaqla, müəyyən funksiyalardan müvafiq sosial kontekstdə və digər istifadəçilərlə istifadə edə bilmək və digər istifadəçilərlə mənasını müzakirə etməkdə uğur qazanaraq hədəf dil kimi ingilis dilində ünsiyyət qura bilmələri gözlənilir.

2. Tələbələrin Ehtiyacları

İngilis dili fakültəsinin tələbələri turizm və qonaqpərvərlik sənayesində cəmləşdikləri üçün xarici dil kimi ingilis dilini öyrənənlər iki səbəbə görə xüsusi məqsədlər üçün ingilis dilinə ehtiyac duyurlar. Birincisi, bu, onların akademik məqsədləri üçün lazımdır. Xüsusi məqsədlər üçün ingilis dilinin xüsusiyyətləri lüğətdə, qrammatikada, mətnlərdə, konkret sahənin funksiyalarında və bacarıqlarında fərqli təhlillərə malikdir. Şagirdlərin öz sahələrində

müvafiq təhlildən istifadə edərək ingilis dilində çap olunmuş və ya çap olunmayan materiallardan asılı olmayaraq informativ mənbələrdən bilik əldə etmələri gözlənilir. Bundan əlavə, sinifdə cüt və ya qrup işi, simulyasiya və müzakirə kimi fəaliyyətlər onları makro bacarıqlar şəklində dil funksiyaları ilə asanlaşdırır. Bu makro bacarıqlar səriştəsi, məsələn, TOEIC, IETLS və ya TOEFL kimi bacarıqlarını sübut etmək üçün imtahandan keçmək üçün tələb olunur.

3. Obyektlər

Peşə məktəbi olaraq, müəssisə tələbələri iş dünyasının real vəziyyətinə hazırlamaq üçün bir çox imkanlarla təchiz edilmişdir, o cümlədən turizm və qonaqpərvərlik sənayesində İngilis dili şöbəsinin konsentrasiyası. Qəbul guşəsi, mini barlar, mətbəxlər və otel otağına bənzər obyektlər CLT-də simulyasiya və ya rol oyunu fəaliyyətlərini dəstəkləyir. Tələbələr ingilis dilini real şəraitdə onların arasında qarşılıqlı əlaqədə öyrənmək və müxtəlif sosial kontekstlərə və sosial rollara görə sosial mədəniyyətləri öyrənmək şansına malikdirlər. Onların ingilis dilini ofisiant/ofisiant, resepsiyonist, operator, bar-tender, bell-boys, room-boys və ya aşpaz kimi məşq etmək imkanı var. Obyektlər tərəfindən dəstəklənən bu fəaliyyətlərdə CLT-dən istifadə dil öyrənməni real ünsiyyətdə cəmləşdirir, öyrənənləri digər öyrənənlərin səhvlərinə qarşı dözümlü edir, dəqiqlik və rəvanlıq inkişaf etdirir və dil funksiyalarını real vəziyyətdə yerinə yetirdiyi üçün əlaqələndirir.

İngilis dilində ELT-də CLT-dən istifadə

Şöbə tələbələrin dil səlisliyini inkişaf etdirməyə çalışmaq deməkdir. Tələbələr məzun olduqdan sonra iş dünyası üçün spontan dil performansı yaratmaq üçün alətlərlə təchiz edilmişdir. Onlara ömürboyu dil öyrənmə asanlaşdırılır, sadəcə sinif tapşırıqları ilə deyil. CLT-dən istifadə edən sinif təcrübələri tələbələri ELT-də öz potensiallarını tam şəkildə istifadə etməyə həvəsləndirir.

Mənim kontekstdə CLT-nin həyata keçirilməsi: Problemlər və Gözləmə

CLT hədəf dil öyrənənlərin dil tədrisində ehtiyaclarını ödəmək üçün ən effektiv və səmərəli yanaşma hesab edilsə də, onun tənqidçiləri də var. Onun əsas məqsədi kommunikativ səriştəyə nail olmaq olduğundan, öyrənənlərdən müəyyən situasiyada hazırladıqları dildən istifadə qaydalarına və dildən effektiv ünsiyyətdə istifadə strategiyalarına dair biliklərə malik olmaları tələb olunur.

Tənqidçilər bu yanaşmaya inanırlar ki, dilin öyrənilməsinin effektiv olması üçün dilin funksional aspektləri və formal strukturları güclü əlaqəyə ehtiyac duyur. Bu, hədəf dilin və öyrənənlərin mədəniyyətləri haqqında anlayışdır və bunlar bəzi dil müəllimləri üçün böyük problem olaraq qalır.

Dərslərimdə CLT yanaşmasını tətbiq edərkən dörd əsas problem yaranır. Birincisi, dil öyrənmə şəraiti üçün siniflər çox böyükdür. Bu problemi təxmin etmək üçün iş vərəqi verilə bilər ki, o, bütün tələbələri eyni vaxtda əhatə edə bilsin, qrup işindən və cüt işdən istifadə də tələbələrin iştirakını maksimum dərəcədə artırmaq üçün vacibdir. Qrup rəhbərləri də tədris təlimatının çatdırılmasına kömək etmək üçün sinifdə istifadə edilə bilər. Digər tərəfdən, CLT və Grammar-Tərcümə metodu kimi digər üsulları birləşdirən eklektik bir yanaşma böyük bir sinfi idarə etməyə kömək edə bilər.

İkincisi, tələbələr müxtəlif səviyyəli səriştələrə malikdirlər. Fərqli səriştə səviyyələrinə malik olan tələbələri müxtəlif materiallardan eyni tapşırıqlar verməklə və ya səriştə səviyyələrinə uyğun olaraq eyni materialdan fərqli tapşırıq verməklə proqnozlaşdırmaq olar. Üstəlik, müxtəlif səriştə səviyyələri tapşırığı bitirməyin müxtəlif sürətlərinə səbəb olur. Tapşırığını daha əvvəl bitirə bilən yüksək səviyyəli səriştəli tələbələr üçün əlavə oxu və ya sadə tapmaca ilə təmin etmək, digər tələbələrin tapşırıqlarını yerinə yetirməsini gözləməkdən cansıxıcılığını aradan qaldıra bilər. Bununla belə, əlavə fəaliyyət stimullaşdırıcı olmalıdır. Əgər darıxdırıcı olarsa, tələbələr erkən bitirməkdən çəkinəcəklər.

Üçüncüsü, tələbələr ingilis dilindən istifadə etməkdən çəkinirlər. Dərsdə həmişə ana dilindən istifadə edən tələbələr üçün gözlənti, onlara ingilis dilində cavab verməkdir. Bu, ingilis

mühiti yarada, onları ingilis dilindən öyrənmə prosesində istifadə etməyə təşviq edə və lazımi rəy verə bilər. Bundan əlavə, bu, onları ingilis dilindən istifadə etməyin faydaları haqqında düşünməyə təşviq etməklə edilə bilər.

Dördüncüsü, yerli mədəniyyət ingilis dilinin sinif daxilində və hətta xaricində istifadəsini dəstəkləmir. İnsanlar uyğun olmayan vəziyyətdə ingilis dilində danışsalar, ingilis dili bacarıqlarını nümayiş etdirmiş sayılırlar. İngilis dili müəllimləri öz tələbələrinə, əsasən forma və ya qrammatikaya yiyələnmək deyil, ingilis dilində səlislik və dəqiqlik əldə etmək üçün xəbərləri müvafiq forma və ya qrammatika ilə çatdırmaq üçün dil səriştəsinin ünsiyyət zamanı istifadə olunduğu atmosferə gətirməlidirlər. Beləliklə, tələbələr öz fikirlərini və ya fikirlərini ingilis dilini sinif daxilində və ya xaricində ifadə etməyə daha çox həvəsli olacaqlar. Bu mədəniyyət problemini şagirdlərə motivasiya verməklə də təxmin etmək olar ki, dil öyrənməyin ən vacib hissəsi düzgün formadan istifadə etmək deyil, xəbəri hədəf dillə çatdırmaq bacarığıdır. Bundan əlavə, tələbələri dil öyrənməyin mahiyyətindən daha çox xəbərdar olmağa həvəsləndirmək dilin necə istifadə oluna bilməsidir, ona görə də dostları ünsiyyət üçün sinif daxilində və ya xaricində ingilis dilindən istifadə edərlərsə, tələbələr qəribə hiss etməməlidirlər.

Ünsiyyət dili

Öyrənmə yanaşması dilin tədrisi prosesində müvafiq yanaşma tələbinə cavab olaraq yaradılmış məhsuldur. ELT-də CLT-nin tərifini, xarakteristikasını və yaranma amillərini başa düşməklə, ümid edirik ki, bu yanaşma ingilis dili öyrənənlərin ehtiyaclarını qarşılaya bilər.
Bununla belə, ELT-də metodlar/yanaşmalar haqqında biliklər ingilis dili müəllimlərinə tədrisdə texnika repertuarını genişləndirməyə kömək edir. ELT siniflərində ən yaxşı metodu/yanmanı tapmaq üçün bu prosesdə ingilis dili müəllimləri peşəkar inkişaf üçün əlavə imkanlar əldə edəcəklər.

Aydındır ki, bəzi müəllimlər yeni prinsipləri əyləndirməklə deyil, tələbələri üçün ən yaxşı metodu/yanmanı sınamaqla ELT-də mövqelərini möhkəmləndirəcəklər. Bunun əksinə olaraq, onun tənqidlərinə və sinifdə tətbiq edilən problemlərin tətbiqinə əsasən, bəzi yeni yanaşmalar, məsələn, Task-Based Language Learning (TBLL) və Computer Assisted Language Learning (CALL) İngilis dilinin tədrisində yeni istiqamətə əsaslanmışdır. Pedaqoqlar və dilçilər daima zamana uyğun yanaşma tapmaq üçün təkmilləşirlər.

Ədəbiyyat

1.Brown, H. D. (2007*). Teaching by principles: an interactive approach to language pedagogy.* Englewood
Cliffs, NJ: Prentice Hall Regents.

2.Galloway, A. (1993). Communicative language teaching: An Introduction and Sample Activities. *ERIC Digest*, ED357642.

3.Graves, K. (2000). *Designing language courses: A guide for teachers.* Boston: Heinle & Heinle.

3.Hayati, M. (2007). Teaching English for Special Purposes in Iran: problems and Suggestions. *Arts and Humanities in Higher Education, 7*(2), p.147-169.

4.Hymes, D. (1971). 'Competence and performance in linguistic theory' in R. Huxley and E. Ingram (eds.). *Language Acquisition: Models and Methods*. London: Academic Press.

5.Kaisheng, H. (2007). Reconsideration on CLT in College English: Theory and Practice. *Canadian Social Science, 3*(1), p.87-90.

6.Larsen-Freeman, D. (2001). *Techniques and principles in language teaching.* New York: Oxford University Press.

7.Littlewood, W. (1981). *Communicative Language Teaching.* Cambridge: Cambridge University Press.

8.Littlewood, W. (2000). *Foreign and Second Language Learning.* Beijing: Foreign Language Teaching and Research Press.

9. Nunan, D. 1999. *Second language teaching and learning*. Boston: Heinle & Heinle.


## XÜLASƏ

Məqalənin əsas məqsədi və obyekti CLT-nin yaranması və formalaşdırılmasl, CLT-nin qarşısına qoyulan məqsədləri, CLT-nin dərs mühitində tədrisi, üstünlükləri araşdırılmışdır. Ümumilikdə kommunikativ dil tədrisi metodu (CLT) haqqında elmi-nəzəri fukitlərntəhlil olunmuş və ümumiləşdirmələr aparılmışdır.

***Açar sözlər:*** *Ingilis dilinin tədrisi, kommunikativ dilin tədrisi*

## SUMMARY

The main goal and object of the article is the creation and formation of CLT, the goals of CLT, the teaching of CLT in the classroom environment, and its advantages have been investigated. In general, the scientific-theoretical facts about the communicative language teaching method (CLT) were analyzed and generalizations were made.

***Key words: English*** *Language Teaching, Communicative Language Teaching.*

## РЕЗЮМЕ

Основной целью и объектом статьи является создание и формирование CLT, исследованы цели CLT, преподавание CLT в аудиторной среде, а также ее преимущества. В целом были проанализированы научно-теоретические факты о коммуникативном методе обучения языку (КИЯ) и сделаны обобщения.

***Ключевые слова:*** *Преподавание английского языка, Обучение коммуникативному языку.*


## KIMYA FƏNNINƏ MARAĞIN FORMALAŞMASI PROBLEMININ KIMYA TƏDRISINDƏ TƏLIMIN HƏYATLA ƏLAQƏ PRINSIPININ REALLAŞMASI

**Əliyeva Nərmin İlham qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Son illərdə müasir insanın həyatında kimyəvi maddələrdən və məhsullardan getdikcə daha çox istifadə etməsinə baxmayaraq, orta məktəb şagirdlərində kimya fənninə marağın azalması müşahidə olunur. Eyni zamanda, kimya fənnini öyrənmək üçün ayrılan saatların sayı azalır və öyrənilən materialın həcmi artır. Müasir bir insan üçün kimyəvi biliklərə ehtiyac və öyrənilən materialın praktik həyat üçün əhəmiyyətini anlamamaq arasında bir təzad var. Bu gün kimya tədrisi praktikasında mövcud olan ilkin mərhələdə mövzunun öyrənilməsinin nəzəri səviyyəsinin artması ilə məntiqi düşünmə qabiliyyətinin kifayət qədər formalaşmaması arasındakı ziddiyyət şagirdkərin mövzuya marağının kəskin azalmasına səbəb olur. Buna görə şagirdlərin kimyəvi maddələrdən istifadə mədəniyyətini, bu maddələrlə şüurlu və təhlükəsiz işləmə vərdişlərini, yaradılan bəzi yaşayış məntəqələrində ekoloji normaları və davranış qaydalarını formalaşdırmaq ehtiyacı kimyanın əsas vəzifəsidir.

Məktəblilərin kimya fənninə marağının inkişafı, onların idrak fəaliyyəti, müstəqillik və həyatla əlaqə prinsipinin tədrisdə istifadəsinə əsaslanan maraq, müasir məktəbin ən vacib vəzifəsidir. Bu məsələyə metodik ədəbiyyatda və müasir ümumtəhsil məktələrinin praktikasında böyük diqqət yetirilir.

Buna əsasən ümumtəhsil müəssisələrində tədris olunan kimya fənninin həyatla əlaqələndirilməsi problemi və bu problemin aradan qaldırılması üçün bir sıra təkliflər irəli sürülmüşdür. Sağlam həyat tərzi formalaşdırmaq və sağlamlığı möhkəmləndirmək günümüzdə cəmiyyətin əsas tələbidir. Kimyanın məzmun xətlərindən sonuncusu olan kimya və həyat məzmun xətti üzrə sagirdlər ətraf mühitə zərərli təsir göstərən maddələrlə tanış olur, sənaye və məişət tullantılarının, kənd təsərrüfatı sahələrində istifadə olunan kimyəvi

maddələrin sağlamlığa və mühitə göstərdiyi mənfi təsiri araşdıraraq, ekoloji problemlərin həllində iştirak edir, ekoloji təmiz mühitin qorunasını dərk edir və yaranan  və yaxud mövcud olan prblemlərin  aradan qaldırılması yollarını izah edir. Həmçinin özü üçün lazımlı bilik, bacarıq və vərdişlər əldə edir.

Təbiət elmləri, xüsusilə də kimya dərslərinin həyatla əlaqəsini nəzərə alaraq  fənnin tədrisini həyata keçirmək, şagirdlərin bu fənnə marağını artirmaq müəllimin başlıca vəzifələrndən biridir. Təlimçi fənnüstü inteqrasiyadan istifadə etməklə kimyanın həyatımızda rolunu şagirdlərə çatdıra bilər. Əsasən fəal dərsin 1 ci mərhələsi olan motivasiyada adətən müəllim fənnüstü inteqrasiyadan istifadə edir. Amma fəal dərsin digər mərhələlərində də müəllim bir sıra təlim üsullarından istifadə edərək fənnüstü inteqrasiyanı təmin edə bilər. Bu şagirdlərdə kimya fənninə maraq oyadar və onların diqqətini kimya fənninə  yönəldər. Məsələn: müasir təlim texnologiyası kimi REACT modelindən və ya digər bir çox təlim modellərindən  istifadə etmək məqsədə uyğundur. Bu modellər və işimdə tətbiq edəcəyim digər modellər , kimya fənninin təlimində əldə olunan təcrübələrlə bərabər praktik həyatla əlaqəsi prinsipinn reallaşdırillması deməkdir.

Ümumitəhsil məktəblərində  tədris olunan kimya fənni təliminin həyatla əlaqələndirilməsində əsas məqsəd şagirdlərə kimyanın həyatımızda yerini, rolunu göstərmək, onun əslində nə qədər maraqlı olduğunu nümayiş etdirməkdir. Kimya dərslərində və məktəbdənkənar işlərdə həyatla əlaqəli materiallardan hərtərəfli istifadə kimyaya marağın formalaşması, eləcə də şagirdlərin sonrakı gələcək həyatı üçün vacibdır. Şagirdlər bunun sayəsində bu elmin yalnız kitablarda deyil, onun gündəlik həyatımızda da bizimlə birgə addımladığına şahid olmuş olacaqlarını təmin etmək bizim ən əsas vəzifəmizdir.

## COĞRAFİYA DƏRSLƏRİNDƏ PROBLEMLİ ŞƏRAİTİN QOYULMASI MƏRHƏLƏSİNİN DÜZGÜN HƏYATA KEÇİRİLMƏSİ

**Əliyeva Zeynəb Eldar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir təhsil sistemində fənlərin tədrisi zamanı dərsin daha effektiv keçirilməsi üçün 7 mərhələ mövcuddur ki bunların birincisi motivasiya və problemli şəraitin qoyulmasıdır.Mövzuya uyğun düzgün şəkildə motivasiya qurmaq müəllimlərdən böyük bacarıq və səriştə tələb edir.

Dərslərdə motivasiyanın düzgün qurulması ənənəvi dediyimiz dərs prosesindən fərqli olaraq tələbələrdə özünütəhrikə yol açır və bu dərsin sonrakı mərhələlərinin daha uğurlu keçməsinə və fəal dərs prosesinə zəmin yaradır.

Motivasiya və problemli şəraitin qoyulması metodikasının predmeti dərslərdə motivasiya mərhələsi zamanı metodlardan səmərəli istifadə yollarını öyrənməkdir.Motivasiya və problemli şəraitin yaradılması metodikasının obyektini isə istifadə olunan metodlar təşkil edir.

Hal-hazırda motivasiya və problemli şəraitin qoyulması metodikasının bir sıra problemləri vardır ki, bunlara aşağıdakıları misal göstərmək olar:

- Müəllimlərin bu metodikadan istifadə etmək bacarığının lazımi qədər mükəmməl olmaması
- Hər mövzuya uyğun, düzgün şəkildə metod seçilməs və s.

Bütün bu problemlərin həlli üçün bu məsələ üzərində dayanılmalı və həlli yolları tapılmalıdır.
Motivasiya və problemli şəraitin qoyulması metodikasının vəzifələri aşağıdakılardır:

- Müəllimlərdə bu mərhələdə müxtəlif metodlardan istifadə etmək qabiliyyəti formalaşdırmaq;
- Şagirdlərdə və tələbələrdə idraki fəallığa yönəlmiş təlim formalaşdırmaq;
- Şagirdlərdə və tələbələrdə diqqəti cəlb etmək ;

- Müəllimlərdə mövcud şəraitə uyğun motivasiya qurmaq bacarığı yaratmaq .

Motivasiya və problemli şəraitin yaradılması metodikasının məqsədləri:

- Müəllimlərə şagirdlərin və tələbələrin öyrəndikləri biliklərin lazımlılıq dərəcəsini bilməyi öyrətmək ;
- Dərs zamanı öyrədici mühiti necə yaratmağı məsləhət vermək;
- Müəllimləri lazımlı metodik vəsaitlə təmin etmək .

Coğrafiya fənnində bu metoddan istifadə üçün daha maraqlı yollardan istifadə etmək mümkündür. Diyarşünaslıq prinsipindən istifadə edərək hər şagirdin və tələbənin öz yaşadığı ərazilərdən misal gətirmələri və s . buna misal ola bilər.

Aşağıda coğrafiya 6-cı sinif Kainat və günəş sistemi mövzusunda motivasiya mərhələsi göstərilmişdir:

Motivasiya mərhələsini bu tapmacanı şagirdlərə ünvanlamaqla qurmaq olar:

Aləmə işıq salır,
Axşam gül kimi solur.

Daha sonra şagirdlərdən bu tapmacanın cavabını tapmaları deyilir.Şagirdlər bunun cavabının günəş olduğunu tapdıqdan sonra , günəş və günəş sistemi nədir və necə yaranır tədqiqat sualını ortaya qoya bilərik.

Bundan başqa şagirdlərə müasir təhsil avadanlıqları vasitəsilə ekranda günəş sisteminin şəklini göstərib , uşaqlar siz heç fikirləşmisiniz mi göy üzündə gördüyünüz ulduzlar günəş və digər səma cisimləri göy üzündə necə dayanır ?Və bundan sonra tədqiqat sualı formalaşacaqdır günəş sistemi və kainat nədir?

Ədəbiyyat

1.Oqtay Alxasov -Coğrafiyanın tədrisi metodikası Bakı 2013
2.Nərminə Seyfullayeva-Coğrafiyanın tədrisi metodikası Bakı 2011
3.https://nsportal.ru/shkola/geografiya/library/2021/11/23/sposoby-motivatsii-obuchayushchihsya-na-urokah-geografii
4.https://alphaprof.de/2023/03/motivation-unterricht-2/

## AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASINDA PROFESSOR A.ABDULLAYEVİN XİDMƏTLƏRİ

**Əlizadə Qumru Elşad qızı**
*Mingəçevir Dövlət Universiteti*

Azərbaycan dilinin tədrisi metodikası pedaqoji elmlər sisteminin əsasını təşkil edir. Dilimizin keçdiyi inkişaf yolu, Azərbaycan dili tədrisi metodikasının nəzəri əsasları, başqa elmlərlə əlaqəsi, tədqiqat metodları kimi sahələri öyrənir. Şagirdlərin bilik, bacarıq və vərdişlər əldə etməsinə şəraitin yaradılması, onların təlim müvəffəqiyyətlərinin qiymətləndirilməsi məsələlərini əhatə edir. Bununla yanaşı Azərbaycan dilinin ümumtəhsil məktəblərində tədrisi şagirdlərdə nitq mədəniyyətinin formalaşmasına da xidmət edir.

Azərbaycan dilinin formalaşma prosesi uzun və mürəkkəb inkişaf yolu keçmişdir. Dilimizin inkişafında söz sənətkarlarımız İ. Həsənoğlu, Nəsimi, M. Füzuli, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Şah İsmayıl Xətai və b. xüsusi rolu olmuşdur. Onların yaratdıqları əsərlər Azərbaycan dilinin incəliyini və gözəlliyini əks etdirməklə xalqın sevgisinə nail olmuşdur.

XX əsrin 50-ci illərindən Azərbaycan dili metodiki istiqamətdə yeniliklərlə yadda qalmışdır. Belə ki, Azərbaycan dilinin tədrisi metodikası elminin yaradıcısı, bir çox elmi-metodiki vəsaitlərin və dərsliklərin müəllifi olan professor A.Abdullayevin bu sahədəki tədqiqatları bunu sübut edir. Azərbaycanda metodika elminin əsasını qoyan alimlərdən olan A.Abdullayev, həm də ilk pedaqoji elmlər doktoru adına layiq görülmüş şəxslərdən biridir. Azərbaycan Dövlət Universitetində "Azərbaycan dilinin tədrisi metodikası" fənnindən dərs

deyən professor, 1942-ci ildə "Orta məktəbdə Azərbaycan dili tədrisi metodikası" adlı namizədlik dissertasiyası müdafiə etmişdir. Onun elmi yaradıcılığını – ibtidai siniflərdə ana dilinin tədrisi metodikası, qeyri-Azərbaycan məktəbləri üçün Azərbaycan dilinin tədrisi, orta məktəbdə Azərbaycan dilinin tədrisi, ədəbiyyat tədrisi, nitq mədəniyyəti və üslubiyyat kimi məsələlər təşkil edir. 1937-ci ildən sistemli olaraq Azərbaycan dilinin tədrisi məsələlərini özündə əks etdirən elmi əsərləri ilə orta məktəb müəllimlərinə yardım etmişdir. Yaradıcılığında ibtidai siniflərdə Azərbaycan dilinin tədrisi problemləri xüsusi yer tutan A.Abdullayev 1938-ci ildən III və IV siniflər üçün qrammatika və yazı qaydalarının yer aldığı dərsliklər də yazmışdır [3, səh.139].

1950-ci ilə qədər 9 dəfə çap olunan "Azərbaycan dili" kitabı IV siniflər üçün əlverişli vəsait idi. Azərbaycan dilinin tədrisi tarixi ilə bağlı apardığı tədqiqat da müəllifin yaradıcılığının əsas hissəsini təşkil edir. Dilimizin tədrisinin keçdiyi inkişaf yolunu araşdıran müəllif tədqiqatlarının nəticəsi olaraq 1958-ci ildə "Azərbaycan dilinin tədrisi tarixinə dair" adlı əsərini ərsəyə gətirmişdir. Bu kitabda dilin tədrisinin tarixi inkişaf prosesi ardıcıllıqla-lap qədim zamanlardan əsərin tərtib olunma vaxtına qədər bir dövrü əhatə edir.

İbtidai siniflərdə ana dilinin tədrisi metodikasının qarşısında duran vəzifələrin izah edildiyi "İbtidai siniflərdə ana dilinin tədrisi metodikası" dərsliyini isə 1962-ci ildə Y.Ş.Kərimovla birlikdə yazmışdır.

A.Abdullayevin nitq mədəniyyəti və üslubiyyat məsələləri ilə bağlı da araşdırması olmuşdur. 1961-ci ildə "Üslubiyyat məsələlərinin metodikası" adlanan dərs vəsaitində üslubiyyat məşğələlərinin keyfiyyətli şəkildə təşkili, şagirdlərin öz fikir və düşüncələrini sərbəst ifadə edə bilmək bacarığının formalaşdırılması məsələləri şərh edilmişdi.

Bundan başqa onun 1966-cı ildə "Müəllimin nitq mədəniyyəti haqqında" kitabı nəşr olunmuş və Azərbaycanda nitq mədəniyyəti məsələlərinin tarixi, müəllimlərin nitqinə verilən əsas tələblər, şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi kimi məsələlər bu kitabda yerini almışdır. 1936-cı ildən 1983-cü illərə qədər əsərlərinin xronoloji ardıcıllığına nəzər salsaq müəllifin elmimizə saysız hesabsız töhfələr verdiyini görə bilərik.

Sonralar ADPU-nin müəllimi olan Nazilə Yusifovanın 2008-ci ildə nəşr olunan "Ağaməmməd Abdullayevin həyat və yaradıcılığı" adlı kitabında professorun elmi yaradıcılığının bütün istiqamətləri haqqında geniş məlumat verilmiş və dəyərli fikirlər öz əksini tapmışdı [3, səh.145].

**Ədəbiyyat**


1. Abdullayev A.S. "Üslubiyyat məşğələlərinin metodikası", Bakı, Azərnəşr- 1961
2. Balıyev H. "Məhsuldar alim, xeyirxah insan Ağamməd Abdullayev-90". Xatirələr, Bakı, "Ozan", 1999
3. Məmmədova A. "Azərbaycan dilinin tədrisi tarixi", Bakı-2015


## MOTİVASİYANIN YARADILMASINDA MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN ROLU


**Əlizadə Nuray Əzim qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Ölkəmizdə təhsil sahəsində aparılan islahatlar bütövlükdə pedaqoji prosesin təşkilinə, xüsusilə müəllimin peşəkar hazırlığına yeni yanaşmaların, keyfiyyətlərin olmasını, təhsilin şəxsiyyətin inkişafına təsirinin yeni konteksdə araşdırılmasını zəruri edir. Müasir dövrdə orta məktəblərdə həyata keçirilən şəxsiyyətyönümlü təhsil dərsin yeni məzmunda təşkilini, şagirdlərə şəxsiyyət kimi yanaşmağı mühüm vəzifə kimi qarşıya qoymuşdur.

Çağdaş dünyada təhsilə münasibət yeniliyə açıq olduğu üçün, hər bir xalq öz

gələcəyini elmin inkişafına, gənclərin elmi potensialının formalaşmasına diqqət yetirir. Bu gün Respublikamızın təhsil sistemi keyfiyyətli və texniki cəhətdən müasirləşmiş, surətli, iqtisadi və sosial cəhətdən dəyişməkdə olan gerçəkliyə cavab verəcək kadrlar hazırlamaq üçün daim islahatlar aparır. İslahatların təsiri ilə dəyişməkdə olan orta təhsil yeni təlim sistemlərinin axtarışındadır. Bu elə sistemlər olmalıdır ki, gələcək mütəxəssislər qloballaşan, müxtəlif mədəniyyətlərin çarpazlaşmasından yaranmış məkanda real qarşılıqlı münasibətlərin daşıyıcısına çevrilsin. XXI əsrin özü ilə gətirdiyi yeni düşüncə tərzi, dünya dərki, hadisələrə baxış şagirdin keyfiyyətinə çevrilməli və ona məhsuldar işləməyə imkan verməlidir.

Qeyd edə bilərik ki, bu gün müasir cəmiyyətdə baş verən dəyişikliklərin özəyini təhsil və ona münasibət təşkil edir. Belə ki, insanın qarşısına qoyduğu məqsədə çatması üçün bir çox amillər mövcuddur ki, bunun üçün onun məqsədilə bərabər hədəfləri mütləqdir. Ən əsası onu bu hədəfə aparan, onu məqsədə yönləndirən və təhrik edən motivlər birliyi düzgün seçilməlidir ki, burada müəllim-şagird münasibətləri düzgün qurulsun. Bəllidir ki, insanın uğurlarının səbəbi təkcə onun bilik və bacarığından asılı deyil, bu, həm də onun şəxsi motivlərindən asılıdır. Motivatsiyası olmayan insan, bir iş görməkdə həvəssiz olur, tənbəllik edir, qarşısına qoyduğu işdə uğur qazana bilmir və çox təəssüflər olsun ki, bir çox hallarda işləri yarımçıq buraxır. Pedaqoji təcrübələr göstərir ki, insanın motivasiyası nə qədər güclü olarsa, onun fəaliyyəti də bir o qədər uğurlu alınar.

Elmi yanaşmalar göstərir ki, müəllim-şagird münasibətləri motivasiya sayəsində daha uğurlu alınır. Müəllim-şagird münasibətləri gərək düzgün qurulsun ki, şagirdlərdə təlimdə fəallıq göstərsinlər, onlarda yeni-yeni motivlər yaransın, öyrədilən tərəf qarşısına qoyduğu uğura çata bilsin, necə deyərlər hər iki tərəf müsbət nəticə əldə etsin.Pedaqoji-psixoloji təhlillər göstərir ki, motivlərin öyrənilməsi məsələsi kifayət qədər çətin prosesdir. Bu işdə təhsil və təlimin keyfiyyətinin artması istənilirsə, onda bu problemin həlli yollarının tapmaq gərəkdir.

Qeyd etmək lazımdır ki, motivasiya anadangəlmə olmur, o qazanılan keyfiyyətdir. Öyrədən və öyrənənin qarşılıqlı iş prosesində müsbət motivasiya yaranır və daha effektli olur. Müəllimin səriştəliliyi, peşəkarlığı, ustalığı motivasiyanı inkişaf etdirən əsas vasitələrdəndir. Öyrənmə prosesində yüksək motivasiyanın əldə edilməsi təlimdə və gələcək həyatda uğur qazanmaq üçün vacibdir.

Elmi yanaşmalara görə hər bir tədqiqatı, elmi məqaləni başlamaq üçün problemi, onun məqsəd və vəzifələrin müəyyənləşdirmək lazımdır. Bəllidir ki, əsl problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün ilk növbədə tədqiqat sualı formalaşdırılmalıdır. Məhz tədqiqat sualı yeni biliklərin kəşfinə aparan bələdçi, istqamətləndirən rolunu oynayır. Fəal təlimin birinci mexanizminə əsasən məhz problemin olması idrak fəallığının yaranmasının başlıca açarı olur.

Belə bir sual ortaya çıxır, bəs nə üçün biz dərsin bu mərhələsini motivasiya adlandırırıq? Psixoloji amil kimi motivasiya hər hansı fəaliyyətin başlanılması üçün hərəkətverici, simullaşdırıcı qüvvə rolunu oynayır. Motivasiya qismində ortaya gətirilmiş problem və onun həlli tələbatı fəal dərsdə təfəkkür prosesini işləməyə sövq edən və uşaqların idrak fəallığını artıran amil kimi meydana çıxır.

Təlim fəaliyyəti üçün motivasiyanın formalaşdırılması problemi bir çox nəzəriyyələrdə və yanaşmalarda öz əksini tapmışdır. Motivasiya haqqında nəzəriyyələrə xarici alimlərdən J.Piaje, E.Erikson, A.Maslau, J.Bruner, A.Bandura, A.N.Leontyev, E.P.İlyin, A.K.Markova və digər görkəmli alimlərin əsərlərində rast gəlinir. Motivasiya həmişə öyrənmə failiyyətinə bağlı olmuş və bu vəzifəni daşımışdır. Azərbaycanın pedaqoq və psixoloqlarından M.Mehdizadə, H.Əhmədov, N.Kazımov, F.Rüstəmov, R.Hüseynov, Ə.Əlizadə, Ə.Bayramov, M.Həmizəyev və başqaları şagirdlərin inkişafında, onların şəxsiyyət kimi formalaşmasında motivasiyanın rolu haqqında araşdırmalar aparmışlar.

A.Məmmədov yazır: “Təlim yetişdirilən nəslə bəşəriyyətin ictimai təcrübəsinin məqsədə və planauyğun şəkildə verilməsindən, onlarda bilik, bacarıq və vərdişlərin formalaşmasından ibarət olan xüsusi mütəşəkkil fəaliyyət prosesidir” [1.s.181]

Alimlərin qənaətinə görə tədris prosesi elə təşkil olunmalıdır ki, öyrənmə fəaliyyətindən özünüinkişaf fəaliyyətinə keçid təmin edilsin. Nəticə ehtibarı ilə, əgər müəllim sinifdə rahat şərait, demokratik mühit yaradarsa şagirdlər də bir o qədər dərsə motivasiya olar, dərsdən uğurlu nəticə əldə olunar, müəllimin sinifdən gözləntiləri öz yerini tapar.

Şagird təlim fəaliyyəti prosesində problemlərin həllini mənimsədiyi üçün müasir öyrədənin vəzifəsi fənnin məzmunu vasitəsilə təhsilə dəyərli münasibət formalaşdırmaqdır. Fənnin məzmunu deyərkən müəllimin öyrətmə prosesində şagirdə hər hansı bir şəkildə çatdıracağı elmi informasiyalar başa düşülür. Təlim prosesində şagirdlər ümumiyyətlə öz öyrənmə motivasiyalarının səviyyəsinə təsir edən fəaliyyətlərinə daha çox məsuliyyətlə yanaşırlar və öz üzərlərində cavabdehlik hissini formalaşdırırlar.

Məktəblərdə təlim və tədrisin düzgün yerinə yetirilməsi şagirdlərdə bir çox bacarıq və vərdişlərin formalaşmasına gətirib çıxarır. Müasir şagird öz dünyagörüşü və biliklərini inkişaf etdirməyi, ünsiyyət yaratmağı bacarmalıdır. Bu məqsədlə işlədilən ən yaxşı metodlardan biri Kommunikativ təlim metodudur. Bu metodun müəllim tərəfindən düzgün həyata keçirilməsində şagirdin şifahi şəkildə eşitdiyini və oxuduğunu başa düşməsi, öz fikrini şifahi və yazılı ifadə edə bilməsi, şagird və müəllim arasında danışıq fəaliyyətinin həyata keçirilməsi, şagirdlərin dil və nitq bacarıqları üzərində iş apara bilmələri, onları dəyişmək, qısaltmaq, başqa şəkildə ifadə etmək vərdişləri əsas rol oynayır.

Müəllim-şagird münasibətlərində mühüm sayılan motivasiya mənbəyi şagirdləri ruhlandırmaqdır və bu onlar üçün ən gözəl hədiyyə sayılır. Müəllim şagirdləri onlarda olan potensiala inandırmağı bacarmalı və onun nailiyyətlərini auditoriyada elan etməkdən çəkinməməlidir. Müəllimlər üçün şagirdlərini yaxşı tanımaq sadəcə onların ad və familyalarını yadda saxlamaq deyildir, şagirdlər bilməlidir ki, müəllim onların uğurunu gözləyir və buna sevinir. Uşaqlar bunu hiss etdikləri zaman daha da motivasiyalı olur və verilən tapşırıqlara həvəslə yanaşır, öz üzərində çox çalışır. Şagirdlər anlamalı və hiss etməlidirlər ki, müəllim öyrətməyi nə qədər çox sevir, onların hər bir uğuruna onlar qədər sevinir və bu zaman onlar da öyrənməyə motivasiyalı olacaqlar.

“Təlimdə başlıca məqsəd alınmış məlumatları ancaq yadda saxlamaq deyil, həm də, onun əvvəlki məlumatla qarşılıqlı əlaqəsini başa düşməkdir. Şagird müəllimin qoyduğu suallara cavab tapmağı öyrənməlidir. Bu şagirddən fəal, yaradıcı iş, alınmış məlumatı təhlil etmək bacarığı tələb edir. Bunun üçün müəllim dərs keçərkən həmişə problemli situasiya yaratmalıdır. Bu isə şagirdi dərsi düşünülmüş şəkildə qavramağa məcbur edir”[ 2.s.14].

Müəllimlərin şəxsi və peşə keyfiyyətləri şagirdlərin bilik və vərdişlərinin yiyələnməsində mühüm amil sayılır. Bir çox pedaqoq və psixoloqlar müəllim-şagird münasibətlərində müəllimin nitqinin motivasiya prosesində yerini yüksək qiymətləndidrlər. Bildirilir ki, dərs prosesində ilk növbədə müəllimin rəvan, axıcı, pozitiv nitqi,nitqindəki pauzalar, təsirediciliyi şagirdlərin diqqətini çəkir, dərsə motivasiya olunmaları üçün açar rolunu oynayır. Məllimin nitqindəki hiss və emosiyalar uşaqları valeh etməli, mövzuya uyğun cəlbediciliyi olmalıdır.

“Müəllimin nəqli,izahı və şərhi şagirdi formalaşdırmırsa, onları kütləşdirir, dərsə qarşı laqeyidlik yaradır və şagirdlərin inkişafını ləngidir”[2.s.143].

Müasir dərsinin əvvəlki dərslərdən fərqləndici xüsusiyyəti onun şagirdyönümlü olmasıdır. Şagirdyönümlü təlim şagirdi fikirlərini sərbəst şəkildə ifadə etməyə yönləndirir. Müəllimin rolu isə şagirdə özünüifadə üçün vacib olan bilik və bacarıqları vermək, onu istiqamətləndirməkdir.

“Uşağın diqqətinin bütün növləri və xassələri qarşısına təlim fəaliyyəti yüksək tələblər qoyur. Təlim prosesinin müvəffəqiyyəti üçün əsas şərtlərdən biri olan diqqət elə həmin

prosesin özündə təşəkkül tapır. Təlim fəaliyyətinin ixtiyari diqqətin tərbiyəsi üçün xüsusilə böyük əhəmiyyəti vardır. Dərsdə uşaqların diqqətinin cəlb olunması və saxlanlmasında, bununla yanaşı, diqqətliliyin onlarda şəxsiyyətin keyfiyyəti kimi tərbiyə edilməsində tədris prosesinin düzgün təşkili böyük rol oynayır" [5.s.576].

Müəllimuşaqlarda motivasiya yaratmaq üçün dərsdə qısa heykayələrdən, ibratamiz kəlamlardan, folklor nümunələrindən, adət-ənənəldən, milli qəhrəmanlıq salnamələrdən istifadə etməyi bacarmalıdır. Müəllimin tələbkar olduğu qədər də yumor hissinə malik olması qarşı tərəfin motivasiysında mühüm əhəmiyyət daşıyır. Çünki, məntiqi təfəkkürün formalaşması prosesində müəllimin şagirdlərini necə motiasiya etməsi birbaşa müəllimin yaradıcı təfəkkürünə dəlalət edir.

"Pedaqoji ünsiyyət müəllimin şagirdlərlə təlim və tərbiyə prosesində həyata keçirdiyi peşə ünsiyyətidir. Bu cür ünsiyyət hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması üçün şərait yaradılmasına yönəlmiş olur, kollektivdəki sosial-psixoloji posesləri idarə etməyə və səmərəli psixoloji iqlim yaratmağa imkan verir"[4.s.156]. Hər bir müəllimin pedaqoji ünsiyyətin mahiyyətini, onun sosial-psixoloji mexanizmilərini dərindən öyrənməsi və şagirdlərlə birgə fəaliyyəti zamanı ondan lazımi şəkildə istifadə etməsi çox vacibdir.

**Ədəbiyyat**


1. Abbasov A.N., Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2013, -324səh.
2. Məmmədov A.U. Bakı:Psixologiya. "Elm və təhsil", 2012, -792 səh.
3. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı: "Elm və təhsil", 2010. -464 səh.
4. Həmizəyev M.Ə., Əmiraslanova S.F. Ünsiyyətin psixologiyası. Bakı: Nurlan, 2007. -180 səh.
5. Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya. Bakı: -2007, 700 səh.


**XÜLASƏ**


Elmi məqalədə göstərilir ki, təlim fəaliyyətində şagirdlərin öyrənmə maraqlarının təmin edilməsi üçün kifayət qədər metod və priyomlardan istifadə imkanları mövcuddur. Belə ki, təlim fəaliyyəti yalnız biliklərin verilməsi və əldə edilməsi funksiyası ilə məhdudlaşmır. Təlim həm də, stimul vermək və öyrənmənin idarə edilməsi funksiyalarını da yerinə yetirir. Öyrənmə prosesində bu və ya digər metoddan istifadə müxtəlif priyom və yollarla aparılır. Onların seçilməsi isə müəllimin dərsə hazırlaşmasından, məqsədlərindən, öyrənənlərin və eyni zamanda öyrədənlərin hazırlıq səviyyəsindən asılı olur.

Məqalədə həmçinin göstərilir ki, müəllimin bu metod və priyomlardan istifadə etməsi şagirdləri motivasiya etmək funksiyası da daşıyır. Odur ki, belə metodlar öyrənənlərin motivasiya olunmasına təsir etmək imkanına malik olur.


**SUMMARY**


The article shows that there are enough opportunities to use methods and principles to satisfy the learning interests of students in the educational process. Thus, the training activity is not limited only to the function of imparting and acquiring knowledge. Training also serves the functions of providing incentives and managing learning. In the learning process, each method is used in different ways. Their choice depends on the teacher's preparation for the lesson, his/her goals, and the level of preparation of the learners and the teachers at the same time.

The study also highlights that the teacher's use of these methods and principles has the function of motivating students. Therefore, such methods have the ability to influence the motivation of learners.


**РЕЗЮМЕ**


В научной статье показано, что возможностей использования методов и принципов, которые отвечают учебным интересам обучающихся в учебной

деятельности, достаточно. Таким образом, обучающая деятельность не ограничивается только функцией передачи и приобретения знаний. Обучение также выполняет функции стимулирования и управления обучением. В процессе обучения тот или иной метод используется по-разному. Их выбор зависит от подготовки учителя к уроку, его целей, а также уровня подготовки учащихся и учителя одновременно.

Также в статье показано, что использование учителем этих методов и принципов имеет функцию мотивации учащихся. Следовательно, такие методы обладают способностью влиять на мотивацию обучающихся.

## ALİ MƏKTƏBLƏRDƏ TÜRK XALQLARI VƏ DÖVLƏTLƏRİ TARİXİ KURSUNUN TƏDRİSİNDƏ MULTİMEDİA TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN İMKANLARI

**Əsgərova Səbinə Vüqar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

XX əsrin sonu-XXI əsrin əvvəllərində bəşəriyyət özünün inkişafının yeni mərhələsinə - informasiya erasına qədəm qoydu. Bununla əlaqədar insan həyatının bütün sahələrində köklü dəyişikliklər baş vermişdir. Respublikamızın təhsil sistemini dünya təhsil sisteminə inteqrasiya etmək üçün aparılan islahatlar özündə iki istiqaməti birləşdirdi:

1. Ənənəvi təhsil sisteminin yeniləşdirilməsini və yeni fənn kurikulumlarının tətbiqini;
2. Təhsil sisteminin müasir komputer texnologiyaları ilə təminatını.

Bütün dünyada ictimai-iqtisadi inkişaf tempi artdıqca ali məktəblərdən məzun olmuş kadrların yüksək dərəcədə ixtisaslaşmasına ehtiyac da artır. Müasir dövrdə təhsil sisteminin qarşısında duran əsas məsələ cəmiyyətin gündən-günə artan tələblərinə cavab verən mütəxəssislər yetişdirməkdir. Bu gün ali təhsil müəssisəsinin uğurları tələbələrə elmi bilikləri keyfiyyətlə verməklə kifayətlənmir. Universitet məzunu nəinki öz ixtisasını mükəmməl şəkildə bilməli, həmçinin multimedia texnologiyalarından istifadə etməyi və onu öz fəaliyyətinə tətbiq etməyi bacarmalıdır [1,s.28-31].

Pedaqogikanın sahəsi olan didaktika özündə bir sıra xüsusiyyətləri ehtiva edir. Buraya təlimin təşkili formaları, təlim üsulları, təlimin məqsədi ,təlimin aparılması qaydaları, müəllim, şagird, təlim texnologiyaları daxildir. Didaktika nə öyrətməli, necə öyrətməli, kim öyrətməli, harada öyrətməli suallarına cavab axtarır, təlim prosesinin düzgün aparılması qaydalarını, öyrədən və öyrənən arasındakı qarşılıqlı əlaqəni öyrənir.

Müasir ali təhsil sisteminin əsas vəzifəsi tələbənin yaradıcı aktivliyinin, hazırcavablığının, təşəbbüskarlığının və peşə sahəsinə adaptasiya olmaq bacarığının inkişafını təmin edə biləcək pedaqoji şəraitin yaradılmasıdır. Ali təhsil müəssisələrinin dinamik inkişafını təmin edə bilən mütərəqqi pedaqoji texnologiyaların işlənməsi və tətbiqi təhsil sisteminin əzəli prioritetlərindəndir. Pedaqoji texnologiya anlayışı tədris-tərbiyə vasitələri, üsul və formalarının müəyyən düzümünü və əlaqələrini müəyyən edən psixoloji-pedaqoji təsisatlar məcmusunu əhatə edir. Pedaqoji texnologiya bir tərəfdən ən rasional tədris üsullarını tədqiq edən elm, digər tərəfdən isə təhsil prosesinin prinsipləri, üsulları və tənzimləyici sistemləri kimi fəaliyyət göstərməlidir [2,s.73-75].

Beynəlxalq praktikada bir sıra mütərəqqi pedaqoji texnologiyalar, o cümlədən: şəbəkə texnologiyası, kollektiv istifadə mərkəzləri, informasiya-kommunikasiya texnologiyaları, şəxsiyyət yönümlü texnologiyalar, tədqiqat yönümlü texnologiyalar, intellekt-kart texnologiyası, "portfolio" texnologiyası, "keys" texnologiyası, modul texnologiyası, "debat" texnologiyası, pedaqoji emalatxana və ustad-sinif texnologiyası, reytinq texnologiyası, pedaqoji dizayn texnologiyası və s. geniş tətbiq tapmışdır. [4].

Azərbaycanda yerləşən 50-dən çox ali təhsil müəssisəsinin 10-dan artığında Tarix fakültəsi vardır. Onların hər birində türk xalqlarının tarixi ayrıca fənn kimi 45,60 və ya 75 saatlıq dərs periodu müddətində tələbələrə aşılanır. Multimedia texnologiyalarından istifadə

ümumtəhsil məktəblərinin tarix kurslarının davamedici forması kimi, ali təhsil müəssisələrində də davam etməlidir. Multimedia texnologiyalarından yalnız türk xalqları tarixi kurslarının tədrisində deyil, ümumiyyətlə tarix ixtisasının digər fənnlərinin tələbələrə çatdırılmasında istifadəsi öyrənənlərdə aşağıdakı üstün keyfiyyətləri ortaya çıxarır:

- Mütəmadi şəkildə tədris prosesində nəzəriyyələr və hipotezlər yenilənir;
- İnternet savadlılığı proqressiv şəkildə inkişafda olur;
- Fərqləri aşkara çıxarmaq və müqayisə etmək imkanı verilir;
- Mənbələri müqayisəli formada təhlil etmək imkanı yaranır;
- İqtisadi-praktiki yanaşmağa tələbələri məcbur edir;
- Liberal-demokratik düşüncənin və strukturun möhkəmlənməsinə şərait yaranır;
- Ən yeni informasiyalara çıxışın təmin edilməsinə fürsət yaranır.

Tələbələrlə iş zamanı multimedia texnologiyasından istifadənin zərərli tərəflərindən qaçmağa da çalışılmalıdır. Tezisdə bu zərərli tərəfləri aşağıdakı formalara ümumiləşdirmək olar:

- Komputer texnologiyası həyatımızın ayrılmaz hissəsinə çevrilsə də, hərkəs üçün əlçatan deyil;
- Türk xalqlarının tədrisində didaktik cəhətdən varislik prinsipi gözlənilməlidir, əks halda mənfi nəticələri olacaqdır;
- Tələbələrlə iş zamanı həddən artıq multimedia vasitələrindən istifadə onların sağlamlığı üçün zərərli ola bilər;
- Auditoriyada multimedia texnologiyasından istifadə tələbənin fəallığı ilə müşayiət olunmalıdır, əks halda tədris prosesi üçün effetktiv olmayacaqdır [3,s.33-39].

Ədəbiyyat


1. Məlikov R., Nəcəfli T. Tarixin interaktiv təlimi. Müəllimlər üçün metodik vəsait. Bakı, "Çaşıoğlu", 2002, s.128.
2. Yalavuz G. Türkiyede tarih öğretiminde aktiv yöntemin uygulanışı. İzmir, 2006, s. 105.
3. Bolin, G. Cultural Technologies: The Shaping of Culture in Media and Society. London,Routladge,2012, s.31-46.
4. [Elektron resurs] 2013. URL: http://anl.az/down/meqale/az_muellimi/2013/iyun/315548.htm


## ŞAGİRDLƏRİN YARADICILLIQ QABİLİYYƏTİNİN İNKİŞAFINDA LAYİHƏ METODUNUN ROLU


**Əsgərzadə Ləman Xaliqqızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Müasir təhsil sisteminin qarşısında duran əsas prioriter vəzifələrdən biri şagirdlərin tənqidi, yaradıcı qabiliyyətlərinin,öz bilik sistemini müstəqil qurmaq bacarıqlarının inkişaf etirilməsidir. Bu problemi həll etmək üçün yeni pedaqoji yanaşmalardan istifadə edilir. Onlardan biri də şagirdləri yaradıcıllığa,tədqiqatçılığa cəlb etməyi nəzərdə tutan layihələr metodudur.Bu metodun əsas vəzifəsi təcrübi problemlərin həlli zamanı şagirdin sərbəst şəkildə biliklər qazanmasına şərait yaratmaqdır.

Layihələr metodu ilkin yaradıcıllıq qabiliyyətini, əqli bacarıqları inkişaf etdirir. Bunlar inkişaf etmiş intellektin vacib keyfiyyətidir.

Layihə müəllimin təşkil etdiyi, şagirdlər tərəfindən müstəqil şəkildə reallaşdırılan,yaradıcı məhsulun hazırlanması ilə yekunlaşan fəaliyyətdir. Yaradıcıllığa və əməkdaşlığa diqqət edildiyinə görə fənlərarası interqasiya,real dünya problemlərinin həlli yollarının hazırlanması imkanı,əməkdaşlıq və ünsiyyətin inkişafı üçün kənar

şəxslərin(kitabxanaçı, təşkilatlar və s.)layihəyə cəlb edilməsi təlimin səmərəliliyini artırır. Layihə metodunda müəllim şagirdlərin layihə problemi haqqında təsəvvürlərini,şagirdlərin bir-biri ilə ünsiyyətini,onların fərdi xüsusiyyətlərini nəzərə almalıdır.Şagirdlərin layihə metodundan faydalanması üçün layihə mövzularının mürəkkəb olmasına ehtiyac yoxdur. Çox vaxt sadə layihələr şagirdlərə məzmun və praktika arasında əlaqə yaratmaq məqsədi ilə dəyərli imkanlar təmin etmək üçün kifayət edir.1.s.28

Şagirdlərin layihə fəaliyyəti ümümi məqsədə çatmaq,nəticə əldə etməyə, maddi məhsul yaratmağa yönəlmiş təhsil,idrak,yaradıcıllıq fəaliyyətidir. Layihə metodu həm şagirdlərin müstəqil olaraq yeni bilik və bacarıqlara yiyələnmələri,həm də onları praktikada tətbiq edə bilmələri üçün şərait yaradır.Burada əsas diqqət şagirdin yaradıcı inkişafına yönəlir.2.s.14

Yaradıcıllıq şəxsiyyətdə yaradıcı qabiliyyətin olması,bilik və bacarıqların praktikada tətbiqini nəzərdə tutur.Bunun nəticəsində öz yeniliyi,orijnallığı və unikallığı ilə fərqlənən məhsul alınır.Yaradıcı fəaliyyətin psixoloji şəraitini təmin etmək üçün əsas rolu oynayan biliklərin həcmi deyil,onun mənimsənilmə tipidir.Həmin tip mənimsənilmiş biliklərin istifadə üsullarını və genişliyini qabaqcadan müəyyən edir.Məktəblilərin layihə fəaliyyəti məhz özündə biliklərin mənimsənilmə tipini ehtiva edir. Tip biliyin müxtəlif fərqli birləşmələrdə öyrənmə imkanlarını meydana çıxarır. Bu zaman o məktəb fənləri arasındakı sərhədləri götürür və eyni zamanda,məktəbdə alınmış biliklərin real həyati situasiyalarda tətbiqi üçün zəmin yaratmış olur.

Layihə fəaliyyəti zamanı şagirdərlərdə yaradıcı qabiliyyətlər dedikdə təkcə orijnal məhsulun yaradılması deyil, həmçinin problemi müəyyən etmək, həll yollarını axtarmaq, proqnozlar vermək, fərziyyələr irəli sürmək,onları sınaqdan keçirmək, informasiyanın əldə edilməsi və onu yenidən təşkil etmək,məlum olan məlumatları sintez etmək,problemlə bağlı yeni həll yolları irəli sürmək və s. nəzərdə tutulur.

Müstəqillik təlim prosesinin ayrılmaz hissəsidir. Şagirdlərin müstəqil fəaliyyəti onların təşəbbüskarlığının inkişafina kömək edir. Layihə fəaliyyətində müstəqil iş üçün nəzərdə tutulan tapşırıqlar yaradıcı xarakter daşımalı, şagirdlərin motivasiyasını artırmalı, məqsədyönlü fəaliyyətə həvəsləndirməlidir. Bu zaman hər bir şagirdin müstəqil fəaliyyət göstərmək və yaradıcıllıq qabiliyyətlərinin inkişafı təmin edilir.3.s.10

Beləliklə,belə bir nəticəyə gələ bilərik ki,layihə metodu pedaqoji fəaliyyətin ən vacib elementlərindən biridir və şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafına təsir göstərir.Bu metod vasitəsi ilə şagirdlər komandada işləməyi,məlumat toplamağı,problemləri müstəqil həll etməyi,tətbiq etməyi öyrənirlər. Hətta layihə istənilən müsbət nəticə ilə tamamlanmasa da müsbət pedaqoji nəticənin mövcudluğu inkaredilməzdir, çünki səhvlərin dərk edilməsi şagirdləri təkrar fəaliyyətə motivasiya etməklə yanaşı öz fəaliyyətinə düzgün qiyməti formalaşdırmağa da sövq edir.

Ədəbiyyat:

1. N.T.Kızıltaş-Fen bilimleri dersi öğretiminde proje tabalı öğrenme.Muş-2017.s.151
2. A.M.Nəzərov-Müasir təlim texnologiyaları.Baki-2022.s.103
3. M.A. Ступницкая –“Что такое учебный проект?” Москва Первое сентября-2010 s.44

## MƏKTƏB RİYAZİYYAT KURSUNDA TƏRS FUNKSİYA ANLAYIŞI

**Fərzi Gülşad Umud qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Funksiya anlayışı məktəb riyaziyyat kusunun əsas anlayışlarından biridir. Şagirdlərin riyazi təfəkkürlərinin, idraki fəallıqlarının formalaşması və inkişafında funksiya və onunla bağlı anlayışlar əvəz edilməz rola malikdir.

Aparılan araşdırmalar göstərir ki, şagirdlərin funksiya və onunla bağlı anlayışları öyrənilməsi zamanı əsasən çətinlik çəkdiyi mövzulardan biri tərs funksiya və bəzi

funksiyaların tərs funksiyasının tapılması məsələsidir. Buna görə də tərs funksiya anlayışının və funksiyaların tərs funksiyasının tapılmasının dəqiq şərh edilməsini vacib hesab edirik. Əvvəlcə tərs funksiya anlayışının tərifini və onun mahiyyətini izah edək.

Aşağıdakı misalları nəzərdən keçirək.

Misal 1. $y = 2x + 6$ funksiyası arqumentin hansı qiymətində 10-a bərabər qiyməti alar?

Həlli. $y = 2x + 6$ düsturunda $y = 10$ qəbul edərək alınmış $2x + 6 = 10$ tənliyini həll edirik. Bu tənlikdən $x = 2$ alırıq. Deməli, $x = 2$ olduqda $y = 10$ olur.

Misal 2. $y = x^2 - 5x + 8$ funksiyası arqumentin hansı qiymətlərində 2-ə bərabər olar?

Həlli. $y = x^2 - 5x + 8$ düsturunda $y = 2$ yazaraq alınmış $x^2 - 5x + 8 = 2$ tənliyini həll edək. Buradan

$$x^2 - 5x + 6 = 0$$

kvadrat tənliyi alınır ki, onun da kökləri $x_1 = 2, x_2 = 3$ olur. Deməli, $x = 2$ və ya $x = 3$ olduqda $y = x^2 - 5x + 8$ funksiyası 2-yə bərabər qiymətini alır.

Beləliklə, alırıq ki, $y = 2x + 6$ funksiyası özünün hər bir qiymətini arqumentin yalnız bir qiymətində, $y = x^2 - 5x + 8$ funksiyası isə özünün $\frac{3}{4}$-dən başqa bütün qiymətlərini arqumentin iki qiymətində alır.

Qeyd edək ki, elə funksiyalar var ki, özünün hər bir qiymətini arqumentin hətta üç, dörd, beş və s. sonsuz sayda qiymətlərində də ala bilər.

*Tərif 1.* Özünün hər bir qiymətini arqumentin yalnız bir qiymətində alan funksiyaya tərsi olan funksiya deyilir.

Başqa sözlə, istənilən $x_1, x_2 \in X$ üçün $x_1 \neq x_2$ olmasından $f(x_1) \neq f(x_2)$ olması alınırsa, $f$ funksiyasına $X$ çoxluğunda tərsi olan funksiya deyilir.

Tutaq ki, $y = f(x)$ funksiyasının $D(f)$ təyin oblastında tərsi var.

*Tərif.* $f$ funksiyasının $E(f)$ qiymətlər çoxluğundan götürülmüş $y$-ə $f(x) = y$ şərtini ödəyən $x$ ədədini qarşı qoyan $x = g(y)$ funksiyasına funksiyasının *tərs funksiyası* deyilir. $f$ funksiyasının tərsi $f^{-1}$ ilə işarə edilir.

Tərs funksiya anlayışı məktəb riyaziyyat kursunun X sinfində tədris olunur. Burada tərs funksiya uyğunluğun köməyi ilə izah olunur. Lakin tərs funksiya anlayışını şagirdlərə izah etmək üçün dörd hesab əməlləri arasında qarşılıqlı tərs əməllərdən başlamaq daha məqsədə uyğun hesab edirik. Belə ki, şagirdlər artıq bilirlər ki, toplama və çıxma, vurma və bölmə əməlləri qarşılıqlı tərs əməllərdir. Verilən funksiyanın tərsi olan funksiyanı cəbri olaraq müəyyən etmək üçün əməllərin qarşılıqlı əlaqəsindən istifadə etmək olar. Məsələn, $f(x) = 2x$ funksiyasının tərsi $f^{-1}(x) = \frac{1}{2}x$ funksiyasıdır.

Başqa bir misalı nəzərdən keçirək. Məsələn, $f(x) = 3x + 2$ bu funksiya dəyişəni 3-ə vurub üzərinə 2 əlavə edir.




Tərs funksiya anlayışını daxil edərkən qarşılıqlı tərs funksiya anlayışının da izahını vermək vacibdir.

*Tərif 2.* Əgər $y = f^{-1}(x)$ funksiyası $y = f(x)$-in tərsi olduqda, $y = f(x)$ funksiyası da $y = f^{-1}(x)$ funksiyasının tərsi olarsa, f və $f^{-1}$ funksiyalarına *qarşılıqlı tərs funksiyalar* deyilir.

Qeyd edək ki, qarşılıqlı tərs funksiyalanın təyin oblastı ilə qiymətlər oblastı rollarını dəyişir, yəni verilmiş funksiyanın təyin oblastı ona qarşılıqlı tərsi olan funksiyanın qiymətlər oblastı, verilmiş



funksiyanın qiymətlər oblastı isə, ona qarşılıqlı tərs olan funksiyanın təyin oblastı olur. Bu dediklərimizi simvolik olaraq aşağıdakı şəkildə ifadə edə bilərik:

$$D(f) = E(f^{-1})$$
$$E(f) = D(f^{-1})$$

Əgər $f$ *və* $f^{-1}$*qarşılıqlı tərs funksiyalardırsa, onların qrafikləri* $y = x$ *düz xəttinə nəzərən simmetrik olur (şəkil 1).*

Bəs istənilən funksiya üçün tərs funksiyanın varlığı həmişə mümkündürmü? Məsələn, $y = 2x + 5$ münasibətindən $x$-i $y$ vasitəsilə birqiymətli ifadə etmək mümkündür və bu halda tərs funksiya var: $x = \frac{y-5}{2}$. Burada $y$-in hər bir qiymətinə $x$-in yalnız bir qiyməti uyğun gəlir.

$y = x^2$ funksiyasında isə $y$-in bir qiymətinə, məsələn, $y = 9$ qiymətinə arqumentin $x = 3$ və $x = -3$ kimi iki qiyməti uyğun gəldiyindən (–∞; +∞) aralığında bu funksiyanın tərsi yoxdur.

Beləliklə aydın olur ki, $f$ funksiyasının tərsi olan funksiyanın mövcud olması üçün onun təyin oblastındakı hər bir qiymətə qiymətlər çoxluğundan bir qiymət uyğun gəlməlidir, bu cür funksiyalar dönən funksiya adlanır. Əks halda, yəni $x$-in müxtəlif qiymətlərinə $y$-in bir qiyməti uyğun gələrsə, (məsələn, $y = x^2$ funksiyasında olduğu kimi) bu dönən funksiya deyil və onun tərsi olan funksiya yoxdur.

İndi isə verilmiş funksiyanın tərs funksiyasının tapılması məsələsini nəzərdən keçirək. Qeyd etmək lazımdır ki, məktəb riyaziyyat kursunda əsasən cəbri funksiyaların tərs funksiyasının tapılmasına baxılır. Buna görə də bu tip funksiyaların tərsinin necə tapıldığına baxaq. Cəbri funksiyaların tərs funksiyasının tapılmasının çox sadə bir qaydası vardır. Belə ki, əgər funksiya düsturla verilmişdirsə və onun tərs funksiyası varsa, onda həmin tərs funksiyanı tapmaq üçün:

1) Verilmiş bərabərlikdən $x$ dəyişəni $y$lə ifadə edilir.
2) Alınmış bərabərlikdə $x$ in əvəzinə $y$, $y$ in əvəzinə $x$ yazılır.

Misal 3. $y = 12x + 6$ funksiyasına tərs olan funksiyanın düsturunu yazın.

Əvvəlcə verilən funksiya yazılır: $y = 12x + 6$. Sonra $x$ dəyişəni $y$ dən asılı şəkildə ifadə olunur: $x = -\frac{1}{12}y + \frac{1}{2}$. Bundan sonra isə $x$ dəyişənin əvəzinə $y$, $y$-in əvəzinə isə $x$ yazılır: $y = \frac{1}{2}x + \frac{3}{2}$.


Ədəbiyyat

1. N.M.Qəhrəmanova, M. İ. (2022). *Ümumi təhsil müəssisələrinin 10-¬cu sinifləri üçün riyaziyyat fənni üzrə dərslik.* Bakı: "Təhsil Nəşriyyat-Poliqrafiya"MMC.
2. N.M.Qəhrəmanova, M. İ. (2022). *Ümumi təhsil müəssisələrinin 10-¬cu sinifləri üçün riyaziyyat fənni üzrə dərsliyin metodik vəsaiti.* Bakı: "Təhsil Nəşriyyat-Poliqrafiya"MMC.
3. *Ümumi təhsil məktəbləri üçün riyaziyyat kurikulumu.* (2021). Bakı.


## METALLARIN ELEKTROKİMYƏVİ GƏRGİNLİK SIRASI MÖVZUSUNUN TƏDRİSİNƏ MÜASİR YANAŞMALAR


**Fətaliyeva Könül Qahir qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Kimya fənninin tədrisində “Metalların elektrokimyəvi gərginlik sırası” mövzusu xüsusi əhəmiyyət kəsb edir. Belə ki, digər mövzuların məsələn, ayrı-ayrı metalların , elektroliz və sairin tədrisində “Metalların elektrokimyəvi gərginlik sırası”na inteqrasiya etməklə istifadə edilir.

Bu nöqteyi nəzərdən bu mövzunun tədrisini həm elmi, həm də metodiki cəhətdən düzgün təşkil edib keçirmək vacibdir. Bu elə məqalənin müasirliyini və aktuallığını göstərir.

Şagirdlərin bu mövzunu dərk edib mənimsəməsi üçün müasir pedaqoji texnologiyalardan istifadə etmək lazımdır. Eyni zamanda bu mövzunun tədrisində eksperimentdən istifadə imkanları daha çox olduğundan tədrisdə ondan istifadə etmək əhəmiyyətlidir.

Məlumdur ki, eksperiment öyrənənlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsində ən mühüm üsuldur. Eksperiment öyrənənlərdə idrak fəallığı yaradır, onların məntiqi, yaradıcı təfəkkürlərini inkişaf etdirir. Ona görə də bu mövzunun tədrisi zamanı motivasiyanı eksperimentlə, yəni demonstrasiya əsasında yaratmaq olar. Onda şagirdlər müşahidə edir, düşünür və nəticə çıxarmaqla metalların aktivliyini müqayisə etməklə dərk edirlər.

Mövzunun tədrisində yalnız motivsiya hissəsində deyil,yeni dərsin izahında və möhkəmləndirilməsi hissəsində eksperimentə müraciət etmək vacibdir.

Eyni zamanda qruplarla iş formasından istifadə etməklə metalların turşulara münasibətinə dair çalışmalar həll etdirməklə mövzunu möhkəmləndirmək daha məqsədə uyğundur. Həm eksperiment aparmaq, həm də məsələ və çalışmalar həll etdirməklə şagirdlər müstəqil fəaliyyət göstərir və bu onlarda inam hissi yaradır, öyrənənləri gələcək həyat üçün müstəqil şəxsiyyət kimi formalaşdırır. Elə müasir təhsilin də əsas məqsədi bilik, bacarıq ,vərdişlərə yiyələnmiş , hər tərəfli inkişaf etmiş şəxsiyyətlər yetişdirməkdir.

Bu məqsədlə "Metalların elektrokimyəvi gərginlik sırası" mövzusunun tədrisində şagirdlərin bilik və praktiki bacarıqlarının təkmilləşdirilməsi yolları mövzusuna dair metodik ədəbiyyatların təhlili aparılmış, şagirdlərin nəzəri biliklərə yiyələnməsində müasir təlim texnologiyalarından istifadə, praktiki bacarıqların formalaşmasında kimya eksperimentinin rolu araşdırılmışdır.Biz metalların elektrokimyəvi gərginlik sırası mövzusunun tədrisinə metodik yanaşmada: metalların elektrokimyəvi gərginlik sırasının tərtibinin metodik cəhətdən izahı, metallar mövzusunun tədrisində inteqrasiyadan istifadənin üstünlükləri,mövzuya dair ümumiləşdirici dərsin tədrisi metodikasını işləyib hazırladıq.Təqdim olunan nəzəri problemlərin təcrübədə sınaqdan keçirilməsi üçün bir neçə misallar üzərində şagirdlərin fəallığının artırılmasınına nail olmağın yolları araşdırılmış, şagirdlərin bilik və praktiki bacarıqlarının təkmilləşdirilməsi yolları mövzusunun tədrisində Keys üsulu, Çevik təlim metodu, problemli vəziyyət yaradılması, mühazirə üsulu, BİBÖ cədvəli, Venn Eyler üsullarından istifadə olunmuşdur. Fənlərin, o cümlədən kimyanın tədrisində ümumiləşdirici dərslərdə nəzəri biliklərin tətbiqi şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirir, onlarda tədqiqatçılıq bacarığını formalaşdırır.

Kimyanın tədrisində şagirdlərin yaradıcı təfəkkürünün inkişaf etdirilməsində ümumiləşdirici dərslərdən istifadənin imkan və yollarına dair metodik tövsiyələr verərək, fənlərarası əlaqələrdən istifadə edərək, metalların müasir təhsilin tələbləri səviyyəsində tədrisi zamanı nəzərə alınması vacib olan məsələlər vurğulanmış, mövzu tədris edilərkən, şagirdlərin tanış olduqları yeni anlayışlar izah edilmişdir. Sonda şagirdlərin tədris vahidi ilə əlaqəli əldə etdikləri təlim nəticələri sistemli şəkildə təqdim olunur.Müasir metodların mövzunun tədrisinə tətbiq olunmasının üstün cəhətlərindən biri də, dərsin tam fəallıq şəraitində keçməsi,şagirdlərdə müstəqil düşüncə tərzi formalaşması, yeniliyə meyllilik artmış, şagirdlərin düşünmə qabiliyyətini inkişaf etdirərək, öyrənməyə maraq yaratmaq, yaradıcılığa həvəsləndirmək və eyni zamanda onları təlimə cəlb etmək üçün müxtəlif müasir vasitələrdən istifadə ediilmişdir.Metallar mövzusunun tədrisində didaktik materiallar, tədqiqat sualları, tapşırıqlar, yoxlama testləri hazırlanmış, təlim prosesində dərslər mövzunu tam əhatə etmiş və elə təşkil olunmuşdur ki, şagirdlərin fəallığı təmin olunmuş, onları düşünməyə, verilən suallara cavab verməyə və nəticə çıxarmağa yönləndirilmişdir. İKT vasitəsi ilə dərsdə əyani vasitələrin ekranda göstərilməsindən, müxtəlif elektron dərsliklərdən və internetdən mövzuya uyğun şəkil taparaq yararlanaaq, mövzuya motivasiya yaradılmışdır.Təqdim olunan dərs və ümumiləşdirici dərs nümumələrindən orta məktəbdə kimyanın tədrisi ilə məşğul olan müəllimlər öz işlərində istifadə edə bilərlər.

# QRAMMATİK BACARIQLARIN FORMALAŞDIRILMASINDA YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ İMKANLARI

**Gəncəliyeva Gülnar Altay qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bəzi alimlərin elmi-metodiki yanaşmasına görə qrammatika tədrisinin məzmununu linqvistik, metodoloji və psixoloji komponentlər təşkil edir. Linqvistik komponent Azərbaycan dili tədrisinin müəyyən mərhələsində kommunikativ problemləri həll etmək üçün fonem, söz, söz birləşməsi, cümlə və mətni özündə birləşdirən qrammatik minimumla təmsil olunur. Qrammatik minimum qrammatik materialı fərqləndirir, sadələşdirir və zəruri olanı öyrənməyə imkan verir. Metodoloji komponent öyrənilən qrammatik materialı yadda saxlamağa və sistemləşdirməyə yönəlmiş müxtəlif metodlardan istifadə etməklə müəyyən edilir. Bu komponent şagirdə qrammatik vahidləri şüurlu və müstəqil dərk etməyin, praktik formada tətbiq etməyin yollarını göstərir. Nəhayət, sonuncu - psixoloji komponent isə qrammatik bacarıqların inkişafı və onlardan kommunikativ ünsiyyətdə istifadə problemlərinə əsaslanır. Beləliklə, bu üç komponentin inteqrasiya əsaslı işlək sistemi qarşıya qoyulan məqsədə nail olmağa, şagirdlərdə qrammatik bilik, bacarıq və vərdişlər sistemi formalaşdırmağa imkan verir.

Biz yaxşı bilirik ki, dilin qrammatikasını mənimsəmək insanlara təkcə şifahi və yazılı nitq bacarıqlarını inkişaf etdirməyə deyil, həm də digər insanlardan alınan məlumatları anlamağa kömək edir, dinləmə, oxuma bacarıqları da formalaşdırır. Qrammatik bacarıqların aşağı inkişaf səviyyəsi yalnız nitqin deyil, fərdin sosial-mədəni səriştəsinin formalaşmasına, cəmiyyətə adaptasiya olunmasına da mane olur. Axı qrammatika ünsiyyət üçün fundament və tikinti materialıdır. İnsan bu bazaya, onun qrammatik strukturlarına arxalanaraq fikrini aydın, incə çalarda çatdıra bilir.

Ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin əsas məqsədi nitq vərdişlərinin (dinləmə, danışma, oxu, yazı) ən mühüm elementlərindən olan qrammatik vərdişlərin formalaşdırılmasından ibarətdir və bu məqsədə nail olduqdan sonra fərd öz informasiyasını daha dolğun formada tərəfmüqabilə ötürə bilir, normal ünsiyyət mübadiləsində olur.

Qrammatik bacarıq məlumatın işlənməsinin, mübadiləsinin avtomatlaşdırılmış hərəkətidir. Bu bacarıqları formalaşdırmaq üçün müəyyən şərtlər lazımdır ki, onlardan biri də qrammatik təhlil və çalışmalarla işin düzgün qurulmasıdır. Avtomatlaşdırılmış qavrayış sözlərin, ifadələrin və cümlələrin qrammatik formasını müəyyən əlamətlər əsasında tanımaq bacarığı deməkdir.

Metodik yanaşmaya görə qrammatik bacarıq öz inkişafında müəyyən bir modelin qavranılması, təqlid, istehsal, çevirilmə, təkrar istehsal, birləşmə, bütövləşmə kimi mərhələlərdən keçir. Məsələn, müəyyən bir modelə, sxemə əsaslanmaqla cümlənin sadə və ya mürəkkəb, tabeli və tabesiz olduğunu avtomatik olaraq müəyyənləşdirir.

Psixolinqvistik istiqamətdən baxdıqda qrammatik bacarıq dil və nitq spektrində özünü göstərir. Dil qrammatik məharəti nitq situasiyası da deyildir və ayrı-ayrılıqda fəaliyyət göstərirlər. Dilin qrammatikasının bilik tərəfləri minimum səviyyədə öyrənildikdən sonra praktik tətbiqlə məşğul olmaq və müəyyən bacarıqlar qazanmaq olur. Bu zaman şagird ünsiyyət zamanı niyyətindən asılı olaraq ifadənin qrammatik formasını dəyişə bilir. Məsələn, nəqli cümləni əmr və ya nida cümləsi formasında işlədə bilir. Şifahi və yazılı mətnlərin qrammatik formalarını, eyni zamanda eyni formalı qrammatik hadisələri fərqləndirir. Asanlıqla sadə cümlənin quruluşunu müəyyən edir və ya sadə cümləni mürəkkəb cümlədən ayırır. Cümlə komponentləri arasında müvəqqəti, məntiqi, səbəb və nəticə, koordinasiya və tabeçilik əlaqələrinin qurulmasını tam dərk edir. Mətn qurduqda abzas cümlələri arasında əlaqə yarada bilir.

Bütün bu sadalanan və sadalanmayan bacarıqların formalaşma prosesi ilkin tanışlıq, tanış olduğu qrammatik hadisəni dərk etmə, oxşar nümunələrin qavranılması prosesi,

transformasiya, reproduktivlik və inteqrasiya kimi mərhələlərindən keçir. Məsələn, isimlə, onun sualları ilə ilk tanışlıqdan sonra ondakı kateqoriyaları, sintaksislə bağlılığı dərk edir.

Ümumiyyətlə, biliyin sistemləşdirilməsinin iki növü var: qrammatik və leksik-qrammatik. Qrammatikanın sistemləşdirilməsi bilikləri qrammatika üzrə qruplaşdırmağa, qrammatik paradiqmaları bərpa etməyə imkan verir və bunlar da qrammatik vahidi, onunla bağlı hadisələri daha yaxşı yadda saxlamağa, dərk etməyə kömək edir. Bunun nəticəsi olaraq şagirdin filoloji təcrübəsi zənginləşir. Biliklərin leksik-qrammatik sistemləşdirilməsi şagirdin biliyini möhkəmləndirir, qrammatik bacarıqları daha davamlı və sabit edir.

Əsas da odur ki, qrammatik bacarıqlara yiyələnmənin məqsədi yalnız qrammatik strukturlar, qrammatik hadisələr toplusunu əzbərləmə, təqlid səviyyəsində manipulyasiya etmək deyil, həm də öyrənilən dil vasitəsi ilə arzu olunan məzmunu çatdırmaq bacarığını inkişaf etdirməkdir.

Müasir informasiya axını və qloballaşma insan həyatının bütün sahələrinə təsir etdiyi kimi təhsil sisteminə və bu sistemin tərkibində olan Azərbaycan dili tədrisinə də öz təsirini göstərməkdə, onun da qarşısında müasir tələblər qoymaqdadır. Bu tələblərdən biri də qrammatik bacarıqların formalaşdırılmasında informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək, qrammatik anlayışların daha sürətli və effektiv anlaşılmasını təmin etməkdir.

Artıq informasiya-kommunikasiya texnologiyaları dil təliminin təşkilində mühüm rol oynayır və tədris prosesində fəal tətbiq edilir. Biliklərin sürəti və həcmi, cəmiyyətdə baş verən proseslərə adekvat uyğunlaşma, yeniləşməyə möhtaclıq təhsil sistemində İKT-nin tətbiqini qaçılmaz edir. İnformasiya yaratmaq, mübadilə etmək, əks mübadiləni qəbullanmaq, yeni rəqəmsal texnologiyalar İKT tələb edir. İndi İKT kompüter şəbəkələrinə, fərdi kompüterlərə və rabitə vasitələrinə əsaslanan təhsil texnologiyasıdır. Bu texnologiya müəllimlərə təhsilin məzmununu, metodlarını, təşkilati və qiymətləndirmə formalarını dəyişməyə imkan verir.

İKT-nin tətbiqinin əsas məqsədi Azərbaycan dili tədrisinin bütün səviyyələrində effektivliyi artırmaq, təlim prosesinin intensivləşdirilməsi perspektivlərini təmin etməkdir. Bunun üçün dərsdə İKT-dən istifadə üçün şərait yaradılmalı, şagirddə İKT-dən istifadə stimulu gücləndirilməlidir. Müəllim problem qoymalı, onun həlli yollarını tapmalıdır. İKT qrammatik bacarıqları formalaşdırmaqla təlim keyfiyyətini təmin etməlidir. Səriştəli müəllim İKT-dən istifadədə aşağıdakı aspektləri mütləq nəzərə almalıdır:

1. Motivasiya aspekti
2. Məzmun aspekti.
3. Tədris-metodiki aspekt.
4. Təşkilati aspekt.
5. Nəzarət və qiymətləndirmə aspekti.

Yekun olaraq qeyd etmək lazımdır ki, Azərbaycan dilinin qrammatik sferasının tədrisi prosesində müasir İKT-dən istifadə həm müəllimlər, həm də şagirdlər üçün təlim imkanlarını əhəmiyyətli dərəcədə genişləndirməyə kömək edir, qrammatik anlayışları, morfoloji-semantik mənanı, qrammatik strukturu dərk etməni asanlaşdırır və təhsil mühitində qrammatik bacarıqların mənimsənilməsinə yönəlmiş məqsədə çatmağın yolunu optimallaşdırır.

Nəticə olaraq bu tezisdə qrammatik təhlilin mahiyyətini, qrammatik bacarıq və vərdişlərin formalaşmasında onun rolunu, bütövlükdə isə qrammatik təhlil prosesində yeni təlim texnologiyalarından istifadənin təlimi əhəmiyyətini nəzərdən keçirə bildik.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı, “Kövsər”, 2015, 212 s.
2. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, Elm və təhsil, 2019, 380 s.

3. Əhmədov B. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı, ”Maarif”, 1974, 114 s.
4. Hümmətova R. Linqvistik təhlilin elmi-metodiki əsasları. Bakı, ADPU-nəşr, 2017,

## KOMPLEKS ƏDƏDLƏR ÜZƏRİNDƏ ƏMƏLLƏRİN XASSƏLƏRİNİN ÖYRƏDİLMƏSİ TEXNOLOGİYASI

**Hacıyeva Fidan Üzeyir qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Kompleks ədəd anlayışının məktəb riyaziyyat təlimində verilmə üsulları.

Məktəb riyaziyyat kursunda ədədi sistemlərin ($N$- natural, $Z$- tam, $Q$-rasional, $R$-həqiqi ədədlər) öyrənilməsi kompleks $C$ ədədləri ilə başa çatır.

Kompleks ədədin tərifini dəqiqiləşdirmək üçün ədədlər üzərində toplama və vurma əməlini elə verməyə çalışmaq lazımdır ki, onlar üçün həqiqi ədədlərlə bağlı olan məlum qanunlar ödənsin. Buradan alınır ki, $a + bi, c + di$ kompleks ədədlərinin cəmini, fərqini və vurulmasını uyğun olaraq ,

$$(a + bi) + (c + di) = a + bi + c + di = a + c + (b + d)i,$$
$$(a + bi) - (c + di) = a - c + (b - d)i \quad (1)$$
$$(a + bi)(c + di) = ac + adi + bci + bdi^2 = ac + (ad + bc)i + bdi^2$$

qaydaları ilə verməliyik.

Yeni daxil etdiyimiz $i$ ədədinin $i^2 + 1 = 0$ şərtini ödədiyini, yəni $i^2 = -1$ olmasını qəbul etdiyimizdən, sonuncu bərabərliyi

$$(a + bi)(c + di) = ac - bd + (ad + bc)i \quad (2)$$

şəklində yaza bilərik.

Əgər $a + bi, c + di$ ifadələrinin bərabərliyi yalnız və yalnız $a = c, b = d$ olması kimi başa düşülərsə, bu ifadələrin cəmi, fərqi və hasili isə (1), (2) qaydaları ilə verilərsə, $a + bi$ şəklində ifadələrə kompleks ədədlər deyilir.

$z = a + bi$ kompleks ədədində $a$ həqiqi ədədinə $z$-in həqiqi hissəsi deyilir və $Rez$ kimi işarə olunur, $b$ həqiqi ədədinə isə $z$-in xəyali hissəsinin əmsalı deyilir və $İmz$ kimi işarə olunur. Deməli, $Re\ (a + bi) = a, İm\ (a + bi) = b.$

$z = a - bi$ kompleks ədədinə $z = a + bi$ kompleks ədədi ilə qoşma kompleks ədəd deyilir və z ilə işarə edilir.

$a = c$ və $b = d$ olduqda $z_1 = \ a + bi\ və\ z_2 = \ c + di$ kompleks ədədləri bərabər olar.

Kompleks ədədlər üzərində bir sıra əməllər yerinə yetirilə bilər. Bu əməlləri və onlarin xassələrini qeyd edək:

İki kompleks ədədin cəmi (fərqi) elə bir yeni kompleks ədəddir ki, bunun həqiqi hisssəsi verilən kompleks ədədlərin həqiqi hissələrinin cəmi (fərqi), xəyali hissəsi isə verilən kompleks ədədlərin xəyali hissələrinin cəmidir (fərqidir).

Belə ki, $z_1 = a + bi, z_2 = c + di$ kompleks ədədlərinin:

Cəmi: $z_1 + z_2 = \ a + c + (b + d)i;$

Fərqi: $z_1 - z_2 = a - c + (b - d)i$

şəklində ifadə olunur.

Toplama əməlinin xassələri :

1) İstənilən iki $z_1, z_2$ kompleks ədədləri üçün $z_1 + z_2 = z_2 + z_1$ (yerdəyişmə qanunu)

2) İstənilən $z_1, z_2,\ z_3$ kompleks ədədləri üçün $(z_1 + z_2) +\ z_3 = z_1 + z_2 +\ z_3)$ (qruplaşdırma qanunu)

3) İstənilən $z$ kompleks ədədi üçün $z + 0 = z.$

4) istənilən iki $z_1, z_2$ kopmleks ədədi üçün

$$z + z_1 = z_2$$

tənliyini ödəyən yeganə $z$ kompleks ədədi var.

Sonuncu xassəyə əsaslanaraq iki kompleks ədədin fərqinin tərifini verək.

$z + z_1 = z_2$ tənliyini ödəyən $z$ kompleks ədədinə $z_1$ kompleks ədədi ilə $z_2$ kompleks ədədinin fərqi deyilir və belə yazılır:

$$z = z_1 - z_2$$

Vurma əməlinin xassələri:

1) İstənilən iki $z_1, z_2$ kompleks ədədləri üçün $z_1 \cdot z_2 = z_2 \cdot z_1$ (yerdəyişmə qanunu)

2) İstənilən $z_1, z_2, z_3$ kompleks ədədləri üçün $(z_1 \cdot z_2) \cdot z_3 = z_1 \cdot (z_2 \cdot z_3)$ (qruplaşdırma qanunu)

3) İstənilən $z_1, z_2, z_3$ kompleks ədədləri üçün $z_1 \cdot (z_2 + z_3) = z_1 \cdot z_2 + z_1 \cdot z_3$

4) istənilən iki $z$ kopmleks ədədi üçün $1 \cdot z = z$,

5) $z_1, z_2$ verilmiş kompleks ədədlər və $z_2 \neq 0$ olarsa, $z \cdot z_2 = z_1$ tənliyini ödəyən yeganə $z$ kompleks ədədi var.

Sonuncu xasssəyə əsaslanaraq kompleks ədədlərin bölünməsi əməlini verək.

Həqiqi ədədlərdə olduğu kimi,bölmə əməli vurmanın tərsi olan əməldir. $z_1$ ədədini $z_2$-yə bölmək ( $z_2 \neq 0$) elə $z$ ədədi tapmaq demıkdir ki, $z \cdot z_2 = z_1$ olsun. Buradan da sonuncu xassəyə görə alırıq ki, $z_1 = a_1 + b_1 i$ , $z_2 = a_2 + b_2 i$ və $z_2 \neq 0$ isə,

$$\frac{z_1}{z_2} = \frac{a_1 + b_1 i}{a_2 + b_2 i} = \frac{a_1 a_2 + b_1 b_2}{a_2^2 + b_2^2} + \frac{a_2 b_1 - a_1 b_2}{a_2^2 + b_2^2} i$$

Deməli, iki kompleks ədədin nisbəti də kompleks əddədir, yəni $a + bi$ şəklində ədəddir.

$a + bi$ şəklində verilmiş kompleks ədədə, cəbri şəkildə verilmiş kompleks ədəd deyilir.

Kompleks ədədlər üzərində əməllərə aid misal nümunələri:

1) $5 + 2i + (-6 + 4i) = 5 - 6 + 2i + 4i = -1 + 6i$

2) $5 + 2i - (-6 + 4i) = 5 + 6 + 2i - 4i = 11 - 2i$

3) $(5 + 2i)(-6 + 4i) = 30 + 20i - 12i + 8i^2 = -30 + 8i - 8 = -38 + 8i$

4) $\frac{5+2i}{-6+4i} = \frac{(5+2i)(-6-4i)}{(-6+4i)(-6-4i)} = \frac{-22+(-32i)}{36+16} = \frac{-22}{52} + \frac{-32}{52}$

Ədəbiyyat


1. Adıgözəlov A.S., və b. Elementar cəbr. Bakı, 2012.
2. Kaçetkov Y.S., Kaçetkova Y.S. Cəbr və elementar funksiyalar I və II hissə. 1971, 1975.
3. Məmmədov Ə.M., Şükürov R.Y. Elementar riyaziyyat. Bakı, 2010.
4. Yaqubov M.H. Riyaziyyat. Bakı, TQDK, 2009.
5. Колягин Ю.М. и др. Методика преподавание математики и средней школе, часть I и II. М., «Просвещение», 1975, 1977.


## VII SİNİFDƏ BƏZİ İSBAT MƏSƏLƏLƏRİNİN ÖYRƏDİLMƏSİ TEXNOLOGİYASI


**Hacızadə Leyla Sübhan**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


VII sinifdə həndəsə məzmun xətti üzrə planimetriya bölməsindən şagirdlərə üç bölmə tədris olunur:

1. Paralellik. Perpendikulyarlıq
2. Üçbucaqlar
3. Üçbucaqların konqruyentliyi

Birinci qeyd etdiyimiz bölmədə ilk mövzuda nöqtədən düz xəttə çəkilmiş perpendikulyar və maili düz xətlər, mailin proyeksiyası, meyil bucağı araşdırılır; ikinci mövzuda qurma məsələsi barədə məlumat verilir, parçaya konqruyent parçanın və parçanın orta perpendikulyarının qurulması alqoritmi öyrədilir; üçüncü mövzuda mərkəzi simmetrik fiqurlar, hər hansı nöqtəyə nəzərən simmetrik fiqurların xüsusiyyətləri haqqında danışılır; dördüncü mövzuda iki düz

xəttin üçüncü ilə kəsişməsindən alınan bucaqların xassələri, beşinci mövzuda düz xətlərin paralellik əlamətləri izah edilir və çalışmalarda tətbiq edilir. Sonuncu mövzuda isə uyğun tərəfləri paralel və ya perpendikulyar olan bucaqların xassələri araşdırılır.

İkinci qeyd etdiyimiz bölmədə ilk olaraq pərgarın köməyi ilə üç tərəfinə görə üçbucağın qurulması öyrədilir; ikinci mövzuda üçbucağın daxili və xarici bucağının tərifləri verilir; üçüncü mövzuda üçbucağın tərəfləri, bucaqları,üçbucağın tənböləni, medianı, hündürlüyü, onların qurulması və xassələri araşdırılır. Həmçinin bu bölmədə üçbucaq bərabərsizliyi, üçbucaqda tərəflər və bucaqlar arasındakı münasibət də şagirdlərə çatdırılır.

Növbəti bölmədə konqruyent üçbucaqlar və onların konqruyentliyinin üç əlaməti araşdırılır. Konqruyent üçbucaqların xassələrinin həyati məsələlərə tətbiqi öyrədilir. Bərabəryanlı və bərabərtərəfli, düzbucaqlı üçbucaqların xassələrinə sonuncu mövzuda baxılır .

Hər bir bölmədə şagirdlərə öyrədilməsi nəzərdə tutulan teoremlər, onların isbatları və isbat məsələlərinin necə öyrədilməsinə nəzər salaq:

Müəllim ilk bölmədə hər şeydən öncə həndəsə elmi və onun yaranması barədə şagirdlərə məlumat verir, həndəsənin əsas anlayışları, onun iki bölməsi- planimetriya və stereometriya haqqında danışır. “Aksiom” və “teorem” anlayışlarını izah edir. Daha sonra planimetriyanın bəzi aksiomları nəzərdən keçirilir. Bu aksiomların hamısı ilə şagird dərslikdə verilən QR kod vasitəsilə tanış ola bilər.

İlk bölmədə şagirdlərə tədris edilən teoremlərdən birincisi belədir: İstənilən nöqtədən verilmiş düz xəttə yalnız bir perpendikulyar düz xətt çəkmək mümkündür. Bu teoremin isbatı əksini fərz etmək metodu ilə aparılır. Bu bölmədə iki düz xəttin paralellik əlamətləri qeyd olunur və tərs teorem anlayışı daxil edilməklə bu təkliflərin tərsi də verilir.

İkinci bölmədə üçbucağın daxili bucaqlarının cəminin 180°-yə bərabər olduğu qeyd edilir və bunun isbatı şagirdlərə çatdırılır. Teoremin isbatı iki paralel düz xətt və onların üçüncü düz xətt ilə kəsişməsindən əmələ gələn çarpaz bucaqlar vasitəsilə aparılır. Digər bir teorem üçbucağın xarici bucağının xassəsidir ki, onun isbatında üçbucağın daxili bucaqlarının cəmi haqqında teoremdən və qonşu bucaqların xassəsindən istifadə olunur. Eyni zamanda bu bölmədə üçbucaq bərabərsizliyi və üçbucaqda tərəflər və bucaqlar arasındakı münasibətə dair teoremlər də isbat edilir.

Üçüncü bölmədə üçbucaqlar üçün konqruyentlik əlamətləri, bərabəryanlı və bərabərtərəfli üçbucaqların xassələri şagirdlərə birbaşa verilir, isbat aparmaq tələb olunmur. Eyni zamanda bu teorem və xassələrin isbatını şagirdlər üçün aparmaq müəllimdən tələb edilmir.

Qeyd etdiyimiz bütün bu teoremlərin isbatını aparmaq şagirdlərdən birbaşa tələb olunmur, şagirdlər teoremin isbatını ya müəllimdən dinləyə bilər, ya da dərslikdə bütün bu teoremlərin qarşısında QR kod qeyd olunmuşdur ki, şagirdlər onlardan istifadə etməklə açılan saytda teoremin isbatı ilə tanış ola bilərlər. Eyni zamanda bunu da qeyd etməliyik ki, bəzi təkliflərin, xassələrin doğruluğunun əsaslandırılması şagirdlərə çalışmalar şəklində verilmişdir, yəni hər bir bölmədə şagirdlərin yerinə yetirməli olduğu bir sıra isbat məsələləri var. Bu isbat məsələlərinə dair müasir VII sinif dərsliyindən bir neçə çalışma nümunələri göstərək:

Nümunə 1. D nöqtəsindən n düz xəttini kəsən üç düz xətt çəkilmişdir. İsbat edin ki, onlardan heç olmasa ikisi n düz xəttinə perpendikulyar deyil (I bölmə birinci mövzu).

Bu isbat məsələsini həll etmək üçün əksini fərz etmək metodundan istifadə edəcəyik. Fərz edək ki, D nöqtəsindən çəkilən iki düz xətt və ya hər üç düz xətt n düz xəttinə perpendikulyardır. Bu isə bizim bayaq qeyd etdiyimiz “İstənilən nöqtədən verilmiş düz xəttə yalnız bir perpendikulyar düz xətt çəkmək mümkündür” teoreminə ziddir.

Nümunə 2. AB və CD parçaları AB parçasının O orta nöqtəsində kəsişir. $\angle CBO \cong \angle DAO$ olduğu məlumdursa, $\Delta AOC \cong \Delta BOD$ olduğunu isbat edin (III bölmə ikinci mövzu).




Bu məsələni də həll edək. Şəkildən görürük ki, ∠COB=∠AOD, çünki bu bucaqlar qarşılıqlı bucaqlardır, qarşılıqlı bucaqların dərəcə ölçüləri bərabərdir. O nöqtəsi AB parçasının orta nöqtəsi olduğundan AO=OB. Eyni zamanda şərtə görə, ∠CBO = ∠DAO. Onda üçbucaqların konqruyentliyinin əlamətlərindən BTB əlamətinə (Bir üçbucağın bir tərəfi və ona bitişik iki bucağı

Bu çalışmaları yerinə yetirərkən müəllim şagirdlərə istiqamət verib onları doğru isbat aparmağa yönləndirməlidir. Çalışmalar şəklində verilən isbat məsələləri şagirdlərə ev tapşırıq kimi də verilə bilər.

Ədəbiyyat

1. S.İsmayılova, S.Abdurahimov. Ümumtəhsil müəssisələrinin 7-ci sinifləri üçün riyaziyyat fənni üzrə dərslik. Şərq-Qərb 2022
2. S.İsmayılova, S.Abdurahimov. Ümumtəhsil müəssisələrinin 7-ci sinifləri üçün riyaziyyat fənni üzrə müəllim üçün metodik vəsait. Şərq-Qərb 2022
3. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı(Kurikulumu)
4. M.Mərdanov, S.Mirzəyev, Ş.Sadıqov. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Çaşıoğlu 2011

## TƏBİƏT MƏZMUN XƏTTİ ÜZRƏ MƏLUMATLARIN ƏLDƏ OLUNMASI ÜSULLARI

**Haqverdiyev Samir Mikayıl oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təbiət məzmun xətti üzrə məlumatların necə əldə olunması ilə əlaqədar metodik planlaşdırmanı müxtəlif mövzular üzrə həyata keçirərək aşağıda əks etdirilmiş nümunələr əsasında aydın şəkildə göstərə bilərik:

- Müəllimlər "Təbiət məzmun xətti" fənninin tədris olunması üzrə baş verən hadisə və proseslərin öyrənilməsi üzrə müşahidələrin həyata keçirilməsi üçün şagirdlərə tapşırıqlar verir.

Hər bir təhsil pilləsi üzrə şagirdlər bir neçə qrupa bölünərək təbiətə dair nümunələri toplama işlərinə cəlb edilir. Bir qrup şagird okean və dənizlərdə, bir qrup şagird atmosferdə, digər qrupun şagirdləri isə Yer kürəsində baş verən ümumi hadisə və proseslərə müvafiq olaraq nümunələr əldə etmək üçün cəlb olunur. Onlar həmin hadisə və proseslər barədə ətraflı məlumat toplamaq üçün müxtəlif üsul və metodlarla müşahidələr həyata keçirirlər. Coğrafi müşahidə baş verən hadisə və proseslərin müdaxilə olmadan izlənilməsi və eyni zamanda mövcud qanunauyğunluqların aşkar edilməsi prosesi kimi başa düşülür. Bu müşahidələrin əsas məqsədini isə təbiətdə baş verən hadisə və proseslər arasındakı əlaqələrin aşkar olunması təşkil edir. Coğrafiya fənninin tədris olunmasında müşahidələrin aparılması və təşkilinin əhəmiyyəti olduqca böyükdür. Müşahidə təkcə seyr etmək qabiliyyəti deyil, həmçinin düşünmə prosesi kimi də başa düşülür.

Müşahidənin qarşısında duran əsas vəzifələr aşağıdakılardır:

1. Müşahidə olunması nəzərdə tutulmuş coğrafi hadisə və obyektlərin qabaqcadan seçilməsi;

2. Müşahidə olunacaq coğrafi hadisə və proseslərin əsas xüsusiyyətlərinin aşkar edilməsi
3. Müşahidə zamanı ardıcıllıqların müəyyən olunması
4. Vacib faktların qeyd edilməsi
5. Əldə olunmuş məlumatlarının ümumiləşdirilməsi
6. Aparılan müşahidələrin nəticələrinin müəyyən edilməsi

Məktəblilərdə müşahidəçilik bacarığı spesifik keyfiyyətlərin formalaşmasına əlverişli imkan verir. Yəni, bu zaman şagirdlər müşahidə zamanı diqqətcil olmaq və yaradıcı düşüncə kimi bir sıra keyfiyyətlərə malik olurlar. Şagirdlərin müşahidə apardıqları zaman əldə etdikləri biliklər onların yaddaşlarında uzunmüddət qalır. Bu biliklər onların mövzunu daha da dərindən mənimsəmələrinə, sual və tapşırıqlara asanlıqla cavab verməklərinə imkan verir. Müşahidələrin necə və hansı yollarla (üsullarla) həyata keçirilməli olduğunu müəllimlər şagirdlərə izah edirlər.

Təbiət məzmun xətti üzrə məlumat əldə edərkən bir neçə vacib məqamlar da nəzərə alınmalıdır və bu məqamlar (nüanslar) içərisindən ən əhəmiyyətlisi isə təbiətə heç bir zərər vurmadan həmin nümunələrin əldə olunmasıdır. Şagirdlər müxtəlif alət və cihazlar, hiqrometr, barometr, termometr, kompas, nivelir və s. götürürlər. Bunun vasitəsilə müxtəlif coğrafi obyektlər tədqiq olunur. Şagirdlər müşahidə zamanı topladıqları məlumatları qeyd dəftərlərinə yazırlar. Daha sonra şagirdlər müşahidə vasitəsilə əldə etdikləri məlumatları və nümunələri sinifdə nümayiş etdirəcəklər. Nəticə etibarilə, onlar Yer kürəsində baş verən hadisə və proseslər, onların başvermə səbəbləri və nəticələrini öyrənmiş olacaqlar.

Aşağıda müşahidə nümunəsi əks etdirilmişdir:
*Fəsillərin bir-birini əvəz etməsi və günəşin üfüqdəki hündürlüyü ilə bağlı aparılan müşahidələr.* Şagirdlər fəsillərin bir-birini əvəz etməsinin səbəblərini bu cür müşahidə aparmaqla öyrənə bilirlər. Birincisi, fənn müəllimi havanın temperaturunun günəşin üfüq üzərindəki yüksəkliyindən asılı olduğunu şagirdlərə çatdırmalı, bu isə öz növbəsində ilin fəsillərinə təsir etmişdir. İlk müşahidə səhər, günorta və axşam saatlarında həyata keçirilir. Müşahidənin nəticələri isə aşağıda göstərilmiş cədvəl formasında əks etdirilmişdir. İkinci müşahidə isə hər ayın 20-si əsasən günorta saatlarında təşkil olunur. İkinci müşahidə isə hər ayın 20-si əsasən günorta saatlarında təşkil olunur.

Günəşin üfüqdə yüksəkliyi. Cədvəl 1

| | |
|---|---|
| Müşahidə tarixi | 19 sentyabr |
| Gecə və gündüzün uzunluğu | 12 saat |
| Temperatur | 14°C |
| Günəşin üfüqdə yüksəkliyi | 31° |

Coğrafiya fənninin tədrisi zamanı müşahidələrin aparılması bu prosesə maraq yaratmaq, şagirdlərin ətraf mühiti daha yaxşı dərk etməsi üçün əlverişli imkan yaradır. Coğrafi müşahidələr aparılan zaman şagirdlər təbiət haqqında ətraflı məlumat əldə etməyi, ona sevgi ilə yanaşmağı, qayğı göstərməyi öyrənir. Bütün bunlar isə məktəblilərdə Vətənə dair sevginin formalaşmasına gətirib çıxarır.

- "Təbiət məzmun xətti" fənninin tədrisi zamanı baş verən hadisə və proseslərin öyrənilməsi üzrə müəllimlər məktəblilərin müxtəlifyönlü təcrübələr apara bilmələri üçün tapşırıqlar verir.

Burada aparılan təcrübələrin əsas məqsədi şagirdlərin yaşadıqları planetdə, yəni, Yer kürəsində baş verən hər bir hadisə və proses haqqında ətraflı şəkildə məlumat əldə edə bilmələridir. Müşahidələrin həyata keçirilməsində olduğu kimi, təcrübələrin həyata keçirilməsində də şagirdlər müxtəlif qruplara bölünürlər. Şagirdlər əldə etdikləri bütün

məlumatları sinifdə bir-birilərinə nümayiş etdirərək müzakirə edirlər. Coğrafi təcrübə digər praktiki işlərlə müqayisədə təlim-tərbiyə baxımından təsirlidir. Şagirdlərin nəzəri və praktiki fəaliyyətləri arasındakı qarşılıqlı əlaqəni öyrənir, nəticədə şagirdlərdə idrak və təfəkkür qabiliyyətinin daha da təkmilləşməsinə imkan verir. Təcrübələrin aparılması şagirdlərdə idrak fəaliyyətinin inkişaf etməsi, bilik və bacarıqların əldə olunmasına imkan yaradır. Eyni zamanda onlar bir sıra cihaz və vasitələrdən istifadə etmə bacarığı da əldə etmiş olurlar.
Aşağıda təcrübə nümunəsi əks olunmuşdur:

Təcrübə coğrafiya meydançasında həyata keçirilmişdir. Burada qum və su qızması arasında yaranan fərqin təyin olunmasına dair təcrübə aparılır. Bu təcrübənin aparılması üçün torpaq, elektrik lampası, su termometri və qumlu yeşik və s. avadanlıqlarından istifadə olunur. İlk öncə, burada su və qumun temperaturları ayrılıqda ölçülməklə müəyyən edilir. Ölçmə işləri aparılarkən nəticələr dəftərdə qeyd edilir. İkinci olaraq lampa yandırılır. Bundan sonra iyirmi dəqiqə keçdikdən sonra yenə ölçmə işləri həyata keçirilməlidir. Beləliklə, hər 2 ölçmə zamanı əldə olunan nəticələr bir-birindən fərqləndirilir. Təcrübə yekunlaşdıqdan sonra belə bir qənaətə gələ bilərik ki, su quma nisbətdə gec qızır. Havanın Yer səthindən qızmasına görə su səthində olan hava quru səthində olan havaya nisbətən daha gec qızır.

## MARAL RƏHMANZADƏNİN YARADICILIĞINDA “TARİXİ JANR”

**Heydərova Rəhimə Seymur qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Aəzrbaycanın ilk professional qadın rəssamı olan Maral Rəhmanzadənin qrafika sənətimizin inkişafında yüksək xidmətləri vardır. Maral xanım ilk yaradıcılıq fəaliyyətinə Əzim Əzimzadə tərəfindən təməli qoyulan incəsənət məktəbində başlamışdır. Burada təhsilini bitirən gənc rəssam dövrü üçün bir ilk yaşayaraq ailəsi tərəfindən İ.Surikov adına Moskva İncəsənət universitetində göndərilmiş və orada təhsilini təkmilləşdirmişdir. Dövrün dahi rəssamı Səttar Bəhlülzadəni kumir olaraq seçən M. Rəhmanzadə onun yaradıcılığına heyranlığını daima vurğulayırdı. Yaratdığı qrafik əsərlərdə rəssam ölkəmizin bir birindən gözəl güşələrinin gözəlliyini tərənnüm etmişdir. Onun əsərlərində Azərbaycanın füsunkar təbiəti dərin emosionallıq və böyük ustalıqla öz əksini tapmışdır.

Maral Rəhmanzadənin “Əshabi-Kəhf” əsəri yaratdığı əsrarəngiz nümunələrdəndir.. Rəssamın bu qrafik əsərində uca qaya parçaları ilə üst üstə yığılmış, hündür dağlar təsvir olunmuşdur. İçəri hissəyə daxil olmaq üçün, mağaralarda rastlaşdığımız girişə bənzər bir hissə görürük.. Uzun incə formada təsvir olunan pilləkan dağın zirvəsinə kimi qalxa bilmək üçün qoyulmuşdur. Bu dağ qədimnən gələn inanclara bağlıdır və haqqında bir çox rəvayətlər, nağılların olduğuda çoxlarına məlumdur.

Rəssamın təbiət sevərliyi bütün əsərlərində duyulur, buna misal olaraq onun çəkdiyi Qubada yerləşən Elik kəndini göstərmək olar. Rəsam Qubanın sıldırım qayalarla əhatə edilmiş kəndini təsvir etmişdir. Burada ucsuz bucaqsız başı qarlı dağlar, bir birinin arxasınca düzülmüş 1 mərtəbəli, düz tavanlı, kiçik pəncərəli evlər təsvir olunmuşdur. Maral xanım bu dünyada görmək istədiyi yerləri bir-bir gəzmiş və onları sehirli qələmi ilə təsvir etmişdir. Təsvir olunmuş Elik kəndinin öz sakit-səsiz abu havasız, öz duyulan səhmanı vardır. Rəssam bu sakitliyi öz peşakarlıqı ilə seyirciyə çatdırmağa nail olmuşdur. Dağ qoynunda olan bu yolun keçilməzliyi , nəqliyyatın olmamağına baxmayaraq sənətkar hər bir çətinliyi aşa bilmişdir.

Rəssam həmçinin gözəl Bakımızda yerləşən məbədləri də təsvir etmişdir. Bu silsiləyə nümunə olaraq Suraxanıda yerləşən Atəşpərəslər məbədini misal çəkmək olar. İnsanların inam ocağı olan bu yer, bir çox insan tərəfindən günaşərı ziyarət olunur. Əsərdə də göründüyü kimi , burada insanlar diz çökərək öz tanrılarına yalvarırlar. Təsvirdə olan obrazlardan üçü əllərini yuxarıya qaldıraraq sanki öz günahlarının bağışlanması məqsədi ilə əfv diləyirlər. Kənarda dayanan bir şəxs isə öz yük daşayan dəvəsi ilə başı çadralı və aşağıya

baxan qadını daşıdığı təsvir olunmuşdur. İnsani hisləri tamamilə tamaşaçıya ötürə bilməyi bacaran rəssam, təsvir manevraları ilə obrazların yalvarışlarını ustalıqla vurğulayan Maral Rəhmanzadə bununlada öz sənətkarlığını sübüt etməyi bacarmışdır.

Əsərə baxarkən həmiçinin onun memarlığının möhtəşəmliyidə insanı valeh edir. Tam mərkəzdə yerləşən məbədi kub şəklindədir və onun hər 4tərəfindən içərisində yanan atəşi görmək içim arkolar açılmışdır. Verilən məbədin yuxarı hissəsində məzkəzdə böyük bir günbəz 4bir kənarında isə daha kiçik günbəzlər təsvir olunmuşdur. Qədim daşlarla əhatələnmiş divarlarının gözəlliyi insanı valeh edir.

Maral Rəhmanzadənin qrafika janrında yaratdığı ən gözəl işləri "Kalxozçuların istirahəti", "Azərbaycan qadını keçmişdə və gələcəkdə" silsilələri hesab olunur. İki dövrdə yaşayıb görmüş Maral xanım hər iki dövrləri bir birindən fərqləndirməyə , həmçinin onlar arasında oxşar cəhətlər araşdırmağa başlamışdır. Öz işlərində hər bir detalı dəqiq və simvolik formada verməyə çalışmışdır. Qadınlardan, onların azadlıqlarından öz əsərlərində geniş bəhs edən rəssam təsadüfi deyilki ilk dəfə olaraq, Azərbaycanın cəsur qadını Xurşudbanu Natəvanın, Nizami adına olan Ədəbiyyat müzeyindəki heykəli uçun poz vermişdir. Xarakter və gözəlliyi ilə Natavən xanıma oxşadılan gənc rəssam bundan dahada stimul alaraq qadınlara dayaq olmaq istəmişdir.

Son olaraq onu qeyd etmək lazımdır ki, Maral Rəhmanzadənin yaradıcılığında öz əksini tapmış tarixi janr daima diqqət mərkəzində olmuş və daima xatırlanacaqdır. O, ştrixlər, xətlər vasitəsi ilə əsərlərə əbədi yaşarlıq verərək bir-birindən fərqli əsərləri incəsənət tariximizə miras qoymuşdur.

## ÇOXMƏNALI FRAZEOLOJİ VAHİDLƏRİN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

**Həsənli Afaq Ramiz qızı**
*Bakı Slavyan Universiteti*

Frazeoloji birləşmələrin üslubi baxımdan bölgüsü və təhlili də dilçilikdə xüsusi maraq doğurur. Bu cür təhlilin aparılması frazeoloji birləşmələrin semantikasını dərindən öyrənməyə, onların işlənmə imkanlarını üzə çıxartmağa şərait yaradır. Frazeoloji birləşmələrin müxtəlif üslublarda işlədilməsi onların zəngin ekspressiv-emosional xüsusiyyətlərə malik olması ilə bağlıdır. Lakin frazeologiyanın üslubi kateqoriyalarından biri kimi yalnız üslubiyyatın obyekti olması fikri doğru sayılmır. Frazeoloji birləşmələrin hər hansı bir mənası müəyyən üslub çərçivəsində fəaliyyət göstərir. Frazeoloji birləşmələr həm quruluşca, həm də məna və ekspressivlik çalarlarına görə rəngarəng və müxtəlifdir. Bu isə onların üslubi istifadə imkanlarının zənginliyini təmin edən əsas cəhətlərdən biridir. Çoxmənalı frazeoloji vahidlərdən bütün üslublarda istifadə etmək olar. Bu birləşmələr üslubi uyğunluq əsasında onların həm quruluş, həm də ekspressivlik cəhətləri ilə üzvi surətdə bağlı olur. Ona görə də frazeoloji birləşmələrin üslubi qrupları sözlərin üslubi qruplarından az fərqlənir. Frazeoloji birləşmələr dilçilikdə üslubi imkanlarına görə aşağıdakı kimi qruplaşdırılır: kitab üslubunda işlənən frazeologizmlər, danışıq üslubunda işlənən frazeologizmlər və neytral üslubda işlənən frazeologizmlər.

Onu da qeyd etmək lazımdır ki, frazeologizmin hər hansı bir üslubda işlənməsi tarixi mahiyyət daşıyır. Bu səbəbdən də dilin bugünkü inkişaf mərhələsində bir sıra Çoxmənalı frazeoloji birləşmələrin mənaları neytral üslubda işlənir, çünki neytral üslub keçid xarakterlidir. Belə ki, müəyyən mərhələdə danışıq üslubuna və ya kitab üslubuna məxsus frazeoloji birləşmələr tədricən neytrallaşa bilir. Nitqdə dilin bütün üslubları əhatə olunur. Məsələn, over head and ears//up to the ears - 1) d.d.( in debt) - qulağının dibinə qədər borclu olmaq. Bu birləşmə həmişə to be feli ilə işlənərək danışıq üslubunda işlənir, ikinci mənası isə (2) xirtdəyə qədər işi olmaq - neytral üslubda işlənir. Bəzən isə hər iki mənası danışıq üslubunda istifadə olunur. Məsələn,

He shot a man in duel as he was over head and ears in debt [4, p.54], yaxud da mop the earth with smb (dan.) - 1) bir kəsi məhv etmək // alçaltmaq; 2) dan. dağıtmaq, darmadağın etmək, tar-mar etmək. Hər iki birləşmə danışıq üslubuna xasdır.

Danışıq üslubunda işlənən frazeoloji birləşmələrin neytral üslubda işlənən frazeoloji birləşmələrdən fərqi ondadır ki, onların işlənmə dairəsi daha məhduddur va ekspressiv-üslubi çalarlara malikdir. Məsələn, take one's ease 1) iştirak etmək, rahatlaşmaq, 2) sakitləşmək; eat well -1) həvəslə yemək, yaxşı iştahası olmaq; 2) xoş dadı olmaq (yeməyin) və s.

Çoxmənalı frazeoloji birləşmələr əsasən ədəbi dilin bədii üslubunda işlədilir. Üslubi kateqoriya dilin ən səciyyəvi və ayrılmaz hissəsidir. Belə ki, dil özü- özlüyündə fəaliyyət göstərmir, o, nitq olduğu üçün həmişə özünün hər hansı bir funksiyasını yerinə yetirir. Bu zaman hər bir ümumi kateqoriya xüsusi funksiyada çıxış edir və nəticədə hər hansı bir dil vahidi, o cümlədən, frazeoloji birləşmələr müəyyən üslubi çalarla yüklənir. Bədii üslubda mənaların bütün çalarları aşkar olmur. Əvvəlki fəsillərdə qeyd etdiyimiz kimi, məna çalarları mətn daxilində üzə
çıxır. Üslubi kontekstdə birləşmə məcazlığı ilə yanaşı bütöv cümlə məcazlığı da xüsusi yer tutur.

Bədii dilin obrazlılığa, ifadəliliyə, emosionallığa, dilin məcazilik imkanlarından geniş istifadəsinə böyük ehtiyac olduğundan görkəmli sənət ustaları, söz sənətkarları ümumxalq dilinin frazeologiyasının çoxmənalılığına tez-tez müraciət edirlər. Ona görə də hər bir yazıçı ədəbi dilin frazeologiyasını yeni ifadələrlə zənginləşdirir. Belə ifadələr sabit və ümumişlək ifadələr sırasına keçə bilir. Belə ki, çoxmənalı frazeoloji birləşmələr bədii dildə üslubi kontekstdə rəngarəng üslubi xüsusiyyətlərə malik olur.

Yuxarıda dediyimiz kimi, müəyyən mərhələdə danışıq üslubuna, yaxud da kitab üslubuna məxsus çoxmənalı frazeoloji birləşmələr müəyyən vaxtdan sonra asanlıqla bu üslublardan kənarlaşıb neytrallaşa bilərlər. Beləliklə, dildə çoxmənalılığın yaranması halları baş verir. Neytral üslubda işlənən çoxmənalı frazeoloji birləşmələr dilin bütün üslublarını əhatə edir. Danışıq üslubuna məxsus frazeoloji birləşmələr özünəməxsus ekspressiv üslubi çalara malikdir. Məsələn, to bother one's head frazeoloji birləşməsi həm də to bother one's brain kimi də işlədilir. Amma 1-ci variant neytral üslubda işlənərək ekspressiv üslubi çalara xidmət edir: 1) baş sındırmaq; 2) beynini yormaq; 3) bir kəs üçün narahat olmaq.

Yaxud da, Again she sank down before the fire cümləsindəki sank down frazeoloji birləşməsini bent down kimi də işlətmək olardı, amma yazıçı ifadəni daha da ekspressiv etmək üçün sank down frazeoloji birləşməsini işlətmişdir. Çünki, belə frazeoloji birləşmələr ekspressiv çalar daşımadan obyektiv gerçəklikdə baş verən hadisələrin sadəcə adlarını ifadə edir.

Göründüyü kimi, danışıq üslubunda frazeoloji birləşmələr obrazlı səciyyə daşıyır, nitqə sadəlik, səlislik və gözəllik verir. Bəlkə də, elə buna göre bu tipli frazeoloji birləşmələr bədii əsərlərdə çox istifadə olunur.

Kitab üslubu isə, yazılı dildə işlənir, dildə poetiklik yaradır, dilə rəsmilik, işgüzarlıq verir. Ona görə də bu tip frazeoloji birləşmələr elmi əsərlərin, bədii əsərlərin dilində tez-tez işlənir. Kitab üslubuna aid olan frazeoloji birləşmələr həm xüsusi işlənmə dairəsinə, həm də özünəməxsus məfhumi çalarlara malikdir.

Məsələn, to go on the bum - 1) səfil-sərgərdan gəzmək; 2) sərsəri həyat keçirmək; 3) avaralanmaq, veyillənmək; have effect - 1) arzu edilən nəticə əldə etmək, istənilən nəticəni vermək [1, s. 44].

At last the laundanum (tiryək) has taken effect- murmured the girl [2, s.23] - 1) Nəhayət opium (tiryək) öz işini gördü, 2) təəssürat yaratmaq; catch smb's eye - 1) bir kəsin baxışlarını tutmaq; 2) bir kəsin gözünə sataşımaq və s.

Çoxmənalı frazeoloji birləşmələr bədii və publisistik üslubda zəngin məna çalarları qazanır, çünki bu üslublar başqa üslublara nisbətən emosionallıq, obrazlılıq, rəngarənglik, bədii çalarlıq cəhətdən daha geniş əhatə dairəsinə malikdir. Bu cəhətlər özünü bədii üslubun

ayrılmaz tərkib hissəsi olan frazeoloji birləşmələrdə təzahür etdirir. Ədəbi dilin istər bədii, istərsə də publisistik üslubu frazeoloji birləşmələri, idiomları, qanadlı sözləri, atalar sözləri və zərbi-məsəllər, çoxmənalı ifadələr, onomastik vahidlər və s. ilə zəngindir.

Üslubi neytrallıq tələb edən elmi dildə çoxmənalı frazeoloji birləşmələr məhdud şəkildə istifadə olunur. Çoxmənalı frazeoloji birləşmələr daha çox danışıq dilinə xasdır. Çoxmənalı frazeoloji birləşmələrdən neytral üslubda işlənənləri özləri də danışıq dilində işlədilir. Bədii üslubu və publisistik üslubu da frazeoloji birləşmələrsiz təsəvvür etmək olmaz. Məsələn,

The Government have got their eye on him [5].

Çoxmənalı frazeoloji birləşmələr də dilin yaradıcısı olan xalq tərəfindən yaradılır, lüğət tərkibi, yeni frazeoloji birləşmələrin formalaşması üçün mənbə rolunu oynayır və dilin əsas lüğət fonduna daxil olur. Bədii əsərlərdə çoxmənalı frazeoloji birləşmələrin öyrənilməsini şərtləndirən mühüm amillərdən biri əsərlərin yaşandığı dövrü, ictimai-ədəbi mühiti nəzərə almaq, milli ədəbi dilin yenicə inkişafa başladığı va başqa dilin ciddi təzyiqinə məruz qaldığı bir dövrdə ifadə yaradıcılığı sahəsində yazıçı və dramaturqların ədəbi dilə necə xidmət etdiyini aydınlaşdırmaqdır. Bədii üslubda tez-tez işlənən çoxmənalı frazeoloji birləşmələrə nəzər salaq:

to come to a head -1) irinləmək (çiban haqqında), 2) yetişmək, zirvəyə çatmaq. Bu frazeoloji birləşmənin çoxmənalılığı bədii üslubda aşağıdakı kimi səslənir:

The economic crisis of 1929 dealt Brazil a heavy blow and greatly intensified The ferment came to a head in 1930 [5].

1929-cu ilin iqtisadi böhranı Brazilyaya böyük zərbə vurdu və getdikcə gücləndi.1930-cu ildə bu böhran lap yüksək zirvəyə çatdı.

to lay/to take smth. to heart 1) bir şeyə ciddi yanaşmaq (məsləhətə, iradə), ürəyinə yaxın qəbul etmək. Məsələn,

Poor little Silvia! She took things awfully to heart [2, s.58].

Yazıq balaca Silviya! O hər şeyi ürəyinə yaxın qəbul edirdi.

Çoxmənalı frazeoloji vahidlərin müxtəlif üslublarda işlədilməsi, əlbəttə, onların zəngin ekspressiv, emosional xüsusiyyətlərə malik olması ilə əlaqədardır. Lakin çoxmənalı frazeoloji birləşmələri üslubiyyatın tədqiqat obyekti kimi qəbul etmək olmaz. Onların bu üslubi xüsusiyyətləri qeyri-kateqorial əlamətdir.

Çoxmənalı frazeoloji vahidləri bədii üslubda işlənmə imkanlarına görə iki istiqamətdə araşdırmaq lazımdır: nəzm və nəsr. Çoxmənalı frazeoloji vahidləri nəsrdə işlətmək o qədər də çətinlik yaratmır. Söz ustaları nitqin canlı, təsirli və obrazlı olması üçün çoxmənalı frazeoloji birləşmələrdən mətnə uyğun olaraq seçərək istifadə edirlər. Bəzən şair və yazıçılar müəyyən üsluba uyğun birləşmələr axtarır və yeni hikmətli birləşmələr yaradırlar. Poeziyada çoxmənalı frazeoloji birləşmələri müəllif daha çox qafiyənin tələbi ilə və xüsusi ifadəlilik naminə işlədir. Müəllif öz fərdi üslubuna uyğun olaraq bəzən frazeoloji birləşmələrin formalaşması mənalarında dəyişiklik də edir. Bu dəyişiklik əsərdəki obyekt və hadisələrin və yaxud yumorun daha təsirli olması naminə edilir. Lakin bu dəyişmələr lüğətlərdə göstərilmir. Çoxmənalı frazeoloji birləşmələrdə edilən dəyişiklikləri Şekspirin əsərlərində də görmək olar. Ədib öz əsərlərində qədim tarixə malik birləşmələrdən geniş istifadə etmişdir. Məsələn,

the head and front of smth. - 1) an asas, mühüm, 2) rəhbər, başçı

I've married her: the very head and front of my offending. Hath this extent no more [4, s.52].

Mən onunla evləndim. Bu da mənim ən böyük günahımdır.

Burada işlənən frazeoloji birləşmənin çoxmənalılığından biri hərfən deyil, mətnə istinadən tərcümə olunur. Çoxmənalılıq arasında olan kommunikativ əlaqə onları bir dildən başqa bir dilə tərcümə edərkən də gözlənilir, onları daxil olduğu sistemdən çıxmağa qoymur. Ümumişlək frazeoloji birləşmə sənətkarı novatorluğu vasitəsilə çox vaxt yeni məna qazanır. O, frazeoloji birləşmənin daşıdığı bütün semantik yükü və üslub zənginliyi görməli və onun

(frazeoloji birləşmənin) malik olduğu imkanlardan istifadə etməyi bacarmalıdır. Ona görə də sənətkarın yaradıcı təxəyyülü dildə mövcud olan hazır fraza qaliblərinə sığmır ve yeniliyə can atır, nəticədə yeni- yeni mənalar yaranır.

Beləliklə, çoxmənalı frazeoloji birləşmələrin bütün mənaları müxtəlif üslublarda işlənərək, nitqə obrazlılıq, rəngarənglik, təsirlilik bəxş edir, obrazlı səciyyə daşıyır. Onların məzmununda ilkin mənanın müəyyən bir hissəsi saxlanılır. İngilis dilinin frazeoloji sisteminin tədqiqi göstərir ki, tərkibdə formal parçalanma aparmaqla semantikanın frazeoloji problemini aradan qaldırmaq olur. Bu zaman tərkibdəki komponentlər və frazeoloji mənalar çulğalaşır və onun semantikası genişlənir. Frazeoloji birləşmələri təşkil edən komponentlərdə semantik müstəqilliyin mövcudluğu onun çoxmənalılıq qazanmasına imkan vermir. Yalnız müstəqilliyin zəifləməsi və ya yox olması sayəsində frazeologizmlərin çoxmənalılıq kasb etməsinə şərait yaradıla bilir. Daxili formaya malik olan çoxmənalı frazeoloji birləşmələrin ayrı-ayn mənaları eyni quruluşlu sərbəst söz birləşməsinin hər dəfə eyni metaforik dəyişməsi nəticəsində əmələ gəlir.

Ədəbiyyat


1. Hacıyeva Ə.H., Hacıyeva A. K. İngiliscə-azərbaycanca frazeoloji lüğət Bakı, 2006.
2. Dickens Ch. Our Mutual Friend, book 1, Ch.XV, Moscow, Progress, 229p
3. Galsworthy J. The White Monkey. Moscow, Progress, 304p.
4. Henry, O. Roads of Destiny. M.: Progress, 277 p.
5. https://documents.pub/document/news-views-a-course-in-reading-british-american-news.html?page=1


## SUMMARY


The article deals with the stylistic features of polysemantic phraseological units. It is noted that all meanings of polysemantic phraseological units are used in different styles, giving speech colorfulness, affectivity, and carrying figurative character. Polysemantic phraseological combinations are used mainly in the artistic style of the literary language. Due to artistic language has a great need for imagery, expressiveness, emotionality, and wide use of the figurative possibilities of the language, outstanding writers and poets often turn to the polysemy of the phraseology of the national language. The article presents a large number of examples of polysemous phraseological units.



***Key words:*** *polysemantic, phraseological units, stylistic features, artistic style, literary language*


## РЕЗЮМЕ


В статье рассматриваются стилистические особенности многозначных фразеологизмов. Отмечается, что все значения многозначных фразеологических сочетаний разрабатываются в разных стилях, придавая речи образность, окраску и эффектность. Многозначные фразеологические сочетания используются преимущественно в художественном стиле литературного языка. Поскольку художественный язык обладает большой потребностью в образности, выразительности, эмоциональности, широком использовании образных возможностей языка, выдающиеся художники часто обращаются к многозначности фразеологии национального языка. В статье представлено большое количество примеров многозначных фразеологизмов.



***Ключевые слова:*** *многозначность, фразеологизмы, стилистические особенности, художественный стиль, литературный язык.*

# DİYARŞÜNASLIQ MATERİALLARİNİN ƏLDƏ EDİLMƏ ÜSULLARI

**Həsənova Rəmziyə Əmirağa qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Diyarşünaslıq materiallarının necə əldə edildiyini müxtəlif mövzular üzərində metodik planlaşdırma əsasında aşağıdakı nümunələrlə aydın şəkildə görmək mümkündür.

- Flora və fauna tərkibinin araşdırılaraq öyrənilməsi üçün müəllim yaşadıqları ölkə ərazisinə ekskursiya təşkil edə bilər.

Şagirdlər iki qrupa ayrılaraq təbiətdən diyarşünaslıq nümunələri toplama işlərinə cəlb olunur. Bir qrup şagirdlər bitkilərdən ağaclardan nümunələr toplaya, digər qrup isə həşəratlardan nümunələr toplamaq üçün əraziyə cəlb olunur. Nümunələrin necə toplanacağını müəllim izah edir. Diyarşünaslıq materialları əldə olunarkən bir neçə vacib nüanslar nəzər alınmalıdır və burada asas məqam bitkilərə, ağaclara və həşəratlara zərər vermədən nümunələrin əldə olunmasıdır.

Birinci qrup şagirdlər bitkilərin və ağacların yarpaqlarından, tumurcuqlarından nümunələr toplayıb, dəftərdə herbarilər düzəldə bilərlər.

İkinci qrup şagirdlər isə həşəratları və böcəkləri incitmədən diri şəkildə tutub hava keçən qablara doldurataraq nümunə kimi gətirib sinifdə göstərəcəklər. Nəticədə, şagirdlər diyarda flora və fauna tərkibini öyrənmiş olacaqlar.

- Torpaqların növlərini bir-birindən ayırd etməyi bacarmaq üçün şagirdlar yaşadıqları diyarda məktəbə yaxın əraziyə ekskursiya təşkili həyata keçirilir.

Bu tədqiqat xarakterli ekskursiyanım məqsədi şagirdlərin yaşadıqları rayonda hansı torpaq tiplarinin olduğuna və əkin üçün hansımın yararlı olduğunu bilmələridir. Hamin ərazidə şagirdlar torpaq nümunələrinə aid diyarşünaslıq materialları toplamalıdırlar. Bunun üçün şagirdlar bir nece qruplara ayıraraq torpaq nümunələri götürürlər. Sonra her kes torpaq nümunələrini sinifdə kolleksiya hazırlayıb, növlərinin oxşar ve ferqli cəhətlərini, hər birinə xass xüsusiyyətlərini müzakirə edirlər.

- Ölkə ərazisində mücud olan çay və göl sistemlərindən diyarşünaslıq materiallarının əldə edilməsi üçün ekskursiya təşkil olunur.

Ərazidə olan çayların və göllərin sularından müqayisə üçün nümunələr götürülür. Bir neçə nəfərdən ibarət qruplar yaradılır. Qrupun biri çayların suyundan, digəri göllərin suyundan götürürlər. Bunu icra edərkən müəllim əvvəlcədən onlara təhlükəsizlik qaydalarına riayət etməyi tapşırır. Çayın və gölün suyundan bir stəkan nümunə su götürülür. Bu nümunələrin əldə edilməsində məqsəd axar çayların suyunun duzluluğu, şəffaflıq dərəcəsi ilə axarsız göllərin suyunu müqayisə etməkdir. Şagirdlər ekskursiyadan əldə etdikləri materialları sinifə gətirərək, müqayisələr apara və suyun xüsusiyyətlərini araşdıra bilərlər. Məsələn, soyuducuya qoyub hansının tez donduğunu, qaynadarkən hansı suyun tərkibində çöküntü yarandığını, hər birinin tərkibinin duzluluq faizini yoxlamaq üçün fərqli üsullardan istifadə edərək müqayisələr apara bilərlər.

- Azərbaycanın turizmi mövzusunun mənimsənilməsini həyata keçirmək üçün müəllim şagirdləri yaşadıqları öz bölgəsində tarixi, təbii abidələri, ölkə ərazisində turizm-rekreasiya zonalarını araşdırma tapşırığı verir.

Azərbaycan istər zəngin təbiəti, istərsə də öz füsunkar gözəlliyi ilə turistləri hər zaman cəzb etmişdir. Şagirdlərə yaşadıqları diyarda turizm zonalarını araşdırıb mümkün olan nümunələri toplamaq, şəkillər və videolar çəkmək tapşırığının verilməsi, hər bir şagirdin gətirdiyi diyarşünaslıq nümunələrini digərlərinin də görməsi onlarda təsəvvür formalaşdırır və hər bir bölgədə hansı turizm ehtiyatlarının olduğunu öyrənmiş olurlar. Hər şagird öz bölgəsindən materiallar gətirərək sinifdə elektron lövhədə təqdimatını edirlər. Beləliklə, toplanan materiallar diyarşünaslıq materialları kimi istənilən zaman istifadə oluna bilər.

- Ətraf mühitin qorunması mövzusunda şagirdləri ham maarifləndirmək, həm də yaşadıqları diyarda hansı amillərin ekoloji problemlər yarada biləcəyini öyrənmələri

üçün müəllim onları ekskursiyaya apararaq mövzuya uyğun diyarşünaslıq materiallarına aid nümunalar toplamağı tapşırır.

Onlar ərazidə hansı təbii va antropogen amillarin ekologiyanı korladığını araşdırıb şəkillər və videolar çəkməlidirlər. Bunun üçün əvvəlcə ərazidə araşdırma aparılır. Ətraf mühitin tullantılarla çirklənməsi, meşə örtüyünün məhv edilməsi, su problemləri və s. kimi ekoloji problemlərin araşdırılması və bunlara qarşı çıxış yollarının axtarılması üçün hansı tədbirlərin görülməsinin vacib olduğunu müzakirə edirlər. Ümumiyyətlə, ətraf mühitin çirklənmə faizini avtomatik qurğular vasitəsilə müəyyən edirlər. Bu qurğular ölkə ərazisində Gəncədə və Bakının bir neçə rayonlarında mövcuddur. Şagirdləri bu qurğularla tanış etmək üçün həmin ərazilərə ekskursiya təşkil oluna bilər. Problemlər və onların həll yollarının araşdırılması məqsədilə müəllim şagirdləri qruplara ayırıb, hər qrupa fərqli tapşırıqlar verir. Sonda bütün qrupun araşdırdığı və topladığı diyarşünaslıq materialları sinifə gətirilərək təqdimatını edəcəklər.

1 qrup ətraf mühitin çirklənməsində sənaye sahələrinin rolunu araşdırır;

Il qrup ətraf mühitin çirklənməsinin kənd təsərrüfatına təsirini araşdırır,

III qrup- nəqliyyatın, havanın çirklənməsində həmin ərazi üçün rolunun nə qədər ola biləcəyini araşdırır;

IV qrup- bu ərazidə ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün hansı tədbirlər görülməli olduğunu araşdırır.

- Planalma mövzusunun tədrisində şagirdlər praktik işlərə cəlb olunmaq və diyarşünaslıq materialları əldə etmək üçün məktəb yaxınlığında ekskursiya yaradılır.

Onlar qruplara ayrılır və müxtəlif ərazilərin planalmasını aparmaq üçün ərazilər seçilir. Nəticədə, hər qrupun çəkdiyi planalama nümunələri toplanır və elmi müzakirələr aparılır.

I qrup- məktəbin planalmasını aparır.

II qrup- məktəbin bağçasının planalmasını aparır;

III qrup- coğrafiya meydançasının planalmasını aparır;

IV qrup- məktəbə yaxın ərazidə marşrut planalmasını aparır,

Beləcə, qütb və marşrut üsulu ilə aparılan planalmanın nəticələri diyarşünaslıq materialları kimi toplanır və coğrafiya kabinetində saxlanılır. Müəllim bu materialları istər indiki mövzu, istərsə də digər sinif və dərslərdə nümunə göstərmək üçün əyani vəsait kimi istifadə edə bilər.

## AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ İNNOVATİV TEXNOLOGİYALARDAN İSTİFADƏ

**Həsənova Sevinc Elşad qızı**
*Azərbaycan Dövlət pedaqoji Universiteti*

Təlim nəticələrinin yüksəkliyi tədris vasitələrinin keyfiyyətindən asılıdır. Yəni dərslik, müəllim üçün metodik vəsait, digər resurslar müəllimin fəaiyyətini sistemləşdirməli, onun üçün geniş imkanlar yaratmalıdır. Keyfiyyətli təlim vəsaitlərinin hazırlanması istiqamətində daima müxtəlif səmərəli tədbirlər həyata keçirilməlidir. Yaxşı dərslik təhsilin məzmununa verilən bütün tələblərə lazımi səviyyədə cavab verməli, bütün meyarlar üzrə onlar yoxlanılmalı, təhlil və tədqiq edilməlidir.

Müasir dövrdə təhsilin cəmiyyət həyatında rolu əhəmiyyətli dərəcədə dəyişir və öyrənməyə yeni yanaşmalar formalaşır. Tətbiq olunan innovativ təhsil texnologiyalarının əsas məqsədi insanı daim dəyişən dünyada həyata hazırlamaqdır. Təhsil innovasiya mexanizmlərini inkişaf etdirməli, həyati problemlərin həlli üçün yaradıcı yollar tapmalıdır. Bunun üçün İnnovativ fəaliyyət tələb olunur. Bu müəyyən bir təcrübə subyektlərinin peşəkar inkişafına, innovativ layihənin praktikada təcəssüm etdirilməsi üçün nə və necə etməli olduqları barədə hər bir insanın şəxsi biliklərinin, təcrübəsinin formalaşmasına yönəlmiş təhsil fəaliyyətidir. Təhsildə innovativ texnologiyalar keyfiyyətcə fərqli prinsiplər, vasitələr, metodlar və

texnologiyalar əsasında qurulan və təhsildə səmərəliliyə nail olmağa imkan verən tədris prosesinin təşkilidir. Bura biliyin maksimum həcminə yiyələnmək; maksimum yaradıcılıq fəaliyyəti; geniş praktiki bacarıq və vərdişlər daxildir.

"İnnovativ təhsil" nədir? sualına cavab verməyə çalışaq. Bu, özünü inkişaf etdirməyə qadir olan və onun bütün iştirakçılarının hərtərəfli inkişafına şərait yaradan təhsildir, bir-biri ilə əlaqəli üç komponentdən ibarət kompleksdir:

1. Şagirdlərə ötürülən müasir məzmun fənn biliklərinin mənimsənilməsini deyil, daha çox səriştələrin inkişafını nəzərdə tutur. Bu məzmun yaxşı qurulmalı və müasir kommunikasiya vasitələrindən istifadə etməklə ötürülən multimedia tədris materialları şəklində təqdim edilməlidir.

2. Müasir təlim metodları yalnız materialın passiv qavranılmasına deyil, şagirdlərin qarşılıqlı əlaqəsinə və onların tədris prosesinə cəlb edilməsinə əsaslanan səriştələrin inkişaf etdirilməsinin aktiv üsullarıdır.

3. Distant təhsilin üstünlüklərindən səmərəli istifadə etməyə imkan verən informasiya, texnoloji, təşkilati və kommunikasiya komponentlərini özündə birləşdirən müasir təlim infrastrukturudur.

Tədrisdə humanist yanaşmaya istiqamətlənmə baş verir. Şagirdlərin fərdi xüsusiyyətlərinin inkişafını nəzərə alan innovativ pedaqoji texnologiyalar tətbiq edilir. Müasir təhsil texnologiyaları təhsilin keyfiyyətinin yüksəldilməsi, şagirdlərin dərs yükünün azaldılması, tədris vaxtından daha səmərəli istifadənin əsas şərti sayıla bilər. Ən xarakterik innovativ texnologiyalar bunlardır:

1.Fənnin tədrisində informasiya-kommunikasiya texnologiyalarından istifadə. Hazırda informasiya-kommunikasiya texnologiyaları (İKT) təhsil sisteminin bütün səviyyələrində mühüm əhəmiyyət kəsb edir. İdrak fəaliyyətinin hər bir mərhələsində elmi tədqiqatlar və biliyin bütün sahələrində praktik tətbiqlər, informasiya və kommunikasiya texnologiyaları eyni zamanda bilik alətləri və obyektləri funksiyalarını yerinə yetirir. İKT-nin özəlliyi onların çoxşaxəliliyi, biliklərin bütün sahələrində istifadə oluna bilən vasitəolmasıdır.

Nəticə etibarı ilə, İKT inkişafının innovativ xarakteri gənc mütəxəssisin dünyagörüşünü formalaşdıran, biliyin didaktik və metodik təqdimatını təkmilləşdirən, biliyi qavramaq və yaratmaq qabiliyyətini artıran, bununla da hərtərəfli inkişafa innovativ elementi daxil edən digər bilik sahələrinə birbaşa təsir göstərir.

İnformasiya-kommunikasiya texnologiyalarından istifadə informasiyanın axtarışı və ötürülməsi prosesini əhəmiyyətli dərəcədə sürətləndirməyə, zehni fəaliyyətin xarakterini dəyişdirməyə və insan əməyinin avtomatlaşdırılmasına imkan verir.

2. Fənnin tədrisində fərdi yönümlü texnologiyalar. Şəxsiyyətyönümlü texnologiyalar şagirdin şəxsiyyətini bütün təhsil sisteminin mərkəzinə yerləşdirir, onun inkişafı və təbii potensialının reallaşdırılması üçün rahat, münaqişəsiz və təhlükəsiz şərait yaradır. Bu texnologiyadan istifadə edən şagirdin şəxsiyyəti öz imkanlarına və ehtiyaclarına uyğun olaraq təhsil proqramlarının hazırlanmasında özünü göstərir.

3. Tədris prosesinin informasiya-analitik inkişafı və təhsilin keyfiyyətinin idarə edilməsi. Belə innovativ texnologiyadan istifadə bizə imkan verir ki, hər bir şagirdin fərdi və qrup halında inkişafını obyektiv və qərəzsiz izləyək. Müəyyən dəyişiklik etməklə ümumi nəzarətin hazırlanmasında, istənilən fənnin tədrisinin vəziyyətinin, ayrı-ayrı müəllimin iş sisteminin öyrənilməsində əvəzsiz vasitəyə çevrilə bilər.

4. İntellektual inkişafın monitorinqi. Hər bir şagird üçün təhsilin keyfiyyətinin təhlili və diaqnostikası.

5. Təhsil texnologiyaları müasir şagirdin formalaşmasının aparıcı mexanizmi kimi. Təhsil texnologiyaları şagirdləri şəxsi inkişafın əlavə formalarına cəlb etməklə, müxtəlif növ məktəbdaxili tədbirlərdə, olimpiadalarda və konfranslarda iştirakı həyata keçirilir:

6. Didaktik texnologiyalar təhsil müəssisələrində tədris prosesinin inkişafının şərti kimi. Burada həm artıq məlum, həm də sübut edilmiş texnikalar və yeniləri tətbiq oluna bilər. Bu, müxtəlif təlim vasitələrindən istifadə etməklə müstəqil işdir.

7.Təhsil müəssisələrinin tədris prosesində innovativ texnologiyaların tətbiqinə psixoloji-pedaqoji dəstək. Müəyyən yeniliklərdən istifadənin elmi və pedaqoji əsaslandırılması nəzərdə tutulur. Metodiki şuralarda, seminarlarda onların təhlili, bu sahədə aparıcı mütəxəssislərlə məsləhətləşmələr.

Nəticə olaraq deymək olar ki, innovativ təhsil texnologiyalarından istifadə etməklə aşağıdakı problemləri həll etmək mümkündür:

- çətin vəziyyətləri idarə edən və problemləri müsbət həll edə bilən fəal mövqe ilə şagird şəxsiyyətinin inkişafına töhfə vermək;
- təhsil müəssisəsinin subyektləri arasında qarşılıqlı əlaqənin xarakterini dəyişdirmək:
- şagirdlərin təlim fəaliyyətinə həvəsini artırmaq.

Təhsil fəaliyyəti üçün yüksək motivasiya həm də təhsil prosesinin çox yönlü olması ilə əlaqədardır. Təhsil prosesinin təşkili metodlarını, sistemin subyektləri arasında qarşılıqlı əlaqənin xarakterini və nəhayət, onların təfəkkürünü və inkişaf səviyyəsini əhəmiyyətli dərəcədə dəyişməyə imkan verən müasir pedaqoji texnologiyaların öyrənilməsinə və mənimsənilməsinə daha çox diqqət yetirmək lazımdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 23.01.2006-cı il tarixli 33 nömrəli əmri
2. Azərbaycan Respublikası Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulum) ( V-XI siniflər). Bakı, 2013, 135 s.
3. "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası" Azərbaycan Respublikası NK-nin 67 № li qərarı. Bakı şəhəri, 25 fevral 2020-ci il.
4. Paşayeva P.Ş., Abbasova S.İ. Azərbaycan dili tədrisinin aktual problemləri. Bakı, ADPU, 2021, 157 s.

## COĞRAFİYANIN TƏDRİSİNDƏ QEYRİ-STANDART DƏRSLƏRDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**Həsənova Səbinə Natiq qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan Respublikasında təhsil sisteminin əsas məqsədlərindən biri elm və texnologiyanın müasir tələblərinə uyğunlaşa bilən, müstəqil biliklərə əldə etməyi bacaran vətəndaş yetişdirməkdir. Ənənəvi təhsil çox vaxt standartlaşdırılmış dərslərə və təlim metodlarına əsaslanır, lakin son dövrlərdə təhsilin keyfiyyətini artırmaq və şagirdlərdə dərslərə maraq yaratmaq məqsədilə qeyri-standart dərslərə də üstünlük verilir. Qeyri-standart dərslər təhsil təcrübələrini zənginləşdirmək və təlim nəticələrini yaxşılaşdırmaq üçün perspektivli yollar təklif edir. Dərslərin potensial faydalarını və məhdudiyyətlərini anlamaq məqsədi ilə təhsil mühitində qeyri-standart dərslərin effektivliyini araşdırmaq mühüm məsələlərdən biridir.

Coğrafiya fənninin tədrisində qeyri-standart dərslərin tətbiq edilməsi üçün geniş imkanlar mövcuddur. Layihə dərs, debat dərs, oyunlar, konfranslar və digər qeyri-standart dərslər şagirdləri təlim prosesinə cəlb etmək və onların fənni dərk etmələrini asanlaşdırmağa imkan yaradır. Dərs prosesində müəllim fasilitator rolundadır, şagirdlər biliyi tədqiqat aparmaqla müstəqil şəkildə əldə edirlər.

Coğrafiya fənninin tədrisində qeyri-standart dərslərin tətbiq edilməsi şagirdlərdə qavrayış, analitik təfəkkür və düşünmə bacarıqlarının inkişafına, yeni bilik və bacarıqlar

inkişaf etdirmək üçün imkanların yaranmasına, müstəqil şəkildə biliyin əldə edilmə yollarının öyrənilməsinə, coğrafiya dərsinə marağın yaranmasına, əməkdaşlığa, digər sinif yoldaşlarını dinləmək bacarıqlarının inkişafına, dərslərdə fəal iştirak etmək bacarığının formalaşmasına təsir göstərir.

Qeyri-standart dərslərin coğrafiyanın tədrisində istifadə edilməsi vacib məsələdir. Lakin bu dərslərin həyata keçirilməsi sistemli dəyişikliklər və müəllimlərin davamlı peşəkar inkişafı tələb edir. Coğrafiya fənninin tədrisində qeyri-standart dərslərin tətbiq edilməsinin müəllim fəaliyyətindəki rolu böyükdür. Cari planlaşdırma zamanı qeyri-standart dərslərə üstünlük vermək, dərslərdə dinamikliyi artırmaq, passiv şagirdləri dərs prosesinə cəlb etmək, interaktiv metodlardan istifadə etmək, öz üzərində daim çalışmaq və yeniliklər etmək, müasir dövrdə tələb olunan bacarıqları inkişaf etdirmək müəllimlərin qarşısında duran əsas məsələlərdəndir.

Qeyri-standart dərslərin şagirdlərin diqqətini və marağını cəlb edən dinamik və interaktiv öyrənmənin inkişafını təmin etməsi mövzu ilə daha dərindən məşğul olmağa səbəb olur. Problem həll etmə, məlumatların təhlili və layihə əsaslı öyrənmə kimi fəaliyyətlər şagirdlərin real qlobal problemlərlə mübarizə aparması və onları həll etmək üçün coğrafi anlayışları tətbiq etməsi kimi tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir. Qeyri-standart dərslərin təşkilində şablonlardan və formalizmdən imtina edilərək müxtəlif metodlarla dərsi rəngləndirmək əsas məqamlardan biridir.

Coğrafiya fənni üzrə müasir dərsliklərə nəzər yetirsək, VI sinifdə hər bir bölmənin sonunda qeyri-standart dərslərə, xüsusilə debat dərslərə yer verilmişdir. Lakin VII-X siniflər arasındakı dərsliklərdə qeyri-standart dərslərə az rast gəlinir. XI sinif coğrafiya dərsliyində isə hər bölmədə əsasən layihə tipli qeyri-standart dərslərə üstünlük verilmişdir.

Nəzəriyyə və praktikanı birləşdirərək, qeyri-standart dərslər şagirdlərə sinifdə öyrəndiyi biliklə real dünya hadisələri arasında əlaqə yaratmağa imkan verir, onları qlobal problemləri həll etməyə və məsuliyyətli vətəndaş kimi əsaslandırılmış qərarlar qəbul etməyə hazırlayır.

Yekun olaraq qeyd etmək olar ki, coğrafiyanın tədrisində qeyri-standart dərslərin tətbiq edilməsi şagirdlərin öyrənmə təcrübələrini zənginləşdirmək, əsas bacarıqları inkişaf etdirmək və bizi əhatə edən aləmin mürəkkəbliklərini daha dərindən qiymətləndirmək üçün zəngin imkanlar təqdim edir. Bu da təlim nəticələrini artırmaq və təlimin keyfiyyətini yüksəltmək üçün qeyri-standart dərslərin nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Qeyri-standart dərslərə müəllimlərin pedaqoji fəaliyyətində geniş yer verilməsi təhsil sisteminin qarşısında duran əsas məsələlərdən biridir.

**Ədəbiyyat**


1. Alxasov O. "Coğrafiyanın tədrisi metodikası", Bakı, 2013, 389 səh.
2. Seyfullayeva N. "Coğrafiyanın tədrisi metodikası", Bakı, 2011, 489 səh.
3. Veysova Z. "Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait", UNICEF Azərbaycan Nümayəndəliyi, 2007, 156 səh.


## TƏBİƏT MƏZMUN XƏTTİ ÜZRƏ PRAKTİK VƏ MÜSTƏQİL İŞLƏRİN APARILMASININ METODİKASI.


**Həsənzadə Aynur Arzu qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Təlim sistemində dərs prosesində şagirdlərin qarşısında qoyulan məqsədlər və təlim nəticələri bilik yadda saxlamaqdan bacarığa çevrilmişdir.Yeni proqram keçmişlə müqayisədə müasir metodika elminin qarşısında daha yeni və mürəkkəb vəzifələr qoyur. Çünki metodiki tədqiqatlar öz əhəmiyyəti və aktuallığı ilə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət etməlidir.

Bu mənada coğrafiya fəninin kurikulumunu nəzərdən keçirsək aşağıdakı xarakterik cəhətləri müşahidə edə bilərik:

- Tədris prosesi təkcə elmi bilik verməməli
- Şagirdlərin təfəkkürünün, şəxsi keyfiyyət və qabiliyyətlərinin inkişaf etdirilməli
- həyat üçün zəruri olan bacarıqların qazanılmasına imkan verməli
- şagirdyönümlülü, nəticəyönümlülü, şəxsiyyətyönümlü olmalıdır.

Eyni zamanda informasiya bolluğu dövründə uşaqların sərbəst şəkildə məlumatı qəbul edib özləri üçün lazımlı hissələrini seçə bilmək böyük önəm daşıyır. Müstəqil işlər tədris materiallarının analizi, müşahidələr və bu prosesdə yeni materialların toplanması kimi nəzəri və məhəllin planın alınması, coğrafi xarakteristikaların, qrafiklərin, diaqramların, kartosxemlərin tərtibi, referatlar, məruzələr hazırlanması kimi praktik fəaliyyətləri özündə ehtiva edir.

Şagirddə tolerantlıq, ekoloji mədəniyyət, iqtisadi göstəricilərdən istifadə edə bilmək, nəticə çıxarmaq, layihələr irəli sürə bilmək bacarıqlarının formalaşmasına imkan yaranır. Orta məktəblərdə "Təbiət" məzmun xətti şagirdlərdə Yer kürəsini vahid təbii sistem kimi qavramağa, təbii hadisələrin inkişaf qanunauyğunluğunu dərk etməyə imkan yaradır, onlar təbii proseslərin səbəblərini təhlil edir, nəticələrini aydınlaşdırır, gələcək inkişafının proqnozunu verirlər. Yer təbəqələrinə aid biliklər şagirdlərdə ekstremal, təbii dağıdıcı hadisələr zamanı davranış qaydalarına yiyələnməyə kömək edir. Təbii komplekslərin yaranması mexanizminin dərk edilməsinə, müxtəlif coğrafi amillərdən asılı olaraq ayrı-ayrı materik və okeanların daxilində coğrafi paylanma qanunauyğunluğunun izah olunmasına şərait yaradır. Şagirdlər Yer kürəsini təşkil edən iri təbii komplekslərin (materik və okeanların) özünəməxsus coğrafi xüsusiyyətlərini mənimsəməklə müasir qloballaşma şəraitində gərginləşən ekoloji problemlərin səbəb və nəticələrini şərh edir, onların həlli yollarına dair təkliflər verir, respublikada, eləcə də onu əhatə edən ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirirlər.

Sinifdənxaric müstəqil iş şagirdlərin müstəqilliyinə, şüurluluğuna, fəallığına, müşahidə aparmağa, sosial sorğular keçirməyə və s-ə istinad edir. Düzgün təşkil edilmiş sinifdənxaric fəaliyyət şagirdlərin inkişafında sinifdəki fəal işdən heç də az əhəmiyyət kəsb etmir.
Şagirdlərin evdə müstəqil işi aşağıdakı təlim funskiyalarını yerinə yetirir:

1) dərsdə əldə olunmuş bilik və bacarıqları möhkəmləndirmək;
2) sinifdə keçirilmiş tədris materialını genişləndirmək və dərinləşdirmək;
3) çalışmaları müstəqil yerinə yetirmək üçün bacarıq və vərdişləri formalaşdırmaq;
4) proqram materialı çərçivəsində fərdi tapşırıqları yerinə yetirmək yolu ilə təfəkkürün müstəqilliyini inkişaf etdirmək;
5) fərdi müşahidələr və təcrübələr aparmaq, dərslərdə yeni mövzuları öyrənmək üçün material toplamaq və tədris vasitələri hazırlamaq (təbiət nümunələri, şəkillər, üllüstrasiyalar, qəzet və jurnallardan kəsilib götürülmüş və statistik materiallar əsasında)

Bu tezisin məqsədi Azərbaycan təhsil sistemində təbiət məzmun xəttinə xüsusi diqqət yetirməklə, coğrafiyanın tədrisində praktiki elementlərin daxil edilməsi və müstəqil işi təşviq etmək üçün əsas istiqamətləri araşdırmaq və təsvir etməkdən ibarətdir.

Təlim prosesində müstəqil işlərin verilməsi yeni istiqamət deyil. Amma, son dövrlər bütün fənlərdə olduğu kimi coğrafiya fənni üzrə proqram və dərsliklərin məzmununun və quruluşunun əsaslı şəkildə yenilənməsi bu məsələyə yeni yanaşmalar tələb edir. Bildiyimiz kimi problemlərin tədqiqi ilə didaktik alimlər, metodistlər və müəllimlər məşğul olurlar. Coğrafiyanın tədrisi metodikasında şagirdlərin müstəqil işlərinin təşkili məsələləri A.E.Bibik, M.K.Kovalevskaya, M.İ.Davidova, V.İ.Siretin, V.A.Korinskya, M.A.Zülfüqarov, N.N.Allahverdiyev, H.Ə.Sadıxlı, D.M.Ələsgərov, R.Y.Yaqubov, A.Hüseynov M.İ.Verdiyeva və b. metodist alimlər tərəfindən öyrənilmişdir. Bu tip tədqiqatlarda nəzəri təhlil, məktəb sənədlərinin öyrənilməsi, müşahidə, anket sorğusu, şifahi və yazılı sorğu, müsahibə, testləşdirmə, pedaqoji eksperiment kimi metodlardan istifadə etmək mümükündür. Biz

tədqiqatımızda nəzəri təhlil metodundan istifadə etmişik. Nəzəri təhlil zamanı problemin işlənmə səviyyəsi müəyyənləşdirilir, problemlə bağlı proqam tələbləri təhlil edilir, dərsliklərin imkanları öyrənilir, elmi-nəzəri, pedaqoji, psixoloji, metodiki ədəbiyyat araşdırılır.

## FİZİKANIN TƏDRİSİNDƏ MƏSƏLƏ HƏLLİNİN ƏHƏMİYYƏTİ VƏ YERİ

**Hüseynova Arzu Mejdun qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Yeni dərsin izahı, mənimsənilmiş biliklərin möhkəmləndirilməsi,biliyin yoxlanması və.s. proseslərin icrası məsələ həllinin köməyi ilə yerinə yetirilir.Məhz buna əsaslanaraq,deyə bilərik ki,məsələ həlli dərsin ayrılmaz bir hissəsidir.Məsələ anlayışı və onun mahiyyəti haqqında psixoloq və pedaqoq alimlər müxtəlif fikirlər vermişdir.

Q.S.Kostyuka görə "məsələ" dedikdə "subyektdən məlum olanlar əsasında əlaqələrdən istifadə etməklə naməlumu tapmaq üçün bəzi əməliyyatları icra etməyi tələb edən situasiya" başa düşülür.

L.Nyuselə görə "məsələ" anlayışı subyektdən məsələni həll etmək üçün axtarıcılıq aparmağı tələb edir.

Pedaqoji ensiklopediyada məsələ anlayışına belə yanaşılır: "Məsələ həlli bu və ya digər fənnə aid elmi biliklər sistemini əldə etməyə xidmət edir."

Fizika fənnindən məsələ həll etmək şagirdlərdən fikri və praktik fəaliyyətin vəhdətini tələb edir. Belə ki,şagirdlər məsələ həllinin köməyi ilə müxtəlif metodlarla əldə etdikləri bilikləri-qanun,qanunauyğunluq və prinsipləri praktikaya tətbiq edə bilirlər.Məsələ həlli metod kimi bir çox funksiyaları yerinə yetirir:

- Məsələ həlli şagirdlərin bilik dairəsini genişləndirir və dərinləşdirir.
- Məsələ həlli düsturları yadda saxlamağa kömək edir.
- Məsələ həlli fizika ilə riyaziyyatın əlaqəsini möhkəmləndirir.
- Məsələ həlli şagirdlərin həm fiziki,həm də riyazi təfəkkürünü inkişaf etdirir.
- Məsələ həlli şagirdlərə müstəqil çalışmaq vərdişləri aşılayır.
- Məsələ həlli fiziki anlayışların daha aydın və yaxşı formalaşdırılmasına təsir göstərir,qanunların daha yaxşı başa düşülməsinə kömək edir.
- Məsələ həlli şagirdlərin məntiqi təfəkkürünün və yaradıcılıq qabiliyyətinin inkişafında mühüm rol oynayır.
- Məsələ həlli şagirdlərin biliyini yoxlamaq üçün və müvəffəqiyyəti hesaba almaq üçün ən güclü vasitədir.

Ümumiyyətlə məsələ həllinin əhəmiyyətindən danışdıqda onun praktik və tərbiyəvi əhəmiyyətini vurğulamaq lazımdır. Məsələ həllinin funksiyaları kimi təsnifatı da genişdir. Həlli üsuluna, çətinlik səviyyəsinə, xarakterinə və.s. görə təsnif olunur. İndi isə məsələ həllinin metodik ardıcıllığına nəzər yetirək və bunu bir nümunədə tətbiq edək. İlk olaraq, məsələ mətninin təhlili ilə başlanılır.Buraya mətnin oxunması,verilənlərin yazılması,məsələdə istifadə olunan fiziki kəmiyyətlərin aydınlaşdırılması daxildir. Bu hissədə əsas fiziki hadisə təhlil edilir və keyfiyyətcə xassələri qeyd olunur. Növbəti olaraq baxılan fiziki hadisə təhlil olunur.Bu mərhələdə fikirlər ümumiləşdirilir,fərziyyə irəli sürülür.İrəli sürülən fikirdən lazım olan qanuna gəlmək mümkündür. Növbəti də düstur və qanun yazılır.Riyazi metod qurulduqdan sonra hesablamalar aparılır. Sonra isə alınan nəticə təhlil olunur.Onun doğruluğu yoxlanılır, başqa həll yolları araşdırılır.

Ümumi həll qaydasından əlavə, hər bir məsələnin özünəxas həlli xüsusiyyətləri vardır. İndi isə Molekulyar fizika bölməsinə aid qrafik tipli bir məsələ nümunəsinə nəzər yetirək.

Məsələ. Sabit temperaturda su buxarının təzyiqinin həcmindən asılılıq qrafiki verilmişdir.Prosesdə buxarın kütləsi və sıxlığı necə dəyişmişdir?




İlk olaraq məsələnin şərti,daha sonra verilmiş qrafik təhlil olunur. Qrafiki oxumağı bacaran hər bir şagird verilmiş qrafikdə təzyiqin həcmdən asılı olmadığını asanlıqla müəyyən edər.
Burada qeyd etmək olar ki,sabit temperaturda yəni izotermik prosesdə doymuş buxarın təzyiqi,sıxlığı və molekullarının konsentrasiyası həcmdən asılı deyil.
Prosesin izotermik genişlənmə olduğunu nəzərə alsaq,doymuş buxarın kütləsi artar,mayenin kütləsi isə azalar.
Sabit temperaturda doymuş buxarın kütləsinin həcmindən düz mütənasib asılılığına əsaslanaraq, qeyd edərik:

$$\frac{m_2}{m_1} = \frac{V_2}{V_1} = \frac{3V_0}{V_0} = 3.$$

Nəticədə buxarın kütləsi 3 dəfə artacaq,sıxlıq isə həcmdən asılı olmadığından,dəyişməyəcəkdir.
Son olaraq,fizikanın tədrisində məsələrin yeri ilə bağlı onu qeyd edə bilərik ki,müəllimlər kəmiyyət xarakterli məsələlər daha çox müraciət etmiş,qrafik məsələlərə isə o qədər də toxunulmur.Bu özünü qəbul imtahanlarının statistikasında da göstərir.

Ədəbiyyat

1.Orta məktəbdə fizika tədrisi metodikası,T.Xasməmmədov,Bakı-1973
2.Orta məktəbdə fizika tədrisi metodikası,S.İmanov,Bakı-2004
3. Fizika məsələləri(Mexanika və molekulyar fizika) 2011


## KİMYANIN TƏDRİSİNDƏ EKOLOJİ TƏHSİL VƏ TƏRBİYƏ PROBLEMLƏRİ


**Hüseynova Aygün Rafik qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


İnsan fəaliyyətinin təbiətə təsirinin artmaqda davam etdiyi, yüksək elmi-texniki tərəqqinin baş verdiyi bir dövrdə ətraf aləm sürətlə çirklənir, enerji və xammal ehtiyatları azalır, nəticədə isə insan üçün mənfi təsirlər yaranmış olur. Biosferə xas olmayan kimyəvi maddələrin ekosistemə daxil olması onun kimyəvi tərkibini dəyişməyə gətirib çıxarmışdır ki, bu da yer kürəsində yaşayan bütün canlılara öz mənfi təsirini göstərmişdir. Ətraf mühitin ekoloji problemlərinin həllində təhsil müəssisələri, xüsusilə də ümumi orta təhsil müəssisələri mühüm rol oynayır. Cəmiyyətin hər bir üzvü məktəb yaşlarından ətraf mühitin vəziyyətindən, yerli və qlobal problemlərdən xəbərdar olmalı, ətraf mühitə qayğı ilə yanaşma ruhunda tərbiyə olunmalıdır. Ətraf mühitin mühafizəsi hər bir vətəndaşın vacib vəzifələrindən biridir. İnsanın şəxsiyyətinin formalaşmasının zəruri komponenti olaraq onda təbiətə düzgün münasibətin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Təbiətin qorunmasına, daha da zənginləşməsinə və gözəlləşməsinə hər bir insanda düzgün ekoloji düşüncə formalaşdırmaqla nail olmaq olar. Təbiət elmləri, biologiya, fizika, kimyanın tədrisi zamanı şagirdlərə ekoloji biliklərin ötürülməsi xüsusi əhəmiyyət kəsb edir.

Qeyd olunanları nəzərə alaraq müəllim üçün şagirdin şəxsiyyətinə təsir göstərə biləcək və onlarda ekoloji bilik və bacarıqların formalaşmasına imkan verəcək müxtəlif pedaqoji vasitələrin seçilməsi vacibdir. Orta məktəb məktəb kimya kursunda şagirdləri ekologiyanın kimyəvi problemləri ilə tanış etmək tələb olunur. Burada əsas diqqət ətraf mühitin hazırki durumu və bəşəriyyətin gələcəyi üçün təhdid olan faktlara və hadisələrə yönəldilməlidir.

Kimyəvi biliklər ətraf mühitin qorunması və ondan səmərəli istifadənin əsasları haqqında biliklərin ayrılmaz hissəsidir. Hazırki mərhələdə ətraf mühit və ekoloji

problemlərinin həllində kimyanın rolu böyükdür: hər hansı bir maddənin atmosferdə, torpaqda, su mühitində necə davrandığı, onun və çevrildiyi məhsulların bioloji sistemlərə hansı təsiri olduğu sualına cavab verir; sənaye istehsalının ekosistemin bir hissəsi halına gətirməklə onun təbii dövrlərə ən təbii və "ağrısız" daxil olmasını təmin edə bilir; zərərli maddələrin ətraf mühitə daxil olmasının qarşısının alınması, bu maddələrin və tullantıların təmizlənməsi, təkrar emalı və s. haqqında lazımı məlumat əldə etməyə imkan verir.
Orta məktəb kimya dərslərində ekoloji bilik və bacarıqların formalaşdırılmasında əsas hədəf kimi aşağıdakıları komponentləri sadalamaq olar:

- Şagirdlərdə ətraf mühitin ekologiyasına müsbət münasibət bəsləyən ekoloji bacarıqların formalaşdırılması;
- Şagirdlərdə davamlı və ardıcıl ekoloji biliklər sisteminin formalaşdırılması;
- Məktəblilərdə şəxsiyyətin əsas komponentlərindən biri olan sosial mövqeyin formalaşdırılması;
- Şagirdlər arasında nəzəri və praktiki fəaliyyət arasındakı əlaqənin inkişaf etdirilməsi;
- Şagirdlərdə sağlam həyat tərzinin əsaslarının formalaşdırılması və inkişaf etdirilməsi;
- Ekoloji problemlərin öyrənilməsində mövzulararası əlaqələrin formalaşması və inkişafı.

Sadalanan hədəflərə çatmaq üçün aşağıda qeyd olunan vəzifələrin həlli zəruridir:

- Ətraf mühitə insan diqqətinin zəruriliyi fikrini şagirdlərdə formalaşdırmaq;
- Şagirdlərin idrak fəaliyyətinə cəlb olunmasını asanlaşdırmaqla təmin etmək;
- Şagirdlərin şəxsi yaradıcılıq imkanlarını və müstəqilliyini inkişaf etdirmək;
- Şagirdlərdə sağlam həyat tərzində yaşamağa və öz sağlamlığını qorumağa marağı inkişaf etdirmək;

Ətraf mühitin ekoloji problemlərinin öyrənilməsi prosesində müəllim şagirdlərdə aşağıda qeyd olunan bacarıqları formalaşdırmalıdır:

- Bu prosesdə hər bir vətəndaşın rolunu müəyyənləşdirmək;
- Ekoloji problemlərin səbəblərini izah etmək və həll yollarını tapmaq üçün kimya biliklərindən istifadə etmək;
- Yerli ekoloji problemləri öyrənmək məqsədilə tədqiqat aparmaq üçün əlavə materialdan istifadə etmək;

Məktəb kimya kursunu tədrisi prosesində şagirdlərə ekoloji bilikləri verməklə mövcud ekoloji vəziyyətdə kimya "günahkardır" düşüncəsinə qarşı fikir formalaşdırmaqla yanaşı, bu elmin ekoloji problemlərə qarşı mübarizədəki xüsusi rolunun üzə çıxarmasına imkan yaradır. Şagirdlərin idrak fəaliyyətinə cəlb edilməsi, ətraf mühitin ekoloji problemləri və kimya fənninə maraqlarının artırılması, onlarda ekoloji bilik və bacarıqların formalaşdırılması aşağıdakı yollarla həyata keçirilə bilər: ekoloji məzmunlu seminar- dərslərin, konfrans-dərslərin və "ümumiləşdirici dərs" lərin keçirilməsi; ekoloji məzmunlu sinifdənxaric işlərin həyata keçirilməsi; ekoloji problemlərə aid əlavə resursların öyrənilməsi, sənaye müəssisələrinə, çirklənmiş su hövzələrinə və quru ərazilərə ekskursiyaların təşkili və s.

Qeyd olunmalıdır ki, şagirdlərin yaradıcılıq imkanlarının hüdudu yoxdur. Məktəbliləri aktiv fəaliyyətə cəlb etməklə ekoloji təhsil və tərbiyə prosesində müsbət nəticələrə nail olmaq olar.

## HOSPİTAL MƏKTƏBLƏRDƏ TYUTORLARIN PEŞƏ FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

**Hüseynova Aynur Şirin qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Tibb müəssisələrində şagirdlərin sağlamlıq vəziyyəti ilə bağlı tibbi tövsiyələr, şagirdin psixo-emosional xüsusiyyətləri və ehtiyacları haqda psixoloji-pedaqoji dəstək xidmətinin rəyi əsasında fərdi təhsil proqramı hazırlanır. Fərdi təhsil proqramını həyata keçirərkən şagirdlərin

xəstəliyinin hazırki vəziyyəti, müalicə prosesi, psixoloji vəziyyəti və xəstəlik nəticəsində yaranan problemlər nəzərə alınmalıdır. Fərdi təhsil proqramı mütəxəssislər (psixoloq, defektoloq, müəllim, tyutor və s.) tərəfindən həyata keçirilir.

Hospital məktəblərdə tyutorun peşə fəaliyyətinin xüsusiyyəti pedaqoji prosesə məşğul olması və şagirdin fərdi təhsil proqramını izləməsindən ibarətdir. Tyutor şagirdlərin bacarıqlarını, istəklərini, ehtiyaclarını, zəif və güclü tərəflərini müşahidə edir və şagirdin özünün də bilmədiyi potensialını müəyyənləşdirməyə kömək edir. Beləliklə, tyutorluq təhsil prosesinin fərdiləşdirilməsinin təmin olunduğu bir mühitdə mümkündür.

Xroniki somatik xəstəlikləri olan şagird xəstəliyi səbəbindən özünə, gələcəyinə şübhə ilə yanaşır və sabitliyin olmamasından xəbərdar olur, buna görə də tyutorun müşahidəsi ilə fərdiləşdirmə prosesi şagirdə öz dəyərini və həyatının dəyərini anlamağa, eyni zamanda təşəbbüs göstərməyə kömək edir. Ancaq tyutorun nəzərində yalnız şagird deyil, həm də onun ailə üzvləri var. Buna görə də tyutorlar mütləq şagirdlərin valideynləri ilə ünsiyyət qururlar: “şagirdlərin valideynlərinin daimi rəyi təlimin əsas məqsədinə nail olmaq üçün proqramda vaxtı düzgün bölüşdürməyə və şagirdin müəllimlə ünsiyyətdə özünü ifadə etmə üsullarına diqqət yetirməyə kömək edir. Valideynlər öz rəylərində qeyd ediblər ki, övladlarının müəllimlə dərsləri onlara sosial fasilə üçün vaxt verir, onlar uşağın fəaliyyətə cəlb olunmasını görürlər və bu anda pis düşüncələr arxa plana keçir”.

Xəstəxanada təhsil mühiti orta məktəb mühitindən xeyli fərqlənir, bu səbəbdən tyutorlar hər gün şagirdlərin müsbət münasibətini təşviq etməli və onlara kömək etməlidirlər. Digər bir fərq, bir çox şagird xəstəliyin ağırlıq dərəcəsi səbəbindən heç vaxt məktəbə getməmişdir, buna görə də tyutor müxtəlif mənbələrdən istifadə etmək, yaradıcı olmaq və həmin şagirdlərin fərdi təlim planlarını hazır etmək üzrə məsuliyyət daşıyırlar. Tyutorun işi hər gün əvvəlkindən fərqli ola bilər, buna görə də tyutorlardan işin unikal xarakterini nəzərə alaraq, xüsusi vəziyyətlərin, dərs zamanı yaranan problemlərin, fasilələrin və artan işlər siyahısının öhdəsindən gəlməyə kömək edən çeviklik tələb olunur. Həm fərdi təlim planının hazırlanması və həyata keçirilməsində, həm də yeni gələn şagirdlər ilə tez bir zamanda əlaqə qurmaq üçün istifadə olunan metodlarda yaradıcılıq tələb olunur.

Tyutorların peşə fəaliyyətinin digər bir xüsusiyyəti ondan ibarətdir ki, o, şagirdi müşahidə etməklə məşğul olur, lakin təkcə şagirdi deyil, eyni zamanda çətin həyat şəraiti ilə qarşılaşan bütün ailəsini müşahidə edir.

Ədəbiyyat


1. Долуев И.Ю., Большаков А.А. Особенности профессиональной деятельности тьютора в госпитальной школе/Педагогические исследования (сетевое издание), 58-79, 2021.
2. Шариков С.В. Создание образовательной среды для детей, находящихся на длительном лечении в стационарах медицинских учреждений/Российский журнал детской гематологии и онкологии, №4, с.65–73, 2015.
3. Шариков С.В. Педагогическая поддержка образовательных возможностей детей, находящихся на длительном лечении в медицинских стационарах/Альманах Института коррекционной педагогики, № 40, 2020.


## COĞRAFİYANIN TƏDRİSİNDƏ DİAQNOSTİK QİYMƏTLƏNDİRMƏ APARILMASININ ƏHƏMİYYƏTİ


**Hüseynova Günel Zakir qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Təhsil sistemində yeni qiymətləndirmə konsepsiyasının qəbulu ilə əlaqədar müəllimlər qiymətləndirmənin yeni anlayışları və formaları ilə tanış oldular. Belə anlayışlardan biri də diaqnostik qiymətləndirmədir. Hər bir müəllim şagirdin ilkin səviyyəsini qiymətləndirməyin

nə qədər vacib olduğunu bilməlidir. İnteraktiv təlimə keçidlə əlaqədar olaraq ənənəvi ilkin qiymətləndirmənin yeni məzmun və formada həyata keçirilməsi zərurəti yaranmışdır. Müəllimlər tərəfindən ilkin qiymətləndirmədən müfəssəl istifadə olunduğundan bir sıra diaqnostik qiymətləndirmə tələbləri yerinə yetirilməmişdir.

Diaqnostik qiymətləndirmə müəllimlərin şagirdlərə dərs keçməzdən əvvəl onların güclü, zəif tərəflərini, bilik və bacarıqlarını qiymətləndirə biləcəyi ilkin qiymətləndirmə və ya sınaqdan öncəki qiymətləndirmə formadır. Bu qiymətləndirmələrin şagird nəticələrinə təsiri çoxdur, lakin yekun qiymətləndirmə zamanı nəzərə alınmır. Şagirdlərin tələb olunan təlim məqsədlərinə nail olub-olmadığını müəyyən etmək üçün təlimdən sonra eyni qiymətləndirmə verilə bilər. Bu qiymətləndirmə forması ilə müəllimlər effektiv planlaşdırma apara bilər və şagirdlərə fərdi yanaşmanı təmin edə bilər. Diaqnostik qiymətləndirmə müəllimlərə kurs başlamazdan əvvəl şagirdlərin mövzu haqqında nə bildiyini daha yaxşı başa düşməyə imkan verən bir vasitədir. Belə qiymətləndirmələr şagirdlərin hazırkı intellektual, emosional və ideoloji vəziyyətini qiymətləndirmək üçün istifadə olunur.

Diaqnostik qiymətləndirmə kursun əvvəlində və sonunda yazılmış bir tapşırıqdır. Kursdan sonrakı qiymətləndirmələr kursdan əvvəlki qiymətləndirmələrlə müqayisə oluna bilər və müəyyən sahələrdə şagird potensialının təkmilləşməsini göstərə bilər. Bütün bunlar müəllimə hazırkı və gələcək şagirdlərin ehtiyaclarını ödəmək üçün cari və illik planlamalar üzərində düzəliş etməyə imkan verir.

Diaqnostik qiymətləndirmənin bir sıra funksiyaları var:

- Müəllimin tədris fəaliyyətində hansı metoddan istifadə etməli olduğunu müəyyən etmək.
- Sinifdəki şagirdlərin ümumi səviyyəsini müəyyənləşdirmək.
- Hər bir şagirdin ilkin bilik və bacarıqlarını fərdi şəkildə üzə çıxarmaq.
- Təlim prosesini idarə etmək və istiqamətləndirmək.
- Müəyyən müddət ərzində tələbələrin biliklərini müqayisə etmək.
- Şagirdin dərsə aid maraqlarını stimullaşdırmaq.

Diaqnostik qiymətləndirmə bir sıra nəticələrin reallaşmasına səbəb olmuşdur.

- Müəllim hər bir şagirdin və ya bütün sinfin gələcək planlarında fərdi olaraq çevik dəyişikliklər edə bilər.
- Müəllim həm tərbiyəvi, həm də tərbiyəvi dərsdə hansı səviyyədə və hansı istiqamətdə işləyəcəyini müəyyənləşdirir.
- Yazılı, şifahi nitqin inkişafına, şagirdlərin tapşırıqların hansı tip yoxlamaların aparılmasını müəyyən edir.

Müəllimlər yeni tədris ilinə və ya bölməyə başlamazdan əvvəl biliyi və ya anlayışı qiymətləndirmək üçün diaqnostik qiymətləndirmə aparır.

Diaqnostik qiymətləndirmə aparmağın məqsədi.

- Öyrənmə zamanı yaranan boşluqları aşkar etmək;
- Növbəti tədrisə daxil edilən anlayışa dair fikir əldə etmək;
- Şagirdlərin güclü, zəif tərəflərini, bilik səviyyələrini və bacarıqlarını ölçmək;
- Şagirdlərə fərdi yanaşmanı təmin etmək, kurikulumun əsas tələblərindən biri olan şagirdyönümlülüyü yerinə yetirmək.

Diaqnostik qiymətləndirmənin əhəmiyyəti:

- Diaqnostik qiymətləndirmə təlimin təşkilinə dair təlim strategiyalarını, üsullarını, formalarını müəyyənləşdirməyə imkan verir;
- Şagirdlərin təlim nəticələrini yaxşılaşdırmağa, dərsin səmərəli hazırlanmasına kömək edir;
- Şagirdlərin bilik bacarıqlarını müəyyənləşdirməklə tədris yükünü azaldır və təlim prosesini daha səmərəli edir.
- Müəllimlərə təlim prosesi üçün səmərəli təlim planı hazırlamağa kömək edir.

Diaqnostik qiymətləndirmələri hazırlamaq üçün bir neçə üsul və vasitə var.

- Müsahibə metodunun şagirdlə fərdi şəkildə aparılması məqsədəuyğundur.
- Yeni tədris ilində diaqnostik qiymətləndirmənin aparılması zamanı test tapşırıqlarının tapşırıqların verilməsi şagird üçün maraqsız ola bilər.
- Tədrisin ilk günü şifahi sorğu üsulu həm müəllim həm də şagirdlər üçün daha rahat diaqnostik qiymətləndirmə üsuludur. Müəllim üçün testlərin tərtib edilməsi şifahi sorğudan daha çox vaxta qənaət etməyə imkan verir.
- Diaqnostik qiymətləndirmənin aparılması zamanı BİBÖ iş üsulundan geniş istifadə olunur. Şagird mövzunun əvvəlində bildiyi məlumatları 1-ci xanada qeyd edir, bilmək istədikləri 2-ci xanada qeyd edilir,3-cü xana müvəqqəti boş saxlanır. Dərsin sonunda şagirdlər öyrəndikləri məlumatları qeyd edib sualların cavablanma dərəcəsini gözdən keçirirlər.
- Diaqnostik qiymətləndirmənin aparılmasının başqa bir maraqlı üsulu krossvord hazırlamaqdır. Müəllim tədris ilinin əvvəlində keçmiş tədris ilinə aid məlumatlar haqqında krossvord tərtib edə bilər. Beləliklə hansı bölmələr üzrə şagirdlərin çətinlik çəkdiyi aşkarlanar. Müəllimə köməkçi vasitə kimi Web 2.0 alətlərinə daxil olan "Crossword Labs" proqramını misal göstərmək olar.

Diaqnostik qiymətləndirmənin qeyd edilməsi:

- Müəllimin şəxsi jurnalında
- Şagird sinfini dəyişərkən daha rahat adaptasiyası üçün müəllimə kömək vasitəsi kimi şagird portfoliosunda
- Valideynlərin övladları haqqında məlumatlı olması üçün gündəliyin qeyd hissəsində

## LATIN DİLİN İSTİFADƏ OLUNMASI VƏ ƏHƏMİYYƏTİ

**Hüseynzadə Həqiqət Elçin qızı**
*Bakı Slavyan Universiteti*

Latın dili Hind-Avropa sisteminin qədim yazı dillərindən biridir. O, adını italyan tayfalarından birinin - mərkəzi Roma şəhəri olan Latsio (Latium) bölgəsində yaşayan latınların adından almışdır. Latın dilinin ilk yazılı sübutu eramızın 7-ci əsrinə aiddir. Romanın siyasi təsiri artdıqca və İtaliyanın digər bölgələrini tədricən fəth etdikcə, latın dilinin istifadə sahəsi eramızdan əvvəl III əsrdən başlayaraq bütün italyan əhalisi üçün ümumi oldu. Latın dili o vaxt Roma tərəfindən fəth edilmiş Aralıq dənizi ölkələrinə də nüfuz etmirdi. Eramızdan əvvəl 1-ci əsrə qədər, Latın dili özünün formalaşması prosesini əsas etibarilə tamamlayır, inkişafının ən yüksək mərhələsinə çatır. Böyük Roma yazıçılarının yaradıcılığı bu dövrə gedib çıxır: dünya mədəniyyətinə poeziya və ədəbi nəsrin gözəl nümunələri verən Siseron, Sezar, Lukreti, Katul, Virgil, Horatsi, Ovid. Latın dilinin inkişafındakı bu dövr klassik dövr adlanır. Cənubda bütün Aralıq dənizi ölkələrini, şimalda isə Avropanın böyük bir hissəsini fəth edən Roma artıq dünya dövlətinə çevrilir. Latın dili yerli dialektləri sıxışdıraraq beynəlxalq dilə çevrilir. Sonradan, demək olar ki, beş əsr ərzində latın dili geniş Roma İmperiyasının bir çox xalqları üçün ümumi olmuşdur. Qərb İmperiyasının süqutundan və barbarların işğalından sonra Roma aparıcı siyasi rolunu itirdi. 4-cü əsrdən 13-cü əsrə qədər keçmiş Roma İmperiyasının hər bir bölgəsi özünəməxsus həyatı yaşayırdı. Keçmiş Romanesk əyalətləri arasında linqvistik fərqlər getdikcə artırdı [1, s.12].

Orta əsrlərdə (IV – IX) məktəblərdə latın dili tədris olunurdu. Qanunvericilik, məhkəmə və diplomatik aktlar əsasən latın dilində yazılırdı. Kahinlər onun haqqında xütbələr oxuyurlar. O dövrün alimləri əsasən latın, yunan və ərəb dillərində yazılmış əsərlər yaratmışlar. Qədim yunan və ərəb alimlərinin əsərləri latın dilinə tərcümə edilmişdir. Latın dili ümumiyyətlə orta əsrlərdə öyrənilən yeganə dil idi. İntibah dövrü dillə bağlı üç əsas problem qaldırdı:

1.Milli dillərin yaradılması və inkişafı

2.Beynəlxalq miqyasda müxtəlif dilləri öyrənmək və mənimsəmək

3.Qədim və orta əsrlər linqvistik irsinə yenidən baxılması.

Beləliklə, 13-14-cü əsrlərdə milli dillərin yaradılması prosesi başladı. Böyük Coğrafi Kəşflər dövrü avropalıları naməlum xalqlar və dillərlə tanış etdi və yeni dillərin təsvirləri ortaya çıxdı. Roman dillərinin əsas mənbəyi ədəbi (klassik) latın deyil, canlı danışıq nitqi - xalq və ya vulqar, latın idi. Bununla belə, ədəbi latın dili "kitab" dili kimi mövcud olmaqda davam edirdi. Latın dilinin qrammatikasının tədrisinin ilkin mərhələlərində tələbələr latın dilini yaxşı bilmədiklərindən, rəsmi tələblərə görə kilsə və monastır məktəblərində dərslər tamamilə latın dilində aparılmalı olsa da, onlar öz ana dillərinin köməyinə müraciət etməli oldular. [ 3, s.124]

İtalyan İntibahı dil ənənəsinə nisbətən plastik sənətlərə və xarici formalara daha çox təsir etdi. İtalyan humanistlərinin xristianlıqdan əvvəlki dövrün klassik latın dilini canlandırmaq istəyi kilsə latın dilində, xüsusən də kurial üslubda çox az iz buraxmışdır. Müqəddəs poeziyada erkən xristian ənənəsini klassik qədim formalarla əvəz etməyə cəhdlər edilirdi. Humanist Pietro Bembo Papa X Leo-nu "daha yaxşı zamanların parlaq üslubunu" canlandırmağa çağırıb. Bununla belə, Papa xristianlığın ilk əsrlərinin liturgik irsini qoruyub saxlamağa üstünlük verdi. Roma təbliğatının latın dilini "düzəltmək" cəhdləri "Ciceronian" traktatında Kilsənin erkən xristian və liturgik dil ənənəsini müdafiə edən Rotterdamlı Erasmusun tənqidinə səbəb oldu. Yalnız bir halda İntibah dövrünün yenilikləri Xristianlığın ilk əsrlərinin irsi üzərində üstünlük təşkil etdi: klassik hərəkatın tərəfdarları qədim modellərə uyğun olaraq bəzi qısametrajlı himnləri yenidən hazırladılar. Erkən xristian ənənəsinin ritmik quruluşuna və dil formalarına uyğun gəlməyən bu rekonstruksiya tənqid olunsa da (opponentlər şikayət edirdilər: "Accessit latinitas et recessit pietas" - "Latın yaxşılaşır, dindarlıq azalır"), breviary-nin yeni nəşri Papa VIII Urbanın özü tərəfindən təsdiq edilmişdir. İslahat zamanı mədəni həyatın dünyəviləşməsi və digər hadisələr latın dilinin istifadəsini getdikcə məhdudlaşdırdı, yeni dilləri ön plana çıxardı. Diplomatiyada latın dili fransız dili ilə əvəz olunur: 1648-ci ildə Vestfaliya müqaviləsi latın dilində yazılmayan ilk belə sənəd idi. [4, s.19]

XVI əsrdə bütün Avropa ölkələrində milli dillərdən daha çox latın dilində kitab nəşr olunurdu. Həmin dövrdə latın dili beynəlxalq elm dili kimi öz mövqeyini qazanmağa başladı. İntibah dövrünün humanist alimləri klassik latın dili uğrunda, onu vulqarizmlərdən təmizləmək üçün fəal mübarizə aparmış, ərəb sözlərini yunan-latın terminologiyasından çıxarmışlar. İntibah dövründə beynəlxalq tibbi terminologiyanın əsasları qoyuldu. Tibb, əczaçılıq, kimya və digər elmlərin terminologiyasının vahidləşdirilməsi və sistemləşdirilməsi istiqamətində xeyli iş görülmüş, ayrı-ayrı elm bölmələri üçün lüğətlər nəşr edilmişdir. İntibah bizə latın dilində çoxlu sayda elmi əsər buraxdı. Yunan-latın əsaslı tibbi və bioloji terminologiya 18-ci əsrdə uğurla inkişaf etmişdir. Bir çox alimlər latın dilində yazmağa davam edirdilər. Beləliklə, ona məlum olan bitki dünyasını ciddi şəkildə təsnif edən ən böyük isveçli botanik Karl Linney dünyaca məşhur əsərlərini latın dilində yaratmışdır. [3, s.156]

Linnaeus tərəfindən təyin edilmiş Latın bitki adlarının əksəriyyəti hələ də qanuniləşdirilmiş beynəlxalq təyinatlardır. Rusiyada elmin ilk addımları latın dilində yazılmış elmi əsərlərin tərcüməsi ilə bağlı olmuşdur. Ən erkən tərcümələr latın və yunan dillərindən edilmişdir: latın və yunan kitablarının terminləri, ilk növbədə, rus tərcüməçilərinin diqqətini çəkmişdir. Bəşəriyyətin mədəni və elmi inkişafına belə böyük təsir göstərmiş latın dili müasir dillərdə yeni təbiət elminin və tibb terminologiyasının formalaşması üçün əsas beynəlxalq mənbə olaraq qalır. [2]

Dərman nomenklaturası xüsusilə intensiv inkişaf edir. Dərman adları adətən yunan və ya latın söz əmələ gətirən elementlərdən əmələ gəlir. Bu baxımdan, "ölü" dillər böyük imkanlar verir, çünki onlar danışıq dili kimi istifadə olunmur, buna görə də ayrı-ayrı sözlərin mənaları artıq dəyişmir və onlara çox xüsusi bir məna verilir. Bir çox hallarda müəyyən latın elementlərinə qədim dildə olmayan yeni məna verilir. Beynəlxalq əhəmiyyət kəsb edən latın dili söz əmələ gətirən elementlər haqqında biliklər birincisi, əksər dərman adlarını müəyyən prinsiplərə uyğun tərtib etməyə imkan verir. İkincisi, ya dərmanın nədən alındığını, ya

kimyəvi tərkibini, ya da hansı xəstəliklər üçün istifadə edildiyini anlamağa kömək edir. Məsələn, myc(et) kökü - bir sıra adlardakı göbələk dərmanın mikroorqanizmlərin (biomisin, xloramfenikol, streptomisin) həyati fəaliyyətinin məhsulları olan antibiotiklər adlanan müəyyən dərmanlar qrupuna aid olduğunu göstərir. , və s.), kök ags - (arsenikdən - arsenik) dərmanın tərkibində arsenin miqdarını göstərir (novarsenol, salvarsan, osarsol və s.). Dünyanın əksər ölkələrində reseptlər latın qrammatikası və sintaksis qaydalarına uyğun olaraq latın dilində yazılır. Ona görə də, məsələn, alman həkimin yazdığı resepti dünyanın istənilən ölkəsində başa düşmək olar və əksinə, rus və ya belarus həkiminin yazdığı reseptə görə Koreyada dərman hazırlana bilər. Beləliklə, latınlaşdırılmış terminoloji sistemlər bu gün tibb, əczaçılıq və botanikada köməkçi beynəlxalq işarə sistemləri kimi inkişaf etməkdə davam edir. Humanitar və təbiət elmlərində Latın dili universal beynəlxalq "öyrənmə dili" olaraq öz xüsusi həyatını yaşamağa davam etdi. İntibah dövründə və müasir dövrdə yunan müəlliflərinin bir çox mətnləri latın dilinə tərcümə edilmişdir. Yeni dövrün görkəmli filosoflarının, məsələn, Dekart və Leybnits kimi bir çox əsərləri latın dilində yazılmışdır. Məşhur filosof və yazıçı Montaigne Latın və Roma ədəbiyyatının əla mütəxəssisi idi. Kantın və hətta sonrakı mütəfəkkirlərin yazılarında biz ifadə olunan fikrə əlavə sərtlik vermək üçün nəzərdə tutulmuş çoxlu latın terminlərinə rast gəlirik. Şəxsi yazışmalarda latın dilindən də tez-tez istifadə olunurdu [4, s.76].

Qədim dövrlərdən bəri latın həmişə danışıq dili olmuşdur. Digər qədim dillərdən fərqli olaraq, Latın dili heç vaxt danışıq ənənəsində heç bir fasilə yaşamayıb, həmişə yeni ədəbi əsərlər yaradır və yeni lüğət inkişaf etdirir. 5-ci əsrdə Roma İmperiyası süqut etdikdə, Qərbi Avropanın böyük bölgələri hələ də rəsmi və xalq dili olaraq Latın dilini saxlayırdı. Orta əsrlərdə roman dillərinin inkişaf etdiyi ərazilərdə diglossiya vəziyyəti hökm sürürdü. Vulqar Latın dili gündəlik nitqlə məhdudlaşan fərqli dillərə ayrılmağa başlamışdı və rəsmi və akademik yazı üçün istifadə edilən Orta əsr Latın dili mədəni dairələrdə, eləcə də monastırlarda və din xadimləri arasında danışılırdı. Orta əsrlər latın dili əvvəllər heç vaxt latınca danışmayan german və slavyan xalqlarına yayıldı. Qərbi Avropada latın dili beynəlxalq ünsiyyət dilinə çevrildi.[4, s.115]

Ədəbiyyat

1. Тронский И. М., Очерки из истории латинского языка./Тронский И.М - М.: Молодая гвардия 1953, 274с
2. www.linqualatina.ru
3. Чернявский М.Нучебник-М.:Медицина,2000, Латинский язык и основы терминологии, 449с
4. Большая советская энциклопедия. — М.: Советская энциклопедия. 1969—1978, 372

## XÜLASƏ

İndi Latın dili Katolik Kilsəsinin və Vatikan Dövlətinin rəsmi dilidir. 1965-ci ilə qədər bütün katolik kilsələrində xidmətlər yalnız latın dilində aparılırdı. Dilin getdikcə daha çox milli dillərlə əvəzlənməsinə baxmayaraq, bir çox bilik sahələrində, xüsusən də biologiya, hüquq və tibbdə elmi terminologiyada öz əhəmiyyətini qoruyub saxlayır.

***Açar sözlər:*** *Latın dili, Hind-Avropa dil sistemi, qədim dövrlərdə Latın dili, İntibah dövrü.*

## SUMMARY

Latin is now the official language of the Catholic Church and the Vatican State. Until 1965, services in all Catholic churches were conducted only in Latin. Despite the fact that the language is increasingly replaced by national languages, it retains its importance in scientific terminology in many fields of knowledge, especially in biology, law and medicine.

***Key words:*** *Latin language, Indo-European language system, Latin language in ancient times, Renaissance period.*

**РЕЗЮМЕ**

Латынь теперь является официальным языком Католической церкви и государства Ватикан. До 1965 года службы во всех католических храмах велись только на латыни. Несмотря на то, что язык все чаще заменяется национальными языками, он сохраняет свое значение в научной терминологии во многих областях знаний, особенно в биологии, юриспруденции и медицине.

***Ключевые слова:*** *Латинский язык, индоевропейская языковая система, латинский язык в древности, период Возрождения.*

## YENİ NƏSİL ƏDƏBİYYAT DƏRSLİKLƏRİNDƏ TƏLİM TEXNOLOGİYALARININ MAHİYYƏTİ (Vsinif "Ədəbiyyat" dərsliyi nümunəsində)

**Xəlilova Sevil Əlövsət qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Həyatı bədii obrazlarla əks etdirən söz sənəti kimi tədris fənləri içərisində ədəbiyyatın xüsusi yeri var. Ədəbiyyat bir tərəfdən əxlaqi-mənəvi dəyərlərin zənginləşməsinə, bir tərəfdən zəngin lüğət tərkibinin qazanılmasına, digər tərəfdən həyatı dərk etməyə xidmət edir. Bütün dövrlərdə ədəbiyyatın ideologiyaya xidmət etdiyini nəzərə alarıqsa, sovet dönəmində bu fənn təbliğat vasitəsi kimi əvəzsiz vasitə kimi dəyərləndirilirdi. Belə ki, dərsliklərə daxil edilən mətnlər sovet quruculuğu, beynəlmiləlçilik, xalqlar dostluğu mövzularında olurdu və bunlara xüsusi diqqət yetirilirdi. İstər xalq ədəbiyyatı nümunələri, istərsə də klassik ədəbi nümunələr dövrün ideoloji təbliğat aparatının tələblərinə uyğunlaşdırılırdı. Dərsliklərdə milli ədəbi nümunələrlə yanaşı, sovet xalqları ədəbiyyatı, dünya ədəbiyatı nümunələrinə daha çox yer verilirdi. Milli yaddaş, milli özüünüdərk arxa plana keçir, daha çox zəmanədən şikayət ruhlu, ümumi (sovet) ab-havanı tərənnüm edən əsərlərə üstünlük verilirdi.

1990-cı illərdə dövlət müstəqilliyi qazanıldıqdan sonra ədəbiyyat dərsliklərində bədii mətn nümunələrinin seçiminə münasibət də dəyişdi. Yeni tədris plan və proqramlarının yaranması ədəbiyyat dərsliklərinə, mətn nümunələrinə metodik baxışı dəyişdi. Daha çox milli ədəbi nümunələrin seçilməsi tələb olaraq qarşıya qoyuldu. Bu nümunələr hər şeydən əvvəl, şagirdlərdə yurd sevgisi, estetik zövq, humanizm, vətənsevərlik, toerantlıq kimi duyğular aşılayan nümunələrdir. Lakin nümunə seçimi kifayət etmirdi, təlimin daha səmərəli və effektiv təşkili, "köhnə"nin yaxşı cəhətlərini saxlamaqla yeni, daha səmərəli təlim prosesinin təşkili qarşıya qoyuldu. Təbii ki, bu, müxtəlif üsul və vasitələrin, texnologiyaların, iş formalarının tətbiqindən asılı idi. Dünya təhsilinə inteqrasiya təlimin məzmunu, təşkili üzrə qabaqcıl təcrübənin mənimsənilməsinə və ondan istifadəyə geniş imkan yaratdı. Xüsusilə də fənn kurikulumları yeni pedaqoji texnologiyaların tətbiqini zərurət kimi ortaya qoydu.

Bu gün ümumtəhsil məktəblərində yeni nəsil ədəbiyyat dərslikləri fəal təlim formalarına müraciət edilməsinə geniş imkanlar yaradır. Dərsliklərdə metodik tapşırıqlar, suallar, metodik tövsiyələrdə müəllim üçün tapşırıqlar ənənəvi təlimdən uzaqlaşıb yeni texnologiyalara, metod və iş formalarına müraciət etmək zərurəti yaradır. Qabaqcıl müəllimlərin iş təcrübəsini müşahidə edərkən bir daha şahid olduq ki, ədəbi mətnlərin daha dərindən mənimsənilməsi müxtəlif texnologiyaların qarşılıqlı əlaqədə tətbiqi sayəsində mümkündür. Soltan Hüseynoğluya görə, pedaqoji ədəbiyyatda haqqında danışılan texnologiyanın məktəbə yol tapması asan deyil, obyektiv və subyektiv səbəblərdən asılıdır. Təbiidir ki, istənilən texnologiya əvvəlcə ümumpedaqoji səpkidə meydana çıxır. Müəyyən texnologiyanın fənnin tədrisində tətbiqi yollarının işlənilib hazırlanması hələ işin başlanğıcı deməkdir. Daha mühüm olan fənni tədris edən müəllimlərin yeniliyi mənimsəmələri, tətbiqinə maraq göstərmələri, fəaliyyətlərində nəzərə almalarıdır.

Yuxarıda qeyd etdik ki, yeni təlim texnlogiyaları ötən əsrin 90-cı illərindən tətbiq olunur. Elmi-metodik ədəbiyyatdan aydın olur ki, heç də bütün müəllimlər bu texnlogiyaları rahat qəbul etmir və dərslərdə tətbiq etmirlər. Fikrimizcə, bu, müəyyən nəsil (həm yaşlı, həm gənc) müəllimlərin hələ də ənənəvi təlimdən uzaqlaşa bilməməyi, özlərinin köhnə "metodları"na sədaqəti ilə bağlıdır. Hər bir yeniliyin asanlıqla qəbul edilmədiyi təbiidi və bu, texnologiyaların tətbiqi məsələsində də özünü göstərir. Bunun obyektiv və subyektiv səbəbləri var ki, metodist alimlər Soltan Hüseynoğlu, Bilal Həsənv tərəfindən münasibət bildirilmişdir. Orta məktəbin həm ədəbiyyat dərsliklərinin (V-XI siniflər üzrə), həm də müəllimlər üçün metodik vəsaitlərin müəllifləri olan alimlər bütün yanaşmaları nəzərə alaraq, mövzular üzrə dərsin keçilməsi ilə bağlı tövsiyələr vermişlər. Mövzuların müxtəlif texnologiyalarla tədrisinin təşkili məqsədilə dərslik müəllifləri elmi araşdırmalarını da pedaqoji ədəbiyyatda nəşr etdirir, müəllimlərə çatdırırlar.

Ümumtəhsil məktəbləri V sinif "Ədəbiyyat" dərsliyinin müəllifləri Soltan Əliyev, Bilal Həsənov, Əminə Səfərova və Əsgər Quliyevdir.

İlk növbədə onu qeyd etmək lazımdır ki, dərsliyin illər ərzində tətbiqi təcrübəsinin müəliflər tərəfindən öyrənildiyi və ciddi təkmilləşdirmələr apardıqları müsbət qiymətləndirilməlidir. Belə ki, dərsliyin strukturunda və məzmununda dəyişikliklər edilmiş, metodik tapşırıqlarda şagirdlərin yaş və mənimsəmə səviyyəsi ilə yanaşı, müəllimlərin mövzuların tədrisinə yaradıcı münasibəti nəzərə alınmışdır.

V sinif "Ədəbiyyat" dərsliyinə daxil edilmiş mövzular (mətn nüminələri) müəlliflər tərəfindən həssaslıqla seçilmiş, şagirdlərin milli-mənəvi dəyərlərə, azərbaycançılıq konsepsiyasına, vətənpərbərlik ruhunda böyüməlırinə istiqamətləndirmə dərsliyin məzmununda əsas götürülmüşdür. Xüsusən xalqın azadlıq mübarizəsində canını qurban vermiş oğulların xatirəsinə həsr olunmuş "Oğul həsrəti" (X.Rza) şeiri, 32 il işğaldan sönra azad olunmuş Şuşanın əzəmətini, əsrarıngiz gözəlliyini əks etdirən "Şuşa" (F.Qoca) şeiri, "Azərbaycan! Azərbaycan" (Ə.Cavad) şeirinin oxu materialı kimi verilməsi təqdirəlayiqdir. Fikrimizcə, V sinif şagirdində vətənpərvərlik duyğularının formalaşması üçün seçilən mətnlər həm metodiki (həcm, dil, üslub) baxımdan, həm də mövzu baxımından geniş imkanlar yaradır.

Mövzuların tədrisi ilə bağlı müəlliflərin metodik tövsiyə və tapşırıqlar adı altında verdikləri sual və tapşırıqlar diqqəti cəlb edir. Tapşırıqlar təlim prosesisnin interaktiv üsullarla reallaşdırılmasına imkan verir; keçmiş mövzuların təkrarı, mövzulararası inteqrasiya şagirdlərdə tənqidi təfəkkürün inkişafına, müqayisəli öyrənməyə, təlim nəticələrinin reallaşdırılmasına, nəticəyönümlülüyə istiqamətləndirir.

Dərslikdə təhlillə bağlı verilən "Araşdırın. Fikirləşin. Cavab verin", "Tətbiq. Müzakirə. Yaradıcı iş" bölmələri əsərin ideyasını həyat hadisələri ilə əlaqələndirməyə, obrazların xarakterini açmağa, əsərin sənətkarlıq xüsusiyyətlərinin aydınlaşdırılmasına, həmçinin yaradıcı təfəkkürü inkişaf etdirməyə təhrik edir. Şifahi və yazılı nitqin inkişafı üzrə müəlliflər tərəfindən təklif olunan bərpaedici və yaradıcı müstəqil işlər, təlim materiallarının məzmun, dil-üslub baxımından şagirdlərin yaş və qavrama səviyyəsinə uyğun olması, seçim imkanlarının, inklüzivliyin gözlənilməsi də dərsliyin özəlliyi kimi qeyd olunmalıdır.

Dərsliyin sonunda ifadəli oxuda istifadə edilən şərti işarələrin verilməsi şagirdlərin oxu sənətinin xüsusiyyətlərinin qavranılmasına, sozü duymaq, ondan yerində istifadə edə bilmək bacarığının formalaşmasına xidmət edir. Hər mövzu ilə bağlı metodiki tapşırıqların verimısi, müstəqil işlərin təşkili, ədəbi anlayışların qavranılması istiqamətində tövsiyələr müəllimlər üçün dərsin standartlara uyğun qurulmasında böyük dəstəkdir.

Bu gün şagirdlərin yalnız bilik qazanmaq deyil, biliklərlə yanaşı, praktik bacarıq və vərdişlərə yiyələnməsi, şəxsiyyətyönümlülük və nəticəyönümlülük baxımından yeni nəsil ədəbiyyat dərslikləri dərslik tərtibi prinsiplərini ödəyir qənaətinə gələ bilərik.

## RİYAZİ RƏQQASIN RƏQS QANUNLARININ ÖYRƏNİLMƏSİ

**Xurşudov Şamil Mirmusa oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Aparılan müşahidələr nəticəsində müəyyən edilmişdir ki, təhsil müəssisələrində fizika dərslərinin müasir texnologilyalarla təmin olunmuş laboratoriyalarda tədris olunması şagirdlərin dərsi daha yaxşı başa düşməsinə gətirib çıxarır. Eyni zamanda şagirdlər laboratoriyalarda öyrənmiş olduqları bilikləri gündəlik fəaliyyətlərində qarşılarına çıxan problemlərin həllində tətbiq edə bilirlər.

Fizika fənninin mühüm mövzularından biri də "Mexaniki rəqslər və dalğalar" mövzusudur. Mexaniki rəqsləri öyrənmək üçün riyazi və yaylı rəqqaslardan istifadə olunur. Yay və ona bağlanmış cisimdən ibarət rəqs sisteminə yaylı rəqqas deyilir. Uzanmayan çəkisiz nazik sapdan asılmış maddi nöqtəyə riyazi rəqqas deyilir.

Riyazi rəqqasın rəqs qanunlarını öyrədərkən müəllim əvvəlcə şagirdləri riyazi rəqqasla tanış edir, sapdan asılmış yükü, xətkeşi və s. göstərir. Birinci dərsdə ancaq ümumi, əsas əlamət rəqs sisteminin vəziyyəti ilə əlaqədar rəqsi hərəkətə xarakteristik təkrarları qeyd etməlidir. Bərabər zaman fasilələrindən sonra təkrarlanan hərəkəti periodik adlandırmaq olar. Rəqsləri yaratmaq üçün ipdən asılmış və ya yaydan asılmış yükü tarazlıq halından çıxarmaq lazımdır.

$$\omega_0 = \sqrt{\frac{g}{l}}$$

düsturundan riyazi rəqqasın periodu və tezliyi üçün aşağıdakı ifadələri alırıq:

$$\omega_0 = \frac{2\pi}{T} \text{ olduğundan, } T = \frac{2\pi}{\omega_0} = \frac{2\pi}{\sqrt{\frac{g}{l}}} = 2\pi\sqrt{\frac{l}{g}}$$

Yuxarıda qeyd olunan düsturda

$$\omega_0 = 2\pi\nu \text{ olduğundan, } \nu = \frac{\omega_0}{2\pi} = \frac{1}{2\pi}\sqrt{\frac{g}{l}}$$

Bu düsturları təhlil edərkən görmək olur ki, riyazi rəqqasın rəqs periodu və tezliyi kütlədən və rəqs ampilitudundan asılı deyil. Bu isə riyazi rəqqasın izoxronluq xassəsi adlanır.

Şagirdlərin diqqətinə çatdırmaq lazımdır ki, riyazi rəqqasın periodu və tezliyi kütlədən asılı deyil. Bu onunla izah olunur ki, ağırlıq qüvvəsi yükün kütləsi ilə düz mütənasibdir və yükün aldığı təcil onun kütləsindən asılı deyil.

Riyazi rəqqasın rəqsinin öyrənilməsi Q. Qalileyin bütün cisimlərin eyni cür düşməsi fikrinə gətirib çıxarmışdır.

Müəllim bu mövzunu informasiya kommunikasiya texnologiyalarından (İKT), virtual təcrübələrdən istifadə etməklə, riyazi rəqqasın hazırlanmasını şagirdlərə əyani olaraq göstərməklə, məsələ həll etməklə şagirdlərə daha yaxşı formada aşılaya bilər. Müəllim eyni zamanda şagirdlərin bu mövzuda öyrənmiş olduğu informasiyaları sınaqlar keçirməklə daha da möhkəmləndirə bilər.

Tədris materialının məzmununun məqsədi həm təhsilalanlarda nəzəri təfəkkürün formalaşmasına, həm də emprik təfəkkürün formalaşmasına xidmət edir. Tədrisdə fəal təlim metodlarından istifadə evristik, problemli, tədqiqat xarakterli testlər, göstərilən mövzuda yaradıcılıq tələb edən tapşırıqlar yerinə yetirməsi optimal həlli tapmağa imkan verir.

Riyazi rəqqasın rəqs qanunlarının öyrənilməsinə aid orta məktəbin fizika kursunda bir neçə tapşırıq nümunəsinə baxaq.



Şəkil 1.



Şəkil 2.

1 – də 9l uzunluğundakı rəqqas yana açılıb buraxıldığında 12 saniyə sonra buraxıldığı yerə geri dönür. Tavandan 5l aşağıya bir mismar vurulub. Şəkil 2 – dəki kimi eyni bucağ altında sərbəst buraxılarsa, riyazi rəqqasın periodu neçə saniyə olar? (π = 3)

Həlli:

$\boldsymbol{l_1}$ uzunluqlu riyazi rəqqasın periodu: $\boldsymbol{T} = 2\pi\sqrt{\frac{l_1}{g}}$. Bu düstura görə uzunluğu $9l$ , periodu 12 san olan şəkil 2 – dəki riyazi rəqqas üçün

$$\boldsymbol{T = 2\pi\sqrt{\frac{l_1}{g}} \qquad 12 = 2 \cdot 3\sqrt{\frac{9l}{g}} \qquad 2 = \sqrt{\frac{9l}{g}} \qquad \sqrt{\frac{l}{g}} = \frac{2}{3}}$$

Şəkil 2 – dəki riyazi rəqqas sərbəst buraxılarkən onun periodu $\boldsymbol{T = 2\pi\sqrt{\frac{l_2}{g}}}$**:** bu riyazi rəqqasın uzunluğu Şəkil 2 – dən göründüyü kimi $4l$ - ə bərabərdir.

$$\boldsymbol{T = 2\pi\sqrt{\frac{l_2}{g}} = 2 \cdot 3\sqrt{\frac{4l}{g}} = 6 \cdot 2\sqrt{\frac{l}{g}} = 12 \cdot \frac{2}{3} = 8\, san}$$

KO məsafəsini 3 saniyəyə, OL məsafəsini 2 saniyəyə, yenidən LO məsafəsini 2 saniyəyə, OK məsafəsini 3 saniyəyə qət etdiyindən bu riyazi rəqqasın periodu T=6+2+2+3=10 saniyə olar**.**

Bu tipli məsələlərin həlli şagirdlərin riyazi və yaylı rəqqaslar mövzusu və onları xarakterizə edən kəmiyyətləri daha dərindən öyrənməyə şərait yaradır və kursun nəzəri və praktiki səviyyəsini yüksəldir.



Ədəbiyyat
1. Zenfira Hacıyeva Orta məktəbdə “Rəqslər və dalğalar” mövzusunun tədrisi metodikasına dair metodik vəsait. Bakı 2003.
2. Ş.H.Əlizadə kurikulum üzrə fizikadan dərs nümunələri “3 saylı Bakı mətbəəsi”Bakı 2014.
3. Claudia Barile, Caterina Casalova, Giovanni Pappalettera, Vimalathithan Paramsamy Kannan “Sound Waves and Acoustic Emission”

## SİNİFDƏNXARİC İŞLƏR VƏ ONLARIN TƏLİM PROSESİNDƏKİ ROLU

**İbadullayev Elçin Hidayət Oğlu**
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Şagirdlərin təlim və tərbiyə işlərini tamamlayan və bir-birindən ayrılmaz iki istiqamət vardır:
1.Sinifdə həyata keçirilən təlim prosesi.
2.Sinifdənxaric işlər.

Sinifdənxaric işlər orta ümumtəhsil məktəblərində və ya peşə-ixtisas məktəblərində tərbiyə prosesinin tərkib hissəsinə daxildir və təhsil alanların asudə vaxtının əsas təşkili formasından biridir.Bir çox hallarda sinifdənxaric tərbiyə və təlim işləri rəhbərlərinin nəzarəti altında pedaqoji kollektiv tərəfindən həyata keçirilir.

Sinifdənxaric işlər tədris proqramına daxil olmasa da sinifdə həyata keçirilən işlərin davamı olaraq, könüllü şəkildə həyata keçirilir.Sinifdənxaric işlər şagird təlim və tərbiyəsində böyük əhəmiyyət daşıyır.Sinifdənxaric işlər fərdi,qrup və kollektiv şəkildə təşkil edilə bilər:
1.Fərdi sinifdənxaric işlər yaradıcı xarakter daşımaqla ,şagirdlərin maraq və təlabatlarına uyğun Coğrafiya müəlliminin verdiyi tapşırıqlar əsasında həyata keçirilir.Fərdi sinifdənxaric işlərə aşağıdakılar aiddir:
Foto-albom hazırlamaq, stend düzəltmək,sinifdənxaric oxu,divar qəzetləri üçün məqalələr hazırlamaq.
2.Qrup halında həyata keçirilən sinifdənxaric işlərdə isə bir qrup şagird birgə fəaliyyət göstərir və bu işlərə aşağıdakılar daxildir:
Dərnəklər,klublar,studiyalar,cəmiyyətlər.
Məsələn:”Gənc Coğrafiyaçılar Cəmiyyəti”,”Kitabsevərlər Klubu” .
3.Kütləvi şəkildə həyata keçirilən sinifdənxaric işlər zamanı isə bütün sinif və məktəb iştirak edir.Kütləvi sinifdən xaric işlərə viktorinalar,səhnəciklər ,olimpiadalar,tanınmış şəxslərlə görüş,Coğrafiya gecəsi ,konfranslar,teatr və ya kino tamaşaları aiddir.

Sinifdənxaric işlər şagirdlərin tərbiyəsində də böyük önəm kəsb edir. Bu işlərin köməyi ilə şagirdlərdə ətraf mühitə qayğı və sevgi ,vətənpərvərlik kimi hisslər formalaşır. Sinifdən xaric işlərin aşağıdakı tərbiyə istiqamətləri vardır:
1.Estetik tərbiyə 2.İqtisadi tərbiyə 3.İdeya -siyasi tərbiyə 4.Fiziki tərbiyə 5.Əxlaqi tərbiyə.

Sinifdənxaric işlər şagirdlərdə müasir təhsilin tələb etdiyi şagird şəxsiyyətinin formalaşmasına kömək edir.Şagirdlər sinifdənxaric işlər sayəsində həyati bacarıqlara yiyələnirlər.Bu bacarıqlara aşağıdakılar daxildir:
1.Yaradıcı düşünmə 2.Məntiqi düşünmə 3.Müstəqil öyrənmə 4.Tədqiqatçılıq bacarığı 5.Əməkdaşlıq bacarığı .

Sinifdən xaric işlərin həyata keçirilməsi zamanı aşağıdakı prinsiplər nəzərə alınmalıdır:
1.Coğrafiya fənni üzrə həyata keçirilən sinifdənxaric işlərin şagirdlərin inkişafı və həyati bacarıqlarla əlaqələndirilməsi prinsipi;
2.Sinifdənxaric işlərin təlim materialları ilə uyğunluğu prinsipi;
3.Təhsilalanların bu işlərə cəlb edilməsi zamanı onların istedad ,bacarıq,maraq və meyillərinin nəzərə alınması prinsipi;
4.Şagirdlərin sinifdənxaric işlərə cəlb olunması zamanı könüllü iştirakı prinsipi;

5.Sinifdənxaric işlərin təşkili zamanı şagird təşəbüsskarlığının nəzərə alınması prinsipi;
6.Sinifdəxaric işlərin öyrədici prinsipi;
7.Sinifdənxaric işin inkişafetdirici prinsipi;
8.Sinifdənxaric işlərin tərbiyəedici prinsipi.

Sinifdənxaric işlər təlimin təşkili formalarından biri olmaqla ,şagird şəxsiyyətinin hərtərəfli inkişafında böyük əhəmiyyət daşıyır.Lakin müasir ümumtəhsil orta məktəblərində sinifdənxaric işlərin yüksək səviyyədə həyata keçirilə bilməməsinin aşağıdakı səbəbləri vardır:
1.Sinifdənxaric işlər tədris proqramına daxil deyil.
2.Fənn müəllimləri üçün sinifdənxaric işlərin təşkilinə dair yetəri qədər metodik vaistələr və tövsiyələr mövcud olmadığı üçün müəllimlər bu işləri həyata keçirməkdə çətinlik çəkirlər.
3. Dövlət və orta məktəblər tərəfindən sinifdənxaric işlərin təşkilinə maliyyə ayrılmır.
4.Fənn müəllimlərinin əksəriyyəti bu işlərin həyata keçirilməsinə əhəmiyyət vermirlər.

Nəticə olaraq sinifdənxaric işlər Coğrafiya dərslərinin ayrılmaz hissəsidir ,bu işlər olmadan dərsin kefiyyətinin və səmərəliyinin yüksəldilməsi mümkün deyil.Buna görə də hər bir Coğrafiya müəllimi sinifdənxaric işlərin həyata keçirilməsinə təlim prosesində geniş yer verməlidir.

Ədəbiyyat

1.Coğrafiyanın tədrisi metodikası, Nəzərov Eldar, Bakı 2008
2.Coğrafiya təliminin nəzəri əsasları. Bakı, Elm və təhsil, 2013, s. 389
3.Məktəb pedaqogikası, Kazımov Nurəddin, Bakı 2011
4. Yeni materialların öyrədilməsində sinifdənxaric işlərin təşkili, Paşayeva Arzu, 2019

## ÜMUMİTƏHSİL MƏKTƏBLƏRİNİN 8-Cİ SİNFİNDƏ COĞRAFİYA FƏNNİNİN TƏDRİSİ ZAMANI STATİSTİK GÖSTƏRİCİLƏRİN TƏHLİLİ YOLLARI

**İbrahimova Röya Mikayıl**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Statistika tədqiqat metodu kəmiyyət göstəricilərinin seçilməsi, hazırlanması, qruplaşdırılması və təhlil edilməsidir. Kəmiyyət göstəricilərinin toplanması ilə məşğul olan statistika iqtisadi coğrafiyaya çoxlu faktlar və rəqəm materialları verir.Statistika elmi ilk öncə iqtisadi coğrafiyanın tərkib hissəsi olsa da, sonradan inkişaf etməsi və yeni bir elm sahəsinə çevrilməsi onun iqtisadi coğrafiyadan ayrılmasına səbəb olmuşdur. İqtisadi coğrafiyanın bütün sahələri, bölgələrin ayrı-ayrı təsərrüfatının strukturu, onun inkişafı, ixtisaslaşması, sənaye qovşaqlarının və şəhərlərin tipologiyasının öyrənilməsi statistik materialların seçilib təhlil edilməsi vasitəsi ilə aparılır.Statistik hesablama əməliyyatları aparılmadan iqtisadi coğrafiyanın bir çox elmi müddəalarını sübut etmək və əsaslandırmaq mümkün deyildir.

Təsərrüfatın istənilən sahələrinin yerləşdirilməsi variantlarını nəzərdən keçirərkən onların hər birinin səmərəli və ya nöqsanlı olması haqqında ümumi mülahizələrlə kifayətlənmək olmaz.Bütün iqtisadi şərait nəzərə alınmaqla hər bir variant üzrə xərclər hesablanır və son optimal variant seçilir.Statistika metodu müəyyən ərazidə təsərrüfat və əhaliyə dair məlumatları təhlil edir, statistik şəklə salır, həmin ərazinin sosial-iqtisadi vəziyyətini təsəvvür etməyə imkan verir. Tədqiqatçı statistika metodundan istifadə etməyi, hadisələri dinamik şəkildə öyrənməyi, qruplaşdırmağı, ümumiləşdirməyi və lazımı təhlil edərək nəticə əldə etməyi bacarmalıdır. Iqtisadi coğrafiya öz tədqiqatlarında təsərrüfata, onun ayrı-ayrı sahələrinə, sənayeyə, kənd təsərrüfatına, nəqliyyata və əhaliyə aid olan ststistik məlumatlardan istifadə edərək özünün "ststistika şəbəkəsini" qurur.İqtisadi coğrafiya çoxlu rəqəm materialları verir.

Statistik məlumatlar (Məs, 2 rayon, 2 şəhər, 2 sənaye qovşağının və s.seçilir və təhlil edilir. Hesablamalar aparılır. Toplanan məlumatlar coğrafi-statistik şəklə salınır, yəni onlar müəyyən məntəqə, ərazi və rayona bağlanır. Statistik məlumatlar iqtisadi xəritələrin

düzəldilməsində coğrafiyada tətbiq olunur.Ayrı-ayrı məntəqələrdə iqlimin öyrənilməsi üçün diaqramlar qurulur.Onlardan məntəqələrin iqlim göstəricilərini müqayisə etmək üçün də istifadə edilir. Diaqramda yağıntıların aylar üzrə paylanması sütunların köməyi ilə təsvir olunur. Bunun üçün hər bir ayda düşən yağıntıların mm ilə miqdarı əsas götürülür. Onların paylanmasını göstərən qrafikin ordinat (y) oxunda sağ tərəfdə yağıntıların miqdarı (mm), absis (x) oxunda ayların baş hərfləri yazılır. Hər bir ayda düşən yağıntıların miqdarı düzbucaqlı formasında qrafikdə çəkilir.Diaqramın sol tərəfində yağıntıların göstəricilərinə paralel olaraq temperaturun şkalası hər 10°C-dən bir olmaqla ayrılır. Aylar üzrə məntəqədə temperaturun paylanması yağıntı diaqramı ilə birlikdə göstərilir. Çox vaxt müsbət temperaturlar qırmızı, mənfi temperaturlar göy və ya qara xətlərlə verilir. Diaqramda məntəqənin adı, onun okean səviyyəsindən mütləq hündürlüyü və burada il ərzində düşən yağıntıların ümumi miqdarı göstərilir.Məsələn, diaqramdan görünür ki, Sinqapur şəhəri okean səviyyəsindən 10 m. yüksəklikdə yerləşir, burada il ərzində 2100 mm yağıntı düşür. İl ərzində havanın orta temperaturu bütün aylarda 21-




22°C arasında dəyişir. Yağıntılar da il ərzində bərabər paylanır. Diaqrama əsasən Sinqapur şəhərinin ekvatorial iqlim qurşağında yerləşdiyini müəyyən etmək olar.

Statistik təqdiqat metodu – Coğrafi obyekt və hadisələri kəmiyyət göstəriciləri və riyazi hesablamar vasitəsilə tədqiq edir. Bunun nəticəsində obyekt və hadisələrin planlaşdırılması və layihələndirilməsi aparılır.Ondan təkcə nəticələrin hesablanması üçün istifadə edilmir. Təlim metodları ilə şagirdlərin bilik və bacarıqlarının səviyyəsi arasında, onların yaradıcılıq qabiliyyətlərinin inkişafı arasında əlaqə və s. məsələlər bu metodun köməyi ilə araşdırıla bilər Aparılan tədqiqat işlərinin nəticələrinin düzgün qiymətləndirilməsi üçün riyazi və statistik metodlarından da geniş istifadə olunur. Əldə edilən tədqiqat materiallarının işlənilib istifadəedilməsində statistik metodlarından da istifadə edilir. Statistik metodla təkcə bu və ya digər təlim və tərbiyə ocaqlarının əldə etdikləri göstəriciləri yox, həm də kütləvi məktəblərin göstəricilərini də təhlil etmək olar. Bir və ya bir neçə məktəbin, regionun statistik göstəriciləri əsas götürülə bilməz. Faktların, proseslərin qarşılıqlı analizi, bununla da ortaq həddin üzə çıxarılması daha çox reallığı əks etdirir. Statistik hesablamalarda, siyasi, iqtisadi, mədəni faktorların da təsirini nəzərə almaq vacib şərtdir. Statistik metodların nəticələrinin etibarlı olması üçün elektron hesablayıcı maşınların köməyindən geniş istifadə edilir.Riyazi və statistik metodların köməyi ilə tədqiqatçı lazımı qrafiklər, diaqramlar, cədvəllər tərtib edir ki, bu da tədqiqatın nəticələrinin əyani surətdə düzgün qiymətləndirilməsinə imkan verir.

Ədəbiyyat
1.İqtisadi və sosial coğrafiyanın tədqiqat metodları -Mirvari Verdiyeva
2.İnternet resursları( https://geographerr.wordpress.com/2020/09/14/cografiyanin-t%C9%99dqiqat-metodlari )
3. Bibik .A.J ”Orta məktəbdə Coğrafiya təliminin metodikası” Bakı, 1978,424 səh.

## ÜMUMTƏHSİL ORTA MƏKTƏBLƏRİNDƏ İNKLÜZİV TƏLİM PROSESİNİN İDARƏ OLUNMASI

**İbrahimova Sara Mahir qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnklüziv öyrənmə üçün əlverişli sinif fiziki, intellektual, cinsi, sosial, linqvistik, emosional və ya digər xüsusiyyətlərindən asılı olmayaraq bütün uşaqları səmimiyyətlə qarşılayır, təfəkkürlərini inkişaf etdirir, onları bilik, bacarıq və vərdişlərlə təmin edir və digər həmyaşıdları ilə sosiallaşmalarına şərait yaradır. İnklüziv siniflərdə təhsil alan şagirdlərin müəyyən bir qismi fiziki və ya öyrənmə çətinlikləri olan uşaqlar ola bilər. Belə ki, inklüziv öyrənmə üçün əlverişli sinif müəllimin sinifdə bu müxtəlifliyi anlamasını və hər bir şagirdə eyni səmimiyyətlə yanaşmasını təmin edir. Təbii ki, sağlamlıq imkanları məhdud uşaqları təhsil müəssisələrinə cəlb etmək görülməli olan işin hələ yarısıdır. Bundan başqa həm də inklüziv siniflərdə təlim prosesinin necə idarə olunması da əsas məsələlərdən ən başlıcasıdır.

İnklüziv öyrənmə üçün əlverişli siniflərdə təlim prosesinin idarə olunmasının bir neçə əsas şərtləri vardır. Belə ki, inklüziv öyrənmə üçün əlverişli siniflərdə pozitiv və dəstəkləyici öyrənmə mühitinin yaradılması üçün aşağıdakı məsələlərə diqqət yetirilməlidir:

- sinif otağının idarə olunması;
- rahat öyrənmə mühitinin təşkil edilməsi;
- sinif rejiminin hazırlanması;
- yaxşı davranışları yaratmağa imkan verən idarəetmə tərzinin qəbul edilməsi;
- həvəsləndirmə.

Sinif otağının idarə olunması dedikdə öyrənməyə təşviq edən tədris mühitini təşkil etmək, o cümlədən bu mühit daxilində olan fərdi şagird və şagird qruplarının davranış və öyrənmə fəaliyyətlərini yaratmaq və idarə etmək üçün müəllimlərin istifadə etdikləri metodlar nəzərdə tutulur. Ona görə də sinif otağının effektiv idarə olunması müəllimə tədris etməyə və bütün şagirdlərin öyrənmə və davranış xüsusiyyətlərinin inkişafına kömək edən mühit yaradır. Sinif otağı şagirdlərin öyrənmək üçün toplaşdıqları yerdir. Belə ki, sinif otağında təhlükəsiz və düzgün mühitin yaradılması bütün şagirdlər üçün öyrənmə mühitini optimallaşdıran xüsusiyyətdir.

İnklüziv siniflərdə şagirdlər rahat öyrənmə mühiti ilə təmin olunmadıqda onlar təlim prosesi zamanı diqqət əskikliyi yaşaya bilərlər. Rahat öyrənmə mühitinin təşkili üçün nəzərdə tutulanlara nümunə olaraq müəllimin hər bir şagirdi görməsi, hər kəsin əyləşməsi, təlim materiallarının əlçatan olması və şagirdlərin də rahat öyrənmə mühitini yaratmaq üçün kömək etmələrini və s. misal çəkmək olar.

Sinif rejimini yaratdıqda yanlış davranış ehtimalı azalır, çünki, şagirdlər onlardan nə gözlənildiyini və nə etməli olduqlarını bilirlər. Müəllim və şagirdlərin planlaşdıra biləcəyi bəzi sinif qaydaları bunlardır: sinifdə yerdəyişdirmə, qeyri-təlim tapşırıqları ilə qaydalar, materialların idarə edilməsi, qrup işinin təşkili.

Sinifdəki qaydalar davranış standartlarını müəyyən edir, lakin müəllimin də öz davranış standartları olmalıdır. Hər şeydən əvvəl, müəllim şagirdlər üçün əhəmiyyətli rol modellərdir. Müəllimlərin bəzi xüsusiyyətləri şagirdlərdə keyfiyyətli davranışlar yaratmağa kömək edir: ədalətlilik, yumor hissi, hörmət, nəzakətlilik, səmimilik və aktiv dinləmə qabiliyyəti.

Həvəsləndirmə pozitiv davranışın mükafatlandırılması vasitəsilə pis davranışın qarşısının alınmasıdır. Bu o fərziyyəyə əsaslanır ki, mükafatlandırılan davranış təkrarlanır. Pozitiv nizam-intizamın əhəmiyyəti müsbət sosial münasibətlərin təşviq edilməsində effektiv olan və müsbət özünəhörmət hissinin yaradılmasına kömək edən, habelə şagirdlərin müəllimin gözləntilərinə cavab verən davranışları öyrənmələrini dəstəkləməkdən ibarətdir. Müəllimin dəyər verdiyi və təşviq etmək istədiyi davranışları şagirdlər bilməli və bu davranışların öyrədilməsi və möhkəmləndirilməsi üçün müəllim öz səyini əsirgəməməlidir.

Beləliklə, yuxarıda qeyd edilən şərtlərə əməl etməklə seçilmiş orta ümumtəhsil məktəblərində fəaliyyət göstərən inklüziv siniflərdə təlim prosesinin effektiv şəkildə idarə olunması müəllim üçün daha əlverişli olacaqdır.

Ədəbiyyat

1. C. Howgego, S. Miles, J. Myers, Inclusive Learning: Children with disabilities and difficulties in learning, 2014.
2. Inclusion in education (a manual for school management committee), National Council of Educational Research and Training, 2020
3. Nicole Eredics, Inclusion in Action, 2018.

## MÜRƏKKƏB CÜMLƏNİN TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRİ

**İmanov Sənan Vazeh oğlu**
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***

Müasir təhsil proqramına uyğun olaraq müəllim sinifdə fasilitator rolunu oynayır. Ənənəvi təhsildən fərqli olaraq şagirdlərin dərsdə fəal iştirakına, tədqiqata cəlb olunmasına şərait yaradılır. Belə ki, sinifdə şagird məlumatın böyük bir qismini tədqiqat zamanı, həmçinin dərslikdən istifadə edərək əldə edir. Müəllim isə yalnız bələdçi, yolgöstərən rolunda çıxış edir. Şagirdlər dil qaydalarını öyrənməkdə sanki sərbəst buraxılır. Biz bunu müsbət qiymətləndiririk, çünki şagirdlərdə müstəqil öyrənmə, fikir bildirmə bacarığı formalaşdırılır. Lakin bütün şagirdlərin bacarıq və səriştələrini nəzərə almağımız vacibdir. Qeyd edək ki, heç də bütün şagirdlərdə sadaladığımız bacarıqlar formalaşmayıb. Bunun üçün dərsliklərdə inklüzivliyin qorunması şərtdir.

Təlimin həyata keçirilməsində orta məktəb dərsliklərinin xüsusi əhəmiyyəti vardır. Şagirdlər mürəkkəb cümlə ilə IX sinif Azərbaycan dili (tədris dili) dərsliyində daha geniş şəkildə tanış olurlar. Dərslik 4 bölmədən ibarətdir. I bölmə şagirdlərin aşağı siniflərdə öyrəndikləri biliklərə əsaslanır və təkrar xarakteri daşıyır. II bölmədə mürəkkəb cümlə anlayışı, tabesiz mürəkkəb cümlə və onu bağlayan vasitələr, III bölmədə isə tabeli mürəkkəb cümlələr, baş və budaq cümləni bağlayan vasitələr, budaq cümlənin yeri haqqında məlumatlar yer alır. IV bölmədə vasitəli və vasitəsiz nitqin xüsusiyyətləri sadalanır. Tezisdə müəllim və şagirdlərin mürəkkəb cümlə ilə bağlı qarşılaşacağı aktual problemlər haqqında danışılacaq. Aktual hesab edilən məsələlər aşağıdakılardır:

1. Mürəkkəb cümlə ilə həmcins üzvlü sadə cümlənin fərqləndirilməsi

Şagirdlərin daha çox üzləşdiyi bir problem də həmcins üzvlü sadə cümlə ilə mürəkkəb cümlənin fərqləndirilməsidir. Bu mövzuya dərslikdə ayrıca qayda ayrılmasa da, bəzi tapşırıqların məzmununda özünü göstərir. Bu tapşırıq üzərində heç də bütün şagirdlər araşdırma aparıb, ümumi nəticəyə gəlmir. O zaman bəzi şagirdlər bu qaydanı mənimsəməkdə çətinlik çəkirlər. Buraxılış və qəbul imtahanlarında şagirdin qarşılaşacağı sual tipini nəzərə alsaq bu mövzuya dərslikdə ayrıca hissə və tapşırıqlar ayrılmalıdır. Şagirdlərin mövzunu daha asan və dərindən mənimsəməsi müəllimin üzərinə düşən bir vəzifədir.

Bölməyə keçməzdən öncə həmcins üzvlü sadə cümlələri xatırlamaq, onlara aid bir neçə nümunəni lövhədə qeyd etmək lazımdır. Məsələn: Onlar hər səhər günəşlə birlikdə oyanar, al-əlvan çiçəkli meyvə ağaclarının altından keçərək məktəbə gedərdilər. (İ.Şıxlı) Cümlənin sadə olduğunu müəllimin istiqamətləndirici sualları ilə şagirdlər sübuta yetirirlər. Göstərilir ki, cümlənin "oyanar" və "gedərdilər" xəbərləri "Onlar" mübtədasına aiddir. Daha sonra lövhədə bir neçə mürəkkəb cümlə qeyd edilir.

Gövhər qarı gözaltı ona baxır, dişi bağırsağını kəsirdi. (İ.Şıxlı) Qeyd edilmiş cümlənin təhlil sxemi göstərilir. Nə edir? – baxır, nə edirdi? – kəsirdi. Sadə izah üçün mürəkkəb cümlənin müəyyən şəxsli sadə cümlələrin birləşməsindən yaranmasına diqqət etmək lazımdır. Mürəkkəb cümləni izah edərkən intonasiyanın vacibliyi vurğulanır. Mürəkkəb cümlənin sxeminə əsasən şagirdlər anlayırlar ki, hər bir mübtədanın öz xəbəri var. Daha sonra müəllim çalışmanı bir az daha da çətinləşdirir. Bu dəfə mürəkkəb cümlənin tərəfləri sadə cümlənin şəxsə görə müxtəlif növlərində olur. Boyu uca olmasa da, yaraşıqlı idi. (İ.Şıxlı) Mürəkkəb cümlənin sxemi göstərilir. Qeyd olunur ki, "Boyu uca olmasa da" birinci tərəf "mübtəda + xəbər" sxemindən ibarət müəyyən şəxsli cümlə, ikinci tərəf isə təkcə xəbərdən ibarətdir, şəxssiz cümlədir. Müəyyən olunur ki, ikinci xəbərin, "boyu" mübtədası ilə heç bir qrammatik əlaqəsi yoxdur.

2. Tabesiz mürəkkəb cümlənin tərəfləri arasında məna əlaqələrinin müəyyən edilməsi

Tabesiz mürəkkəb cümlənin komponentləri arasındakı məna əlaqələrinin müəyyən edilməsi orta məktəbdə şagirdlərin qarşılaşdığı aktual problemlərdən biridir. Ardıcıllıq, zaman və səbəb-nəticə məna əlaqələrinin fərqləndirilməsində bunu daha çox müşahidə edirik. Mövzunun asan qavranılması üçün sadə cümlələr arasındakı məna bağlılığına diqqət etmək lazımdır. Dos. Rəhilə Hümmətova qeyd edir: "Zaman əslində bütün əlaqə tiplərində mövcuddur. Çünki hər hansı bir iş, proses müəyyən zaman və məkan daxilində baş verir. Zaman əlaqəli tabesiz mürəkkəb cümlələrdə müəyyən zaman daxilində icra edilən işlər, baş verən hadisələr və hökmlər müəllif tərəfindən tabesiz mürəkkəb cümləyə məxsus vahid bir intonasiya ilə bir-biri ilə birləşdirilir" [2, s.238]. Qar ayaqlarının altında xarıldayır, islanmış ot kökləri əzilirdi. (İ.Şıxlı) Nümunədə icra edilən hərəkət eyni zaman kəsiyində baş verir. Sadə cümlələrin yerini dəyişsək, nə məzmuna, nə də zamana xələl gələr.

Tabesiz mürəkkəb cümləni təşkil edən sadə cümlələr arasındakı əlaqələrdən biri də məzmununda ardıcıllıq olan cümlələrdir. "Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlənin tərkibini təşkil edən cümlələrdə baş verən işlər müəyyən ardıcıllıqla düzülür və bu ardıcıllığı dəyişsək, cümlənin ümumi məzmunu pozular". [2, s.239] Axşam düşür, insanlar işdən evə gedirlər. Nümunədə komponentlərin yerini dəyişsək, cümlənin ümumi məzmunu dəyişmiş olacaq. "Bəzi hallarda ardıcıllıq əlaqəsi ilə bağlanan komponentlər arasındakı nisbi zaman fərqini daha qabarıq şəkildə nəzərə çatdırmaq üçün sonuncu komponentdən əvvəl sonra, sonra da, bundan sonra və s. söz və ya söz birləşmələri də işlədilir" . [2, s.239] Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlənin tərkib hissələrindən birincisində ifadə edilən fikir səbəb, ikinci tərkib hissədəki fikir isə nəticə məzmununa malik olur. Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrlə ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələr arasındakı yaxınlıq bəzən onların fərqləndirilməsində çətinlik yaradır. Prof. Qəzənfər Kazımov qeyd edir: "Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrdə birinci tərkib hissədə ifadə edilən hadisə ikinci tərkib hissədəki hadisənin baş verməsinə səbəb olur. Səbəb-nəticə əlaqəli cümlələrin ikinci tərkib hissəsinin əvvəlinə nəticədə sözünü, ardıcıllıq əlaqəli cümlələrə sonra sözünü əlavə etmək olar. Səbəb-nəticə əlaqəli cümlələrdə bir obyektivlik, kortəbiilik; ardıcıllıq əlaqəli cümlələrdə subyektivlik, şüurluluq olur". [3, s. 291]

3. Baş və budaq cümlənin yerinin müəyyənləşdirilməsi

Şagirdlərin çətinlik çəkdiyi məqamlardan biri də baş və budaq cümlənin yerinin müəyyənləşdirilməsidir. Məlumdur ki, budaq cümlə baş cümlədən asılı olur. Baş və budaq cümlənin yerini müəyyənləşdirməkdə onları bağlayan vasitələrin də xüsusi rolu vardır. Adətən intonasiya, aydınlaşdırma (ki, belə ki) və səbəb bağlayıcıları ilə bağlandıqda baş

cümlə əvvəl, budaq cümlə sonra işlənir. Bu zaman budaq cümlə baş cümlənin bir üzvünə aid olur: baş cümlənin buraxılmış və ya qəlib sözlə ifadə olunan mübtədası aydınlaşdırılır, qəlib söz – xəbəri izah edilir və ya xəbər müxtəlif vasitələrlə tamamlanır, hərəkətin tərzi, zamanı, dərəcəsi, səbəbi, məqsədi və s. bildirilir, yaxud da baş cümlədən doğan nəticə ifadə olunur, budaq cümlə baş cümləyə qoşularaq əlavə məlumat verir və ya münasibət bildirir ". [3, s. 318] "Kosaoğlu ona tapşırmışdı ki, mən olmayanda idarəni açıb içəri adam buraxma. (İ.Şıxlı)" tabeli mürəkkəb cümləsini oxuyarkən birinci tərəfdən sual meydana gəlir. Tapşırmışdı – nəyi? Aydın olur ki, budaq cümlə baş cümlədə buraxılan tamamlığın yerində çıxış edir.

Zaman budaq cümləsi "ki" bağlayıcısı ilə bağlandıqda qeyd edilən qayda bəzən pozulur. Yolu yarı etmişdik ki, dəniz çalxalanmağa başladı.(İ.Şıxlı) Burada komponentlər "ki" ilə bağlansa da, budaq cümlə baş cümlədən əvvəl işlənib. Baş cümlənin xəbərinə nə zaman? sualını verə bilirik.

Ədəbiyyat


1. Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, Qismət, 2014. 380 s.
2. Hümmətova R. Linqvistik təhlilin növləri. Bakı, 2021. 283 s.
3. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, "Təhsil", 2007. 496 s.
4. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, "Kövsər", 2011. 563 s.
5. Paşayeva P. Abbasova S. Azərbaycan dili tədrisinin aktual problemləri. Bakı, ADPU, 2021. 157 s.


## SXEMLƏR VƏ CƏDVƏLLƏRiN KÖMƏYİ İLƏ MƏNTİQİ MƏSƏLƏLƏR HƏLLİNİN TƏLİMİ METODİKASI


**İmanova Arzu Surxay qızı**

*Azərbaycan Dövlət Pedaqoji Univeristeti*


Məntiqi məsələlər riyaziyyatın tərkib hissəsidir. Bəziləri onu "əqlin gimnastikası" adlandırır, hər bir düşünən şəxs üçün özünün idrak gücünü sınama və məşq etmə tələbatlarını sakitləşdirən vasitə hesab edirlər. Digərlərini bəzəkli ədəbi dil örtüyü cəlb edir: məntiqi məsələlərin fabulası çox vaxt son dərəcə əyləncəli olur. Üçüncülər belə məsələlərin əsas dəyərini onların başa düşülən olmasında görürlər: Çox vaxt eşidilir ki; məntiqi məsələləri həll etmək üçün xüsusi biliklər tələb olunmur, bunun üçün yalnız müəyyən inkişaf səviyyəsi, məntiqi düşünmə bacarığı, ciddi çalışmalarla əldə edilən, inkişaf etdirilən vərdişlər kifayətdir.

Bəzən şagirdlərin məsələ həllindəki çətinlikləri onların məsələnin məzmununu başa düşməməsi ilə əlaqədardır. Ona görə məsələnin verilənlərinin və mühakimələrin təsəvvür edilməsi vərdişlərini inkişaf etdirən və informasiyaların əyani qrafik təsviri olan sxem və cədvəllərdən istifadə edilməsi zəruridir. Sxemlər və cədvəllər məsələnin həlli prosesini asanlaşdırır və sürətləndirir.

Sxemin köməyilə məsələnin aşağıdakı ardıcıllıqla həll edilməsi məqsədə uyğundur. Şagirdlər məsələnin şərtini və sualını qısa yazır, məsələ şərtinin elementlərini simvolik dəyişənlərlə ifadə edirlər, sonra uşaqlar məsələnin həllinə başlayırlar. Əgər məsələnin şərtinə görə iki element arasında uyğunluq olarsa, onda bu elementlər bütöv xətlə birləşdirilir. Əgər elementlər arasında uyğunluq yoxdursa, onda onlar qırıq xətlə birləşdirilir.

Hansı mühakimə elementlərinin verildiyini - hansıların isbatdan alındığını şagirdlərin başa düşməsi üçün həllidə müxtəlif rənglərdən (məsələn, qırmızı və göy qələmlə xətlərin çəkilməsi) istifadə etmək olar.

Məsələdə dörd, beş və daha artıq sayda elementlər cütü verildikdə, sxemin tətbiqi əlverişli olmadıqda və həddən artıq yer tutan olduqda belə məsələləri cədvəlin köməyilə həll etmək faydalıdır.

Cədvəl məntiqi məsələlərin ənənəvi həll vasitəsi olub məntiqi məsələni sadəcə həll etməyə deyil, həm də həllərin ən optimal (istifadə edilən elementar şərtlərin minimal sayına

görə) olanını tapmağa imkan verir. Cədvəl məsələ şərtini izah etməyə, verilənlər arasında artıq və ya çatışmayanın olub olmadığını aşkar etməyə, ziddiyyətsizliyi və tamlığını yoxlamağa, həmçinin verilmiş məsələni asılı olmayan "alt məsələlər"ə ayırmağa imkan verir. Cədvəl xaricdən müxtəlif məsələlər kimi görünən və məntiqi əsası sözlərlə geyimə bükərək əvvəldən verilmiş xassələrə malik yeni məsələlər qurmağa kömək edir.

"Cədvəl dili" məntiqi məsələ həll etmək istəyənlər üçün vacibdir. Onun "danışıq praktikası" o qədər genişdir ki, tamamilə qısa müddətdə cədvəl dilində danışmağı öyrənəcək, özünüz də hiss etmədən bu dilə yüksək dərəcədə yiyələnəcək, bu dildə düşünməyi bacaracaqsınız.

Bu zaman formalaşan xüsusi "cədvəl" təfəkkürü hazırda o qədər mühüm rol oynayır ki, sonlu riyaziyyatın metodları yalnız riyaziyyat elminin özündə vətəndaşlıq hüququ qazanmayıb, həm də ondan kənarlarda geniş tətbiqlər tapır.

İbtidai məktəbin riyaziyyat kursunun öyrənilməsi ilk növbədə şagirdlərin riyazi fəaliyyətinə uyğun olan və müasir cəmiyyətdə praktik problemlərin həllində zəruri hesab edilən intellektual inkişafına, təfəkkür keyfıyyətlərinin formalaşmasına istiqamətləmnişdir. Şəxsiyyətin maraqlarının əhatəsinə, həyatın yeni şərtlərinə uyğunlaşma bacarıqları (mövcud vəziyyəti araşdırma, öz fəaliyyətini lazımi səviyyədə dəyişdirmə, kommunikasiya vasitələrindən istifadə edə bilmə və zəruri məlumatlara yiyələnərək ondan istifadə etmə kimi bacarıqlar) bunlara aiddir. Əgər məktəb riyaziyyat təliminin məqsədlərinə bu nöqteyi-nəzərdən diqqət yetirsək, burada ən başlıca və mühüm vəzifə kimi şagirdin təfəkkürünün inkişafını göstərmək mümkündür. Böyük alman fılosofu İmanuel Kantın fıkrincə, "Düşüncələri deyil, düşünməni öyrətmək lazımdır" və bu fəlsəfı fikir riyaziyyatın öyrədilməsində başlıca prinsip sayılır. Öyrənmə prosesinin əsas məqsədi yeni biliklərin öyrənilməsinə və dərk edilməsinə imkan verən təfəkkür bacarıqlarının mənimsənilməsidir. Riyaziyyatın öyrənilməsi idrak fəaliyyətinin ümumi və xüsusi kimi riyazi növləri ilə əlaqəlidir. İdrak fəaliyyətinin ümumi növü olaraq başlıca yeri təfəkkürün məntiqi üsulları tutur. Təlimə yaradıcı yanaşma baxımından şagirdləri əqli və praktik istiqamətdə fəaliyyətin həm ümumi, həm də xüsusi üsulları ilə silahlandırmaq lazımdır.

Aydındır ki, məntiqi bacarıq əqli fəaliyyətin mühüm komponentidir.

Belə ki, təfəkkürün əsas xüsusiyyətlərindən biri problemin həllinə istiqamətləndirilmiş mütəşəkkil məntiqi axtarış prosesidir. Bəzən müəllimlər məntiqi qavramanı inkişaf etdirmə bacarıqlarına, şagirdin qaydaları, anlayışları, riyazi məsələlərin həlli üsullarını müəyyən etmə istiqamətində təlim fəaliyyətini və bunun üçün lazımi təlim materiallarını seçə bilmək bacarıqlarına malik olmurlar. Nəticədə ümumi təlim bacarıqlarının səmərəli inkişaf etməsi üçün zəruri şərait yaranmır. Bu halda təlim məlumat xarakterli olur. Müəllim yeni mövzunu aydınlaşdırır, nümunələr göstərir, qaydaları, tərifləri, teoremləri bildiklərini yoxlayır, sərbəst yerinə yetirmək üçün tapşırıqlar verir və onların yerinə yetirilməsini yoxlayır.

Göründüyü kimi, bu zaman inkişaf haqqında danışmaq artıqdır. Belə təlim şagirdlərin nə ümumi psixoloji, nə də xüsusi bacarıqlarının inkişafına təsir edir. Amerika riyaziyyatçısı və metodisti D.Poyanın fıkrincə, "əgər müəllim şagirdə ayrılan təlim vaxtını şablon tapşırıqların həllinə sərf etməklə keçirərsə, onun marağını öldürmüş olar, şagirdlərin əqli inkişafını ləngidər və onların öz imkanlarını əldən vermələrinə şərait yaradar Şagirdin inkişafı onun təlim prosesində həyata keçirdiyi fəaliyyətin reprodukriv və ya produktiv (yaradıcı) olmasından asılıdır.

Təfəkkürün bu keyfiyyətlərinin formalaşması şagirdlərin təlim materiallarını mənimsəməkdə ortaya çıxan çətinliklərini aradan qaldırmağa və onların yaradıcı bir şəxsiyyət kimi inkişafına gətirib çıxarır. Belə ki, şagird nəzəri əsaslandırılmış qaydaları, əməliyyatları, bilikləri almaqla sərbəst şəkildə ona tanış olmayan məsələlərin həllində oxşar və ya yeni üsullar emal etməyə qadir olur. Beləliklə, müəllimin işi təfəkkürün göstərilmiş komponentlərinin fonnalaşdırılmasından ibarətdir.

Təfəkkürün inkişaf etdirilməsi üçün əsas alət düşündürücü məsələlər, başsındırmalar, məntiqi və ya standart olmayan məsələlərdir. Belə məsələləri dərslərdə təfəkkürün və yaradıcı fəaliyyətin formalaşması üçün əlavə köməkçi üsul olaraq istifadə etmək mümkündür. Qeyd etmək lazımdır ki, hazırda Azərbaycan dilində məktəblilərin yaradıcı fəaliyyətini formalaşdıran didaktik vasitələr çox azdır və ya demək olar ki, yox dərəcəsindədir. "Tapın", "həll edin", "müqayisə aparın", "hesablayın" kimi istiqamətlənmiş məsələlər şagirdlərin əqli fəaliyyətini inkişaf etdirməyə qadir deyil. Məktəblini məntiqi düşünməyə sövq etmək istəyiriksə, onlara daha çox məntiqi düşüncəni hərəkətə gətirən məsələlər yerinə yetirməyi tapşırmaq məqsədəuyğundur.

Ədəbiyyat


1. Əhmədli E.N. Şagirdlərin riyazi təfəkkürünün inkişaf etdirilməsi yolları və tələri. Bakı, 1998. 66 s.
2. İbrahimov F.N. Ümumtəhsil məktəblərində riyaziyyatın tədrisi metodikası (Dərs vəsaiti) 2-ci nəşri, 2015, 688 s.
3. Rzayev M.T. İbtidai siniflərdə riyaziyyat məsələlərinin həlli şagirdlərdə idrak fəallığını artıran vasitə kimi ped. üzrə fəls. dokt.dis.avtoref. Bakı .2016, 26 s.


## V-IX SİNİFLƏRDƏ RİYAZİYYAT TƏLİMİNDƏ HƏNDƏSƏ MƏZMUN XƏTTİNİN AKSİOMATİKASI HAQQINDA


**İmanova Aytac Nazim qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Azərbaycan Respublikasında təhsilin səviyyəsini yüksəltmək, onu Avropa Standartlarına uyğunlaşdırmaq daim gündəlikdə duran məsələ olub. Son illərdə təhsil sahəsində aparılan islahatlar və tədbirlər buna əyani sübutdur. Təlim prosesində şagirdlər riyazi isbata ehtiyac duymur, isbatın mahiyyətini dərk etmir, teoremləri ancaq əzbərləməklə kifayətlənirlər. Bunun da nəticəsində həndəsənin aksiomatik quruluşunu mənimsəyə bilmirlər.

Riyaziyyatı şüurlu mənimsəyən, ona maraq göstərən şagirdin anlayışlar, onların tərifləri, aksiomlar, təkliflər-teoremlər haqqında öz təsəvvürü olur. Riyazi isbat nəzəriyyənin şüurlu mənimsənilməsini təmin etməklə yanaşı, şagirdlərin iradə tərbiyəsinə də xidmət göstərir, onlarda yaradıcı fəallıq və müstəqillik kimi mənəvi keyfiyyətlərin formalaşmasına kömək edir.

Son illərdə H.Əliyev Fondunun respublikada müxtəlif yerlərdə müasir məktəblər tikməsi, onların ən qabaqcıl texniki avadanlıqla təmin etməsi eyni zamanda riyazi təhsili də gücləndirməyi tələb edir. Bu istiqamətdə aparılan işlərdən biri də dərsliklərin yenilənməsi oldu. Yenilənməyə baxmayaraq riyazi təhsilin məzmunu və formaları, tətbiq edilən metodlar və vasitələr klassik sistemə əsaslanır. Çünki həmin sistem uzun illər boyu əsaslı surətdə həyat təcrübəsindən keçirilmişdir.

Hazırda Avropa Şurasına daxil olan ölkələrdə təhsildə aşağıdakı istiqamətlərə diqqət verməyi qarşıya məqsəd qoymuşlar:

1. Təlim prosesində şagirdlərin ümumi inkişafını təmin etmək;
2. Riyazi təhsilin məzmununa yiyələnmək;
3. Riyaziyyatı tətbiq etmək bacarığı və vərdişlərinə yiyələnmək.

Göründüyü kimi, riyaziyyatın məzmununun mənimsənilməsi onun tətbiqini və şagirdlərin ümumi inkişafını tələb edir. Çünki, Azərbaycan Respublikasının iqtisadiyyatının yüksəldilməsi orta məktəblərdə tədris olunan riyaziyyat fənninin tədrisi prosesində təmin edilir. Bu işdə yəni, gənc nəslin yaradıcı və müstəqil fəaliyyətə məqsədyönlü şəkildə hazırlanmasında həndəsə kursunun əhəmiyyəti, rolu və imkanları böyükdür. Bu cəhətdən şagirdlərdə bu keyfiyyətləri tərbiyə etmək üçün məktəb həndəsə kursunun deduktiv qurulması yəni, həndəsə kursuna aksiomatik metodun tətbiqi böyük imkanlara malikdir.

Ümumiyyətlə, aksiomların əsas xassələr kimi isbatsız qəbul edilməsi, ilk həndəsi anlayışlardan başqa digər bütün anlayışlara təriflərin verilməsi, teorem və düsturların isbatı elə aparılmalıdır ki, o şagirdlərin məntiqi təfəkkürünün inkişafına, isbat qaydalarının şüurlu mənimsənilməsinə səbəb olsun. Uzunmüddətli müşahidələr, qabaqcıl müəllim və şagirdlərlə aparılan söhbətlər göstərdi ki, ümumtəhsil məktəblərində aksiomatik metodun öyrənilməsi əksər hallarda şagirdlərin şüurlu, məntiqli şəkildə mənimsəməsi və lazımi şəkildə tətbiq olunması günün tələblərinə cavab vermir və formallığa(əzbərçiliyə) daha çox rast gəlinir. Bu çətinliklərin aradan qaldırılması işin tədris və tətbiq əhəmiyyətini gücləndirir.

Orta məktəb həndəsə kursunun tədrisi prosesində əsas məqsəd aksiomatik metoda dair bilik, bacarıq və vərdişləri formalaşdıran və inkişaf etdirən tədris metodikasını işləyib hazırlamaq və eksperimentdə yoxlamaqdan ibarətdir.

Dialektikanın idrak nəzəriyyəsi və bu nəzəriyyəyə uyğun olaraq görkəmli alim-pedaqoqların, riyaziyyatçı metodistlərin, tədqiqatçı psixoloqların əsərlərinin, təklif və müddəalarının, metod və vasitələrinin məcmusu tədqiqatın metodoloji əsasını təşkil edir.

Burada müxtəlif metodlardan istifadə olunur: müşahidə, anket sorğusu, müsahibə, təhlil və tərkib(analiz və sintez), induksiya və deduksiya, riyazi statistik metodlar, pedaqoji eksperiment.

Tədqiqatda elmi yenilik olaraq, orta məktəbin həndəsə kursunun deduktiv qurulmasında istifadə edilən aksiomatik metodun şüurlu öyrənilməsi və məntiqi təfəkkürün inkişafını təmin edən metodik sistemin hazırlanmasıdır.

Şagirdlərin aksiomatik metod və onun tətbiqlərinə aid bilik, bacarıq və vərdişlərinin səviyyəsinin yüksəldilməsi metodikasının çoxcəhətli istiqamətləri araşdırılmış, alınan nəticələr eksperiment yolu ilə yoxlanılmışdır.

Son olaraq qeyd edək ki, metodik sistem həndəsə kursunun aksiomatik metodla qurulmasının tədrisində müəllimlərə kömək edəcək və məktəb həndəsə kursunun təlimində aksiomatik metod və tətbiqlərinin öyrənilməsi həndəsə elminin əsaslarının öyrənilməsinə, beləliklə də şagirdlərin gələcək inkişaflarının nəzəri əsaslarının qurulmasına səbəb olacaqdır.

Ədəbiyyat


1. Azərbaycan Respublikasının ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum). Bakı-2006, 38s.
2. Azərbaycan Respublikasının Qanunu "Təhsil haqqında". Qanun nəşriyyatı, 2012, 96s.
3. Əliyeva T.M. və b. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası ( Ümumi metodika I hissə), Bakı: APİ, 1991, 105 səh.
4. Əliyeva T.M. və b. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası ( Ümumi metodika II hissə), Bakı: APİ, 1992, 110 səh.


## DİDAKTİK OYUNLAR


**İmanova Mehrin Faiq qızı**

*Bakı Qızlar Universiteti*


Oyun məktəbəqədər yaşlı uşaqlarda əsas fəaliyyət növü olub, onların inkişafında mühüm yer tutur. Oyun həm də bu yaşlı uşaqların ətraf aləmi dərk etmələrinin mühüm vasitəsi olmaqla onların şəxsiyyətinin inkaşafına böyük təsir göstərir.

Görkəmli pedaqoq A.S.Makarenko demişdir."Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq nə kimi əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun o qədər vacib və əhəmiyyətlidir."

Oyun uşağı təlimə və əməyə hazırlayır. K.D.Uşinskiy yazırdı "Əsl həyatda uşaq, hələ heç bir müstəqilliyə malik olmayan , həyat axını tərəfindən qayğısız və kortəbii şəkildə cəlb edilən bir məxluqdur, oyunda isə uşaq yetişkən adam olub, öz gücünü sınayır, özünün quraşdırdığı şeylər üzəridə müstəqil olaraq hakimlik edir."

Uşaq oyunları öz məzmununa və xarakterinə görə müxtəlifdir: yaradıcı, mütəhərrik, didaktik.

Yaradıcı oyunlar uşaqların öz fantaziyaları əsasında yaratdıqları oyunlardır. Bu oyunlarda uşaqlar həyatın müxtəlif hadisələrini istədikləri kimi əks etdirir, özlərinin seçdikləri rolları ifa edirlər.

Mütəhərrik və didaktik oyunlar qaydalı oyunlara aiddir. Qaydalı oyunları səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, onlar yaşlılar tərəfindən hazırlanır, müəyyən məzmun və qayda ilə uşaqlara təqdim edilir. Hərəkətli oyunlarda da nitq və düşüncə inkişaf edir, iradə və xarakterin tərbiyəsində onların da rolu böyükdür.

Didaktik oyun sırf təlim xarakteri daşıyır, daha doğrusu, uşaqları təlim əməyinə hazırlayır. Didaktik məqsəd uşaq qarşısında birbaşa açılmır, gizlədilir. Bu oyunlarda uşağı, hər şeydən əvvəl, oyun situasiyası cəlb edir. Oyuna cəlb olunan uşaqlar hiss etmirlər ki, onlar həm də öyrənirlər: yenini yadda saxlayırlar, qeyri-adi şəraitdə səmtləşirlər, təsəvvürləri genişlənir, fantaziyaları inkişaq edur. Bu oyunlarda didaktiklik əyləncəliklə birləşir. Didaktin oyunlar təlimi uşaqlar üşün əlverişli və cəlbedici formada həyata keçirməyə imkan verir. Bu zaman təlim vəzifəsi həm də uşağın oyun vəzifəsi olur.

Məktəbəqədər tərbiyyənin nəzəriyyəsi və təcrübəsində didaktik oyunların təsnifatı aşağıdakı kimi verilir:

a)əşyalarla(oyuncaqlarla, təbiət materialı ilə) oyunlar;
b)stolüstü-çap oyunları;
v)sifahi oyunlar.

Didaktik oyunun uşaqların hərtərəfli tərbiyəsinə, əqli fəaliyyətinin formalaşmasına, nitq və təfəkkürünün inkaşafına təsiri onu uşaqların məktəb təliminə hazırlamalarında mühüm bir vasitəyə çevirir. Didaktik oyunlar nəticə etibari ilə uşaqların müstəqil fəaliyyətini inkişaf etdirir.

## EKOLOJİ PROBLEMLƏR VƏ ONLARI YARADAN SƏBƏBLƏR

**İsmayılxanova Ramilə Babək qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müxtəlif ekoloji amillərin nəticəsi olaraq təbiətin funksiyasının və strukturunun dəyişməsindən yaranan problemlər ekoloji problemlərdir. Buraya iqlim dəyişiklikləri, su, torpaq və havada çirklənmənin artması, canlılar aləminin məhvi, torpaq erroziyası, biomüxtəlifliyin məhvi aiddir.

Bəşər cəmiyyəti yaranan gündən Yer kürəsində oksigen azalması, karbon qazının isə artması baş vermiş və XX əsrdə bu proses daha da güclənmişdir. Avtomobillərin tüstüsü, zavodların, qazanxanaların tüstüsü və.s. texnikanın bu cür inkişafı bəşəriyyətin sonunu hazırlamaqdadır. Doğrudur, okeanlardan buxarlanan su oksigen ehtiyatını tarazlasa da, yaşıl bitkilərdə fotosintes prosesi baş versə də, bu tarazlıq artıq keçən əsrdə qalmışdır.

Ekoloji tarazlığın pozulması, ozon qatının məhv olması, oksigenin azalması demək olar ki, zəncirvari fəsadlar törətməyə başlamışdır. Hava çatışmazlığı, günəşdə yaranan zərərli şüalar, iqlimin kəskin dəyişməsi, təbii fəlakətlərin çoxalması buradan doğan faciələrdir. Getdikcə insanların ömrünün azalması, mənşəyi bilinməyən xəstəliklərin meydana gəlməsi, qeyri-normal doğuşlar, yaşama və işləmənin çətinləşməsi bizi nələrin gözlədiyindən xəbər verir. Hətta müasir dövrdə doğulan uşaqların bir qismi gözünü dünyaya onkoloji xəstəliklərlə açır ki, bu cür uşaqlar təəssüf ki, körpəlikdən sonrakı dövrü yaşaya bilmirlər. Doğulan körpələr fiziki məhdudiyyətlərlə doğulurlar ki, bu da ekoloji problemlərlə bağlı olan vəziyyətlərdir. İri sənaye şəhərlərində sənaye və məişət tullantılarının yığılaraq istifadəsiz qalması da ekoloji gərginliyin artmasına səbəb olmuşdur. Sənaye mərkəzlərində, xüsusən iri yaşayış məntəqələrində məişət tullantılarının illərlə yığılıb qalaraq daşınmaması da naratçılığın əsas səbəbidir.

Bunu Azərbaycanın müxtəlif şəhərlərinin timsalında da görmək mümkündür. Əsasən

Azərbaycanın böyük şəhərləri olan Bakı, Gəncə, Sumqayıt kimi şəhərlərin ətraflarında saysız-hesabsız qanunsuz tullantı poliqonları mövcuddur ki, bu həm ətraf mühiti çirkləndirir, həm də insan sağlamlığına zərər vuran xəstəliklərin mənbəyinə çevrilmişdir. Bunu da insanlar "ekoloji terror" adlandırmaqda haqlıdırlar.

Bizim fikrimizcə dövlət tərəfindən daha zəruri tədbirlər görülməli və ətraf mühiti xəstəlik mənbəyindən xilas etmək lazımdır. Məsələn:

-Təhlükə mənbəyi olan sənaye tullartıları üçün xüsusi poliqonlar yaradılmalıdır;

- Məişət tullantıları çeşidlənməli, təkrar emal edilməsi üçün daha səmərəli təcrübələrdən istifadə olunmalıdır;

- Nəqliyyat sistemi elektrikləşdirilməli, nazas, vaxtı ötmüş avtomobillərin istifadəsinə qadağa qoyulmalıdır;

- Torpağın yuyularaq münbitləşdirilməsi, oksigen istehsal edən yaşıllıqların sayının artırılması, yeni suvarma sisteminin təşkil edilməsi və bunların dövlətin xüsusi nəzarətində olmasını təmin etmək.

Əgər bütün bu tədbirlər həyata keçərsə biz gələcəyimizi fəlakətlərdən qurtara bilərik.

## COĞRAFİYANIN TƏDRİSİNDƏ DİYARŞÜNASLIQ MATERİALLARIDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**İsmayılov Abbasəli Rahim oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir Azərbaycan təhsilinin əsas vəzifələrindən biri təhsilalanların müstəqil şəkildə bilik və bacarıqlara yiyələnməsini təmin etməkdir. Diyarşünaslıq materialları təlim prosesində şagirdlərin idraki , ünsiyyət və psixomotor fəaliyyətləri zamanı həyati bacarıqlar qazanmalarını təmin edir.Həmçinin bu bacarıqlarla yanaşı onlarda milli və ümumbəşəri dəyərlərin formalaşmasına kömək edir.Ümummilli Lider Heydər Əliyevin dediyi kimi gənc nəsilə Vətənimizi sevdirməyin ən gözəl yolu onlara Azərbaycanı tanıtmaqdır. Gənclərimiz öz diyarını nə qədər yaxşı tanısalar onu bir o qədər də çox sevəcəklər.

Ətraf mühitə qayğı göstərən ,müstqil düşünən şagirdin yetişdirilməsi coğrafiya dərslərində diyarşünaslıq materialları olmadan mümkün deyildir. Diyarşünaslıq işləri tənqidi və yaradıcı təfəkkürə malik olan,liderlik, təşəbbüskarlıq,məhsuldarlıq ,çeviklik kimi həyati bacarıqlara şagirdlərin yiyələnməsinə kömək edir. Bu bacarıqları qazanmaqla yanaşı diyarını tanıyan,tədqiq edən şagirddə öz diyarına və ətraf aləmə olan,sevgi,məhəbbət ,qayğı ,onun müdafiəsi və mühafizəsi kimi hisslər formalaşır.

Məktəb coğrafiyasının əsas vəzifələrindən biri məhz Azərbaycan Coğrafiyasının öyrənilməsidir. Öz doğma diyarını öyrənən şagirddə diyara maraq, vətənpərvərlik hissləri formalaşır.Bu bir daha şagird tərbiyəsində diyarşünaslıq materiallarının önəmli yer tutduğunu göstərir.Doğma diyarın öyrənilməsi,tədqiqi və kəşfi zamanı diyarşünaslıq materiallarının rolu şagird şəxsiyyətinin ikişafında son dərəcədə vacibdir. Məhəl-rayon-ölkə məfhumlarını özündə birləşdirən diyarşünaslıq müasir kurikulumun tələb etdiyi müstəqil,yaradıcı,məntiqi düşünməyi bacaran şagird formalaşmasına və inkişafına kömək edir.

Həyata keçirilən diyarşünaslıq işləri ictimai-sosial fəaliyyət olmaqla yanaşı həmçinin tədqiqatçılıq xarakteri daşıyır.Diyarşünaslıq işləri şagirdlərin ətraf aləmi dərk etmələrinə şərait yaratmaqla yanaşı onların təliminin və tərbiyəsinin də səviyəsinin yüksəldilməsinə xidmət edir.Diyarşünaslıq işləri olmadan şagirdlərdə həyati bacarıqların formalaşdırılması mümkün deyil. Diyarşünaslıq materialları əsasında şagirdlər diyarın torpaq və bitki örtüyünün müşahidəsi ,relyefin və su hövzələrinin öyrənilməsi, diyarın sənayesi,kənd təsərrüfatı və nəqliyatının tədqiqi ,diyarın əhalisinin ,etnik tərkibi və məşğuliyyətinin öyrənilmsi kimi işlər həyata keçirir.Bu işlər və tədqiqatlar nəticəsində şagirdlər müstəqil olaraq bilik,bacrıqlar və dəyərlər qazanırlar.Bu qazanılan bacarıqlar və dəyərlər onların müstəqil formalaşmasında və gələcək inkişafında mühüm rola malikdir.

Yuxarıda deyilənləri nəzərə alsaq Coğrafiya dərslərində istifadə olunan diyarşünaslıq materiallarının nə qədər böyük əhəmiyyət daşıdığını görərik. Lakin bütün orta məktəblərdə diyarşünaslıq işlərinə yetərincə diqqət ayrılmır. Coğrafiya dərslərində diyarın öyrənilməsi zamanı sinifdənxaric işlərin və ekskursiyaların rolu əvəzolunmaz olsada, müşahidələr göstərir ki,əksər məktəblərdə bu işlər çox zəif həyata keçirilir. Coğrafiyanın tədrisində öyrədilən relyef,iqlim, torpaq,landşaft,çaylar,göllər,ətraf mühit və aləm,sənaye,nəqliyyat və kənd təsərrüfatı kimi bir çox anlayışlar vardır ki,onların mənimsədilməsi diyarşünaslıq materialları vaistəsilə həyata keçirilməlidir.

VII sinifdə Azərbaycan Respublikasının torpaq ,bitki örtüyünü öyrənən şagird dərslikdə olan nəzəri məlumatları öyrənməklə yanaşı həmçinin ekskursiya zamanı diyarın torpaq bitki örtüyünü əyani şəkildə görüb ,tədqiqat aparaq ,müstəqil şəkildə öyrənilməlidir.Əlbəttə ki ,əyani şəkildə,apardığı müşahidələr əsasında müstəqil öyrənilən bacrıqlar şagiridin müstəqil və tədqiqatçı kimi yetişməsində əvəzsiz rol oynayır.

Coğrafiyanın tədrisinin keyfiyyətinin yüksəldilməsində də diyarşünaslıq materiallarının çox böyük əhəmiyyət daşıyır.Buna görə də hər bir Coğrafiya müəlliminin təlim və tərbiyə işində diyarşünaslıq materialları ön planda olmalıdır. Lakin doğma diyarın öyrənilməsi üçün kifayət qədər metodik vaistələr və tövsiyyələr olmadığı üçün fənn müəllimləri bu işlərə yetəri qədər diqqət ayırmırlar.Nəticədə orta ümumtəhsil məktəblərində diyarşünaslıq işlərinin kefiyyəti aşağı düşür.Buna görə də diyarşünaslıq materiallarının tədbiqi haqqında metodik vaistələrin hazırlanması çox böyük önəm daşıyır.Əgər Coğrafiya fənn müəllimləri metodik tələbə uyğun diyarşünaslıq materiallarından istifadə edə bilsələr bu zaman tədrisin kefiyyəti də yüksəlmiş olacaqdır.

Şagirdlərin inkişafında əvəzsiz rola malik diyarşünaslıq materialları əsasında aparılan tədqiqat işlərinin yekununda şagirdlər tərəfindən hesabat halına salınması,toplanılan əyani diyarşünaslıq materiallarından dərsdə mənbə kimi istifadə olunması,həmin materialların coğrafiya kabineti və eyni zamanda coğrafiya guşəsində saxlanılıb sərgilənməsi həm şagird şəxsiyyətinin həm də məktəb diyarşünaslığının da inkişafı üçün çox böyük əhəmiyyət daşıyır. Aparılan müşahidələr bir daha onu göstərir ki,diyarşünaslıq materialları şagirdlərin kəşf edərək öyrənməsinə şərait yaradır, tədris prosesində formalizmi minimuma endirməklə şagird tərbiyəsinin və inkişafının optimallaşmasını təmin edir.

Ədəbiyyat

1.”Ümümtəhsil pilləsinin dövlət standartları və proqramları(kurikulumları)”, Azərbaycan məktəbi,2011 N6.
2.Bibik .A.J ”Orta məktəbdə Coğrafiya təliminin metodikası” Bakı, 1978,424 səh.
3.Cəbrayılov.İ.”Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti” Monoqrafiya .Bakı:Mütərcim,2011.
4.Strayev.K.F “Coğrafiyanın məktəb kursunda məhəlşünaslıq və məhəlşünaslıq prinsipi” Bakı:Maarif 1973.

## MƏKTƏB RİYAZİYYAT KURSUNDA “ÇOXÜZLÜLƏR” İN ÖYRƏDİLMƏSİ HAQQINDA

**İsmayılova Aygün Habil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsil sistemi və onun səmərəli reallaşdırılması hər bir dövlətin strateji problemidir. Çünki, dövlətin elmi, texniki, iqtisadi və hərbi qüdrətini təmin etmək üçün ona yüksək ixtisaslı mütəxəssislər lazımdır. Nəzərdə tutulan mütəxəssislərin hazırlanmasının ən səmərəli prosesi məqsədyönlü təşkil olunmuş təhsildir. Belə ki, müasir həyatın inkişafı riyaziyyat elmi ilə daha çox əlaqədardır. Riyazi təhsil aparıcı mövqedə olmaqla dövlət, hökümət tərəfindən ona daha çox diqqət və qayğı göstərilməlidir.

Orta məktəb riyaziyyat proqramına əsaslanaraq stereometriya kursunun öyrənilməsinin iki əsas məqsədini müəyyən etmək olar:

1. Şagirdlərdə məntiqi təfəkkür vərdişlərini və fəza təsəvvürünü inkişaf etdirmək;
2. Klassik və müasir həndəsənin tətbiqi aparatı və tətbiqləri ilə onların tanışlığını davam etdirmək.

Bu əsas məqsədləri ona görə xatırlatmaq lazımdır ki, son vaxtlara qədər həndəsədən bir çox dərsliklərin müvəffəqiyyətsiz olmasının əsas səbəbi bunların unudulması olmuşdur. Göstərilən məqsədlərə nail olmağın əsas vasitəsi müxtəlif növdən olan məsələlərin həllidir. Məsələlər həlli isə mahiyyət etibarilə əsas aparıcı, sanki əvvəlcədən həll olunmuş bünövrə məsələlərinin məcmusundan ibarət olan nəzəriyyəyə əsaslanır. Bünövrə məsələləri dedikdə, teoremlər, həndəsi fiqurun xassələri, konfiqurasiyalar, başqa sözlə, bir fiquru əmələ gətirən cisimlərin və ya onların hissələrinin bir-birinə nisbətən vəziyyəti, düzülüşü habelə xarici görünüş, şəkil və konstruksiyalardır. Teoremlər (xassələr) isbat edilməlidir. Əsas xassələr isə isbatsız qəbul edilir. Müasir riyaziyyatda onlar aksiomlar kimi qəbul edilmişdir. Məktəb həndəsə kursunun öyrənilməsi prosesində aksiomlar, teoremlər və məsələlərin qarşılıqlı olaraq düzgün əlaqələndirilməsi təlim-tərbiyəvi məqsədlərin müvəffəqiyyətlə yerinə yetirilməsini təmin edir.

Hazırki proqrama əsasən streometriya kursu X-XI siniflərdə tədris olunur. Bura çoxüzlülər, fırlanma fiqurları ,onların sahəsi, həcmi kimi mövzular daxildir.

Riyaziyyatın tədrisi prosesində həndəsə elementlərinin, o cümlədən, həndəsə elminin geniş bölmələrindən biri olan “Çoxüzlülər” bölməsinin öyrədilməsi şagirdlərin elmi-nəzəri və praktik bacarıqlarının yüksəldilməsi üçün zəmin yaradır. Belə ki, çoxüzlü anlayışının öyrədilməsi zamanı:

- Müəllim ilə şagirdlərin fəal ünsiyyətini təmin edir;
- Şagirdlərin idrak fəaliyyətini aktivləşdirmək imkanı yaradır;
- Şagirdlərdə yaradıcı tətbiqetmə, tədqiqatçılıq bacarıqları inkişaf edir;
- Mövzunun həyatla əlaqələndirilməsi, şagirdlərin gələcək həyatlarında onlardan istifadə imkanları yaranır;
- Yeni təlim metodlarının tətbiq edilərək mövzunun tədrisi təlimin səmərəsini yüksəldir, şagirdlərin müstəqil fəaliyyətini təmin edir.

Orta məktəbin riyaziyyat kursunda fəza fiqurlarının, o cümlədən "Çoxüzlü" anlayışının şagirdlər tərəfindən dərk edilib yaradıcı şəkildə tətbiq etmələri üçün aşağıdakı kimi fərziyələr irəli sürülür:

-tədris prosesində "Çoxüzlü" anlayışının şagirdlər tərəfindən mənimsənilməsi üçün yeni təlim texnologiyalarından və İKT-nin tətbiqlərindən istifadə edilməli;

-təlim prosesində şagirdlər məqsədyönlü və sistemli olaraq tədqiqatçılığı cəlb olunarsa problemlə bağlı məsələlərin tam yerinə yetirilməsinə nail oluna bilər.

Qarşıya qoyulmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi zəruridir: pedaqoji ədəbiyyatların təhlil edilməsi, qabaqcıl müəllimlərin iş təcrübəsinin öyrənilməsi, hal-hazırda orta məktəbin riyaziyyat təlimindəki vəziyyəti müəyyən edərək tədqiqatın istiqamətini müəyyən etmək; müasir təlim metodlarından istifadə edərək mövzu ilə bağlı dərs nümunələrinin hazırlanmaq;

- dərs nümunələrinin məktəb təcrübəsində reallaşdırılmasına nail olmaq;
- mövzu ilə bağlı şagirdlərin əldə etdikləri bilik və bacarıqların monitorinqini aparmaq.

Göründüyü kimi, tədris prosesində başlıca diqqət əsas faktların, anlayışların, qanunların, həndəsi nəzəriyyə və metodların öyrənilməsinə, nəzəriyyə əsasında həndəsi anlayışların ümumiləşdirilməsinə verilməlidir. Şagirdlərin, çoxüzlü anlayışını, çoxüzlüyə dair teoremləri, xassələri, isbatları, tərifləri və s. məsələ həllində və ya həyatda tətbiqinə hazırlamaq lazımdır. Riyaziyyat təliminin hər bir bölməsində öyrənilməsi zəruri olan materialın ayrılması, onun dərindən və möhkəm mənimsənilməsinə nail olmağa imkan verir. Həndəsə məsələlərin həlli riyaziyyat təliminin üzvü hissəsi olub mühüm təlim metodudur.

Orta ümumtəhsil məktəblərin riyaziyyat təlimində "Çoxüzlü" anlayışının öyrənilməsi zamanı şagirdləri müşahidə etmək, onlarla sorğu keçirmək, metodik ədəbiyyatları təhlil etmək, qabaqcıl riyaziyyat müəllimlərinin iş təcrübələrini öyrənib tədqiqat işində nəzərə almaq və s. vacib amillərdir.

Riyaziyyat elminin təməlini təşkil edən həndəsə elementlərinin orta məktəbin riyaziyyat kursunda tədrisi üçün produktiv yollar işləyib hazırlamaq əsas məqsədlərdən biridir. Bu, isə şagirdlərin şüurunda çoxüzlü anlayışı haqqında düzgün və sistemli təsəvvürün yaradılması, yeni biliklərin əldə edilmə metodları və mənimsənilmiş biliklərdən praktik çalışmalarda istifadə üsulları haqqında riyaziyyat müəllimlərinin konkret və produktiv tədris metodikası ilə silahlandırmaqdır.

Ədəbiyyat
1. Ağayev B.A., Riyaziyyatın tədrisi metodikası, B., Azərnəşr, 1961.
2. Əlizadə Ə.Ə., Şagirdlərdə yaradıcı fəaliyyətin inkişafı, B., Azərnəşr 1968.
3. Quliyev Ə.A., XI sinifdə çoxüzlülər, Bakı, 1991.

## İRƏVAN MAARİFÇİLİK MÜHİTİ VƏ İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI

**İsmayılova Eminə İlqar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

1881-ci ildə İrəvanda 3 böyük tədris müəssisəsi – İrəvan Kişi Gimnaziyası, İrəvan Müəllimlər Seminariyası və İrəvan qız progimnaziyası açılmışdır.

İrəvan Kişi Gimnaziyasının tanınmış məzunları olmuşdur:

Eynəli bəy Sultanov - 1886-cı ildə məzun olmuş, gimnaziyanın pedaqoji şurasının qərarı ilə ona müəllimlik hüququ verilmişdir.

Mustafa Topçubaşov (1895-1981)- Akademik. İrəvan Kişi Gimnaziyasını sonuncu qızıl medalçısı olmuşdur. O Kiyev universitetinin tibb fakültəsində təhsil almış, görkəmli cərrah, ictimai və dövlət xadimi olmuşdur.

Əziz Əliyev (1897-1962)- elm və dövlət xadimi. İrəvan Kişi Gimnaziyasını 1917-ci ildə fərqlənmə diplomu ilə bitirmiş, Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı ilə Sankt-Peterburq Hərbi Tibb Akademiyasında təhsil almış, Səhiyyənin, təhsilin müxtəlif sahələrində, dövlət işlərində yüksək vəzifələrdə çalışmış, 1929–1932-ci illərdə Azərbaycan Klinik İnstitutunun rektoru, Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru, 1937- ci ildə Azərbaycan Dövlət Universitetinin rektoru olmuş, professor, "Əməkdar həkim", ictimai və dövlət xadimi olmuşdur.

Əhməd Rəcəbli (1898-1963) Akademik. 1919- cu ildə AXC hökuməti Ə. Rəcəblinin İtaliyaya oxumağa göndərmiş, qayıtdıqdan sonra Moskva Universitetində dərs demişdir.

Heydər Hüseynov (1908-1950) - Akademik. Müxtəlif elm sahələrində, dövlət işlərində yüksək vəzifələrdə çalışmışdır.

Mehdi Kazımov - (1890-1954), Miryusif Mirbabayev (1889-1951), Səid Rüstəmov (1907-1983) və daha başqa görkəmli tanınmış şəxsiyyətlər İrəvan Kişi Gimanziyasını bitirmişlər.

1881-ci il, 8 noyabrda İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2021-ci il tarixində imzaladığı "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı mühüm elmi, pedaqoji,siyasi və tarixi əhəmiyyət kəsb edir. Sərəncamda deyilir: "Biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu, gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti

illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq”[1].

Bu sərəncam İrəvan mahalında azərbaycanlıların min illər boyu yaşayıb-yaratdığı tarixi- mədəıni irsə sahib çıxmağa çağırış, qan yaddaşımızı oyatmağa yönələn mühüm tarixi bir sərəncamdır.

37 il fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda bağlanmışdır. Seminariyanın Azərbaycan bölümünün rəhbəri Axund Məmmədbağır Qazızadə olmuşdur. Seminariyanın fəaliyyətində Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, C.Ələkbərbəyov, Cəlil Məmmədquluzadə, M.Terequlov və başqalarının böyük xidmətləri olmuşdur. İrəvan Müəllimlər Seminariaysının Azərbaycan şöbəsinin müxtəlif vaxtlarda direktorları Məmmədbağır Qazızadə, Rəşid Bəy Şahtaxtinski, Həmid Bəy Şahtaxtinski, Cəfər Bəy Cəfərbəyov olmuşdur:

1925-ci ildə İrəvanda iki illik müəllimlər kursu, 1936 -cı ildə İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutu, 1937 -ci ildə iki illik Müəllimlər İnstitutu, 1945-1988 -ci illərdə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi fəaliyyət göstərmişdir.

İrəvan Pedaqoji İnstitunda dərs demiş dos. Əkbər Yerevanlı, dos. Lətif Hüseynzadə, dos. Əli Dalqılıcov, dos. Fərrux Rzayev, dos. İsrafil Məmmədov, dos. Mehdixan İrəvanski, dos. Hüseyn İsmayılov, dos. Məhərrəm Hüseynov, dos. Vilayət Əliyev, prof. Fərhad Fərhadov, prof. Rəhim Allahverdiyev, prof. Həmid Əliyev, prof. Mirəli Seyidov, Adil Süleymanov, Sabir Əsədov, Arzuman Qəmbərov, Təvəkkül Kərimov kimi tanınmış pedaqoq alimlər dərs demişlər.

Ədəbiyyat

1. İlham Əliyev. “İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında” Sərəncam. Bakı şəhəri, 29 dekabr 2021-ci il/https://president.az/az/articles/view/55116.

## ŞAGİRDLƏRDƏ BACARIQ VƏ VƏRDİŞLƏRİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ MƏKTƏB KİMYA EKSPERİMENTİNİN ROLU.

**Kadirova Sona Vaqif qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bu gün ölkəmiz də daxil olmaqla bütün inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin ümumtəhsil məktəblərinin qarşısında duran əsas məqsədlərdən biri istedadlı,tənqidi düşünə bilən, öyrəndiklərini real həyatda istifadə etmək bacarığına sahib,ölkələrinə və dünyaya yararlı gənclər yetişdirməkdir. Şagirdlərin təhsildə istedadlı və zəkalı olması başlıca olaraq səriştə anlayışı ilə sıx şəkildə əlaqəlidir.

Səriştə, pedaqoji fəaliyyət üçün əsas təyinat mənbəyidir. Səriştə, şagirdlərin müəyyən hədəflərə nail olmağında, öz imkanlarından maksimum səviyyədə istifadə etmələrində və öyrənmə prosesində mövqelərinin artırılmasında önəmli bir faktordur. Bundan əlavə, səriştənin verdiyi imkanlar sayəsində şagirdlər öz işlərini təşkil etmə, zamanı düzgün idarə etmə və problem həll etmə kimi bacarıqlara sahib olurlar. Gündəlik həyatımızda qarşılaşdığımız bir çox hadisələr kimya ilə bağlıdır. Şagirdlərin öz həyatlarında baş verən hadisələrlə məktəbdə öyrəndikləri biliklər arasındakı əlaqəni dərk etmələri onların elmi savadlı olmalarına böyük töhfə verəcək.

Kimya fənninin tədrisində şagirdlərdə formalaşdırılmalı olan bacarıqlar aşağıda göstərilmişdir.

1. Öyrəndikləri bilikləri (qanunları, nəzəriyyələri, anlayışları və s.) praktikaya tətbiq etmək;

2. Kimyaya dair məsələləri həll etmək;

3.Kimya eksperimentini həyata keçirmək.

Yuxarda göstərilən xüsusi bacarıqlardan başqa kimyada şagirdlər üçün zəruri olan vərdişlər də vardır. Bu qrup vərdişlər aşağıdakılardır:

1. Kitablardan ( kimya dərsliyindən, tapşırıqlar üçün kitabdan, sorğu kitabları, kimyadan əlavə oxu kitabı) istifadə etmək bacarığı;

2. Fikrini yazılı və yaxud şifahi formada ifadə edə bilmək (eksperimentlerin izahını yazmaq, məsələlərin həlli).

3. Sinif otaqlarında, kimya kabinetində kollektivlərlə işləmək qaydalarına əməl etmək bacarığı. Buraya eyni zamanda kimyəvi maddələr və avadanlıqlarla davranmaq bacarıqları da daxildir.

4. Prakrik bacarıq (sadə cihaz və modelləri quraşdırmaq, sxemlər, cədvəllər, qrafiklər, və s. hazırlamaq) Kimya elminin məzmununu ümumiyyətlə iki başlıq altında qruplaşdırmaq olar: "elmi bilik" və "elmi bacarıqlar". Elmi biliklər elmi metoda əməl etməklə əldə edilən anlayış, fərziyyə, nəzəriyyə və qanunlardan ibarət olduğu halda; elmi bacarıqlar elmi biliklərin əldə edilməsi prosesində istifadə olunan bütün bacarıqlardan ibarətdir.
Kimya fənnin tədrisi zamanı digər fənlərdən fərqli olaraq praktik metodlardan daha çox istifadə edilir.Tədqiqatçılar göstərmişdir ki, kimya tədrisində şagirdlərdə səriştənin formalaşmasına təsir göstərən amillər içərisində ən əsas rol oynayan məktəb eksperimentidir. Onlar iddia edirlər ki, laboratoriya fəaliyyətləri sosial əlaqələri yaxşılaşdırır və müsbət münasibət yaratmaqla idrakın inkişafına kömək edir. O, sinifdə tədris olunan dərslərlə müqayisədə daha səmimi mühit yaratmaqla və müəllim-şagird ünsiyyətinin yaranmasına imkan verməklə konstruktivist və müsbət öyrənmə mühiti təmin edir.
Kimya təhsilində şagirdlər bilikləri təcrübə edərək, yaşayaraq öyrənirlər. Bu səbəbdən kimya təhsilində kimyəvi eksperiment zəruridir və şagirdlər bu fəaliyyə vasitəsilə elmi bacarıqlar əldə edirlər. Məktəb eksperimenti tədris prosesinin əsas tərkib hissəsidir və şagirdlərə mövzünü başa düşməkdə köməklik edir. O, şagirdlərə eksperimenti planlaşdırmaq və öz biliklərindən istifadə etmək təcrübəsi verir. Tədris zamanı şagirdlər müşahidələr aparır və mövzü ilə bağlı ətraflı məlumat əldə edirlər. Məktəb ekspermenti şagirdlərin kimya dərslərinə marağını artırır. Kimyəvi eksperiment şagirdlərin təfəkkürünü və əqli fəaliyyətini inkişaf etdirir. Kimya müəllimləri tələbələrə düzgün təlimatlar verir, ehtiyac olduğu zaman yardım edir, onlara öz işlərində rəhbərlik edir və laboratoriya işlərində uğurlu nəticələr əldə etmələri üçün onları doğru istiqamətə yönləndirir.

Kimya tədrisində eksperimentlərin təşkili həm özünün istiqaməti, məzmunu, xarakteri, həm də keçirilməsi üsullarına görə kimya dərslərindən müəyyən qədər fərqlənir. Kimya fənninin tədrisində istifadəsi mümkün olan praktik metodlara aşağıdakılar aiddir:
1. Nümayiş təcrübələri. –Fənn müəllimi tərəfindən həyata keçirilir. Yeni materialın nümayiş təcrübələri vasitəsilə tədris edilməsi şagirdlərdə mənimsəmə qabiliyyətini artırır, onların tədqiqatçılıq qabiliyyətini formalaşdırır həmçinin onlarda dərsə maraq oyadır. Nümayiş təcrübələri həm mövzunun uzunmüddətli və şüurlu surətdə möhkəmləndirilməsinə səbəb olur, şagirdləri dərsdə diqqətli olmağa səfərbər edir, həm də yorğunluğun qarşısını alır və məktəbliləri tədqiqata alışdırır. Nəzəri biliklərin mənimsənilməsinin ilkin mərhələsi sayılan nümayiş təcrübələri şagirdlərdə mövzu ilə bağlı təsəvvürlər formalaşdırır. Məsələn, elektrolitik dissosasiya dərəcəsinin asılı olduğu amilləri nəzərdən keçirərkən müəllim suala cavab verməyi təklif edir -"Dissosasiya dərəcəsi məhlulun qatılığından asılıdırmı?" Sirkə turşusunun qatılaşdırılmış və durulaşdırılmış məhlullarının elektrik keçiriciliyinin sınaqdan keçirilməsinə əsaslanan təcrübə nümayiş etdirilir. Təcrübənin nəticələrinə əsasən şagirdlər elektrolitin dissosasiya dərəcəsinin məhlulun qatılığından asılı olduğu qənaətinə gəlirlər: "Məhlulun durulaşdırılması ilə dissosasiya dərəcəsi artır"

2. Laboratoriya işləri- Şagirdlərin laboratoriyada yerinə yetirdikləri təcrübələrdən çıxarılan nəticələrə əsasən onlara yeni bilik verilirsə, belə təcrübələrə laboratoriya işləri

(məşğələləri) deyilir. Laboratoriyalar şagirdlərin kiçik qruplarda təkbaşına və ya birgə işlədiyi, elmi hadisələri araşdırıb tədqiq etdikləri mühitlərdir. Əgər şagirdlərin hamısına ayrı-ayrılıqda cihaz, reaktiv, kimyəvi qablar və s. verilmişsə və hər şagird proqramda nəzərdə tutulmuş eyni təcrübəni təklikdə aparırsa, belə formaya frontal laboratoriya işi deyilir. Laboratoriyalar təkcə şagirdlərin nəzəri bilikləri öyrəndikləri bir yer deyil, həm də onların elmi metodologiyanı dərk etdikləri, tədqiqatçı kimi davrandıqları, praktiki bacarıqlarını təkmilləşdirdikləri təcrübələrdir. Məktəb eksperimenti kimya dərsini daha maraqlı edir, şagirdlərə müsbət təsir edir, onların kimya dərslərində uğurlarını artırır.

3. Praktik işlər- Müstəqil işə aid olmaqla laboratoriyada aparılan təcrübələrdən bilik və bacarığı möhkəmləndirmək üçün istifadə olunursa, bu cür təcrübələrə praktiki məşğələ deyilir. Bu işlərin təşkilindən sonra məktəblilərdə eksperimental bacarıq və vərdişlər daha da təkmilləşir.

Hal-hazırda məktəblərdə kimya kursunda təcrübə müddətinin qısa olduğu və buna görə də dərs saatlarının artırılmasının vacibliyi müəyyən olunmuşdur. Laboratoriya işlərində dərsin müddəti vacibdir. Eyni zamanda, tədqiqatda iştirak edən şagirdlərin gözləntilərini ödəyə biləcək tam təchiz olunmuş laboratoriyaların təşkil olunması da arzuolunandır. Yaxşı olardı ki, məktəb laboratoriyalarında material və avadanlıqlardakı çatışmazlıqların aradan qaldırılması üçün müvafiq şirkətlərlə müqavilələr bağlansın, şagirdlərdə kimya fənninə qarşı daxili motivasiyanı yüksəltmək üçün sənaye müəssisələrinin və universitetlərin laboratoriyalarına ekskursiyalar edərək onların iş şəraitlərini şagirdlərə göstərməsi həyata keçirilsin.

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ÜNSİYYƏT BACARIQLARININ İNKİŞAFI

**Kərimova Mehriban Rizvan qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnsan sosial varlıqdır. Onun həyatı şəxsiyyətinin formalaşmasında böyük rol oynayan cəmiyyətlə ayrılmaz şəkildə bağlıdır. Hələ qədim zamanlardan insanlara məlum idi ki, uşaqların çoxu yetim evində tez ölür. 1760-cı ildə ispan yepiskoplarından biri öz gündəliyində yazmışdı: "yetim evində uşaq kədərli olur və onların bir çoxu kədər çəkdiyi üçün ölür". Çünki onların ünsiyyət tələbatı ödənilmir.

Buradan da aydın olur ki, ünsiyyət insan həyatının əsasını təşkil edir. Və bu tələbat kiçik yaşda ödənilmədikdə ölümə qədər aparır. Böyümə zamanı ünsiyyətin formalaşdırılmasında ən mühüm öhdəlik əvvəlcə valideynlərin üzərinə düşür. Ailə üzvləri ilk növbədə uşağa əsas davranış qaydalarını və fikirlərini aydın ifadə etmək bacarığını aşılayır. Bu, uşaqların başqa insanlar və həmyaşıdları arasında özlərini sərbəst hiss etmələri və ünsiyyət qurmaq bacarıqları formalaşır. Əldə edilmiş şəxsiyyətlərarası bacarıqlara ünsiyyət bacarıqları deyilir. Onlar məktəbəqədər yaşda formalaşır və həyatı boyu inkişaf edir.
Ünsiyyət bacarıqları nədir?

Latın dilində kommunikativlik "ünsiyyət qurmaq", yəni, ünsiyyət qura bilmək və insanlarla qarşılıqlı əlaqədə olmaq kimi tərcümə olunur. "Ünsiyyət" anlayışı insanın şəxsi keyfiyyətlərini, əxlaq normalarını səciyyələndirən müsbət keyfiyyətdir.

Bu zaman tərbiyəçi-müəllim və valideynlər uşağa iki vacib məsələni öyrətməlidirlər:
-fikirlərinizi,hisslərinizi, emosiyalarınızı və.s aydın ifadə edin və izah edin;
-başqalarının fikirlərinə hörmət edin, həmsöhbətinizi dinləməyi bacarın və sözünü kəsməyin.
Pedaqoq və psixoloqlar düşünürlər ki, bir neçə inkişafetdirilməli olan ünsiyyət bacarıqları vardır.
1.uşaqda ünsiyyət arzusunu inkişaf etdirmək
2.qaydaları izah etmək və digər insanlarla qarşılıqlı əlaqəni formalaşdırmaq(ünsiyyəti davam etdirmək, insanlardan qaçmamaq)

3.bir sıra praktik ünsiyyət bacarıqlarını inkişaf etdirmək;
-nəzakətlə diqqəti özünə cəlb etmək
-dostluq
-əməkdaşlıq
-həmsöhbətin mövqeyini qəbul etmək
-dinləmək və empatiya qurmaq bacarığı

Bütün bunların məktəbəqədər yaşlı uşaqda formalaşdırılması onun gələcəkdə cəmiyyətdə sosial bir şəxs kimi mövqe tutmasına və ünsiyyətcil olmasına imkan verəcəkdir.
Məktəbəqədər yaşlı uşaqlarda ünsiyyət bacarıqlarının inkişafının xüsusiyyətləri

Bir neçə mərhələyə bölünür. Hər yaş mərhələsi öz ünsiyyət xüsusiyyətlərinə malikdir.

0-3 erkən məktəbəqədər yaş dövrü-uşaq az insanla təmasda olur, qarşılıqlı əlaqənin ilk əsaslarını öyrənir;

3-4 orta məktəbəqədər yaş dövrü-uşaq artıq həmyaşıdları ilə ünsiyyət qurur(oynamaq,danışmaq);

4-5 böyük məktəbəqədər yaş dövrü-artıq böyüklərlə qarşılıqlı əlaqədə olur, ünsiyyətin işgüzar dövrü başlayır;

5-6 məktəbəhazırlıq yaş dövrü- uşaqda artıq seçici ünsiyyət formalaşır. Bu dövrdə ünsiyyət daimi xarakter daşıyır.

Ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi üsulları
Məktəbəqədər yaşlı uşağın əsas fəaliyyət növü oyundur.müəyyən məzmunlu müxtəlif oyunlarin (rollu oyunlar,didaktik oyunlar və.s) təşkili ünsiyyət bacarıqlarının inkişafına səbəb olur.

- əlaqə yaratmaq;
- qeyri-verbal ünsiyyət;
- nitqin ifadəliliyi;
- empatiya qurmaq bacarığı;
- gözləməni formalaşdırmaq.

Həmyaşıdları ilə oynamaq uşağa yoldaşlarının fikir və istəklərini nəzərə almağı, öz fikrini ifadə etməyi və özünü müdafiə etməyi öyrədir.
Məlumdur ki, dünya inkişaf edir, yeni texnologiyalar, kütləvi informasiya vasitələri hər gün yenisi ilə əvəz olunur. Lakin uşaq üçün "canlı" ünsiyyət heç nə ilə əvəz oluna bilməz. Buna görə məktəbəqədər yaşlı uşaqları tərbiyəçi-müəllim müxtəlif tədbirlərə, ekskursiyalara, gəzintilərə aparmalıdır. Bu onların digər insanlarla rahat ünsiyyətə girməklərinə və istənilən mühitə tez adaptasiya olmaqlarına şərait yaratmış olacaqdır.

## VIII SİNİF "1.1.1." MƏZMUN STANDARTININ SPESİFİK STANDARTLARLA YENİLƏŞDİRİLMƏSİ

**Kiçibəyova Zamira Qabil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Fizikadan VIII sinifin proqramının məzmunu üzərində apardığımız araşdırmalardan məlum oldu ki, digər siniflərdə olduğu kimi, burada da standartlar çox ümumi verildiyindən onlar ölçülə bilməyən xarakter daşıyır. Məsələn, 1.1.1. məzmun standartının ölçülməsi üçün VIII sinif şagirdinə elə bir alət təqdim edilməlidir ki, o istilik hadisələrindən 4 fəslin 26 alt fəslindəki, elektrik hadisələrindən isə 2 fəslin 23 alt fəslindəki təlim materiallarına dair bilik və bacarıqları qiymətləndirə bilsin [1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fizika fənni üzrə təhsil proqramı (kurikulumu). VI-XI siniflər. Bakı, 2013, 80 s., səh. 12. 2. Murquzov M.İ., Abdurazaqov R.R., Əliyev R.M., Əliyeva D.Z. Fizika 8. Dərslik. Bakı, Bakınəşr, 2019, 200 s.]. Aydındır ki, belə bir alət hazırlamaq qeyri mümkündür. Bu problemin aradan qaldırılmasının yeganə yolu VIII sinfin fizika fənni üzrə məzmun

standartının mümkün qədər spesifikləşdirməkdir. Nümunə olaraq VIII sinif "1.1.1. İstilik və elektromaqnit (elektrik) hadisələri və onların başvermə səbəblərini şərh edir" məzmun standartını aşağıdakı kimi spesifik standartlarla yeniləşdirmək mümkündür.
1.1. İstilik hadisələrinə aid qanun və qanunauyğunluqlarına aid bilik və bacarıqlarını nümayiş etdirir
1.1.1. Molekulların istilik hərəkəti, temperatur və daxili enerji anlayışlarını izah edir.
1.1.2. Daxili enerjinin dəyişmə üsullarını təsnif edir.
1.1.3. İstilikvermənin növlərini fərqləndirir.
1.1.4. Müxtəlif temperatur şkalalarında temperaturları əlaqələndirir.
1.1.5. İstilik miqdarı və istilik tutumu anlayışlarını bir-biri ilə əlaqələndirir.
1.1.6. Kalorimetr adlanan cihazda xüsusi istilik tutumunu təyin edir.
1.1.7. İstilik balansı tənliyini daxili enerji ilə ifadə edir.
1.1.8. İstilik proseslərində enerjinin saxlanması qanununu tətbiq edir.
1.1.9. Ərimə və bərkimə proseslərində istilik miqdarının nəyə sərf olunduğunu müəyyən edir.
1.1.10. İnsan orqanizminin həyat fəaliyyətində nisbi rütubət anlayışının mahiyyətini izah edir.
1.1.11. İstilik mühərriklərinin mexanizmlərini izah edir.
1.1.12. İstilik tarazlığını xarakterizə edən kəmiyyətin fiziki mənasınl izah edir.
1.1.13. Daxiliyanma mühərrikinin quruluşunu və iş prinsipini müəyyən edir.
1.1.14. Dizel mühərriklərini karbiratorlu mühərriklərdən fərqləndirir.
1.1.15. Reaktiv mühərrikin növlərini fərqləndirir.
1.2. Elektrik hadisələrinə aid qanun və qanunauyğunluqlarına aid bilik və bacarıqlarını nümayiş etdirir
1.2.1. Elektronun kəşfini və təbiətini izah edir.
1.2.2. Elektrik sahəsinin qüvvə xarakteristikasına aid məsələrəri həll edir.
1.2.3. Elektrostatik induksiya hadisəsinin fiziki mahiyyətini izah edir.
1.2.4. Müxtəlif təbiətli yüklər arasındakı qarşılıqlı təsiri müəyyən edir.
1.2.5. Elektrik yüklərinin cisimlər arasında hansı qanunauyğunla paylandığını müəyyən edir.
1.2.6. Kulon qanunu ilə ümumdünya cazibə qanununu müqayisə edir.
1.2.7. Kondensatorun quruluşunu və iş prinsipini izah edir.
1.2.8. Keçiricilər və dielektrikləri fərqləndirir.
1.2.9. Elektrik dövrəsinin şərti elementlərini sxematik olaraq təsvir edir.
1.2.10. Sadə elektrik dövrələrində istifadə olunan ölçü cihazlarından istifadə edir.
1.2.11. Dövrə hissəsi üçün Om qanunun fizika mahiyyətini izah edir.
1.2.12. Dövrə hissəsi üçün Om qanununa aid məsələ qurur və həll edir.
1.2.13. Naqilin müqavimətinin aslı olduğu kəmiyyətləri müəyyən edir.
1.2.14. Mexaniki işlə elektrik cərəyanının işini fərqləndirir.
1.2.15. Coul-Lens qanununu ardıcıl birləşdirilmiş naqillərə tətbiq edir.
1.2.16. Coul-Lens qanununu paralel birləşdirilmiş naqillərə tətbiq edir.
1.2.17. Cərəyanın işi və gücünün əlaqəsinə aid məsələ həll edir.
1.2.18. Eleltrik cərəyanının gücünü kVt-la ifadə edir.
1.2.19. Elektrik cərəyanının istiqamətini şərti olaraq müəyyən edir.
1.2.20. Cərəyan mənbələrinə aid misallar gətirir.

Standartların belə spesifikləşdirilməsi azı iki mühüm problemin uğurla həll edilməsinə zəmin yaradır:
1. VIII sinif şagirdləri üçün dərslik hazırlanması prosesinə.
2. Kiçik və böyük summativ qiymətləndirmə alətlərinin hazırlanmasına.

Belə alətlərə aşağıdakı tip tapşırığı nümunə göstərmək olar.
Məsələ.
A. Yerlə əlaqələndirilən yüksüz L metal sferasına mənfi (-) yüklü M cismi yaxınlaşdırılır. Bir müddətdən sonra L sferasının yerlə əlaqəsi kəsilir və M cismi uzqlaşdırılır (Şəkil 1).
Sual 1. Son halda L sferasının elektrik yükü haqqında nə söyləmək olar?

B. Müsbət (+) yüklü L sferası və mənfi (-) yüklü M cismi Yer səthi ilə əlaqələndirilmişdir (şəkil 2).
Sual 2**.** M cisminin yerlə əlaqəsi kəsilərsə, L və M cisimləri uyğun olaraq necə yüklənər?




A)L müsbət, M müsbət  B) L mənfi, M müsbət  C) L müsbət, M mənfi
D) L neytral, M neytral  E) L neytral, M müsbət

Məsələni təhlil edək. Yerlə əlaqələndirilən keçirici cisimlər hansı yüklə elektriklənməsindən asılı olmayaraq dərhal elektrik cəhətdən neytrallaşır. Əgər keçirici cisim mənfi (-) yüklə elektriklənibsə, o, yerlə əlaqələndirildikdə torpağa elektron verərək neytrallaşır (şəkil **a**). Əgər keçirici cisim müsbət (+) yüklə elektriklənibsə, o, yerlə əlaqələndirildikdə torpaqdan elektron alaraq neytrallaşır (şəkil **b**).
Yerlə əlaqələndirilən keçiriciyə elektrik yüklü cisim yaxınlaşdırılarsa, keçiricinin bu cismin yaxınlaşan hissəsi əks işarəli yüklə elektriklənir (şəkil **c, d** və **e**).




Sual 1. Cavab: Yuxarıdakı izahdan məlum olur ki, L sferası müsbət (+) yüklənir.
Sual 2. Cavab: D.

Ədəbiyyat


1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fizika fənni üzrə təhsil proqramı (kurikulumu). VI-XI siniflər. Bakı, 2013, 80 s.
2. Murquzov M.İ., Abdurazaqov R.R. və başqaları. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün fizika dərsliyi. Bakı nəşr. 2020. 200 s.
3. R. Abdurazaqov və S. Əsgərli. . Ümumtəhsil müəssisələrinin VIII sinfi üçün fizikadan sinif testləri. Bakı 2024. 256 s.


## AZƏRBAYCAN DİLİNİN SİNTAKSİSİNİN İNTEQRATİV İMKANLARI : PROBLEM, ELMİ – METODİK ƏDƏBİYYAT, DƏRSLİK VƏ MƏKTƏB TƏCRÜBƏSİNDƏ QOYULUŞU


**Qarayeva Fatimə Əhməd qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Dünya vəhdət təşkil etdiyi kimi elmlər də vəhdət təşkil edir. Bu baxımdan elmdən həyata və həyatdan digər elm sahələrinə yol axtarmaqla fənlərin inteqrasiyasına nail olmaq mümkündür. Odur ki, fənlər arasında əlaqə yaratmağın da əsas açarı həmin fənni həyatla əlaqələndirib orada həmin məsələnin digər fənlərlə əlaqəsini aşkar etməkdən ibarətdir.

Ümumən sistematik strukturdan ibarət olan dil fonem, leksem, morfem, söz birləşməsi, cümlə və mətn kimi linqivistik vahidlərdən təşkil edilir. Bu sistemdə kommunikativ funksiyadan kənarda qalan kateqoriya, ünsiyyətdən xaric anlayış yoxdur. Dilin vahidləri sırasında dominant səciyyəyə malik olanı söz birləşməsi və cümlədir ki, bunlar sintaksisin predmetini təşkil edir. İstər şifahi, istərsə də yazılı nitq sintaktik kateqoriyaların və digər nitq vahidlərinin sintaktik kateqoriyalarla birləşməsinin nəticəsidir.




Dilçiliyin digər bölmələri və onların hər birinin səciyyəvi vahidləri mövcuddur ki, bunlar konkret əlamətlər baxımından bir-birindən fərqlənsə də, həmin vahidləri bir-birindən təcrid edilmiş şəkildə öyrənmək qeyri-mümkündür. Belə halda dil yarımçıq olar, fikrin ifadəsi baş tutmaz.

Sintaksisin inteqrativ əsaslarla tədrisi onun şagirdlər tərəfindən açıq və anlaşıqlı tərzdə mənimsənilməsində mühüm əhəmiyyət daşıyır. Sintaksis fonetika bölməsi ilə əlaqədardır. Məlumdur ki, hər bir cümlə sözlərdən, sözlər isə quruluşca səslərdən ibarətdir. Fonetikanın sintaksislə qarşılıqlı bağlılığı sintaksisin orfoepiya və orfoqrafiya ilə inteqrasiyasını və onların inteqrativ əsasda tədrisini zəruri edir.

Sintaksisin inteqrativ əsaslarla tədrisini reallaşdıran linqivistik faktorlardan biri də leksika ilə olan əlaqəli təlim prosesidir. Nitq (dil) üçün tikinti materialı olan söz söz birləşməsi və cümlənin təşkilində aparıcı mövqe tutur. Bu da öz növbəsində leksikanın morfologiya və sintaksislə qarşılıqlı inteqrativ aspektinin təzahürüdür.

Hər hansı nitq hissəsi müəyyən sintaktik funksiyaya malikdir. Eləcə də istənilən cümlə üzvü konkret nitq hissəsi ilə ifadə olunur. Bu konstruktiv əlamətinə görə sözün formal cəhəti morfologiyanın, ifadə etdiyi vəzifə isə sintaksisin predmetinə çevrilir. Başqa sözlə desək, ismin hallanması, feillərin təsriflənməsi struktur elementləri, yəni morfoloji quruluş, bu əlaqələr arasında mövcud olan sintaktik istiqamətlərin müəyyən edilməsinə xidmət edir.

Dilin qrammatik quruluşunun iki komponentdən ibarət olması özü də həmin inteqrasiyanın əsasını təşkil edir. Məsələnin qoyuluşu müxtəlif təsnifatlar, kateqoriyalar və prinsiplər əsasında təzahür edə bilər. Belə ki, burada məzmun standartları, təlim formaları, istifadə edilən metod və üsullar və s. kimi amillər problemin həlli üçün əlverişli göstəricilərdir.

Məsələnin qoyuluşunun daha müvafiq alınması üçün təlim formalarından məqsədəuyğun şəkildə istifadənin də olduqca böyükdür. Şagirdlər digər yanaşmalarda olduğu kimi,bütün fənlərin, eləcə də sintaksisin inteqrativ tədrisində müvafiq təlim üsullarından münasib şəraitdə istifadə etməlidirlər. Yalnız əlverişli təlim formalarından faydalanmaqla səmərəli nəticəyə nail olmaq mümkündür. Kollektiv, qruplarla, cütlərlə və fərdi qaydada aparılan işlər keyfiyyətli və qənaətbəxş təlimə nail olmaq üçün məqsədəuyğundur.

İnteqrativ əsaslı tədrisin öz metod və meyarları vardır:

1. Metdodları – müqayisə, induksiya, deduksiya, müşahidə və s.
2. Meyarları – oxşarlıq, paralelizm, mövzu yaxınlığı, didaktik ideya eyniliyi, metodik üsulların tətbiqi vahidliyi.

Problemin araşdırılmasından doğan qənaətləri aşağıdakı nəticə şəklində ümumiləşdirmək mümkündür:

- İnteqrativ əsaslı tədris prosesində mövzulararası əlaqə iki aspektdən – elmi cəhətdən və tarixilik baxımdan müqayisə olunur, paralelizm prinsipi üstünlük təşkil edir;
- Təlimlərarası metod və üsulların vəhdətdə həyata keçirilməsi fəndaxili və fənlərarası inteqrasiyanın reallaşmasını bərqərar edir;
- Qabaqcıl məktəb və müəllimlərin iş təcrübəsi ümumiləşdirilir;

Ədəbiyyat
1.Paşayeva P., Abbasova S. Azərbaycan dili tədrisinin aktual problemləri, ADPU-nun mətbəəsi, Bakı – 2021, 157 s.
2.Balıyev H.B., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Elm və təhsil, Bakı – 2019, 384 s.
3.Qurbanov V. Azərbaycan dili təliminin problemlərinə dair. Mütəllim, Bakı – 2019, 204 s.
4.Qurbanov V., Əmirli A. Azərbaycan dili tədrisinin aktual problemləri. Müəllim, Bakı – 2009, 182 s.

## DƏRSDƏNKƏNAR MƏŞĞƏLƏLƏRDƏ MARAQLI VƏ ƏYLƏNCƏLİ ÇALIŞMALAR ŞAGİRDLƏRİN RİYAZİYYATA MARAĞINI ARTIRAN VASİTƏ KİMİ

**Qəzənfərli Səlimə Şahlar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan müstəqillik əldə etdikdən sonra həyatın bütün sahələrində olduğu kimi təhsil sahəsində də beynəlxalq təcrübəni öyrənməyə, təhsilin həm forma, həm də məzmunca yeniləşməsinə müsbət imkanlar yaranmışdır. Aparılan təhsil islahatları ilə əlaqədar məktəblər qarşısında mühüm vəzifələr qoyulmuşdur. Bu vəzifələrdən ən əsası dərin və hərtərəfli biliyə, bacarıq və vərdişlərə, təcrübi hazırlığa malik, məsuliyyət hissi, mütərəqqi dünyagörüşü olan, daim öz üzərində işləyən, inkişaf etməyə çalışan şəxsiyyətlər formalaşdırmaqdır. Belə şəxsiyyətlərin yetişməsi üçün təlimin ilk mərhələlərindən uşaqların təlim-tərbiyə işi düzgün təşkil olunmalıdır.

İbtidai siniflərdə bu vəzifənin həyata keçirilməsində riyaziyyatın xüsusi rolu var. Riyaziyyat ümumtəhsil məktəblərində tədris olunan ən mühüm və vacib fənlərdən biridir. Kiçikyaşlı məktəblilərdə riyazi anlayışlar çalışmalar sistemi ilə formalaşır. Riyaziyyat təlimində əsas məqsəd çalışmaların həll edilməsi deyil, onların həlli yolu ilə müəyyən istiqamətdə şagirdlərin hazırlıq səviyyəsini yüksəltməkdir.

Geniş mənada çalışma həm biliyin mənimsənilməsi vasitəsi, bacarıq və vərdişlərin daşıyıcısı və inkişafetdiricisi, həm də məktəblilərin təlim-idrak fəaliyyətinin təşkili və idarəetmə vasitəsidir. Çalışma şagirdlərdə yerinə yetiriləcək tapşırığa onun diqqətini, müşahidəçiliyini, iradi və fikri cəhdlərini cəmləşdirməyi tələb etməli, maraq və həvəs oyatmalıdır. Bu baxımdan maraqlı və əyləncəli çalışmaların təlim prosesində özünəməxsus yeri vardır.

Bir qrup psixoloq qeyd edir ki, ibtidai sinif şagirdlərində yüksək marağı və təşəbbüskarlığı yalnız maraqlı, əyləncəli çalışmalardan və oyunlardan istifadə etməklə yaratmaq olar. A.Zaporojets qeyd edir: “Əyləncəli çalışma və oyunlardan istifadə etdikdə bir tərəfdən şagirdlərdə yeni fəaliyyət növü olan rəlim fəaliyyəti yaranır, digər tərəfdən isə oyun prosesində şagirdlərdə düşünmə, qavrama, idrak və s. kimi yaradıcılıq elemntləri formalaşır”.

Əyləncəli çalışmaların həlli şagirdlərin diqqət və yaddaşını inkişaf etdirir, səbirli, inadlı və əməksevər olmalarını təmin edir, onlarda öz-özünü yoxlama vərdişləri yaradır. Sakitliklə, inamla fikirləşməyə, düşünməyə, müstəqilliyə alışdırır. Şagirdlər özləri müxtəlif formalı çalışmalar düzəltməyə təşəbbüs göstərir, bu da onların asudə vaxtlarının səmərəli keçməsinə xidmət edir.

Şagirdlərə bu tipli əyləncəli çalışmalar vermək olar:

1. Nənə öz nəvəsindən
Əlli üç yaş böyükdür.
Nəvənin varsa əgər
Yeddi yaşı, ay bala,

Onda söylə, nənənin
Görək neçə yaşı var?

2. Həsənin beş dəftəri,
Günayın səkkizi var.
Hərəsi öz dostuna
Üçünü pay verərsə,
İkisinin birlikdə
Neçə dəftəri qalar?

3. Cəfər əmi içərisində 5 bülbül olan qəfəs aparırdı. Bu zaman 5 uşaq ona yaxınlaşıb bülbül istədi. Cəfər əmi uşaqların hər birinə bir bülbül verdi və qəfəsdə bir bülbül qaldı. Bu, necə oldu?

Cavab: Cəfər əmi uşaqlardan birinə bülbülü qəfəslə birgə bağışladı.

4. Nailə beşinci mərtəbədə, Kəmalə isə səkkizinci mərtəbədə yaşayır. Pəri və Kamil Kəmaləgildən aşağıda, Nailəgildən isə yuxarıda yaşayırlar. Pəri Kamildən yuxarıda yaşayır. Pəri və Kamil hansı mərtəbələrdə yaşayırlar?

Cavab: Kamil 6-cı, Pəri isə 7-ci mərtəbədə yaşayır.

5. Otağın hər küncündə 1 pişik oturub. Hər pişiyin qarşısında 3 pişik oturmuşsa, otaqda neçə pişik var?

Cavab: 4 pişik

6. Sehrli kvadratlarda buraxılmış ədədləri yazın.

| | | |
|---|---|---|
| 4 | 9 | 2 |
| | 5 | |
| 8 | | 6 |

| | | |
|---|---|---|
| 7 | 2 | |
| | 6 | |
| | 10 | 5 |

| | | |
|---|---|---|
| 9 | | 5 |
| | 8 | 12 |
| 11 | 6 | |

7. Aşağıdakı fiqurda neçə üçbucaq və dördbucaqlı var?



8. Şəkildə neçə üçbucaq var?



9. Abbas balıq tutmağa getmişdi. Onun qutusunda 5 soxulcan vardı. O, 3 soxulcanla 3 balıq tutdu. Abbas qalan soxulcanlarla neçə balıq tutar?

10. Aşağıdakı düzgün olmayan ifadələrdə bir dənə çöpün yerini dəyişməklə doğru bərabərliyi necə almaq olar?

a) VI – IV = IX    c) VI – IV = XI
b) VIII – III = X    ç) VIII – II = IX

Cavab:

V + IV = IX    VI + V = XI

VII + III = X    VII + II = IX

11. 6 metr uzunluğunda şalbanı mişarla hər birinin uzunluğu 1 m olan hissələrə bölmək lazımdır. Bir hissənin mişarlanmasına 2 dəqiqə vaxt sərf olunur. Ağacı neçə dəqiqəyə mişarlamaq olar?

Cavab: 10 dəqiqəyə

12. Əməl işarələrindən istifadə edərək 5 dənə 2-ni elə qruplaşdırın ki, nəticədə 7 alınsın.

Cavab: 2:2+2·2+2=7

13. Sütundakı ədədlər hansı qayda ilə düzülmüşdür? Qaydanı tapın, çatışmayan rəqəmləri yazın.

| | |
|---|---|
| 314 | 846 |
| 260 | 132 |
| 57* | 71* |

Cavab: Birinci sütundakı ədədlər toplanıb, ikinci sütundakı ədədlər isə çıxılıb. Misalların cavabı 574 və 714-dür.

Əyləncəli çalışmalardan riyaziyyat təliminin bütün mərhələlərində istifadə etmək olar. Lakin bu, o demək deyil ki, hər dərsdə əyləncədən istifadə olunsun. Belə çalışmalar öyrənilən materialın məzmun və xarakterinə uyğun olmalıdır. Əyləncəli tapşırıqların tətbiqində əsas məqsəd təkcə şagirdlərin diqqətini cəlb etmək, düşündürmək deyil, eyni zamanda onlarda müstəqilliyi və təfəkkürü inkişaf etdirməkdən ibarət olmalıdır. Şagirdlərin zehni yorğunluğunun və təlim prosesində diqqətinin yayınmasının qarşısını almaq üçün sistematik olaraq əyləncəli çalışmalardan istifadə etmək lazımdır.

Ədəbiyyat
1. Z. Kazımov " Məntiqi inkişaf etdirən məsələlər və onların həll yolları" Bakı 2023
2. X. Əlizadə "Düşün tap" Bakı 2006

## AVRASİYANIN TİMSALINDA MATERİKLƏRİN ÖYRƏNİLMƏSİNİN TİPİK PLANI

**Quliyeva Sevinc Elman qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Tipik plan mövzunun sadə planına nisbətən fərqli olub, mətni daha dərin öyrənməyə əsaslanır. Tipik plan mətnin məğzini, qanunauyğunluqları ortaya çıxarmaqdan ibarətdir. Tipik plana əsasən şagird baş verən hər hansı coğrafi bir hadisənin baş vermə səbəbi, onun nəticəsi haqqında ümumi bir fikrə gəlir ki bu da mövzunun daha yaxşı anlaşılması deməkdir.

İlk olaraq materiklərin öyrənilməsinin ümumi tipik planını aşağıdakı kimi verək.

1. Materikin coğrafi mövqeyi və sahil xətləri
2. Relyef, geoloji quruluşu, faydalı qazıntılar
3. İqlimәmələgətirən amillər və iqlimin xarakteristikası
4. Daxili suları
5. Təbii zonaları, canlı aləmi - torpaq, bitki örtüyü

Daha sonra isə daha dərinliklərə gedərək mətni mikromövzulara bölərək hər bənd ətraflı şəkildə izah edilməlidir.

1.1 Ucqar nöqtələrin təyin edilməsi
1.2 Materikin dünyada tutduğu mövqeyi dəqiqləşdirilməsi
1.3 Materikin ənlərinin qeyd edilməsi

Coğrafi mövqe dedikdə materikin ucqar nöqtələri, ekvator xəttinə görə mövqeyi, qrinviç meridianına nəzərən mövqeyi, tropik xəttlərə görə mövqeyi, qütblərə və qütb dairələrinə görə mövqeyi nəzərdə tutulur.

2.1 Avrasiyanın relyef xüsusiyyətlərinin fərqləndirilməsi
2.2. Əsas mosfortruktur formalarını sadalayır
2.3. Relyef və geoloji quruluş arasındakı xüsusiyyətlərin fərqləndirilməsi
2.4. Geoloji quruluş və süxurlar arasındakı qanunauyğunluğun sistemləşdirilməsi
2.5 Yerin daxilində baş verən hadisələrin materiklə əlaqələndirilməsi

Relyefə materikin ən hündür yeri, ən alçaq nöqtəsi, ən böyük dağ sistemləri, ən böyük düzənlikləri, geosinklinal əraziləri, platformaları, vulkanik dağları, cavan və qədim dağları, faydalı qazıntıları, onların qanunauyğunluqları öyrənilir

3.1. Atmosferin tərkib hissələrinin mənimsənilməsi

3.2. Atmosferdə baş verən hadisə və proseslərin öyrənilməsi

3.3. Xəritə, diaqram və sxemlərə əsasən iqlim diaqramlarını qurulması

3.4. İqlim və sinoptik xəritələrin tərtib olunması

3.5. Relyefin iqlimə necə təsirini müəyyən edilməsi

İqlim xəritələrinə baxmadan materikin iqlimi haqqında məlumat əldə etmək qeyri-mümkündür. Materikin ərazisinə hansı iqlim qurşaqlarının düşdüyü müəyyən edilir. İqlimәmәlә gətirən amillərin təsiri açıqlanır.

4.1. Materiki əhatə edən okeanlar və tərkib hissələri haqqında məlumat

4.2. Materikin çaylarını öyrənir

4.3. Materikin göllərini öyrənir

4.4. Materikin şirin su mənbələrindən olan yeraltı sular və buzlaqları haqqında öyrənir

4.5. Daxili suların iqlimlə birbaşa əlaqəsinin öyrənilməsi

Avrasiya materiki çox böyük olduğundan bütün okeanların əhatəsində yerləşir. Dənizləri birləşdirən, quru sahələrini ayıran əsas boğazlar, körfəzlər, bərzəxləri öyrənirlər. Çayları, çayların hidroqrafının yaradılmasını, yəni bolsulu azsulu dövrlərinin göstərildiyi qrafiki oxumağı həmçinin qurmağı öyrənirlər. Materikin əsas çaylarının mənbəyi, mənsəbi, hansı iqlim qurşaqlarından keçdiyi və s. öyrənilir. Çaylarla iqlim qarşılaşdırılır.

5.1. Biosferin digər təbəqələrlə əlaqəsi

5.2. Coğrafi təbəqənin qanunauyğunluqlarının Avrasiya üzrə təhlili

5.3. Təbii zonaların yaranması və onların xarakteristikası

Biosfer canlıların yaşadığı təbəqə olub bütün təbəqələrlə yaxından əlaqəlidir. Çünki canlılar gözlə görünən, görünməyən istər torpaqda, istər suda, istərsədə havada mövcuddur. Ona görə də dərsliklərdə biosfer ən sonda öyrənilməkdədir. Şagirdlər əvvəldə öyrəndikləri təbəqələrdəki şəraitə uyğun tipik plan əsasında canlılar aləmini qruplaşdırırlar. Canlıların yaşaması üçün su, hava, istilik olması kifayətdir ki, onlar var olsun. Bu 3 komponent normal şərtlər daxilində mövcuddursa, demək canlılar aləmi zəngindir deməkdir.

## ƏDƏBİYYAT DƏRSLİKLƏRİNDƏ BƏDİ ƏSƏRLƏRİN ÖYRƏDİLMƏSİ MƏSƏLƏSİNİN QOYULUŞU

**Quliyeva Şəhanə Vidadi qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Azərbaycan müstəqillik qazandıqdan sonra həyatın bütün sahələrində olduğu kimi, təhsil sahəsində də ciddi islahatlar həyata keçirilməyə başlandı. Mili Kurikulum çərçivə sənədinin qəbulu, təlimin bilikvericilikdən şəxsiyyətyönümlülüyə və nəticəyönümlülüyə islahatların getçəkləşdirilməsində aparıcı rol oynadı. İlk növbədə proqram və dərsliklərin yenilənməsi onların məzmun və strukturunda dəyişiliklər özünü göstərdi. Yeni nəsil dərsliklərdəki mətnlər, mövzular ilk növbədə, təhsilalanların idrak fəallığının, təfəkkür müstəqilliyinin inkişafına yönəlmişdi. Təhsil proqramında deyilir: "Orta məktəbi bitirən hər bir gənc bədii ədəbiyyatı, digər mənbələri oxumağı, təhlil etməyi, qiymətləndirməyi, öz biliklərini müstəqil şəkildə artırmağı bacarmalı, fasiləsiz təhsilə hazır olmalıdır. Məktəb ədəbiyyat kursunda yüksək ideya-bədii dəyərə malik əsərlərin öyrədilməsi əsasında şagirdlərdə mütaliə formalaşır, onların ədəbi təhsili, tərbiyəsi və inkişafı təmin olunur".

Orta məktəb ədəbiyyat dərsliklərində bədii əsərlərin təhlilinə verilən istiqamət və tələblər də təlim nəticələrinin reallaşdırlmasına istinad edir, sənətkarın tərcümeyi-halı, ədəbi-nəzəri materiallar, monoqrafik mövzular və s. öyrənilməsində qazanılan biliklərin bacarıqlara çevrilməsi, şagirdlərin əqli fəallığının, təfəkkür müstəqilliyinin inkişaf etdirilməsi birinci dərəcəli vəzifə hesab edilirdi.

Ədəbiyyatdan ilk məzmun xətti ədəbiyyat və həyat həqiqətlərinin bədii nümunələr əsasında öyrənilmısi ilə bağlıdır. Orta təhsil səviyyəsi üzrə bu məzmun xəttinin başlıca məqsədi belə ifadə olunur: ədəbi əsərlərin müstəqil qavranımısına, təhlilinə və qiymətləndirilməsinə nail olmaq... Sənəddə deyilir: "Ədəbiyyat və həyat həqiqətləri məzmun xətti bədii ədəbiyyatda əksini tapan milli-bəşəri dəyərlərin, mənəvi-estetik problemlərin qavranılması, təhlili, onlara əsaslandırılmış münasibətin formalaşdırılması, mürəkkəb həyat hadisələrinin, ziddiyyətli situasiyaların dərk edilməsinə və qiymətləndirilməsinə zəmin yaradır".

Ədəbiyyat dərsliklərində "təhlil üzrə iş" başlığı altında tövsiyələr, tapşırıqlar verilir. Onları araşdırarkən məlum olur ki, şagirdlərin bədii söz sənətinə sevgisininin artırılması, yaradıcı təfəkkürün inkişaf etdirilməsi, əsərin və ayrı-ayrı obrazların təhlili vasitəsilə milli-mənəvi dəyərlərin aşılanması diqqət mərkəzində saxlanılır. Təhlilə keçməzdən əvvəl şagirdlər "Əsərlə bağlı açıqlamalar" adlı tövsiyə ilə tanış olurlar ki, bu da məzmunun qavranılmasına imkan yaradır, müəllifinməqsədinni, mətnaltı mənanı, obrazların xarakterini başa düşməyə istiqamətlənir. Bu tapşırıqlar vasitəsilə şagirdlər həmçinin hazır biliklərə yiyələnə bilmir, düşünmək, axtarmaq, analiz etməklə əsərin məzmununa və təhlilinə varmış olurlar. Dərslik müəllifləri tərəfindən təhlilə istiqamətləndirlmiş sualların verilməsi də şagirdlərin müstəqilliyinə və axtarıcılığına xidmət edir.

Növbəti "Araşdırın. Fikirləşin. Cavab verin" bölməsi müstəqil fəaliyyətə yönəlmişdir. Məzmun standartarının reallaşdırlmasına xidmət edən bu tələblər şagirdlər tərəfindən söylənən hər bir fikrin bədii mətndən gətirilən nümunələrlə əsaslandırlmasını ortaya qoyur. Qeyd olunanlara Ə.Haqverdiyevin "Bomba" əsərinin timsalında nəzər salaq. Əsərin məzmununun öyrənilməsinə həsr edilmiş ikinci dərs saatında bilik və bacarıqların tətbiqini tələb edən tapşırıq təklif edilmişdir. Tapşırığın bütün bəndləri şagirdlərdən müstəqil düşüncə, əqli fəallıq tələb edir. Bunu tapşırığın elə birinci bəndindən görmək mümkündür: Əsərin məzmununa aid üç sual yazın. Suallarınızı parta yoldaşınızla dəyişib onlara cavab hazırlayın və müzakirə edin. Göründüyü kimi, tapşırıq bir neçə istiqamətdə işin aparılmasını tələb edir: məzmuna aid üç sualın tərtib edilməsi, başqasının hazırladığı suallara cavabların hazırlanması, nəticələrin müzakirə edilməsi.

Tapşırığın ikinci tələbi də şagirdlərdən bilik və bacarıqlarını tətbiq etməyi, müstəqil yanaşma tələb edir: Əsəri hissələrə ayırıb, birinə ad verin. Məzmununu hazırladığınız plan əsasında yaradıcı nağıl edin.

Təhlil üzrə təklif edilmiş tapşırıqlar "Araşdırın. Fikirləşin. Cavab verin" başlığı altında verilmişdir. Tapşırıqların tələbləri xeyli dərəcədə mürəkkəbdir. Bu, ilk növbədə standartların məzmunundan irəli gəlir. Tapşırıqlardan nümunələrə baxaq:

1. Əsər sizdə hansı təəssürat yaratdı? Fikrinizi təsdiq edən misallar göstərin.
2. Kərbəlayı Zal obrazını səciyyələndirin. Onun nitqinə əsaslanmağı unutmayın.
3. Yazıçını bu əsərdə düşündürən başlıca problemi müəyyənləşdirin. Onu mühüm hesab etmək olarmı?
4. "Əsər bitkin süjeti, mükəmməl kompozisiyası ilə seçilir" fikrinə nümunələrə əsaslanmaqla münasibət bildirin.

Bütün bunlar ədəbiyyat dərsliklərində əsərin məzmununun öyrədilməsi ilə bağlı şagirdlərdə nəticəyönümlülüyə imkan yaradan vasitələr kimi qitymətləndirilməlidir.

# KİÇİK YAŞLI ŞAGİRDLƏRDƏ TƏLİM MOTİVLƏRİNİN YARANMASINDA MƏKTƏBİN VƏ MÜƏLLİMİN ROLU

**Quliyeva Zəminə Mahir qızı**
*Azərbaycan Dövlət Pedaqoji Univeristeti*

Təlim motivləri təhsil sistemində müvəffəqiyyətin əsasını təşkil edir və bu motivlərin yaranmasında məktəbin və müəllimin rolu əhəmiyyətli hesab olunmalıdır.

Uğurlu təlimin ardıcıl tətbiqi motivasiyanı artırır və məktəblilərin bu sahədəki mövqelərini gücləndirir. Təlim motivlərinin yaranması və inkişafı kiçik məktəb yaşından başlayır. Bu proses yeni məlumatlar əldə etmək istəyinə əsaslanır. Müasir dövrdə məktəblərin əsas vəzifəsi gənc nəslə dünyəvi elmlər və cəmiyyətdəki mədəni proseslər haqqında məlumat vermək və şagirdlərin əldə etdikləri bilikləri praktik vəziyyətlərdə tətbiq etmək qabiliyyətlərini inkişaf etdirməkdir. Bundan əlavə, yeni informasiya texnologiyalarının tədris prosesində tətbiqi tədrisin təkmilləşdirilməsinə, təhsilin keyfiyyətinin yüksəldilməsinə, təlim materiallarının sürətli mənimsənilməsinə və şagirdlərin müstəqilliyinin inkişafına kömək edir. Davamlı məlumat axını ilə xarakterizə olunan bir dünyada informasiya və kommunikasiya texnologiyalarının təhsil prosesinə tətbiqi artıq bir zərurətə çevrilib. İnteraktiv təlim metodlarından istifadənin imkanları xeyli genişdir. Bu metodlarla şagirdlərdə həyat və onu əhatə edən obyektlər, hadisələr barəsində daha parlaq fikir formalaşdırmaq olar.

Kompüterin interaktiv və qrafik imkanları təlim prosesinin motivasiya aspektinə dərin təsir göstərir. Fəal təlim metodlarına üstünlük verilməklə uşaqlarda xüsusi bacarıqları inkişaf etdirmək mümkündür. Bu üsullar şagirdlərdə vizual təsir edici və intellektual stimullaşdırıcı düşüncə tərzini inkişaf etdirməyə imkan verir.

Təhsil prosesində informasiya və kommunikasiya texnologiyalarından istifadə təhsil fəaliyyəti üçün çox təsirlidir və motivasiyanın inkişafına kömək edir. Bundan başqa, interaktiv metodların istifadəsi uşaqların diqqətinin inkişafına faydalı təsir göstərir, diqqəti yaxşı cəmləşdirmək və düzgün paylamaq qabiliyyətinə kömək edir. Kiçik yaşlarından şagirdlər həyəcanlarını və duyğularını tənzimləmək qabiliyyətinə yiyələnirlər və bu idrak prosesləri ahəngdar şəkildə inkişaf edir. Beləliklə, interaktiv tədris metodlarından istifadə uşaqların məktəbə olan həvəsini artırmağın ən təsirli yolu kimi qəbul edilə bilər.

Məktəbdə motivasiyanı artırmağın ən təsirli üsulu, tədris olunan materiala diqqət yetirmək və proses boyu şagirdlərin marağını qorumaqdır. Bu metodun tətbiqi nəticəsində dərs daha maraqlı olur.

Təlim prosesinin əsas vəzifələrindən biri, bilik və bacarıqların şagirdin əsas idrak motivi olmasından ibarətdir. Bunun üçün ilk olaraq motivasiya ilə idrak arasında mövcud olan əlaqəyə diqqət etmək vacibdir. Bu halda müəllim motivasiyanın psixoloji əsaslarını bilməlidir. Təhrikedici və fəallıq yaradan faktorlar eyni zamanda da müvəqqəti və keçici ola bilər. Vəziyyətdən asılı olaraq müxtəlif motivasiya səviyyələri idrak fəaliyyətinə tətbiq olunur [2, s.141].

Bəzən məktəbdə uşaqlara bir çox qadağalar qoyulur. Amma uşaqlarda oxu, yazı və riyazi bacarıqlarını inkişaf etdirmək, habelə problemləri həll etmək qabiliyyətlərini yaxşılaşdırmaq üçün ciddi qadağaların tətbiqi kiçik məktəb yaşlı uşaqların təhsil fəaliyyətində iştirak etmək marağını və motivasiyasını artırmaq üçün təsirli bir metod deyil. Müəllimlər və təhsil orqanları tərəfindən tətbiq edilən qadağaların uşaqların marağı və motivasiyasını artırmağa kömək etməkdən çox, onların təhsil prosesini məhdudlaşdırmağa səbəb ola bilər. Uşaqlar üçün daha yaxşı bir mühit yaratmaq vacibdir. Bu, qadağaların tətbiq edilməsi ilə deyil, əksinə, şagirdlərin təcrübə qazanmağa, müstəqil düşünməyə və müstəqil şəkildə öyrənməyə həvəsləndirilimləsi ilə ola bilər.

Yüksək səviyyədə motivasiya həm emosional cəhətdən stimullaşdırıcı, həm də oyun aspektləri ilə tamamlanan təlim yolu ilə əldə edilə bilər. Bu cür hallar təhsil materiallarının daha dərindən mənimsənilməsinə səbəb olur.

Məktəbdə şagirdlərin təlim motivlərinin inkişafına təsir edən amillərə: istirahətin və asudə vaxtın nə cür təşkil edilməsi, məktəb binasının görkəmi, məktəbin ümumi tərtibatı, dərs kitabları, siniflərdə təhsil fəaliyyəti üçün yaradılan şərait, istilik sisteminin mövcudluğu, otağın işıqlandırılması və s. daxildir.

Bütün bu sadalananlardan ən əhəmiyyətlisi müəllimin roludur. Müəllimin peşəkarlığı şagirdlərə öyrənmək qabiliyyətini aşılamaqda görünür. Peşəkar müəllim tədris materiallarını dərs müddətində şagirdlərə öyrətməyə nail olur. Onun üçün ev tapşırığı bilikləri genişləndirmək, möhkəmlətmək və dərinləşdirmək üçün bir vasitədir. şagirdlərin fəaliyyətini idarə etmək bacarığı təcrübəli müəllimin uğurunun sirridir [1, s.49].

Kiçik yaşlı məktəblilər ilə işləmək əvvəlki dövrlərlə müqayisədə bir qədər çətindir və daha məsuliyyətli bir işdir. Sinif rəhbəri hər bir şagirdini yaxşı tanıdıqda, onların güclü və zəif cəhətlərinə bələd olduqda fəaliyyətini həmin istiqamətdə qurur, nəticədə müəllim-şagird, şagird-şagird, uşaq-valideyn münasibətləri faydalı bir istiqamətə yönəldilir, qarşılıqlı anlaşma və ünsiyyət asan olur. Uşaqların sinif rəhbərinə etibarı, inamı yüksəlir, onun hörmətini və nüfuzunu gözləyirlər. Belə olduqda şagirdlər sinif rəhbərini özlərinə yaxın, doğma insan sayır, ondan məsləhət almaqdan, onlar üçün vacib olan mövzuları müzakirə etməkdən və çətinliklərini onunla bölüşməkdən çəkinmirlər.

Məktəb mühiti və müəllimlər təlim motivlərinin inkişafında əvəzsiz rol oynayırlar. Bu baxımdan dərsin təşkili qaydalarını xüsusilə vurğulamaq gərəkdir. Belə ki, ibtidai siniflər üçün hazırlanan dərsliklərdə uşaqların psixoloji vəziyyəti və idrak xüsusiyyətləri nəzərə alınmalıdır. Dərsliklər ibtidai sinif şagirdlərində maraq oyatmalı, onları təlim prosesinə cəlb etməlidir. İnteraktiv üsullar uşaqların məktəbə marağını artırmağa kömək edir. Bundan əlavə, dərslik mövzularının real həyat təcrübələri ilə əlaqələndirilməsi uşaqların öyrənmələrini daha funksional etməyə kömək edir. Bundan əlavə, müəllimlər təlim prosesini tənzimləyəcək, uşaqların müstəqil düşünmə və problem həll etmə bacarıqlarını təkmilləşdirəcək tədris metodlarına diqqət yetirməlidirlər. Tədris metodları uşaqlara öyrənmə, problemlərin həlli və kəşf üçün öz yollarını tapmağa imkan verən qabaqcıl təhsil sistemini təmin etməlidir.

Nəhayət, müsbət və dəstəkləyici mühit də mühüm amildir. Uşaqların rahat və dəstəkləyici mühitdə müvəffəqiyyətlə öyrənmələri üçün müəllimlər və pedaqoji heyət şagirdlər arasında inam yaratmalı, müstəqil düşünməyə təşviq etməli və təhlükəsiz mühit yaratmalıdırlar.

Ədəbiyyat

1. Paşayev Ə.X, Rüstəmov F.A., "Pedaqogika", Bakı, Nurlan, 2007, 463 s.

2. Zeynaloğlu C. "Təlim fəaliyyətinin psixoloji prosesi" (Metodik tövsiyələr) "Print-S" nəşriyyatı. Bakı, 2017, 144 s.

## ÇAYLAR MÖVZUSUNUN TƏDRİSİNDƏ MÜZAKİRƏ ÜSULUNUN TƏTBİQİ METODİKASI

**Qurbanlı Humay Natiq qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsil cəmiyyətin intellektual potensialının formalaşmasında onun ahəngdar inkişafında müstəsna rola malikdir. Son illərdə aparılan təhsil siyasəti nəticəsində Azərbaycan təhsili özünün inkişaf səviyyəsinə yüksəlmiş,qabaqcıl ideyalar və layihələr təhsilin inkişafına geniş tövfələr vermişdir. Təhsil vətəndaşın xarakterini tərbiyə etməklə onun özündən əmin və məsuliyyətli insan olmasına xidmət edir , doğru davranış qaydaları qazandırır. Dövlətimiz tərəfindən təhsilin inkişafı üçün həyata keçirilən tədbirlər göstərir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və o cümlədən inamlı görmək əzmindədir. Bu gün ki Azərbaycan təhsili nəinki ölkə daxilində , həmçinin beynəlxalq səviyyədə də qiymətləndirilir.

Ümumitəhsil məktəblərində coğrafiya fənninin tədrisi imkan verir ki , şagirdlər vətənpərvərlik ruhunda tərbiyə olunsunlar ,onlarda elmidünya görüşü formalaşsın.

Təlim-tədris prosesinin səmərəliliyi müəllimin şagirdlə ünsiyyət yaratmaq bacarığından çox asılıdır. Müasir dərs prosesi zamanı müzakirə metodunun tətbiq edilməsi şagirdlərdə dinləmək,sual vermək,təqdim etmək mədəniyyətini formalaşdırılmasında mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, şagirdlərdə məntiqi ,tənqidi təfəkkür inkişaf edir ,şifahi nitq formalaşır. Müzakirə prosesini inkişaf etdirən suallar verməklə, şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləməlidir. Müzakirə aparılmamışdan əvvəl şagirdlərə müzakirə qaydaları xatırladılır. Şagirdlər "Həyat bilgisi" fənnindən "çay" anlayışı haqqında bəzi təsəvvürlərə malik olurlar . VI sinifdə isə şagirdlər çayın elementləri ilə tanış olur , onları xəritədə göstərmək, coğrafi mövqeyini müəyyən etmək bacarıqlarına yiyələnəlirlər. Dərs prosesi zamanı müəllim şagirdlərə "Çaya su hardan gəlir ?" sualını verməklə müzakirə vəziyyətini yarada bilər, bunun nəticəsilə də şagirdlərdə "Çayların qidalanması" anlayışı formalaşacaqdır. VII sinifdə çaylar mövzusunun tədrisi zamanı müzakirə prosesi həyati misalların o cümlədən istiqamətləndirici sualların köməyilə tətbiq edilməsi daha məqsədəuyğundur.

Dərsə başlamaq üçün dərslikdə verilmiş şəkillər üzərində də müzakirə təşkil etmək mümkündür. Bu zaman şagirdlərə çaylar haqqında aşağı siniflərdən əldə etdikləri biliklərə dair suallar vermək daha məqsədəuyğun hesab edilir.

IX sinifdə Avropanın daxili suları mövzusunu keçən şagirdlərə müzakirə prosesi zamanı "Çayların sayının çox və ya az olmasını nə ilə izah etmək olar ? " sualını verməklə onlarda əvvəlki bilikləri yada salmağa nail olmaq mümkündür . Belə ki, çay şəbəkəsi sıxlığının geoloji quruluş, yağıntıların miqdarı və relyefdən asılı olduğunu şagirdlər yada salır , bunun nəticəsində Şərqi Avropada zəif çay şəbəkəsinin olmasını qərb küləklərinin təsirinin azalması, buna uyğun olaraq qərbdən şərqə doğru yağıntıların miqdarının azalması ilə əlaqələndirmək o qədər də çətin olmayacaq. Bu gün təhsilin davamlı innovativ inkişafı təlim , təhsil prosesində o cümlədən müəllim-şagird münasibətlərində klassik pedaqogikanın tətbiqi imkanlarının zəif olduğunu görürük. Qeyd etmək lazımdır ki, müasir dərs müəllimdən yaradıcılıq tələb edir. Müəllim müasir dərsin metod və texnikalarını düzgün qaydada mənimsəməli və onu uğurla tətbiq etməyi bacarmalıdır.

Ədəbiyyat


1. O.Alxasov "Coğrafiyanın tədrisi metodikası" Bakı 2013 368 səh
2. Bibik .A.J "Orta məktəbdə Coğrafiya təliminin metodikası" Bakı 1978 , 424 səh
3. N.S.Seyfullayeva "Coğrafiyanın tədrisi metodikası" Bakı 2011 492 səh


## MƏKTƏB RİYAZİYYAT KURSUNDA "STATİSTİKA VƏ EHTİMAL" MƏZMUN XƏTTİNİN ÖYRƏDİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI


**Qurbanov Samir Zeydulla oğlu**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


İnkişaf yolunda uğurla addımlayan Azərbaycan Respublikası bir çox sahələrdə olduğu kimi təhsil sahəsində də nailiyyətlər qazanmış, cəmiyyətin tələb və ehtiyaclarına cavab verən şəxsiyyətlərin formalaşması üçün önəmli addımlar atmışdır.

Müasir orta məktəb riyaziyyat fənninin proqramına ehtimal nəzəriyyəsinin elementləri daxil edilmişdir. Ehtimal nəzəriyyəsi həm nəzəri həm də praktiki əhəmiyyət kəsb edən riyazi elmdir. Demək olar ki, hal-hazırda elm və texnikanın bütün sahələrində ehtimal nəzəriyyəsi və riyazi statistikadan istifadə olunur.

Eyni zamanda ehtimal nəzəriyyəsinin orta məktəb proqramına daxil edilməsi riyazi statistikanın sadə anlayışlarının və məsələlərinin daxil edilməsi zərurəti yaranmışdır. Şagirdlərin riyazi təfəkkürünün inkişaf etdirilməsi baxımından dərslikdə olan ehtimal nəzəriyyəsi və riyazi statistika məsələləri böyük əhəmiyyət kəsb edir.

XX əsrin sonlarında kompüter texnologiyasının inkişafı və onun elmin bütün sahələrində tətbiqi ehtimal nəzəriyyəsi və riyazi statistikanın daha geniş istifadə olunmasına yol açdı. Hal-hazırda ehtimal nəzəriyyəsi elementləri ibtidai siniflərdən öyrənilməyə başlayır. Orta məktəb şagirdlərinin yaş və riyazi bilik səviyyələri nəzər alınaraq bu anlayışların öyrənilməsi daha məqsədə uyğundur.

Yaşadığımız yüzillik böyük texnoloji kəşflərin, ixtiraların, sürətli inkişafın yaşandığı, hər hansı bir informasiyanın tez bir zamanda əldə edildiyi dövrdür. Riyaziyyat təlimində şagirdlərdə praktik vərdişlərin yaradılması, mühakimə aparmaq və nəticə çıxarmaq qabiliyyətlərinin formalaşdırılması onların təfəkkür fəaliyyətlərinin inkişafına böyük təsir göstərir. Ehtimal nəzəriyyəsi elementlərinin şagirdlər tərəfindən sərbəst mənimsənilməsi, qazandıqları elmi bilikləri gələcəkdə səmərəli surətdə istifadəsi üçün praktik məsələlərin təlim prosesində istifadə edilməsi vacibdir. Tədris olunan nəzəri materialın daha dərin və şüurlu mənimsənilməsi üçün belə məsələlərin həlli böyük əhəmiyyət kəsb edir. Həmçinin məsələ həlli öyrənilən materialın təcrübəyə tətbiq edilməsinə kömək edir. Məsələ həlli vasitəsilə şagirdlərin hadisələrin baş vermə ehtimalı haqqında təsəvvürləri formalaşır və proqnoz vermə qabiliyyətləri inkişaf edir.

Orta məktəb riyaziyyat təlimində ehtimalın klassik tərifi baş vermiş hadisələrdə əlverişli hallar sayının bütün mümkün hallar sayına nisbəti kimi daxil olunmuşdur. Məsələn, 1 oyun zəri atdıqda yuxarı üzə tək xalın düşməsi hadisəsinin ehtimalını hesablayaq. Bu hadisədə əlverişli halların sayı 3, mümkün halların sayı 6 olacaq, yəni qeyd etdiyimiz hadisəsin baş vermə ehtimalı
$\frac{3}{6}=\frac{1}{2}$ -dir. Zər atdıqda yuxarı üzə mürəkkəb ədədin düşmə ehtimalını hesablayaq. Mümkün hallarımız 1, 2, 3, 4, 5 və 6-dır. Əlverişli hallarımız isə 4 və 6-dır. Deməli, mümkün 6 halımız və əlverişli 2 halımız var. Onda zər atdıqda yuxarı üzə mürəkkəb ədədin düşmə ehtimalı $\frac{2}{6}=\frac{1}{3}$ olar. Baş vermiş hadisənin ehtimalı hesablanarkən permutasiya, aranjeman və kombinezonların məsələ həllinə tətbiqinə xüsusi fikir verilməlidir. Çünki, məsələ həlli vasitəsilə əldə olunmuş biliklər tətbiq edilərək uzun müddət yaddaşda qalır.

Nəzərə almaq lazımdır ki, keçilən materialın şərti sistemli şəkildə, kifayət qədər əsaslandırılmış olmalıdır. İzah olunan təkliflər və teoremlər bir qayda olaraq aydın ifadə olunmalı və isbat edilməlidir. Bununla yanaşı göstəriş olan hallarda, metodik mülahizələrə görə təklif və teoremlər formal, isbat edilmədən, lakin ətraflı izahatlar verilərək təqdim oluna bilər. Ehtimal nəzəriyyəsi elementlərinin praktik olaraq öyrədilməsi öz növbəsində fənnin nə qədər əhəmiyyətli olduğunu əks etdirir.

Riyaziyyatın tədrisi metodikası üzrə son dövrün riyaziyyatçı alim və metodistlərindən olan A.S.Adıgözəlov, Ə.A.Quliyev, B.Ağayev, T.E.Mütəllimov, T.Əliyeva və başqalarının elmi əsərlərində ehtimal nəzəriyyəsi elementlərinin öyrədilməsi problemi ön plana çəkilmişdir.

Ədəbiyyat

1. Adıgözəlov A.S. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası/ümumi metodika. Bakı, ADPU, 2012, 245 səh.
2. Allahverdi C., Hacıyev A., Əhmədova H. Ehtimal nəzəriyyəsi və riyazi statistika terminləri lüğəti, 2002, 271 səh.
3. Kolmoqorov A.N. Cəbr və analizin başlanğıcı (X-XI sinif). Ümumtəhsil məktəbləri üçün dərslik. Bakı, Maarif, 2002, 342 səh.

4.Колмогоров А.Н., Абрамов А.М. Алгебра и начала анализа, Учеб, Для 10-11 кл. сред. шк./Ю.П.М. Просвещение, 1990, 320 с.

## İRİ HƏCMLİ ƏSƏRLƏRİN ƏDƏBİYYAT FƏNNİNDƏ YERİ VƏ TƏDRİSİ VƏZİYYƏTİ

**Qurbanova Jalə Eldar qızı**
*Mingəçevir Dövlət Universiteti*

Ümumtəhsil məktəblərinin ədəbiyyat fənninin proqramına nəzər yetirdikdə bədii əsərlərin və onlara ayrılan dərs saatlarının daha çox olduğunu görürük. Bu da səbəbsiz deyildir. Bədii əsərlərin təlim-tərbiyəvi imkanları genişdir. Belə ki, şagirdlərin bir şəxsiyyət kimi yetişməsində, vətənə bağlılığında, dünyagörüşünün, ünsiyyət bacarıqlarının və s. müsbət keyfiyyətlərin formalaşmasında ədəbi əsərlərin rolu mühümdür. Ədəbi əsərlərin ədəbiyyat dərsliklərinə daxil edilməsində sistemlilik, qanunauyğunluq vardır. Aşağı siniflərdə kiçik həcmdə olan əsərlər tədris olunduğu halda, yuxarı siniflərdə iri həcmli əsərlər tədris olunur. Bədii əsərlərin öyrənilməsinə adətən 1,2,3 saat və daha çox vaxt ayrılır. Bu vaxt sərfiyyatı siniflər üzrə dəyişir. Bədii əsərlərin öyrənilməsinə əsasən 2 saat vaxt ayrılır. Birinci dərs bədii əsərin məzmunun öyrənilməsinə, ikinci dərs isə bədii əsərlərin təhlili üzrə işlərin həyata keçirilməsinə sərf olunur. Bəzi mövzuların tədrisinə isə 3 saat vaxt ayrılır. Bu iri həcmlərin əsərlərin tədris olunduğu dərslərdir. X sinifdə tədris olunan iri həcmli əsərlərə N.Gəncəvinin "İsgəndərnamə" poemasını (4 saat), İ.Nəsiminin "Sığmazam" qəzəlini (3 saat), Ş.İ.Xətainin "Dəhnamə" poemasını (4 saat), M.Füzulinin "Leyli və Məcnun" poemasını (4 saat) və s., XI sinifdə tədris olunan iri həcmli əsərlərə isə C.Məmmədquluzadənin "Anamın kitabı" (5 saat) dramı, H.Cavidin "İblis" dramı (4 saat), Ə.Cavadın "Səsli qız" (4 saat) poeması, C.Cabbarlının "Oqtay Eloğlu" (4 saat) pyesi və digər mövzular daxildir [1], [2].

Ayrılan 3 saat vaxtın ikisi məzmun dərslərinin öyrənilməsinə, üçüncüsü isə bədii əsərin təhlilinə düşür. 2 saat ayrılan məzmun dərslərində ziqzaq və fasiləli oxu iş üsullarının istifadəsi daha məqsədəuyğun hesab edilir. Mətnin şüurlu oxusunu və təfəkkürü işə salmaq baxımından iki hissəli gündəlik metodu da uğurlu ola bilər. Bu metodun tətbiqi zamanı şagird oxuduğu mətndən sevdiyi bir hissəni seçib qeyd edir və nə üçün həmin hissəni seçdiyini fikirləri ilə əsaslandırır. Qurulan cədvəl sitat və şərh olmaqla iki hissəyə bölünür.

Məzmun dərslərini tədris edərək bəzən müəllimlər belə bir metoddadan istifadə edirlər, dərsin birinci hissəsində məzmun üzrə işləri icra edib, yerdə qalan hissələri evdə oxumağı tapşırırlar. Düşünürük ki, məktəb təcrübəsində tətbiq olunan bu qayda bir o qədər də effektiv olmur. İri həcmli əsərləri dərs prosesində birnəfəsə oxuyub bitirmək olmur. Dos. F.Yusifov məsələnin həlli ilə bağlı uyğun bir variant təklif edir: *"Oxu üçün nəzərdə tutulan səhifələrin miqdarı vaxt məsrəfi baxımından dəqiqləşdirilməli, oxunacaq hissədən əvvəlki səhifələrdə əksini tapan məzmun yığcam şəkildə şagirdlərə çatdırılmalıdır. Yəni mətnin əksər hissəsinin deyil, bir neçə səhifəsinin sinifdə fasiləli oxusu həyata keçirilir"* [3, s.205]. Bunun üçün müəllim qabaqcadan oxuya neçə dəqiqə vaxt ayıracağını müəyyən etməli, oxunacaq hissədən əvvəlki hissəyə düşən məzmunu şagirdlərə danışmalı, digər hissələri isə fasiləli oxu ilə oxutmalıdır. Fasiləli oxuya 10 dəqiqə vaxtın ayrılması daha uyğundur. Bu vaxt çərçivəsində 6,7 səhifəlik bədii əsərin 3-4 səhifəsi sinifdə oxunmalı, digər hissələr isə müəllim tərəfindən danışılmalıdır. Müəllim tərəfindən danışılan hissənin şagirdlər tərəfindən necə mənimsənildiyini müəyyən etmək üçün qrupa ümumi xarakterli suallar vermək olar. Fasiləli oxu ilə yanaşı müəllim proqnozlaşdırılmış oxudan da istifadə edə bilər. Proqnozlaşdırılmış oxu zamanı müəllim fasilə elan edərək hadisələrin necə davam edəcəyini şagirdlərdən soruşur, onların ilkin ehtimallarını öyrəndikdən sonra oxu prosesini davam etdirir. Bu prosesi məzmun üzrə işə aid ikinci dərsdə də tətbiq edərək davam etdirmək olar. Bədii əsərin oxusu üzrə işlər yekunlaşdıqdan sonra müəllim standratlara uyğun olaraq qrup işləri təşkil edə bilər.

Evdə təşkil olunan oxu növü müstəqil oxu adlanır. Təəssüf ki, müstəqil oxunu bütün şagirdlər eyni səviyyədə icra etmir. Bir qrup şagird müstəqil oxuda həvəsli olduğu halda, bir qrup evdə müstəqil oxu icra etmir, əsərin maraqlı olduğunu anlayınca, haqqında eşitdikcə daha sonra oxumaq qərarına gəlir. Üçüncü qrup oxucu isə ümumiyyətlə mütaliəyə marağı olmayanlardır. Onlarda maraq oyatmaq, müəllimdən yüksək peşəkarlıq tələb edir.

Bir qrup şagird isə proqram mütariallarını oxumaqla yanaşı sinifdənxaric materialları da oxumağa həvəslidir. Belə şagirdlərin oxuduqları sinifdənxaric oxu materiallarını dərs prosesində soruşmaq, onları rəğbətləndirmək həm onların oxumaq həvəsini artırır, həm də sinifdə mütaliəyə marağı olmayan şagirdləri də tədricən oxumağa sövq edir.

Bununla yanaşı müəllim sinifdə viktorinalar, əyləncəli oyunlar keçirə bilər. Müəllim mətndən müəyyən parçalar oxuyub, fikirlərin hansı obrazlara aid olmasını soruşa bilər. Ancaq əyləncə xarakteri daşıyan belə oyunlarda şagirdin əsəri necə qavradığını müəyyən etmək olmur. Belə halda yaxşı olardı ki, müəllim əsərin necə qavranılmasını müəyyənləşdirən suallar versin. Məsələn,

– Əsərdə mənfi və müsbət obrazları göstərin.
– Əsərin necə yekunlaşmasını istəyərdiniz?
– Əsər sizdə hansı təəssüratları yaratdı? və s.

Bu tipli suallar şagirdi həm düşündürməyə, həm də əsəri bir daha göz önündə canlandırmağa sövq edir. Bu mərhələnin uğurlu alınması əsərin təhlili ilə bağlı sonrakı mərhələ üçün zəmin yaradır.

Əsərin təhlilinə əsasən 1 saat vaxt ayrılır. Bu dərslər müzakirə və ya tədqiqat şəklində aparılır. Belə dərslərə deduktiv dərslər deyilir. Çünki burda ümumi mülahizələr artıq məzmun dərslərindən şagirdə bəlli olur, sadəcə fakt və nümunələrlə, təhlillərlə isbat olunma olur. Siniflər üzrə bədii əsərlərin təhlil yolları və təhlil obyektləri dəyişir. Aşağı siniflərə nisbətən yuxarı siniflərdə bədii əsərlər təhlil olunarkən əsasən problemli təhlilə fikir verilir. Ümumiyyətlə, müəllim tədris prosesində işini elə səriştəli qurmalıdır ki, şagird bədii əsərlərin mütaliəsindən, obrazların təhlilindən bədii zövq ala bilsin. Çünki bədii zövqün bünövrəsi məktəb illərindən qoyulur. V-IX siniflərdə təhlil zamanı diqqət daha çox bədii obrazlara, onların səciyyələndirilməsinə yönəlir. X-XI siniflərdə isə obrazların təhlili həm müəllimin, həm də şagirdin diqqət mərkəzində olur. Şagirdlər obrazların təhlili zamanı müqayisə metoduna daha çox həvəsli olurlar. Fəal/interaktiv təlim metodunun iş üsulları ilə (T-sxem, klaster və s.) bu prosesi daha maraqlı icra etmək olur. Şagirdlərdə müqayisə bacarığı formalaşdırmaq üçün elə əsərlər seçmək lazımdır ki, onun təhlili rahat olsun və müqayisə etmək zərurəti yaratsın.

Bədii əsərlərin, o cümlədən iri həcmli əsərlərin tədrisi zamanı məzmun və təhlil dərslərində alt standartların nəzərə alınması və ona əməl edilməsi əsas məsələlərdən biridir. Bəzən məzmun və təhlil dərslərində müəllimlər sinifə yanlış suallarla müraciət edirlər. Məzmun dərslərində şagirdlərə "Sizcə bu əsər nədən bəhs edə bilər?", "Müəllif belə bir əsər yazmaqla bizə nə demək istəyir?", "Əsərdə bu məsələ necə təsvir edilə bilər?" və s. suallar verilə bildiyi halda, təhlil dərslərində isə "Əsər müəllifi tərəfindən niyə belə adlandırılmışdır?", "Sizcə hadisələrin gedişatı niyə bu axarda davam etdi?", "Müəllif əsərdə niyə obrazlarını başqa cür deyil, məhz bu cür təqdim etmişdir?" və s. verilməlidir.

Beləliklə, deyilənləri nəzərə alaraq belə qənaətə gəlirik ki, dərslər müəllim tərəfindən səmərəli şəkildə təşkil edildikdə, nəzəri-praktik istiqamətlər düzgün müəyyən olunduqda, müəllimin və şagirdlərin üzərinə düşən vəzifələr yerinə yetirildikdə ədəbiyyat dərslərində iri həcmli əsərlərin öyrənilməsi üzrə işlər uğurlu şəkildə aparılar.

Ədəbiyyat

1. Ədəbiyyat 10: Ümumtəhsil müəssisələrinin 10-cu sinifləri üçün ədəbiyyat fənni üzrə dərslik / Əliyev S., Həsənov B., Mustafayeva A. – Bakı: Bakı nəşr, – 2022. – 212 s.

2. Ədəbiyyat 11: Ümumtəhsil müəssisələrinin 11-ci sinifləri üçün ədəbiyyat fənni üzrə dərslik / Həbibbəyli İ., Əliyev S., Həsənov B., Mustafayeva A. – Bakı: Bakı nəşr, – 2023. – 209 s.
3. Yusifov, F. Ədəbiyyatın tədrisi metodikası / F.Yusifov. – Bakı: ADPU, – 2023. – 414 s.

## FƏNLƏRÜSTÜ İNTEQRASİYA

**Qurbanova Vüsalə Asəf qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnteqrasiyanın fəndaxili, fənlərarası və fənlərüstü olmaqla 3 növü var. Fəndaxili inteqrasiya eyni fənnin mövzuları arasında əlaqə qurmağa kömək edir. Fənlərarası inteqrasiya 2 və daha artıq fənlərin əlaqələndirilməsidir. Fənlərüstü inteqrasiya isə təlim prosesinin həyat ilə əlaqələndirilməsinə əsaslanır. Fənlərüstü inteqrasiyaya həm də transfənn inteqrasiya deyilir. Fənlərüstü inteqrasiyanın təlim prosesində istifadəsi olduqca əhəmiyyətlidir. Tədris edilən mövzuların hər biri elə planlaşdırılır ki, şagirdlər onları həyatlarında tətbiq etməyi bacarsınlar. Nəticədə şagirdlərə təkcə təhsil aldıqları müddət ərzində deyil, ömürboyu istifadə edə biləcəkləri biliklər və bacarıqlar aşılanır. Təlimin həyatla əlaqələndirilməsi prinsipi ilə fənlərüstü inteqrasiya sıx bağlıdır. Hər ikisi həyatda lazım olan bilik və bacarıqların aşılanmasına diqqət edir. Bunun üçün onların tətbiqində praktikaya daha çox üstünlük verilir. Çünki, praktika nəzəri mövzuları təcrübədən keçirməklə onların qısa zaman ərzində öyrənilməsinə kömək edir. Nəzəri məlumatların təcrübədə sınaqdan keçirilməsi əzbərçiliyin qarşısını almaqla məlumatların dərk edilərək öyrənilməsinə gətirib çıxarır. Fənlərüstü inteqrasiya təhsil alanların inkişafı, onların həyatlarının bütün pillələrində uğur qazanmaları üçün olduqca faydalıdır. Hərtərəfli inkişaf etmiş şəxsiyyətlər yetişdirmək məqsədilə fənlərüstü inteqrasiyanı daim diqqət mərkəzində saxlamalı, onun istifadə dairəsini daha da genişləndirməliyik.

Azərbaycan dili dərslərində fənlərüstü inteqrasiya: Azərbaycan dili fənninin tədrisi şagirdlərə düzgün orfoqrafik və orfoepik qaydaları öyrətməklə onların gələcəkdə mükəmməl nitq bacarıqlarına sahib olmalarına kömək edir. Xüsusən də elmi yazı işləri ilə məşğul olduqda, məruzə ilə çıxış edən zaman bu bacarıqlardan istifadə edilir. Düzgün şəkildə formalaşmış şifahi və yazılı nitqə malik şəxslər ünsiyyət zamanı heç bir əziyyət çəkmir və nitqlərində hər hansı səhvə yol vermirlər. Onların nitqi aydın, axıcı və rəvan olur, bu səbəbdən də dinləyənlərin maraqlarını özünə cəlb edir.

Həyat bilgisi dərslərində fənlərüstü inteqrasiya: Həyat bilgisi fənni şagirdlərə bizi əhatə edən ətraf mühit haqqında məlumat verməklə onların dünyagörüşlərini zənginləşdirir. Həyat bilgisi dərslərində fənlərüstü inteqrasiyaya geniş yer verilir. Nümunə olaraq təbii fəlakətlər və onlardan qorunmaq barədə tədris edilən dərsləri göstərə bilərik. Belə dərslərin nəticəsində şagirdlər təbii fəlakətlər baş verən zaman riayət etməli olduqları təhlükəsizlik qaydalarını, özlərini bu fəlakətlərdən qorumaq üsullarını bilirlər. Başqa bir nümunə kimi şagirdlərə yol hərəkəti qaydalarının öyrədilməsini göstərə bilərik. Kiçik yaşlı məktəblilərə həmin qaydaların tədris edilməsi onları yolda hərəkətdə olduqları zaman daha diqqətli olmağa vadar edəcək.

Riyaziyyat dərslərində fənlərüstü inteqrasiya: Riyaziyyat fənni elə bir fənndir ki, ondan bütün ömrümüz boyu istifadə edirik. Demək olar ki, bütün sahələrdə riyaziyyata rast gəlinir. Çünki, tibb, mühəndislik, kompüter kimi bir çox sahələrdə hesablamalar və ölçmələr aparmaq üçün riyazi biliklərə, bacarıqlara ehtiyac duyulur. Riyaziyyatı yaxşı bilməyən şagird digər texniki fənlərdə də (fizika, kimya və s.) çətinlik çəkəcək. Bunun qarşısını almaq üçün şagirdlərə riyazi bilik və bacarıqların aşılanması olduqca zəruridir.

Ədəbiyyat

1. Bədəlova Ə.S. Təlim-tərbiyə. Bakı, 2015
2. https://azedu.az/az/news/9950-muellimler-inteqrasiya-novlerinden-bele-istifade-ede-biler-numune

3. https://kayzen.az/blog/pedaqoq/1538/t%C9%99lim-prinsipl%C9%99rinin-s%C9%99ciyy%C9%99si-v%C9%99-v%C9%99hd%C9%99ti.html
4. Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası(I hissə). Bakı, 2016

# НЕКОТОРЫЕ ВОПРОСЫ НАЧАЛЬНОГО ШКОЛЬНОГО ОБРАЗОВАНИЯ В КИТАЕ

**Ли Яфэй**
*Азербайджанский Государственный Педагогический Университет*

Начальное образование является основой образования . Если мы хотим построить качественное образование, мы должны начинать с начального образования . Заложение хорошей основы начального школьного образования неотделимо от семейного образования и школьного образования. Семейное образование и школьное образование играют жизненно важную роль в начальном образовании и оказывают большое влияние на здоровое развитие детей.

Генеральный секретарь Ху Цзиньтао в своем поздравительном письме по случаю 100-летия со дня основания Центральной начальной школы Дапу сказал: «Всесторонне реализовывать политику партии в области образования, продолжать повышать уровень преподавания и воспитания людей, стремиться воспитывать больше социалистических строителей и преемников с помощью всестороннее развитие нравственного, интеллектуального, физического, художественного и трудового». В нем также подчеркивалось: «С раннего возраста формируйте высокие устремления, хорошо изучайте культурные знания, развивайте моральные чувства, развивайте хорошие привычки и тренируйте сильное тело, чтобы заложить прочный фундамент для того, чтобы стать квалифицированными талантами для модернизации страны в будущем». Важность начального образования очевидна. Итак, какова роль начального образования в образовании? Как семейное воспитание и школьное образование влияют на здоровый рост детей?

Начальное образование является основой всей образовательной отрасли . Для повышения качества всей образовательной отрасли начальное образование является важным этапом, который нельзя игнорировать . Начальное образование является основой образования на всех уровнях и видах . С индивидуальной точки зрения полное начальное образование способствует здоровому физическому и умственному развитию в процессе роста . Оно также способствует обеспечению важных условий для получения высшего образования . уровень образования в будущем . С точки зрения страны, только популяризация начального образования и улучшение базового образования будут способствовать плавному развитию среднего и высшего образования. В этом смысле начальное школьное образование играет роль закладки основы для поступления в школы более высокого уровня и развития всех типов талантов на всех уровнях.

Родители являются первыми учителями своих детей. С самого рождения детей в первую очередь любят и заботятся их семьи. Семья является защитным зонтиком для роста их детей. Хотя семейное воспитание играет неизмеримую роль в развитии детей, не все родители придают большое значение образованию своих детей. Семья – первое место воспитания детей, они сначала учатся у родителей тому, чего у них нет. Будет ли то, чему они учатся, полезным или вредным для них, зависит от того, как их воспитывают родители. Родители являются примером для своих детей. Дети сначала учатся у своих родителей, что им следует делать, чего не следует делать и как это делать. Плохое поведение родителей плохо повлияет

на их детей. Таким образом, слова и дела родителей в первую очередь влияют на их детей, поскольку возрастные факторы детей не позволяют им четко определить, что из того, чему они учатся, для них не полезно, а что из того, чему они учатся.

Методы и отношения к семейному воспитанию можно рассматривать с двух аспектов. Один из них - аспект разрешения и ограничения. Это относится к тому, поощряют ли родители, одобряют и терпят поведение своих детей или мешают ему. Второй — аспект принятия и неприятия, который относится к тому, полны ли энтузиазма ожидающие дети, дарят ли им любовь и тепло, часто ли они принимают просьбы детей или отвергают их просьбы» . Из этих двух аспектов влияние образования на моральный облик детей можно разделить на четыре различных типа. Их соответствующие воздействия на формирование нравственного облика детей следующие:

Любящий тип: Родители в семьях любящего типа всячески защищают и балуют своих детей, послушны и заботятся обо всем за них. В такой семье дети будут ленивыми, не умеющими позаботиться о себе и не выдерживающими неудачи, плохие качества, такие как эгоцентризм и отсутствие уважения к другим. Демократический тип: Родители в демократических семьях не слишком ограничивают, но и не принимают и не подчиняются своим детям. Они позволяют детям свободно передвигаться в пределах допустимого . Отношения между родителями и детьми очень гармоничны. Дети, выросшие в такой семье, хорошо ладят с другими, внимательны и заботливы о других, невинны и жизнерадостны, имеют относительно устойчивые эмоции, обладают сильным чувством инициативы и ответственности, объединяют других и обладают определенными инновационными способностями.

Авторитарный тип: Родители в авторитарных семьях налагают чрезмерные ограничения на своих детей и не заботятся о своих детях. Родители вмешиваются и ругают слова и поступки своих детей и даже наказывают их телесно.Отношения между родителями и детьми напряженные. Тип невмешательства: Родители в семье невмешательства чрезмерно балуют своих детей, позволяя детям делать все, что они хотят, без каких-либо ограничений, при этом они не заботятся об их тепле, голоде, сытости и росте.

Дети, выросшие в такой семье, обладают более сильными способностями к самоконтролю. Однако он эмоционально неустойчив, агрессивен, равнодушен к другим, черств и безжалостен, имеет сильное стремление ксамовыражению.

Как видно из вышеизложенного, семья оказывает большое влияние на рост детей. В какой семье и какие дети воспитываются, зависит от того, как родители относятся к своим детям. Хорошие методы обучения очень полезны для роста детей. Поэтому для воспитания выдающихся талантов перед Родиной необходимо хорошее семейное воспитание.

Из приведенного выше описания нам нетрудно увидеть важность семейного воспитания для здорового роста детей . Итак, уделяют ли родители внимание образованию своих детей? Многие родители уделяют особое внимание образованию своих детей. Они обучают своих детей. С разных сторон и позволить своим детям развивать хорошие привычки с раннего возраста. Е Шэнтао однажды сказал что образование направлено на развитие хороших привычек. Есть много детей, которые готовы принять образование от своих родителей . Это, несомненно, повышает уверенность их родителей в образовании, и родители будут уделять больше внимания образованию своих детей. Это заставляет нас чувствовать себя очень удачливыми, потому что это способствует улучшению общего качества жизни людей.

«Школа — это учреждение, которое систематически передает учащимся научные

и культурные знания, жизненные навыки, ценности и нормы социального поведения в соответствии с определенной образовательной политикой и целями». Когда дети достигают школьного возраста, школьное образование играет для детей все более важную роль и влияет на все аспекты развития детей . - этим занимаютсяучителя то есть профессионалы в области образования, чья миссия состоит в том, чтобы учить и воспитывать людей, развивать таланты, необходимые обществу, и улучшать национальное качество . Поэтому они обладают способностью организовывать обучение и знают, как дать возможность учащимся приобретать новые знания . Если вы изучаете психологию, вы будете знать, что когда учащиеся сталкиваются с монотонным содержанием, они не интересуются им.

В процессе обучения, когда мы хотим усвоить новые знания, учитель задает вопросы, чтобы заинтересовать нас использованием и значением новых знаний и методов обучения, тем самым привлекая наше внимание . Учащиеся начальной школы не являются исключением. Учителя будут использовать цели и задачи обучения, чтобы направлять учащихся, чтобы учащиеся могли сознательно обращать внимание на то, что они изучают. Важная особенность состоит в том ,что обучение, труд и творческая деятельность человека осуществляются в состоянии внимания . Оно является началом обучения и сопровождается обучением на протяжении всего времени.

Без участия внимания учащиеся не могут эффективно воспринимать новые знания.Наблюдение, память и мыслительная деятельность не могут осуществлять какую-либо обработку информации, нет принятия, понимания, применения и закрепления новых знаний». Товарищ Дэн Сяопин однажды заметил что сейчас, после более чем десяти лет школьного обучения, дети первого класса начальной школы станут главной силой в создании великого дела XXI века . Центральное правительство предложило сделать так, чтобы сосредоточиться на образовании, начать с начальной и средней школы. Это шаг стратегического видения. Если не поставить такую задачу перед всей партией сейчас, то можно пропустить время и школа в этом деле историческую ответственность. Поэтому школьное образование очень важно, поскольку от него зависит будущее детей и будущее Родины.

Нельзя игнорировать начальное образование, поскольку оно является основой здорового развития детей . Только заложив прочный фундамент, мы можем подготовить преемников для будущего строительства страны. Для повышения качества начального школьного образования решающее значение имеют семейное образование и школьное образование. Хорошее семейное воспитание и обучение детей квалифицированным народным педагогом неразделимы, их взаимозависимость может сделать будущее детей лучше.

Литература

1. Гуань Хунъюй, Теория и практика современного управления образованием в начальной и средней школе [M] Пекин: Education
Science Press, 2003
2. Тан Шиин, Обсуждение применения обучения учащихся в соответствии с их способностями к преподаванию в начальной школе [J]
Беспроводные интернет-технологии, 2014.03.
3. Ли Чжэньси, Мой китайский класс [M] Издательство Guangming Daily, 2013 г.
Аилсен Ж. Приоритеты в сфере образования // Педагогика
1991.-№ 11.- С. 121-127.

4. Аилсен Ж. Приоритеты в сфере образования // Педагогика 1991.-№

11.- С. 121-127.
5. Аллак Ж. Перспективы планирования образования // Перспективы: ^ Вопросы образования. Ежеквартальный журнал ЮНЕСКО. 1990.2.-С.
21-23а*

**РЕЗЮМЕ**

Этап начальной школы — это период базового развития детей с точки зрения математического мышления, литературной грамотности, личных привычек и роста характера. На этом этапе дети начинают осваивать математические навыки, такие как абстрактное мышление, решение задач и логическое рассуждение, которые необходимы для их будущей учебы и работы. Начальное школьное образование является важнейшим этапом в развитии ребенка. Оно не только закладывает основу для будущего развития ребенка, но и оказывает глубокое влияние на его личные привычки, литературную грамотность, развитие характера и другие аспекты.

***Ключевые слова:*** *начальное образование,важность обучения , пример в*

*обучении возрастные факторы*

**SUMMARY**

The elementary school stage is a period of basic development for children in terms of mathematical thinking, literary literacy, personal habits, and character growth. At this stage, children begin to master mathematical skills such as abstract thinking, problem solving and logical reasoning, which are essential for their future studies and work. Primary school education is the most important stage in a child's development. It not only lays the foundation for a child's future development, but also has a profound impact on his personal habits, literary literacy, character development and other aspects.

***Key words :*** *primary education,importance of training,example in teaching*

*age factors*

## XALQ RƏSSAMI KAMİL ƏLİYEVİN YARATDIĞI XALÇA ƏSƏRLƏRİNDƏ ORNAMENTİN TƏTBİQİ

**Mayılova Aydan Elçin qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Milli xalça məktəbimizin formalaşmasında xalq rəssamı Kamil Əliyevin rolu önəm kəsb edir. Müxtəlif dövrlərdə yaratdığı xalça əsərlərində olan ornamentlərin hər birinin həyatımızda daşıdığı mövqeyi haqqında ətraflı məlumat verilmişdir. Böyük sənətkar, poeziya vurğunu Kamil Əliyevin yaradıcılıq diapazonu olduqca genişdir. İşlərinin uğuruna inanan rəssam çox böyük təmkinlə işlərinin nazını çəkirdi. Onun yaradıcılığının əsasını Bakı və Təbriz xalça məktəblərinin xalça üslubu təşkil edirdi. K. Əliyevin çoxşaxəli yaradıcılığı istər Sovet istərsə də Müstəqillik dövründə eyni uğura nail olmuşdur. Heç şübhəsiz ki, rəssamın yaradıcılğının vacib hissəsini ornamental xalçalar təşkil edir. Ancaq müqayisə etsək onun bütün üslublarda yaratdığı əsərlər eyni uğura nail olmağı bacarmışdır. Ornamental xalçalara böyük maraq göstərən rəssamın yaradıcılığında sovet dövründə də millilik, klassik ornamentlər üstünlük təşkil edirdi.

Fitri istedad sahibi Kamil Əliyevin adı Lətif Kərimovdan sonra ikinci sırada dayanır. K.Əliyev öz xatirələrindən danışanda daim L.Kərimovu anır və ilk tələbəsi olduğunu dəfələrlə öz dili ilə təsdiq etmişdir. Şübhəsiz ki, rəssam böyük yaradıcı istedada malik idi və

yaradıcılığında ornamental xalçalar öz quruluşuna görə daima fərqləniblər. Bu qəbilədən rəssamın “Qırmızı Bülbül”, “Göllü” , “Qımıl” , “Butalı”, “Qızıl Xalça”, “Sandıqça” və s. ornamental xalçalarını göstərmək olar.

Kamil Əliyevin 2004-cü ildə ərsəyə gətirdiyi “Butalı” xalçası öz incə işlənmə texnikasına görə Azərbaycan xalça sənətinin ən gözəl nümunələri sırasındadır. Burada bir çox Azərbaycan xalçalarına xas olan və Kamil Əliyevin də ən çox sevdiyi qırmızı, göy və qızılı rənglərin sintezindən istifadə olunub. Xalça nəbati və həndəsi ornamentlər, naxış və çox saylı buta motivləri ilə bəzənmişdir. Haşiyələr ilə əhatəyə alınmış gölün daxilində cərgə şəklində, naxışlarla əhatəyə alınmış buta motivləri yerləşir. Xalçanın adını daşıyan buta elementi ornament sənətinin ən qədim bəzək elementlərindən biri olmaqla yanaşı Azərbaycan xalça sənətində ən çox istifadə olunan motivlərdən biri sayılır. Nəinki Azərbaycanın, digər Şərq ölkələrinin də Dekorativ Tətbiqi Sənətin əsas ornamentlərindəndir. Butanın atəşpərəstlik dövrünə məxsus bəzək forması olduğu ehtimal edilir. O, günəşin, odun rəmzi sayılırdı və bəzi inanclara görə insanları bəd-nəzərdən qoruyurdu.

Azərbaycanın görkəmli rəssamlarının xalçalarında biz “butanın” bu sadalanan növləri ilə daim rastlaşırıq. Qeyd etmək lazımdır ki, “butanın” yaranma tarixi, mənası inkişaf mərhələsi bütün dövr rəssamların maraq dairəsində olub. Bu haqqda professor Xədicə Əsədova, xalçaçı rəssam Kamil Əliyevin haqqında yazısında qeyd edir ki, “...Kamil Əliyevi hər zaman düşündürən suallardan biri də o olmuşdur ki, nədən «buta» Azərbaycan dekorativ sənətində bu qədər geniş yayılıb? Azərbaycan odlar diyarı adlanır, bəlkə heç də təsadüfi deyildir ki, əsrlər boyu «buta» neft və qaz yataqları ilə zəngin paytaxt Bakımızın rəmzinə çevrilmişdir. Nədən «buta» bütün tətbiqi sənət növləri üzərində həkk edilir, bəlkə bu naxiş İslamdan öncəki qədim atəşpərəstlik inancıyla bağlıdır, o indi də od va yanacaqla zəngin Bakının təbii sərvətinin rəmzini özündə yaşadır? Çox zaman təsvir formasına görə "tovuz quşu" ilə bağlı olduğunu sübut edənler, tovuz quşunun qədim türk tayfaları arasında günəşi, alovu, odu təmsil etdiyini göstərmişlər. «buta» naxış motivi tovuz quşunun rəmzi olub, semantik mənasına göre alovu, odu, günəşi təmsil edir. Rəssam xalça sənətinin yayılma arealı ilə bağlı müşahidələr apardığı moğollar dövründə Hind xalçaları üzərinda belə Səfəvi təsirindən bəhrələnmiş «buta» naxışlarının zəngin çeşidlərini tapır.

Kamil Əliyevin digər xalça nümünələrindən biri də “Qımıl” xalçasıdır . Ümumilikdə qımıl xalçaları kompozisiyanın mürəkkəbliyi və rənglənməsi baxımından Quba xalçaları qrupundan seçilir. Tək quruluşu ilə deyil həmçinin də ornamentləri ilə fərqlənirlər. Burada istifadə olunan simmetrik və mürəkkəb elementlər orijinal üslubu ilə göz oxşayır. Qımıl xalçaları iki variantda istifadə olunur, Kamil Əliyevin xalça nümunəsi birinci variantda işlənib. Bu xalçada istifadə olunan rənglər qızılı rənglə çox nəfis harmoniya yaradır. Rəssamın özünün də etiraf etdiyi kimi, qızılı rəngi çox sevir, bir çox xalça nümunələrində istifadə edir, bütün rəng çalarlarına da yaraşdığını düşünürdü. K. Əliyev öz xalçalarında nəbati ornamentlərdən istifadə etməyi sevsə də, burada “Qımıl” xalçalarına xas olan həndəsi və zoomorf ornamentlər üstünlük təşkil edir.

“Göllü” xalçasnda istifadə olunan rəng çalarları bütövlükdə bir-birini tamamlayaraq göz oxşayır. Xalçanın tam mərkəzində yerləşən gölün, medalyonun toxunmasında ağır rəngdən istifadə olunması xalçaya estetik cəhətdən bir ayrı baxış, zənginlik qatıb. Gölün daxilində istifadə olunan buğdayı və qırmızımtıl nəbati ornamentlərin təsviri çox canlı və ifadəli görünür.

Sənətşünaslıq doktoru, professor K.Əliyeva bu haqda qeyd etmişdir ki, rəssamın işləyib hazırladığı göllər xüsusilə maraqlıdır. Onlar həmişə rəssamın əsaslandığı ümumi rəngarənglik çərçivəsində hazırlanır. Göllərin ornamentasiyası həmişə bir çox variantlarda təqdim edilir. Parlaq albalı (tünd qırmızı) rənginin daxil edilməsi gölə xüsusi ifadəlilik əldə edir. Kamil Əliyev bu xalçanın toxunuşunda “islimi” naxışlarından və nəbati ornamentlərdən ustalıqla istifadə edib.Buna misal olaraq sadə islimi, qanadlı islimi, xətai, vağvağı və digər nəbati ornament nümunələrini göstərmək olar. Qeyd etdiyimiz kimi rəssamın yaradıcılığında “buta”

naxışı xüsusi əhəmiyyət kəsb edir. Bu xalça nümünəsində də önplanda olmasa da buta motivlərini görmək olar.

Rəssamın ornamental xalçaları sırasında “Qızılı xalça” kompozisiyasının bədii həlli ilə fərqlənir. Xalçanın mərkəzində xırda güllərdən və butalardan ibarət elementlərin simmetrik təsvirindən istifadə olunub. Gölləri yaradan ornamentlər isə islimi naxışların incə keçidlərindən ibarətdir. Xalçada qızılı və ona yaxın tonlar istifadə olunması ümumi görüntüyə daha da parlaqlıq qatır.

Beləliklə Kamil Əliyevin yaradıcılığında öz əksini tapmış ornamental xalça motivləri daima diqqət mərkəzində olmuş və daima xatırlanacaqdır. Milli mənəvi dəyərlərimizin daşıyıcısı olan xalça sənətində önəmli yerlərdən birini tutan ornamentin ilmələr, rənglər vasitəsi ilə əbədi yaşarlıq verən rəssamın xalça nümunələri bir-birindən daima fərqlənirlər.

## ÜÇBUCAĞIN SAHƏSİNİN HESABLANMASINDA HERON DÜSTURU VƏ ONUN AÇILIŞI

**Mayılova Aysel Akif qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Üçbucağın bütün tərəflərinin uzunluğunu bildiyimiz zaman onun sahəsini tapmaq üçün Heron düsturu istifadə olunur. Buna “Qəhrəman Formula” da deyilir. Üçbucağın sahəsini hesablamaq üçün Heron düsturundan istifadə edərək onun bucaq ölçüsunu bilməyə ehtiyacımız yoxdur. Heron düsturu üçbucağın üç tərəfini nəzərə alaraq üçbucaqların sahəsini hesablamaq üçün bir düsturdur. Bu düstur dördbucaqlının dioqanalı boyunca iki üçbucağa bölmək yolu ilə onun sahəsini tapmaq üçün də istifadə olunur.

Heron və ya İsgəndəriyyə Qəhrəmanı hər üç tərəfin uzunluğundan istifadə edərək üçbucağın sahəsini hesablamaq üçün düstur çıxaran böyük riyaziyyatçı idi. O, həmçinin dördbucaqlı və daha yüksək səviyyəli çoxbucaqlıların sahəsini tapmaq üçün bu fikri genişləndirdi. Heron buxar turbini də daxil olmaqla bir çox maşın icad edən vacib bir həndəsə və mexanikada işçi idi. Onun ən məşhur riyazi işi tərəflərinin uzunluqları baxımından üçbucağın sahəsinin hesablanması düsturudur. Bu düsturun triqonometriyada böyük tətbiqləri var, məsələn, kosinuslar qanunnu və ya kotangeslər qanununu sübut etmək və s.

Herona görə hər hansı bir üçbucağın sahəsini, istər bərabəryanlı, istər bərabərtərfli, istərsə də müxtəliftərəfli olsun, üçbucağın tərəflərindən istifadə edərək sahəsini tapa bilərik.

Tutaq ki, tərəfləri müvafiq olaraq $a, b$ və $c$ olan ABC üçbucağı olsun. Beləliklə üçbucağın sahəsi aşağıdakı kimi verilə bilər:

$$S = \sqrt{p(p-a)(p-b)(p-c)} \qquad (*)$$

Burada p-yarım perimetrdir, $p = \frac{a+b+c}{2}$. $a, b$ və $c$ üçbucağın tərəfləridir.

Heron düsturunu əldə edə biləcəyimiz iki üsul var. Birincisi, triqonometrik eyniliklərdən və kosinus qaydasından istifadə etməklə; ikincisi, pifaqor teoremindən istifadə edərək cəbri ifadələrin həlli ilə.

Gəlin ilk öncə nəticəni kosinuslar qanunundan istifadə edərək sübut edək:

Tutaq ki, üçbucağın tərəfləri $a, b$ və $c$ uyğun olaraq bucaqları isə $\alpha, \beta$ və $\gamma$ olsun. Bilirik ki, kosinuslar qanunu belədir:

$$\cos\gamma = \frac{a^2+b^2-c^2}{2ab}$$

Triqonemetrik eyniliyə əsasən məlumdur ki,

$\beta$ $\gamma$

$$\sin\gamma = \sqrt{1-\cos^2\gamma} = \frac{\sqrt{4a^2b^2-(a^2+b^2-c^2)^2}}{2ab}$$

Üçbucağın sahə düsturuna əsasən yaza bilərik ki,



Şəkil1

$$S = \frac{1}{2}\,ah = \frac{1}{2}\,ab\,sin\gamma\frac{1}{4}\,\sqrt{4a^2b^2 - (\,a^2 + b^2 - c^2)^2} =$$

$= \frac{1}{4}\sqrt{(2ab - (a^2 + b^2 - c^2))(2ab + (a^2 + b^2 - c^2))} =$

$\frac{1}{4}\sqrt{(c^2 - (a - b)^2)((a + b)^2 - c^2)} = =$

$\frac{1}{4}\sqrt{(c - (a - b))(c + (a - b))(((a + b) - c)((a + b) + c)} = \sqrt{\frac{b+c-a}{2}\,\frac{a+c-b}{2}\frac{a+b-c}{2}\frac{a+b+c}{2}} =$

$\sqrt{p(p - a)(p - b)(p - c)}.$

İkinci üsul isə 3 tərəfi verilən üçbucağın Pifaqor teoremindən istifadə edərək sahəsinin tapılmasıdır. Üçbucağın sahə düsturuna əsasən yaza bilərik ki,



$S = \frac{1}{2}bh$ (1)

Pifaqor teoreminə əsasən $\Delta ABD$-də

$x^2 + h^2 = c^2$

$x^2 = c^2 - h^2$ (2)

$x = \sqrt{c^2 - h^2}$ (3)

$\Delta CDB$-də isə

$(b - x)^2 + h^2 = a^2$

$(b - x)^2 = a^2 - h^2$

$b^2 - 2bx + x^2 = a^2 - h^2$

Şəkil2

burada (2) və (3)-ü nəzərə alsaq yazarıq ki,

$b^2 - 2b\sqrt{c^2 - h^2} + c^2 - h^2 = a^2 - h^2$

$b^2 + c^2 - a^2 = 2b\sqrt{c^2 - h^2}$ bu ifadənin hər tərəfini kvadrata yüksəltsək alarıq ki,

$(b^2 + c^2 - a^2)^2 = 4b^2(c^2 - h^2)$

$\frac{(b^2+c^2-a^2)^2}{4b^2} = c^2 - h^2$ ifadəni sadələşdirsək alarıq ki,

$h^2 = \frac{(a+b+c)(b+c-a)(a+c-b)(a+b-c)}{4b^2}$ (4)

Məlumdur ki, P = $a + b + c$ və p = $\frac{a+b+c}{2}$ (burada p-yarımperimetrdir). Bunları (4) bərabərliyində nəzərə alsaq alarıq ki,

$h = \frac{\sqrt{P(P-2a)(P-2b)(P-2c)}}{2b}$ bu ifadəni (1)-də nəzərə alsaq

$S = \frac{1}{2}bh = \frac{1}{4}\sqrt{P(P - 2a)(P - 2b)(P - 2c)} = \sqrt{\frac{P}{2}\frac{P-2a}{2}\frac{P-2b}{2}\frac{P-2c}{2}} =$

$\sqrt{p(p - a)(p - b)(p - c)}$

Heron düsturu bütün növ üçbucaqlara şamil edilir. Heron düsturundan istifadə edərək üçbucağın sahəsini tapmaq üçün iki addımı yerinə yetirməliyik: verilmiş üçbucağın perimetrini tapın, sonra verilmiş üçbucağın yarım perimetrinin qiymətini tapın $p = \frac{a+b+c}{2}$. İndi üçbucağın sahəsini tapmaq üçün Heron düsturundan istifadə edin $S = \sqrt{p(p-a)(p-b)(p-c)}$ .

Ədəbiyyat

1. Adıgözəlov A.S., və b. Elementar həndəsə. Bakı, 2018
2. Əliyev İ.F. Elementar həndəsə. Bakı, 2009
3. Yaqubov M.H., və b. Riyaziyyat. Bakı, TQDK, 2009

## ÜMUMİ TARİXİN TƏDRİSİNDƏ İLLÜSTRASİYALARDAN İSTİFADƏNİN TƏDRİS MATERİALININ SƏMƏRƏLİ MƏNİMSƏNİLMƏSİNİN VASİTƏLƏRİNDƏN BİRİ KİMİ

**Mehdiyeva Aynur Eldar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təlim prosesində vizual tədris vasitələri tarixi hadisə və proseslərin mahiyyətinin, tarixi anlayışların və qanunauyğunluqların effektiv öyrənilməsinə dəstək rolunu oynayır. Bu baxımdan yeni tarix dərsliklərində, tarixin tədrisi prosesində şagirdlərin tarixi bilikləri fəal şəkildə mənimsəməsi, fənn üzrə öyrənilən bilikləri tətbiq etməsi və müstəqil düşünmə qabiliyyətinin aşılanmasına zəmin yaradan illüstrativ materiallardan səmərəli istifadə mühüm əhəmiyyət kəsb edir.

Fənn kurikulumunda qeyd olunan təlim nəticələrinə nail olmaq məqsədilə əsas informasiya mənbəyi rolunu oynayan , VI-IX siniflər üçün Ümumi tarix dərsliklərinə materialın öyrənilməsi ilə bağlı əlavə olunan illüstrasiyalar tarix dərslərinin səmərəli təşkilinə zəmin yaradır [1, səh 11 ].

Tarix dərslərində illüstrativ materiallar yeni informasiya əldə etməyin fəal mənbəyi kimi , eyni zamanda dərsliyin mətnini konkretləşdirmək vasitəsi kimi geniş istifadə olunur [2, səh 57].

Materialın məzmununa uyğun olaraq təqdim olunan illüstrativ materiallara - fotoşəkillər, rəsmlər, cədvəllər, sxemlər, diaqramlar, qrafiklər, xəritələr və s. daxildir. İllüstrasiyalar müxtəlif məqsədlərə xidmət etdiyinə görə dərsin müxtəlif mərhələlərdə - dərsin əvvəlində- motivasiya mərhələsində maraq yaratmaq, yeni məlumat vermək və s. məqsədi ilə; yeni mövzunun izahı prosesində- mövzunun mənimsənilmə səviyyəsini artırmaq məqsədi ilə; öyrənilən biliklərin tətbiq edilməsi prosesində və dərsin son mərhələsində - bilik və bacarıqların yoxlanılması zamanı tətbiq olunur.

Tarix dərsliklərində verilən illüstrasiyalar məlumat mənbəyi kimi xüsusi əhəmiyyətə malikdir. Dərs prosesində öyrənilən yeni mövzu illüstrativ materiallar üzərində qurulur. Bəzi hallarda mətn vasitəsi ilə izah oluna bilməyən mövzuları illüstrasiyalar əsasında asanlıqla mənimsəmək mümkün olur. İllüstrasiyalar vasitəsi ilə tarixi hadisələri və prosesləri aydınlaşdırmaq mümkündür. Dərsliklərdə verilən illüstrasiyalar ilk növbədə şagirdlərin yaş səviyyəsinə uyğun olaraq müəyyən edilir.

İllüstrasiyalar tarixin tədrisi prosesində eyni zamanda müəllimin şərhinin emosional təsirini, öyrənilən materialın emosional , didaktik və tərbiyəvi əhəmiyyətini artıran əyani təsvirlərdir [3, səh 132 ].

Müasir tarix dərsliklərində nəzəri məlumatlarla müqayisədə müxtəlif mövzulara uyğun illüstrasiyalara geniş yer verilmişdir. İllüstrasiyalar mətndə verilən anlayışların daha asanlıqla mənimsənilməsini təmin edir.

Tarix dərslərində illüstrasiyalardan istifadənin əsasını şagirdlərin bilik və bacarığının, təfəkkürünün inkişaf etdirilməsi təşkil edir. İllüstrativ materialların səciyyəvi cəhətiləri əsasən aşağıdakı kimi qruplaşdırılır.

- Şagirdlərdə tənqidi təfəkkürü inkişaf etdirir.
- Şagirdlərin təlimə marağını gücləndirir, onların daha həvəslə oxumağına şərait yaradır.
- Şagirdləri müstəqil düşünməyə sövq edərək tədqiqatçılıq qabiliyyətlərinin inkişafını təmin edir.
- İllüstrasiyalardan istifadə tədris materialı üzrə təhlil etmək bacarığının formalaşdırılmasında böyük imkanlar yaradır.
- İllüstrasiyalar tədris materialının şüurlu mənimsənilməsini təmin edir.
- İllüstrasiyalardan istifadə şagirdlərdə müstəqil mühakimə yürütmək qabiliyyətini , eyni zamanda bədii təfəkkürü inkişaf etdirir.

Ədəbiyyat


1. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün Ümumi tarix fənni üzrə təhsil proqramı (kurikulumu) (VI-XI siniflər).Bakı,2013,133 s.
2. Məmmədova M. “Tarixin tədrisinin aktual problemləri”.Bakı,2015, 112 s.
3. Мусаев М. Д . Методика преподавания истории:(учебное пособие для студентов, обучающихся по специальности учителя истории).Баку, 2021,638 с.


## MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ İNKİŞAFETDİRİCİ TƏLİM PROBLEMİ


**Mehdizadə Nuray Natiq qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Ölkəmizdə xalq təhsili sisteminin transformasiyası ilə bağlı mövcud sosial-pedaqoji problemlər kompleksində onun ilkin həlqəsinin - məktəbəqədər təhsilin inkişafına böyük diqqət yetirilir. Məktəbəqədər təhsil müəssisələrinin (Məktəbəqədər təhsil müəssisələri) mühüm vəzifəsi hər bir uşağın yaradıcılıq fəaliyyətini təmin edən, uşağa özünü göstərməyə imkan verən inkişaf mühitinin təşkili yolu ilə pedaqoji prosesin təkmilləşdirilməsi və uşaqlarla tərbiyə işinin inkişaf etdirici təsirinin artırılmasıdır. Bu günə qədər pedaqogika və psixologiya məktəbəqədər təhsil müəssisələrində inkişaf mühitinin yaradılması əsasında məktəbəqədər yaşlı uşaqların tərbiyəsi və təlimində zəngin təcrübə toplamışdır ki, bu da bu problemin həllinə yanaşmaları əvvəlcədən müəyyən etmişdir:

- uşaqların fəaliyyətlərində zehni inkişafının davamlılığının təmin edilməsi (T.I. Belova, J.1.C. Vygotsky, A.V. Zaporojets, V.V. Zenkovsky, A.N. Leontiev, A.J. Ovchinnikova və s.);

- erkən və məktəbəqədər yaşlı uşaqlar üçün tədris oyuncaqları və didaktik vəsaitlər sisteminin yaradılması (N.T.Qrinyaviçene, E.V.Zvorygina, G.G.Lokutsievskaya, S.L.Novoselova, A.A.Ovçinnikov, N.N.Poddyakov, L.A.Paramonova və s.);

- uşaqlar və böyüklər üçün ən rahat mühit yaratmaq məqsədilə məktəbəqədər təhsil müəssisələrinin interyeri və eksteryeri üçün memarlıq və planlaşdırma həllərinin formalaşdırılması (O.A.Barxanova, N.M.Braylovskaya, G.B.Markizova, N.V.Mixeeva, G.N.Panteleyev , L.N.Panteleeva, Yu.P. Filenkov, N.N.Şçetinina və s.);

- məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin maddi-texniki təminatının inkişaf mühitinin qurulması prinsipləri əsasında transformasiyası, uşaq bağçaları və təhsil

müəssisələri üçün inkişaf mühitinin formalaşdırılması (O.V. Artamonova, J.I.M. Klarina, C.J.L Novoselova, V.A. Petrovski, J.I.A. Smyvina, L.P. Strelkova və s.).

Bütün bu tədqiqatların bir xüsusiyyəti, uşaqlar və böyüklər arasında şəxsiyyətyönümlü qarşılıqlı əlaqə əsasında pedaqoji prosesin təşkilinə yeni yanaşmaları təmin etmək, inkişaf mühiti kimi subyekt-məkan mühitinin qurulmasına diqqətin artmasıdır. İnkişaf mühitinin modelləşdirilməsinə yeni yanaşmaların əhəmiyyəti müasir məktəbəqədər təhsil müəssisəsinin idarə edilməsi yollarının və vasitələrinin axtarışını zəruri edir.

Bununla əlaqədar olaraq, məktəbəqədər təhsil müəssisəsinin rəhbərinin qarşısında inkişaf mühitinin xüsusiyyətlərini dərk etmək, müəllim kollektivi, valideynlər, məktəb və digər sosial institutlarla yeni münasibətlər yaratmaq vəzifəsi durur. Eyni zamanda, daxili prosesləri tənzimləməyə və inkişaf mühitinin daha əlverişli qurulması üçün şəraitin yaradılmasında məktəbəqədər müəssisələrin əhəmiyyəti artır. Məktəbəqədər təhsil müəssisələrinin rəhbərlərinin iş praktikasında məkan sistemində müəllimlər, valideynlər, uşaqlarla qarşılıqlı əlaqənin qeyri-ənənəvi üsullarından istifadə etməklə onların təşkilati və pedaqoji fəaliyyətlərini dəyişdirmək üçün empirik səviyyədə cəhdlər müşahidə olunur. Məktəbəqədər təhsil müəssisələri psixoloji rahatlığı, yaradıcı potensialın inkişafını, kollektiv və fərdi fəaliyyətin motivasiyasını təmin edir.

Tədris prosesinin məzmununun müxtəlifliyi ona gətirib çıxarır ki, inkişaf mühitinin təşkili uşaqlarla böyüklər arasında inteqrasiya çərçivəsində səmərəli qarşılıqlı əlaqə üçün təşkilati, pedaqoji, maddi, texniki və sosial-psixoloji şəraiti kifayət qədər təmin etmir. Bu, məqsədə çatmaq üçün inkişaf mühitinin təşkilində pedaqoji prosesin iştirakçıları arasında qarşılıqlı əlaqənin yeni vasitələri və üsullarının axtarışı vacibdir. Məktəbəqədər təhsil müəssisəsi rəhbərinin fəaliyyətində inkişaf mühitinin təşkilinin artan əhəmiyyəti və bu idarəetmə funksiyasının praktiki həyata keçirilməsində problemlər sosial idarəetmə nəzəriyyəsinin və idarəetmə nəzəriyyəsinin aparıcı müddəalarının nəzərə alınmasına səbəb olur.

Məktəbəqədər təhsil müəssisələrinin idarə edilməsi məsələləri V.G.-nin əsərlərində öz əksini tapmışdır. Alyamovskaya, K.Yu. Beloy, A.K. Bonda-renko, L.M. Denyakina, N.N. Lyaşenko, L.V. Pozdnyak, I.A. Seliverstova, R.Ya. Spruzha, A.N. Troyan və başqaları, burada məktəbəqədər təhsil müəssisələrinin işinin planlaşdırılması və təhlili, metodik işin təşkili və kollegial idarəetmə orqanlarının işinə ən çox diqqət yetirilir.

Bununla belə, yuxarıda qeyd olunan pedaqoji tədqiqatlarda məktəbəqədər təhsil müəssisəsinin idarəetmə funksiyası kimi inkişaf mühitinin təşkilinin nəzəri və praktiki aspektlərinə diqqət yetirilmir, yəni: məktəbəqədər təhsil müəssisəsində inkişaf mühitinin təşkilinin nəzəri modeli yoxdur. sosial-psixoloji və təşkilati sistem kimi məktəbəqədər təhsil müəssisəsi, təşkilati-pedaqoji fəaliyyətin xüsusiyyətləri və texnologiyası.

Beləliklə, şəxsiyyətin formalaşmasında bir amil kimi inkişaf mühitinin böyük potensialı ilə məktəbəqədər təhsil müəssisəsində onun təşkilinin fəaliyyət sistemi arasında ziddiyyət yaranır ki, bu da inkişaf mühitinin vahid qurulmasını kifayət qədər təmin etmir

## İBTİDAİ SİNİFLƏRDƏ TƏDRİS PROSESİNİN İDARƏ OLUNMASINDA BURAXILAN SƏHVLƏR

**Məhəmmədova Nigar Ruslan qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Sinif elə bir təlim mühitidir ki, burada təhsilalanlarla təhsilverənlər mütəmadi qarşılıqlı əlaqədə olurlar. Təlim prosesinin idarə olunması yükünün böyük hissəsi müəllimlərin üzərinə düşür. Bu prosesdə düzgün seçimlər edilməli, şagirdlərin motivasiyası yüksək saxlanılmalıdır. Düzgün idarə olunmayan tədris prosesi şagirdlərin təlim keyfiyyətlərinin aşağı enməsinə səbəb olur.

Zəif idarə olunan sinifdə effektiv tədris və öyrənmə baş verə bilməz. Şagirdlər nizamsız və hörmətsizdirsə, aydın qaydalar və rəhbər davranışlar yoxdursa, xaos sinif nizamına çevrilir. Bu vəziyyətdən həm şagirdlər, həm də müəllimlər əziyyət çəkəcək. Müəllimlər öyrətmək üçün mübarizə aparsalar da, şagirdlər bacardıqlarından daha az şey öyrənəcəklər. Bunun əksinə olaraq, yaxşı idarə olunan sinif otaqları tədris və təlim vəziyyətlərinin inkişaf edə biləcəyi mühiti təmin edəcək.

Sinif idarəçiliyinin əsas məqsədi "tədris və öyrənmə və müəyyən arzu olunan hədəflərə çatmaq üçün uyğun bir mühit yaratmaqdır". Yəni sinifdə effektiv tədris və öyrənmə mühiti təmin etməkdir. Lakin bu zaman müəllimlər bəzi yalnışlara yol verə bilirlər:

- vaxtdan düzgün istifadə olunmaması;
- şagirdlərin hər birini dərsə cəlb edə bilməmək;
- motivasiyanın düzgün yaradılmaması;
- ünsiyyət mühitinin əlverişli olmaması, bir-birini dinləmə bacarığının formalaşdırılmaması;
- müəllimin bədən dilini və davranışlarını düzgün idarə edə bilməməsi;
- şagirdlərin dərs prosesində nizam-intizam qaydalarını pozmaları və s.

Tədris zamanı vaxtdan səmərəli istifadə, onun düzgün bölünməməsi yol verilən səhvlərin başlıcasıdır. Müəllimlər, pedaqoqlar bəzən dərsin mərhələlərini onların sırasını səhv salır, bu dərsin keyfiyyətini aşağı salır. Onlar müəyyən situasiyalarda bir şagirdə diqqətlərini cəmləyir, digər şagirdlər isə diqqətdən və nəzarətdən kənarda qalır. Bu zaman tədris mühitində bir xaos yaranır. Müəllim fərdi yanaşma prinsipini yalnış tətbiq edir, bunun nəticəsində o bütün şagirdləri diqqətdə saxlamır, onlarla maraqlanmır.Məsələn, müəllim bütün diqqətini təlim nəticələri zəif olan şagirdə yönləndirir və digər yüksək nailiyyətləri olan şagirdlər kənarda qalır. Bu hal davam etdikcə həmən şagirdlərin də təlim nəticələri zəifləyir.

Müəllimin şagirdlərin hər birini dərsə cəlb edə bilməsi ondan pedaqoji ustalıq tələb edir. Bu bacarığa malik olmayan müəllimlərin dərsində şagirdlər dərsi dinləmir, onların maraqları cəlb olunmur. Müəllim texniki vasitələrdən, fəal təlim metodlarından, oyunlardan istifadə etmir və beləliklə dərs sıxıcı və maraqsız olur. Lakin müxtəlif metodlarla uşaqların marağını dərsə yönəltmək və onların təlim prosesində fəallığını artırmaq olar. Burada həm də dərsin əvvəlində motivasiyanın düzgün, mövzuya uyğun verilməməsi də mənfi təsir edir.

Müəllimin bədən dilindən yaxşı istifadə edə bilməməsi də təlim prosesinin idarəsini çətinləşdirir. Müəllim dik durmalı, şagirdlərinin gözlərinə baxmalı, lazım olduqda üz ifadələrini istifadə etməli və şagirdlərə fiziki olaraq yaxın durmalıdır. Əks halda müəllim onların diqqətini çəkə bilməyəcək. Həmçinin müəllim dərs prosesində bir nöqtədə dayanmamalıdır. Bu şagirdlərin bir müddət sonra diqqətlərinin dağılmasına gətirib çıxarır. Müəllim şagirdlərin arasında gəzməli, onların hər birinə diqqət etməlidir.

Müəllim şagirdlərə özlərinə sual vermək, öz hərəkətləri haqqında düşünmək və öz biliklərini qiymətləndirmək imkanı verməlidir. Beləliklə, onların prosesi yaxşı başa düşmələrini, yeni bacarıqlar inkişaf etdirmələrini, fəaliyyətlərini və yeni məlumatların əldə edilməsi üçün fəaliyyətlərini izləmələrini və bunun əsasında qərarlar qəbul etmələrini təmin etməlidir.

Təlim mühitində nizam-intizam qaydalarını pozan şagirdlər digər şagirdlərin də təliminə mane olurlar. Müəllimlər isə onları gözardı edir və dərsi keçməyə davam edir. Lakin şagirdlərin diqqəti dərsi pozan şagirdə yönəlmişdir, o fikrini toplaya dərsi dinləyə bilmir. Bu halda müəllimlər yaranmış situasiyaya müvafiq hərəkət etməli, davranış pozğunluğu göstərən şagirdi müxtəlif yollarla dərsə cəlb etməlidir. Lakin heç bir halda fiziki cəzaya yol verilməməlidir.

Müəllimlər şagirdlərin sinifin idarə edilməsində və öz öyrənmələrində fəal rol oynadıqları müsbət öyrənmə mühiti yaradır. Onlar fiziki mühiti təşkil edir, şagird davranışına nəzarət edir,

təhlükəsizlik və sağlamlığı tənzimləyir, hörmətli mühit yaradır, qaydaları rahatlaşdırır və lazım olduqda digər müəllimlərlə ünsiyyət qurur.

## ELEMENTAR FUNKSİYALARIN TƏYİNİ VƏ ÖYRƏNİLMƏSİ METODİKASI

**Məhərrəmli Nərmin Qabil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Funksiya hər tərəfli araşdırılaraq, xassələrinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir çünki, istər riyaziyyatda, istərsə də həyatın bütün sahələrində çox böyük praktik rola sahibdir. Bilirik ki, funksiyalar 2 növə bölünür: Elementar funksiyalar (elementar olmayan funksiyalar) və əsas elementar funksiyalar. Funksiya anlayışı orta məktəbin 7-ci sinfindən etibarən tədris edilən ən önəmli və uzunmüddətli tədris olunan bölmələrdən biridir. Elementar funksiyalar Joseph Liouville tərəfindən 1833-cü ildən 1841-ci ilə qədər bir sıra sənədlərdə təqdim edilmişdir. Elementar funksiyaların cəbri müalicəsi 1930-cu illərdə Cozef Fels Ritt tərəfindən başlamışdır. [1,s. 124–148]

Elementar funksiyalar – çoxhədlilər, rasional funksiyalar, üstlü funksiyalar, qüvvət funksiyaları, loqarifmik funksiyalar, triqonometrik funksiyalar, tərs triqonometrik funksiyalar, həmçinin adları çəkilən funksiyalar üzərində dörd hesab əməlini (toplama, çıxma, vurma, bölmə) və superpozisiyanı sonlu sayda tətbiq etməklə alınan funksiyalardır. Bir və ya bir neçə dəyişəndən asılı elementar funksiyalara baxılır. Elementar funksiyaların törəməsi də elementar funksiyalardır, elementar funksiyaların tərs funksiyası və ibtidai funksiyası elementar funksiyalar olmaya da bilər. Elementar funksiyalar sinfinə aid olmayan funksiyaları öyrənmək üçün onlar elementar funksiyalar vasitəsilə sonsuz sıralar, hasillər, inteqrallar, asimptotik yaxınlaşmalar və s. şəklində ifadə edilir.

Verilmiş $x$ və $y$ dəyişən kəmiyyətləri bir-birindən asılı olaraq istənilən qiymətləri ala bilirsə, yəni birinin aldığı qiymətlər, o birinin bu və ya başqa qiymətləri alıb-almamasından asılı deyilsə, onlara asılı olmayan və ya sərbət dəyişən kəmiyyətlər deyilir. Aydındır ki, belə dəyişən kəmiyyətləri ayrılıqda öyrənməyin heç bir mənası yoxdur. Buna görə də riyaziyyat elmində asılı olan dəyişən kəmiyyətlər öyrənilir.

**Tərif.** Əgər hər hansı $f$ qaydası və ya qanunu vasitəsilə $x$ dəyişən kəmiyyətinin $X$ dəyişmə oblastındakı hər bir qiymətinə $y$ dəyişən kəmiyyətinin $Y$ dəyişən oblastında olan müəyyən bir qiyməti uyğun olarsa, belə uyğunluğa funksiya deyilir.

Bu halda $x$ dəyişəni arqument və ya sərbəst dəyişən, $y$ dəyişəni funksiya və ya asılı dəyişən, $x$ və $y$ kəmiyyətlərinin arasındakı asılılıq funksional asılılıq adlanır. $X$ çoxluğuna funksiyanın təyin oblastı, $Y$ çoxluğuna isə funksiyanın qiymətlər oblastı deyilir.

Əgər $x$ dəyişəninin hər bir qiymətinə $y$ dəyişəninin ancaq bir qiyməti uyğun olarsa, onda $y$ funksiyası $x$-in birqiymətli funksiyası adlanır. Əgər $x$ dəyişəninin heç olmasa bəzi qiymətlərinə $y$ dəyişəninin bir neçə qiyməti uyğun olarsa, onda belə funksiyaya çoxqiymətli funksiya deyilir.

$f$ funksiyasının verilməsi, $x$ arqumentinin hər bir qiymətinə görə funksiyasının uyğun qiymətinin necə tapılması deməkdir. Funksiyanın verilməsinin 3 əsas üsulu vardır: analitik, yəni düstur vasitəsilə, cədvəl və qrafik. Sabit funksiya riyaziyyatda sabit funksiya hər giriş dəyəri üçün çıxış dəyəri eyni olan funksiyadır. Məsələn, $y(x) = 4$ funksiyası sabit funksiyadır, çünki x giriş dəyərindən asılı olmayaraq $y(x)$ dəyəri 4-ə bərabərdi.

Tərifdən birbaşa belə nəticə çıxır ki, elementar funksiyalar çoxluğu hesab əməliyyatları, kök çıxarma və kompozisiya altında bağlanır. Elementar funksiyalar diferensiasiya altında bağlanır. Onlar limitlər və sonsuz məbləğlər altında bağlanmırlar. Elementar funksiyanın və ya elementar formada olan funksiyanın riyazi tərifi diferensial cəbr kontekstində nəzərdən keçirilir.

Riyaziyyatda elementar funksiya sonlu sayda polinom, rasional, triqonometrik, hiperbolik və eksponensial funksiyaların, o cümlədən onların tərs funksiyalarının cəmlərini, hasillərini, köklərini və kompozisiyalarını qəbul etmək kimi müəyyən edilən tək dəyişənin funksiyasıdır (məsələn, arcsin, log və.s). Bütün elementar funksiyalar öz sahələrində davamlıdır. Çox faydalı,

lakin elementar olmayan bir çox funksiya var. Ümumiyyətlə, ad veriləcək qədər vacib olan istənilən funksiya xüsusi funksiya adlanır. Çox vaxt xüsusi funksiyalar diferensial tənliklərin və ya elementar funksiyaların inteqral tənliklərinin həlli olur. Xüsusi funksiyaların bəzi nümunələri xəta funksiyası, Riemann Zeta funksiyası, Bessel funksiyaları və Qamma funksiyasıdır.

Ədəbiyyat


1. Liouville, Joseph (1833a). "Premier mémoire sur la détermination des intégrales dont la valeur est algébrique". Journal de l'École Polytechnique. tome XIV: 124–148.
2. Liouville, Joseph (1833c). "Note sur la détermination des intégrales dont la valeur est algébrique". Journal für die reine und angewandte Mathematik. 10: 347–359.
3. Ritt, Joseph (1950). Differential Algebra
4. https://www.theochem.ru.nl/~pwormer/Knowino/knowino.org/wiki/Elementary_function.html
5. https://ximera.osu.edu/csccmathematics/precalculus1/precalculus1/continuity/elementaryFunctions


## MƏKTƏB RİYAZİYYAT KURSUNDA İKİÜZLÜ BUCAQ ANLAYIŞININ DAXİL EDİLMƏSİ METODİKASI


**Simarə Məhərrəmli Əmir qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Ümumtəhsil məktəblərinin orta məktəb riyaziyyat kursunda həndəsə məzmun xətti vasitəsi ilə müstəvi və fəza fiqurları, onların xassələrinin öyrənilməsi, bu xassələrdən istifadə etməklə riyazi məsələlərin təhlil olunması və həll edilməsi təmin edilir.

Qeyd edək ki, həndəsə materialının mənimsənilməsində şagirdlərdə fəza təsəvvürlərinin formalaşması mühüm əhəmiyyət kəsb edir. Şagirdlərdə fəza təsəvvürlərinin formalaşması təlim prosesində əyani vasitələrdən düzgün istifadə olunmasını ön plana çəkir.Bundan başqa həndəsə materialının mənimsənilməsi şagirdlərin müstəqil işinin düzgün şəkildə təşkil olunmasından asılıdır.

Şagirdlərin fəza təsəvvürlərini inkişaf etdirmək məqsədilə xüsusi qaydalarla tərtib olunmuş çalışmalar sistemindən istifadə edilir. Belə çalışmalar sistemindən sterometriya üzrə materialların öyrənilməsinə yönəldilən ilk dəsrlərdən istifadə etməyə başlamaq lazımdır.

Həndəsənin sterometriya bölməsində önəmli mövzulardan biri də "İkiüzlü bucaqlar" – ın öyrədilməsidir. "İkiüzlü bucaq" mövzusu müasir riyaziyyat kursunun 10 – cu sinfindən etibarən tədris olunur.

Mövzunun tədrisindən əvvəl şagirdlərdə müstəvilərin qarşılıqlı vəziyyəti haqqında təsəvvürlər formalaşdırılır. Onlar müstəvilərin qarşılıqlı vəziyyətini real situasiyalar üzərində əyani olaraq təsəvvür edirlər.

Dərs zamanı şagirdlərə qutu modeli təqdim olunur. Onlar qutu modeli üzərində paralel və perpendikulyar müstəviləri göstərirlər.

Bundan başqa şagirdlər verilən şərtlərə uyğun olaraq, müstəvilərin qarşılıqlı vəziyyətini təsvir etməyi bacarmalıdırlar. Məsələn, aşağıda verilən şərtlərə görə şagird müstəvinin kəsişməsini aşağıdakı kimi çəkə bilər.

$\alpha$ və $\beta$ müstəviləri CD düz xətti boyunca kəsişir. E nöqtəsi AB düz xətti ilə CD – nin kəsişmə nöqtəsidir. A, B, C, D, E nöqtələri komplanardır və $\alpha$ müstəvisi üzərindədirlər.




Şəkil 1




Şəkil 2.

Tərif : Müstəvi üzərindəki hər hansı düz xəttin bir tərəfindəki müstəvi hissəsinə yarımmüstəvi deyilir.

Tərif : Ortaq sərhədləri olan iki yarımmüstəvinin əmələ gətirdiyi fiqura ikiüzlü bucaq deyilir. Yarımmüstəvilər ikiüzlü bucağın üzləri və ya tərəfləri, onların ortaq sərhədi isə ikiüzlü bucağın tili adlanır.

İkiüzlü bucaq tildə qoyulan iki böyük hərflə işarə edilir. Məsələn, AB ikiüzlü bucağı. (şəkil 3.)

Ancaq bir til ətrafında bir neçə ikiüzlü bucaq olarsa, onlardan hər biri dörd böyük hərflə işarə olunur. Bu hərflərdən ortada duran ikisi tildə, kənarlarda duran ikisi isə üzlərdə qoyulur. Məsələn, QCDR ikiüzlü bucağı. ( şəkil 4. )




**Şəkil 3.**




**Şəkil 4.**

İkiüzlü bucağın tili üzərində hər hansı bir O nöqtəsi götürək. Bu O nöqtəsindən ikiüzlü bucağın hər iki üzündən tilə perpendikulyar çəkək.

$a \perp l$ $\qquad$ $b \perp l$

a və b şüaları arasında qalan $\theta$ bucağı ikiüzlü bucağın xətti bucağı adlanır. (şəkil 2.)

İkiüzlü bucaq özünün xətti bucağı ilə ölçülür. Xətti bucağın qiyməti onun təpəsinin til üzərindəki vəziyyətindən asılı deyildir. Başqa sözlə desək, ikiüzlü bucağın bütün xətti bucaqları paralel köçürmə ilə üst – üstə düşür. Deməli, onların dərəcə ölçüləri bərabərdir.

İkiüzlü bucaqların tədrisi zamanı fəzada real olaraq modelləşdirmə və həndəsi təsviretmə bacarıqlarına xüsusilə diqqət edilir.

Tədris zamanı iki vərəq vasitəsilə şagirdlərdə ikiüzlü bucaq haqqında ilk təsəvvür yaratmaq olar. Bundan sonra iki vərəqi iki müstəvi hesab edərək, həmin müstəvilər arasındakı xətti bucağın $0^\circ$ - dən $180^\circ$ - yə qədər dəyişməsi şagirdlərə nümayiş etdirilir.

Praktik məşğələ məqsədilə şagirdlərə sinif otağında ikiüzlü bucağa aid nümunə göstərmələrini və ikiüzlü bucağın xətti bucağını təxmin etmələri tapşırıla bilər.

Ədəbiyyat


**1.** Ümumtəhsil məktəbləri üçün riyaziyyat kurikulumu. Bakı – 2021

**2.** Riyaziyyat 10-cu sinif dərslik. Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, İlham Hüseynov, Radius, 2022

**3.** Riyaziyyat 10-cu sinif metodik vəsait. Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, İlham Hüseynov, Radius, 2022

**4.** A.S.Adıgözəlov, T.M.Əliyeva, A.İ.Quliyev, M.T.Rzayev, Z.Ş.Qardaşova. “Elementar həndəsə”. ADPU, Bakı – 2018

## FƏNLƏRARASI İNTEQRASİYA NÖQTEYİ-NƏZƏRDƏN PROYEKSİYALAMA ANLAYAIŞININ RƏSMXƏTLƏ ƏLAQƏLİ ÖYRƏNİLMƏSİ

**Məmmədova Bahar Namiq**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təlimdə fənlərarası əlaqənin həyata keçirilməsi məktəbdə müxtəlif tədris fənlərində öyrənilən fakt və hadisələr arasında obyektiv surətdə mövcud olan, həmçinin müxtəlif elmlər arasında müəyyən edilən və təşəkkül tapan əlaqələrin inikasıdır.

Fənlərarası əlaqə şagirdlərdə elmi anlayışların və dialektik materilist dünyagörüşünün formalaşmasında xüsusi rol oynayır. Anlayışların formalaşması isə idrakın əsas elementidir. Düzgün formalaşmış elmi anlayışlar öyrənilən cisim və hadisələrin mahiyyətini obyektiv və tam surətdə daha dərin və hərtərəfli əks etdirməyə imkan verir.

Fənlərarası əlaqənin olmadığı hallarda şagirdlərdə anlayışlar səthi, bəzən isə təhrif olunmuş şəkildə yaranır.

Müasir elmlərin inkişafında elmi biliklərin yalnız differensiyasl deyil, həmçinin onların inteqrasiyası mühüm xüsusiyyətdir. Məhz bunun sayəsində kibernetika, radiokimya, biofizika və s. Kimi yeni elm sahələri meydana gəlmişdir. Elmi-texniki tərəqqini texnikanın dili adlandırılan çertyojlarsız təsəvvür etmək çətindir.

Çertyojların yerinə yetirilməsi və hazır çertyojların oxunması qabiliyyətlərinin əmələ gəlməsi və inkişafında həndəsənin rəsmxətlə əlaqəli öyrənilməsinin əhəmiyyəti misilsizdir.

Rəsmxətt fənni artıq ümumi təhsil məktəblərində ayrıca bir fənn kimi tədris olunmur. Lakin riyaziyyat fənninin həndəsə məzmun xəttinin öyrənilməsində onlar üzvi şəkildə əlaqləndirilmişdir.

Həndəsə və rəsmxətt bir çox cəhətən yaxındırlar. Belə ki, onların hər ikisi həqiqi aləmin fəza formaları və miqdar nisbətlərini öyrənir. Şagirdlər həm həndəsə, həm də rəsmxətdə onları praktik fəaliyyətə hazırlayan çertyojları yerinə yetirməyi öyrənirlər. Həndəsə kursu rəsmxətdə çəkilən çertyojları əsaslandırmağa, rəsmxətin öyrənilməsinə elmi əsaslarla yanaşmağa imkan verir.

Həndəsənin rəsmxətlə üzvi əlaqəsi stereometriya bölməsində özünü daha qabarıq şəkildə göstərir.

Rəsmxətdən təlimin yeni məzmununun hazırlanmasında proyeksiyalamnın əsaslarının öyrənilməsinə diqqət artmışdır. əvvəlki illərdən fərqli olaraq hazırda proyeksiyalama üsulları daha ardıcıl və tam öyrənilir. VII sinifdən başlayaraq proyeksiyalama metodunun öyrənilməsi, düzbucaqlı proyeksiyalamada çertyojların oxunması və yerinə yetirilməsi məktəblilərin bütün sonrakı qrafik fəaliyyətlərinin əsasını təşkil edir. Təlimin bu mərhələsində şagirdlərin görünüş haqqında ilk təsəvvürləri əsasında formalaşan bilik və bacarıqlar IX sinifdə kəsik və kəsimlərin öyrənilməsi ilə əlaqədar daha mürəkkəb təsəvvürlərlə zənginləşir. Bu çagirdlərin fəza formalarının müstəvi üzərində təsviri üsullarını şüurlu surətdə mənimsənilməsinə köçək edir.

Qeyd edək ki, paralel proyeksiyalama daha sadə və pedaqoji proses üçün əlverişli olduğundan, göstərilən tələbləri ödədiyindən stereometriyada çertyojların təsviri və qurma məsələlərinin həllində ondan daha çox istifadə olunur.

Ədəbiyyat

1. *Ümumitəhsil məktəbləri üçün riyaziyyat kurikulumu.* (2021) Bakı.
2. M.H.Yaqubov, İ.M.Abdullayev, Ə.H.Yaqubov. (2015) *TQDK Riyaziyyat.* Bakı: “Abituriyentt” jurnalı.
3. N.M.Qəhrəmanova, M.A.Kərimov, İ.H.Hüseynov. (2022) *Ümumitəhsil müəssisələrinin 7, 8, 9, 10, 11-ci sinifləri üçün riyaziyyat fənni üzrə dərslik.* Bakı: “Təhsil Nəşriyyat-Poliqrafiya”MMC.

4. N.M.Qəhrəmanova, M.A.Kərimov, İ.H.Hüseynov. (2022) *Ümumitəhsil müəssisələrinin 7, 8, 9, 10, 11-ci sinifləri üçün riyaziyyat fənni üzrə dərsliyin metodik vəsaiti.* Bakı: "Təhsil Nəşriyyat-Poliqrafiya"MMC.
5. Ю.М.Колягин. (1982). *Методика преподавания математики в средней школе.* Москва.

## İBTİDAİ SİNİFLƏRDƏ RİYAZİYYAT FƏNNİNİN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN YENİ TƏLİM TEXNOLOGİYALARININ ƏHƏMİYYƏTİ

**Məmmədova Səbinə Ələkbər qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

"Texnologiya" sözü yunan mənşəlidir,"sənətə sistemli yanaşma" mənasını ifadə edir. Digər mənada, texnologiya müəyyən sahəyə aid müvafiq biliklərin tətbiqi zamanı xüsusi metodlar vasitəsilə tapşırığın icrası kimi başa düşülür. Yeni təlim texnologiyalarının riyaziyyat təlimində əsas məqsədi müasir təlimin prinsiplərini həyata keçirməkdir. Geniş mənada izah etsək, təhsil prosesinin iştirakçıları, yəni müəllim ilə şagirdin qarşılıqlı fəaliyyətinə əsaslanan interaktiv təlim metodları riyaziyyat fənni üzrə alt standartlar və bu altstandartlardan çıxarılan təlim məqsədlərinin reallaşdırılmasına, təlimə verilən xüsusi tələblərin yerinə yetirilməsi və s. bu kimi xüsusiyyətləri özündə əks etdirən fəal təlimin tələblərinə əsaslanır. Əsas məqsəd şagirdlərin fəaliyyətlərinə fasilitatorluq etməklə onlarda təlim nəticələrində nəzərdə tutulan bilik və bacarıqları formalaşdırmaqdır. Ənənəvi yanaşmadan uzaq olan, demokratik münasibətlərə əsaslanan yeni təlim texnologiyaları müəllimin bələdçi kimi, şagirdin isə tədqiqatçı rolunda olmasını üstün tutur. Müasir təlim texnologiyaları vasitəsilə təşkil olunan dərslərdə hər bir müəllimin nəzərə alması vacib olan amillər bunlardır:

- ❖ Praktik biliklər aşılamaq;
- ❖ Bilikləri şagirdlərin "Çoxnövlü intellekt" nəzəriyyəsinə əsaslanaraq öyrənmə tərzlərinə uyğun formada ötürmək;
- ❖ Təlim strategiyalarını həyata keçirmək;
- ❖ Təlimin təşkili üçün nəzərdə tutulan əsas tələbləri ödəmək və s.

Riyaziyyat dərslərində müasir təlim texnologiyaları kimi interaktiv metodların, İKT resurslarının tətbiqinin həm şagirdlərin, həm də müəllimlərin işinin asanlaşmasına, onların qarşılıqlı fəaliyyələrinin daha səmərəli təşkil olunmasına səbəb olur. Belə ki, tədris prosesində istifadə olunan interaktiv metodlar, texniki vasitələr mövzunun daha dərindən mənimsənilməsinə, şagirdlərin tələbatlarının ödənilməsinə, həmçinin müəlliminin öz işinə ayırdığı zamanın daha məhsuldar şəkildə sərf olunmasına şərait yaradan müasir vasitələrdir. Müasir təlim şagirdyönümlü olduğu üçün hər bir müəllim şagirdlərin maraqlarını, onların öyrənmə tərzlərini, yaş xüsusiyyətlərini və s. nəzərə almaqla tədris prosesini təşkil etməlidir. Şagirdlərin bəziləri vizual, eşidərək, bir qismi də kinestetik, oxuyub-yazaraq informasiyanı daha rahat şəkildə qavraya bilirlər. Bu baxımdan müəllim şagirdlərin öyrənmə fəaliyyətində müxtəlif strategiyalardan istifadə etməyi bacarmalıdır. Eyni zamanda tədris prosesində hansı interaktiv metoddan istifadə edəcəyini təlim nəticəsinə nəzər yetirərək müəyyənləşdirməlidir. Tədqiqatlara görə, yeni təlim texnologiyaları müvafiq prinsipləri özündə əks etdirdikdə riyaziyyat təlimi zamanı şagirdlərdə yaradıcılıq, problem həlletmə, tənqidi təfəkkür və s. kimi bacarıqları inkişaf etdirməyə təkan verir.

- ❖ şagirdlərin təfəkkürünü inkişaf etdrmək üçün konstruktiv təlim mühitinin yaradılması;
- ❖ şagirdlərin sosial inkişafını təmin etmək üçün əməkdaşlıq bacarığını formalaşdıran kooperativ təlim mühitinin yaradılması;
- ❖ biliklərin müstəqil əldə edilməsi üçün şəraitin yaradılması;
- ❖ müəllimin bələdçi rolunda çıxış etməsi

Yeni təlim texnologiyalarının üstün cəhətlərini prof. Ə.Ağayev belə göstərir: “...dərs tam fəallıq şəraitində keçir, təkcə müəllim deyil, şagirdlər də yaradıcılıq axtarışında olurlar, müstəqil düşüncə tərzi formalaşır, təşəbbüskarlıq, yeniliyə meyllilik güclənir”. Müəllim tərəfindən dərslərin interaktiv şəkildə təşkil olunması ilə şagirdlərin maraqlarının qarşılanmasına, onların sağlam təlim mühiti çərçivəsində öz fikirlərini mühakimə etməyə, sonradan real həyata tətbiq edəcəkləri məzmunu başa düşməyə yardım edən mühüm vasitələrə çevirə bilərlər. Deməli, yeni təlim metodları təhsilin məzmununu daha yaxşı mənimsəmək və şagirdlərin müstəqil cavab vermək məqsədi ilə tələb olunan təfəkkür prosesini inkişaf etdirmək üçün çox faydalıdır. Müasir dövrün tələblərinə görə müstəqil düşünən, kamil, yaradıcı şəxsiyyət yetişdirmək təhsil müəssisələrinin qarşısına bir vəzifə kimi qoyulmuşdur. Nəticədə hər bir müəllim bu vəzifələri yerinə yetirmək üçün müasir təlim texnologiyalarını tədris prosesində tətbiq etməklə təlim prosesinin səmərəliliyini, keyfiyyətini yüksəltmək olar.

**Ədəbiyyat**


1. A.M.Nəzərov. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı-2012. 103 səh.
2. Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramı ( Kurikulum) ( I-XI siniflər). Bakı, 2013.


## İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ YAZI BACARIQLARININ FORMALAŞDIRILMASI


**Məmmədova Vəfa Şamil qızı**
**Bakı Slavyan Universiteti**


İngilis dilinin öyrənilməsində produktiv bacarıq hesab olunan yazı qabiliyyətinin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Çünki, bu dildən gələcəkdə istifadə edən şəxs şifahi ünsiyyətlə yanaşı olaraq, rəsmi, işgüzar və məişət üslublarından istifadə etməklə, yazı materialları yaradaraq tərəf müqabilləri ilə ünsiyyətə girməli olacaqdır. Əlbəttə gələcək peşələrindən asılı olaraq, publisistik, bədii və s. üsullarda da yazmağı öyrənmək əsas şərtlərdən hesab olunur. Düzdür bu məsələdə süni intellekt və informasiya-kommunikasiya texnologiyaları işi bir az yüngülləşdirmiş olur. Lakin yazılı ünsiyyətdə insan faktorunuun əhəmiyyətini azalda bilmir. Xarici dildə yüksək yazı bacarığına malik olan şəxs fikrini ifadə etməklə yanaşı, həm də bu fikrə möhür vurmaqla qarşı tərəfi inandırmış olur. E.Bodrovaya görə, yazı xəyali fəaliyyətimizin əsas hissəsi olaraq, duyğu və düşüncələrimizin çatdırılmasında ən güclü vasitələrdəndir [1, 34-36] .

Yazı bir fəaliyyət növü olmaqla yanaşı, həmçinin bir məhsuldur. Onu yazan fikirləşir, fikirlərini bir quruluş halına salır, sistemləşdirir, hesablayır, çap edir və oxuyur. Tədris prosesində yazı fəaliyyətinə hələ min illər öncə geniş yer ayrılmışdır. Şifahi nitqin natiqlik sənətində nə qədər əhəmiyyətli idi isə hələ o zamanlarda belə gözəl yazı düzgün qaydalara əsaslanaraq qurulmuş yazı da bir o qədər əhəmiyyət kəsb edirdi. Klassik metodla keçirilmiş dərslərdə müəllimin vəzifəsi yazı qaydalarını tələbələrə təqdim etmək, tələbələrin işi isə həmin qaydalara əsaslanaraq yazı fəaliyyətini vərəqlərdə canlandırmaqdan ibarət idi. Müasir dil dərslərdə də, dil öyrənənlər vaxtlarını daha çox öz yaradıcı fikirlərini ifadə etməyə deyil, modellərin köçürülməsinə sərf edirlər. Lakin interkativ və kommunikativ təlim texnologiyaları müxtəlif üsullardan və metodlardan istifadə etməklə yazı bacarıqlarının öyrədilməsini təşviq edir. Məsələn, beyin fırtınası, problemli situasiya kimi üsullardan istifadə etməklə, müəllimin səyi nəticəsində problemli situasiya yaradılmaqla, tələbələr onları düşündürməyə vadar edən yazılara cəlb oluna bilərlər.

D. Birney, L. Vesley və V. Zamel kimi tədqiqatçılar ingilis dilində yazını ən mühüm bacarıqlardan biri kimi qiymətləndirərək, onun qarşısında duran aşğıdakı problemləri

göstərmişdir:

1.qrammatik problemlər – isim-fel uzlaşması, sözlərin oxunuş və yazılışında olan fərqliliklər, bağlayıcılarla bağlı problemlər və s.

2. sözlərin seçimi problemi- mətn yazmaq üçün və oxucunu təəsüratlandırmaq məqsədilə uyğun söz və söz birləşmələrinin seçilməsi problemi;

3. koqnitiv problem- durğu işarələrinin düzgün qoyulması;

4. yazının təşkili problemi -paraqrafların qurulması, ideyanın önə çıxarılması və s. [2]

Yazı fəaliyyəti çox zaman tələbələrin qrammatik qaydanı necə qavradıqlarını üzə çıxarmaq məqsədilə tətbiq olunur. Bu zaman əldə edilmiş bilikləri tələbələr gözəl ideyalarla ifadə etmək imkanına malik olurlar. Bilikləri üzə çıxarmaq üçün müəllim özünün əvvəlcədən hazırladığı tapşırıqları tələbələrə təqdim edə bilər və ya müxtəlif müasir tərtib olunmuş tapşırıq kitablarından istifadə edə bilər. Belə tapşırıq kitablarından biri Kembric Universitetinin nəşriyyatında hazırlanmış "İnterchange" ola bilər. [3]

Müəllim keçmiş qeyri- müəyyən zamandan istifadə etdib və yazının təşkili bacarıqlarının tədrisi məqsədilə tələbələrə yazı üçün belə bir tapşırıq təqdim edir: "Elə hesab edin ki, siz mağazadan xarab olmuş bir mal almısınız. Siz onu dəyişmək üçün geri gətirirsiz, lakin satıcı bunu qəbul etmir. Siz mağaza müdürünə bu problem barədə məktub yazmalısınız." Sonra müəllim situasiyanı izah etmək üçün özü kiçik bir misal çəkə bilər: "Manager, Smith's Beauty Supply: A week ago I bought a hair dryer in your store. After using it three times, I discovered it was damaged and... " Beləliklə də, tələbələr qrammatik materialı mənimsəməklə yazıda problemin qoyuluşunu, məzmun yaratmanı və struktur formalaşdırmasını öyrənmiş olurlar.

Digər bir nümunə isə leksik ifadələrin yazı bacarıqlarına tətbiqi ilə bağlı ola bilər. Düzgün leksik vahid və birləşmələrin tətbiqi oxucu təəsüratının yüksəldilməsinə, adresatın ötürülən məlumatın daha aydın və hərtərəfli başa düşməsinə zəmin yaratmış olar. Leksik vahidlərin yazı prosesində tətbiqi ilə bağlı tədris fəaliyyətlərində də müxtəlif metod və üsullardan istifadə etmək olar. Məsələn, müəllim hər hansı bir məşhur yazışmanı, məktubu oxuyur, oradakı söz və ifadələri izah etdikdən sonra tələbələrə belə bir tapşırıq verə bilər: "Dostunuza elə bir məktub yazın ki, onu uzun müddətdir ki, görmürsünüz və bu müddət ərzində hansı işlərlə məşğul olduğunu bilmirsiniz". Nümunə kimi müəllim tələbələrə bunu təqdim edə bilər: "How have you been? We last saw each other at our high school graduation. What have you done since then? I started college three years ago. I have been on girl's soccer team for two years...".

Müasir tədris yanaşmaları dörd dil bacarıqlarının təcrid olunmuş şəkildə deyil, onların sinxron və paralel şəkildə tədrisini təşviq edir. Bu zaman tədris zamanından düzgün istifadə, səmərəliliyin artırılması, eləcə də yüksək motivasiyanın qoyuluşuna nail olmaq olar. Məsələn, yuxarıda qeyd olunan tapşırığı yerinə yetirdikdən sonra, müəllim tələbələrə yazıları haqqında şifahi olaraq danışmağı və diskussiyanın aparılmasını tapşıra bilər. Bunula da yazı prosesinin köməkliyi ilə digər bir produktiv bacarıq olan şfahi nitq, eləcə də oxu bacarıqlarının da formalaşmasına nail olmaq olar.

Tələbə müəllimini razı salmaq məqsədilə yazmamalı, digər yoldaşları ilə kompromisə girmək, birincilik əldə etmək, daha gözəl ideya yürütmək üçün çalışmalıdır. Gözəl süjeti, məzmunu və kompozisiyası olan yazının ortaya qoyulması kifayət qədər sərişdə və zəhmət tələb edir. Deməli ingilis dilində yazı fəaliyyətlərinin aparılması, dinləyicilərin təkcə yazıda deyil, eyni zamanı şifahi nitqdə də ideya və məzmun yaratmaq bacarıqlarının da formalaşmasına köməklik göstərmiş olar.

Yazı vərdişi, tələbəni öz yazısına daha çox diqqət ayırmağı, fikri düzgün ifadə etməyi öyrədir. Belə ki, yaxşı yazar həm də diqqətli oxucu olmalıdır. Bəzən bu ona görə tələbələrə nitq vərdişindən çətin görünür ki, daha çox diqqət, düzgün quruluş tələb edir. Şifahi nitq vərdişində olduğu kimi yazı prosesində auditoriya yoldaşları tələbəyə yardımçı ola bilmir. Deməli yazı bacarığı daha çox müstəqillik və daha çox səriştə tələb edən bacarıq forasıdır.

Yazı fəaliyyəti sözün əsl mənasında düzgün yerinə yetirilməzsə, tələbənin gələcək işlərində onun möhkəm biliyə malik olmadığını biruzə verəcəkdir. Yazı fəaliyyəti birmənalı şəkildə yerinə yetirilməməlidir, yəni bu fəaliyyətdən istifadə bir vərdişə çevrilməlidir.

Bir çox müəllimlər yazı tapşırıqlarını evə verirlər və bunu tələbələr çox zaman maraqsız və çətin hesab edirlər. Lakin dərs prosesində müasir tədris texnologiyalarının tətbiqi ilə yazını bir əyləncəyə və ya maraqlı tədris fəaliyyətinə çevirmək olar. Tələbələr böyük həcmli bir şey yazmalı olduqlarını bildikdə təəccüblənirlər, bunu nəzərə alıb yazı fəaliyyətinin yerinə yetirilməsi üçün müəyyən çərçivəli vaxt və həcm əvvəlcədən müəllim tərəfindən təyin olunmalıdır. Tapşırıqların müəllimin nəzarəti altında yerinə yetirilməsi tələbələrin materialı daha möhkəm yadda saxlamalarına kömək edə bilər. Tapşırıqdakı istər qrammatik, üslubi, koqnitiv və istərsə də leksik səhvlərin düzəldilməsində də müəllim diqqətli olmalıdır. Əgər tələbə düzəldilmiş səhvlərə nəzər yetirmədən dəftəri kənara qoyursa, düzəliş mənasız görünər. Müəllim onların problemi dərk etdiklərinə əmin olmalı və səhvlər üzərində yenidən iş aparılmalıdır. “Write on Track: A Guide to Academic Writing” [4] adlı əsərdə yazının böyük əhəmiyyətindən danışılır. Müəllif M.Thori, zaman formalarını ali məktəb tələbələrinə daha sadə, lakin düşündürücü yollarla yazı fəaliyyətinə tətbiqi yollarını göstərmişdir. Belə ədəbiyyatlardan istifadə etməklə, tələbələri işə cəlb etmiş, onlarda öyrənməyə inam və həvəs yaratmış olarıq. Müəllifin fikrincə, indiki zamana görə keçmiş və ya gələcək müəyyən edilir. Keçmiş və ya gələcək məfhumları yalnız indiki zamana nisbətən meydana çıxır. Deməli, indiki zaman məfhumu olmadan keçmiş və ya gələcək məfhumları haqqında düşünmək qeyri mümkündür, çünki keçmiş zaman gələcək zamana görə deyil, indiki zamana görə keçmiş hesab olunur. Yaxud, gələcək zaman keçmişə görə deyil, indiki zaman görə gələcək adlanır. Bu kimi məntiqi ardıcıllığa və səbəb-nəticəyə söykənən yazı tapşırıqları dil öyrənənlərin daha çox nəzəri materal öyrənməyə və keçmişdə öyrəndiklərini təkrar etmək təşviq edir.

Bir çox müəllimlər ingilis dilinin frazeoloji birləşmələrinin yadda saxlanmasının və qrammatik qaydalarının azərbaycanlı tələbələrə öyrədilməsini çətin proses hesab edirlər. İngilis dili frazeoloji birləşmələrinin Azərbaycan dilində tam qarşılığının olmamasıdır. Bu halda, ingilis dili frazeoloji birləşmələrin yadda saxlanması və onlardan yazıda düzgün istifadəsi çətinlik yaradır. Bu çətinliyi aradan qaldırmaq üçün isə praktiki fəaliyyətlərin artırılması və situasiyalar yaratmaqla yazı işlərinin aparılmasıdır.

İngilis qrammatisti R.Aytken özünün “Teaching Tenses” adlı əsərində yazır: “Bir çox müəllimlərin fikrincə, zamanların öyrədilməsi, düşünüldüyü kimi asan deyil. Zaman formaları ilə bağlı keçiriləcək dərslərin planlaşdırılması asan olsa da, onların təqdimatı – öyrədilməsi çətindir. Hətta ən yüksək cəhdlərin edilməsinə baxmayaraq, yenə də tələbələr bəzən onları tam anlamır və düzgün istifadə etmirlər”. [5] İngilis dilini doğma dil hesab edənlər aşağıda göstərilən cümlələr arasında fərqi qeyd etdikləri halda, azərbaycanlı tələbələr bu cümlələr arasında heç bir fərq görmür, məhz bu zaman problemlər üzə çıxır: I eat. I am eating. Azərbaycan dilinə bu cümlələrin hər ikisi “mən yeyirəm” kimi tərcümə olunur. İngilis dilində isə dil daşıyıcısı bu cümlələrdən artıq anlayır ki, birinci cümlə adət halını almış, daima təkrarlanan hərəkəti bildirdiyi halda, ikinci cümlədəki hərəkət məhz hal-hazırda baş verir. Azərbaycanlı tələbəyə bu fərqi hiss etdirmək üçün, ikinci cümlənin sonuna “now” sözü artırmaq daha doğru olar. İngilis dilini doğma dil hesab edənlər bir çox qaydaları instinktiv olaraq cümlələrə düzgün tətbiq etdikləri halda, azərbaycanlı tələbə belə instinktlərdən kənardır. Çünki ingilis dili onun öyrəndiyi xarici dildir. Deməli, buradan belə bir nəticəyə gəlmək olur ki, ingilis dilində yazır bacarıqlarınn formalaşdırılması instinktiv hala gələnə qədər aparılmalıdır.

Ingilis dilində müasir təlim-tədris texnologiyaları ilə yazı bacarıqlarının formalaşdırılması məqsədilə aparılmış tədris fəaliyyətləri tələbələrin öyrəndikləri dildə tənqidi təfəkkürün, səbəb-nəticə və məntiqi təfəkkürün formalaşmasına zəmin yaratmış olar.

Ədəbiyyat


1. Bodrova E, Leong D.J. Tools of the mind. The Vygotskian approach to early childhood education. Boston, 2006
2. Byrne D. Teaching writing skills. London, 1988? 166 pages
3. Interchange - https://www.cambridge.org/us/cambridgeenglish/catalog/adult-courses/interchange-5th-edition/components
4. Thoreau, Mary .Write on Track: A Guide to Academic Writing, Pearson edition, http://www.pearsonlongman.com/tertiaryplace/pdf/academic-writing-write-on-track.pdf
5. W. Aitken. Teaching Tenses, https://www.goodreads.com/book/show/3227459-teaching-tenses


## XÜLASƏ


İngilis dilinin tədrisi prosesində yazı bacarıqlarının tədrisi xüsusi əhəmiyyətə malikdir. Yazı bacarıqlarının formalaşdırılmasında qarşıya çıxaş əsas problemlər motivasiyanın aşağı olması və düzgün metodun seçilməməsi ilə bağlı olur. Məqalədə müasir metodlarının ingilis dili yazı bacarıqlarının tədrisində olan əhəmiyyəti, məqsədi və eyni zamanda qarşıya çıxan problemlər araşdırılır. Tədqiqatda yazı bacarıqlarının tədrisi ilə bağlı olan müxtəlif baxışlar və fikirlər öyrənilərək tədqiq olunmuşdur. Aşardırma zamanı yazı bacarıqlarının səmərəli yollarının müəyyən edilməsini təmin edən və daha geniş imkanlara malik olan metodların interaktiv metodların olması qənaətinə gəlinmişdir. Məqalədə əldə olunmuş elmi nəticələr ingilis dilinin dörd dil bacarıqlarının tədrisi məsələləri ilə bağlı araşdırmalarda istifadə olunmaqla yanaşı, eyni zamanda yazı bacarıqları ilə bağlı əldə olunmuş nəticələri tədris prosesində tətbiq oluna bilər.



***Açar sözlər:*** *ingilis dili, yazı, innovativ metod, qrammatika, tələbə,dərs*


## РЕЗЮМЕ


Обучение навыкам письма на уроках английского языка играет важную роль. Одной из ключевых проблем при обучении навыку письма является неудовлетворенная мотивация, а другой проблемой является неправильное применение методов обучения. Предметом статьи является изучение цели, проблем и возможностей, предоставляемых современными методами обучения навыку письма на английском языке. Проанализированы различные взгляды и подходы в обучении навыкам письма в методологии и педагогике и предпринята попытка найти общее видение обучения иностранным языкам. В ходе исследования интерактивные методы обучения выявлены как наиболее действенный и действенный способ обучения навыкам письма. Научные результаты, представленные в статье, могут быть использованы при дальнейших исследованиях по обучению навыкам письма, а также могут быть применены в преподавании.



***Ключевые слова:*** *англиского языка, письмо, инновативный, метод, студенты, классы*


## SUMMARY


Teaching writing skills in English language classes plays an important role. One of the key challenges during teaching the writing skill is the unsatisfied motivation, and the other problem is inappropriate applying of teaching methods. The subject of the article is to study purpose, challenges and opportunities granted by contemporary teaching methods to writing skill in English. Various visions and approaches in teaching writing skills in methodology and pedagogy are analyzed and attempted to find a common vision to teaching foreign languages. During the study interactive methods of teaching are found out the most efficient and effective way of teaching writing skills. Scientific results in the article could be referred during further studies on teaching writing skills, and also the outcomes could be applied on the teaching.

*Key words: the English language, writing, innovative method, grammar, student, lesson*

## XARİCİ DİL TƏDRİSİNDƏ EKLEKTİK METODUN ROLU

**Məmmədova Yeganə Elçin qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Son dövrlərdə İngilis dili bütün inkişaf etmiş cəmiyyətlərdə sosial qarşılıqlı əlaqələnin əsas komponentinə çevrilmişdir.Şübhəsiz ki,xarici dil öyrənənlərin əsas məqsədi bu dili ünsiyyət vasitəsi kimi isitifadə etmək hesab olunur.Tədris və təhsil səhəsinin bütün tarixi boyunca məşhur mütəxəssislər və elm adamları ənənəvi tədris metodu ilə müqayisədə daha effektiv ola biləcək metodlar və strategiyalar hazırlamışlar.

Xarici dil tədrisində düzgün metodun seçilməsi olduqca önəmlidir.Tələbələr xarakterinə,dün-yagörüşünə,mənimsəmə qabiliyyətinə,tərbiyəsinə,mədəniyyətinə və s. xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər.Belə olan halda,əlbəttə ki bu tələbələrin öyrənmə formaları da fərqli olur.Burada tədris prosesinin uğurlu olması üçün müəllim tələbəyə fərdi yanaşaraq ona ən uyğun olan metodu seçməlidir.

Eklektik metodun yaranma tarixi

Fərqli metodlardan tələbəyə ən uyğun olanını seçmək ideyası yeni deyil.Eklektik yanaşma 1970-1980-ci illərdə bir çox tədris metodlarının yarandığı bir dövrdə yaranmışdır.Bu yanaşma xarici dil müəllimlərinə dərs zamanı bütün istifadə olunan dil tədrisi metodlarının ən yaxşı texnikalarından istifadə edərək ən qısa zamanda istədiyi məqsədə nail olmasına imkan verir.Burada əsas prinsip dərs zamanı bir sistemə riayət etmək deyil,bütün sistemlərin ən yaxşı elementlərini seçmək və istifadə etməkdir.Bu metodu konkret,tək bir metod kimi deyil,dinləmə,danışma,oxu və yazma bacarıqlarını və bəzi məşğələləri özündə birləşdirən bir metod kimi təsvir edə bilərik.1990-cı illərin əvvəllərində populyarlıq qazanan bu üsula görə,dil bir bütövdür və tələffüz,dilin strukturu və lüğət tədrisi kimi bölmələrə bölünə bilməz.Müxtəlif üsul və yanaşmaların birləşməsindən əmələ gələn eklektizm metodu şagirdin yaşından və ya xarakterindən asılı olmayaraq çox effektivdir.Eklektik metoda görə,öyrənmə həmişə yeniliyə açıq və əyləncəli olmalıdır.Bu metodun gözə çarpan xüsusiyyətləri müxtəlif tapşırıqlar,yüksək səviyyədə qarşılıqlı ünsiyyət,əyləncəli öyrənmə,obyektiv əlaqə,real həyat təcrübələri və sürətli əldə olunan nəticələrdir.Eklektik yanaşma metoddan daha çox düzgün metodu seçmək texnikasıdır.

Metodun əsas prinsipləri.

Metodun əsas prinsipi ondan ibarətdir ki,dil tədrisində önəmli olan vahid və qəti bir metoddan istifadə etmək deyil,daha çox dilin ümumi prinsiplərini mənimsəməkdir.Bu metodda tədris olunan dilə uyğun olaraq öyrənənlərin şəxsi xüsusiyyətləri nəzərə alınaraq xüsusi prinsiplər hazırlanır və dilin öyrənilməsi məqsədinə çatmaq üçün müxtəlif üsul və vasitələrdən istifadə edilir.Dil tədrisinə nəzər salsaq rahatlıqla deyə bilərik ki,konkret yaxşı bir metod yoxdur.Çünki metodun yaxşı və ya zəif olması situasiyadan asılıdır.Yaradılan hər bir yeni metodun güclü və zəif tərəfləri olduğu üçün hər cəhətdən ideal olan tək bir metod yoxdur,çünki bir yanaşma hamı üçün uğurlu ola bilməz.Müəllim tədris planın hazırlayarkən hər bir uşağın fərdi,bioloji,koqnitiv,emosional və psixoloji fərqlərini nəzərə almalıdır.Hər hansı məzmun və material bütün uşaqlar üçün uyğun olmaya bilər.Bütün bu fərqlərə əsaslanaraq,eklektik yanaşma hər bir metod və modeldən tələbə üçün ən təsirli və uyğun olan hissələri seçərək yeni eklektik model yaradır.Bu üsul,müxtəlif bacarıq sahələrini əhatə edərək öyrənənlərin hərtərəfli inkişafını nəzərdə tutur.Metodu seçərkən öyrənənlərin dil öyrənmə məqsədlərini və hədəflərini bilmək dil tədrisində seçiləcək metodun müəyyən edilməsində son dərəcə vacibdir.Eklektizmin əsas müddəalarından biri budur ki,tədris metodlara deyil,öyrənənlərə xidmət etməlidir.

Dərs zamanı eklektik metodun tətbiq olunması.

Eklektik metodla xarici dil öyrədilərkən dərslər hədəf dildə keçirilir.Yalnız zəruri hallarda ana dilindən istifadə olunur.Dörd əsas dil bacarığına eyni dərəcədə əhəmiyyət verilir.Bu metodla tədris zamanı mövzuların real həyatdan seçilməsinə önəm verilir.Proqramın başlanğıcında tərcüməyə çox az diqqət yetirilir.Tələbələr müəyyən səviyyəyə çatdıqdan sonra tərcümələr edirlər.Sözlər daha çox cümlələrin tərkibində öyrədilir.Eklektik metodun bütün mövcud yanaşmalardan,texnikalardan ibarət olması lazım deyil.Müəllim tədris olunan mövzuya ən uyğun gələn iki və ya üç yanaşma seçib birləşdirə bilər.Məsələn,oxuma vərdişinin hər hansı bir aspektini öyrətmək üçün sözlərin görüb tanınması,sözün təhlili,ipuclarından istifadə və s. kimi texnikalardan istifadə etmək olar.

Tədrisin effektiv olması üçün düzgün yanaşmanın seçilməsi.

Müəllim sinif daxilində istifadə edəcəyi texnika və prosedurları seçməkdə sərbəst olmalıdır.Təbii ki,biz iddia edə bilməriki ki,bu yanaşma idealdır.Hər bir metodun öz üstünlükləri və mənfi cəhətləri var.Müəllim bilməlidir ki,o şagirdin ehtiyaclarına və öyrənmə bacarığına uyğun olaraq istənilən metodu seçmək hüququna malikdirlər.Müəllimin əsas müstəb göstəricilərindən biri,onun tədris boyu hədəfə çatmaq üçün lazım olan texnika və metodları düzgün seçə bilməsidir.Tədris prosesində tələbənin cari vəziyyəti nəzərə alınaraq onun üçün ən uyğun olan yanaşma seçilməlidir.Digər tərəfdən hər hansı bir yanaşmanı tətbiq edərkən müəllimlər metodların göstərişlərini yerinə yetirməyə deyil,tələbələrə öyrənməyə kömək etməyə diqqət etməlidirlər.

Ədəbiyyat

1. Jack C. Richards and Theodore S. Rodgers, Approaches and Methods in Language Teaching, Cambridge University Press, 2014
2. Mary Spratt,Alan Pulverness,Melanie Williams,The TKT Course,Cambridge University Press,2011
3. https://www.arcjournals.org/pdfs/ijhsse/v4-i2/6.pdf

## ÜMUMİTƏHSİL MƏKTƏBLƏRİNDƏ BİOLOGİYANIN TƏDRİSİNDƏ KEYS TEXNOLOGİYALARININ TƏTBİQİNİN İMKANLARI VƏ YOLLARI

**Məmmədova Zeynəb İlqar qızı**
*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

Respublikamızda aparılan təhsil islahatları nəticəsində fəal təlim metodları ilə tədrisin təşkilinə üstünlük verilir. Elmi mənbələrdə göstərildiyi kimi 200-ə qədər təlim metodları mövcuddur. Bunlardan təlim prosesində 20-si daha çox istifadə olunur. Hər bir təlim metodu öyrənilməsi nəzərdə tutulan mövzunun müəyyən mərhələsində tətbiq edildikdə daha effektli olur. Bir qayda olaraq təlim metodunun seçimi fənn müəlliminin ixtiyarına verilir.Ona görə ki, mövzunun xüsusiyyətlərini eyni zamanda tədris etdiyi sinfin şagirdlərinin səviyyəsini və tədris bazasının imkanlarını nəzərə almaqla metod seçimini müəllim aparır. Bu metodlar içərisində təcrübə göstərir ki, orta ümumtəhsil məktəblərində keys texnologiyasına olduqca az müraciət olunur ona görə ki, fənn müəllimləri iştirak etdikləri təlim kurslarında digər metodlar haqqında məlumat alsalar belə, keys texnologiyası haqqında əksər müəllimlərin məlumatı olduqca azdır. Keys texnologiyasının mahiyyətində analiz və sintez məsələləri durur. Dərsdən kənar məşğələlərdə də keys texnologiyalarından istifadə olunur. Qiymətləndirmə toplularının tərtib edilməsində və meyarlara görə qiymətləndirmə tapşırıqlarının hazırlanmasında keys texnologiyasını tətbiq etmək prossesə müsbət təsir göstərir. Təlim nəticələrinin obyektiv qiymətləndirilməsində mühüm əhəmiyyət kəsb edir.

Keys texnologiyasının mahiyyəti:

Müəllim dərsə hazırlıq zamanı mövzuya uyğun hansı nəzəri bilikləri, hansı anlayışları çatdıracağını, eyni zamanda hansı praktik tapşırıqları yerinə yetirəcəyini, ümumiləşdirməni

necə aparacağını və tədris etdiyi mövzunun məzmununa görə hansı qiymətləndirmə tapşırıqlarını yaradıcı tətbiq etmə mərhələsində tətbiq edəcəyini bilməlidir. Müəllimin evə verdiyi tapşırıqlar elə olmalıdır ki, mövzu şagirdlər tərəfindən tam mənimsənilsin. Bəzi tədbirlər məsələn, biologiya gecəsi üçün senari yazılır, ekskursiyaların hazırlıq mərhələsinə əvvəlcədən plan işlənilir və bu plan əsasında hansı işlərin görüləcəyi müəyyən olunur. Keys texnologiyası imkan verir ki, onu dərsin hazırlıq mərhələsində mövzu tam analiz edilsin. Dərsin müvafiq mərhələlərində və dərsdən kənar tədbirlərdə də metod seçimi obyektiv olsun. Metodun tətbiqi zamanı səbəb və nəticə aydın şəkildə fəaliyyətdə öz əksini tapır. Bu baxımdan keys texnologiyası digər metodlardan fərqlənir.

Biologiyanın tədrisində "keys " texnologiyasından istifadə edərək fənni daha da maraqlı, müasir formada öyrətmək mümkündür. Biologiya dərslərində keys texnologiyasından istifadə yeni biliklərin verilməsinə, bacarıqların formalaşdırılmasına səbəb olan situasiyaları yaratmağa imkan verir, eyni zamanda şagirdlər də kollektiv əməkdaşlıq, yoldaşcasına qarşılıqlı yardım və s. vərdişlərin aşılanması onların gələcək sosial həyata hazırlanmasına zəmin yaradır.

Keys texnologiyası (ingilis dilində - hadisə, vəziyyət )bu metodlarin həlli üçün kollektiv və ya fərdi axtarışı əhatə edən praktik problemlərin tətbiq edildiyi tətbiq materialları toplusudur.

Keys real hadisələrin təsviridir. Müəllim tərəfindən şagirdlərin diskussiya yaratmaq məqsədi ilə situasiyanın analizi və qərarların qəbulu ilə nəticələnən hadisələrin təsviridir.

Keys texnologiyası şagirdlərin təhsil və idrak fəaliyyətini daha məhsuldar təşkil etmək üçün nəzərdə tutulmuşdur. Bu metoddan istifadə əsasında bioloji materialı təhlil etmək bacarığını formalaşdıra bilirlər. Bunun üçün fənn müəllimləri keysin müxtəlif növləri haqqında aydın təsəvvürə malik olmalıdırlar. Keys texnologiyası şagirdləri bioloji materialı təhlil etmək bacarığını öyrənməyə yönəldir. Onun fərqləndirici xüsusiyyəti real həyatdan götürülmüş faktlar əsasında problemli vəziyyətin təsviridir. Keys metodundan istifadə edən müəllimin işinin müsbət cəhəti ondan ibarətdir ki, o nəinki öz qabiliyyətini maksimum fəaliyyətinin əsas məzmununa yönəldir, həmçinin bir neçə funksiyanın icrasını tədris,tərbiyə,tədqiqatçılıq və təşkilatçılıq qabiliyyətini stimulə edir. Tədris prosesində keys ilə işləmə texnologiyası nisbətən sadədir və aşağıdakı mərhələni ifadə edir:

Şagirdlərin materiallar ilə fərdi müstəqil işi, əsas problemə baxışı və onun həlli yollarını aydınlaşdırmaq üçün kiçik qruplarla da işləmək mümkündür. Kiçik qrupların nəticələrinin təqdimatı və yoxlanmasıda bu metodun tətbiqi ilə aparıla bilir. Biologiya tədrisində istifadə oluna bilən təlim prosesini aktivləşdirən keys texnologiyalarını növlərə və üsullara görə ayırd etmək olar: hazırlıq, istiqamətverici-motivə, əsas məsələlər, qiymətləndirmə.

Keysin növlərinə görə metodlar toplusunun seçimi həyata keçirilir.

Keys texnologiyasının növləri:

- Öyrədici
- Praktik
- Elmi-tədqiqat

Belə ki, göründüyü kimi keys texnologiyasının tətbiqi ilə şagirdlər bioloji qanun və nəzəriyyələri anlayışları öyrənə bilirlər, onlara həyati proseslərin real səbəblərini situativ əks etdirmək mümkün olur və eyni zamanda tədqiqat fəaliyyətini həyata keçirməyə istiqamətləndirmək imkanı qazanılır.

Keys texnologiyasının üsulları:

- Hadisə üsulu;
- İşgüzar yazışmaların təhlili;
- Situasiyalı təhlil;

Keysin tədqiqi ilə keçirilən dərslərdə müəllim şagirdlərə vəziyyəti təsvir edən hadisə haqqında məlumat verməklə yanaşı, çətin vəziyyətdən çıxış yolu,yardım üçün məsləhətlər və bir sıra suallar olan materialları əvvəlcədən paylayır və şagirdlər bu materialla işləyirlər. Yekun olaraq öyrədilməsi nəzərdə tutulan bilik və bacarıqların mənimsənilməsi səviyyəsi situativ tipli tapşırıqlar vasitəsi ilə təhlil edilir. Nəticə tədris edilən mövzu ilə bağlı yeni tapşırıqların, o cümlədən esse, referat və ya lahiyələrin işlənməsinə istiqamətləndirməklə yanaşı, dərslərdə bu texnologiyanın tətbiqi effektini müəyyənləşdirir.

## ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ "VƏTƏN YARALARI" HEKAYƏSİNİN ÖYRƏDİLMƏSİ YOLLARI

**Mirzəyeva Xanım Ərəstun qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir mərhələdə ədəbiyyat tədrisi metodikasında yeni təlim texnologiyalarından istifadə mühüm tələb kimi qarşıya qoyulur [3, s.111]. İnteraktiv təlim şagirdlərin biliyi yaradıcı, tədqiqatçılıq fəaliyyəti nəticəsində əldə etməsinə əsaslanır. Dərsdə problem situasiyasının yaradılması, şagirdlərin onun həllinə yönəlmiş tədqiqatçılıq fəaliyyəti nəticəsində təlim materialları dərindən mənimsənilir, fakt və hadisələrin səbəb və nəticə əlaqələrini, qanunauyğunluqlarını, müəyyənləşdirmək, nəticə çıxarmaq bacarığı inkişaf etdirilir [3, s.115].

Mir Cəlalın yüksək sənətkarlıq nümunəsi olan hekayə və romanları gənc nəslin ədəbi təhsili, inkişafı, mənəvi-estetik tərbiyəsi baxımından böyük imkanlara malikdir. Ədibin bir-birindən maraqlı hekayələri, roman və povestləri ədəbiyyatımızda özünəməxsus yer tutur. Onun romanlarında ana xətt başdan-başa vətənpərvərlik, humanizm və s. müsbət ideyalar üzərində qurulub. Hekayə üzrə söhbət zamanı müəllim şagirdlərin təəssüratını, təsvir edilənlərin onlarda hansı hiss və duyğular oyatdığını, ədəbi qəhrəmanlara münasibətini aydınlaşdırır.

Ədəbiyyat dərslərində "Vətən yaraları" hekayəsinin öyrənilməsinə üç saat vaxt ayrılmışdır. Birinci və ikinci saat məzmununun mənimsədilməsinə, üçüncü saat isə təhlilinə ayrılmışdır. Hekayənin məzmununun mənimsənilməsinin birinci saatında 1.1.1, 1.1.3, 1.1.5 və 2.2.1 standartları tətbiq edilir. Dərsin motivasiya mərhələsində "Ədəbiyyatımızın qəhrəmanlıq səhifələrinə həkk olunmuş hansı əsərlərlə tanışsınız?" və "Bu mövzudakı əsərlər sizdə hansı təəssüratlar oyadır?" sualları əsasında müəllim müsahibə aparır və tədqiqat sualı formalaşdırılır. "Əsərinə "Vətən yaraları" adını verməklə müəllifin məqsədi nə idi?" sualı şagirdlərə verilir. Sual əsasında şagirdlərin söylədikləri ümumiləşdirilərək lövhədə qeyd edilir. Tədqiqatın aparılması mərhələsində sinifdə əsərin ilk iki parçasının oxusu həyat keçirilir. Parçaların oxusundan sonra şagirdlər cütlük şəklində cavab hazırlayırlar. Cavabları eyni olan cütlüklər birləşərək kiçik qruplar yaradırlar. Cavablarını, müəyyənləşdirdikləri bədii təsvir və ifadə vasitələrini kiçik qruplarda dəqiqləşdirən, ümumiləşdirərək vahid cavab şəklinə salan şagirdlər məlumat mübadiləsinə hazırlaşırlar [1, s.96].

Bütün qrupların eyni tapşırığın üzərində işləməsi məlumat mübadiləsinin müzakirə ilə qovuşmasına səbəb olur. Qruplar bir-birinin işi ilə ətraflı tanış olurlar. Müzakirənin diskussiya səciyyəli olması həm məzmunun mənimsənilməsi, həm də şagirdlərin inkişafı baxımından səmərəlidir. Oxunmuş hissənin məzmunu ilə bağlı qazanılmış təsəvvürün tamlığına nail olmaq üçün müəllim əvvəlcədən hazırladığı açıq sullardan istifadə edə bilər: a) Döyüşə atılan əsgər hansı hissləri keçirir? b) Əsgərin "iki ömür" arzusu sizdə hansı düşüncələr yaratdı? c) "Amma mənə elə gəlir ki, xəstənin fiziki həyatından çox, mənəvi həyatı var" cümləsində ifadə olunmuş fikri necə başa düşdünüz? Əsgərdə belə bir qənaətin yaranmasının səbəbini necə izah edərsiniz? [2, s.51-52] Dərsdə vaxtdan qənaətlə istifadə edilməsi yığcam nağıletmə ilə bağlı tapşırığa vaxt ayırmağa imkan verir. Seçdikləri hissənin

məzmununa aid planı fərdi olaraq tərtib edən şagirdlərin bir neçəsinin çıxışının dinlənilməsi və yığcam nağıletmənin tələblərinə nə dərəcədə cavab verdiyinin müəyyənləşdirilməsi məqsədəuyğundur. Formativ qiymətləndirmə aparılarkən məzmun standartları əsasında müəyyənləşdirilmiş müvafiq qiymətləndirmə meyarları üzrə aparılır.

Hekayənin məzmununun mənimsənilməsinin ikinci saatında 1.1.1, 1.1.5 və 2.2.1 standartları tətbiq edilir. Məzmunu üzrə işin ikinci saatında şagirdlərə evdə oxuduqlarını (3-5-ci parçaları) bir daha nəzərdən keçirmək, sonra cütlük şəklində məzmuna aid suallar və onlara cavab hazırlamaq təklif edilir. Məlumat mübadiləsi və müzakirə qovuşmuş halda keçirilir. Müəllim müzakirədə hər kəsin öz fikrini sərbəst ifadə etməsinə imkan yaradır. Onun istiqamətləndirici suallardan istifadə etməsi diskussiyaya imkan yaratmalıdır. Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması mərhələsində təqdimatların müzakirəsi zamanı qeyd edilir ki, hekayənin adı elə onun məzmunu ilə bağlıdır. Belə ki, “ Vətən yaraları” vətən uğrunda mübarizə aparan əsgərlərin bu yolda yaralanması, bir növ, əsgərin aldığı yaralar, həm də vətənin aldığı yaralar idi.

Hekayənin üçüncü saatı təhlili üzrə işdir. Dərsdə 1.2.2, 1.2.4 və 2.2.1 standartları tətbiq edilir. Dərsin motivasiya mərhələsində şagirdlərə “Müharibə mövzusunda yazılmış əsərlərdə ön plana çəkilən əsas məqamlar nələrdir?” sualı verilir. Sual əsasında yığcam müsahibə aparılır və tədqiqat sualı formalaşdırılır. “Hekayədə başlıca fikir nədən ibarətdir?” sualı şagirdlərə verilir. Səsləndirilən fərziyyələr lövhədə qeyd olunur. Tədqiqatın aparılması mərhələsində kiçik qruplarda əsərin təhlili ilə bağlı fikir mübadiləsi aparılır: a)Yazıçını narahat edən əsas problem nədir? b) Əsgər obrazlarını birləşdirən cəhətlər hansılardır? c) Yazıçının ədəbi qəhrəmana münasibəti necədir? d) Hekayədə hansı bədii təsvir və ifadə vasitətləri işlənmişdir? suallarına cavab hazırlanır. Ardınca təqdimatlar əsasında məlumat mübadiləsi və müzakirə aparılır. Nəticənin çıxarılması mərhələsində təqdimatların müzakirəsi zamanı qeyd edilir ki, yazıçını narahat edən əsas problem yarımçıq qalmış ömürlər, övlad itirmiş analar, ayrı düşmüş dostlar idi. Bir sözlə, müharibənin gətirdiyi fəlakətlər. Əsgər obrazlarını birləşdirən cəhətlər bunlardır: qorxmazdırlar, vətəninə, ailəsinə bağlıdırlar. Yazıçının ədəbi qəhrəmana xüsusi rəğbəti vardır. Onun keçirdiyi hissləri xüsusilə vurğulayır. Şagirdlər epitetə nümunə olaraq “Hissiz sükut aləmindən qayıdıram”, bədii suala nümunə olaraq “Məgər xəyal onları gətirib yetirə bilərmi?” metafora isə “Dodaqlarım qaçdı, məni bir düşüncə yaxaladı” nümunəsini deyirlər. Əsərin əsas ideyası müharibə insanları məhv etsə də onların qəlbindəki əziz xatirələri, müqəddəs duyğuları məhv edə bilmir. Formativ qiymətləndirmə aparılarkən məzmun standartları əsasında müəyyənləşdirilmiş müvafiq qiymətləndirmə meyarları nəzərə alınır.

Nəsr əsərlərinin məzmunu və təhlili üzrə dərslərdə fəal/interaktiv təlim metodlarının, fərdi, cütlük, kiçik qrup və böyük qrup şəklində iş formalarının tətbiqi məktəblilərin fəallıq və müstəqilliyinə, mütaliə vərdişləri və təhlil bacarıqlarının formalaşmasına müsbət təsir göstərir.

Ədəbiyyat


1. Həsənov B., Mustafayeva A., Əliyev S., Verdiyeva N. Ədəbiyyat IX sinif. Müəllim üçün metodik vəsait - Bakı: Bakınəşr, -2020. - 224 s.
2. Həsənov B., Mustafayeva A., Əliyev S., Verdiyeva N. Ədəbiyyat IX sinif üçün dərslik – Bakı: Bakınəşr, - 2020. - 224 s.
3. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası – Bakı: Müəllim, - 2016. - 452 s.

# XARİCİ DİL DƏRSLƏRİNDƏ DƏRS PLANLAŞDIRMA VƏ DƏRSİ PLANLAMANIN MƏQSƏDLƏRİ

**Mirzəyeva Nərmin Rövşən qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Xarici dil dərslərinin tədrisində dərs planının düzgün tərtib olunmasının böyük rolu vardır. Təkcə xarici dil dərslərində deyil, digər fənnlərin tədrisi zamanı da dərs planı olduqca vacibdir. Hər bir müəllim tədris prosesində öz planından istifadə edə bilər. Bildiyimiz kimi düzgün dərs planı dərsin daha effektiv olmasına təsir göstərir. Dərs planları dərs zamanı müəllimin nə öyrədəcəyini, tələbələrin nə öyrənəcəyini planlaşdırır.

Dərs planlarının tərtibi xarici dilin tədrisinin effektiv təşkil olunmasında olduqca vacibdir. Çünki dərs planı nə tədris edəcəyimizi sistemli şəkildə və daha aydın görməyə bizə yardımçı olur. Xarici dil dərslərində dərs planının uğurlu hazırlanmasının bir sıra məqsədləri vardır.

Təlim məqsədlərini müəyyən etmək.

Dərsi planlaşdırmazdan əvvəl ilk növbədə dərsin öyrənmə məqsədləri müəyyən edilməlidir. Tədris məqsədi təlim zamanı öyrənənin nələrə məruz qalacağından (yəni mövzular) deyil, öyrənmə təcrübəsindən sonra öyrənənin nəyi biləcəyini və ya edə biləcəyini təsvir edir. Tipik olaraq, tələbələr tərəfindən asanlıqla başa düşülən və proqramın nəticələri ilə əlaqəli bir şəkildə aydın dildə yazılır. Aydın şəkildə ifadə edilmiş tapşırıqların tərtib olunması mühümdür. Tələbənin öyrənmə müddətində əldə etməli olduğu vacib məqamlar təsvir edilməlidir.

Xüsusi təlim fəaliyyətlərini planlaşdırmaq.

Təlim fəaliyyətini planlaşdırarkən, tədrisdə effektiv öyrənmə nümayiş etdirmək üçün tələb olunan bacarıq və bilikləri inkişaf etdirmək, tələbələrin məşğul olmaları mühüm olan fəaliyyət növlərini nəzərə alınmalıdır. Öyrənmə fəaliyyətləri birbaşa tədrisin təlim məqsədləri ilə əlaqəli olur və tələbələrə bu məqsədlərə doğru xüsusi irəliləyişlə bağlı iştirak etmək, təcrübə qazanmaq imkanı yaradılır. Öyrətmə fəaliyyəti planlaşdırılarkən vaxt müəyyənləşdirilməlidir. Geniş izahat və ya müzakirə üçün vaxt ayırmaq, eyni zamanda müxtəlif problemləri sürətlə keçməyə və qavramanı yoxlayan strategiyaları müəyyən etməyə hazır olmaq olduqca vacibdir. İlk olaraq müəllim tədris prosesini necə təşkil edəcəyini müəyyən edir daha sonra mövzunu izah etmək üçün müxtəlif yollar və üsullar tapır. Xarici dil dərslərini planlaşdırarkən tələbələrə veriləcək materialların da tədrisə uyğun tərtib olunması olduqca önəmlidir. Müəllim öz istifadə etdiyi metoddan asılı olaraq mövzunu müxtəlif formada təqdim edə bilməlidir.

Dərsin maraqlı və mənalı şəkildə ardıcıllıqla davam etməsini təmin etmək.

Tələbələrdən hansısa şəkildə materialla qarşılıqlı əlaqə tələb olunarsa, müxtəlif üsullarla təqdim olunan məlumatları yadda saxlama ehtimalı daha yüksəkdir. Onlar qərar qəbul edərək təcrübə aparır, virtual mühitdə təsirləri və yaxud nəticələri görürlər. Tələbələrə problem, ssenari, vəziyyət təqdim edilir, daha sonra onlardan həll etmələri xahiş olunur, tələbələrə məlumatı yeni və müxtəlif yollarla düşünmək imkanı yaradılır. Müntəzəm olaraq verilən mövzuya tələbələrin intellektual və emosional reaksiyalarının yazılı və ya şifahi qeydləri aparılır. Tələbələrin başa düşmə səviyyəsini və verdikləri sualları qiymətləndirmək üçün tapşırıqlar müxtəlif formalarda ola bilər.

Real vaxt qrafiki yaratmaq.

Fəaliyyətlərin hər birinin nə qədər vaxt aparacağını təxmin etmək, hər biri üçün əlavə vaxt planlaşdırmaq olduqca vacibdir. Dərs planınızı hazırladığımız zaman hər bir fəaliyyətin yanında bunun nə qədər vaxt alacağı barədə gözləntimizi göstərmək lazımdır. Qalan suallara cavab vermək və əsas məqamları yekunlaşdırmaq üçün dərsin sonuna bir neçə dəqiqə ayırmaq məqsədə uyğundur. Vaxt varsa, əlavə fəaliyyət və ya müzakirə üçün vaxt ayırmaq olar.

Dərsi yekunlaşdırmağı planlaşdırmaq.

Dərsin yekunlaşdırılması tələbənin öyrənməsini möhkəmləndirmək imkanı yaradır. Bu həm müəllimlər, həm də tələbələr üçün faydalıdır.

Xarici dil dərslərinin tədrisi zamanı dərs planlarından istifadə olduqca vacibdir. Dərs planları müxtəlif ola bilər. Tədris prosesində uğurlu bir nəticə əldə etmək üçün dərs planlarını düzgün tərtib etmək və müxtəlif planlardan istifadə etmək olar. Hər bir müəllim öz tədris etdiyi fənn üzrə planını müxtəlif formada tərtib edə bilər. Dərs planının tərtib edərkən məqsədlər xüsusilə nəzərə alınmalıdır. Belə nəticəyə gəlirik ki, uğurlu dərs planı əldə etmək üçün onu necə tərtib etməyi bilmək başlıca məqamdır. Bundan sonra dərs planının hazırlanma prosesi başlayır. Həmin müddət ərzində müəllim yuxarıda sadalanan məqsədlərə diqqət yetirməlidir. Sonda isə uğurlu plan əldə etmək mümkündür.

Ədəbiyyat


1. Harmer, J. (2001). The practice of English language teaching. Harlow: Pearson Education. Chapter 22
2. Woodward, T. (2001). Planning Lessons and Courses. Designing sequences of work for the language classroom. Cambridge University Press. Chapter 7.
3. Anderson, L., & Krathwohl, D. A. Taxonomy for Learning, Teaching and Assessing: A Revision of Bloom's Taxonomy of Educational Objectives. – New York: Longman, 2001. – 352p.
4. https://ioannanifli.wordpress.com/2021/08/31/lesson-planning-and-its-importance-to-effective-language-teaching/


## HUMANİTAR FƏNLƏRİN TƏDRİS TƏCRÜBƏSİNDƏ PEDAQOJİ HERMENEVTİKANIN TƏTBİQİ YOLLARI


**Mirzəyeva Sevinc Tofiq qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Hermenevtika mətnlərin anlamı ilə bağlı metod olaraq ta qədim zamanlardan günümüzə qədər Şərqdə və eləcə də Qərbdə özünəməxsus şəklildə adlanmış və müxtəlif forma, janr, istiqamətlərdə mövcud olmuşdur. Hermenevtika təkamül prosesində metod olmaqla bərabər fəlsəfə statusu da qazanmışdır. Hermenevtikanının bir elm kimi formalaşmasında müstəsna rolu olan məşhur alman filosofları F.Şleyermaxer, V.Diltey, M.Haydegger, H.Q.Qadamer olmuşdur. Onların elmi-nəzəri araşdırmaları sayəsində anlam fenomeninin əhatə dairəsi genişlənmiş, hermenevtika filoloji, dini, hüquqi mətnlərin şərhi üsullarından anlamaq sənətinə, ruh haqqında (humanitar) elmlərin metodologiyasına və nəhayət, anlam haqqında bitgin konsepsiyası olan ontoloji təlimə çevrilmişdir. [1s.81]

Hal-hazırda hermenevtik metodologiya ümumiyyətlə bilik yolu kimi tanınır və eləcə də sosial elmlərin müxtəlif sahələrində tədqiqinidə istifadə olunur: fəlsəfə, sosiologiya, hüquq, psixologiya və s. Eyni zamanda, bütün istiqamətlər bir-birindən fərqlənir: "psixoloji hermenevtika", "hüquqi hermenevtika", "linqvistik hermenevtika", "pedaqoji hermenevtika". Pedaqogika elmində hermenevtik yanaşma bilavasitə pedaqoji fəaliyyətin dəyər aspektlərini özündə əks etdirir.

Pedaqoji hermenevtikanın pedaqoji nəzəriyyə və təcrübənin xüsusi sahəsi kimi müəyyən edilməsi son dərəcə aktualdır.

Təhsilin müasir inkişafı mərhələsində şagirdlərin elmi və digər humanitar mətnləri başa düşmələri mühüm problemdir. Təlim prosesində buna lazımi diqqət yetirilməməsi, məlum olduğu kimi, istər-istəməz şagirdlərin əsas anlayışları səthi başa düşməsinə, birtərəfliliyə və ya çaşqınlığa səbəb olur. Şagirdlər əsas məzmunun dəyişdirilməsinə və nəticədə müəyyən biliklərin mahiyyəti haqqında fikirlərin təhrif olunmasına gətirib çıxarır.

Tədris prosesində humanitar mətnlərin başa düşülməsi ilə bağlı yaranmış problemlərin ifadəsi bu amillərlə bir daha təsdiqlənir ;subyektin şüurunu "bloklayır", Subyektin inkişafını dayandırır.

Anlayış adekvatlığı mətnin təfsir qanunlarından biridir. Bu səbəbdən problemin həlli yollarını tapmaq üçün biz şərh və onun əsas amillərini mütləq nəzərə almalıyıq. Adekvatlıq yaratmaq üçün kömək olan qaydaları müəyyən etməyə diqqət yetirmək bir zərurətdir.

Mətnlərin dərk edilməsi,onların təfsiri haqqinda elm olan,eyni zamanda qədim,zəngin tarixə malik fəlsəfi elm- hermenevtikaya əsasən şərh mətnin müvafiq üsullardan istifadə etməklə qavranılması əsasında həyata keçirilən prosesdir. Təfsir prosesinin məqsədi və nəticəsi anlamadır. Ayrıca qeyd etmək lazımdır ki, mətnlərin şərhi zamanı spesifikliyi və konkret bilik sahəsinə (təbiət və ya humanitar elmlər) aid olması əhəmiyyət kəsb edir. Səbəb olaraq qeyd etməliyik ki,nadir elmi bilik növlərindən biri kimi hermenevtik təcrübə və pedaqoji biliyin mahiyyətindən göründüyü kimi təbiət elmlərinin metodologiyası humanitar təhsil sahəsində, xüsusən də bədii əsərlərə tətbiq oluna bilməz.

Pedaqoji bilik və onun əsas xüsusiyyətlərini bilmək dəyər sistemlərinə və qayda-qanunlarına əməl etmək bizə mətnlərin və hadisələrin real anlamını adekvat şəkildə qavramağa imkan verəcəkdir.

Hermenevtik nəzəriyyədə pedaqoji mətnlərin şərhi qaydaları var ki, bunlar E.Bettinin "Hermenevtika ruhani elmlərin ümumi metodologiyası kimi" əsərində aşkarlanır ki, bu da əslində həqiqəti dərk etmək üçün tədqiqat təcrübəsinin ən dolğun izahıdır.

E.Betti [19] humanitar mətnlərin başa düşülməsinin adekvatlığını təmin edən amillərin sırasını qeyd edir. Qeyd etmək lazımdır ki, bu amillər tamamilə mövzuya aid edilir və aşağıdakılardır:

• subyektin özündən, öz qərəzlərindən imtina etməyə meyli (qərəzlər adət halını almış bir şey haqqında yanlış fikirlər, mülahizələr, mühakimələrdir);

• fənnin kifayət qədər inkişaf səviyyəsi;

• şərh obyektinin məqsədlərini ən birbaşa mənada özününkü kimi qəbul etmək bacarığı sözlər;

• anlamaq arzusu.

Anlamaq istəyi, obyektin dərk edilməsinin adekvatlığının hərəkətverici qüvvəsinin amilidir ancaq bu yetərli deyil. Kəşf və dərk etmək üçün uyğun perspektiv lazımdır.İlk öncə, bir-biri ilə əlaqəli və asılı olan digər üç amil haqqında danışmalıyıq.Belə ki, təlim prosesi zamanı birinci amilin olmaması anlayışın adekvatlığına maddi maneədir. Əgər subyekt açıq şəkildə tədqiqat obyekti haqqında köklü səhv fikir və mülahizələrə malikdirsə, obyektin məqsədlərini qəbul etmək bacarığına ehtiyac duyulur. Mövzu inkişaf etmir, bu əsasdan da obyektin adekvat dərk edilməsinə nail olmaq çətinləşir.

Belə nəticəyə gəlinir ki, tələbələrin mətnləri adekvat dərk etmə problemini aradan qaldırmaq üçün təhsilin əsas vəzifəsini - şəxsi və mədəni mənaların sistematik formalaşdırılması vəzifəsini yerinə yetirən təhsil sistemi lazımdır.Bilik və şüurun ardıcıl inteqrasiyası mövcuddur ki, bu da özlüyündə yeni biliklərin yaranması amilinə səbəb olur. Şagirdin yeni mətnlər yaratmaq bacarığı təhsilinin mühüm göstəricilərindəndir və bu amil şagird intellektinin inkişafında müsbət nəticə göstərir.

Pedaqoji elmdə, vahid təhsil məkanının mahiyyəti müxtəlif biliklərin yeni təhsil mətnində formal birləşməsində deyil, şagird şüurunda müxtəlif mətnlərin əlaqəsi, konseptual məna və şüurun formalaşdığı strukturların formalaşmasındadır. Tələbə şüuru aparıcı amildir.Məsələn, Müəllim pedaqogika elminin dilini əridərək onu öz dilinə, daha sadələşdirilmiş dilə çevirə bilər. Bu, didaktik sistemdə semiotik ziddiyyətin olmaması deməkdir, bunun sayəsində şagirdlərin elmi təfəkkürünü həyata keçirmələri və mövcud bilikləri ilə sistemli işləmələri üçün lazımi şərait yaradılır.Semiotik ziddiyyət təhsilin fərdi inkişafının təşkilində,öyrənənlərin fəal təlim subyekti rolunda çıxış etməsində əhəmiyyəti olan ən mühüm didaktik amil kimi şərtlənir. Nəticə etibarilə, bu halda təlim prosesi idrak-reproduktiv xarakter alır. Ancaq proses tələbənin şüur, bilik, bacarıq və bacarıqlarının şəxsi strukturlarının cəlb edilməsinə yönəlmədiyi üçün. onu qavrayış və yadda saxlamağa hazır

formada ötürməklə məhdudlaşır və buna görə də onu inkişaf etdirmir. Bu isə tələbənin mətni adekvat başa düşmə prosesini məhdudlaşdırmağa gətirib çıxarır.

Öyrənmə subyektinin şüurunu aktivləşdirən və son nəticədə psixi konseptual və məna formalaşdıran strukturların formalaşmasına səbəb olan mexanizm pedaqoji elmin mətninin adekvat qavranılmasına nail olmağa yönəlmiş şərh prosesidir.

Tələbələrin onun mənasını və məqsədini başa düşməsi biliyin dərinləşməsinə və fənn fəaliyyətinin mənimsənilməsinə kömək edir, çünki bu, hərəkətlər haqqında məlumatlılığı və onların müstəqil düşüncəsini stimullaşdırır. Bu da öz növbəsində mətnin semantik məzmununun oxunmasını, təfsir və başa düşülməsini, şəxsi mənaların mənimsənilməsini təmin edir. Bu proses tələbədən lazımi biliyi tətbiq etməyi (güvənməyi) tələb edəcəkdir. Əgər anlaşılmazlıq vəziyyəti yaranarsa, mətndə "müqavimət" göstərildikdə, lazımi biliklərin olmaması və ya onun qeyri-kafiliyi üzə çıxır. Sonra onları doldurmaq lazımdır. Bundan əlavə, şərh prosesi tələbələri şüurun şəxsi strukturlarını cəlb etməyə təşviq edəcək: tənqidilik, refleksivlik, muxtariyyət, münaqişə və s. [43].

Hermenevtika elminə əsasən, şagirdin mətni effektiv və adekvat qavramasının göstəricisi kimi üç səviyyəli anlayış müəyyən olunmuşdur. III səviyyə (aşağı), şagird bütöv mətnin mənası haqqında rekonstruktiv fərziyyə müəyyənləşdirə bilib, lakin onun bəzi hissəsinin mənasını tam aydın müəyyən edə bilmədikdə. II səviyyə (aralıq), tələbə mənanı müəyyən etdikdə, lakin məna haqqında fərziyyəsini əsaslandıra bilmədiyi zaman və I səviyyə (yüksək), tələbə fərziyyəyə nisbətən mətnin hər bir hissəsinin rolunu müəyyən etdikdə və bütövün mənasının formalaşmasında hər bir hissənin rolu ilə bağlı fərziyyəni izah etdikdə.

Hermenevtik yanaşmaya əsaslanan dərketmə prosesində tədqiqatın mərkəzi mətndir ki, bu da eyni zamanda müxtəlif dillərdə təqdim olunan müxtəlif humanitar mətnlərdən: tarix dili, sənətşünaslıq, sosiologiya və s.-dən məcburi istifadəni tələb edir. Əlavə məlumat mənbəyi olmaqla, əsas mətnin semantik məzmununu, mətni mədəni hadisə kimi şagirdin dərk etməsini zənginləşdirən və korrektə edən bu mətnlər də tələbə tərəfindən şərh olunur. Beləliklə, hermenevtik yanaşma 'canlı' biliyin yaranmasına səbəb olan bilik və şüurun ardıcıl inteqrasiya mexanizminə əsaslanır.Tədris prosesinin inkişaf etdirilməsi imkanlarını və nəticədə şagirdlərin öyrənilən mətnləri dərk etmələrini əhəmiyyətli dərəcədə artırır. Bu yanaşma sayəsində şagird şüurunun inkişafı prosesi təkcə bilik, bacarıq, və nəzəri anlayışlarla məhdudlaşmır.Nəzəri anlayışlardan daha yüksək psixi formasiyalara - şəxsi və mədəni mənalara yüksəlməyə imkan verəcək.

Bu kimi əsaslar tələbənin təlim prosesinə müvafiq metodik texnikanın daxil edilməsini nəzərdə tutur. Ən vacibi isə, müəllimin suallar tərtib edilməsi ,sualın tələbənin özü tərəfindən qoyulmasıdır. Çünki anlama sual, sorğu vəziyyətində həyata keçirilir. Tələbə müəyyən bir anlayış ilə tanış olduqdan sonra sinifdə tələbədən biliyi tətbiq etməyi,həmçinin müstəqil olaraq öz nəzəri konsepsiyasını və mənasını ortaya qoymağı tələb edəcək.

Humanitar fənlərin mətnini adekvat başa düşmək üçün müəllimin funksiyası tələbəyə qeyri-adekvat başa düşülmənin səbəblərini müəyyən etməkdir. Həmçinin problemi müstəqil şəkildə aradan qaldırmaq yollarını öyrənməkdə kömək etməkdir. Səbəblər aşağıdakılar ola bilər: mənanın formalaşdırılmasına mane olan qeyri-kafi söz ehtiyatı, məktəb kurikulumunun materialı üzrə bilik boşluqları; xüsusi terminologiya və ya mətnin ayrı-ayrı sözlərinin mənasını düzgün bilməmək, əvvəlki mühazirələrdən, ayrı-ayrı məşğələlərdən və s., əlaqəli fənlərdən, elmlərdən material haqqında kifayət qədər bilik əldə etməmiş, fənn fəaliyyətinin, əməliyyatların kifayət qədər mənimsənilməməsidir.

Deyilənlərə əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, hermenevtik yanaşma təhsili inkişaf səviyyəsinə qaldırır, inteqral təhsil məkanının yaradılmasına töhfə verir və tələbələrin humanitar mətnləri başa düşməsinin adekvatlığını təmin edir.

Ədəbiyyat
**1.** Həsənova Pərvin Əhməd qızı, Hermenevtıka: anlama və onun rasıonal ıdrakda rolu, Humanitarian Balkan Research. 2019. T.3. № 3(5)
**2.** Бетти Э. Герменевтика *как* общая методология наук *о* духе. М.: Канон+. 2011.144с.
**3**.Менжулова Р.В. Обучение студентов пониманию гуманитарного текста на основе герменевтического подхода в личностно-ориентированном процессе обучения: Диссертация на соискание ученой степени кандидата наук. пед. наук (как рукопись). Ростов-н/Д., 2002.

**XÜLASƏ**

Hermenevtika, fəlsəfənin qədim dövrdən başlamış XX əsrə qədər ki tarixi inkişafın nəticəsi kimi meydana gəlmişdir.Bu məqalədə pedaqoji hermevtikanının tədris təcrübəsində tətbiqi yolları araşdırılmışdır. Hər hansı bir anlamın- mətnlərin qavranılmasının pedaqoji fəaliyyət prosesi zamanı tətbiq edilən hermenevtik üsulları izah etməyə çalışmışıq.

***Açar sözlər:*** *pedaqoji hermenevtika,mətn,humanitar elmlər, tələbə, şərh, anlam.*

**SUMMARY**

Hermeneutics emerged as a result of the historical development of philosophy from ancient times to the 20th century. In this article, the ways of applying pedagogical hermeneutics in teaching practice are investigated. We have tried to explain the hermeneutic methods applied during the pedagogical activity process of understanding any meaning - texts.

***Keywords:*** *pedagogical hermeneutics, text, humanities, student, interpretation, meaning.*

**РЕЗЮМЕ**

Герменевтика возникла в результате исторического развития философии с древнейших времен до XX века.В данной статье исследуются пути применения педагогической герменевтики в педагогической практике. Мы попытались объяснить герменевтические методы, применяемые в процессе педагогической деятельности при понимании любого смысла – текста.

***Ключевые слова:*** *педагогическая герменевтика, текст, гуманитарные науки, студент, интерпретация, смысл.*

## PEDAQOGİKADA HERMENEVTİK YANAŞMANIN KONSEPTUAL ƏSASLARI

**Mirzəyeva Sevinc Tofiq qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Pedaqoji hermenevtika humanitar mədəni hadisələrin idrak metodologiyası çərçivəsində - təkcə elmdə deyil, həm də sosial və fərdi, rasional və emosional-sensor təcrübəyə əsaslanan pedaqoji biliklərin dərk edilməsi və şərhi nəzəriyyəsində yaranan elmi istiqamətdir. Humanitar biliyin metodologiyası kimi, həmçin mətnlərin anlamı ilə bağlı olan hermenevtikanın obyekti sosial-mədəni münasibətlərdə iştirak edən insanlar, subyektləri isə dərketmə prosesini idarə edən mexanizmlər kimi humanitar mədəni hadisələr və mətnlərdir. Qeyd etdiyimiz mətn anlayışını geniş mənada təhlil etdikdə hər hansı nizamlı simvollar sistemi kimi şərh olunur ki, ancaq burada simvollar təkcə yazılı dilin hərfləri deyil, həm də digər simvol və təsvirləri özlüyündə birləşdirir. Bu baxımdan insan fəaliyyəti, şüur və bütövlükdə dünya potensial mətnlər kimi xidmət edir, yaradıcı əks, dərk və şərh gözləyir.

Pedaqogikada hermenevtik yanaşma, mədəni hadisələrin humanist inkişafı metodologiyasını tətbiq etməklə pedaqoji mətnlərinin oxunması və təfsir mexanizminin peşəkar şüura, düşüncə tərzinə və şəxsiyyətə təsiri ideyasına əsaslanır. Bu yanaşmanın tarixi

kökləri XIX əsrdə inkişaf etdirilən ideoloji ənənələrdə yatır: universitet ənənəsi təbiət elmi paradiqmalarına, mənəvi və akademik ənənə isə humanitar elmlərə yönəlmişdir. Qeyd etməliyik ki,bu ideoloji metodların davamlı inkişafı əksliklərin vəhdətinin və mübarizəsinin dialektik qanununa uyğun olaraq həyata keçirilir. Hazırki zamanda pedaqogika və təlim metodlarında humanitar prinsiplərin qorunması və eyni zamanda möhkəmləndirilməsi problemi daimi deyil. Bu məsələnin arxasında onilliklər ərzində müxtəlif kontekstlərdə, ideoloji, siyasi, ümumi və s.problemlər dayanır.

Məsələ burasındadır ki, oxu və şərhin mənası, mütaliə prosesində qurulmuş mənayaratma mexanizmlərinin fəaliyyət növləri və hərəkətləri informasiyanın ötürülməsi və ya qəbulu zərurətindən daha dərin və genişdir. Mütaliənin inkişafının indiki mərhələsi və müvafiq olaraq, intellektual və mənəvi idrak fəaliyyəti kimi, tətbiqi (açıq və ya gizli) münasibətdən asılı olmayaraq ümumi aktiv tərəqqi prosesi ilə mürəkkəbləşir. Yeni informasiya texnologiyaları və humanitar biliklərin kəsişməsində qurulan tədqiqat metodları yetəri qədər öyrənilməmiş və istifadə edilməmişdir.

Hazırki zamanda hermenevtik yanaşma mədəniyyətlə qarşılıqlı əlaqədə olub, xüsusən təhsil sistemlərinin tədqiqatı və layihələndirilməsi proseslərinin humanitarlaşdırılması prosesini qorumaq,həmçinin əsaslı şəkildə müasir tələblərlə inkişaf etmək kimi vacib bir məsələni qarşısına məqsəq qoyub. Pedaqoji hermenevtikanın qeyd etdiyimiz prinsipləri pedaqogikanın metodologiyası üçün vacib əhəmiyyət kəsb edir:

1. bütövlük prinsipi təkcə elmin deyil, həm də dinin, incəsənətin, etnopedaqogikanın, dilin, şəxsi həyat təcrübəsinin pedaqoji reallıqlarının şərh mənbələri kimi qəbul edilməsi, pedaqoji ideyaların incəsənət, din və məişət obrazları ilə əlaqələndirilməsi.

2. vasitəçilik prinsipi, ona görə “İşarə”, “Söz”, “Nişan”, “Mif” pedaqoji biliyin dərk edilməsinin mədəni vasitəçiləridir;

3. mətnin başa düşülməsi üçün qnoseoloji (idrak) və ontoloji (ekzistensial) planların birləşmə prinsipi, rasional izahatın sintezi və intuitiv qavrayış;

4. məna yaratmağın proyektiv və refleksiv prinsiplərinin birləşməsi, dünya biliyinin özünüdərklə, dərketmənin özünü dərketmə ilə birləşdirilməsi və öz daxili aləminə batırılması prinsipi;

5. məna məzmununun formativ xüsusiyyətlərə tabe olması kimi transformasiya olunmuş forma prinsipi; belə transformasiya nəticəsində ilkin məzmunun özü müəyyən transformasiyalara məruz qalır;

6. pedaqoji biliklərin dərk edilməsində zaman amilinin nəzərə alınması prinsipi, ona görə həqiqi pedaqoji biliyin dərk edilməsi onun yaşaması və dünyagörüşü və həyat təcrübəsi sisteminə üzvi (məcburi olmayan) daxil edilməsi prosesində əldə edilir.

Pedaqoji hermenevtikanın qeyd olunan prinsipləri praktiki şəkildə həyata keçirilir.Bu kimi prinsiplərin həyata keçirilməsi üçün elmi, pedaqoji və digər mətnlərin, materialların, pedaqoji prosesin müşahidə zamanı əldə olunan məlumatlarının tədqiqi üçün xüsusi tədqiqat şərh metodları və üsullarından istifadə edilir. Nəzəri və empirik tədqiqat üsullarından aşağıdakıları nümunə göstərmək olar: bioqrafik metod, elmi, publisistik, dini və ya bədii mətnin müəllifi ilə intellektual dialoq, metaforizasiya və demetaforizasiya, terminologiya və reterminologiya, terminologiya və metaforizasiyanın korrelyasiyası,şərhlər konfliktinə səbəb olan, mereoloji çıxarış, terminlərin etimoloji təhlili və bu əsasda tədqiqat, elmi biliklərin şəcərəsi, pedaqoji povestlərin tərtibi, tədqiqat predmetinin təsvirinin paradiqmatik və povest yollarının korrelyasiyası, əks etdirici tədqiqat fəaliyyətinin xarici plana gətirilməsi və elmi-pedaqoji biliklərin şərh variantlarının şifahi tələffüzü, özü ilə dialoq və s.

# DƏRS PROSESİNDƏ İNFORMASİYA MÜBADİLƏSİNİN YARADILMASI VƏ ŞAGİRD FƏALİYYƏTİNİN TƏŞKİL OLUNMASI

**Mürşüdova Günay Mürşüd qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Fəal dərs prosesinin təşkili sistemi bu gün bütün məktəblərdə aktual problemlərdən biridir və bu məsələlərin həlli yolunda təhsil nazirliyi tərəfindən müxtəlif inkişafetdirici təlimlər, kurslar təşkil olunur. Təşkil olunmuş fəal dərs prosesini əhatə edən yeddi mərhələnin hər birinin müəyyən keçirilmə, təşkili qaydaları vardır. Və onların hər biri öz xüsusiyyəti ilə seçilir ki, bunlarda şagird şəxsiyyətinin inkişafına, eyni zamanda tədqiqatçı olaraq böyüməsinə şərait yaradır. Məlumat mübadiləsi mərhələsinin təşkilinə gəlincə, məktəblərdəki yerli şərait göz qabağındadır. Şagirdin inkişafı üçün lazımlı olan vəsait və vasitələrlə təmin olunan məktəbdə təşkil olunmuş dərs də yetərincə qənaətbəxş olar. Aktual məsələlərdən biri də hər bir mərhələnin düzgün təşkil olunması formalarıdır. Dərsin təşkili forması (fərdi, cütlərlə, qrupla, kollektiv) mövzuya əsasən öncədən müəyyən edilir. Və seçilmiş olan formaya əsasən tapşırıqlar öz əksini tapır.

İnformasiya mübadiləsinin yaradılmasınında tədqiqat sualının rolu böyükdür. Mərhələnin təşkili üçün ilk öncə müəllim əvvəlcədən hazırlamış olduğu tapşırıq vərəqlərini şagirdlərə paylayır. Bu vərəqlərdə hazırlanan tapşırıqların hər biri eyni dərəcədə olmalıdır, yəni biri asan, digəri isə çətin olması düzgün deyildir. Hazırlanmış reqlamentlərdə suallar açıq şəkildə və ən əsası aydın şəkildə olmalıdır. Çünki sualı başa düşmək şagirdin zamanını almamalıdır. Əvvəlki keçirilmiş mövzulara da əsaslana bilər. Sualların cavabı qapalı şəkildə yaxud qısa cavabları özündə əks etdirəcək formada qoyulmaması məqsədəuyğun hesab olunur. Reqlamentdə qeyd olunan sualların cavablarını həlli üçün şagirdlərə müəyyən zaman verilməlidir. Çünki dərs saatı müəyyən zaman daxilindədir və bütün mərhələlərin təşkilinə vaxt qalmalıdır.

Əsas məsələlərdən biri məlumat mübadiləsi zamanı mütləq sinifdə səs-küy yaranır. Bu məsələ problemli bir vəziyyət deyildir. Bunu işgüzar səs-küy adlandırırıq. Belə bir halın yaranmaması üçün nəzarəti əldən vermək olmaz. Çünki yaranmış səs-küy digər şagirdlərin fikrini tapşırığın həllinə yönləndirməkdən yayındıra bilər. Belə hallar yaranan zaman şagirdlərə nizam intizam qaydalarına riayət etmələri lazım olduğunu bildirmək lazımdır. Yaxşı olardı ki, müəllimlər belə qaydalarla öncədən şagirdləri məlumatlandırsınlar.

Mübadilənin təşkili üçün mühit yaradılması əsas şərtlərimizdən biridir. Beləki, şagirdlər üçün məlumatın, biliyin əlçatanlığını asanlaşdırmaq lazımdır. Əgər hazırlanmış reqlamentdə suallar dərslikdə öyrənilən biliklərdən kənardırsa, bu zaman şagird həmin biliyə sahib olacaq mənbə ilə öncədən tanış olmalıdır. Çünki məlumatsız olmaqları artıq vaxt itkisinə səbəb olacaqdır. Şagirdlərin tapşırıq vərəqindəki sualların həlli üçün lazım olan mənbələrlə təmin olunmaları vacibdir. Belə mənbələr hər hansı ensiklopediya, jurnal, qəzet, dərs vəsaiti, atlas və s. Ola bilər. Ancaq şagirdləri nəzarət etmək bu mərhələdə vacibdir, çünki bəzən şagirdlərin tapdıqları məlumatları tapşırıq vərəqlərini köçürürlər. Bu halın düzgün olmadığı hər birimizə məlumdur. Bunun üçün şagirdlərə mənbələrdən istifadə bacarıqları öyrədilməlidir. Müəllimin dərsdə bir fasilitator olduğunu unutmamaq lazımdır, o şagirdlərin tapşırıqlarının həlli üçün yol göstərməli, hansı mənbədən istifadə etmələri lazım olduğunu və necə istifadə edəcəklərini söyləyə bilər.

Mərhələnin təşkilində lazımlı olan məsələlərdən biri də fəallığın təmin edilməsidir. Müasir dövrün tələbi şagird fəallığına əsaslanan dərs olduğu üçün hər bir şagirdin dərs prosesində fəal iştirak etməsi üçün şərait yaradılmalıdır. Bunun üçün şagirdlər bir-biri ilə əməkdaşlığı təmin etməlidir. Bildikləri və əldə etdikləri bilikləri bir-biri ilə bölüşməyi bacarmalıdır. Mərhələdə şagird fəaliyyəti odur ki, kənarda şagird qalmasın, əgər tənbəl şagird olarsa onu yaxşı oxuyan şagirdlərin arasına salmaq daha düzgün olar. Çünki belə şagird

həvəslənə bilər, ən azı şagird yoldaşlarından bilik əldə edə bilər. Bundan əlavə əməkdaşlıq etmək kimi bacarıqları da formalaşmış olar.

Bu mərhələ şagirdə nitq bacarıqlarının da inkişafına köməklik edir, hansı ki, şagirdlər hazırladıqları reqlamentləri təqdim etdikləri zaman ortaya çıxır. Zamanla şagirdlər öz fikirlərini azad ifadə etmək bacarıqlarına sahib olurlar. Onların irəli sürdükləri fərziyyələr doğru olmaması baxımdan yaratmış olduğu qorxunu yox etməyə yönlənirlər. Bu da təbii ki müəllimin pedaqoji ustalığına, yaradıcılığına əsaslanır. İnformasiya mübadiləsi mərhələsi elə bir mərhələdir ki, həm şagirdin biliklərini inkişaf etdirir, həm yeni biliklər əldə etməyə şərait yaradır, həm də onların təfəkkürünün inkişafında mühüm rol oynayır.

Tapşırıqların həllinə ayrılan zaman bitdikdə müəllim vaxtın bitdiyini elan edir və şagirdlər öz təqdimatlarının nümayişinə başlayırlar. Bu hal qrup liderləri tərəfindən aparılır. Liderlər dərsin əvvəlindən seçilir və onlar öyrəndikləri bilikləri sinif yoldaşları ilə bölüşürlər. Hazırladıqları tapşırıq vərəqlərini lövhədən asırlar. Təqdimata başlayan qrup lideri ilk öncə özünü təqdim edir. Ən əsası danışarkən təkcə üzünü müəllimə tutmur. Eyni zamanda sinif yoldaşlarını həm də sinifi nəzərdən keçirməlidir. Bu zaman digər şagirdlərində fikri nümayiş edən şəxsə yönlənmiş olur. İş vərəqindəki məsələləri planlı danışmaq və eləcə də həmin məsələni nə üçün öyrəndikləri deməyi digər şagirdlərdə marağa səbəb olacaqdır.

Əgər təqdimat zamanı şagirdlər sırasında kimsə danışılan haqqında heçnə anlamazsa bu zaman həmin hissəni dəftərində qeyd etməlidir və lider şagird təqdimatını yekunlaşdırdıqdan sonra müzakirə aparılmalıdır. Çünki təqdimatın yarımçıq dayandırılıb sual verilməsi fikrin yayınmasına eyni zamanda artıq zaman itkisinə gətirib çıxara bilər. Bəzən təqdimat edənin səsi aşağı tonda olduğu üçün bütün şagirdlər həmin səs tonunda eşidə bilmir. Belə bir hal olduqda müəllimə əlini qaldıraraq xəbər etmək olar. Bunu şagirdə nəzakətlə söyləyə bilərik ki bir qədər uca səslə danışsın.

Bu mərhələnin təşkilində yaranan səhvlər çoxdur. Bəzən bu müəllimlərin təqdimatı bir rəsmiyyət şəklində dinləməsinin də şahidi oluruq. Belə ki müəllimlər ya şagirdləri sıra ilə danışdırır. Bununla da mübadilə üçün zaman qalmır. Bəzən isə müəllim təqdimatı bölərək şagirdin etdiyi səhvləri bildirir. Belə hallar düzgün deyildir. Bunun üçün müəllim bütün təqdimatları dinləyir və onların etdikləri səhvləri qeyd edir. Sonda müzakirə zamanı həmin səhvləri istəsə şagirdlərin nə dərəcədə dəqiq dinlədiklərini anlamaq üçün onlara da sual verə bilər. Və bunu şagirdləri qiymətləndirmədə istifadə edə bilər.

Hər bir mərhələnin düzgün təşkili və şagird şəxsiyyətinin formalaşdırılmasına yönləndirilməsi müəllimin pedaqoji bacarıqlarının ustalığının nəticəsidir. Müasir dərsin bütün mərhələlərinin özünəməxsus xüsusiyyətləri vardır və onlarında təşkili zamanı yaranan səhvləri aradan qaldırmaq yenə də biz müəllimlərin bacarığının nümayişidir.

## ŞAGİRDLƏRDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN FORMALAŞMASINDA FİZİKİ TƏRBİYƏ PROSESİNİN ROLU

**Namazov Kənan Vüqar oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Vətən müharibəsində 44 günlük gərdin döyüşlər zamanı gənclərimizin göstərdiyi ağlasığmaz şücaət bir daha sübut etdi ki, onların vətənə, torpağa bağlılığı hansı səviyyədədir. Ölümün gözünə dik baxan gənclərimiz əzmlə və mərdliklə özlərini odun-alovun qucağına atdılar. Onlar mənfur düşmənin illərdi yaratdığı mifologiyasını, vətəninə sevgilərinin gücü ilə darmadağın etməyi bacardılar. İkinci Qarabağ müharibəsində ölkəmizin qalib olması bir daha sübut etdi ki, məktəblərdə pedaqoji tərbiyə zamanı gənc şagirdlərdə vətənpərvərlik hisslərinin aşılanması yüksək səviyyədə aparılmışdır. Lakin bu şanlı qələbəmiz bizi heç bir halda

arxaynlaşdırmağa sövq etməməlidir. Çünki, düşmən məğlub olub ancaq hələdə tam məhv edilməyib.

Hərbi-vətənpərvərlik tərbiyəsi şagirdlərin vətənpərvərlik tərbiyəsi ilə sıx bağlılıq təşkil edir. Belə ki, bütün mövcud, əlçatan formalar ilə gələcəkdə vətənimizin müdafiəçiləri olacaq gəncləri vacib mənəvi-psixoloji keyfiyyətlər ilə təmin edir. Göründüyü kimi vətənimizin müdafiəçilərinin hazırlığı vəzifələri orta təhsil ocaqlarında pedaqoqlar qarşısında duran böyük və məsuliyyətli bir işdir. Vətənpərvərlik tərbiyəsinin digər əsas istiqamətlərindən biri isə, hər şeydən əvvəl əlbəttə ki, hərbi-idman oyunlarıdır. Bu oyunların praktiki əhəmiyyəti böyükdür və hərbi-vətənpərvərlik tərbiyəsi sisteminin bütün komponentlərinin qarşıya qoyduğu vəzifələrin tam həllinə imkan yaradır. "Şahin" hərbi-idman oyununun aparılması təcrübəsi şagirdlərin fiziki və hərbi-vətənpərvərlik tərbiyəsinin bu formasının aktuallığını və vacibliyini həmişə sübut etməkdədir.

Hazırda məktəb islahatlarının qərarları şagirdləri vətənpərvərlik, o cümlədən hərbi-vətənpərvərlik ruhunda tərbiyə etmək ideoloji işin mühüm istiqamətlərindən biri kimi qarşıya qoymuşdur. Belə ki, şagirdlərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə etmək vətənimizin müdafiəsini artırmağa böyük köməkdir. Respublikamızın məktəblərində səmərəli təşkil edilən fiziki tərbiyə prosesində şagirdlər mənəvi keyfiyyətlər əldə edərək vətənpərvər insana xas şüur, ideya, əqidə və vərdişlər mənimsəyirlər. Şagirdlərə Azərbaycan idmançılarının Olimpiya oyunlarında dünya birinciliyi uğrunda keçirilən yarışlarda qazandıqları böyük qələbələrdən söz açıb,bütün idman növləri üzrə ən qüvvətli idmançılar olduğu barədə məlumat vermək, həmişə vətənimizin idman şərəfinin fərasətlə qoruyub dünyada ən yüksək pillədə saxlayan idmançılar haqqında faktlar söylədikdə onlarda vətənpərvərlik hisslərinin qüvvətləndirməyə kömək edir. Bu faktlar şagirdlərdə onları vətənimizin şöhrəti ilə fəxr etmək, qürur hissi keçirmək kimi yüksək mənəvi vəziyyətlər formalaşdırır, əsil vətənpərvər olmaq əqidəsi tərbiyələndirir. Fiziki tərbiyə şagirdlərdə hərbi-vətənpərvərlik hislərini inkişaf etdirməkdə xüsusi əhəmiyyətə malikdir. Ölkəmizdə böyüyən gənc nəslin hərbi hazırlıq səviyyəsi nə qədər yüksək olarsa, vətənimizin hərbi qüdrəti və təhlükəsizliyi bir o qədər artar. Şagirdləri hərbi vətənpərvərlik ruhunda tərbiyə etməyin zəruliliyi ondan ibarətdir ki indi erməni lobbisi xüsusən qonşu Ermənistan Respublikası millətçiləri Azərbaycan torpağı və sərvətlərini işğal etmək iddiası ilə yaşayır, anti Azərbaycan təbliğatı aparır, Azərbaycanın Ermənistan ila olan sərhədlərində müharibə, qanlı qırğınlar edir sülh və azadlığın tarixi üçün ciddi təhlükə və qorxu törədirlər. Buna görə xalqımız gənc nəslin vətənin müdafiəsinə ləyaqətlə hazırlanması işinə xüsusi fikir verir. Ölkəmizdə hər bir gəncin həqiqi həyat qurucusu, öz vətəninin və öz onun nailiyyətlərinin müdafiəsi olmasında ötrü,hər şeydən əvvəl,onun fiziki və mənəvi cəhətdən sağlam qüvvətli ,çevik və iradəli , həm də müəyyən hərbi fiziki hazırlığa malik olmasa lazımdır. Təcrübə göstərir ki, məktəbdə yaxşı mənimsənilmiş ayrı- ayrı idman növləri (məsələn, üzmək, qaçmaq, güləşmək, boksla vurub yıxmaq, atmaq, tullanmaq və s ) döyüşdə çox vaxt adamın işinə yarayır və qələbənin rəhninə çevrilir.

Gənc nəslin vətənin müdafiəsi işinə hazırlanmasında üzgüçülük idmanı imkanlarından geniş istifadə edilir. Şagirdlər vətənin müdafiəsinə həsr edilmiş kino filmlərə baxarkən görürlər ki, vətən uğrunda döyüşlər bir çox hallarda dənizdə və çay sahillərində baş verir. Belə hallarda döyüşçünün üzməyi yaxşı bilməsi bəzən böyük qəhrəmanlıq göstərmələrinə səbəb olur. Əksinə üzməyi bacarmayanlar suda düşmən kimi qatıb həlak olurlar.

Vətənpərvərlik tərbiyəsi ilkin olaraq ailədən, məktəbəqədər tədris müəssisələrindən başlanır, məktəbdə isə formalaşıb, inkişaf edir. Həyatını xalqına, vətəninə həsr etmiş ümummilli lider Heydər Əliyev haqlı olaraq deyirdi: "Kim siyasi müxalifətdə durursa dursun, ancaq vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın". Vətənpərvərlik tərbiyəsi deyəndə böyük öndər Heydər Əliyev heç də müasir gəncliyi silaha sarılmağa, hansısa ölkəni işğal, zəbt etməyə səsləmirdi. Onun vətənpərvərlik tərbiyəsi çağırışı qarşısında böyük hərflərlə yazılmış sülhsevərlik dayanırdı. 1996-cı ildə keçirilən Atlanta Olimpiyadasında Azərbaycanı 23 nəfər idmançı təmsil edirdi. Bu idmançıları ümummilli lider

Heydər Əliyev Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevlə birgə qəbul etdi. Həmin görüşdə ulu öndər çox səmimi şəkildə üzünü idmançılara və televiziya tamaşaçılarına tutub dedi: "Uşaqlar, siz beynəlxalq olimpiya yarışına gedirsiniz. Əvvəla, hamınıza uğurlar arzulayıram. Ikincisi, idman idmandır, iki güləşənin biri yıxılmalıdır. Bax, qələbə əzimli olsanız da uduzan tərəflərinizi də görməlisiniz. Bir də ki, bu yarışa siz yeniləşən müstəqil Azərbaycanın vətəndaşı kimi gedirsiniz. Mən daim Azərbaycanı sevmişəm və Azərbaycanlı olmağımla fəxr edirəm. Mənəviyyat tərbiyəsini qiymətləndirmək üçün uşaqlarda yaxşını pisdən ayırmaq, həqiqətə, ədalətə, insanlara-böyüklərə, ailə üzvlərinə hörmət etmək kimi insani keyfiyyətlər aşılanmalıdır. Onların davranış xüsusiyyətlərini uyğun qiymətləndirməli, yaxşı davranış və qarşılıqlı əlaqə təmin olunmalıdır. Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğu inkişaf etdikcə vətənpərvərlik tərbiyəsinə, o cümlədən böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilməlidir. Dediklərimizi ümumiləşdirsək aydın olur ki, səmərəli təşkil edilən fiziki tərbiyə məşğələləri şagirdləri vətənpərvərlik ruhunda böyüdərək, onlara hərbi vətənpərvərlik hisləri və keyfiyyətləri formalaşdırır.

Ədəbiyyat

1. X.Fətəliyev. Orta ümumtəhsil məktəblərində hərbi-vətənpərvərlik tərbiyəsinin nəzəriyyə və praktikası. Bakı, 1991. 1.8. Ş.Nəzərli. Azərbaycan generalları. Bakı, 1991.
2. İ.B.Əsgərov. Hərbi vətənpərvərlik tərbiyəsinin əsasları. Bakı, 2000.
3. H.Əliyev və Azərbaycanda Olimpiya hərəkatı. Bakı, 2002.
4. Fuad Əliyev, Müasir mərhələdə vətənpərvərlik tərbiyəsi.

## FİZİKANIN TƏDRİSİNDƏ FƏAL İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏNİN BƏZİ MƏSƏLƏLƏRİ

**Nəbiyeva Elnarə Vüqa rqızı**
*Azərbaycan Dövlət Pedaqoji Üniversiteti*

Pedaqoji aləmdə aparılan uzun müddətli tədqiqatlar, axtarışlar problemli və inkişafetdirici təlimin praktikada tətbiqini həyata keçirdiki, bu da yeni-fəal/interaktiv təlim adlanan metodların yaranmasına təkan verdi.Fəal təlim metodu-şagirdlərin idrak fəaliyyətinin mütəşəkkil təşkili və idarə olunması prosesidir.Bu metodun əsas üstünlüyü real-idrak motivasiyasının yaranmasıdır ki,bu da idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gerçək ziddiyətlərin həlli imkanlarına əsaslanır. Çox vaxt fəal təlim anlayışı ilə yanaşı "interaktiv təlim metodları" anlayışındanda istifadə olunur.İnteraktiv sözü ingiliscə inter-qarşılıqlı, birgə,akt-fəaliyyət göstərmək deməkdir. Bu iki söz ya insan, ya da texnika (İKT) ilə dialoq rejimində qarşılıqlı fəaliyyətdə olmaq bacarığını bildirir. Deməli interaktiv təlim , hər şeydən əvvəl,dialoqlu təlimdir .Onun gedişində müəllim və şagirdin qarşılıqlı fəaliyyəti həyata keçirilir.Müəllim bilikləri ötürən rolundan imtina edir və yeni-bələdçi (fasilitator) vəzifəsini yerinə yetirir.Beləliklə,interaktiv təlim –şagirdlərlə birgə fəaliyyət formasını həyata keçirən təfəkkür prosesidir. Son vaxtlar fəal/interaktiv təlim metodlarına maraq hədsiz dərəcədə artmişdır.

Bunun əsas səbəb: Birincisi,dünyada baş verən demokratikləşmə prosesi; İkincisi, öyrənənlərin fəallaşdırılması,motivasiyası probleminin praktik həllinin zəruriliyi; Üçüncüsü,müasir təhsilin həll etdiyi məsələlər ilə əlaqədardır.Hazırda tədris prosesində geniş yayılmış ənənəvi,fəal və interaktiv təlim ifadələrinə və təlim formalarına tez-tez rast gəlmək olur.Belə ki, ənənəvi təlim biliklərin reproduktiv üsulla verilməsinə əsaslandığından müəllim-şagird birbaşa əlaqə kanalı həmişə aktiv olur və bütöv xətlə göstərilir. Şagirddən- müəllimə yönəlmiş əlaqə kanalı isə passiv olur. Fəal təlim metodunda isə müəllimdən-şagirdə və şagirddən- müəllimə hər iki kanal aktivdir.Şagird istənilən anda müəllimdən müvafiq

məsləhətlər alaraq müstəqil işini davam etdirə bilir.Fəal/interaktiv təlim metodunda isə qeyd edilən hər iki təlim formasından fərqli olaraq müəllim-şagird-şagird əlaqələri aktiv fəaliyyətdə olur.Fəal interaktiv təlimin əsas prinsipləri qarşılıqlı dialoqa,əməkdaşlıq əsasında kiçik qruplarla işin təşkilinə, fəal rollu oyuna və təlimdə treninqin təşkilinə əsaslanır və bu zaman bu didaktik prinsiplərə riayət olunması önəmli hesab edilir.

Pedaqoji prosesin tamlığı; Şagirdyönümlülük; Təlimdə bərabər imkanların yaradılması;İnkişafyönümlülük;Fəaliyyətin stimullaşdırılması; Dəstəkləyici mühitin yaradılması.Fəal/interaktiv təlimin prinsiplərini aşağıdakı şəkildə sistemləşdirmək olar:İnkişaf etdiricilik;Qabaqlayıcı təlim;Əməkdaşlıq;Qrup təlimi;İstiqamətlilik; Təlimdə çeviklik; Dialoji təlim. Fəal təlimin aşağıdakı iş formaları vardır: Fərdi iş;Cütlərlə iş; Qrup işi; Bütün siniflə iş. Fizikanın tədrisində daha çox istifadə olunan fəal təlim metodlarından biridə "KWL-BIBÖ" – dur.Tədris prosesində keçmiş və yeni biliklər arasında yaranan əlaqə,yeni mövzunun asan öyrənilməsini təmin edir."KWL-BIBÖ" metodu şagirdlərin mövzu ilə əlaqədar əvvəlki təcrübəsini nəzərdən keçirməyə və dərsdəki cavablarına əsasən sualları formalaşdırmağa imkan verir.Eyni zamanda bu metod nəyi bilirik,nəyi bilmək istəyirik,nəyi öyrənmişik və nəyi hələ də öyrənməliyik suallarına tam cavabın verilməsini təmin edir.Bu üsul dərsin üç mərhəsini özündə birləşdirir (düşünməyə yönəltmə,dərketmə və düşünmə).1.Şagirdləri cüt-cüt bölərək mövzu ilə əlaqədar əvvəlki biliklərinə dair siyahını tərtib etmək tapşırılır.2.Şagirdlər siyahı üzərində işləyərkən müəllim lövhədə üç sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir:"Biz artıq nəyi bilirik","Biz nəyi bilmək istəyirik","Biz nə öyrəndik".Birinci sütunda keçilən mövzuya dair nələri bilirik sualının cavabları araşdırılır və "Bilirik" sütununun altında qeyd olunur.Eyni qayda ilə bilmək istədiyimiz suallar "İstəyirik bilək" qrafasının altında qeyd olunur."Öyrəndik" qrafasında alınan cavablar qeyd olunur və təkrara yol verilmir.Təlim metodu dedikdə,konkret məsələnin həllində müəyyən məqsədə çatmaq üsulu başa düşülür.

Bu baxımdan Fəal/interaktiv təlim metodlarına:evristik müsahibə, təqdimatlar, diskusiya, "beyin həmləsi", "dəyirmi stol" metodu, "işgüzar oyun "metodu, praktik işlərin müsabiqəsi və müzakirəsi, rollu oyunlar,treninq, yaradıcı məsələlərin kollektiv həlli,keys metodu,praktik fərdi və qrup tapşırıqları,istehsalat proseslərinin və vəziyyətin modelləşdirilməsi,illüstrativ materiallar,xüsusi video yazının müzakirəsi,kompüter texnikasından təlim prosesində istifadə problemlərini və.s aid etmək olar. Fəal/interaktiv təlim texnologiyası tədris materiallarının elə öyrədilməsi sistemidir ki,bu zaman şagirdlərin qarşısına problem qoyulur,onlarda həmin problemi həll etmək tələbatı yaradılır.Deyilənlər göstərir ki,fəal/interaktiv dərslər aşağıdakı kimi mükəmməl təşkiledici komponentlərə malikdir.

a)problemli şəraitin yaradılması;
b)şagirdin tədqiqatçı,müəllimin isə bələdçi olması;
c)dialoq və əməkdaşlığın zəruriliyi;
d)psixoloji dəstək:hörmət və etibar.

## X SİNİFDƏ FİZİKANIN SƏMƏRƏLİ TƏDRİSİNDƏ İKT ƏSASLI TƏDQİQAT TEXNOLOGİYASININ MAHİYYƏTİ, MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

**Nəsibova Ləman Aqil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

XX əsrin ortalarından elm və texnikanın sürətlə inkişaf etməsi yeni texnologiyalardan istifadə etməyi tələb edirdi. Bunlardan İKT görmə vasitəsilə informasiyanın qəbulunun imkanlarını artırır, gözlə görünməyən, rəng və formasını dəyişən əşyaların təsvirini reallaşdırır. Həmçinin İKT-dən istifadə müasir müəllimə elm və metodik – elmi məlumatları əldə etməyə kömək edir, geniş məlumat sistemlərindən istifadəyə yol açır. Fizika fənninin məntiqi quruluşu, proqram və kurikulumlardakı reallıqlar İKT – nin tətbiqinə geniş imkan

verir. Fizikanın tədrisində İKT – nin tətbiqi dərslərin modelləşdirilməsini, fərdi yanaşmanı, əyaniliyi və istənilən formalı əks - əlaqəni həyata keçirməklə müasir təlim metodlarının, fəal/interaktiv təlimin tətbiqinə geniş imkanlar açır.

Fizikanın tədrisində kompüter texnologiyasından istifadə təlim-tərbiyə prossesində öyrənmənin predmeti, pedoqoji idarəetmə komponenti, elmi - pedoqoji fəaliyyət vasitəsi kimi funksiyalar daşıyır. Bütün bunlar şagirdlərdə müxtəlif cihazlarda işləmə bacarığının formalaşdırılması, eksperimental tədqiqat fəaliyyətinin reallaşdırılması, fiziki hadisə və proseslərə dair informasiyaların toplanması, onlar üzərində əməliyyatların aparılması və nəticələrin ümumiləşdirilməsi ardıcıllıqla istifadəsini təmin edir. Müasir kompüter texnikası dərsdənkənar vaxtlarda öyrənənlərin fərdi işlərinə nəzarəti, tədris materialın hər bir şagirdin xüsusiyyətlərinə uyğun adaptasiyasını təmin etmək kimi problemləri həll edir. Fiziki hadisə və proseslərin mənimsənilməsi bir başa müşahidə vasitəsilə həyata keçirildikdə daha yadda qalan olur. Əyanilik təlimin əsas prinsiplərindən olub idrak prosesinin ilkin momentidir. Şagirdlər gördükləri haqqında düşünür müşahidədən mücərrəd təfəkkürə, daha sonra qavranılacaq nəzəri biliklərin praktik sahələrini öyrənirlər.

Təlimdə tədqiqat texnologiyası ilk dəfə Rusiyada XVIII əsrin ikinci yarısından istifadə edilməyə başlanmışdır. Burada əsas məsələ öyrənənlərin elmi dünyagörüşünün formalaşdırılması, təfəkkürün inkişafı və idrakı müstəqilliyidir. Tədqiqat texnologiyasının mahiyyəti öyrənənlərin müstəqil fəaliyyətindən ibarətdir. Bu texnologiyadan istifadənin əsas məqsədi şagirdlərdə yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması və gücləndirilməsi, onların yaradıcı və tətbiqi fəaliyyətə cəlb olunması formalarının inkişaf etdirilməsindən ibarətdir. Tədqiqat texnologiyalarından istifadə zamanı bir sıra bacarıqlar formalaşır. Bu bacarıqlara: problemi görmək, sual vermək, fərziyyəni söyləmək, təsnifatlaşdırmaq və s. aiddir. İKT əsaslı tədqiqat texnologiyaların ümumtəhsil məktəblərində səmərəli tətbiqi təlimin fundamentallaşdırma, informatlaşdırma, sosiallaşdırma və ekologiyalaşdırma kimi fundamental pedaqoji problemlərin həllinə yönəldilməlidir.

Fizikadan eksperimentin yerinə yetirilməsində tədqiqat işindən istifadənin üstünlüyü özünü daha yaxşı biruzə verir. Eksperimentin aparılması zamanı şagird yüksək səviyyədə fəallıq və müstəqillik göstərir, fiziki cihazlarla iş zamanı bacarıqla ölçmə və müşahidələr apararaq nəticənin işləyərək yerinə yetirir, onu emal edərək bacarıq və vərdişlərə çevrilməsinə nail olur.

Təlimdə tədqiqat texnologiyasının əsaslarını isə öyrənilən materialın məzmunu ilə təlimin metod və forması, tədris işinin təşkilatı forması arasındakı qarşılıqlı əlaqə təşkil edir. Tədqiqat texnologiyasının əməli əsasını: elm - təhsil, axtarıcı - yaradıcı fəaliyyət təşkil edir.

Tədqiqatlar nəzəri və empirik olmaqla iki yerə bölünür.

1. Empirik fəliyyətə: müşahidə, eksperiment, sorğu, anket sorğusu və idraki fəallıqla əlaqədar alınan nəticələr daxildir.

2. Nəzəri tədqiqatlar obyektiv reallığın hərtərəfli dərk edilməsinə istiqamətlənməklə, qoyulmuş faktların izahını tələb edir, idrakın məntiqi üsullarına (*analiz, sintez, analogiya, ümumiləşdirmə, müqayisə, təsnifatlaşdırma, induksiya, deduksiya, modelləşdirmə*) istinad etməklə nəzəri bilikləri formalaşdırır.

Tədqiqat problemi öyrənənlər üçün tanış və əhəmiyyətli olan real həyatdan götürülməlidir.

Təlimdə tədqiqat texnologiyasından istifadə bu gün təhsilin ən mühüm tələblərinə cavab verir. Tədqiqat fəaliyyəti şəxsiyyətyönümlü təlim texnologiyasının təcrübəsini daha da zənginləşdirir.

Təlimdə tədqiqat texnologiyası planlaşdırmadan istifadəni tələb edir. Tədqiqatın bir sıra zəruri mərhələləri vardır:

- Tədqiq olunacaq mövzunun təyini, onun formalaşdırılması;
- Tədqiq olunan problemin kifayət qədər tam açılmasına imkan verən sualların işlənməsi;

- Oxunması mütləq nəzərdə tutulan ədəbiyyat siyahısının tərtibi;
- Ədəbiyyatın oxunması;
- Faktiki materialın toplanması.

Tədqiqatının subyektiv yeniliyi, öyrənənlərdə güclü idrakı fəaliyyəti və fəal həyat tərzinin formalaşdırılmasında böyük rol oynayır. Təlimdə tədqiqat texnologiyası şagirdi hazır informasiyaları qəbul edən passiv təlabatçıya deyil, təfəkkür prosesinin yaradıcı iştirakçısına çevirir. X sinifdə fizika kursu üzrə aparıla bilən tədqiqatlara nümunə: 2 ədəd eyni ölçülü yumurta götürün (biri soyutma bişirilmiş, digəri çiy). Onlara eyni zamanda boşqabda fırlanma hərəkəti verin (eksperimenti yumurtaları ipdən asmaqla da aparmaq olar). Hansı yumurta fırlanma hərəkətini dayandırar : çiy, yoxsa bişmiş ? Nə üçün?

## ALİ MƏKTƏBLƏRDƏ QƏDİM DÜNYA TARİXİ KURSUNUN TƏDRİSİNDƏ TƏDQİQAT METODLARINDAN İSTİFADƏNİN DİDAKTİK VƏ PSİXOLOJİ ƏSASLARINDAN İSTİFADƏ TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN VASİTƏSİ KİMİ

**Nəsirov İsmayıl Kamil oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ali məktəblərdə qədim dünya tarixinin tədrisində sənədlərin təhlili, tarixi simulyasiyalar, rollu oyunlar debatlar və.s kimi fəaliyyətləri birləşdirərək geniş yer vermək səmərəli bir üsul kimi sınaqdan keçirilə bilər. Məsələn, tələbələr qədim mətnlərdən və ya yazılardan çıxarışları təhlil edə, arxeoloji tapıntıları şərh edə və ya interaktiv hekayə təlimləri vasitəsilə tarixi hadisələri yenidən qura bilərlər. Tələbələrin araşdırması üçün tarixi sirləri, mübahisələri və ya cavabsız sualları təqdim edən tədqiqat layihələri hazırlamağa sövq etmək lazımdır. Tələbələrə tədqiqat suallarını necə tərtib etmək, ədəbiyyat təhlili aparmaq, sübut toplamaq və arqumentlər qurmaq barədə təlimat verilməli, və eyni zamanda onlar öz həmyaşıdları ilə əməkdaşlıq etməyə və tədqiqat prosesi boyunca müəllimlərdən rəy almağa təşviq edilməlidir. Tələbələr inkişaf etdikcə onlara verilən tapşırıqların mürəkkəbliyini tədricən artıraraq, onlardan orijinal tədqiqatlar aparmağı, ilkin mənbələrlə əlaqə saxlamağı və tarixi hadisələrin öz şərhlərini inkişaf etdirməyi tələb etmək olar. Tələbələr tədqiqat prosesi üzərində düşünməyə, güclü və zəif tərəflərini müəyyən etməyə və təkmilləşdirmə üçün hədəflər qoymağa həvəsləndirilməli, hesabatlılığın inkişafını təşviq etmək üçün həmyaşıdların nəzərdən keçirilməsi və özünü qiymətləndirmə imkanları təmin edilməlidir.

Müxtəlif öyrənmə üsullarını və üstünlükləri uyğunlaşdırmaq üçün müxtəlif resurslardan istifadə etmək daha səmərəlidir. Buraya yazılı, vizual, audio və interaktiv formatlardakı ilkin və ikinci dərəcəli mənbələr, həmçinin, digər rəqəmsal alətlər daxil ola bilər. Tarixi tədqiqatlarda rəqəmsal resursları tənqidi qiymətləndirmək və etik cəhətdən necə istifadə etmək barədə təlimatlar verilməlidir. Tələbələrdən yaxşı dəstəklənən arqumentlər yaratmaq üçün tarixi sübutları təhlil etməyi, şərh etməyi və sintez etməyi tələb edən tapşırıqlar hazırlamaq məqsədəuyğun hesab olunur. Tənqidi düşünmə bacarıqlarını inkişaf etdirmək üçün strukturlaşdırılmış debatlar, nümunə araşdırmaları və birgə layihələr üçün imkanlar təmin edilməlidir. Tələbələrə qədim dünya tarixinin daha geniş çərçivəsi daxilində şəxsi maraqları olan mövzuları araşdırmaq imkanı verilməlidir. Tələbələri tarixi mövzuları və hadisələri müasir problemlərlə əlaqələndirməyə həvəsləndirirərək, mövzuya dair maraq və aktuallıq yaratmaq lazımdır. Tədqiqat mövzularının seçilməsində müstəqillik və çeviklik təmin edilməli, tələbələrin intellektual maraqlarına uyğun gələn tədqiqat sualları seçilməlidir.

Qeyd olunanları həyata keçirməklə pedaqoqlar təkcə tələbələrin qədim dünya tarixini dərk etmələrini deyil, həm də əsas tədqiqat bacarıqlarını, tənqidi düşünmə qabiliyyətlərini və onlara sinifdən kənarda xidmət edəcək daxili motivasiyanı inkişaf etdirən dinamik və cəlbedici öyrənmə mühiti yarada bilərlər.

Ədəbiyyat
1. Nəzərov.M, Quliyev.N, Nəzərova.X, “Pedaqoji texnologiyalar”, dərs vəsaiti, Bakı-2020.
2. Əmirov M. M, “Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası”, Dərs vəsaiti. D: “ADPU-nun nəşriyyatı” 2014
3. Rüstəmov F, Dadaşova T, “Ali məktəb pedaqogikası”, dərslik, Bakı – “Nurlan” – 2007

# TAM ORTA TƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏDQİQATIN APARILMA METODLARINDAN İSTİFADNİN VACİBLİYİ

**Nəsirova Sevinc Ramil qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Son illər təhsil tariximizdə yüksək inkişaf, bütün sahələrdə islahatların daha da dərinləşməsi dövrü kimi xarakterizə olunur, təhsil sektorunun inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biri biri kimi nəzərə alınır.

Məlumdur ki, təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşması müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx əlaqə mövcuddur. Bu səbəbdən son illərdə müəllim nüfuzunun, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı insanların müəllim peşəsinə cəlb edilməsi istiqamətində ciddi addımlar atılmışdır.

Tədqiqatlarda təhsilin inkişafına təsir edən amil təhsilalanı əhatə edən ətraf mühit göstərilir. Həqiqətən də şagirdin, tələbənin hansı mühitdə, kimlərin əhatəsində olması, kimlərlə ünsiyyət qurması onların formalaşması və inkişafına həlledici təsir göstərir. Bu sıralamada əsas yerlərdən birini də informasiya amili tutur, yəni təhsilalan hansı mənbələrdən, hansı məzmunda informasiya alır və bu informasiya onun üçün nə dərəcədə faydalı və zəruridir. Nə qədər qəribə və maraqlı olsa da, aparılan tədqiqatlara əsasən təhsilin inkişafına təsir edən amillər içərisində məktəb və müəllim sonuncu yerdə dayanır. Bu baxımdan, belə bir fikrə gəlinir ki təhsilin inkişafına cəmiyyətin hər bir üzvü öz töhfəsini verməlidir.

Coğrafiya fnninin məzmununda nəzəriyyə və faktların nisbətinin müəyyən edilməsi, fiziki və iqtisadi coğrafi biliklərin inteqrasiyası, siniflər üzrə coğrafi məzmunun seçilməsində ölkəşünaslıq prinsipinə əsaslanması, yeni coğrafiya proqramının nəzəri məsələlərinin hərtərəfli öyrənilməsindən ibarətdir.

Coğrafiya fənninin ümumtəhsil məktəblərində tədris olunmasının başlıca məqsədi şagirdlərdə dünya ölkələrinin, Azərbaycanın təbii şəraiti, təbii ehtiyatları, əhalisi və demoqrafik vəziyyəti, dünya ölkələri ilə müqayisədə Azərbaycanın iqtisadi və sosial-coğrafi xüsusiyyətləri, qloballaşma prosesində iştirakı barədə təsəvvürlər yaratmaqla inkişaf etdirməkdən ibarətdir.

Coğrafiya elminin nəzəri məsələləri coğrafiya təlim metodlarının məzmunu əsasənda müəyyən edilir. Coğrafiya təliminin nəzəri əsaslarını ümumi metodika öyrənir.müxtəlif bölmələrin tədrisinə aid təkliflər işləyib hazırlayır. Coğrafiya təliminin ayrı-ayrı siniflər üzrə praktiki məsələlərini isə xüsusi metodika öyrənir.

Kurikulumda fəal dərsinin mərhələləri və hər mərhələnin öz xüssusiyyətləri var. Onları nəzərə alaraq müəllim dərsi düzgün təşkil edə bilər. Bu mərhələləri düzgün planlaşdırmaq və təşkil etmək üçün müəllimə faslitasiya qazanılmış biliklər arasında əlaqə yaratmaq, ümumiləşdirmək, yaradıcı olmaq və digər bacarıqlar lazımdır.Dərsin birinci mərhələsində motivasiya qismində meydana gələn problemin həlli üçün fərziyyələr yaranır. Fərziyyələrin yoxlanması, hansıların doğru olduğunu müəyyənləşdirmək vəzifəsi qarşıda durur. Məhz bu vəzifə tədqiqat sualının formlaşadrılmasını tələb edir. Tədqiqat üçün sual

müəyyənləşdirildikdən sonra onu müxtəlif baxımdan araşdırmağa yönəldən tapşırıqlar hazırlanır. Tapşırıqların icrası şagirdlərə təklif edilir.

Buradan aydın olur ki, tədqiqat sualının müəyyənləşdirilməsi məsuliyyətli işdir. Sual təlim materialının məğzini, mahiyyətini araşdırmağı bir tələb kimi qarşıya qoymalıdır.

Tədqiqatçı tədqiqat apararkən yanaşılma istiqamətlərini, tədqiqatın ümumi və xüsusi metodlarını nəzərə almaqla yanaşı tətbiqi texnikalarını da bilməlidir. Hər bir elmin özünəməxsus tədqiqat metodları vardır. Hər bir metodun özünəməxsus xarakterik xüsusiyyəti olduğu kimi tətbiqi zamanı alınan coğrafi informasiya müxtəlif olur. Coğrafiya müəllimi tədqiqat metodlarını mənimsəməklə tədris etdiyi mövzuların xarakterinə uyğun tədqiqat işlərini verməlidir. Tədqiqatın getdiyi yolu düzgün seçməlidir.Bu zaman müəllim şagirdlərlə işlədiyi zamanı hansı tədqiqat metodundan istifadə edəcəyini bilməlidir. Bu sahədə ölkəmizdə elmi-metodiki ədəbiyyatlarda az miqdarda məlumat olsada tədqiqat işi aparılmamışdır.

Problemin həlli üzrə fərziyyələrin meydana gəlməsinin təbii nəticəsi olaraq, irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edən, habelə qoyulan tədqiqat sualına cavab verməyə kömək edə biləcək faktları tapmaq zərurəti ortaya çıxır. Buna, şagirdləri irəli sürülmüş problemin həllinə məqsədyönlü şəkildə aparan, özündə yeni informasiyanı və yeni sualları daşıyan müxtəlif çalışmalar kömək etməlidir. Məhz yeni faktların öyrənilməsi və bu suallara cavabların tapılması gedişində düşünmək və yeni bilgiləri kəşf etmək üçün münasib şərait yaranır.

Ədəbiyyat

1. Ümümtəhsil pilləsinin dövlət standartları və proqramları(kurikulumları), Azərbaycan məktəbi,2011 N6
2. Alxasov O.K. -Coğrafiyanın tədrisi metodikası Bakı 2013
3. Seyfullayeva N.S -Coğrafiyanın tədrisi metodikası Bakı 2011
4. Z. Veysova – fəal interaktiv təlim (müəllimlər üçün) Bakı 2007
5.İnternet resursları
6.https://www.arti.edu.az/nodupload/editor/files/F%C9%99al%20(interaktiv)%20t%C9%99lim%20texnologiyası.pdf)
7 https://tehsiljurnali.az/pedaqoji/3439-drsd-fal-tlimin-xususiyytlrindn-istifad.html

## X SİNİFDƏ İCMAL MÖVZULARININ ÖYRƏDİLMƏSİNDƏ ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞİNİN TƏŞKİLİ

**Nuriyeva Solmaz İrşad qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Şagirdlərin hərtərəfli, sərbəst və yaradıcı inkişafı şəxsiyyətyönümlü təlimdə əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Müəllim və şagird artıq müasir təlim prosesində bərabərhüquqlu üzvlərdir. Müəllim şagirdlərə müəyyən biliklər verməklə bərabər, həm də onlara öyrənməyi öyrətmək, əldə etdiyi informasiyalardan istifadə etmək bacarığını aşılamalıdır.

Müasir təlimdə müəllim fasilitator rolunda çıxış edərək diskussiyanı idarə edir, köməkçi suallar verir, şagirdlərdə tənqidi fikirləri, öz-özünə nəzarəti, özünüqiymətləndirməni, müstəqilliyi və s. keyfiyyətləri üzə çıxarır və inkişaf etdirir.

Müəllim bilik və bacarıqların praktik fəaliyyətdə effektli və səmərəli tətbiq edilməsini təmin etməlidir. Bunu da əldə olunmuş bilik və bacarıqların təkrarlanması ilə formalaşdırır. Şagirdlərin fəallığına çalışmaq, onların suallarını diskussiya zamanı özlərinin cavablandırmasına şərait yaratmaq, qarşılıqlı dialoqların qurulmasına üstünlük vermək daha

məqsədəuyğundur. Şagirdlərdə bütün bu müsbət keyfiyyətlərin formalaşdırılmasında müstəqil işin böyük rolu var.

"Müasir təlimdə şagirdlərin müstəqil işinin 5 əsas xüsusiyyəti vardır:

1. Qarşıya qoyulmuş təlim məqsədinin dərk edilməsi
2. Müəyyən motivlə zehni və əməli fəallıq, iradi səy göstərilməsi
3. Tapşırığın həlli üçün zəruri biliklərin və səmərəli yolların seçilib tətbiq edilməsi
4. Tapşırığın bilavasitə kömək olmadan şagirdin öz gücü ilə yerinə yetirməsi
5. Özünənəzarət və özünüqiymətləndirmə". [4, s.192 ]

Bu xüsusiyyətlərdən belə bir nəticəyə gəlirik ki, müstəqil işin icrası zamanı şagird nəyi nə məqsədlə edəcəyini, hansı üsullardan istifadənin səmərəli olduğunu yaxşı dərk etməlidir. Şagird müstəqil iş prosesində öz işinə nəzarət edərək səhvləri üzərində korreksiya işləri aparmalı və nəticədə işin sonunda özünü qiymətləndirməyi bacarmalıdır.

Bədii əsərlərin öyrədilməsi zamanı şagird müstəqilliyinin təşkili dedikdə obrazların xarakterinin səciyyələndirilməsi, sagirdlərin baş verən hadisələr haqqında müstəqil rəyinin formalaşmalaşdırılması başa düşülür. Bu prosesi həyata keçirmək üçün dərslik kompleksində lazımi səviyyədə sual və tapşırıqlar mövcuddur. Amma icmal mövzularının tədrisində müstəqil işlərin təşkili elmi-metodik ədəbiyyatda demək olar ki, araşdırılmamışdır. Baxmayaraq ki, bu mövzuların tədrisində şagird müstəqilliyinin təmin edilməsi monoqrafik mövzularda olduğundan qat-qat daha çətindir. Konkret əsərlərin sadəcə adı çəkildiyi üçün obrazlar haqqında məlumatın olmaması bunun başlıca səbəblərindəndir. Müəllimlər bütün bu çətinlikləri əsas götürərək müstəqil işlərin təşkilinə o qədər də önəm vermirlər.

Ədəbiyyat dərslərində şagirdlərin müstəqil işlərinin təşkili ilə bağlı S.Hüseynoğlunun elmi fəaliyyəti diqqəti cəlb edir. Müəllifin məqalələrində müqayisə metoduna üstünlük vermişdir: "Müqayisə şagirdlərin fəallıq və müstəqilliyinin inkişafında böyük rol oynayır... Müqayisə üçün obyektlər müəyyənləşdirmək, onların mühüm əlamətlərini ayırmaq, bunları tutuşdurmaq, yaxud qarşılaşdırmaq, müəyyən nəticə çıxarmaq və s. şagirdlərdən diqqətlə işləməyi, malik olduqları bilikləri səfərbərliyə almağı tələb edir. Müqayisə prosesində şagirdlər obyektlərin mahiyyətinə enir, onların ilk baxışda sezilməyən incəliklərini sərbəst olaraq görür, müsbət və mənfi keyfiyyətlərini üzə çıxarırlar" [ 3, s. 45 ].

Bizim fikrimizcə, müqayisə metodundan icmalların tədrisi zamanı müstəqil işlərin təşkil edilməsi üçün istifadə etmək çox səmərəli nəticələr verə bilər. Bunu "Qədim dövr Azərbaycan ədəbiyyatı" mövzusunun tədrisində təcrübədən keçirmək olar:

Mətnin oxusuna başlamazdan əvvəl şagirdlərin diqqəti dərslikdəki "Araşdırmaya hazırlaşın" başlıqlı tapşırıqlara yönəldilir:

-Qədim dövr Azərbaycan ədəbiyyatı, onun uğurları barədə ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın.

-Həmin dövrdə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında baş vermiş mühüm dəyişikliklər haqqında tarix dərslərindən, əlavə mənbələrdən mənimsədiyiniz biliklərdən istifadə edin.[1, s.17]

Bu tapşırıqlar fəndaxili inteqrasiyanın yaradılması baxımından səmərəlidir. Onlar yeni öyrəniləcək mövzunun başa düşülməsinə də əhəmiyyətli dərəcədə təsir edir. Müəllimin istiqamətləndirici sualları şagirdlərin hər iki sualla bağlı müəyyən fikir söyləmələrinə imkan yaradır. Bu mövzunun öyrədilməsi zamanı alınan nəticələr daha sonra keçiləcək "İntibah dövrü Azərbaycan ədəbiyyatı" mövzusunun tədrisində müqayisə üsulunun tətbiqi üçün əlverişli şərait yaradır. Dərs prosesində "Qədim dövr" və "İntibah dövrü" arasında müqayisənin qurulması şagirdlər tərəfindən müstəqil fikirlərin söyləməsinə imkan verir. Şagirdlər hər iki dövrün oxşar və fərqli xüsusiyyətlərini aşkar edərək nəticədə hər iki dövrün özünəməxsusluqlarını daha dərindən dərk edirlər.

Şəxsiyyətyönümlü təlim şagirdlərin idrak, yaradıcılıq, tədqiqatçılıq qabiliyyətlərini və fənlərə marağını artırır. Şagirdlərin tədqiqat aparması müasir dərsin ən böyük üstünlüklərindən biri kimi onların axtarıcılıq və tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir.

Təfəkkür fəaliyyətinin, fərqli fikirlərin müzakirəsi şagirdlərdə diskussiya aparmaq və düzgün nəticə çıxarmaq qabiliyyətini möhkəmləndirir.

**Ədəbiyyat:**


1. Əliyev S., Həsənov B., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. – Bakı, “Bakı” nəşriyyatı, 2023, 208 səh.
2. Əliyev S., Həsənov B., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. – Bakı: “Bakı” nəşriyyatı, 2022, 208 səh.
3. Hüseynoğlu S. Bədii əsərlərin müqayisəli öyrədilməsinin şagirdlərin fəallıq və müstəqilliyin inkişafına təsiri. /“Azərbaycan dili və ədəbiyyatın tədrisi”, 1976, № 3.
4. İsmixanov M. Şagirdlərin müstəqil işi: təlim prosesində mövqeyi və mahiyyəti. /“Bakı Universitetinin xəbərləri”, 2008, № 2.


## LİNQVİSTİKADA ABŞ VƏ KANADA VARİANTLARI


**Paşazadə Aysel Müzəffər qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


İngilis dilinin ABŞ və Kanada variantları bir-biri ilə olduqca oxşar xüsusiyyətlərə malikdirlər, lakin onlar arasında bəzi fərqlər də mövcuddur. Ümumiyyətlə, Kanada aksenti amerika aksentinə nisbətən daha uzun sait səsləri və daha yumşaq tələffüzü ilə xarakterizə olunur. Kanada ingiliscəsində də bir neçə lüğət fərqi var. Orfoqrafiya konvensiyaları da iki ölkə arasında bir qədər fərqlənir - məsələn, kanadalılar "defence" kimi sözləri "c" ilə, amerikalılar isə "s" hərfi ilə yazmağa meyllidirlər. Nəhayət, intonasiyaya gəldikdə, kanadalılar adətən cümlələrinə amerikalılardan daha çox önəm verirlər.

Kanada ləhcəsi tez-tez İngilis İngilis və Amerika İngilislərinin qarışığı kimi təsvir olunur. Bununla belə, onu hər ikisindən fərqləndirən özünəməxsus xüsusiyyətləri var. Nümunələrə nəzər yetirək:

- dance və ya chance kimi sözlərdəki “a” saiti yuvarlaq ağız və daha yüksək səslə tələffüz edilir və ona burun keyfiyyəti verir.
- night və ya light kimi sözlərdəki “i” səsi qaldırılmış dil və daha yuvarlaq ağızla tələffüz edilir ki, bu da onu daha çox “noight” və ya “loight” kimi səslənməsinə gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, tək Kanada aksenti yoxdur. Kanadada hər birinin özünəməxsus xüsusiyyətləri olan müxtəlif vurğular var. Bununla belə, bu aksentlərlə Kanada İngilis dili bəzi ümumi xüsusiyyətlərə malikdirlər. [1, s. 53]

Kanadada olduğu kimi, tək Amerika aksenti də yoxdur. Amerika Birləşmiş Ştatlarında da müxtəlif vurğular var, həmçinin bu vurğularla Amerika İngilis dili arasında bəzi xüsusiyyətlər var.

Amerika İngilis variantının ən diqqət çəkən xüsusiyyətlərindən biri onun rotikliyidir. Bu o deməkdir ki, amerikalılar adətən “r” səsini sözlərdə tələffüz edirlər, halbuki bir çox digər ingilisdilli ölkələrdə “r” səsi sözlərin sonunda düşür. Məsələn, amerikalılar “car” sözünü sonunda fərqli “r” səsi ilə tələffüz edirlər, İngiltərədə isə “r” səssiz tələffüz olunur. [2, s. 98]

Amerika ləhcəsi həm də intonasiya nümunələri ilə səciyyələnir. Amerikalılar bəli və ya yox suallarının sonunda yüksələn intonasiyadan istifadə edirlər, digər ingilisdilli ölkələrdə isə enən intonasiya daha çox təsadüf olunur. Eynilə, amerikalılar deklarativ cümlələrin sonunda enən intonasiyadan istifadə etməyə meyllidirlər, digər ingilisdilli ölkələrdə isə yüksələn intonasiya daha çox istifadə olunur.

Müəyyən sözlərin tələffüzündəki ən bariz fərqlərin bir neçə nümunəsi:

Amerikalılar "about" sözünü daha dairəvi sait səslə tələffüz etməyə meyillidirlər, kanadalılar isə onu daha açıq sait səsi ilə "aboot" kimi tələffüz edirlər.

Amerikalılar "sorry" sözünü daha qısaldılmış "o" səsi ilə tələffüz etməyə meyillidirlər, kanadalılar isə onu daha yuvarlaq "o" səsi kimi tələffüz edirlər.

Kanadalılar “process” kimi sözlərin birinci hecasına, amerikalılar isə ikinci hecasına daha çox diqqət yetirirlər. Lakin əksinə, kanadalılar “macaroni” kimi sözlərin ikinci hecasına, amerikalılar isə birinci hecasına daha çox diqqət yetirirlər.

Kanadalılar tez-tez “t” hərfini amerikalılardan daha çox vurğu ilə tələffüz edirlər, nəticədə sözdən əvvəl bir qədər fasilə yaranır.

Bu incə orfoqrafiya fərqləri həm Britaniya İngilis, həm də Amerika İngilis dilinin Kanada İngilis dilinə təsirini əks etdirir. Nəticədə, kanadalılar kontekstdən asılı olaraq ingilis dilinin hər iki formasını asanlıqla oxuya bilirlər. Bundan əlavə, bu konvensiyalar zaman keçdikcə Kanada mədəniyyətində möhkəm şəkildə yerləşmişdir ki, bu da ana dili danışanların oxuyanda və ya yazarkən onları tanımasını asanlaşdırır. Nəhayət, bu fərqlər coğrafiya və tarix kimi xarici təsirlərə görə dilin zamanla necə inkişaf etdiyini göstərir. [3, s. 118]

Həm Amerika, həm də Kanada İngilislərinin özünəməxsus söz və ifadələri var. Bəzi sözlər bu iki variant arasında paylaşıla bilsə də, bir çoxları Amerika və ya Kanada ingiliscəsinə xasdır. Məsələn, amerikalılar qazlı içkiyə “soda”, kanadalılar isə “pop” deyirlər. Bundan əlavə, amerikalılar kranı təsvir etmək üçün “faucet” sözündən istifadə edə bilər, kanadalılar isə əvəzinə “stopcock” deyirlər. Ünsiyyətin aydın olması üçün hər iki ölkənin insanlarının lüğətdəki fərqlərdən xəbərdar olması vacibdir.

Ədəbiyyat

**1.** Allwood, M. S. American. 1964.
**2.** Bailey, Richard W. The English language in Canada. 1959
**3.** Avis, Walter S. The contemporary context of Canadian English. 1986

## BİOLOGİYANIN TƏDRİSİNDƏ ŞAGİRDLƏRƏ İNKLÜZİV YANAŞMA

**Pəniyeva Sevinc Anar qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnklüziya(inclusion- daxiletmə)- bütün vətəndaşların,ilk növbədə Sağlamlıq İmkanları Məhdud ( SİM) olan insanların cəmiyyətə adaptasiyasını,digər insanlar kimi onların da cəmiyyətin bərabərhüquqlu bir fərdinə çevrilməsini təmin edən bir prosesdir.İnklüziv təhsil mühitinin məqsədi bütün tələbələrə ədalətli davranılmasını və bərabər imkanların əldə olunmasını təmin etməkdir.Təəssüf ki, bəzən şagirdlərə unikal keyfiyyətlərinə görə fərqli yanaşma halları vardır. Heç bir şagird fərqlərinə və ya öyrənmə imkanlarına görə öyrənmə prosesindən kənarlaşdırılmamalı və ya təcrid edilməməlidir.

Biologiyanın tədrisində İnklüziv yanaşmanı necə tətbiq etmək olar? Bir müəllim kimi, şagirdlərə kömək etməyin ən yaxşı yollarından biri öyrənmə maneələrini aradan qaldırmaqdır. Buna nail olmağa kömək edə biləcək yanaşmalardan biri *Öyrənmə üçün Universal Dizayndır (Universal Design for Learning-UDL).* Bu 3 prinsip əsasında formalaşır:

Cəlbetmə- *Nə üçün öyrənirik?*- İnklüziv siniflərdə şagirdlər bəzən özlərinə “Mən bunu nə üçün öyrənməliyəm?”, ”Mən bu məlumatı nə zaman istifadə edəcəyəm?” suallarını verirlər. Şagirdləri öyrənmə prosesinə cəlb etməklə onların bu narahatlığına aydınlıq gətirmək və emosional-effektiv sahə ilə əlaqə qurmaq olar. Başqa sözlə desək, şagirdlərdə dərsə maraq yaratmaqla,onları tədris cəlb etməklə öyrənəcəkləri məsələlərə emosional bağ yaratmağa imkan veririk.Təqdimat- *Nə öyrənirik?*- Bu prinsip beynimizin məzmunu anlayan və emal edən hissələri ilə əlaqəlidir. Məlumatların müxtəlif formalarda -məsələn qrafik və animasiyalarla, mətnlər formasında, audial vasitələrlə təqdim edilməsi, məzmundaki əsas xüsusiyyətlərin qeyd edilməsi,əvvəlki biliklərin aktivləşdirilməsi şagirdlərdə mövzularla bağlı dərin və tam konseptual anlayış formalaşmasına kömək edir. Fəaliyyət-*Necə öyrənirik?*- Fəaliyyəti müxtəlif formada həyata keçirmək beynimizdə Necə? anlayışını aktivləşdirir. Bu prinsip bizə öyrəndiyimiz məlumatları fərqli və yeni kontekstə uyğunlaşdırmaq imkanı verən

strateji yanaşmadır. Şagirdləri öyrəndiklərini müxtəlif formalarda təqdim etmək üçün onlara bir xeyli seçim imkanı verin və şagirdlərin səviyyələrinə uyğun yanaşmalar və rəylərlə onları dəstəkləyin.

İnklüziv sinifdə biologiyanın tədrisində aşağıdaki 5E modeli üzrə qurulmuş dərs numünəsini misal göstərmək olar:

Sinif: 11 Mövzu: Quru və okean sahəsinin biokütləsi

Alt standart: 4.2.1. Ekoloji problemlərin qlobal xarakterini dəyərləndirir, məruzə və təqdimatlar hazırlayır.

Təlim nəticəsi: Biogeosenozlarda baş verən dəyişikliklərin biokütlənin yaranmasına təsirinin qlobal xarakterini dəyərləndirir, məruzə və təqdimatlar hazırlayır.

Qiymətləndirmə meyarları: Biogeosenozlarda baş verən dəyişikliklərin, biokütləyə təsirinin qlobal xarakterini dəyərləndirmə, təqdimat və məruzə hazırlama.

Qiymətləndirmə üsulları: Müzakirə, kublaşdırma,3-2-1 üsulu.

Cəlbetmə- İnklüziv siniflərdə mövzuya maraq oyatmaq üçün şagirdlərə aşağıdakı suallar verilir və SİM şagirdlər də müzakirəyə dəvət olunurlar:

• “ Biokütlə” dedikdə nə başa düşürsünüz?
• “Təbii birlik” nədir?
• “Təbii birlik”ləri təşkil edən canlılar arasındakı münasibətlərə görə necə qruplaşdıra bilərik?
• Quru və okean sahəsinin biokütləsində nə kimi fərqlər var?

Şagirdlərdə idraki fəallıq yaratmaq məqsədilə suallar verilir. Bu mərhələnin sonunda dərsin məqsədi şagirdlərə elan edilir və lövhədə qeyd olunur:

- Biogeosenozlarda baş verən dəyişikliklərin biokütlənin yaranmasına təsirinin qlobal xarakterini dəyərləndirir, məruzə və təqdimatlar hazırlayır.

Araşdırma- İnklüziv sinifdə quruda və okeanda göstərilmiş canlıların növ müxtəlifliklərini müqayisə etmək üçün şagirdlərə müraciət olunur. Hansı sahədə biokütlə daha çoxdur? Quruda biokütlənin miqdarı coğrafi və şaquli zonallıqlardan asılı olaraq necə dəyişir? Bu tapşırığın yerinə yetirilməsi üçün zoocoğrafi xəritədən də istifadə etmək olar. Torpağın biokütləsi, okeanın biokütləsi ilə bağlı şagirdlər həm dərslik, həm də paylama materialı əsasında araşdırma apara bilərlər. Görmə məhdudiyyətli şagirdlərə tapşırıq vərəqi daha iri şriftlərlə hazırlanmış qaydada təqdim edilir. Eşitmə məhdudiyyətli şagirdə isə tapşırığa cavab hazırlayarkən videoya baxdıqda alt yazını da oxumaq tapşırılır.Biologiya dərslərində inkluziv siniflərdə video materiallardan istifadə edərkən mütləq şagirdin əlilliyindən asılı olaraq alt yazının olması, materialların rəngarəngliyi, sadə izah nəzərdə tutulmalıdır. Bu zaman digər şagirdləri diqqətdən kənar saxlamaq olmaz, bərabərhüquqluluq qorunmalıdır.

İzahetmə -Bu mərhələdə müəllim şagirdlərin araşdırma mərhələsində öyrəndiklərini sintez edib ümumiləşdirir, təlim nəticələrində nəzərdə tutulan anlayışları birbaşa təqdim edir.

Torpaq biokütləsini ağac, kol və Dünya okeanının Okeanda üzvi aləmlə qeyri-üzvi aləmin
ot bitkilərinin kökləri, qurd, cücü çirkləndirilməsi, qarşılıqlı əlaqəsi sayəsində bütün
və sürfələri, göbələk mitseliləri, meşələrin qırılması biokimyəvi proseslərin gedişi baş verir.
bakteriyalar əmələ gətirir. təhlükə yaradır.

Dərinləşdirmə -Şagirdlər say üsulu ilə altı qrupa bölünürlər. Blum kubundan istifadə etməklə şagirdlərə aşağıdakı suallar təqdim olunur.




| | |
|---|---|
| **Adlandır** | Quru və okean biokütləsinin quruluşunu və tərkibini təsvir edin. |
| **Niyə? Nə üçün?** | Dağların zirvələrinə qalxdıqca biokütlə niyə azalır? |
| **Tətbiq et** | Quru və okean biokütləsi haqqında öyrəndiklərinizi necə və harda tətbiq edə bilərsiniz? |
| **İzah et** | Quru və okean səthindən dərinə getdikcə biokütlənin miqdarının dəyişməsinin qrafik təsvirini izah edin. |
| **Özünü ifadə et** | “Meşə massivlərinin azalması qlobal ekoloji problem kimi” mövzusuna fikrinizi bildirin. |
| **Yenisini yarat** | Mövzunu başqa cür necə adlandırardınız? Mətnə nələri əlavə edərdiniz? |

**Qiymətləndirmə**

Refleksiya: 3-2-1 üsulu.

- ✓ Öyrəndiyiniz 3 məlumatı yazın.
- ✓ Sizə maraqlı gələn 2 məqamı yazın.
- ✓ Hələ də sizi maraqlandıran 1 sualı yazın.




## TƏHSİL SİSTEMİNDƏ MONİTORİNQ ƏSAS ANLAYIŞLAR, PROBLEMLƏR, İMKANLAR

**Ramazanova Seyla Məzahir qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təhsil sistemi bir ölkənin inkişafında ən əhəmiyyətli sahələrdən biridir. Monitorinq isə təhsil sisteminin keyfiyyətini qiymətləndirmək, effektivliyini artırmaq, problemləri müəyyənləşdirmək üçün ən müasir və əhəmiyyətli vasitələrdən biridir. Monitorinq müəyyən bir müddət ərzində konkret obyektdə baş verən dəyişikliklərin səbəbini müəyyən etməyə imkan verən tədqiqat proseslərinin məcmusu deməkdir. Monitorinq istənilən prosesin sistemli standartlaşdırılmış müşahidəsidir.

Təhsil sistemi monitorinqi təhsil proseslərinin nəzarət və qiymətləndirməsi üçün müxtəlif texnologiyalar, metodologiyalar və tədqiqat vasitələrindən istifadə edir. Əsas məqsəd təhsilin keyfiyyətini artırmaq və cəmiyyətin tələblərinə cavab vermək üçün sistemi optimallaşdırmaqdır. Müasir monitorinq sistemi tələbələrin bacarıqlarını və nailiyyətlərini nəzarət etməklə yanaşı müəllimlərin pedaqoji fəaliyyət səviyyəsini, eləcə də, təlim proseslərinin effektivliyini də qiymətləndirir.

Monitorinqin növlərindən biri olan pedaqoji monitorinq müəllimlər və tələbələr arasında tədris prosesinin ətraflı analizini təmin edir. Eləcə də tədris prosesinin müvafiq şəkildə idarə olunması üçün müəssisə idarəçilərinə məlumatlandırır.

T.Hacıyeva yazır ki: "Monitorinq pedaqoji prosesin gedişi və onun nəticələri haqqında obyektiv və etibarlı məlumat verə bilən təlim nəticələrinin nəzəri cəhətdən əsaslandırılmış ölçülməsi və qiymətləndirilməsidir" [1, s.10].

Monitorinq davamlı elmi sübut prosesidir. Monitorinqdə əsas şey sistemdəki dəyişiklikləri, tələbənin, auditoriyanın, müəllimin göstəricilərindəki dəyişiklikləri izləmək və pedaqoji tədbirlərin effektivliyini izləmək bacarığıdır.

Təhsil sistemi monitorinqində mövcud olan bəzi problemlər və çətinliklər var. Həmin problemlər bunlardır:

✓ Məlumatın yoxlanılması və təhlili: Məlumatın toplanması, dəqiq təhlil edilməsi zamanı mənfi tərəfdaşlıq, subjektiv dəyərləndirmələr kimi məsələlər yaranır. Bu, monitorinq prosesinin obyektivliyini və dəqiqliyini təhlükə altına alır.

✓ Rəqəmsal məlumat işlənməsi: Məlumatların rəqəmsallaşdırılması, informasiya texnologiyalarının (IT) istifadəsi bəzən məlumatların doğru şəkildə işlənə bilməməsi və təhlil edilməsində problemlərə səbəb ola bilər. Bu, məlumatın dəqiqliyini və monitorinq prosesinin effektivliyini qeyri-müəyyən edir.

✓ Tədqiqat standartlarının ehtiyacı: Fərqli təşkilatlar, bölgələr arasında tədqiqat metodologiyaları və standartlarının fərqliliyi problemlərə səbəb ola bilər. Bu, monitorinq nəticələrinin müqayisə edilməsini və universallığını çətinləşdirə bilər.

✓ Maliyyə məhdudiyyətləri: Təhsil sistemi monitorinqi üçün lazım olan resursların məhdudiyyətləri narahatlıq yarada bilər. Kifayət qədər maliyyə resursları olmadan monitorinq tədbirlərinin, proqramlarının icrası, məlumatın düzgün şəkildə toplanması və işlənməsi mümkün olmayacaq.

✓ Müəssisələrarası tərəfdaşlıq: Təhsil müəssisələrinin monitorinq proseslərində əməkdaşlıq etməməsi və məlumatların paylaşılmasında qeyri-rəsmi narahatlıqlar monitorinqin effektivliyini azalda bilər.

Bu problemlər və çətinliklər təhsil sistemi monitorinqini effektiv şəkildə icra etməyi mümkün etməyən səbəblərdən sadəcə bir neçəsidir. Həll yolları müxtəlif ola bilir, lakin obyektivlik, tədqiqat standartlarının təyin edilməsi, rəqəmsal məlumat işlənməsi üsullarının yaxşılaşdırılması və təhsil müəssisələrinin tərəfdaşlığı bu problemlərin öhdəsindən gəlməyə kömək edə bilər.

Texnologiyaların tətbiqində və məlumatların müəyyən edilməsində yaşanan problemlər təhsil sistemi monitorinqi üçün ən əhəmiyyətli problemlərdən biri olaraq qəbul edilir. Bu problemlər şəxsi, texniki və təşkilati səviyyədə ortaya çıxan müxtəlif məsələləri əhatə edir. Belə ki, bir çox təhsil müəssisələri texnologiya infrastrukturunun yetersizliyi ilə qarşılaşır. Kifayət qədər güclü internet əlaqəsi, uyğun məlumat bazaları kimi əsas texniki imkanlar təmin edilməməsi monitorinq prosesini geridə qoyur.

Texnologiya infrastrukturunun təkmilləşdirilməsi, məlumat bütövlüyünün qorunması, məlumatların standartlaşdırılması, texnoloji təcrübə istifadəsi ilə bağlı strateji idarəetmə və tədqiqat əməkdaşlığı bu problemləri həll etməyə kömək edə bilər.

N.Verbitskaya və V.Nəzərovun fikrincə, "monitorinq kifayət qədər mürəkkəb və ciddi idarəetmə vasitəsidir" [2, s.17].

Həqiqətən də bu belədir və bu prosesin dəqiq icrası üçün müvafiq addımlar atılmalıdır. Tədris prosesində əldə edilmiş bilik və bacarıqların keyfiyyətinin müntəzəm yoxlanılmasına nəzarət edən monitorinqin tam şəkildə həyata keçirilməsi pedaqoji prosesin daha səmərəli, konkret və məqsədyönlü olmasını təmin edəcəkdir.

## TƏBİƏT MƏZMUN XƏTTI ÜZRƏ BİLİKLƏRİN FORMALAŞDIRILMASI METODIKASI

**Rəhimli Nəcibə Qəhrəman qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

"Təbiət məzmun xətti üzrə biliklərin formalşdırılması metodikası" əsasən təbiət elmlərinin tədrisində tətbiq edilən bir metodikadır. Bu metodika, şagirdlərin təbiətlə bağlı biliklərini sistemli və məntiqli bir şəkildə inkişaf etdirməyə yönəlmişdir. Bu cür metodikada, təlim materialının təqdim edilməsi məzmuni xətlər üzrə təşkil olunur ki, bu da mövzu boyunca əlaqələri və bağlantıları daha aydın göstərməyə kömək edir. Məzmuni xətt metodikasının əsas məqsədləri aşağıdakılardır:

• Təbiət haqqında kompleks bir anlayışın formalaşdırılması: Şagirdlərə təbiətin müxtəlif aspektlərini - ekologiya, biologiya, fizika, kimya və s. – inteqrasiya edərək öyrətmək.

• Kritik düşüncə və problemləri həll etmə bacarıqlarının inkişafı: Təbiət elmləri ilə bağlı real həyat problemlərinin həlli üçün tələb olunan təhlil və sintez bacarıqlarını inkişaf etdirmək.

• Ətraf mühitə qarşı məsuliyyət hissinin gücləndirilməsi: Təbiətə qarşı məsuliyyətli və qoruyucu münasibətin təşviqi.

Bu metodikanın tətbiqi, şagirdlərin təbiətlə bağlı mövzulara daha dərin və əhatəli yanaşmasını təmin edərək, onların həm nəzəri, həm də praktiki bilik və bacarıqlarının inkişafına kömək edir. Tədris prosesində müxtəlif təlim üsulları və materiallarından istifadə edilməsi bu metodikanın effektivliyini artırır.

"Təbiət məzmun xətti üzrə biliklərin formalşdırılması metodikası"nın tətbiqində mühüm rol oynayan bir neçə aspekt var. Əvvəlcə, bu metodikanın təbiət elmlərini, xüsusilə də biologiya, kimya, fizika və ekologiya kimi fənləri, bir-biri ilə inteqrasiya edərək təqdim etməsi gəlir. Bu inteqrasiya, şagirdlərə hər bir fənnin təbiətlə olan əlaqəsini daha yaxşı anlamağa imkan verir. Məsələn, bir ekosistemdə biologiya və ekologiya arasındakı əlaqələr, kimya və fizikanın bu sistemdəki rolunu daha aydın göstərir. Bu yanaşma, şagirdlərə hər bir sahənin özünəməxsusluğunu və eyni zamanda onların bir-biri ilə necə inteqrasiya olunduğunu anlamağa kömək edir.

İkincisi, bu metodika, şagirdlərin təbiət haqqında kompleks və məntiqi düşüncə quruluşunu inkişaf etdirir. Şagirdlər, təbiətlə bağlı fərqli mövzuları və konseptləri bir-biri ilə əlaqələndirərək, daha geniş və sistemli bir anlayış qazanırlar. Məsələn, su dövranı mövzusunu öyrənərkən, şagirdlər ekologiya, kimya və fizikanın bu prosesdəki rolunu araşdırırlar, bu da onların təbiətin kompleksliyini və dinamikasını daha yaxşı anlamalarına imkan verir.

Üçüncüsü, bu metodika təbiət elmləri ilə bağlı real həyat problemlərinin həllində tətbiq edilən təhlil və sintez bacarıqlarının inkişafına xidmət edir. Şagirdlər, praktiki vəziyyətlər və problemlər qarşısında öyrəndikləri bilikləri tətbiq edərək, həll yolları axtarır və nəticələrə çatırlar. Bu, onların həm nəzəri, həm də praktiki bilik və bacarıqlarını gücləndirir.

Son olaraq, bu metodika, ətraf mühitə qarşı məsuliyyətli və qoruyucu münasibətin təşviqi ilə də fərqlənir. Şagirdlər, təbiətin qorunması və dayanıqlı inkişafının əhəmiyyətini anlayaraq, gələcəkdə daha məsuliyyətli vətəndaşlar olmağa hazırlaşır.

Beləliklə, "Təbiət məzmun xətti üzrə biliklərin formalşdırılması metodikası" təbiət elmlərinin tədrisində həm təlimatçılar, həm də tələbələr üçün dəyərli bir yanaşmadır. Bu metodika, şagirdlərin təbiətlə bağlı mövzulara daha dərin və əhali yanaşmasını təmin edərək, onların həm nəzəri, həm də praktiki bilik və bacarıqlarının inkişafına kömək edir.

Günümüzdə ətraf mühitin qorunması, qlobal miqyasda ən vacib məsələlərdən birinə çevrilib. İqlim dəyişikliyi, bioloji müxtəlifliyin azalması, mühitin çirklənməsi kimi ekoloji problemlər, bütün dünyanı narahat edən məsələlərdir. Bu kontekstdə, təbiət elmləri tədrisinin rolu, həm fərdi, həm də kollektiv səviyyədə, bu məsələlərin həlli üçün kritik əhəmiyyət kəsb edir. "Ətraf Mühitin Qorunmasında Təbiət Elmlərinin Rolu: Məzmun Xətti Üzrə Biliklərin İnteqrasiyası" başlığı altında, təbiət elmlərinin ətraf mühitin qorunması və dayanıqlı inkişafın təşviqi üçün necə tətbiq edilə biləcəyini araşdıracağıq. Bu baxımdan, məzmun xətti metodikasının təbiət elmləri tədrisində tətbiqi, şagirdlərə ekoloji problemlərin mürəkkəbliyini və onların həlli üçün lazımi bilikləri təmin edir.

Bu metodika, təbiət elmlərinin müxtəlif aspektlərini - biologiya, kimya, fizika və ekologiya kimi fənləri - bir-biri ilə inteqrasiya edərək, şagirdlərin kompleks və məntiqi düşüncə quruluşunu inkişaf etdirir. Bu yanaşma, tələbələrə ətraf mühitin qorunması və dayanıqlı inkişaf məsələləri haqqında daha dərin anlayış verməklə yanaşı, onları bu sahədə fəal və məlumatlı vətəndaşlar olaraq hazırlayır. Bu girişdə, məzmun xətti metodikasının təbiət elmləri tədrisində necə inteqrasiya edilə biləcəyini, bu metodikanın ekoloji məsuliyyət və dayanıqlılıq məfhumları ilə necə əlaqələndirilə biləcəyini və real dünya problemlərinin həllində necə tətbiq edilə biləcəyini əhatəli şəkildə araşdıracağıq. Beləliklə, bu mövzu, təbiət elmlərinin ətraf mühitin qorunması üçün necə kritik əhəmiyyət daşıdığını və gələcək nəsillər üçün bu sahədə təhsilin əhəmiyyətini qabartacaq. Məzmun xətti metodikasının təbiət elmləri tədrisində tətbiqi, şagirdlərə ekoloji məsələlərə kompleks və inteqrasiya olunmuş yanaşma təqdim edir. Bu yanaşma, təbiət elmlərinin müxtəlif sahələri arasında mürəkkəb bağlantıları aydınlaşdırır və şagirdlərin ekoloji problemlərə qarşı hərtərəfli düşüncə quruluşunu inkişaf etdirməsinə kömək edir. Məsələn, su dövranının öyrənilməsi zamanı, biologiya, kimya və fizikanın bu prosesdəki rolu və onların ətraf mühitin sağlamlığı üzərindəki təsiri vurğulanır.
Ətraf mühitin qorunmasında təbiət elmlərinin tətbiqinə dair bir cədvəl hazırlaya bilərik. Bu cədvəl, müxtəlif təbiət elmlərinin əsas mövzularını və onların ətraf mühitin qorunmasına necə töhfə verdiyini göstərəcək.

***Cədvəl 1. Təbiət Elmlərinin Ətraf Mühitin Qorunmasına İnteqrasiyalı Töhfəsi***

| Təbiət Elmi | Əsas Mövzular | Ətraf Mühitin Qorunmasına Töhfəsi |
|---|---|---|
| Biologiya | Ekosistemlər, bioloji müxtəliflik, canlıların funksiyaları | Bioçeşidliliyin qorunması, ekosistemlərin sağlamlığının anlaşılması |
| Kimya | Molekulyar tərkib, kimyəvi reaksiyalar, mühitin kimyəvi çirklənməsi | Çirkləndirici maddələrin təsirinin azaldılması, təmiz enerji mənbələrinin inkişafı |
| Fizika | Enerji və maddənin xassələri, enerji dövranları | Dayanıqlı enerji sistemlərinin inkişafı, enerji istifadəsinin optimallaşdırılması |
| Ekologiya | Populyasiya dinamikası, habitatlar, ekosistemlərin quruluşu | Habitatların qorunması, ekoloji tarazlığın anlaşılması və təşviqi |

Mənbə: Orr, D.W. (1992). "Ekoloji Təlim: Elm, Təbiət və Dayanıqlı Gələcəyin Təhsili" [Ecological Literacy: Education and the Transition to a Postmodern World]. SUNY Press.
Biologiya: Bu sütunda biologiyanın ekosistemlər, bioloji müxtəliflik və canlıların funksiyaları kimi əsas mövzularına diqqət çəkilir. Biologiyanın ətraf mühitin qorunmasına töhfəsi, bioçeşidliliyin qorunması və ekosistemlərin sağlamlığının daha yaxşı anlaşılması ilə bağlıdır. Bu, canlıların ekosistemdəki rolu və onların qarşılıqlı əlaqələrini anlamaq üçün vacibdir.
Kimya: Kimyanın molekulyar tərkib, kimyəvi reaksiyalar və mühitin kimyəvi çirklənməsi kimi mövzuları əhatə edir. Kimya, çirkləndirici maddələrin təsirinin azaldılması və təmiz enerji mənbələrinin inkişafı yolu ilə ətraf mühitin qorunmasına töhfə verir. Kimyəvi birləşmələrin təsiri və onların ətraf mühitə olan təsirlərini anlamaq bu sahənin mühüm hissəsidir.

Fizika: Fizika, enerji və maddənin xassələri və enerji dövranları kimi mövzuları özündə cəmləşdirir. Bu elmin ətraf mühitin qorunmasına töhfəsi, dayanıqlı enerji sistemlərinin inkişafı və enerji istifadəsinin optimallaşdırılması ilə əlaqəlidir. Enerjinin effektiv istifadəsi və dayanıqlı enerji mənbələrinə keçid, ekoloji problemlərin həllində mühüm rol oynayır.
Ekologiya: Ekologiya, populyasiya dinamikası, habitatlar və ekosistemlərin quruluşu kimi mövzuları özündə birləşdirir. Ekologiyanın ətraf mühitin qorunmasına töhfəsi, habitatların qorunması, ekoloji tarazlığın anlaşılması və təşviqi ilə bağlıdır. Bu, canlılar arasındakı qarşılıqlı əlaqələri və onların mühitlə olan inteqrasiyasını dərindən anlamaq üçün əsas təşkil edir.

Məzmun xətti metodikası vasitəsilə təbiət elmlərinin tədrisində inteqrasiya edilməsi, ətraf mühitin qorunması və dayanıqlı inkişafın təşviqi üçün kritik əhəmiyyət daşıyır. "Təbiət Elmlərinin Ətraf Mühitin Qorunmasına İnteqrasiyalı Töhfəsi" cədvəli, biologiya, kimya, fizika və ekologiyanın bu sahədəki mühüm rolunu aydın şəkildə göstərir. Hər bir elmin özünəməxsus perspektivləri və yanaşmaları, ətraf mühitin qorunmasına və ekoloji problemlərin həllinə töhfə verir. Bu inteqrasiya, tələbələrə təbiətin kompleksliyini və dinamikasını daha dərindən anlamağa imkan verir, eyni zamanda onları bu sahədə fəal və məlumatlı vətəndaşlar olaraq yetişdirməyə kömək edir.

Bu metodikanın tətbiqi ilə, təbiət elmləri tədrisi yalnız nəzəri biliklərin ötürülməsi deyil, həm də praktiki və real dünya problemlərinin həlli üçün lazımi bacarıqların inkişafı deməkdir. Təbiət elmlərinin ətraf mühitin qorunması və dayanıqlı inkişafda rolu, cəmiyyət və təhsil sistemində daha da önəmlidir. Bu yanaşma, tələbələrin ətraf mühitə qarşı məsuliyyət hissini gücləndirir və onları ekoloji məsuliyyətli qərarlar qəbul etmək üçün hazırlayır.

## XARİCİ DİL MÜƏLLİMİNİN HAZIRLANMASINDA MÖVCUD VƏZİYYƏT VƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN TƏDBİQİNDƏ PROBLEMLƏR

**Rəhimova Nərgiz Rəhim qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Xarici dil müəllimi hazırlığının müasir mənzərəsi qloballaşan dünyada təhsilin inkişaf edən xarakterini əks etdirən mürəkkəb və çoxşaxəli sahədir. Sözügedən sahə təkcə müəllimləri yeni bir dili öyrətmək üçün lazım olan dil biliyi ilə təchiz etməkdən ibarət deyil, həm də onları dil təlimi ilə bağlı mədəni nüanslar və pedaqoji çətinlikləri həll etməyə hazırlamaqdan ibarətdir. Bacarıqlı xarici dil müəllimlərinin hazırlanmasının əhəmiyyətini qiymətləndirmək olmaz, çünki onlar gələcək nəsillərin dil imkanlarının və mədəniyyətlərarası anlaşmanın formalaşmasında həlledici rol oynayırlar.

Məqalədə müəllimlərin effektiv və müasir tədris metodologiyalarını qəbul etmələri üçün lazım olan dəstək və resursların təmin edilməsinin əhəmiyyətini vurğulayır. Xarici dil müəllimlərinin hazırlanmasında beynəlxalq təcrübənin tətbiqi çoxsaylı problemlər yaradır. Transsərhəd təhsil mübadiləsi və əməkdaşlıq tədris metodologiyasında innovasiya və təkmilləşdirmə üçün zəngin imkanlar təqdim etməklə yanaşı, eyni zamanda ölkələr arasında təhsil fəlsəfələrində, standartlarında və təcrübələrində sistemli fərqləri və uyğunsuzluqları üzə çıxarır. Qeyri-bərabərlik beynəlxalq qabaqcıl təcrübələrin yerli kontekstlərə effektiv inteqrasiyasına və uyğunlaşmasına mane ola bilər ki, bu da kurrikulumun yanlış uyğunlaşdırılmasından tutmuş dil tədrisində texnologiyanın lazımi səviyyədə istifadə edilməməsinə qədər bir sıra problemlərə gətirib çıxarır[1,s.84].

Təhsildə innovasiya və keyfiyyət, mədəniyyətlərarası anlaşma və qlobal vətəndaşlıq, iqtisadi və peşəkar imkanlar, qlobal çağırışların həlli və təhsildə texnoloji tərəqqilər kimi kateqoriyalar çox önəmlidir. Bütün bunlar xarici dil müəllimi hazırlığının müasirləşdirilməsinin geniş təhsil, mədəni və iqtisadi mənzərələrə töhfəsini vurğulayır[2,s.76].

Müasir qloballaşan cəmiyyətdə, xüsusən də beynəlxalq təcrübələrin daxil edilməsi kontekstində xarici dil müəllimlərinin hazırlanmasının tədqiqi və təkmilləşdirilməsinin aktuallığını qiymətləndirməmək olmaz. Bu mövzu bir neçə səbəbə görə mühüm əhəmiyyət kəsb edir, hər biri daha geniş təhsil, mədəni və iqtisadi mənzərələrə töhfə verir.

Təhsildə İnnovasiya və Keyfiyyət: İlk növbədə, xarici dil təhsilinin keyfiyyəti müəllimlərin səriştəsindən və hazırlığından çox asılıdır. Beynəlxalq təcrübələri və qabaqcıl təcrübələri müəllim hazırlığına inteqrasiya etməklə, pedaqoqlar daha effektiv tədris metodologiyalarını qəbul edə, innovativ pedaqoji vasitələrdən istifadə edə və dil tədrisinin keyfiyyətini artıra bilərlər. Bu, öz növbəsində, tələbələr üçün daha yaxşı təlim nəticələrinə gətirib çıxarır, onları çoxdilli və multikultural dünyanın tələblərinə daha effektiv şəkildə hazırlayır.

Mədəniyyətlərarası Anlaşma və Qlobal Vətəndaşlıq: Qlobal qarşılıqlı əlaqənin artdığı bir dövrdə mədəniyyətlərarası anlaşmanın və qlobal vətəndaşlığın təşviqi mühüm əhəmiyyət kəsb edir. Qlobal perspektivlə hazırlanmış xarici dil müəllimləri tələbələrinə təkcə dil bacarıqları deyil, həm də mədəniyyətlərarası səriştələr aşılaya bilərlər. Hazırlıq tələbələrə dünyamızın müxtəlif mədəniyyətlərinin zənginliyini istiqamətləndirməyə və qiymətləndirməyə kömək edir, sərhədlər boyu sülh, tolerantlıq və qarşılıqlı hörməti təşviq edir.

İqtisadi və Peşəkar İmkanlar: Xarici dilləri bilmək fərdlər üçün çoxsaylı iqtisadi və peşəkar imkanlar açır və onlara qlobal əmək bazarında səmərəli rəqabət aparmağa imkan verir. Yaxşı təlim keçmiş xarici dil müəllimləri çoxmillətli korporasiyaların və beynəlxalq əməkdaşlığın adi hal aldığı bugünkü iqtisadiyyatda onları dəyərli aktivlə təchiz etməklə, öz tələbələrinin dil bacarıqlarını əhəmiyyətli dərəcədə artıra bilər.

Qlobal çağırışların həlli: Birdən çox dildə ünsiyyət qurmaq bacarığı iqlim dəyişikliyi, ictimai sağlamlıq böhranları və beynəlxalq təhlükəsizlik kimi qlobal problemlərin həllində də mühüm rol oynayır. Yüksək keyfiyyətli müəllim hazırlığı vasitəsilə xarici dil təhsilini təkmilləşdirməklə cəmiyyət aktual qlobal problemləri həll etmək üçün dil və mədəni fərqlər üzərində əməkdaşlıq edə bilən liderlər və vətəndaşlar nəsli yetişdirə bilər.

Təhsildə Texnoloji Tərəqqilər: Dil öyrənmə proqramları, onlayn platformalar və virtual mübadilə proqramları da daxil olmaqla təhsil texnologiyalarının sürətli inkişafı müəllimlərin texnologiyanı tədris təcrübələrinə inteqrasiya etməkdə bacarıqlı olmalarının zəruriliyini vurğulayır. Beynəlxalq təcrübələri özündə birləşdirən təlim proqramları müəllimləri qabaqcıl texnoloji alətlər və tədris metodları ilə tanış edə bilər, rəqəmsal olaraq əlaqəli dünyada tələbələr üçün öyrənmə təcrübəsini artırır.

Ümumilikdə, beynəlxalq təcrübənin tətbiqi yolu ilə xarici dil müəllimi hazırlığının artırılmasının aktuallığı çoxşaxəlidir, təhsil, mədəniyyət, iqtisadiyyat, qlobal əməkdaşlıq və texnoloji innovasiyaların kritik aspektlərinə toxunur. Dünya getdikcə bir-biri ilə əlaqəli olduqca, təkcə dil mütəxəssisləri deyil, həm də bacarıqlı mədəniyyətlərarası ünsiyyətçilər və texnoloji cəhətdən fərasətli pedaqoqlar olan təcrübəli xarici dil müəllimlərinə tələbat artmağa davam edəcək və bu mövzunun aktuallığını və vacibliyini vurğulayır[3,s.54].

Təhsildə texnologiyanın sürətli inkişafı xarici dil müəllimi hazırlığı üçün həm çətinliklər, həm də imkanlar təqdim edir. Texnoloji innovasiyaları mənimsəmək daha interaktiv, cəlbedici və effektiv dil öyrənmə təcrübələrini asanlaşdıra bilər. Müəllimlərin öz tədris təcrübələrini təkmilləşdirmək üçün bu vasitələrdən istifadə etməkdə bacarıqlı olmasını təmin etmək üçün birgə səy tələb edir. Xarici dil müəllimi hazırlığının beynəlxalq təcrübələrlə zənginləşdirilməsində məqsəd bir-biri ilə daha çox əlaqəli və anlaşılan dünya yaratmaqdır. Hərtərəfli, mədəni cəhətdən həssas və gələcəyə yönəlmiş təlim proqramları vasitəsilə biz nəinki linqvistik cəhətdən bacarıqlı, həm də tələbələri arasında qlobal vətəndaşlığı inkişaf etdirməyə qadir olan yeni nəsil dil müəllimləri hazırlaya bilərik. Bu səy təkcə dillərin öyrədilməsi ilə bağlı deyil; bu, tələbələri qlobal cəmiyyətdə inkişaf etməyə hazırlamaq, bu mövzunun aktuallığını həmişəkindən daha kritik etməkdir.

Ədəbiyyat
1. Chang, Wei və Juan Martinez. "Xarici dillərin tədrisinə texnologiyanın inteqrasiyası: qlobal perspektiv". Dil Tədrisi və Araşdırma Jurnalı, cild. 14, yox. 3, 2023, səh. 455-472.
2. Qlobal Dil Təhsili Forumu. "Xarici dil müəllimlərinin hazırlanmasında ən yaxşı təcrübələr: Qlobal perspektiv". 3 mart 2024-cü ildə əldə edilib. https://www.glef-language.org/best-practices.
3. Dil Öyrənmə Texnologiyaları üzrə Beynəlxalq Assosiasiya (IALLT). "Dil təhsilində texnologiya: trendlər və anlayışlar". Son dəyişiklik 15 fevral 2024-cü il.

## CƏLALƏDDİN RUMİNİN PEDAQOJİ FİKİRLƏRİ

**Rüstəmli Nuray Qiyas qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Mövlana Cəlaləddin Balkhi (fars. مولانا جلال الدين محمد رومی Mevlānā Celāl-ed-Dīn Muhammed Balkhi; 1207– 1273) — İslam və təsəvvüf dünyasında tanınmış fars şair, mövləvi yolunun öncülü, vəhdəti-vücud (panteizm) fəlsəfəsinin tanınmış nümayəndəsi.



Əsl adı Muhammməd Cəlaləddindir. Xudavəndiyar, Sultanul-Aşiqin (aşiqlər sultanı), Sultanul-Muhibbin (sevgililər sultanı) ləqəbləri ilə də tanınmışdır. Mövlana ləqəbi isə ona hələ gənc yaşlarında ikən Konyada dərs verməyə başladığı zamanlarda verilmişdir. Mövlana ləqəbini ilk dəfə ona Şeyx Sədrəddin Konyəvi vermişdir.

Mövlana Cəlaləddin Rumi (Rumi adı ona Anadoluya (o vaxtlar Anadolu "Diyari Rum" adlanırdı) yerləşib orada yaşadığı üçün, "Əfəndimiz" mənasına gələn Mövlana isə özünə qarşı duyulan böyük hörmətin əlaməti olaraq verilmişdir) indiki Əfqanıstanın Bəlx şəhərində anadan olmuşdur. Rumi o dövrün İslam mədəniyyəti mərkəzlərindən biri sayılan Bəlx qəsəbəsində müəllimlik edən və Sultan-ül Üləma (alimlər sultanı) ləqəbi ilə tanınan Bəhaəddin Vələdin oğlu idi.[1][1]

Sultan-ül Üləma Bahaəddin Vələdin bəzi siyasi hadisələr və yaxınlaşmaqda olan Monqol işğalı səbəbindən Bəlxdən ayrilmağa məcbur olur.Sultan-ül Üləma 1212 və ya 1213 illərində ailə fərdləri və yaxın dostları ilə birlikdə Bəlxdən ayrılır.

Sultan-ül Üləma ilk olaraq Nişapura gəlir.Daha sonra Nişapurdan Bağdada və Küfə yolu ilə Kəbəyə gəlir.Həcc fərzini yerinə yetirdikdən sonra qayədarkən Şamı ziyarət edir.Şamdan

sonra Malatya,Ərzincan,Sivas,Qaysəri,Niydə yolu ilə Qaramana gəlir.Qaramanda Əmir Musanın düzəltdirdiyi mədrəsəsyə yerləşir.

1222-ci ildə Qaramana gələn Sultan-ül Üləma və ailəsi burada 7 il qalır.Mövlana 1225-ci ildə Şərəfəddin Lalanın qızı Cövhər Xatun ilə Qaramanda evləndi.Bu evlilikdən Mövlananın Sultan Vələd və Ələddin Çələbi adında iki oğlu oldu.İllər sonra Cövhər Xatunu itirən Mövlana bir uşaqlı dul qadın olan Kərra Xatun ilə ikinci evliliyini edir.Mövlananın bu evlilikdən də Müzəffərəddin və Əmir Alim Çələbi adında iki oğlu və Məlikə Xatun adlı bir qızı dünyaya gəldi.

Bu illərdə Anadolunun böyük bir qismi Səlcuq dövlətinin hakimiyyəti altında idi.Konya isə bu dövlətin paytaxtı idi.Konya sənət əsərləri ilə əhatə edilmiş,elm adamları və sənətkarlarla dolub daşmışdı.Qısacası Səlcuq dövləti ən parlaq dövrünü yaşayırdı və dövlətin hökmdarı Ələddin Keyqubad idi.Ələddin Keyqubad Sultan-ül Üləma Bahaəddin Vələdini Qaramandan Konyaya dəvət etdi və Konyaya yerləşməsini istədi.

Bahaəddin Vələd sultanın dəvətini qəbul etdi və Konyaya 3 may 1228-ci ildə ailəsi və dostları ilə gəldi.Sultan Ələddin onu möhtəşəm bir ziyafətlə qarşıladı və ona iqamətgah olaraq Altunapa(İplikçi) Mədrəssəsini hazırladı.

Sultan-ül Üləma 12 yanvar 1231-ci ildə Konyada vəfat etdi.Məzar yeri olaraq Səlcuq sarayının Gül baxçası seçildi.Bu gün muzey olaraq istifadə edilən Mövlana Dərgahına dəfn edildi.

Atası Bəhaəddin Vələdin ölümündən bir il sonra, 1232-ci ildə Konyaya gələn Seyyid Bürhanəddin Mövlananın tərbiyəsi ilə məşğul olmuş və Mövlana doqquz il ona xidmət etmişdir.Sultan-ül Üləma öldükdən sonra tələbələri və davamçıları bu dəfə Mövlananın çevrəsində toplandılar.Mövlananı atasının tək varisi olaraq görürdülər.Həqiqətən də Mövlana böyük bir elm və din xadimi olmuşdu,İplikçi mədrəsəsində dərs verirdi.[2][2]

Mövlananın yazdığı əsərləri bunlardır:

- Məsnəvi "Məsnəvi-ye mənəvi"
- Böyük Divan "Divan-i Kəbir"
- Nə varsa içindədir "Fihi Ma-Fih"
- Mövlananın 7 təbliği "Məcalis-i Səb-a"

Cəlaləddin Rumi şah əsəri olan "Məsnəvi-ye mənəvi"ni 1285-1270-ci illərdə yazmış, ömrünün 12 ilini bu əsərin yaradılmasına həsr etmişdir. Altı cilddən, iki misralı eyni qafiyəli beytlərdən ibarət olan bu əsər Hüsaməddin Çələbinin dövründə yazılmış, Şərqin böyük şairi Əbdürrəhman Cami onu "Fars dilində Quran" adlandırmışdır. Mövlana bu əsərdə özünün dini-fəlsəfi görüşlərinin şərhini vermiş, bütün zamanələr və dövrlər üçün qəbul edilən bir əsər ortaya çıxarmışdır. O bu əsərdə Şərq əfsanə, təmsil və rəvayətlərindən geniş istifadə etmişdir. Məsnəvilərin əksəriyyəti dini rəvayətlərdir və bu rəvayətlər "Qurani Kərim" dən götürülmüşdür. Məlumata görə, Cəlaləddin Bəlxi "Məsnəvi-ye mənəvi"nin ilk on səkkiz beytini özü yazmış, qalan hissələrini Hüsaməddin Çələbiyə söyləyərək yazdırmışdır. Mənbələrə əsasən, birinci cild təqribən 656-cı ildə yazılmışdır, ikinci cildə isə 662-ci ilin rəcəb ayının 15-də başlandığı bildirilir. Y.Rüstəmovun "Mövlana Cəlaləddin Rumi. Sufilik fəlsəfəsi" adlı kitabında verilən məlumata görə, bu əsər tamamlanmamış və yalnız orijinalın dilində 500-dən çox əlyazma bizim vaxta qədər gəlib çatmışdır. O, əsərinə Şərq ədəbiyyatında bir janr olan "Məsnəvi" adını vermiş və bütün cildlərdə bunu yeri gəldikcə qeyd etmişdir. Cəlaləddin Ruminin əsərindən əvvəl və sonra onlarla "Məsnəvi" yazılmışdır, ancaq heç biri bu əsər kimi geniş yayılmamışdır. Ümumiyyətlə, "Məsnəvi-ye mənəvi" əsəri yazıldığı tarixdən etibarən böyük bir şöhrət qazanmış, başda Mövləvilər olmaqla, bütün təsəvvüf və ədəbiyyat aşiqləri tərəfindən sevilmişdir. Bir sözlə, bu əsər sufi poeziyasının zirvəsi hesab olunur[3][3.səh 36-437]. Mövlananı digər sufi ədib və mütəfəkkirlərdən fərqləndirən

çox mühüm cəhətlər var və onun qeyd olunan populyarlığında bu cəhətlər mühüm rola malikdir. Bunlardan birincisi, Mövlananın dialektik düşüncə tərzidir. Mövlana öz böyük sələflərinə nə qədər hörmətlə yanaşıb onlardan faydalansa da, hədsiz qədrdanlıqla:

"Əttar ruh idi, Sənai onun iki gözü;
Biz Sənai və Əttarın ardınca gəldik"

söyləsə də, bu mükəmməl dialektika adı çəkilən şairlərin heç birinə xas deyil. Onu da deyək ki, dahi alman filosofu Hegel öz dialektik təlimini yaradarkən Rumidən bəhrələndiyini gizlətməmişdir. Mövlanaya görə, dünya əksliklərdən (ziddiyyətlərdən) ibarətdir, onlar arasında daim mübarizə gedir, amma onlar həm də ayrılmazdır, biri digəri vasitəsilə dərk olunur. Əksliklərin mübarizəsi həmahənglik, harmoniya əldə olunması üçündür:

" Həyat əksliklərin barışmasıdır;
Onlar arasında müharibə – ölüm deməkdir."

Üstəlik dünyada hər şey dəyişkən və nisbidir (məsələn, zəhər ilan üçün həyat, insan üçün ölümdür). Kainatda hər şey əbədi hərəkət və yeniləşmədədir.

Eşq – ürəyin dilidir. Bu dili bilməyənin başqasını anlaması (lap eyni dilin daşıyıcısı olsalar da) çətin məsələdir. Odur ki, Mövlana ürək birliyini dil və din birliyindən üstün tutur. Bu mənada «Məsnəvi»dəki kiçik bir hekayət çox ibrətamizdir: Küçə ilə gedən türk, fars, ərəb və yunana kimsə bir dirhəm pul verir. Fars bu pula «ənqur», ərəb «enəb», türk «üzüm», yunan isə «stafil» almağı təklif edir (bu sözlərin hamısı müvafiq dillərdə «üzüm» deməkdir – M.M.). Bir-birini anlamayan yoldaşların mübahisəsi davaya çevrilir və onlar bilmirlər ki, hamısı elə bir şey istəyir. Mövlanaya görə, bu halda münaqişəyə səbəb onların dillərinin müxtəlifliyi yox, birbirinin ürəklərinin istəyini başa düşə bilməməsidir. Kamil insan üçün isə bu problem sadəcə mövcud deyil. O, nəinki insanların, həm də quşların, heyvanların, ağacların, daşların dilini bilir və başa düşür. Mövlana bir şerində yazır:

"Nə tədbir, ey müsəlmanlar, mən özümü tanımıram,
Nə xristianam, nə yəhudi, nə atəşpərəstəm,nə də müsəlman!
Nə şərqliyəm, nə də qərbli, nə qurudanam, nə də sudan.
Nə yerdəki mədəndənəm, nə də fırlanan göydən.
Nə Hindistandanam, nə də Çindən, nə Bolqardanam,
nə də Türküstandan.
Nə iki İraq mülkündənəm, nə də Xorasandan...
İkiliyi özümdən uzaqlaşdırdım, iki aləmi bir gördüm.
Birlik axtarıram, birliyi anlayıram, birlik görürəm,
birlikdən danışıram! "

Bəşəri birlik və anlaşmanın yəqin ki, bundan gözəl himni ola bilməz. Təəssüf ki, siyasi-ideoloji çəkişmələrlə, milli ədavət və etnik münaqişələrlə, irqi və dini ayrıseçkiliklə, sosial bərabərsizlik və haqsızlıqlarla dolu olan dünyamız Mövlananın bu idealından hələ çox uzaqdır. Amma bu gün bütün bəşəriyyət nüfuzlu beynəlxalq təşkilatın bayrağı altında Mövlananın yubileyini qeyd edirsə, deməli, təsəlli var, bu idealın gerçəkləşəcəyinə ümid qalır. Mövlananın ruhunun şadlığı və əsl bayramı da məhz o zaman olacaq[5[4.səh 44-650]].

Mövlana Cəlaləddin Rumi və onun əsərləri haqqında müxtəlif tədqiqatçılar çoxsaylı şərhlər yazmışlar. Səzai Qaraqoç Mövlanaya dərin hörmət,heyranlıq və sevgi bəsləyir,bu duyğularını öz ifadələrində də əks etdiririrdi.Təməldə bir dərslik kimi gördüyü Məsnəvini Qaraqoç, Quran əxlaqı ilə tərbiyə olunub rəhmani sifətlərlə əhatə olunmaq və güclənmək üçün bərəkətli bir qaynaq olaraq düşünürdü.O bu haqda öz görüşlərini belə ifadə edirdi:"Məsnəvini oxumağa başlamaq,onunla həmhal olmaq ,illərcə onunla yoğrulmaq,bir dəyişmə müddətinə girmək və onu yaşamaqdır.Şeyxin o böyük söhbətinə qulaq asan,əvvəlki kimliyini içəri

girərkən qapıda qoyduğunu hiss edir. Qapıdan çıxarkən isə sanki yeni bir insan olaraq çıxacaqdır.Məsnəvi bir maarifləndirmə tədrisidir. Tanrıya çatmaq,hər an Tanrıyla olduğunun fərqində və şüurunda olmaq yolunu açan aydınlıq bir xətdir.Çoxluqda Tək olanı,əsəri və təsiri ilə idrak edib tək olmadığını bilməyin xoşbəxtliyinə bir çağırışdır.İnancları,əxlaqı,görüş və baxışı düzəltmək və doğrultmaq yolu,min bir üsul göstərilərək danışılmışdır.Min bir labirintdən keçirsiz.Amma sonunda çıxacağınız yol Sırat-i Müstəqimdir[7][5.səh820] ."

*"Divani-Kəbir"* təsəvvüf qəzəlləri və rübailəri birləşdirən böyük mənzum əsərdir. Mənbələrdə bu kitabdakı qəzəllərdə Şəmsəddin Təbrizinin adını tez-tez çəkdiyinə görə həmin əsəri "Divani Şəmsi Təbrizi" və ya "Qəzəliyyat-e Şəmsi Təbrizi" adlandırırlar. Y.Rüstəmovun "Mövlana Cəlaləddin Rumi. Sufilik fəlsəfəsi" kitabındakı qeyddə bildirilir ki, "Divani Kəbir"də beytlərin sayı 44834-dür, həmin saya 1765 rübaini, yəni 3530 beyt də əlavə edilsə, beytlərin ümumi sayı 48364 olur. Ümumiyyətlə, əsərdəki beytlərin ümumi sayı müxtəlif cür göstərilir. Mövlananın Şəmslə başladığı söhbətlərdən sonra coşğun duyğularla öz ruhi halətlərini bəyan etdiyi, qəzəl, qəsidə, tərcibənd, müstəzad, rübailəri və divan ədəbiyyatının digər nəzm ilə söylənmiş mənzumələri yığılaraq bir divan şəklinə salınmışdır.

"*Fihi-ma fihi*" (Onun içindəki içindəkidir) Mövlananın xüsusi ev məclislərində, mədrəsədə, təkkədə və digər yerlərdə etdiyi söhbətlərin və oxuduğu moizələrin birbaşa oğlu Sultan Vələd və ya başqa yaxın müridlər tərəfindən toplanılaraq kitab halına salınan bir əsərdir ki, yalnız Cəlaləddinin vəfatından sonra tərtib edilmişdir. Əsərin əsas mövzusunu təşkil edən hissələrin yanında, fəsillər verilmişdir və bu fəsillərdə dahi sufi şairinin ətrafına yığışan insanların verdiyi suallar və mütəfəkkirlərin cavabları yer tutur. "Fihi-ma fihi" əsərinin bəzi hissələri Mövlananın yaxın dostu, Səlcuqilər dövlətinin vəziri və sonra başçısı, elm və maarifə böyük maraq göstərən Müinəddin Süleyman Pərvanəyə xitabən söylənmişdir.

"*Məcalesi-Səbəə*" əsəri Cəlaləddin Ruminin etdiyi vəzlərdən yeddisində söylədiyi sözlərin bir tələbə və ya müridi tərəfindən yazılması nəticəsində meydana gəlmişdir. Burada dini-əxlaqi, xüsusən sufi mövzular əsas yer tutur. Tanrının qüdrəti, ululuğu tərif edilir, Qurandan ayələr, hədislərdən misallar gətirilir və bəzi hekayələr, şerlər söylənilir. "Fihi-ma fihi" əsəri kimi, bu əsər də Cəlaləddin Ruminin vəfatından sonra tərtib edilmiş, müxtəlif dillərə tərcümə olunmuşdur.

Mövlananın yeddi məclisində şərh etdiyi hədisi şəriflərin mövzuları baxımından təsnifi belədir:Düz yoldan ayrılmış cəmiyyətlərin hansı yolla xilas olacağı, Günahdan qurtuluş, Ağıl yolu ilə qəflətdən oyanış, İnancdakı qüdrət, Tövbə edib düz yolu tapanlar Allahın sevgili qulu olarlar, Biliyin dəyəri, Qəflətə qərq oluş, Ağlın önəmi.

"*Məktubat*" əsəri Cəlaləddin Rumin yaşadığı dövrdə Səlcuq dövlətinin rəhbərlərinə, başda sultan olmaqla vəzirlərə, əmirlərə, dostlarına hər hansı mövzu ətrafında, müxtəlif şəxslərə yazdığı 145 məktubdan ibarətdir ki, şairin vəfatından sonra müxtəlif mənbələr və qaynaqlar arasından seçilib toplanmışdır. Burada ayələr, hədislər, öyüdnəsihətlər verilir[9][3.səh 35-1036]

Sözsüz ki,Mövlananın həyatındakı ən önəmli hadisələrdən biri onun Şəms Təbrizi ilə tanış olmasıdır. Mövlananın həyatı sufi şairi Şəmsəddin Təbrizi ilə tanışlıqdan sonra tamamilə dəyişir. O, Şəmsəddin Təbrizini mənəvi müəllimi, özünü isə onun dinləyicisi və şagirdi elan edir.

Mövlana Cəlaləddin Ruminin istedadının ayrılmaz cizgilərindən biri onun musiqi qabiliyyəti, ritmi qeyri-adi şəkildə duyma bacarığı olmuşdur. Şəmsəddin Təbrizi qeyb olduqdan sonra Mövlana tez-tez yığıncaqlar keçirir, yazdığı qəzəlləri musiqi sədaları altında ritual səviyyəsində oxunmasını, rəqslər edilməsini təşkil edirdi.

Həyatını “Çiydim,bişdim,yandım” sözləri ilə ifadə edən Mövlana 17 dekabr 1273-cü ildə bazar günü vəfat edir.Mövlananın cənazə namazını vəsiyyətina uyğun olaraq Sədrəddin Konevi qılacaqdı.Lakin Sədrəddin Konevi çox sevdiyi Mövlananı itirməyə dözmür və cənazədə huşunu itirir.Bundan sonra isə cənazə namazını Qazi Siracəddin qıldırır.

Mövlana ölüm gününü yenidən doğuş günü olaraq qəbul edirdi.O öldüyü zaman sevdiyinə,yəni Allahına qovuşacaqdı.Ona görə də,Mövlana ölüm gününə toy günü və ya gəlin gecəsi mənasına gələn “Şəb-i Arüs” deyirdi və dostlarına ölümünün ardından ah-vah edib ağlamayın deyə vəsiyyət edirdi.

Ədəbiyyat


1. https://az.wikipedia.org/wiki/M%C3%B6vlana_C%C9%99lal%C9%99ddin_Rumi {Mövlana Cəlaləddin Rumi haqqında ümumi məlumat}
2. https://www.antoloji.com/mevlana-celaleddin-rumi/hayati/ {Mevlana Celaleddin Rumi: Hayatı, Biyografisi, Eserleri}
3. Hikmət № 12, Səidə Məmmədova:”Mövlana Cəlaləddin Ruminin yaradıcılığının tədqiqatı barədə” ; Bakı,2008 (750 s.)
4. Məsiağa Məhəmmədi. Şəms və Mövlana. – Bakı: “Nurlan”, 2010. (61 s.)
5. KARAKOÇ Sezai, Mevlâna, Diriliş Yayınları, İstanbul 1996 (245 s.)
6. Elm və İnnovativ Texnologiyalar Jurnalı;Nömrə 9, 2019 (105 s.)


## AZƏRBAYCAN DƏRSLİKLƏRİNİN İNKİŞAFINDA “BƏSİRƏTÜL-ƏTFAL”IN ROLU


**Rüstəmova Ülkər Elçin qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Görkəmli pedaqoq Rəşid bəy Əfəndizadə XIX-XX əsrlərdə elmin, maarifin inkişafında böyük xidmətləri olan pedaqoji fikir ustadlarından biri kimi tanınır. Onun müəllifi olduğu bir neçə dərsliyin elmin inkişafına xüsusi töhfələr verdiyi danılmaz bir faktdır. R.Əfəndizadənin “Uşaq bağçası” kitabından sonra İstanbulda işıq üzü görən daha bir kitabı “Bəsirətül-ətfal” dərsliyidir (1). “Bəsirət” ərəb sözü olub “gözüaçıqlılıq, idrak, dərrakəlilik” mənalarını ifadə edir. “Ətfal” sözü də ərəb dilindən götürülmüş, mənası "tifil" - uşaq ifadəsinin cəmidir. Beləliklə, "Bəsirətül-ətfal" ifadəsi məhz “Uşaqların gözüaçıqlığı” fikrini ehtiva edir.

R.Əfəndizadə Zaqafqaziya Müəllimlər Seminariyasında çalışmağa başlayarkən, işlədiyi şöbənin tələbələrinin istifadə edə biləcəyi Azərbaycan dilində lazimi bir dərslik, kitab yox idi. Bununla əlaqədar olaraq, daha öncədən Tiflisdə tərtib etdiyi bir qiraət kitabını “Bəsirətül-ətfal” ismi ilə 1901-ci ildə Bakıda mindən çox nüsxə tirajla nəşr etdirərək seminariyada tələbələrin istifadə etməsinə şərait yaratdı.

İstanbulda işıq üzü görən “Bəsirətül-ətfal” ümumi olaraq 128 səhifədən ibarətdir. Dərslik 2 hissədən–fəsildən (babdan) ibarətdir. İlk bab daha geniş, əhatəlidir. Sonrakı(ikinci) bab isə 90-cı səhifədən davam etməyə başlayır. Yenidən ərsəyə gətirilən nəşrlərdə isə mövzulara uyğun otuza yaxın yeni şəkil var. Bu şəkillərin müəllifinin də V.A.Taburin olması şübhəsizdir. Belə olduğu halda, Rəşid Əfəndizadə və V.Taburinin qarşılıqlı söhbətləşdiyi fikrinə gəlmək olar. Çünki, bu çizgilər mövzu ilə bilavasitə bağlıdır. Burdan da, belə düşünmək olar ki, Azərbaycan dilində bilməyən böyük rəssama bu mövzuların izahatını verən rus dilini rusların özündən yaxşı bilən R.Əfəndizadə yalnız özü olacaq.

Müəllif “Uşaq bağçası” dərsliyində olduğu kimi, bu kitabında da şagirdlərdə oxu texnikasını, savad təlimini gücləndirmək, uşaqlarda tərbiyənin düzgün aparılması, əxlaqın saflaşdırılması məsələlərini əsas götürərək, bunlara xüsusi diqqət etmişdir.

Pedaqoq "Bəsirətül-ətfal"dərsliyini ərsəyə gətirərkən öyrənənlərin yaş və bilik xüsusiyyətlərini, səviyyələrini əsas götürmüşdür. "Bəsirətül-ətfal" dərsliyini daha dolğun, ətratlı və obyektiv dəyərləndirən F.Köçərli belə söyləmişdir: "Bu il R.Əfəndiyevin "Bəsirətül-ətfal" və M.S.Seyidovun "Kitabi-xəzanül-ətfal" adlı iki müntəxabatı çapdan çıxmışdır. Hər iki müntəxabat yuxarı yaşlılar üçün tərtib edilmiş və onlarda həm zəngin tərcümələr, həm də orijinal material vardır. Bu müntəxabatlar çox ağıllı və yaxşı tərtib olunmuşdur" (2, s. 79).

Dərsliyin ilk səhifəsi "Bismillahir-rəhmanir-rəhim" başlığı ilə başlayır, davamı isə üç hissədən (fəsildən, babdan) ibarətdir. I fəsil "Babi-əvvəl" adlanır və burada əks olunan hekayələrin bəzisi nəzm əsərləri, bəziləri isə nəsr əsərləridir. Hissələr arasında ən çox səhifələri əhatə edən bu fəsildə verilən nəzm və nəsr əsərləri nəzərə çarpacaq dərəcədə təbiət mövzusuna həsr olunub. I fəsil bir qismi nəzm, bir qismi nəsr olan kiçik hekayələrdən ibarətdir. Nəzm əsərləri olan şeirlərin müxtəlif janrlarına rast gəlinir : qəzəl, dördlük, müxəmməs, yeddilik qitə.

Müxəmməs şəklində olan şeirlərdən biri "Bahariyyat" şeiridir. Şeirdə baharın gözəlliyinə olan sevgi, məhəbbət hisləri "Nə gözəldir" rədifində tərənnüm olunur. Bu rədifdə hər tərəfdə qumru və bülbülün cəh-cəh vurması, Novruzun gəlişi ilə təbiətin canlanması təsvir olunur:

Bir yanda vurur cəh-cəhin qumru və bülbül,
Bir yanda açır qönçəsini türfə qızıl gül (1, 401).

Təbiətlə əlaqədar daha bir əsəri olan "Su" qəzəlində müəllif təbiətdə demək olar ki, hər şeyin əmələ gəlməsində suyu əsas götürür. Pedaqoq dünyanın məhvinin səbəblərindən birinin su olduğunu, cənnətdə ziynət su ilə yaranır fikrini qeyd edirdi. Rəşid bəy Əfəndiyevin çox zaman şeirlərində rast gəlinən "Şaki" təxəllüsü qəzəlin son beytində də müşahidə olunur.

Şükr eylə, Şaki bunca çox hikmət su ilədir (1,s. 401).

"Uşaqların meşədəki əhvalı" adlanan mənsur hekayədən dərhal sonra, mənzum hissə vardır ki, bu hissənin də başlanğıcında meşədə gəzməyin bir faydası, xeyri olmadığını söyləyir. Bu hekayə insan övladı üçün ən vacib sayılan məsələlərdən biri olan, elmə, təhsilə, məktəbə çağırışı özündə göstərir:

İnsan gərək hər gün getsin məktəbə-məktəbə,
Axırda kəsb etsin artıq mərtəbə-mərtəbə (1, s. 401)

Məktəbə, təhsilə, elmə çağırış daha bir neçə əsərlərində də yer alır: "Yusif Nabinin oğlu Məhəmməd Çələbiyə nəsihəti" , "Qələm", "Elmin şərafəti", "Seyid Əzimin oğlu Mircəfərə nəsihəti", "Elm tükənməz xəzinədir" və "Alim ilə müəllimin hörməti"

Müəllimin uşaqlara ünvanlanan "Elmin şərafəti" adlanan nəzm parçasında ən müsbət keyfiyyətlərdən biri olan - "Quran"a ilahi sevgi, məhəbbət və məktəbə həvəslənmə, çağırış öz əksinin taparaq belə ifadə olunmuşdur:

Hər işə nicat var Qurandan,
Sərçeşmeyi-elmdir bu Quran....
...Get məktəbə hər zaman uşaqlar (1, s.401).

Doğma vətənə, yurda məhəbbət məzmunu, dərslikdə yer alan "Doğma yurd" və "Vətən məhəbbəti" kimi mənsur və mənzum parçalarının əsas qayəsini təşkil edir.

Rəşid bəy Əfəndiyev yaradıcılığını yüksək qiymətləndirən prof. C.Əhmədov onun tədris materiallarının, vasitələrinin mənimsənilməsində əsas götürərək istifadə etdiyi üsul, priyom və vasitələrdən danışarkən öz fikirlərini belə ifadə edir: " Tədris materiallarının mənimsənilməsində metodik müqayisənin rolu böyükdür. Müqayisə üsulundan "Bəsirətül-ətfal"ın tərtibində də istifadə olunmuşdur. Məsələn, uzaq səfərə çıxan, vətəndən uzaqlarda təhsil almağa gedən bir gəncin "Doğma yurd"la bağlı ürək çırpıntılarını nəsrlə ifadə edən bir yazı ilə kifayətlənməyən müəllif, verilən məlumatı tamamlamaq üçün müqayisəli surətdə "Vətən məhəbbəti" şeirini də dərsliyə daxil etmişdir" (3, s. 85).

Dərslikdə verilmiş "Vətən məhəbbəti" adlı qəzəl 14 beytdən ibarətdir. Bu qəzəldə vətən cənnətlə qarşıya qoyularaq müqayisə edilir, ən maraqlısı isə vətən-qürbət anlayışlarının

qarşılaşdırılması daha ön planda göstərilir. Qəzəldə qürbətdən uzaqlaşıb Vətənə qayıtmaq tövsiyə olunur:

Dayanma, bəsdir,Şaki, qürbət içrə qaldığın bunca,
Qayıt, qayıt vətənə, ol məcid, hərçe fürsətdir (1, s. 402).

"Bəsirətül-ətfal" dərsliyinin nəzm hissələrində rus ədəbiyyatından tərcümələrə də rast gəlinir. Tərcümələr haqqında öz dəyərli fikirlərini bölüşən Akademik M.Arif belə yazır: "XIX əsrin sonlarından başlayaraq, Krılovun təmsilləri Azərbaycanda hər zaman dərs kitablarının zinəti, məktəblilərin ən çox sevdiyi əsərlərdən olmuşdur. Dərs kitabları ilə məşğul olan müəllif və yazıçılarımız Rəşidbəy Əfəndizadə və başqaları Krılovsuz ötüşməmişlər" (4,s. 102).

Dərslikdə Krılovun təmsilləri arasında "Ayna və meymun" və "Kəndli və ilan " məxsusi olaraq diqqəti cəlb edir.

Birinci təmsildə təkəbbürlülük mənfi xüsusiyyət kimi çıxış edərək öz nöqsan, eybini görmək, ikinci təmsildə isə ilana güvənməmək, etibar etməmək kimi fikirlər təlqin olunur. Bu təmsildə ilan kəndliyə yoldaşlıq təklif edər, kəndli isə öz növbəsində fikrini belə ifadə edər:

İlana etibarımız olmaz,
İlanın başı heç sağ qalmaz.

Dərsliyin II fəslində şagirdlərin qəlbinə yol tapan, onlara ibrətamiz şəkildə təsir göstərən ədəbiyyat və təlim-tərbiyə məsələlərinə dair parçalar verilmişdir. "Ədəbiyyat xüsusunda" adlanan bu fəsil, sanki bir müntəxabatı xatırladaraq klassik Azərbaycan ədəbiyyatından nümunələrlə zəngindir.

Hissələr arasında olan "Azərbaycan ədəbiyyatı" mübahisəli fikirləri ilə seçilir. Dərslik müəllifi klassik ədəbi dilimizin ərəb və fars sözləri ilə zəngin olmasından şikayətlənir və hətta Zakir və Vaqif kimi şairlərin "İran səpkisi"ndə yazdıqlarını qeyd edir . Burada M.Füzulinin "Divani-Qəzəliyyat" və "Leyli və Məcnun"unun dərs kitabları kimi istifadə olunduğu qeyd olunur.

"Şairin vəzifəsi" adlı şeir parçasında məzmunun həqiqətə uyğun olması, ustad şairin ifadə etdiyi fikrin aqilanəliyi tələb olunur:

Məzmuna bax, həqiqi məcaz ilə et qiyas :
Mizan şeiri vəzni, rədifi bəhanədir .

"Nəsr yazı" adlanan hissədə məktub, təbriknamə, dəvətnamə, təziyətnamə (başsağlığı) yazmaq qaydasına aid nümunələr verilir (1, s.108-109).

R. Əfəndizadə dərsliyində tərbiyədə 3 cəhəti əsas götürür: əxlaqi, əqli və fiziki tərbiyə. O bu cəhətdən fikirlərini belə ifadə edirdi : "Hər kəs bədəncə, ruhca və əxlaqca üç qisim tərbiyəyə möhtacdır... Bu üç qisim tərbiyədən məhrum olan şəxs həqiqətdə adam cərgəsində sayılmaz.

R.Əfəndiyevin sözügedən "Bəsirətül-ətfal" adlı dərsliyi konkret bir metodik prinsiplərə söykənən ideal bir mənbə hesab edilə bilər. "Bəsirətül- ətfal" dərsliyinin ən yaxşı cəhətlərindən biri budur ki, burada uşaqlara məktub yazmaq, təbrik etmək, ərizə və digər əməli yazılar qaydaları haqqında dəyərli məlumatların verilməsidir... Rəşid Bəy Əfəndiyevin dərslikləri uzun müddət Azərbaycan məktəblərində geniş istifadə edilmiş və Azərbaycan məktəblilərinin bütöv bir nəsli bu kitablardan bəhrələnmişlər" (5, s.433).

Bu kitab tək dərslik deyil, həmçinin bütün tərbiyəvi xüsusiyyətləri özündə ehtiva edən klassik ədəbiyyat nümunələri, tərcümələrlə zəngin olan ədəbiyyat toplusu, dəyərlər xəzinəsidir.

Ədəbiyyat

1. Əfəndiyev R. Bəsirətül-ətfal (II nəşr) İstanbul: Mamudbəy mətbəəsi. 1907, 128 s.
2. Köçərli F. Azərbaycan ədəbiyyatı -seçilmiş əsərləri. Bakı: EA nəşri, 1963, 341 s.
3. Əhmədov C. Azərbaycan ədəbiyyatının tədrisi tarixindən. Bakı: Maarif 1971, 204 s.

4. Abdullayeva Ü. R.Əfəndiyevin "Bəsirətül-ətfal" dərsliyi. //Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal.-2022.- №1(118).- s.401-403.
5. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Dərs vəsaiti. Bakı: Mütərcim, 2020, 538 s.

## XÜLASƏ

Məqalədə XX əsr dərslikləri arasında özünəməxsus xüsusiyyətləri ilə seçilən, o dövrün elmi inkişafında misilsiz xidmətlər göstərən, metod və üsullarına görə metodiki əhəmiyyətə malik olan “Bəsirətül-ətfal”ın ərsəyə gəlməsi, həmin tarixi zamanda olan rolundan və əsərlərdən parçalar, onların məzmunundan danışılır. Görkəmli pedaqoq Zaqafqaziya Müəllimlər Seminariyasındakı təhsil alan azərbaycanlıların təhsilindəki ehtiyaclara biganə qalmayaraq, müəllifi olduğu sadəliyi, məzmunu ilə seçilən dərsliyi ərsəyə gətirmişdir.
Araşdırmalar göstərir ki, dərsliyin I hissəsini təbiətin gözəlliyinin tərənnümü, məktəbə, bilikli olmağa çağırış, əxlaqi davranışları təzahür edən dəyərlərin ifadə olunduğu nəzm və nəsr parçaları öz əksini tapmışdır.Bu parçalar müəllifin ədəbiyyatımızdan bəhrələnərək istifadə etdiyi materiallar, özünün müəllifi olduğu və digər xarici yəni, rus ədəbiyyatından seçib tərcümə etdiyi şeir, parça və hekayətlərdir.

Dərsliyin növbəti II hissəsində Azərbaycan ədəbiyyatının müxtəlif növ, janrları, həmçinin əruz vəzninin də xüsusiyyətlərini daşıyan nəzm və nəsr əsərlərinə də geniş şəkildə yer verilmişdir. Tədqiqat nəticəsində görürük ki, R.Əfəndiyevin müəllifi olduğu bu dərslik pedaqoji məzmun baxımından dəyərli mənbə olmaqla yanaşı, həmçinin metodiki-tədrisi mənbə kimi də bu günümüzdə də öz istifadəsində aktuallığını qoruyub saxlamaqdadır.

***Açar sözlər:*** *Bəsirətül -ətfal, dərslik, hekayə, hissə(bab), şeir, metodika*

## SUMMARY

The article talks about the creation of "Basiratul-atfal", which stands out among the textbooks of the 20th century for its unique features, provided unparalleled services in the scientific development of that time, and has methodological importance due to its methods and methods, its role in that historical period, fragments of the works, and their content. Not being indifferent to the educational needs of Azerbaijanis studying at the Transcaucasia Teachers' Seminary, the outstanding educator created a textbook that was distinguished by its simplicity and content.

The research shows that the first part of the textbook contains poems and prose pieces that praise the beauty of nature, call to school, to be knowledgeable, and express values that manifest moral behavior. poems, pieces and stories that he selected and translated from his literature.

In the second part of the textbook, various types and genres of Azerbaijani literature, as well as verse and prose works, which have the characteristics of Aruz verse, are widely included. As a result of the research, we see that this textbook, authored by R. Efendiyev, is not only a valuable resource in terms of pedagogical content, but also maintains its relevance in its use today as a methodical-educational resource.

***Key words:*** *Basiratul-atfal, textbook, story, part (chapter), poem, methodology*

# XIX ƏSR ANA DİLİ DƏRSLİKLƏRİ

**Rüstəmova Ülkər Elçin qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Elmi tələblərə uyğun yeni pedaqoji dərsliklər 19-cu əsrin ortalarında meydana gələrək Azərbaycan dilinin tədrisinin inkişafında bilavasitə rol oynadı. Yeni metodiki üsulları özündə cəmləşdirən yeni dərslik yaratmaq yolunda ilk addımın görkəmli mütəfəkkir M.F.Axundzadə tərəfindən atıldığını görürük.

Ana dili tədrisinin əsas məsələləri sırasında başlıca rol oynayan "Savad təlimi" məhz müəllifin "Əlifba" dərsliyində əks olunmuşdur. Dərslikdə savad təlimi kommunikativ-idraka əsaslanaraq, ilk oxu təlimi olan səsin təhlil-tərkib metodunun köməyi ilə aparılır.

İlk dərsliklərimiz sırasında 1839-cu ildə Tiflisdə çap olunan "Türki-Əlifbey («Татağский букваğ») və "Təmsillər və hekayələr" kitablarını misal göstərə bilərik. (1, s. 235). Dərsliklərin yaradıcısı Qafqaz məktəblərinin direktoru vəzifəsində çalışan Nikolay Dementyevdir. Ərsəyə gətirdiyi dərslikləri çalışdığı regionun məktəbləri ilə yanaşı, Azərbaycan məktəblərində də tədris olundu.

"Türki-Əlifbey" dərsliyində hərflərin öyrədilməsi uşaqların öyrənməsi üçün ən sadə üsul - səs üsulu əsasında qurulmuşdu.

Əsrin ortalarına doğru dərsliklərin hazırlanması sahəsindəki inkişaf artıq qrammatika ilə bağlı dərsliklərin hazırlanmasına gətirib çıxardı. 1839-cu ildə yazılan Mirzə Kazımbəyin "Türk-tatar dilinin qrammatikası" kitabı ilk qrammatik dərsliklər sırasındadır. (1, s. 237). Dərslik iki nüsxə və üç fəsildən ibarətdir.

Birinci nüsxədə müəllif diqqətimizi türk dilində söz onlüklərinin olmamasına yönəldir. O, sözün bu forma sını qoşma adlandırmağı daha uyğun hesab edərək bir sıra qoşma nümunələrini sadalayır: ötrü, üzrə, əvvəl, üçün, kimi, başqa, doğru və s. (3, s. 356-357).

Əsrin 60-cı illərində S.Ə.Şirvani öz dilimizdə yaratdığı " Rəbiül-ətfal" dərsliyi mütərəqqi cəhd olaraq hesab edilirdi. Bu dərslik illərlə təcrübədən keçirilmiş metodistlərinin axtarışlarının nəticəsidir. Dərsliyin I hissəsində öyüdlər, lətifələr, mənzum hekayələr yer alır. Dərsliyin davamı olan II hissə isə nəsr parçalarından ibarətdir. Dərslikdəki materiallar üzərində ümumiləşdirmələr, müqayisələr, təhlillər ustalıqla verilmişdir. Həmçinin bu dərslik sonradan "Müntəxəbat" adı ilə bir daha işlənmişdir. Dərslikdəki materiallardan Çernyayevski "Vətən dili" adlı dərsliyində də istifadə etmişdir.

"Vətən dili" dərsliyi tərbiyəvi məzmunu ilə seçilərək özündə uşaqların qiraət vərdişlərini inkişaf etdirən tapmacaları, atalar sözlərini və s. kimi ədəbi nümunələri birləşdirir. Əlifba dərslikləri arasına daha çox sistemliliyi və təkmilləşdirilməsi ilə seçilən Mirzə Ələkbər Elxanovun 1880-ci ildə yazdığı "Azərbaycan dili əlifbası" adlı dərsliyi də daxildir. M.Ə.Elxanov otuz il müddətində İrəvanda dövlət məktəblərində pedaqoji fəaliyyətini Azərbaycan dili və ədəbiyyat müəllimi olaraq başa vurmuşdur.

Görkəmli mütəfəkkir N.Nərimanov ana dili məsələləri ilə məşğul olaraq, bu sahədə zəngin izlər qoymuşdur. Müəllifi olduğu kitab uşaqların yaş və psixoloji qavrama səviyyəsinə uyğun olaraq, onlarda ilkin oxu,, yazma vərdişlərini yaradır. Ana dilini və onun qayda-qanunlarını yaxşı öyrədən, dövrün tələblərinə cavab verə biləcək dərslik tərtib etmək kimi çətin, məsul vəzifəyə girişmiş və "Türk-Azərbaycan dilinin müxtəsər "sərfi nəhfi" adlı kitabını 1899-cu ildə Bakıda çap etdirmişdir. (1, s. 239).

Beləliklə, 19-cu əsrin 30-cu illərindən başlayan ana dilində tədris vəsaitlərinin nəşr edilməsi sahəsində atılan ilk addımlar öz töhfəsini verdi. Şagirdlərin Azərbaycan dilində olan ədəbiyyat nümunələri, əlifba ilə tanışlığı və onların ilkin oxu və yazma vərdişlərinə, dilimizin qrammatikasına yiyələnmələri bunun bariz nümunəsidir.

## XÜLASƏ

Tezisdə XIX əsrdə elmi - metodiki əhəmiyyətə malik olan ana dilli dərsliklərin yaranması və onların əhatə etdiyi məsələlərdən danışılır. Bundan başqa dərsliklərin arasında savad təlimi məzmunu ilə seçilən kitabların da adı çəkilir. Ana dilimizdə oxu və yazının əsasının qoyulmasında əsas rol oynayan ilk əlifba dərslikləri və onların müəllifləri mövzularına toxunulur. Azərbaycan dili qrammatik qanunauyğunluqlarının ilkin məlumatlarını özündə birləşdirən türk-tatar qrammatikası kitabı və onun birinci fəsli haqqında məlumat da yer alır.

**Açar sözlər:** XIX əsr, dərslik, əlifba, savad təlimi, qrammatika.

## SUMMARY

The thesis talks about the emergence of mother tongue textbooks of scientific and methodical importance in the 19th century and the issues covered by them. Apart from that, among the textbooks, there are also books that are distinguished by their literacy content. The topics of the first alphabet textbooks and their authors, which play a key role in laying the foundations of reading and writing in our mother tongue, are touched upon. Information about the Turkish-Tatar grammar book and its first chapter, which includes the initial information on the grammatical rules of the Azerbaijani language, is also included.

**Key words:** 19th century, textbook, alphabet, literacy training, grammar.

Ədəbiyyat

1. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Dərs vəsaiti. Bakı: Mütərcim, 2020, 538 s.
2. H.M.Əhmədov. “Azərbaycan məktəb və pedaqoji fikir tarixi” Bakı,ABU,2001, 320 səh
3. Мирза Казем-Бек. Грамматика турецко-татарского языка. Казань - 1839
4. Y.Ş.Kərimov. “Ana dilinin tədrisi metodikasıHüseynzadə” Bakı. “KÖVSƏR”nəşriyyatı. 2011.564 səh

# İBTİDAİ SİNİFLƏRDƏ RİYAZİYYAT FƏNNİNİN TƏDRİSİNDƏ QİYMƏTLƏNDİRMƏNİN ƏHƏMİYYƏTİ

**Rzaquliyeva Həmayil Valeh qızı**
*Azərbaycan Dövlət Pedaqoji Univeristeti*

Qiymətləndirmə təlimin ayrılmaz hissəsidir, çünki o, təhsilin məqsədlərinə nail olub-olmadığını müəyyən edir. Qiymətləndirmə qiymətlər, yerləşdirmə, irəliləmə, tədris ehtiyacları, kurrikulum standartları ilə bağlı qərarlara təsir göstərir. Bu günün tələbələri təkcə hesab bacarıqlarını deyil, həm də onlara daim dəyişən dünya ilə qarşılaşmağa imkan verəcək bacarıqları bilməli olduqlarını aşılayır. Onlar tənqidi düşünməyi, təhlil etməyi və nəticə çıxarmağı bacarmalıdırlar. Şagirdlərin ehtiyac duyduğu bacarıq bazası və biliklərindəki dəyişikliklər yeni təlim məqsədləri tələb edir; bu yeni təlim məqsədləri qiymətləndirmə və təlimat arasındakı əlaqəni dəyişdirir.

Şagirdlərin akademik nailiyyətlərinin qiymətləndirilməsi tələbələrin öyrəndiklərini söylədiyimiz şeyi öyrənib-öyrənməmələrinin qiymətləndirilməsi prosesidir. Daha konkret desək, qiymətləndirmə şagirdlərin öyrənmə və inkişafını artırmaq üçün məlumatların sistematik şəkildə toplanması, nəzərdən keçirilməsi və istifadəsidir.

Qiymətləndirmə bir neçə səbəbə görə vacibdir:

- ✓ Qiymətləndirmə nəticələri kurrikulumda, tədris metodologiyasında, tədris materiallarında və ya digər sahələrdə dəyişikliklər vasitəsilə tədris proqramlarını necə təkmilləşdirə biləcəyini müəyyən etməyə kömək edən keyfiyyətli məlumat təqdim edir. Kurrikulumun hazırlanması və nəzərdən keçirilməsi üçün planlaşdırma dövrünə

inteqrasiya olunduqda, qiymətləndirmə nəticələri kurrikuluma və digər dəyişikliklərə dəstəyin təmin edilməsi üçün güclü əsas verə bilər.

- ✓ Qiymətləndirmə şagirdlərin tərəqqisi haqqında dəyərli məlumat verir, təkmilləşmə sahələrini müəyyənləşdirir və tədris və təlim prosesini təkmilləşdirməyə kömək edir.
- ✓ Şagirdlərin bilik və bacarıqlarını ölçmək üçün bir vasitə kimi xidmət edir, müəllimlərə mövzunu başa düşmələrini ölçməyə və öyrənmədə hər hansı boşluqları aşkar etməyə imkan verir.

Fərdin bilik və bacarıqlarının hərtərəfli başa düşülməsini təmin etmək üçün müxtəlif kontekstlərdə müxtəlif qiymətləndirmə növləri istifadə olunur.

Formativ qiymətləndirmə tələbələrin və onların müəllimlərinin şagirdlərin öyrənmələrində nə qədər irəlilədiklərini, hara getməli olduqlarını və bunu ən yaxşı şəkildə necə etməyi qərara almaq üçün istifadə etdikləri məlumatların tapılması və şərh edilməsi prosesinə aiddir. Formativ qiymətləndirmə adətən yekun qiymətləndirmə ilə yanaşı, tam hüquqlu qiymətləndirmə sisteminin ikinci məcburi elementi kimi müəyyən edilir. Əgər yekun qiymətləndirmə bu və ya digər tədris mərhələsinin sonunda baş verirsə və nəticənin monitorinqi və qeydə alınması problemlərini həll edirsə, formativ qiymətləndirmə təlim prosesi zamanı baş verir və onun tərkib hissəsidir. Onu davamlı, diaqnostik hesab etmək olar, lakin onun ən dəqiq adı "öyrənmə üçün qiymətləndirmə"dir. Formativ qiymətləndirmədən istifadənin təsiri uğursuz tələbələr kimi təsnif edilənlər üçün ən əhəmiyyətlidir. Formativ qiymətləndirmənin elementlərinin tətbiqinin əsas məqsədi bütün tədris işlərində şagirdlərin təlim fəaliyyətinə maksimum cəlb edilməsi və onların tədris prosesində rolunu əsaslı şəkildə dəyişdirməkdir.

Summativ qiymətləndirmə müəllimlərin rolu, tədris üsulu və təlim mühiti daxil olmaqla, təhsil proqramı haqqında vahid hesabat təqdim edir. Summativ qiymətləndirmələr adətən bilik və ya bacarıqlara yiyələnmənin ümumi səviyyəsini qiymətləndirmək üçün aparılır. Summativ qiymətləndirmələrə nümunələrə yekun imtahanları, standartlaşdırılmış testlər və ya layihə təqdimatları daxildir.

Diaqnostik qiymətləndirmə ilkin qiymətləndirmə kimi başa düşülür. Şagirdinm olduğu yeri müəllimə göstərir. Bunun sayəsində müəllim öyrənmə mühitini sağlam qura, metod və vasitələri şüurlu şəkildə seçə bilər.

Qiymətləndirmə bir neçə səbəbə görə ibtidai məktəb riyaziyyatında son dərəcə vacibdir:

1. Şagirdlərin başa düşülməsinin qiymətləndirilməsi: Qiymətləndirmələr müəllimlərə şagirdlərin riyazi anlayışları və bacarıqları nə dərəcədə qavradıqlarını qiymətləndirməyə kömək edir. Qiymətləndirmənin nəticələrini təhlil edərək müəllimlər tələbələrin əlavə dəstəyə ehtiyac duyduğu sahələri müəyyən edə bilərlər.
2. Məlumatlandırma təlimatı: Qiymətləndirmələr təlimin planlaşdırılması üçün dəyərli məlumat verir. Müəllimlər qiymətləndirmə məlumatlarından xüsusi təlim məqsədlərini hədəfləyən dərsləri tərtib etmək, ümumi yanlış təsəvvürləri aradan qaldırmaq və fərdiləşdirilmiş təlimatı asanlaşdırmaq üçün istifadə edə bilərlər.
3. Tədris ehtiyaclarının müəyyən edilməsi: Müəllimlərə təlimatı fərqləndirməyə kömək edir və müxtəlif qabiliyyət səviyyələrində olan tələbələr üçün müvafiq dəstəyi təmin edir.
4. Şagirdlərin irəliləyişini izləmək: Davamlı qiymətləndirmə müəllimlərə zamanla tələbə tərəqqisini izləməyə imkan verir. O, hər bir şagirdin inkişafı və nailiyyətləri haqqında aydın təsəvvür yaradır, müəllimlərə uğurları qeyd etməyə və narahatlıq doğuran sahələri həll etmək üçün strategiyaları həyata keçirməyə imkan verir.
5. Kurikulum qərarlarına rəhbərlik: Qiymətləndirmə məlumatları riyaziyyat kurrikulumun məzmunu ilə bağlı qərarları məlumatlandıra bilər. O, pedaqoqlara hansı mövzuların daha çox vurğulanmasına və ya nəzərdən keçirilməsinə ehtiyac olduğunu müəyyən etməyə kömək edir, təlimatın tələbə ehtiyacları və standartlarına uyğun olmasını təmin edir.

6. Valideynləri və qəyyumları cəlb etmək: Qiymətləndirmələr valideynlərə və qəyyumlara övladlarının riyaziyyatdan güclü və zəif tərəfləri barədə məlumat verir. Qiymətləndirmə nəticələrini paylaşmaqla müəllimlər tələbələrin həm sinifdə, həm də sinifdən kənar öyrənmələrini dəstəkləmək üçün ailələrlə tərəfdaşlıq qura bilərlər.
7. Təlimin effektivliyinin qiymətləndirilməsi: Qiymətləndirmələr həm də müəllimlər üçün öz tədris strategiyalarının effektivliyini qiymətləndirmək üçün bir vasitə kimi çıxış edə bilər. Qiymətləndirmənin nəticələrini təhlil etməklə müəllimlər öz tədris təcrübələri ilə bağlı əsaslandırılmış qərarlar qəbul edə və peşəkar inkişaf sahələrini müəyyən edə bilərlər.

Ümumilikdə, ibtidai məktəb riyaziyyatında qiymətləndirmə şagirdin irəliləyişini başa düşmək, təlimatı məlumatlandırmaq, ehtiyacları müəyyən etmək, kurrikulumun formalaşdırılması, ailələri cəlb etmək və tədris təcrübələrini təkmilləşdirmək üçün çox vacibdir. O, effektiv riyaziyyat təhsilinin təşviqində və tələbə uğurunun dəstəklənməsində dəyərli vasitə kimi xidmət edir.

Ədəbiyyat

1. Azərbaycan respublikası təhsil institutu "Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları" Bakı-2023
2. Callingham, R. "Assessment in the primary mathematics classroom. Australian Primary Mathematics Classroom" (2008) 13(3), 18–21.

## RƏVAYƏTLƏR, HEKAYƏLƏR VƏ YAZILI ƏDƏBİYYAT ƏSASINDA YARANAN SOMATIK FRAZEOLOGİZMLƏR

**Sadıqova Bahar Nüsrət q**
*Bakı Slavyan Universiteti*

Bir sıra somatik frazeologizmlər dildə şifahi xalq ədəbiyyatının bir qolu olan rəvayət və hekayələr əsasında yaranmışdır. İngilis və Azərbaycan dillərində belə nümunələr çoxdur. Bunlar ən azı bir neçə cümlədən ibarət olan kiçik həcmli hekayəni xatırladır. Məsələn, ; İngilis dilində to be born with a silver spoon in one's mouth-ağzında gümüş qaşıq doğulmaq, xoşbəxt doğulmaq; to be born with a penny in one's mouth -varlı doğulmaq Azərbaycan dilində xoşbəxt bürc altında doğulmaq, bəxti gözəl doğulmaq və s. birləşmələr rəvayət və hekayələrdən alınaraq, mənsub olduqları dilin frazeoloji bazasına daxil edilmişdir.

İngilis və Azərbaycam dilində bu kimi somatik frazeoloji vahidlərə dini və mifik rəvayətlərdə və hekayələrdə çox rast gəlinir. İngilis dilində to be born with a silver spoon in one's mouth -xoşbəxt bürc altında doğulmaq mənasında işlənilir. Bu somatik frazeolgizmi XVIII əsrdə yaranıb. Varlı ailədən doğulan uşaq xaç suyuna salınanda ona əshabə şəkli təsvir olunmuş gümüş qaşıq bağışlanırdı. Körpəyə xaç atası və xaç anası tərəfindən bağışlanmış gümüş qaşıq var-dövlət və xoşbəxtlik rəmzi hesab olunurdu.

Somatik frazeologizmlərin mənşəyini öyrənərkən onların mənsub olduqları xalqların mifoloji baxışlarından yarandığını görmək mümkündür. Belə rəvayət edirlər ki, körpənin döllük kisəciyinin içərisində doğulması, yəni köynəkdə doğulması, bütün bətnin bürünməsi onun xoşbəxt gələcəyinin əlaməti hesab olunur.

If a child be born with a cawl on his head, he shall be very fortune ( J.Meleton Astrolo-gester, 1620, p 26).

Azərbaycan dilində Kitabi-Dədə Qorqud dastanında "ibadət etmək" mənasında alnını yerə qoymaq, yerə yüz sürmək frazeoloji vahidləri istifadə olunmuşdur.

Ari sudan abdəst aldılar. Ağ alınların yerə qodılar. Qadir tənridən hacət dilədi, yüzin yerə sürdi. (Kitabi Dədə Qorqud).

Qeyd etmək lazımdır ki, bu mifoloji inanc bir çox xalqların mifoloji baxışlarında mövcuddur. Bir çox adamlar üçün "köynək" anadan olan körpənin gələcəkdə xoşbəxt və bəxt gətirən bir adam olması inamı kimi əbul olunmuş bir əlamətdir. Məsələn, İngiltərədə, tez-tez qəzetlərdə "uşaq köynəkləri" nin satışı haqqında elana rast gəlmək olar. İngiltərədə belə bir inam da var ki, əgər adamda məhz belə bir "köynək" olarsa, o heç vaxt suda batmaz [1,99].

To be born with a silver spoon in one's mouth -xoşbəxt bürc altında doğulmaq, varlı ailədə dünyaya gəlmək [2,39] somatik frazeologizminin leksik variantları da mövcuddur. Müasir ingilis dilində "mouth" somatizmi geniş istifadə arealına malikdir. To have a big mouth-sirr saxlaya bilməyən, to make smb's mouth water- ağzını sulandırmaq və s.[2,40].

Azərbaycan dilində ağzına çullu dovşan sığmır ifadəsi insanın danışıq tərzini səciyyələndirmək məqsədilə "lovğa, təkəbbürlü, özündən razı halda" mənasında işlədilir. İfadənin tərkibi əslində ağzına qıllı dovşan sığmır şəklində olmuşdur ki, qafiyə əsasında "qıllı" sözü sonralar "çullu" sözü ilə əvəz olunmuşdur. Lakin bu ifadədə əsas məsələ "sığmır" sözü ilə əlaqədardır. [3,170]. İlkin, həqiqi mənada ağzın geniş açılması nəzərdə tutulursa, felin inkarda işlənməsi təəccüb doğurmaya bilməz. Axı, ağız geniş açılıbsa bu qıllı, çullu dovşan ağıza sığmalıdılr. Burada "sığmır" sözü tam kifayət etmir, bütünlükdə ağzı tutmur, ağız o qədər açılır ki, qıllı dovşandan əlavə ora daha başqa şeylər yerləşə bilər mənasında işlədiri. Məhz bu halda ifadənin mötivləşməsi müəyyən edilə bilər. Bu rəvayət əsasında yaranan "ağzına çullu dovşan sığmır" somatik frazeologizmi danışıq dilində bu gündə də işlənməkdədir.

Kül başına somatik frazeologizmi də rəvayət əsasında yaranmış ifadələndəndir. Rəvayətə görə, Şamanizm dövründə qədim Azərbaycan türklərində belə bir inam varmış ki, kimin yaxını, əzizi dünyasını dəyişirsə mütləq onun qohumları başlarına 40 gün ərzində kül gəzdirməlidirlər ki, pis ruhlar onlara yaxın düşməsin. Belə hesab olunurdu ki, pis ruhlar küldən qorxurmuşlar. İndi də qarğış mənasında kül başına ifadəsinin işlənməsi həmin rəvayətlə bağlıdır [3,206].

Somatik frazeoloji vahidlər həm dilin daxili imkanları hesabına, həm də başqa dillərdən alınan ifadələr hesabına artır və inkişaf edir. Burada xalqın qədim söz və fikir xəzinəsi əhəmiyyətli dərəcədə rol oynayır.

Somatik frazeoloji vahidlərin çoxu hər bir xalqın özünə məxsus olur və həmin xalqın adət-ənənələrini əks etdirən dil vahidləridir. Belə frazeoloji vahidlər mənşəyinə görə iki yerə ayrılır: dilin öz daxili imkanları hesabına yarananlar və alınmalar hesabaına yaranan somatik frazeoloji vahidlər. İstər İngilis dilinin və istərsə də Azərbaycan dilinin daxili imkanları hesabına əmələ gələn somatik frazeoloji vahidlər hər iki xalqın qədim və zəngin söz xəzinəsnə əsaslanır. H.Həsənov dilin öz hesabına yaranan frazeoloji vahidləri iki yerə bölür: ümumi və xüsusi frazeoloji vahidlər [4,33].

Ümumxalq tərəfindən yaradılmış, hamı tərəfindən anlaşılan və istifadə olunan frazeoloji vahidlərdir ki, ümumi somatik frazeoloji vahidlərə aid edilir. Bunlar bütün dil daşıyıcıları tərəfindən istifadə olunur və üslubi baxımından neytral mövqeyə sahib olurlar. Məsələn, ingilis dilində: to see with half an eye -gözüyumlu görmək, to have a free hand -sərbəst hərəkət etmək, to stay smbs hand-kiminsə işinə mane olmaq.

Azərbaycan dilində: gözü götürməmək, əldən düşmək, üzdən gözdən salmaq, ayaq basmaq, boyun qaçırmaq və s.

Bu nümunələrdəki somatik frazeoloji vahidlər ümumi frazeoloji vahidlərdir, çünki bunları hamı istifadə edə bilir və bu ifadələri dilin müxtəlif üslublarında işlətmək olur. Eləcə də, gözüm səni görmək istəmir, itil gözümdən ayağının altından yer qaçdı, başım partlayır və s. somatik frazeoloji vahidlər də bu qəbildən olanlardandır. Müasir Azərbaycan dilinin somatik frazeoloji vahidləri arsında elə ifadələr də vardır ki, onlar yalnız dilmizə məxsusdur. Belə frazeoloji vahidlərin müəyyən qrupunun tərkibindəki

yüzlərlə somatik tərkibli aforizmlər M. Füzuli, M.P. Vaqif, M.F.Axundov, M.Ə. Sabir, C. Məmmədquluzadə və başqa ədiblər tərəfindən yaradılmışdır. Dilimimzdəki xalis Azərbaycan dili frazeoloji vahidlərinin bir çoxunun müəllifi məlum deyildir [4.32]. Bunlar ümumxalq tərəfindən rəvayət və əsatirlərdə yaradılmış, ağızdan-ağıza keçərək cilalanmış və sabitləşmiş vahidlərdir.

Ayrı-ayrı şair və yazıçılar tərəfindən yaradılan müəyyən üslubi məqamda istifadə olunan somatik frazeoloji ifadələrə isə xüsusi somatik frazeologizmlər deyilir[4,33]. Məsələn, the head and from of (Şekspir), Othello: -true İ have married her the very head and front of my offending (Şekspir, Otello)-Doğrudur, onunla evlənmişəm, elə mənim əsas günahım da budur.

Azərbaycan dilində: "Rejisorun gözü Oqtayı görmür, gəlib ona rəqib olacağından qorxur" (Cəfər Cabbarlı), "Kraynev minnətdarlıqla baş əydi" (İ. Qasımov), "Macarlar ona inanmayaraq, səksəkəli halda durub qulaq asırdılar" (İ.Qasımov).

İngilis dilinin lüğət tərkibinin zənginləşməsində xüsusi somatik frazeoloji vahidlər içərisində şeksprizm adlanan somatik frazeoloji vahidlər çoxluq təşkil etdiyini görmək olar. Demək olar ki, onlar Bibliyadakı vahidlərdən sonra ikinci yer tutur.

Bəzən müasir ingilis dilində işlənən şeksprizmlər qısa və ya konkret ifadələrlə də əvəz oluna bilir. Məsələn, To wear one's heart upon one's sleeve for daws to peck at (Othello)- öz hisslərini açıq-aşkar biruzə vermək ifadəsi müasir ingilis dilində adətən qısa formada istifdə olunur: to wear one's heart upon one's sleeve.

Müasir ingilis dilinin lüğət tərkibində Bibliyadan qədim mifologiyadan da alınmış bir sıra somatik vahidlərə təsadüf olunur. Məsələn, Not to let one's left hand know what one's right hand does- sol əlin gördüyü işin sağ əlin bilməməsi

When thou doesn't alms let not the left hand knew what the right does-Başqsına əl açanda, əl açdığın əlin gördüyü işi o biri əl gərək bilməsin. Bibliyada bu ifadə təsdiq mənada işlənmişdir [5].

It is easier for a camel to go though the eye of a needle than -Dəvə üçün iynənin deşiyindən keçmək asandır nəinki ...(Bibliya), to open smb's eye -nəzər qaytarmaq (Bibliya).

Qədim mifologiyadan alınmış somatik frazeoloji vahidlərə nəzər yetirək:

Achilles heel- axilles dabanı-bir admın ən zəif cəhəti ( qədim yunan əfsanəsinə görə Axilles adlı pəhləvanın dabanından başqa heç bir yerinə ox batmazmış). Bu ifadə yunan şairi Hesiodun "Zəhmət və günlər" poemasında ilk olaraq istifadə olunmuşdur [5].

On the knees of the Gods-bir allah bilir ki, (İlliada və Odissey poemalarından),

Hnd on the torch -ağıl-bilik toxumunu səpmək (Platonun fəlsəfə əsərindən),

Be (turn) thumbs down (on)-əleyhinə olmaq/qadağan etmək,

For smb's fair eyes-kiminsə ala gözlərinə və s.

Azərbaycan ədəbi bədii dilində istifadə olunan xüsusi somatik frazeoloji vahidlər də çox zəngin və koloritli üslubi imkanlara sahibdirlər. Yüksək milli koloritə malik olan sabit somatik frazeoloji vahidlər və sərbəst söz birləşmələri, dərin mənalı somatik tərkibli atalar sözləri və müdrik məsəllər, aforizmlər, ibarələr Azərbaycan dilinin son dərəcə zəngin olan bədii-obrazlı fonudu təşkil edir. Bədii dildə bunların hər biri yazıçının məqsədindən asılı olaraq bu və ya digər formada müəyyən üslubi vəzifə daşıyır. Eyni zamanda, bu ifadələrdə çox yüksək obrazlılıq və emosionallıq vardır. Elə buna görə də nitqdə məharətlə istifadə olunan somatik frazeoloji vahidlər bir çox hallarda danışığı daha ifadəli edir və onu canlandırır. Cümlədəki bir söz və ya sərbəst söz birləşməsini bu və ya digər bir frazeoloji vahidlə, yaxud əksinə əzəv etdikdə xomatik frazeoloji vahidlərin də nə dərəcədə obrazlı və emosional olduğunu çox aydın əkildə görmək olur.

Xüsusi somatik frazeologizmlərdən həm bədii, həm publisist və həm də digər üslublarda istifadə etmək olur. Somatik frazeoloji vahidlər ədəbi dilin yazılı növündə, əsasən bədii üslubda yazılan əsərlərdə xüsusi üslubi rola malikdirlər. Böyük yazıçı və şairlərin əlində somatik frazeoloji vahidlər bu və ya başqa surətin danışığını fərdiləşdirmək, tikpikləşdirmək üçün əsas vasitələrdən birinə çevrilir.

İngilis və Azərbaycan dillərinin hekayə və rəvayətlər əsasında yaranmış somatik frazeoloji xəzinəsi göstərir ki, somatik frazeologizmlərin əsas xüsusiyyətlərindən bir onların obrazlı, emosional, ifadəli olmasıdır. Belə ki, somatik frazeologizmlə dilin ekspressivliyində, onun ifadəliliyində mühüm rol oynayır. Belə birləşmələr hər hansı bir anlayışı başqa frazeoloji vahidlərdən daha təsirli və obrazlı əks etdirir. Hər iki dildəki somatik frazeologizmlərdə milli xüsusiyyətlər daha çox nəzərə çarpır.

Ədəbiyyat


1. Hacıyeva Ə.H. İngilis və Azərbaycan dillərində somatik frazeologizmlərin struktur-semantik xüsusiyyətləri, Bakı, 2004, 191 səh.
2. https://dictionary.cambridge.org/dictionary/english/born-with-a-silver-spoon-in-mouth
3. Adilov M. Niyə belə deyirik, Bakı, 2019, 432 s.
4. Həsənov H.Azərbaycan dilinin frazeologiyası, Bakı, 1979, 66 səh
5. https://www.phrases.org.uk/meanings/index.html
6. Book of idioms. Defence Language Institute, Texas. USA 2000, 70 p.
7. Кунин А.В. Курс фразеологии современного английского языка, М., ВШ., 1986, 200 с


## XÜLASƏ


Somatik frazeologimzər hər bir dilin lüğət tərkibinin zənginləşməsində əhəmiyyətli rola malikdir. Somatik frazeologizmlərin yaranma yollarından biri də rəvayət və hekayələr əsasındadır. Rəvayət və hekayələr əsasında yaranmış somatik frazeoloji vahidlərin öyrənilməsi dil tarixinin, onun inşikaf dinamikasının, eləcə də dilin leksik vahidlərinin sistemli təşkili və onların nitqdə istifadəsinin tədqiqi baxımından aktuallıq kəsb edir.

Məqalədə Azərbbaycan və İngilis dilinin rəvayət və hekayələri əsasında yaranmış somatik frazeoloji vahidlərin müqayisəli təhlilinə həsr olunmuşdur. Burada elmi və nəzəri yanaşmalar təhlil edilməklə, təhlillər aparılmışdır. Somatik frazeoloji vahidləri təhlil etməklə, Azərbaycan və İngilis dillərində frazeoloji vahidlərinin yaranmasını şərtləndirən amillər, onların struktur və semantik xüsusiyyətləri öyrənilmişdir.

Məqalədə aparılmış təhlillər somatik frazeoloji birləşmələrin öyrənilməsində və eyni zamanda frazeoloji vahidlərin strukturunda bədən üzvlərininin struktur-semantik rolunun müəyyənləşdirilməsi məsələləri ilə bağlı gələcəkdə aparılacaq tədqiqatlar üçün müəyyən elmi-nəzəri təsəvvür yarada bilər.



***Açar sözlər***: *İngilis, Azərbaycan atalar sözləri, hekayə, rəvayət, somatik, leksik, frazeoloji*


## *Summary*


Somatic phrasal play a crucial role in formation of the lexicology of either language. One of the way of formation of phrasals is based on legends and stories. Study of somatic phrasals which are formed based on stories and legends is topical from the perspective of study of language history, its development dynamic as well as the systematic use of lexic units in speech.

The article is dedicated to comparative study of somatic phrasals made from legends and stories in English and Azerbaijan. Scientific and theoretical approaches are studied and analysed in the article. Factors of emergence of the somatic phrasal, their structural and semantic featues are researched by analysing somatic phrasals in English and Azerbaijan.

The analysis made through the article could play a role of guidance in futher study of somatic phrasals and the role of human body parts's role in formation of somatic phrasals.

***Key words:*** *English,Azerbaijan legends stories somatic, lexic, phraseology,*

**РЕЗЮМЕ**

Соматические фразеологизмы играют важный роль в формировании лексикологии любого языка. Один из способов образования фразеологизмов основан на легендах и рассказах. Изучение соматических фразеологизмов, образованных на основе рассказов и легенд, актуально с точки зрения изучения истории языка, динамики его развития, а также систематического использования лексических единиц в речи.Статья посвящена сравнительному изучению соматических фразеологизмов, составленных из истории и легенды в английском и азербайджанском языках.

В статье изучаются и анализируются научно-теоретические подходы. Путем анализа соматических фразеологизмов в английском и азербайджанском языках исследуются факторы возникновения соматических фразеологизмов, их структурные и семантические особенности.

Анализ, проведенный в статье, может сыграть роль руководства в дальнейшем изучении соматических фразеологизмов и роли частей тела человека в формировании соматических фразеологизмов.

***Ключевые слова:*** *Английский, Азербайдьжан истории, легенды, соматик, лексик, фразеология*

## COĞRAFİYANIN TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ EKOLOJİ BİLİK VƏ BACARIQLARIN FORMALAŞDIRILMASI YOLLARI

**Sadıqova Vüsalə Qədir qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnsan Yer kürəsinin ayrılmaz hissəsidir. Əgər biz həyatı qorumaq istəyiriksə, ekologiyanı mühafizə etməkdən başlamalıyıq. Bəşəriyyətin müasir yaşayışını ekologiyasız təsvir etmək mümkün deyildir. Yazmağı, oxumağı, saymağı bilmədən yaşamaq nə qədər çətindirsə, ekologiyanın əsaslarını öyrənmədən də yaşamaq bir o qədər çətinləşir.Təbii ehtiyatlar bizim milli sərvətimizdir, onu qoruyub gələcək nəsillərə çatdırmaq üçün əlimizdən gələni əsirgəməməliyik. Ətraf mühitlə insanlar arasındakı münasibətləri nizama salmaq üçün ekoloji tərbiyə, ekoloji təhsil, ekoloji təfəkkür problemlərinin həlli XXI əsrdə də cəmiyyət qarşısında daha kəskin durur.Ekoloji təhsil dedikdə, ümumi ekoloji mədəniyyətin, ekoloji məsuliyyətin formalaşmasına yönəlmiş fasiləsiz təhsil, tərbiyə, inkişaf prosesi və hər bir sakinin ekoloji məsuliyyəti başa düşülür. Hazırda ekoloji təhsilin məqsədi ekoloji mədəniyyətin ətraf mühitə və öz sağlamlığına qarşı məsuliyyətli münasibətin yaradılmasından ibarətdir. Bu gün cəmiyyətimiz təbiəti, təbii sərvətləri qorumaq, onlardan qənaətlə və səmərəli istifadə etmək üçün ilk növbədə ekoloji təfəkkürə yiyələnməlidir.

Ekoloji tərbiyə ətraf mühitin dərk olunması və təbiətə qayğı ilə yanaşmanın formalaşması proseslərindən keçir. Ekoloji cəhətdən savadlı insan dərk etməlidir ki, təbiət də onun özü kimi canlıdır. Təhsil ocaqlarında ekoloji təhsilin gücləndirilməsinin tərəfdarları hesab edirlər ki, uşağa kiçik yaşlarından təbiətə qayğı ilə yanaşmanı aşılamaqla biz onun şəxsiyyətinin formalaşmasına ciddi təkan vermiş oluruq.Bir sözlə yeni nəsildə vətəndaş şüurunun formalaşdırılmasının əsas istiqamətlərindən biri də məhz ekoloji təhsil və tərbiyə olmalıdır. Bu yolla gənc nəsli doğma torpağı və təbiəti sevməyə, ətraf mühiti qorumağı öyrədə bilərik. Ətraf mühit və təbii sərvətlərin qorunmasında ekoloji maarifləndirmənin mühüm rolu vardır. Ona görə də insanların ətraf mühit və ekoloji təhlükəsizlik sahəsində bilik və bacarıqlarının artırılması, gənc nəslin ekoloji mədəniyyət səviyyəsinin təkmilləşdirilməsi və ətraf mühitin birgə mühafizəsinə cəlb olunması daim diqqət mərkəzində

saxlanılır, bu məqsədlə də ardıcıl tədbirlər görülür. Əsası Ulu öndər tərəfindən qoyulan ekoloji maariflənmə işi bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. “Azərbaycanda təbiətin qorunması bizim gələcəyimizlə bağlı məsələdir. Azərbaycanın çox gözəl təbiəti, iqlimi vardır. Biz hamımız bu təbiəti qorumalıyıq” deyən cənab İlham Əliyevin təşəbbüsü ilə 2010- cu il ölkəmizdə “Ekologiya ili” elan edilmişdi.

Son zamanlar ekoloji problemlərin baş verdiyi bir dövrdə artıq bir çox tədris ocaqlarında ekoloji biliklər verən mövzular tədris olunur. Cəmiyyət arasında ekoloji dünyagörüşünə dair maarifləndirmə işləri aparmaq üçün bu mövzuların məktəblərdə tədrisinin böyük əhəmiyyəti vardır. Bu baxımdan əhalinin ekoloji cəhətdən maarifləndirilməsi, tərbiyəsi üçün ilk növbədə kamil, savadlı mütəxəssislər tərəfindən dərs vəsaitləri, kitablar çap olunmalı, ekoloji təhsil-tərbiyə məqsədyönlü aparılmalıdır. Məktəblilərdə ekioloji mədəniyyətin formalaşdırılmasında əsas məqsəd məktəblilər arasında ekoloji bilik və bacarıqların artırılması, ətraf mühitin qorunması, qlobal ekoloji problemlərin həlli istiqamətlərini şagirdlərə öyrətməkdir. Eyni zamanda gənc nəsildə ekoloji düşüncə tərzi təyin etmək, ekoloji mədəniyyətin ən yüksək mədəniyyət olduöunu onlara çatdırmaq, təbiəti qorumağın, öyrənməyin, zənginləşdirməyin vacib məsələ olduğunu başa salmaqdır.

Məktəblilər bilməlidirlər ki, planetimizin təbii sərvətləri gələcək nəsillərə yararlı halda ötürülməlidir. Çünki təbiət hamı üçündür, bütün canlıların yaşadığı məkandır. Orta məktəblərdə şagirdlərin ekoloji bilik və bacarıqlarının formalaşdırılmasında müəllimlərin xüsusi rolu vardır. Bu cür mövzuların tədrisində əsas məqsəd şagirdlərin ətraf mühitin mühafizəsinə münasibətini dəyişmək, onların diqqətini ekoloji problemlərin həllinə yönəltmək , şüur və təfəkkürünü inkişaf etdirməklə təbiəti qorumağın mümkünlüyünü diqqətə çatdırmaqdır. Eyni zamanda məktəblilərin təbiətlə düzgün ekoloji davranış qaydaları, həmçinin şagirdlər arasında ekoloji təhsilin vacibliyini irəli sürən mövzuların tədrisinə xüsusi yer verməlidirlər. Bu sahədə müəllimlərin əsas vəzifəsi məktəblilərin ekoloji biliklərinin artırılmasına təşəbbüs göstərmək, şagirdləri ekoloji iməcliklərə cəlbetməklə onlara ekoloji biliklərin praktik faydalarını izah etmək, uşaqlara təbiətlə düzgün təmas vərdişlərini aşılamaqdır. Hazırda Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı( kurikulumu) əsasında hazırlanmış müasir dərsliklərdə təbiəti mühafizə ilə bağlı mövzulara daha çox yer verilmişdir.Bu baxımdan məktəblərdə təşkil olunan ekoloji dərnək və tədris proqramları, bukletlər, jurnal və dərgilər, ekoloji nəşrlər şagirdlərdə ekoloji dünyagörüşünün formalaşmasında böyük rol oynayır. Həmçinin müəllimlər coğrafiya dərslərində şagirdlərə su ehtiyatlarının və atmosferin çirklənməsi, torpaqların deqradasiyası, biomüxtəlifliyin azlaması və digər ekoloji problemlər haqqında geniş məlumatlar verərək onlarda ekoloji bilik və bacarıqlar formalaşdırır. Müasir təhsil proqramı(kurikulumu) əsasında tərtib edilmiş və şagirdlərin ekoloji sinif coğrafiya dərslikləri tərbiyəsi baxımından böyük əhəmiyyət kəsb edən VI, VII, VIII dərsliklərində canlı aləm təbəqəsi, bitki örtüyü, torpaq örtüyü, insanın təbiətə uyğunlaşması, insanın təbiətdən asılılığı, təbiətin mənfi hadisələri, ətraf mühitin yaxşılaşdırılması haqqında diskussiya xarakterli mövzular əsas yer tutur. Hazırda Azərbaycan Respublikası ümumtəhsil məktəbləri üçün coğrafiya fənni üzrə təhsil proqramı( kurikulumu) əsasında hazırlanmış müasir dərsliklərdə təbiəti mühafizə ilə bağlı mövzulara daha çox yer verilmişdir.Coörafiya fənninin tədrisində şagirdlərdə ekoloji bilik və bacarırlar formalaşdıran mövzuların tədrisi aşağıdakı istiqamətlərdə aparılır:

- Meşələrin məhv edilməsi, yaşıllıqların qırılması;
- Qlobal istiləşmənin yaranması;
- Ozon təbəqəsinin ildən-ilə nazikləşməsi və ozon deşiklərinin yaranması
- Torpaqların deqradasiyası ( şorlaşma, eroziya,)
- Bitki və heyvanların məhv edilməsi
- Təbii fəlakətlərinin sayının artması

Sonda onu deyə bilərik ki,VI sinif coğrafiya kursunda bünövrəsi qoyulmuş yeniyetmələrin ekoloji bilik və bacarıqları üzrə işin sistemi yuxarı siniflərdə digər bölmələr üzrə və eləcə də mövzular üzrə sistemli şəkildə davam etdirilərək şagirdlərin ekoloji təhsil, tərbiyə və dünyagörüşünün formalaşmasında böyük rol oynayır.

Ədəbiyyat

1.Alxasov O. "Coğrafiyanın tədrisi metodikası", Bakı, 2013, 389 səh.
2.Seyfullayeva N. "Coğrafiyanın tədrisi metodikası", Bakı, 2011, 489 səh.
3.Veysova Z. "Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait", UNICEF Azərbaycan Nümayəndəliyi, 2007, 156 səh.
4. https://az.wikipedia.org/wiki/Ekoloji_t%C9%99hsil

## ALİ MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ MÜZAKİRƏ METODLARINDAN İSTİFADƏNİN DİDAKTİK VƏ PSİXOLOJİ ƏSASLARININ NƏZƏRƏ ALINMASI TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN VASİTƏSİ KİMİ

**Səfərov Seymur Camaləddin oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müasir təhsil sisteminin əsas məqsədlərindən biri XXI əsrin insanını yetişdirməkdir. Müzakirə metodları bu məqsədə nail olmada mühim rol oynayır. Lakin təlimin keyfiyyətini yüksəltmək üçün bu metodun didaktik və psixoloji əsaslarına ciddi diqqət yetirmək lazımdır.

Müzakirə metodlarının təlim-tərbiyəvi əhəmiyyəti çox böyükdür. Tələbələri bilik, bacarıq və vərdişlərlə silahlandırdığı kimi, eyni zamanda onları XXI əsrin tələblərinə, habelə, dövlətimizə layiqli vətəndaş kimi yetişdirməkdə əvəzolunmaz rola malikdir.

İdrakın fəallaşdırıcısı rolunu oynayan bu metod tələbələrdə təfəkkürün hər 3 növünün inkişafına səbəb olur. Məntiqi düşünmə, tənqidi baxış və yaradıcı yanaşa bilmə XXI əsrin vətəndaşında olması gərəkən vacib qabiliyyətlərdir [1, s. 94].

Doğru təşkil edilmiş müzakirənin tələbə şəxsiyyəti üzərində didaktik və psixoloji təsirləri var. Didaktik olaraq baxdığımızda tələbələrdə 1) maraq və 2) motiv yaradır. Bunlar özlüyündə təlimə marağı, dərsin dərk olunmasını və təlim tərbiyyənin səviyyəsinin yüksəldilməsinə xidmət edir. Psixoloji aspektdən baxdığımızda isə onlarda "mən" və "biz" anlayışlarının və "mənlik" şüurunun formalaşmasına səbəb olur [2, s. 459].

Didaktik və psixoloji proses olan diqqət müzakirənin səmərəliliyini artıran başlıca amillərdəndir. Diqqət hər bir əqli prosesin və öyrənmənin başlıca təminatçısı olduğunu nəzərə alsaq müzakirələrin təşkilində onun əhəmiyyətini nəzərə almaq vacibdir [3, s. 207].

Tələbələrin fərdi psixi xüsusiyyətlərinin nəzərə alınması və sağlam psixoloji mühitin yaradılması olduqca vacibdir. Bu tələbələrdə özgüvən, müstəqillik və sağlam psixologiya yaratmaqla yanaşı, müzakirənin keyfiyyətini artırır [4, s. 25]. Müstəqillik müasir təlimin vacib prinsiplərindəndir və bu birbaşa psixoloji sağlam mühitə istinad edir.

Məşhur isveçrəli psixoloq J.Piaje və rus pedaqoqikasının görkəmli nümayəndəsi L.S.Vıqotskinin də birgə qeyd etdiyi kimi, "insan bio-sosial bir varlıqdır, yəni onun həyatın ünsiyyətsiz təsəvvür etmək qeyri-mümkündür. Müzakirə metodu bu baxımdan əvəzolunmazdır, lakin onun didaktik və psixoloji xüsusiyyətlərinə müəllim hakim olsun gərək". Yeniyetməlik yaş dövrü tələbənin son və hərtərəfli dinamik inkişaf mərhələsidir. Müzakirə əsasında təşkil edilən dərslər onların şəxsiyyətində demokratiklik, humanistlik, telorantlıq kimi ümumbəşəri dəyərləri formalaşdırmaqla yanaşı, etik davranış qaydaları və nitq mədəniyyətini formalaşdırır.

Yuxarıda qeyd olunanlardan bu nəticəyə gələ bilərik ki, müzakirə təşkil edən müəllim metodun didaktik və psixoloji əsaslarına yaxşı bələd olmalıdır. Didaktik olaraq 1) maraq; 2)

həvəs; 3) motiv, psixoloji olaraq isə 1) diqqət; 2) "mən" və "mənlik" şüuru; 3) "biz" anlayışı və kollektivlə iş; 4) ünsiyyət bacarıqları və bu kimi birsıra faktorlar tələbə şəxsiyyətinin inkişafı ilə yanaşı, metoddan alınan səmərəni maksimuma çıxarır. Ünsiyyət psixoloji proses olduğundan sağlam psixoloji mühit nitq bacarıqlarının inkişafı deməkdir.

Istifadə edilmiş ədəbiyyatlar:

1.Nəzərov.M, Quliyev.N, Nəzərova.X, "Pedaqoji texnologiyalar", dərs vəsaiti, Bakı-2020, 466s

2.Əmirov M. M, "Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası", Dərs vəsaiti. D: "ADPU-nun nəşriyyatı" 2014 707

3.Qasımova.L, Mahmudova.R, "Pedaqogika", mühazirə kursu. Bakı: Bakı universitei nəşriyyatı, 2003 530s

4.И.Бачков, "Основы технологии группового тренинга психотехники", Moskva-2000, 223s

## MƏKTƏBLİLƏRDƏ SAĞLAM HƏYAT TƏRZİNİN FORMALAŞDIRILMASININ PEDAQOJİ, PSİXOLOJİ VƏ FİZİOLOJİ ƏSASLARI

**Səmədova Könül Ramiz qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Hər bir insan üçün sağlam həyat tərzi müxtəlif əhəmiyyət daşıya bilir. Sağlamlıq insan həyatında fiziki və ruhi vəziyyəti təmin edən və eyni zaman da yaxşı yaşamağa imkan verən həyat tərzidir. Müxtəlif əlverişli həyat şəraiti, o cümlədən insanın harada yaşadığı, məktəbdə təhsil almaq üçün lazım olan resurslar, sosial və ətraf mühit kimi digər amillər sağlamlıq üçün zəruridir. Ona görə də sağlam yaşayış dedik də ilk ağıla gələn bədəndə xəstəlilərin olmaması, daxili və xarici tarazlığın və normal yaşayış mühitinin olmasıdır. İnsan doğulduğu andan etibarən hər yaş mərhələsində özünə məxsus orqanizmi qoruma yollarına əməl edərək sağlamlığının qayğısına qalır.

Məktəblilərin yaş mərhələrini nəzərə alaraq məktəblərdə təlimlər və seminarların təşkili ilə yanaşı praktik metodlarda təşkil edilməlidir. Sağlamlığın insan həyatındakı rolunun nə dərəcədə vacib olduğunu kiçik yaşlardan artıq uşaqlara təbliğ etmək lazımdır.

Məktəblilərdə müəyyən yaş aralıqları təhlükəli dövrlər hesab olunur bu, düzgün qidalanmamaq, qeyri-kafi fiziki məşq və ya asılılıq kimi riskli faktorlarla nəticələnə bilər. Buna görə də, bu hal məktəblilər arasında narkotik, alkoqol və papiros istifadəsinin artması, eləcə də son vaxtlar bir sıra müxtəlif ölkələrdə baş verən sosial-iqtisadi müstəqilliklərinin azalması kimi narahatedici nümunələrdən qaynaqlanır. Məktəblilər arasında xəstəliyə təsir edən sosial faktorların üç kateqoriyası var: qidalanma, həyat tərzi və sosial rifahı. Lakin bunların orqanizmə necə təsir etdiyini daha yaxşı başa düşmək üçün onları ayrı-ayrılıqda araşdırmaq daha düzgündür. Sözsüz ki fərdlərin yalnız öz sağlamlıqlarına görə cavabdeh olduqlarını iddia etmək qaçınılmazdır, buna görə də narkotik qəbul etməyə, papiros çəkməyə və ya qeyri-sağlam olan qidaları qəbul etmək onların qərarıdır və sağlamlıqlarındakı məsuliyyəti özləri daşıyır. Yüksək miqdarda stress psixi sağlamlığa ziyan vuran və mənfi təsir göstərən amillərdən biridir. Bu amillərə şagirdlərə valideynlərin qoyduğu yeni tələblər və dəyişikliklər, yeni insanlarla ünsiyyət, iş və məktəbdə yaranan müxtəlif narahatlıqlar daxildir. Nəticəsi isə psixi pozğunluqlara, şizofreniyaya və depressiyaya səbəb olur.

Məktəblilərin ümumi inkişafını müəyyən etmək üçün onların sağlamlıq vəziyyəti ilə bağlı mütəmadi olaraq tibbi müşahidələr aparıldıqda sağlamlığın vəziyyətinə nəyin təsir etdiyi daha aydın olur. İnsanların sağlamlığı ilə bağlı olan əsas problemlərdən biridə ətraf mühit amillərinin zərərli təsirləridir. Bu nəticələrin əsas səbəbləri faydasız qidalar, çirklənmiş su və atmosferdir digər amillərə isə həddindən artıq radiasiya, zərərli qazlar və

müxtəlif maddələr daxildir.Ətraf mühit faktorları insanların sonrakı həyatlarında sağlamlığlarında böyük problemlər yaradır. Onun əmələ gəlməməsi üçün çirkli mühitdə olmamaq, təmiz hava şəraitində yaşamaq və ya sonrakı həyatında radiasiyadan maksimum dərəcədə uzaq olmalıdır.

Dünyanın sağlamlıq vəziyyəti insan inkişafı sayəsində xeyli yaxşılaşıb. Milyonlarla insanın həyatına son qoyan xəstəliklər artıq biliklərimiz sayəsində müalicə və idarə oluna bilir. Bitki tərkibli və heyvan mənşəli qidaların orqanizm üçün düzgün qəbul edilməsi ilə bağlı bir çox sosial şəbəkədə məlumatlar, vəsaitlər, proqramlar var. Zaman keçdikcə xəstəliklərin və sağlamlığa zərər vuran faktorların qarşısının alınmasında araşdırmalar sürətli formada aparılır. Bu da qlobal vəziyyətin yaxşılaşdırılmasında böyük rol oynayır.

## Məktəblilərdə sağlam həyat tərzinin formalaşdırılması

**Səmədova Könül Ramiz qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Gənc nəsillərin sağlamlığının qorunmasının əsasını onların düzgün həyat tərzi və faydalı vərdişlər əhatə edir. Sağlamlıq üçün faydalı olan vərdişlər fərdin inkişafında mühüm rol oynayır, zərərli olan vərdişlər isə onun inkişafına mane olur. Pis vərdişlərə daxildir: düzgün olmayan rejim, yaxşı qidalanmamaq, passiv fiziki fəaliyyət. Bunlardan daha dəhşətlisi narkotik maddələrdən, siqaret və alkoqoldan istifadə etməkdir. Bu vərdişlər bir vaxtdan sonra asılılığa çevrilir və insanın həyatını məhv edə bilər. Sağlam həyat tərzi üçün əsaslar çoxdur: insan fəaliyyətinin müxtəlif tərəfləri-aktiv yaşamaq və insanın tam formalaşması üçün əmək, sosial, ailə və həyatdan zövq alaraq yaşama formalarıdır. İnsan üçün doğru qidalanmaq sağlam həyat tərzinin birinci şərtidir, ona görə ki, vitamini, lazımı ehtiyac və həyat enerjisini qidalardan alırıq. Bunu bildiyimiz üçün kalorili, faydası olan və hər cəhətdən təmiz olan qidaların qəbul olunmasını diqqətdə saxlamaq lazımdır. Həddindən artıq qəbul edilən qidalar xoşa gəlməyən fəsadlar yarada bilər. Kiçik yaşlardan fiziki cəhətdən aktiv həyat sürmək uşaqlar üçün faydalıdır. Buraya qaçmaq, idmanla məşğul olmaq, hərəkəti aktivləşdirən oyunlar və s. aiddir.

Sağlam həyat tərzi dedikdə, fərd bütün təbii imkanlarından istifadə edərək orqanizmi sağlam tutmaq, psixoloji cəhətdən sağlamlığı qorumaq, onu gümrah saxlamaq üçün immuniteti yüksək tuta bilmək başa düşülür. Pis vərdişlərdən hesab edilən alkoqollu içki, narkotik mənşəli maddələr, düzgün qidalanmamaq, daimi stresə məruz qalmaq, tütün məhsulları insan sağlamlığının bir başa düşmənidir. Təbii ki, biz bilirik ki, insanın sağlamlığı onun özündən aslıdır. Əsasən də uşaqlar bu mühitə qarşı həssas olur. Ona görə ki, onlar fiziki, psixoloji, sosial cəhətdən daha zəif olurlar. Təsirə məruz qalan uşaqlarda psixoloji pozğunluqlar yaranır. Bu hallara 13-14 yaşdan kiçik uşaqlarda daha çox rast gəlinir. Ona görədə uşaqların sağlamlığının qorunmasında valideyn nəzarəti lazımdır.

Sağlamlığın birinci simvolu idmandır. İdmanla məşğul olmaq uşaq yaşlardan faydalıdır: Uşaqlıq və yeniyetməlik dövründə idmanla məşğul olan insanlar, yalnız fiziki cəhətdən deyil, psixoloji olaraq sağlam olurlar və bu mənəvi sağlamlıq üçün də vacibdir. Onları sosial cəhətdən də inkişaf etdirmək üçün komanda formasında idmanlara üstünlük vermək lazımdır. Uşaq şəxsiyyətinin inkişafını, sosiallaşmasını, özünə olan inamı geri qaytarmaq üçün fiziki hərəkətlər hökmən lazımdır. Bununla yanaşı fiziki aktivlik zamanı onun dayaq-hərəkət sistemi də güclənir və xoşa gəlməyən vərdişlərdən uzağlaşmaqlarına kömək olur.

Biz dedik ki, sağlam olmaq üçün tək fiziki deyil, həm də psixoloji cəhətdən sağlam olmaq lazımdır. Orqanizmi qorumaq uzunömürlülüyün əsasını təşkil edir. Tez-tez müayinədən keçmək, qorunmaq və təmkinli olmaq arzu olunandır.

Sağlam qidalanma da sağlamlığın əsasıdır. Bəs biz sağlam qidalanmaq üçün nələr

etməliyik? Gündəlik içdiyimiz suyun miqdarı ən az 2-3 litr olmalıdır. Hər səhər yuxudan oyanan zaman yeməkdən əvvəl aç qarnına bir stəkan su içmək orqanizmin təmizlənməsində mühüm rol oynayır. Yemək zamanı və yeməkdən həmən sonra su içmək olmaz, ən az yarım saat sonra içilməlidir, ona görə ki, su mədəyə düşən zaman 15 dəqiqə sonra yuyulur və özü ilə bərabər mədə şirəsini də yuyur ki, buda qidanın həzmini çətinləşdirir. Çox isti olan yemək və su da mədə üçün ziyanlıdır. Yağlı olan yeməklərdən mümkün qədər uzağ olmaq lazımdır. Yemək yeyərkən onu çox çeynəmək həzmi asanlaşdırır.

Bəzi alimlərin fikrinə görə gün ərzində yemək yeməyin fərqli metodları vardır. K.Nişi və P. Breq deyirdi ki səhər yeməyini yeməyərək gün boyu iki dəfə qidalanmaq daha yaxşıdır. Ona görə ki, səhər saatlarında gecədən olan qidaların həzmi gedir və mədəni gücə salmaq olmaz. Çox yemək yeməyə meyilli olmaq düzgün deyil, çox yemək lazımsız və faydasızdır. Xörəkdə duzun miqdarı da çox olmamalıdır, bu həm mədə, həm də böyrəklər üçün ziyandır.

Doğru qidalanmada onikibarmaq bağırsaq böyük rol oynayır, çünki orada qida çürüyərək zərərli maddələrdən ayrılır.

Məktəblilər üçün əsas vacib olan nüans beynin qidalanmasıdır. Bundan ötrü onlar kitab oxumalı, təmiz havada gəzməli, maraqlı filmlərə baxmalı, səyahətə çıxmalı, düzgün qidalanmalı və istirahət etməlidirlər.

Uşaqlarda düzgün yuxu rejimi formalaşdırılmalıdır. Buna görə də, bu işdə valideynlərin üzərinə böyük məsuliyyət düşür.

1.Normal və düzgün qidalanmalıdırlar. 2.Uşaqlar hər gün saat 9-dan gec olmayaraq yatmalıdırlar. 3.Uşaq dərsdən çıxıb evə gəldikdən sonra müəyyən vaxt çərçivəsində dincəlməli, daha sonra isə ev tapşırıqlarını yerinə yetirməlidirlər. 4. Dərs ilə məşğul olma vaxtlarını düzgün seçməli, beyni yormamalı və faydalı işlərlə məşğul olmalıdır.

1-6-cı sinif uşağlar üçün məktəblərdə sağlamlıq haqqında təlimlər keçirilməlidir. Düzgün qidalanmanın prinsipləri: sağlamlığa ciddi ziyan vuran pis vərdişlər, düzgün qidalanma və s. haqqında təlimlər keçirilmədir. Uşaqlara faydalı olan qidalardan danışmaq, onların inkişafına lazım olan məhsullardan istifadə etmək, boyları, dişləri, əzələləri üçün yararlı olan məhsullar haqqında məlumat vermək lazımdır.

Məlumdur ki, bir çox məktəblərdə uşaqlar üçün keçirilən tədbirlərdən biri də "sağlam həyat tərzi və sağlamlığı qorumaq" lahiyəsidir ki, bu da maarifləndirmə işini sürətləndirir.

Daha sonra keçirilən "Lider olmaq istəyirəm" adlı tədbirdə zərərli olan maddələrin insan sağlamlığına olan təsirindən danışılır. Uşaqların nəzərinə çatdırılır ki, statistik məlumatlara görə hər il tütün çəkən 8 milyon insan həyatını itirir, çəkməyən 1 milyon insan isə o havaya məruz qaldıqlarına görə "passiv papiros çəkən "olaraq, daha çox ziyan görürlər. Ona görədə ən uyğun yol zərərli vərdişlərdən uşaqları uzaq tutmaqdır.

Uşaqlarımızı qorumaq gələcəyimizi və millətimizi qorumaq deməkdir. Onların tərbiyəsi, əxlaqı, sağlamlığı 50% özlərindən asılı olsa da, 50%-i valideyin və ətraf mühitindən asılıdır.

Ədəbiyyat

1. A.Abbasov, H.Əlizadə. Pedaqogika (Ali məktəblər üçün dərs vəsaiti). Bakı, 2000.
2. Y.Tahbov, Ə.Ağayev və.b. Pedaqogika. Dərs vəsaiti (Ali məktəbiərin bakalavr pilləsi tələbələri üçün) Bakı, "Adiloğlu", 2003.
3. Z.Qaralov "Tərbiyə: prinsiplər, məzmun, metodika" Üç cilddə I,II,III c. Bakı, "Pedaqogika", 2003.
4. R.Əliyev, Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı,2000.

## XÜLASƏ

Məqalədə məktəblilərin sağlam həyat tərzinin bəzi aspektlərindən, sağlamlıq barədə bilməli olduğumuz məlumatların dərin və ətraflı dərk edilməsindən, insan orqanizminin qorunması, həmçinin bunu məktəblilərin nəzərinə çatdırılmasından bəhs edilir.

Sağlamlıq, xoşbəxt həyatın əsas şərti və təminatı, şüurun inkişafı, orqanizim üçün faydalı olan məlumatlar, təhsildə məktəblilərin üçün lazımı biliklər, onun qorunması və maksimum dərəcədə ona zərərli olan mənbələrdən uzaq olunması barədə məlumatlar verilmişdir.

**Açar sözlər**: sağlamlıq, təhsil sistemi, pedaqoji sağlam fəaliyyət, yanaşma metodu, şərh, mətn.


**РЕЗЮМЕ**

В статье рассказывается о некоторых аспектах здорового образа жизни школьников, глубоком и детальном осмыслении информации, которую необходимо знать о здоровье, защите организма человека, а также доведении ее до сведения школьников. Даны сведения о здоровье, главном условии и залоге счастливой жизни, развитии сознания, информация полезная для организма, необходимые знания для школьников в образовании, его защита и максимальное удаление от вредных для него источников.

**Ключевые слова**: здоровье, система образования, педагогическая оздоровительная деятельность, метод подхода, интерпретация, текст.



**SUMMARY**

The article talks about some aspects of the healthy lifestyle of schoolchildren, the deep and detailed understanding of the information we need to know about health, the protection of the human body, and also bringing it to the attention of schoolchildren. Information about health, the main condition and guarantee of a happy life, the development of consciousness, information useful for the body, necessary knowledge for schoolchildren in education, its protection and maximum distance from sources that are harmful to it are given.

**Key words:** health, educational system, pedagogical healthy activity, method of approach, interpretation, text.


## AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ İNTEQRASİYANIN YARADILMASI İMKANLARI


**Siracova Aysu Kamran qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


Metodist alimlər tədris olunan fənlərini daxili inteqrativliyinə və daha çox elm sahəsini əhatə etməsinə diqqət yetirməyi tövsiyə edirlər. Müşahidə və təcrübələr də sübut edir ki, uyğun elm sahələrinin əlaqələndirilməsi və onların oxşar və fərqli əlamət və keyfiyyətlərinin təqdim olunması şagirdlərin təlimə marağını artıran mühüm amildir. Bu prosesdə şagirdlər dərsə maraqla yanaşır, təlimin səmərəsi artır, biliklər genişlənir, nailiyyət əldə edilməsi daha asan olur.

Nəzərə alınmalı məsələ isə fənlərarası və fəndaxili inteqrasiyadır. Bu barədə hələ ənənəvi təhsil sistemində bəhs edilmişdir. Hətta bəzi alimlər onu bir prinsip, bəziləri isə metod kimi tədqiq etmişlər. Hətta bu məsələ o qədər əhəmiyyətli hesab edilmişdir ki, əsrin sonlarına doğru fənn proqramlarında da yer almışdır. Fənlərarası və fəndaxili əlaqə hətta bir çox müəllimlərin də marağına səbəb olmuşdur. Onlar bu əlaqələrdən istifadə edilməklə təlimin daha maraqlı və səmərəli qurulmasında ən yaxşı vasitə olduğunu qeyd etmişlər. Kurikulum sənədində də onun bir prinsip kimi nəzərə alınması məqsədəmüvafiq hesab edilmişdir.

İnteqrasiyanın təlim məqsədi ondan ibarətdir ki, dünyanın ayrı-ayrı hissələrinin bağlılığını əks etdirən sistem kimi şagirdə ətraf aləmin təmsil olunduğu bütün elementləri ilə vəhdətdə olduğunu öyrətməkdir. (6, s.52)

Tədqiqatçı alim B. Mehralıyeva dil qaydalarının mənimsədilməsi məsələlərini tədqiq edərək bu qənaətə gəlir ki, “Ana dili tədrisində dil qaydaları arasındakı daxili əlaqə, ardıcıllıq, sistemlilik, bir dil qaydasının digər dil qaydasının öyrədilməsi üçün zəmin olması, nəzəriy-

yənin təcrübədən kənarda qavranılmaması, tətbiqi imkanların nəzəri qaydaların məhək daşı funksiyasında çıxış etməsi, dil hadisələriniun cəmiyyətin inkişafı ilə bağlıolaraq dəyişkən xarakterli olması nəzərə alınmalıdır. (5, s. 11)

Azərbaycan dili təlimində inteqrasiyanın iki növündən - fəndaxili inteqrasiya və fənlərarası inteqrasiyadan istifadə olunur. Dilçi alim R.Hümmətova əsərində dilin elmi və praktik şəkildə, dərindən öyrənilməsi üçün fəndaxili və fənlərarası inteqrasiyanın pedaqoji vasitə kimi tətbiqini önəmli hesab edir. (6, s. 4). Müəllif qeyd edir ki, inteqrasiyanın təlim praktikasında ən çox tətbiq olunan növü retrospektiv fəndaxili əlaqədir. Bunun nəticəsində əvvəl tədris edilmiş mövzularla, bölmələrlə əlaqə yaradılır.

R. Hümmətova əks əlaqəninin də əhəmiyyətini qeyd edir və göstərir ki, əks əlaqə nəticəsində sonrakı mövzular üçün əlverişli zəmin hazırlanır. (6, s. 5).

Fəndaxili inteqrasiya Azərbaycan dili təlimində məzmun xətləri arasında qarşılıqlı əlaqələri təmin etməklə dinləyib anlama, danışma, oxu və yazı bacarıqlarının bir vəhdət halında qavranılmasına, dərk edilməsinə şərait yaradır. Nitq fəaliyyəti üzrə bacarıq və vərdişlərin formalaşdırılması, qazanılmış biliklərin şüurlu tətbiqi fəndaxili əlaqələr nəzərə alınmaqla reallaşdırılır.

Fəndaxili inteqrasiya - konkret bir elmin bilik, bacarıq və vərdişlərin arasında neyro-dinamik əlaqədir.Əldə edilmiş faktları bir elmin daxilində sistemləşdirməklə mikroskopik tədqiqat nəticəsində onların əhəmiyyətli hissələrini görmək və tapmaq olar.Bu isə öz nəticəsində verilən mövzunun daxilində ayrı-ayrı informasiyaların daha tutumlu olmasına, müxtəlif tədris vahidlərinin şagirdlər tərəfindən daha geniş kateqoriyalarda öyrənilməsinə gətirib çıxarır.

Fəndaxili inteqrasiyanın həyata keçməsi 2 istiqamətdə reallaşır:

1.Xüsusi anlayışlardan ümumi anlayışlara doğru elmlərin dərk olunması. Bunu varislik adlandıra bilərik.

2.Ümumidən xüsusiyə doğru elmlərin dərk olunması. Bunu da rekursiv adlandıraq.

Fəndaxili inteqrasiya varislik və rekursiv əlaqələrin birləşməsidir. Bu iki xətt bu elmin inkişafı üçün lazım ideyalarla, məlumatlarla, asılıqlarla zəngindir.

Azərbaycan dilinin tədrisi ibtidai siniflərədə müəyyən qanunauyğunluqlar əsasında həyata keçir. Bu qanunauyğunluqlar məktəbdə müəllimlərin işini təcrübə cəhətdən ümumiləşdirmək, əvvəlcədən əldə edilmiş materialları düzgün təhlil etməklə köhn ilə təzəni əlaqələndirmək, tənqid etmə azadlığı,yaxın fənlərlə əlaqəli inkişaf etməkdir.

Əlbəttə ki, göstərilən bu qanunauyğunluqlar Azərbaycan dili fənninin elmi-nəzəri, idraki, təcrübi-praktik cəhətdən həll olunması gərəkli olan məsələlərin həllinə kömək edir. Hər hansı bir çətin məsələni həll etmək üçün onun asan, elementar hissələrə bölünməsi vacibdir. Bu zaman nəticə daha düzgün və effektiv olur.Fəndaxili inteqrasiya müəyyən bir sistem çərçivəsində olmalıdır Burada əlaqələr öz mürəkkəbliyi ilə seçilir. Azərbaycan dilinin elementləri arasında müxtəlif xarakterli münasibətlər mövcuddur: birbaşa inteqrasiya. dolayısı inteqrasiya. Azərbaycan dili fənnində nitq hissələri arasında inteqrasiya yaradaq.



Bu günümüzdə fəndaxili inteqrasiya dərslərin psixoloji mahiyyətini işləyib hazırlamağa və ümumi metodiki anlayışlar arasında əlaqələri müəyyən etməyə imkan verir. Bu dərslər mövzunun məzmununu əhatə etməli,təlim prosesi lazımi vasitələrlə təmin edilməlidir. İnteqrativ dərslər xüsusi dəqiqlik, öyrənmənin bütün mərhələlərində müxtəlif predmetlər üzrə materialın məntiqi qarşılıqlı əlaqəsini tələb edir. Bu dərs materialı proqramının cəmləşdirilmiş, yığcam tədrisi hesabına müvəffəqiyyət əldə edilir.

Ədəbiyyat


1. Abbasov Ə., Əhmədov A. Təhsildə inteqrasiya: müasir yanaşmalar. Kurikulum jurnalı, 2013. № 2, s.14-21.
2. Hüseynov Ə., Mehdiyeva S. Təhsildə inteqrasiya anlayışının inkişaf yolu. Azərbaycan məktəbi, 2016, № 1, s. 51-56.
3. Hümmətova R. "Qoşma və bağlayıcının tədrisində inteqrasiya", Elm və təhsil, Bakı, 2018, 206 s.
4. Mehdiyeva N. Yeni fənn kurikulumları və inteqrasiya. Kurikulum jurnalı, 2008, №1, s.58-63
5. Nəbiyeva Ş. Ana dilinin tədrisinin aktual problemləri. Bakı, 2010. 107 s.
6. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, Nasir, 2003. 519 s.


## СИСТЕМНЫЙ ПОДХОД К ДЕЯТЕЛЬНОСТИ ПО УКРЕПЛЕНИЮ И СОХРАНЕНИЮ ЗДОРОВЬЯ ДЕТЕЙ


**Сунь Юйцзе**

*Азербайджанский государственный педагогический университет*


В настоящее время в нашей стране большое внимание уделяется вопросу современного состояния здоровья школьников, влияющего на получение качественного образования. Процесс обучения всегда был и остаётся достаточно сложным видом трудовой деятельности и требует от учащегося не только достаточной мотивации, но и ряда других, не менее важных психофизиологических качеств личности. Одним из таких обязательных качеств является наличие у обучающегося здоровья, проявляющегося оптимальным функциональным состоянием и высоким уровнем работоспособности. Сохранение и укрепление здоровья подрастающего поколения является одной из приоритетных задач нашего государства. Однако в последние десятилетия из-за ослабления внимания к данной проблеме в системе образования это направление утратило системный характер. Развитие и интенсификация школьного образования обострили проблему сохранения здоровья учащихся. Среди детей, начинающих регулярное обучение, увеличивается распространённость пограничных расстройств здоровья с формированием в дальнейшем хронической патологии, поэтому особенно актуален поиск методов ранней диагностики и профилактики заболеваний . Задачи по сохранению и укреплению здоровья современных школьников могут и должны решаться непосредственно в образовательной организации путём поиска универсальных и эффективных форм организации образовательной деятельности, оптимизации двигательной активности, питания учащихся и др.

Именно в настоящий период недостаточно системно реализовываются нормативно-правовая, организационно-содержательная и управленческая составляющие работы по формированию у детей культуры здорового и безопасного образа жизни, в результате чего сегодня регистрируется рост показателей заболеваемости среди учащейся молодёжи. Основополагающими приоритетами в решении проблемы здоровьесозидания в современном образовательном процессе являются: - системный подход к здоровью, в котором физическое и психологическое

здоровье представляется связанным с высшими ценностями, целями и потребностями человека в контексте гуманистической психологии и гуманистической парадигмы образования; - здоровый ребенок – практически достижимая норма детского развития и необходимый ресурс «человеческого капитала»; - здоровьесозидание – как совокупность лечебно-профилактических мер, сложный и динамичный процесс развития потенциалов здоровья с учетом его индивидуального уровня; - готовность к здоровьесозидающей деятельности – основное средство и условие здоровьесозидания личности участников образовательного процесса. Перед школой стоит задача создания условий для сохранения здоровья учащихся, механизма формирования здоровьесозидающей среды. Так как здоровье выступает критерием качества образования, даже минимальные усилия приводят к видимым результатам.

Поддерживать и укреплять здоровье не только можно, но и необходимо в любом возрасте. Здоровьесозидающая деятельность педагога имеет системный характер и создает возможность сохранить и укрепить как здоровье учащихся, так и собственное здоровье. Приобретение профессиональной компетенции и копинг-стратегий поведения, направленных на сохранение и укрепление здоровья учащихся, способствует качеству педагогического труда и сохранению здоровья самого педагога. Профессия педагога обладает огромной социальной важностью, так как на педагога ложится большая ответственность не только за обучение, развитие, воспитание ребенка, но и за его здоровье. Профессия учителя, наряду с профессиями авиадиспетчера, пожарного или спасателя, входит в десятку профессий риска по эмоциональным нагрузкам. В связи с этим отмечается значительное увеличение числа педагогов со сниженным уровнем адаптации и срывом адаптации [3]. Психофизиологическийи соматический статус, отражая неблагоприятные тенденции, свидетельствует о невозможности части из них выполнять свои профессиональные обязанности. Современные учителя как профессиональная группа находятся на I-м месте по нервно-психическим расстройствам[4].

Педагог находится под гнетом двойного стресса – социального и профессионального. Отсюда излишняя нервозность, озлобленность, отсутствие оптимизма, апатия и депрессия, ухудшение профессиональной позиции – формируется консерватизм, неприятие новой педагогики. Необходимо преодолеть сегодняшний низкий уровень самоотношения, самоуважения, самопринятия, повысить профессиональное самосознание учителя, осознание себя личностью, способной проектировать свое будущее. По данным проведенного исследования «Гражданского самочувствия населения»(2016 г.) [4], 30% учителей находятся в состоянии высокой степени истощения своих сил, почти на грани нервного срыва, 60% на среднем уровне риска срыва, 10% считают свое самочувствие нормальным. Нарушение механизмов саморегуляции, деформация внутреннего мира личности становятся пролонгированной причиной большого числа соматических и психосоматических заболеваний учителей. Педагогическая деятельность происходит в «зоне риска», так как она (деятельность) постоянно сопряжена с неопределенностью педагогических ситуаций, с необходимостью выбора педагогом одной из возможных альтернатив, с вероятностью нежелательных результатов, с возможными неблагоприятными и негативными последствиями действий учителя для других участников педагогического процесса и для него самого. Говоря о мотивации ведения здорового образа жизни, в первую очередь люди должны научиться понимать, что их здоровье – величина непостоянная. Здоровье подобно цветущему растению: если за ним не ухаживать как следует, не поливать, не удобрять, то вскоре оно зачахнет, его цветы завянут, листья падут, и потребуется немало усилий, чтобы вернуть его в прежнее состояние, если это вообще будет возможно.

Исследования отечественных ученых показывают, что организация учебного процесса не соответствует природе ребенка. Законы развития физической и духовной составляющих здоровья обучающихся и воспитанников и принципы организации деятельности современной школы часто имеют противоположную направленность. Возникает необходимость поиска путей, помогающих организовать учебный процесс в соответствии с законами, не противоречащими природе ребенка. Сохранение здоровья ребенка начинается с организации всего учебно-воспитательного процесса, в частности с расписания уроков.

Необходимо уменьшить количество предметов в один учебный день, то есть количество подготовок ученика к урокам, за счет спаренных часов, которые позволяют учителю организовать «погружение» в предмет, а ученику избежать «стрессового калейдоскопа». С целью сохранения здоровья учащихся учитель должен видеть систему уроков класса в данный день, помнить и учитывать не только очередность своего урока, но, что очень важно, какой он по счету в учебном процессе класса. Если в расписании ваш урок стоит за пределами продуктивных часов, то и планирование урока необходимо осуществлять с учетом этих обстоятельств. Какие же из проблем, связанных со здоровьем учащихся, школе нужно решать незамедлительно? Для этого необходимо сменить приоритеты. Выделим основные.

В первую очередь, необходимо снять со школьников учебную перегрузку, приводящую к состоянию переутомления. Параллельно с этим организовать физическую активность учащихся, что реально окажет свое благотворное воздействие на профилактику заболеваний опорно-двигательного аппарата у детей. Все это, разумеется, при условии правильно организованного питания школьников. Нужны меры предупреждения вредного воздействия на здоровье учащихся факторов, непосредственно связанных с образовательным процессом (профилактика школьных болезней). В школах необходимо создать действенную систему охраны и укрепления психического здоровья учащихся. Это позволит предупреждать школьные стрессы, психические срывы (дидактогенные заболевания), важно предотвратить распространение среди учащихся вредных привычек, зависимостей и т.д. Актуальным является формирование как культуры здоровья учащихся, так и компетентности педагогов в вопросах здоровья и здоровьесозидающих технологий.

Если о вреде курения будет рассказывать курящий учитель, то все его аргументы будут бесполезны. Также необходимо организовать самое тесное сотрудничество с родителями учащихся по вопросам сохранения и укрепления здоровья их детей. Прогрессивное образование не может находиться в стороне от этих проблем. Поэтому забота образовательной организации о здоровье – острая потребность времени. Эффективная профилактика школьно-обусловленной патологии должна базироваться на новой концепции, предусматривающей системный подход к сохранению и укреплению здоровья детей и подростков на различных этапах обучения, и рассматривать профилактику как взаимодействие множества элементов, важнейшими из которых являются: условия обучения, организация учебного процесса и его техническая оснащённость, учебная и внеучебная нагрузки, состояние здоровья учащихся, их социальные условия и организация текущего медицинского наблюдения за ними. Основной путь к здоровью – воспитание культуры здоровья, формирование убежденности ребенка в том, что нет другого правильного образа жизни, кроме здорового. Задача системы образования – добиться, чтобы ЗОЖ стал основой нового мировоззрения нового времени. Очень важно сменить приоритеты, так как с физического и духовного оздоровления начинается возрождение нации

Литература
1. Алексеев С.В., Колесникова М.Г. Теория и методика эколого-педагогической подготовки учителя в системе постдипломного образования: моногр. – СПб.: Спец Лит., 2011.
2. Гун Г.Е. Здоровье учащихся образовательной организации и отрицательно влияющие на него факторы // Образование: ресурсы развития. Вестник Ленинградского областного института развития образования. – СПб.,– 2018. – № 1. – С. 28-33.
3. Гун Г.Е. Здоровье детей – критерий качества образования // Информационно-методическое издание для преподавателей: Основы безопасности жизнедеятельности. – СПб.,– 2020. – № 1. – С. 29-33.

## TARİX DƏRSLƏRİNDƏ FORMALAŞDIRILAN İNFORMASİYA KOMPETENSİYALARI ŞAGİRDLƏRİN AKMEOLOJİ BACARIQLARININ MÜHİM ŞƏRTİDİR

**Süleymanova İnci Azər qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Kompetensiya latın dilində "competentia" sözündən tərcümədə "müvafiqlik", "uyğunluq", "səlahiyyət", "insanın yaxşı bildiyi sahə" deməkdir. Kompetensiya bilik, bacarıq, vərdiş, keyfiyyət və dəyər toplusudur. Müasir təhsilin mühim məqsədlərindən biri təhsilalanlarda informasiya kompetensiyasını formalaşdırılmasıdır. Elmi-texniki proseslər və müasir cəmiyyətin inkişafı yeni təhsil vasitələrini, informasiya zəmanəsində müstəqil yaşamaq bacarıqlarını formalaşdıran yeni təhsil texnologiyalarını tələb edir. Avropa ittifaqı ölkələri kompetensiya anlayışını yeni sitiuasiyalarda bilik və bacarıqların tətbiqi kimi qəbul edir. Avropa alimləri hesab edirlər ki, gənclər öz biliklərini təkmilləşdirməyə yönəlmiş bilik və bacarıqlara yiyələnirlər. Bu da şəxsiyyətin intelektual və mədəni inkişafına təkan verir, onlarda zamanın tələblərinə çevik reaksiya vermək qabliyyətlərini formalaşdırır. Təhsilin informasiyalaşdırılması müəllimlərdən peşə vəzifələrindən əlavə informasiya kompetensiyasına sahib olmağı, yəni informatika biliyi, bir çox materialların hazırlanması üçün komputer vasitələrinə malik olmaq, ondan istifadə bacarıqları, tələb edir. Bunu şagird də formalaşdırmaq üçün də ilk növbə də müəllimlərin bu kompetensiyalara sahib olması vacibdir. Beləliklə, müəllimin informasiya kompetensiyası onların peşəkarlığının tərkib hissəsidir [1, s. 38-41].

Elmdə hələdə kompetensiyaların təsnifatı ilə bağlı vahid fikir yoxdur. Ancaq, elmi ədəbiyyatlarda ən əhəmiyyətli və tez- tez təsvir edilənlər aşağıdakılardır:

1. A.V.Xutorskoy kompetensiyanın yeddi növünü vermişdir. Bunlar dəyər-məna, komunikativ, informasiya, şəxsi özünütəkmilləşdirmə, tədris-idrak, ümummədəni, sosial-əmək kompetensiyalarıdır;
2. İ.A.Zimnaya kompetensiyaları üç qrupa ayırır. Şəxsin özü ilə bağlı, sosial mühitlə bağlı, həyat fəailiyyətinin hər hansı bir komponenti ilə bağlı kompetensiyalar;
3. P.G.Argunova beş yerə ayırır. Koqnitiv(bilik), motivasiya, aksioloji(şəxsin oriyentasiyası, dəyər münasibətləri), praktik(bacarıqlar, təcrübə), emosional və iradi(özünütənzimləmə).
4. T.V.Nemçinova, A.A.Tonxonoeva, A.V.Baqduyeva informasiya kompetensiyasını informasiyanın seçilməsi, mənimsənilməsi, emalı, yaradılması, saxlanılması, ötürülməsi hesab edirlər [2, s. 100-102].

Akmeologiya yunan sözüdür, tərcümə də "akme" zirvə deməkdir. Akmeologiya şəxsi inkişafın ən yüksək zirvəsinə çatmaq imkanını təmin edən qanunauyğunluqları və mexanizmləri araşdıran bir elmdir və ya inkişaf psixologiyasının bir qoludur. İlk dəfə N.A.Rıbnikov akmeologiya terminini " yetkin insanların inkişafı haqqında" elm kimi təklif etmişdir. XX əsrin ortalarında B.G.Ananiev humanitar elmlər sistemində akmeologiyanın

yerini müəyyən etmişdir. Akmeoloqlar öz tədqiqatlarını psixoloji və pedaqoji elmlər sahəsində aparır. Peşəkar akmeologiyanın növləri olaraq pedaqoji, hərbi, sosial, məktəb və tibbi akmeologiyalar mövcuddur. Yetginlik dövründə isə inkişaf elminin digər aspektləri sinergetik, yaradıcı, etnoloji, idarəetmə və təhsilin akmeologiyasıdır. Akmeologiya tətqiqatının ən vacib cəhəti təkcə insanların yetkinlik dövründə əldə etdiyi nailiyyətləri deyil, həm də buna kömək edən amilləri araşdırır. Akmeologiya insanın çoxölçülü inkişafını öyrənir. O həyatın yetkinlik dövründə insan inkişafının bütün aspektlərini mümkün qədər əhatə etməyə çalışır. Yetkin bir şəxsin potensialının reallaşdırılmasında həm uğura aparan, həm də uğura mane olan səbəblər vardır. Buraya iradə, özünütəhsil, özünütərbiyə, həmçinin obyektiv və subyektiv səbəblər də aiddir. Eyni zamanda peşə tələbləri, elmi, texniki, mədəni tərəqqilərdə dəyişikliklər, şəxsi maraqlarda baş verən dəyişikliklər də nəzərə alınmalıdır. Beləliklə, müasir akmeologiya insan nailiyyətlərini və ona aparan komponentləri hərtərəfli araşdırmaq üçün nəzərdə tutulmuş elmi biliklərin unikal sahəsidir. Akmeoloji baxımdan yetkin şəxsiyyətin əlamətləri bunlardır: inkişaf etmiş məsuliyyət hissi, mürəkkəb həyat problemlərini mərhələli həll etmək istəyi, başqalarına qayğı göstərmək, insanlarla psixoloji yaxınlıqda olmaq, ictimai həyatda fəal iştirak etmək, bacarıqlarını tətbiq etmək ehtiyyacı və s. Yetkin şəxsiyyətin formalaşması şərtləri aşağıdakılardır:

1. vaxtın düzgün təşkili, peşəkar və etnik mədəniyyət;
2. həyat yolunun seçimində aktiv mövqenin formalaşdırılması;
3. etno psixoloji mühitin formalaşması və bu mühitin formalaşan şəxsiyyətə təsiri;
4. ətraf mühitlə şəxs arasındakı ziddiyyətləri aradan qaldırmaq üçün əlverişli şərait;
5. yetkin insanının problem və tapşırıqlarının məhsuldar həlli;
6. bacarıqlarının, özünü formalaşdırmağın, həyatlarınının yaradıcısı kimi əlaqələrinin və davranışlarının fərqində olmaq [4].

İnformasiya kompetensiyasına sahib olmaq vacibdir. Çünki, hər bir şəxs təhsildə və peşəkar sahədə vəzifələrini həll edərkən buna ehtiyyac duyur. Belə bir nəticəyə gəlmək olar ki, yetkinlik dövründə akmeoloji bacarıqların formalaşması üçün aşağı yaşlarda tarix dərslərində şagirdlərdə informasiya kompetensiyasını formalaşdırmaq lazımdır. Nəticə də informasiya dövründən baş çıxarmağı bacarmayan insanda yetkinlik yaşında peşəkar bacarıqların inkişafından söhbət gedə bilməz. Beləliklə tarix dərslərində formalaşdırılan informasiya kompetensiyaları şagirdlərin akmeoloji bacarıqlarının mühim şərtidir. İnformasiya kompetensiyasının formalaşdırılmasına dair məntiqli tələblərin işlənib hazırlanmasına və onların təhsil sistemində tətbiqinə həqiqətən ehtiyyac var. Bu gün informasiya kompetensiyasının zəruriliyi daha çox hiss edildiyindən, onun formalaşdırılmasından sadəcə təhsil həyatı üçün bəhs etmək doğru olmazdı. Gələcək üçün yüksək səviyyəli akmeoloji bacarıqlara sahib olan, bu bacarıqları özündə daima inkişaf etdirməyi bacaran vətəndaşlar formalaşdırmaq istəyiriksə, təhsilalanlarda informasiya kompetensiyasının formalaşdırılmasında məktəb, valideyn və şagird üçbucağı birgə çalışmalıdır. Xüsusi ilədə şagirdlər sərbəst müxtəlif kompetensiyalara yiyələnməyə meyilli olmalıdırlar. Ancaq, bu formada gələcək də akmeoloji bacarıqları sərbəst özlərində formalaşdıra bilərlər.

Ədəbiyyat:

1. Salohub.S. Information competence of students as the most important factor in the formation of their worldview, Kiev, 2012, 38-43 s.
2. Климушко Е. И. Информационная Компетентность В Системе Высшего Образования, (Минск, Беларусь), 2020, 97-103 s.
3. Akmeoloji bilim nedir? Profesyonel acmeoloji: https://tr.ilovevaquero.com/obrazovanie/88262-akmeologiya-eto-chto-za-nauka-professionalnaya-akmeologiya.html

# MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNDƏ EMOSİONAL ZƏKA VƏ ONUN İNKİŞAFI

**Şəfiyeva Aysel Rizvan qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Təlim şəxsiyyətlərarası münasibətlər vasitəsilə qurulur. Bu münasibətlər sistemində yer alan müəllim-şagird qarşılıqlı əlaqəsinin düzgün təşkil olunması dərindən öyrənmənin təminatçısıdır. Təlim prosesində elə qarşılıqlı münasibətlər yaradılmalıdır ki, bu münasibətlər zəmnində hər iki tərəf qarşıya qoyulmuş məqsədə çata bilsin. Əməkdaşlıq kontekstində prosesin iştirakçıları arasında pozitiv münasibətlərin olması öyrənməni müvəffəqiyyətini təmin edən amillərdəndir.

Emosional zəka müəllim-şagird münasibətlərinə əhəmiyyətli dərəcədə təsir edən amildir. Bu münasibətlərdə həm şagirdlərin, həm də müəllimin emosional zəka səviyyəsi mühüm rol oynayır. Bu mənada, müəllimlər tədris metodları, sinifin idarə edilməsi, müəllim-şagird münasibətləri kimi təhsil və təlimin əsas aspektlərinə dair müəyyən inanc və baxışlara sahibdirlər və bu inanclar onların təhsil fəlsəfəsini formalaşdırır. Müəllimlərin şagirdlərlə münasibətini və dərslərini idarə etmə tərzini müəyyən edən iki əsas üslub var: avtoritar və demokratik üslub.

Avtoritar üslubun hakim olduğu müəllim-şagird münasibətlərində şagirdlərin gözləntiləri və ehtiyacları nəzərə alınmır və tədris prosesi ilə bağlı bütün qərarlar müəllim tərəfindən verilir. İntizamı təmin etmək üçün şagirdlər qorxudulur, cəzalandırılır, mükafatlandırılmır və çox zaman başqaları ilə müqayisə edilir. Belə bir sinif mühitində emosional tərbiyədən və emosional zəkanın inkişafından söhbət gedə bilməz. Adətən şagirdlər öz emosiyalarını gizlədir, sorğulamadan müəllimin fikirləri ilə razılaşırlar. Şagirdlərdə tənqidi təfəkkür inkişaf etmir. Şagirdlər arasında müqayisələrin aparılması onlarda paxıllıq, həsəd, yetərsizlik və özünə inamsızlıq kimi mənfi xüsusiyyətləri formalaşdırır. Nəticədə məmnunluq hissindən məhrum insanlar yetişdirilir.

Demokratik yanaşmanın əsas tutulduğu münasibətlərdə şagirdlərin qərar qəbul etmə proseslərində iştirakı təşviq edilir, onların fikirlərinə hörmətlə yanaşılır, şagird və müəllim arasında hörmət və əməkdaşlıq ön planda olur.

Demokratik sinif idarəçiliyini mənimsəmiş müəllim təhsildə bəzi məqamların vacib olduğu və hər cür davranış və bacarığın öyrənilə biləcəyindən agahdır. Bu müəllim sinifin idarə olunmasında, tədris üsullarının seçilməsi və həyata keçirilməsində şagirdlərin maraq və bacarıqlarını nəzərə alır və şagird mərkəzli təlim yanaşmasını nümayiş etdirir. Şagirdmərkəzli öyrənmə öyrənənlərə yaradıcı və tənqidi təfəkkür, məsuliyyət, özünə inam kimi xüsusiyyətləri təmin etmək və fərdin hərtərəfli inkişafını təşviq etmək məqsədi daşıyır. Müəlimin şagirdlərlə münasibətdə demokratik yanaşma sərgiləməsi onların özünəinamlı, motivasiyalı, emosional cəhətdən bacarıqlı şəxsiyyət kimi formalaşmasına imkan yaradır. Bundan əlavə, şagirdlər yaxşı və nümunəvi davranışa malik bir qrupda olsalar və bu mühitdə emosional intellekt kompetensiyalarını inkişaf etdirmək və istifadə etmək imkanı əldə edərlərsə, məktəbdə uğurlarını artırmaq üçün istedadlarını daha çox üzə çıxaracaqlar. Emosional zəkanın inkişaf etdirilməsində tədris prosesi çox böyük rol oynayır. Çünki emosional zəka inkişaf etdirilməsi mümkün olan qabiliyyətlərin məcmusudur.

Şagirdlərə bilik və bacarıqların verilməsi, eyni zamanda onların şəxsiyyətinin, emosional zəkasının inkişafının təmin edilməsi müəllimdən yüksək emosional bacarıqlar tələb edir. Bu baxımdan müəllimin rol-model olması çox vacibdir. Çünki şagirdin EQ-sunun formalaşması müşahidə edərək, təkrar edərək öyrənməyə əsaslanır. Bu proses beynimizdəki güzgü neyronları sayəsində həyata keçir. Bu səbəbdən də müəllimin örnək rolu şagird şəxsiyyətinin formalaşması və gələcəkdə cəmiyyət üçün faydalı şəxsiyyət kimi formalaşması üçün əsasdır. Müəllimin yüksək səviyyədə emosional zəkası varsa, bu, onların sinifdə daha

yaxşı ünsiyyət qurmasına kömək edə bilər. Bu, tələbələrlə empatiya qurmaq bacarığı ilə bağlıdır. Empatiya tələbələrin hisslərini başa düşmək və onlara dəstək vermək bacarığını ehtiva edir. Tələbə çətinlik və ya sıxıntı ilə üzləşdikdə, yüksək emosional intellektə malik müəllim onları başa düşə və müvafiq rəhbərlik və dəstək təklif edə bilər.

Vaqif Mahmudov "Müəllim-şagird münasibətləri əməkdaşlıq müstəvisində" adlı məqaləsində qeyd edir ki, müəllimlə şagirdin əməkdaşlığı təkcə tədris metod və vasitələrinin tətbiqindən ibarət deyil. Burada mənəvi əlaqə olmalıdır. Müəllim ötürdüyünün şagird tərəfindən qəbul edilməsinə, özününküləşdirməsinə şərait yaratmalıdır. Bu mənəvi əlaqə emosional, qiymətləndirici və iradi xarakter daşıyır."

İnkişaf etmiş emosional zəkaya malik müəllim sinifdəki neqativ halları daha effektiv idarə edə bilər. Məsələn, şagirdin davranışı başqalarına mənfi təsir göstərirsə, emosional intellekt səviyyəsi yüksək olan müəllim bu problemi həll etmək və sinif atmosferini yaxşılaşdırmaq üçün müvafiq strategiyalar hazırlaya bilər. Bu, sinifdəki dincliyə və öyrənmə mühitinə müsbət təsir göstərir. Şagirdlər emosional dəstək gördükləri mühitdə öyrənməyə açıq olurlar, daha çox risk alır, daha dərindən düşünür və prosesdə daha çox iştirak edirlər. Tədris prosesində, dərs saatlarında, dərsdənkənar məşğələlərdə, ümumiyyətlə ünsiyyət zamanı müəllimin şagirdlərin emosional zəkasını inkişaf etdirməsi son dərəcə vacibdir.

Emosional zəka şagirdlərə həmyaşıdları, müəllimləri, valideynləri və digər insanlarla düzgün münasibətlər qurmağa kömək edir. Bu da konfliktlətin sağlam formada həll edilməsinə şərait yaradır. Yüksək emosional zəkaya sahib şagirdlər yüksək məntiqi və tənqidi təfəkkürə, açıq düşüncə tərzinə sahib olduqlarından onlara verilən rəylərə daha adekvat reaksiya nümayiş etdirirlər. Hər iki tərəf emosional bacarıqlara sahib olduqda müəllimin şagirdlərlə empatiya quraraq həssalıqla verdiyi rəy, tənqidi düşüncəyə sahib şagird tərəfindən düzgün qarşılanır. Bununla da rəyvermənin səmərəliliyi artır, səhvini anlayan şagird inkişaf üçün çalışır və öyrənmə prosesi baş tutur.

## ƏDƏBİ ƏSƏRLƏRİN TƏHLİLİ: MƏKTƏB TƏCRÜBƏSİ

**Şükürova Aynur Əli qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Ədəbi əsərlərin təhlili bütün parametrlərdə məktəb təcrübəsinə bağlanır. Mövcud proqramlar, dərs vəsaitləri, metodik vəsaitlər, dərsliklər müxtəlif kontekstlərdə təhlil aspektində mahiyyəti aydınlaşdırmağa, konkret nümunələrdən çıxış etməklə qənaətləri geniş auditoriyaya təqdim etmək məqsədi daşıyır. Zəngin məktəb təcrübəsi, yüzillikləri əhatələyən təlim üsulları bütün spektrləri ilə ümumiləşdirmələr səviyyəsində təhlil dərslərinin nəzəri konseptini müəyyənləşdirir.

XIX yüzillikdə, eləcə də XX əsrin ilk onilliklərinin ədəbi əsərlərin təhlili və mənimsədilməsi ənənəsindən gələnlər sonrakı dönəmlər üçün bir örnək olmuşdur. S.Ə.Şirvani, F.Köçərli, S.M.Qənizadə, R.Əfəndiyev, A.Şaiq, B.Çobanzadə, F.Ağazadə, A.Səhhət, M.Mahmudbəyov və s. kimi görkəmli ziyalıların dərs təcrübəsi bunun klassik nümunəsidir. Dərslik yaratmaq işi və yeniləşən prosesdə yeni tipli məktəbləri formalaşdırmaq düşüncəsi bütünlükdə on doqquzuncu yüzilliklərdə metodik ədəbiyyat timsalında qaynaq rolunu yerinə yetirir.

İyirminci əsrin ilk onilliklərində özünü göstərən yeniləşmə sonrakı dönəmdə Ə.Qarabağlı (7), C.Əhmədov (3), Ş.Mikayılov, A.Hacıyev, B.Muradov və s. kimi onlarla metodik mütəxəssisin ədəbiyyat aspektində təhlil yazılarının, dərs vəsaiti, metodik vəsait və dərsliklərin yaranmasını bir zərurətə çevirdi. Təhsil, məktəb təcrübəsi bütün səviyyələrdə dinamikanı, axtarışları mühüm olaraq zərurətə çevirir. Ümumiyyətlə, dərsliklər dövrün və mühitin ehtiyaclarını, əxlaq, tərbiyə, təlim və mədəniyyət təsəvvürlərini bir bütöv olaraq əhatələmək məqsədi daşıyır.

V-IX sinif dərsliklərində xalq ədəbiyyatı örnəklərindən (əfsanə, nağıl, dastan və s.), yazılı ədəbiyyatın N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, M.P.Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət, C.Cabbarlı, S.Vurğun kimi sənətkarların əsərlərindən nümunələr verilməsinə həssaslıq göstərilməsi və bədii örnəklərin təhlil müstəvisində zəngin məktəb təcrübəsinə əsaslanmaqla şagirdlərə mənimsədilməsinə üstünlük verilməsi özlüyündə müəllim axtarışlarına bağlanır.

Müəllimin bilikötürən funksiyası və yaddaş texnologiyaları üzərində qurulan proses məktəb tarixində, eləcə də ədəbi əsərlərin təhlili məsələinin həyata keçirilməsində ayrıca bir mərhələdir. Yaddaş və düşüncə səviyyəsində nizamlanan bu proses məktəb təcrübəsində əldə olunanların miqyasına, təcrübənin ümumiləşdirmələrinə zərurət yaradır(5).

Məktəb təcrübəsi özlüyündə məktəb tarixinə, əldə olunan zənginliyin meyar və prinsiplərinə bağlanır. Bilikötürən funksiyasından dəstəkverici, istiqamətverici funksiyasına gəlib çıxma bunun bariz nümunəsi olmaqla ədəbi əsərlərin təhlil və qavramı işində də aparıcılıqla müşahidə olunur. Növ və janrlar haqqında verilən bilgilər və ayrı-ayrı ədəbiyyat nümunələrinin, məsələn, bayatı, atalar sözü, məsəl, əfsanə, rəvayət, nağıl, təmsil, hekayə, povest, dastan, roman və s. haqqında yaş səviyyəsinə uyğun biliklərin verilməsi və bu baxımdan təhlillərin aparılması tədrici şəkildə təhlil düşüncəsinin formalaşması üçün əsas olur.

Metodik prinsiplər əsasında mənimsədilən nümunələr fəal təlim prosesində yaddaş texnologiyasından düşünmə texnologiyasına köklənməklə müəllimin bilik ötürən funksiyasından dəstəkverici, istiqamətverici funksiyası ilə yeni və həm də uğurlu bir fəaliyyət mexanizminin təzahürü ilə diqqətçəkici rol oynayır. Bütünlükdə bunlar düşünməyə yönləndirmə, düşünmə və dərketmə kontekstində yaddaş texnologiyasından düşüncə texnologiyasına gəlişin mexanizmlərini bir tərəf olaraq axtarışa, zəngin təcrübəyə bağlayır. Müşahidələr onu göstərir ki, ədəbi əsərlərin məktəb təhlil ilə bağlı(1, 2, 4, 6) xeyli müsbət təcrübə toplanmışdır. Şagirdlərin belə təhlillərə cəlb olunması işində müəllimlər biliklərin hazır şəkildə verilməsi yolundan qaçaraq, onları daha çox düşündürməyə, müzakirələrə sövq etməyə çalışırlar. Belə dərslər onların ciddi marağına səbəb olur. Amma iş təcrübəsində elə hallarla da rastlaşılır ki, müəllim, dərslikdə əksini tapan təhlil faktında uşaqların bir an da olsa uzaqlaşmasını istəmirlər. İş təcrübəsi əks etdirən metodik yazılarda da biz bu ənənənin davam etdiyini görürük. Halbuki əsas diqqət "düşünən sinfin" formalaşdırılmasına yönəldilməlidir.

Ədəbiyyat:

1. Bədəlova Ə.S. Oxucu konfransı, müzakirə və disput. Azərbaycan dili və ədəbiyyat tədrisi. Bakı, 1989. №4, s.14-18.

2. Bəkirova A. Ədəbiyyat fənninin tədrisində inteqrasiyadan istifadə, “Azərbaycan məktəbi” jurnalı, 2015, № 1, s. 56-59.

3. Əhmədov C. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Bakı Universiteti, 1991, 455 s.

4. Əmircanova Q. Xalq yazıçısı İlyas Əfəndiyevin “Qarı dağı” hekayəsinin ideya bədii xüsusiyyətləri. “Azərbaycan dili və ədəbiyyatı tədrisi” jurnalı, 2017, № 4, s.33-36

5. Hüseynoğlu S. Yeni təlim texnologiyalarının tətbiqi məsələsinə ədəbiyyat fənn kurikulumunda münasibət. “Azərbaycan dili və ədəbiyyatı tədrisi” jurnalı. 2015, №1, s. 24-29

6. Xəlil Z. Ədəbiyyat təlimində yeni yanaşma. “Azərbaycan dili və ədəbiyyatı tədrisi” jurnalı. 2014, № 4, s. 25-31

7. Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı, Maarif, 1968, 324 s.

# ORTA MƏKTƏB AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİNİN DİDAKTİK FUNKSİYALARI

**Tapdıqov Kənan Tofik oğlu**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

İnformasiya mənbələrinin geniş spektrinin mövcud olduğu müasir dövrdə ən çox müzakirə olunan mövzulardan biri də kurikulum əsaslı dərsliklər, onların məzmunu, strukturu və didaktik imkanlarıdır. Biz deyərdik ki, bu mövzu yalnız mütəxəssislər, dərslik müəllifləri, nəzəriyyəçi və metodist alimlər səviyyəsinin deyil, sosial şəbəkələrdəki müxtəlif kateqoriyalı insanların müzakirə obyektidir. Kütəvi informasiya vasitələrində dərsliklərin müzakirəsi aprılmaqla "Dərslik necə olmalıdır?", "Müasir dərsliklər ənənəvi dərsliklərdən hansı cəhətlərinə görə fərqlənir?", "Yeni dərsliklər şagird və valideynləri qane edirmi?" və s. tipli suallara cavab axtarılır. Bu da təbii prosesdir, çünki evində məktəbli uşağı olan ailələr çoxluq təşkil edir.

Orta məktəb dərslikləri qarşısında qoyulan müasir tələblər dərslik müəlliflərindən, onu layihələşdirən, yazan, istehsal edən mütəxəssis qrupundan böyük məsuliyyət hissi tələb edir. "Müasir dərsliyin vəzifəsi şagirdə sadəcə qaydaları, anlayışları, tərifləri və sairəni əzbərlətməkdən ibarət deyil. Dərsliklər şagirdləri düşünməyə sövq etməli, onlarda müstəqil tədqiqatçılıq, yaradıcılıq vərdişləri aşılamalı, tənqidi təfəkkürü inkişaf etdirməlidir. Unutmaq olmaz ki, sadaladığımız məhz bu keyfiyyətlər şəxsiyyətin inkişafına yol açan əsas amillərdir. Elmin müxtəlif sahəsindəki kəşflər, texniki, texnoloji nailiyyətlər məhz geniş diapazonlu təfəkkürün nəticəsidir. Ona görə də dərsliklər tətbiqi xarakter daşımalı, inteqrativ xüsusiyyətə malik olmalıdırlar" [4, 3].

Müstəqil Azərbaycan Respublikası 2006-cı ildə "Ümumi təhsil sistemində dərslik siyasəti" adlı sənəd qəbul edib və hansı nəticələrlə hansı keyfiyyətlərə malik şəxsiyyət yetişdirmək istədiyinin prioritetlərini müəyyənləşdirib. Təbii ki, bu sənədin hazırlanmasında ənənəvi təhsilin təcrübəsindən də istifadə olunub. Bu mərhələyə qədər və hazırkı dövrdə müxtəlif pedaqoji baxışlara, elmi əsaslara, metodiki tövsiyyələrə uyğun dərsliklər hazırlanıb, təhsil verənlərin və təhsil alanların istifadəsinə verilib. Bu prosesdə fənnin məzmunu müəlliflərin özlərinin müəyyənləşdirdiyi, məqsədi məzmunda əks olunan dərsliklər hazırlanıb və həmin dərsliklər təlim prosesinin vacib amilinə çevirilib.

Ümumi tendensiyalar, müasir yanaşmalar, modernləşmə ümumtəhsil məktəblərində istifadə olunan "Azərbaycan dili" dərsliklərindən də yan keçməyib. Müasir dərsliklərimiz dilimizin "yol xəritəsinə", şagirdlərin nitqini inkişaf etdirən əsas amilə çevirilə bilib. Kurikulumun məzmunu, strategiyaları, şagird nailliyətlərinin qiymətləndirilməsi məsələləri dərsliklərdə öz əksini tapıb. Tədris prosesin təsəvvür, inkişaf, tətbiq və inteqrasiya kimi metodoloji mərhələləri, tədris prosesi və gündəlik peşə fəaliyyəti ilə bağlı funksiyalar, fənnin məzmun və məqsədlər xəritəsi, didaktik funksiyalar və s. müasir dərsliklərdə öz əksini dolğunluğu ilə tapıb. Ən əsası da odur ki, dərslik yeganə bilik mənbəyi olmaq statusundan da çıxıb, bəzi hallarda öz yerini elektron dərsliklərə, internet şəbəkəsinə və variativ dərsliklərə veribdir. Bir az da diqqətlə baxsaq ənənəvi dərsliklər öz tarixi missiyasını başa vurduğunu müşahidə edə bilərik.

Bütün bu yeniliklərə baxmayaraq dərsliklərin didaktik funksiyaları ciddi dəyişikliyə uğramayıb, bəzi hallarda dövrün tələblərinə adekvat funksiyalar formalaşıb. Tarix boyu didaktik funksiya dedikdə təhsilin məzmununun, bilik, tərbiyə, inkişafetdiricilik elementlərinin daşıyıcısı nəzərdə tutulub. Müasir dərsliklərin informativlik, özünütəhsil, inteqarsiya, idarəedicilik, ötürücülük, sistemləşdiricilik, özünənəzarət, tənzimləyicilik, kommunikativlik, difertensialalşdırma və fərdiləşdirmə kimi didaktik funksiyaları mövcuddur. Müasir Azərbaycan dili dərsliklər də bu funksiyaların həyata keçiriməsində mühüm rol oynayır.

Təbii ki, bütün bunlar haqqında geniş məlumat vermək bir tezis səviyyəsində mümkün deyildir. Buna baxmayaraq gəldiyimiz nəticə budur ki, dərsliklərin bilik ötürmə, səriştə formalaşdırma, biliyi möhkəmləndirmə və qiymətləndirmə funksiyaları sadaladığımız funksiyalarla vəhdətdə təlimin keyfiyyətli qurulmasını, şəxsiyyətönümlülük və nəticəyönümlülüyü təmin edir.

Ədəbiyyat


1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı, "Kövsər", 2015, 212 s.
2. Azərbaycan dili – 10. Dərslik. Bakı, Şərq-Qərb, 2017, 208 s.
3. Azərbaycan dili – 10. Metodik vəsait. Bakı, Şərq-Qərb, 2017, 208 s.
4. Dərslik necə olmalıdır? Məlumat kitabçası. Bakı, "OKA Ofset", 117 s.
5. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, "Mütərcim", 2012, 402 s.


## İNKLÜZİV SİNİFLƏRDƏ TƏHSİLİN OPTİMALLAŞDIRILMASI


**Umudlu Xədicə Bahəddin qızı**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*


İnklüziya, cəmiyyətdə bütün vətəndaşların, xüsusilə də əlillilərin iştirak səviyyəsinin artırılması prosesidir. İnklüziv təhsil prosesi sosial birliyi stimullaşdıraraq,əlilliyi olan uşaqların yaşıdlarından və cəmiyyətdən təcrid olunmalarından xilas edərək,onların inkişafına,həyata inteqrasiyasına və hüquqlarının təmin olunmasına kömək edir.Əlilliyi olmayan uşaqlarda isə öz həmyaşıdlarına və yaxud siniflərində olan əlilliyi olan şəxslərə qarşı mərhəmət,qayğı hisslərinin formalaşmasına səbəb olur həmçinin təhsil ehtiyacları nəzərə alınaraq təmin edilir.Təhsil sahəsi bütün uşaqların və yetişkinlərin akademik və ictimai həyatda bərabərhüquqlu iştirakını təmin etməlidir. Bu səbəblə, "inklüziv təhsil" anlayışı geniş çərçivədə izah edilməlidir ki, təhsil işçiləri, idarəçilər, təhsil siyasəti formalaşdıranlar və digər təhsil təşkilatları arasında birgə iş və dialoq üçün əsas diskursiv sahədə bir araya gəlsinlər.

Müasir cəmiyyətdə, sağlamlıq imkanları məhdud insanlara dəstək, ictimai səviyyədə maarifləndirici və məlumatlandırıcı işlərin icrasını da tələb edir. Çünki ictimai şüurun formalaşdırılması, inklüziv təhsil sahəsində siyasətin dəstəklənməsində böyük əhəmiyyət daşıyır. Yalnız əlilliyi olanlara münasibətdə ictimai fikir dəyişdiyi, həmçinin əlverişli və təhlükəsiz mühit yaradıldığı zaman uşaqların və böyüklərin iştirakına imkan yaranacaq. Araşdırmalar inklüziv təhsilin cəmiyyətdə əlilliyi olan uşaqların assimilyasiyasına neytral və ya passiv-mərhəmət mövqeyinin nümayiş etdiyini göstərir. Bu, əlilliyi olan uşaqların probleminin mühitin öhdəliyi kimi deyil, öz çətinlikləri kimi qəbul edildiyini göstərir. Cəmiyyətdə sağlamlıq imkanları məhdud uşaqlarının əksəriyyəti üçün passiv tolerantlıq nümayiş etməktədir. Bu səbəbdən inklüziv təhsil, təhsil sisteminin möhkəmləndirilməsi prosesi kimi anlaşılmır, həm də əlilliyi olan uşaqların diskriminasiyasının aradan qaldırılması üçün effektiv bir vasitə kimi qiymətləndirilir. İnklüziv təhsilin məktəb həyatına gətirdiyi dəyişikliklər nəticəsində, yalnız sağlamlıq imkanları məhdud uşaqlar deyil, bütün uşaqlar qazanacaq.

Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərində təhsili, bir çox ölkənin, həmçinin Azərbaycanın, qanuni olaraq qəbul etdiyi inklüziv təhsil sisteminin inkişafının bir mərhələsidir.

Bu inkişaf, aşağıdakı sxematik mərhələlərdən keçmişdir: I mərhələ - Diskriminasiya: Sağlamlıq imkanları məhdud uşaqlar ümumilikdə təhsildən kənarda qalır. II mərhələ - Seqreqasiya: Sağlamlıq imkanları məhdud uşaqlar ya xüsusi məktəblərdə təhsil alır, ya da evdə təhsil görməlidirlər. III mərhələ - Inteqrasiya: Sağlamlıq imkanları məhdud uşaqlar ümumtəhsil məktəblərində tipik uşaqlarla birlikdə, lakin ayrı siniflərdə xüsusi proqram əsasında təhsil alırlar. IV mərhələ - İnklüziya: Əlilliyi olan uşaqlar ümumtəhsil

müəssisələrində əlilliyi olmayan uşaqlarla eyni siniflərdə təhsil alırlar. Son mərhələ cəmiyyət və dövlətlər tərəfindən əliliyi olan şəxslərə münasibətin dəyişdirilməsini ifadə edir. Bu, hüquqlarının tanınması ilə yalnız məhdud deyil, təhsil daxil olmaqla, həyatın müxtəlif sahələrində, digər insanlarla bərabər imkanların yaradılması ilə xarakterizə olunur.

İnklüziv təhsil, uşağa mərkəzləşmiş metodologiyaların inkişafını hədəfləyir və bütün uşaqların fərdi təhsil ehtiyaclarının olduğunu qəbul edir. Bu, uşaqların müxtəlif fənlər üzrə təlim ehtiyaclarını daha səmərəli şəkildə qarşılayan yanaşmaların işlənərək hazırlanmasına çalışır. İnklüziv təhsilin əsasında aşağıdakı prinsiplər yer alır: - Bütün insanlara eyni münasibəti təmin edərək hər cür diskriminasiyadan uzaq durmaq; - Xüsusi təlim ehtiyacları olan uşaqlar üçün ümumtəhsil müəssisələrində şərait yaratmaq. İnklüziv təhsil məktəbəqədər, orta, peşə və ali təhsil mərhələlərini əhatə edir. Bununla, əlilliyi olan insanların davamlı təhsilinin və inkişafının təmin edilməsinə kömək edir.

İnteqrasiya, məktəbdə heç bir dəyişiklik etmədən, məktəbi əlilliyi olan uşaqların imkanlarına uyğunlaşdırmadan xüsusi siniflərin təşkilini nəzərdə tuturdu. Azərbaycanda, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunun 12-ci maddəsinin tələblərinə əsasən, sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində təhsil almalarının təmin edilməsi üçün "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili qaydaları" təsdiq olunmuşdur. Bu qaydalara əsasən, inteqrasiyalı təhsil, sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində xüsusi təhsil proqramları ilə xüsusi siniflərdə təhsilinin təşkilini əhatə edir. SİM (sağlamlıq imkanları məhdud) uşaqların təlim və təhsil prosesinin dövrləşdirilməsinə fərqli bir yanaşma da mövcuddur və şərti olaraq üç mərhələyə bölünür: I. XX əsrin əvvəlləri və 60-cı illərin ortaları - "tibbi model": Bu dövrdə seqreqasiya əsas kimi qəbul edilirdi. II. XX əsrin 60-cı illərinin ortalarından 80-ci illərin ortalarına qədər - "normallaşdırma modeli": Bu dövrdə inteqrasiya əsas kimi qəbul edilirdi. III. XX əsrin 80-ci illərinin ortalarından hazırki dövrə qədər - "sosial model": Bu dövrdə isə inklüziya əsas kimi qəbul edilir.

Bu dövrləşdirməyə əsasən, əlilliyi olan uşaqların xüsusi təhsili seqreqasiya hesab olunur. Xüsusi təhsil Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş formalarda həyata keçirilir, məsələn, xüsusi təhsil müəssisələrində, xüsusi təhsil bölmələrində, və ya xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində.
a. Evdə təhsilin təşkili

- Təhsil müəssisəsində təhsil almaq imkanı olmayan şəxslərin təhsili evdə təşkil edilir.
- Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. b. Stasionar müalicə müəssisələrində təhsilin təşkili
- Sağlamlıq imkanları məhdud şəxslər tibb müəssisələrində uzunmüddətli (21 gündən artıq) stasionar müalicədə olduğu halda, müvafiq icra hakimiyyəti orqanı psixoloji-tibbipedaqoji komissiyanın qərarı əsasında onların müvafiq ümumi tədris proqramlarına uyğun təhsil almasını təşkil edir.
- Stasionar şəraitdə təhsilin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

c. Ümumi təyinatlı təhsil müəssisələrində xüsusi təhsilin təşkili

- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, sağlamlıq imkanları məhdud şəxslərin psixoloji-tibbi-pedaqoji və ya tibbi-sosial ekspert komissiyasının qərarına əsasən xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində təhsil almaq hüququ vardır.
- Təhsil müəssisəsinin rəhbərliyi sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində zəruri köməkçi xidmət təşkil etməlidir.

İnklüziv təhsildə təlimin optimallaşdırılması daha yaxşı nəticələr əldə etmək, effektivliyi artırmaq və təlimin şagirdlərə və təşkilata təsirini maksimum dərəcədə artırmaq

üçün təlim proqramının müxtəlif aspektlərinin təkmilləşdirilməsi prosesidir. Belə ki, təlimin optimallaşdırılmasında səmərəliliyin təkmilləşdirilməsi ( bu, keyfiyyətdən ödün vermədən daha az resursdan istifadə edərək daha yaxşı nəticələr əldə etməyi və ya tapşırıqları daha az vaxtda tamamlamağı nəzərdə tutur), effektivlik (aydın, ölçülə bilən məqsədlərə malik olmaq tərəqqi izləməyə və səylərin uğurunu müəyyən etməyə imkan verir), fərdiləşdirmə (şagirdlərin xüsusi ehtiyaclarını ödəmək üçün təlimlərin hazırlanmasıdır), əlaqə və davamlı təkmilləşdirmə (burada müəllim-şagird-valideyn əlaqələrinin qurulması təlim proqramını davamlı olaraq təkmilləşdirmək, onun müvafiq və effektiv qalmasını təmin etmək üçün çox vacibdir.), texnologiyadan və innovasiyadan istifadə (Bura təlimin çatdırılmasına texnoloji irəliləyişləri və innovativ yanaşmaları əhatə etməsi aid edilir.) və digər bu kimi vasitələr inklüziv siniflərdə təlimə müsbət təsir edən amillər sırasındadır ki, məhz bu da təlimin optimallaşdırılmasının mahiyyətinə gətirib çıxarır.

## UŞAĞIN UYĞUNLAŞMASI ÜÇÜN İBTİDAİ SİNİFDƏ SOSİAL-PEDAQOJİ FƏALİYYƏTİN TƏŞKİLİ

**Vəlixanova Aidə Cahid qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Uşaqlar məktəbə getdikdə həyatlarının yeni mərhələsinə qədəm qoyurlar. Məktəb yaşına çatdıqlarını öyrənəndə üzülən uşaqlarla yanaşı, məktəbə getməyə başlayacaqları günləri böyük səbir və sevinclə gözləyənlər də az deyil. Ancaq bəzi uşaqlar üçün bu keçid həm həyəcan verici, həm də qorxulu ola bilər. Onların yeni şəraitə uyğunlaşmaqda çətinlik çəkmələri ehtimalı var.

Bəzən uşaqlar bunu səbirsizliklə gözləsələr də, ilk dərs günündə müəllimlərindən qaçır, valideynlərindən ayrıla bilmirlər. Valideynlərdən bu vaxt tədris prosesi müddəti ərzində sinifdə olmaları tələb olunur. Bu mərhələnin həyata keçirilməsi ilə uşaqlara yeni mühitə uyğunlaşma prosesində köməklik göstərilir.

Uşaqların dərs zamanı valideynlərinin yanlarında olması nəinki faydalıdır, həm də onlara dəstək olmaqda mühüm rol oynayır. Məktəbə uyğunlaşma prosesində bu, uşaqlarda səbir və özünə inam kimi xüsusiyyətləri inkişaf etdirməyə kömək edir.

Bu dövr uşaqlar üçün yeni bir təcrübədir, çünki onların içində olduqları atmosfer öyrəşdikləri mühitdən fərqlidir. Pedaqoqların, xüsusən də valideynlərin uşaqların bu müddət ərzində keçirdikləri duyğulara və təcrübələrə diqqət yetirmələri vacibdir. Valideyn övladlarını dinləməyi bacarmalı və onların yaşadıqları duyğuları dərk etmək üçün səy göstərməlidir.

Uşaqların sinif yoldaşları ilə olan əlaqəsi də eyni dərəcədə vacibdir. Pedaqoqlar uşaqlara qarşılıqlı dostluq münasibətlərinin qurulmasının vacibliyini daim təşviq etdirməlidirlər. Uşaqların sosial bacarıqlarının inkişafına sinif yoldaşları ilə dostluq etmək, onlara kömək etmək, onlardan kömək istəmək kimi fəaliyyətlər kömək edə bilər .

Məktəb şəraitində effektiv təhsilin əsas elementi müəllimlər və şagirdlər arasında mövcud olan güclü əlaqədir. İlkin mərhələlərdə, yəni, ibtidai siniflərdə müəllimin şagirdlər arasında onların məktəbin bir hissəsi olmaları hissini inkişaf etdirmək üçün müxtəlif üsullardan istifadə etməsi çox vacibdir. Bəzi şagirdlər istəksizlik və ya qorxu nümayiş etdirə bilər. Belə hallarda pedaqoq şagirdlərin özlərini rahat hiss etmələri üçün konkret tədbirlər görməlidir.

Müəllim hər bir şagirdin fikirlərini ifadə etmək üçün əlverişli mühit yaratmalıdır. Müəllim getdikcə özünə qapanan və sinif yoldaşlarından uzaqlaşan şagirdlərə xüsusi diqqət etməlidir. Həmin şagirdin kollektivlə qarşılıqlı əlaqələrində olan problemlər təyin edilməli və aradan qaldırılaraq şagird kollektivə cəlb edilməlidir.

Şübhəsiz ki, şagirdlərin məktəb birliklərinə cəlb olunması uyğunlaşma prosesinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu təşkilatlar şagirdlərin məktəb mühitinə effektiv və tez uyğunlaşmasına kömək edir. Şagirdlər məktəb birlikləri vasitəsilə yeni tanışlıqlar etmək,

sosial bacarıqları inkişaf etdirmək, müxtəlif fəaliyyət və layihələrdə iştirak etmək imkanı əldə edirlər .

Bu prosesin müvəffəqiyyətlə idarə olunmaması uşağın sağlamlığına mənfi təsir göstərə biləcəyi üçün, uyğunlaşma prosesinin öhdəsindən gəlməkdə kiçik məktəblilərə yardım göstərmək çox vacibdir Şagirdlərin məktəb mühitinə uyğunlaşmasında yaranan problemlərə töhfə verən elementləri iki kateqoriyaya bölmək olar: daxili və xarici təsirlər.

Daxili elementlər, ilk növbədə, uşağın məktəbə hazırlığı (beyin strukturlarının yetkinləşməsi və neyropsik proseslərin inkişafı), uşağın effektiv ünsiyyət qura bilməməsi və sinif yoldaşları ilə konstruktiv əlaqə qura bilməməsi kimi uşağın şəxsiyyətinin xüsusiyyətləri ilə əlaqələndirilir.

Şagirdin məktəbə uyğunlaşmasına çətinlik yaradan xarici səbəblər olaraq isə təhsil prosesinin fərqli təbiətini qeyd etmək olar. Belə ki, ibtidai sinifdə artıq tədris prosesi daha formal olur və buna görə də məktəbəqədər təhsildən fərqlənir. Həmçinin, şagirdlərin gündəlik hərəkətlərini müəyyənləşdirən yeni qayda-qanunlar və tələblər ortaya çıxır. Bütün bu proseslər də öz növbəsində ibtidai məktəblilərin məktəbə uyğunlaşmasında əhəmiyyətli rol oynayır .

Birinci sinif şagirdlərinin məktəbə uyğunlaşması məsələsinin həllində əsas amil onların yeni həyat şəraitlərinə uyğunlaşmaq qabiliyyətinin qiymətləndirilməsidir. "Məktəbə uyğunlaşma" müxtəlif yanaşmalarla müəyyən edilə bilən bir termindir. Buna görə də, məktəb adaptasiyası uşağın yeni sosial normalar, qarşılıqlı əlaqələr, gözləntilər, fəaliyyətlər və həyat tərzinə uyğunlaşması prosesi kimi müəyyən edilə bilər. Bu məsələnin həllinə sosial, psixoloji, təhsil və digər amillər daxil edilməlidir.

Uyğunlaşmanın effektivliyi əsasən uşağın özünü dərk etməsindən və şəxsiyyətlərarası əlaqələrdən asılıdır. Uşaqlarda mənfi davranış dəyişiklikləri sosial adaptasiya prosesində qarşılaşılan problemlərin əsas göstəricisidir. Bu dəyişikliklər melanxoliya, aqressiya, həddindən artıq həyəcan kimi özünü göstərə bilər. Müəyyən hallarda uşaqlar digər duyğularla yanaşı, məktəbə getmə qorxusu yaşaya bilərlər. Məktəbə müsbət münasibət, məktəb norma və qaydalarının qəbulu, təlim üçün yüksək motivasiya, yaxşı emosional sağlamlıq və uyğun davranışların inkişafı uşağın məktəbə uyğunlaşmasının ilkin göstəriciləridir. Bu göstəricilər uşağın məktəb mühitinə nə dərəcədə uyğunlaşdığını müəyyənləşdirir. Şəxsi inkişafın ən effektiv şəkildə həyata keçirilməsini təmin etmək üçün birinci sinif şagirdlərinin məktəbə uyğunlaşma probleminin həllində irəliləyişlərini izləmək və onların fərdi inkişafını proqnozlaşdırmaq çox vacibdir. Uşaqların məktəb mühitinə uyğunlaşmasını qiymətləndirmək üçün istifadə olunan müəyyən edilmiş diaqnostik üsulları müəyyən etmək çox vacibdir .

## МЕРЫ, НАПРАВЛЕННЫЕ НА РЕШЕНИЕ ПРОБЛЕМ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ В ШКОЛАХ КИТАЯ

**Чжан Тао**

*Азербайджанский государственный педагогический университет*

Уроки физкультуры в школе это важный элемент учебного процесса. Эти занятия приносят огромную пользу в воспитательной работе учащихся. Реформирование преподавания физической культуры - это единственный способ продвинуть реформу преподавания физической культуры в нашей стране, поэтому она должна привлечь абсолютное внимание соответствующих ведомств. Нужно прояснить цели физического воспитания и принять соответствующие меры для проведения всеобъемлющей реформы преподавания физической культуры. Следует отметить, что в процессе реформы мы должны внимательно следовать программе учебника и не отклоняться от цели. Целью реформы преподавания физической культуры является содействие улучшению физической подготовки учащихся и повышению их профессионального уровня. Поэтому при проведении реформы в первую очередь необходимо иметь полное

представление о возрастных, индивидуальных и половых особенностях и интересах учащихся и сформулировать учебный процесс в соответствии с потребностями. В процессе преподавания учителя физической культуры должны знать, как использовать гибкие методы обучения, чтобы привлечь учащихся к проявлению инициативы, и принимать определенные меры для поддержания энтузиазма и самостоятельности учащихся в обучении, чтобы гарантировать, взаимодействие учащихся и учителя в процессе обучения. Физическое воспитание играет чрезвычайно важную роль в улучшении физической подготовки учащихся. Поэтому компетентным отделам образования, руководителям школ, учителям физкультуры и родителям необходимо признать важность физического воспитания и сформировать хорошую атмосферу. Физическому воспитанию необходимо придавать большое значение по-настоящему реализовать требования реформы учебной программы по физическому воспитанию, чтобы учащиеся осознали важность физических упражнений. Важно добровольное участие школьников на уроках физкультуры. Они должны получать удовольствие от физических упражнений, чтобы занятия физкультурой действительно могли укрепить физическое и психическое здоровье учащихся.

Второй момент заключается в усилении подготовки учителей физкультуры. Усиление подготовки учителей физической культуры - это проблема, с которой необходимо столкнуться в ходе реформы физического воспитания. Чтобы реформировать команду учителей физической культуры, необходимо создать более всеобъемлющую систему оценки учителей и провести всестороннее исследование методов преподавания учителей, процессов преподавания и результатов занятий в классе. С одной стороны, это призывает учителей серьезно относиться к своей работе, а с другой стороны, это также может помочь им увидеть свои собственные недостатки, чтобы способствовать своевременному совершенствованию.

Кроме того, школы должны проводить регулярные теоретические и практические занятия для учителей. Если учителя хотят донести до учащихся самые передовые достижения в спорте, они должны сначала обогатить свои знания и умения в области физического воспитания и повысить свой профессиональный уровень, чтобы побудить учащихся исследовать новшества в спортивном мире. Учителя также должны в любое время совершенствовать свои методы преподавания в соответствии со своими потребностями в обучении. Все изменения направлены на то, чтобы учащиеся лучше усваивали знания по физическому воспитанию. Для повышения качества уроков физического воспитания целесообразно создавать методические объединение для учителей физического воспитания.

В-третьих, школы могут расширить программы преподавания физкультуры, увеличить разнообразие видов спорта, чтобы у учащихся было больше возможностей выбора вида свободных игр. Школа должна разумно распределять учебное время. Продолжительность одного урока физкультуры в средней школе составляет 45 минут, и каждую неделю проводятся два урока физкультуры. Учителя физической культуры заполняют время этих урокое и оставляют учащимся лишь небольшую часть времени для самостоятельных занятий. Учителя физкультуры могут разумно распределить время и дать учащимся время для самостоятельных упражнений, пока они тренируются.

Кроме того, школы должны повышать рациональное понимание учащимися физического воспитания. То, будут ли учащиеся добровольно и активно участвовать в занятиях спортом, в значительной степени зависит от того, обладают ли они научным и рациональным пониманием спорта. Поэтому необходимо усилить воспитание спортивной осведомленности учащихся. Учителя физической культуры могут привить учащимся научную осведомленность о физическом воспитании, посещая занятия, чтобы учащиеся могли понять взаимосвязь между физическим воспитанием и культурными занятиями, а также посредством взаимного сотрудничества с классными

руководителями и учителями других дисциплин, дать учащимся возможность лично испытать пользу уроков физического воспитания.

Следует увеличить место проведения школьных спортивных мероприятий. Обычно игровая площадка находится под открытым небом, она является основным местом проведения занятий физкультурой. Когда идет дождь, учащиеся могут заниматься только в классе. Если в школе есть крытый стадион, проблема дождливых дней будет решена. Крытый стадион также может быть открыт для самостоятельной тренировки учащихся.

В итоге можно сказать, что физическое воспитание является обязательным курсом в средней школе, который способствует улучшению физической подготовки учащихся средней школы и воспитанию спортивного духа. На данном этапе в области физического воспитания в моей стране все еще существует множество проблем. Это важные факторы, ограничивающие развитие спортивной карьеры в стране. Следовательно, необходимо принять целый ряд мер, чтобы решить эти проблемы. Решению вопросов необходимо уделить большое внимание со стороны соответствующих ведомств. Мы должны продолжать развивать и совершенствовать систему физического воспитания и изучать более совершенные методы преподавания физического воспитания и все это для того, чтобы улучшить физическую подготовку учащихся средних школ и воспитать таланты для страны.

Литература

1. Ху Хайин, Исследование текущей ситуации с физическим воспитанием в некоторых сельских средних школах Гуйчжоу и исследование мер противодействия.
2. Хуан Хунбин, Исследование и анализ текущей ситуации с физическим воспитанием в средних школах [J]. Спортивные технологии Аньхоя 1998, (3): 7.
3. Цзун Яо, Исследование текущей ситуации с физическим воспитанием в начальных и средних школах Пекина [D].Пекинский спортивный университет, 2010, 3.
4. Цзяо Вэйбинь и Юй Даомин, Текущая ситуация с исследованиями в области физического воспитания в школах нашей страны [J].
5. Чжоу Хайя, Анализ текущей ситуации и стратегии развития преподавания физической культуры в средних школах.
6. Чжан Чуньхуа, Исследование текущей ситуации и мер противодействия физическому воспитанию в сельских средних школах провинции Сычуань [D]. Центрально-Китайский педагогический университет, 2012, 05.
7. Ю Цзюньвэй, Проблемы и контрмеры в физическом воспитании в начальных школах.
8.

**РЕЗЬЮМЕ**

Физическое воспитание относится к образованию, основанному на физической активности учащихся. Навыки могут быть простыми или сложными. В средней школе обучаются учащиеся с различными физическими способностями, которые они могут развивать во время учёбы. В последние годы, в связи с непрерывным прогрессом общества, мы обнаружили некоторые недостатки в физическом воспитании в средних школах. Мы должны взять на себя инициативу по анализу и решению существующих проблем, чтобы учащиеся средних школ могли научиться вести здоровый образ жизни. Учителя должны проводить занятия на уроках физкультуры с целью повышения физической формы и укрепления здоровья учащихся  занятия физкультурой на уроках, чтобы повысить свою физическую форму.

**Ключевые слова:** Физическое воспитание, Китай, Решение проблем физического воспитания.

## SUMMARY

Physical education refers to education based on students' physical activities. Skills can be simple or complex. Secondary school education students can develop various physical abilities during their studies. In recent years, due to the continuous progress of society, we have discovered some shortcomings in physical education in secondary schools. We must take the initiative to analyze and solve existing problems so that middle school students can learn to live a healthy lifestyle. Teachers should offer physical education classes to improve physical fitness and strengthen students' health, and physical education classes in the classroom to improve their physical fitness.



**Key word:** Physical Education, China, Solving the problems of physical education.

# MÜNDƏRİCAT

## I BÖLMƏ

## TƏHSİLDƏ STRATEJİ İDARƏETMƏ


**Abbaszadə Vüsal Habil**-*Heydər Əliyevin siyasətində təhsilə müasir yanaşma*........................**4**
**Abdullayeva Gülay Abdulla**-*Ali təhsil müəssisələrinin kollegial idarəedilmə-sindəkonfliktlər*..........................................................................................................**5**
**Abdullayeva Gülay Abdulla**-*Ali təhsil müəssisələrinin kollegial idarəedilməsində planlaşdırmanın əhəmiyyəti* ..........................................................................................**6**
**Aslanova Firəngiz İlqar**-*Tədris prosesinin optimallaşdırılmasında informasiya texnologiyalarının tətbiqi*..........................................................................**7**
**Aslanova Firəngiz İlqar**-*Təlim prosesinin optimallaşdırılmasının mahiyyəti*........................**15**
**Babayeva Aytən Rasim**-*Təhsil müəssisələrində marketinq kommunikasiya sisteminin əhəmiyyəti və inkişafı*..........................................................................**16**
**Babayeva Ülviyyə Seyidağa**-*Ali təhsildə nəşriyyat məhsullarının idarəedilməsinin xüsusiyyətləri*..........................................................................**18**
**Bayramova Pərvanə İman**-*Təhsilin müxtəlif sahələrində süni intellektdən istifadə*..............**20**
**Bünyadzadə Şəbnəm Şakir**-*Heydər Əliyev müəllim haqqında*............................................**21**
**Bünyadzadə Şəbnəm Şakir**-*Heydər Əliyev və milli-mənavi dəyərlərimiz*............................**23**
**Cəfərova Amənə Zaur**-*Liderlikdə emosional intellektin əhəmiyyəti*……………………….…**25**
**Cəmilli Sevil Mikayıl**-*Məktəb-ailə münasibətlərinin strateji idarəedilməsi*..........................**27**
**Ələkbərova Günel Fazil**-*Dünya təcrübəsində məktəblərin şagirdlərin gələcək peşə seçimində istiqamətləndirilməsinə yönəlmiş fəaliyyəti*..........................................................**28**
**Ələkbərli Aysel Tərlan**-*Təhsil müəssisələrində marketinq fəaliyyətinin təşkil olunması*.....**30**
**Ələmzadə Rüfanə Qabil**-*Məktəb rəhbərlərinin liderlik üslubu məktəbdaxili innovasiyaların tətbiqinin açarı kimi*..........................................................................**31**
**Əlirzayev Səyyad Müşfiq**-*Peşə təhsilinin əmək bazarı ilə qarşılıqlı əlaqəsi*........................**33**
**Əliyeva Aysu Aqşin**-*Təhsili idarəetmə modelləri (Azərbaycan və Finlandiya təhsil sistemində)*..........................................................................**34**
**Əliyeva Fərqanə Sədaqət**-*Qloballaşma – birqütblülükdən çoxqütblülüyə*............................**35**
**Əliyeva Sevil Şamil**-*Əlavə təhsilin ölkənin inkişafı üçün təsir gücü*....................................**37**
**Əliyeva Sevil Şamil**-*Pedaqoji kadr hazırlayan ali məktəblərdə tədris işinin təşkilində innovativ formaların tətbiqinin əhəmiyyəti*..........................................................**38**
**Əsəd Cəmilə Fariz**-*Ümumtəhsil məktəblərində idarəetmənin inkişaf modelləri*....................**41**
**Əzizova Aynur Süleyman**-*Uşaq məktəb təliminə hazırlığı prosesinin pedaqoji əsasları*.....**43**
**Fətullayev Vaqif Tahir**-*Strateji idarəetmə müasir məktəbin idarə olunmasında ən effektiv vasitədir*..........................................................................**45**
**Hacıyev Ömər Əzizulla**-*Azərbaycanın ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili ilə bağlı normativ-hüquqi bazanın təhlili*..........................................................**47**
**Hacıyev Ömər Əzizulla**-*Tərbiyə prosesinin idarə olunmasında məktəb icmasının rolu*........**48**
**Hacıyeva Firəngiz Mübariz**-*Ali məktəblərdə idarəetmənin həyata keçirilməsinə baxış*.......**52**
**Heydərli Aytən Əskərqulu**-*Özəl ali məktəblərdə strateji planlaşmanın tətbiqi: strateji məqsədlər, əməkdaşlıq və tələbə məmnunluğu*..........................................................**54**
**Həsən Arzu Natiq**-*Ali təhsil müəssisələrində professor-müəllim heyətində motivasiyanın yaradılması üsulları*..........................................................**56**
**Həsənov Elsevər Vüqar**-*Təhsil sistemində keyfiyyətə nəzarət*............................................**58**
**Həsənova Məsmə Yasin**-*Təhsil müəssisələrində korporativ mədəniyyətin əhəmiyyəti*.........**60**

**Həsənova Məsmə Yasin**-*Təhsildə korporativ mədəniyyətdə problemlər və onun formalaşdırılması strategiyaları*...**66**
**İskəndərzadə Nərmin Eldar**-*Pedaqoji kadr hazırlığı*...**68**
**İsmayılova Cəmilə Akif**-*Təhsil müəssisələrində marketinqin pedaqoji fəaliyyətə təsiri*...**69**
**İsmayılova Sara Nizami**-*Keyfiyyətli müəllim hazırlığının idarə edilməsi*...**71**
**İsmayılova Sevil Aydın**-*Ali təhsil müəssisəsinin demokratik idarə edilməsinə ümumi nəzər*...**72**
**Kərimova Jalə Cəlil**-*"Z" nəsli müəllimlərinin motivasiyasına təsir edən faktorlar*...**73**
**Qasımova Türkan Rizvan**-*Publik hüquqi şəxs statuslu ali təhsil müəssisələri idarəetmənin yeni forması kimi*...**75**
**Qasımova Zemfira Əhməd**-*Məktəbin müasir idarə olunma xüsusiyyətləri*...**76**
**Məhərrəmov Məhəmməd Qayıbalı**-*Bədən tərbiyə və idmanın inkişafında dövlət dəstəyi*...**77**
**Məmmədli Vüsalə Namik**-*Estoniya və Azərbaycan təhsil sistemlərində idarəetmə fəaliyyətinin müqayisəli təhlili*...**79**
**Məsiyeva Nərminə Habil**-*Təhsil müəssisələrinin idarəedilməsində multikultural yanaşma: idarəçilik və mədəni dəyərlər*...**80**
**Mikayılova Nəzrin Nazim**-*Peşə təhsili üzrə qiymətləndirmədə təlimin təşkilinin rolu*...**82**
**Mikayılova Nəzrin Nazim**-*Peşə-ixtisas təhsili üzrə mövcud vəziyyətin təhlili*...**83**
**Mikayılzadə Ayəni-Zəhra Nazim**-*Təhsil sisteminin idarə edilməsinin səmərəliliyinin artırılmasında metodiki xidmətin təşkilinin pedaqoji aspektləri*...**88**
**Muxtarlı Nərgiz Oqtay**-*Müəllim əməyinin stimullaşdırılması – motivasiya vasitəsi kimi*...**90**
**Musayeva Nuranə Abıtalıb**-*VII sinif fizika dərslərində problem və tədqiqat əsaslı təlimin əhəmiyyəti*...**92**
**Niftaliyev Namiq Elçin**-*Karyera planlaşdırılması və məzunların sosial-psixoloji hazırlığı*...**93**
**Ramazanova Sevda Əhməd**-*Ali təhsilin idarə olunmasında münaqişələr: münaqişələrin növləri və həll strategiyaları*...**95**
**Səfərli Əli Mirxan**-*ADPK-nın idarə edilməsinin mövcud vəziyyəti*...**97**
**Səmədzadə Ceyla Emin**-*Çağdaş təhsildə 21-ci əsr bacarıqları: problem həlletmə bacarığı*...**100**
**Süleymanova Leyla Teymur**-*Davamlı təhsilin dövrün tələblərini qarşılayan işçi qüvvəsi yetişdirilməsində əhəmiyyəti*...**102**
**Süleymanova Ülviyyə Etibar**-*Ali təhsil müəssisələrində strateji idarəetmənin rolu*...**103**
**Şahbazova Aybəniz Balaəli**-*Neft kapitalının insan kapitalına çevrilməsi*...**105**
**Şahbazova Aybəniz Balaəli**-*Təhsil müəssisəsinin idarə edilməsinin metodları*...**109**
**Timraliyeva Samirə Rasim**-*Ali təhsil müəssisələrinin reytinqində reklamın rolu*...**110**
**Valehova Günay Ramil**-*Elektron məktəbin strateji idarə olunmasının təkmilləşdirilməsi*...**112**
**Valehova Günay Ramil**-*Elektron məktəbin strateji idarə olunmasının səmərəli fəaliyyəti üçün pedaqoji şərait*...**114**
**Zahidova Nazilə Mətləb**-*Ali məktəbin fəaliyyətinin səmərəli qiymətləndirilməsində strateji planlaşdırılmanın rolu*...**116**
**Чжан Юньхао**-*История развития древнекитайского общественного Образования*...**119**

## II BÖLMƏ

## İNNOVASİYALAR VƏ TƏHSİLİN KEYFİYYƏTİ

**Abbasova Laçın Ramiz**-*Dilin tədrisində istifadə olunan texnoloji avadanlıqlar…………***123**
**Abdullayeva Leyla Qəhrəman**-*Məktəblilər və tələbələr üçün mobil coğrafiya……………*..**124**
**Abdullayeva Nisə Rasim**-*Təlimin idarə edilməsində innovasiya və təhsil texnologiyalarının tətbiqi……………………………………………………………………...*..**126**
**Ağaraziyeva Rəhiməxanım Eyyub**-*Ali məktəbdə informasiya təhlükəsizliyi tədbirləri*.....**128**
**Ağayev Ceyhun Cavid**-*Muğam və aşıq musiqisinin musiqi dərslərində innovasiyalı metodlarla tədrisi…………………………………………………………………*....**130**
**Alicəfərzadə Sultan Namik**-*Məktəbdaxili qiymətləndirmənin təhsilin keyfiyyətinə təsiri………………………………………………………………………*.........**133**
**Allahhverdiyeva Fidan Telman**-*Distant təhsildə rəqəmsal texnologiyalardan istifadənin rolu və yeri…………………………………………………………………………*…**134**
**Allahverdiyeva Fidan Telman**-*Rəqəmsal təhsil vasitələrinin təhsil müəssisələrinə təsiri………………………………………………………………………*…..**135**
**Bağırlı Ürfan Toğrul**-*Müəllim hazırlığı prosesində əməkdaşlıq xüsusiyyətləri*……...…...**138**
**Baxşıyev Çingiz Rövşən**-*Keyfiyyət təminatının həyata keçirilməsinin formaları*…...........**140**
**Bəybalayeva Türkan Ehtibar**-*İnformasiya təhlükəsizliyi təminatının texniki vasitələri……………………………………………………………………………*.......**142**
**Cümşüdova Minurə Füzuli**-*Qiymətləndirmədə Geoff Masters prinsiplərinin əhəmiyyəti………………………………………………………………….*.....**143**
**Dəmirli Dünya İsmayıl**-*Şagird nailiyyətlərinin qiymətləndirilməsində testləşdirmənin rolu……………………………………………………………………….*....**145**
**Əsədova Məleykə Məhəmməd**-*MATLAB-da funksiyalardan istifadə edərək qrafiklərin qurulması…………………………………………………………………..*…**147**
**Əsədzadə Zəhra Mehman**-*Müəllim hazırlığı sisteminin inkişafında sinergetik yanaşmanın tətbiqi imkanları………………………………………………………………*..**149**
**Fətullayeva Xəyalə İlham**-*Təhsildə rəqəmsallaşmanin faydaları*…………………...……**150**
**Hacıyeva Xədicə Möhübbət**-*Test üsulu ilə qiymətləndirmənin üstünlükləri*………………**152**
**Hacıyeva Məryəm Şükran**-*Bədii təsvir vasitələrinin məktəbdə tədrisi məsələləri*……..…**153**
**Heybətova Səriyyə Xasay**-*İbtidai siniflərdə təhsil prosesinin humanistləşdirilməsi, şagird şəxsiyyətinin formalaşdırılmasının mühüm amili kimi*……………………………......**155**
**Həqiqətli Rəşidə Elmar**-*Gələcək müəllimlərdə öyrənmək üçün qiymətləndirmə mədəniyyətinin formalaşdırılması*…………………………………………....**157**
**Həsənova Aysel Nizami**-*Müasir informasiya texnologiyaları əsasında təlim . motivasiyasının formalaşması strategiyaları*…………………………………..……......**158**
**Hüseynli Aytac Kamil**-*Təhsildə keyfiyyətin idarə olunmasında müasir təlim mühitinin əhəmiyyəti*………………………………………………………………......…**159**
**Hüseynli Günəş Eldar**-*Oksigenin innovativ inkişafetdirici tədrisi*………………………....…**161**
**Hüseynzadə Sənubər Arzuman**-*Təhsildə müasir qiymətləndirmə anlayışına bir nəzər*.....**162**
**Xanatov Taleh Əlövsət**-*Qiymətləndirmə və rəqəmsal mühit*……………………………......**165**
**Xankişiyeva Ayşən İman**-*Fənn olimpiadalarının təşkilinin əsas istiqamətlərinə dair*........**166**
**Xasayzadə Afaq Rövşən**-*Ümumtəhsil müəssisələrinin innovasiya fəaliyyətinin təşkilində məktəb rəhbərinin rolu*…………………………………………………….........**168**
**İbrahimova Solmaz Pərviz**-*Ali təhsil müəssisələrinin internet saytlarının tədris prosesinin keyfiyyətinə təsiri*…………………………………………………………**169**
**İmanova Günel İman**-*Pedaqoji idarəetmədə innovasiyaların növləri və tətbiqi istiqamətləri*……………………………………………………………………....**170**
**İmanzadə Aydan Qabil**-*İntellektual yaradıcılıq və əqli mülkiyyət müasir dövrdə*.........…**171**

**İmranlı Naibə Rəhim**-*İbtidai sinif müəlliminin innovativ pedaqoji fəaliyyətinin təşkili xüsusiyyətləri*............................................................................................**172**
**İmranlı Naibə Rəhim**-*Təhsildə innovasiyaların tətbiqindəki maneələr*........................**176**
**İmranova Sanay Elman**-*Uiversitetlərdə tədrisin keyfiyyətinin qiymətlənməsi üçün prinsiplər, funksiyalar və vasitələr*..........................................................................**177**
**İsmayılova Püstə Nazim**-*Humanist yanaşma pedaqoji kadr hazırlığının mühüm şərti kimi*..........................................................................................................**179**
**İsmayılova Püstə Nazim**-*Pedaqoji kadr hazırlayan ali məktəblərdə təhsilin təşkilinin xüsusiyyətləri*..............................................................................**182**
**Qasımova Fidan Elman**-*Müasir məktəbin problemlərinin təzahürü*...........................**183**
**Qədirova Çinarə Rövşən**-*Məktəbdaxili idarəetmənin səmərəliliyinin və keyfiyyətliliyin təmin olunması*.............................................................................**185**
**Quluzadə İlkin Vahid**-*İnklüziv sinfin idarə olunmasında istifadə edilən strategiyalar*......**187**
**Quluzadə İlkin Vahid**-*İnklüziv təhsilin təşkilində və idarə olunmasında hüquqi baza və siyasətlər*.............................................................................................**189**
**Qurbanlı Nərmin Mübariz**-*Müəllim hazırlığında ChatGPT-dən istifadənin metodiki xüsusiyyətləri*.........................................................................................................**194**
**Qurbanova Əsmər Ələskər**-*Məktəbəqədər təhsil müəssisələrində təhsilin keyfiyyətinin optimallaşdırılması*............................................................................................**195**
**Ли Бяо**-*Компьютерная зависимость у детей дошкольного возраста и её корреляция с личностыми качествами их родителей*........................................**197**
**Mahmudova Sürayyə Kamal**-*Monitorinq təlimin keyfiyyətinin göstəricisi kimi*................**199**
**Mehdiyeva Lamiə Şahin**- *Təhsildə qiymətləndirmənin effektivliyi və zəruriliyi*.................**200**
**Mehrəliyev Sabir Qəzənfər**-*Müəllimin peşə keyfiyyətinin artırılması imkanları*................**201**
**Məmmədli İlhamə Rizvan**-*ChatGPT – üstün və çatışmayan cəhətlər*..............................**202**
**Məmmədova Aydan Afiq**-*Peşə təhsilinin əhəmiyyəti haqqında*.........................................**204**
**Məmmədova Aytac Rəfail (BSU)**-*Ümumtəhsil məktəblərində oyun metodlarının əhəmiyyəti*....................................................................................................**205**
**Məmmədova Gülnarə Etiram**-*Tədrisdə təhsilalanın biliyinin ölçülməsi və qiymətləndirilməsinin klassik metodları*.........................................................................**209**
**Məmmədova Ülviyyə Rüfət**-*Pedaqoji kadr hazırlığında ikili təhsil modelinin elementləri*........................................................................................................................**211**
**Mikayıllı Mikayıl İslam**-*Ali pedaqoji məktəblərdə Azərbaycan tarixinin tədrisi prosesində yeni təlim texnologiyalarından istifadə*............................................................**213**
**Mirzəyev Adil Xanoğlan**-*Diaqnostik qiymətləndirmə təhsildə keyfiyyətin təminatı kimi*.........................................................................................................................**214**
**Muradlı Ceyran Muraz**-*Riyaziyyatın tədrisində informasiya texnologiyalarından istifadə haqqında*..........................................................................................................**216**
**Niftaliyeva Aytən Aqşin (BSU)**-*İngilis dilinin beynəlmiləl dil kimi mədəniyyətlərarası ünsiyyətdə rolu*........................................................................................**217**
**Pənahova Günel İslam**-*Xaricdə təhsilin üstünlükləri və zəruriliyi*.....................................**221**
**Rəhimova Əsmər Çingiz**-*Rəqəmsal təhsilin üstünlüklərindən istifadə yolları*.....................**222**
**Sadıqov Rafət Əkrəm**-*Vulkanların dövlət iqtisadiyyatına təsiri*.........................................**224**
**Süleymanova Türkan Mübariz**-*Monitorinq müasir məktəbdə təhsilin keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi*..............................................................................................**226**
**Şahhüseynova Günel Şüküran**-*Fizikanın tədrisində İKT əsaslı problemli vəziyyətin yaradılmasının bəzi məsələləri*................................................................................**227**
**Şirəliyeva Şəms Əsgər**-*Dünya ölkələrində özəl ali təhsil müəssisələrinin müqayisəli təhlili*.................................................................................................................**229**
**Yaqubova Aysel Rüstəm**-*Ali təhsildə inteqrasiyalı yanaşmanın metodiki əsasları*.....................................................................................................................**230**
**Yüzbaşiyeva Ofelya Məhəmməd**-*Diqqət yönümlü təlim proqramlarının*

*effektivliyi və tətbiqi*.............................................................................................................***231***

## III BÖLMƏ

## TƏHSİLDƏ SOSİAL-PSİXOLOJİ XİDMƏT

**Abbaslı Fatimə Namiq**-*Psixoloji xidmət sahəsində monitorinqin rolu* ..............................***233***
**Adıgözəlzadə Aydan Mehman**-*Artikulyasiya aparatının vəziyyətindən asılı olaraq şifahi nitqin inkişafı*...............................................................................................***234***
**Alılı Mədinə İsmayıl**-*Uşaqlarda psixomotor inkişafın mərkəzi sinir sistemi ilə qarşılıqlı əlaqəsi*.............................................................................................................***236***
**Allahverdiyev Elbar Əlibaba**-*Müasir dövrdə gender təhsilinin perspektivləri*..................***238***
**Allahverdiyev Elbar Əlibaba**-*Pedaqoji prosesdə gender identikliyi tərbiyəsinin aşılanmasının üstünlükləri*..........................................................................***239***
**Bahaturova Tamara Zabil**-*Şagirdlərin mənəvi tərbiyəsi anlayışının mahiyyəti və əhatə etdiyi məsələlər*.....................................................................................***243***
**Balaağa-zadə Fatimə Rüstəm**-*Sağlamlıq imkanı məhdud olan uşaqların cəmiyyətə inteqrasiyasındakı çətinliklər və onların həll yolları*...........................................***245***
**Бай Вэньхуа**-*Влияние совместной работы школы и семьи на развитие здоровья учащихся начальной школы*.........................................................................................***246***
**Bəşirli Zərifə Qismət**-*Müəllimin stimullaşdirici və motivasiyaedici rolu*………………...............***249***
**Bəşirli Zərifə Qismət**-*Övlad tərbiyəsində sevginin stimullaşdırıcı və motivasiyaedici rolu*.....................................................................................................***250***
**Bəşirov Arif Maarif**-*Musiqinin qavranılmasında assosiativ təfəkkürün, təxəyyülün, eşitmə və məntiqi yaddaşın rolu*...............................................................***254***
**Cabbarova Elnazə Ənvər**-*Müasir şagird şəxsiyyətinin formalaşmasında didaktik və metodik tələblərin tətbiqinin əhəmiyyəti*.........................................................***256***
**Cəbiyeva Aytac Kamal**-*Şəxsiyyətin formalaşmasında məktəb icmasının rolu*...................***258***
**Əbdürrəhmanova Lalə Elxan**-*Şagirdlərdə valeoloji biliklərin formalaşdırılmasında ailənin rolu*........................................................................................................***259***
**Əfəndi Nərmin Mirabbas**-*Məktəbəqədər dövrdə psixi inkişaf ləngiməsi olan uşaqlarda incə motor bacarıqlarının inkişaf etdirilməsində oyunların rolu*........................***260***
**Əhmədsoy Zərifə Cəfər**-*Yeniyetmə şəxsiyyətinin formalaşmasına vətənpərvərlik hissinin təsiri* ................................................................................................***262***
**Əlibalayeva Xədicə Əliəsgər**-*Məktəbəqədər təhsil müəssisələrində inklüziv təlim mühitinin təşkilinin əhəmiyyəti*.................................................................................***264***
**Əmirəliyeva Fidan Rahim**-*Sosial işin təşkilində mühüm olan mərhələlər*.........................***265***
**Fərzəliyeva Ayan Vəlzamin**-*İnsanları xeyriyyəçiliyə təşviq edən səbəblər*.......................***266***
**Hacıəli Sona Cəfər**-*Deviant davranışı olan məktəblilərlə profilaktik işin təşkili*................***268***
**Həsənquluzadə Ayşə Elçin**-*Uşaq qorxularının ümumi xarakteristikası*.............................***270***
**Həsənli Zülfiyyə Kamran**-*Hospis xidmətində sosial işin rolu: psixososial dəstəkdən ailə məsləhətçiliyinə qədər*...............................................................................***272***
**Həsənov Zeynal Araz**-*Məktəbəqədər dövrdə mürəkkəb inkişaf pozulmaları olan uşaqlarda özünəqulluq vərdişlərinin formalaşdırılmasının metod və üsulları*..............***273***
**Həşimov Seymur Yaqub**-*İbtidai sinif şagirdlərin sosiallaşmasında müəllim şagird əməkdaşlığının məzmunu və əhəmiyyəti*.....................................................***275***
**İbişli Fatimə Qəribalı**-*Asosiallıq anlayışı, simptomları və səbəbləri*.................................***277***
**İmanova Fidan Anar**-*Sosial xidmət sahəsində informasiya kommunikasiya texnologiyalarının əhəmiyyəti*..........................................................***279***
**Kərimzadə Banu Kərim**-*İbtidai sinif şagirdlərində dinləmə bacarıqlarının inkişafının xüsusiyyətləri*.........................................................................................***280***

**Qasımova Cəvahir Rövşən-***Məktəb təliminə hazırlıq dövründə uşaqların əqli inkişafının formalaşması məsələləri*......................................................................**282**
**Qasımova Fidan Aqil-***Məişətdə zorakılıq və ona qarşı mübarizə yolları*............................**283**
**Qasımova Qəmərxanım İskəndər-***Məktəblilərin musiqi tərbiyəsinə "kütləvi mədəniyyət"in estetik*-ideoloji təsiri.......................................................**285**
**Qasımova Zəhra Qasım-***Yeniyetmələrlə sosial iş anlayışı*.............................................**287**
**Qaybalızadə Aytac Tapdıq-***Eşitmə məhdudiyyətli uşaqlarla oyun fəaliyyəti təliminin metod və üsulları*......................................................................**288**
**Qədirova Nərgiz Rövşən-***Ailədaxili konfliktlər və yeniyetmə şəxsiyyətinin formalaşmasına onun təsiri*......................................................................**290**
**Qəniyeva Şəfiqə Daşqın-***Gənclərdə əxlaqi tərbiyənin formalaşdırılmasında inkişaf dinamikasının tədqiqi*......................................................................**292**
**Quliyeva Nərmin Qadir-***Təhsildə psixoloji xidmətin əsasları*............................................**295**
**Quliyeva Səidə Azər-***Uşaqlarda deviant davranışın korreksiya edilməsində psixoloji xidmətin rolu*......................................................................**296**
**Quluyev Lətif Malik-***Təhsil sisteminin təşviş pozuntusunun formalaşmasına və qarşılıqlı münasibətlər prosesinə təsiri*......................................................................**298**
**Mehdiyeva Fidan Qabil-***Yetkinlik yaşna çatmamış analarin sosial müdafiəsi modelinin nəzəri və metodoloji əsasları*......................................................................**299**
**Məmmədli Əli Natiq-***Ədalətli və inklüziv cəmiyyətin yaradılmasında gender bərabərliyinin rolu*......................................................................**300**
**Məmmədli Lalə Xalid-***Kiçikyaşlı şagirdlərdə təlimə marağın formalaşdırılmasında ailə mühitinin rolu*......................................................................**302**
**Məmmədli Şəbnəm Fuad-***Bədii mədəniyyətin təhsildə və insan yaradıcılığında sosial-psixoloji rolu*......................................................................**305**
**Məmmədova Hökümə Nazim-***Şagirdlərdə yaradıcılıq qabiliyyətinin formalaşdırılmasında modelləşdirmə və konstruksiyaetmə bir amil kimi*............................**307**
**Məmmədova Mina Hidayət-***İntellektual pozulmaları olan uşaqların nitqinin inkişafında oyunların rolu*......................................................................**309**
**Məmmədova Türkan Umudvar-***Münasibətlərin öyrənməyə təsiri*...................................**310**
**Məmmədzadə Səbinə Maarif-***Heydər Əliyevin formalaşdırdığı gənclər siyasətinin gənclərlə sosial iş sahəsində yaratdığı imkanlar*..................................................**312**
**Mirzəyeva Şəbnəm Tərlan-***Azərbaycanda sosial iş sahəsinin inkişafının əsas xüsusiyyətlər*......................................................................**313**
**Nazar Aysu Əlikram-***Sosial sahibkarlıq gənclərin işsizliyə qarşı mübarizəsində təsiredici faktor kimi* ......................................................................**314**
**Nəbiyeva Mədinə Azər-***Müəllim hazırlığında psixoloji aspektlərin əhəmiyyəti*................**315**
**Pu Dan-***Значение зкзамена в обучении и воспитании китайских школьников*............**317**
**Rəcəbova GülyanaqEhtibar-***Öyrənmə fəaliyyətinin psixoloji məzmunu*..........................**321**
**Rzayeva Gürşad Rəşad-***Məktəbəqədər yaşlı uşaqların ailədə ünsiyyət mədəniyyətinin təkmilləşdirilməsinin yolları*..................................................................**324**
**Seyfəddinova Xanım Allahverdi-***Gənc ailələrin əsas problemləri*.................................**325**
**Soltanov Zaur Saleh (AU)-***Serebral iflicli uşaqlarla sosial işin aparılmasının əsas prinsipləri*………………………………………………………………………..........**327**
**Təbibzadə Günay İlqar-***Kiçikyaşlı məktəblilərin musiqi təfəkkürünün inkişafında qavrayışın rolu*......................................................................**328**

## IV BÖLMƏ
## TƏDRİSİN MÜASİR PROBLEMLƏRİ

**Abbasova Samirə Mirsabir (MDU)**-*Şifahi xalq ədəbiyyatı örnəkləri: atalar sözlərinin tədrisi mədəni irsi qorumağın bir nümunəsidir*....................**330**
**Abdullayev Allahverdi Namiq**-*İbtidai siniflərdə müstəqil iş prosesində şagirdlərin idraki fəallığının formalaşdırılması prosesi*....................**331**
**Abdullayeva Elnarə Mədət**-*IX sinfin Kimya kursunda istehsalatla əlaqəli mövzuların fəal interaktiv təlim metodları əsasında tədrisi metodikası*....................**332**
**Abdullayeva Leyla Adil**-*Tam orta təhsil səviyyəsində Biologiya fənni üzrə "insan və onun sağlamlığı" ilə əlaqədar valeoloji biliklərin formalaşmasında məntiqi təfəkkürün inkişafı*....................**333**
**Ağababayeva Aytən Adil**-*Magistrantların pedaqoji fəaliyyətində elmi-pedaqoji təcrübənin rolu*....................**334**
**Ağalarova Sevda Mircəlal**-*Özünüqiymətləndirmə: elmi-metodiki yanaşma və mülahizələr*....................**335**
**Ağamirova Zöhrə Mirəli**-*Məktəbli şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu*....................**337**
**Ağayeva Səbinə Ramin**-*VII sinifdə Ənvər Məmmədxanlının "Qızıl qönçələr" hekayəsinin tədrisi*....................**338**
**Ağayeva Türkan Balabəy**-*Ümumtəhsil məktəblərində VI sinif şagirdlərinin kartoqrafik vasitələrdən istifadə etmək bacarığının formalaşması*....................**340**
**Axundova Gültac Məmməd**-*Təlimdə qiymətləndirmənin nəticələrindən istifadə*..............**341**
**Allahverdiyeva Günay Oqtay**-*Abşeron rəssamlıq məktəbində mövcud olan mifoloji janrlı əsərlərin bədii cəhətləri*....................**343**
**Aslanova Validə Gündüz**-*Məktəbəqədər yaşlı uşaqların təlim maraqlarının formalaşdırılmasında inkişafetdirici təlimin təşkili yolları*....................**345**
**Aslanzadə Elvina Elşən**-*Bədii mətnlərin mənimsədilməsi probleminin ibtidai siniflərin Azərbaycan dili kurikulumunda qoyuluşu*....................**346**
**Azərli Jalə Azər (MDU)**-*İbtidai siniflərin Azərbaycan dili dərslərində məktəblilərin lüğət ehtiyatının zənginləşdirilməsində fəal təlim üsullarından səmərəli istifadənin əhəmiyyəti*....................**347**
**Babayeva Ədilə Mehman**-*İngilis dilinin dünya dili kimi əhəmiyyəti*....................**349**
**Babazadə Aygun Tahir**-*Kimya dərslərində universal tədris bacarıqlarını formalaşdıran tapşırıqlar*....................**350**
**Bağırova Səadət Hidayət**-*Ali məktəblərdə orta əsrlər tarixi fənninin tədrisi prosesində yaradıcı təfəkkürün inkişaf etdirilməsinin imkan və yolları*....................**351**
**Bağırzadə Neycan Ağamirzə**-*Məktəb Kimya kursunun tədrisində ekoloji tərbiyə problemi*....................**353**
**Bağışova Məleykə Fəxrəddin**-*Təlimdə fənlərarası inteqrasiyanın reallaşdırılmasının əhəmiyyəti*....................**354**
**Bayramova Aysun Elvin**-*XI sinif Ədəbiyyat dərslərində Bəxtiyar Vahabzadənin "Şəhidlər" poemasının təhlili yolları*....................**355**
**Bilallı Əbdürəhman Akif** -*Sənaye mənzərələrinin təsvir və mövzu müxtəlifliyi*..................**357**
**Cabbarlı Cəfər Şahin**-*Orta məktəbdə qeyri-üzvi kimyadan hesablama məsələlərinin şagirdlərdə kimya biliklərinin inkişafında rolu*....................**359**
**Cahangirova Aynur Eldəniz**-*İngilis dilində şifahi nitq bacarıqlarının inkişafı üçün istifadə olunan metod və tapşırıqlar*....................**361**
**Cavadlı Anarə Anar (BSU)**-*Ədəbiyyat dərslərində vətənpərvər ruhlu əsərlərin şagirdlərə öyrədilməsi yolları*....................**362**
***Cavadova Əminə Azər***-*Ümumtəhsil məktəblərində Biologiyanın tədrisinin*

*müasir problemləri*..........................................................................................................**363**
**Cəlilova Aynur Muxram**-*Kimyəvi reaksiyaların istilik effekti zehin xəritəsində*..................**364**
**Eyyublu Ruziyyə Məcid**-*Riyaziyyat təlimində şagirdlərdə intuisiyanın inkişaf etdirilməsi texnologiyası*..........................................................................................................**366**
**Əbilhəsənli Gülyaz İlkin**-*Sabirin satirik poeziya nümunələrində bədii ifadə vasitələrinin tədrisi yolları*..........................................................................................................**367**
**Əhmədova Fidan Rafiq (BSU)**-*İngilis dilində bədii əsərlərin linqvistik təhlilinin təşkili və texnikası*..........................................................................................................**369**
**Əhmədova Ülviyyə Fərman (BSU)**-*Xarici dilin tədrisində mədəniyyətlərarası yanaşma*..........................................................................................................**370**
**Ələskərli Dilarə İlqar**-*Orfoepiya və orfoqrafiya təliminin linqvistik-metodoloji əsasları*..........................................................................................................**378**
**Əliyev Amid Məhəmməd**-*Bullinq – müasir dünya təhsilinin aktual problemlərindən biri kimi*..........................................................................................................**379**
**Əliyev Amid Məhəmməd**-*Bullinqin mahiyyəti və əsas növləri*..........................................**381**
**Əliyeva Aytən Zoir**-*Məktəbəqədər yaşlı uşaqlarda öyrənmə marağının formalaşdırılmasında əməkdaşlığın rolu*..........................................................**383**
**Əliyeva Xatirə Bəhruz**-*Funksiyanın elementar və törəmənin köməyi ilə müqayisəli araşdırılması*..........................................................................................................**385**
**Əliyeva Leyla Etibar (BSU)**-*İngilis dili dərslərində kommunikativ dil tədrisinin formalaşdırılması*..........................................................................................................**387**
**Əliyeva Nərmin İlham**-*Kimya fənninə marağın formalaşması probleminin kimya tədrisində təlimin həyatla əlaqə prinsipinin reallaşması*..................................................**392**
**Əliyeva Zeynəb Eldar**-*Coğrafiya dərslərində problemli şəraitin qoyulması mərhələsinin düzgün həyata keçirilməsi* ..........................................................................**393**
**Əlizadə Qumru Elşad (MDU)**-*Azərbaycan dilinin tədrisi metodikasında professor A.Abdullayevin xidmətləri*..........................................................................**394**
**Əlizadə Nuray Əzim**-*Motivasiyanın yaradılmasında müəllim-şagird münasibətlərinin rolu*..........................................................................................................**395**
**Əsgərova Səbinə Vüqar**-*Ali məktəblərdə türk xalqları və dövlətləri tarixi kursunun tədrisində multimedia texnologiyalarından istifadə imkanları*.............................**399**
**Əsgərzadə Ləman Xaliq**-*Şagirdlərin yaradıcılıq qabiliyyətinin inkişafında layihə metodunun rolu*..........................................................................................................**400**
**Fərzi Gülşad Umud**-*Məktəb Riyaziyyat kursunda tərs funksiya anlayışı*...........................**401**
**Fətaliyeva Könül Qahir**-*Metalların elektrokimyəvi gərginlik sırası mövzusunun tədrisinə müasir yanaşmalar*..........................................................................................................**403**
**Gəncəliyeva Gülnar Altay**-*Qrammatik bacarıqların formalaşdırılmasında yeni təlim texnologiyalarından istifadə imkanları*..................................................................**405**
**Hacıyeva Fidan Üzeyir**-*Kompleks ədədlər üzərində əməllərin xassələrinin öyrədilməsi texnologiyası*..........................................................................................................**407**
**Hacızadə Leyla Sübhan**-*VII sinifdə bəzi isbat məsələlərinin öyrədilməsi texnologiyası*..........................................................................................................**408**
**Haqverdiyev Samir Mikayıl**-*Təbiət məzmun xətti üzrə məlumatların əldə olunması üsulları*..........................................................................................................**410**
**Heydərova Rəhimə Seymur**-*Maral Rəhmanzadənin yaradıcılığında "tarixi janr"*............**412**
**Həsənli Afaq Ramiz (BSU)**-*Çoxmənalı frazeoloji vahidlərin üslubi xüsusiyyətləri*..........**413**
**Həsənova Rəmziyə Əmirağa**-*Diyarşünaslıq materiallarının əldə edilmə üsulları*..............**417**
**Həsənova Sevinc Elşad**-*Azərbaycan dili dərslərində innovativ texnologiyalardan istifadə*..........................................................................................................**418**
**Həsənova Səbinə Natiq**-*Coğrafiyanın tədrisində qeyri-standart dərslərdən istifadənin əhəmiyyəti*..........................................................................................................**420**
**Həsənzadə Aynur Arzu**-*Təbiət məzmun xətti üzrə praktik və müstəqil işlərin*

*aparılmasının metodikası*.....................................................................................................**421**
**Hüseynova Arzu Mejdun-***Fizikanın tədrisində məsələ həllinin əhəmiyyəti və yeri*..............**423**
**Hüseynova Aygün Rafik-***Kimyanın tədrisində ekoloji təhsil və tərbiyə problemləri*..........**424**
**Hüseynova Aynur Şirin-***Hospital məktəblərdə tyutorların peşə fəaliyyətinin xüsusiyyətləri*...................................................................................................**426**
**Hüseynova Günel Zakir-***Coğrafiyanın tədrisində diaqnostik qiymətləndirmə aparılmasının əhəmiyyəti*.....................................................................................................**427**
**Hüseynzadə Həqiqət Elçin (BSU)-***Latın dilinin istifadə olunması və əhəmiyyəti*................**428**
**Xəlilova Sevil Əlövsət-***Yeni nəsil ədəbiyyat dərsliklərində təlim texnologiyalarının mahiyyəti (V sinif "Ədəbiyyat" dərsliyi nümunəsində)*.....................................................**431**
**Xurşudov Şamil Mirmusa-***Riyazi rəqqasın rəqs qanunlarının öyrənilməsi*.......................**433**
**İbadullayev Elçin Hidayət-***Sinifdənxaric işlər və onların təlim prosesindəki rolu*............**435**
**İbrahimova Röya Mikayıl-***Ümumtəhsil məktəblərinin 8-ci sinfində coğrafiya fənninin tədrisi zamanı statistik göstəricilərin təhlili yolları*..........................................................**436**
**İbrahimova Sara Mahir-***Ümumtəhsil orta məktəblərində inklüziv təlim prosesinin idarə olunması*..........................................................................................................................**438**
**İmanov Sənan Vazeh-***Mürəkkəb cümlənin tədrisinin aktual problemləri*............................**439**
**İmanova Arzu Surxay-***Sxemlər və cədvəllərin köməyi ilə məntiqi məsələlər həllinin təlimi metodikası*..........................................................................................................**440**
**İmanova Aytac Nazim-***V-IX siniflərdə Riyaziyyat təlimində həndəsə məzmun xəttinin aksiomatikası haqqında*...............................................................................................**443**
**İmanova Mehrin Faiq (QU)-***Didaktik oyunlar*...................................................................**444**
**İsmayılxanova Ramilə Babək-***Ekoloji problemlər və onları yaradan səbəblər*.................**445**
**İsmayılov Abbasəli Rahim-***Coğrafiyanın tədrisində diyarşünaslıq materiallarından istifadənin əhəmiyyəti*....................................................................................**446**
**İsmayılova Aygün Habil-***Məktəb riyaziyyat kursunda "Çoxüzlülər"in öyrədilməsi haqqında*................................................................................................................**447**
**İsmayılova Eminə İlqar-***İrəvan maarifçilik mühiti və İrəvan Müəllimlər Seminariyası*....................................................................................................**448**
**Kadırova Sona Vaqif-***Şagirdlərdə bacarıq və vərdişlərin inkişaf etdirilməsində məktəb kimya eksperimentinin rolu*.............................................................................................**450**
**Kərimova Mehriban Rizvan-***Məktəbəqədər yaşlı uşaqların ünsiyyət bacarıqlarının inkişafı*...............................................................................................................**452**
**Kiçibəyova Zamira Qabil-***VIII sinif "1.1.1." məzmun standartının spesifik standartlarla yeniləşdirilməsi*...............................................................................................**453**
**Qarayeva Fatimə Əhməd-***Azərbaycan dilinin sintaksisinin inteqrativ imkanları: problem, elmi-metodik ədəbiyyat, dərslik və məktəb təcrübəsində qoyuluşu*.............................................................................................................**454**
**Qəzənfərli Səlimə Şahlar-***Dərsdənkənar məşğələlərdə maraqlı və əyləncəli çalışmalar şagirdlərin riyaziyyata marağını artıran vasitə kimi*..........................................**457**
**Quliyeva Sevinc Elman-***Avrasiyanın timsalında materiklərin öyrənilməsinin tipik planı*..............................................................................................................................**459**
**Quliyeva Şəhanə Vidadi-***Ədəbiyyat dərsliklərində bədii əsərlərin öyrədilməsi məsələsinin qoyuluşu*...................................................................................................**460**
**Quliyeva Zəminə Mahir-***Kiçikyaşlı şagirdlərdə təlim motivlərinin yaranmasında məktəbin və müəllimin rolu*.................................................................................................**462**
**Qurbanlı Humay Natiq-***Çaylar mövzusunun tədrisində müzakirə üsulunun tətbiqi metodikası*.......................................................................................................**463**
**Qurbanov Samir Zeydulla-**Məktəb Riyaziyyat kursunda "statistika və ehtimal" məzmun xəttinin öyrədilməsinin nəzəri əsasları......................................................**464**
**Qurbanova Jalə Eldar (MDU)-**İrihəcmli əsərlərin ədəbiyyat fənnində yeri və tədrisi vəziyyəti..........................................................................................................**466**

**Qurbanova Vüsalə Asəf**-*Fənlərüstü inteqrasiya*...............................................................*468*
**Ли Яфэй** -*Некоторые вопросы начального школьного образования в Китае*..............*469*
**Mayılova Aydan Elçin**-*Xalq rəssamı Kamil Əliyevin yaratdığı xalça əsərlərində ornamentin tətbiqi*..........................................................................................................*472*
**Mayılova Aysel Akif**-*Üçbucağın sahəsinin hesablanmasında Heron düsturu və onun açılışı*..............................................................................................................*474*
**Mehdiyeva Aynur Eldar**-*Ümumi tarixin tədrisində illüstrasiyalardan istifadə tədris materialının səmərəli mənimsənilməsinin vasitələrindən biri kimi*............................*476*
**Mehdizadə Nuray Natiq**-*Məktəbəqədər təhsildə inkişafetdirici təlim problemi*.................*477*
**Məhəmmədova Nigar Ruslan**-*İbtidai siniflərdə tədris prosesinin idarə olunmasında buraxılan səhvlər*.....................................................................................*478*
**Məhərrəmli Nərmin Qabil**-*Elementar funksiyaların təyini və öyrənilməsi metodikası*......*480*
**Məhərrəmli Simarə Əmir**-*Məktəb Riyaziyyat kursunda ikiüzlü bucaq anlayışının daxil edilməsi metodikası*...........................................................................................*481*
**Məmmədova Bahar Namiq**-*Fənlərarası inteqrasiya nöqteyi-nəzərdən proyeksiyalama anlayışının rəsmxətlə əlaqəli öyrənilməsi*...................................................*483*
**Məmmədova Səbinə Ələkbər**-*İbtidai siniflərdə Riyaziyyat fənninin tədrisində istifadə olunan yeni təlim texnologiyalarının əhəmiyyəti*...............................................................*484*
**Məmmədova Vəfa Şamil (BSU)**-*İngilis dilinin tədrisində yazı bacarıqlarının formalaşdırılması*...........................................................................................*485*
**Məmmədova Yeganə Elçin**-*Xarici dil tədrisində eklektik metodun rolu*.............................*489*
**Məmmədova Zeynəb İlqar**-*Ümumtəhsil məktəblərində Biologiyanın tədrisində keys texnologiyalarının tətbiqinin imkanları və yolları*.......................................................*490*
**Mirzəyeva Xanım Ərəstun**-*Ədəbiyyat dərslərində "Vətən yaraları" hekayəsinin öyrədilməsi yolları*........................................................................................................*492*
**Mirzəyeva Nərmin Rövşən**-*Xarici dil dərslərində dərs planlaşdırma və dərsi planlamanın məqsədləri*...........................................................................................*494*
**Mirzəyeva Sevinc Tofiq**-*Humanitar fənlərin tədris təcrübəsində pedaqoji hermenevtikanın tətbiqi yolları*...................................................................................*495*
**Mirzəyeva Sevinc Tofiq**-*Pedaqogikada hermenevtik yanaşmanın konseptual əsasları*.......................................................................................................*498*
**Mürşüdova Günay Mürşüd**-*Dərs prosesində informasiya mübadiləsinin yaradılması və şagird fəaliyyətinin təşkil olunması*..............................................................*500*
**Namazov Kənan Vüqar**-*Şagirdlərdə vətənpərvərlik tərbiyəsinin formalaşmasında fiziki tərbiyə prosesinin rolu*..........................................................................................*501*
**Nəbiyeva Elnarə Vüqar**-*Fizikanın tədrisində fəal interaktiv təlim metodlarından istifadənin bəzi məsələləri*..................................................................................*503*
**Nəsibova Ləman Aqil**-*X sinifdə fizikanın səmərəli tədrisində İKT əsaslı tədqiqat texnologiyasının mahiyyəti, məqsədi və vəzifələri*..................................................*504*
**Nəsirov İsmayıl Kamil**-*Ali məktəblərdə Qədim dünya tarixi kursunun tədrisində tədqiqat metodlarından istifadənin didaktik və psixoloji əsaslarından istifadə təlimin keyfiyyətinin yüksəldilməsinin vasitəsi kimi*.................................................................*506*
**Nəsirova Sevinc Ramil**-*Tam orta təhsil məktəblərində tədqiqatın aparılma metodlarından istifadənin vacibliyi* ......................................................................*507*
**Nuriyeva Solmaz İrşad**-*X sinifdə icmal mövzularının öyrədilməsində şagirdlərin müstəqil işinin təşkili*.................................................................................................*508*
**Paşazadə Aysel Müzəffər**-*Linqvistikada ABŞ və Kanada variantları*.................................*510*
**Pəniyeva Sevinc Anar**-*Biologiyanın tədrisində şagirdlərə inklüziv yanaşma*......................*511*
**Ramazanova Seyla Məzahir**-*Təhsil sistemində monitorinq: əsas anlayışlar, problemlər, imkanlar*..................................................................................................*513*
**Rəhimli Nəcibə Qəhrəman**-*Təbiət məzmun xətti üzrə biliklərin formalaşdırılması metodikası*...........................................................................................*515*

**Rəhimova Nərgiz Rəhim**-*Xarici dil müəlliminin hazırlanmasında mövcud vəziyyət və beynəlxalq təcrübənin tətbiqində problemlər*....................................................**517**
**Rüstəmli Nuray Qiyas**-*Cəlaləddin Ruminin pedaqoji fikirləri*...........................................**519**
**Rüstəmova Ülkər Elçin**-*Azərbaycan dərsliklərinin inkişafında "Bəsirətül-ətfal"ın rolu*...........................................................................................................**523**
**Rüstəmova Ülkər Elçin**-*XIX əsr Ana dili dərslikləri*...........................................................**527**
**Rzaquliyeva Həmayil Valeh**-*İbtidai siniflərdə Riyaziyyat fənninin tədrisində qiymətləndirmənin əhəmiyyəti*....................................................................................**528**
**Sadıqova Bahar Nüsrət (BSU)**-*Rəvayətlər, hekayələr və yazılı ədəbiyyat əsasında yaranan somatik frazeologizmlər*.........................................................**530**
**Sadıqova Vüsalə Qədir**-*Coğrafiyanın tədrisində şagirdlərdə ekoloji bilik və bacarıqların formalaşdırılması yolları*..........................................................................**534**
**Səfərov Seymur Camaləddin**-*Ali məktəblərdə Azərbaycan tarixinin tədrisində müzakirə metodlarından istifadənin didaktik və psixoloji əsaslarının nəzərə alınması təlimin keyfiyyətinin yüksəldilməsinin vasitəsi kimi*..........................................................**536**
**Səmədova Könül Ramiz**-*Məktəblilərdə sağlam həyat tərzinin formalaşdırılmasının pedaqoji, psixoloji və fizioloji əsasları*.......................................................................**537**
**Səmədova Könül Ramiz**-*Məktəblilərdə sağlam həyat tərzinin formalaşdırılması*..............**538**
**Siracova Aysu Kamran**-*Azərbaycan dili dərslərində inteqrasiyanın yaradılması imkanları*..........................................................................................................**540**
**Сунь Юйцзе**-*Системный подход к деятельности по укреплению и сохранению здоровья детей*...........................................................................................**542**
**Süleymanova İnci Azər**-*Tarix dərslərində formalaşdırılan informasiya kompetensiyaları şagirdlərin akmeoloji bacarıqlarının mühüm şərtidir*..............................**545**
**Şəfiyeva Aysel Rizvan**-*Müəllim-şagird münasibətlərində emosional zəka və onun inkişafi*...................................................................................................................**547**
**Şükürova Aynur Əli** *Ədəbi əsərlərin təhlili: məktəb təcrübəsi*............................................**548**
**Tapdıqov Kənan Tofik**-*Orta məktəb Azərbaycan dili dərsliklərinin didaktik funksiyaları*...........................................................................................................**550**
**Umudlu Xədicə Bahəddin**-*İnklüziv siniflərdə təhsilin optimallaşdırılması*.........................**551**
**Vəlixanova Aidə Cahid**-*Uşağın uyğunlaşması üçün ibtidai sinifdə sosial-pedaqoji fəaliyyətin təşkili*.............................................................................................................**553**
**Чжан Тао**-*Меры, направленные на решение проблем физического воспитания в школах Китая*......................................................................................................**554**

*Çapa imzalanmışdır: 25.04.2024*
*Kağız formatı 60x84, 1/16 çap vərəqi 71*
*Sifariş 182, sayı 150*

*ADPU Nəşriyyatı*
*Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68*
*Telefon:(+99412)493-74-10*
*E-mail: poliqrafiya@mail.ru*